**Rauf Məlikov**

**Nizami İbrahimov**

# MƏKTƏBLİNİN TARİX LÜĞƏTİ

**Elmi redaktor: Elmar Məhərrəmov**

**EXonMobil**

Ekson Azərbaycan Əməliyyat Şirkəti MMM,
EksonMobilin törəmə şirkəti

"Ayna Mətbu Evi"

Bakı - 2004



downloaded from KitabYurdu.org

# Müəlliflər haqqında məlumat

## Məlikov Rauf Seyfulla oğlu

Tarix elmləri namizədi, Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın qədim tarixi" şöbəsinin elmi işçisi. Bakı Slavyan Universiteti Humanitar liseyinin müəllimi. "Azərbaycan tarix müəllimləri" ictimai birliyinin üzvü. 22 elmi və 11 elmi-metodik işin müəllifidir. Əsas əsərləri: "Əhəmənilərin ağalığı dövründə Azərbaycanın etnik mənzərəsi (e.ə. VI - IVəsrlər)" adlı elmi monoqrafiya, "Məktəbdə ictimai elmlərin tədrisinin innovativ metodikası (tarix, vətəndaşşünaslıq və konfliktologiya nümunəsində)" (Bakı, 2001), "Tarixin interaktiv təlimi. Müəllimlər üçün vəsait" (Bakı, 2002) və "Orta əsrlər tarixi (7-ci sinif). Müəllim üçün vəsait" (Bakı, 2003).

## İbrahimov Nizami Ənvər oğlu

Tarix müəllimi, "Azərbaycan tarix müəllimləri" ictimai birliyinin üzvü. Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Yejednevnıye novosti" qəzetinin müxbiri.



downloaded from KitabYurdu.org

## Ön söz

Müasir tədrisin labüd şərtlərindən biri də lazımi informasiyanı, hər hansı bir məlumatı qısa müddətdə əldə etməkdən ibarətdir. "Məktəblinin tarix lüğəti" ilk növbədə məktəblilər üçün nəzərdə tutulub, lakin tarix, fəlsəfə, siyasət, ədəbiyyat, mədəniyyət tarixi, bütövlükdə tarixi məfhum və terminlərin rast gəlindiyi humanitar elmlərlə maraqlanan hər bir kəs üçün faydalı ola bilər.

Tarix lüğətinin əhəmiyyəti ondan ibarətdir ki, xarici ölkələrdən fərqli olaraq, bu, Azərbaycan Respublikasında nəşr olunan belə lüğətlərdən birincisidir. Ona görə də bu nəşrdə Azərbaycan tarixinə dair xarici nəşrlərdə olmayan çoxlu məlumatlar vardır. "Məktəblinin tarix lüğəti"nin hazırlanması zamanı Azərbaycanda və xarici ölkələrdə nəşr olunmuş ilkin mənbələrdə, məktəb dərsliklərində, tarixi ədəbiyyatda, müxtəlif mövzulu ensiklopediyalarda və sorğu kitablarında, eləcə də Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun nəşr etdirdiyi 7 cildlik "Azərbaycan tarixi"ndə verilmiş külli miqdarda informasiya araşdırılıb öyrənilmiş və yenidən işlənilmişdir.

"Məktəblinin tarix lüğəti"ndə 2000-ə yaxın məqalə (termin) vardır. Bu terminlərdə tarix elminin bütün sahələrinə - mühüm tarixi hadisələrə, tarixi terminlərə, dinlərə, mifologiyaya, incəsənətə və elmə aid, ölkələr, şəhərlər, Azərbaycanın, eləcə də dünya tarixinin görkəmli tarixi şəxsiyyətləri və sülalələri haqqında məlumat verilir. Bu lüğət, şübhəsiz ki, dərsliyin, tarixi və bədii ədəbiyyatın oxunuşunda, televiziya proqramlarına və video-filmlərə baxış zamanı, eləcə də İnternet materiallarından istifadə olunarkən meydana çıxan bir çox sualların cavablandırılmasında yardımçınız olacaq.

Lüğətdəki məqalələrin adları əlifba sırası ilə, əsasən də tək şəklində verilir. Məqalənin əsas adından sonra zəruri hallarda lazım gəldikdə digər adlar, əvvəlki adın sinonimlən, eləcə də yaşanılmış tarix və ya hakimiyyət illəri, əsl ad və soyadları, təxəllüslər, abbreviaturanın açılışı verilir. Başqa dillərdən mənimsənilmiş terminlərə qısa etimoloji arayış verilir. Biblioqrafik məqalələrdə doğum və ya ölüm tarixi məlum olmayan hallarda sual (?) işarəsi qoyulur. Lüğətdə söz əlyazma şəklində (kursivlə) yazıldığı halda iqtibas sistemindən istifadə olunur; məsələn: söz əlifba şəklində yazılıbsa, bu o deməkdir ki, lüğətin müvafiq məqaləsində həmin sözün ətraflı məzmunu (izahatı) verilir. Tarixlər, bir qayda olaraq, yeni stillə göstərilir. Lüğətdə ixtisar olunmuş sözlərdən istifadə edilir. Lüğətdən istifadə olunmasını asanlaşdırmaq məqsədi ilə 4-cü səhifədə Azərbaycan əlifbası və əsas ixtisarların siyahısı verilir.

Nəşriyyat və müəlliflər oxucuların bütün qeyd, təklif və rəylərinə görə əvvəlcədən onlara təşəkkür edir və bildirir ki, onlar təkrar nəşrlər zamanı nəzərə alınacaq.



downloaded from KitabYurdu.org

# AZƏRBAYCAN ƏLİFBASI

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Aa<br>a | Bb<br>be | Cc<br>ce | Çç<br>çe | Dd<br>de | Ee<br>e | Əə<br>ə | Ff<br>fe |
| Gg<br>ge | Ğğ<br>ğe | Hh<br>he | Xx<br>xe | Iı<br>ı | İi<br>i | Jj<br>j | Kk<br>ke, ka |
| Qq<br>qe | Ll<br>el | Mm<br>em | Nn<br>en | Oo<br>o | Öö<br>ö | Pp<br>pe | Rr<br>er |
| Ss<br>es | Şş<br>şe | Tt<br>te | Uu<br>u | Üü<br>ü | Vv<br>ve | Yy<br>ye | Zz<br>ze |

| | | |
|---|---|---|
| akkad. - akkadca<br>alm. - almanca<br>babil. - babilcə<br>çin. - çincə<br>e.a - eramızdan əvvəl<br>erm. - ermənicə<br>ər. - ərəbcə<br>far. - farsca<br>fr. - fransızca | holl. - hollandca<br>ing. - ingiliscə<br>isp. - ispanca<br>ital. - italyanca<br>qəd. - qədim<br>lat. - latınca<br>monq. - monqolca<br>port. - portuqalca<br>rus. - rusca | sanskr. - sanskritcə<br>slav. - slavyanca<br>şumer. - şumercə<br>türk. - türkcə<br>və b. - və başqaları<br>və d. - və digər<br>və s. - və sairə<br>yəh. - yəhudicə<br>yun. - yunanca |



downloaded from KitabYurdu.org

## - A –

**Abbas,** əl-Əbbas bin Əbd ül-Müttəlib bin Haşim (VII əsrin birinci yarısı) - Məhəmməd peyğəmbərin əmisi. Abbasi xəlifələri sülaləsi bilavasitə Abbasın nəslindəndir.

**Abbas I** - Səfəvilər sülaləsindən şah (1587 - 1629). Hakimiyyətə gələn Şah Abbas 1590-cı ildə Osmanlı türkləri ilə İstanbul sülhünü bağladı. Bu



müqaviləyə görə, Azərbaycan ərazisinin böyük hissəsi (Qaradağ, Ərdəbil və Talış əyalətləri istisna olmaqla) türklərin hakimiyyəti altına keçdi. Şah Abbas isə dinc dövrdən dövlətin qüdrətini artırmaq üçün istifadə etdi. Bu məqsədlə o, Azərbaycanın köçəri əyanlarının dövlət işlərinə müdaxiləsini məhdudlaşdırmağa başladı, hakimiyyəti əvəzində isə İranın şiə ruhaniləri və məmurlarının mövqeyini möhkəmləndirdi. Nizami qoşunlar yaradıldı. Səfəvilər dövlətinin paytaxtı Qəzvindən İsfahana köçürüldü. Osmanlı imperiyası ilə müharibələr yenidən başlayanda isə Şah Abbas əmr etdi ki, Azərbaycanın Türkiyə ilə həmsərhəd bölgələrində yaşayan 350 minədək əhali zorla İsfahana köçürülsün. Azərbaycan hərbi əməliyyatların əsas meydanına çevrildi. Türklərlə müharibələr nəticəsində Şah Abbas 1607-ci ilədək onları Azərbaycandan qova bildi. Türklər üzərində qələbə çalan Şah Abbas müharibənin dağıtdığı təsərrüfatın bərpa edilməsi məqsədi ilə vergiləri bir qədər azaltdı. I Şah Abbasın dövründə Səfəvilər dövləti tədricən İran dövlətinə çevrilməyə başladı, Azərbaycan isə yavaş-yavaş onun əyalətlərindən biri oldu. I Şah Abbasın hakimiyyəti illərində Səfəvilər dövləti özünün ən qüdrətli dövrünə çatmışdı.



**abbası** – I Şah Abbasın dövründə zərb edilmiş, çəkisi iki misqal olan qızıl sikkə. Abbasının dəyəri 200 dinara bərabər tutulurdu.

**Abbasilər** (ər. əl-Əbbasiyun) - Məhəmməd peyğəmbərin əmisi Abbasın (VII əsrin ikinci yarısı) nəslindən olan ikinci xəlifə sülaləsi (750 - 1258). Çiçəklənmə dövrləri əl-Mənsur (754 - 775), əl-Mehdi (775 - 785), Harun ər-Rəşid (786 - 809) və əl-Məmunun (813 - 833) hakimiyyəti illərinə təsadüf edir. İstila olunmuş xalqların amansız istismarının artması çoxsaylı üsyanların baş verməsinə səbəb olmuşdur (Babəkin, Muğannanın başçılığı ilə və s.). VIII əsrin sonlarından etibarən bəzi vilayətlər Ərəb xilafətindən ayrılmağa başlamışdır. 945-ci ildə xilafətin paytaxtı Bağdadı ələ keçirən Büveyhilər xəlifələri dünyəvi hakimiyyətdən məhrum etmişlər. Abbasilər sülaləsindən olan sonuncu xəlifə Hülakülər tərəfindən qətlə yetirilmişdir.

**abbat** - katolik kilsəsində abbatlığın baş keşişi.

**abbatlıq** - abbat tərəfindən idarə olunan katolik monastın.



downloaded from KitabYurdu.org

**Abissiniya (Həbəşistan)** - Efiopiyanın keçmişdə işlənilən adı, "əl-həbəşə" sözündən əmələ gəlib; ən qədim zamanlarda ərəblər bu ölkəni belə adlandıırmışlar. Azərbaycanda bu ad "Həbəşistan" kimi işlədilmişdir.

**aborigenlər** - hər hansı bir bölgənin, ölkənin və ya qitənin sonralar oraya gəlmiş köçkünlərdən fərqlənən yerli əhalisi.

**ABŞ** - Amerika Birləşmiş Statları - Şimali Amerikada yerləşən ölkə, paytaxtı - Vaşinqton. Şimali Amerikada istiqlaliyyət uğrunda müharibənin gedişində - 4 iyul 1776-cı ildə ABŞ-ın müstəqilliyi elan olunmuşdur. ABŞ-ın 1787-ci ildə qəbul etdiyi konstitusiya o dövr üçün en qabaqcıl konstitusiya idi. Konstitusiyaya əsasən, ABŞ-da hakimiyyətin üç müstəqil ayrıca qolu yaradılmışdı: icra hakimiyyəti - prezident, qanunvericilik hakimiyyəti - konqres və məhkəmə - Ali Məhkəmə. ABŞ 1803-cü ildə Qərbi Luizananı Fransadan satın aldı, 1819-cu ildə İspaniyanı Floridanı ona verməyə məcbur ctdi, 1847-ci ildə Meksika ilə müharibəyə başlayıb onun ərazisinin $^{2}/_{5}$ hissəsinə bərabər olan Texas, Kaliforniya, Nyu-Meksika bölgələrini tutdu, 1867-ci ildə isə Rusiyadan Alyaska və Alcut adalarını satın aldı. Hazırda ABŞ-ın ərazisi 9,4 milyon km$^2$, əhalisi isə 250 milyon nəfərə yaxındır. Rəsmi dili ingilis dilidir. Dini mənsubiyyətə görə əhalinin böyük əksəriyyəti protestant və katolikdir. ABŞ 50 ştatdan və Kolumbiya federal (paytaxt) dairəsindən ibarət federativ respublikadır. Dövlətin və hökumətin başçısı 4 ilə seçilən prezidentdir. ABŞ-ın ilk prezidenti Corc Vaşinqton olmuşdur.

**ABŞ-da vətəndaş müharibəsi** - 1861 -65-ci illərdə ABŞ-da burjuaziya Şimalı ilə quldar Cənubu arasında baş vermiş müharibə. Respublikaçılar



partiyasının nümayəndəsi Avraam Linkoln ABŞ-ın prezidenti seçildikdon sonra Cənub ştatları 1861-ci ildə quldarlığı saxlamaq məqsədi ilə qiyam qaldırdılar. Vətəndaş müharibəsinin birinci mərhələsində (1861 - 62) Şimal tərəfindən müharibə qətiyyətsiz aparıldığından bu, şimallıların bir sıra hərbi məğlubiyyətlərə uğraması ilə nəticələndi. İkinci mərhələ (1863 - 65) homstedlər haqqında, eləcə də quldarlığın ləğvi barəsində qanunların qəbul edilməsindən sonra başlandı. Müharibədə geniş xalq kütlələrinin iştirakı isə onun inqilabi metodlarla aparılmasına gətirdi. Bu da vətəndaş müharibəsinə burjua inqilabı xarakteri verdi. 1864 - 65-ci illərdə cənubluların əsas qüvvələri darmadağın edildi, 1865-ci ilin aprelində isə ayrılmış Cənub ştatları Konfederasiyasının paytaxtı Riçmond tutuldu. Şimalın qələbəsi ABŞ-da burjuaziyanın hakimiyyətini möhkəmlətdi, plantatorların hakimiyyətini və quldarlığı ləğv etdi, ölkənin sürətlə sənayeləşməsi və qərb torpaqlarının mənimsənilməsi üçün şərait yaratdı. ABŞ-da vətəndaş müharibəsi ikinci burjua inqilabına çevrildi.

**ABŞ-ın İstiqlaliyyət bəyannaməsi** - Şimali Amerikada istiqlaliyyət uğrunda müharibə zamanı - 1776-cı il iyulun 4-də II Kontinental konqresdə qəbul olunmuşdur. İstiqlaliyyət bəyannaməsi koloniyaların İngiltərədən ayrılmasını və



downloaded from KitabYurdu.org

müstəqil ABŞ dövlətənin yaradılmasını bəyan edirdi. Bəyannamədə xalq suverenliyi prinsipi dövlət quruculuğunun əsası kimi, eləcə də xalqın istismarçılara



qarşı üsyan etmək hüququ elan olunurdu. Bəyannaməsinin müəlliflərindən biri T.Cefferson konqresin lahiyəsinə hətta quldarlığın ləğv edilməsi haqqında maddə də daxil etmişdi. Lakin həmin maddə əsasən plantatorlardan ibarət olan redaksiya komissiyası tərəfindən layihədən çıxarılmışdır.

**"açıq qapılar" doktrinası** - 1899-cu ildə ABŞ böyük dövlətlərdən tələb etdi ki, Çindəki nüfuz dairələrində Amerika mallarının gətirilməsi və satışına şərait yaratsınlar. Özünün iqtisadi üstünlüyünə arxalanan ABŞ bu yolla rəqiblərini Çindən sıxışdırıb çıxarmaq istəyirdi.

**Adıgözəl bəy Mirzə (XVIII əsrin 80-ci illəri - 1848)** - Azərbaycan tarixçisi. XVIII əsrin sonunda Qazaxdan Qarabağa köçmüş bəy ailəsində doğulmuşdur. Dövrünün savadlı adamlarından biri olub, bir neçə dil bilirdi. Gənc yaşlarında rus ordusunda qulluq edib və kapitan rütbəsini alıb. İstefaya çıxdıqdan sonra Qarabağda mahal naibi olub. Əsas əsəri olan "Qarabağnamə"ni (1845) Adıgözəl bəy 65 yaşında ikən yazmışdır. "Qarabağnamə" Qarabağın siyasi tarixinin 1736-cı ildən 1828-ci ilə qədər olan dövrünü əhatə edir. Bu əsərin yazılmasında müəllif rəvayətlərlə yanaşı, sənədli materiallardan da istifadə etmişdir. Adıgözəl bəyin "Qarabağnamə"si Qarabağ xanlığının tarixi üzrə qiymətli mənbədir. Adıgözəl bəy 1826-cı ilin hərbi əməliyyatları vaxtı dağıdılmış Nizami məqbərəsinin bərpası işlərini 1847-ci ildə təşkil etmişdir.

**Adət (mərasim)** - ayin və ya dini ibadətlə müşayiət olunan fəaliyyət.

**Afina Pallada** - qədim yunan mifologiyasında hərb və zəfər ilahəsi, eləcə də müdriklik, bilik, incəsənət və sənətkarlıq ilahəsi idi. Afina şəhərinin himayədarı hesab edilirdi. Afina Pallada məbədi - Parfenon - qədim yunan incəsənətinin möhtəşəm abidəsidir.

**Afina** - müasir Yunanıstanın paytaxtı. Afina şəhər ilahəsi - qoruyucusunun şərəfinə belə adlandırılmış ən qədim şəhərlərdən biridir. Afina e.ə. II minilliyin sonlarında Orta Yunanıstanın cənub-şərqində yerləşən Attika vilayətində salınmışdır. Attika vilayətinin təbii şəraiti arpa, üzüm və zeytun ağacları becərmək üçün əlverişli idi. Buna görə də burada üzümçülük, şərabçılıq inkişaf etmişdi; burada istehsal olunan yüksək keyfiyyətli zeytun yağı geniş ərazilərdə məlum idi. Külli miqdarda keyfiyyətli gilin olması Attikada dulusçuluq sənətinin inkişafına səbəb olmuşdu. Afina sənətkarları şəhərin Keramik adlanan rayonunda məskunlaşdılar ("keramika " sözü buradan yaranıb). Afina sənətkarlarının düzəltdikləri amforalar xüsusilə məşhur idi. Pirey adlı əlverişli liman da Afina yaxınlığında yerləşirdi. Buraya taxıl, taxta-şalban və qul gətirirdilər. Qulların gümüş çıxardıqları Lavrion mədənləri də Attikada yerləşirdi. E.e. VI əsrdə Afinada özlərinin gümüş pullarını kəsməyə başladılar.



downloaded from KitabYurdu.org

Attika tayfalarının Afina ətrafında birləşdirilməsi çar Teseyin adı ilə bağlanılır. Bundan sonra e.ə. I minilliyin əvvəllərindən Afina Qədim Yunanıstanın



tarixi və mədəniyyətində mühüm rol oynayan şəhər-dövlətə çevrildi. E.ə. VIII - VI əsrlərdə Afinada əyanların - aristokratiyanın hakimiyyəti bərqərar oldu. E.ə. 621-ci ildə ilk dəfə olaraq hökmdar Drakont tərəfindən qanunverici adətlər yazıya alındı və bu, aristokrat hakimlərin özbaşınalığını bir qədər məhdudlaşdırdı. E.ə. 594-cü ildə demosun güclü təzyiqi altında Solon Afinanın bütün ictimai-siyasi həyatını deyişən islahatlar keçirdi. Attikanın bütün yerli əhalisi Afina vətəndaşı oldu. Amma demosun nisbətən imkanlı təbəqələri hakimiyyəti böyük mülkü olan aristokratlarla bölüşdürməli idilər. Buna görə də onların arasında mübarizə hələ də davam edirdi. E.ə. 560-cı ildə Afinada siyasi çevriliş oldu - Pisistratın nəsli aristokratiyaya qarşı yönəlmiş tiraniyası (istibdad üsuli-idarəsi) quruldu. Pisistratın dövründə Afina xarici siyasət sahəsində böyük nailiyyətlər əldə etdi. Şəhərin özü böyüdü, yeni binalar və heykəllərlə bəzəndi, su kəməri çəkildi. Homerin poemaları yazıya köçürüldü. Pisistratın ölümündən az sonra onun oğlanlarının tiraniyası e.ə. 510-cu ildə devrildi. Nəsli əyanların hakimiyyəti ələ keçirmək cəhdləri e.ə. 508-ci ildə demosun Klisfenin başçılığı ilə üsyanına səbəb oldu. Üsyançıların qələbəsi əyanların ağalığına və nəsli icmanın axırıncı qalıqlarına son qoyan islahatlarla daha da möhkəmləndirildi. E.ə. VI əsrin sonlarından qoşun və donanmaya komandanlıq etmək üçün strateqlər seçilirdi. Vətəndaşlar arasında mübahisələri həll edən hakimlər də seçki ilə müəyyənləşdirilirdilər. Afinanın istənilən vətəndaşı hakim seçilə bilərdi. Yunan - İran müharibələri dövründə əvvəldən-axıradək aparıcı rol Afinaya məxsus olmuşdur. Sonrakı illərdə, bir qədər keçdikdən sonra Afina dəniz dövlətinə çevrilən Delos ittifaqına (Afina dəniz ittifaqına) başçılıq etmişdi. Bu dövrdə Afina özünün çiçəklənmə dövrünə qədəm qoymuşdu. Afinanın dəniz limanı olan Pirey bütün qədim dünyanın ticarət yollarının qovuşma mərkəzinə çevrilmişdi. Afinada o dövr üçün daha mütərəqqi olan dövlət quruluşu - Afina demokratiyası bərqəqar olur. Ali hakimiyyət mühüm məsələlərin həlli və vəzifəli şəxslərin seçkisi ilə məşğul olan xalq yığıncağına keçir. Xalq yığıncağı, demək olar ki, hər həftə aqorada çağırılırdı. Strateq Periklin dövründə dövlət vəzifələrinin icrası üçün maaş təyin edilir ki, bu da az imkanlı ailələri dövlətin idarə olunmasında iştirak etməyə maraqlandırır. "Periklin qızıl dövrü" adlandırılan çağda ən görkəmli yunan alimləri, memarları - tarixçi Herodot, filosof Anaksaqor, memar və heykəltəraş Fidi və b. Afinada yaşayıb-yaratmışlar. Esxil, Sofokl, Aristofan və b.-nın əsərləri teatrda göstərilirdi. Akropol dünya memarlığının şah əsəri sayılır. Afina Yunanıstanın ən gözəl şəhəri hesab edilirdi. Lakin bu qısamüddətli çiçəklənmə Peloponnes müharibəsində (c.ə. 431 - 404) Afinanın məğlubiyyətindən sonra başa çatdı.



downloaded from KitabYurdu.org

E.ə. 338-ci ildə Xeroneya yaxınlığındakı döyüşdən sonra Afina Makedoniya monarxiyasına tabe olmaq məcburiyyətində qaldı. E.ə. 196-cı ildə



Makedoniya çarı IV Filippin romalılar tərəfindən məğlub edilməsindən sonra Afina, əslində, Romadan asılı vəziyyətə düşdü. E.ə. 88-ci ildə Afinada başda Aristion olmaqla antiroma əhval-ruhiyyəli demokratlar hakimiyyətə gəldilər və Afina Pont çarı VI Mitridat Yevpatorun rəhbərlik etdiyi antiroma koalisiyasına qoşuldu. Bundan az sonra Afina Roma sərkərdəsi Komeli Sullanın qoşunları tərəfindən mühasirəyə alındı. Afinanın mühasirəsi e.ə. 88 - 87-ci illərin bütün qışı ərzində davam etdi və martın 1-də şəhər hücumla alınıb talan edildi. Sulla bir çox incəsənət əsərlərini Romaya apardı. Romaya tabe olmuş Afina hələ də özünü idarə edirdi. Afinanın elm və mədəniyyət mərkəzi olması şərəfi qorunurdu və "adətən varlı romalılar təhsillərini burada başa vururdular. Bəzi Roma imperatorları Afinaya xüsusi himayədarlıq edirdilər, orada binalar və məbədlər inşa etdirirdilər, o cümlədən Zevs və Hera məbədi, kitabxana, gimuasiyalar inşa etdirilmişdi. E.ə. III əsrdən Yunanıstan barbarların hücumlarına məruz qalır və Afina tam süquta uğrayır. Bizans imperiyasının yaranması ilə Afina incəsənətinin bir çox abidələri eramızın IV əsrində Konstantinopolun bəzədilməsi üçün aparılmışdı. 529-cu ildə Bizans imperatoru Yustinianın əmri ilə Afinada qalmış sonuncu məktəblər bağlanılmışdı. Antik Afinanın mədəni tarixi belə başa çatmışdı.

**Afina dəniz ittifaqı və ya Afina arxesi** - Afinanın başçılığı altında qədim yunan şəhər-dövlətlərinin Delos ittifaqı əsasında e.ə. V əsrin 70-ci illərində yaranmış birlik. Yunan - İran müharibələri dövründə formal olaraq müstəqil və bərabərhüquqlu şəhər-dövlətlərin Əhəmənilər dövləti əleyhinə yaranmış birliyi idi. Yunanıstanda ən böyük və döyüş qabiliyyətli donanmaya malik olan Afina e.ə. 478-ci ildə ittifaqda rəhbərliyi ələ keçirdi. Ajina strateqləri birgə hərbi əməliyyatlara, ittifaqın təşkilatçılıq və maliyyə funksiyalarına rəhbərliyi də öz əllərində cəmləşdirdilər. Sonralar afinalılar müttəfiq şəhərlərin daxili işlərinə qarışmağa başladılar. E.ə. 454-cü ildə ittifaqın xəzinəsi Delos adasından Afinaya köçürüldü. Ayrı-ayrı müttəfiqlərin Afinanın qəyyumluğundan xilas olmaq cəhdlərinin qarşısı yubadılmadan alınırdı. Afinalılar qarnizonlarını müttəfiqlərin ərazilərində yerləşdirməyə başladılar. Bu qarnizonlara başçılıq edən Afina müvəkkilləri - yepiskopları yerli əhalinin torpaqlarını müsadirə edib orada afinalıları yerləşdirməyə başladılar. Müttəfiqlərdən müsadirə olunmuş torpaqlarda 10 mindən artıq afinalı yerləşdirilmişdi. İlk vaxtlar xəzinəyə ödənilən könüllü üzvlük haqları sonralar Afinaya onun xalq yığıncağı tərəfindən hər müttəfiq üçün müəyyənləşdirilən xəraca çevrildi. Bütün bunlar Peloponnes müharibəsi üçün bəhanə oldu - Sparta və onun müttəfiqləri yunan şəhərlərini Afina despotizmindən xilas etmək üçün müharibəyə başladılar. Afina dəniz ittifaqı şəhərlərinin Spartanın



downloaded from KitabYurdu.org

tərəfinə keçməsi Peloponnes müharibəsinin taleyini Spartanın xeyrinə həll etdi. E.ə. 404-cü ildə Afinanın məğlub olması onun möhtəşəm dəniz ittifaqı kimi ləğvinə gətirib çıxardı. Afina dəniz ittifaqının buraxılması qaliblərin məğlub afinalılara qarşı irəli sürülən ilk tələblərindən biri idi.



**Afrodita** – qədim yunan mifologiyasında dəniz köpüyündən doğulmuş məhəbbət və gözəllik ilahəsi. Afrodita xarakteri və mənşəyinə görə Şərqin Astartasına (Aştart, İştar) bənzəyir. Romalılarda Venera ilə eyniləşdirilirdi.

**Ağa Məhəmməd şah Qacar (1742 - 97)** - türk qacar tayfasından olan İran sərkərdəsi, İranın şahı (1796 - 97), Qacarlar sülaləsinin banisi. Ağa Məhəmməd xan bütün Azərbaycan xanlarına, hakimlərinə fərman göndərib onlardan itaət etmələri əlaməti olaraq İrana əmanət (girov) göndərmələrini tələb etdi. Azərbaycan xanlarının əksəriyyəti fərmanı qəbul etməkdən imtina elədi və 1795-ci ilin yayında Ağa Məhəmməd xanın qoşunları



Azərbaycan xanlıqları üzərinə hücuma keçdi. İran qoşunları Talış, Naxçıvan və İrəvan xanlıqlarını qarət etdilər. Bundan sonra İran qoşunları Şuşanı mühasirəyə aldılar, amma qalanın müdafiəçiləri 33 gün müvəffəqiyyətlə müdafiə olundular, Ağa Məhəmməd xan mühasirəni dayandırıb Tiflis üzərinə yürüş etdi və şəhəri tutub qarət etdi. Həmişə onun xanlığını talanla hədələyib xərac tələb edən Kartli-Kaxeti çarı II İraklidən çəkinən gəncəli Cavad xan da bu yürüşə qatılmışdı. Bu bölgəni tutmaq istəyində olan Rusiya hökuməti və II Yekaterina 1796-cı ilin aprelində general Zubovun komandanlığı ilə Rusiya qoşunlarını Azərbaycana göndərdi. Rusiya qoşunları ilə toqquşmaqdan çəkinən Ağa Məhəmməd xan Azərbaycanı tərk etdi. Ağa Məhəmməd xan 1796-cı ildə özünü İranın şahı elan etdi və Qacarlar şah sülaləsinin əsasını qoydu. Rus qoşunları Azərbaycandan çıxarıldıqdan sonra 1797-ci ildə Ağa Məhəmməd şah buraya ikinci dəfə yürüş etdi. O, əvvəlcə Naxçıvan və Xoy xanlıqlarını tutub talan etdi, sonra Lənkəran xanlığını tutdu. Bundan sonra Xudafərin körpüsünü dağıdan Ağa Məhəmməd şah Şuşaya tərəf yollandı və şuşalıların qətiyyətlə müdafiə olunmasına baxmayaraq, İbrahimxəlil xanı məğlub etdi və o, qohumu avar xanı Ummanın yanına qaçdı. Şuşalılar Ağa Məhəmməd şahın onlara xətər yetirməyəcəyi barədə Qurana and içməsinə inanıb şəhəri təslim etdilər. Lakin şəhərə daxil olan Ağa Məhəmməd şah qarətə başlamaq barədə döyüşçülərinə əmr verdi. Bir sıra Azərbaycan xanları "könüllü", digərləri isə imkansızlıqdan Ağa Məhəmməd şaha itaət etmək məcburiyyətində qalmışlar. Ağa Məhəmməd şah Gürcüstana yürüş etməyə hazırlaşırdı, lakin sui-qəsd nəticəsində Şuşada qətlə yetirildi. Ağa Məhəmməd şah öldürüləndən sonra İran qoşunları Arazın o tayına çəkildilər.

**"ağıllı insan"** - müasir insanlara bənzər "ağıllı insan" təxminən 40 min il əvvəl meydana gəlmişdir. Onun beyninin həcmi "bacarıqlı insan"ın beyninin həcmindən iki dəfə böyük idi, boyu uca, qaməti düz idi.



downloaded from KitabYurdu.org

**Ağqoyunlu** - Ağqoyunlu tayfaları və dövləti (1468 - 1503). Başda bayandur tayfasının durduğu türkdilli ağqoyunlu tayfa ittifaqı Mərkəzi Asiyada meydana gəlmişdir. Ağqoyunlu tayfalarının bayrağında ağ qoç rəsmi təsvir edildiyindən həmin tayfalar belə adlandırılmışdır. Ağqoyunlu tayfaları XIII əsrdə Cənubi Azərbaycan və İran ərazilərinə köçərək burada məskunlaşmışdılar. XV əsrin əvvəllərində ağqoyunlu tayfaları Qaraqoyunlu dövlətinin tərkibində idilər. Qaraqoyunlu dövlətinin daxili vəziyyətinin pisləşməsindən istifadə edən ağqoyunlu tayfalarının başçısı Uzun Həsən 1467-ci ildə Muş yaxınlığında Cahanşahın başçılıq etdiyi qaraqoyunlu qoşunlarını məğlubiyyətə uğratdı və paytaxtı Təbriz olmaqla əraziləri Xorasandan Kür çayınadək yayılan Ağqoyunlu dövlətini yaratdı. Uzun Həsən özünü padşah elan etdi. Rəqibləri ilə müharibələr zamanı Uzun Həsən şirvanşah Fərrux Yassar və Ərdəbil şeyxi Cüneydlə saziş bağladı. Mərkəzi hakimiyyəti və inzibati idarəetmə sistemini möhkəmləndirməyə çalışan Uzun Həsən vergi islahatı keçirdi. Osmanlı imperiyasına qarşı Avropada müttəfiq axtarmaq ümidində olan Ağqoyunlu dövləti Avstriya, Macarıstan, Polşa və Moskva knyazlığı ilə diplomatik əlaqələr saxlayırdı. Uzun Həsənin anası Sara xatun dövlətin xarici siyasətində mühüm rol oynayırdı. Osmanlı imperiyası ilə Ağqoyunlu dövləti arasında 1472-ci ildə başlanan müharibə 1480-ci ildə türklərin məğlubiyyəti və sülh bağlanması ilə qurtardı. Ağqoyunlu padşahlarının böyük miqdarda soyurqal paylamaları nəticəsində köçəri əyanlar o dərəcədə gücləndilər ki, padşaha tabe olmaqdan imtina etdilər. XV əsrin axırlarında Ağqoyunlu dövlətini daxili didişmələr bürüdü və nəticədə dövlət 1499-cu ildə iki hissəyə parçalandı və onlar da öz növbəsində bir-biri ilə düşmənçilik edən xırda mülklərə parçalandı. 1501-ci ildə İsmayıl Şərur yaxınlığındakı savaşda Ağqoyunlu padşahlarından olan Əlvənd Mirzənin qoşunlarını dağıtdı və Əlvənd Ərzincana qaçdı, İsmayıl isə 1502-ci ildə Təbrizə daxil olub Səfəvilər dövlətini yaratdı. 1503-cü ildə Həmədan yaxınlığındakı savaşda I İsmayıl digər Ağqoyunlu hökmdarı Murad padşahın qoşunlarını darmadağın etdi və Ağqoyunlu dövlətinin varlığına son qoydu.




**ağsaqqal** - 1) Şərq ölkələrində hörmət edilən yaşlı adam; 2) Şərq ölkələrində kəndli icmasının, camaatın başçısı. Ağsaqqal hər bir icma üzvü üçün dövlət vergisinin miqdarını müəyyənləşdirir və onun yığılmasını təmin edirdi, bunun müqabilində isə məhsulun müəyyən hissəsi ona çatırdı.

**ağsaqqal** - qədim dövrdə qəbilə icmasının başçısı. Ağsaqqallar qəbilənin bütün yaşlı kişilərinin yığıncağında (xalq yığıncağında) vəhşi heyvanların davranışını, meyvələrin yığılma vaxtını, qədim rəvayətləri və davranış qaydalarını yaxşı bilən ən təcrübəli və nüfuzlu qəbilə üzvlərindən seçilirdi. Ağsaqqallar əmək



downloaded from KitabYurdu.org

alətlərinin hazırlanmasına, yeniyetmələrə ovçuluğun öyrədilməsi və ərzağın bölüşdürülməsinə rəhbərlik edirdilər. Tayfalar yaranandan sonra hər birinin başında ağsaqqallar şurası dururdu. Şuranın tərkibini isə tayfaya daxil olan qəbilələrin ağsaqqalları təşkil edirdi.

**Ağsonqurilər dövləti** - Cənubi Azərbaycan ərazisində mərkəzi Marağa şəhəri olan dövlət (1108 - 1227). Mənşəcə Rəvvadilərdən törənən Ağsonqurilər sülaləsi tərəfindən idarə olunurdu.

**Ahura Mazda** - Avestada zərdüştilik panteonunun baş allahı. Hərfi mənası -"müdrik allah" deməkdir. Qədim yunanların, hindlilərin, slavyanların davakar-ildırımyağdıran baş allahları - Zevs, İndra və Perundan fərqli olaraq Ahura Mazda dünyanı ağılın gücü və vasitəsi ilə yaradan kahin simasında təsvir olunurdu. Ahura Mazda bütün mövcudatı yaratmış, əvvəllər mövcud olmuş şüurlara can vermiş, əvvəlcədən şüur, söz və əməli müəyyənləşdirmişdi. Ahura Mazda məhşərə çəkir, şər qüvvələrlə mübarizə aparır. Ahura Mazda səma ilə Yer arasında vasitəçi kimi Zərdüştü seçmişdir. Zardüştilikdə hər bir insanın mütləq iradə azadlığı (seçimi) olduğu halda, hər bir canlı məxluq Ahura Mazda qarşısında cavabdehdir. Ahura Mazdanın təzühur edən qismi, onun "canı" Avestada alov adlanıb. Ahura Mazda tələb edirdi ki, ona edilən sitayiş, ibadət müqəddəs od qarşısında həyata keçirilsin. Onun şərəfinə şərab nəziri ayini yalnız xaoma bitkisinin şirəsi ilə süd qarışığından ibarət ola bilərdi. Orta əsrlər İran ənənəsinə görə, Ahura Mazda Hörmüzd adlanır.



**axeylər (axaylar)** - qədim yunan tayfalarından biri. Axeylər Mikena, Pilos və s. şəhərləri tikmişlər. Axey şəhərlərinin birləşmiş qoşunları Aqamemnonun başçılığı ilə Troya şəhərinə qarşı müharibədə iştirak etmişdir. Homerə görə, axeylər qədim yunan tayfalarının ümumi adıdır.

**Axill, Axilles** - Homerin "İliada" poemasının qəhrəmanlarından biri. Axillin anası, dəniz ilahəsi Fetida oğlunun ömrünü əbədiləşdirmək üçün onu dabanından yapışaraq yeraltı Stiks çayının sularında çimdirmişdir. Troyanın mühasirəsi zamanı Parisin atdığı ox onun yeganə zəif yeri olan dabanına dəyənədək Axill məğlubedilməz idi. Ona görə də "Axilles dabanı" ifadəsi "zəif yer" mənasını daşıyır.

**Axundov Mirzə Fətəli (1812 - 78)** -görkəmli Azərbaycan yazıçısı, Azərbaycan ədəbiyyatı klassiki, milli realist nəsrin və dramaturgiyanın banisi, filosof və maarifçi. Axundov Nuxada (Şəki) anadan olmuşdur. Mədrəsədə oxumuş, ərəb, fars, türk dillərini öyrənmiş və molla rütbəsi almışdır. Ruhani mənsəbindən imtina edən Mirzə Fətəli rus-tatar məktəbinə daxil olmuş və ona başqa müəllimlərlə yanaşı, Mirzə Şəfi Vazeh də dərs demişdir. M.F.Axundov 1834-cü ildə Tiflisə köçmüş, burada əvvəlcə dərs demiş, sonra isə Qafqazdakı Rusiya



downloaded from KitabYurdu.org

canişininin dəftərxanasında Şərq dillərindən tərcüməçi vəzifəsində çalışaraq polkovnik rütbəsinədək yüksəlmiş, ordenlərlə təltif edilmişdir. Axundov



Azərbaycan dramaturgiyasının banisi sayılır. "Hekayəti-Molla İbrahimxəlil kimyagər" (1850), "Hekayəti-Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukünі-məşhur" (1850), "Sərgüzəşti-mərdi-xəsis" ("Hacı Qara"; 1852) komediyalarında, eləcə də "Aldanmış kəvakib" (yaxud "Hekayəti-Yusif şah") povestində dövrünün Azərbaycan gerçəkliyini realistcəsinə təsvir etmişdir. M.F.Axundov ilk pyeslərini nəşr etdirdikdən az sonra xarici mətbuat onların novatorçu səciyyəsini qeyd etmiş və bu əsərlərin ümumi məzmununun, eləcə də mətninin tərcümələrinin nəşrinə başlamışdır. Axundovun komediyaları rus, erməni, gürcü, fars və bir çox digər dillərə tərcümə olunmuşdur. M.F.Axundovun fəlsəfi əsərləri arasında irihəcmili "Hindistan şahzadəsi Kəmalüddövlənin öz dostu İran şahzadəsi Cəmalüddövləyə yazdığı üç məktubu və Cəmalüddövlənin ona göndərdiyi cavab" əsəri çox əhəmiyyətlidir. Onun fəlsəfi əsərlərində materialist ideyalar təbliğ edilirdi. Axundovun yaradıcılığı Şərqin bir çox xalqlarının ictimai təfəkkürünün inkişafına təsir etmişdir. Ərəb əlifbasının Azərbaycan və Şərqin digər xalqlarının maariflənməsi yolunda ciddi maneə olduğunu zənn edən Axundov əlifbanın islahatı uğrunda mübarizə aparırdı. Onun tərəfindən belə bir islahat layihəsi hazırlanmış, sonra latın, ardınca isə rus qrafikası əsasında yeni əlifba tərtib edilmişdir.

**AİB ("Avropa İqtisadi Birliyi" və ya "Ümumi bazar")** - AİB-in təsis edilməsi haqqında müqavilə 1957-ci ilin martında Romada Fransa, AFR, İtaliya, Belçika, Niderland və Lüksemburq arasında imzalanmışdır. Böyük Britaniya, Danimarka, İrlandiya, İspaniya, Portuqaliya və Yunanıstan 1973-cü ildən AİB-ə qoşulmuşlar. Bu birliyin əsas məqsədi AİB çərçivəsində gömrük ittifaqı yaratmaq; işçi qüvvəsinin, xidmət və kapitalların ümumi bazarını formalaşdırmaq; üçüncü ölkələrə qarşı vahid ticarət siyasəti yeritmək; kənd təsərrüfatı və nəqliyyat sahəsində iqtisadi siyasətdə mövcud olan fərqi aradan qaldırmaq; üzv-ölkələrin iqtisadi qanunlarını uyğunlaşdırmaqdan ibarətdir. AİB-in son məqsədi bu özül üzərində siyasi birlik yaratmaq olmuşdur. Sonralar AİB Avropa İttifaqına (Aİ) çevrildi.

**Akademiya** - 1) e.e. 388-ci ildə Afinada Platon tərəfindən əsası qoyulmuş fəlsəfi məktəb. Yunan epik qəhrəmanı Akademin şərəfinə Afina yaxınlığındakı yerə verilmiş addan götürülmüşdür. Akademiya məşhur fəlsəfi mərkəzə çevrilmişdir. Onun şagirdləri arasında Aristotel, Epikür və başqa tanınmış filosoflar olmuşdur. 529-cu ilə qədər mövcud olmuş və Bizans imperatoru Yustinianın göstərişi ilə bağlanmışdır; 2) İtaliyada Dirçəliş (Renessans) dövründə elmi cəmiyyətləri, başlıca olaraq humanitar yönümlü cəmiyyətləri, sonralar isə məşhur rəssamların dərs dediyi məktəbləri akademiya adlandırmışlar. İlk incəsənət



downloaded from KitabYurdu.org

akademiyası - Müqəddəs Luka Akademiyası - 1593-cü ildə Romada yaradılmışdır; 3) hazırda elmi və ya tədris müəssisəsi.

**Akkad** - Mərkəzi Mesopotamiyada qədim şəhər və əyalət. E.ə. 2360-cı ildən etibarən e.ə. XXIV - XXII əsrlərdə mövcud olmuş eyniadlı dövlətin paytaxtı idi. Akkad dövlətinin əsasını hökmdar I Sarqon (Qədim; Akkadlı) qoymuş və demək olar ki, bütün Mesopotamiyanı öz hakimiyyəti altında birləşdirə bilmişdir. Akkadda bir sıra saray çevrilişlərindən sonra hökmdar Naram-Suen (e.ə. 2236 - 2200) hakimiyyətə gəlmişdir. O, qivamları yatıraraq dövləti möhkəmləndirən islahatlar keçirmişdir. Lakin az sonra qərbdən (Cənubi Azərbaycan ərazilərindən) Akkada kuti tayfalarının basqını oldu. Kutilər Akkad qoşunlarını məğlub etdilər, onların hökmdarı Naram-Suen isə döyüşdə həlak oldu. Kutilər Akkad və Şumeri tutdular. Sonralar Akkad əvvəlki əhəmiyyətini itirdi və Mesopotamiyanın əsas mərkəzi Babil oldu.

**akropol (yun. "yuxarı şəhər")** - şəhər qalası (içqala), habelə şəhərin müqəddəs yerləri və ictimai binalarının yerləşdiyi sahə. Afina Akropolunun bəzəyi isə Parfenon məbədi idi.

**Aksi** - İoni dənizində burun; e.ə. 31 -ci il sentyabrın 2-də Romada vətəndaş müharibəsi dövründə onun yaxınlığında Oktavianın Aqrippanın komandanlığı altında döyüşən 260 gəmidən ibarət donanması həlledici vuruşda Antoni və Kleopatranın 230 gəmidən ibarət donanmasını əzmişdir. Döyüşün qızğın çağında savaşın uduzulduğunu zənn edən Kleopatra Misir donanmasına döyüşdən çıxmaq haqqında əmr verdi. Vuruşan gəmilər arasından sivişib qaçan 60 gəmi araya çaxnaşma saldı. Antoni Kleopatranın xəyanətinə inana bilmirdi. Antoni onun uğrunda vuruşub-ölən döyüşçüləri tərk edərək sürətli gəmiyə minib Kleopatranın ardınca getdi. Antoninin sərkərdəsiz qalmış donanması məğlubiyyətə uğradı və təslim oldu. Antoni ilə Kleopatra Misir İsgəndəriyyəsinə gəldilər.

**aksiya** - 1) səhmdar cəmiyyətləri tərəfindən buraxılan, sahibinin həmin cəmiyyətin yatırımında (kapitalında, səhmlərində) iştirak etməsini və hər il müəyyən qədər qazanc - dividend əldə etməsinə hüquq verməyi təsdiq edən qiymətli kağız. Aksiya fond birjasında satılır və alınır; 2) fəaliyyət, çıxış (məsələn: siyasi aksiya, diplomatik aksiya).



**akveduk** (lat. "su keçirən") - əhalini su ilə təchiz etmək üçün kanal, metal və ya saxsı boru şəklində çəkilmiş su xətti. Akvedukun böyük hissəsi yer altında qurulurmuş. Akvedukları qədim romalılar tikməyə başlamışdılar.

**Aqamemnon** - e.ə. XIV - XII əsrlərdə axey şəhər-dövlətlərinin ən qüdrətlilərindən olan Mikenanın çox varlı hökmdarı. Aqamemnon Troyaya qarşı müharibədə axey şəhər-dövlətlərinin birləşmiş qoşunlarına başçılıq etmişdir.

**aqlomerasiya** - iqtisadi və mədəni əlaqələrin intensiv inkişafı nəticəsində ətraf şəhərlərin böyüyərək toplu şəklində birləşməsi.



downloaded from KitabYurdu.org

**aqora** - 1) qədim yunan şəhərlərində açıq yer, meydan. Aqoradan bazar, qanunların nümayiş etdirilməsi, xalq yığıncaqlarının, məhkəmələrin keçirilməsi və rəsmi fərmanların elan edilməsi yeri kimi istifadə olunurdu. Aqoranın ətrafında ictimai və dini binalar, zərbxanalar yerləşirdi; 2) bir sıra qədim yunan şəhər-dövlətlərində xalq yığıncaqlarının adı.

**aqrar** - torpaq işi, torpaq mülkiyyəti və ya torpaq istifadəsinə aid olan; məs.: aqrar böhran.

**aqrar çevriliş** - kənd təsərrüfatında muzdlu əməkdən istifadə olunması ilə bağlı kapitalist münasibətlərinə keçid.

**Aquen (Aluen) məclisi** - Qafqaz Albaniyası xristian ruhanilərinin 488-ci ildə Aquendə (indiki Ağdam rayonu ərazisində) alban hökmdarı III Vaçaqan tərəfindən çağırılmış yığıncağı. Aquen məclisində alban çarları, əyanları və ruhanilərinin imtiyazları bərpa edilmiş, ictimai və ailə münasibətlərini tənzimləyən qərarlar qəbul edilmişdir. Məclis kəndlilərdən kilsə mənafeyinə alınan vergilərin miqdarını dəqiqləşdirmişdir. Bir sıra bütpərəstlik ənənələrinə qarşı qərarlar da qəbul olunmuşdur. Aquen məclisinin qərarı ilə Qafqaz Albaniyasının Sasani ordusuna süvari qoşunlar göndərmək mükəlləfiyyətindən azad edilməsi haqqında qərar qəbul olundu.

**alanlar** - on iri sarmat tayfalarından biri. E.ə. II əsrdən roksolan adı ilə məlumdurlar. Eramızın ilk əsrlərində köçəri alan tayfaları Azovyanı və Ön Qafqazın çöl bozqır rayonlarında məskunlaşmışdılar. I - II əsrlərdə alan tayfaları Cənubi Qafqaz ölkələrinə - Qafqaz Albaniyasına, İberiyaya, habelə Atropatenaya, Kiçik Asiyaya və Roma imperiyasının bir sıra əyalətlərinə tez-tez talançı basqınlar edirdilər. IV əsrin ikinci yarısında tayfalar hunlar tərəfindən darmadağın olundular və qismən hun tayfa ittifaqına daxil edildilər. Bundan sonra alanların xeyli hissəsi onlarla birlikdə Avropaya hərəkət edərək Qalliyadan, İspaniyadan keçib Şimali Afrikada vandallara qarışdı. Alanların digər hissəsi isə hunların təzyiqi ilə Şimali Qafqaz dağlarına köçdü. IV əsrdən alan tayfaları burada oturaq həyata keçməyə başladılar. Şimali Qafqaz alanları bir neçə tayfa ittifaqına bölündülər ki, bunların da ən iriləri Şərqi və Qərbi ittifaqlar idilər. Şərqi ittifaq xəzərlərlə və İranla bağlı idi, Qərbi ittifaq isə Bizansla. VI əsrdən etibarən qərbi alanlar arasında xristianlıq yayılmağa başladı. VI əsrdə alan tayfa ittifaqı birlikləri avarlar tərəfindən dağıdıldılar. VII əsrdən X əsrədək Alaniya Xəzər xaqanlığının tərkibinə daxil olmuşdur. X - XII əsrlərdə alanların başda hökmdarları "baqatar"ları olan dövlətləri formalaşır. Bu dövrdə yunan əlifbası əsasında alanların yazısı meydana gəlir. Alanlar "Nart" qəhrəmanlıq eposunu yaratmışlar. Alan mədəniyyəti Ön Qafqaza 1222-ci il monqol-tatar basqınınadək mövcud olmuşdur. XIV əsrdən alanlar arasında islam dini yayılmağa başlamışdır. Müasir osetinlər alanların nəslindəndirlər.

**Alarix (370 - 410)** - germanların tanınmış varlı Balt nəslindəndir. O, german tayfası olan vestqotların bacarıqlı və uzaqgörən rəhbəri idi. 395-ci ildə



downloaded from KitabYurdu.org

vestqotlar Balkan yarımadasında Alarixin basçılığı ilə yenə də üsyan etdilər və onu konunq - kral seçdilər. Alarix Frakiyaya, Makedoniyaya və Yunanıstana soxuldu, Afinanı tutdu, Korinfi, Arqosu və Spartanı talan etdi. Roma imperatoru onunla sülh



bağlamaq və Balkan yarımadasının qərbində zəngin İlliriya əyalətini vestqotların məskunlaşması üçün ayırmaq məcburiyyətində qaldı. 401-ci ildən vestqotlar Qərbi Roma imperiyasına hücumlarını artırmağa başladılar. Bir neçə il ərzində vestqotların romalılara qarşı müharibələri ittifaq haqqında sazişlərlə əvəz olunmuşdu. Roma qoşunlarında xidmət edən xeyli germanlar, habelə çoxlu sayda Roma qulları Alarixin tərəfinə keçdilər. Alarix üç dəfə Romaya yaxınlaşıb onu mühasirəyə almışdır. 410-cu il avqustun 24-də "əbədi şəhər" Alarixin başçılıq etdiyi vestqotlar tərəfindən tutuldu və üç gün talan edildi. Alarix Cənubi İtaliyada - Siciliya və Şimali Afrikaya yürüşə hazırlaşdığı zaman ölmüşdür.

**alban tayfaları** - Qafqaz Albaniyası ərazisində müxtəlif dillərdə danışan 26 tayfa məskunlaşıbmış. Bunlar albanlar, anariaklar, amazonlar, utilər, qarqarlar, gellər, kaspilər, leqlər və b. idilər. Bu tayfalardan ən iriləri alban və uti tayfaları idilər. Bir sıra alban tayfalarının nəsilləri Azərbaycan Respublikası ərazisində dövrümüzədək gəlib çıxmışlar - udinlər, xınalıqlar, buduqlar və b.

**"Alban tarixi"** - alban tarixçisi Moisey Kalankatlı tərəfindən yazılmış tarixi əsər. "Alban tarixi" xalq deyimləri və əfsanələr, qədim kilsə kitabları, rəsmi sənədlər, eləcə də keçmişlərdə yaşamış tarixçilərin əsərləri əsasında yazılıb. "Alban tarixi" alban dilində tərtib olunmuş, sonradan erməni dilinə tərcümə edilmişdir. Təəssüflər olsun ki, "Alban tarixi" dövrümüzə albanca çatmamışdır. Onun yalnız ermənicə, özü də sonrakı erməni tarixçiləri tərəfindən dəfələrlə düzəlişlərə məruz qalmış tərcüməsi bizə gəlib çatmışdır.

**Albion** - Britaniyanın qədim kelt adı.

**Allah** - dünyanı idarə edən ruhlar kimi fövqəladə varlıqlardan ən qüdrətlisi.

**Allah** - islamda tək olan Allahın adı. Ərəbistan panteonunda (o cümlədən Məkkədə) islamaqədərki həniflərdə dünyanın, cənnətin və cəhənnəmin yaradıcısı. Allah yəhudi və xristianlardakı allahla eyni hesab edilir. Quranda Allahın təkliyi qeyd olunur. O, qüdrətli, hər şeyi əhatə edən və bilən, əbədi və vahiddir. Allahın şəriklərinin varlığını qəbul etmək islama qarşı ən böyük cinayətdir. "O Allah təkdir, Allah əbədidir; doğmamış, doğulmamış və Ona bərabər olan biri yoxdur" (Quran). Allah ilk növbədə dünyanın yaradıcısı və məhşər gününün ağasıdır. Allah aşağı (Yerdən) və yuxarı (üzərində Onun taxtı yerləşən yeddi göydən) qatlardan ibarət olan dünyanın yaradıcısıdır. Allah cənnəti və cəhənnəmi, mələkləri (ər. məlaikə), insanları yaratmışdır; O, bəşəriyyətə təbiətin nemətlərini bəxş etmiş və onlardan istifadə qaydalarını öyrətmişdir; hər insanın taleyini müəyyənləşdirmişdir. İnsanlara Allahı unutmaq xas olduğundan vaxtaşırı o, insanların arasından öz



downloaded from KitabYurdu.org

elçilərini - Peyğəmbərləri seçir. Bunların sırasında Adəm (birinci), İbrahim (yəhudilərdə və xristianlarda - Avraam), Musa (yəhudilərdə və xristianlarda - Moisey), İsa (xristianlarda İİsus) və sonuncu peyğəmbər olan Məhəmməd də vardır. Peyğəmbərləri dinləməkdən imtina edənlərə Allah bəla göndərirdi. İnsanlar peyğəmbərlərin təlimini və Allahın əsl simasını təhrif edirdilər: yəhudilər Musanın çağırışlarına əməl etmədilər; xristianlar İsanı ilahiləşdirdilər; Ərəbistan sakinləri Kəbəni - tək olan Allahın rəmzini - Allaha bərabər tutduqları bir çox allahların məbədinə çevirdilər.



“Allahu-əkbər” kəlamının yazılışı

İnsanları gerçək dinə qaytarmaq Məhəmmədin vəzifəsidir. İslam dininin ehkamında deyilir: "Allahdan başqa Allah yoxdur, Məhəmməd Onun elçisidir" [Lə İləhə-İlləlləh, Muhəmmədən Rəsul-İlləh]. Allah mükəmməldir, əzəmətlidir və böyükdür. Dünyada hər şey ona tabedir və təzim edir, onun iradəsi və bu barədə məlumatı olmadan heç bir hadisə baş verə bilməz. O, hamı üzərində hakimdir və öz yaratdıqlarını qoruyur. İnsanlara qarşı Allah Rəhman və Rəhimdir, bağışlayandır. Allahın əzəməti və böyüklüyünü dərk edən insanlar isə özlərini Ona tam təslim (islam) etməlidirlər, Allaha itaət etməli, əməlisaleh olmalıdırlar; hər bir şey üçün Allaha inanmalı və həmişə Onun iradəsi və himayəsinə sığınmalıdırlar. Allah insanların xeyir və bəd əməllərinin qarşılığını verir. Allahın istədiyi məqamda O, Yer üzərindəki bütün varlıqları məhv edəcək, ölənləri dirildəcək və məhşər quracaq, hər kəsə öz əməlinə görə cəhənnəmə atılma və ya cənnət nemətinə yetişmə çatacaq. Quranda Allahın böyüklüyünü və onun mahiyyətini insanlara açan gözəl adlan xüsusi olaraq qeyd olunur. O həm qorxulu, həm də rəhmlidir. Allah "himayədardır", "yol göstərəndir", "ən yaxşı sığınacaqdır".

**Almaniya** - Reyn, Visla, Dunay çayları və Baltik dənizi arasındakı vilayətlərə romalılar tərəfindən verilmiş ad. Almaniya haqqında ilk məlumata e.ə. IV əsr Roma mənbələrində rast gəlinir.

**Almaniya imperiyası** - 1866-cı il Avstriya - Prussiya və 1870 - 71-ci illər Fransa - Prussiya müharibələri nəticəsində Bismarkın fəal iştirakı ilə yaradılmışdır.



Almaniya imperiyasının yaradılması rəsmən 1871-ci il yanvarın 18-də Versalda elan edilmişdir. Prussiya kralı I Vilhelm Almaniya imperiyasının imperatoru olmuşdur. Şimali Almaniya ittifaqının üzvü olan ölkələr və Cənubi Almaniya dövlətləri öz sülalələri və hökmdarları ilə, eləcə də Fransanın işğal olunmuş əyalətləri - Elzas və Lotaringiya Almaniya imperiyasının tərkibinə daxil edildi. Almaniya imperiyası 1918-ci il noyabr inqilabına və Almaniyada Veymar respublikasının yaradılmasına qədər mövcud olmuşdur.



downloaded from KitabYurdu.org

**"Almaniya ittifaqı"** - Avstriya Habsburqlarının hegemonluğu altında 39 alman dövlətinin birləşməsi. 1815-ci il iyunun 8-də Vyana konqresində yaradılmışdır. "Almaniya ittifaqı"nın nə hökuməti, nə pulu, nə ordusu, nə də beynəlxalq işlərə təsiri yox idi. Avstriyanın 1866-cı ildə Prussiya ilə müharibədə (Sadova yaxınlığındakı döyüşdə) məğlubiyyətindən sonra "Almaniya ittifaqı" ləğv edildi. Onun əvəzində Prussiyanın hegemonluğu altında Şimali Almaniya ittifaqı yaradıldı.

**Almaniyada kəndli müharibəsi** - 1524 - 26-cı illərdə Almaniyada baş vermiş kəndli müharibəsi feodal zülmünün artması ilə bağlı idi və Reformasiya hərəkatı ilə çulğaşmışdı. Şəhər yoxsulları tərəfindən dəstəklənən kəndlilər zadəganların qəsrlərinə və monastırlara hücum etmiş, ölkənin cənub-qərbində bir çox şəhərləri ələ keçirmişdilər. Üsyançıların "12 maddə"dən ibarət proqramları şəxsi asılılığın ləğv edilməsini, töycünün, biyarın və ondabir vergisinin azaldılmasını, icma torpaqlarından sərbəst istifadə olunmasını, hər kəndə öz ruhanisini seçməyə icazə verilməsini tələb edirdi. Müntser feodalların hakimiyyətini devirməyə və ədalətli qayda qoyulmasına çağırırdı. Kəndli müharibəsinə qoşulmuş bürgerlərin (varlı şəhərlilərin), cəngavərlərin və varlı kəndlilərin bir hissəsi feodallarla razılaşma taktikasının tərəfdarı idi. Kəndli dəstələri birləşməmişdilər və vahid rəhbərləri yox idi. Kəndli müharibəsi alman knyaz və cəngavərlərinin müttəfiq qoşunları tərəfindən amansızcasına yatırıldı. Qasmayerin Tirolda başçılıq etdiyi kəndlilər daha çox müqavimət göstərdilər. Kəndli müharibəsinin məğlubiyyəti knyazların hakimiyyətinin möhkəmlənməsinə, Almaniyanın pərakəndəliyinin gerçəkləşməsinə və feodal zülmünün artmasına səbəb oldu. Almaniyada baş vermiş kəndli müharibəsi feodalizm quruluşunu inqilabi yolla devirmək üçün göstərilmiş ilk cəhd idi.

**Altamira** - İspaniyada dəniz sahilində mağara. Təxminən yüz il əvvəl bir arxeoloq həmin mağaranı tədqiq edərkən balaca qızını da özü ilə oraya aparmışdı.



Birden qızcığaz qışqıraraq: "Öküzlər, öküzlər!" - dedi. Atası başını qaldırıb tavana baxanda orada boya ilə çəkilmiş nəhəng bizən fiqurları gördü. Mağaranın divarları heyvanların qara və rəngbərəng boyalarla çəkilmiş çoxsaylı real təsvirləri ilə örtülmüşdü. Mağaranın salonlarından birinin tavanı yarımadam-yarımheyvan qiyafəsində (tarixçilərin güman etdiklərinə görə, maskalanmış şamanların fiqurları ilə) bəzədilmişdi. Əvvəllər alimlər ibtidai insanların bu cür sənət əsərləri yarada bilmələrinə inanmırdılar. Yalnız 20 ildən sonra başqa yerlərdə çoxsaylı ibtidai incəsənət əsərləri aşkar olundu və tarixçilər mağara rəsmlərinin həqiqiliyini qəbul etdilər. Altamira rəsmləri e.ə. 15.000 - 8000-ci illərə aid edilir.

**alternativ** - bir-birini istisna edən iki və ya daha çox imkandan birini seçmək zərurəti.



downloaded from KitabYurdu.org

**alyans** - ayrı-ayrı adamların, siyasi partiyaların və ya dövlətlərin ümumi məqsədlərə çatmaq üçün ittifaqları, birlikləri.

**amazonlar (yun. "amazones")** - yunan mifologiyasında Kiçik Asiyada, Qafqaz dağlarının ətəklərində və ya Azov dənizi ətrafında məskunlaşmış döyüşkən qadınlar qəbiləsi. Amazon" adı, guya, kamandan ox atmağın asan olması üçün qızların sol döşlərinin yandırılması adətindən meydana gəlib. Amazonlar bütün vaxtlarını döyüşlərdə keçirir, ox-kaman, döyüş baltası, yüngül qalxanla silahlanır, özlərinə də dəbilqə və paltarlar düzəldirmişlər. Amazonlar qonşu tayfaların kişiləri ilə nəsli davam etdirmək naminə nikaha girir və bu zaman doğulan oğlanları öldürür (ya da atalarına verir), qızları isə özlərinə götürürmüşlər. Tarixçilərin fikrincə, amazonlar haqqındakı əfsanələrdə və onların Olimpiya qəhrəmanları (Herakl və b.) ilə mübarizələrində matriarxat dövrü əks olunmuşdur. Roma tarixçilərinin söylədiklərinə görə, e.ə. 65-ci ildə Pompeyin başçılığı ilə romalıların Kozisin başçılıq etdiyi albanlara qarşı savaşında albanların tərəfində həm də alban qadınları iştirak edirdilər. Əsir götürülmüş alban döyüşçüləri arasında çoxlu yaralı qadın da var idi. Alban qadınlarının igidliyi romalıları heyran etmişdi. Məhz bu qadınların cəsurluğu romalılar arasında Qafqaz Albaniyasının şimalındakı dağlarda döyüşkən amazon tayfalarının yaşaması və albanların Romaya qarşı savaşında onlara kömək etmələri haqqında əfsanənin yaranmasına səbəb olmuşdur.

**Amasya müqaviləsi (1555)** - Səfəvilər dövləti ilə Osmanlı imperiyası arasında Türkiyənin Amasya şəhərində 1555-ci il mayın 25-də imzalanmışdır. Amasya müqaviləsinin şərtlərinə görə, Gürcüstan və Ermənistanın qərb hissələri Osmanlı imperiyasına, onların şərq hissəsi isə Səfəvilər dövlətinə çatırdı.



**Amenhotep IV** - Qədim Misir fironu (e.ə. XV əsrin sonu - XIV əsrin əvvəli). IV Amenhotep Amon-Ra allahına pərəstişlə sıx bağlı olan Fiva əyanlarının qüdrətini sarsıtmağa cəhd göstərmişdir. Əhalinin orta təbəqələrinə arxalanan IV Amenhotep Fiva kahinlərinə və qədim əyanlara zərbə endirdi, sonra isə Aton allahının kultunu elan etdi. IV Amenhotep dövlətin paytaxtını yeni Axetaton şəhərinə (indiki Tel-əl-Amarna şəhərciyi) köçürdü. Firon Exnaton adını aldı.

**amfiteatr** - qədimdə kütləvi tamaşa üçün nəzərde tutulmuş monumental tikili. Adətən örtüksüz, ellipsvarı planda inşa edilən amfiteatrların ortasında divarla əhatələnmiş arena - səhnə olurmuş. Onun ətrafında isə tamaşaçılar üçün nəzərdə



tutulan və tədricən maili yüksələn oturacaqlar yerləşdirilirmiş. Qədim Romada amfiteatrlar qladiator döyüşləri üçün inşa edilirmiş. Qədim Roma şəhərlərinin bir sıra amfiteatrları dövrümüzədək qalmışdır. Bunlardan diqqəti daha çox cəlb edəni Kolizey amfiteatrıdır. amfora - çaxır, zeytun yağı, sous, şirə və ya bal saxlamaq üçün gövdəsi dəyirmi çıxıntılı, iki şaquli qulpu və dar ağzı olan gil qab. Qədim yunan şəhərləri, xüsusilə də Afina amfora istehsalı ilə şöhrət



downloaded from KitabYurdu.org

qazanmışdı. amnistiya (yun. "amnestiya" - "unutma", "bağışlama") - dövlət başçısının və ya ali nümayəndəli hakimiyyət orqanının qərarı ilə cinayət törədən şəxslərin cəzadan tam və ya qismən azad edilməsi və ya cəzanın daha yüngül cəza ilə əvəz olunması. Bax həmçinin: əfv.

**Amon və ya Amon-Ra** (Qədim Misir dilində "Amon" "gizlədilmiş", "örtülmüş") - Qədim Misirdə Günəş allahı. Amon allahının dini mərkəzi əvvəlcə Fiva şəhəri idi. E.ə. XVI əsrdən Amon Günəş allahı Ra ilə eyniləşdirilir və Amon-Ra Qədim Misirdə ümumdövlət allahına çevrilir. Bundan sonra Amon-Raya "bütün allahların hökmdarı", bütün mövcudatı xəlq edən allah kimi pərəstiş edilir. Fironun Amon-Ranın oğlu kimi ilahiləşdirilməsi bununla bağlıdır. Amon-Ra adətən insan şəklində (bəzən qoç başlı), iki uzun lələyi və günəş çevrəsi olan tacda təsvir olunurdu. Qoç Amonun müqəddəs heyvanı hesab edilirdi.



**anarxizm (yun. "hakimiyyətsizlik")** -XIX əsrin ortalarında Avropada təşəkkül tapmış ictimai-siyasi cərəyan. Anarxistlər yubadılmadan kortəbii üsyan nəticəsində hər cür dövlət hakimiyyətini məhv etməyə və istehsalçıların xırda muxtar birlikləri cəmiyyətini yaratmağa çağırırlar. Anarxizmin əsas ideoloqları Prudon və Bakunin olmuşlar.

**anarxiya (yun. "hakimiyyətsizlik")** –ayrı-ayrı adamların və ya qrupların rəhbərliyə, hökumətə tabe olmaması və bu zaman meydana çıxan qarışıqlıq.

**animizm** - canlı və cansız təbiətin cism və hadisələri fövqündə durub, onları idarə edən və fövqəladə varlıqlar kimi təqdim olunan ruhlara inam. Animizmdə ölmüş əcdadların ruhları, insanların, bitkilərin, ildırımın, küləyin, xəstəliklər və s.-nin ruhları insan keyfiyyətləri ilə təqdim olunur.

**anklav** - 1) bir dövlətin ərazisinin başqa bir dövlətin ərazisi ilə tam əhatə olunması; 2) hər hansı bir dövlətin ərazisinin bir qisminin digər dövlət və ya bir neçə dövlətin ərazisi ilə əhatə olunması.

**Anqra Manyu** — zərdüştilikdə şər, zülmət və ölüm allahı, Ahura Mazdanın əkiz qardaşı və rəqibi. Anqra Manyu hər cür günahlar yaratmışdır: cadugərlik, xəstəliklər, qocalıq, ölüm, zəhərli sürünənlər və həşəratlar; ilk insan Qayomartanı məhv etmişdir. Ona tabe olan allahların - divlərin vasitəsilə fəaliyyət göstərirdi.

**annallar** - qədim dövrdə və orta əsrlərdə nisbətən əhəmiyyətli hadisələrin illər üzrə yazılışı. Qədim misirlilərdə, assurlarda, farslarda, çinlilərdə, romalılarda və b. xalqlarda illər üzrə yazı olmuşdur. "Annal" məfhumu latın mənşəlidir (latınca "annus" - "il" deməkdir). Orta əsrlərdə annallar adətən monastırlarda aparılırdı. Annallar "Tarix"lərlə birlikdə tarixi xronikanın inkişafının əsasını təşkil etmişdir.

**anneksiva** - başqa dövlətin ərazisinin tutulub zorla birləşdirilməsi.

**antaqonizm** - düşmənçilik edən, bir-birinə qarşı duran qüvvələr arasında barışmaz
ziddiyyət.



downloaded from KitabYurdu.org

**Antik, əntiq** (lat. "antikvitas - qədimlik" "köhnəlik") - ümumi mənada müasir "qədimlik" anlayışına bərabərdir. Lakin elə həmin mənada Qədim Yunanıstan, Qədim Roma və ellin dövlətlərini də bildirir. Antik dedikdə tarixin e.ə. I minilliyin əvvəllərindən e.ə. V əsrə qədərki dövrü nəzərdə tutulur.



Laokoon
(antik heykəl)

**antisovet üsyanı** (Gəncə, 1920) - üsyanın səbəbi yeni sovet hakimiyyətinin siyasətindən ümumxalq narazılığı, bəhanəsi isə bolşeviklər tərəfindən Azərbaycan hərbi hissələrinin "yabançı sinfi ünsürlər"dən təmizlənməsi, üsyanın hərəkətverici qüvvəsi isə Azərbaycan Milli Ordusunun 2 min nəfərə yaxın döyüşçüdən ibarət bölmələri idi. Mayın 25-dən 26-na keçən gecə üsyançılar Rusiyanın XI Qırmızı Ordu hissələrinə hücum etdiər və Gəncənin müsəlmanlar yaşayan hissəsini nəzarət altına aldılar, şəhərin erməni əhalisi isə elə o andan Qırmızı Ordunun tərəfinə keçərək ona yardım üçün silahlı dəstələr təşkil etməyə başladı. Üsyana rəhbərlik etmək üçün generallar Cavad bəy Şıxlinski, Məmmədrza Qacar, Cavanşir bəy Kazımbəyov və b.-dan ibarət tərkibdə hərbi şura yaradıldı. Gənc və ətraf kəndlərin əhalisi də üsyançılara qoşuldu. Üsyançıların sayı 10 min nəfərə çatırdı. Mayın 27-də Qırmızı Ordunun hissələri hücuma keçdi, lakin xeyli itkilərə məruz qaldığından geri çəkilməyə məcbur oldu. Bolşeviklər Gəncəyə əlavə qüvvələr gətirdilər. Yeni hücum ərəfəsində şəhər amansızlıqla top atəşinə tutuldu. Mayın 29-da 3 diviziya Gəncə üzərinə ikinci dəfə hücuma keçərək şəhərə daxil oldu, amma üsyançıların ciddi müqaviməti nəticəsində bolşeviklər hər bir məhəlləni ancaq döyüşlə tuta bildilər. Yalnız mayın 31-də Qırmızı Ordu şəhəri tam tuta bildi. Üsyanın yatırılması zamanı Qırmızı Ordunun əsgərləri və erməni könüllüləri dinc azərbaycanlı əhalisinə qanlı divan tutdular, qocaları, qadınları və uşaqları öldürdülər. Gəncəyə fövqəladə komissar təyin edilmiş H.Sultanov "xalq düşmənləri"ni axtarıb tapmaqda davam edirdi; beləliklə, yüzlərlə gəncəli həbs edilib güllələndi. Bolşeviklərin cəza tədbirləri nəticəsində Gəncədə 13 min nəfərə yaxın adam öldürülmüşdür.

**antisovet üsyanı** (Qarabağ, 1920) - XI Qırmızı Ordu tərəfindən ADR işğal olunan zaman keçmiş Azərbaycan Milli Ordusunun əsas hissələri Ermənistanın təcavüzünə qarşı mübarizə aparmaq məqsədi ilə Qarabağda yerləşirdi. Milli Ordu hissələrindəki döyüşçülərin ümumi sayı 6 min nəfərə yaxın idi. Qırmızı Ordu hissələri qarşısında Milli Ordu hissələrinin tərk-silah edilməsi məsələsi qoyulmuşdu. Hərbi əməliyyatlar 1920-ci il iyunun 10-da başlandı. Bolşeviklər aeroplan vasitəsilə Tərtəri və Milli Ordu mövqelərini bombaladılar. Milli Ordunun müqavimətinə türk generalı Nuru paşa və polkovnik Zeynalov rəhbərlik edirdilər. Qarabağ əhalisinin xeyli hissəsi də milli hissələrə qoşulmuşdu. Say üstünlüyündən istifadə edən Qırmızı Ordu hissələri Tərtəri tutaraq ətraf müsəlman kəndlərini tamamilə darmadağın etmişdilər. Qanlı döyüşlər nəticəsində



downloaded from KitabYurdu.org

iyunun 11-də bolşeviklər Ağdamı, iyunun 14-də Xankəndini və Şuşanı tutdular. Milli Ordu hissələri Qaryagin (indiki Füzuli) və Cəbrayıla tərəf çəkildilər, lakin son nəticədə sayca üstün olan düşmənin təzyiqi ilə Azərbaycan ərazisini tərk etmək məcburiyyətində qaldılar.

**antisovet üsyanı** (Zaqatala, 1920) -Azərbaycanın şimal-qərbində sovet hakimiyyətinin terroru yerli əhalinin narazılığına səbəb oldu. Üsyan Tala kəndində başlandı. 1920-ci il iyunun 5-də silahlı kəndlilər heç bir müqavimətsiz Zaqatalaya daxil olub bolşevikləri həbs etdilər. Zaqatalanın tutulmasından sonra Əhmədiyev və Hafiz Əfəndi başda olmaqla Milli Ordunun bu bölgədə yerləşən hissələri üsyançılara qoşuldular. İyunun 7-də Qaxı ələ keçirən üsyançılar Qumuxçay kənarında XI Qırmızı Ordu hissələrini məğlub etdilər. Bolşeviklər təxirəsalınmadan Qarabağdakı Qırmızı Ordu hissələrini buraya gətirdilər. Hücuma keçən sayca üstünlüyə malik Qırmızı Ordu hissələri Qax ətrafında üsyançıları məğlub etdilər və 1920-ci il iyunun 18-də Zaqatalanı tutdular. Sağ qalmış üsyançılar Gürcüstanda gizləndilər.

**Antoni Mark** (e.ə. 83 - 30) - Qədim Roma dövlət xadimi, sərkərdə. Fələstin və Misirdə savaş dövründə (e.ə. 57 - 55) irəli çəkilmişdir. E.ə. 54-cü ildə



Sezarla yaxınlaşmış və Qalliya müharibəsində iştirak etmişdir. E.ə. 49-cu ildə xalq tribunu seçilmişdir. Romada vətəndaş müharibələri dövründə Sezarı yaxından dəstəkləmiş və e.ə. 48-ci ildə Farsal savaşından sonra süvari qoşunların komandiri təyin olunmuşdur. E.ə. 44-cü ildə Sezarla birlikdə konsul seçilmiş, onun öldürülməsindən sonra isə ilk vaxtlar Sezarın qatillərinə və senata qarşı barışdırıcı mövqe tutmuş və həmişəlik diktaturanı qadağan edən qanun qəbul etdirmişdir. Lakin az sonra Antoni ilə senatın münasibətləri (xüsusilə də onun Qalliyanı idarə etməyə olan iddiaları nəticəsində) kəskinləşmişdi. Senatda Antoniyə qarşı müxalifətə Oktavianın gizli müdafiə etdiyi Siseron başçılıq edirdi. İş o yerə çatmışdı ki, senat Antoniyə qarşı Qalliyaya qoşun göndərmişdi. E.ə. 43-cü ildə Mutin şəhəri yaxınlığında Antoni konsulların və Oktavianın qoşunları tərəfindən məğlub edildi, sonra isə qoşunların təzyiqi ilə Antoni Oktavian və Lepidlə bir ittifaqda birləşdi. E.ə. 42-ci ildə Antoni Oktavianla birlikdə Filipp yaxınlığında Brutun və Kassinin qoşunlarını darmadağın etdi. Bundan sonra əyalətlərin həyata keçirilmiş bölüşdürülməsində Roma imperiyasının şərq əyalətlərinin idarəsi Antoniyə verildi. Şərqdə olduğu müddətdə Antoni Atropatena və Parfiyaya qarşı bir neçə uğursuz yürüşə çıxdı, e.ə. 34-cü ildə isə Ermənistanı Roma vilayətlərinə daxil etdi. Antoni özünü Şərqdə mütləq monarx kimi aparır, Misir hökmdarı Kleopatra ilə yaxınlaşaraq ona və uşaqlarına böyük mülklər hədiyyə edirdi; məsələn: Kleopatradan olan Helios ("Günəş") təxəllüslü oğlu Aleksandrı hələ tutulmayan Ermənistan, Atropatena və Parfiyanın şahlar şahı, Sezarın oğlu Sezari-onu isə Oktavianın əvəzinə Sezarın varisi elan etmişdi. Belə siyasət Antoni ilə Oktavianın münasibətlərinin kəskinləşməsinə və romalılar



downloaded from KitabYurdu.org

arasında ictimai fikrin Antoninin əleyhinə çevrilməsinə səbəb oldu. Senat Kleopatraya müharibə elan etdi. E.ə. 31-ci ildə Aksi burnu yaxınlığında Misir donanması darmadağın edildi, e.ə. 30-cu ildə Oktavian Misirə daxil olduqda isə ciddi müqavimət göstərmək imkanı olmayan Antoni özünü öldürdü.

**antropogenez** (yun. "insanın meydana gəlməsi") - insanın heyvanat aləmindən ayrılması prosesi. Antropogenez 2 milyon il əvvəl Şərqi Afrikada başlanmışdır.

**antropologiya** - insanın meydana gəlməsi və inkişafı haqqında elm.

**antropomorfizm** - insan simalı və insan xüsusiyyətlərinə malik cansız cisimləri ilahiləşdirən ən erkən dinlərdən biri.

**Anu - Şumer** - Akkad mifologiyasındakı üç ali allahdan biri - səma allahı. Anunun daimi titulu "allahların atası"dır. Anunun rəmzi “buynuzlu tac”dır.

**Anubanini** - lullubilərin padşahı. E.ə. XXIII əsrdə hökmdarlıq etmişdir. Onun hakimiyyəti illərində lullubi tayfa ittifaqı (bəzi tarixçilərin güman etdikləri



kimi, dövlət qurumu) Urmiya gölündən İran körfəzinədək geniş ərazini əhatə edirdi. Bu barədə çar Anubanininin İranda indiki Zöhab şəhəri yaxınlığında yerləşən Sar-i pul adlı dağdakı daş stela üzərində oyulmuş yazısı məlumat verir. Relyefdə əsir götürülmüş basçını ayaqları altında tapdalayan Anubanini hökmdar rəmzləri və digər əsirləri çarın qarşısına gətirən İştar ilahəsi ilə təsvir olunub. Akkad mixi yazısında verilmiş mətndə deyilir ki, "qüdrətli hökmdar, lullubilər ölkəsinin hökmdarı [Anubanini] Batir dağında öz təsvirini və İştarın təsvirini çəkmişdir".

**Anubis** (yunanca), İnpu (Qədim Misir dilində) - Misir mifologiyasında ilahə - ölənlərin himayədarı. Uzanmış qara çaqqal və ya vəhşi it (yaxud çaqqal və ya it başlı insan) simasında pərəstiş edilirmiş. Anubis allahların hakimi hesab edilirdi. Anubis ölülər şahlığında baş allah idi, o, ölənlərin ürəyini oxuyurmuş. Cəsədi balzamlamağa hazırlamaq və mumiyaya çevirmək Anubisin mühüm vəzifələrindən biri idi.

**aparteid** - vaxtilə CAR-ın hakim dairələri tərəfindən Afrikanın yerli əhalisi və Hindistandan köçürülmüşlərə qarşı həyata keçirilən dözülməz irqi diskriminasiya və seqreqasiya siyasəti. BMT tərəfindən qəbul olunmuş bir sıra sənədlərdə aparteid bəşəriyyətə qarşı cinayət elan edilib.

**Apis** – Qədim Misir mifologiyasında öküz qiyafəsində olan münbitlik allahı. Apisin mücəssəməsi xüsusi ağ ləkələri olan qara Öküz idi. Qədim misirlilər inanırdılar ki, Apis-öküzün qaçma ayini tarlaları münbitləndirir. Ptolemeylərin dövründə Osirisin Apislə vahid Serapis allahda birləşməsi baş vermişdir. Apis-öküzün Ölümü böyük bədbəxtlik hesab olunurmuş. Ölmüş apisi balzamlayır və Memfis yaxınlığında xüsusi mərasimlə basdırırmışlar.



downloaded from KitabYurdu.org

**apolitizm** - siyasətə, ictimai həyatda iştirak etməyə zidd və ya etinasız münasibət.

**Apollon** - qədim yunan əsatirlərində Olimp allahı, incəsənətin və bədii ilhamın himayədarı. Aşkar hiss olunur ki, Apollon yunanlara qədər meydana



gəlmişdir. Əvvəllər Apollona həm məhvedici, həm də şəfaedici xüsusiyyətlər şamil imiş. Apollonun oxları qocaları öldürür, taun gətirir, bəzənsə heç bir səbəb olmadan məhv edir. Digər tərəfdənsə Apollon həkim və xəstəliklərdən qoruyucudur; ovçu, çoban və sürülərin keşikçisidir; şəhərlərin əsasını qoyan və tikənidir; musiqiçi, müğənni və çalğıçıların himayədarıdır; peyğəmbər və orakuldur (qeybdən xəbər verəndir). Yunanlar tədricən Apollonun dayanıqlı keyfiyyətlərini fərqləndirməyə başlayırlar. O, artıq insanlara yardım edən, müdriklik və incəsənət öyrədən, şəhərlər tikən, onları düşmənlərdən qoruyan, atalıq hüququnun müdafiəçisi kimi çıxış edən allaha çevrilir. Delfa məbədinin əsasının qoyulması, bu məbəddə sacayağında əyləşmiş, gələcəkdən ikibaşlı xəbər verən "Pifiya" adlanan kahinin yaradılması Apollonun adı ilə bağlanılır. Delfada Apollonun şərəfinə təmtərağı və kütləviliyinə görə yalnız Olimpiya Oyunlarından geri qalan Pifiya Oyunları keçirilirmiş.

**Aramilər** – vətəni Ərəbistan yarımadası olan köçəri tayfalar. E.ə. XIV - XI əsrlərdə aramilər Suriya, Finikiya, Mesopotamiyada yayılmışlar. Arami dili Əhəmənilər dövlətində rəsmi yazılı dövlət dillərindən biri olmuşdur. Eramızın əvvəllərinə qədər arami dili bütün Ön Asiyanın danışıq dilinə çevrilmişdir. Aramilərin törəmələri müasir assurlar - İraqda və Cənubi Qafqazda yaşayan aysorlardır.

**Aran** - albanların əfsanəvi əcdadı və Qafqaz Albaniyasının ilk hökmdarı. Alban tarixçisi Moisey Kalankatlının yazdığı "Alban tarixi "ndə adı çəkilir. Tarixçinin fikrincə, Albaniya adı Aranın adından yaranmışdır. Orta əsrlərdə ərəb tarixçiləri Qafqaz Albaniyasını "Arran " adlandırmışlar.

**Ares** - qədim yunan əsatirində Zevsin və Heranın oğlu, müharibə allahı. Romalılar onu Marsla eyniləşdirirdilər.

**arxaika** - müstəqim mənada e.ə. VIII -VI əsrlər yunan mədəniyyəti. Hər hansı mədəniyyətin erkən mərhələsini də arxaika adlandırırlar.



**arxeologiya** (yun. "keçmiş haqqında elm") - maddi mənbələr əsasında bəşəriyyətin tarixi keçmişini öyrənən elm. Arxeoloqlar qədim qəbir və yaşayış məskənlərini qazıyır, tapılmış tikili və əşyaları konservasiya və bərpa edir, onları öyrənir və təsnifatını verir, qazıntılar və tapılmış əşyalar haqqında hesabatlar dərc etdirir və qazıntıların yekunlarını şərh edirlər. Arxeoloqlar maddi mənbələri qoruyub saxlamağa, onların



downloaded from KitabYurdu.org

tarixini müəyyənləşdirməyə, habelə tapılmış qalıqlara əsasən keçmişi hərpa etməyə imkan verən mürəkkəb qazıntı texnikası işləyib hazırlamışlar. Arxeologiya təsərrüfat və mədəniyyət tarixini öyrənməyə kömək göstərir, yazısız dövrün ictimai tarixini müəyyən mənada bərpa etməyə imkan verir.

**arxeoloji xəritəçəkmə** - müxtəlif tarixi hadisələrin coğrafi xəritədə arxeoloji məlumatlara əsaslanmış qrafik təsvirinin verilməsi ilə məşğul olan tarixi xəritəçəkmənin xüsusi sahəsi.

**arxeoloji mədəniyyət** - cyni dövro aid vo müəyyən ərazidə cəmlənmiş oxşar arxeoloji abidələrin qeyd olunması üçün istifadə edilən termin.

**Arximed** (e.ə. 287 - 212) - qədim yunan riyaziyyatçısı, astronomu, ixtiraçısı. Museyonda işləmiş, sonra isə Siciliya adasındakı qədim yunan



koloniyasında - Sirakuza şəhərində yaşamışdır. Suqaldıran ling-maşın ixtira etmişdir. O, fizikanın suya batmış hər cismə sıxılmış mayenin çəkisi qədər itələyici qüvvənin təsir etməsi qanununu kəşf etmişdir. E.ə. 212-ci ildə Sirakuzanı tutmuş romalılar tərəfindən öldürülmüşdür.

**Ariadna** - qədim yunan əsatirində Krit hökmdarı Minosun qızı. O, Minotavrı öldürən Teseyə labirintdən çıxmaq üçün sap yumağının köməyi ilə yardım etmişdir. "Ariadna sapı" ifadəsi buradan meydana gəlmişdir.

**arilər** - e.ə. 2000-ci ilə yaxın Mərkəzi isiyadan Hindistana soxulmuş Hind-İran köçəri tayfalarının özlərinə verdikləri ad. Hindisumda ariler tədricən yerli əhali ilə qarışaraq onlarla birlikdə hindxalqını təşkil etdilər. İran və Cənubi Azərbaycan ərazilərində yerli əhali ilə qarışan arilərdən, o cümlədən Azərbaycan ərazisində bir çox irandilli tayfalar - parfiyalılar, farslar, midiyalılar, saqartilər, kadusilər, mardlar, kirtilər və b. meydana gəlmişdilər. Faşist Almaniyasında "ari". "arilər", "arilik" kimi terminlərdən istifadə qərəzkar xarakter daşıyırdı və elmi məna ilə heç bir əlaqəsi yox idi.

**Aristofan** (e.ə. 445 - 385) - qədim yunan şairi, komediya yazam. Afinalı Aristofan insanın zəifliyini və nöqsanlarını tənqid edən, incəliyi və istehzalılığı ilə fərqlənən 44 komediya yazmışdır. Onlardan nisbətən məşhurları "Quşlar", "Arılar", "Sərvət", "Dünya", "Qurbağalar" əsərləridir. Aristofanın komediyalarından on biri dövrümüzə gəlib çatmışdır.

**aristokratiya** (yun. "yaxşıların hakimiyyəti) - 1) Qədim Yunanıstanda hakimiyyətin qəbilə əyanlarının nümayəndələrinə mənsub olduğu idarə sistemi; 2) mənşəyini qədim qəbilə əyanlığından götürmüş xüsusi hüquq və üstünlüklərə malik imtiyazlı silk.

**Aristotel** (e.ə. 384-322) - qədim yunan filosofu və alimi. 17 yaşında Afinaya gəlmiş və Platonun Akademiyasına daxil olmuşdur. Əvvəlcə burada şagird olan Aristotel sonra müəllimlik etmişdir. E.ə. 343-cü ildə Makedoniyalı İsgəndərin müəllimi olmuşdur. E.ə. 335-ci ildə Afinaya qayıtmış və likey fəlsəfi məktəbinin əsasını qoyaraq orada 12 il dərs demişdir. Aristotelin əsərləri biliyin müxtəlif



downloaded from KitabYurdu.org

sahələrini - məntiq, fizika, zoologiya, psixologiya, etika, siyasət, ritorika, poeziyanı əhatə edir. Aristotel öz dövrünədək əldə edilmiş bütün bilikləri ayrı-ayrı sahələr üzrə bölüşdürərək onları müstəqil elmlərdə birləşdirmişdir. Aristotel elmlərə ad da - botanika, fizika, siyasət (politika) və s. vermişdir.

**arqonavtlar** (yun. "Arqo"da üzənlər") -qədim yunan əsatirində "Arqo" gəmisində qızılyunlu qoç dərisini gətirmək üçün Yasonun başçılığı ilə Kolxidaya gedən qəhrəmanlar.

**Arran** - orta əsrlərdə ərəb tarixçilərinin Qafqaz Albaniyasına verdikləri ad.

**Artemida** - qədim yunan əsatirlərində ovçuluq ilahəsi, heyvanların himayəçisi, Ay ilahəsi; sonralar - qadın ismətinin himayəçisi. Artemida məbədlərindən ən çox məşhur olanı Efes şəhərindəki (Kiçik Asiya) Artemision məbədi idi.

**Artemision** - e.ə. V əsrdə Kiçik Asiyadakı yunan şəhəri Efesdə memar Xersifronun layihəsi ilə inşa edilmiş Efesli Artemidanın məbədi. Artemision qədimdə "dünyanın yeddi möcüzəsi"ndən biri hesab edilirdi. Hələ qədimdən Kiçik



Asiya şəhərlərində Artemida ilahəsinə sitayiş edirdilər. Burada yunan ovçuluq himayəçisi kultu yerli Asiya məhsuldarlıq, bərəkət kultu ilə qovuşmuşdur. Artemidaya – məhsuldarlıq ilahəsinə mərkəzi sitayiş yeri Efes şəhəri idi. Efes varlı ticarət şəhəri idi və efeslilər Artemidanın şərəfinə misilsiz məbəd tikmək qərarına gəlmişdilər. Memar Xersifron tikintinin başa çatmasından xeyli əvvəl ölmüş, Artemisionun inşası isə onun oğlu Metagen tərəfindən davam etdirilmişdir. Lakin Metagen də tikintinin başa çatmasınadək yaşamamışdır, belə ki, rəvayətə görə, Artemisionun tikintisi 120 il davam etmişdir. Memarlar Peonit və Demetri Artemisionun tikintisini başa çatdırmışlar. Miqyasına görə o vaxta kimi inşa edilmiş bütün məbədlərdən ən əzəmətlisi olan bu tikili əvvəllər məlum olmayan yeni iş üsullarının tətbiqini, tikinti texnikasını təkmilləşdirməyi tələb edirdi. Artemisionun inşası başa çatdıqdan sonra isə onu seyr edənlərin hamısı bu məbədə heyran oldu. Amma Artemision cəmi yüz ilədək qəlbləri oxşadı. E.ə. 356-cı ildə öz adını əbədiyyətə qovuşdurmaq istəyən Herostrat adlı bir efesli Artemisionu məhv etmək qərarına gələrək onu yandırmışdı. Yanğın nəticəsində məbədin damı uçmuş, divarları və sütunları yanıb qaralmışdı. Herostratın cinayəti yunanların qəzəbinə səbəb olmuşdu. İoniya dövlətləri birgə qərar qəbul etmişdilər ki, Herostratın adı unudulsun. Lakin bir sıra qədim yazıçıların əsərlərində onun haqqında məlumat qalmışdır. İndi "Herostrat şöhrəti" ifadəsi mövcuddur. Bəd əməli və ya cinayəti ilə "tanınan" adamlar haqqında bu cür deyirlər. Efeslilər qərara almışdılar ki, Artemisionu yenidən inşa etsinlər və məbədin bərpası üçün vəsait toplamağa başlamışdılar. E.ə. 333-cü ildə Makedoniyalı İsgəndər özünün "Şərq yürüşü" zamam Efesə çatdıqda artıq məbədin



downloaded from KitabYurdu.org

bərpası üzrə iş tam sürətlə gedirdi. İsgəndər efeslilerə təklif etdi ki, o, əvvəllər çəkilmiş xərcləri və işin tamamlanmasını öz hesabına ödəyir, bir şərtlə - məbədin üzərində onun adına yazı olsun. Amma efeslilər onun təklifini rədd etdilər və Artemisionu Makedoniya hökmdarının yardımı olmadan tikib qurtardılar. Artemisionun çox böyük sahəsi (110 x 55 m) var idi. Məbədi hündürlüyü 18 m olan 127 mərmər sütun əhatə edirdi. Yenidən relyeflərlə bəzədilmiş daha 30 sütun inşa olunmuşdu. Bu sütunlar Artemisionun gözəlliklərindən biri idi. Məbədin içəri hissəsinə mərmər plitələr döşənmişdi. Məbədin əsas geniş salonunda isə ilahənin 15 m hündürlüyü olan heykəli var idi. İlahənin üzü, əllərinin və ayaqlarının pəncəsi taxtadan düzəldilmişdi. Qalan üst təbəqə bütövlükdə qızıl bərbəzək və daş-qaşla örtülmüşdü. Məbəd yenidən tikilərkən bir çox məşhur rəssam və heykəltəraşlar onu öz əsərləri ilə bəzəmişdilər. Artemision qədim dövrün ən məşhur muzeylərindən biri, habelə xəzinə və bank olmuşdur. Məbədin kahinləri faizlə pul verirdilər. Məbədin torpaqları da var idi. Romalıların dövründə məbəd əvvəllərdə olduğu kimi yenə də varlandı. E.ə. 263-cü ildə qotlar Artemidanın adına olan müqəddəs məbədi tutub talan etdilər. Sonra xristian din xadimləri dəfələrlə fanatik kütlələri bütpərəstlik ilahəsinin məbədi üzərinə hücuma təhrik etmişdilər. Bizans dövründə dağıdılmış Artemisionun yerində xristian kilsəsi inşa edilmişdir. Digər tikinti işlərinin aparılması zamanı müqəddəs Artemisionun mərmər örtüyündən də inşaat materialı kimi istifadə olunmuşdur. Dağıdılmış məbədin xarabalıqları tədricən bataqlığa çökmüşdür. XIX - XX əsrlərdə ingilis arxeoloqları Efes şəhərinin olduğu yerdə qazıntı işləri aparmışlar. Qazıntı materiallarını öyrənən rəssam və memarlar Artemisionun yalnız planını bərpa edə bilmişlər.

**Arşakilər** - Parfiyada hökmdar sülaləsi (e.ə. 250 - eramızın 224-cü ili); ənənəyə görə, mənşəyini dövlətin banisi və ilk Parfiya hökmdarı olan Arşakdan götürmüşdür. Eramızın əvvəllərində Parfiya Arşaki sülaləsinin kiçik (yan) qolu Parfiyadan asılı olan Hindistan, Persida, Elimaida, Atropatena, Hirkaniya, Ermənistan, İberiya və Qafqaz Albaniyasında hakimiyyətə gəlmişdi.

**Asparux** - VII əsrin ortalarında xəzərlər tərəfindən Azov sahillərindən Bessarabiyaya sıxışdırılan türk bulqar tayfasının xanı. Bulqar tayfaları buradan Bizans imperiyası tabeliyində olan Dunayın sağ sahil torpaqlarına köçdülər. Cənubi slavyanların yerli tayfalarını 681-ci ildə tabe edən Asparux burada Bulqar xanlığını yaratdı. O, 701-ci ilədək Bulqariyanı idarə etdi.

**Asiya** - planetimizdə ən böyük qitə, ərazisi təqribən 43,4 mln. km$^2$. Avropa ilə birlikdə Avrasiya materikini əmələ gətirir. Asiya ilə Avropa arasında sərhəd şərti olaraq Ural dağlarının şərq ətəkləri, Emba çayı (Xəzər dənizinə qədər), Kuma-Manıç çökəkliyi, Azov dənizi, Qara və Mərmərə dənizləri, Bosfor və Dardanel boğazları və Egey dənizindən keçir. Şimali Amerikadan Berinq boğazı ilə ayrılır. Afrika ilə Süveyş bərzəxi vasitəsilə birləşir. Şimal Buzlu, Sakit və Hind okeanları və onların dənizləri ilə əhatə olunub.



downloaded from KitabYurdu.org

**assimilyasiya** (lat. "oxşatma", "uyğunlaşdırma") - bir xalqın digər xalqla öz dilini. mədəniyyətini və s.-ni itirmək yolu ilə qarışması. Təbii və zorakı assimilyasiya mövcuddur. Təbii assimilyasiya heç bir məcburiyyət edilmədən milli azlıqların uzun müddət aralarında yaşadıqları daha böyük millətlə tədricən qovuşması yolu ilə gedir. İmperiyalarda, o cümlədən Rusiya imperiyasında tabelikdə olan xalqların zorakı, məcburi assimilyasiyasından (ruslaşdırmadan) geniş istifadə edilirdi.

**Assuriya** - Şimali Mesopotamiyada qədim dövlət (e.ə. XIV - VII əsrlər). E.ə. IX əsrədək Assuriyanın yeganə paytaxtı Aşşur şəhəri idi, e.ə. 689-cu ildən isə Nineviya (Neynəva) oldu. E.ə. VIII - VII əsrlərdə Assuriya Ön Asiyanın ən qüdrətli dövləti idi. Assurlar bütün Mesopotamiyanı, Suriyanı, Finikiyanı, Cənubi Azərbaycanda Manna və Midiyanın bir sıra vilayətlərini və qısa müddətə Misiri fəth etdilər. E.ə. 714-cü ildə Assuriya hökmdarı II Sarqon Urartuya dağıdıcı zərbə endirdi. Aramsız mühahbələr Assuriyanın qüdrətini sarsıdırdı. E.ə. 612-ci ildə müttəfiqlər - başda hökmdar Kiaksar olmaqla Midiya qoşunları və başda hökmdar Nabopalassar olmaqla Babil qoşunları hücumla Nineviyanı tutub dağıtdılar. E.ə. 605-ci ildə sonuncu assur qalası olan Karxemiş süqut etdi və Assuriyanın varlığına son qoyuldu. Midiya və Babilistan Assuriyanın keçmiş torpaqlarını öz aralarında bölüşdürdülər.




**Astarta** - finikiyalıların və xaldeylərin dinində məhsuldarlıq və məhəbbət ilahəsi (Finikiya dilində - Aştart). Astartaya sitayiş Suriyada, Fələstində, Misirdə, Kiçik Asiyada, Babilistanda (burada - İştar), Kiprdə yayılmışdı. Ellinizm dövründə bütün Aralıq dənizi ətrafında Astartaya sitayiş edilirdi.

**Astiaq** - Kiaksarın oğlu, sonuncu Midiya hökmdarı (e.ə. 585 - 550). Astiaq Babilistan şahlığını tutmaq istəyirdi. Onun dövründə Midiyanın daxili vəziyyəti gərginləşdi. Astiaq əyanların hüququnu məhdudlaşdırmaq istəyirdi və bu zaman başda Harpaq olmaqla Midiya əyanlarının bir qismi Midiyadan asılı olan fars hökmdarı Kirlə gizli sövdələşməyə başladı. Herodotun verdiyi məlumata görə, Kir Astiaqın qızının oğlu imiş. Rəvayətə görə, haçansa Astiaqa söyləyiblərmiş ki, onun nəvəsi taxt-tacını əlindən alacaq və bütün Asiyanı fəth edəcək. Bundan qorxan Astiaq taleyi aldatmaq məqsədi ilə qızını midiyalıya deyil, ondan asılı olan fars hökmdarına ərə verir. Qızının oğlu olduqda isə maqlar bildirirlər ki, o, hökmdar olacaq. Astiaq əmr edir ki, nəvəsini öldürsünlər, lakin bu əmri alan saray adamının körpəyə yazığı gəlir və onu tərbiyə edilmək üçün bir çobana verir. Kir böyüyür və Midiyanın tabeliyində olan Fars dövlətinin hökmdarı olur.

E.ə. 553 - 550-ci illərdə Astiaqa qarşı aparılan müharibədə döyüş zamanı Midiya əyanlarının rəhbərlik etdikləri Midiya qoşunlarının bir hissəsinin onun tərəfinə keçməsi sayəsində Kir qələbə çalır və Midiyada hakimiyyəti ələ keçirir.



downloaded from KitabYurdu.org

**astrologiya** - astronomiyanın Qədim Şərqdə meydana çıxmış bir sahəsi. Orta əsrlərdə astrologiya Avropa ölkələrində də geniş yayılmışdır. Astroloqlar ulduzların düzümü ilə tarixi hadisələr, ayrı-ayrı adamların taleləri arasında bir bağlılıq olduğunu bildirirdilər. Onlar iddia edirdilər ki, ulduzların vasitəsilə gələcəyi müəyyən etmək olar.

**aşıq** - Azərbaycanda el şairi, çalğıçı, bəstəkar, müğənni.

**Aşoka** - Qədim Hindistanda çar (e.ə. 273 - 232). Aşoka ara müharibələrindən sonra atasının taxt-tacını ələ keçirmişdir. Aşoka tayfa müharibələrini ittiham edən və birləşmiş dövləti təbliğ edən buddizmi qəbul etmişdi. Ucqar cənubdan başqa, demək olar ki, bütün Hindistan Aşokanın hakimiyyəti altında birləşdirilmişdi. Aşokanın hakimiyyəti illəri Hindistan mədəniyyətinin, memarlığının inkişafı, yazının yayılması dövrüdür. Aşokanın ölümündən sonra onun çarlığı dağılmışdır.



**Aşşur** - 1) assurların şərəfinə saldıqları eyniadlı şəhərdə məbəd və zikkuratlar ucaltdıqları dinlərindəki baş allah; 2) e.ə. III minilliyin sonlarında Assuriyada salınmış şəhər. E.ə. II minilliyin ortalarından Assuriyanın paytaxtı. E.ə. IX əsrin ortalarından assur çarlarının iqamətgahı sırasından çıxarılır, bununla belə, paytaxt olaraq qalır. Aşşur ümumdövlət vergi və mükəlləfiyyətlərindən azad olunmuşdu. E.ə. 614-cü ildə Aşşur Kiaksarın başçılıq etdiyi midiyalılar tərəfindən tutulub darmadağın edilmişdi. Qazıntılar zamanı arxeoloqlar Aşşurdan mixi yazılı mətnlərdən ibarət kitabxana aşkar etmişlər.

**atabəy** (türk. "bəyin atası") - 1) səlcuq sultanlarının azyaşlı vəliəhdlərinin tərbiyəçisi və qəyyumları; 2) Səlcuqilər dövlətinin süqutu nəticəsində meydana gəlmiş sultanlıqların başçılarının titulu; 3) Misirdə məmlük sərkərdəsi.

**Atatürk** - böyük türk sərkərdəsi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923 - 38) Mustafa Kamal Atatürk. Mustafa 1881-ci il martın 12-də Saloniki şəhərində (Yunanıstan) keçmiş gömrük məmurunun ailəsində anadan olmuşdur. O, 12 yaşında Türkiyədə hərbi məktəbə daxil olmuş, 1904-cü ildə oranı bitirmiş və İstanbulda Baş Qərargah Akademiyasına daxil olmuşdur. Mustafa təhsil aldığı illərdə "Gənc türklər" hərəkatına böyük maraq göstərmişdir. Riyaziyyat sahəsindəki müvəffəqiyyətlərinə görə o, "Kamal" ləqəbini almışdı. Bu ləqəbdən xoşu gələn gənc zabit onu öz adına qoşmuşdur. 1905-ci ildə hərbi akademiyanı bitirən Mustafa Kamal kapitan rütbəsi alaraq Suriyada xidmətə göndərilmişdi. Mustafa 1911 - 12-ci illər İtaliya - Türkiyə müharihəsində Liviyanın müdafiəsində, 1913-cü il ikinci Balkan müharihəsində isə Dardanelin müdafiəsində iştirak etmişdir. Bu savaşlar zamanı Mustafa Kamal özünü cəsur və istedadlı zabit kimi göstərə bilmişdir. Lakin Mustafa Kamal Birinci Dünya müharibəsi illərində əsl məharətini nümayiş etdirə bilmişdi. Polkovnik Mustafa Kamal 1915-ci ildə Hallipoli yarımadasındakı Rodosto rayonunda 19-cu diviziyaya komandirlik



downloaded from KitabYurdu.org

etmişdir. O burada bir neçə aylıq ağır savaşlardan sonra ingilis desantını məğlubiyyətə uğratmışdı və bundan sonra - ta İkinci Dünya müharibəsinədək zabitlər desant əməliyyatının effektliliyinə şübhə etməyə başladılar. Mustafa Kamal həmin yarımadanın müdafiəsi üçün 1916-cı ildə general rütbəsi aldı və 16-cı korpusa komandanlıq edərək Anadolunu müttəfiqlərdən uğurla müdafiə etməyə başladı. Lakin Mustafa Kamalın uğurları, eləcə də alman generallarının ağalığından narazılığı hərbi naziri qəzəbləndirmişdi və o, 1917-ci ildə Mustafa Kamalı "sağlamlığı ilə əlaqədar" ordudan azad etmişdir. Amma bir il sonra - türklər Birinci Dünya müharibəsində məğlub olan zaman nazir yenidən Mustafa Kamalı xidmətə çağırdı və Fələstindəki 7-ci orduya rəhbər təyin etdi. Rəqiblərinin ordusunun onun döyüşçülərindən sayca dəfələrlə çox olması ucbatından Mustafa Kamal yalnız öz qoşunlarını əvvəlcədən hazırlanmış mövqeyə aparmaq məcburiyyətində qaldı. Osmanlı imperiyası Birinci Dünya müharibəsindən çıxdı və hələ müttəfiqlər Periyanı bölüşdürmək haqqında fikirləşdikləri zaman sultanın İstanbulda kiçik ordu saxlamağa vəsaiti qalmışdı. Müttəfiq qoşunları İstanbulu daxil olanda və yunanlar 1919-cu ilin fevralında İzmiri tutduqları vaxt sultan Mustafa Kamalı işğalçılara qarşı etiraz edənləri tabe etmək üçün baş müfəttiş təyin etdi. Mustafa Kamal bunun əvəzində türkləri Türkiyənin müstəqilliyinin həm daxili, həm də xarici düşmənlərinə qarşı ruhlandırmağa başladı. 1919-cu il mayın 19-da sultanın onu vəzifəsindən uzaqlaşdırmaq cəhdinə məhəl qoymayan Mustafa Kamal bütün türklərə çağırışla müraciət edib, onları öz müstəqillikləri uğrunda mübarizəyə qoşulmağa çağırdı. Mustafa Kamal 1920-ci ilin aprelində Ankarada müvəqqəti hökumət yaratdı və vətənpərvərlərin silahlı birliklərinə rəhbərlik edərək 2 il ərzində yunan işğalçılarını ölkədən qovdu. Xarici təhlükəyə son qoyulduqdan sonra Mustafa Kamal qoşunlarını İstanbul üzərinə yeridib, 1922-ci il noyabrın 1-də sultan hakimiyyətini ləğv etdi. 1923-cü il oktyabrın 29-da Mustafa Kamal Türkiyəni respublika elan etdi, özü isə respublikanın ilk prezidenti oldu. Bundan sonra o, islamın təsirini məhdudlaşdıran islahatlar keçirdi, Avropa nümunəli qanunlar, inzibati sistem və geyimlər tətbiq etdi. Mustafa Kamal qanun qarşısında bütün vətəndaşların bərabərliyi nöqteyi-nəzərindən çıxış edərək hərbi və mülki hakimiyyətlərin əməkdaşlığını dəstəkləmişdi. Türkiyə Böyük Millət Məclisi 1934-cü ildə Mustafa Kamala Atatürk titulu verdi. 1938-ci il noyabrın 10-da Atatürk 57 yaşında vəfat etmişdir.



**ateizm** - hər cür dini inkar edən dünyagörüşü sistemi. Ateizm hələ Qədim Misirdə meydana çıxmışdır. Orta əsrlərdə bidətçilik pərdəsi altında mövcud olmuşdur. XVIII əsr fransız maarifçilərinin ideyaları ateizmin inkişafında mühüm



downloaded from KitabYurdu.org

addım idi. Müasir ateizm dünyanın elmi cəhətdən dərk olunmasının inkişafına əsaslanır.

**Atəşgah** - XVII əsrdə atəşpərəst hindli tacirlər - parslar tərəfindən



Bakının yaxınlığındakı Suraxanı kəndində inşa edilmiş məbəd. Gəlmə parslar eşitmişdilər ki, Bakı yaxınlığında təbii qaz sızan yer var və ora gedərkən onun üzərində sönməyən alovun olduğunu görmüşlər. Onlar həmin alov üzərində məbəd tikməyi qərara almışlar və o, "Atəşgah" ("Od yeri") adlandırılmışdır.

**Atlant** - qədim yunan əsatirinə görə, titan (div); Olimp allahlarına qarşı savaşda iştirak etdiyi üçün allahlar tərəfindən göy qübbəsini çiynində saxlamağa məhkum edilmişdir.

**Atropat** - Atropatena dövlətinin yaradıcısı və ilk hökmdarı, Atropatilər sülaləsinin banisi. Əhəmənilər şahı III Daranın dövründə Midiyanın satrapı idi. Belə güman etməyə əsas var ki, Atropat əvvəllər də Midiyanın irsi hakimi olmuşdur. O, Qavqamela yaxınlığında Makedoniyalı İsgəndərə qarşı savaşda midiyalılara, kadusilərə, albanlara və sakesinlərə başçılıq edərək Əhəmənilərin tərəfində vuruşmuşdur. Əhəmənilər dövlətinin paytaxtları süqut etdikdən sonra Atropat Makedoniyalı İsgəndərə münasibətdə mötədillik göstərmişdir. E.ə. 328-ci ildə Makedoniyalı İsgəndər Atropatı Yuxarı Midiyanın satrapı təyin etmişdir. Makedoniya qoşunları Hindistana yürüş edən zaman baş vermiş üsyanı yatıran Atropat üsyançıların başçısı Bariaksı Makedoniyalı İsgəndərə göndərmiş və bununla da fatehin daha çox etibarını qazanmışdır. Makedoniyalı İsgəndər Nisa çöllərində dincələrkən Atropat da buraya gəlmiş və ona süvari amazonlardan ibarət 100 nəfərlik dəstə bağışlamışdır. Atropat öz qızını İsgəndərin görkəmli sərkərdələrindən olan Perdikkaya ərə vermişdir. İsgəndərin ölümündən sonra isə onun yaratdığı möhtəşəm dövlətin idarə edilməsi məhz Perdikkaya həvalə olunmuşdur. Perdikkanın hakimiyyəti illərində Atropat Yuxarı Midiyanın satrapı kimi öz mövqeyini daha da möhkəmlətmişdi. Atropat Perdikkanın vəfatından sonra e.ə. 321-ci ildə müstəqil hökmdar oldu. Bundan sonra onun dövlətini Midiya-Atropatena adlandırmağa başladılar. Bununla da Atropat yeni sülalənin əsasını qoymuş oldu.

**Atropatena** - Urmiya gölü ətrafında və Arazın hər iki sahilində - müasir Cənubi Azərbaycan, İran Kürdüstanı və Şimali Azərbaycanın bir hissəsində yerləşmiş qədim dövlətin yunanca adı. Atropatena dövləti e.ə. 321-ci ildə - Makedoniyalı İsgəndərin dövləti onun diadoxları arasında parçalandıqdan sonra yaranmışdır. Atropatın tabeliyindəki torpaqlar bölgüyə daxil olmayıb, müstəqil dövlətə çevrildi. Onun ərazisi Əhəmənilərin keçmiş Midiya satraplığının şimal hissəsini əhatə edirdi. Yeni dövlətin yaradıcısı Atropat olduğundan o, Midiya-Atropatena (Mada-Atarpatakana), yəni "Atropatın Midiyası" və ya sadəcə olaraq Atropatena (Atarpatakana), yəni "Atropatın dövləti" adlandırıldı.



downloaded from KitabYurdu.org

"Atarpatakana"dan sonralar "Azərbaycan" (ərəbcə forması) adı yarandı. Atropatena ərazisində bir çox tayfalar -anariaklar, kadusilər, kaspilər, kirtilər, mardlar, matienlər, müklər, ortokoribantilər, pantimatlar, parikanilər, parsilər, utilər və b. yaşayırdılar. Lakin tarixçilərin fikrincə, burada aparıcı rol sayca və dil üstünlüyünə görə çoxluq təşkil edən Midiya tayfalarına məxsus imiş. Strabon bildirir ki, Atropatena "hərbi qüvvə baxımından kifayət qədər güclü ölkədir, belə ki, o, savaş zamanı 10 min süvari və 40 min piyada çıxara bilər". Atropatenada əhalinin əkinçiliklə məşğul olduğu bərəkətli vadilər var idi. Burada üzümçülük və şərabçılıq xüsusilə inkişaf etmişdi. Atropatenada məbədlərə məxsus torpaq sahibliyi də inkişaf etmişdi. Antik müəlliflərin bildirdiklərinə görə, Atropatenada maqlara məxsus bərəkətli torpaqlar var idi. Atropatenada quldarlıq mövcud olmuşdur. "Midiya otu"nun (qarayonca) bitdiyi geniş alp çəmənlikləri Atropatenada köçəri maldarlığın inkişaf etməsinə şərait yaratmışdır. O dövrlərdə Atropatenada Nisey atlan bəslənilirdi. Ölkə faydalı qazıntılarla - metal filizləri və neftlə zəngin idi. Antik dövrdə neftdən hərbi işlərdə istifadə olunan "Midiya yağı" düzəldirdilər. Müstəqil dövlətin meydana gəlməsi Atropatenanın iqtisadi həyatının canlanmasına səbəb oldu. Atropatenadan yerli və beynəlxalq əhəmiyyətli ticarət yolları keçirdi. Atropatenanın şəhər həyatı kifayət qədər inkişaf etmişdi. Antik mənbələrdə Atropatenanın əhəmiyyətli şəhərlərindən Aqanzana, Qazaka, Paytakaran, Fanaspa, Fraaspa (Fraata, Faraspa) və s.-nin adları çəkilir. Güman edilir ki, artıq Atropatın dövründə Atropatenanın paytaxtı Qazaka şəhəri olmuşdur. Atropatenada əsas tikinti materialı daş, ağac və bişmiş kərpic idi. Atropatenada sənətkarlıq da xeyli inkişaf etmişdi: Atropatena sənətkarları müxtəlif saxsı qablar, o cümlədən zoomorf, naxışlı və şirli qablar istehsal edirdilər. Ölkənin sərvətləri bir çox fatehi özünə cəlb edirdi. Atropatenada ellin monarxiyasına bənzər siyasi quruluşun formalaşdığı ehtimal olunur.






Antik mənbələrin verdiyi məlumata görə, Atropatın varisləri - Atropatilər makedoniyalıları öz ölkələrinə "buraxmırdılar"; görünür, burada Atropatenanın öz müstəqilliyini qoruması nəzərdə tutulur. Antik mənbələrə görə, e.ə. III əsrin 20-ci illərində hökmdar Artabazanın dövründə Atropatenanın ərazisi təkcə cənuba deyil, həm də Arazdan şimalda Rioni çayının yuxarı axarlarınadək uzanaraq İberiyanı da əhatə edirdi. Həmin dövrdə atropatenalıların Gürcüstanda hökmranlığı haqqında gürcü mənbələri də məlumat verir. Bu dövrdə Atropatilərlə erməni çarları, eləcə də Atropatena və erməni əyanları arasında bağlanmış nikahlar sayəsində Atropatena və Ermənistan arasında sıx əlaqələr yaranır. Müəyyən dövrdən sonra Selevki hökmdarı III Antiox Artabazanla müharibəyə başlayır; nəticədə Atropatena bir



downloaded from KitabYurdu.org

müddət Selevkilər dövlətindən asılılığı qəbul etmək məcburiyyətində qalır. E.ə. 190-cı ildə Maqneziya yaxınlığında döyüşdə III Antiox romalılara məğlub olduqdan sonra Atropatena yenidən tam müstəqillik əldə edir. Strabonun bildirdiyinə görə, e.ə. II əsrin ortalarında iki erməni çarlığı işğalçı siyasətə başlayaraq Atropatenanın "Kaspiana, Favnitida və Basoropeda" vilayətlərini tutur. E.ə. II əsrin ortalarında Atropatenanın güclənməkdə olan Parfiya ilə müttəfiqlik münasibətləri yaranır. Bu yaxınlaşmada atropatenalılarla parfiyalıların dil baxımından yaxın olmalarının və eyni dinə - zərdüştiliyə sitayiş etmələrinin mühüm əhəmiyyəti var idi. Az sonra Parfiya ilə Roma Yaxın Şərqdə ağalıq etmək üstündə öz aralarında mübarizəyə başlayırlar. Atropatena, Ermənistan və Qafqaz Albaniyasında parfiyalıların mövqeyi möhkəmlənir və onlar bu ölkələrin daxili işlərinə qarışmağa başlayırlar. E.ə. I əsrin birinci yarısında Atropatena hökmdarı Mitridat qüvvətlənən erməni dövlətinin çarı II Tiqranın qızı ilə evlənməklə onunla sülalə nikahı bağlayır. Ona görə də Roma sərkərdəsi Lukullun Ermənistana soxulması zamanı Atropatena hökmdarı özünün on yeddi minlik zirehli süvarisi ilə II Tiqranın yardımına gəlir. Romalılarla Tiqranakert yaxınlığında döyüş ərəfəsində Tiqran mərkəzə komandanlığı özünə götürür, sağ cinahı isə Atropatena hökmdarı Mitridata etibar edir. Amma müttəfiq qoşunlar romalılar tərəfindən məğlubiyyətə uğradılır. E.ə. 68 və 67-ci illərdə Atropatena Atropatenada dövriyyədə olmuş Makedoniyalı İsgəndərin sikkəsi hökmdarı Mitridatın iştirakı ilə erməni qoşunları Lukull üzərində bir neçə qələbə çaldılar. Sonra Atropatenanı tutan Parfiya qoşunları Ermənistana soxuldu. E.ə. 36-cı ildə Roma hökmdarlarından biri olan Antoni Parfiya üzərinə yürüş etdi. Antoni Ermənistandan Atropatenaya soxuldu. Atropatena çarı Artavazd (Artabaz) 16 minlik süvarisi ilə Antoniyə qarşı Parfiya çarı ilə ittifaqda çıxış. ctdi. Öncə Antoni işğalçılardan uzunmüddətli müdafiə üçün hazırlanmış Atropatena qalası Fraaspanı mühasirəyə aldı. Fraaspanın mühasirəsinin uzanması Roma legionerlərinin nizamını pozdu. Mühasirəyə alınmış Fraaspadakı atropatenalılar romalılara qarşı cəsarətli əks-hücum təşkil etdilər. Qışın yaxınlaşmağından təşvişə düşən Antoni mühasirə maşınlarını Fraaspa ətrafında qoyub Atropatenadan geriyə çəkildi. Romalıların Atropatenada məğlub olmalarının əsas səbəblərindən biri burada onlara qarşı mübarizənin ümumxalq xarakteri alması idi və Fraaspanın qəhrəmancasına müdafiəsi də bunu sübut edir. Atropatena hökmdarı Artavazd xeyli qənimət ələ keçirir. Lakin bu qələbədən az sonra müttəfiqlər arasında atropatenalılarla parfiyalılar arasında inciklik baş verir. Parfiya hökmdarı bütün Atropatenanı özünə tabe etmək fikrinə düşür. E.ə. 35-ci ildə Artavazd Antoniyə sülh və dostluq təklifi ilə müraciət edir. E.ə. 34-cü ildə Antoni Ermənistanı tutur. Elə həmin ildə də Antoninin oğlu Aleksandr Atropatena hökmdarı Artavazdın qızı İotapa ilə nişanlanır. E.ə. 33-cü ildə Antoni parfiyalılara qarşı yürüşə hazırlaşırdı, lakin Oktavianla aralarında baş vermiş münaqişə üzündən o, Atropatena hökmdarının yanında cüzi qoşun qoyub qərbə qayıtmağa məcbur oldu. Antoninin geriyə çağırdığı Roma qoşunlarından məhrum olan Artavazd



downloaded from KitabYurdu.org

parfiyalılarla müharibədə məğlubiyyətə uğradı və əsir götürüldü, Atropatena isə Parfiya şahı tərəfindən Ermənistan çarına verildi. Lakin az sonra Artavazd azadlığa çıxdı və e.ə. 31-ci ildə Aksi burnu yaxınlığındakı savaş ərəfəsində hətta Antoniyə köməkçi qoşunlar da göndərdi. Bundan sonra isə Roma imperatoru Oktavian Ermənistanı Artavazda verdi və o buranı e.ə. 20-ci ilədək idarə etdi. Oktavian Artavazdın qızı, Antoninin oğlunun nişanlısı İotapanı da atasına qaytardı. E.ə. 20-ci ildə Artavazdın xeyli müddət Romada yaşamış oğlu II Ariobarzan Atropatenanın hökmdarı oldu. Tasitin yazdığına görə, eramızın 1-ci ilinə yaxın Oktavian "yenə bu xalqı (erməniləri) Artabazın oğlu hökmdar Ariobarzanın tabeliyinə verdi". Bir qədər keçdikdən sonra Ariobarzan öldü və Oktavian Ermənistanı onun oğlu Artavazda verdi. Artavazd bir neçə il Ermənistanı idarə etdi və Oktavianın ölümündən bir qədər əvvəl qətlə yetirildi. Atropatenanı eramızın 20-ci illərinə qədər idarə edən sonuncu Atropatilər hökmdarı isə Ariobarzanın oğlu II Ariovast olmuşdur.

Az sonra Qafqaz Albaniyasında, Ermənistanda və İberiyada olduğu kimi, Atropatenada da hakimiyyət Parfiya Arşakilər sülaləsinin kiçik qoluna keçdi. Atropatena və Parfiyanın yaxınlaşmalarının yuxarıda sadalanan səbəblərinə daha



bir ümumi məqsəd də əlavə oldu - "ellinliyə" (o zaman Romanın Liri kimi qavranılırdı) qarşı mübarizə. Atropatena Arsakilərinin dövründə faktik olaraq Atropatena Parfiyanın bir hissəsinə çevrilmişdi. Sonuncu isə öz növbəsində monolit imperiya olmayıb ayrı-ayrı vilayətlərə bir çox hallarda özlərini sərbəst idarə edən şəhərlərə bölünürdü. Bunlardan biri də Atropatena idi. Eramızın 70-ci illərində alanların dağıdıcı yürüşləri zamanı Atropatena Parfiya şahı I Vologezin qardaşı Pakor tərəfindən idarə olunurdu. Eramızın 213 - 223-cü illərində sonuncu Parfiya şahları arasında baş verən ara müharibələri dövründə Atropatena qısa müddət ərzində müstəqillik əldə etdi. 227-ci ildə Xəzər dənizi sahilindəki Dərbənd keçidi vasitəsilə Qafqaz Albaniyasına və Atropatenaya ilk dəfə olaraq türk tayfalarının - hunların və sabirlərin ön dəstələrinin yürüşləri oldu. Eramızın 244-cü ilinə yaxın Atropatena Sasani hökmdarı I Şapur tərəfindən istila edildi və o dövrdən Sasani dövlətinin tərkibində qaldı.

Atropatena ərazisində küp qəbirlər geniş yayılmışdı. Ölü sıx bükülmüş şəkildə küpə, başı qabın ağzına tərəf yerləşdirilirdi. Dəfn küpünün içərisinə xırda avadanlıq və bəzək əşyaları (qolbaq, boyunbağı, üzük, muncuq və s.) da qoyulurdu. Dəfn küpü ilə yanaşı, gil qablar da qoyulurdu. Küp qəbirlərin heç bir qəbirüstü tikilisi olmurdu. Hərçənd antik mənbələrin məlumatına görə, Atropatın varisləri makedoniyalıları öz ölkələrinə "buraxmırdılar", bununla belə, ellin mədəniyyəti Atropatenaya daxil olurdu və Kerefto dağlarındakı Herakl məbədində olan yunan yazısı, eləcə də avroman perqamentləri bunu təsdiqləyir. E.ə. II əsrin ikinci yarısı Atropatenada yerli ənənələrə əsaslanan yeni ellin mədəniyyətinin yaradılması



downloaded from KitabYurdu.org

dövrü idi. Atropatenalılar ermənilərə böyük təsir göstərmişdilər. Strabon yazır ki, atropatenalılar "necə deyərlər, ermənilərin adətlərini yaradanlardır". Ermənistanda atropatenalıların məskunlaşdığı çoxlu, o cümlədən erməni müəlliflərinin hələ VIII əsrdən göstərdikləri Masis (Ararat) kimi yerlər var idi. Ermənistanın atropatenalılardan törənmiş bir sıra naxarar nəsilləri (məsələn: Murasanlar) Ermənistanın dövlət iyerarxiyasında mühüm yerlər tuturdular. Qədim erməni dilində Midiya dilindən alınma sözlər meydana çıxdı. Eramızın I əsrində Atropatenanın "parfiyalaşması" məişətdə, memarlıqda və həyatın digər sahələrində kifayət qədər güclü idi. Atropatena ərazisində Parfiya şahlarının pulları, əsasən də draxma geniş yayılmışdı. Eyni zamanda, Atropatena mədəniyyətinin Parfiyaya təsiri də xeyli çox idi. Antik müəlliflərin tez-tez "parfiyalıları" "midiyalılar" adlandırması da bunu təsdiq edir. Atropatenada sitayiş edilən əsas din zərdüştilik idi. Ellinizm dövründə Atropatenada zərdüştiliyin mövqeyi saxlasa da, o hələ də burada hakim din olaraq qalırdı. Atropatenanın Parfiya ilə yaxınlaşması zamanı bütün xaricilərlə savaşlarında zərdüştilik onların bayrağına, özünüdərkinə çevrildi. Ərəb tarixçilərinin məlumatlarına görə, bu dövrdə Atropatenada yeni Avesta zərdüştiliyinin ocağı meydana gəlir və Şiz (müasir Təxt-i Süleyman şəhərciyi) şəhərindəki alovlu məbəd onun mərkəzinə çevrilir və sonralar Adurquşnasp adı ilə tanınır. Atropatena Sasanilər dövləti tərkibində olan zaman Adurquşnasp məbədinin rolu və əhəmiyyəti o qədər böyük idi ki, hətta Sasani şahları taxta çıxandan sonra müqəddəs oda sitayiş etmək üçün buraya gəlirdilər.

**Atropatilər** - əsası e.ə. 321-ci ildə Atropatenanın birinci hökmdarı Atropat tərəfindən qoyulmuş hökmdar sülaləsi. Atropatilər sülaləsinin bütün hökmdarlarının adlarını bilmirik, belə ki, Atropatena heç də həmişə antik mənbələrin əhatə dairəsinə düşməmişdir. Mənbələrdə Atropatilər sülaləsi hökmdarlarından Atropat, Artabazan, Mitridat, Artavazd, Ariobarzan, II Ariobarzan və II Artavazdın adları çəkilir; Atropatilər sülaləsinin sonuncu hökmdarı isə Atropatenanı eramızın 20-ci ilinədək idarə edən II Ariovast idi. Atropatilər hökmdar sülaləsi eramızın əvvəllərində Parfiya Arşakilər sülaləsinin kiçik qolu ilə əvəz olunmuşdu, sonuncu isə Atropatenanı, görünür ki, onun Sasanilər tərəfindən işğalınadək idarə etmişdir.

**Attika** - Orta Yunanıstanda, Afinanın özünün və kənd təsərrüfatı ilə məşğul olan ətraf ərazilərdən ibarət olan Afina polisinin yerləşdiyi vilayət.

**Attila** (406 - 453) - 434 - 453-cü illərdə hunların qüdrətli hökmdarı. Attila qardaşı Bleda ilə birlikdə hunlara rəhbərlik edirdi; Bleda mülki işlərə baxırdı, Attila isə qoşunlara sərkərdəlik edirdi. 445-ci ildə qardaşının ölümündən sonra Attila hunların təkhakimiyyətli hökmdarı oldu. İqamətgahı Pannoniyada yerləşən istedadlı sərkərdə və rəhbər olan Attilanın dövründə hunların tayfa ittifaqının hakimiyyəti şərqdə Qafqaz dağlarına qədər, qərbdə - Reyn çayına kimi, şimalda - Danimarka adalarınadək genişləndi, cənubda isə Dunayın sağ sahilini əhatə etdi. Müasirlərinin "allahın balası" adlandırdıqları Attilanın başçılığı ilə 447-ci ildə



downloaded from KitabYurdu.org



hunlar Frakiya və İlliriyanı talan edib, 70 şəhər və qalanı dağıdaraq Fermopilə və Konstantinopolun ətrafına kimi irəliləyə bildilər. Şərqi Roma imperiyasının hunlara ödədiyi xərac xeyli artırıldı. Attila 451-ci ildə Qalliyaya soxuldu və Katalaun çölündə ömründə ilk dəfə böyük açıq savaşa girərək Qərbi Roma imperiyasının və onun müttəfiqlərinin qoşunları ilə vuruşdu. Burada həlledici qələbəyə nail ola bilməyən Attila 452-ci ildə Şimali İtaliyanı talan etdi, Akvileya şəhərini dağıtdı, Paduya, Milan və s. şəhərləri ələ keçirdi. Roma papası I Leonun Attila ilə danışıqlarından sonra Roma şəhəri ödənc verməklə hunlardan xilas edildi. Pannoniyaya qayıdıb Şərqi Roma imperiyasına qarşı yürüşə hazırlaşan Attila qəflətən açılan burun qanaxmasından vəfat etdi. Attilanın ölümündən sonra hun tayfa ittifaqı dağıldı.

**Avarayr çölü** - Cənubi Azərbaycanda, Maku şəhəri yaxınlığında yerləşir. 451-ci il mayın 26-da hunlarla ittifaqda olan Sasani qoşunları Avarayr çölündə Vardan Mamikonyanın başçılıq etdiyi üsyançıları məğlub etdilər.

**avarlar** - V əsrdə Mərkəzi Asiyada meydana çıxmış iri tayfa ittifaqı. İttifaq tərkibində aparıcı rolu köçəri maldar türkdilli tayfalar oynayırdılar. VI əsrin ortalarında Şərqi Avropaya gələn avarlar Xəzərin qərb sahilləri boyu çöllərə



yayıldılar. Avarların ilk elçiləri 558-ci ildə Bizans imperiyasına - imperator Yustinianın yanına gəlmiş, hərbi ittifaq bağlamağı təklif etmiş və məskunlaşmaq üçün onlara yer verilməsini xahiş etmişlər. Bizans avarlardan özünə düşmən olan türkdilli bulqar və sabir tayfalarına, habelə slavyanlara - antlara qarşı mübarizədə istifadə etmişdir. Avarlar 567-ci ildə german lanqobard tayfası ilə birlikdə Pannoniyanı tutdular. Burada bir neçə yürüşdən və yeni tayfaların birləşdirilməsindən sonra məşhur sərkərdə Bayanın başçılığı ilə Avar xaqanlığının əsası qoyuldu. Pannoniyada möhkəmləndirilmiş konsentrik çevrəli "xrinq" – lər qala sistemi yaradılmışdı Avarla Pannoniyadan slavyanlara, franklara, lanqobardlara. gürcülərə və digər tayfalara habelə onlara xərac verməyə başlayan Bvansa qarşı basqınlar edirdilər. Avarlar Frank dövlətinə də basqınlar edirdilər. Lakin daxili çəkismələr və fəth edilmiş tayfaların üsyanları avarların hərbi qüdrətinin tənəzzülünə və xaqanlığın dağılmasına səbəb oldu. VII min ortalarında avarlar Qara dənizin şimal ətrafından sıxışdırılıb çıxarıldı, türkdilli bulqarlar tərəfindən 680-ci ildə yaradılmış Bulqar çarlığı isə onları cənubdan sıxışdırmağa başladı. Avarlar 790-cı ildə Böyük Karlın frank ordusu tərəfindən tamamilə darmadağın edildilər, 796-cı ildə isə əsas "xrinq"lər süqut etdi. Sonralar avarlar Qara dənizin qərb sahilləri və Dunayboyu ərazilərin yerli əhalisi ilə tamamilə qaynayıb-qarışdılar.



downloaded from KitabYurdu.org

**Avesta** - zərdüştilərin müqəddəs kitabı. Avestanın ən qədim hissələrinin yadda qalmasını asanlaşdırmaq üçün onlar şer formasında tərtib olunmuş və nəsildən-nəslə şifahi ötürülmüşdür. Antik və Şərq mənbələrinin verdikləri məlumata görə, Əhəməni şahı III Dara üzərində qələbə çalan Makedoniyalı İsgəndər "çoxlu maq öldürsə də", "çoxlu ocaq söndürsə də", ataş məbədini qarət etsə də, habelə zərdüştilik rəvayətinə görə, Suzda Əhəməni şahlarının sarayını yandırmaqla Avestanın 12.000 dana dərisi, ya da taxta üzərində qızıl hərflərlə yazılmış ilkin variantını məhv etsə də, Avestanın əsas məzmunu salamat qalmışdır. Tarixçi Plini yazır ki, Avesta iki milyon sətirdən ibarət imiş. Güman edilir ki, Makedoniyalı İsgəndərdən sonra Parfiyada e.ə. I əsrdə salamat qalmış nüsxələr, eləcə də şifahi zərdüşti ənənəsi əsasında tərtib olunmuş Avesta mətnlərinin ilkyazılı toplusu var imiş. Avestanın eramızadək çatmış hissələri III – IV illərlərdə İranda ilk Sasani şahlarının dövründə bir yerə toplanılmışdı. O dövrdə Avesta iyirmi bir kitabdan (naskdan) ibarət imiş. Avestanın qanuna çevrilmiş mətninə onun pəhləvi (orta fars) dilinə tərcüməsi və “Zənd-Avesta” adlandırılan şərhlər də əlavə edilmişdi. Digər qeyri-müsəlman əsərlər kimi, Avestanın əlyazmaları ərəblər tərəfindən ikinci dəfə amansızcasına yandırılmışdır. Hazırda Avestadan cəmisi dörd yarımçıq kitab (nask) - Yaşt, Yasna, Visprat və Videvdat - dövrümüzə çatmışdır. Avestanın Yaşt kitabı ("pərəstiş", "mədh") müxtəlif ari ilahilərinə həsr olunmuş 22 mədh nəğməsindən ibarətdir. Vedalarda olan qədim hind epos və əsatirlərinə bənzər çoxlu sayda qədim İran epos və əsatirlərinin bir qismi Yaştda qalmışdır. Bu bənzərliyə əsaslanaraq söyləmək olar ki, Yaşt Avestanın günümüzə çatan daha qədim kitablarındandır. Yasna kitabı ("dua etmək", "qurban vermək") Avestanın ən irihəcmli hissəsidir - 72 fəsildən ibarət olan bu hissəyə ibadət, adət və ayinlərin icrası, qurban vermək zamanı oxunan dualar daxildir. Yasnanın ən mühüm hissəsi (17-ci fəsli) düzümü Zərdüştün öz adına çıxılan, şer formasında tərtib olunmuş Qathalardır ("himnlər", "şərqilər"). Bəzi kitablarda onu "Qatalar" adlandırırlar. Belə hesab edilir ki, Qathalar Avestanın ən qədim hissəsidir. Avestanın 24 fəsildən ibarət olan və müxtəlif allahlara pərəstişi ifa edən dualardan təşkil olunmuş Visprat ("Allahların hamısı") kahinlik kitabıdır. Avestanın Videvdat kitabı ("Divlər əleyhinə qanun") 22 fəsildən ibarətdir. Videvdat qanun və göstərişlərdən - dindar zərdüştilərə nəyə icazə verilməsindən və nəyin qadağan olunmasından bəhs edən kitabdır. Tarixçilərin əksəriyyətinin fikrincə, Avesta Mərkəzi Asiyada tərtib olunmuş, sonralar isə Midiya və İranda yayılmışdı. Digər mənbələrə görə, Avestanın vətəni Midiyadır. Avesta parslarda saxlanılmışdır. Avesta bizə XIII - XIV əsrlərin son əlyazmalarında dövrümüzə çatmışdır. Avropada Avestanın əsl məzmunundan XVIII əsrin ikinci yarısında fransız alimi Düperronun həmin əlyazmalardan etdiyi tərcümələr vasitəsilə xəbər tutmuşlar.

**Avgi** - qədim yunan mifologiyasında bir neçə min baş mal-qarası olan Elida çan. Avginin tövləsini yalnız Herakl təmizləyə bilmişdi.

**Avisenna** - bax: İbn Sina.



downloaded from KitabYurdu.org

**Avrasiya** - dünyanın ən böyük materiki, ərazisi təqribən 53,4 mln. km; iki qitədən - Avropa və Asiyadan ibarətdir.



**avro** - Avropa İttifaqı (Aİ) üzvü olan ölkələrin ümumi valyutası.

**Avropa** – qitə, ərazisi təqribən 10 mln. $km^2$; "Köhnə dünya"nın Asiya ilə birlikdə (Avropa ilə Asiyanın sərhədi haqqında bax: Asiya) Avrasiya materikini əmələ gətirən hissəsi. Atlantik və Şimal Buzlu okeanı və onların dənizləri ilə əhatə olunub.

**“Avropa Birliyi”** - bax: "Avropa İttifaqı".

**"Avropa İttifaqı"** (Aİ) - 1991-ci ilin dekabrında Maastrixt şəhərində (Hollandiya) AİB (Avropa İqtisadi Birliyi) üzvü olan ölkələr iqtisadi və siyasi



inteqrasiyanı sürətləndirmək məqsədi ilə AİB-i Avropa İttifaqına (Aİ) çevirmək qərarına gəldilər. Aİ 15 üzv-ölkədə (1999) ümumi səsvermə ilə seçilmiş 626 nəfər parlament üzvündən ibarət Avropa parlamentinə malikdir. Bundan əlavə, Aİ-nin siyasətini müəyyənləşdirməkdən ötrü Aİ-nin üzv-ölkələrinin dövlət və hökumət başçılarının ən azı ildə iki dəfə müşavirələri keçirilir. Aİ-nin mənzil-qərargahı Strasburqda (Fransa) yerləşir. Aİ-nin üzv-ölkələrinin əhalisi 1993-cü ildə həmin ölkələrin sərhədləri daxilində sərbəst hərəkət etmək hüququ əldə etdi. 1999-cu ilin yanvarında Aİ-nin üzv-ölkələri üçün vahid valyuta - "avro" dövriyyəyə buraxıldı.

**Avropa Şurası** - 1949-cu il mayın 5-də on ölkə Belçika, Böyük Britaniya, Danimarka, İrlandiya, İtaliya, Lüksemburq, Niderland, Norveç, Fransa və İsveç tərəfindən yaradılmış təşkilat. Həmin ilin avqustunda Yunanıstan və Türkiyə də onlara qoşulmuşlar. Avropa Şurasının əsas məqsədi insan hüquqlarının, plüralist demokratiya və qanunun aliliyinin qorunması; Avropa mədəniyyətinin özəlliyinin dərk olunması və inkişaf etdirilməsinə yardım etmək; Avropa ölkələri qarşısında duran problemlərin birgə həlli yollarını tapmaq (milli azlıqlar, ksenofobiya, dözümsüzlük, ətraf mühitin mühafizəsi, insanın klonlaşdırılması, QİÇS (AİDS), nar-komaniya, mütəşəkkil cinayətkarlıq və s.); siyasi qanunverici və konstitusion islahatları dəstəkləməklə Avropada demokratik sabitliyin möhkəmlənməsinə yardım etməkdən ibarətdir. Avropa Şurasının mənzil-qərargahı Strasburqda (Fransa) yerləşir. Avropa Şurasının 32 üzv-ölkəsinin nümayəndələri 1993-cü ildə Avropa Şurası üzvlüyünün genişləndirilməsi yolunu tutdular. 2001-ci il yanvarın 25-də Azərbaycan Respublikası da Avropa Şurasının üzvü oldu.

**Avrora** – qədim romalıların mifologiyasında sübh şəfəqi ilahəsi.

**avtarkiya** - qədim yunan filosoflarının təliminə görə, xarici (o cümlədən maddi) şəraitdən asılı olmamaq. Avtarkiya əsl müdrikin fərqli cəhətidir. Bəzən



downloaded from KitabYurdu.org

avtarkiya bir dövlətin digərlərindən siyasi və iqtisadi cəhətdən asılı olmamasını bildirir.

**avtokratiya** - nəzarətsiz və qeyri-məhdud tamhakimiyyətlilik forması. Tarixçilər Qədim Şərqin ibtidai monarxiyalarını, Roma və Bizans imperiyalarının idarəçilik formalarını, yeni dövrün mütləqiyyət monarxiyalarındakı despotizmi avtokratiyaya aid edirlər.

**avtoritarlıq** - bir şəxsin (monarxın, diktatorun) istibdad hakimiyyəti ilə bağlı olan dövlət sistemində hökumətə sözsüz tabe olmaq.

**avuar** - bankın başqa dövlətlərin banklarında xarici valyuta, qiymətli kağız və qızıl ilə saxlanılan vəsaitləri.

**azad olunmuşlar** - Qədim Yunanıstanda və Qədim Romada sahibi tərəfindən azadlığa buraxılmış və ya azadlığını özü satın almış, amma əvvəlki ağasından müəyyən dərəcədə asılı qalan keçmiş qullar.

**Azərbaycan (tarixi)** - tarixi Azərbaycanın ərazisi Cənubi Qafqazın mərkəzi və şərqində və müasir İranın şimal-qərbində yerləşən Azərbaycan relyefinin hündürlüyü - 28 m-dən (Xəzər sahilləri) 4821 m-dək (Savalan dağı) olan düzənlik



və dağlar ölkəsidir. Azərbaycan ərazisində iri ovalıqlar vardır və onlardan ən genişi Kür-Araz ovalığıdır. O bir neçə ovalıqdan ibarətdir. Dəvəçi ovalığı da iridir. Azərbaycan əsasən dağlıqlardan ibarətdir. Azərbaycanın torpaq örtüyü xeyli rəngarəngdir - yarımsəhra və subtropikdən dağlıq tundrayadək rəngarənglik vardır. Azərbaycandan keçən ən iri çaylar Kür, Araz və Səfidrud (Qızılüzən) çaylarıdır. Tarixi Azərbaycanın əraziləri şərqdə və cənub-şərqdə Xəzər dənizi ilə əhatələnir. Azərbaycanın ən böyük gölü Urmiya gölüdür. Azərbaycanın təkində zəngin faydalı yataqlar, xüsusilə də neft və qaz yataqları vardır. Burada habelə dəmir, manqan, titan, xrom, mis, kobalt, arsen, molibdən, qurğuşun, gümüş, qızıl, civə filizləri, kükürd, daş duz, çaxmaq daşı, mərmər və s. tikinti materialları vardır. Azərbaycan ərazisində çoxlu miqdarda mineral sular vardır. Bunlardan öz müalicəvi əhəmiyyəti ilə seçilənlər İstisu, Badamlı, Sirab, Turşsu, Qalaaltı və s. sularıdır. 11 iqlim qurşağından 9-u Azərbaycan ərazisindədir. Azərbaycanın heyvanat aləmi müxtəlif heyvanlar, quşlar və balıqlarla təmsil olunur. Azərbaycan zəngin və qədim tarixə malik ölkədir. Tarixi Azərbaycanın ərazisində yaşayan əsas millət azərbaycanlılardır. 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsinin şərtlərinə əsasən, Azərbaycan ərazisi Rusiya ilə İran arasında iki yerə bölünmüşdür. Elə o dövrdən də "Şimali Azərbaycan" və "Cənubi Azərbaycan" məfhumları meydana gəlmişdir. Bunların arasındakı sərhəd əsas etibarilə Araz çayı hesab olunur. 1918-ci ildən 1920-ci ilədək Şimali Azərbaycan ərazisində müstəqil Azərbaycan Demokratik Respublikası (ADR) mövcud olmuşdur. Qırmızı Ordu tərəfindən işğal edilən Şimali Azərbaycan "Azərbaycan SSR" kimi SSRİ-nin tərkibinə daxil olmuşdur. Hazırda tarixi Azərbaycanın



downloaded from KitabYurdu.org

ərazisinin yalnız kiçik bir hissəsində ($^{1}/_{3}$-ə qədər hissəsində) müstəqil dövlət - Azərbaycan Respublikası mövcuddur.

**Azərbaycan atabəyləri dövləti** - bax: Eldənizlər dövləti.

**Azərbaycan Demokratik Respublikası** (ADR) - 1918-ci il mayın 28-dən 1920-ci il arelin 28-dək Şimali Azərbaycan ərazisində mövcud olmuş demokratik respublika. Gürcüstanın öz müstəqilliyini elan etməsindən və Zaqafqaziya



ADR-in İstiqlaliyyət bəyannaməsi

Seyminin faktik olaraq dağılmasından sonra keçmiş seymin Azərbaycan fraksiyası 1918-ci il mayın 27-de fövqəladə yığıncaq keçirərək özünü Azərbaycanın Müvəqqəti Milli Şurası elan etdi və M.Ə.Rəsulzadə şuranın sədri seçildi. 1918-ci il mayın 28-də Müvəqqəti Milli Şuranın birinci iclasında Azərbaycanın müstəqilliyi haqqında bəyannamə qəbul edildi və Azərbaycan Demokratik Respublikasının (ADR) yaradılması bəyan edildi. Elə həmin iclasda başda Fətəli xan Xoyski olmaqla ADR-in birinci hökuməti təşkil edildi. Elə o zaman yaradılmış Ermənistan Respublikasının hökuməti xahiş etdi ki, İrəvan şəhərini özünə paytaxt etmək üçün ona versinlər. Müvəqqəti Milli Şura ermənilərin Dağlıq Qarabağa iddialarından birdəfəlik əl çəkmələri şərti ilə İrəvanı Ermənistana verməyə razılaşdı. Lakin İrəvanı aldıqdan sonra Ermənistanın daşnak hökuməti Zəngəzuru, Naxçıvanı və Dağlıq Qarabağı tutmağı qarşısına məqsəd qoydu. 1918-ci il iyunun 4-də Batumda imzalanmış müqaviləyə əsasən, Osmanlı imperiyası ilk xarici dövlət kimi ADR-in müstəqilliyini tanıdı. Osmanlı hökuməti "ictimai asayişə təhlükə yarandıqda" ADR-ə hərbi yardım göstərməyi öz öhdəsinə götürdü və elə oradaca M.Ə.Rəsulzadə və M.H.Hacınski ADR-ə hərbi yardım göstərilməsini xahiş etdilər. İyunun birinci yarısında türk



ADR ordusunun zabitləri

qoşunları Şimali Azərbaycan ərazilərinə daxil oldular. İyunun 12-də Bakı Soveti Kürdəmiri zəbt etdi. 1918-ci il iyunun 15-də Milli Şura və ADR hökuməti Gəncəyə köçdü. İyunun 17-də keçirilmiş iclasda 6 ay müddətində Müəssislər Məclisinin çağırılmasını təmin etmək öhdəliyi götürüldü, Müvəqqəti Milli Şura özünün buraxıldığını bəyan etdi və hakimiyyəti bütünlüklə hökumətə verdi. Elə həmin gün ADR-in 2-ci hökuməti təşkil olundu. Əvvəlki hökumətin 6 üzvü və 6 yeni nazir 2-ci hökumətə daxil oldu. 2-ci hökumətə də Fətəli xan Xoyski rəhbərlik edirdi. 1918-ci il iyunun 23-də hökumət ADR-in bütün ərazisində hərbi vəziyyət elan etdi. Türkiyə ordusunun 5-ci piyada diviziyası ilə Ə.Şıxlinskinin rəhbərlik etdiyi Müsəlman Milli Korpusunun birləşdirilməsi əsasında "İslam ordusu" yaradılmışdı. Bakı Sovetinin qoşunları iyunun 27-də Göyçaya yaxınlaşdılar. 1918-ci il iyunun 27-si - iyulun 1-də Göyçay yaxınlığında



downloaded from KitabYurdu.org

baş vermiş döyüşdə Bakı Sovetinin qoşunları "İslam ordusu" tərəfindən darmadağın edildi. Bundan sonra "İslam ordusu" bütün cəbhə boyu hücuma keçərək az sonra Kürdəmiri və Şamaxını Bakı Sovetinin qoşunlarından azad etdi. Almaniyanın vasitəçiliyi ilə Sovet Rusiyasının müdaxiləsi "İslam ordusu"nun Bakıya daxil olmasını ləngitdi. Bakıda siyasi böhran başlandı - Bakı Sovetində çoxluq təşkil edən əsərlər, menşeviklər və daşnaklar Türk - Azərbaycan qoşunlarının Bakıya daxil olmasının qarşısını almaq məqsədi ilə 1918-ci il iyulun 25-də Bakı Sovetinin fövqəladə yığıncağında ingilislərin Bakıya dəvət olunmaları və koalision hökumətin yaradılması haqqında qətnamə qəbul etdilər. 1918-ci il



iyulun 31-də Bakı Soveti öz səlahiyyətlərindən imtina etdiyini bildirdi. Ele həmin gün Bakıda hakimiyyət "Sentrokaspi Diktaturası" koalision hökumətinin elinə keçdi. Formal olaraq hakimiyyət Xəzər donanmasının zabit və matroslarının əlində idi, real hakimiyyət isə "Erməni milli şurası"na, "Daşnaksütyun" partiyasına və başqa erməni təşkilatlarına mənsub idi. "Sentrokaspi Diktaturası"nın ilk addımlarından biri 1918-ci il avqustun əvvəllərində ingilis qoşunlarının Bakıya dəvət edilməsi oldu. Onu dəvət edən hökumətin oyuncaq olduğunu görən ingilis generalı Denstervil şəhərin bundan sonra müdafiə edilməsinin səmərəsizliyini başa düşdü. 1918-ci il sentyabrın 15-də ingilis qoşunları Bakını tərk etdilər, onların ardınca isə cəbhədəki erməni qoşunlarının bir hissəsi və Sentrokaspi Diktaturası" hökumətinin üzvləri gəmi ilə İrana getdilər. 1918-ci il sentyabrın 15-də "İslam ordusu" Bakıya daxil oldu. ADR hökuməti Gəncədən Bakıya köçdü. 1918-cı ilin iyulunda ADR ərazisində fövqəladə vəziyyət elan olundu və hərbi səfərbərlik keçirildi. 1918-ci il iyunun 21-də dövlət bayrağı haqqında dekret, iyunun 27-də isə türk (Azərbaycan) dilinin ADR-in dövlət dili kimi tanınması haqqında dekret verildi. 1918-ci il iyulun 30-da ADR hökumətinin qərarı ilə Yelizavetpolun qədim adı – "Gəncə" özünə qaytarıldı, Qaryagin qəzası Cəbrayıl qəzası adlandırıldı. 1918-ci il yayın axırları – payızda Andronikin başçılığı ilə silahlı erməni banditləri Zəngəzurda və Naxçıvanda dinc əhalini kütləvi surətdə qırmağa başladılar. Buna cavab olaraq ADR hökuməti Xosrov bəy Sultanovun rəhbərliyi ilə Qarabağ general – qubernatorluğunu yaratdı. Xosrov bəy Sultanov Qarabağ, Zəngəzur və Naxçıvanda ADR-in suverenliyini bərpa edə bildi. Daşnak hökuməti "Böyük Ermənistan" yaratmaq ideyasını Antantanın köməkliyi ilə diplomatik yolla da həyata keçirməyə cəhd göstərir, Türkiyənin bir neçə vilayətinə, Gürcüstanın bir hissəsinə və Azərbaycanın böyük bir hissəsinə (Zəngəzur, Naxçıvan və Dağlıq Qarabağ) iddia edirdi. Ermənistanla müharibə faktik olaraq 1920-ci ilin yazınadək, yəni ADR-in Sovet Rusiyası tərəfindən işğalınadək davam etmişdir. 1918-ci il oktyabrın 1-də ADR hökuməti milliləşdirilmiş neft sənayesini özəlləşdirdi. Mudros barışığına əsasən, 1918-ci ilin noyabrında türk qoşunları ADR ərazisindən çıxarıldı, 1918-ci il noyabrın 17-də isə



downloaded from KitabYurdu.org

general V.Tomsonun başçılığı ilə Antanta qoşunları Bakıya yeridildi. Öz fəaliyyətini bərpa edən Milli Şura 1918-ci il noyabrın 19-da "Azərbaycan parlamentinin yaradılması haqqında" qanun qəbul etdi və onun əsasında 120 deputat birpalatalı parlamenti təşkil etməli idi. Parlamentdəki 120 deputat yerindən 44-ü keçmiş Milli Şura üzvləri üçün, 36 yer müsəlman, 21 yer erməni, 10 yer rus əhalisi üçün, yəhudi, alman, gürcü və polyak icmalarının hərəsi üçünsə 1 yer ayrılırdı. Bundan başqa, 3 yer həmkarlar təşkilatlarına, 1 yer Neft Sənayeçiləri Şurasına və 1 yer Ticarət-Sənaye İttifaqına verilirdi. 1918-ci il dekabrın 7-də Azərbaycan parlamenti fəaliyyətə başladı. Əlimərdanbəy Topçubaşov parlamentin sədri seçildi. ADR-də qanunverici hakimiyyət parlamentə, icraedici hakimiyyət isə parlament qarşısında məsul olan hökumətə mənsub idi. 1918-ci il dekabrın 26-da Fətəli xan Xoyskinin başçılığı ilə 3-cü koalisíon hökumət təşkil edildi. 2 gündən sonra general Tomson Azərbaycan hökumətini tamdığını bəyan etdi. ADR-in yeni hökuməti Əlimərdanbəy Topçubaşovun başçılığı ilə Versal konfransına nümayəndə heyəti göndərdi. Bu dövrdə ADR-in ərazisi 113,9 min km$^2$, əhalisi isə 2,9 mln. nəfər (2 mln.-a yaxını müsəlman) idi. Fevralın 25-də parlamentin bütün fraksiyaları tərəfindən dəstəklənən etimadsızlıq rəyi ilə əlaqədar olaraq Fətəli xan Xoyskinin rəhbərlik etdiyi 3-cü ADR hökuməti istefaya çıxdı. 1919-cu il aprelin 14-də parlament N.Yusifbəylinin rəhbərliyi ilə 4-cü ADR hökumətini təsdiq etdi. 1919-cu il iyunun 21-də parlament 1920-ci il aprelin 20-də keçiriləcək Müəssislər Məclisi seçkiləri ilə əlaqədar qaydaları qəbul etdi. 1919-cu ilin yayında Dövlət Müdafiə Komitəsi yaradıldı. 1919-cu il iyunun 16-da ADR ilə Gürcüstan arasında müdafiə paktı imzalandı. Pakta görə, əgər general Denikinin ordusu bu ölkələrdən biri üzərinə hücum edərdisə, onda tərəflərdən hər biri digərinə köməyə gəlməli idi. 1919-cu ilin avqustunda polkovnik Həbib bəy Səlimovun komandanlığı ilə Milli Ordunun alayları Muğandakı qiyamı yatırdı. 1919-cu il avqustun axırlarında Bakını tərk edən ingilislər hərbi gəmilərinin bir hissəsini Azərbaycan hökumətinə verdilər və bu, Azərbaycanın yenicə yaradılmaqda olan Xəzər dəniz donanmasının əsasını təşkil etdi. 1919-cu il sentyabrın 1-də Azərbaycan parlamenti Bakı Universitetinin təsis edilməsi haqqında qanun qəbul etdi. Sentyabrın 14-də ADR-in 4-cü hökuməti istefaya getdi. 1919-cu il dekabrın 22-də N.Yusifbəylinin rəhbərliyi ilə ADR-in 5-ci hökuməti təşkil edildi. 1920-ci il yanvarın 11-də Böyük Britaniya xarici işlər naziri lord Kerzonun təqdimatı ilə Paris sülh konfransının Ali Şurası ADR-in müstəqilliyini de-fakto tanımaq barəsində qərar qəbul etdi. 1920-ci ilin əvvəllərində ADR ilə İtaliya arasında neft, neft məhsulları, pambıq və yun verilməklə əvəzində silah və hərbi sursat alınması haqqında müqavilə imzalandı. 1920-ci il fevralın 11-də Azərbaycan Kommunist Partiyası (AKP) təsisçilərinin Bakıda I qurultayı oldu. Bu partiya Sovet Rusiyasının köməyi ilə Azərbaycanda dövlət çevrilişi etməyə hazırlaşırdı. 1920-ci il martın 20-də Azərbaycan Demokratik Respublikası ilə İran arasında sülh və dostluq haqqında müqavilə imzalandı. 1920-ci ilin mart - aprel aylarında Milli Ordunun H.Səlimovun rəhbərlik



downloaded from KitabYurdu.org

etdiyi hissələri Dağlıq Qarabağda erməni qiyamını yatırdı. Dağlıq Qarabağda erməni qiyamı ilə əlaqədar Azərbaycan kommunistləri (əslində, qeyri-azərbaycanlılar) Sovet Rusiyasından yardım istədilər. Bu dövrdə Ermənistanın Zəngəzura təcavüzü davam edirdi. Bu hadisələrlə bağlı olaraq Milli Ordunun böyük hissəsi Azərbaycanın qərbində idi və bu da onun şimal sərhədlərinin müdafiəsini zəiflədirdi. 1920-ci il aprelin 1-də ADR-in 5-ci hökuməti istefaya getdi və yeni hökumətin təşkili M.Hacınskiyə tapşırıldı, o isə sol koalision hökumət təşkil etməyə səy göstərdi, lakin dövlət çevrilişinə hazırlaşan kommunistlər son məqamda hökumətə daxil olmaqdan imtina etdilər. Bununla da yeni hökumətin təşkili baş tutmadı. Aprelin 27-də saat $00^{05}$ dəqiqədə XI Qırmızı Orduya verilmiş zirehli qatar ADR sərhədlərini keçərək Azərbaycan Milli Ordusunun xırda-para qüvvələrinin dağınıq müqavimətini dəf edərək Bakıya doğru irəliləyirdi. 3 zirehli qatar da onun ardınca gəlirdi. Aprelin 27-si səhər tezdən kommunistlərin silahlı dəstələri Bakıda dəmiryol vağzalını, hərbi və ticarət limanlarını, poçt, teleqraf, radiostansiya və digər mühüm obyektləri tutdular. XI Qırmızı Ordunun Azərbaycana soxulmasından sonra başda H.Sultanov olmaqla Azərbaycan İnqilab Komitəsi (AİK) 12 saat ərzində hakimiyyəti təhvil vermək haqqında parlamentə ultimatum verdi. AXC-nin hərbi naziri S.Mehmandarov zabitlərə əmr etdi ki, yeni hakimiyyətə tabe olsunlar. Başda "Ərdəhan" topçu gəmisi olmaqla Xəzər donanmasının gəmiləri Bakı buxtasında sıraya düzülərək toplarını hökumət binalarına tuşlayıb Azərbaycan İnqilab Komitəsinin ultimatumunım qəbulunu tələb edirdilər. 1920-ci il aprelin 27-də axşam saat 11-də parlament müəyyən şərtlərlə hakimiyyəti İnqilab Komitəsinə təhvil vermək haqqında qətnamə qəbul etdi və bundan sonra AXC parlamenti buraxıldı. 1920-ci il aprelin 28-də İnqilab Komitəsi "müstəqil" Azərbaycan Sovet Sosialist Respublikasının yaradılmasını bəyan etdi. 1920-ci il aprelin 30-da XI Qırmızı Ordunun əsas qüvvələri Bakıya daxil oldular. 1920-ci il mayın ortalarınadək XI Qırmızı Ordu Şimali Azərbaycan ərazilərini, demək olar ki, tamamilə işğal etdi.

**Azərbaycan dili** - müasir Azərbaycan dili türk dillərinin qərbi hun qolunun oğuz qrupuna aiddir.

**Azərbaycan müəllimlərinin I qurultayı** - 1906-cı ilin avqustunda Bakıda Azərbaycan müəllimlərinin I qurultayı keçirildi. Müəllimlər qurultayında Azərbaycan dilinin tədrisinin məcburi olması və təhsilin rus-tatar məktəblərində Azərbaycan dilində aparılması, yeni proqramların tərtib edilməsi, müəllimlər seminariyasının yaradılması və müəllimlərin həyat şəraitinin yaxşılaşdırılması məsələləri qaldırıldı.

**Azərbaycan Respublikası (AR)** - 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Soveti Azərbaycan SSR-in adının dəyişdirilib Azərbaycan Respublikası (AR) qoyulması haqqında qərar qəbul etmişdir. Apreldə SSRİ prezidenti və 9 respublikanın rəhbərləri Moskva yaxınlığındakı Novo-Oqaryovoda yeni ittifaq müqaviləsinin bağlanması haqqında protokol imzaladılar. Referendumda iştirakdan



downloaded from KitabYurdu.org

imtina eləmiş Ermənistana "dərs vermək" üçün Moskva ermənilərə yardımı xeyli azaltdı və Azərbaycana köməklik etdi. Mayda Sovet Ordusu və Xüsusi Təyinatlı Milis Dəstəsinin (XTMD -OMON) qüvvəsi ilə Çaykənddə və Martunaşendə pasport rejiminin yoxlanışı keçirildi və hərbiləşdirilmiş erməni dəstələri tərk-silah olundu, iyunda isə Goranboy rayonunda ermənilərin hərbi dayaq məntəqələri dağıdıldı. Bundan istifadə edən Mütəllibov ümumxalq prezident seçkisinə getdi. Avqustun 19 - 21-də Moskvada "avqust qiyamı" baş verdi və bundan sonra Qorbaçov faktik olaraq hakimiyyətdən uzaqlaşdı, səlahiyyət respublika rəhbərlərinə keçdi. 1991-ci il avqustun 30-da Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında bəyannamə" qəbul etdi. Sentyabrın əvvəllərində DQMV və Şaumyan rayonu Xalq Deputatları Sovetinin birgə sessiyasında "Dağlıq Qarabağ Respublikasr (DQR) adlandırılan qurumun yaradılması elan edildi. Sentyabrın 8-də saxtalaşdırılmış seçkilər nəticəsində A.Mütəllibov Azərbaycan Rcspublikasının ilk prezidenti seçildi. Oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycanın milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qanun qəbul etdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" konstitusiya aktı qəbul etdi. Beləliklə, Azərbaycan SSR-in əvəzinə yeni müstəqil Azərbaycan Respublikası (AR) dövləti yarandı. Noyabrın 14-də SSRİ prezidenti Qorbaçov və 7 respublikanın rəhbərləri yeni dövlətlərarası birlik - "Suveren Dövlətlər Birliyi" yaratmaq üçün yenidən Novo-Oqaryovoda toplaşdılar, lakin hazırlanmış müqaviləni respublikalardakı geniş etiraz çıxışları ucbatından yalnız Qorbaçov imzaladı. Noyabrın 20-də Dağlıq Qarabağın səmasında Azərbaycan Respublikasının dövlət xadimləri və Sovet Ordusunun yüksəkrütbəli hərbçilərinin olduğu vertolyot vuruldu. Noyabrın 26-da Azərbaycan Respublikasının Ali Soveti DQMV statusunu ləğv etdi. Dekabrın 8-də Rusiya Federasiyası, Ukrayna və Belorusiya prezidentləri "Müstəqil Dövlətlər Birliyi"nin (MDB) yaradılması haqqında müqavilə imzaladılar. Dekabrın 21-də Almatıda 9 respublikanın rəhbərləri SSRİ-nin varlığına son qoyulması haqqında bəyannamə qəbul etdilər. Az sonra Azərbaycan da MDB-nin yaradılması prosesinə qoşuldu. Dekabrın 25-də Azərbaycan Respublikasının Ali Soveti latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında qanun qəbul etdi. Azərbaycan Respublikası "İslam Konfransı" təşkilatına daxil oldu. 1991-ci il dekabrın 29-da Azərbaycan Respublikasında referendum keçirildi və səsvermədə iştirak edənlərin 95%-dən çoxu AR-in müstəqilliyinə səs verdi. 1992-ci il yanvarın 19-da erməni silahlı birləşmələri Sovet









downloaded from KitabYurdu.org

Ordusu hissələrinin köməyi ilə Kərkicahan qəsəbəsini tutub yandırdılar. Bununla belə, Azərbaycan Respublikasının rəhbərliyi baş verənlərə etinasız yanaşır, müxalifətin Milli Ordunun yaradılması haqqındakı tələblərini hər dəfə müxtəlif bəhanələrlə rədd edirdi. Fevralın 25 - 26-da erməni birlikləri Sovet Ordusunun köməyi ilə AR-in rəhbərliyi tərəfindən taleyin hökmünə buraxılmış Xocalı şəhərini tutub, 613 nəfər dinc azərbaycanlı sakini - qocaları, qadınları və uşaqları vəhşicəsinə qətlə yetirdilər. Martın 2-də AR BMT-yə qəbul edildi. Xocalı



qətliamından sonra Azərbaycan Respublikasının prezidenti A.Mütəllibov martın 6-da istefaya getməyə məcbur oldu. Hökumət boşluğu yarandı. Prezidentin vəzifəsini AR Ali Sovetinin sədri Yaqub Məmmədov icra etdi. Hakimiyyət uğrunda mübarizə nəticəsində mayın 8-də Şuşa ermənilərə verildi, mayın ortalarında isə Azərbaycan qoşunları Laçın rayonu ərazisindən çıxarılmağa başlandı. Mayın 14-də Mütəllibovun tərəfdarları AR Ali Sovetinin sessiyasında onu yenidən hakimiyyətə qaytardılar. Bütün bunları qeyri-konstitusion adlandıran AXC öz tərəfdarlarının köməyi ilə mayın 15-də Ali Sovetin binasını tutdu. AXC liderlərindən olan İsa Qəmbər AR Ali Sovetinin sədri seçildi və o, Ali Sovetin özünü buraxmasına və qanunverici səlahiyyətlərin Milli Məclisə verilməsinə nail oldu. Hakimiyyət faktik olaraq AXC-nin elinə keçdi. Mayın 17-də ermənilər Laçın



*Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri Bakı - Tbilisi - Ceyhan neft kəmərinin təməlini qoyarkən*

rayonunu işğal etdilər. Mayın 27-də Milli Məclis AR-in yeni dövlət himnini qəbul etdi. İyunun 7-də keçirilmiş seçkilər nəticəsində Əbülfəz Əliyev (Elçibəy) Azərbaycan Respublikasının prezidenti seçildi. İyunun 10-da AR Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT), az sonra isə YUNESKO təşkilatına qəbul edildi. 1992-ci ilin yayında Ağdərə əməliyyatı nəticəsində Azərbaycan qoşunları xeyli uğurlar əldə etdilər. Avqustun 15-də milli pul vahidi - manat dövriyyəyə buraxıldı. Sentyabrın 22-də AR Avropa Yenidənqurma və İnkişaf Bankına (AYİB) üzv oldu. 1993-cü ildən Azərbaycanda ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanları test üsulu ilə keçirilməyə başlandı və bu, daha bilikli və istedadlı gənclərin həmin məktəblərə daxil olmasına imkan verdi. Novruz bayramı, Qurban bayramı və s. geniş qeyd olundu. Köhnə məscidlərin bərpasına və yenilərinin inşasına başlanıldı. Türkiyə Respublikası ilə elmi və mədəni əlaqələr möhkəmləndi, lakin Rusiya Federasiyası ilə onilliklər ərzində yaranmış belə əlaqələr zəiflədi, İran İslam Respublikası ilə siyasi münasibətlər xeyli gərginləşdi. Azərbaycan Respublikası daxilində iqtisadi tənəzzül daha da dərinləşdi; istehsal



downloaded from KitabYurdu.org

gücünün yalnız 25 - 30%-dən istifadə olunurdu. Ermənistanla davam edən müharibə də iqtisadiyyata ağır zərbə endirirdi. Respublikada yarım milyondan artıq qaçqın və köçkün var idi. İqtisadiyyatı köhnə inzibati amirlik sistemi ilə idarəetmə ləğv olunmuş, yenisi isə hələlik yaradılmamışdı. İqtisadiyyat pozunuq vəziyyətdə idi, respublikanın təbii sərvətləri, Azərbaycan məhsullarının satılmasından əldə edilən valyutası əsasən xarici banklardakı şəxsi hesablara köçürülməklə talan edilirdi. Cəmiyyətdə kəskin şəkildə əmlak baxımından təbəqələşmə prosesi gedirdi: bir ovuc adam zənginləşir, əhalinin 60 - 70%-i isə dilənçilik həddində yaşayırdı. İşsizlik durmadan artırdı. Daxili və xarici siyasətdəki uğursuzluqlar və çatışmazlıqlar ilk növbədə Azərbaycan Respublikası rəhbərliyinin kadr siyasəti ilə bağlı idi və onun nəticəsində səriştəsiz adamlar, xüsusilə də AXC üzvləri idarəetmə aparatına cəlb edilmişdi. 1993-cü il aprelin 6-da ermənilər Kəlbəcər rayonunu işğal etdilər. Azərbaycan qoşunlarının Ağdərə əməliyyatı da son hesabda uğursuzluqla nəticələndi. Müharibənin davam etdirilməsi, böyük itkilər, hərbi uğursuzluqlar, iqtisadi tənəzzül, Azərbaycan Respublikasının rəhbərliyindəki siyasi çəkişmələr xalqın səbir kasasını daşdırdı. Azərbaycan Respublikasının hökuməti xalq arasındakı dayaqlarını itirir, AXC nüfuzdan düşürdü. İyunun 4-də Surət Hüseynovun rəhbərliyi altında ordu hissələrinin Gəncədə qiyamı nəticəsində Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi yarandı. Özünün siyasi zəifliyini hiss eləyən Azərbaycan Respublikasının rəhbərliyi iyunun 9-da təcrübəli və müdrik siyasətçi olan Heydər Əliyevi Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bir neçə gündən sonra Azərbaycan Respublikasının prezidenti Elçibəy qəflətən Bakını tərk edib doğma kəndi Kələkiyə (Naxçıvan) getdi və dəfələrlə göstərilən cəhdlərə və edilən müraciətlərə baxmayaraq, o, Bakıya gəlməkdən imtina etdi. İyunun 24-də Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərinin icrasını H.Əliyevə verdi. H.Əliyevin televiziya ilə Talış - Muğan zonasının əhalisinə müraciətindən sonra avqustun 21 - 23-də keçən kortəbii mitinqlər nəticəsində Əlikram Hümbətovun hələ iyunda Azərbaycanın 7 cənub rayonunda yaratdığı "Talış - Muğan Respublikasında üzərinə götürdüyü hakimiyyət ləğv olundu. Avqustun 29-da referendum iştirakçılarının əksəriyyəti Elçibəyə etimadsızlıq göstərdi. Sentyabrın 24-də Azərbaycan Respublikası MDB-yə daxil oldu. 1993-cü il oktyabrın 3-də H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. Azərbaycan ordusunun təşkilində əvvəllər buraxılmış ciddi səhvlər nəticəsində, xüsusilə də Azərbaycan qoşunlarının həddən ziyadə siyasiləşməsi ucbatından Ağdam (23 iyul), Cəbrayıl (18 avqust), Füzuli (23 avqust), Qubadlı (31 avqust) və Zəngilan (25 oktyabr) rayonlarından ordumuz geriyə çəkilməyə məcbur oldu. Bütün bu rayonlar isə erməni qoşunları tərəfindən işğal edildi. BMT-nin Təhlükəsizlik Şurası tərəfindən Ermənistanın işğal etdiyi əraziləri azad etməsini nəzərdə tutan 822, 853, 874 və 884-cü qətnamələrin qəbul edilməsinə baxmayaraq, Ermənistan rəhbərliyi Azərbaycana qarşı təcavüzünü



downloaded from KitabYurdu.org

davam etdirməkdə idi. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Milli Ordunun yaradılması prosesini sürətləndirdi. 1994-cü ilin fevralında Kəlbəcər rayonunda uğurla başlanılmış "Murovdağ" əməliyyatı xəyanət nəticəsində müvəffəqiyyətsizliyə uğradı. Apreldə Milli Ordu Beyləqan rayonunda erməni qoşunlarına güclü əks-zərbə endirdi. Eyni zamanda, erməni qoşunları böyük itkilər



hesabına Ağdam və Ağdərə rayonlarının bir hissəsini ələ keçirdilər. Bundan sonra mayın 12-də Bişkekdə (Qırğızıstan) Rusiya Federasiyasının vasitəçiliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan arasında atəşin dayandırılması haqqında razılaşma imzalandı. Mayda H.Əliyev Brüsseldə Azərbaycan Respublikasının NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında iştirak etməsi haqqında sazişi imzaladı. Hərbi əməliyyatlardakı fasilə Azərbaycan Respublikasında iqtisadiyyatda mövcud olan təxirəsalınmaz problemlərin və siyasi sabitlik şəraitinin həlli ilə məşğul olmağa imkan verdi.

Sentyabrın 20-də ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı və Yunanıstanın iştirakı ilə Xəzər dənizində neft hasilatı ilə məşğul olacaq beynəlxalq konsorsiumun yaradılması haqqında "Əsrin müqaviləsi" adlandırılan kontrakt imzalandı. 1994-cü il oktyabrın 4-də S.Hüseynovun rəhbərlik etdiyi qiyam yatırıldı.

1995-ci il martın 13 - 17-də Bakıda Rövşən Cavadovun başçılıq etdiyi Xüsusi Təyinatlı Polis Dəstəsinin (OMON) qiyamı yatırıldı. 1995-ci il noyabrın 12-də ümumxalq referendumunda Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. 1996-cı ilin aprelində Lüksemburqda H.Əliyev Avropa İttifaqı (Aİ) ilə "Tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş" imzaladı. Azərbaycan Respublikasında iqtisadi və siyasi şərait tədricən sabitləşirdi. 1997-ci ilin sentyabrında GUAM (Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) iqtisadi birliyi yaradıldı. 1995-98-ci illərdə şairlərin, yazıçıların, bəstəkarların, opera müğənnilərinin, rəssamların, görkəmli alimlərin yubileyləri geniş şəkildə qeyd olundu. 1998-ci il oktyabrın 11 -də H.Əliyev yenidən Azərbaycan Respublikasının prezidenti seçildi. Bundan sonra respublikada siyasi vəziyyət tamamilə sabitləşdi, kiçik dövlət müəssisələri özəlləşdirildi, inflyasiyanın artımı kəskin şəkildə aşağı salındı, Azərbaycan Respublikasının iqtisadiyyatında zəif də olsa, mütəmadi yüksəliş başlandı, kəndlilərə pulsuz torpaq paylandı, xalqın rifahı yaxşılaşdı. 1999-cu ilin noyabrında İstanbulda Azərbaycan neftini Türkiyə və dünya bazarına çıxaracaq Bakı - Tbilisi - Ceyhan neft və qaz kəmərinin inşa edilməsi haqqında saziş imzalandı. 2000-ci ildə "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyi təntənəli surətdə qeyd olundu. Azərbaycan Respublikası demokratik cəmiyyət quruculuğu yollarında qətiyyətlə irəliləyir. 2000-ci ildə respublikada rəsmi olaraq 34 siyasi



downloaded from KitabYurdu.org

partiya və 1000-dən artıq ictimai təşkilat qeydə alındı. 2003-cü il oktyabrın 15-də İlham Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi.

Azərbaycan Respublikasının ərazisi 86,6 min km$^2$-dir (Azərbaycan Respublikası ərazisinin 20%-ə qədəri Ermənistan tərəfindən işğal olunub), əhalisi 8 milyon nəfərdən artıqdır. Azərbaycan Respublikası şimaldan Rusiya Federasiyası, qərbdən Gürcüstan Respublikası, cənub-qərbdən Ermənistan Respublikası və Türkiyə Respublikası ilə, cənubdan isə İran İslam Respublikasıyla həmsərhəddir. Şərqdə Azərbaycan Respublikasının ərazisi Xəzər dənizi ilə yuyulur.

**Azərbaycan Sovet Sosialist Respublikası (Azərbaycan SSR)** - Cənubi Qafqazın şərq hissəsində dövlət qurumu (1920 - 22, 1936 - 91), SSRİ tərkibində mövcud olmuşdur. Azərbaycan SSR 1920-ci il aprelin 28-də əsasən qeyri millətlərdən ibarət olan Bakı bolşeviklərinin üsyanı və Azərbaycan Demokratik Respublikasının bolşevik Rusiyası tərəfindən işğalından sonra yaranmışdır.



Formal şəkildə müstəqil olan Azərbaycan SSR Moskvanın tam nəzarəti altında idi. Az müddət ərzində Azərbaycan Kommunist Partiyasından (AKP) savayı, bütün partiyalar qadağan edildi. Bu partiyaların liderləri və sıravi üzvlərinə, eləcə də Azərbaycan Demokratik Respublikası rəhbərlərinə qarşı terror başlandı. Azərbaycan əhalisinin narazılığı 1920-ci ildə Gəncədə, Qarabağda və Zaqatalada Rusiyanın XI Qırmızı Ordusu tərəfindən amansızlıqla yatırılan üsyanlarda özünü büruzə verdi. Bu üsyanlardan sonra bolşevik terroru daha da qüvvətləndi, 1920 - 21-ci illərdə Azərbaycanda 40 minədək adam edam edildi. 1920-ci ildə neft və neftçıxarma sənayesi rəhbərliyi birbaşa RSFSR-in müvafiq orqanlarına tabe etdirilir. Azərbaycanda istehsal olunan neftin, demək olar ki, hamısı və neft məhsullarının çox hissəsi Rusiyaya göndərilirdi. Azərbaycanı talan etmək üsullarından biri də şəhər və kəndlərdə müsəlman əhalinin əmlakının müsadirə edilməsi idi. Ərzaq sapalağının tətbiq edilməsi kəndlilərin qarət edilməsinə gətirib çıxardı. Bolşeviklər məscidləri dağıtmağa, din xadimlərini güllələməyə başladılar. Ermənistanın Zəngəzur, Qarabağ və Naxçıvana təcavüzü maneəsiz davam etdirilirdi. Qırmızı Ordu ermənilərin təcavüzünə tam sakitliklə etinasızlıq göstərirdi. Bütün bunlar Şəmkir, Lənkəran və Cavanşir qəzalarında kəndlilərin üsyanlarına səbəb oldu və bu üsyanlar bolşeviklər tərəfindən amansızcasına yatırıldı. Türkiyə ordusu Naxçıvanı bütövlükdə öz nəzarəti altına götürdü. Ermənistan SSR-in yaradılmasından 2 gün sonra - dekabrın 1-də Nərimanov Azərbaycanla Ermənistan arasında sərhəd məsələləri üzrə mübahisə probleminin olmaması haqqında Azərbaycan İnqilab Komitəsinin bəyanatı ilə çıxış etdi, bu isə əslində Azərbaycanın itirdiyi və ermənilər tərəfindən işğal olunmuş Zəngəzunın, eləcə də şimal-qərbdə digər ərazilərin getməsi ilə barışması demək idi. Bunun nəticəsində Azərbaycan



downloaded from KitabYurdu.org



Azərbaycan SSR-in ilk hökumətinin tərkibi

ərazisinin 10 min km$^2$-ni itirdi və Azərbaycan SSR-in ərazisi 86,6 min km$^2$-ə bərabər oldu. Bu bəyanata əsasən, Dağlıq Qarabağ ermənilərinə öz müqəddəratını təyin etmək hüququ verilirdi. Lakin sonra Nərimanov qətiyyətlə Qarabağa muxtariyyət verilməsi əleyhinə çıxış etdi. Amma 1923-cü ilin iyulunda RK(b)P Zaqafqaziya Ölkə Komitəsi adından gəlmiş Orconikidze və Kirov Azərbaycan hökumətinə məsləhət gördülər ki, Dağlıq Qarabağın muxtariyyətini təsdiq etsinlər və hökumət bu "məsləhət"i sədaqətlə yerinə yetirdi. Beləliklə, Azərbaycan ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yaradıldı. Ermənistan Naxçıvana da öz iddialarını irəli sürürdü, lakin 1921-ci il martın 16-da Moskvada imzalanmış Rusiya – Türkiyə müqaviləsinə əsasən, Türkiyə yalnız bir şərtlə öz qoşunlarını Naxçıvan ərazisindən çıxarırdı ki, Rusiya Naxçıvanın Azərbaycanın tərkib hissəsi olduğunu qəbul etsin və onu hər hansı bir üçüncü tərəfə verməsin. 1924-cü ilin fevralında Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (Nax.MSSR) yaradıldı. 1922-ci ildən 1936-cı ilə qədər Azərbaycan SSR Ermənistan və Gürcüstan SSR-lə birlikdə ZSFSR tərkibinə daxil oldu. 1936-cı ildə ZSFSR ləğv edildi və Azərbaycan SSR ayrıca müttəfiq respublika kimi SSRİ-nin tərkibinə daxil oldu. Yeni iqtisadi siyasətin (YİS) heyata keçirilməsi ilə Azərbaycanın neftçıxarma və neft istehsalı sənayesi bərpa edildi. YİS Azərbaycanın kənd təsərrüfatında da müsbət dəyişikliklərə səbəb oldu. Sənayeləşdirmə neftlə yanaşı, Azərbaycanın digər sənaye sahələrinin də inkişafına səbəb oldu. 1928-ci ildən etibarən kənd təsərrüfatında zorakılıqla kollektivləşdirmə bütün kəndlilərdə narazılıq doğurdu və bu, 1930-cu ildə Gəncədə (Bitdili), Naxçıvan MSSR-də (Keçili kəndi) və Nuxa - Zaqatala bölgəsində kəndlilərin üsyanlarına səbəb oldu; üsyanlar sovet qoşunları tərəfindən yatırıldı. Mərkəzin siyasətinə uyğun olaraq respublika rəhbərliyindəki milli kadrlar vəzifələrindən uzaqlaşdırıldı və belə bir şəraitdə ermənilərin və rusların mövqeyi xeyli gücləndi. Lakin çəkişmələr və hakimiyyət uğrunda daim aparılan mübarizə Azərbaycanın siyasi və iqtisadi həyatına mənfi təsir göstərdi. Son hesabda isə mərkəz respublika rəhbərliyini özünə sədaqətli olan milli kadrlardan birinə həvalə etməyi qərara aldı. 1932-ci ildə Mir Cəfər Bağırov Azərbaycan SSR Xalq Komissarları Sovetinin (XKS) sədri, 1934-cü ildə isə həm də AK(b)P MK-nın birinci katibi vəzifəsinə təyin edildi. Bu dövrdə SSRİ-də inzibati amirlik idarə sistemi və Stalinin şəxsiyyətinə pərəstiş formalaşdı, ayrı cür düşünənlərə qarşı kütləvi repressiyalar başlandı. Azərbaycanda repressiya prosesində 1937-ci ildən başlayaraq keçmiş partiya və dövlət xadimlərindən R.Axundov, D.Bünyadzadə, Q.Vəzirov, Ə.H.Qarayev, Q.Musabəyov, H.Sultanov, Ə.Xanbudaqov, S.Əfəndiyev və bir çox başqaları tutulmuş və ya edam edilmişdilər. Repressiyaya məruz qalanlar arasında Azərbaycan ziyalıları və mədəniyyətinin Məmmədkazım Ələkbərli, Əhməd Cavad,



downloaded from KitabYurdu.org

Hüseyn Cavid, M.Mümtaz, Salman Mümtaz, Mikayıl Müşfiq, Əli Razi, Tağı Şahbazi, Yusif Çəmənzəminli, Bəkir Çobanzadə və bir bir çox başqa görkəmli nümayəndələri də olmuşdur. Həbs düşərgələrində minlərlə fəhlə, "etibarsız" kəndlər və kəndli ailələri Qazaxıstan və Sibirə sürgün olunurdular. Repressiya zamanı Azərbaycan SSR-dən cəmi 50 min nəfərə yaxın adam edam edilmiş, 100 mindən çoxu isə həbs düşərgələrinə salınmış və sürgün olunmuşdur. "Xalq düşmənləri" ilə mübarizədə ümumi psixoz vəziyyətindən istifadə edən Ermənistan SSR rəhbərliyi əsas zərbəni bu respublikada yaşayan azərbaycanlılara qarşı yönəltdi. Şantaj hədə nəticəsində bir çox azərbaycanlı doğma yerləri tərk edib qaçqın kimi Azərbaycana köçdü.

XX əsrin 30-cu illərinin sonlarına yaxın Azərbaycan SSR-in iqtisadiyyatında müəyyən uğurlar qazanılmışdır: 62 iri müəssisə inşa edilib istismara verilmiş, neft hasilatı, eləcə də yüngül sənaye müəssisələrində istehsal olunan məhsulun həcmi artmışdır. Bu dövrədək Azərbaycanda artıq patriarxal və kapitalist təsərrüfat formaları bütünlüklə ləğv edilmiş, dövlət iqtisadiyyatının və ticarətdə dövlət inhisarının bölünməz hökmranlığı bərqərar olmuşdur. Azərbaycan SSR-də sovet hakimiyyəti qurulan kimi "mədəni inqilab" başlanmışdır. Kommunist ideologiyasına görə, hər hansı bir digər ideologiya mənəvi həyatdan çıxarılmalı idi, buna görə də kommunistlər dinə qarşı barışmaz mübarizə aparırdılar. Əgər XX əsrin 20-ci illərinin əvvəllərində Şimali Azərbaycanda 3 minə yaxın məscid var idisə, 30-cu illərin sonlarında onlardan yalnız 20-yə qədəri qalmışdı. Köhnə kitablar və qədim əlyazmalar məhv edilmiş, hətta Novruz bayramı da "əksinqilabi" elan olunmuşdu. 1922-ci ildən Azərbaycan yazısının ərəb qrafikasından latın əlifbasına keçilməsinə başlanıldı və bu proses 1928-ci ildə başa çatdırıldı. Türkiyə də Azərbaycanın təcrübəsini davam etdirdi. Lakin bundan sonra türk xalqlarının daha da yaxınlaşacağından təşvişə düşən sovet hökuməti 1940-cı ildə Azərbaycan yazısının, bu dilin fonetik xüsusiyyətlərini nəzərə almaqla rus qrafikası əsasında tərtib olunmuş yeni əlifbaya - kiril əlifbasına keçilməsi haqqında qanun qəbul etdi. Bununla belə, savadsızlığın ləğv edilməsi sahəsində böyük müvəffəqiyyətlər əldə olunmuş, 1931-ci ildən isə ibtidai icbari təhsilə keçilmişdir. 1921-ci ildə Azərbaycan Politexnik İnstitutu, Azərbaycan Dövlət Pedaqoji İnstitutu, Şərqdə ilk konservatoriya, Ali İncəsənət Məktəbi açılmışdır. 1930-cu illərin əvvəllərində Tibb İnstitutu təşkil edildi, 1934-cü ildə Sənaye və Xalq Təsərrüfatı institutları açıldı. 1920-ci ildə Azərbaycan Dövlət Muzeyi, 1936-cı ildə isə Azərbaycan İncəsənət Muzeyi yaradıldı. 1928-ci ildə Respublika Kitabxanası qapılarını oxucuların üzünə açdı. 1923-cü ildə "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" yaradıldı. 1932-ci ildə SSRİ EA Zaqafqaziya filialının Azərbaycan bölməsi yaradıldı. 1926-cı ildə respublikada


Repressiya qurbanları



downloaded from KitabYurdu.org

radio verilişlərinin yayınlanmasına başlanıldı. 1920-ci ildə Birləşmiş Dövlət Teatrı, Rus Tənqid və Təbliğ Akademik Teatrı, 1924-cü ildə Azərbaycan Opera və Balet Teatrı, 1928-ci ildə Uşaq Teatrı (1938-ci ildən Gənc Tamaşaçılar Teatrı), 1931-ci ildə Azərbaycan Kukla Teatrı, 1938-ci ildə Azərbaycan Musiqili Komediya Teatrı yaradıldı. Milli kinematoqrafiyanın əsasları yaradıldı. İkinci Dünya müharibəsi illərində Azərbaycan SSR-in iqtisadiyyatı hərbi xəttə keçirildi. Bakı Sovet Ordusunun əsas cəbbəxanalarından biri idi: SSRİ-də hasil olunan neftin 75%-dən çoxu burada çıxarılır, sovet aviasiyası tamamilə Bakı nefti ilə işləyirdi, Bakının maşınqayırma zavodlarında silah və sursat, o cümlədən məşhur "Katyuşa" istehsal olunurdu.

Azərbaycan SSR-də ümumi sayı 600 min nəfərdən artıq olan 77-ci ("Simferopol"), 223-cü, 271-ci ("Qorlovka"), 402-ci və 416-cı ("Taqanroq") atıcı diviziyaları təşkil edildi və onlar hərbi əməliyyatlarda iştirak etdilər. 1942-ci ilin


Həzi Aslanov

iyulunda alman qoşunları Şimali Qafqazın bir hissəsini işğal etdikləri zaman sovet rəhbərliyi azərbaycanlıları Mərkəzi Asiyaya və Qazaxıstana köçürmək haqqında plan hazırladı, lakin M.C.Bağırov Stalini inandıra bildi ki, bu planın həyata keçirilməsinin mənfi nəticələri olacaq. Müharibə illərində Azərbaycan diviziyaları 400 minədək döyüşçü itirmiş, Azərbaycanın 121 döyüşçüsü "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülmüş, 30 nəfəri hər üç dərəcədən olan Şöhrət ordeni, 176 min nəfəri SSRİ-nin digər orden və medalları ilə təltif edilmişdir. Həzi Aslanov iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Müharibə Azərbaycan SSR-in iqtisadiyyatına çox ağır zərbə vurmuşdur; müharibədən sonra onun iqtisadiyyatı dinc yola keçirildi. 1948-ci ildə neft istehsalının inkişafı müharibədən əvvəlki səviyyəyə çatdı. Yeni neft və qaz



yataqları istismar edildi. 1948-ci ildə Neft daşlarının inşasına başlanıldı, 1949-cu ildə isə dəniz neft quyusundan ilk fontan vurdu. Müharibədən sonra bir çox yeni müəssisələr inşa edildi, sənayenin kimya, dağ-mədən, qara və əlvan metallurgiya, energetika kimi sahələri inkişaf etdirildi. 1954-cü ildə Cənubi Qafqazda ən böyük olan Mingəçevir SES işə salındı. 1955-ci ildə birinci Dağlıq Qarabağ və ikinci Samur - Abşeron suvarma kanalları işləməyə başladı. Respublikada dənli bitkilərin istehsalı azaldı, əvəzində isə texniki bitkilərin, xüsusilə də pambıq və tütün istehsalı artırıldı. Heyvandarlıq öz inkişafında xeyli geridə qalırdı. Bütün bunlarla yanaşı, əhalinin həyat səviyyəsi xeyli aşağı idi.

1945-ci ildə Bakıda Nizami Muzeyi (sonralar - Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi) açıldı. 1945-ci il yanvarın 23-də Azərbaycan SSR Elmlər Akademiyası yaradıldı. 1945-ci ildə Teatr İnstitutu, 1948-ci ildə Xarici Dillər



downloaded from KitabYurdu.org

Pedaqoji İnstitutu, 1952-ci ildə Rus Dili və Ədəbiyyatı İnstitutu açıldı. 1940 - 50-ci illərdə təhsilin ruslaşdırılmasına doğru ciddi addımlar atıldı, təhsilin məzmunu mövcud rejimin maraqlarına tabe etdirildi. Müharibədən sonrakı dövrlərdə ədəbi abidələrin, inqilabdan əvvəlki tarixçi və dilçilərin, eləcə də yadfikirlilərin təqibi ciddiləşdirildi. “Kitabi-Dədə Qorqud” əsəri “mürtəce feodal-xan dastanı” damğasını aldı, A.Bakıxanov idealizm və fanatizmdə günahlandırıldı, Kazım bəyi "çarizmin sədaqətli nökəri" adlandırdılar, yazıçı Mirzə İbrahimov "elmi-siyasi sayıqlığını" itirməkdə günahlandırıldı, akademik Heydər Hüseynov "Stalin mükafatı"ndan məhrum edildi, akademik M.A.Dadaşzadə "Türkiyə casusu" damğasını aldı və s. Moskvadakı erməni lobbisinə arxalanan erməni millətçiləri və daşnakları Dağlıq Qarabağın Azərbaycandan qoparılıb Ermənistana birləşdirilməsi haqqında vaxtaşırı məsələ qaldırırdılar. Ermənistanın rəhbərliyi 1945-ci ildə növbəti dəfə bu məsələni ÜİK(b)P MK-nın qarşısında qaldırdı. M.C.Bağırov azərbaycanlıların yaşadığı Zəngəzurun, Borçalının və Dərbənd dairəsinin Azərbaycana qaytarılması şərti ilə, azərbaycanlıların məskunlaşdığı Şuşadan başqa, Dağlıq Qarabağın digər ərazilərinin Ermənistana verilməsinə razılığını bildirdi. Həm Ermənistanın, həm də Azərbaycanın təklifini rədd edən sovet hökuməti Ermənistan SSR-in ərazisində yaşayan azərbaycanlı əhalinin xeyli hissəsinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında sanksiya verdi. 1948 -50-ci illərdə Ermənistandan "könüllülük prinsipi" əsasında 100 min azərbaycanlı köçürüldü. Eyni zamanda, Azərbaycanda yeni yaradılan sənaye müəssisələrinə - Sumqayıt, Əli Bayramlı, Mingəçevir və Daşkəsənə başqa respublikalardan minlərlə adam, o cümlədən ermənilər köçürüldü, Azərbaycanın qərb rayonlarına - Daşkəsən, Goranboy, Şəmkir, Kirovabad (Gəncə) və Dağlıq Qarabağa erməni miqrasiyası gücləndi. 1950-ci ildə Gürcüstan SSR-də Azərbaycan yaşayış məntəqələrinin adının gürcü yer adları ilə dəyişdirilməsinə başlanıldı. Bütün bu sadalananlar sovet imperiyasının Azərbaycan əleyhinə apardığı vahid kampaniyanın tərkib hissələri idi. 1953-cü ildə Stalinin ölümündən sonra M.C.Bağırov "xəyanətkar fəaliyyətinə və rəhbərlikdəki yarıtmaz işinə görə" tutduğu vəzifədən azad edildi. SSRİ Ali Məhkəməsinin 1956-cı ilin aprelində Bakıda keçirilən Hərbi Kollegiyası M.C.Bağırovu "xalq düşməni" kimi güllələnməyə məhkum etdi. Repressiya olunanlara 1956-cı ildən etibarən bəraət verilməsinə başlanıldı, lakin Azərbaycan xalqının tarixi keçmişindən və türk xalqları ilə birliyindən bəhs edilən əsərlərə qoyulmuş qadağa yenə də götürülmədi. Azərbaycan KP MK-nın birinci katibi təyin edilmiş İmam Mustafayev respublikanın inkişafındakı milli özəllikləri qorumağa və artırmağa cəhd göstərdi. 1950-ci illərdə kəndli gənclərin Bakıya axını gücləndi və bu, şəhərdə azərbaycanlı əhalinin sayının artmasına səbəb oldu. İ.Mustafayev Azərbaycan dilinə dövlət dili statusu verilməsinə çalışırdı. 1956-cı il fevralın 14-də


Mingəçevir SES



downloaded from KitabYurdu.org

Azərbaycan televiziyası işə başladı. Azərbaycanda milli dirçəliş meylləri oyanırdı. Bu, mərkəzin narahatlığına səbəb oldu və 1959-cu ildə İ.Mustafayev "millətçilik" üstündə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsindən azad edildi. Onun yerinə Vəli Axundov təyin olundu. Respublikanı "cilovlamaq" məqsədi ilə mərkəz yenidən Dağlıq Qarabağ problemindən istifadə etdi. Ermənistanda və DQMV-də Dağlıq Qarabağın Ermənistana verilməsi tələbləri səslənməyə başlandı. 1955-ci ildə Yerevandakı Pedaqoji İnstitutun Azərbaycan bölməsi bağlandı, Azərbaycan Pedaqoji Texnikumu isə Ermənistandan Azərbaycana köçürüldü. 1940-cı illərdə yaradılmış "Qarabağ hərəkatı" leqallaşdırıldı. 1960-cı ildə DQMV haqqında məsələ Sov.İKP MK-da müzakirə olundu. Sovet respublikalarının digər mübahisəli əraziləri üçün nümunə olmasından ehtiyat edən Xruşşov Azərbaycanın tərəfini saxladı, lakin Ermənistana icazə verildi ki, 1965-ci ildə Türkiyədə uydurma erməni genosidinin 50 illiyini qeyd etsin və bu, Ermənistandakı azərbaycanlıların daha da sıxışdırılmasına təkan verdi - onlar bütün rəhbər vəzifələrdən qovuldular, Azərbaycan dilində nəşr olunan rayon qəzetləri bağlanıldı; bir qrup erməni ziyahsı Qafqaz Albaniyası tarixi abidələrinin ermənilərə məxsus olması iddiasını irəli sürüb tələb elədi ki, onların mühafizəsi məsələsi Ermənistana həvalə olunsun. Mərkəzin birbaşa müdaxiləsi və yardımı ilə 1960-cı illərdə Azərbaycanda güclü erməni lobbisi yaradıldı, DQMV-də erməni millətçilərinin mövqeyi qüvvətləndi, 1967-ci ildə Stepanakertdə (Xankəndi) azərbaycanlılar təqib olunmağa başlandılar və proses zamanı bir neçə nəfər öldürüldü. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Moskvanın təzyiqi ilə 1969-cu il mayın 7-də sərhəd rayonlarında olan 2 min ha-dan artıq ərazinin Ermənistana verilməsi haqqında qərarı təsdiq etdi, lakin az sonra Azərbaycan SSR-in rəhbərliyinə gələn Heydər Əliyev bu qərarın həyata keçirilməsinin qarşısını aldı. 1950-ci illərdə və 60-cı illərin ortalarında iqtisadiyyatın idarəolunması və formalarında tez-tez dəyişikliklər aparılmasına baxmayaraq, burada müəyyən tərəqqi olmuşdur. 143 yeni müəssisə işə salınmış, respublikanın energetika sənayesi inkişaf etdirilmiş, 1968-ci ildə Əli Bayramlı



DRES istismara verilmiş, sənaye məhsulunun istehsalı 2,5 dəfə artmış, amma məhsulun keyfiyyəti yaxşılaşmamışdı. 1967-ci il noyabrın 7-də Bakı metropoliteni işə salındı. Kənd təsərrüfatı istehsalının göstəriciləri artsa da, onun inkişaf sürəti zəifləmişdi. Əmək məhsuldarlığı aşağı idi, belə ki, işçilərin öz əməklərinin nəticəsinə olan maraqları azalmışdı. Bu illərdə üçcildlik "Azərbaycan tarixi" nəşr olunmuşdur. 1969-cu ilin iyulunda Vəli Axundov Azərbaycan KP MK-nın birinci katibi vəzifəsindən azad edildi, bu vəzifəyə Heydər Əliyev təyin olundu. Heydər Əliyevin hakimiyyəti illərində respublikada bir milyondan artıq yeni iş yeri açıldı, mütərəqqi texnologiyaya əsaslanan yeni istehsal sahələri - elektronika, radiotexnika, hesablama texnikası və s. inkişaf etməyə başladı. Yapon mütəxəssislərinin yardımı ilə 1975-ci ildə Bakıda Məişət



downloaded from KitabYurdu.org

kondisionerləri zavodu inşa edildi. 1980-ci illərin ortalarında SSRİ-də istehsal olunan neft avadanlığının $^{2}/_{3}$-si Azərbaycanda hazırlanırdı. 1970 - 80-ci illərdə bir çox suvarma kanalları və su anbarları inşa edilmiş və yenidən qurulmuşdur, becərilən torpaqların sahəsi xeyli genişlənmişdir. Taxıl üzrə əkin sahələrinin ixtisarı hesabına texniki bitkilərin, xüsusilə də pambıq və üzüm əkin sahələri xeyli genişləndirildi. Əhalinin ərzaqla təmin olunması məsələsində respublika digər regionlardan, demək olar ki, tamamilə asılı vəziyyətə düşmüşdü. Hər il Azərbaycana gətiriləndən 1,5-2 milyard rubldan artıq mal respublikadan aparılırdı. Bundan əlavə, Azərbaycanda xammal onun maya dəyərindən xeyli ucuz alınırdı; məsələn: dünyada ən yüksək keyfiyyətlilərdən sayılan Bakı nefti dövlət tərəfindən "Badamlı" mineral suyunun qiymətindən 2,5 dəfə ucuz alınırdı və bu səbəbdən Azərbaycan hər il 2,5 milyard rubl itirirdi. Respublikada mənzil tikintisi geniş vüsət aldı. Azərbaycanın böyük mədəniyyət xadimlərinin təntənəli yubileylərinin keçirilməsinə başlanıldı, respublikada və Moskvada Azərbaycan teatrının 100 illik yubileyi keçirildi. 1930-cu illərdə "xalq düşməni" elan olunmuş romantik şair H.Cavidin cənazəsinin qalıqları İrkutsk vilayətindən gətirilib Naxçıvanda yenidən dəfn edildi. 1976-cı ildə 10 cildlik "Azərbaycan Sovet Ensiklopediyası"nın nəşrinə başlanıldı. 1981-ci ildə Cənubi Azərbaycan şairi Şəhriyarın əsərləri nəşr edildi, "Şəhriyar gecələri"nin keçirilməsi Azərbaycan xalqının birləşdirilməsində əhəmiyyətli rol oynadı. Azərbaycan dilinin təbliği genişləndi. Azərbaycan mədəniyyəti, incəsənəti və musiqisi sürətlə inkişaf etməyə başladı. Heydər Əliyev DQMV-ni daim nəzarət altında saxlayırdı; onun rəhbərliyi ərzində DQMV-də



separatçıların heç bir çıxışı olmamışdır. 1960-cı illərdə - 70-ci illərin əvvəllərində Əbülfəz Əliyevin (Elçibəy) rəhbərliyi ilə bir qrup azadfikirli tələbə gənclər arasında milli özünüdərkin dirçəlişi ilə bağlı təbliğat aparırdı. 1973-cü ildə Asəf Kərimovun rəhbərliyi ilə gizli "Milliyyət" təşkilatı yaradılmışdı. 1975-ci ildə Ə.Əliyev (Elçibəy) dövlət təhlükəsizlik orqanları tərəfindən həbs olundu. 1976-cı ildə "Milliyyət" "Azərbaycan milli-demokrat ittifaqı"na çevrildi və elə həmin il bu təşkilatın üzvləri Bakıda ADR-in üçrəngli bayrağı altında 1 May nümayişinə çıxdılar. Sumqayıtda, Kirovabadda (Gəncə) və s. şəhərlərdə gizli təşkilatlar meydana gəldi, amma həmin təşkilatların fəaliyyət dairəsi məhdud idi və əsasən Azərbaycan dilinin istifadə çərçivəsinin inkişaf etdirilməsi və genişləndirilməsinə, Azərbaycanın sovet imperiyasının xammal bazasına çevrilməsinin tənqidinə, SSRİ-nin rəhbər orqanlarında azərbaycanlıların olmamasına yönəlmişdi. 1982-ci ildə Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvü seçildi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə Kamran Bağırov təyin olundu. 1985-ci ildə Sov.İKP MK-nın baş katibi vəzifəsinə keçən M.S.Qorbaçov "yenidənqurma" şüarını irəli sürdü,



downloaded from KitabYurdu.org

az sonra isə "aşkarlıq" siyasətini ortaya atdı. Bu dövrdə respublika iqtisadiyyatının inkişaf sürəti 1970-ci illərin sonu - 80-ci illərin əvvəllərindəkindən sənayedə 1,8, kənd təsərrüfatında 2,3 dəfə az idi. SSRİ-də spirtli içkilərə qarşı mübarizə və üzümlüklərin məhv edilməsi kampaniyası Azərbaycan kənd təsərrüfatına xeyli zərər yurdu, burada 100 min ha-dan artıq sahəde uzümlüklər doğrandı, Azərbaycan sənayesinin şərabçılıq sahəsinə böyük zərər dəydi. 1980-ci illərin əvvəllərində respublikada ət, yağ, sonlarında isə həm də şəkər satışına talon sistemi tətbiq edildi. Nominal əmək haqqı xeyli artırıldı, lakin pulun alıcılıq qabiliyyətinin kəskin şəkildə aşağı düşməsi nəticəsində real əmək haqqı xeyli azaldı. Bu dövrdə respublika rəhbərliyinin səciyyəvi xüsusiyyətlərindən biri də ətalətli və mühafizəkar olması idi. Bununla yanaşı, sovet imperiyasındakı qarışıqlıqdan istifadə edən erməni millətçiləri Azərbaycana qarşı işğalçı siyasət həyata keçirməyə başladılar. 1980-ci illərin ortalarında erməni millətçiləri Bakıda diversiyalar törətdilər - Azərbaycan Dövlət Opera və Balet Teatrının təzəcə bərpa olunmuş binasını yandırdılar, avtobus və yaşayış binası partladıldı. Provokasiyanın əlamət dairələri geniş olsa da, respublika rəhbərliyi lazımi nəticə çıxarmadı və hətta beynəlmiləlçilik mövqeyindən çıxış edərək Qazax və Gədəbəy rayonlarında yerli əhalinin etirazlarına fikir vermədən 1000 ha-dan artıq torpaq sahəsini Ermənistana verməyə razılığını bildirdi. Məhz həmin vaxtlarda Heydər Əliyevin nüfuzunun artmasından təşvişə düşən Moskva onu siyasi fəaliyyətdən uzaqlaşdırmağa çalışırdı. Erməni millətçiləri və Azərbaycandakı mafioz qrupların əli ilə Moskvaya şikayət axını təşkil edildi və bu, son nəticədə 1987-ci ildə Heydər Əliyevin istefası ilə başa çatdı. Bundan sonra Z.Balayanın "Oçaq" provokator kitabı çap olundu, Ermənistan, mərkəzi və Qərb mətbuatında Azərbaycan əleyhinə geniş təbliğat kampaniyası başlandı. Ermənilər Dağlıq Qarabağa açıq iddialar irəli sürməyə başladılar. Amma Azərbaycan SSR rəhbərliyi qorxaq və qətiyyətsiz mövqe tutur, azərbaycanlıların narazılığını xalqlar dostluğunun pozulması kimi dəyərləndirir və onu boğmağa çalışırdı.

Qorbaçovun müşavirlərindən olan A.Aqanbeqyan 1987-ci ilin noyabrında Parisdə olarkən Dağlıq Qarabağın Ermənistana verilməsinə Moskvanın razılığını bildirən bəyanatla çıxış edir. Uzun müddət gizli fəaliyyət göstərən "Krunk" təşkilatı "Daşnaksütyun"un köməyi ilə DQMV uğrunda açıq mübarizəyə başlayır, Dağlıq Qarabağın Ermənistanla birləşdirilməsini ("miatsum") nəzərdə tutan hərəkat genişlənir.

1987-ci ilin sonları - 1988-ci ilin əvvəllərində silahlı erməni dəstələri azərbaycanlıları Ermənistandan qovmağa başladılar və onlar əsasən Sumqayıta yığışdılar. 1987-ci ilin sonları - 1988-ci ilin əvvəllərində Azərbaycanda ilk qeyri-formal "Yurd" və "Çənlibel" vətənpərvər təşkilatları yarandı. 1988-ci ilin əvvəllərində Stepanakertdə mitinq və nümayişlər başlandı. Bakıda ilk etiraz mitinqi fevralın 19-da oldu. Fevralın 20-də Vilayət Sovetinin sessiyası Azərbaycan SSR Ali Sovetinə DQMV-nin statusuna yenidən baxılmaq haqqında müraciət qəbul etdi.



downloaded from KitabYurdu.org

İkili mövqe tutan Moskva həm Ermənistan, həm də Azərbaycan üçün bir-birinə tam zidd olan bəyanatlar verirdi. Azərbaycanlıları dünya ictimaiyyətinin gözü qarşısında rüsvay etmək məqsədi ilə ermənilər Ermənistandan gəlmiş çoxsaylı qaçqınların olduğu Sumqayıtda fevralın 28 - 29-da pozğunluqlar törətdilər, nəticədə 32 nəfər (onlardan 6-sı azərbaycanlı) həlak oldu. Sumqayıt hadisələrindən sonra Ermənistanda qanlı antiazərbaycan kampaniyasının yeni dövrü başlandı. Tezliklə çoxlu qeyri-formal erməni təşkilatları yarandı və bunlar Sovet Ordusu, eləcə də xarici dövlətlərin hesabına silahlandırıldılar. Faktik olaraq azərbaycanlılara qarşı genosid - soyqırımı başlandı, hətta Ermənistanda baş vermiş zəlzələ də bunu dayandıra bilmədi. 225 nəfər öldürüldü, 185 kənd talan edilib dağıdıldı, bu kəndlərdən 230 min nəfərdən çox azərbaycanlı qovulub çıxarıldı. Nəticədə Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmadı.

Moskva özünü üçüncü tərəf kimi tərəfkeşsiz göstərməyə çalışırdı, özü də bu halda Azərbaycanla özgə ərazisini tutmağa çalışan Ermənistan arasında fərq qoyulmurdu. Hər iki respublikada partiya rəhbərləri dəyişdirildi. Kamran Bağırovu 1988-ci ilin mayında Əbdürrəhman Vəzirov əvəz etdi. Mayda Bakıda və respublikanın digər şəhərlərində mitinqlər keçdi. Bu dövrdə "Çənlibel" və "Bakı şəhəri alimlər klubu" azərbaycanlı əhali arasında öz fəaliyyətini genişləndirdi. 1988-ci il iyulun 12-də DQMV Sovetinin sessiyası Azərbaycan SSR tərkibindən çıxmaq haqqında qərar qəbul etdi, lakin SSRİ Ali Sovetinin Rəyasət Heyəti iyulun 18-də DQMV-nin Azərbaycana mənsubluğunu təsdiqlədi. Sentyabrda ermənilər Xocalı kəndinə hücum etdilər, azərbaycanlıların Stepanakertdən qovulmasına başlanıldı. Noyabrda ermənilər Şuşa yaxınlığındakı "Topxana" meşə qoruğunda qeyri-qanuni zavod inşa etməyə başladılar. 1988-ci il noyabrın 18-də Bakıda indiki Azadlıq (Lenin) meydanında fasiləsiz mitinqlər başlandı. Mitinqçilərin əsas tələbləri Ermənistanın Azərbaycana qarşı təcavüzünə son qoyulması idı. Bəzən mitinq iştirakçılarının sayı 1 milyon nəfərə çatırdı. Noyabrın 24-də hökumət xüsusi vəziyyət və komendant saatı elan edib, Bakıya və respublikanın digər şəhərlərinə tanklar yeritdi. Dekabrın 4-də sovet qoşunları Bakıda Lenin meydanındakı mitinqi qovdular; bu zaman 3 nəfər həlak oldu, bir çox adam həbs edildi. Mitinqin qovulmasından sonra Bakıda və respublikanın digər şəhərlərində tətillər başlandı. Qorbaçov 1989-ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin müdri oldu. O bundan sonra Sov.İKP MK-cəmiyyətdəki inhisarçı mövqeyini ləğv etməyə başladı. SSRİ iqtisadiyyatı tədricən dağılırdı. 1989-cu il yanvarın 12-də SSRİ Ali Soveti Rəyasət Heyəti qərar qəbul etdi ki, A.Volskinin rəhbərliyi altında DQMV üzrə Xüsusi İdarə Komitəsi (XİK) yaradılsın. Mayın 6-da SSRİ Nazirlər Sovetinin qərarı ilə DQMV idarə və müəssisələri Azərbaycan





downloaded from KitabYurdu.org

SSR-in tabeliyindən çıxarıldı. Erməni bandit təşkilatları silah və ərzaq anbarları yaradır. XİK isə azərbaycanlılardan hətta ov tüfənglərini də müsadirə edirdi. XİK-in fəaliyyətsizliyi ilə iyunda erməni silahlı dəstələri DQMV-də azərbaycanlıların yayayış məntəqələrini mühasirəyə aldılar, iyulda isə Sovet Ordusunun köməkliyi ilə bütün azərbaycanlılar (16 min nəfər) Stepanakertdən qovuldu.

İyunun 16-da Bakıda "Azərhaycan Xalq Cəbhəsi" (AXC) yaradılır, Əbülfəz Əliyev (Elçibəy) isə onun sədri seçilir. AXC respublika ərazisinin suverenliyi və bütövlüyü uğrunda çıxış edən bütün qüvvələri birləşdirirdi. İyunun 29-da AXC İdarə Heyətinin üzvləri Etibar Məmmədov və Nemət Pənahov Bakıda ümumşəhər mitinqi təşkil etdilər. Mitinq iştirakçıları aşağıdakı tələbləri irəli sürdülər: Azərbaycanın suverenliyi və iqtisadi müstəqilliyi haqqında qanun qəbul edilsin; DQMV üzrə XİK ləğv edilsin; respublika şəhərlərindəki fövqəladə vəziyyət ləğv edilsin; AXC qeydə alınsın və s. İyulun sonlarında Şaumyan rayon Xalq Deputatları Soveti Azərbaycan SSR Ali Sovetinə onun DQMV tərkibinə keçirilməsi haqqında xahişlə müraciət etdi. Sentyabrın 4-də Azərbaycanda ümumilli tətil başlandı; respublika rəhbərliyinin istefası tələbi də əvvəlki tələblərə əlavə olundu. Sentyabrın 15-də Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası çağırıldı və vətənpərvər qüvvələrin təzyiqi altında sessiyada AXC-nin və mitinqçilərin əsas tələbləri qəbul olundu, sentyabrın 23-də sessiya "Azərbaycan SSR-in suverenliyi haqqında" konstitusiya qanunu qəbul etdi. Oktyabrın 5-də AXC rəsmən qeydə alındı. Azərbaycanın mütərəqqi qüvvələrinin davamlı tələbindən sonra SSRİ Ali Soveti noyabrın 28-də XİK-i ləğv etdi. Dağlıq Qarabağın idarəsi SSRİ Ali Soveti Xüsusi Komitəsinin nəzarəti altında olan Azərbaycan SSR Təşkilat Komitəsinə həvalə olundu. Təşkilat komitəsi hərbi komendantlığın və Xüsusi Təyinatlı Milis Dəstəsinin (XTMD) köməkliyi ilə Azərbaycan kəndlərini mühasirədən çıxarmağa, qeyri-qanuni silahlı dəstələri ləğv etməyə, Ermənistandan silah gətirilməsinin qarşısını almağa başladı. Dekabrın 1-də Ermənistan "Ermənistan SSR-lə DQMV-nin birləşməsi haqqında" konstitusiyaya zidd qərar qəbul etdi. Naxçıvan MSSR Ermənistan tərəfindən blokadaya alındı. Respublika rəhbərliyinin passivliyi və nüfuzdan düşməsi, Qarabağ probleminin kəskinləşməsi tədricən Azərbaycanda idarəolunmaz şərait yetişdirdi, dövlət orqanları ilə xalq kütlələri arasında fasiləsiz baş verən münaqişələr respublikanı bürüdü. Noyabr - dekabr aylarında Ağcabədi və Sabirabad rayonlarında, eləcə də Naxçıvan MSSR-də raykomların birinci katibləri əhalinin təzyiqi ilə istefaya getdilər. 1989-cu il dekabrın 31-də Naxçıvan MSSR-də Sovet - İran sərhədi boyunca 137 km sahədə







downloaded from KitabYurdu.org

sərhəd-mühəndis qurğuları söküldü. 1990-cı ilin yanvarında AXC Lənkəran şöbəsi rayon hakimiyyət orqanlarının fəaliyyətini müvəqqəti dayandırdı. Lənkərana göndərilən mexaniki hərbi hissə Salyan və Sabirabad rayonları sakinlərinin canlı sipəri ilə dayandırılmışdı. Eyni zamanda, DQMV-də Azərbaycan kəndlərinə və Ermənistanla sərhəddə ermənilərin hücumları çoxaldı. Bakıda bir erməninin iki



azərbaycanlını öldürməsi ilə əlaqədar olaraq yanvarın 13-də ermənilər əleyhinə aksiyalara əl atıldı və nə yerli hüquq-mühafizə orqanları, nə də SSRİ DİN-in burada yerləşən 12 min nəfərlik silahlı qüvvələri buna mane olmadılar. Bakının erməni əhalisinin çoxu azərbaycanlılar tərəfindən təxliyə edildi, artıq yanvarın 15-də ermənilər əleyhinə aksiyalar qurtardı. Elə həmin gün SSRİ Ali Soveti Rəyasət Heyəti DQMV-də və ətraf rayonlarda fövqəladə vəziyyət elan etdi. Mərkəz yaranmış şəraiti Azərbaycan demokratik milli-azadlıq hərəkatını boğmaq üçün əlverişli hesab etdi. Yanvarın 17-də Bakıda Azərbaycan KP MK-nm binası önündə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulması və Bakıda cəmləşdirilmiş sovet qoşunlarının isə Dağlıq Qarabağa və Ermənistanla sərhədlərə göndərilməsi tələbi ilə mitinq başlandı. Yerli əhalinin təzyiqi ilə yanvarın 19-da Naxçıvan MSSR Ali Soveti muxtar respublikanın SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etdi. 1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti Azərbaycan SSR Ali Sovetinin razılığı olmadan Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman verdi. Şəhər əhalisini qəflətən yaxalamaq və ona divan tutmaq üçün yanvarın 19-u saat $19^{22}$ dəqiqədə telestudiyanın enerji bloku



partladıldı. Bunun da nəticəsində Azərbaycan televiziyasının fəaliyyəti dayandı və Bakı əhalisi mərkəzi televiziya ilə elan olunmuş fövqəladə vəziyyət haqqında fərmandan xəbərsiz qaldı. Yanvarın 20-də hələ saat 24-ə xeyli qalmış Qorbaçovun birbaşa göstərişi ilə sovet qoşunları SSRİ müdafiə naziri marşal Yazovun rəhbərliyi ilə dinc şəhəri tutmaq üçün "Tayfun" əməliyyatını həyata keçirməyə başladı. Təkcə rəsmi məlumatlara görə, Bakıda və respublikanın digər şəhərlərində "qanlı yanvar" hadisələri zamanı 131 nəfər həlak olmuş, 744 nəfər yaralanmış, 4 nəfər itkin düşmüş, 400 nəfər həbs edilmişdi. Sovet qoşunları AXC-nin qərargahını dağıtdılar. Bu hadisələrə etiraz əlaməti olaraq 40 günlük ümummilli tətil başlandı. Fövqəladə vəziyyətə baxmayaraq, Bakı əhalisi yanvarın 22-də faciə qurbanlarını dəfn etmək üçün mərkəzi küçə və meydanlara çıxdı, respublikada 3 gün matəm elan olundu. Küçələrdə və Azərbaycan KP MK binasının divarlarında "Qorbaçov - cəllad!", "Rədd olsun Sov.İKP!", "İşğalçılar, rədd olun!" və s. şüarlar yazıldı. Adamlar



downloaded from KitabYurdu.org

partiya biletlərini tonqallarda yandırırdılar. Baş vermiş hadisə bir daha sübut edirdi ki, Azərbaycan üçün yeganə xilas yolu - sovet imperiyasından çıxmaq və dövlət müstəqilliyini bərpa etməkdir. 20 Yanvar hadisəsindən sonra respublikadan qaçmış Ə.Vəzirovun əvəzinə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə Moskva Ayaz Mütəllibovu təyin etdi. Fevral - may aylarında erməni hissələri Naxçıvanın Kərki kəndini ələ keçirdilər. Martda silahlı erməni dəstələri Qazax rayonunun Bağanıs-Ayrım kəndinə hücum etdilər. 1990-cı ilin aprelində ziyalıların nümayəndələri respublika və AXC rəhbərliyinə "75-lərin bəyanatı" ilə müraciət edib, onları erməni təcavüzünə qarşı qüvvələri birləşdirməyə çağırdılar. Mayın 19-da Azərbaycan SSR Ali Sovetinin sessiyasında prezident vəzifəsi təsis olundu və elə oradaca Ali Sovet Mütəllibovu bu vəzifəyə seçdi. Prezidentin 1990-cı il 21 may tarixli fərmanı ilə mayın 28-i Azərbaycan dövlətçiliyinin bərpası günü elan olundu, ADR-in üçrənglibayrağı isə Azərbaycanın dövlət bayrağı oldu. Mayın 22-də SSRİ Nazirlər Soveti DQMV-nin təsərrüfatının idarəsini yenidən Azərbaycana qaytardı. Amma bu, gecikmiş addım idi. İyunun 11-də Azərbaycan SSR Ali Soveti Ermənistanla bütün sərhəd boyunca (975 km) fövqəladə vəziyyət elan etdi. Sərhəd mühəndis qurğuları ilə möhkəmləndirildi və onun mühafizəsi üçün xüsusi milis dəstələri yaradıldı. 1991-ci il fevralın 5-də "demblok"un etirazlarına baxmayaraq, Azərbaycan SSR Ali Soveti Azərbaycanın SSRİ-nin saxlanılması ilə bağlı keçiriləcək referendumda iştirak etməsi, eləcə də Azərbaycan SSR-in Azərbaycan Respublikası (AR) adlandırılması haqqında qərar qəbul etdi. Azərbaycanda ümid edirdilər ki, Ermənistanın boykot etdiyi referendumda iştirak etmək Moskvanın Ermənistan - Azərbaycan münaqişəsinə münasibətini dəyişəcək. Apreldə SSRİ prezidenti və 9 respublikanın rəhbərləri Novo-Oqaryovoda (Moskva yaxınlığında) yeni ittifaq müqaviləsinin bağlanması haqqında protokolu imzaladılar. Referendumda iştirak etməkdən imtina eləmiş Ermənistana qulaqburması vermək məqsədi ilə Moskva ermənilərə göstərilən yardımı xeyli azaltdı. 1991-ci ilin mayında Sovet Ordusunun və XTMD-nin qüvvələri ilə Çaykənd və Martunaşendə pasport rejimi yoxlanıldı, silahlı erməni dəstələri tərksilah olundu, iyunda isə ermənilərin Goranboy rayonundakı hərbi dayaq məntəqələri darmadağın edildi. Bundan istifadə edən Mütəllibov ümumxalq prezident seçkilərinə getdi. Lakin ermənilər Azərbaycanın Laçın, Zəngilan və Qubadlı rayonlarının sərhəd kəndlərinə hücumlarını davam etdirirdilər. 1991-ci il avqustun 19 - 21-də Moskvada "avqust qiyamı" baş verdi və bundan sonra Qorbaçov faktik olaraq hakimiyyətdən kənarda qaldı, real hakimiyyət isə respublikaların rəhbərlərinin əlinə keçdi. 1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunması haqqında bəyannamə" qəbul etdi. Sentyabrın əvvəllərində DQMV və Şaumyan rayon xalq deputatlarının birgə yığıncağında üzdəniraq "Dağlıq Qarabağ Respublikası" (DQR) yaradılması haqqında qərar qəbul olundu. Sentyabrın 8-də saxtalaşdırılmış seçkilər nəticəsində Mütəllibov Azərbaycan Respublikasının ilk prezidenti seçildi. 1991-ci il oktyabrın



downloaded from KitabYurdu.org

18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" konstitusiya aktı qəbul olundu. Yeni Azərbaycan Respublikası (AR) müstəqil dövləti belə yarandı.

**Azərbaycanda 1866-cı il məhkəmə islahatları** - 1864-cü ildə Rusiyada keçirilən məhkəmə islahatları 1866-cı ildə Şimali Azərbaycana və Cənubi Qafqaza da aid edildi. Məhkəmə islahatlarının şərtlərinə görə, köhnə silki məhkəmələr bütün silklərə aid olan məhkəmə müəssisələri ilə əvəz edildi. Məhkəmə prosesi açıq qapılar şəraitində - camaatın gözü qarşısında keçirilməli idi. Qəzetlər məhkəmə iclasları haqqında hesabatlar dərc edə bilərdilər. Lakin yerli əhalinin "inkişafının aşağı səviyyədə olması" bəhanəsi ilə çarizm Cənubi Qafqazda məhkəmə islahatlarını yarımçıq şəkildə həyata keçirdi. Rusiyadan fərqli olaraq burada andlı məhkəmə iclasçıları institutu tətbiq edilmədi; hakimlər əhali tərəfindən seçilmir, Qafqazdakı çar hakimiyyəti nümayəndələri tərəfindən təyin olunurdu. Məhkəmə araşdırmaları rus dilində apanlırdı.

**Azərbaycanda Skif çarlığı** - e.ə. VII əsrin əvvəllərində Qara dənizin şimal ətrafından Xəzər dənizinin sahilləri boyunca müasir Azərbaycan Respublikası ərazilərinə skiflərin axını oldu. Skiflərin bir hissəsi Gəncə - Qazax rayonunda və Manna ərazilərində məskunlaşaraq burada öz çarlıqlarını yaratdı. Burada yaradılmış Skif çarlığının əhalisinin əksəriyyətini yerli Xayfalar təşkil edirdilər. Skiflər buradan Urartu, Assuriya üzərinə yürüşlər edirdilər və Herodotun sözlərinə görə, e.ə. 630 - 620-ci illərdə Misir sərhədlərinədək gedib çıxmışdılar. Misir fironu I Psammetix skiflərə hədiyyələr verməklə onları öz dövlətinə soxulmaqdan çəkindirdi. E.ə. 672-ci ildə Kaştaritinin başçılığı ilə midiyalıların Assuriyaya qarşı üsyanı zamanı skiflər ilk vaxtlar midiyalılarla ittifaqa girdilər. Amma Assuriya çarı Assarxaddon skifləri öz tərəfinə çəkə bildi və bunun xatirinə qızını assur mənbələrində “İşquz ölkəsinin çarı” adlandırılan skifçarı Partatuaya ərə verdi. Bundan sonra İşquzun Skif çarlığı Assuriyanın həmişəlik sədaqətli müttəfiqi oldu. E.ə. təxminən 639-cu ildə skiflər Partatuanın oğlu, çarları Madinin başçılığı ilə Kappadokiyada kimmerləri məğlub etdilər. Midiya hökmdarı Kaştariti Assuriyaya qarşı yürüşə başlayan zaman sonuncuların müttəfiqi olan skiflər midiyalılara hücum etdilər. İki cəbhədə mübarizəyə tab gətirməyən midiyalılar məğlub oldular. Bunun da nəticəsində Midiya Skif çarlığından vassal asılılığına düşdü və ona xərac vermək məcburiyyətində qaldı. E.ə. 624-cü ildə Midiya çarı Kiaksar skiflərin Midiya üzərində ağalığına son qoydu. E.ə. təqribən 593-cü ildə Kiaksar Skif çarlığını tutdu və bundan sonra skiflərin bir qismi geriyə - Qara dənizin şimal sahillərinə qayıtdı, bir qismi Lidiyaya qaçdı və Lidiya - Midiya müharibəsinin başlanmasına bəhanə oldu, bir qismi isə keçmiş Skif çarlığı ərazisində qaldı. İşquz Skif çarlığının adı sonuncu dəfə Bibliyada "Aşkenaz" kimi çəkilir. Cənubi Azərbaycanda əylənən skiflərin bir hissəsi "ortokoribantilər" (yun. "şişpapaqlılar") adı ilə sonralar Urmiyaətrafı rayonda yaşamış və Əhəmənilər dövründə Əhəmənilər dövlətinin X dairəsinə daxil olmuşdur. Antik və orta əsr mənbələrində



downloaded from KitabYurdu.org

adı çəkilən Sakasena vilayəti adını Şimali Azərbaycanda qalmış skiflərin bir hissəsindən götürmüşdür. Sakasenlər kadusilər, albanlar və midiyalılarla birlikdə Atropatın başçılığı altında Qavqamela yaxınlığındakı döyüş zamanı Makedoniyalı İsgəndərə qarşı vuruşmuşdular. Müstəqil Atropatena dövləti yaradıldıqdan sonra Sakasena, güman ki, onun tərkibinə daxil oldu. Orta əsrlərdə Sakasena vilayəti Qafqaz Albaniyasına daxil idi.

**azərbaycanlılar** - tarixi Azərbaycan ərazisində yaşayan əsas millət. Azərbaycan milləti müxtəlif dilli qədim yerli əhalinin, eləcə də hələ qədimlərdən tarixi Azərbaycan ərazisində yaşayan və sonradan buraya köçən türk tayfalarının qaynayıb-qarışması nəticəsində meydana gəlmişdir. Hazırda tarixi Azərbaycan ərazisində yaşayan azərbaycanlıların sayı 30 milyon nəfərdən çoxdur ki, bunların da 8,5 milyona yaxını Şimali Azərbaycanda, 20 milyondan çoxu isə Cənubi Azərbaycanda yaşayır. Müasir azərbaycanlılar Azərbaycan dilində danışırlar.

**Azıx mağarası** - Azərbaycan Respublikasında - Qarabağda, Füzuli şəhərinin yaxınlığında yerləşir. Azıx mağarası uzaq qədimdən insanlar tərəfindən



məskunlaşması ilə məlumdur. 1960-cı ildə Məmmədəli Hü-seynovun başçılığı ilə Azıx mağarasında arxeoloji ekspedisiya tərəfindən aparılmış qazıntılar nəticəsində müəyyən edilmişdir ki, ən qədim insanlar bu mağarada hələ 1,5 mln. il bundan əvvəl məskunlaşmışlar. Bu, bütün Avrasiyada ibtidai insanların məskunlaşdığı ən qədim yaşayış məskənlərindən biridir. Mağarada bu dövrə aid əmək alətlərinin tapılması sübut edir ki, Azərbaycan ən qədim insanın formalaşdığı məskənlərdən biri olmuşdur. Azıx mağarasında yaşı 700 min il olan ocaq yeri aşkar edilmişdir. Azıx mağarasında qədim insanın - azıxantropun çənə sümüyünün bir parçası aşkar edilmişdir.

**azıxantrop** - Azərbaycan arxeoloqu Məmmədəli Hüseynov 1968-ci ildə Azıx mağarasında qədim insanın alt çənəsinin bir parçasını aşkar etmişdir. Alimlər bu insanı “azıxantrop” (tapıldığı yerə görə - Azıx və qədim yunanca “antropos” sözünə görə “insan”), yəni “Azıx adamı” adlandırmışlar. Alimlərin araşdırmaları nəticəsində müəyyən edilmişdir ki, azıxantrop 350 - 400 min il bundan əvvəl yaşamışdır. Bu, qədim insanın qalıqlarının yaşına görə dünyada dördüncü tapıntıdır. Azıxantropun çənəsi xeyli böyük idi. Azərbaycan alimi D.Hacıyev tapılmış çənənin tədqiqi zamanı müəyyən etmişdir ki, o, 18-22 yaşlarında qadına mənsub olub. Azıxantrop artıq oddan istifadə edir və onu uzun müddət saxlamağı bacarırdı. Azıx mağarasında içərisində dörd mağara ayısının kəllə sümüyü olan azıxantrop gizlənclər tapılmışdır. Bu kəllələrdən birinin üzərində yeddi paralel çərtik var idi. Azərbaycan alimi İqrar Əliyev hesab edir ki, bu çərtmələr azıxantroplarda say olmasına işarədir.



downloaded from KitabYurdu.org

# -B-

**"Bab əl-Əbvab"** (ər. "qapılar qapısı") - Dərbəndin ərəb mənbələrindəki adı.

**Babək** (798 - 838) - əsl adı Həsəndir. Həsən Ərdəbil yaxınlığındakı Bilalabad kəndində kasıb ailəsində anadan olmuşdur. Həsən hələ uşaq ikən



quldurlar onun atasını öldürmüşdülər. Anası onu çox böyük əzab-əziyyətlə böyütmüşdür. Yeniyetmə Həsən ilk vaxtlar çoban, sonralar isə dəvəçi olmuşdur. Həsən Təbrizdə usta şagirdi kimi çalışır, öz cüzi qazancı ilə anasına kömək edirdi. Həsən hər yerdə Azərbaycan xalqının ərəb zülmü altında qüssəli həyatını görürdü. Özünün gələcək şagirdi və həmkarı Həsən ilə ilk görüşündə Cavidan onun dərrakəliliyini, qoçaqlığını, vətənpərvərliyini duymuş və onu özü ilə Bəzz qalasına gətirmişdir. Az sonra Həsən "Babək" ləqəbi ilə xürrəmilərin təlimini qəbul etmiş və Cavidanın sədaqətli köməkçisi olmuşdur. 816-cı ildə Cavidan ərəblərlə döyüşlərdən birində öldürüləndən sonra xürrəmilərə başçılıq etmək 18 yaşlı Babəkə qismət olmuşdur. Babək xalqın əksər hissəsini azadlıq uğrunda mübarizəyə qaldıra bilmiş və xürramilərin qoşunlarında ciddi nizam-intizam yaratmışdır. Babəkin başçılığı ilə xürrəmilər 21 il ərzində ərəblərə qarşı mübarizə aparmış, ərəb ordularını bir neçə dəfə ağır məğlubiyyətə uğratmışlar. Bəzz qalasının ərəblər tərəfindən mühasirəsi zamanı onlar Babəkin oğlunu əsir götürmüş və məcbur etmişdilər ki, atasına mübarizəni dayandırarsa, xəlifənin onu bağışlayacağı haqqında məktub yazsın. Babək oğluna belə cavab vermişdir: "Əgər sən mənim oğlum olsaydın, mənim kimi olardın, amma sən mənim oğlum deyilsən. Sənin bir gün azad yaşamağın qırx il miskin qul kimi yaşamağından yaxşı olardı". Bəzz qalası ərəblər tərəfindən tutulduqdan sonra Babək Arrana getdi ki, yeni qüvvələr toplayıb müharibəni davam etdirsin, lakin keçmiş müttəfiqi Səhl ibn Sunbat tərəfindən xəyanətlə tutulub ərəblərə verildi. Babək 838-ci il martın 14-də Samirədə edam edildi.

**Babil** (şumer. Kandiqirru, akkad. Babilu; hərfi mənası - "allahın qapısı") - Fərat çayının orta axarında qədim şəhər, müasir Bağdadın 90 km-liyindədir. Ön Asiyanın su və karvan yollarının qovşağında yerləşən Babil Hammurapinin hökmdarlığı dövründə iri ticarət şəhəri və müstəqil çarlığın paytaxtı idi. Təxminən e.ə. 1595-ci ildə hettlər tərəfindən tutulmuş və təqribən e.ə. 1518-ci ildə isə kassitlərin hakimiyyəti altına düşmüşdür. E.ə. 732-ci ildən Assuriya dövlətinin tərkibində olmuşdur. E.ə. 689-cu ildə qiyam edən Babil Assuriya çarı Sinaxeribin əmri ilə dağıdıldı. E.ə. VI əsrdə Babilistan hökmdarı Navuxodonosorun hakimiyyəti illərində Babil şəhəri çiçəklənmə dövrünü yaşayırdı, burada böyük tikinti işlərinə başlanıldı - şəhərin ətrafına məşhur İştar darvazası olan möhkəm divarlar çəkildi; Marduk allahının şərəfinə zikkurat tikildi. Babilistanda hökmdar Navuxodonosorun sarayında "Semiramidanın asma bağları" salınmışdı. Bu dövrdə



downloaded from KitabYurdu.org

Babil dünyanın ən böyük şəhəri idi. E.ə. 538-ci ildə Əhəməni şahı Kir tərəfindən tutulmuşdur. Babil bir müddət Makedoniyalı İsgəndərin dövlətinin də paytaxtı olmuşdur. E.ə. 312-ci ildə Makedoniyalı İsgəndərin diadoxu Selevk tərəfindən tutulmuşdur. O, şəhərin əhalisinin böyük hissəsini öz paytaxtına - Selevkiyaya köçürmüşdü. Həmin dövrdən Babil öz əhəmiyyətini itirmişdir.

**"Babil həngaməsi"** - Bibliyada yazılmış əfsanəyə görə, qürrələnmiş insanlar qərara alırlar ki, səmaya çatmaq üçün Babildə möhtəşəm bir qüllə inşa etsinlər. Yəhudi allahı Yahve (Yəhva) bunun qarşısını almaq məqsədi ilə onların dillərini qarışdırır; insanlar bir-birlərini başa düşə bilmirlər və Yahve onları bütün dünyaya səpələyir.

**babilər hərəkatı** - 1844 - 52-ci illərdə İranda (Mazandaran və Neyrizdə) və Cənubi Azərbaycanda Babın dini-siyasi təliminə - babizmə əsaslanan hərəkat. Kişilərin və qadınların bərabərliyi ideyası qadınları da babizmə cəlb etmişdir. Qəzvin şəhəri (Cənubi Azərbaycan) müctəhidinin qızı Zərrintac babilər arasında böyük hörmətə malik idi. Özünün alovlu çıxışları və lirik şerləri ilə o, Qəzvində babilərin sayının artmasına səbəb olmuşdur. Qəzvini məcburiyyət qarşısında tərk edən Zərrintac İranın müxtəlif şəhər və kəndlərində babizmin təbliğini davam etdirirdi. Zərrintac 1852-ci ildə Tehranda öldürülmüşdür. Babilər hərəkatı Zəncanda (Cənubi Azərbaycan) daha fəal idi. 1850-ci ildə təkcə Zəncanda babilərin sayı 15 min nəfərə çatırdı. Babilər 1850-ci ilin mayında Zəncanın şəhər qalasını tutdular. Qadınlar barrikadalar qurur, kişilərlə bərabər vuruşurdular. Babilər arasında çoxlu kəndli, sənətkar, tacir və ruhanilər var idi. Zəncanda üsyana Molla Məhəmməd Əli rəhbərlik edirdi. Babilər hökumət qoşunlarının birinci həmləsini dəf edə bilmişdilər. 1850-ci ilin dekabrında 30 minlik şah qoşunları və feodal dəstələri Zəncanı mühasirəyə aldılar. Mühasirədən çıxmağa cəhd ərən babilərin xeyli hissəsi həlak oldu. Məhəmməd Əli yaralandı və üç gündən sonra öldü. Sağ qalan babilər 5 günlük salan sonra onlara şəhəri tərk etməyə imkan verilməsi şərti ilə müqaviməti dayandırdılar. Şah qoşunlarının sərkərdələri Qurana and içdilər ki, həmin şərti yerinə yetirəcəklər, lakin az sonra silahı yerə qoymuş üsyançılar məhv edildi.

**Babur** (1483 - 1530) - sərkərdə. Fərqanədə (Mərkəzi Asiya) Teymurilər nəslindən türk-monqol ailəsində anadan olmuşdur. 1504-cü ildə Fərqanə uğrunda mübarizədə məğlub olan Babur Əfqanıstan və Hindistan üzərinə yürüş etdi. 1526-cı ildə Panipat şəhəri yaxınlığında Dehli sultanlığının əfqan hökmdarını darmadağın edib, Hindistan və Əfqanıstanın böyük hissəsini tutaraq Böyük Moğollar imperiyasımn əsasını qoydu.



**bac** - Şərq ölkələrində yolçulardan və daşınan yüklərə görə tacirlərdən alınan yol rüsumu ilk dəfə monqollar tərəfindən tətbiq edilmişdir.

**"bacarıqlı insan"** - əmək alətləri hazırlaya bilən ən qədim insan. İki milyon il əvvəl Şərqi Afrikada meydana gəlmişdir. "Bacarıqlı insan", demək olar



downloaded from KitabYurdu.org

ki, əmələ gəldiyi insanabənzər meymundan fərqlənmirdi. Lakin o, qabağa çox əyilsə də, artıq iki ayağı üzərində gəzirdi. O, sadə işlər görür, ən sadə əmək alətləri düzəldə bilirdi. "Bacarıqlı insan"ın qalıqları ingilis arxeoloqları ər-arvad Likilər tərəfindən Şərqi Afrikanın Oldvey vadisində aşkar edilmişdir.

**Bakı Fəhlə Deputatları Soveti (Baksovet) - 1)** 1905-ci il noyabrın 25-də mədən-zavod komissiyaları nümayəndələrinin yığıncağında yaradılmışdır. 226 üzvdən ibarət olmuşdur. Menşeviklər Baksovetdə yerlərin çoxunu qazanmışdılar, L.Şendrikov Baksovetin sədri seçilmişdir. 1906-cı il fevralın 23-də Bakı qubernatorunun əmri ilə Baksovetin bütün üzvləri həbs olunmuşdur; 2) 1917-ci il martın 6-da, Rusiyada Fevral burjua-demokratik inqilabından sonra yaradılmışdır. Eser - menşevik - daşnak Baksovetinin rəhbərliyi bütövlükdə ermənivə ruslardan ibarət idi. 1917-ci il oktyabrın 22-də Baksovetə yeni seçkilər keçirildi və səslərin əksəriyyətini (40%) "Müsavat" partiyası aldı. Müsavatçıların qələbəsi bolşeviklərlə yanaşı, menşevik, eser və daşnakları da narahat edirdi. "Müsavat"ın Baksovetdə iştirakdan imtina eləməsi bolşeviklər üçün göydəndüşmə oldu, onlar eserlərlə birlikdə Baksovetdə çoxluq təşkil etdilər. Bolşeviklər bir neçə gündən sonra Baksovetin silahlı qüvvələrini - qırmızı qvardiyanı yaratdılar. 1917-ci il noyabrın 2-də Bakı Soveti Bakıda sovet hakimiyyətini elan etdi, Baksovetin icraiyyə komitəsinin sədri vəzifəsinə bolşevik Stepan Şaumyan seçildi. 1917-ci ilin dekabrında bolşeviklər yeni seçki qanunu qəbul etdilər və Baksovetə yeni seçkilər keçirdilər, nəticədə səslərin çoxunu bolşeviklərlə daşnaklar əldə etdilər. Bu zaman çar qoşunlarının Qafqaz cəbhəsindən Bakı vasitəsilə geri qayıdan bir çox əsgərləri Baksovetin qırmızı qvardiyası sıralarına daxil oldular. 1917-ci ilin dekabrında bolşeviklər Qafqaz Ordusunun mənzil-qərargahını başda Korqanov olmaqla Tiflisdən Bakıya köçürə bildilər. 1918-ci il yanvarın sonlarında qırmızı qvardiya və Xəzər Donanması Baksovetə tabe etdirildi. Nəticədə 1918-ci ilin martında Baksovetin əlində 20 min əsgər cəmləşdirilmişdi. Şaumyan başda olmaqla Baksovet əksinqilabla mübarizə bəhanəsi ilə Bakının azərbaycanlı əhalisini məhv etmək və qorxutmaq yolu ilə "Müsavat" partiyasını dayağından məhrum etmək istəyirdi. 1918-ci il martın 30-da Bakıda ilk atəşlər açıldı. Baksovetin tərəfində çıxış edən "Daşnaksütyun " və "Erməni milli şurası" bolşeviklərin müsavatçılarla mübarizəsini azərbaycanlı əhalinin qanlı qırğınına çevirdilər. Azərbaycanlı əhaliyə qarşı qırğınlar aprelin 2-dək davam etdi; müxtəlif tədqiqatçıların fikrincə, üç gün ərzində 12 mindən 30 minədək azərbaycanlı həlak oldu. Bundan sonra bolşeviklər və daşnaklar Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul və Salyanda azərbaycanlı əhalinin qırğınını davam etdirdilər. Hərçənd "mart qırğını"ndan sonra Bakıda hakimiyyət formal olaraq bolşeviklərə keçdi, lakin faktik olaraq o, əslində, şəhərin idarə sistemindəki





downloaded from KitabYurdu.org

bütün əsas postları özlərində saxlayan ermənilərin əlində idi. Apreldə bolşevik və erməni partiyalarının mətbu orqanlarından başqa, bütün qəzet və jurnalların nəşri qadağan edildi. "Erməni milli şurası"ndan başqa, bütün digər milli şuraların fəaliyyəti qadağan edildi, Bakı şəhər Duması da buraxıldı. 1918-ci il aprelin 20-də Bakı Fəhlə Deputatları Soveti Bakı Xalq Komissarları Sovetinə çevrildi. Rusiyanı fasiləsiz olaraq neftlə təchiz etmək məqsədi ilə Baksovet Bakı neft sənayesini və Xəzər ticarət donanmasını milliləşdirdi. Azərbaycanın digər təbii sərvətləri - pambıq, düyü, çay, duz, qurudulmuş balıq, quru meyvələr və s. də Rusiyaya göndərilirdi. Baksovetin xüsusi qərarı ilə erməni hərbi hissələri qırmızı qvardiyanın tərkibinə daxil edildi, bunlara ümumi rəhbərlik isə dinc azərbaycanlı əhaliyə qarşı vəhşilikləri ilə "fərqlənən" Z.Avetisyan, N.Qazaryan və Hamazaspa tapşırıldı. Ermənistanla da əlaqə yaradan Şaumyan onu Azərbaycanın tabe etdirilməsi işində qüvvələri birləşdirməyə çağırırdı. Andranikə göndərdiyi radioqramda Şaumyan bu cəlladı və qaniçən soyğunçunu atəşin salamlarla alqışlayırdı. ADR-in elan edilməsindən və onun hökumətinin Gəncəyə köçməsindən sonra Şaumyan Baksovet qoşunlarının Gəncəyə genişmiqyaslı hücumunu hazırlamağa başladı. 1918-ci il iyunun 12-də Baksovet qoşunları Kürdəmiri tutdular, iyunun 27-də isə Göyçaya yaxınlaşdılar. 1918-ci il iyunun 27-dən iyulun 1-dək Göyçay yaxınlığında baş vermiş döyüşlər nəticəsində Baksovetin qoşunları darmadağın edildi. Bundan sonra "İslam ordusu" bütün cəbhə boyu hücuma keçdi və tezliklə Kürdəmirlə Şamaxını Baksovet qoşunlarından azad etdi. Baksovetin qoşunları Biləcəriyə tərəf çəkildi. Almaniyanın vasitəçiliyi ilə Sovet Rusiyasının müdaxiləsi nəticəsində "İslam ordusu"nun Bakıya daxil olması ləngidi. Baksovet keçmiş çar polkovniki L.Biçeraxovun başçılığı ilə İrandan gələn dəstənin də yardımına ümid edirdi. Lakin cəbhədə vəziyyətin mürəkkəbliyini görən Biçeraxov öz dəstəsini döyüşə girmədən Dağıstana apardı. Belə bir şəraitdə Baksovetdə çoxluq təşkil edən eser, menşevik və daşnaklar təklif etdilər ki, Türkiyə - Azərbaycan qoşunlarının Bakıya girməsinin qarşısını almaq üçün ingilis qoşunları şəhərə dəvət olunsun. Bakı Sovetinin 1918-ci il iyulun 25-də keçirilmiş fövqəladə iclasında səs çoxluğu ilə ingilislərin Bakıya dəvət olunması və koalision hökumətin təşkil edilməsi haqqında qətnamə qəbul olundu. 1918-ci il iyulun 31-də Bakı Soveti öz səlahiyyətlərindən əl çəkdiyini bəyan etdi və onun üzvləri "Ərdəhan" gəmisində Həştərxana yola düşdü. Elə həmin gün Bakıda hakimiyyət koalision "Sentrokaspi Diktaturası" hökumətinə keçdi.

**Bakı xanlığı** - 1748-ci ildə Şimali Azərbaycanda I Mirzə Məhəmməd xan (1748 -68) tərəfindən yaradılmış xanlıq. Xanlığın mərkəzi Bakı şəhəri idi. I Mirzə Məhəmmədin oğlu Məlik Məhəmməd xanın hakimiyyəti illərində (1768 - 84) Fətəli xanın bacısı Xədicə Bikə ilə bağlanmış nikah nəticəsində Bakı xanlığı Quba xanlığından vassal asılılığına düşdü. Məlik Məhəmməd xanın vəfatından sonra oğlu II Mirzə Məhəmməd (1784 - 91) Bakı xanı oldu. Fətəli xanın ölümündən sonra (1789) xanlıqda hakimiyyət uğrunda II Mirzə Məhəmməd xanla əmisi



downloaded from KitabYurdu.org

Məhəmmədqulu xan arasında mübarizə başlandı. Quba xanlığından kömək alan Məhəmmədqulu xan qalib gəldi və özünü xan elan etdi. Onun ölümündən sonra



(1792) Bakı xanlığında hakimiyyət uğrunda yenidən mübarizə başlandı və Hüseynqulu xan (1792 - 1806) qələbə çaldı. 1796-cı il iyunun 13-də general Zubovun başçılığı ilə rus qoşunları Bakıya soxuldular, lakin elə həmin ilin noyabrında imperatriçə // Yekaterinanın ölümündən sonra imperator I Pavelin fərmanı ilə rus qoşunları Azərbaycandan çıxarıldı. Hüseynqulu xan 1797-ci ildə Ağa Məhəmməd şah Qacara itaətini bildirdi. 1805-ci il avqustun 12-də Zavalişinin komandanlığı ilə Rusiya donanması Bakıya yaxınlaşdı, 1806-cı ilin əvvəllərində isə general Sisianov Bakı xanlığının Rusiya imperiyası tabeliyinə keçməsi haqqında layihəni Hüseynqulu xana göndərdi. 1806-ci il fevralın 8-də Bakı xanı ilə danışıqlar zamanı Sisianov Hüseynqulu xanın əmisi oğlu İbrahim bəy tərəfindən öldürüldü. Bundan sonra rus qoşunları Bakı xanlığını tərk etdilər. 1806-cı il sentyabrın 5-də rus qoşunları general Bulqakovun başçılığı ilə yenidən Bakıya yaxınlaşdılar, Hüseynqulu xan İrana qaçdı. 1806-cı il oktyabrın 3-də ruslar Bakını tutdular. Bakı xanlığı ləğv edildi, onun ərazisi isə Rusiya imperiyasına birləşdirildi.

**Bakıda fəhlələrin ilk nümayişi (1902)** - 1902-ci ilin aprelində zavod rayonlarından gəlmiş minlərlə fəhlə Bakının mərkəzində toplaşdı və ilk dəfə olaraq nümayiş keçirdi. Onların qışqırdıqları şüarları bunlar idi: "Rədd olsun mütləqiyyət!", "Yaşasın azadlıq!". Çar hakim dairələri nümayişi çox çətinliklə qova bildilər, amma fəallar həbs olundu.

**Bakıda ilk ümumi tətil (1903)** - 1903-cü il iyulun 1-də Bibiheybətdə Xatisovun mexaniki zavodunda başlayan fəhlə tətili Bakıda birinci ümumi tətilin başlanğıcı oldu. İyulun 4-dən bu tətil Bibiheybət, Qara şəhər, Balaxanı və Ağ şəhərin fəhlələrini əhatə etdi. Neft sənayeçilərinin "fəhlə hökuməti" adlandırdıqları tətil komitəsi fəhlələrin neft sənayeçilərinə tələblərini hazırladı. Azərbaycanlı fəhlələr bu tətildə fəal iştirak etdilər. 45 - 50 minlik adamın tətili 22 gün davam etdi. Az sonra çar hökuməti əlavə hərbi hissələr gətirərək Bakını hərbi düşərgəyə çevirdi, tətilçilərə divan tutmağa başladılar. Belə bir şəraitdə 1903-cü il iyulun 22-də tətili dayandırmaq haqqında qərar qəbul olundu. Fəhlələr kapitalistlərdən ancaq cüzi güzəştlər qopara bildilər.

**Bakıda 1904-cü il dekabr tətili** - 1900 - 1903-cü illərdə Rusiya imperiyasında, xüsusilə də Azərbaycan neft sənayesində daha ciddi hiss olunan iqtisadi böhran və rus - yapon müharibəsi nəticəsində Bakı fəhlələrinin vəziyyəti xeyli pisləşmişdi. 1904-cü il dekabrın 13-də Bakı fəhlələrinin ümumi böyük tətili başlandı. Neft mədənlərində, zavod və fabriklərdə iş dayandı. Tətilə rəhbərlik etmək məqsədi ilə tərkibinə bolşeviklərin də daxil olduğu tətil komitəsi yaradıldı.



downloaded from KitabYurdu.org

Tətil komitəsi fəhlələrin tələblərini işləyib hazırladı və neft sənayeçilərinə təqdim etdi. Tətildə 50 minədək fəhlə iştirak edirdi. Onlar kütləvi mitinqlər və yığıncaqlar təşkil edirdilər. Neft sənayeçiləri və polisin silahsız fəhlələrə amansız divan tutmasına baxmayaraq, fəhlələr tətillərini davam etdirirdilər. Provokasiya məqsədi ilə polis neft mədənlərini yandırıb, günahını fəhlələrin boynuna yıxdı. Ancaq Bakı fəhlələrinin dəyanəti və cəsurluğu sayəsində tətil onların qələbəsi ilə başa çatdı. Kapitalistlər fəhlələrə güzəştə getmək məcburiyyətində qaldılar. 1904-cü il dekabrın 30-da tətilçilərlə neft sənayeçiləri arasındakı danışıqlar birinci kollektiv müqavilənin - "mazut konstitusiyası"nın imzalanması ilə nəticələndi. 1904-cü il dekabrın 13-dən 30-dək baş vermiş Bakı tətili bütün imperiyada böyük əks-səda doğurdu və Rusiyada birinci burjua inqilabının (1905 - 1907) müjdəçisi oldu.

**Bakıxanov Abbasqulu ağa** (1794 - 1847) - görkəmli Azərbaycan yazıçısı, tarixçisi və maarifçi alimi. "Qüdsi" təxəllüsü ilə yazırdı. Bakı yaxınlığındakı Xilə (indiki Əmircan) kəndində anadan olmuşdur. Bakıxanov Şərq dillərinə, ədəbiyyatı



və fəlsəfəsinə yaxından bələd idi. Rusiyanın Qafqazdakı ali baş komandanı onu Tiflisdə Şərq dillərindən tərcüməçi vəzifəsinə təyin etdi. Bakıxanov tərcüməçi kimi 1828-ci il Türkmənçay müqaviləsinin imzalanmasında iştirak etmişdir. Bakıxanov Quba şəhərində "Gülüstan" adlı ədəbi dərnək təşkil etmişdir. Onun Azərbaycan tarixi üzrə - "Gülüstani-İrəm" (1841), coğrafiya üzrə - "Ümumi coğrafiya" (itirilmişdir) və "Kəşf ül-qəraib" ("Qəribə kəşflər"), fəlsəfə üzrə - "Əsrar ül-Mələkut" ("İlahi səltənətin sirləri"), etika üzrə -"Təhzib ül-əxlaq" ("Əxlaqın islahı"), "Kitabi-nəsayeh" ("Nəsihətlər kitabı"), "Eyn ül-mizan" ("Tərəzinin mahiyyəti") əsərlərinin adlarını çəkmək olar. Ədəbi əsərlərindən isə Azərbaycan ədəbiyyatında ilk hekayələrini - "Mirat ül-camal" ("Gözəllik güzgüsü"), "Mişkat ül-ənvar" ("İşıq şüaları"), "Riyaz vürQüds" ("Qüds bağçaları"), "Kitabi-Əsgəriyyə" ("Əsgərin kitabı"), eləcə də lirik şerlər məcmusunu (qəzəllər, rübailər, qitə və müxəmməslər) göstərmək olar. Bakıxanovun farsca yazılmış "Gülüstani-İrəm" tarixi əsəri Şimal - Şərqi Azərbaycanın və qonşu vilayətlərin ən qədim dövrlərdən 1813-cü il Gülüstan müqaviləsinədək olan tarixini əhatə edir. Bu əsər əvvəlkilərdən onunla fərqlənir ki, Bakıxanov burada elmi-tədqiqat metodundan istifadə edir. Bu əsər antik, fars və ərəb tarixi mənbələri və müxtəlif illərdə yazılmış əsərlər əsasında yazılıb. Rəsmi dövlət sənədləri ilə yanaşı, müəllif ilk dəfə olaraq maddi mədəniyyət, toponimika və s. abidələri materiallarının təhlilindən istifadə etmişdir. İlk dəfə olaraq Bakıxanov tərəfindən Azərbaycan tarixini dövrləşdirməyə, onu vahid və ardıcıl proses kimi təqdim etməyə cəhd göstərilmişdir. Müəllifın özünün də fəal iştirakı ilə əsər rus dilinə tərcümə olunmuş və 1845-ci ildə Rusiya Elmlər Akademiyasında müzakirə edilib yüksək qiymətə layiq görülmüş, müəllifə isə yüksək mükafat verilmişdir, bununla belə. çar Rusiyasında kitabın nəşri baş tutmamışdır. Yalnız 1923-cü ildə kitab “Azərbaycan tarix” adı ilə (Azərbaycan



downloaded from KitabYurdu.org

dilində), 1926-cı ildə isə onun rus dilinə tərcüməsi nəşr edilmişdir. "Gülüstani-İrəm" əsəri sonralar dəfələrlə nəşr edilmişdir.

**Bakuvi Əbdürrəşid ibn Salih ibn Nuri** (1402 - 73) - Azərbaycan tarixçisi və coğrafiyaçısı. Əsas əsəri olan "Kitab təlxis əl-asar və acaib al-malik al-kaxxar" ("Abidələr"in xülasəsi və qüdrətli hökmdarın möcüzələri") əsərinin müəllifidir. Əsər Zəkəriyyə Qəzvininin "Ölkələrdəki abidələr və Allah bəndələri haqqında xəbərlər" adlı əsərinin əsasında ixtisar, əlavə və düzəlişlərlə yazılmışdır. Lakin Bakuvi əsəri ixtisar etməklə kifayətlənməmiş, ona daha ətraflı məlumata malik bir çox əlavələr etmişdir. Bu, xüsusilə Azərbaycana və Cənubi Qafqaza aid məlumatlardır.

**Bakuvi Seyid Yəhya Cəlaləddin** (? - 1464) — Azərbaycan filosofu, astronomu və tarixçisi. Bakuvinin "Əsrar ət-talibin" ("Heqiqot axtaranların sirri") və Şəhüstərinin Gülşəni-raz" əsərinin şərhinə həsr olunmuş "Şərhi "Gülşəni-raz" əsəri şöhrət tapmışdır. Bakıda Şirvanşahlar sarayının həyatində dəfn olunmuşdur.

**"Balaxanı və Bibiheybət fəhlələri təşkilatı" -** 1904-cü ilin yayında Bakıda menşevik İlya və Lev Şendrikov qardaşları tərəfindən yaradılmışdır. Şendrikovçular fəhlələr siyasi mübarizədən yayındırmağa, onu xırda məişət məsələləri ilə əvəz etməyə çalışırdılar. Şendrikov qardaşları neft sənayeçilərinin gizli hədiyyələrindən də imtina etmirdilər. Sonralar Lev Şendrikov Bakı Fəhlə Deputatları Sovetinin sədri seçilmişdir.

**bank** - sərbəst pul vəsaitlərini toplayıb saxlayan və onlardan ödənişlərdə, kreditlərin verilməsi və müəssisələrin maliyyələşdirilməsində istifadə edən maliyyə müəssisəsi.



**barbarlar** (yun. "barbaroi", lat. "barbari" - "yadellilər") - təqlidi söz, qədim yunanlar onların dillərini başa düşməyənləri və ellin olmayanları belə adlandırırdılar. Onlara elə gəlirdi ki, bu adamlar öz dillərində danışanda "bar-bar-bar" deyirlər. Qədim romalılar antik mədəniyyətə yabançı olan bütün tayfa və xalqları "barbar" adlandırırdılar. Roma ilə əlaqədə olan barbar tayfalarından ən iriləri keltlər, germanlar və slavyanlardır. Hazırda "barbar" sözü "nadan", "kobud" və "qəddar adam" mənasını bildirir.

**"Barbarossa planı"** ( "Müqəddəs Roma imperiyası"nın imperatoru Fridrix I Barbarossanın adından götürülüb) - faşist Almaniyasının SSRİ-yə qarşı təcavüzkar müharibə planının şərti adı. 1940-cı il iyulun 1-dən hazırlanmağa başlanılmış və dekabrın 18-də təsdiq olunmuşdur. Qısa müddət ərzində Qırmızı Ordunun əsas qüvvələrinin ildırım sürəti ilə darmadağın edilməsini və Arxangelsk Volqa - Həştərxan xəttinə çıxmağı nəzərdə tuturdu. Müharibənin 2 - 3 ay müddətində başa çatdırılacağı güman edilirdi.

**barıt** - partlayıcı birləşmələr və ya onların qarışığı. Barıt Çində ixtira olunmuşdur. Ondan ilk vaxtlar atəşfəşanlıq üçün, sonralar isə hərbi işlərdə də



downloaded from KitabYurdu.org

istifadə edirdilər. Yandırıcı alətləri barıtla doldururdular. Sonralar ondan tüfəng və toplarda istifadə etməyə başladılar.

**barter** - birbaşa mal mübadiləsi.

**baş nazir** - bir qayda olaraq dövlət başçısı tərəfindən təyin edilən hökumət başçısı.

**Baş Ştatlar** - XIV - XVII əsrlərdə Fransada ali silki nümayəndələr orqanı. Baş Ştatlar 1302-ci ildə Fransa kralı IV Gözəl Filipp tərəfindən Roma papasına qarşı mübarizədə silklərin yardımını almaq məqsədi ilə yaradılmışdır. Bu,



ruhanilərin, zadəganların və varlı şəhərlilərin nümayəndələrinin yığıncağı idi. Hər bir silkin nümayəndələri ayrıca iclas keçirirdilər və hər bir silkin bir səsi var idi. Ruhanilərin və zadəganların bir səsə qarşı iki səsləri var idi. Şəhər varlıları isə güzəştə getmək məcburiyyətində idilər. Silklər arasındakı fikir ayrılığı Baş Ştatların dövlət işlərinə təsirini zəiflədirdi. Bu dövrdən etibarən krallar hər dəfə vergi tətbiq etmək istəyəndə Baş Ştatları çağırırdılar. Lakin kral hakimiyyəti möhkəmləndikdən sonra 1614-cü ildən Baş Ştatları çağırmadılar. Yalnız 175 il keçdikdən sonra Baş Ştatlar 1789-cu ildə kral XVI Lüdovik tərəfindən çağırılmış və ona tabe olmadıqlarından özlərini Milli Məclis adlandırmışlar.

**başçı** - nəsli icmanın və tayfanın hərbi başçısı; nəsli icmanın və ya tayfanın bütün yaşlı kişilərinin yığıncağında (xalq yığıncağında) hərbi işlərə rəhbərlik üçün seçilirdi. İbtidai icma cəmiyyətinin dağılmağa başlaması ilə öz hakimiyyətlərini irsən ötürməyə başladılar. Hərbi demokratiya dövründə hərbi drujinaya arxalanan hərbi başçılar hakimiyyəti tamamilə ələ keçirmişdilər.

**bayatı** - Azərbaycan xalq yaradıcılığında lirik şer janrı. Mənşəcə türkdilli bayatların adı ilə bağlı olduğu ehtimal edilir.

**bayraq** - təsviri qanunla (bir qayda olaraq konstitusiya ilə) müəyyən edilən rəsmi fərqləndirici dövlət nişanı. Dövlət bayrağı dövlətin suverenliyinin rəmzidir və üzərində gerb, yaxud başqa emblem olan bir və ya çoxrəngli parçadan ibarətdir. 1991-ci il fevralın 5-də təsdiq olunmuş Azərbaycan Respublikasının dövlət bayrağı ADR-in 2-ci bayrağına uyğundur. Azərbaycan Respublikasının bayrağı eni bərabər olan üç üfqi zolaqdan ibarətdir. Üst zolaq mavi, ona zolaq qırmızı, aşağı zolaq isə yaşıl rəngdədir. Qırmızı zolağın ortasında ağ aypara, ondan sağda isə ağ rongli səkkizguşəli ulduz təsviri vardır. Mavi rəng - türkçülüyü, qırmızı - demokratiyanı, yaşıl isə islam və ideologiyasını ifadə edir.

**bayrat** - Şərq ölkələrində istiladə olunmayan, becərilməyən torpaqlar. Qazan xanın islahatlarının şərtlərinə görə, dövlət bayrat torpaqlarını satın alır və onu becərməyi öhdəsinə götürən şəxslərə verirdi. Bayrat torpaqlarından alınan vergi dövlət xəzinəsinə daxil olurdu.



downloaded from KitabYurdu.org

**Behzad Kəmaləddin** (1455 - 1535) - Azərbaycan rəssamı, Təbriz miniatür məktəbinin nümayəndəsi. Nizaminin və başqa şairlərin əsərlərinə rəsmlər çəkmişdir. Behzad çoxfiqurlu dinamik kompozisiyalar. zərif rəng düzümü, ifadəli rəsmlər ustası idi. Behzad Səfəvi şahı I İsmayılın himayəsində idi. O, rəssamı çox sevir və ona ehtiram göstərirdi. I Şah İsmayıl saray kitabxanasını Behzadın ixtiyarına vermişdi.

**Bekon Rocer** (1214 - 92) - ingilis filosofu və təbiətşünası. Riyaziyyatın böyük əhəmiyyətini göstərmiş, maqnit oxu və böyüdücü şüşə ilə sınaqlar keçirmişdir. Mikroskop, teleskop, telefon, özügedən araba, uçan aparatlar kimı bir sıra ixtiralar haqqında əvvəlcədən məlumat vermişdir. Bekon hakimiyyət mənbəyinin xalq olacağı dövlətin layihəsini işləyib hazırlamışdır. Ruhanilər tərəfindən təqib olunmuşdur: Bekonun əsərləri lənətlənmiş, özü isə uzun illər həbsdə qalmışdır.

**"beşinci dəstə"** - bu və ya digər rəqibin arxa cəbhəsini dağıtmaq məqsədi ilə istifadə də olunan düşmən agenturasının nominal , “Beşinci dəstə” termini İspaniyada vətəndaş müharibəsi illərində (1936 - 39) meydana gəlmişdir. 1939-cu ildə Madrid üzərinə dörd dəstə ilə hücum edən ispan faşistləri şəhərdə çaxnaşma salan, sabotajla məşğul olan və diversiya törədən gizli agenturanı "beşinci dəstə" adlandırmışlar.



**Beşinci respublika** - Fransada 1958-ci ildə prezident de Qollun hökuməti tərəfindən hazırlanmış konstitusiyanın qəbul edilməsindən sonrakı respublika.

**beton** – sement, qum, çınqıl və su qarışığından hazırlanmış qatı məhlul. Quruduqdan sonra bərkiyir və uzun müddətə daşlaşır. Betonu qədim romalılar ixtira ediblər. Betonun, tağbəndin və günbəzin ixtira olunması Roma memarlarına möhtəşəm və çox möhkəm tikililər inşa etməyə imkan vennişdir.

**Beynəlxalq Valyuta Fondu** (BVF) – BMT-nin ixtisaslaşdırılmış idarəsi statusu beynəlxalq valyuta təşkilatı. Beynəlxalq Valyuta Fondu 1944-cü ildə yaradılmışdır. BVF valyutaların məzənnəsinintənzimlənməsi, valyuta böhranının qarşısının alınması məqsədi ilə üzv – ölkələrə kredit verir.

Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB) – BMT-nin ixtisaslaşdırılmış idarəsi, Beynəlxalq Valyuta Fondu ilə eyni zamanda – 1944-cü ildə yaradılmışdır. Onun yaradılmasında məqsəd müharibədən sonra dünyada maliyyə stabilliyinə nail olmaq və “valyuta müharibələri”nin qarşısını almaq idi. BYİB - üzvləri yalnız Beynəlxalq Valyuta Fonduna daxil olan dövlətlərdən ibarət səhmdar cəmiyyəti formasındadır.

**Bəhmənyar Əbülhəsən ibn Mərzban** (? - 1066) - Azərbaycan filosofu, İbn Sinanın şagirdi və davamçısı. İslam dininin fəlsəfi əsaslarını araşdırmışdır. Əsas əsərləri: "Məratib ül-mövcudat" ("Mövcudatın mərtəbələri"), "Məbəd ət-təbiət"



downloaded from KitabYurdu.org

("Metafizika elminin mövzusuna dair traktat") və "əl-Bəhcət və əs-səadət" ("Gözəllik və səadət kitabı"). Bəhmənyarın əsərləri bir çox Şərq və Avropa dillərinə tərcümə edilmişdir; XIX əsrdən nəşr olunur.

**bələdiyyə** - şəhər özünüidarəsinin seçkili orqanı.

**Bəndər** – sənətkar, 1231-ci ildə Gəncədə sənətkarların və şəhər yoxsullarının xarəzmşah Cəlaləddinə qarşı yönəlmiş üsyanının rəhbəri. Üsyana yerli əhalidən alınan verginin həddən çox yığılması səbəb olmuşdu. Mənbənin verdiyi məlumata görə, üsyançılar "şəhərin rəisinin sarayını darmadağın etdilər, məmurları və nökərləri öldürdülər, xarəzmşahların hərbi qarnizonlarını məhv etdilər". Qoşunla Gəncəyə yaxınlaşan Cəlaləddin üsyançılara silahı yerə qoymağı əmr etdi və onları bağışlayacağını bildirdi, lakin üsyançılar təslim olmaqdan imtina etdilər. Şəhərin mühasirəsinə başlandı. Bəndər şəhərdən çıxıb Cəlaləddinin hərbi düşərgəsinə basqın etməyi qərara aldı, lakin üsyançılar düşmən süvarisinin həmləsinə tab gətirə bilmədilər. Xarəzmşahın qoşunu şəhərə soxuldu. Üsyançıların rəhbərlərindən 30 nəfəri şəhərin darvazaları yanında asıldı, Bəndər özü isə şaqqalandı.

**bərpa** - bax: restavrasiya.

**bəy** (türk. "hökmdar", "ağa") - 1) Şərq ölkələrində tayfa-nəsil, sonralar isə feodal əyanlarının titulu. İranda tayfa və ya bir neçə tayfanın başçısı. Mərkəzi Asiya və Cənubi Qafqaz xalqlarında orta əsrlərdə və yeni dövrdə feodalın - torpaq sahibinin adı; 2) müasir Türkiyədə - kişilərə müraciət forması; 3) 1705 - 1957-ci illərdə Tunisdə irsən hakimiyyətə gələn hökmdar.

**Bəy və ağaların hüquqları haqqında 1846-cı il fərmanı** - Rusiya imperatoru I Nikolayın 1846-cı il dekabrın 6-da verdiyi fərman. Fərman Azərbaycan mülkədarlarının xüsusi mülkiyyət kimi torpaqlara irsi sahibkarlıq hüquqlarının toxunulmazlığını təmin edirdi. Fərman çarizmin bir sıra güzəştləri hesabına yerli feodallarla ittifaq yaratmaq məqsədi güdürdü. Sonralar fərmana 1847-ci il "Kəndli əsasnamələri" əlavə edildi.

**Bəzz** - Ərdəbil rayonunda yerləşən Bəzz qalası xürrəmilərin rəhbərlərindən olan xırda feodal Cavidana mənsub idi. Bəzz qalası üsyançı xürrəmilərin mərkəzi idi. Cavidanın vəfatından sonra xürrəmilər hərəkatına Babək başçılıq etmişdir. Ərəblər 837-ci ildə sərkərdə Afşinin başçılığı ilə Bəzz qalasını mühasirəyə almışdılar. 837-ci il avqustun 26-da Bəzz yaxınlığında döyüş oldu və bu, orta əsrlər tarixinin ən qanlı savaşlarından birinə çevrildi. Bu savaşda ərəblər 100 min, xürrəmilər isə 80 min nəfər döyüşçü itirdilər. Çətinliklə də olsa, ərəblər qalanı tuta bildilər və 8 min nəfərə qədər mühafizəçini əsir götürdülər. Babəkin ailə üzvləri və yaxın qohumları da əsirlər arasında olmuşdur.

**Bibliya** (yun. "Kitab") - əslində, Bibliyaya 39 Əhdi-ətiq və 27 Əhdi-cədid kitabı daxildir. Bibliyanı təşkil edən kitablar müxtəlif dövrlərdə (e.ə. XII əsr - eramızın II əsri) və müxtəlif yerlərdə tərtib olunmuşdur. Bu kitabların vahid Bibliyada birləşdirilməsi eramızın IV əsrinin axırlarında - xristianlığın Roma



downloaded from KitabYurdu.org

imperiyasının rəsmi dini elan edilməsindən sonra baş vermişdir. Bibliyanın daha qədim hissəsi olan Əhdi-ətiq qədim yəhudilərin əsatir və rəvayətlərindən ibarətdir. Əhdi-ətiqdə dünyanın yaranmasından və yəhudi xalqının tarixindən bəhs edilir. İisus Xristosa (İsa Məsih) qədər olan peyğəmbərlərin kitabları da buraya daxildir. Əhdi-ətiq yəhudilərin, eləcə də xristianlığın yayıldığı xalqların müqəddəs kitabına çevrildi. İudaizmin davamçıları yalnız Əhdi-ətiqi, xüsusilə də Musa peyğəmbərin Tövrat adlanan beş kitabını müqəddəs sayırlar. Bir hissəsi İncil adlanan Əhdi-cədiddə İsa Məsihin həyatı və deyimlərindən və həvarilərindən (şagirdlərindən) bəhs edilir. Əhdi-cədidin Apokalipsis adlanan hissəsində dünyanın sonu haqqında xristian dünyagörüşü təsvir olunur. Pravoslav və protestant kilsələri Bibliyanı bütövlükdə deyil, onun yalnız müəyyən hissəsini qəbul edirlər.

**Bidlisi Şərəfxan** - XVI əsr Azərbaycan tarixçisi. İkicildlik əsərində XVI əsr Səfəvilər dövlətinin və Azərbaycanın ayrı-ayrı əyalətlərinin tarixindən bəhs edir.

**Bilqamıs** (şumer. Bilqames) - Mesopotamiya əsatirlərində ölməzlik otu axtaran və bu zaman bir çox şücaətlər göstərən məşhur qəhrəman. Bəzi tarixçilər onun e.ə. XXVII əsrin sonları - XXVI əsrin əvvəllərində yaşadığını və Uruk şəhərinin real hökmdarı olduğunu güman edirlər. Ölümündən sonra ilahiləşdirilmişdi. Bilqamıs o dünyada hakim, eləcə də insanların iblisdən müdafiəçisi və şəhər inşaatının yaradıcısı hesab edilirdi. Bilqamıs haqqında əfsanə hettlər, hürrilər arasında, Fələstində və b. yerlərdə də yayılmışdı.

**bill** (ing. "qanun") - Böyük Britaniya, ABŞ və bir sıra digər ölkələrin qanunverici orqanlarına hökumət və ya parlament üzvünün baxılmaq üçün təqdim etdiyi qanun layihəsi. Billin və ona edilən düzəlişlərin taleyi parlamentdə çoxluğa malik olan partiyaların mövqeyindən asılı olur. Parlament tərəfindən qəbul edilmiş və dövlət başçısı tərəfindən təsdiqlənmiş bill qanun qüvvəsinə malik olur.

**Birinci Dünya müharibəsi** - kapitalist dövlətlərinin iki bloku - Dördlər ittifaqı və Antanta arasında 1914 - 18-ci illərdə nüfuz dairəsi, xammal mənbələri və



dünya ağalığı uğrunda mübarizədə münasibətlərin son dərəcə kəskinləşməsinə görə baş vermiş müharibə. Ershersoq Frans Ferdinandın 1914-cü il iyunun 28-də Sarayevoda Prinsip tərəfindən öldürülməsini bəhanə edən Avstriya-Macarıstan Almaniyanın təzyiqi altında iyulun 28-də Serbiyaya müharibə elan etdi. Avqustun 1-də Almaniya Rusiyaya, avqustun 3-də Fransaya müharibə elan etdi, avqustun 4-də isə Böyük Britaniya Almaniyaya müharibə elan etdi. 1914-cü il avqustun 23-də Yaponiya Antantanın tərəfində müharibəyə qoşularaq Sakit okeandakı Almaniya mülklərini tutmağa və Çini tabe etməyə başladı. Sosialistlər açıq şəkildə öz hökumətlərinin tərəfinə keçdilər və nəticədə // İnternasional dağıldı. Müharibənin ilk aylarında Marnadakı döyüşlər nəticəsində alman komandanlığının Fransanı darmadağın edib müharibədən çıxarması ümidi boşa çıxdı; buna rusların Şərqi Prussiyadakı hücumları və məğlubiyyəti də kömək etdi. 1914-cü ilin avqust -



downloaded from KitabYurdu.org

sentyabrında rus qoşunları Avstriya-Macarıstan ordularını darmadağın edərək Qalisiyanın əksər hissəsini tutdular, oktyabrda isə Avstriya-Macarıstan qoşunlarının Polşada əks-hücumunu dəf etdilər. 1914-cü il oktyabrın 29-da Osmanlı imperiyası alman blokunun tərəfində müharibəyə qoşuldu. Cənubi Qafqazda, Mesopotamiyada, Suriya və Fələstinin şərq sərhədlərində cəbhələr meydana gəldi. 1914-cü ilin dekabr - 1915-ci ilin yanvarında Türkiyə ordusu Cənubi Qafqazda rus qoşunları tərəfindən məğlub edildi. 1915-ci ildə Almaniya əsas zərbəsini Rusiyaya yönəltdi, Qorlitsa rayonunda cəbhəni yarıb Qalisiya, Polşa



və Baltik ətrafının bir hissəsini ələ keçirdi, lakin Rusiyanı müharibədən kənarlaşdırmağa nail ola bilmədi. 1915-ci il mayın 23-də İtaliya Antantaya qoşuldu. 1915-ci il oktyabrın 1 -də isə Bolqarıstan da alman bloku tərəfində çıxış etdi və beləliklə, Dördlər ittifaqı yarandı. 1915-ci ildə Almaniya ilk dəfə olaraq yeni silahdan - sualtı qayıqdan istifadə etdi. Dəniz yollarında ağalıq edən İngiltərə donanmasını məhv etməkdən ötrü qeyri-məhdud sualtı müharibəyə başlasa da, Almaniya istəyinə çata bilmədi. 1915-ci ilin baharında Almaniya müharibə tarixində ilk dəfə olaraq İpr (Belçika) şəhəri yaxınlığında zəhərləyici maddələrdən (sonralar "iprit" adlandırılan xlor buxarı) istifadə etdi, amma yalnız taktiki uğur qazandı. 1916-cı ildə Almaniyanın Verden rayonunda ("Verden qətliamı") cəbhəni yarmaq cəhdi boşa çıxdı. 1916-cı ilin iyununda general Brusilovun başçılığı ilə rus qoşunlarının hücumu nəticəsində Qalisiyanın bir hissəsi, Bukovina və Karpat ələ keçirildi. 1916-cı ilin iyulunda ingilislər Somma çayı üzərindəki savaşda Xarixdə ilk dəfə olaraq tanklardan istifadə etdilər; indi onların texnikası almanların texnikasından üstün idi. 1916-cı il avqustun 27-də Rumıniya Antanta tərəfində müharibəyə qoşuldu, lakin ilin sonlarına yaxın rumın ordusu dağıdıldı. 1917-ci ilin aprel - mayında ingilis - fransız orduları hücum əməliyyatları keçirdilər, amma onlar nəticəsiz qaldı. 1917-ci ilin aprelində ABŞ Almaniyaya müharibə elan etdi. 1917-ci ilin oktyabrında Almaniya və Avstriya-Macarıstan qoşunları Kaporetto yaxınlığında italyanların cəbhəsini yararaq İtaliyanın çox mühüm mərkəzləri qarşısına çıxdılar, amma buraya gətirilmiş ingilis - fransız qoşunları tərəfindən dayandırıldılar. 1917-ci ildə Rusiyada Oktyabr çevrilişi baş verdi və Rusiya 1918-ci ildə özü üçün ağır olan separat Brest müqaviləsini imzaladı və Birinci Dünya müharibəsindən çıxdı. 1918-ci ilin mayından Qərb cəbhəsində amerikan qoşunları əməliyyatlara qoşuldu. İngilis - fransız və amerikan qoşunlarının fransız marşalı Fosun ümumi komandanlığı ilə birgə fəaliyyətləri Almaniyanın və onun müttəfiqlərinin tam məğlubiyyəti ilə başa çatdı. 1918-ci il sentyabrın 29-da Bolqarıstan, oktyabrın 30-da Osmanlı imperiyası, noyabrın 3-də isə Avstriya-Macarıstan təslim oldu. 1918-ci il noyabrın 11-də Almaniyada Noyabr inqilabı başlandı və Almaniya təslim oldu. Almaniya və onun müttəfiqləri ilə sülh müqavilələrinin qəti şərtləri 1919-cu ildə Versal sülh müqaviləsində həll edildi və



downloaded from KitabYurdu.org

1921 - 22-ci illər Vaşinqton konfransı sazişləri ilə tamamlandı. Birinci Dünya müharibəsinə dünyanın müxtəlif hissəsindən olan 38 dövlət qoşulmuşdu. Vuruşan ölkələrin canlı qüvvə itkisi 10 milyonadək ölən və 20 milyondan artıq yaralanan olmuşdur. Birinci Dünya müharibəsinin məsrəfləri 80 milyard dollar idi (1913-cü ilin qızıl dolları hesabı ilə).

**birinci ictimai əmək bölgüsü** - maldarlığın əkinçilikdən ayrılması. Azərbaycanda bu proses erkən tunc dövründə - e.ə. IV minilliyin sonları - III minillikdə baş vermişdir. Birinci imperiya - Fransada imperator I Napoleonun hakimiyyətdə olduğu 1804-cü ildən 1814/15-ci illərə qədərki dövr. Birinci imperiya Konsulluq dövrünü əvəz etmişdir. Birinci respublika - 1792-ci il sentyabrın 22-də Böyük Fransa burjua inqilabının gedişində yaradılmış respublika. Formal olaraq 1804-cü ildə I Napoleonun imperator elan edilməsinədək mövcud olmuşdur.

**birja** - müəyyən standart və ya nümunələrlə satılan kütləvi mal (əmtəə), eləcə də qiymətli kağızların (səhm və ya istiqrazların) və xarici valyutanın satış bazarının müasir, daha inkişaf etmiş forması. Müvafiq olaraq əmtəə birjası, fond birjası, valyuta birjası mövcuddur.

**"Birlik"** - 1917-ci ilin avqustunda RSDF(b)P Bakı Komitəsinin nəzdində yaradılmış təşkilat. Təşkilatın əsas məqsədi neft sənayesi fəhlələri - Volqaboyu tatarları arasında inqilabi işi genişləndirmək idi. "Birlik" təşkilatının sədri Hənifə Terequlov olmuşdur.

**Biruni, əl-Biruni** (973 - 1048) – Mərkəzi Asiya ensiklopediyaçı alimi. Biruninin riyaziyyat, coğrafiya və astronomiya üzrə əsərlərinin ayrı-ayrı müddəaları indəyədək öz əhəmiyyətini itirməmişdir. Bundan başqa, Biruni fizika, mineralogiya, etnoqrafiya və tarix elmlərini də tədqiq edirdi. Biruninin müstəsna biliyə malik olması o dövrün qabaqcıl dünyagörüşü ilə uyğun gəlirdi. O, dini xurafata və astrologiyaya mənfi münasibət bəsləyir, xalqlar arasında baş verən düşmənçiliyə qarşı çıxırdı.

**bisti** - Səfəvilər dövlətində sah I Təhmasibin dövründə kəsilmiş gümüş sikkə. 20 dinara bərabər tutulurdu. XVII əsrin sonlarına qədər dövriyyədə olmuşdur.

**Bisütun kitabəsi** - İranın müasir Kirmanşah şəhəri yaxınlığında yerləşən Bisütun qayasının üzərində Əhəməni şahı I Daranın əmri ilə tərtib olunmuş relyefli kitabə. Onların köməkliyi ilə / Dara üsyançılar üzərində öz qələbələrini, özgə ölkələrin istilası və tabe etdirilməsini əbədiləşdirmək istəyirdi. Üç dildə həkk edilən kitabə (qədim fars, Babil və Elam dillərində) min sətirə qədər idi (orta hesabla hərəsi 2 m) və mixi işarələrlə qazılmışdı. Relyefdə ən iri fiqur şah I Daranın uzun, yaraşıqlı geyimdə olan təsviri idi. O, bir ayağı ilə yıxılmış əsiri tapdalayır. Sahın arxasında onun iki silahlısı durub. Şahın önündə müxtəlif geyimli, qolları arxadan bağlanmış əsirlər təsvir olunub. Relyefin yuxarısında allah Ahura Mazda təsvir edilib. Relyefin tikintisi və kitabənin qazılması nisbətən az



downloaded from KitabYurdu.org

müddətdə - e.ə. 521-ci ilin noyabrı - e.ə. 518-ci ilin martı arasında həyata keçirilib. Yazı farsların tabeliyində olan bir çox başqa xalqların dillərinə tərcümə olunmuş və yazının özündə göstərildiyi kimi, "bütün ölkələrə" göndərilmişdi. Üçdilli Bisütun kitabəsinin surəti XIX əsrin birinci yarısında İngiltərənin kəşfiyyat zabiti Henri Roulinson tərəfindən böyük çətinliklə köçürülmüşdür. Roulinson isladılmış karton vasitəsilə 12 il ərzində mixi işarələrin surətini çıxarıb, üzünü köçürmüşdür. Qədim fars mixi yazılarının Qrotefend tərəfindən açılması (şifraçımi) sayəsində Roulinson qədim fars dilində qazılmış və bir çox adam adı və coğrafi adların sadalandığı üst yazını oxuya bilmişdi. Beləliklə, hələ oxunmamış digər iki dildəki yazılar üçün tərcümə əldə edildi. XIX əsrin ortalarında Babil mixi yazısı, XX əsrin ortalarında isə Elam mixi yazısı oxundu.

**bitərəf ölkələr** - öz siyasətində hərbi-siyasi bloklara qoşulmamağı elan etmiş ölkələr.

**Bitərəflik** - 1) yad mübahisəyə, iki tərəf arasındakı mübarizəyə qoşulmamaq; 2) xarici siyasət kursu silahlı münaqişələrdə, müharibə və hərbi-siyasi ittifaqlarda iştirak etməməklə xarakterizə olunan dövlətin xüsusi hüquqi statusu.

**biyar** – Şərq ölkələrində dövlət və feodalların xeyrinə rəiyyətin məcburən yerinə yetirdiyi müxtəlif mükəlləfiyyət.

**Bizans, Bizans imperiyası** (Şərqi Roma imperiyası) - 395-ci ildə Roma imperiyasının iki yerə parçalanması nəticəsində yaranmış dövlət. Paytaxtı - Konstantinopol. Konstantinopol qədim yunan koloniyası Vizantinin yerində inşa



edildiyinə görə Vizanti koloniyasının adına uyğun olaraq dövlət Bizans adlandırılmışdır. İmperiyanın mərkəz hissəsinin əhalisinin əksəriyyətini yunanlar təşkil edirdilər. Rəsmi dil (VII əsrdən) - yunan dili idi. Erkən orta əsrlərdə Bizansın inkişafının özünəməxsus xüsusiyyətləri var idi: şəhərlər sənətkarlıq və ticarət mərkəzi kimi qalırdı; mərkəzləşdirilmiş dövlət aparatı və vergi sistemi var idi; silklər və feodal sistemi qapalı deyildi və s. İki mühüm ticarət yolu - Avropadan Asiyaya və dəniz yolu Aralıq dənizindən Qara dənizə gedən yol Bizansdan keçirdi. Tranzit ticarəti Bizans tacirlərinə və dövlət xəzinəsinə böyük gəlir gətirirdi. Bütün bunlar Bizansa böyük ordu və qüvvətli donanma saxlamağa imkan verirdi. Bizans imperiyasının ən çox genişlənməsi VI əsrə - imperator Yustinianın dövrünə təsadüf edir. Ərəb, slavyan və lanqobard tayfalarının istilaları nəticəsində VII əsr - IX əsrin ortalarında onun ərazisinin Balkan yarımadasının bir hissəsi və Kiçik Asiya ilə məhdudlaşmasına gətirib çıxardı. 1204-cü ildə səlibçilərin - xaçlıların dördüncü yürüşünün iştirakçılarının Konstantinopolu tutması Bizans imperiyasının devrilməsinə və Latın imperiyasının yaradılmasına səbəb oldu. Səlibçilərin tutmadıqları ərazilərdə isə Bizans dövlətləri - Nikeya və Trapezund imperiyaları, Epir dövləti yarandı. Bizans imperiyası 1261-ci ildə VIII Mixail tərəfindən bərpa edildi. 1453-cü ildə



downloaded from KitabYurdu.org

Osmanlı sultanı II Mehmetin başçılığı ilə türklər tərəfindən Konstantinopolun tutulması Bizans imperiyasının varlığına son qoydu.

**blokada** - 1) hər hansı bir tələbi yerinə yetirməsindən ötrü blokadaya alınmış dövlətin xarici əlaqələrini pozmağa yönəldilmiş siyasi və iqtisadi tədbirlər sistemi; 2) hərbi blokada - quruda, havada və dənizdə blokadaya salınması obyektin (qruplaşma, qoşun, şəhər, rayon, dövlət və s.) xarici əlaqələrinin pozulması yolu ilə təcrid olunması. Məqsəd - blokadaya salınmış qruplaşmanın qüvvəsinin tükədilməsi və onun təslim olmağa vadar edilməsi, düşmən dövlətin hərbi-iqtisadi qüdrətinin sarsıdılması və s.

**BMT** (Birləşmiş Millətlər Təşkilatı) - müstəqil dövlətlərin beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, eləcə də dövlətlər arasında dinc


BMT-nin baş katibi K.Annan

əməkdaşlığı inkişaf etdirmək məqsədi ilə könüllü birləşməsi nəticəsində təsis edilmiş beynəlxalq təşkilat. BMT-nin nizamnaməsi 1945-ci ilin aprelində San-Fransisko şəhərində keçirilən konfransda 50 dövlətin nümayəndəsi tərəfindən imzalanmış və 1945-ci il oktyabrın 24-də qüvvəyə minmişdir (son tarix BMT günü kimi qeyd olunur). Beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün əsas məsuliyyət BMT-nin Təhlükəsizlik Şurasının (TŞ) üzərinə qoyulmuşdur. Burada qərar qəbul olunması zamanı TŞ-nin beş daimi üzv-dövlətinin - ABŞ, Böyük Britaniya, Fransa, Rusiya və Çinin səs birliyi prinsipi mövcuddur. Bu o deməkdir ki, beş böyük dövlətdən hər biri onun marağına uyğun gəlməyən qərara veto qoymaq hüququna malikdir. BMT-nin Təhlükəsizlik Şurasından əlavə, əsas orqanları bunlardır: Baş Assambleya, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və BMT baş katibinin başçılıq etdiyi Katiblik. BMT sistemində 15 ixtisaslaşdırılmış təsisat da vardır. BMT-nin iqamətgahı Nyu-Yorkdadır (ABŞ). 1992-ci il martın 2-də Azərbaycan Respublikası BMT-nin üzvü olmuşdur.

**borc** - bir tərəfin müvəqqəti olaraq pul, yaxud ölçü, çəki, say və s. ilə müəyyən edilən əşyaları digər tərəfin mülkiyyətinə verməsini və onların mütləq həmin ölçüdə geriyə qaytarılmasını bildirən müqavilə.

**Böyük Britaniya** - 1) Avropanın qərbində - Atlantik okeanında yerləşən Britaniya adaları qrupundan ən böyük ada; 2) Britaniya adalarında dövlət. Rəsmi adı - Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı. Əhalisi 60 mln. nəfərdən artıqdır. Əhalinin 80%-i ingilislərdir, milli azlıqda qalanlar - şotlandlar, uelslilər (valliyalılar), irlandlardır. Dindarların əksəriyyəti protestantdır. Paytaxtı - Londondur. Dövlət quruluşu - parlamentli monarxiyadır. Dövlətin başında kral durur. Qanunverici orqanı - iki-palatalı (lordlar palatası və icmalar palatası) parlamentdir. İcra hakimiyyəti - Nazirlər Kabinetidir. Böyük Britaniya keçmiş İngiltərə dominionları və müstəmləkələrinin də daxil olduqları Britaniya Birliyinə başçılıq edir. Nüvə silahına malik Böyük Britaniya beş böyük dövlətdən biridir.



downloaded from KitabYurdu.org

**Böyük Britaniya Leyboristlər Partiyası** (ing. "leybor" - "əmək", "zəhmət") - Böyük Britaniyanın iki aparıcı (mühafizəkarlarla yanaşı) partiyasından biri. 1900-cü ildə yaradılmışdır. Tərkibinə görə əsasən fəhlə partiyasıdır, islahatlar yolu ilə fəhlələrin vəziyyətinin yaxşılaşdırılması uğrunda çalışır.

**Böyük coğrafi kəşflər** - XV əsrin ikinci yarısından XVII əsrin ortalarınadək Böyük coğrafi kəşflər zamanı Avropa dənizçiləri və səyyahları əvvəllər məlum olmayan dənizləri və okeanları, adaları və materikləri kəşf etdilər, ilk dünya səyahətinə çıxdılar, Yerin kürə şəklində olmasını əməli surətdə sübuta yetirdilər. Naməlum ölkələrin axtarılması üçün əsas stimul əsrlər boyu Şərq malları almaq üçün Avropadan Şərqə axan qızıla hərisliyin olması idi. Bundan başqa, Şərqə gedən quru ticarət yolları Osmanlı imperiyasının əlində idi. Buna görə də Avropa dənizçiləri özlərinin Hindistana və Çinə gedən yollarını axtarmağa başladılar. Həm də dəniz yolları quru yollara nisbətən daha əlverişli və təhlükəsiz idi. İlk dəfə olaraq Hindistana gedən yolları Portuqaliya dənizçiləri axtarmağa başladılar. 1486 - 87-ci illərdə Bartolomeu Diaşın ekspedisiyası Afrikanın cənub ucqarlarına çatmışdı. Diaş Afrikanı cənubdan ötüb-keçmiş ilk avropalıdır. Geri qayıdarkən Ümid burnunu kəşf etmişdir (1488). 1492-ci ildə Kolumbun ispan kralı tərəfindən maliyyələşdirilən üç ekspedisiyası sayəsində Amerika kəşf və tədqiq olundu. 1498-ci ildə Afrikanı ötüb-keçən Vasko da Qama Hindistana çatdı. 1513-cü ildə ispan konkistadoru Nunyes Balboa Panama bərzəxini keçərək Sakit okeanı kəşf etdi. 1519 - 22-ci illərdə Fernando Magellan dənizlə ilk dövr-aləm səyahətinə çıxdı. 1642 - 44-cü illərdə holland dənizçisi Abel Tasman Tasmaniya, Yeni Zelandiya adalarını və yeni Avstraliya materikini kəşf etdi. 1648-ci ildə rus dənizçisi Semyon Dejnyov Şimal Buzlu okeanı boyunca Qərbi Asiyaya səyahət etdi və Asiyanı Amerikadan ayıran boğazı (sonralar Berinq boğazı adlandırılmışdır) kəşf etdi. Böyük coğrafi kəşflər avropalıların geniş müstəmləkələr tutmasının əsasını qoydu, Avropada əmtəə istehsalının artmasına təsir etdi, dünya ticarətinin meydana çıxmasına səbəb oldu.

**Böyük Çin səddi** - Çinin şimalında qala divarı. Tikintisinə e.ə. 214-cü ildə imperator Sin Şixuandinin əmri ilə başlanılmışdı. Bu divar döyüşkən köçəri hun



tayfalarının şimal tərəfdən edilən hücumlarından qorunmaq məqsədi ilə ucaldılmışdı. Böyük Çin səddinin uzunluğu 4 min km-dən 5 min km-dək, hündürlüyü 5 - 10 m, eni isə 5,5 m-dir, belə ki, onun üstü ilə arabalar və döyüşçü dəstələri keçə bilərdi. Divar üzərində hər 100 - 120 m-dən bir çox da hündür olmayan kvadratşəkilli gözətçi bürcləri, əsas dağ keçidlərində isə qalalar ucalırdı. Təhlükə zamanı bürclərdə tonqal yandırmaqla düşmənin gəlişini xəbər verirdilər. Böyük Çin səddinin tikintisi və təmiri ilə bağlı işlər fasilələrlə min ildən artıq davam etmişdir. Onun xeyli hissəsi günümüzədək qalmışdır.



downloaded from KitabYurdu.org

**"böyük dövlətlər"** - beynəlxalq aləmdə aparıcı rol oynayan qüdrətli dövlətləri bildirmək üçün istifadə olunan məfhum. İkinci Dünya müharibəsindən sonra BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvləri olan Böyük Britaniya, Çin, ABŞ, SSRİ (indi Rusiya), Fransa böyük dövlətlərdir.

**böyük dövlətçilik şovinizmi** - öz millətini "ali" millət elan edən və dövlətdə hakim mövqe tutan, hökmranlıq edən millətin hakim dairələrinin ideologiyası və siyasəti. Böyük dövlətçilik şovinizmi müstəmləkə imperiyalarının yaranması dövründə meydana gəlmişdi. "Böyük" millətlərin siyasəti digər millətləri öz əsarəti altına almağa, onların iqtisadi, siyasi və mədəni sahələrdə diskriminasiyasına, müstəqilliklərinə son qoymağa yönəlmişdir. Böyük dövlətçilik şovinizmi, məsələn, Avstriya-Macarıstan və Rusiya imperiyalarında aparılmışdır. Rus çarizmi ölkəni "xalqlar həbsxanası"na çevirmişdi.

**Böyük Fransa burjua inqilabı** - burjua inqilabı. Bir sıra tarixçilər həmin inqilabı 1789 - 94-cü illərlə, digərləri isə 1789 -1804-cü illərlə məhdudlaşdırırlar.



Əsas səbəbi: inkişaf etməkdə olan kapitalist istehsal münasibətləri ilə feodalizm qalıqları (mütləqiyyət, feodalların və ruhanilərin imtiyazları, kəndlilərin feodallardan asılılığı) arasında ziddiyyətlərin olmasıdır. Dövlətin müflisləşməsi, ticarət-sənaye böhranı və qıtlıq illəri ilə ölkənin daha da kəskinləşən ağır vəziyyəti 1788 - 89-cu illərdə inqilabi şəraitin yetişməsinə səbəb oldu. Kral XVI Lüdovik 1789-cu ilin mayında Baş Ştatları çağırdı. 1789-cu il iyunun 17-də 3-cü silkin deputatları özlərini əvvəlcə Milli, iyulun 9-da isə Müəssislər Məclisi elan etdilər. Kralın məclisi qovmaq cəhdləri xalq üsyanına - 1789-cu il iyulun 14-də hücumla Bastiliyanın alınmasına səbəb oldu; bu isə inqilabın başlanğıcı idi. Mütləqiyyətə və feodallara qarşı mübarizədə burjuaziya, şəhər yoxsulları və kəndlilər birləşdilər. İnqilabın birinci mərhələsində (1789-cu il iyulun 14-dən 1792-ci il avqustun 10-dək) hakimiyyət iri burjuaziya və liberal zadəganlar tərəfindən ələ keçirildi. Xalqın təzyiqi ilə Müəssislər Məclisi "İnsan və vətəndaş hüquqları bəyannaməsi"ni qəbul etdi. 1792-ci il avqustun 10-da Parisdə xalq üsyanı nəticəsində mütləqiyyətin devrilməsindən sonra - inqilabın ikinci mərhələsində (1792-ci il avqustun 10-dan 1793-cü il iyunun 2-dək) siyasi rəhbərlik Konventdə çoxluq təşkil edən jirondistlərin əlinə keçdi. 1792-ci il sentyabrın 22-də Konvent Fransada respublika hakimiyyəti elan etdi və bu, "Birinci respublika" adlandırıldı. Konventdə inqilabın dərinləşməsinə cəhd göstərən Robespyer, Marat, Danton və Sen-Jüstün başçılıq etdikləri yakobinlər jirondistlərə qarşı çıxırdılar. Jirondistlərin inqilabın sonrakı inkişafının qarşısını almaq cəhdləri 1793-cü il mayın 31-dən iyunun 2-dək xalq üsyanına səbəb oldu və yakobin diktaturasının qurulması - inqilabın üçüncü mərhələsinə (1793-cü il iyunun 2-dən 1994-cü il iyulun 27-dək) keçməsi ilə nəticələndi. Xalqı səfərbərliyə alan yakobinlər hökuməti Prussiya və Avstriya



downloaded from KitabYurdu.org

müdaxiləçiləri üzərində qələbə çalınmasını təmin etdi, ölkə daxilindəki əksinqilabi qiyamları yatırdı, torpaq məsələsini kəskinliklə həll etdi (feodal imtiyazlarını ləğv etdi, icma torpaqlarını, eləcə də mühacirət edənlərin müsadirə olunmuş torpaqlarını kəndlilərə payladı); bu da kəndliləri azad xırda torpaq sahiblərinə çevirdi. Monarxiyanın bərpası təhlükəsinin sovuşduğu zaman yakobin diktaturasının "plebey metodları"ndan və terrorçuluğundan narazı qalan burjuaziya əksinqilab tərəfə keçməyə başladı və kəndlilərin də xeyli hissəsini öz ardınca apardı. İyulun 27-də (termidorun 9-da) termidor çevrilişi nəticəsində yakobin diktaturası devrildi və Direktoriya rejimi quruldu.

**Böyük İpək yolu** - Mərkəzi və Ön Asiyaya Çindən gələn karvan yolu. E.ə. II əsrdə Xan sülaləsinin hakimiyyəti illərində salınmışdır. Böyük İpək yolu ilə Çindən bütün dünyada yüksək qiymətləndirilən ipək aparılırdı. Çin qoşunları qonşu ölkələri tutmaq və qarət etmək üçün də bu yolla hərəkət edirdi. I - II əsrlərin qovuşuğunda Böyük İpək yolu ilə hər il Çinə və Çindən böyük ticarət karvanlarının müşayiəti ilə bir çox elçi gedirdi. Çin ilə başlıca olaraq Mərkəzi Asiya vasitəçi tacirləri alver edirdilər. III - VI əsrlərdə Böyük İpək yolu Çindən Hindistana və geriyə qayıdan buddaçı rahiblər tərəfindən istifadə edilirdi. VII - X əsrlərdə bu yol ilə Çinlə Bizans və ərəblər arasında əlaqələr yaranmışdı. XIII - XIV əsrlərdə Böyük İpək yolu nəhəng Monqol imperiyasının bir-birindən uzaq rayonlarını birləşdirirdi. XV əsrdə dəniz yollarının kəşfi və inkişafı ilə əlaqədar olaraq Böyük İpək yolu öz əhəmiyyətini itirməyə başladı və tədricən unuduldu.

**Böyük Karl** - Karolinqlər sülaləsindən (742 -814) olan Böyük Karl, frankların kralı (768 - 814), "Müqəddəs Roma imperiyası"nın imperatoru (800 - 814). Aaxen şəhərində anadan olmuşdur (müasir Almaniya ərazisində). 768-ci ildə qardaşı Karloman ilə birlikdə frankların kralı olmuşdur, lakin 771-ci ildə Karloman öldü və Karl təkbaşına kral qaldı. 771-ci ildə german tayfası olan sakslarla müharibəyə başladı. 774-cü ildə Karl lanqobardlar üzərində qələbə çaldı və onların İtaliyanın şimalındakı dövlətlərinin ərazisini öz torpaqlarına birləşdirdi. 778-ci ildə Karl İspaniyaya soxuldu, lakin basklarla müharibədə məğlubiyyətə uğradı. Frank qoşunları İspaniyadan geriyə çəkilərkən Karlın qardaşı oğlu Rolandın başçılıq etdiyi aryerqard (arxa dəstə) basklar tərəfindən darmadağın edildi. Bu barədə dövrümüzədək çatmış "Roland haqqında nəğmə"də məlumat qalmışdır. Karl sonralar İspaniyanın şimalının yalnız kiçik bir hissəsini tuta bildi. 790-cı ildə avarlar üzərində qələbə çalan Karl Avar xaqanlığının ərazisinin bir hissəsini ələ keçirdi. 800-cü ildə Roma papası III Leo diz çökən Karlın başına tac qoymuş, onu Roma imperatoru adlandırmışdır. 804-cü ildə sakslarla 33 illik ağır müharibələrdən və onların arasında xristianlığı yaydıqdan sonra Böyük Karl saksları tabe edə bildi, amma nəticədə onların $^{1}/_{4}$-dən çoxunu məhv etdi. Bundan sonra Böyük Karl daha işğalcı





downloaded from KitabYurdu.org

müharibələr aparmadı, qüvvəsini şimalda vikinqlərlə danimarkalılara, cənubda isə bizanslılarla ərəblərin təhlükəsinə qarşı yönəltdi. 71 yaşında ölmüş və Aaxen şəhərində dəfn olunmuşdur.

**Böyük Kir** - İran şahı (e.ə. 559 - 530). Herodotun məlumatına görə, sonuncu Midiya hökmdarı Astiaqın çobanının Spako (midiyalıların dilində "it") adlı arvadı tərəfindən tərbiyə olunmuş nəvəsi. Digər İran şahları kimi, Kir də əvvəlcə Midiya hökmda-rından asılı olan fars tayfasına başçılıq etmişdir. E.ə. 550-ci ildə Astiaqı devirmiş. Fars və Midiya şahlıqlarını öz hakimiyyəti altında birləşdirmiş və İran (və ya Əhəmənilər) dövlətini yaratmışdır. Kir Əhəmənilər nəslindən olduğundan bu dövləti həm də Əhəmənilər dövləti adlandırırlar. E.ə. 547-ci ildə Kir Lidiya çarlığını, e.ə. 545 - 539-cu illər arasında Mərkəzi Asiya ölkələrini, e.ə. 538-ci ildə isə Babilistanı tutmuş və həmin ölkələri öz dövlətinin tərkibinə daxil etmişdir. Kir e.ə. 530-cu ilin iyulunda Tomirisin başçılıq elədiyi massaget tayfalarına qarşı təşkil etdiyi yürüşdə ölmüşdür. Kirin ölümündən sonra onun oğlu Kambiz Əhəməni şahı olmuşdur.

**Böyük Moğollar imperiyası** - Hindistanda orta əsrlərdə ən böyük müsəlman dövləti (1526 - 1858). Dağılmaqda olan Dehli sultanlığının 1526-cı ildə Babur təərəfindən tutulması nəticəsində yaradılmışdır. Böyük Moğollar sülaləsi tərəfindən idarə olunurdu. Paytaxtları - Aqra və Dehli idi. XVII əsrdə imperiyanın ərazisi Hindistan yarımadasının böyük hissəsini əhatə edirdi. Bu dövrdə Hindistan ərazisində baş verən ara müharibələrinə müvəqqəti son qoyuldu, sənətkarlıq (xüsusilə də toxuculuq və zərgərlik) və ticarət çiçəkləndi. Portuqaliya tacirləri Hindistanın Avropa ilə ticarətindən xeyli varlanırdılar. Müsəlman incəsənəti Hindistanın memarlığı və rəngkarlığına böyük təsir göstərmişdir. XVII əsrdə dünyada məşhur olan Tac-Mahal məqbərəsi Aqra şəhərində inşa edilmişdir. Hindistan boyakarlığı yüksək inkişaf səviyyəsinə çatmışdır. Lakin XVIII əsrdə feodal ara müharibələri nəticəsində Böyük Moğollar imperiyası bir sıra xırda knyazlıqlara parçalandı. 1803-cü ildə Dehlinin tutulmasından sonra ingilis müstəmləkəçiləri Böyük Moğollar sülaləsi nümayəndələrinə təqaüd verirdilər, 1858-ci ildə isə onlar sülalənin hakimiyyətini birdəfəlik ləğv etdilər və Hindistan birbaşa ingilis tacının idarəçiliyinə keçdi.

**Brahma** - qədim hindlilərdə baş allah. Yaradıcı allah, kainatın yaradıcısı. Adətən ququşu üstündə oturmuş halda, qırmızı, şanagülləyi gözlü, saqqallı təsvir olunur, dörd üzü, dörd bədəni, səkkiz əli var və bu əllərdə Vedanın dörd kitabı, hakimiyyət bildirən əsa, Qanq çayının suyu ilə doldurulmuş qab, qurban qaşığı, bəzən şanagüllə çiçəyi, mirvari dəsti və ox var. Brahma əqlin gücü ilə qızıl yumurtanı iki yerə böldü: birindən Yeri yaratdı, digərindən isə səmanı; onların arasında hava qatı əmələ gəldi. Sonra beş ünsür (su, od, torpaq, hava, efir) əmələ gəldi, bundan sonra şüur, daha sonra isə allahlar, qurbanvermə, Vedanın üç kitabı, ulduzlar, zaman, dağlar, düzənlər, dənizlər, çaylar, nəhayət, insanlar, danışıq, qəzəb, sevinc, ehtiras, etiraf, ziddiyyetlər (isti - soyuq, quru - nəm, kədər - sevinc



downloaded from KitabYurdu.org

və s.) meydana gəldi. Bundan sonra bitkilər, heyvanlar, quşlar, böcəklər, iblislər yaradılır. Bütün canlı aləm, dünyanın bütün nizamı Brahma tərəfindən idarə olunur, istiqamətləndirilir və nəzarətdə saxlanılır. Brahmanın ömrünün uzunluğunu kainatın xronoloji çərçivəsi müəyyən edir - Brahma 311.040.000.000.000 "insan" ilinə bərabər olan "yüz Brahma ili" yaşamalıdır.

**brahmanlar** - qədim Hindistanda kahinlər kastası. Hesab edilirdi ki, Brahma öz dodaqlarından kahin brahmanları yaratmışdır. Buna görə də onlar adamlarla Brahmanın adından danışa bilərlər. Kahinləri hər evə dəvət edir, allaha qurban vermək istəyirdilər, belə ki, kahinlər qurbanvermənin icraçısı, din bilicisi və şərhçisi idilər. Brahmanlar hindlilərin birinci ali kastası sayılır. Bretan - Fransanın şimal-qərbində yarımada. Adı buraya köçmüş brit tayfaları ilə bağlıdır.

**brifinq** - mətbuat nümayəndələrinin qısa yığıncağı. Belə toplantıda xüsusi səlahiyyətli şəxs tərəfindən hökumətin, hər hansı partiyanın, təşkilatın və ya ayrıca siyasi xadimin müəyyən məsələ üzrə mövqeyi açıqlanır.

**Britaniya** - müasir İngiltərənin brit tayfasından alınmış qədim adı. E.ə. 55 - 54-cü illərdə Yuli Sezarın Britaniyanı tutmaq cəhdləri uğursuz oldu. Lakin eramızın I əsrində romalılar Britaniyanı işğal etdilər. V - VI əsrlərdə isə Britaniya anql və saks german tayfaları tərəfindən tutuldu.

**Britaniya imperiyası** - istilahı bütövlükdə Böyük Britaniyanı, onun dominionları və müstəmləkələrini bildirir. Rəsmi olaraq XIX əsrin 70-ci illərindən istifadə edilir.

**britlər** - kelt tayfaları, e.ə. VIII əsrdən eramızın V əsrinədək Britaniyanın əsas əhalisi. Britlərin dəyanətli müqavimətləri və üsyanları romalıların Britaniyada istilalarını zəiflədirdi. Britaniyanın anql və saks german tayfaları tərəfindən istila edildiyi dövrdə britlər qismən məhv edilmiş, qismən də Uelsə, Şotlandiyaya və Qalliyanın şimal-qərbindəki yarımadaya (sonralar Bretan adlandırıldı) köçürülmüşlər.

**Brut Lutsi Yuni** - Qədim Roma əfsanəsinə görə, Romada respublikanın əsasını qoyan. Patrisilərin sonuncu Roma hökmdarı Tarkvini Qordoya qarşı baş vermiş üsyanına rəhbərlik etmişdir. E.ə. 509-cu ildə sonuncu hökmdarın qovulmasından sonra Brut Roma Respublikasının konsullarından biri olmuşdur.

**Brut Mark Yuni** (e.ə. 85 - 42) - Qədim Roma siyasi və hərbi xadimi, ən bacarıqlı sərkərdələrdən və Sezarın öz oğlu kimi münasibət bəslədiyi dostlarından



biri. Romada vətəndaş müharibələri illərində Pompeyin tərəfində Sezara qarşı çıxmışdır, lakin Sezar qələbə çaldıqdan sonra onu bağışlamış və Sizalpin Qalliyasına canişin təyin etmişdi. E.e. 44-cü ildə respublikaçı senatorların senatın yığıncağında Sezarın öldürülməsi ilə başa çatan sui-qəsdinə rəhbərlik etmişdi. Roma əhalisi tərəfindən dəstəklənməyən Brut paytaxtdan qaçmaq məcburiyyətində qaldı. Sui-qəsdçilər Makedoniyada qoşun toplamağa başladılar. E.ə. 42-ci ildə Filipp yaxınlığındakı döyüşdə respublikaçıların qoşunları Antoni və



downloaded from KitabYurdu.org

Oktavianın qoşunları tərəfindən məğlubiyyətə uğradıldı. Qılınc üzərinə yıxılan Brut özünü öldürdü.

**buddizm** - dünyanın bütün ölkələrində davamçıları olan üç dünyəvi dindən biri. Buddizm e.ə. VI əsrdə Hindistan yarımadasında meydana gəlmişdir.



Buddizmin banisi hind şahzadəsi Siddhartha Qautama (e.ə. 623 - 544) olmuşdur. 29 yaşına çatan şahzadə Qautama sarayı və arvadını tərk edib cəlayi-vətən oldu. 7 il sərgərdan, tərki-dünya həyat sürdükdən sonra Qautama özünü Budda ("Oyanmış") adlandırdı və təlimini ) təbliğ etməyə başladı. Buddizm öyrədir ki, həyat bütün təzahürlərində şor və iztirab mənbəyidir. Bu şerə qalib gəlmək üçün insan onu əhatə edən aləmdən imtina etməli və rahib olmalıdır. Yalnız müəllimin rəhbərliyi altında rahib olduqdan sonra insan öz hissləri və arzularına qalib gələ bilər. Digər dünyəvi dinlərdən fərqli olaraq buddizm gerçəklik haqqında düşünmək yolu ilə tədricən özünə qapılmaqdan ibarətdir. Beləliklə, insanın dini şərəfi yalnız onun özünün şəxsi davranışından asılıdır. Ayinlərin bu sayaq sadəliklə icrası buddizmin dünyanın müxtəlif ölkələrində geniş yayılmasına səbəb olmuşdur.

**Buhenvald** - Almaniyada Veymar şəhəri yaxınlığında 1937 - 45-ci illərdə alman-faşist həbs düşərgəsi. Buhenvaldda saxlanılan 56 min məhbusdan 10 mini öldürülmüşdür. 1958-ci ildə Buhenvaldda memorial kompleks açılmışdır.

Buxara əmirliyi - 1747- 1920-ci illərdə Mərkəzi Asiyada dövlət, 1868-ci ildən Rusiya imperiyasının vassalı. Paytaxtı – Buxara. Əmirləri Mınqıtlar sülaləsindən idilər. 1920-ci ildə Qırmızı Ordu tərəfindən işğal olunmuşdur. 1924-cü ildə milli sərhədləşmə nəticəsində onun ərazisi Türkmənistan, Özbəkistan və Tacikistan SSR tərkibinə daxil olmuşdur.

**Buxara xanlığı** - XVI - XVIII əsrlərdə Mərkəzi Asiyada, paytaxtın Buxaraya köçürülməsindən sonra yaranmış dövlət. Daha çox II Abdulla xanın hakimiyyəti illərində XVI əsrin ikinci yarısında genişlənmiş və siyasi nüfuza malik olmuşdur. Həştərxanilər sülaləsi dövründə zəifləmişdir. 1740-cı ildə Nadir şah tərəfindən tutulmuşdur. 1747-ci ildən Buxara əmirliyi adlanmışdır.

**Busefal** - Makedoniyalı İsgəndərin atı. E.ə. 326-cı ildə ölmüşdür. Onun şərəfinə İsgəndər Hindistanda Busefaliya şəhərini saldırmışdır.

**Buz döyüşü** (1242) - 1242-ci il aprelin 5-də buz bağlamış Çud gölü üzərində Aleksandr Nevskinin başçılığı altında Novqorod rus qoşunları ilə alman cəngavərlərinin Tevton ordeni arasında baş vermiş döyüş. Alman cəngavərlərinin tam məğlubiyyəti ilə başa çatdı.

**buzlaq dövrü** - Yerin tarixində bir neçə dəfə soyuqlaşma və istiləşmə dövrlərinin bir-birini əvəz etdiyi mərhələ. Sonuncu buzlaq dövrü 100 min il əvvəl başlamışdı. O zaman Avropa və Asiyanın şimalında nəhəng buzlaq əmələ gəlmişdi - buz təbəqəsinin qalınlığı 2 kilometrədək olmuşdur. Buzlağın ucları indiki Kiyev,



downloaded from KitabYurdu.org

Volqoqrad şəhərlərinin yerləşdikləri ərazilərədək çatırdı, Qafqaz dağları da buzla örtülmüşdü. 13-15 min il əvvəl istiləşmə və buzlağın əriməsi başlamışdır.

**büdcə** - müəyyən müddət üçün dövlət məxaric və mədaxilinin təsvirini verən sənəd (bir qayda olaraq illik). Büdcə ali qanunverici hakimiyyət orqanları tərəfindən müzakirə edilir və təsdiq olunur.

**bürokratiya** - 1) xüsusi aparatın köməkliyi ilə fəaliyyətini həyata keçirən məxsusi funksiya və imtiyazlara malik idarəetmə sistemi; 2) bu idareetmə sistemi ilə bağlı olan insanlar təbəqəsi.

**büt** - ağacdan, daşdan yonulmuş və ya metaldan tökülmüş allah təsviri. Bütə sitayiş hələ qədim insanlarda meydana gəlmiş və qalıqları dövrümüzədək, demək olar ki, bütün dinlərdə qalmışdır.

**bütpərəstlik** (çoxallahlılıq) - bir çox müxtəlif bütlərə və ya allahlara inam.

## -C-

**Cabbarlı Cəfər** (1899 - 1934) - görkəmli Azərbaycan yazıçısı. Bakı yaxınlığındakı Xızı kəndində doğulmuşdur. Rus-tatar məktəbi və texniki məktəbdə,



sonra isə Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsində oxumuşdur. C.Cabbarlının dram əsərləri tarixi süjetlərdə yazılmışdır. Bunlar "Od gəlini", "1905-ci ildə", "Sevil", "Almaz" və başqa pyeslərdir. Cabbarlı Azərbaycan qadınının azadlığı probleminə xüsusi diqqət vermişdir “Qız qalası” poeması, "Gülər" hekayəsi, "Sevil" və "Almaz" pyesləri). Cəfər Cabbarlı Şekspir, Tolstoy, Qorki və b. yazıçıların bir sıra əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

**camaat** - 1) dövlətə xərac verən ayrıca kənd icması və ya kənd icmaları ittifaqı; 2) kənd icmasının istifadəsində və ali sahibi dövlət olan torpaqlar.

**Car-Balakən camaatı** - Şimali Azərbaycanın şimal-qərbində yerləşən camaat ittifaqı. Car, Balakən, Katex, Tala, Muxax və Cənik camaatları onun tərkibinə daxil idilər. Bu camaatların əhalisinin əksəriyyətini hələ I Şah Abbasın dövründə buraya köçən avarlar təşkil edirdi. Camaatın torpaqları vaxtaşırı onun üzvləri arasında bölüşdürülürdü. Camaatı ağsaqqallar idarə edirdilər. Bununla yanaşı, şəriət əsasında məhkəmə işlərinə baxan ruhanilərin də rolu çox böyük idi. Camaatın ali orqanı həddi-büluğa çatmış bütün kişilərin iştirak etdiyi ümumxalq yığıncağı idi. Xalq yığıncaqlarında sülh və müharibə məsələləri müzakirə edilirdi. Xalq yığıncağı tərəfindən qəbul edilən qərarlar qanun qüvvəsi alırdı. 1738-ci ildə Carda Divanə İbrahim və Xəlilin başçılığı ilə Nadir şaha qarşı üsyan başlandı. Nadir şah qardaşı İbrahim xanın başçılığı ilə İran qoşunlarını buraya göndərdi. Carlılarla aparılan amansız savaşlarda İran ordusu darmadağın edildi, İbrahim xan isə öldürüldü. XVIII əsrin ortalarından axırlarına qədər Car-Balakən camaatı qismən Şəki xanlığından asılı vəziyyətdə idi. 1803-cü ilin martında general



downloaded from KitabYurdu.org

Qulyakovun başçılığı altında rus qoşunları gürcü qoşunları ilə birlikdə Car üzərinə hücuma keçdilər. 1803-cü ilin martında Qanıx çayı yaxınlığındakı savaşda rus qoşunları qələbə çalaraq Balakəni tutdular və general Qulyakovun əmri ilə onu yandırdılar. 1803-cü il aprelin 12-də rus qoşunları Carı da tutdular. Lakin carlılar mübarizəni davam etdirdilər. 1804-cü ilin yanvarında rus qoşunları yenidən Cara soxularaq onu tutdular, lakin Zaqatala yaxınlığındakı savaşda carlılar rus qoşunlarına hücum edib onlara qalib gəldilər. General Qulyakov döyüşdə öldürüldü. 1803 - 1804-cü illərdə general Sisianovun başçılığı ilə rus qoşunları Car-Balakən camaatını tutaraq onun əhalisinə amansız divan tutdu.

**Car-Balakən camaatının müstəmləkə əleyhinə üsyanı** (1830) - 1803-cü il 12 mart tarixli Andlı öhdəliklə Car-Balakən camaatına verilən daxili muxtariyyəti ləğv etmək və burada yeni (Rusiya) inzibati sistem tətbiq etmək məqsədi ilə Rusiya imperiyası Car-Balakən camaatını tamamilə tabe etmək qərarına gəldi. Bundan əlavə, Rusiya hökuməti Dağıstanın tam işğalı üçün burada dayaq məntəqəsi yaratmaq ümidində idi. 1830-cu il fevralın 24-də rus qoşunları general Paskeviçin komandanlığı ilə Car-Balakən camaatının ərazilərinə soxuldu. Bundan sonra camaatın ağsaqqalları Paskeviçin yanına gəldilər, lakin o, danışıqlardan imtina etdi və camaatın idarə olunmasının yeni "Qaydalar"ı haqqında bəyannamənin türkcə mətnini müzakirə üçün onlara verdi. Martın 3-də rus qoşunları Cara daxil oldular, knyaz Bekoviç-Çerkasski vilayətin rəisi təyin edildi. Camaatın rus qoşunları tərəfindən tutulması, yeni idarə üsulunun tətbiqi və qalmış vergilərin yığılması yerli əhalinin narazılığına səbəb oldu. İyunun 12-də mürid Şeyx Şəbanın davamçıları olan Qafqaz dağlıları camaatın ərazilərinə daxil oldular və yerli üsyançılar onlara qoşuldular. İyunun 21-də rusların inşa etdikləri Yeni Zaqatala yaxınlığında rusların qələbəsi ilə başa çatan savaş oldu. Lakin sentyabrın 12-də Qafqaz dağlılarının yeni dəstələri Cara gəldi və carlılarla birlikdə Katexi tutdular, bundan sonra oktyabrın 15-də onlar rus qoşunlarını məğlub etdilər. Lakin çar generalları Qafqaz dağlı dəstələrinin başçıları ilə saziş bağladılar və onlar öz dəstələrini apardılar. Bundan sonra rus qoşunları noyabrın 14-də Carı tutub dağıtdılar, digər yaşayış məntəqələrini də xarabaya çevirdilər, əhaliyə amansız divan tutdular. Dekabrda Balakəndə yeni üsyan baş verdi, rus qoşunları 1830-cu il dekabrın 22-də bu üsyanı da yatırdılar.




**Cavad xan** - Gəncə xanlığının xanı (1786 - 1804). 1786-cı ildə xərac ödəməyə boyun olduğuna görə Kartli (gürcü) çarı II İrakli və İbrahimxəlil xan tərəfindən taxta çıxarılmışdı. Cavad xan 1795-ci ildə xərac verməkdən imtina etdi. Elə həmin il Tiflisi öz qoşunları ilə mühasirəyə alan Ağa Məhəmməd xan Qacara



downloaded from KitabYurdu.org

qoşun və ərzaqla yardım göstərdi. 1796-cı ildə general Zubovun başçılığı ilə rus qoşunlarının Azərbaycana yürüşü zamanı Cavad xan öz nümayəndəsini Zubovun



yanına göndərdi. Buna baxmayaraq 1796-cı il oktyabrın 21-də rus qoşunları Gəncə xanlığını işğal etdilər. Rus qoşunlarının 1797-ci ildə Azərbaycandan çıxarılmasından sonra Cavad xan Nadir şah tərəfindən Kartli çarına verilmiş Şəmşəddil və Borçalı əyalətlərini öz hakimiyyəti altına qaytarmağa cəhd göstərdi. 1797-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşanı tutandan sonra könüllü olaraq onun yanına gələn Cavad xan həbs edilib Şuşa qalasına salınmışdı. Ağa Məhəmməd şah Qacarın qətlindən sonra Cavad xan yenidən Gəncəyə qayıdır. Şəmşəddilin 1801-ci ildə rus qoşunları tərəfindən işğalından sonra Cavad xan rus qoşunlarının oradan çıxarılmasını tələb edib bildirirdi ki, Şəmşəddil artıq 700 ildir onun nəslinə mənsubdur. Car-Balakən camaatının tutulmasından sonra rus qoşunları general Sisianovun başçılığı ilə 1803-cü il noyabrın 29-da Gəncə xanlığına soxuldular. Cavad xana göndərdiyi birinci məktubunda Sisianov təslim olmağı təklif edirdi, lakin rus qoşunlarının sayca üstün olmasına baxmayaraq, şücaətli Cavad xan ona belə cavab verir: "Əgər mənimlə müharibə etmək fikrindəsənsə, mən hazıram... uğur isə Allahdandır!". Gəncəni bir ay mühasirədə saxlayan Sisianov Cavad xana 5 dəfə məktub yazır və qalanı təhvil verməyi tələb edir. Cavad xan bu təhdidlərə belə cavab verir: "Gəncəyə sən yalnız mənim meyidimin üstündən keçib daxil ola bilərsən". 1804-cü il yanvarın 2-dən 3-nə keçən gecə rus qoşunları Gəncə qalasına hücuma başladılar. Azərbaycan tarixçisi Mirzə Adıgözəl bəy bu hadisələri belə təsvir edir: "Bir ay orada qaldılar. Orucluq bayramının gecəsi nərdivanla bir neçə tərəfdən [ruslar] barıya çıxmağa başladılar. Cavad xan banya çıxanları igidlik və cəsurluqla dof edirdi. Axırda mayor Lisaneviçin bir gülləsi ilə həyat barısından yıxılıb ölüm diyarına düşdü". Cavad xan Azərbaycanın milli qəhrəmanıdır.

**Cavanşir** - Qafqaz Albaniyasının Mehranilər sülaləsindən olan knyazı. 637-ci ildə alban knyazı Varaz Qriqorun oğlu Cavanşir Ktesifon yaxınlığında ərəblərlə vuruşan Sasani qoşunlarının tərkibində cəsurluğu ilə fərqlənmişdi. Sonra Cavanşir Qafqaz Albaniyasını Sasanilərdən azad etməyə soy göstərdi, lakin bu, Sasanilər tərəfindən Qafqaz Albaniyasının paytaxtı Partavın tutulması ilə nəticələndi. Cavanşir gürcü knyazı ilə birlikdə Sasani qoşunlarını Albaniyadan qovdu. Sasanilər dövlətini tutandan sonra ərəblər Qafqaz Albaniyasının ərazisinə yürüşlər etməyə başladılar, Dərbəndi və bir sıra digər vilayətləri tutdular. Lakin ərəblər gedəndən sonra bu vilayətlərdə üsyanlar başlandı, amma ərəblər üsyanları yatırdılar və Cavanşir özünü ərəb xəlifəsinin vassalı kimi tanımağa məcbur oldu. 654-cü ildə Cavanşir Bizans imperatorundan albanları öz təbəəliyinə qəbul etməsini xahiş elədi. 662-ci ildə xəzərlər Qafqaz Albaniyasına yürüşə başladılar, lakin Cavanşir Dərbənd yaxınlığında xəzərlərin hücumunu dəf edə bildi. 2 ildən sonra xəzərlər yeni yürüşə başladılar və bu dəfə ölkəni Kür çayınadək talan etdilər.



downloaded from KitabYurdu.org

Cavanşir Kür çayı yaxınlığında xəzərlərlə sülh bağlamaq və özünü onların vassalı hesab etmək məcburiyyətində qaldı. Bu müqavilə Cavanşirin xəzər xaqanının qızı ilə olan sülalə nikahı ilə də möhkəmləndirildi. 667 və 670-ci illərdə Cavanşir xəlifə Müaviyə ilə danışıqlar aparmış və Qafqaz Albaniyasının idarə olunmasında özünün daxili müstəqilliyini qoruyub saxlaya bilmişdir. Cavanşir 680-ci ildə Bizansla yaxınlaşma tərəfdarı olan alban knyazlarının sui-qəsdi nəticəsində öldürüldü. Cavanşirin qardaşı oğlu Varaz Tiridat Qafqaz Albaniyasının knyazı oldu.

**Cavanşir Mirzə Camal** (1773 - 1853) - Azərbaycan hakimi və tarixçisi; ərəb, fars, avar və ləzgi dillərini bilmişdir. Əsas əsəri "Qarabağnamə"dir (1847). Əsərdə siyasi hadisələrlə yanaşı, Qarabağın ictimai-iqtisadi həyatı da işıqlandırılmışdır. Cavanşirin "Qarabağnamə"si Qarabağ xanlığı tarixi üzrə qiymətli mənbədir.



**Cefferson Tomas** (1743 - 1826) - Virciniya plantatoru və vəkil, Amerika maarifçisi, Şimali Amerikada istiqlaliyyət uğrunda müharibənin ideoloqu, ABŞ-ın İstiqlaliyyət bəyannaməsinin müəlliflərindən biri, ABŞ-ın üçüncü prezidenti (1801 - 1809).

**Cəhənnəm** (qəd. yəh. "gehinnom", yun. "geyenna") - islamda cəhənnəmin adı, insanlardan və cinlərdən olan dinsizlərin və günah sahiblərinin cəzalandırılacaqları yer. Cəhənnəm qurbanları zəncirlənmiş halda odda yandırılacaqlar. Yeyəcəkləri şeytan başına bənzər meyvələr, içəcəkləri isə irinli qaynar su olacaq. Cəhənnəmdə daha bir əzab, işgəncə növü - dağlayıcı soyuq olacaq.

**Cəlairilər dövləti** - Hülakülər dövlətinin dağılmasından sonra paytaxtı Təbriz olmaqla Şeyx Üveys Cəlairi tərəfindən əsası qoyulan dövlət (1359 - 1410). Şeyx Üveysin hakimiyyəti illərində (1359 - 1374) Azərbaycanın təsərrüfatı və



mədəniyyəti inkişaf etməyə başladı. Onun oğlu Sultan Hüseynin dövründə (1374 - 1382) mərkəzi hakimiyyət zəiflədi. Onun qardaşı Əhməd Muğanda və Arranda çoxsaylı qoşun toplayaraq 1382-ci ildə Təbrizi hücumla aldı. Sultan Əhmədin dövründə (1382 - 1410, fasilələrlə) feodal çəkişmələri gücləndi. 1385-ci ildə Azərbaycan Qızıl Orda xanı Toxtamışın yürüşü ilə talan edildi, 1386-cı ildə isə Teymurun qoşunları Təbrizi tutdular, cəlairi əmirləri qaçdılar: bir qismi möhkəm Əlincə qalasına (Naxçıvan yaxınlığında), digərləri isə Bağdada. Teymur Əlincəni tuta bilmədi və az sonra Səmərqəndə qayıtdı. Cəlairi feodalları arasında hakimiyyət uğrunda mübarizə qızışdı. 1385 - 92-ci illər ərzində Təbriz 17 dəfə daxili və xarici feodalların hücumlarına məruz qalıb, 14 dəfə əldən-ələ keçdi. 392-ci ildə Teymur yenidən Azərbaycanı tutdu. Cəlairi əmirləri Əlincə qalasında müqavimət göstərirdilər. Bu yürüş zamanı cəlairi əmirləri arasında baş verən çəkişmələr nəticəsində Əlincə süqut etdi. Bu dövrdə Azərbaycanda hürufilik hərəkatı canlanırdı. Teymurun ölümündən sonra 1406-cı ildə şirvanşah I İbrahim Təbrizə



downloaded from KitabYurdu.org

daxil oldu, lakin tezliklə geri çəkilmək məcburiyyətində qaldı. Sultan Əhməd Cəlairi müttəfiqi Qara Yusiflə birlikdə Azərbaycana qayıtdı. 1408-ci ildə müttəfiqlər Sədrud kəndi yaxınlığında Miranşahın qoşunlarını məğlub edərək Təbrizi tutmuş və Azərbaycanda Teymurilərin ağalığına son qoymuşlar. Amma tezliklə müttəfiqlər arasında narazılıqlar yaranmışdır. 1410-cu il avqustun axırlannda Sultan Əhməd Qara Yusiflə savaşda məğlubiyyətə uğradı. Cəlairilər dövləti süqut etdi və yerini Qaraqoyunlu dövlətinə verdi.

**Cəlaləddin** - 1225-ci ildə monqollar tərəfindən tutulmuş dövlətində öz hakimiyyətini itirmiş xarəzmşah Cəlaləddin İran və Azərbaycana soxuldu. Onun qoşunları Eldəgəzlərin torpaqlarının çox hissəsini, eləcə də Ağsonqurilər dövlətini ələ keçirdilər. Şirvanşahlar özlərinin Cəlaləddinin vassalı olduqlarını qəbul etdilər. Cəlaləddin Gəncəni öz iqamətgahına çevirdi. Lakin onun tərəfindən təyin edilmiş yüksək vergilər ölkə əhalisinin böyük narazılığına səbəb oldu. 1231-ci ildə Gəncədə Bəndərin başçılığı ilə Cəlaləddinə qarşı sənətkarların və şəhər yoxsullarının üsyanı başlandı. Cəlaləddin çətinliklə üsyanı yatıra bildi. Bunun ardınca Azərbaycanın Xoy, Mərənd, Naxçıvan və digər şəhərləri də ona qarşı üsyana başladılar. 1231-ci ildə monqollar yenidən Azərbaycana hücum etdilər. Monqolların təzyiqinə davam gətirməyən Cəlaləddin qoşunlarının qalıqları ilə Kürdüstana tərəf çəkildi və az sonra orada öldürüldü.

**Cəlalilər hərəkatı** - Osmanlılar əleyhinə Şeyx Cəlalinin adıyla bağlı hərəkat. Cəlali 1518 - 19-cu illərdə Kiçik Asiyada Toqat şəhərində Osmanlılar əleyhinə üsyana başçılıq etmişdir. XVI əsrin 90-cı illərində Kiçik Asiyanın şərq hissəsində cəlali hərəkatı yenidən vüsət aldı. Azərbaycanda cəlalilərin ilk çıxışları 1591-ci ildə Təbriz və Gəncədə baş verdi. XVII əsrin ilk illərində isə cəlali hərəkatı Azərbaycanda daha da genişləndi və qonşu ölkələrə də yayıldı. Azərbaycanda cəlali hərəkatı yerli feodalların və Osmanlı sultanının hakimiyyətinə qarşı foal mübarizə xarakteri aldı. Lakin cəlali dəstələri dağınıq fəaliyyət göstərirdi. Cəlali dəstələrinin Azərbaycanda tanınmış başçılarından biri Koroğlu idi. Cəlali hərəkatını öz maraqları çərçivəsində I Sah Abbas da müdafiə edirdi. 1608-ci ildə cəlali dəstələri Səfəvi qoşunları ilə birlikdə Ərzurum yaxınlığında osmanlılarla savaşda iştirak etmişdilər. I Şah Abbas cəlali dəstələrindən öz düşmənlərinə qarşı istifadə edirdi. Cəlali dəstələrinin əksəriyyəti 1610-cu ildə I Şah Abbasdan uzaqlaşıb getdi.



**cəng arabası** - atlara qoşulmuş, ikitəkərli yüngül araba. E.ə. II minillikdə Qədim Şərqdə meydana gəlmişdir. Qədimlərdə hərbi məqsədlər üçün istifadə olunurmuş. Adətən cəng arabasında iki döyüşçü olarmış: biri atları idarə edər, ikincisi isə ox atarmış. Döyüş zamanı arabaçılar sürətlə rəqib sıralarını yararmışlar, qalib gələndə isə qaçanları təqib edərmişlər.



downloaded from KitabYurdu.org

**cənnət** (ər. "əl-cənnə" - "bağ") - islamda cənnətin adı, mömin müsəlmanların əbədi səadətə qovuşucaqları yer. Cənnət - çoxlu çeşmələri, çayları, arxları, gölləri olan kölgəli meyvəli bağdır. Orada yaşıl paltarlı möminlər xalılarla döşənmiş kürsülərdə uzanıb dincələcəklər. Cavan cənnət huriləri və cavanlaşmış öz arvadları möminləri əyləndirəcəklər. Cənnətin bütün sakinlərinin yaşı, rəvayətə görə, 33 olacaq.

**Cənubi Azərbaycanda 1941** - 46-cı illərdə milli-azadlıq hərəkatı - İkinci Dünya müharibəsi illərində - 1941-ci ilin avqustunda SSRİ və Böyük Britaniya öz qoşunlarının İrana yeritdilər. Sovet qoşunları İranın şimalına, o cümlədən Cənubi



Azərbaycana, ingilis qoşunları isə İranın cənub rayonlarına yeridildi. Rza şah müttəfiqlərin qoşunlarının İrana yeridilməsinə qarşı uğursuz müqavimət cəhdindən sonra öz oğlu Məhəmməd Rzanın xeyrinə taxt-tacdan imtina etmək məcburiyyətində qaldı. Bundan sonra İranda yenidən demokratikləşmə hərəkatı canlandı. Bu hərəkatın mərkəzlərindən biri Təbriz idi. 1941-ci ilin sentyabr - oktyabrında Təbrizdə çoxsaylı mitinq və nümayişlər keçirildi. Ölkə qarşısında duran problemlərin açıq şəkildə müzakirəsi ictimai həyatın həlledici amillərindən biri oldu. 1942 - 44-cü illərdə Cənubi Azərbaycanda bir sıra qəzetlər ana dilində nəşr edilməyə başlandı, Şimali Azərbaycanla əlaqələr genişləndi. Tehran konfransında qəbul edilmiş sazişə əsasən, nəzərdə tutulurdu ki, SSRİ və Böyük Britaniya İranın daxili işlərinə qarışmayacaq, bütün mühüm məsələləri birgə həll edəcək və müharibə qurtardıqdan sonra 6 aydan gec olmamaq şərti ilə öz qoşunlarını İran ərazisindən çıxaracaqlar. 1945-ci ildə mürtəce qüvvələr Azərbaycanda terrorlar həyata keçirən silahlı dəstələr təşkil etməyə, köçəri və oturaq əhalini bir-biri ilə toqquşdurmağa başladılar. 1945-ci ilin iyul -sentyabr aylarında azərbaycanlı dəstələr əksinqilabi birliklərə qarşı mübarizə aparmaq üçün silahlı fədai dəstələri yaratmağa başladılar. 1945-ci il sentyabrın 3-də Seyid Cəfər Pişəvərinin başçılığı ilə bir qrup demokrat Azərbaycan Demokrat Partiyasının (ADP) yaradılması haqqında bəyannamə qəbul etdi. Bəyannamədə Azərbaycanın demokratik İran tərkibində inzibati-iqtisadi muxtariyyətə malik olmasının labüdlüyü göstərilirdi. 1945-ci il sentyabrın 5-dən Azərbaycan dilində Azərbaycan Demokrat Partiyasının mətbu orqanı olan "Azərbaycan" qəzetinin nəşrinə başlanıldı. Azərbaycan Demokrat Partiyasına bir neçə həftə ərzində əhalinin müxtəlif təbəqələrindən olan minlərlə adam daxil oldu. 1945-ci il oktyabrın 2-4-də ADP-nin proqram və nizamnaməsini qəbul edən, eləcə də S.C.Pişəvəri başda olmaqla Mərkəzi Komitəsini seçən I qurultayı keçirildi. ADP özünün fədai dəstələrini təşkil etməyə başladı. Oktyabr - noyabr aylarında Cənubi Azərbaycan şəhərlərində demokratik idarəçilik orqanlarının yaradılmasına başlanıldı. Demokratların aydın və qəti taktikaları sayəsində inqilabi hərəkat dinc xarakter daşıyırdı. 1945-ci il noyabrın 21-də özünü Müəssislər Məclisi elan edən Azərbaycan Milli Konqresi çağırıldı və İran tərkibində Azərbaycanın muxtariyyətini təmin etməli olan seçkili Azərbaycan Milli Məclisi və Milli



downloaded from KitabYurdu.org

Hökumətinin yaradılması tələbini irəli sürdü. Noyabrın 27-dən dekabrın 1-dək Milli Məclisə seçkilər keçirildi. Dekabrın 12-də Milli Məclis Seyid Cəfər Pişəvərinin başçılığı ilə Milli Hökumət yaratdı. Milli Hökumət ən əvvəl İran dövlətinin tərkibində Azərbaycanın muxtariyyətini bir daha təsdiqlədi və mərkəzi hökumətə demokratik islahatlar haqqında tələbini irəli sürdü. Milli Məclisin ən mühüm tədbiri 1946-cı il yanvarın 6-da qəbul etdiyi dil haqqında qanun idi. Bu qanunda Azərbaycan dili bütün Cənubi Azərbaycan ərazisində rəsmi dövlət dili elan olunurdu. Bundan sonra Milli Məclis vilayət, mahal, şəhər, qəsəbə və kənd əncümənlərinə seçkilər haqqında qanun qəbul etdi. 1946-cı il fevrahn 16-da Milli Hökumət aqrar qanun qəbul etdi. Bu qanuna görə, dövlət mülkiyyətində olan torpaqlar, "xalisə", habelə Azərbaycandan qaçmış və ona qarşı mübarizəni davam etdirən mülkədarların və digər sahibkarların torpaqları kəndlilər arasında bölüşdürülməli idi. İslahat nəticəsində yarım milyon hektardan çox torpaq kəndlilərin istifadəsinə keçdi. Mayın 12-də əmək haqqında qanun qəbul olundu. Bu qanuna əsasən, fəhlə və qulluqçuların iş şəraiti yaxşılaşdırılır, həmkarlar ittifaqları vasitəsilə müəssisələrin işinə fəhlələrin nəzarət hüququ təsdiq edilirdi. Milli



Məclisin və Milli Hökumətin bir sıra qanun və qərarlan Cənubi Azərbaycanda sənaye və ticarətin inkişafı, iqtisadiyyatın maliyyələşdirilməsi və vergi sisteminin təkmilləşdirilməsinə yönəldilmişdi. 1946-cı ilin iyununda Təbriz Universiteti təsis edildi. Həmin ayda Tehranla Milli Hökumət arasında saziş bağlandı. Bu sazişə görə, Milli Hökumətə Azərbaycan Əyalət Əncüməni statusu verildi. Eyni zamanda, Tehran hökuməti kütləvi informasiya vasitələrində Azərbaycan demokratlarını separatizmdə və İran dövlətinin dağılması niyyətində ittiham edən geniş kampaniyaya başladı. Bununla bərabər, Tehran hökuməti ABŞ, İngiltərə və SSRİ arasındakı ziddiyyətlərdən istifadə edərək "İran məsələsi"nin BMT-də baxılmasına nail oldu. Tehran habelə ABŞ və İngiltərənin İrana siyasi və hərbi yardım göstərmək razılığını da aldı. Stalinin isə "bitərəfliyini" əldə etmək üçün İran hökuməti SSRİ ilə Şimali İranda, o cümlədən Cənubi Azərbaycanda neft axtarışı və çıxarılması konsessiyası haqqında müqavilə bağladı. Lakin sonralar (1947-ci ildə) Qəbavülmüş-Səltənənin nəzərdə tutduğu kimi, İranın məclisi bu müqaviləni təsdiq etmədi. Müqavilə bağlandıqdan sonra Sovet dövləti BMT Təhlükəsizlik Şurasının tələbi ilə öz qoşunlarının İrandan çıxarılmasını sürətləndirdi və mayın 8-də başa çatdırdı. Bütün bunlardan sonra İran hökuməti ultimatum şəklində Əyalət Əncüməninə bildirdi ki, yeni məclisə seçkilərdə qayda-qanunu təmin etmək üçün Azərbaycana hökumət qoşun hissələri daxil edilməlidir. Dekabrın 1-dən qoşunlar bir neçə istiqamətdə hücuma keçdi. Qoşunla fədailər arasında qanlı döyüşlər başlandı. Dekabrın 11-də xalqa "öldü var, döndü yox!" deyə müraciət edən Pişəvəri elə həmin gün yaxın soydaşları ilə birlikdə zorla SSRİ-yə gətirildi. 1946-cı il dekabrın 12-də hökumət qoşunları Təbrizə daxil oldu.



downloaded from KitabYurdu.org

Beləliklə, 1941 - 46-cı illər Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı məğlubiyyətə uğradı. Demokratlar kütləvi repressiyalara məruz qaldılar - azadlıq mücahidləri zindanlara atıldı, mücahidlər, ADP və Milli Hökumətin üzvləri dəstə-dəstə edam edildi, yüz minlərlə ailə İranın cənubuna sürgün olundu. Minlərlə demokrat ölkədən qaçmaq məcburiyyətində qaldı; onların əksəriyyəti Şimali Azərbaycana gəldi.

**"Cənubi Qafqaz quberniyalarında torpağın məcburi alınması haqqında 1912-ci il qanunu"** - çar hökuməti tərəfindən 1912-ci il yanvarın 20-də qəbul edilmiş qanun. Qanuna əsasən Şimali Azərbaycanın sahibkar kəndliləri 1913-cü il yanvarın 1-dən torpaq sahiblərinin xeyrinə daşıdıqları mükəlləfiyyətlərdən azad edilirdilər, eyni zamanda, onların xüsusi mülkiyyəti elan olunan pay torpaqlarını məcburi qaydada satın almalı idilər. Kəndlilər çəmənlikləri, otlaqları və meşə sahələrini satın ala bilməzdilər, ancaq sahibinin icazəsi ilə onlardan istifadə edə bilərdilər. Kəhrizlər də feodalların mülkiyyətində qalırdı. Bu qanuna görə, bəylər və ağalar kəndlilərin mülkiyyətinə keçən pay torpaqları üçün xəzinədən pul kompensasiyası alırdılar, kəndlilər isə müəyyən müddət ərzində torpağın dəyərini xəzinəyə ödəməli idilər. 1912-ci ilin aqrar qanunları Zaqatala dairəsinə aid edilmirdi. Bu da öz növbəsində yerli kəndlilərin narazılığına səbəb oldu. Bunu nəzərə alan çar hökuməti 1912-ci il qanununa edilən 1913-cü il 7 iyul əlavələrində Zaqatala dairəsində və Dağıstan vilayətində asılı münasibətlərin ləğv edilməsi haqqında qanun layihəsi qəbul etdi. 1912 -13-cü illərin qanunları Azərbaycan kəndində ictimai təbəqələşməni və kapitalist münasibətlərinin inkişafını sürətləndirdi.

**cihad** (ər. "döyüş", "müharibə", "din uğrunda müharibə", "dini yaymaq yolunda çalışma") - din uğrunda mübarizə. Əvvəllər cihad dedikdə islamın müdafiəsi və yayılması uğrunda mübarizə nəzərdə tutulurdu. Müsəlmanlar arasında cihadın sinonimi kimi "fəth" və "qəzavai" sözlərindən istifadə olunur. Cihad ərəblərin Ərəbistandan kənarda ərazi işğallarını müqəddəsləşdirirdi. Müsəlman ərəblərin ilk dəfə daxil olduqları Ərəbistandan kənar ölkələrdə əhalinin çoxu onlar tərəfindən monoteist kimi qəbul edilirdi. Ona görə də cihadın məqsədi həmin yerli əhalini islama dəvət etmək olmayıb, əksinə, onların cizyə ödəməklə zimmi kimi Ərəb xilafətinə tabe etdirilməsindən ibarət idi. VII əsrin sonlarından cizyə ödənməsindən azad olmaq məqsədi ilə islamı qəbul etmək məqbul sayılmırdı, çünki bu, xilafətin xəzinəsinə zərər gətirirdi. Yeni və ən yeni dövrdə cihad müsəlman ölkələrinin müstəmləkəçiliyə qarşı mübarizəsində istifadə edilirdi. Dövrümüzdə cihad şüarı yalnız bir sıra ifrat fundamentalistlər tərəfindən islamın bütün dünyada bir məqsəd kimi təntənəsi şəklində, əsasən də İsrailə qarşı mübarizədə istifadə edilir. Müasir islam cihadın müdafiə prinsipi daşıdığını qeyd edir, geniş mənada isə milli-istiqlaliyyət və sosial-iqtisadi inkişafın möhkəmləndirilməsi (məhsul itkisinə qarşı, torpağın eroziyası, savadsızlığın ləğvi



downloaded from KitabYurdu.org

və s.) uğrunda mübarizədə təcavüzə qarşı dura biləcək iqtisadi və hərbi qüdrətə sahib olmaq üçün səy göstərilməsi kimi qiymətləndirilir.

**cinlər** - mifik varlıqlar, Allah tərəfindən yaradılmış üç ağıllı məxluq kateqoriyasından biri (digər ikisi – mələklər və insanlar). Ourana görə, cinlər tüstüsüz oddan yaradılmışlar, canları hava və ya oddandır, istənilən qiyafəyə düşmək, mürəkkəb işlər görmək qabiliyyətləri var. Kişi və qadın cinsindən olan cinlər hələ Adəm yaradılmazdan əvvəl Yerdə yaşayırmışlar, adətən insanlara müxalif münasibətdədirlər. Cinlərin bir neçə kateqoriyaları vardır: qul, ifrit, silat. Cinlər - islamaqədərki Ərəbistan xalq inanclarının, demək olar ki, islama tam daxil olmuş hissəsidir.

**Cizvə** - müsəlman ölkələrində qeyri-müsəlmanlardan alınan can vergisi. Qocalardan, əlillərdən, dilənçilərdən və qullardan başqa, həddi-büluğa çatmış bütün kişilərdən cizyə alınırdı. VIII əsrin başlanmasından əvvəl rahiblər də cizyədən azad edilmişdilər. Cizyənin qanunla müəyyənləşdirilmiş miqdarı vergi ödəyənin əmlak səviyyəsindən asılı olaraq ildə - 12, 24, 48 dirhəm, dövriyyədə qızıl pul olan Ölkələrdə isə - 1, 2,4 dinar idi. Müsəlman ordusunda döyüşən xristianlar cizyədən azad edilirdilər.


Coser piramidası

**Coser** - Yuxarı və Aşağı Misirin birləşməsini başa çatdıran Misir fironu (e.ə. 2780 - 2760). Onun hakimiyyəti illərində Memfis Misirin paytaxtı olmuşdur. Coser Sinay yarımadasındakı köçərilər üzərində qələbə çalaraq buradakı mis mədənlərini ələ keçirdi. Onun dövründə Nubiyanın bir hissəsi də tutuldu. Cənubda möhkəmləndirici sədd yaradıldı. Coserin dövründən Misirdə piramidaların inşasına başlanılmışdır.

## - Ç -

**Çaldıran** - Maku şəhəri yaxınlığında düzənlik. 1514-cü il avqustun 23-də Çaldıran düzündə sultan I Səlimin Osmanlı qoşunları ilə I Şah İsmayılın başçılıq etdiyi qızılbaş qoşunları arasında döyüş olmuşdur. Qızılbaş qoşunları sayca osmanlılardan az idilər. Qızılbaşlardan fərqli olaraq osmanlıların topları və tüfəngləri var idi. Döyüş ərəfəsində I Şah İsmayılın yaxın adamları məsləhət gördülər ki, osmanlıların artilleriya sahəsindəki üstünlüklərini heçə endirmək məqsədi ilə gecə ikən düşmən üzərinə hücum etsinlər, lakin İsmayıl bundan imtina etdi. Çaldıran vuruşması amansız və böyük itkili oldu. Fədakarlıqla vuruşan qızılbaşların süvarisi osmanlıların piyadalarını sıxışdırsa da, özləri düşmənin güclü top atəşinə məruz qalıb məğlub edildilər. Qızılbaşlardan 5000 nəfər öldürüldü, osmanlıların da itkisi ağır idi. Savaşda yaralanan I Şah


Çaldıran döyüşü. Miniatür



downloaded from KitabYurdu.org

İsmayıl mühasirəyə düşsə də, onu yarıb Təbrizə qaça bilmişdir. Sultan Səlim onu təqib etmək əmri verdi, lakin onun hərbi hiylədən qorxuya düşən qoşunları geriyə qayıtdılar. Sultan Səlim əmr etdi ki, Çaldıran düzündə öldürülmüş qızılbaşların başından piramida ucaldılsın. Səfəvilərin Çaldıran savaşında məğlubiyyəti nəticəsində Kürdüstanın xeyli hissəsi itirildi və osmanlılar Təbrizə daxil oldular.



**Çan Kayşi** - 1927-ci ildən Çində qomindan rejiminin başçısı. 1949-cu il inqilabı nəticəsində devrilmişdir. Tayvan adasına qaçmış, ABŞ-ın dəstəyinə arxalanan yerli hökumətə 1973-cü ilə qədər başçılıq etmişdir.

**Çandraqupta** - e.ə. IV - III əsrlərdə Hindistanda Mauryalar sülaləsi və dövlətinin banisi.

**çar** (lat. "sezar") - 1547 - 1721-ci illərdə Rusiyada dövlət başçısının rəsmi titulu. İlk çar IV İvan Qroznı olmuşdur. I Pyotrun dövründə imperator titulu ilə əvəz edilmişdir, amma bununla yanaşı, 1917-ci ilin fevralında mütləqiyyətin devrilməsinədək qeyri-rəsmi şəkildə işlədilmişdir.

**çartizm** (ing. "charter" - "xartiya") - İngiltərədə XIX əsrin 30 - 40-cı illərində baş vermiş ilk kütləvi, siyasi cəhətdən formalaşmış fəhlə hərəkatı. 1838-ci ildə London fəhlələri "Xalq xartiyası - proqram sənədi hazırladılar. Sənəddə aşağıdakılar nəzərdə tutulurdu: ümumi seçki hüququ; parlamentə illik seçkilər tətbiq edilməsi; parlamentin deputatları üçün əmlak senzinin ləğv edilməsi; gizli səsverma; bərabər seçki dairələri və s. tətbiq edilməsi.

**çay** - kol şəklində subtropik bitki. "Çay" sözü Çin mənşəlidir (Çinin ingiliscə adı ilə müqayisə et - China). Qədim Çində çay yarpağından hazırlanmış cövhərdən dərman kimi istifadə olunurmuş. Sonralar çaydan adi, susuzluğu yatıran içki kimi istifadə etməyə başlamışlar.

"çəpərləmə" - kəndlilərin feodallar tərəfindən zorla torpaqdan qovulması. Kəndlilər qovulduqdan sonra feodallar öz sahələri ətrafında çəpərlər çəkmək, arxlar açmaq və s. ilə onu qoruyurdular, ona görə də belə qovulma "çəpərləmələr" adını almışdır. “Çəpərləmə” özünün klassik ifadəsini XV əsrin sonları – XX əsrin əvvəllərində İngiltərədə tapmışdır. “Çəpərləmə” ilkin ilkin kapital yığımının əsasını təşkil etmişdir. "Çəpərləmə" nəticəsində torpağını itirən kəndlilər dilənçi və səfillərə çevrilirdilər. Tezliklə İngiltərədə, demək olar ki, kəndlilər yox oldular. "Çəpərləmə" həm də yaranmaqda olan sənaye müəssisələri üçün ucuz işçi qüvvəsi mənbəyi idi.

**Çiçen-İtsa** - Yukatan yarımadasında (müasir Meksika) VIII - XII əsrlərdə mövcud olmuş mayya hindilərinin şəhəri. XI -XII əsrlərdə Çiçen-İtsada rəsədxana olmuşdur. Mayya kahinləri buradan soma cisimlərini müşahidə etmişlər. XII - XIII əsrlərdə pilləli piramida formalı mayya məbədi inşa edilmişdir. Məbədə gedən dörd pilləkəndə pillələrin sayı yuxarıdakı pillə ilə birlikdə ildəki günlərin sayına -



downloaded from KitabYurdu.org

365-ə bərabərdir. Tərəflərin hər birinin yanlarındakı 18 tin mayya təqvimindəki ayların sayına müvafiqdir.

**çiçəyə qarşı peyvənd** - onun ixtirası orta əsrlər Çin təbabətinin böyük nailiyyəti idi. Avropada isə ilk dəfə olaraq yalnız XVIII əsrdə ingilis həkimi E.Cenner tərəfindən çiçəyə qarşı peyvənd aşkar olunmuşdur. Çiçəyə qarşı peyvənd milyonlarla insanın həyatını xilas etmişdir.

**Çingiz xan** (Temuçin; 1155 - 1227) - böyük monqol fatehi. Anadan olduğu zaman atası tərəfindən məğlub edilmiş əzəmətli tatar döyüşçüsü Temuçinin (Dəmirçi) adı ilə adlandırılmışdı. Monqolların inamına görə, həmin döyüşçünün



gücü və qüvvəsi yeni doğulan uşağa keçməli idi. Temuçin 9 yaşı çatanda düşmənlər onun atasını öldürdülər ailəsi isə qaçqın düşdü. Sonra düşmənlər Temuçini əsir götürdülər, amma o qaça bildi və öz qəbiləsində cəsur döyüşçü kimi ad çıxardı. Təxminən 20 yaşlarında Temuçin qüdrətli qonşulardan birinin qızı ilə evləndi və monqol qəbilə və tayfalarının birləşdirilməsi siyasətinə başladı. Hələ müttəfiqləri az olduğu vaxtlarda Temuçinə düşmən olan tayfa onun düşərgəsinə hücum edərək arvadını qaçırmışdı. Temuçin yeni müttəfiqlər taparaq bir ildən sonra düşmən tayfaya qalib gəlib arvadını azad etmişdi. 1206-cı ildə Temuçin monqol tayfalarını öz hakimiyyəti altında birləşdirdi və "Çingiz xan" (tərcüməsi əzəmətlilik bildirən "dəniz xan" və ya "ümman xan") titulunu aldı. Çingiz xan onun ittifaqına daxil olan tayfa başçılarından tələb etdi ki, öz ərazilərini qorumaq üçün daimi ordu saxlasınlar. Çingiz xan orduda onluq sistemi - onluq, yüzlük, minlik və "tümən" - onminlik sistemi tətbiq etdi. Xanın oğlanlarından və kübar ailələrdən təyin edilən komandirlər orduda təlim və nizam-intizama cavab verməli idilər. Çingiz xanın ordusunun, demək olar ki, yarısını qılınc və nizələrlə silahlanmış, dəri dəbilqə və zirchli önlüklə sinəsi qorunan ağır silahlı süvarilər təşkil edirdi. Onun ordusunun qalan hissəsini isə dəri dəbilqə, ox və kamanla silahlanmış yüngül oxçu-süvarilər təşkil edirdi. Monqollar uzunmüddətli yürüşlər üçün lazım olan sursat və ehtiyatlarla yüklənmiş atları arxalarınca aparırdılar. Bundan əlavə, Çingiz xan geniş kəşfiyyatçı və casus şəbəkəsi yaratmışdı və onların vasitəsilə düşmənin qoşunlarının mövqeyi və sayı haqqında məlumat əldə edirdi. Monqolların özlərində olmayan həkim və ya sənətkarlara ehtiyac olduqda isə Çingiz xan onları başqa ölkələrdən dəvət edir və ya əsir götürürdü; bunlar o dövrün bütün qoşunlarından üstün olan çox çevik ordu yaratmağa imkan verirdi.

Monqolustanın bütün tayfalarını birləşdirdikdən sonra Çingiz xan 1206-cı ildə Çinə hücum çəkdi və iki ildən sonra Böyük Çin səddini keçə bildi, 1215-ci ildə isə Çini bütünlüklə tabe etdi. Çində möhkəmləndirilmiş şəhərlərə rast gələn monqollar müxtəlif növ mancanaq və s. texnikadan istifadə etməyə başladılar. Onlar bu texnikanı sökülmüş halda yük atları vasitəsilə daşıyırdılar. Çingiz xan 1218-ci ildə Koreyanı tabe etdi. 1219-cu ildə Çingiz xanın qoşunları Mərkəzi



downloaded from KitabYurdu.org

Asiyanı tutdu, bundan sonra isə monqollar İrana və Azərbaycana kəşfiyyat məqsədi ilə qarətçi yürüşlər etdilər, buradan isə Dərbənd keçidi vasitəsilə şimala yollandılar və 1223-cü ildə Kalka çayı yaxınlığında qıpçaqların və rusların qoşunlarını məğlub etdilər. Çində üsyanı yatırmağa yollanan yetmiş yaşlı Çingiz xan yolda öldü. Bir qədər bundan əvvəl isə o, oğlanlarından birini orduya başçı təyin etmişdi. Çingiz xanın imperiyası 150 ilədək mövcud olmuşdur. Müasir Monqolustanda Çingiz xan milli qəhrəman sayılır. Onun sərhədlərindən kənarda isə Çingiz xanın adı hərbi qüdrət və cahangirlik rəmzi kimi qiymətləndirilir.

**Çissantaxma** - Çissantaxmanın başçılığı ilə Asaqarta vilayətində Əhəmənilərə qarşı baş vermiş və Cənubi Azərbaycan ərazilərini əhatə etmiş üsyan. Fravartiş üsyanı ilə bağlı idi. Çissantaxma da Fravartiş kimi özünü Midiya hökmdarı Kiaksarın nəslindən olan Asaqarta şahı elan etmişdi. I Dara İran və Midiya qoşunlarını Taxmaspadanın başçılığı ilə ona qarşı göndərmişdi. Taxmaspada üsyanı yatıra bildi. Əsir götürülmüş Çissantaxma I Daranın yanına gətirilmiş, o isə üsyançının burnunu, qulaqlarını kəsmiş, bir gözünü çıxarmışdır. Bundan sonra Çissantaxma Asaqarta vilayətinin mərkəzi Arbeldə payaya keçirilmişdir.

**çobanbəyi** - orta əsrlərdə bir sıra Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda elatlardan malın satışından alınan vergi; natural şəkildə və ya pulla ödənilirdi. Səfəvilər dövlətində geniş yayılmışdı.

**çölpulu** - orta əsrlərdə bir sıra Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda elatlardan malın otarılmasına görə alınan vergi.

**çöpbaşı** - Azərbaycanda xanlıqlar dövründə otlaqların sahiblərinin xeyrinə maldarlardan malın otarılmasına görə alınan vergi. Əsasən pulla ödənilirdi; verginin həcmi otlağın ölçüsündən asılı olurdu. Quba, Bakı və Şamaxı xanlıqlarında yayılmışdı.

**Çörçill** - Uinston Leonard Spenser (1874 - 1965) - 1940 - 45 və 1951 - 55-ci illərdə Böyük Britaniyanın baş naziri. Çörçillin atası mənşəcə kübar Malbərə hersoqları nəslindən idi, anası isə amerikalıydı. İkinci Dünya müharibəsi illərində Çörçill hökuməti SSRİ ilə antihitler koalisiyası çərçivəsində ittifaqa girdi (1941-ci il sazişi, ittifaq haqqında 1942-ci il müqaviləsi). İkinci cəbhənin Qərbi Avropada açılması əleyhinə çıxan Çörçill təklif edirdi ki, Balkanlara desant çıxarılsın. Çörçillin müharibə qurtardıqdan sonra Qərb demokratiyalarını qorumaq üçün SSRİ-yə qarşı ABŞ və Böyük Britaniyanın qüvvələrini birləşdirməklə müqavimət göstərilməsi təklifi ilə 1946-cı il martın 5-də Fultonda (ABŞ) etdiyi çıxışı "soyuq müharibə"nin başlanmasına səbəb oldu. Bir sıra tarixi tədqiqatlar, memuarlar və romanlar Çörçillin qələmindən çıxmışdır. 1953-cü ildə Çörçill ədəbiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür.

**Çuxursəd bəylərbəyiliyi** - Səfəvilər dövlətinin mərkəzi İrəvan şəhərində olan inzibati vahidi. Naxçıvan da XVIII əsrdən etibarən həmin beylərbəyiliyinə daxil idi.



downloaded from KitabYurdu.org

## -D-

**Dahau** - faşist Almaniyasında 1933-cü ildə Münhen yaxınlığında təşkil olunmuş ilk həbs düşərgəsi (konslager). Dahauda 250 min nəfər məhbus var idi; onlardan 70 min nəfərə qədəri öldürülmüşdür. 1945-ci il aprelin 28-də Dahauda düşərgənin beynəlmiləl komitəsinin rəhbərliyi ilə üsyan baş vermişdir.

**daxma** - zərdüştilərin dəfn mərasiminin şərtlərinə görə, ölənlərin cəsədlərinin yırtıcı quşlar və ya heyvanlar tərəfindən yeyilməsi üçün qoyulan təpə və ya xüsusi tikili. Sonra sümükləri ossuariyə yığırdılar. Hazırda daxma parslarda qalmaqdadır.

**"daxmalı qullar"** - Qədim Romada quldarların xırda torpaq sahəsi, əmək alətləri verdikləri və daxma tikib, ailə qurmalarına icazə verdikləri qullar. "Daxmalı qul" öz sahibinə müəyyən pul və ya əməyinin məhsulunun bir hissəsini verməli, sahədən əldə etdiyi qalan məhsulu isə özünə saxlamalı idi. Beləliklə, quldarlar qulları öz əməklərinin nəticəsi üçün maraqlandırmağa çalışırdılar.

**dalay-lama** - XVI əsrdən Tibetdə buddist kilsənin baş din xadimi.

**damba** - doğranmış qamışla qarışıq gildən aşırım şəklində tökülmüş torpaq bənd. Adətən damba çay kənarlarında dağıdıcı daşqınlardan qorunmaq məqsədi ilə tökülür.

**Dante Aligyeri** (1265 -1321) - görkəmli italyan şairi, italyan ədəbi dilinin yaradıcısı. Onun əsərləri arasında Beatriçeni vəsf edən sonetlər, "Yeni dünya" avtobioqrafik povesti, "Xalq nitqi haqqında" və "Ziyafət fəlsəfi traktatları vardır. Dante yaradıcılığının zirvəsi üç hissədən – "Cəhənnəm", "Məhşər" və "Cənnət" dən ibarət olan "İlahı komediya" əsəridir. Dantenin yaradıcılığı Avropa ədəbiyyatının inkişafına böyük təsir göstərmişdir.

**Danton Jorj Jak** (1759 - 94) - Böyük Fransa burjua inqilabı xadimi, yakobinlərin rəhbərlərindən biri. Monarxiyanın devrilməsi ilə nəticələnən 1792-ci il 10 avqust üsyanının hazırlanmasında, həmin ilin avqust - sentyabrında inqilabi Fransanın müdaxilədən müdafiəsinin təşkilində iştirak etmişdir. 1793-cü ildən jirondistlərlə yaxınlaşmağa başlamış və terrorun yumşaldılmasını, qiymətlərin maksimum həddinin ləğv edilməsini və s. tələb etməyə başlamışdır. Davamçıları olan dantonçular onun ətrafında cəmlənmişdilər. 1794-cü ilin aprelində Danton və dantonçuların əksəriyyəti hərbi tribunal tərəfindən mühakimə və edam olunmuşdu.

**Dara I** - İran şahı (e.ə. 522 - 486). Onun dövründə Əhəmənilər və ya İran dövləti ən qüdrətli çağına yetişdi; o, şərqdə Hind çayından qərbdə Egey dənizinədək, şimalda Qafqaz dağlarından cənubda Efiopiyaya qədər genişlənmişdi; 80-dən artıq xalq onun tərkibinə daxil idi. Dara Midiya maqı Qaumatanı öldürüb e.ə. 522-ci ildə hakimiyyətə gəlmişdi. Öz hakimiyyətini qanuniləşdirmək məqsədi ilə Dara Kirin qızı Atossa və Kambizin və Qaumatanın hərəmxanasında olan bütün qadınlarla evləndi, hərçənd o, artıq evli idi və üç oğlu vardı. Bundan sonra I Dara Əhəmənilər dövlətinin bir sıra əyalətlərində baş verən üsyanlarla üzləşdi. Onun



downloaded from KitabYurdu.org

üçün daha təhlükəli olanları Midiyada Fravartişin, Asaqartada (Cənubi Azərbaycanda əyalət) isə Çissantaxmanın üsyanları idi. Bu üsyanları yatırdıqdan sonra o, üsyan başçılarını şəxsən özü edam etmişdi. Bundan sonra I Dara əmr vermişdi ki, məşhur Bisütun kitabəsinin həkkinə başlanılsın. E.ə. təqribən 518-ci ildə I Dara inzibati-maliyyə islahatları keçirdi: dövləti vilayətlərə - satraplıqlara böldü. Hər bir satraplıq şah tərəfindən təyin olunmuş ayrıca məmur - satrap tərəfindən idarə olunurdu. E.ə. 517-ci ildə I Dara Hindistanın şimal-qərb hissəsini istila etdi. E.ə. 514 - 512-ci illərdə I Dara Qara dəniz ətrafı skiflərə qarşı uğursuz yürüş təşkil etdi, amma iranlılar Makedoniya və Frakiyanı tuta bildilər. E.ə. 490-cı ildə I Dara yunan şəhər-dövlətlərini zəbt etmək məqsədi ilə yürüş təşkil etdi, lakin Marafon çölündə yunanlar tərəfindən məğlub edildikdən sonra geri qayıtmağa məcbur oldu. Dara Yunanıstana yeni yürüş hazırlamağa başladı, lakin hazırlığın qızğın çağında öldü.

I Daranın hakimiyyəti illərində vahid qızıl pul - darik (8,4 q) kəsildi; vergi yığımı sahmana salındı; Əhəməni qoşunlarının sayı istila olunmuş ölkələrin xalqlarının cəlb edilməsi sayəsində artırıldı; İranın mərkəzi rayonlarını ayrı-ayrı satraplıqlarla birləşdirən yollar şəbəkəsi inşa edildi; Nildən Süveyşə qədər olan kanal bərpa edildi. I Daranın dövründə Persepolda şah sarayı, Suzda saraylar, Memfisdə məbədlər və s. inşa edildi.

**Dara III** - Əhəmənilər dövlətinin sonuncu şahı (e.ə. 336 - 330). III Dara Kodoman qüdrətli hərəmağası Baqoyun sayəsində taxta çıxarılmışdı. Sonralar Baqoy III Daranı zəhərləməyə cəhd göstərmiş, lakin hökmdar onun özünü zəhər dolu badəni başına çəkməyə məcbur etmişdi. III Dara hakimiyyətinin lap başlanğıcında Misirdəki üsyanı yatıra bildi. Bu zaman Əhəməni əyanları saray çəkişmələri və çevrilişləri ilə məşğul idi. Həmin dövrdə Makedoniya monarxiyası xeyli qüvvətləndi. Makedoniya ilə İranın toqquşması getdikcə daha çox labüdləşirdi. İran sərkərdələri ordularının yaxşılaşdırılması qeydinə qalmırdılar. Onlar yalnız ordunun ən döyüşkən hissəsini təşkil edən 30 minlik yunan muzdlularını ordularına əlavə etmişdilər. E.ə. 334-cü ildə makedoniyalılar Makedoniyalı İsgəndərin başçılığı ilə İrana yürüşə başladılar. Üç iri döyüş -Qranik, İss və Qavqamela yaxınlığındakı döyüşlər nəticəsində Makedoniyalı İsgəndər Əhəmənilər dövlətini darmadağın etdi və onun paytaxtlarında külli miqdarda sərvətlər ələ keçirdi. Sonuncu Əhəməni hökmdarı III Dara öz satrapı Bess tərəfindən xaincəsinə öldürüldü. Sonralar Baktriya makedoniyalılar tərəfindən tutulan zaman Makedoniyalı İsgəndərin göstərişi ilə Bess hökmdar qatili kimi əzablı və ağır işgəncə ilə edam edildi.

**"Dar üş-şəfa"** ("Şəfa evi") - XIV əsrdə Təbrizdə (Cənubi Azərbaycan) inşa edilmiş memarlıq kompleksi. Bu kompleksdə bir sıra tədris müəssisələri, tibbi və elmi idarələr, rəsədxana və zəngin kitabxana var idi. Burada təkcə Azərbaycan alim və müəllimləri deyil, həm də başqa ölkələrdən dəvət olunanlar çalışırdılar. "Dar üş-şəfa"da ali məktəb var idi və Şərqin müxtəlif ölkələrindən təbiəti,



downloaded from KitabYurdu.org

fəlsəfəni, tarixi, təbabəti, astronomiyanı, məntiqi, ilahiyyatı öyrənmək üçün buraya 6-7 min tələbə gəlirdi.

**dastakert** - Sasanilər dövlətində şərti torpaq mülkiyyəti.

**dastan** - şifahi xalq yaradıcılığı, nağıl, qəhrəmanlıq eposu forması.

**daş dövrü** (əsri) - ağac və sümük alətlərlə yanaşı, insanların əsas əmək alətlərini daşdan düzəltdikləri ən qədim tarixi dövr. Burada "dövr", "əsr" sözü şərtidir, belə ki, daş dövrü bacarıqlı insanın meydana gəlməsi ilə (iki milyon ildən çox əvvəl) başlamış və metal dövrünün (yeddi min il əvvəl) başlanmasınadək - yəni iki milyon ilədək davam etmişdir. Hələ bir neçə on il əvvəl öz inkişaflarında geri qalmış bir sıra qəbilələr daş dövrünə yaxın mərhələdə yaşayırdılar. Daş dövrü üç əsas mərhələyə (dövrə) - paleolit, mezolit və neolitə bölünür. Daş dövrü eneolitlə əvəz olunmuşdur.



**daş heykəllər** – qədimlərdə əhəngdaşı, qumdaşı və daha bərk daşlardan 1 - 4 m hündürlüyündə yonulmuş və Monqolustan və Altaylardan tutmuş Dnestrədək çöllərdə qoyulmuş daş heykəllər. Sibirdə tunc dövrünə aid heykəllər məlumdur. Daş heykəllər haqqında ən qədim yazılı mənbələr Orxon-Yenisey qədim türk mətnləri (V - VIII əsrlər) hesab olunur. Daş heykəllərin bir qismi qadın heykəlidir. Görünür ki, daş heykəllərin qoyulması ululara etiqadla bağlıdır.

**daşnak** - "Daşnaksütyun " partiyasının üzvü.

**"Daşnaksütyun"** (erm. "İttifaq") - 1890-cı ildə Osmanlı imperiyasında yaradılmış erməni millətçi partiyası. Minimum proqramı. Avropa dövlətlərinin yardımı ilə Osmanlı imperiyası tərkibində Ermənistan üçün muxtariyyətə nail olmaq; maksimum proqramı - Aralıq dənizi ilə Qara dəniz arasında "Böyük Ermənistan" adlanan dövlət yaratmaq. XX əsrin əvvəllərində erməni yazıçısı, şovinist Artsruni Rusiya imperiyasının Cənubi Qafqaz torpaqlarında Ermənistan muxtariyyəti yaratmaq ideyasını irəli sürmüşdür. 1904-cü ildə "Böyük Ermənistan" yaradılması planına Cənubi Qafqaz ərazisi də əlavə edildi. Bu dövrdə Cənubi Qafqazın 54 qəzasından yalnız 5-də, əsasən İran və Türkiyədən köçürülmüş erməni əhalisi üstünlük təşkil edirdi. Ermənilərin kompakt yaşadığı ərazini genişləndirmək məqsədi ilə "Daşnaksütyun" partiyası hədə və milli qırğın yolu ilə azərbaycanlı əhalini öz yerlərini tərk edib getməyə vadar etməyi qarşısına məqsəd qoydu. Bu ideyanın həyata keçirilməsi üçün daşnaklar çar hökumətinin yardımına ümid bəsləyirdilər. 1905 - 1907-ci illər birinci Rusiya burjua inqilabı dövründə daşnaklar çar hökumətinin etinasızlığı, bəzən də birbaşa yardımı ilə Cənubi Qafqazın müxtəlif şəhər və kəndlərində azərbaycanlıların qırğınma başladılar. İran, Türkiyə və Gürcüstandan silahlı erməni könüllü dəstələri daşnakların yardımına gəlirdilər. Azərbaycanlı əhalinin qətliamında çar ordusunda qulluq edən erməni əsgər və zabitləri fəal iştirak edirdilər. 1905-ci il fevralın 6 - 10-da daşnaklar Bakıda, 1905-ci il mayın əvvəllərində Naxçıvanda, həmin il mayın axırlarında İrəvanda, avqustun 16 - 23-də Şuşada azərbaycanlıların qırğınını təşkil etdilər. Daşnaklar



downloaded from KitabYurdu.org

1906-cı ilin iyununda Şuşada yerləşən rus qoşunlarının yardımı ilə oradakı azərbaycanlıları qırmağa başladılar. Daşnaklar Azərbaycan kəndlərinə də basqın edirdilər. Azərbaycanlılar hər yerdə daşnaklara layiqli müqavimət göstərirdilər. Qaçaq dəstələri də dasnaklara qarşı vuruşurdular. Birinci Dünya savaşı başla-yanda müharibənin qələbə ilə başa çatma-sından sonra "Böyük Ermənistan" yaradılmasında Rusiya və digər Antanta ölkələrindəki himayədarlarının yardımına ümid bəsləyən "Daşnaksütyun" partiyası çar ordusunun qələbəsi istəyi ilə çıxış etdi. "Daşnaksütyun' partiyası "Erməni milli şurası" və Bakı Soveti ilə birlikdə



Bakıda 1918-ci il mart qırğınında fəal iştirak etmişdir. Şəhərin azərbaycanlı məhəllələrinə basqın edən erməni döyüşçüləri dinc sakinləri vəhşiliklə öldürür, müsəlman ictimai binalarını və mədəniyyət ocaqlarını yandırırdılar. 1918-ci il aprelin əvvəllərindən sentyabradək daşnaklar Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Göyçay və Kürdəmirdə qırğınlar törətmişdilər. Baksovetdə, səmalar ingilisləri Bakıya dəvət etmiş "Sentrokaspi Diktaturası" hökumətində "Daşnaksütyun" partiyasının nümayəndələri çoxluq təşkil edirdilər. 1918-ci ilin mayı - 1920-ci ilin noyabrında "Daşnaksütyun" ennənilərin Ararat Respublikasında hakim partiya olmuşdur. Erməni respublikasının hökuməti Azərbaycan Demokratik Respublikasından xahiş etmişdi ki, İrəvanı özlərinə paytaxt etmək üçün onlara versin. Azərbaycanın Müvəqqəti Milli Şurası İrəvanı ermənilərə bir şərtlə verməyə razı oldu ki, onlar Qarabağın dağlıq hissəsinə olan iddialarından birdəfəlik əl çəksinlər. Lakin İrəvanı aldıqdan sonra daşnak hökuməti Zəngəzur, Naxçıvan və Dağlıq Qarabağı tutmağı qarşısına məqsəd qoydu. 1918-ci ilin yayında silahlı quldurlara başçılıq edən Andranik Zəngəzur və Naxçıvanın dinc azərbaycanlı əhalisini kütləvi surətdə qırmağa başladı. Azərbaycan Demokratik Respublikası hökuməti buna cavab olaraq Xosrov bəy Sultanovun başçılığı ilə Qarabağ general-qubernatorluğunu yaratdı və Qarabağ, Zəngəzur və Naxçıvanda Azərbaycan Demokratik Respublikasının suverenliyini bərpa edə bildi. Daşnak hökuməti "Böyük Ermənistan"ın yaradılması haqqında ideyanı həyata keçirməyə səy göstərdi və Antanta ölkələrinin yardımı ilə diplomatik yollarla Türkiyənin bir sıra vilayətlərinə, Gürcüstanın bir hissəsinə və Azərbaycanın xeyli hissəsinə (Zəngəzur, Naxçıvan və Dağlıq Qarabağ) iddialarla çıxış etdi. 1920-ci ildə Azərbaycan SSR-in ağır vəziyyətindən istifadə edən erməni daşnak hökuməti Zəngəzura erməni ordusu göndərdi və bura talan edildikdən sonra ermənilər Naxçıvana soxuldular. Buna cavab olaraq türk ordusu Naxçıvanı öz nəzarəti altına götürdü. Yalnız bundan sonra Qırmızı Ordu 1920-ci il iyulun 6-da Gorusu tutaraq erməni ordusunun Zəngəzurun digər hissələrinə gələn yollarının qarşısını aldı. 1920-ci il iyulun sonları - avqustun əvvəllərində ermənilər Şəmkir və Qazax qəzalarının ərazilərinə soxuldular, eləcə də maneəsiz olaraq Zəngəzuru işğal etdilər. Eyni zamanda, Qarabağ qəzalarında erməni-daşnak qiyamları baş verdi. Ermənilərin zəbt etdikləri



downloaded from KitabYurdu.org

rayonlardan minlərlə qaçqın Azərbaycanın içərilərinə doğru axışdı. 1920-ci ilin sentyabrında Ermənistan Türkiyəyə müharibə elan etdi, lakin az sonra erməni ordusu türk qoşunları tərəfindən darmadağın edildi. Türkiyədə imzalanan müqaviləyə görə, Ermənistanın ərazisi 10 min $km^2$ müəyyənləşdirilirdi. Sovet Rusiyası təcili olaraq "xalq inqilabı"nı təşkil etdi və XI Qırmızı Ordu "beynəlmiləl yardım" göstərərək Ermənistana daxil oldu. 1920-ci il noyabrın 29-da Ermənistanda Ermənistan SSR yaradıldı. "Daşnaksütyun" partiyası 1921-ci ilin fevralında Ermənistan SSR-də antisovet qiyamı təşkil etdi. Daşnak qiyamı yatırıldıqdan sonra Ermənistanda "Daşnaksütyun" partiyası gizli fəaliyyətə keçdi və bir sıra xarici ölkələrdə özünün millətçi təşkilatlarını yaratdı. "Daşnaksütyun" partiyasının 1995-ci ilin dekabrında Afinada keçirilən qurultayında SSRİ-də yaranmış "əlverişli şərait"dən bacarıqla istifadə etməyə və "Böyük Ermənistan" uğrunda mübarizədə qüvvələri birləşdirmək üçün çağırışlar səsləndi. Uzun müddət DQMV-də gizli fəaliyyət göstərmiş "Krunk" ("Durna") təşkilatı "Daşnaksütyun"un yardımı sayəsində açıq fəal mübarizəyə başladı. "Daşnaksütyun" Dağlıq Qarabağın Ermənistanla birləşdirilməsi uğrunda çıxış edən "Miatsum" ("Birlik") hərəkatını əliaçıqlıqla maliyyələşdirirdi. Erməni lobbisindən və onun kütləvi informasiya vasitələrinə təsirindən istifadə edən daşnaklar xarici mətbuatda və sovet mərkəzi mətbuatında fəal antiazərbaycan kampaniyasına başladı. Müstəqil Ermənistan Respublikası yaradıldıqdan sonra "Daşnaksütyun" Ermənistanın siyasi partiyalarından biri kimi qeydə alındı.

**debat** - müzakirə, mübahisə, fikir mübadiləsi.

**de-fakto** - faktik, işdə; gerçəklikdə olan, amma hüquqi cəhətdən qeydiyyatdan keçməmiş.

**Dehli sultanlığı** - 1206 - 1526-cı illərdə Hindistanda paytaxtı Dehli olan müsəlman dövləti. XII əsrin sonlarında Şimali Hindistan Qurilər dövləti tərəfindən tutuldu və Məhəmməd Qurinin Hindistandakı canişini Qütbəddin Aybək özünü sultan elan etdikdən sonra burada Dehli sultanlığı yarandı. Sultanlar Hindistanın çox hissəsini özlərinə tabe etdilər. Dehli sultanlığında müsəlman feodal əyanları hakim təbəqəni təşkil edirdilər. 1526-cı ildə Dehli sultanlığı Babur tərəfindən tutuldu və burada Böyük Moğollar imperiyası yaradıldı.

**dekabristlər** - 1825-ci il dekabrın 14-də mütləqiyyətə qarşı üsyan qaldırmış Rusiya zadəgan inqilabçıları. Xalqa arxalanmaq istəməyən dekabristlər ordunun gücü ilə hərbi çevriliş etmək niyyətində idilər. Proqramları: unitar respublikanın və ya federativ quruluşlu konstitusiyalı monarxiyanın yaradılması idi. İmperator I Aleksandrın ölümündən sonra yeni çarın and içməsindən bir qədər keçmiş üsyan baş verdi: 1825-ci il dekabrın 14-də Peterburqda və 1825-ci il dekabrın 29-u - 1826-cı il yanvarın 3-də Ukraynada Çerniqov polkunda çıxışlar oldu. Üsyanın yatırılmasından sonra onun 5 rəhbəri - P.İ.Pestel, S.İ.Muravyov-Apostol, K.F.Rıleyev, M.P.Bestujev-Ryumin və P.Q.Kaxovski - asıldı, dekabristlərin 121 nəfəri Sibirə katorqaya və sürgünə göndərildi, 3000-dən artıq əsgər repressiyaya



downloaded from KitabYurdu.org

məruz qaldı. Dekabristlər üsyanı inqilabçıların ilk silahlı çıxışı idi və sonrakı inqilabi hərəkatlara böyük təsir göstərmişdir,

**dekadentlik** (lat. "tənəzzül") - XIX əsrin sonları - XX əsrin əvvəllərində mədəniyyətdə təzahür edən ümidsizlik əhval-ruhiyyəsinin, həyatın dözümsüzlüyü kimi böhranlı halların ümumi adı. Dekadentliyin bir çox motivləri sonralar modernizmin bir sıra bədii cərəyanlarında istifadə olunurdu.

**deklarasiya** (lat. "bəyanat", "elan") - dövlətlərin və ya ictimai təşkilatların siyasət, beynəlxalq münasibətlər və hüquq sahəsində prinsiplərini müəyyənləşdirən, yaxud bu və ya digər məsələ, problem və s. üzrə öz mövqelərini bəyan edən bir və ya çoxtərəfli akt.

**dekret** (lat, "fərman", "qərar") - ali dövlət hakimiyyəti orqanı tərəfindən verilmiş aktların adlarından biri.

**demaqogiya** - 1) xəbis məqsədlərə çatmaq üçün yalançı ittihamlar, faktların təhrif edilməsi, kobud yaltaqlıq ilə insanlara təsir göstərilməsi; 2) politikanlıq, siyasətbazlıq.

**demaqoq** (yun. "demosun başçısı") - e.ə. V əsrdə Afinada xalqın rifahı uğrunda çalışan siyasi xadimə verilən ad. Yunan şəhər-dövlətlərində siyasi mübarizənin kəskinləşməsi ilə əlaqədar olaraq e.ə. V - IV əsrlərdə "demaqoq" anlayışı birmənalı şəkildə populyarlaşmağa və aldatma, yaltaqlıq, yalançı vədlər vermək və s. yollarla hakimiyyətə gəlməyə çalışan siyasi xadim anlayışını bildirir. Bizim günlərimizdə "demaqoq" sözü söyüş mənasında işlədilir və çoxdanışan adam mənasını bildirir.

**Demetra** - qədim yunan mifologiyasında məhsuldarlıq və əkinçilik ilahəsi. Roma mifologiyasında Serera ilə eyniləşdirilirdi.

**Demokratiya** (yun. "demosun hakimiyyəti") – hakimiyyətin formal və ya faktik olaraq xalqa mənsub olduğu dövlət formalarından biri, habelə vətəndaşların müəyyən hüquq və azadlıqlarının məcmusu ilə xarakterizə olunan ictimai qurumdur. "Demokratiya" anlayışına ilk dəfə Herodotda rast gəlinir, müasir elmə Aristotel tərəfindən daxil edilmişdir. Demokratiya Qədim Yunanıstanın şəhər-dövlətlərində meydana gəlmişdir. Yüksək inkişaf səviyyəsinə Afinada çatmışdır. Demokratiya şəraitində hakimiyyət vətəndaş cəmiyyətinə mənsub olur və bu zaman bütün dövlət məsələləri xalq yığıncağı tərəfindən həll edilir. Qeyri-vətəndaşlar, xüsusilə də qullar dövlətin idarə olunmasından tamamilə kənar edilmişdilər. Qədim Roma aristokratik respublikasında nəsli demokratiya əlamətləri qalmaqdaydı.

**Demokrit** (e.ə. 460 - 370) - qədim yunan filosofu. Dünyanın kiçik zərrəciklərdən - atomlardan və boşluqdan ibarət olması haqqında təlimin yaradıcısı. İnsanlarda ölməz ruhun olmasını inkar edirdi. Dinin meydana gəlməsini isə ibtidai insanların təbiətin qorxulu hadisələri qarşısında imkansızlığı və qorxusu ilə izah edirdi. Demokrit ibtidai dövrün "qızıl əsr" kimi təsvirini rədd edirdi. Demokratiyanın dönməz tərəfdarı olan Demokrit demokratik dövlətdə kasıb



downloaded from KitabYurdu.org

olmağı monarxiyadakı varlılıqdan uca sayır. Demokritin etikasında müdrik mötədillik haqqında təlim əsas yer tutur.

**demoqrafiya** - əhalinin məskunlaşması haqqında elm.

**demos** - Qədim Yunanıstanda aristokratlara zidd olan sadə xalqı (kəndliləri, sənətkarları və tacirləri) bildirirdi. Sonralar - demos qulların və xaricilərin əksinə olaraq şəhər-dövlətlərin bərabərhüquqlu vətəndaşlarının birliyini bildirirdi. Demos quldarlıq demokratiyasının mövcudluq bazası idi.

**Demosfen** (e.ə. 384 - 322) -qədim yunan natiqi, siyasi xadimi, quldarlıq demokratiyasının ideoloqu. Afinada anti-makedoniya qruplaşmasının tanınmış



başçısı. Onun Makedoniya hökmdarı II Filippin əleyhinə etdiyi çıxış - "Filippika" xüsusilə məşhurdur. E.ə. 341-ci ildə o, Afinanın faktik rəhbəri oldu. Yunan şəhər-dövlətlərinin antimakedoniya ittifaqının meydana gəlməsinə imkan yaratmışdır. Xeroneya yaxınlığında məğlub olduqdan sonra Afinanı tərk etmək məcburiyyə yətində qalmışdır. Makedoniyalı İsgəndərin ölümündən sonra o, təntənəli surətdə şəhərə qayıtmış və yenidən Makedoniyaya qarşı mübarizəyə çağırmışdır. E.ə. 322-ci ildə yunanların yenidən məğlub olmasından sonra makedoniyalı döyüşçü tərəfindən təqib edilən Demosfen əsir düşməmək üçün zəhər içmişdir.

**denasionalizasiya** - dövlətin milliləşdirilmiş əmlakı əvvəlki sahiblərinə qaytarması.

**denominasiya** - pul islahatı zamanı pulun nominal dəyərinin dəyişdirilməsi və yeniləşdirilməsi.

**denonsasiya** - bir dövlətin digərinə əvvəllər onların arasında imzalanmış müqavilənin birtərəfli qaydada fəaliyyətini dayandırması haqqında bəyanat verməsi. Bir qayda olaraq denonsasiya qaydası imzalanmış müqavilənin özündə və ya ona əlavə olunan xüsusi razılaşmada nəzərdə tutulur.



**deportasiya** - zorakı yerdəyişmə, bir şəxsin və ya hər hansı milli azlıq təşkil edən xalqın, millətin, dini icmanın və s.-nin dövlətdən kənara qovulması.

**depressiya** - 1) psixikanın (əhvalın) məyus vəziyyəti; 2) həddən artıq məhsul istehsal olunması nəticəsində baş verən böhrandan sonra meydana çıxan sənaye dövrü fazası; iqlisadiyyatın durğunluq vəziyyəti və mallara tələbatın azlığı ilə seçilir.

**deputat** – hakimiyyət orqanlarında seçkili nümayəndə.

**despotiya** - istibdad hakimiyyəti, müstəbid, bütün hakimiyyətin şaxələnmiş hərbi-bürokratik aparatın köməkliyi ilə idarə edən bir hökmdara - irsi monarxa mənsub olduğu dövlət forması. Despotiya Yaxın Şərq ölkələri üçün xarakterik idi və hakimiyyətin qeyri-məhdudluğu və əhalinin hüquqsuzluğu ilə fərqlənirdi. Despotun şəxsiyyəti çox hallarda öz sağlığında və ölümündən sonra ilahiləşdirilirdi. Despotiyanın sinonimləri qeyri-məhdud monarxiya və tiraniyadır.



downloaded from KitabYurdu.org

**destabilizasiya** - müvazinətin pozulması, dəyişkən vəziyyətin yaranması, sabitlikdən çıxmaq.

**desyatin** - Rusiyada 1,0925 hektara bərabər torpaq ölçüsü.

**desyatina** - xristian kilsəsi tərəfindən əhalidən ümumi məhsuldan və ya digər gəlirlərdən alınan vergi.

**deşifrləmə** - unudulmuş yazıların, dillərin anlamının bərpa edilməsi. Bir çox şifraçımlar üçün biri məlum və aydın olan iki, ya üç dildəki paralel yazı mətnlərindən istifadə olunur. Bir halda ki qədim mətnlərdə bir qayda olaraq hökmdarların və allahların adları yazılırdı, şifraçanlar da naməlum mətnlərdə ilkin olaraq bütün məlum adlan axtarmağa çalışırdılar. Bununla da bir sıra yazılı işarələrin və bütöv sözlərin oxunuşu müəyyənləşdirilirdi. Naməlum dildəki sözlərin mənası mətndəki bu sözlərin məlum dildəki sözlərlə tutuşdurulması ilə də müəyyənləşdirilirdi. Bəzən aydınlaşırdı ki, naməlum yazı çox yaxşı məlum olan dillərdən birində yazılmışdır. Bu cür mətnlərin oxunmasından sonra şifraçanlar məlum dilə tərcüməsi olmayan digər mətnlərin öyrənilməsinə başlayırlar.

**devalvasiya** - ölkənin pul sisteminin, milli pul nişanlarının qızıl dəyərinin və ya onların xarici valyutaya nisbətən məzənnəsinin aşağı salınması yolu ilə sabitləşdirilməsi üsulu.

**Deyok** - əfsanəvi Midiya hökmdarı. Herodota görə, Midiya tayfalarını birləşdirmişdir. Herodot bildirir ki, deyək əvvəlcə öz kəndlərində hakim, sonra isə midiyalıların hökmdarı seçilmişdir. Bundan sonra o, altı Midiya tayfasını birləşdirmiş, özünə hökmdar sarayı və paytaxt şəhəri Ekbatana tikdirməyi əmr etmiş, Midiyanı Assuriya-ağalığından qurtarmış və 53 il hökmdar eləmişdir. Bəzi tarixçilər Dcyoku Midiya vilayətlərindən birinin real irsi hökmdarı -Assuriya mətnlərindən məlum olan Manna canişini Dayaukku ilə eyniləşdirirlər. Dayaukku Manna hökmdarı Ullusunuya tabe olmaqdan imtina etmiş və Urartu çarı I Rusa ilə saziş bağlamışdır. E.ə. 715-ci ildə Mannanın müttəfiqi Assuriya hökmdarı II Sarqon qoşunlarını Dayaukkunun qiyamını yatırmaq üçün göndərmişdir. Assuriyalılar Dayaukkunu əsir tutub ailəsi ilə birlikdə Suriyaya sürgün etmişlər.

**de-yure** (lat. "rəsmən", "rəsmi olaraq", "hüquqi cəhətdən", "qanuna uyğun olaraq" beynəlxalq hüquqda dövlətin və ya hökumətin tam rəsmi (de-faktodan fərqli olaraq) tanınması.



**Dədə Qorqud** - oğuz xalq qəhrəmanlıq eposu "Kitabi-Dədə Qorqud"un baş personajı. Uzun əsrlər boyu formalaşmış epik dastanların hamısı "Kitabi-Dədə Qurqud"da xalq müdriki və ozanı Qorqudun obrazında birləşdirilir; bu dastan onun adına çıxılır.

**dəfinə** - gizlədilmiş, çox hallarda isə yerə basdırılmış, sahibi üçün dəyərli olan şeylər. Dəfinələr hələ neolit dövründən hər yerdə aşkar edilir və mühüm tarixi mənbə sayılrr. Dəfinə axtarılması da qədim tarixə malikdir. Bir sıra ölkələrdə aşkar edilən dəfinələrin mütləq dövlətə təhvil verilməsi haqqında qanun mövcuddur.



downloaded from KitabYurdu.org

**Dəməşq (Şam)** - e.ə. XI əsrin sonlarından e.ə. 732-ci ilə kimi Dəməşq çarlığının mərkəzi. 661 - 750-ci illərdə Əməvilər xxilafətinin paytaxtı. 1516-cı ildən Birinci Dünya müharibəsinin sonunadək Osmanlı imperiyasının tərkibində olmuşdur. 1920 - 43-cü illərdə Fransanın mandatı altında olan Suriyanın inzibati mərkəzi. 1943-cü ildən müstəqil Suriyanın paytaxtıdır.

**dəmir dövrü** - əmək aləthri və silahların dəmirdən hazırlanmasına başlanılması və geniş yayılması ilə bağlı tarixi dövr. Dəmir dövrü tunc dövrünü əvəz etmişdir. Dəmiri filizdən əldə etməyi ilk dəfə olaraq Ön Asiyada məskunlaşmış hett tayfaları e.ə. II minilliyin sonlarında öyrənmişlər. Yataqları nisbətən az olan misdən, xüsusilə də qalaydan fərqli olaraq dəmir filizinə, demək olar ki, hər yerdə rast gəlinir və bu, dəmir əmək alətlərinin geniş yayılmasına imkan verdi.

**"dəmirböyürlülər"** - Kromvelin İngiltərədə vətəndaş müharibəsi illərində xəncər və nizələrlə silahlanmış, zirehli libas geyinmiş, yaxşı təlim görmüş süvarilərdən ibarət dəstəsi. 60 könüllü süvaridən ibarət ilk dəstə Kromvel tərəfindən 1642-ci ildə təşkil edilmişdir. Sonralar onlar "dəmirböyürlülər"in əsas nüvəsini təşkil etdilər. 1643-cü ildə bu qoşun növündə artıq ümumi sayı 1100 nəfər olan 14 eskadron var idi. Onlar kral qoşunları ilə döyüşlərdə özlərini yaxşı göstərmişdilər. "Dəmirböyürlülər" fanatik, dözümlü və intizamlı olmaları ilə fərqlənirdilər. Onlar parlament ordusunun əsasını -"yeni növ" adlandırılan ordunu təşkil etdilər.

**Dərbəndilər** - 1382 - 1538-ci illərdə şirvanşahlar sülaləsi. Sülalənin banisi I İbrahim olmuşdur. Dərbəndilər sülaləsi Kəsranilər sülaləsini əvəz etmişdir.

**Dərviş** (far. "yoxsul", "dilənçi") - müsəlman zahidi, sufizm davamçısı. Dərvişlər çox hallarda sərgərdan zahidliklə məşğul olurdular, bəzən də şeyxlərin rəhbərlik etdiyi məkanlarda yaşayırdılar.

**Dəvdək** - VII əsr alban şairi və alimi. Alban knyazı Cavanşirin ölümünə ağı yazmışdır.

**"dəyirmibaşlılar"** - İngiltərədə vətəndaş müharibəsi illərində parlamentin tərəfdarları. Onları saçlarını dəyirmi qırxdırdıqlarına görə belə adlandırırdılar.

**diadoxlar** (yun. “xələf”, “varis”) - Makedoniyalı İsgəndərin varisləri - böyük sərkərdələr və onun yaxın davamçıları. Makedoniyalı İsgəndərin ölümündən sonra diadoxlar öz aralarında hakimiyyət uğrunda mübarizəyə başladılar və son nəticədə onun dövlətini öz aralarında bölüşdürdülər.

**dialektika** - ümumi bağlılıqlar (əlaqələr) haqqında, təbiətin və cəmiyyətin inkişafının ümumi qanunauyğunluqları haqqında elm.

**Diana** - Qədim Roma mifologiyasında Ay ilahəsi. Qədim yunan ilahəsi Artemida ilə eyniləşdirilirdi.

**diaspora** (yun. "yayılma") - xalqın bir qisminin digər dövlətin ərazisinə könüllü və ya məcburi şəkildə köçməsi və orada daimi yaşaması.



downloaded from KitabYurdu.org

**Diaş, Bartolomeu Diaş di Novaiş** (1450-1500) - Portuqaliya dəniz səyyahı. Hindistana gedən dəniz yolunu axtaran avropalılardan ilk adamdır ki, cənubdan Afrikanı ötüb-keçmiş (1487), Ümid burnunu kəşf etmişdir (1488). Vasko da Qamanın Hindistana gedəcək ekspedisiyasının hazırlanmasında iştirak etmişdir.

**"Difai"** - 1905-ci il 17 oktyabr çar manifestindən sonra Əhməd bəy Ağayev tərəfindən yaradılmış Azərbaycan milli partiyası. Azərbaycanlıların daşnaklar tərəfindən qırğını milli burjuaziyanı, bəyləri və ziyalıları vadar etdi ki, silahlı dəstələr şəklində özünümüdafiə qüvvəsi olan bir partiya yaratsınlar. "Difai" partiyasının Şəfi bəy Rüstəmbəyov, Ələkbər bəy və Xəlil bəy Xasməmmədov qardaşları, İsmayıl xan Ziyadxanov, Nəsib bəy (Yusifbəyov) Yusifbəyli, Həsən bəy Ağazadə, Mirhəsən Hacınski, Kərim bəy Mehmandarov və başqalarının da daxil olduğu Mərkəzi Komitəsi Bakıda, Gəncə, Şuşa, Ağdam, Bərdə, Qaryagin (Füzuli), Tərtər, Naxçıvan və s. yerlərdə isə şöbələri var idi. Partiyanın proqramında xalqlar arasında münasibətlər mühüm yer tuturdu; partiya həm də müsəlmanlar arasında birliyi, maarifi inkişaf etdirməyi, cəmiyyətdə qanunçuluq yaratmağı təbliğ edirdi. Lakin bir qədər sonra birinci Rusiya burjua inqilabı (1905 - 1907) yatırıldı və irtica başlandı, Əhməd bəy Ağayev mühacirət etmək məcburiyyətində qaldı, "Difai" partiyası isə öz fəaliyyətini dayandırdı.

**diggerlər** (ing. "qazıyanlar") - "həqiqi levellerlər"in nümayəndələri. Diggerlərin baş ideoloqları Cerald Uinstenli idi. Diggerlər şəhər və kənd yoxsullarının marağını ifadə edirdilər. Diggerlərin məqsədi xüsusi mülkiyyətin ləğv edilməsi, torpaq fondunun ümumiləşdirilməsi və torpaq mülkiyyətlərinin kəndlilərin xeyrinə kəndli icmaçıları arasında bölüşdürülməsi yolu ilə ümumi siyasi və əmlak bərabərliyi yaratmaq idi. Diggerlər London yaxınlığında boş olan torpaqları tutub, onları şumlamağa başlamışdılar, elə ona görə də onları "diggerlər" adlandırmışlar. Onlar burada təsərrüfat tikililəri inşa etmiş və 100 nəfərdən ibarət kommuna yaratmışlar. Diggerlər qoşunla qovulmuş, onların bir çoxu həbs olunmuşdur.

**diktator** - 1) Roma Respublikasında yüksək vəzifəli şəxs. Senatın qərarı ilə dövlət üçün həddən artıq təhlükəli vəziyyət yarandıqda 6 aylığa konsul təyin edilir və qeyri-məhdud hakimiyyətə malik olurdu; 2) təkbaşına idarəni həyata keçirən və qeyri-məhdud hakimiyyətə malik olan şəxs.

**diktatura** - 1) hər hansı sinif və ya ictimai qrupun (burjuaziyanın, hərbçilərin, klerikalların və s.) xalqın böyük əksəriyyətinin müqavimətinin yatırılmasına yönəlmiş siyasi ağalığı; 2) bilavasitə hərbi qüvvə tətbiq edilməsi yolu ilə dövlət hakimiyyətinin həyata keçirilməsinin xüsusi üsulu. Diktatura mütərəqqi və ya mürtəce ola bilər.

**din** - insanın fövqəltəbii varlıqlara (allahlara, ruhlara və s.) inamına əsaslanan dünyanı dərketmə halı, onun ətraf gerçəkliyə baxışı, müvafiq davranış və fəaliyyəti. Dinçiliyin ən ilk təzahürləri magiya, totemizm, fetişizm və s. formasında



downloaded from KitabYurdu.org

ibtidai icma cəmiyyəti dövrünə aiddir. Hazırda buddizm, islam, xristianlıq kimi dünyəvi dinlərlə yanaşı, ən müxtəlif növ primitiv dini inanclar mövcuddur.

**dinar** - orta əsrlərdə Şərqin müsəlman ölkələrində qızıl pul.

**Diokletian** Qay Avreli Valeri (245 – 316) - 284-cü ildən 305-ci ilədək Roma imperatoru. Atası azad edilmiş qul idi. Sıravi döyüşçü kimi xidmətə başlayan Diokletian imperator qvardiyasının komandiri rütbəsinədək yüksəlmişdi.



284-cü ildə Roma imperiyasının süqutu dövründə öz döyüşçüləri tərəfindən imperator (əsgər imperatoru) elan edilmişdir. Rütbələrə bölünmüş və tamamilə imperatordan asılı olan çox böyük məmur aparatının yaranması da Diokletianın adı ilə bağlıdır. İmperiyanı möhkəmlətmək məqsədi ilə o, bir sıra islahatlar keçirdi. Ordu $^{1}/_{3}$ dəfə artırıldı, hərbi intizam gücləndirildi, sərhəd müdafiə tikililəri sistemi yaradıldı. İnzibati islahat nəticəsində əyalətlər xırdalandı və mülki hakimiyyətlə hərbi hakimiyyət bir-birindən ayırd edildi. Diokletian "korlanmış" pulları düzçəkili sikkələrlə əvəz etdirdi, möhtəkirliklə mübarizə apardı, mallara maksimum qiymət qoydu. Diokletian bütün qüvvəsini baqaudların və s. üsyanlarının yatırılmasına yönəltdi, imperiyadan ayrılmış əyalətlər geriyə qaytarıldı. Romalılar iki həmləyə Ermənistanda və İberiyada öz mövqelərini möhkəmlədib, Mesopotamiyanı tutdular. Diokletianın dövründə xristianlara qarşı çox güclü təqiblər aparıldı. 305-ci ildə Diokletian taxtdan əl çəkdi və ölənədək Romadan aralı yerləşən dəbdəbəli sarayında yaşadı.

**Donis** - qədim yunan mifologiyasında bitki aləminin allahı, üzümçülüyün və şərabçılığın himayədarı. Qədim Romada Vakx ilə eyniləşdirilirdi.

**Dionisilər** - Qədim Yunanıstanda Dionisin şərəfinə keçirilən bayramlar. Pisistratın əmri ilə e.ə. 534-cü ildən dionisilər rəsmi Ümumafina bayramları oldu.

**diplomatiya** - dövlətin beynəlxalq münasibətlərin həyata keçirilməsində istifadə etdiyi vasitə, üsul, metod və hüquqi normalar kompleksi.

**Direktoriya** (İcraedici Direktoriya) - Fransa Respublikasının 1795-ci il noyabrın 4-dən 1799-cu il noyabrın 10-dək fəaliyyət göstərmiş hökuməti; 5 direktordan ibarət idi. Direktoriya iri burjuaziyanın marağının ifadə edirdi. Napoleon Bonapartın 18 brümer dövlət çevrilişi Direktoriyanın varlığına son qoymuşdur.



**dirhəm** - Şərq ölkələrində çəkisi 2,5 qrama bərabər olan gümüş pul.

**diskreditasiya** - kiməsə etimadın itirilməsi; onun qüruru, nüfuzu və hörmətinin itirilməsi.

**diskriminasiya** - hər hansı irqi, etnik, dini, linqvistik əhali qrupu nümayəndələrinin hüquqlarının bilərəkdən azaldılması.

**dissident** (lat. "dissidens" - "razılaşmayan") - 1) hakim kilsənin mənsub olduğu dinə (məzhəbə) əməl etməyən şəxs; 2) SSRİ-də - Kommunist Partiyası və sovet hökümətinin siyasəti ilə razılaşmayan və ya onu ittiham edən şəxs.



downloaded from KitabYurdu.org

**divani** (və ya divan) - müsəlman ölkələrində dövlət (xəlifə və sultan) sülalə torpaqları.

**diversiya** - 1) rəqibin iqtisadi və hərbi qüdrətini sarsıtmaq məqsədi ilə dinc və ya hərbi dövrdə yad ərazilərdə xüsusi hazırlanmış agentlər və ya qruplar tərəfindən həyata keçirilmiş təxribat fəaliyyəti (yanğınlar, partlayışlar və s.); 2) ideoloji diversiya radio, televiziya, mətbuatda əhalinin mənəvi vəziyyətinə təsir göstərmək məqsədi ilə aparılmış təxribat təbliğatı.

**dividend** - səhmdarlar cəmiyyəti tərəfindən mənfəətin bir hissəsinin səhm sahibləri - payçılar arasında bölüşdürülmək üçün ayrılması.

**doktrina** - təlim; dünyagörüşü və ya prinsiplər sistemi.

**doqmatizm** (ehkamçılıq) - birtərəfli, sxematik, donmuş təfəkkür. Ehkamçılar konkret şəraiti nəzərə almadan dəyişməz müddəalardan çıxış edirlər. Nüfuzlu şəxsiyyətlərə kor-koranə inam, köhnəlmiş müddəaların qorunub saxlanılması, onların mütləqləşdirilməsi ehkamçılığın əsasında durur.



**dolmen** - tava daşlarından tikilmiş qədim sərdabə. Dolmenlər dik qoyulmuş bir neçə çox böyük ölçülü qaya və daş parçasından və üzəri bir və ya bir neçə iri daşla örtülmüş tikilidir. Adətən dolmenlərdə bir neçə ölünün cəsədi olur. Bəzən dolmenlər onilliklər və hətta yüzüliklər ərzində istifadə olunarmış. Dolmenlər e.ə. III -I minilliklərdə Avropanın və Asiyanın sahil rayonlarında yayılmışdır.

**domen** - **1)** orta əsrlərdə Avropada feodalın öz təsərrüfatını apardığı mülkiyyət hissəsi; 2) kralın irsi torpaq mülkiyyəti.

**dominikçilər** - əsası 1215-ci ildə ispan rahibi Dominik tərəfindən qoyulmuş dilənçilər ordeninin üzvləri. 1232-ci ildə papalıq inkvizisiyanı dominikçilərin sərəncamına verdi. Yezuitlər ordeni yaradıldıqdan sonra dominikçilərin rolu azalmışdır.

**dominion** - Böyük Britaniya müstəmlakə imperiyası çərçivəsində özünüidarəetmə hüququ almış müstəmləkə.

**dorilər** - əsas qədim yunan tayfalarından biri. İlk vaxtlar Şimali Yunanıstan vilayətlərində məskunlaşmışddar. E.Ə. təxminən 1100-cü ildə Peloponnessda Mikena mədəniyyəti axey şəhər-dövlətlərini tutdular. Sonra dorilər Kriti və Egey dənizindəki digər adaları, habelə KiçikAsiya sahillərinin bir hissəsini koloniyaya çevirdilər. Dorilərin saldığı şəhər-dövlətlərdən ən irisi Sparta idi.

**Dördlər ittifaqı** - Birinci Dünya müharibəsi illərində Antanta və onun müttəfiqlərinə qarşı çıxan Almaniya, Avstriya-Macarıstan, Osmanlı imperiyası və Bolqarıstan blokunun adı.

**Dördüncü respublika** - 1944 - 58-ci illərdə Fransada mövcud olmuş respublikanın adı.

**divlər** (dövlər) - Hind-İran tayfalarının dinində xüsusi hakimiyyətə malik olmayan antropomorf allahlar. İran xalqlarında və başqa xalqlarda zərdüştiliyin



downloaded from KitabYurdu.org

yayılması ilə əlaqədar olaraq divlər Anqra Manyunun tərəfində Ahura Mazdaya qarşı mübarizə aparan iblis, şeytan dərəcəsinə çatdırılmışlar.

**dövlət** - nəsli icmanın dağılması və siniflərin meydana gəlməsi ilə yaranır. Dövlət siyasi hakimiyyət orqanıdır, məcburiyyət aparatıdır (məhkəmə, qoşun, keşikçilər, məmurlar və s.), onun köməkliyi ilə istismarçılar istismar olunanlar üzərində öz ağalıqlarını saxlayırlar. İctimaiyyətdə ali hakimiyyət məhz dövlətə məxsusdur. İlk dövlətlər e.ə. IV - III minilliklərdə Misirdə və Mesopotamiyada meydana gəlmişdir.

**"Dövlət kəndlilərinin torpaq quruluşu haqqında qanun"** (1900) - çar hökuməti tərəfindən 1900-cü il mayın 1-də qəbul olunan qanun Cənubi Qafqaz kəndlilərinə icma torpaqlarından xəzinəyə ağır ödəncləri ödədikdən sonra daimi istifadə etmək hüququ verirdi. Vergilər xeyli artırıldı, belə ki, yararsız torpaqlar da kəndli pay torpaqlarına əlavə edilirdi. Ona görə də dövlət kəndlilərinin vəziyyəti nəinki yaxşılaşmadı, əksinə, daha da pisləşdi. Bu qanunun həyata keçirilməsi nəticəsində varlı kəndlilər bir çox pay torpaqlarını öz əllərində cəmləşdirə bildilər. Kəndlilərin istifadəsində olan bütün pay torpaqlan dövlətin mülkiyyəti olaraq qalırdı. **prakont** - e.ə. 621-ci ildə Afınanın ağ-saqqallar şurası məhkəmə sistemini təkmil-ləşdirmək məqsədi ilə Drakontu doqquz ha-kimdən biri seçmişdir. Bir çox cəzalar Dra-k0rit tərəfindən daha da ağırlaşdırılmışdı: oğurluq (hətta xırda və ucuz əşyalara görə də) və yüngülvarı qəbahəto görə, eləcə də avaraçılıq üstündə ölüm cəzası tətbiq edil-mişdi. Bu qanunlar haqqında deyilirdi ki, "onlar mürəkkəblə yox, qanla yazdıb". "Sərt", "qəddar" mənası verən "Drakont qanunları" ifadəsi də buradan meydana gəlmişdir. Drakont ilk dəfə olaraq bütün Afina qanunlarını yazıya aldırmışdır. Adamların ədalət məhkəməsinin nəticələrini görmələri üçün Drakont açıq məhkəmə tərəfdarı idi.

**draqunlar** - XVI - XX əsrlərdə Avropa ordularında həm atlı, həm də piyada dəstədə vuruşmaq üçün nəzərdə tutulan süvari qoşun növü.

**Dreyk Frensis** - ingilis qulduru, sonralar admiral olmuşdur. 1577-ci ildə o, Magellandan sonra ikinci dövr-aləm səyahətinə çıxmış və 1880-ci ildə onu başa çatdırmışdır. 1588-ci ildə vitse-admiral rütbəsində "Məğlubedilməz armada"ya qarşı vuruşmuşdur. 1595-ci ildə Karib dənizində üzərkən həlak olmuşdur.

**drujina** - tayfanın hərbi başçısının, sonralar isə knyazın, kralın yanında daimi silahlı dəstə. Drujina hərbi demokratiya dövrü üçün xarakterikdir.

**Du Fu** (712 - 770) - görkəmli Çin şairi, Çinin “qızıl əsr” poeziyasının nümayəndəsi. Feodal ara müharibələrinə qarşı çıxış edirdi.

**Dua** - insanların allahlara müraciətlə icra olunan arzu və istəkləri, ibadətləri.

**Dur-Şərrukin** - şəhər, e.ə. VIII əsrdə Asuriya hökmdarı II Sarqon tikdirmişdir. E.ə. VII əsrin sonlarında Midiya qoşunları tərəfindən dağıdılmışdır.

**dünya ticarəti** - əsasında beynəlxalq əmək bölgüsünün olduğu geniş beynəlxalq mal mübadiləsi. Dünya ticarəti Böyük coğrafi kəşflərdən sonra meydana çıxmışdır.



downloaded from KitabYurdu.org

**"dünyanın yeddi möcüzəsi"** – qədim insanlar möhtəşəm, əzəmətli və yaraşıqlı tikililəri və heykəlləri "dünyanın möcüzələri" adlandırırdılar. Qədimlərdə "dünyanın möcüzələri"nin adı çəkilirdi. Bəs niyə "dünyanın möcüzələri"nin sayı məhz yeddidir? Hələ qədim zamanlardan "7" rəqəmi müqəddəs sayılırmış. Qədim yunanlar bu rəqəmlə gələn hər şeyi tamamlanmış, bitkin sayırdılar. Ona görə də ən gözəl yaradılmışlar içərisindən yeddi ən gözəli "dünyanın möcüzələri" sırasına salınmışdır. "Dünyanın yeddi möcüzəsi" haqqında məlumat e.ə. III əsrdə antik müəlliflər tərəfindən qeyd olunur. "Möcüzə"lər tədricən bir-birini əvəz etməyə başlamışlar. Ona görə də antik müəlliflərdə bu barədə fikir müxtəlifliyi daha çoxdur. Qədim müəlliflər "dünyanın yeddi möcüzəsi" sırasına ən çox Misir piramidalarını; Semiramidanın asma bağlarını; Artemisionu (Efesli Artemida məbədini); Olimpliyalı Zevsin heykəlini; Rodos Kolossunu; Halikarnas mavzoleyini və İsgəndəriyyə mayakını daxil edirlər. Qədim memar və heykəltəraşların məhz bu abidələrini "dünyanın yeddi möcüzəsi" hesab edirlər.

**Dünyanın üzünü su alması haqqında əsatir** - dünyanın üzünü suyun alması haqqında mif Mesopotamiyada meydana gəlmişdir. Dəclə və Forat çaylarının yazda daşması bu çayların arasında yerləşən Mesopotamiyadakı daxmaları uçurur, heyvanların suda batıb məhv olmasına səbəb olurdu. Bəzən Dəclə və Fərat qovuşaraq gur axan bir selə çevrilirdilər və o zaman adamlara elə gəlirdi ki, bütün dünyanın üzünü su alır. Çayların suyunun qalxması və daşqınlar Mesopotamiya sakinlərinin dəhşətli və qorxulu düşməni idi. Lakin camaat buradan çıxıb getmirdi, çünki çayların daşması ilə münbitləşən torpaq həddən çox məhsuldar olurdu. Ona görə də dünyanın üzünü su alması haqqında əsatir məhz burada - Mesopotamiyada meydana gəlmişdi.

Əsatirdə rəvayət olunur ki, insanlar allahlara inamlarını itirəndə allahlar onların bütün torpaqlarını suda batırmaq qərarına gəldilər ki, insanlar qırılsınlar. Amma müdriklik allahı hazırlanan daşqın haqqında daxmaların tikildiyi qamışlara söyləmiş, onlar da bunu sahiblərinə pıçıldamışlar. Sahib gəmi inşa etmiş, ailəsini, bacarıqlı sənətkarları, eləcə də vəhşi və ev heyvanlarını həmin gəmiyə mindirmişdir. Allahların yaratdığı daşqından Yer üzərindəki bütün canlılar məhv olmuşdur. Altı gündən sonra su çəkilməyə başlamışdır. Gəmidən buraxılmış qarğa suyun çəkildiyi boş yeri tapmış və sonra insanlar və heyvanlar oraya çıxmışlar. Dünyanın üzünü su alması haqqında əsatir Mesopotamiyadan başqa ölkələrə yayılmış və Bibliyada öz əksini tapmışdır.

**Düperron** Anketil - fransız alimi, 1775-ci ildə parsların qədim kitablarını tapmaq məqsədi ilə sıravi əsgər kimi muzdla Hindistana gəlmişdir. Üç ilə yaxın Hindistanda parsların arasında yaşamış və onların kahini Darab Kumanın köməyi ilə müqəddəs Avestanı öyrənmişdir. Fransaya qayıtdıqdan sonra o, 1771-ci ildə Avropada ilk dəfə olaraq Avestanın fransızca tərcüməsini (parsların adət və ənənələrinin təsviri ilə birlikdə) nəşr etdirmişdir. Məhz Anketil Düperron Avropa



downloaded from KitabYurdu.org

mədəniyyətində onun Avesta tərcüməsində təsvir etdirdiyi zərdüstilik haqqında təsəvvür yaratmışdır.

**dyavol** ("İblis", "şeytan") - xristianlıqda allaha qarşı çıxan şər qüvvə və ya şər qüvvələrin başçısı; cəhənnəmin ağası.

## -E-

**egida** - 1) qədim yunan mifologiyasında - Zevsin qalxanı, allahların qəzəb və himayədarlıq rəmzi; 2) məcazi mənada - müdafiə, himayədarlıq.

**ehkam** - kor-koranə qanun kimi qəbul edilən müddəa; bütün dövrlər və şəraitlər üçün dəyişilməz hesab edilən mübahisə doğurmayan gerçəklik.

**ehram** - bax: piramida.

**Exnaton** (qədim misircə "Atona xeyirli olan") - Qədim Misir fironu, Misir dininin islahatçısı. Gerçək taxt-tac adı - IV Amenhotepdir. O, ənənəvi Misir



allahlarından imtina edib vahid Günəş allahı Atona sitayişi qəbul etdi və öz adını dəyişdi, Misirin paytaxtını tikdirdiyi Axetaton şəhərinə köçürtdü. Köhnə yerli məbədlər boşaldı. Yeni allah Aton üçün dəbdəbəli məbədlər inşa olundu, islahatçı firona sadiq olan yeni kahinlər meydana çıxdı. Exnatonun dövründə Misir Suriya və Fələstin üzərində olan hakimiyyətini itirməyə başladı. Misirin Asiyadakı ərazilərinə köçəri xabiru (yəhudi) tayfalarının soxulması vəziyyəti bir qədər də mürəkkəbləşdirdi. Exnatonun hakimiyyəti Qədim Misir incəsənətində köhnə qanunların məhv edilməsi ilə müşayiət olunurdu. Yeni, daha canlı stil işlənilib hazırlandı. Exnatonun necə ölməyi bəlli deyil. Ölümündən sonra kahinlər Exnatonu həqiqi dindən üz çevirmiş kimi damğaladılar; onun tətbiq etdiyi bütün yeniliklər ləğv edildi, Exnatonun şərəfinə qoyulmuş abidələr dağıdıldı, onun adı olan yazılı məlumatlar pozuldu.

**Ekbatana** - Midiyanın paytaxtı (müasir Həmədan şəhəri rayonunda yerləşir). Midiyalıların Kaştariti tərəfindən assurlara qarşı yaradılmış hərbi mərkəzləri, Kar-Kaşşi ("Kassitlərin koloniyasi") qalasının yaxınlığında yerləşirdi. Burada, Midiya tayfa başçılarının qədim toplanış yerində, sonralar (ola bilsin ki, e.ə. VII əsrin əvvəllərində) Midiyanın paytaxtı - Ekbatana (qədim Midiya dilində "Toplanış yeri" deməkdir) inşa edilmişdir. Herodota görə, Deyok Ekbatananı özü üçün tikməyi əmr edibmiş. Ekbatana iri sənətkarlıq, ticarət və mədəniyyət mərkəzi imiş.

**ekspansiya** - dövlətin öz nüfuz dairəsini diplomatik, iqtisadi və hərbi üsullarla başqa dövlətlərdə genişləndirməyə yönəldilmiş siyasəti. Ekspansiya başqa xalqları tabe etmək, yeni ərazilər və bazarlar tutmaq, kapital qoymaq və xammal mənbələri ələ keçirmək siyasəti güdür.



downloaded from KitabYurdu.org

**ekspropriasiya** - xüsusi mülkiyyətin və ya istehsal vasitələrinin əvəzsiz və ya haqqı qismən, yaxud tam ödənilməklə dövlət hakimiyyəti tərəfindən məcburən sahibinin əlindən alınması.

**eksses** - 1) nəyinsə ifrat təzahürü, nəfsini saxlaya bilməmək, israfçılıq; 2) ictimai asayişi pozan kəskin toqquşma.

**eksterritoriallıq** - xarici dövlətlərin başçılarına, beynəlxalq təşkilatların nümayəndələrinə, xarici diplomatik nümayəndəliklərə və onların əməkdaşlarına olduqları ölkədə, eləcə də xarici sularda olan nəqliyyat vasitələrinə və hərbi gəmilərə müvafiq dövlətin icazəsi ilə verilmiş xüsusi hüquq və imtiyazlar. Eksterritoriallıq şəxsiyyətin və mənzilin toxunulmazlığını, yerli qanunlarla mühakimə edilməzliyi, öz hökuməti ilə bir-başa rabitə əlaqəsi yaratmaq ixtiyarını və s. imtiyazları bildirir.

**ekstremist** - ifrat tədbirlər və fəaliyyət tərəfdarı.

**ekstremizm** - əsasən siyasətdə ifrat baxışlara və tədbirlərə meyl etmək.

**elatlar** - 1) köçəri maldar tayfalarından ibarət birlik və ya ittifaq; 2) geniş mənada - elatlar orduda xidmət etməli və hərbi yürüşlər zamanı hər bir tayfadan, qəbilədən süvari qoşun çıxarmalı idilər.

**Eldənizlər** (Eldəgizlər, Eldəgəzlər) – 1136 - 1225-cı illərdə Cənubi Azərbaycanda mövcud olmuş hökmdarların sülaləsi.

**Eldənizlər dövləti** - Azərbaycan ərazisində dövlət (1136 - 1225). Səlcuqilər dövləti zəiflədi və nəticədə dağılmağa başladı. 1136-cı ildə İranın bir hissəsinin,




Cənubi Azərbaycan və Arranın azyaşlı Səlcuqi hakiminin atabəyi vəzifəsinə iqamətgahı Bərdədə olan Şəmsəddin Eldəgəz (1136 - 74) təyin edildi. 1160-cı ildə Şəmsəddin Eldəgəz "böyük atabəy" titulu aldı ki, bu da onun başqa atabəylərdən yüksək olduğuna işarə idi. 1161-ci ildən atabəylərin Azərbaycandakı qərb mülklərinə gürcü qoşunları vaxtaşırı hücumlar etməyə başladılar. Şəmsəddin Eldəgəzdən sonra hakimiyyət onun oğlu Məhəmməd Cahan Pəhləvana (1174 -86) keçdi, o isə paytaxtı Həmədana köçürdü, itaətsiz əmirləri tabe etdi, daha mühüm dövlət vəzifələrinə özünün 70-ə qədər şəxsi nökərini - məmlükləri təyin etdi. Məhəmməd Cahan Pəhləvan Gürcüstan və xarəzmşahla sülh bağlaya bildi. 1186-cı ildə şirvanşah I Axsitan atabəy Qızıl Arslanın (1184-91) torpaqlarına soxuldu, lakin məğlubiyyətə uğradı və Qızıl Arslan Şirvan torpaqlarını tutdu. 1191-ci ildə sonuncu səlcuq sultanı III Toğrulu devirən Qızıl Arslan xəlifənin razılığı ilə özünü sultan elan etdi. Amma elə həmin ildə də Qızıl Arslan öldürüldü və onun torpaqları qardaşı Məhəmməd Cahan Pəhləvanın oğlanları - Əbubəkr, Qutluq İnanc və Əmir Əmiran arasında bölüşdürüldü. Bir qədər sonra qardaşlar arasında hakimiyyət uğrunda mübarizə başlandı və Əbu-bəkrin (1191 - 1210) qələbəsi ilə başa çatdı. Lakin



downloaded from KitabYurdu.org

xarəzmşahların, gürcülərin arasıkəsilməz müdaxiləsi və monqolların talançı yürüşləri Eldəgəzlər dövlətinin zəifləməsinin başlanğıcı oldu. Atabəy Özbəyin (1210 - 25) dövründə feodal ara müharibələri, xarici hücumlar, mərkəzi hakimiyyətin zəifləməsi dövlətin müdafiə qabiliyyətini xeyli zəiflətdi. 1225-ci ildə xarəzmşah Cəlaləddin Azərbaycana soxuldu və onu zəbt etdi, Eldəgəzlər dövləti dağıldı, sonuncu atabəy Özbək Əlincə qalasında öldü.

**Eldorado** - ispan konkistadorlarının Amerikada axtardıqları qızıl və daş-qaşla zəngin mifik ölkə. Məcazi mənada - əfsanəvi zənginlər və möcüzələr ölkəsi.

**elita** - cəmiyyətin yuxarı, seçilmiş təbəqəsi və ya adamların seçilmiş dairəsi.

**Ellada** - ellinlərin Qədim Yunanıstanın özündə, Egey dənizi adalarında və Kiçik Asiya sahillərində məskunlaşdıqları ərazilərə verdikləri ad.

**ellinizm** - Şərqi Aralıq dənizi sahili ölkələrində e.ə. 334-cü ildə Makedoniyalı İsgəndərin yürüşü ilə başlanan və e.ə. 30-cu ilə qədər olan tarixi dövr. İsgəndərin nəhəng imperiyası diadoxlar arasında bölüşdürüldü və onlar istila edilmiş ərazilərdə öz çar sülalələrini (Selevkilər, Ptolemeylər və s.) yaratdılar. Yunan sülalələri və yunan-makedon köçkünlərinin siyasi təsiri ilə yerli Qədim Şərq və yunan ənənələrinin qovuşması nəticəsində yeni mədəniyyətlər yarandı. E.ə. II-I əsrlər ərzində ellin dövlətlərinin hamısı Romanın təsiri altına düşdü. E.ə. 30-cu il - Ptolemey Misirinin Romanın əyalətinə çevrildiyi dövr - ellinizmin sonu kimi qəbul edilir.

**ellinlər** - çox böyük ərazidə, o cümlədən yad ölkələrdə məskunlaşmış, amma eyni dildə danışan, eyni yazıdan istifadə edən, eyni allahlara etiqad edən və özünü vahid xalq hesab edən bütün qədim yunanların özlərinə verdikləri ümumi ad.

**elxan** - elatların başçısı, ağsaqqalı.

**Elçibəy (Əliyev) Əbülfəz** - ixtisasca şərqşünas, AR prezidenti (1992 - 93). 1960-cı illərdə - 70-ci illərin birinci yarısında Əbülfəz Əliyevin rəhbərliyi ilə bir



qrup azadfikirli tələbə milli özünüdərketmə şüurunu yaratmaq məqsədi ilə gənclər arasında təbliğat aparmağa başladı. 1975-ci ildə Ə.Əliyev dövlət təhlükəsizlik orqanları tərəfindən həbs edildi. 1989-cu il iyunun 16-da Bakıda “Azərbaycan Xalq Cəbhəsi” (AXC) yaradıldı və Əbülfəz Əliyev (təxəllüsü "Elçibəy") onun sədri scçildi. 1991-ci il mayın 14-də istefaya getmiş AR prezidenti Mütəllibovun tərəfdarları Ali Sovetinin sessiyasında onu yenidən hakimiyyətə qaytardılar. Bunu qeyri-konstitusion adlandıran AXC öz tərəfdarlarınınköməkliyi ilə mayın 15-də Ali Sovetin binasını tutdular. Hakimiyyət faktik olaraq AXC-nin əlinə keçdi. İyunun 7-də keçirilmiş seçkilər nəticəsində Əbülfəz Əliyev (Elçibəy) AR prezidenti seçildi. İyunun 10-da AR Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) üzvlüyünə daxil oldu, elə həmin ayda da YUNESKO təşkilatına qəbul edildi. 1992-ci ilin yayında Ağdərə əməliyyatı zamanı Azərbaycan qoşunları xeyli uğurlar qazandı. Avqustun 15-də milli valyuta - manat dövriyyəyə buraxıldı.



downloaded from KitabYurdu.org

Sentyabrın 22-də AR Avropa Yenidənqurma və İnkişaf Bankının üzvü oldu. 1993-cü ildən Azərbaycanda ali və orta ixtisas məktəblərinə qəbul imtahanları testlə keçirilməyə başlandı ki, bu da daha bilikli və bacarıqlı gənclərin həmin məktəblərə daxil olmasına imkan verdi. Novruz bayramı, Qurban bayramı daha geniş qeyd olunmağa başlandı. Köhnə məscidlər bərpa edilir və yeniləri tikilirdi. Türkiyə Respublikası ilə elmi və mədəni əlaqələr daha da genişlənirdi, lakin onilliklər ərzində Rusiya Federasiyası ilə yaradılmış belə əlaqələr getdikcə zəifləyirdi. İran İslam Respublikası ilə siyasi münasibətlər gərgin idi. AR daxilində iqtisadi tənəzzül daha da dərinləşmişdi, istehsal gücünün yalnız 25 - 30%-dən istifadə olunurdu. Ermənistanla davam edən müharibə iqtisadiyyata ciddi zərbə vururdu. Ölkədə yarım milyona qədər qaçqın və köçkünün olması vəziyyəti daha da çətinləşdirirdi. İqtisadiyyatda hökm sürən köhnə inzibati amirlik idarəetmə sistemi ləğv edildi, amma hələ yenisi yaradılmadı. İqtisadiyyat xaos vəziyyətində idi, respublikanın təbii sərvətləri talan edilirdi, Azərbaycan məhsullarının satılmasından əldə olunan valyuta əsasən xarici banklardakı şəxsi hesablarda qalırdı. Cəmiyyətdə kəskin əmlak təbəqələşməsi gedirdi - kiçik bir qrup adam zənginləşir, əhalinin 60 - 70%-i isə yoxsulluq həddindən də aşağı vəziyyətdə yaşayırdı. İşsizlik durmadan artırdı. Daxili və xarici siyasətdəki uğursuzluqlar və çatışmazlıqlar isə ilk növbədə AR rəhbərliyinin düzgün olmayan naşı kadr siyasəti ilə bağlı idi və bunun da nəticəsində idarəetmə aparatına uyğun gəlməyən səlahiyyətsiz şəxslər, əsasən də AXC üzvləri cəlb edirdi. 1993-cü il aprelin 6-da ermənilər Kəlbəcər rayonunu işğal etdilər. Azərbaycan qoşunlarının Ağdərə əməliyyatı da son hesabda uğursuz nəticələndi. Müharibənin davam etməsi, ağır itkilər, hərbi səriştəsizlik, iqtisadi tənəzzül, AR rəhbərliyindəki siyasi çəkişmələr xalqın səbir kasasını daşdırdı. Elçibəy hökuməti xalq arasındakı dayaqlarını itirir, AXC-nin nüfuzu düşürdü. Tyunun 4-də Gəncədə Surət Hüseynovun rəhbərliyi ilə ordu hissələrinin qiyamı nəticəsində Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi yarandı. Başda Elçibəy olmaqla özünün siyasi gücsüzlüyünü dərk edən AR rəhbərliyi iyunun 9-da təcrübəli və müdrik siyasətçi Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etmək məcburiyyətində qaldı. İyunun 15-də R.Əliyev AR Ali Sovetinin sədri seçildi. Bir neçə  gündən sonra AR prezidenti Elçibəy qəflətən Bakını tərk edib öz doğma kəndi Kələkiyə (Naxçıvan) getdi və dəfələrlə ona edilən müraciətlərə baxmayaraq, Bakıya gəlməkdən imtina elədi. İyunun 24-də AR Ali Soveti Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini H.Əliyevə verdi. Avqustun 29-da keçirilən referendum iştirakçılarının əksəriyyəti Elçibəyə etimadsızlıq göstərdi. 1993-cü il oktyabrın 3-də H.Əliyev AR prezidenti seçildi.

**emansipasiya** - asılılıqdan və alçaldılmaqdan qurtarmaq, müstəqillik və hüquq bərabərliyi əldə etmək (məs.: qadınların emansipasiyası).

**embarqo** - məhsulun, valyutanın hər hansı bir ölkədən idxalını və ya hər hansı bir ölkəyə ixracını qadağan etmək, eləcə də xarici dövlətə məxsus olan gəmiləri, yükləri və başqa əmlakı saxlatdırmaq. Müharibə dövründə embarqo



downloaded from KitabYurdu.org

düşmən dövlətlərə qarşı iqtisadi sanksiya, dinc dövrlərdə isə müxtəlif ölkələrə iqtisadi və maliyyə təzyiqi göstərmək üçün istifadə olunur.

**Emiqrasiya** - bax: mühacirət.

**emissiya** - pul və qiymətli kağızların dövriyyəyə buraxılması.

**eneolit** (lat. və yun. tərcüməsi - "mis daş") - metal dövrünün ilk mərhələsi. Daş əmək alətləri ilə yanaşı, misdən - emal üçün daha yumşaq və sadə metaldan düzəldilmiş əmək alətləri də meydana çıxır. Eneolit neolitdən sonra başlayır və e.ə. VI - IV minillikləri əhatə edir. Eneolit dövründə Azərbaycanda bütün ev heyvanları əhliləşdirilmiş, atın əhliləşdirilməsinə isə başlanılmışdı. Eneolit tunc dövrü ilə əvəz olunur.

**enerji böhranı** - enerji ehtiyatlarının kəskin çatışmazlığı və bununla bağlı olaraq neft, neft məhsulları və digər enerji daşıyıcılarının qiymətlərinin kəskin şəkildə artması.

**Enki** - Şumer - Akkad mifologiyasında Anu və Enlil ilə yanaşı, üç baş allahdan biri. Enki - bərəkət allahıdır, mədəniyyət gətirən və dünyəvi dəyərlərin yaradıcısıdır. Enki həm də yeraltı Dünya okeanının şirin sularının, eləcə də yerüstü suların ağasıdır, müdriklik və dua allahıdır, insanların yaradıcısı və allahlar qarşısında onların müdafiəçisidir, bütün çətin işlərdə allahların və insanların köməkçisidir, bağçılığın, bostançılığın, kənafın və təbabət otlarının ixtiraçısı, toxa, kotan və kərpic üçün qəlib yaradıcısıdır.

**Enlil** - Şumer - Akkad mifologiyasında Anu və Enki ilə yanaşı, üç baş allahdan biri. Bərəkət və yaşayış üçün lazımi qüvvələrin, eləcə də ramolunmaz təbii qüvvələrin allahıdır. Ölən və dirilən allah kimi də təqdim olunur. Enlilin rəmzi - müqəddəs mehrabda qoyulmuş buynuzlu tiaradır (tac).

**enozis** – Kiprdə və Yunanıstanda Kiprin Yunanıstanla birləşdirilməsi uğrunda aparılan millətçi hərəkat. XIX əsrdə Kiprin Türkiyə və İngiltərəyə tabe olduğu dövrdə yaranmışdır. 1960-cı ildə Kipr respublika elan olunduqdan sonra enozis şüarı Yunanıstanın və Kiprin mürtəce qüvvələri tərəfindən adanın dövlət müstəqilliyini ləğv etmək məqsədi ilə istifadə edilmişdir. 1974-cü ildə Yunanıstan xuntasının və Kiprin yunan icmasının enozisi uğursuz hərbi yolla həyata keçirmək cəhdi onunla nəticələndi ki, adanın şimalına Türkiyənin məhdud qüvvələri çıxarıldı və yunanların qırğınından canlarını qurtaran türk icması burada Quzey Kıprıs Türk Cümhuriyyətini - Şimali Kipr Türk Respublikasını yaratdı. Türkiyə ilə müharibə təhlükəsi Yunanıstanda xalqın səbir kasasını daşdırdı və hakimiyyətdə olan "qara polkovniklər"in hərbi-faşist diktaturası süqut etdi.

**ensiklopediya** (lat. "geniş biliklərə yiyələndirmək") - müxtəlif sahələr və ya müəyyən bir sahə bilikləri üzrə ətraflı məqalələrdən ibarət elmi izahlı lüğət.

**ensiklopedistlər** - aralarında Mon-teskyö, Volter və başda Deni Didro olmaqla bir sıra fransız maarifçiləri 1751-ci ildən "Ensiklopediya " nəşr etməyə başlamışdılar. "Ensiklopediya"nın nəşrinin məqsədi o dövrün elmi bilikləri və



downloaded from KitabYurdu.org

qabaqcıl ideyalarını sistemləşdirmək, feodal mütləqiyyət qayda-qanunlarını tənqid etmək idi. 38 cilddən ibarət "Ensiklopediya"nın nəşri 1780-ci ildə başa çatmışdır.

**Engels Fridrix** (1820 - 95) - kommunizmin banilərindən biri, Marksın dostu və silahdaşı.

**epos** - şifahi xalq yaradıcılığında qədim şer abidəsi. Yazısız dövrdə yaradılan eposlar şifahi şəkildə nəsildən-nəslə ötürülmüşdür.

**erkən feodal dövləti** - feodalizmin təşəkkülü dövründə yaranan və meydana çıxan feodallara torpaqları tutmağa və azad adamları asılı kəndlilərə çevirməyə kömək edən dövlət.



**Esxil** - e.ə. V əsr üç böyük qədim yunan tragediya yazarlarından biri. 90-a qədər pyes yazmışdır. Bizə isə onlardan yalnız 7-si çatmışdır. Esxilin ən məşhur pyesləri "Oresteya" və çar Aqamemnonun ailəsi haqqındakı trilogiyasıdır. Esxil qədim yunan tragediyasının banisidır. İkinci aktyoru səhnəyə çıxaran ilk şəxs də məhz Esxil sayılır. Bununla da dialoqu və səhnələri canlandırmaq mümkün olmuşdur.

**eskalasiya** - genişləndirmə, qızışdırma, artırma qüvvətləndirmə (məs.: münaqişənin eskalasiyası).

**Eskulap** - Qədim Roma mifologiyasında səfa və loğmanlıq allahı. Yunan allahı Asklepiyə uyğun gəlir. Eskulapın atributu ilan idi.

**eşikağası** - Səfəvilər dövründə, sonralar isə Azərbaycan xanlıqlarında saray inzibati işlərinə nəzarət edən rəhbər.

**etimad rəyi** - parlamentdə səsvermə yolu ilə hökumətə, nazirə, siyasi xadimə etimad göstərilib - göstərilməməsi barədə çıxarılan qərar.

**etimad üd-dövlə** - baş vəzir.

**etnoqrafiya** (yun. "xalqların təsviri") - müxtəlif xalqların həyatını öyrənən elm. Bir sıra uzaq adalarda və çətinliklə gedilə bilən digər yerlərdə indiyədək öz inkişaflarında bizdən xeyli geri qalan qəbilə və tayfalar yaşayır. Onlarm yazıları yoxdur, bir çoxları hələ metalı tanımır. Bu tayfaların həyatı min illər əvvəl olduğu kimi qalmaqdadır. Onların arasında yaşayan etnoqraflar həmin tayfaların həyat və adətlərini öyrənir və bunları yazıya alırlar. Bu cür tayfaların həyatlarının tədqiqi qədimdə insanların necə yaşamalarını təsəvvür etməyə və ya öyrənməyə kömək edir.

**etnogenez** - xalqların mənşəyi.

**etrusklar** - e.ə. I minillikdə Apennin yarımadasının şimal-qərb rayonlarında məskunlaşmış qədim tayfalar. Etruskların mənşəyi hələlik bəlli deyil, amma bir sıra alimlər etruskların dilini Qafqaz dilləri ilə bağlayırlar. Etrusklar yüksək sivilizasiya yarada bilmişlər. E.ə. VII əsrin axırlarında etrusklar on iki şəhər-dövlətdən ibarət güclü ittifaqda yerləşdilər. E.ə. V - III əsrlərdə etrusklar Roma tərəfindən istila edildilər.

**evakuasiya** - bax: təxliyə.



downloaded from KitabYurdu.org

**Evklid** - qədim yunan riyaziyyatçısı. E.ə. III əsrdə Misir İsgəndəriyyəsində işləmişdir. Evklidin 15 kitabdan ibarət "Əsaslar" adlanan əsəri antik riyaziyyatın



əsasları üzrə - planimetriya, stereometriya və ədədlər nəzəriyyəsinə dair bir çox məsələnin ifadəsini vermiş, əvvəlki yunan riyaziyyatının inkişafını yekunlaşdırmış, sonraki inkişafı üçün zəmin yaratmışdır. Bundan əlavə, Evklid astronomiya, optika və musiqi nəzəriyyəsi üzrə əsərlər də yazmışdır.

**evolyusiya** - bax: təkamül.

**Eyzenhauer** Duayt Deyvid (1890 - 1969) - ordu generalı (1943), ABŞ-ın 34-cü prezidenti (1953-61). 1943-cü ilin dekabrından müttəfiqlərin Qərbi Avropadakı ekspedisiya qoşunlarının ali baş komandanı. 1944-cü il iyunun 6-da müttəfiqlərin qüvvələri general Eyzenhauerin komandanlığı altında



Normandiyaya (Fransanın şimal-qərbi) çıxarıldı və beləliklə, "İkinci cəbhə"ni açdılar. 1945-ci ildə Eyzenhauer ABŞ-ın Almaniyadakı işğal qoşunlarının komandanı, 1950 - 52-ci illərdə NATO silahlı qüvvələrinin baş komandanı olmuşdur. Prezident Eyzenhauer hökumətinin "zor mövqeyi" prinsiplərinə əsaslanan xarici siyasəti özgə ərazilərində hərbi bazalar yaratmaqdan ibarət idi. Lakin Eyzenhauerin prezidentliyi illərində ABŞ ilə SSRİ arasında münasibətlər mülayimləşdi və 1959-cu ildə Xruşşov ABŞ-a səfər etdi.

**Ezop** - e.ə. VI əsrdə yaşamış qədim yunan təmsilçisi; təmsil janrının yaradıcısı sayılır.

## - Ə –

**Əbdürrəhim** Hacı Seyid (1796) - Azərbaycan tarixçisi. Başlıca əsəri “Şəki xanları və onların nəsillərinin şəcərəsi”dir.

**"əbədilik evləri"** - Qədim Misirdə fironların və əyanların qayalarda qazılmış və bir neçə otaqdan ibarət olan sərdabələri. E.ə. II minillikdə Misirdə inşasına çoxlu vəsait və əmək sərf olunan piramida tikintisinə son qoyuldu, əvəzində "əbədilik evləri" tikintisinə başlanıldı.

**Əbu Bəkr** - Ərəb xilafətinin ilk xəlifəsi (632 - 634), dörd raşidi xəlifədən birincisi. Məkkənin varlı tacirlərindən olan Əbu Bəkr kişilər arasında islamı qəbul edən ilk şəxsdir. O, Məhəmməd peyğəmbərin dostu idi, Məkkədə incidilən və Mədinəyə mühacirət edən müsəlmanlara daim maliyyə yardımı göstərmişdir. Məhəmməd peyğəmbərin hicrəti zamanı onunla birlikdə təqibçilərdən qaçaraq Məkkə yaxınlığındakı Sevr mağarasında gizlənmişdir. Əbu Bəkrin qızı Ayişə Məhəmməd peyğəmbərə ərə getmişdir. Əbu Bəkr bütün hərbi yürüşlərdə və səfərlərdə Məhəmməd peyğəmbərin yanında olmuşdur. Məhəmməd peyğəmbər xəstələnən zaman Əbu Bokri namaza imam təyin etmişdir. Məhəmməd



downloaded from KitabYurdu.org

peyğəmbərin vəfatından sonra isə müsəlmanların əksəriyyəti Əbu Bəkrə xəlifə kimi biət etmişlər (and içmişlər). Əbu Bəkr çox sadə həyat tərzi keçirmiş, islamçılığı dövlət siyasətinin əsasına çevirmişdir. Onun dövründə dövlətin əsas atributları formalaşmış, Suriyanın və İraqın fəthinə başlanılmışdır.

**Əcəmi ibn Əbubəkr "Naxçıvani** (1120-?) – görkəmli Azərbaycan memarı, Naxçıvan memarlıq məktəbinin nümayəndəsi. Onun layihəsi ilə Eldənizlər



atabəyləri dövlətinin paytaxtı Naxçıvanda zərif quruluşa malik naxışlı monumental tikililər - Yusif ibn Küseyir türbəsi (1162), Mömünə xatın türbəsi (1186), Qoşaminarə və Cümə məscidi, Eldənizlərin Dar ül-mülk sarayı inşa edilmişdir. Onun şedevrləri dəqiq riyazi hesablamalar əsasında tikilib və mürəkkəb arxitektura kompleksindən ibarətdir. Əcəminin nailiyyəti mürəkkəb həndəsi naxışların və "kufi" ərəb əlifbası ilə yazılmış kitabələrin harmonik uzlaşdırılmasıdır. Əcəmi hələ öz sağlığında "memarların şeyxi" fəxri adını almışdır.

**"Ədalət"** - Rusiyada Fevral burjua-demokratik inqilabından sonra 1917-ci ilin martında Bakıda yaradılmış sosial-demokrat təşkilatı. "Ədalət" Cənubi Azərbaycandan gəlmiş mövsümçülər arasında inqilabi iş aparmaq, eləcə də Cənubi Azərbaycan və İran inqilabçı demokrat qüvvələri ilə əlaqə saxlamaq məqsədi ilə təsis olunmuşdu. Ə.Qafarzadə, B.Ağayev, M.Ağayev, A.Axundov, D.Hüseynzadə, S.C.Pişəvəri təşkilatın işlərində fəal iştirak edirdilər. 1917-ci ilin iyununda Əsədulla Qafarzadə-in redaktəsi ilə "Bayraği-ədalət" qəzetinin nəşrinə başlandı. "Ədalət" təşkilatının fəaliyyəti 1919-cu ildə xüsusilə gücləndi.

**ədliyyə** (ər. "ədalət", "qanunçuluq") - ədalət məhkəməsi; məhkəmə idarəsi, məhkəmə müəssisələri sistemi, mühakimə işlərinə baxan dövlət orqanlarının məcmusu.

**əhali (məskunlar)** - müəyyən ərazidə məskunlaşmış insanların cəmi; məs.: Yer kürəsi, qitə, ölkə, onun ayrı-ayrı sahələri və s. ərazilərdə yaşayan adamlar.

**Əhəmənilər** - İran (Əhəmənilər) dövləti şahlarının sülaləsi. Ənənəyə görə, İran şahlarının ən qədim sülaləsinin banisi Əhəmən adlı bir şəxs olmuş və buna görə də sülalə Əhəmənilər sülaləsi adlanmışdır. E.ə. 550-ci ildə Əhəmənilər nəslindən olan Böyük Kir Əhəmənilər (və ya İran) dövlətini yaratdı. Əhəmənilər sülaləsi Əhəmənilər dövlətində e.ə. 330-cu ilədək hakimiyyətdə oldu sonra isə Makedoniyalı İsgəndər tərəfindən tam məğlub edilən sonuncu Əhəməni şahı III Dara öz satrapı Bess tərəfindən öldürüldü.

**Əhəmənilər dövləti** - e.ə. 550-ci ildə sonuncu Midiya hökmdarı Astiaq üzərində qələbə çalmış İran şahı Böyük Kir tərəfindən yaradılmışdır. Kir Midiyanı və ona tabe olan ölkələri, o cümlədən bütün Cənubi Qafqazı öz şahlığına daxil etmişdi. Sonra Kir Lidiya çarlığını (e.ə. 546) və Babilistanı (e. ə. 538) işğal etdi. E.ə. 530-cu ildə Kir Tomirisin başçılıq etdiyi massaget tayfaları ilə savaşda öldürüldü. E.ə. 525-ci ildə Kirin oğlu Kambiz (e.ə. 530 - 522) Misiri tabe etdi. E.ə.



downloaded from KitabYurdu.org



522-ci ildə Midiya maqı Qaumata özünü İran şahı elan etdi. Dara başda olmaqla İran əyanları Qaumatanı öldürdülər və başçılıq etdiyi üsyanı yatırdılar. I Daranın hakimiyyəti illərində Əhəmənilər dövlətinin, demək olar ki, hər yerində üsyanlar baş vermişdi. Bunlardan Midiyada Fravartişin və Asaqartada Çissantaxmanın üsyanlarını (Cənubi Azərbaycan ərazisində) göstərmək olar. Amma I Dara üsyanları yatıra bildi. I Daranın hakimiyyəti illərində Əhəmənilər dövləti özünün ən qüdrətli çağına çatdı. Kserksin dövründə Yunanıstanı tutmaq cəhdi Əhəməni şahlarının məğlubiyyəti ilə nəticələndi. Kserksin hökmranlığından sonra Əhəmənilər dövləti daxilində çəkişmələr getdikcə daha da kəskinləşdi. Əhəməni şahlarının taxt-tac üstündə mübarizəsi və Əhəmənilər dövləti tərəfindən istila edilmiş xalqların çoxsaylı üsyanları dövlətin zəifləməsinə səbəb oldu. E.ə. 373-cü ildən 359-cu ilədək Əhəmənilər dövlətində "satrapların möhtəşəm üsyanı" baş verdi və o, çox çətinliklə yatırıldı. III Artakserksin hakimiyyəti illərində - e.ə. IV əsrin ortalarında Əhəmənilər dövləti ən amansız tədbirlər nəticəsində sonuncu dəfə müəyyən dərəcədə bərpa edildi. Sonra taxt-tac uğrunda yenidən mübarizə başlandı və farslar makedoniyalılarla savaşa hazırlaşmağa imkan tapmadılar. E.ə. 334-cü ildə Makedoniyalı İsgəndər farslarla müharibəyə başladı və üç həlledici döyüşdə - Qranik, İss və Qavqamela yaxınlığında baş vermiş döyüşlərdə Əhəməni qoşunlarını darmadağın etdi. E.ə. 330-cu ildə sonuncu Əhəməni şahı III Dara öldürüldü; möhtəşəm Əhəmənilər dövləti "içiboş müqəvva" kimi məhv oldu.



İki yüz ildən artıq bir dövr ərzində geniş ərazilər Əhəmənilərin hakimiyyəti altında qalmış, onların xalqları vahid bir dövlət tərkibində sülh şəraitində əmin-amanlıqla yaşamışlar ki, bu da öz növbəsində ticarətin və mədəniyyətin çiçəklənməsi üçün əlverişli şərait yaratmışdı. Əhəmənilərin ağalığı dövrü ayrı-ayrı xalqların müxtəlif dillərinin, mədəniyyət və dinlərinin qovuşması prosesinin intensiv şəkildə getməsi ilə səciyyələnir. Əhəmənilər dövlətinin varlığı Azərbaycan ərazisində məskunlaşan tayfaların tarixi və mədəni inkişafında mühüm rol oynamışdır.

**əfv** (ər. "bağışlama", "güzəştə getmə", "günahından keçmə") - dövlət başçısının və ya ali nümayəndəli hakimiyyət orqanının qərarı ilə cinayət cəzasından azad etmə, cəzanın ləğv edilməsi və ya yüngülləşdirilməsi. Bax həmçinin: amnistiya.

**əxlaq** – cəmiyyətdə, ailədə hələ ibtidai icma cəmiyyəti dövründən yaranmağa başlamış davranış prinsipləri və normalarının məcmusu. Əxlaq öz ifadəsini insanların hərəkətlərində, onun cəmiyyətə, kollektivə, əməyə, ailəyə münasibətində tapır. Əxlaq ictimai rəy və təsirə, əqidəyə, ənənəyə, adətə əsaslanır.



downloaded from KitabYurdu.org

**əkərlər** - Talış xanlığında öz təsərrüfatı və torpağı olmayan kəndlilər. Feodalın torpağında işləyən əkərlər illik məhsulun cüzi bir hissəsini alırdılar. Azərbaycanın digər xanlıqlarında belə kəndlilərə rəncbər deyilirdi.

**"Əkinçi"** - Zərdabi tərəfindən əsası qoyulan maarifçi və demokratik yönümlü ilk Azərbaycan qəzeti. 1875 - 77-ci illərdə Bakıda Azərbaycan dilində nəşr olunmuşdur. Qəzetin nəşri çar hakimiyyətinin göstərişi ilə dayandırılmışdır.

**əkinçilik** - torpağın qida məhsulu istehsal etmək məqsədi ilə becərilməsi, toxumun səpilməsi və məhsul yığılması ilə bağlı insanların istehsal fəaliyyəti. Əkinçilik 10 min il əvvəl Ön Asiyada meydana gəlmiş və oradan da qonşu ölkələrə yayılmışdır. Torpaq üzərində iş həmişə diqqət və qayğı tələb edirdi. Əkinçilər tarlalarda işləmək üçün daimi yaşayış məskənləri inşa etməyə başladılar, yəni oturaq həyat tərzinə keçdilər. Əkinçilik - istehsal təsərrüfatı formalarından biridir. Əkinçiliyin ilk forması toxa əkinçiliyi olmuş, sonra xış əkinçiliyi meydana gəlmişdir.

**əksinqilab** - irticanın yüksəlməkdə olan və ya qələbə çalmış inqilaba və bunun nəticəsində bərqərar olmuş ictimai quruluşa qarşı, onun qarşısını almaq və köhnə qaydaları bərpa etmək məqsədi ilə apardığı fəal mübarizəsi.

**Əksreformasiya** - Qərbi Avropada XVI - XVII əsrlərdə papalığın başçılığı ilə Reformasiyaya qarşı çevrilmiş dini-siyasi hərəkat.

**əl-Əlameyn** - Misirin şimalında, İsgəndəriyyə şəhərindən 104 km qərbdə olan yaşayış məntəqəsi. İkinci Dünya müharibəsi illərində əl-Əlameyn rayonunun müdafiə xəttində general Montqomerinin komandanlıq etdiyi 8-ci ingilis ordusu faşistlərin Süveyş kanalına doğru irəliləməsinin qarşısını aldı, 1942-ci il noyabrın əvvəllərində isə italyan - alman qoşunlarının cəbhəsini yardı və bu, Şimali Afrika kampaniyasının gedişində dönüş nöqtəsi oldu.

**Əlhambra** - Qranada (İspaniya) xəlifələrinin XIV əsrdə inşa etdirdikləri dünyada məşhur olan qala və saray. Bezi kitablarda "Əlhəmra" adı ilə verilir.

**Əli ibn Əbu Talib** - Ərəb xilafətinin dördüncü xəlifəsi (656 - 661), dörd raşidi xəlifədən sonuncusu, Məhəmməd peyğəmbərin əmisi oğlu və kiçik qızı Fatimənin əri. İslamda ilk parçalanmanı salan radikal müsəlman təriqətinin - xariciyyunların qüvvələrini darmadağın etmiş, sonralar isə onların göndərdiyi qatil Əbdürrəhman ibn Mülcəm tərəfindən öldürülmüşdür. Sünnilər Əlini raşidi xəlifələrdən biri kimi qəbul edirlər. Şiəliyin meydana gəlməsi də Əlinin adı ilə bağlıdır. O, şiələr tərəfindən birinci imam elan olunmuşdur. Şiələr digər üç raşidi xəlifənin hakimiyyətinin qanuniliyini tanımır, onları hakimiyyəti zorla ələ keçirməkdə günahlandırırlar.

**əlifba** - bir işarənin bir səs bildirdiyi yazı sistemi. Əlifba e.ə. XIII əsrə yaxın finikiyalılar tərəfindən yaradılmışdır və 22 samit işarə - hərfdən ibarət idi; yazıda sait səslər göstərilmirdi. "Əlifba" sözünün özü Finikiya əlifbasındakı ilk hərflərin adlarından – "alef" və "bet" (ərəbcə "əlif" və "bə") - götürülmüşdür. Finikiya əlifbası e.e. IX – VIII əsrlərdə qədim yunanlar tərəfindən qəbul olunmuş və



downloaded from KitabYurdu.org

təkmilləşdirilmişdir. 24 hərfdən ibarət olan qədim yunan əlifbasında Finikiya əlifbasından fərqli olaraq təkcə samit səsləri deyil, həm də sait səsləri bildirən işarələr var idi. E.ə. VIII - VII əsrlərdə İtaliyada Latsium vilayətində yaşayan romalılarda da əlifba meydana gəlir. Bir qrup alimin fikrincə, latın əlifbası qədim yunan əlifbası əsasında meydana gəlmişdir, digər qrup isə onun etrusk əlifbasından yarandığını iddia edir. Latın əlifbasında ilk dəfə olaraq boşluqlar vasitəsilə sözlərin bir-birindən ayrılması, habelə nöqtə və vergüllə, həmişə də olmasa, punktuasiya təkmilləşdirməsi göstərilir.

Göstərilən əlifbaların on uğurlusu latın əlifbasıdır. Müxtəlif dillərin xüsusiyyətlərinə uyğunlaşdırılmış latın əlifbası hazırda Avropanın əksər hissəsində hökmrandır. Bir neçə əlifba dəyişdirilməsindən sonra Azərbaycanda yenidən latın qrafikasına qayıdılmışdır. Avqustun 1-i Azərbaycan dili və əlifbası günüdür.

**Əliyev Heydər Əlirza oğlu** (1923 - 2003) - görkəmli sovet və Azərbaycan dövlət xadimidir. 1965-ci ildən Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin (DTK - KQB) sədr müavini, 1967 - 69-cu illərdə sədri olmuşdur. 1969-cu ilin iyulundan 1982 – ci ilə kimi H.Əliyev AKP MK-nın birinci katibi olmuşdur. H.Əliyevin rəhbərliyi dövründə respublikada milyondan artıq yeni iş yeri yaradılmış, mütərəqqi texnologiyaya - elektron, radiotexnika, hesablama texnikası və s. əsaslanmış yeni istehsal sahələri yaradılıb inkişaf etdirilmişdir. 1975-ci ildə yapon mütəxəssislərinin yardımı ilə Bakı Məişət kondisionerləri zavodu inşa edilmişdir. 1980-ci illərin əvvəllərində Azərbaycanda SSRİ-də istehsal olunan neft avadanlığı hazırlanırdı. 1970 - 80-ci illərdə bir çox suvarma



kanalları, sututarlar tikildi və yenidən quruldu, becərilən torpaq sahələri xeyli artırıldı. Dənli bitkilərin sahəsinin ixtisarı hesabına texniki bitkilərin, o cümlədən pambıq və üzüm plantasiyalarının sahəsi genişləndirildi. Respublikada mənzil tikintisinə geniş meydan verildi. Azərbaycanın böyük mədəniyyət xadimlərinin yubiley şənliklərinin qeyd olunmasına başlanıldı, respublikada və Moskvada Azərbaycan teatrının 100 illik yubileyi təntənəli şəkildə keçirildi. 1930-cu illərdə "xalq düşməni" elan edilmiş şair Hüseyn Cavidin cənazəsinin qalıqları İrkutsk vilayətindən gətirilərək Naxçıvanda dəfn edildi. 1976-cı ildə 10 cildlik "Azərbaycan Sovet Ensiklopediyası"nın nəşrinə başlanıldı. 1981-ci ildə Cənubi Azərbaycan şairi Şəhriyarın əsərləri nəşr edildi, "Şəhriyar gecələri"nin keçirilməsi Azərbaycan xalqının birləşdirilməsində mühüm bir mərhələyə çevrildi. Azərbaycan dilinin təbliği genişləndi. Azərbaycan mədəniyyəti, incəsənəti və musiqisi sürətlə inkişaf edirdi. H.Əliyev həmişə mütəmadi olaraq DQMV-ni nəzarət altında saxlayırdı. Onun respublikadakı hakimiyyəti illərində DQMV-də bir dəfə də olsa erməni çıxışı qeydə alınmamışdır. H.Əliyev 1971-ci ildə Sov.İKP MK-nın üzvü, 1974-cü ildə SSRİ Ali Soveti İttifaqlar Soveti sədrinin müavini, 1976-cı ildə Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ildə isə Sov.İKP MK



downloaded from KitabYurdu.org

Siyasi Bürosunun üzvü seçilmiş və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdir. Qorbaçov hakimiyyətə gələndən sonra o və onun Dağlıq Qarabağı Ermənistana birləşdirməyə çalışan ennəni müşavirləri Heydər Əliyevin nüfuzunun artmasından təşvişə düşmüşdülər və onu siyasi fəaliyyətdən uzaqlaşdırmağa çalışırdılar. Erməni millətçilərinin və Azərbaycanda olan mafioz qrupların əli ilə Moskvaya şikayət axını təşkil edildi ki, bu da son nəticədə H.Əliyevin 1987-ci ildə istefası ilə nəticələndi. 1990-cı il yanvarın 20-dəki qanlı hadisələrdən sonra o vaxtlar Moskvada yaşayan H.Əliyev sovet rəhbərliyinin insanlığa və qanunçuluğa zidd olan hərəkətlərinə qarşı açıq etirazını bildirdi. Tezliklə H.Əliyev Naxçıvana gəldi və burada Naxçıvan Muxtar Respublikası AH Sovetinin sədri seçildi. 1993-cü ildə özünün səriştəsizliyi və gücsüzlüyünü başa düşən, respublikanı fəlakət həddinə gətirən Azərbaycanın "cəbhəçi" rəhbərləri ölkənin təcrübəli və müdrik siyasətçisi Heydər Əliyevi Bakıya dəvət etmək məcburiyyətində qaldılar. H.Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bir neçə gündən sonra Azərbaycan Respublikasının prezidenti Elçibəy qəflətən Bakını tərk edib öz doğma kəndi Kələkiyə (Naxçıvan) yollandı və dəfələrlə edilmiş müraciətlərə baxmayaraq, Bakıya qayıtmaqdan imtina etdi. İyunun 24-də AR Ali Soveti Azərbaycan Respublikası prezidentinin səlahiyyətlerinin icrasını H.Əliyevə həvalə etdi. Avqustun 29-da keçirilmiş referendum iştirakçılarının böyük əksəriyyəti Elçibəyə etimadsızlıq göstərdi. 1993-cü il oktyabrın 3-də H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. Azərbaycan ordusunun yaradılması işində əvvəllər buraxılmış ciddi nöqsanlar nəticəsində, xüsusən də onun həddən ziyadə siyasiləşməsi ucbatından Azərbaycan qoşunları Ağdam (23 iyul), Cəbrayıl (18 avqust), Füzuli (23 avqust), Qubadlı (31 avqust) və Zəngilan (25 oktyabr) rayonlarını tərk etmək məcburiyyətində qalmışdır. Bütün bu rayonlar erməni qoşunları tərəfindən işğal edilmişdir, Azərbaycana qarşı erməni təcavüzü hələ davam edirdi. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Milli Ordunun yaradılması prosesini sürətləndirdi. 1994-cü ilin aprelində Milli Ordu Beyləqan rayonunda erməni qoşunlarına güclü əks-zərbə endirdi. Bundan sonra isə mayın 12-də Bişkekdə (Qırğızıstan) AR ilə Ermənistan arasında atəşkəs haqqında saziş imzalandı. Hərbi əməliyyatlardakı fasilə H.Əliyevə imkan verdi ki, iqtisadiyyatdakı təxirəsalınmaz problemləri həll etsin və Azərbaycan Respublikasındakı siyasi şəraiti sabitləşdirsin. Sentyabrın 20-də Xəzər dənizində neft hasilatı ilə məşğul olacaq beynəlxalq konsorsiumun yaradılması üçün "Əsrin müqaviləsi" adlandırılan kontrakt imzalandı. S.Hüseynovun başçılıq etdiyi qiyam oktyabrın 4-də ümumxalq dəstəyi ilə yatırıldı. 1994-cü ildə H.Əliyev Brüsseldə Azərbaycan Respublikasının NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında iştirak etmək haqqında sazişi imzaladı. 1995-ci il martın 13 - 17-də Bakıda R.Cavadovun başçılıq etdiyi XTPD hissələrinin qiyamı yatırıldı. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu əsasında Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. 1996-cı ilin aprelində H.Əliyev Lüksemburqda Aİ ilə



downloaded from KitabYurdu.org

"Tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş"i imzaladı. Azərbaycan Respublikasında iqtisadi və siyasi şərait tədricən sabitləşdi. 1998-ci il oktyabrın 11-də keçirilən seçkilərdə H.Əliyev ikinci müddətə (1998 - 2003) Azərbaycan Respublikasının prezidenti seçildi. Öldəki siyasi vəziyyət tamamilə sahmana düşdü və respublika iqtisadiyyatında, zəif də olsa, yüksəliş başlandı. Xalqın rifahı yaxşılaşdı. Gələcəkdə Bakı - Tbilisi - Ceyhan neft və qaz kəmərlərinin çəkilməsini nəzərdə tutan iri layihə əsasında Azərbaycan neft və qazının Türkiyəyə və dünya bazarına ötürülməsi mümkün olacaqdır.

**Əliyev İlham Heydər oğlu** - Azərbaycan Respublikasının dördüncü prezidenti (2003-cü ildən). 1961-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu, 1985-ci ildə isə həmin institutun aspiranturasını bitirmişdir. Tarix elmləri namizədidir. 1985 - 90-cı illərdə




yuxarıda adı çəkilən institutda müəllim kimi çalışmışdır. 1991 - 94-cü illərdə Moskvada "Oriyent" şirkətinin baş direktoru olmuşdur. 1994-cü ildə Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilmişdir. 1995 - 2003-cü illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentidir. 1999-cu ildən Yeni Azərbaycan Partiyası sədrinin müavinidir. 2001 - 2003-cü illərdə Azərbaycan Respublikası Milli Məclisinin Avropa Şurası Parlament Assambleyasındakı daimi nümayəndə heyətinin başçısı olmuşdur. 2003-cü il avqustun 4-də Azərbaycan Respublikasının baş naziri təyin edilmişdir. 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının prezidenti seçilmişdir.

**əlkimya** - kimyanın III - IV əsrlərdə Misirdə meydana çıxmış sahəsi. Orta əsrlərdə Avropada geniş yayılmışdı. Əlkimyaçıların (kimyagərlərin) əsas məqsədi oksidləşən (qeyri-nəcib) metalların qızıl və gümüşə (nəcib metallara) çevrilməsinə yardım edəcək “fəlsəfə daşı”nın, eləcə də “əbədi həyat iksiri”nin tapılmasından ibarət idi. Kimyagərlərin tədqiqatlarının praktiki nəticəsi bir çox qiymətli məhsulların - qarışıq metalların - xəlitələrin, mineral və bitki yağlarının, şirlərin (minaların), şüşə, dərman və s.-nin alınmasına, eləcə də yeni kimyəvi cihazların yaradılmasına səbəb olmuşdur.

**əmir** - 1) ilk vaxtlar: Ərəb xilafətində xəlifənin vilayətlərdəki canişini; 2) sonralar: Şərqin müsəlman ölkələrində sərkərdə, hakim, rəis, dövlət başçısı; 3) orta əsrlərdə Azərbaycanda sərkərdə, köçəri tayfaların -elatların başçısı.

**əmir ül-üməra** (ər. "əmirlərin əmiri") - Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində qoşunun ali baş komandanı. Əmir ül-üməra hakim sülalədən və ya hökmdara yaxın olan əmirlərdən təyin olunurdu. Əmir ül-üməra Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində ikinci şəxs sayılırdı.

**əmirlik** - Şərqin müsəlman ölkələrində əmir tərəfindən idarə olunan feodal mülkiyyəti, knyazlıq, dövlət.



downloaded from KitabYurdu.org

**əmtəə təsərrüfatı** - məhsul istehsalının şəxsi istehlak üçün deyil, satış üçün, bazar üçün nəzərdə tutulduğu təsərrüfat.

**əmək alətləri** - müəyyən məhsulun istehsah üçün insan tərəfindən istifadə oluna vəsait. Ən qədim insanların ilk əmək alətləri sivri daş, yerqazan çubuq və dəyənək olmuşdur. Ən qədim insanların meymunlardan başlıca fərqi əmək alətləri düzəltməyi bacarmalarıdır.

**əmək vasitələri** - alətlər, cihazlar, maşınlar və s. İnsanlar onların vasitəsilə əmək cisminə təsir göstərir.

**əmək cismi** - insanın istehsal prosesində təsir göstərdiyi əşyalar.

**əmək məhsuldarhğı** - insanın müəyyən müddət ərzində istehsal etdiyi məhsulun məcmusu.

**əmək məhsulu** - insan əməyi sayəsində bütün istehsal olunan və əldə edilənlər.

**əmək haqqı** - 1) nominal əmək haqqı - işçinin əməyini satdığı pulun məbləği; 2) real əmək haqqı - maddi rifah və xidmətlərdə ifadə olunan ödəniş.

**ərazi suları** (ərazi dənizi, sahili) - dövlətin sahilinə və ya daxili sularına bitişik olan dəniz zolağı. Dövlətin ərazisi tərkibinə daxil olur və suverenliyində qalır. Suverenlik təkcə ərazi dənizinə deyil, həm də onun dibinə, altına, eləcə də onun üzərindəki hava məkanına aiddir. Müasir beynəlxalq qanunlara əsasən, ərazi sularının eni 12 dəniz milindən artıq olmamalıdır.

**Əsədullayev Şəmsi** (1841 -1914) - görkəmli Azərbaycan sahibkarı, neft sənayeçisi, gəmi sahibi. Bakının yaxınlığındakı Əmircan kəndində anadan olmuşdur. 1874-cü ildə cüzi sərmayə ilə neft hasilatı kontorunun əsasını qoymuşdur. Bu kontor 1893-cü ildə "Şəmsi Əsədullayev" firmasına çevrildi. Əsədullayevin firması 1912-ci ildə 7,2 milyon pud neft çıxarmışdı, onun kapitalı 10 milyon rubla bərabər idi. Əsədullayevin mexaniki emalatxanası, neftayırma zavodları və neftdaşıyan gəmiləri də var idi. Əsədullayevin firması Rusiyada 400-dən artıq neft anbarı olan və əsas ticarəti neftlə aparan dörd iri firmanın sırasında idi. Əsədullayev 1914-cü ildə Bakı Ticarət Bankı İdarə Heyətinin üzvü (direktoru - Tağıyev) seçilmişdi.



Ş.Əsədullayev Azərbaycan mesenatlarından biri idi. O, “Nəşri-maarif” mədəni-maarif xeyriyyə cəmiyyətinin fəxri üzvü seçilmişdi
mişdi. Əsədullayev Rusiyada və xarici universitetlərdə oxuyan aztəminatlı azərbaycanlı tələbələrə maddi yardım göstərirdi.

**əsnaf** (ər. "siniflər") - orta əsrlərdə bir sıra Yaxın Şərq ölkələrində eyni peşə sənətkarlarını birləşdirən sex təşkilatı. Təşkilatın üzvləri də əsnaf adlanırdı. Əsnaflara ağsaqqallar (Azərbaycanda - ustabaşı) başçılıq edirdilər.

**əsr** - təqvimarası müddət. Müasir il hesablanmasında 100 təqvim ili bir əsrə bərabərdir; məs.: XXI əsr - 2001-ci il yanvarın 1-dən 2100-cü il dekabrın 31-dək olan vaxtdır. 10 əsr bir minillikdir.



downloaded from KitabYurdu.org

**əyalət** - bax: provinsiya.

**əyan** - hökmdara yaxın olan daha mötəbər və varlı adam; onun məsul dövlət vəzifəsi tutan köməkçisi.

**əyanlar** - tayfanın varlanmış başçıları və ağsaqqalları; eləcə də kahinlər özlərini və ailə üzvlərini adi adamlar hesab etmirdilər: onlar özlərini tanınmış və seçilmiş əyan sayırdılar. Həmin adamlar - əyanlar təkcə yığdıqları var-dövlətlərini deyil, vəzifələrini və tanınmalarını - əyanlıqlarını da övladlarına irsən verməyə başladılar.

**Əzimzadə Əzim** (1880 - 1943) - Azərbaycan rəssamı. "Molla Nəsrəddin" jurnalında 20 ildən artıq əməkdaşlıq etmişdir. Sabirin "Hophopnamə" (1914) kitabına çəkdiyi illüstrasiyalar ona şöhrət gətirmişdir. Satirik qrafikanın inkişafında böyük rol oynamışdır.

## -F-

**fabrik** (lat. "emalatxana") - maşın istehsalı sistemindən istifadəyə əsaslanan sənaye müəssisəsi. İqtisadi nöqteyi-nəzərdən fabrik və zavod eyniyyət təşkil edir.

**faiz** - natural və ya pul ssudası şəklində borc alanın kreditora qaytardığı ödənc.

**falanqa** - spartalılar tərəfindən yaradılmış döyüş düzümü. Bu zaman piyadalar çiyin-çiyinə söykənməklə 6-9 cərgədə sıx düzülürlər. Falanqa fleyta və xor nəğmələrinin sədaları altında nizami cərgələrlə düşmən üzərinə yürüyürdü. Makedoniyalılar II Filippin dövründə falanqanı təkmilləşdirmişlər; onların falanqaları 16-25 cərgədən ibarət olmuşdur. Makedoniya falanqalarında döyüşçülərin nizələri eyni uzunluqda olmamışdır - altıncı cərgədə döyüşçünün nizəsinin uzunluğu altı metrə çatırdı. Uzun nizələri öndə duran döyüşçülərin çiyninə qoyurdular. Falanqaların kənarlarında süvari dəstələri olurdu, onlar döyüşdə düşmən qoşunlarını cinahlardan əhatəyə alır və ya arxadan zərbə endirirdilər, sonra isə qaçmağa başlayan düşməni təqib edirdilər. Falanqa böyük zərbə qüvvəsinə malik idi, amma çevik deyildi, xüsusilə də dərə-təpəli yerlərdə döyüş zamanı yenidən düzülməyə çətinlik çəkirdilər.

**fanatizm** - 1) hər hansı bir dinə və ya nöqteyi-nəzərə, hər hansı bir insana son dərəcə meyl etmək, hər hansı digər nöqteyi-nəzərə (məs.: dini, siyasi və s. fanatizm) dözümsüzlük; 2) məcazi mənada - nəyə isə son dərəcə sədaqətli olmaq.



**farfor (çini)** - odadavamlı yumşaq gildən, kaolindən, çöl şpatı və kvarsdan ibarət farfor kütləsinin bişirilməsi yolu ilə əldə edilən su keçirməyən, ağ, şumal, cingiltili material. Farforu IV - VI əsrlərdə Çində istehsal etməyə başlamışlar. Elə buna görə də ona həm də çini deyilir. Farfor saxsı məmulatın - qab-qacaq, vaza, heykəl və s. hazırlanması üçün istifadə edilirdi. XVI əsrdən etibarən Avropada yumşaq adlandırılan kaolinsiz farfor istehsalına başlanılmışdır.



downloaded from KitabYurdu.org

Avropada möhkəm farfor yalnız XVIII əsrdə ixtira edilmişdir. Hazırda farfordan memarlıq detallarının, izolyatorların, kimyəvi aparatların və s. istehsalında istifadə olunur.

**Fars dövləti** - bax: Əhəmənilər dövləti.

**faşizm** - Birinci Dünya müharibəsindən sonra İtaliyada meydana çıxmış və Almaniya, İspaniya, Macarıstan, Rumıniya və bir sıra başqa ölkələrdə yayılmış mürtəce siyasi cərəyan və ideologiya. Nisbətən daha mürtəce və təcavüzkar burjua dairələrinin marağını ifadə edir. Təbliğatın demaqoq üsullarından geniş istifadə edən faşizm öz maraqları naminə əhalinin müxtəlif təbəqələri arasında irticaya münasibətdə tərəddüdlü meyldən fəal şəkildə yararlanır. Faşizmin ideologiyası barışmaz antikommunizm, irqçilik, şovinizm, zorakılıq, şəxsiyyətə pərəstiş, totalitarizm, təcavüzkarlıqdır. Hakimiyyətə gəlmiş faşizm aşkar terrorçuluq diktaturasıdır.

**fayans (saxsı)** - sıx xırda məsaməli, adətən ağ rəngli, parlaq və ya qeyri-parlaq şirlə örtülmüş material. Fayans üzlük plitələr, memarlıq detalları, qab-qacaq və s. istehsalında istifadə olunur. Fayans istehsalında farforun hazırlandığı tərkibli materiallardan istifadə olunur, lakin komponentlərin tərkibi fərqlidir. Fayans məmulat hələ Misirdə və Çində (IV - V əsrlər) istifadə olunurdu. Avropada fayans istehsalına XVI əsrdə başlanılmışdır.

**federasiya** - 1) dövlət quruluşu forması; hüquqi cəhətdən müəyyən siyasi müstəqilliyi olan bir neçə dövlətin yaratdığı ittifaq dövləti. Bu dövlət qurumlarından hər birinin (ştat, respublika, kanton və s.) öz konstitusiyasını, hüquq və məhkəmə sistemini qəbul etmək hüquqları var. ABŞ, AFR, İsveçrə, Avstriya və s. federasiyadırlar; 2) ittifaq, bir neçə ictimai təşkilatın birliyi.

**feldmarşal** - bir sıra Avropa ölkələrinin ordusunda ali hərbi rütbə.

**Femida** - qədim yunan mifologiyasında ədalət ilahəsi. Femida gözübağlı və əlində tərəzi tutmuş halda təsvir olunurdu. Bu, mübahisələrin həllində qərəzsizlik mənasını bildirirdi. Məcazi mənada "Femidanın tərəzisi" - ədalət deməkdir; "Femidanın kahin" - qanun xidmətçisidir.



**Femistokl** - Afına dövlət xadimi və sərkərdəsi. Mənşəcə aristokrat ailədən olmasa da, uşaq vaxtından şan-şöhrət arzusunda idi. Marafon döyüşündə strateq idi və afinalıları inandıra bilmişdi ki, özlərinin güclü hərbi donanmalarını inşa etsinlər. Salamin döyüşündə Afina donanmasına rəhbərlik etmişdir. Afina istehkamlarının yenidən qurulmasına başlamışdır, lakin e.ə. 471-ci ildə o, Afinadan qovulmuşdur. Feniks - əfsanəvi quş; qədim insanların təsəvvürünə görə, yaşlananda özünü yandırır ki, yenidən küldən gənc və yeniləşmiş şəkildə əmələ gəlsin. Feniks əbədi dirçəliş rəmzi hesab olunur.

**feod** - Avropada orta əsrlərdə senyorun vassala kəndlilərlə birlikdə xidmət etmək şərti ilə (hərbi, idarəçilik, məhkəmə və s.) və ya adətlə müəyyən edilmiş haqq verilməsi müqabilində irsən verilən torpaq mülkiyyəti.



downloaded from KitabYurdu.org

**feodal** - torpaq mülkiyyətçisi, asılı kəndliləri istismar edən feod sahibi.

**feodal malikanəsi** - Avropada torpaq sahibinin -feodalın asılı kəndliləri istismar elədiyi böyük təsərrüfat. Malikanədə əkin sahələri 2 hissəyə ayrılırdı: ağa tarlaları və kəndli pay torpaqları (nadelləri). Kəndlilər ağa torpaqlarında biyara gedirdilər, bu sahələrdən yığılan bütün məhsul isə feodala məxsus olurdu. Öz əmək alətləri ilə pay torpaqlarında işləyən kəndlilər özlərini və ailələrini yedizdirməli idilər. Pay torpaqları da feodalın mülkiyyəti olduğundan kəndli ondan istifadə üçün ağaya töycü verməli idi.

**"feodal nərdivanı"** -feodalların elə təşəkkül formasıdır ki, bu zaman feodal nərdivanının üst pilləsində ən iri feodallar, alt pilləsində isə xırdaları dururdu. Hersoqların və qrafların senyoru sayılan kral ölkədəki bütün feodalların başçısı hesab olunurdu. Bir pillə aşağıda baronlar dururdu; onlar hersoqların və qrafların vassalı idilər. Baronlar rıtsarların senyoru idilər, rıtsarların isə özlərinin vassalları yox idi. Feodalların "feodal nərdivanı" formasında təşkili onlara imkan verirdi ki, feodal pərakəndəliyi dövründə müharibə apara və kəndliləri öz tabeliyində saxlaya bilsin.

**feodal pərakəndəliyi** - bu ele bir dövrdür ki, bu zaman iri feodal dövlətləri vəhdət təşkil etmirdilər. Onlardan hər biri iri feodal mülkiyyətinə parçalanmışdı, bunlar da öz növbəsində bir çox xırda mülkiyyətlərə bölünmüşdülər. Feodal porakəndəliyi dövrü icma torpaqlarını ələ keçirən feodalların imperatorun (kralın və s.) güclü hakimiyyətinə ehtiyacı olmadığı bir zamanda meydana gəlir. Bundan başqa, natural təsərrüfatın mövcudluğu dövründə ölkənin ayrı-ayrı vilayətləri arasında möhkəm əlaqə olmamışdır. Feodalların hakimiyyətinin natural təsərrüfatın ağalığı dövründə möhkəmlənməsi feodal pərakəndəliyinə gətirib çıxardı. Feodal pərakəndəliyinin təbii nəticəsi ara müharibələri idi. Feodal pərakəndəliyi dövründən sonra inkişaf etmiş ölkələrdə adətən silki monarxiya formasında mərkəzləşdirilmiş dövlət meydana gəlirdi.

**feodalizm** - əsas işçi qüvvəsinin əksəriyyətini təhkimli kəndlilər təşkil edən dövr; quldarlığı əvəz etmişdir. Feodalizm dövründə feodalların xüsusi mülkiyyətləri ilə yanaşı, kəndlilərin və sənətkarların əmək alətlərinə və şəxsi əməyə əsaslanan öz təsərrüfatlarının məhsuluna fərdi mülkiyyətçilikləri mövcud idi. Bu, kəndlilərdə və sənətkarlarda əmək məhsuldarlığının artırılmasına maraq oyadırdı. Feodal dövlətləri əsas etibarilə monarxiya formasında mövcud olmuşdur. Belə dövlətlərdə kəndli üsyanları və müharibələri çox tez-tez baş verirdi. Məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar olaraq feodalizmdə tədricən kapitalizm yaranırdı və sonralar o, burjua inqilabları nəticəsində təşəkkül tapdı.

**fermer** - xüsusi və ya icarəyə götürülmüş torpaqda yaradılmış fermer təsərrüfatının sahibi. Fermer təsərrüfatında bəzən muzdlu əməkdən istifadə olunmaqla iş görülür, əsasən isə iş fermerin və onun ailə üzvlərinin qüvvəsi ilə yerinə yetirilir.



downloaded from KitabYurdu.org

**Fermopil** - Şimali və Orta Yunanıstanı birləşdirən dağ keçidi. E.ə. 480-ci ildə çar Leonidin başçılığı ilə 300 spartalı bu keçidi şah Kserksin İran ordusundan qoruyaraq yunanların birləşmiş əsas qüvvəsinin geri çəkilməsinə şərait yaratmış və qeyri-bərabər savaşda həlak olmuşdur.

**fetişizm** - dindarların düşüncəsinə görə, fövqəltəbii qüvvələrə və xüsusiyyətlərə malik olan cansız cisimlərin - fetişlərin kultu. Fetişizm ibtidai dövrdən yayılmışdır, onun gözmuncuğu, tilsim və b. bu kimi qalıqları dövrümüzədək gəlib çatmışdır.

**fəhlə aristokratiyası** - burjuaziyanın kapital ixracından əldə etdiyi artıq gəlirin, eləcə də milli gəlirin bir hissəsinin inhisarlar arasında bölüşdürülməsindən əldə edilən əlavə gəlir hesabına yüksək məvacib ödədiyi, əsas etibarilə yüksəkixtisaslı fəhlə təbəqəsi.

**fəlsəfə** (yun. "müdrikliyə məhəbbət, sevgi") - ük vaxtlar filosoflar ətraf aləmin bütün tərəflərini öyrənirdilər. Sonra fəlsəfə təbiətin, insan cəmiyyəti və təfəkkürünün inkişafının ən ümumi qanunlarını öyrənən xüsusi elmə çevrildi.

**fərman** - Şərq ölkələrində yalnız dövlət başçısı tərəfindən verilən rəsmi sərəncam.

**Fətəli xan (qubalı)** - Quba xanlığının xanı (1758 - 89), Hüseynəli xanın oğlu. Fətəli xan uzaqgörən, qəlbi geniş, cəsur və yorulmaq bilməyən adam, bacarıqlı və müdrik dövləl xadimi idi. Fətəli xan hələ xan taxtına varis olduğu



dövrdə Salyan sultanlığını Quba xanlığına birləşdirmişdi (1757). Quba xanlığının möhkəmləndirilməsi məqsədi ilə Fətəli xan bir sıra islahatlar keçirmişdi. Vergi islahatına görə, naiblər tərəfindən vergi yığımı ona görə ləğv edildi ki, onlar yığılmış verginin bir hissəsini mənimsəyirdilər. Vergilərin toplanması kəndxudalara tapşırılmışdı və onlar yığdıqları vergini xan xəzinəsinə təhvil verirdilər. Yerli hakimlərin özbaşınalığına son qoymaq üçün mükəlləfiyyətlərin bir qismi yalnız xanın yasavullarının tələbi ilə yerinə yetirilməli idi. Fətəli xan əhalinin sayını artırmaq məqsədi ilə Şabran vilayətinə Cənubi Azərbaycan xanlıqlarının əhalisini, Muğana isə döyüşkən şahsevən tayfalarını köçürmüşdü. Diplomatik üsullardan məharətlə istifadə edən Fətəli xan Dərbənd və Şamaxı xanlarının ittifaqa girmələrinə maneçilik törətdi, özü isə Cənubi Dağıstan əmirlərini ittifaqa cəlb edə bildi. Fətəli xan 1759-cu ildə 2 aylıq savaşdan sonra Dərbəndi tutdu. Dərbənd Quba xanlığının ikinci mərkəzi oldu. Bundan sonra 1767-ci ildə "nikah diplomatiyası ondan istifadə edən Fətəli xan bacısı Xədicə Bikəni Bakı xanı Məlik Məhəmmədə ərə verərək Bakı xanlığını özündən asılı vəziyyətə saldı. Fətəli xan o dövrün rəsmi sənədlərində Quba, Dərbənd, Bakı və Salyan hakimi adlandırılırdı. 1765 - 68-ci illərdə Fətəli xan Şamaxı xanlığının tabe edilməsi uğrunda müharibə aparırdı. Şamaxı xanlığının ərazilərinin müttəfiqlər arasında bölüşdürülməsi haqqında Şəki xanı ilə ittifaqa girən Fətəli xan bu xanlığı



downloaded from KitabYurdu.org

ələ keçirə bildi. Bir müddət sonra şəkili müttəfiqlərini qovan Fətəli xan Şamaxı xanlığının bütün ərazisini tutdu. 1768-ci ildə Şamaxı xanlığı ilə qonşuluqda olan Cavad xanlığı da Fətəli xanm hakimiyyəti altına düşdü. Şirvanda özünə dayaq yaratmaq məqsədi ilə Fətəli xan Dərbənd əhalisinin bir qismini buraya köçürdü. Azərbaycanın şimal-şərq torpaqlarının bir xanlıq tərkibində birləşdirilməsi o dövr üçün mühüm əhəmiyyətli hadisə idi. Lakin Quba xanlığının möhkəmlənməsi bir sıra Azərbaycan xanları və Dağıstan hakimlərini qorxuya saldı. 1773-cü ilin noyabr -dekabr aylarında Şəki və Qarabağ xanlarının eləcə də avar hakiminin müttəfiq qoşunları Quba xanlığının üzərinə yürüş etdi. Fətəli xan rəqiblərin hücumunu dəf edə bildi, lakin 1774-cü ildə müttəfiqlərin birləşmiş qoşunları Xudat yaxınlığındakı Gavduşan çölündə Fətəli xanı məğlubiyyətə uğratdı. Fətəli xan Salyana tərəf geriyə çəkildi, Qubanı və Şamaxını tutan müttəfiqlər isə Dərbəndi mühasirəyə aldılar. Dərbəndin müdafiəsinə Fətəli xanın arvadı Tuti Bikə rəhbərlik edirdi. Dərbəndin 9 aylıq mühasirəsindən sonra şəhərdə aclıq başlandı və xəstəlik yayıldı. Şəraiti nəzərə alan Fətəli xan yardım üçün Rusiya imperatriçəsi II Yekaterinaya müraciət etdi. General Medemin başçılıq etdiyi rus qoşunlarının köməyi ilə Fətəli xan 1775-ci ilin martında Dərbənd yaxınlığında rəqiblərini məğlub etdi. Dərbəndin açarlarını II Yekaterinaya göndərən Fətəli xan yardım üçün minnətdarlıq əlaməti kimi Dərbəndi Rusiyaya verdi və xahiş etdi ki, Quba xanlığını Rusiyanın himayəsi altına alsın. XVIII əsrin 70-ci illərinin axırlarında Şəki xanlığı Fətəli xandan asılı vəziyyətə düşdü. 1780 - 81-ci illərdə Fətəli xan Qarabağ xanlığı üzərinə bir neçə dəfə uğursuz yürüş etdi. 1784-cü ilin avqustunda Fətəli xan Cənubi Azərbaycanda Ərdəbil və Meşkin şəhərlərini tutdu. Amma sərhədlərinin lap yaxınlığında yerləşən Quba xanlığının qüvvətlənməsini istəməyən Rusiya bundan narazı qaldı. Rusiya ilə münasibətlərini korlamaq istəməyən Fətəli xan qoşunlarını Cənubi Azərbaycandan çıxarmağa məcbur oldu. Fətəli xanın 1789-cu ildə ölümündən sonra Bakı, Şəki və Şamaxı xanlıqları Quba xanlığının asılılığından qurtardılar və Fətəli xan tərəfindən Şimal-Şərqi Azərbaycanda yaradılmış birlik dağıldı.



Fətəli xanın fərmanı

**Fidi** (e.ə. 500 - 431) - Elladanın ən möhtəşəm heykəltəraşı. Periklin dostu, Afina Akropolunun rekonstruksiyasının rəhbəri. Bir çox relyefli heykəllərin, o cümlədən Afina Akropolundakı Parfenon məbədində Afina ilahəsi Palladanın on bir metrlik heykəlinin müəllifi. "Dünyanın yeddi möcüzəsi"ndən biri - Olimpiyalı Zevsin heykəli onun yaratdığı heykəllərdəndir. Periklin dostu olduğuna görə aristokratiya tərəfindən təqib olunmuşdur.

**Filantropiya** (yun. "insansevərlik) xeyriyyəçilik, şəfqətlilik.

**Filipp** II Makedoniyalı - ağıllı və qüdrətli Makedoniya çarı, böyük sərkərdə. Makedoniya ordusunu və falanqanı yenidən qurmuşdur. Diplomat kimi böyük



downloaded from KitabYurdu.org



məharət göstərmişdir. 25 il ərzində ölkəni birləşdirmiş, onun sərhədlərini genişləndirmiş və Makedoniyanı öz dövrünün qüdrətli hərbi dövlətinə çevirə bilmişdir. Xeroneya yaxınlığındakı döyüşdən sonra o, Spartadan başqa, demək olar ki, bütün Yunanıstanı özünə tabe etdi. Çar e.ə. 336-cı ildə sui-qəsd nəticəsində öldürüldü. Oğlu və varisi Makedoniyalı İsgəndər II Filippin Şərqə yürüş planlarını həyata keçirdi.

**finikiyalılar** - qədimdə Aralıq dənizinin şərq sahillərində məskunlaşmış xırda xalq. Müstəsna dərəcədə əlverişli coğrafi şəraitdən istifadə edən finikiyalılar vasitəçi ticarətlə məşğul idilər. Tezliklə finikiyalıların zəngin ticarət şəhərləri - Tir, Bibl, Sidon və Arvad meydana gəldi və bunlardan ən əsası Tir oldu. Ərazidəki sidr və palıd meşələri finikiyalıları gəmi inşası üçün ağacla təmin edirdi. E.ə. II minilliyin sonları - I minilliyin əvvəllərində finikiyalılar ən yaxşı gəmi inşaatçıları və dənizçilər idilər. Finikiya dənizçiləri Aralıq dənizində ağalıq edir, ondan kənarlara üzürdülər - onlar Britaniya adalarından qalay, Baltik dənizi sahillərindən kəhrəba gətirirdilər. Finikiya dənizçiləri ilk dəfə olaraq Afrika ətrafında üzmüşdülər. Finikiyalılar Aralıq dənizinin sahillərində və adalarında öz koloniyalarını salırdılar və bunun sayəsində xeyli finikiyalı öz vətənindən kənarda yaşayırdı. Finikiya koloniyalarından ən irisi Karfagen idi. Finikiyalılar əlifba Şüşə, al-qırmızı (purpur) rəngi ixtira etmişlər.

**Firdovsi Əbülqasim** (940 - 1020) – böyük Mərkəzi Asiya şairi. Firdovsinin ən məşhur əsəri isə onun üzərində 30 ildən artıq çalışdığı "Şahnamə" poemasıdır. Şair həmin poemada hökmdarları ara müharibələrini dayandırmağa və ölkənin çiçəklənməsi üçün çalışmağa çağırırdı.

**firon** - Qədim Misirdə hökmdarın adı. Qədim misirlilər hesab edirdilər ki, Misirdə hökmdarın hakimiyyəti dünyanın yarandığı gündən allah tərəfindən müəyyənləşdirilib. Hökmdarlar Misirin ilk hökmdarı olmuş Ra allahının övladı sayılırdılar. Hökmdara göz dəyməməsi üçün onun adını ucadan söyləmək olmazdı. Ona görə də onu dolayısı adla - "Böyük ev" yəni "saray" adlandırırdılar. Misirlilərin dilində bu, təxminən "per-o" kimi səslənirdi, yunanlar isə onu "firon" kimi tələffüz etmişlər. Biz də yunanların ardınca Qədim Misir hökmdarlarını "firon" adlandırmışıq. Firon çox böyük hakimiyyətə malik idi - o, bütün Misirin insanları, torpaqları və sularının sahibi idi. Fironun hakimiyyəti irsən keçirdi.

**forum** - ilk vaxtlar Romanın mərkəzində bazar meydanı. Burada xalq yığıncağı çağırılar, canilər mühakimə edilər, habelə müxtəlif şənliklər keçirilərdi. E.ə. V əsrdən Roma forumunda məbədlər tikməyə, onu abidələrlə və zəfər tağları ilə bəzəməyə başladılar. Roma forumunun mərkəzi Sezarın məbədidir. Qərbi Roma imperiyasının süqutundan sonra forum öz əhəmiyyətini itirdi və bir müddət daş karxanasına çevrildi.

**fraxt** -1) su və dəniz yolları ilə daşınan yükün yol xərci; 2) icarəyə götürülmüş gəmi ilə daşınan yük.



downloaded from KitabYurdu.org

**fraksiya** - 1) parlamentdə, yerli idarə orqanlarında və ya başqa təşkilatlarda partiya üzvlərinin mütəşəkkil qrupu; 2) siyasi partiya daxilində partiyanın əsas xəttindən fərqli baxışlara malik, öz təşkilat mərkəzi, platforması olan və partiyanın əksər üzvləri tərəfindən qəbul edilmiş siyasətə qarşı mübarizə aparan qruplaşma.

**Frank dövləti** - V əsrin sonlarında başda Xlodviq olmaqla salik (sahilyanı) franklarının Qalliyanı işğalları nəticəsində meydana gəlmiş erkən feodal dövləti. Böyük Karlın işğalları nəticəsində Frank dövləti, demək olar ki, bütün Qərbi Avropanı və Mərkəzi Avropanın bir hissəsini əhatə edirdi. 843-cü il Verden müqaviləsinə əsasən Frank dövləti bölüşdürüldü.

**Franklin Bencamin** (1706 - 90) - Amerika maarifçisi, dövlət xadimi, alim, Şimali Amerikada istiqlaliyyət uğrunda müharibənin fəal iştirakçısı, ABŞ-ın



İstiqlaliyyət bəyannaməsinin müəlliflərindən biri. Sənətkar ailəsində anadan olmuş, İngiltərəyə köçmək məcburiyyətində qalmış və orada mətbəədə işləmişdir. Amerikaya qayıtdıqdan sonra qazandığı pullara xırda kitab dükanı açmışdır. 1731-ci ildə Filadelfiyada Şimali Amerika koloniyalarında ilk kütləvi kitabxananın, 1740-cı ildə Pensilvaniya universitetinin, 1743-cü ildə Amerika Fəlsəfə Cəmiyyətinin əsasını qoymuşdur. Dəyərin əmək nəzəriyyəsini tərtib etmişdir. Elektrikləşmənin ümumi nəzəriyyəsini tədqiq etmiş, ildırım keçiricisinin tətbiqini təklif etmişdir. Zəncilər arasında köləliyin ləğv edilməsinə çağırırdı.

**Fransa - Prussiya müharibəsi** (1870 - 71) - Cənubi Almaniya torpaqlarını tutmağa çalışan Fransa ilə Şimali Almaniya ittifaqı dövlətləriylə birlikdə çıxış edərək Almaniya torpaqlarını birləşdirməyə və Fransa torpaqlarını tutmağa çalışan Prussiya arasında müharibə. Fransa ordusunun Sedan yaxınlığında darmadağın edilməsi ("Sedan faciəsi") və təslim olmasından, III Napoleonun isə əsir götürülməsindən sonra İkinci imperiya süquta uğradı, Prussiya qoşunları Fransanın xeyli hissəsini ələ keçirdi və 1871 – ci il Paris Kommunasının boğulmasında iştirak etdi. 1871-ci il yanvarın 18-də Versal sarayda Prussiya kralı I Vilhelm Almaniya imperiyasının imperatoru elan olundu. Fransa Prussiya müharibəsi 1871-ci il mayın 10-da imzalanmış Frankfurt sülh müqaviləsi ilə başa çatdı. Müqavilənin şərtlərinə görə Elzas və Şərqi Lotaringiya Almaniyaya çatdı. Fransa həm də 5 milyard frank təzminat verməli idi, təzminatın tam ödənməsinədək isə Fransa ərazisinin xeyli hissəsi alman qoşunlarının işğalı altında qaldı.

**Fravartiş** - I Dara hakimiyyəti Midiya maqı Qaumatanın əlindən aldıqdan sonra (e.ə. 522-ci ilin sentyabrı) Əhəmənilər dövlətinin bir çox vilayətlərində Daraya qarşı üsyanlar başlandı. Midiyada üsyançılara özünü Midiya hökmdarı Kiaksarın nəslindən olan Xşasrita (Kaştariti, Fraort) adlandıran Fravartiş adlı şəxs başçılıq etmişdi. Üsyana başlamış midiyalılar formal olaraq Əhəmənilar dövlətinin tərkibində sayılan Midiyanın özündən başqa, bu dövrdə onun əraziləri hesab olunan Assuriya, Ermənistan, Parfiya və Hirkaniya üzərində də nəzarət yarada bildilər. Fravartişin başçılığı ilə olan üsyan kütləvi xalq hərəkatı idi. Bisütun



downloaded from KitabYurdu.org

kitabəsində bildirilir ki, bütün Midiya xalqı üsyan etdi. Dara midiyalıların üsyanını yatırmaq üçün sərkərdəsi Vidarnunu onlara qarşı göndərdi. Midiyadakı Maruş şəhər yaxınlığında, görünür, nəticəsiz bitən savaş oldu. Belə ki, Vidaraanın başçılıq etdiyi farslar bir neçə ay növbəti əməliyyatlardan çəkinərək Daranın əsas qüvvələrlə gəlməsini gözləyirdilər. Dara midiyalıların Fravartişin rəhbərlik elədiyi təhlükəli üsyanının yatırılmasına özü rəhbərlik etmişdi. E.ə. 521-ci il mayın 7-də Midiyada Kunduruş adlandırılan yerdəki həlledici döyüşdə üsyançılar məğlubiyyətə uğradıldı. Bu savaşda 34.425 üsyançı həlak oldu və 18.000 üsyançı əsir götürüldü. Fravartişin özü Midiyanın şərqindəki Raqa vilayətinə qaça bildi. Amma həmin ilin iyununda tutulub Daranın yanına gətirildi. O isə onunla çox qəddar davranaraq burnunu, qulaqlarını, dilini kəsib, gözünün də birini çıxardı. Bundan sonra qandallanmış Fravartişi Ekbatanaya gətirib payaya keçirdilər. Fravartisin yaxın davamçıları da oraya gətirilmiş, dəriləri soyulub içərisinə saman doldurularaq qala divarlarından asılmışdı. Üsyan başçılarına qəddarcasına divan tutulması və həlak olan midiyalıların sayının həddən ziyadə çoxluğu sübut edir ki, Fravartisin üsyanı Əhəməni şahı I Dara üçün ən iri və təhlükəli üsyanlardan idi. Bir fakt da bu məsələni təsdiqləyir ki, Daranın hökmranlığının əvvəllərində bş vermiş çoxsaylı üsyanlardan Herodota yalnız Midiya və Babilistanda baş verən üsyanlar haqqında məlumat çatmışdır.

**freska** - qurumamış suvaq üzərində boyalarla çəkilmiş rəngkarlıq əsəri.

**funt** - İngiltərə ölçü sistemində çəki vahidi.

**Funt** - təxminən 0,45 kq-a bərabərdir.

**fut** - İngiltərə ölçü sistemində uzunluq ölçü vahidi. 1 fut təxminən 0,31 m-ə bərabərdir.

**futurologiya** - 1) Yerin və bəşəriyyətin gələcəyi haqqında ümumi konsepsiya; 2) gələcək sosial prosesləri əhatə edən elmi bilik sahəsi, proqnozlaşdırmanın sinonimi.

**Füzuli Məhəmməd Süleyman oğlu** (1494 - 1556) - böyük Azərbaycan şairi, Yaxın və Orta Şərqin ən böyük lirik şairlərindən biri; monqolların, sonralar



isə Teymurun işlərindən sonra bir çox azərbaycanlıların köçdükləri Kərbəla şəhərində (müasir İraq ərazisi) anadan olmuşdur. Füzuli əvvəlcə Kərbəlada, sonra isə Bağdadda oxumuşdur. Üç dili - Azərbaycan, fars və ərəb dillərini sərbəst bilmişdir. Əsas əsərləri: 3 qəzəl, qəsidə, rübai toplusu, "Şikayətnamə" siyasi satirası, "Mətlə ül-etiqad" ("Etiqadın mənbəyi") fəlsəfi traktatı. Füzuli yaradıcılığının zirvəsi Azərbaycan dilində yazılmış "Leyli və Məcnun" romantik poemasıdır. Füzulinin poetik yaradıcılığı Şərqin bir çox şairlərinin yaradıcılığına çox böyük təsir göstərmişdir. Füzulinin antik, Azərbaycan, hind, İran və ərəb fəlsəfəsindən bəhs edən "Mətlə ül-



downloaded from KitabYurdu.org

etiqad" əsəri də mühüm əhəmiyyət kəsb edir. Füzulinin astronomiya və digər elm sahələrinə dair də əsərləri olmuşdur.

## -G-

**gavur** (ər. "kafir" - "dinsiz") - başlıca olaraq orta əsrlərdə müsəlmanların bütün qeyri-müsəlmanlara verdikləri ad.

**gebrlər** - müsəlmanlar islamı qəbul etməyən və günümüzədək İranın Fars və Kirman vilayətlərində, əsasən də Turkabad və Şarifabad kəndlərində qalmış zərdüştiləri "gebr" və ya "kafir" adlandırırdılar. Gebrlər kahinlərinin - mobedlərinin başçılığı ilə müstəqil dini icma təşkil edərək müsəlmanlardan ayrı yaşayırdılar. XVII - XIX əsrlərdə gebrlər Suraxanıya (Abşeron) Atəşgahda ibadət etmək üçün gəlirdilər. Hazırda bir neçə min nəfər gebr vardır.



**genealogiya** (yun. "gena" – "nəsil" "doğulma" və "loqos" – "elm") - nəsillərin, ailə və ayrı-ayrı adamların mənşəyi ilə məşğul olan elm.

**general** (lat. "baş", "əsas") - bir çox ölkələrin silahlı qüvvələrində hərbi rütbə (çin).

**generalissimus** (lat. "ən baş", "ən əsas") - bir sıra ölkələrin silahlı qüvvələrində ali hərbi rütbə. SSRİ-də Stalinə verilmişdir.

**genosid** - əhali qruplarının irqi, milli, etnik və ya dini əlamətlərinə görə tam və ya qismən məhv edilməsinə yönəldilmiş zorakı fəaliyyət. BMT-nin 1948-ci il konvensiyasına əsasən, genosid beynəlxalq cinayət hesab olunur.

**Genuya** - İtaliyanın şimal-qərbində çox qədimlərdə salınmış şəhər. Orta əsrlərdə Genuya qüdrətli ticarət respublikası idi, XIV əsrdən doj tərəfindən idarə olunurdu. Genuyanın Qara dənizdə bir çox koloniyası var idi. Genuya yüz illərlə Venesiya və Bizans imperiyası ilə Şərqə gedən ticarət yollarını ələ keçirmək uğrunda rəqabət aparırdı.

**Georgiyevsk müqaviləsi** (1802) - Georgiyevskdə (Şimali Qafqazda) rus generalı Knorrinqlə Azərbaycanın Quba, Dərbənd və Talış xanları, habelə Tarku şamxalı, Qaraqaytaq usmisi, Tabasaran hakimi və b. Dağıstan hakimləri ilə 1802-ci il dekabrın 26-da imzalanmış müqavilə. Müqavilənin şərtlərinə görə, İranın hücum edəcəyi təqdirdə müqaviləni imzalamış tərəflərin hamısının birlikdə çıxış etməsi, eləcə də Xəzər dənizində ticarətin və gəmiçiliyin genişləndirilməsi nəzərdə tutulurdu. Müqavilədə göstərilirdi ki, onu imzalayan tərəflərin hamısı özlərinin xahişi ilə Rusiya imperiyasının himayəsi altına qəbul olunur. Ancaq Rusiya müqavilənin şərtlərini pozmağa başlayır, iştirakçıların hüquqlarını tapdayırdı, belə ki, o, bütün Qafqazı tutub Rusiya imperiyasının tərkibinə qatmaq istəyirdi.

**Georgiyevsk traktatı** (1783) - 1783-cü il iyulun 24-də Georgiyevskdə (Şimali Qafqazda) Rusiya imperiyası ilə Kartli-Kaxeti çarlığı (Şərqi Gürcüstan)



downloaded from KitabYurdu.org

arasında imzalanmış traktat. Bu traktata əsasən Kartli çarı II İrakli Rusiya imperatorunun ali hakimiyyətini tanıyır, Rusiya isə Kartli çarlığının bütövlüyünün qorunması və xarici düşmənlərin hücumundan müdafiə olunması haqqında üzərinə öhdəlik götürürdü. Kartli tacının varisi Peterburqda təsdiq olunmalı idi. Kartli çarı çarlığın daxili idarəsini öz əlində saxlayır, xarici siyasəti isə Tiflisdə olan səlahiyyətli rus məmuru ilə razılaşdırmalı idi. 1801-ci il sentyabrın 12-də Kartli-Kaxeti çarlığının ləğv olunması və onun ərazisinin Gürcüstan quberniyası kimi Rusiya imperiyası tərkibinə qatılması haqqında Rusiya imperatorunun manifesti bəyan edildi. Kartli-Kaxeti çarlığının vassalı olan Borçalı, Şəmşəddil və Qazax sultanlıqları da bu quberniyaya qatıldılar. Bunlar Rusiyanın hakimiyyəti altına düşən ilk Azərbaycan torpaqları idi.

**gerb** - familiya, sülalə, silk, şəhər və ya dövlətin möhürlərdə, blanklarda, sikkələrdə, pul nişanlarında, lövhələrdə, bayraqlarda, mühüm dövlət idarələrinin fasadlarında, səfirliklərin və s. üzərində təsvir olunan rəmzi və ya fərqləndirici nişanı. Gerblərin ilk nümunələri Qədim Yunanıstanın şəhər-dövlətlərində meydana gəlmişdir. Gerblər xüsusilə orta əsrlərdə iri feodallar arasında geniş yayılmışdır. Bizim dövrümüzdə bir sıra ölkələrdə gerb dövlət bayrağının tərkib hissəsi sayılır. Dövlət gerbinin məqsədi - şərti və anlaşıqlı rəmzdə ölkə və onun xalqı haqqında təsəvvür yaratmaqdır. Müasir gerblər rəsmi konstitusiya və xüsusi qanunlarla müəyyənləşdirilir.

**german tayfaları** - çoxsaylı german tayfaları (allemanlar, anqllar, burqundlar, vandallar, qotlar, lanqobardlar, sakslar, franklar və b.) eramızın başlanğıcında qərbdə Reyn və şərqdə Visla çayları arası, cənubda Alp və Dunay, şimalda isə Şimal dənizi və Baltik dənizi arası ərazilərdə məskunlaşdılar. German tayfaları nəsli icmalar şəklində yaşayırdılar. Onların başlıca məşğuliyyətləri əkinçilik və maldarlıq idi. Onlarda patriarxal quldarlıq mövcud idi. German tayfaları romalılarla ilk dəfə e.ə. II əsrdə toqquşdular. E.ə. 58 - 55-ci illərdə bir sıra german tayfaları Qalliyada oturaqlaşmağa cəhd göstərdilər, lakin Yuli Sezar tərəfindən dəf edildilər. E.ə. I əsrin sonlarında Reyndən Elbayadək olan ərazilər Roma tərəfindən istila edildi və az müddətə də olsa, Romanın əyalətinə çevrildi. Eramızın ilk əsrlərində german tayfaları tez-tez Roma imperiyasının şimal sərhədlərinə soxulurdular. German tayfaları ilə bir sıra toqquşmalardan sonra romalılar müdafiəyə keçdilər. Reyn Roma ilə german tayfalarının əraziləri arasında sərhədə çevrildi. Bu sərhədi möhkəmlətmək məqsədi ilə romalılar Orta Reyndən Yuxarı Dunayadək "Roma səddi" - mühafizə xətti inşa etdilər. IV - VI əsrlərdə german tayfalarının Roma imperiyası üzərinə təzyiqləri artdı və onlar ağır zərbələr endirməklə Qərbi Roma imperiyasının süqutuna səbəb oldular (bax: "xalqların böyük köçü").

**Gestapo** - 1933-cü ildə faşist Almaniyasında yaradılmış məxfi dövlət polisi. Almaniyada və ondan kənarda kütləvi terrorçuluqla məşğul olmuşdur. Nümberq Beynəlxalq Məhkəməsi tərəfindən cinayətkar təşkilat hesab edilmişdir.



downloaded from KitabYurdu.org

**Getto** - şəhərin yəhudilərin yaşaması üçün ayrılmış məhəlləsi. Getto orta əsrlərdə Avropanın və müsəlman Şərqinin bir çox öl-kəlorində yəhudilərin milli-dini təklənməsi nəticəsində meydana gəlmişdir. XIV - XV əsrlərdən getto şəhərin yəhudi əhalisinin məcburi yaşama sahəsinə çevrilmişdi. XIX əsrin birinci yarısında Avropa ölkələrində getto ləğv edilmiş, yalnız müsəlman ölkələrində qalmışdır. 1939-cu ildə, əsasən də işğal olunmuş ölkələrdə faşistlər getto təşkil etməyə başladılar. Getto yəhudilərin məhv edildiyi böyük həbs düşərgələrinə çevrildi. "Getto" anlayışı şəhərin ayrı-seçkiliyə məruz qalan azlığının yaşadığı rayonu bildirmək üçün də istifadə olunur. ABŞ-da zəncilərin yaşadığı şəhər rayonlarında da getto mövcud olmuşdur.

**Geya** - qədim yunan mifologiyasında allahların və insanların öz mənşələrini ondan götürdükləri Yer ilahəsi.

**"Gənc türklər"** - Gənc türklər inqilabının iştirkaçıları; məhdud mənada - "İttihad və tərəqqi" siyasi təşkilatının üzvləri. Avropa ictimai dairələrində yaranan "Gənc türklər" məfhumu Osmanlı imperiyasında mütərəqqi dəyişiklik tərəfdarlarının hamısına deyilirdi. Türkiyənin özündə yalnız 1908-ci il inqilabından sonra fransız dilindəki "jön türklər" formasında yayılmışdır.

**Gənc türklər inqilabı** - 1908-ci ildə baş vermiş birinci Türkiyə burjua inqilabı. Onun əsas məqsədi Osmanlı sultanı II Əbdülhəmidin despotik rejimini devirmək və Osmanlı imperiyasında konstitusiyalı monarxiya yaratmaq, eləcə də ölkəni yarımmüstəmləkə zülmündən azad etmək idi. İnqilabın hərəkətverici qüvvəsi gənc türk burjuaziyası, ziyalılar və xüsusilə də zabitlər idi. Onlara "İttihad və tərəqqi" gizli təşkilatı rəhbərlik edirdi. Gənc türklər inqilabının başlanması üçün bəhanə ingilis kralı ilə rus çarının Makedoniyanın faktik olaraq Türkiyədən qoparılması barəsindəki razılaşmaları oldu. 1908-ci il iyulun 3-də leytenant Niyazinin, iyulun 6-da isə mayor Ənvərin rəhbərliyi ilə gənc türklərin üsyanı başlandı. Bir neçə gündən sonra üsyan bütün Makedoniyanı bürüdü. Üsyançılara qarşı çıxarılmış qoşunlar onlara atəş açmaqdan imtina etdilər. Müqavimət göstərməyin faydasız olduğunu başa düşən sultan II Əbdülhəmid parlamentin çağırılması haqqında fərman imzaladı. Gənc türklər inqilabının qələbəsindən sonra on minlərlə dustaq və sürgündə olanlar azad edildi, senzura ləğv olundu, siyasi mühacirlər xaricdən qayıtmağa başladılar. Gənc türklər imperiyanın bütün təbəələrini "bərabərhüquqlu osmanlı" elan etdilər. 1909-cu ilin aprelində İstanbulda əksinqilabi qiyam başlandı və sultan II Əbdülhəmidin qeyri-məhdud hakimiyyətini qısa müddətə bərpa etdi. Qiyam Makedoniyadan gələn qoşun hissələri tərəfindən yatırıldı. 1909-cu il aprelin 27-də parlament sultan II Əbdülhəmidi taxtdan saldı və iradəsiz V Mehmedi sultan seçdi. Gənc türklər öz hakimiyyətlərini möhkəmlətdilər, lakin inqilabiliklərini itirdilər.

**Gəncə xanlığı** - 1747-ci ildə Şimali Azərbaycan ərazisində Ziyad oğlu Şahverdi xan Qacar (1747 - 60) tərəfindən əsası qoyulmuş xanlıq. Xanlığın mərkəzi Gəncə idi. Əvvəl xanlıq Kartli-Kaxeti çarı II İraklidən asılı idi. Şahverdi



downloaded from KitabYurdu.org

xanın oğlu Məhəmmədhəsən xan (1760 - 80) bu asılılığa son qoydu. 1780-ci ildə qardaşının ölümündən sonra Məhəmməd xan Gəncə xanı oldu. Həmin il II İrakli və



qarabağlı İbrahimxəlil xanın birləşmiş qoşunları Gəncəni tutdular, Məhəmməd xanın gözlərini çıxarıb, onu Şuşa qalasına saldılar. Gəncə xanlığını qaliblər tərəfindən təyin olunmuş iki nümayəndə idarə edirdi. Qaliblər xanlıqdan birgə xərac alırdılar. 1783-cü ildə Hacı bəyin rəhbərliyi altında baş vermiş üsyan nəticəsində yadelli nümayəndələr Gəncədən qovuldular. 1784-cü ildə İrakli bu dəfə rus qoşunları ilə birlikdə Gəncə üzərinə hücum etdi, amma gəncəlilər dağıstanlıların köməyi ilə şəhəri müdafiə edə bildilər. Məhəmməd xanın qardaşı Rəhim bəy Şuşa qalasından qaçıb Gəncədə hakimiyyətə ələ keçirdi (1785 -86). İrakli və İbrahimxəlil xan Gəncə üzərinə üçüncü dəfə yürüş təşkil etdilər. Rəhim bəyi devirib, müəyyən məbləği ödəməyə razılıq verən Cavadxanı (1786-1804) Gəncə xanlığının xanı təyin etdilər. Ancaq 1795-ci ildən Cavad xan xərac verməkdən imtina etdi. 1796-cı ildə general Zubovun başçılığı ilə rus qoşunlarının Azərbaycana yürüşü zamanı Cavad xan öz nümayəndəsini Zubovla danışıqlar aparmağa göndərmişdi. Lakin 1796-cı il oktyabrın 21-də Gəncə xanlığı rus qoşunları tərəfindən işğal edildi. Rus qoşunları Azərbaycandan çıxarılandan sonra Cavad xan Şəmşəddil və Borçalı mahallarını öz hakimiyyəti altına qaytarmağa cəhd göstərdi və bundan sonra onun Rusiya ilə münasibətləri



gərginləşdi. 1801-ci ildə Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsindən sonra rus qoşunları Şəmşəddil, Borçalı, Pəmbək və Qazax mahallarını zəbt etdilər. Bəy və ağaların 2300 ailəsi Gəncə xanlığına köçürüldü. Cavad xan rus qoşunlarının Şəmşəddildən çıxarılmasını tələb etdi. Car-Balakən camaatının tutulmasından sonra rus qoşunları Gəncə xanlığının işğalına hazırlıq görməyə başladılar. 1803-cü il noyabrın 29-da general Sisianovun başçılığı ilə rus qoşunları Gəncə xanlığına soxuldular. Cavad xana məktub göndərən Sisianov ondan tələb edirdi ki, Rusiya taxt-tacına tabe olsun, ancaq Cavad xan imtina etdi və müqavimət göstərdi. Gəncə erməniləri xanlığın tutulması üçün rus qoşunlarına hər cür köməklik göstərirdilər. Gəncəni bir ay ərzində mühasirədə saxlayan Sisianov Cavad xana 5 dəfə məktub göndərmiş və qalanı təhvil verməyi tələb eləmişdi. Buna cavab olaraq Cavad xan demişdi: "Gəncəyə sən yalnız mənim meyidim üstündən keçib daxil ola bilərsən". 1804-cü il yanvarın 2-dən 3-nə keçən gecə rus qoşunları Gəncə qalası üzərinə hücuma keçdilər. Mayor Lisaneviç tərəfindən Cavad xanın öldürülməsindən sonra rus qoşunları şəhərə soxuldular. Gəncə zəbt edildi, Gəncə xanlığı ləğv olundu, ərazisi isə Rusiya imperiyasının tərkibinə qatıldı, Gəncənin adı dəyişdirilib Yelizavetpol (Rusiya imperatoru I Aleksandrın arvadının şərəfinə) qoyuldu.



downloaded from KitabYurdu.org

**Gəncə müqaviləsi (1735)** - Rusiya imperiyası ilə Səfəvilər dövləti arasında 1735-ci il martın 10-da Gəncə yaxınlığında bağanmış müqavilə; Rusiya səfiri X.Qolitsın və Səfəvilərin nümayəndəsi Nadir xan tərəfindən imzalanmışdır. Gəncə müqaviləsinin şərtlərinə görə, rus qoşunları Azərbaycanın Xəzərsahili vilayətlərində tutduqları torpaqları tam azad etməli idilər.

**Gəncəvi** - bax: Nizami.

**Gəncəvi Nizaməddin Əbül-üla** (1096 -1159) - mütəfəkkir və şirvanşah II Mənuçöhrün saray şairi. Şirvanşahlar sarayında "məlik üş-şüəra" ("şairlərin hökmdarı") rütbəsinə layiq görülmüşdür.

**giksoslar** - e.ə. 1700-cü ildə Ön Asiyadan Misirə soxulmuş və onu tutmuş tayfa. Giksoslar Aşağı Misirdə məskunlaşmış və özlərinin paytaxtları olan Avaris şəhərini salmışlar. Giksoslar Misirdə ilk dəfə olaraq atçılığı və cəng arabalarından istifadəni tətbiq etmişlər. Onlar Misir yazısını sadələşdirmiş və əlifbaya yaxın yazı yaratmışlar. E.ə. təqribən 1550-ci ildə Misir fironu I Yaxmos Avarisi tutmuş və giksosları Misirdən qovmuşdur.

**gildiya** (alm. "korporasiya", "birlik") - 1) geniş mənada: Avropada, xüsusilə də erkən orta əsrlərdə müxtəlif birliklər (dini, siyasi, qarşılıqlı yardım və s.); 2) dar mənada: xüsusilə də XII - XV əsrlərdə tacirlər birliyi.

**Gilyom Kal** - Fransada 1338-ci ildə baş vermiş kəndli üsyanı - Jakeriya zamanı ən çoxsaylı üsyançı dəstələrdən birinin başçısı. Kal 1357 - 58-ci illərdə üsyan etmiş parisliləri müttəfiq kimi öz tərəfinə çəkmək istəyirdi. Hiylə ilə əsir götürülmüş və zadəganlar tərəfindən edam edilmişdir.

**gilyotin** - ölümə məhkum olunmuş adamların başının bədənindən ayrılması üçün düzəldilmiş mexanizm; Böyük Fransa burjua inqilabı dövründə geniş istifadə olunmuşdur.

**gimnasi** - qədim yunan şəhərlərində tamhüquqlu vətəndaşların 16-18 yaşlı uşaqları üçün dövlət və ictimai vəsait hesabına saxlanılan təhsil müəssisəsi. Gimnasilər üçün müəllimləri xüsusi olaraq seçir və onlara məvacib verirdilər. Gimnasi şagirdləri idman məşğələlərində təkmilləşir, azyaşlılar üçün məktəblərdə almağa başladıqları elm və incəsənət sahələrində biliklərini başa çatdırırdılar. Yaşlılar üçün gimnasilər yaxşı vaxt keçirmə, söhbətləşmə, filosofların çıxışlarını dinləmə və s. yeri idi.

**Girdiman dövləti** - VI əsrin sonlarında Qafqaz Albaniyası ərazisində Mehran (Sasani şahənşahı II Xosrovun qohumu) tərəfindən əsası qoyulmuş dövlət. 30 min ailə ilə İrandan çıxan Mehran xəzərlərlə birləşmək məqsədi ilə Girdiman vilayətinə (Girdimançay vadisi) gəlir və orada Mehravan şəhərinin əsasını qoyur. Mehran Mehranilər sülaləsinin banisi olur. O, yerli əyanlardan 12 nəfəri öldürür və Girdiman vilayətini bütünlüklə ələ keçirir. Mehranın nəvəsi Cəsur Vardan Girdiman dövlətini daha da möhkəmləndirir. Cəsur Vardanın nəvəsi Varaz Qriqor isə bütün Qafqaz Albaniyasının knyazı olur.



downloaded from KitabYurdu.org

**Göy günbəz** - Marağada (Cənubi Azərbaycan) səkkizbucaqli, qülləvarı türbə. Azərbaycanın XII əsr memarlıq şedevrlərindən biri.

**Göy məscid** - Təbrizdə memarlıq abidəsi. 1465-ci ildə Qaraqoyunlu dövlətinin padşahı Cahanşahın göstərişi ilə memar Nemətulla Bəvvab tərəfindən inşa edilmişdir. Göy məscidin divarları və günbəzi mərmər və səma rəngli kaşı plitələrlə örtülmüşdür. Mərmər üzərində qazıma yazısı və çoxrəngli mayolikadan (kaşıdan) ornamental naxışlar edilmişdir.

**gözlər,** gezlər (həll. "yoxsullar", "dilənçilər") - Niderland burjua inqilabı dövründə - 1565-ci ildə ispan hökumətinə qarşı müxalifətə keçmiş zadəganlara ilk vaxtlar verilmiş ləqəb (ayama); sonralar - ispanlarla suda və quruda mübarizə aparan partizanların adları.

**günbəz** - yonulmuş və tərsinə çevrilmiş nəhəng kasa kimi bir-birinə kip birləşdirilmiş formada düzəldilən tavan. Məscidlərin və milli üslublu bir çox digər tikililərin tavanı günbəz formalıdır. Dövrümüzədək qalmış Panteon da günbəz nümunəli tikilidir..

**Gülüstan müqaviləsi (1813)** - Rusiya imperiyası ilə İran arasında 1813-cü il oktyabrın 12-də Gülüstan kəndində (Qarabağ) imzalanmış müqavilə. Müqavilə Rusiyanın qələbəsi ilə başa çatan 1 Rusiya - İran müharibəsindən sonra bağlanmışdı. Gülüstan müqaviləsinin şərtlərinə görə, İran dövləti öz tərkibində qalan Naxçıvan və İrəvan istisna olmaqla Şimali Azərbaycan xanlıqlarının Rusiyaya tabe edilməsini, eləcə də Şərqi Gürcüstan və Dağıstanın ona birləşdirilməsini tamdı. Xəzər dənizində hərbi donanma saxlamaq hüququ yalnız Rusiyaya verilirdi. İranla ticarətdə Rusiya tacirləri üçün 5%-li imtiyazlı gömrük rüsumu müəyyən olunur, onlar həm də İran ərazisində daxili gömrük vergisindən azad edilirdilər. Gülüstan müqaviləsi Azərbaycanın Rusiya ilə İran arasında bölüşdürülməsinin birinci mərhələsini rəsmiləşdirdi.



## - H -

**Habsburqlar** - Avstriyada hakimiyyətdə olmuş (1282-ci ildən - hersoqlar, 1453-cü ildən - ershersoqlar, 1804-cü ildən isə Avstriya imperatorları) sülalə. 1526-cı ildə Çexiya, Macarıstan və başqa əraziləri birləşdirən Habsburqlar geniş əraziyə malik çoxmillətli dövlətin (1867-ci ildən 1918-ci ilə kimi - Avstriya-Macarıstan) monarxlarına çevrildilər. Habsburqlar "Müqəddəs Roma imperiyası"nın imperatorları (1438 - 1805), eləcə də İspaniyanın kralları (1516 - 1700) idilər.

**Hacı Çələbi xan (şəkili)** - Şəki feodalı, Səki (Nuxa) xanlığının yaradıcısı və xanı (1747 - 55). 1743 - 44-cü illərdə Şəkidə Nadir şaha qarşı mübarizə kəskin



downloaded from KitabYurdu.org

xarakter almışdı. Yerli əhali Nadir şaha Şəki məliyi Nəcəfdən şikayət etməyə başladı. Nadir şah əmr etdi ki, Şəkinin əyanları özləri üçün vəkil seçsinlər. Vəkil



seçilən Hacı Çələbi məlik Nəcəfin işlərinə qarışmağa başlayır. Məlik Nəcəf yerli əhalidən Nadir şaha şikayət edir və bildirir ki, Hacı Çələbi şah fərmanlarına tabe olmur və xalqı da onları yerinə yetirməməyə təhrik edir. Qəzəblənmiş şah Hacı Çələbini yanına çağırtdırır və onun edam olunması haqqında əmr verir. Lakin Hacı Çələbi Nadir şahı məlik Nəcəfin çirkin əməllərlə məşğul olmasına inandıra bilir, yalnız bundan sonra azad edilir və daha yüksək rütbə alır. Əmirlərinə müraciət eləyən Nadir şah bildirir: "Heç kim mənim hüzurumda nəfəsini belə çəkməyə cəsarət eləmir, Nuxadan gəlmiş Çələbi cəsarətlidir ki, boynunda kəndir ola-ola bu sözləri mənə deyir. O bizim başımıza bəla gətirəcək. Mən zənnimdə yanılmıram". Şəkiyə qayıdan Hacı Çələbi məlik Nəcəfin hərəkətlərinə daha ciddi nəzarət edir və o yenə şaha şikayətlənir. Nadir şah Hacı Çələbini yenə yanına çağırır, ancaq bu dəfə Hacı Çələbi şahın hüzuruna getmir. Lakin Nadir şahın gec-tez Şəkiyə gələcəyini dərk eləyən Hacı Çələbi məlik Nəcəfi öldürür və iranlıları Şəkidən qovur, ərzaq-sursat ehtiyatı görüb, əhalini Şəki yaxınlığındakı "Gələsən-görəsən" qalasına yığır. 1744-cü ilin noyabrında Nadir şahın qoşunları Şəkiyə tərəf hərəkət edir, "Gələsən-görəsən" qalasında qüvvətli müqavimət görüb, geriyə çəkilməyə məcbur olur. 1745-ci ilin yazında İran qoşunları yenidən "Gələsən-görəsən" qalasına hücum edirlər, amma yenə də onu tuta bilmirlər. Nadir şah əmr edir ki, Şəkini yandırsınlar, ancaq bu da qalanın müdafiəçilərinin müqavimətini qırmır. Qalanın 5 aylıq mühasirəsindən sonra Hacı Çələbi 1746-cı ildə vəkil vəzifəsini saxlamaqla Nadir şahın ali hakimiyyətini tanımağa məcbur olur. Nadir şahın yeni vergilər təyin etməsindən sonra Şəki əhalisi 1747-ci ildə yenidən silaha əl atır və Hacı Çələbi özünü Şəkinin xanı elan edir.

Nadir şahın öldürülməsindən sonra Hacı Çələbi xan Şəki xanlığının möhkəmləndirilməsi və genişləndirilməsi sahəsində bir sıra tədbirlər görmüşdür. Hacı Çələbi xan vergiləri tənzimləmişdi, bu isə Səki xanlığının maliyyə vəziyyətinin yaxşılaşmasına imkan vermişdir. Hacı Çələbi xan Təbriz üzərinə uğursuz yürüş etmiş, Qarabağ xanlığının bir hissəsini ələ keçirmişdir. Qarabağ xanlığında Bayat qalasının nəticəsiz mühasirəsindən sonra Hacı Çələbi xan demişdir: "Pənahəli xan indiyədək əyarsız gümüş idi, biz isə gəlib ona əyar vurub getdik". Hacı Çələbi xan oğlunu qazıqumuxlu Məhəmmədhəsən xanın qızı ilə evləndirəndən sonra Qəbələ və Ərəş sultanlıqlarını özündən asılı vəziyyətə saldı. 1751-ci ildə Hacı Çələbi xana qarşı gürcü çarı II İrakli, qarabağlı Pənahəli xan, gəncəli Şahverdi xan, qaradağlı Kazım xan, naxçıvanlı Heydərqulu xan və irəvanlı Hüseynəli xan ittifaq yaratmışdılar. Hacı Çələbi xan Nizaminin qəbri yaxınlığında baş verən döyüşdə güclü qoşunla öz rəqibləri üzərində parlaq qələbə çaldı. Bu



downloaded from KitabYurdu.org

qələbədən sonra Qazax və Borçalı gürcülərdən azad edildi. 1752-ci ilin yazında İrakli Cara hücum etdi, carlılara köməyə gələn Hacı Çələbi xan gürcü çarını daha ağır məğlubiyyətə uğratdı. 1755-ci ildə Hacı Çələbi xan Şirvanı tutmağa cəhd göstərdi, Ağsu qalasını uğursuz mühasirəyə aldı.

**Hacıbəyov** Üzeyir Əbdülhüseyn oğlu (1885 - 1948) - Azərbaycan dramaturqu, bəstəkar, musiqiçi, SSRİ xalq artisti (1938), Azərbaycan SSR Elmlər



Akademiyasının akademiki (1945), Azərbaycanın professional musiqi sənətinin banisi. Respublikada musiqi təhsilinin inkişafına təkan vermiş, Azərbaycan Dövlət Konservatoriyasına rəhbərlik etmişdir. Bir çox musiqi kollektivləri yaratmışdır. Əsas əsərləri: "Leyli və Məcnun" (1908), "O olmasın, bu olsun" (1910), "Arşın mal alan" (1913) musiqili komediyaları, “Koroğlu” (1937) operası, kantatalar, simfonik əsərlər, Azərbaycan Demokratik Respublikasının (1918) və Azərbaycan SSR-in (1945) dövlət himnlərinin musiqisi. SSRİ dövlət mükafatları laureatıdır (1941, 1946).

**Haqverdiyev Əbdürrəhim bəy Əsəd bəy oğlu** (1870 - 1933) - Azərbaycan yazıçısı, Azərbaycan SSR-in əməkdar incəsənət xadimi (1928). Əsas əsərləri: "Dağılan tifaq" (1896) və "Bəxtsiz cavan" (1900) faciələri. Haqverdiyev "Xortdanın cəhənnəm məktubları" (1907), "Marallarım" (1910) və digər əsərlərində cahilliyi, mövhumatı, müftəxorluğu rişxəndlə tənqid etmişdir.

**Halikarnas mavzoleyi** - e.ə. IV əsrdə Halikarnas şəhərində inşa edilmişdir; Kariya hökmdarı Mavsolun sərdabəsi. Qədimdə "dünyanın yeddi möcüzəsi"ndən



biri sayılırdı. Halikarnas şəhəri Kiçik Asiya sahillərində yerləşən və məşhur yunan tarixçisi Herodotun vətəni sayılan, çox da böyük olmayan Kariya yunan çarlığının paytaxtı olmuşdur. Mavsol ətraf əraziləri və adaları Kariyaya birləşdirə bilən hiyləgər və ehtiyatlı hökmdar idi. O, tabeliyində olanların bütün ehtiyacları üşün vergi təyin etmiş və bununla da çoxlu var-dövlət qazanmışdı. Bu var-dövlətlə o özünə çox yaraşıqlı bir sərdabə-məbəd inşa etdirmişdi. Ölümündən sonra burada ona allaha layiq hörmət göstərilməli idi. Məbəd-sərdabənin inşasına hələ Mavsolun sağlığında başlanılmışdır. Onun ölümündən sonra məbədin inşasını arvadı, ondan sonra oğlu davam etdirmiş, nəvəsi isə başa çatdırmışdır. Bu məbəd-sərdabənin yaradılması üçün Mavsol o dövrün ən yaxşı memarlarını - Pifey və Satiri, ən məşhur heykəltəraşlarını - Leoxar, Skopas, Briaksis və Timofeyi dəvət etmişdi. Tarixçi alimlərin fikrincə, mavzoley eni 66 m, uzunluğu isə 77 m ölçüdə dördbucaqlı bina şəklində olub. Hündürlüyü 46 m-dək imiş. Mavzoley 3 mərtəbədən ibarət idi. Ağ mərmərdən hündür postament rolunu oynayan birinci mərtəbə Mavsolun və onun arvadının sərdabəsi idi. Burada çarın və çariçanın mərmər sarkofaqı yerləşirdi. Birinci mərtəbə yuxarıda enli frizlə - naxışlı mərmər zolaqla tamamlanırdı. Birinci mərtəbənin üstündə ilahiləşdirilmiş çarın və arvadının şərəfinə qurban verilmək üçün tikilmiş otağı əhatə edən sütunlar



downloaded from KitabYurdu.org

var idi. Mavsolun və arvadının nəfis düzəldilmiş mərmər heykəlləri də burada yerləşirdi. Pilləli piramida mavzoleyin örtüyü rolunu oynayırdı. Bütün tikili dörd ata qoşulmuş mərmər cəng arabası abidəsi ilə tamamlanırdı. Binanın ətəyində aslan və yürüyən atlıların mərmər heykəlləri var idi.

Mavsolun məbəd-sərdabəsinin şöhrəti o qədər geniş yayılmışdı ki, qədim romalılar böyük və monumental qəbirüstü “mavzoley” adlandırmağa başladılar. "Mavzoley" sözü romalıların dilindən müasir dillərə keçdi.

Mavzoley 1800 illədək - xaç yürüşlərinədək qalmışdır. Xaçlı cəngavərlər Kiçik Asiyanın sahillərini istila edib, burada Müqəddəs Pyotr qala-qəsrini tikdirmişdilər. Onun inşası üçün işğalçılar mavzoleyin divarlarındakı heykəlləri, relyefli plitələri, mərmər frizləri, heykəllərdəki qızıl suyuna çəkilmiş tunc bərbəzəkləri insafsızcasına sındırırdılar. Xaçlılar türklər tərəfindən qovulduqdan sonra Müqəddəs Pyotr qala-qəsri türklərin Budrun qalasına çevrildi. Türkiyə hökumətinin icazəsi ilə ingilis tədqiqatçıları antik relyefli plitələri Britaniya muzeyinə gətirdikdən sonra əmin oldular ki, qarşılarındakı vaxtilə hökmdar Mavsolun sərdabəsini bəzəmiş frizlərdir. Budrun qalasında aparılan qazıntılar nəticəsində əlavə materiallar əldə edən memarlar tarixçi alimlərlə birgə mavzoleyi yenidən qurmuşlar, hərçənd mütəxəssislərin heç də hamısı bununla razılaşmamışdır.

**Hammurapi** - Babilistan hökmdarı (e.ə. 1792 - 50). Mesopotamiyanı fəth edən Hammurapi bütün Babilistan şahlığı üçün vahid baş allah, qanunlar, çəki və uzunluq ölçüləri təyin etdi.

**Hannibal** (e.ə. 247 - 183) - istedadlı sərkərdə, e.ə. 221-ci ildən İberiyada (İspaniya) Karfagen qoşunlarının baş komandanı. Antik müəlliflər xəbər verirlər ki, Hannibal ələ doqquz yaşında belə and içibmiş: "And içirəm ki, heç vaxt romalıların dostu olmayacağam və qüvvəm çatan qədər onlara pislik edəcəyəm". Hannibal varlı Karfagen ailəsində anadan olmuş, yaxşı təhsil almışdı. Dörd dildə, o cümlədən yunan və latın dillərində danışırdı. O, yunan ədəbiyyatı və elmini bilir, Makedoniyalı İsgəndərin yürüşlərini öyrənirdi. Romalılar heç cür onun planlarını anlaya bilmirdilər. Hannibal müharibədə gözlənilməz bicliklər işlədir və tələ qura bilirdi. Həm romalılar, həm də karfagenlilər müharibəyə hazırlaşırdılar. E.ə. 218-ci ildə romalılar Karfagenə müharibə elan etdilər. Romalılar müharibəni İspaniya və Afrikada aparmaq niyyətində idilər. Amma onların gözlədiyinin əksinə Hannibal tərtib etdiyi plana uyğun olaraq qoşunlarını və döyüş fillərini Alp dağları vasitəsilə İspaniyadan İtaliyaya keçirdi. Alp dağlarının donmuş cığırlarını keçərkən onun döyüşçülərinin yarısı və demək olar ki, fillərinin hamısı həlak olmuşdu. Hannibal sağ qalmış döyüşçülərlə Şimali İtaliyaya çıxdı və burada yaşayan qall tayfaları ona qoşuldular, seyrəlmiş qoşunlarını xeyli qüvvətləndirdilər. Hannibalın qəflətən İtaliyaya daxil olması romalılar arasında böyük çaxnaşma yaratmış, bir neçə qanlı savaşdan sonra isə Karfagen qoşunları romalıların iki ordusunu darmadağın etmişdi. Hannibal qoşunları ilə şimaldan-cənuba qədər bütün İtaliyanı keçdi. Hətta



downloaded from KitabYurdu.org

Hannibalın düşməni olan romalılar da onun şücaətini və fövqəladə sərkərdə qabiliyyətini etiraf edirdilər. E.ə. 216-cı ildə Kanna yaxınlığındakı döyüşdə Hannibalın qoşunları sayca çox olan düşmən qoşunlarını mühasirəyə alıb darmadağın etdilər. E.ə. 221-ci ildə karfagenlilər Romaya yaxınlaşdılar, amma böyük və yaxşı möhkəmləndirilmiş şəhəri mühasirəyə almaq və hücumla tutmaq üçün Hannibalın kifayət qədər qüvvəsi yox idi. Romalılar sülh imzalamaqdan imtina etdilər. Roma sərkərdələri müharibənin partizan taktikasına üstünlük verdilər. Müharibə sürəkli vəziyyət aldı. Hannibalın 16 ilə yaxın İtaliyada olan qoşunu tədricən azalmağa, Romanın qüvvəsi isə artmağa başladı. Hannibal başa düşdü ki, müharibəni uduzur. E.ə. 204-cü ildə romalılar Afrikaya çıxdılar, e.ə. 203-cü ildə isə Hannibal İtaliyadan geriyə çağırıldı və e.ə. 202-ci ildə Zama şəhəri yaxınlığında Hannibalın ordusu Afrikalı Ssipionun başçılığı ilə Roma qoşunları tərəfindən darmadağın edildi. Roma ilə sülh (e.ə. 201) imzalandıqdan sonra Hannibal Karfagenin idarəçiliyinə rəhbərlik etdi. E.ə. 195-ci ildə Hannibal Ön Asiyaya qaçdı və orada Selevkilər hökmdarı III Antioxun hərbi müşaviri oldu. Antioxla danışıqlar aparan Roma sərkərdəsi Ssipion burada Hannibal ilə görüşdü. Selevkilər dövləti romalılar tərəfindən darmadağın edildikdən sonra Hannibal Vifiniyaya (Kiçik Asiyada kiçik bir dövlət) qaçdı və burada da hökmdarın hərbi müşaviri oldu. Bundan xəbər tutan senat onun təhvil verilməsini tələb etdi. Artıq qocalmış və xəstə sərkərdə bir dəfə evinin silahlı adamlarla mühasirəyə alındığını gördü. Romalıların əsiri olmaq istəməyən Hannibal zəhər içib özünü öldürdü.

**Harappa** - ən qədim şəhərlərdən birinin - e.ə. 111 minilliyin ortaları - II minilliyin I yarısında Pəncab ərazisində (indiki Pakistanda) mövcud olmuş keçmiş Harappa sivilizasiyası mərkəzinin xarabalıqları. Arxeoloqlar burada kərpicdən və keramikadan inşa edilmiş qalalar, evlər və tikililər, möhürlər və s. aşkar etmişlər.

**Hastinqs** - İngiltərədə Pade-Kale boğazı sahilində şəhər. Normandiya hersoqu Vilhelmin qoşunları 14 oktyabr 1066-cı ildə Hastinqs yaxınlığında İngiltərəyə çıxmış və kral II Haroldun anqlosaks qoşunlarını darmadağın etmişdi. Harold döyüşdə öldürülmüş, Vilhelm isə bütün İngiltərəni tutaraq ingilis kralı olmuşdur.

**Haşımzadə** Mir Mehdi (1819 - 94) - "Xəzani" təxəllüsü ilə şerlər yazan Azərbaycan tarixçisi və şairi. Əsas əsəri Qarabağ xanlığının 1747-ci ildən 1828-ci ilə kimi tarixini işıqlandıran "Kitabi-tarixi-Qarabaği"dir.

**hayduklar** - XV - XIX əsrlərdə Osmanlı ağalığına qarşı mübarizə aparan bolqar və serb partizanları. Hayduklar müsəlman kəndlərini yandırır və talan edir, döyüşçülərə və məmurlara hücum çəkirdilər. Osmanlı qoşunları partizanları məhv edə bilməmişdilər. Hayduklar əksər hallarda amansızcasına vəhşiliklər törədir, qarət və zorakılıqla məşğul olurdular.

**Hefest** - qədim yunan mifologiyasında od allahı, demirçilik sənətinin himayədarı, Zevsin və Heranın oğlu. Qədim romalılar onu Vulkanla eyniləşdirirdilər.



downloaded from KitabYurdu.org

**hegemoniya** - birincilik, rəhbər rol, aparıcılıq.

**hegemonizm** - dünya ağalığına əsaslanan siyasət. Digər dövlətlərin və xalqların daxili işlərinə qarışmaq, onlara birbaşa müdaxilə və s. formasında təzahür edir. Bu zaman siyasi, ideoloji, iqtisadi, hərbi və s. vasitələrdən istifadə olunur.

**Hera** - qədim yunan dini və mifologiyasında allahların çariçası, Zevsin bacısı və arvadı. Hera bərəkət ilahəsi və nikahın himayədarıdır. Qədim romalılar Heranı ilahə Yunona ilə eyniləşdirirdilər.

**Herakl** - qədim yunan mifologiyasında böyük qəhrəman, Zevsin və Heranın oğlu. Əfsanəyə görə, Herakl 12 qəhrəmanlıq göstərmişdir. Zevs Heraklı ölümsüzləşdirmiş və Olimp dağına aparmışdır.

**heraldika** - gerblərin öyrənilməsi ilə məşğul olan elm. Heraldika maddi mədəniyyətin öyrənilməsi üçün xüsusilə vacibdir, belə ki, o, tarixi maddi mənbələrin mənsubiyyətini, tarixini, istehsal olunduğu yeri və digər əlamətlərini müəyyənləşdirməyə kömək edir.

**Hermes** - qədim yunan mifologiyasında maldarlıq, ticarət və gəlir allahı. Olimp allahlarının müjdəçisi. Səyahətdə (yolda) olanların himayəçisi. Qədim romalılar onu Merkuri allahı ilə eyniləşdirirdilər.

**Herodot** (e.ə. 484 - 425) - görkəmli qədim yunan tarixçisi, mənşəcə Kiçik Asiyada yerləşən Halikarnas şəhərindəndir. Herodot Yunan - İran müharibələrinin tarixini yazmışdır. Lakin həmin əsərdə o, təkcə müharibələr barəsində deyil, həm də müharibədə iştirak edən xalqların tarixi haqqında da məlumat vermişdir. Öz əsəri üçün material toplayan Herodot Əhəmənilər dövlətinin bir çox ölkələrini gəzmiş, gördükləri, yerli sakinlərdən eşitdikləri haqqında yazmışdır. Herodot tarixi faktları ilk dəfə müqayisə edənlərdən və onları bir-biri ilə zəncirvan hadisələr kimi araşdıran, onların səbəblərini açmağa cəhd göstərənlərdən idi. Herodot özünün "Tarix" əsərindən parçaları ilk dəfə Olimpiya Oyunları zamanı oxumuşdur. Dinləyicilər Herodota həyəcanla qulaq asırdılar, çünki o, gözəl yazıçı idi. Onlar bu kitabdan o qədər həzz aldılar ki, onun haqqında rəvayətləri bütün Yunanıstana yaydılar. Herodot tezliklə məşhurlaşdı. Onun əsəri hələ qədimlərdə çox yüksək qiymətləndirilmiş, özü isə "tarixin atası" adlandırılmışdır. Herodotun "Tarix " kitabı - Qədim Yunanıstanda və Ön Asiyada, Misirdə və bizim vətənimiz Azərbaycanda məskunlaşmış xalqların qədim tarixi üzrə biliyimizin ən mühüm mənbələrindən biridir.



**Heroqlif** - adətən bir söz və ya heca bildirən işarə-rəsmlərin istifadə olunduğu xüsusi yazı sistemi. Heroqlif yazısından e.ə. təxminən 3000-ci ildən Qədim Misirdə 750 heroqlifə qədər) və Qədim Çində (burada hər heroqlif bir söz bildirdiyindən on minlərlə heroqlifdən) istifadə olunmağa başlanılmışdı. Qədim Misirdə heroqlif yazısı e.ə. IV minillikdə meydana çıxmışdır. Heroqlif yazısından e.ə. III minillikdə Krit adasında, e.ə. II minillikdə hettlər və çinlilər, e.ə. X əsrdən



downloaded from KitabYurdu.org

asteklər, eramızın əvvəllərindən mayyalar, V - VI əsrlərdən isə yaponlar istifadə etmişlər. Çində qədim heroqlif yazısından bir qədər dəyişdirilmiş formada indiyədək istifadə olunur. Müasir yaponlar, koreyalılar, vyetnamlılar da heroqliflərdən istifadə edirlər.

**hersoq** – qədim germanlarda qəbilənin, tayfanın hərbi başçısı. Orta əsrlərin başlanğıcında Qərbi Avropada iri feodal sahibkar. Orta əsrlərin axırlarından ali zadəgan titullarından biri.

**Hesiod** - e.ə. VIII - VII əsrlər qədim yunan şairi. Əsas əsərləri "Zəhmətlər və günlər" və "Teoqoniya"dır.

**Həbibi** - I Şah İsmayıl Səfəvinin sarayında ədəbi məclisə rəhbərlik etmiş XVI əsr Azərbaycan şairi.

**həbs düşərgələri (konslager)** - Almaniyada faşistlərin hakimiyyətə gəlməsindən (1933) sonra hitlerçi rejimin əleyhdarlarını təcrid və əzmək məqsədi



ilə yaradılmış alman-faşist həbs düşərgələri. 1938 - 39-cu illərdə Almaniyanın işğal etdiyi ölkələrdə həbs düşərgələri sistemi yaradıldı və bu ölkələrin xalqlarına qarşı repressiya və genosid - soyqırımı alətinə çevrildi. Konslagerlər insanların kütləvi məhv edilməsinə imkan verən qaz kameraları, krematoriyalarla təchiz edilmişdi. Buhenvald, Zaksenhauzen, Dahau, Maydanek, Osvensim, Treblink və s. həbs düşərgələrində 11 milyondan artıq adam məhv edilmişdir.

**həcc** (ər. "əl-həcc") - müsəlmanların Məkkəyə ziyarəti. Bunu yerinə yetirməyə imkanı olan hər bir müsəlman üçün Ömründə heç olmasa bir dəfə vacibdir.

**Hədislər** - Məhəmməd peyğəmbərin fəaliyyəti və kəlamlarına əsaslanan rəvayətlər. Hədislərin əksəriyyəti VII əsrin sonu - VIII əsrin əvvəlində meydana gəlmişdir. Səhih (doğru) sayılan hədislər birlikdə "sünnə" adlanır.

**həmrəylik** - maraqların birliyi, ümumiliyi.

**hərbi demokratiya** - ibtidai icma cəmiyyətinin inkişafının nəsli icmanın dağılması və onun qonşu icması ilə əvəz olunan son mərhələsi. Kollektivçiliyin və demokratiyanın qalıqlarının saxlanıldığı həmin mərhələdə əmlak bərabərsizliyi yaranır, xalq yığıncağının hakimiyyəti dağılır, hərbi drujinaya arxalanan hərbi başçıların hakimiyyəti güclənir.

**"Hərbi kommunizm"** - 1918 - 20-ci illərdə vətəndaş müharibəsi və xarici hərbi müdaxilə dövründə SSRİ-nin iqtisadi siyasəti. "Hərbi kommunizm" siyasətinin ən mühüm tədbirləri: iqtisadiyyatın hərbi tələbat üçün yenidən qurulması, iri, orta və qismən də xırda sənayenin milliləşdirilməsi, xüsusi ticarətin qadağan edilməsi, ərzaq sapalağının (yəni kəndlilərin artıq ərzaq məhsulunu möhkəm qiymətlərlə dövlətə məcburi qaydada təhvil verməsi) tətbiqi, bölüşdürmənin mərkəzləşdirilməsi (kartoçka sistemi), ümumxalq əmək



downloaded from KitabYurdu.org

mükəlləfiyyəti və əmək haqqının ödənilməsində bərabərçiliyin qoyulması. 1921-ci ildə "Hərbi kommunizm" siyasəti yeni iqtisadi siyasətlə (YİS) əvəz olunmuşdur.

**hərbsizləşdirilmiş** (demilitarizasiya olunmuş) zona - köhnə hərbi istehkamların saxlanılması və yenilərinin yaradılmasının, qoşunların yerləşdirilməsinin qadağan olunduğu ərazi zolağı. Hərbsizləşdirilmiş zona rejimi beynəlxalq müqavilə ilə müəyyənləşdirilir.

**hərəm** (ər. "hərəm" - "qadağan olunmuş yer") - 1) Kəbə və onun ətrafı; 2) müqəddəs yer; ziyarətgah; 3) müsəlmanların evində qadın otağı. Məcazi mənada – ev sahibinin arvad və kənizləri.

**Həsən Cəlal** - Mehranilər nəslindən olan Həsən Cəlal Arsax-Xaçın knyazlığının hakimi (1215 - 61) idi. Atabəy Özbəyin hakimiyyəti illərində Eldəgəzlər dövlətinin zəiflədiyi dövrdə Həsən Cəlal əsasən Qarabağın dağlıq



hissəsini əhatə edən knyazlığın bərpa edilməsinə nail olmuşdur. Həsən Cəlal knyazlıqda qədim albanların milli özünüdərkini və ənənələrini bərpa etməyə can atırdı, lakin hələ ərəblərin ağalığı dövründə alban kilsəsinin 704-cü ildə erməni kilsəsinə tabe edilməsi ilə başlanan qriqorianlaşma prosesi onunla nəticələndi ki, Arsaxın və Xaçının əhalisi alban dili ilə yanaşı, erməni dilindən də istifadə etməyə başladı. Alban katolikosu Nersesin xahişi ilə Həsən Cəlal 1218-ci ildə Qanzasar monastırının (mənbələrdə “Albaniyanın baş kilsəsi” adlanır) tikintisinə başlanılması haqqında əmr vermişdir. Həsən Cəlal çevik siyasəti ilə öz hakimiyyətini hətta monqolların hücumu zamanı və ondan sonra da qoruyub saxlaya bilmişdi.

**“Həşt behişt”** – Ağqoyunlu padşahı Yaqub Mirzənin əmri ilə 1486-cı ildə Təbrizdə inşa edilmiş yaraşıqlı saray kompleksi. Kompleksə saray binaları, kitabxana və məscid, 1000 nəfərlik xəstəxana, cıdır meydanı, ağac və güllər əkilmiş geniş park daxil idi. Sarayın əsas salonu Yaxın Şərq tarixində daha çox məşhur olan döyüşlərin təsvirləri lə bəzədilmişdi. Təəssüflər olsun ki, “Həşt behişt”dən bizə yalnız onun xarabalıqları gəlib çatmışdır.

**Hicrət** (ər. “köçmək”, “ayrılmaq”) – Məhəmməd Peyğəmbərin Məkkədən Yəsribə (Mədinəyə) köçməsi. Hicrətin səbəbi islamın Məkkədə çoxillik uğursuz təbliğatı idi. Şəhərdən kənarda davamçıların axtarışı Məhəmməd Peyğəmbəri onun hakəmliyini qəbul edən və onu özlərinə başçı sayan Yəsrib ərəbləri ilə anlaşmaya gətirdi. Məhəmməd Peyğəmbərin və Əbu Bəkrin Yəsribə gəlmələrinin nisbətən daha düzgün tarixı 12 rəbi ül-əvvəl (24 sentyabr) 622-ci il hesab olunur. İslamın formalaşması və yayılmasında hicrət həlledici rol oynamışdır: qohumluq əlaqələrinin qırılması müsəlman icmasını xırda bir qəbilə çərçivəsindən çıxardı və onun dövlətə çevrilməsi üçün şərait yaratdı. Xəlifə I Ömərin dövründə (VII əsr) hicrət müsəlman təqviminin başlanğıcı götürülmüşdür. Hicri təqvim Ay təqviminə əsaslanır.



downloaded from KitabYurdu.org

**himn** (dövlət) - vətəni, dövləti, tarixi hadisələri, onların qəhrəmanlarını vəsf edən musiqili nəzm əsəri. Hər bir ölkədə rəsmi qəbul olunmuş dövlət himni vardır. Azərbaycan Respublikasının dövlət himni (sözləri Əhməd Cavadın, musiqisi Üzeyir Hacıbəyovundur) 1992-ci il mayın 27-də Milli Məclis tərəfindən qəbul olunmuşdur.

**Hipotez (fərziyyə)** - elmi-tədqiqat prosesində hər hansı bir hadisənin və ya hadisələr məcmusunun izah olunması üçün irəli sürülən güman.

**Hippokrat** (e.ə. 460 - 370) – görkəmli qədim yunan həkimi. Hippokrata qədər hesab edilirdi ki, insan onun bədəninə şər ruhların daxil olmasına görə



xəstələnib ağrıyır. Hippokrat başa düşdü ki, bu, şər qüvvələrlik deyil. Hippokratın təliminə görə, həkim xəstəliyi insanın bədənindən qovmamalı, əksinə, orqanizmin onu dəf etməsinə kömək etməlidir. Hippokratın və onun şagirdlərinin düzgün qidalanmaq, dərmanlar və əməliyyatlar haqqında əsərləri təbabətin inkişafına böyük töhfədir. Həkimin yüksək mənəvi siması haqqında düşüncələr Hippokratın adı ilə bağlıdır. İndinin özündə də həkim olmaq istəyənlərin hamısı "Hippokrat andı" içir.

**Hitler** (təxəllüsü; əsl adı Adolf Şiklqruber; 1889 - 1945) - Almaniya Nasional-Sosialist Fəhlə Partiyasının başçısı - füreri (1921-ci ildən), Almaniyanın reyxskansleri (1933-cü ildən), 1934-cü ildən reyxskansler və prezident vəzifələrini birləşdirmişdir. Avstriyanın Braunau şəhərində gömrük işçisi ailəsində anadan olmuş, 1932-ci ilə kimi Avstriya vətəndaşlığını saxlamışdır. Erkən yaşlarından yetim qalmışdır. Avstriyada alman millətçiliyi və antisemitizm ideyasının qatı tərəfdan olmuşdur. 1913-cü ildə Almaniyaya köçmüşdür. Birinci Dünya müharibəsi illərində Hitler könüllü orduya getmiş, iki dəfə yaralanmış və yefreytor rütbəsi almışdır. Qeyri-adi natiqlik qabiliyyəti sayəsində 1921-ci ildən Almaniya Nasional-Sosialist Fəhlə Partiyasının füreri olmuşdur. 1923-cü ildə Münhendə hakimiyyəti ələ keçirməyə cəhd göstərdi ("pivə qiyamı") və buna görə məhkəmənin qərarı ilə Hitler 5 il müddətinə həbs olundu. Həbsxanada olarkən “Mayn kampf” ("Mənim mübarizəm") kitabının çox hissəsini yazdı və orada özünün siyasi görüşlərini təsvir etdi. 1933-cü il yanvarın 30-da Hitler Almaniyanın reyxskansleri, 1934-cü ildə Hindenburqun ölümündən sonra isə həm də prezidenti oldu. Almaniyada faşist terroru rejimi yaratdı. Hitler 1938-ci ildən Almaniyanın silahlı qüvvələrinin ali baş komandanı oldu. Hitler İkinci Dünya müharibəsinin başlanmasının birbaşa təşəbbüskarı, işğal olunmuş ərazilərdə hərbi əsirlərin və dinc əhalinin kütləvi qırğınının əsas təşkilatçılarından biridir. Sovet qoşunları Berlinə daxil olan zaman çıxılmaz vəziyyətə düşən Hitler 1945-ci il aprelin 30-da - reyxstaq üzərində sovet bayrağı qaldırılandan təxminən iki saat sonra imperiya dəftərxanasının yeraltı bunkerində özünü güllə ilə öldürmüşdür.



downloaded from KitabYurdu.org

**Homer** - e.ə. VIII əsr görkəmli qədim yunan şairi. Homer öz poemalarını ifa edən sərgərdan kor nəğməkar idi. Troyaya yürüş haqqında rəvayətlər əsasında Homer iki böyük poema poema - "İliada" və "Odisseya" əsərlərini yaratmışdır. "İliada " poemasının adı yunanların İlion adlandırdıqları Troya şəhərinin adından götürülmüşüdür. "İliada"da Axey - Troya müharibəsinin onuncu ilinin hadisələri təsvir olunur. "Odisseya"da Odisseyin Troyadan vətəninə qayıdarkən başına gələn macəralardan bəhs olunur. Homerin hər iki poeması ən böyük ədəbi əsərlərdəndir. Bu əsərlər təntənəli hekzametr şeri ilə yazılıb, dilinin zənginliyi və oxunaqlığı ilə seçilir. Uzun illər ərzində onun əsərləri şifahi şəkildə nəsildən-nəslə ötürülürdü və yalnız e.ə. VI əsrdə yazıya alınmışdır.

**homsted** (ing. "ev üçün yer", "malikanə", "sahə") - ABŞ-da vətəndaş müharibəsi (Şimalla Cənub arasında müharibə) illərində 1862-ci ildə homstedlər haqqında qəbul edilən qanuna əsasən verilən torpaq payı. ABŞ-ın Cənubun tərəfində vuruşmamış hər bir vətəndaşı ictimai fonddan öz mülkiyyəti üçün böyük torpaq sahəsi ala bilərdi.

**Hörmüzd,** Hörmüz - zərdüşti allahı Ahura Mazdanın orta əsrlərdəki adı.

**hugenotlar** - Fransada XVI - XVIII əsrlərdə kalvinizm tərəfdarlarını "hugenot" adlandırırdılar. Fransada hugenotlarla mübarizə aparmaq üçün "Odlu palata" adını alan fövqəladə tribunal yaradılmışdı. Tribunal 3 il ərzində 500 adamı məhkum etmişdi. Şimali Fransanın feodal əyanları və zadəganları başda hersoq Fransua de Giz olmaqla katoliklərin tərəfində idilər. Navarra kralı Antuan Burbon, onun oğlu Henrix və şahzadə Konde, habelə admiral Qaspar de Kolinyi hugenotlara başçılıq edirdilər. Katoliklərlə hugenotlar arasında toqquşmalar 36 il (1562 - 98) davam etdi və tarixə vətəndaş və ya dini müharibələr adı ilə daxil oldu. 1572-ci ildə Varfolomey gecəsində çoxlu hugenot öldürülmüşdür.

**humanistlik** - insaniyyətlik, insansevərlik, insanlara hörmətlə yanaşmaq, insan şəxsiyyətinə hörmət etmək.

**humanistlər** - İntibah dövrü mədəniyyəti xadimləri; onları hər şeydən əvvəl insan və onun əməlləri cəlb edirdi. Humanistlərin bir çoxu kəskin şəkildə kilsəyə qarşı çıxış edirdi. Məhz humanistlər antik dövrlə İntibah dövrü arasındakı dövrü “orta əsrlər” özlərinin yaşadıqları dövrü isə "yeni dövr" hesab etmişlər.

**humanizm** (lat. "insani", "insanpərvərlik") - bir şəxsiyyət kimi insanın dəyərinin, sərbəst inkişafının və qabiliyyətinin aşkara çıxarılması üçün onun hüquqlarının etiraf olunması, insanın rifahının ictimai münasibətlərin qiymətləndirilməsində meyar kimi qəbul edilməsi.

**hunlar (xunnular)** - türkdilli köçəri tayfaların möhkəm birliyi; e.ə. IX əsrdə Şimali Çin və Monqolustan ərazilərində məskunlaşmışlar. Həmin dövrdən xunnu tayfaları Çin üzərinə daimi yürüşlər təşkil edirmişlər. Məhz xunnu yürüşlərindən qorunmaq məqsədi ilə çinlilər Böyük Çin səddini inşa etmişlər. E.ə. II əsrdə xunnu tayfaları qüvvətli, ağıllı və bacarıqlı Modenin hakimiyyəti altında birləşdirilmişlər. Onun başçılığı ilə xunnular qonşuları, xüsusilə də onların daha



downloaded from KitabYurdu.org

zəngini Çin üzərinə bir sıra dağıdıcı yürüşlər etmişlər. Çin qüvvətli xunnu təzyiqindən xilas olmaq üçün çoxlu qüvvə və qızıl sərf etməli olmuşdur. Xunnu tarixinin bu dövrünə altı taxta dirəkli daş tökümündən ibarət olan bir çox geniş kurqan qəbirləri aid edilir. Bu qəbildən müasir Ulan-Bator (Monqolustan) şəhəri yaxınlığında yerləşən Noin-Ula xunnu qəbri daha məşhurdur. Qəbirlərdə aşkar edilmiş çoxlu əşyalar o dövr xunnu təsərrüfatı, mədəniyyəti, ticarət əlaqələri və ictimai həyatı haqqında təsəvvür yaratmağa imkan verir. Xunnu təsərrüfatının əsasını əvvəlki kimi maldarlıq təşkil edirdi. Ovçuluq da böyük rol oynayırdı. Xunnu tayfaları məişət əşyalarını vəhşi heyvanların fiqurları ilə bəzəməyi xoşlayırdılar. Ön Asiya incəsənətində (o cümlədən "Luristan tuncu" adlandırılan Azərbaycan ərazisində) də fantastik yırtıcı heyvanların, eləcə də "skif heyvani üslubu" adlandırılan incəsənətdə oxşar təsvirlər məlumdur; lakin xunnu tayfaları Qərbi Sibir və Altay tayfaları ilə daha sıx əlaqədə idilər. Xunnu tayfaları əsir qulların əməyindən istifadə edirdilər. Hərbi əsirlərin çoxu varlı əkinçi və sənətkarlardan asılı olurdu. E.ə. I əsrin ortalarında xunnu dövləti iki hissəyə - şimali və cənubi hissələrə parçalandı. Cənubi xunnu tayfaları öz yerlərində qaldılar, şimali xunnu tayfaları isə tədricən qərbə - Mərkəzi Asiyaya tərəf hərəkət etməyə başladılar. Orada onların bir qismi Yueban dövlət qurumu yaradaraq oturaqlaşdı, qalanları isə Uralətrafı və Volqaboyuna tərəf axın etdilər. Eramızın II - IV əsrlərində xunnu tayfaları tədricən yerli uqr və sarmat tayfaları ilə qarışdılar.

**Hun tayfalarının qərbə** - Avropaya köçməsi "xalqların böyük köçü "nün başlanmasına səbəb oldu. Eramızın IV əsrinin ortalarından hunlar Mərkəzi Asiyadan və Uralətrafından Şimali Qafqaza doğru hərəkət etdilər. Hunların bir qismi burada əyləndi, digər qismi Cənubi Qafqaza yürüşlərə başladı, üçüncü qismi isə Balamberin başçılığı ilə qərbə doğru hərəkət edərək alan tayfalarına zərbə endirdi və onları öz tayfa ittifaqına daxil etdi. 370-ci ildə hunlar Krımda Bospor çarlığını darmadağın etdilər. Onun paytaxtı Pantikapey, şəhərlər və kəndlər tamamilə dağıdıldı. 375-ci ildə hunlar Qara dənizin şimal sahillərində olan ostqotların tayfa ittifaqlarını məğlub etdilər və nəticədə həmin ittifaq dağıldı; ostqotların bir hissəsi hunların tayfa ittifaqına daxil oldu, digər hissəsi isə qərbə doğru hərəkət etdi. Ostqotları darmadağın edən hunlar Roma imperiyası ərazilərinə soxulmağa başladılar. 395 - 397-ci illərdə hunlar Dərbənd keçidi vasitəsilə Cənubi Qafqaza soxularaq buradan Roma imperiyasının əyalətləri olan Suriyaya, Kiçik Asiyaya, Mesopotamiyaya axın etdilər. Qərbi Roma imperiyası german tayfalarına qarşı mübarizədə hunlardan müttəfiq kimi istifadə etdi - 402-ci ildə hunlar Alarixin, 434-cü ildə isə burqundların darmadağın edilməsində iştirak etdilər. 420-ci ildə hunlar Pannoniyanı tutub burada tabe etdikləri bir çox tayfaların (ostqotların, kvadların, markomanların, qerulların, gepidlərin və b.) da daxil olduğu böyük birlik yaratdılar. V əsrin 40-cı illərinin ortalarında müasirləri tərəfindən "allahın bəlası" adlandırılan Attila hunlara başçılıq etməyə başladı. İqamətgahı Pannoniyada olan Attila kimi istedadlı sərkərdə və başçının dövründə hunların



downloaded from KitabYurdu.org

tayfa ittifaqı ən qüdrətli dövrünə çatdı; onların hakimiyyəti şərqdə Qafqaz dağlarına qədər, qərbdə - Reyn çayına kimi, şimalda - Danimarka adalarınadək genişləndi, cənubda isə Dunayın sağ sahilini əhatə etdi. 437-ci ildə hunlar Qalliyanın cənub-şərqində Burqund krallığını dağıtdılar. 447-ci ildə hunlar Attilanın başçılığı ilə Frakiya və İlliriyanı talayıb 70 şəhəri və qalanı dağıtdılar, Fermopilə və Konstantinopolun ətrafına çatdılar. Bizans imperiyasının hunlara ödədiyi xərac xeyli artırıldı. 451-ci ildə hunlar Attilanın başçılığı ilə Qalliyaya soxulub Orleanı mühasirəyə aldılar, sonra isə Katalaun çölündə Qərbi Roma imperiyası və müttəfiqlərinin birləşmiş qoşunları ilə savaşdılar. 452-ci il-də hunlar Attilanın başçılığı ilə Şimali İtaliyaya soxulub Akvileo şəhərini dağıtdılar, Paduya, Milan və digər şəhərləri tutdular. Roma xərac verib özünü dağıntıdan xilas etdi. Hunların başçılarının hakimiyyəti artıq V əsrdə irsi idi, amma hunlar hələ də köçəri həyat tərzi sürürdülər. Onlar hərbi demokratiya mərhələsində idilər. Hunlar tabe olunmuş tayfalara xərac təyin edirdilər. Bundan başqa, onlar hunların hərbi yürüşlərində də iştirak etməliydilər. Hunların dinlərində baş allah Tenqri xan idi. Onların gümüşdən tökülmüş bütləri var idi. Attilanın 453-cü ildə ölümündən sonra vərəsəlik üstündə onun oğlanları arasında mübahisələr başlandı və tabe edilmiş tayfalar bundan hunlara qarşı üsyana başlamaq üçün siqnal kimi istifadə etdilər. Üsyanı yatıra bilməyən hunlar Şimali Qara dəniz sahillərinə tərəf geriyə çəkildilər, 469-cu ildə isə oradan Frakiyaya daxil oldular, lakin Bizans tərəfindən məğlub edildilər. Bundan sonra hunlar bir xalq kimi Avropada hər hansı rol oynamaqdan kənarda qaldılar.

**Hus Yan** (1371 - 1415) - Praqada Karlov (indiki Praqa) universitetinin professoru, Çexiya Reformasiyasının ideoloqu. Hus çex dilinin qrammatikasını işləyib hazırlamışdır. 1402 - 1403 və 1409 - 10-cu illərdə Karlov (Praqa) universitetinin rektoru. Çexiyada almanların və katolik kilsəsinin zorakılığına qarşı



xalq hərəkatının ilhamçısı. Hus ruhaniləri ifşa edir, kilsə vəzifələrinin və indulgensiyanın satışına qəzəblənirdi, erkən xristianlıq prinsiplərinə qayıtmağı, adi adamların hüquqlarının ruhanilərin hüquqları ilə bərabərləşdirilməsini tələb edir, kilsənin torpaq və sərvətlərini əlindən almağa, ayinlər üçün ödəncləri ləğv etməyə, Çexiyada Roma papasına deyil, krala tabe olan öz kilsələrini yaratmağa çağırırdı. Roma papasını "böyük fırıldaqçı" adlandıran Hus ona qarşı zor işlədilməsinə çağırırdı. Konstans (Cənubi Almaniya) şəhərində keçirilən kilsə yığıncağı zamanı Hus öz əqidəsindən dönməkdən imtina etmiş, buna görə məhkum olunmuş və 1415-ci il iyulun 6-da tonqalda yandırılmışdır. Yan Husun edamı Çexiyada kütləvi üsyanın başlanmasına səbəb olmuşdur. Hazırda Yan Hus Çexiyada milli qəhrəman kimi yad edilir.

**husçular** - Husun edam olunması çex xalqının və özünü husçu adlandıran davamçıların qəzəbinə səbəb oldu. 1419-cu ildə Praqada üsyan başlandı, üsyançılar bir müddət paytaxtda hakimiyyəti ələ keçirə bildilər və varlı almanları və din



downloaded from KitabYurdu.org

xadimlərini qovmağa başladılar. Üsyançılar Tabor dağı yaxınlığında möhkəmləndirilmiş şəhər tikdilər. Üsyançıların ən qətiyyətli hissəsini var-yoxdan çıxmış cəngavərlərin başçılıq etdikləri taborçular təşkil edirdi. Husçuların digər qrupu mötədillərdən ibarət idi. Roma papası V Martin husçulara qarşı edilib yürüşü elan etdi. Başda "Müqəddəs Roma imperiyası"nın imperatoru Sigizmund olmaqla səlibçilərin qoşunları Çexiyaya daxil olub Praqanı mühasirəyə aldılar, lakin az sonra səlibçilər darmadağın edildilər. Roma papası və imperator Çexiyaya qarşı daha 4 səlib yürüşü təşkil etdilər. Amma onların hamısı uğursuz oldu. Husçuların əsas rəhbəri Jijka idi. Uzunsürən müharibələr nəticəsində husçuların qoşunları daimi qoşuna çevrildi. Husçuların özləri də qənimət əldə etmək məqsədi ilə Macarıstan, Polşa, Avstriya və Almaniyaya yürüşlər etməyə başladılar. Husçuların müharibələri nəticəsində mötədillərlə taborçular arasında toqquşmalar baş verdi. Səlib yürüşlərinin müvəffəqiyyət qazanacağına ümidlərini itirən Roma papası ilə imperator mötədillərə vəd etdilər ki, taborçulara qarşı vuruşsalar, tutduqları kilsə torpaqlarını onlara verəcək, Çexiyada yeni kilsəni saxlayacaq və onlara pul yardımı göstərəcəklər. 1434-cü ildə mötədillər Lipani yaxınlığında taborçulara qalib gəldilər. Husçular müharibələri (1419 - 34) dövründən başlayaraq iki yüz il ərzində Çexiyada husçu kilsəsi formalaşdı, kəndlilər kilsəyə $^{1}/_{10}$ vergisini verməkdən azad edildilər, şəhərlərin çoxunun əhalisi çex oldu.

**hüquqi dövlət** - öz vətəndaşlarının hüquq və azadlıqlarını təmin və müdafiə edən dövlət.

**Hülakü xan** - Tulunun oğlu, Çingiz xanın nəvəsi, Hülakülər sülaləsi və dövlətinin banisi. 1256-cı ildə monqol qoşunları Hülakü xanın sərkərdəliyi ilə İram və Azərbaycanı tutdu. Hülakü xan beşinci monqol ulusunun - Hülakülər (elxanilər) dövlətinin elxanı (1256 - 65) oldu. Köçəri monqol əyanları Hülakü xanın əsas dayağı idilər. Hülakü xanın qoşunları 1258-ci ildə hücumla Bağdadı aldılar, sonra isə 40 gün ərzində yerli əhalini talayıb-qırdılar. Monqollar Bağdad şəhərinin qala divarlarını dağıtdılar, xəlifələrin möhtəşəm kitabxanasını, əlyazmaların və nadir kitabların saxlandığı binalan yandırdılar. Beləliklə, Hülakü xan Ərəb xilafətini məhv etdi.

**Hülakülər** - 1256-cı ildən XIV əsrin ortalarınadək Kiçik Asiyanın şərq hissəsində, İraq, İran, Cənubi Qafqaz, Türkmənistan, Əfqanıstan ərazilərini əhatə edən dövlətdə hakimiyyətdə olmuş monqol elxanilər sülaləsi.

**Hülakülər dövləti** (elxanilər dövləti) - Dərbənddən İran körfəzinə, Amudəryadan Misirədək ərazini əhatə edən, Hülakü xan tərəfindən yaradılmış dövlət (1256 - 1357). 1258-ci ildə Hülakü xan Abbasilər xilafətini məhv etdi və beşinci monqol ulusunu yaratdı. Hülakülər dövləti İran, İraq, Əfqanıstan və Türkmənistanı, Azərbaycanın çox hissəsini və Kiçik Asiyanın şərqini əhatə edirdi. Azərbaycan dövlətin siyasi və inzibati mərkəzi idi, dövlətin paytaxtı isə əvvəlcə Marağa, sonra isə Təbriz olmuşdur. Hülakü xanın 1265-ci ildə ölümündən sonra Hülakülər dövlətində feodal pərakəndəliyi başlandı. Feodal ara müharibələri Qazan



downloaded from KitabYurdu.org

xanın hakimiyyəti illərinədək davam etmişdi. Azərbaycan ərazisində Qızıl Orda ilə aparılan daimi müharibələr ölkənin təsərrüfatı və mədəniyyətinin inkişafını ləngidirdi. Qazan xan monqol hərbi köçəri əyanlarının müqavimətini qıra və



mərkəzi hakimiyyəti möhkəmləndirə bilmişdi. Qazan xanın islahatları təsərrüfatın və mədəni həyatın canlanmasına səbəb oldu. Azyaşlı elxan Əbu Səidin taxta çıxması ilə Hülakülər dövlətində feodal ara müharibələri yenidən başlandı. Elə bu dövrlərdə Qızıl Orda xanları da Şirvanı talan etdilər. Əmir Çoban tərəfindən 1319 - 22-ci illərdə feodal qiyamlarının yatırılması faktik olaraq onu Hülakülər dövlətinin hökmdarına çevirdi. 1328-ci ildə baş əmir Çoban elxan Əbu Səidin adamları tərəfindən öldürüldü, 1335-ci ildə isə Əbu Səidin özü də sui-qəsd nəticəsində qətlə yetirildi. Bundan sonra Hülakülər dövlətinin tənəzzülü başlandı; feodal ara müharibələrində Cəlairilər, Çobanilər və Xorasan əmirləri xüsusilə fəal çıxış edirdilər. Dövləti Hülakülərin elxanları adından Çobanilər idarə Hülakülər dövlətinin gümüş dirhəmi edirdilər. Çobanilərə rəqib olan feodallar kömək üçün Qızıl Orda xanı Canı bəyə müraciət etdilər, o isə şirvanşah Kavusla birlikdə 1337-ci ildə Təbrizə heç bir müqavimətsiz daxil oldu və Hülakülər dövlətinə son qoydu. Az sonra burada Cəlairilər dövləti yaradıldı.

**"Hümmət"** - 1904-cü ilin payızında Azərbaycan ziyalıları M.Mövsümov, M.Hacınski və M.Rəsulzadənin təşəbbüsü ilə RSDFP Bakı Komitəsi yanında "Hümmət" Müsəlman Sosial-Demokrat təşkilatı" yaradıldı. Ə.Axundov, B.Ağayev, Q.Ağayev, M.Aydınbəyov, B.Dadaşov, A.Kazımzadə, N.Nərimanov və b. "Hümmət" təşkilatının işində fəal iştirak edirdilər. "Hümmət" təşkilatı Şimali Azərbaycanın müxtəlif qəzala-rında özəklərini yaratmışdı. 1904 - 1905-ci illərdə təşkilat "Hümmət", 1906 - 1907-ci illərdə isə "Yoldaş" və "Təkamül" qəzetlərini nəşr etmişdi. Qəzetlərin redaktəsində və çapında M.Rəsulzadə fəal surətdə çalışmışdı. "Hümmət" azərbaycanlıların milli özünüdərketməsinin oyanışında mühüm rol oynamışdı. Lakin bir müddət sonra bolşeviklərin təsiri ilə "Hümmət" milli mövqelərdən uzaqlaşdı və bundan sonra M.Rəsulzadə ilə onun həmfikirləri tədricən bu təşkilatdan ayrıldılar. Sonralar "Hümmət"də M.Ə.Əzizbəyov, P.A.Caparidze və N.Nərimanov rəhbər rol oynamağa başladılar. Rusiyada birinci inqilabdan sonrakı irtica illərində "Hümmət" təşkilatı fəaliyyətini dayandırmışdı. Rusiyada Fevral burjua-demokratik inqilabından sonra 1917-ci il martın ortalarında "Hümmət" öz fəaliyyətini yenidən bərpa etdi. N.Nərimanov təşkilatın sədri seçildi və "Hümmət" qəzetinin redaktoru oldu.

**hürrilər** - Anadolu yaylasına Cənubi Qafqazdan gəlmələri ehtimal olunan qədim tayfalar. E.ə. III əsrin ortalarından hürrilər Şərqi Aralıq dənizi sahillərindən Urmiya gölünədək ərazilərdə məskunlaşmışdılar. Hürri tayfaları Urmiyaətrafı rayonda müəyyən rol oynamışlar. Hürri çarlarının Diyala çayının yuxarı



downloaded from KitabYurdu.org

axarlarında (Cənubi Azərbaycan) Akkad dilində aşkar edilən bir neçə kitabəsi dövrümüzə gəlib çatmışdır.

**hürufilər** - hürufiliyin davamçıları. Hürufilərin ən məşhurları - hürufiliyin banisi, Miranşahın əmri ilə 1394-cü ildə öldürülmüş Fəzlullah Nəimi, 1417-ci ildə Hələbdə (Suriya) amansızlıqla edam edilən şair Nəsimidir.

**hürufilik** (hürufizm) - XIV əsrin sonlarında Azərbaycanda islam ehkamlarına, Teymurilərin ağalığına və feodal istismarına qarşı yönəlmiş dini-siyasi təlim. Hürufizmin banisi Azərbaycan mütəfəkkiri Fəzlullah Nəimi olmuşdu. Nəimi hürufizmin əsas müddəalarını "Cavidannamə" əsərində təsvir etmişdi. Hürufilər hesab edirdilər ki, ərəb əlifbasının hərfləri (buradan - hüruf) müqəddəs keyfiyyətə malikdir və dünya sirlərinin mənası onlardadır. Nəimi Şərq ölkələrinə çoxlu səyahət edərək hürufizmi təbliğ etmiş və hürufi təşkilatları yaratmışdı. Teymurilərə qarşı mübarizədə hürufilik əhəmiyyətli rol oynamışdı.

## - X –

**xaçlılar** - bax: səlibçilər.

**xaqan** - qədim türk xalqlarında (avarlarda, peçeneqlərdə, xəzərlərdə və b.) dövlət başçısının adı. VIII əsrin sonu - IX əsrin əvvəlində knyaz titulu ilə yanaşı, şərqi slavyanlarda (qədim rus tayfalarında) istifadə olunmuşdur. XIII əsrdən monqollar da bu termini işlədirdilər.

**Xaqani** - "Xaqani" təxəllüsü ilə yazıb-yaratmış böyük Azərbaycan şairi Əfzələddin İbrahim ibn Əli Nəccar Şirvani (1120 - 99). Xaqani Şamaxı yaxınlığındakı Məlhəm kəndində sənətkar ailəsində anadan olmuşdur. Onun



qayınatası Əbül-üla Gəncəvi Xaqanini şirvanşah II Mənuçöhrün sarayına dəvət etmişdir. Lirik qəzəl ("Divan") və qəsidə ("Həbsiyyə") toplularında, "Töhfət ül-İraqeyn" poemasında feodal hökmdarların zülm və özbaşınalığını ittiham etmiş, azadlıq və əqli, əməyi, elm və poeziyaya məhəbbəti tərənnüm etmişdir. “Həbsiyyə” qəsidəsi Xaqani tərəfindən zindanda Mənuçöhrün varisi I Axsitanın onu atdırdığı Şabaran qalasında yazılmışdır. Ömrünün son illərini Məkkəyə etdiyi ikinci həcc ziyarətindən sonra köçdüyü Təbriz şəhərində keçirmiş və orada da vəfat etmişdir. Xaqaninin qəbirüstü daşı dövrümüzədək qalmışdır. Xaqaninin qəsidələri Azərbaycan, Mərkəzi Asiya və Yaxın Şərqin bir çox sonrakı şairləri üçün nümunə olmuşdur.

**xaqanlıq** - xaqanın başçılıq etdiyi qədim və orta əsrlərdə türk dövlətləri.

**Xalxal** - Azərbaycan Respublikasının Qazax rayonu ərazisində olmuş qədim şəhər. 450-ci ildə Xalxal yaxınlığındakı döyüşdə Vardan Mamikonyanın başçılıq etdiyi erməni, alban və gürcü üsyançı dəstələri Sasani qoşunlarını məğlubiyyətə uğratmışlar. Xalxali Nəsrulla - XVII əsr məşhur Azərbaycan riyaziyyatçısı.



downloaded from KitabYurdu.org

**xalq** - 1) insanların təşəkkül tapan etnik birliyinin müxtəlif mərhələlərinə dair istifadə olunan geniş tarixi məfhum. Tayfa, xalq (kiçik etnik birliklər), millətin adlandırıldığı termin; 2) bir ölkənin, dövlətin əhalisi; 3) insanların etnik birliklərini bildirən termin. Bu mərhələ tayfa (tayfa ittifaqı) ilə millət arasında olan durumdur. Tarixin qədim və orta əsrlər dövrü üçün xarakterik hesab edilir.

**Xalq cəbhəsi** - geniş xalq kütlələrinin faşizmə və digər mürtəce qüvvələrə, müharibəyə qarşı, demokratiya, sosial tərəqqi və milli istiqlaliyyət, zəhmətkeşlərin iqtisadi mənafeləri uğrunda mübarizədə kütləvi təşkilat forması.

**xalq yığıncağı** - nəsil və qəbilədə bütün yetkin kişilərin - döyüşçülərin yığıncağı. Xalq yığıncağı ağsaqqalları və başçıları seçirdi. İlk vaxtlar qəbilənin ən mühüm işləri - hərb və sülh məsələləri, icma üzvləri arasındakı mübahisələr və s. xalq yığıncağında həll olunurdu, lakin sonralar - əmlak bərabərsizliyi meydana çıxdıqdan sonra ağsaqqalların, daha sonralar isə başçıların hakimiyyəti möhkəmləndi. Tədricən xalq yığıncaqları getdikcə daha az çağırıldı və indi onların həll etdikləri məsələlər məhdudlaşdırıldı. Bu zaman xalq yığıncaqları yalnız ağsaqqallar və başçıların etdikləri təklifləri təsdiq (və ya rədd) edə bilərdilər.

**xalq tribunları** - Qədim Romada e.ə. V əsrdən plebeylərdən seçilən (əvvəlcə iki, sonralar isə on nəfər) yüksək vəzifəli şəxslər. Tribunlar veto hüququndan istifadə edərək konsulların və senatın qərarlarını ləğv edə bilərdi. Tribunun öldürülməsi ən ağır dövlət cinayəti hesab olunurdu.

**xalqçılıq** - XIX əsr Rusiya demokratik ziyalılarının ideologiyası və hərəkatı. İnqilabçı xalqçılar kəndli inqilabı yolu ilə mütləqiyyəti devirmək və kapitalizmdən yan ötməklə kəndli icmasının köməyi ilə sosializmə keçmək tərəfdarı idilər.

**"xalqların böyük köçü"** - III - VII əsrlərdə tayfaların xüsusilə böyük, kütləvi axını baş verirdi və onlar Roma imperiyası ərazisinə soxulurdular və bu proseslərin nəticəsində Qərbi Roma imperiyası süqut etdi. Tarixdə bu hadisələr şərti olaraq "xalqların böyük köçü" adlandırılır. Köçəri maldarlıqla məşğul olan Mərkəzi Asiya tayfaları çoxalmaqda olan sürülərini otlaq sahələri ilə təmin etməkdən ötrü yeni geniş ərazilərə kəskin ehtiyac duyurdular. Əkinçiliyin zəif inkişaf etməsi və əhalinin sıxlaşması üzündən yeni torpaqlara ehtiyac duyan və köçərilərin çoxsaylı süvarilərinə müqavimət göstərmək iqtidarında olmayan əkinçi tayfaları da yaşadıqları yerləri tərk edir, öz növbələrində digər tayfalar və ya Roma ilə məskunlaşmaq üçün əlverişli ərazilər üstündə mübarizəyə girişirdilər. Bu tayfalar Roma imperiyasının sərhəd vilayəllərinə hücumla kifayətlənmir, onun daxili rayonlarına da soxulurdular. İctimai ziddiyyətlərlə zəifləyən və iki yerə bölünən Roma imperiyası həmin tayfalara layiqli müqavimət göstərmək iqtidarında deyildi.

Markoman müharibəsi (166 - 180) və onun nəticəsində II əsrin sonları - III əsrin əvvəllərində şərqi german tayfalarının (qotlar, burqundlar, vandallar) Şimal-Qərbi Avropadan Qara dənizə tərəf hərəkət etmələri "xalqların böyük köçü"nə ilk



downloaded from KitabYurdu.org

təkan oldu. Sonralar ostqotlara və vestqotlara ayrılan qotlar Qara dənizin şimal sahillərində böyük tayfa ittifaqı yaratdılar və o, III əsrin ortalarına yaxın Roma imperiyasının şərq əyalətlərinə (Balkanlara) soxulmağa başladı, III əsrin axırlarında isə qotlar Dunay ətrafındakı Dakiya vilayətini tutdular. Eyni zamanda, alleman və ya frank adlanan german tayfalarının da Roma əyaləti olan Qalliya ərazisinə tez-tez müdaxilələri baş verdi.

Hun tayfalarının axını "xalqların böyük köçü"nün başlanğıcı sayılır. Görünür, bu onunla bağlıdır ki, onların Avropaya müdaxiləsindən sonra tayfaların axını xüsusilə güclənmişdir. Hunlar Mərkəzi Asiyadan Şimali Qafqaza doğru irəliləmişlər. Burada onların bir qismi oturaqlaşmış, digər hissəsi Cənubi Qafqaza doğru yürüşlər etməyə başlamış, üçüncü qismi isə qərbə doğru hərəkət edərək alan tayfalarını məğlubiyyətə uğratmış və onları öz tayfa birliklərinə daxil etmişlər.

375-ci ildə hunlar Qara dənizin şimal ətrafındakı ostqotların tayfa ittifaqlarına zərbə endirdilər və bununla da sonuncuların ittifaqları dağıldı: ostqotların bir qismi hun tayfa ittifaqma daxil oldu, digəri isə qərbə doğru hərəkət etdi. Hunların hücumundan ehtiyat edən ostqotların qonşuları vestqotlar isə öz



yurdlarından köçüb Dunayı keçdilər və Roma imperiyası ərazisinə daxil oldular; 376-cı ildə onları Roma hökuməti Meziyada (indiki Bolqarıstanın bir hissəsi) federat – müttəfiq kimi məskunlaşdırdı. Roma məmurları tərəfindən aldadılan vestqotlar başçıları Alarixin rəhbərliyi altında yenidən üsyan etdilər və onu kral seçdilər. Sonra vestqotlar Roma üzərinə hücumlarını artırdılar. Germanların bir çoxu Alarixin tərəfinə keçdi. Bir neçə dəfə Romaya yaxınlaşan Alarix onu mühasirəyə aldı. Başda Alarix olmaqla 410-cu ildə Roma vestqotlar tərəfindən tutuldu və qarət edildi. Vestqotlar talan edilmiş İtaliyadan Cənub-Qərbi Qalliyaya getdilər və 418-ci ildə Vestqot krallığını yaratdılar. Sonralar vestqotlar bütün Qalliyanı və İspaniyanın bir hissəsini ələ keçirdilər. VI əsrin əvvəllərində franklar vestqotları darmadağın edib Qalliyanı tutdular, Vestqot krallığının mərkəzi İspaniyaya keçdi. Vandal german tayfaları da Roma imperiyası ərazisində öz krallıqlarını yaratdılar. Onlar III əsrdə Dunay ətrafında məskunlaşdılar, sonra isə hunların təzyiqi altında qərbə doğru hərəkət edib Qalliyaya soxuldular. Qalliyadan İspaniyaya keçmiş vandallar Vostqotlarla toqquşdular. Sonra kral Heyzerixin başçılığı ilə vandallar alanlarla birlikdə Cəbəlüttariqdən keçib Şimali Afrikanın böyük hissəsini işğal etdilər və burada paytaxtı Karfagen olan Vandal krallığı yarandı. 455-ci ildə Heyzerixin başçılığı ilə vandalar Romanı tutub darmadağın etdilər. V əsrin əvvəllərində Roma hökuməti İtaliyanı barbarlardan müdafiə etmək üçün özünün Britaniyadakı legionlarını geriyə çağırmaq məcburiyyətində qaldı. V əsrin ortalarından german tayfalarının - anqlların, saksların, yutların və frizlərin Britaniyaya kütləvi müdaxiləsi başlandı. Anqllar və sakslar bu tayfalar arasında çoxluq təşkil edirdilər və buna görə də Britaniyada məskunlaşan bütün tayfaları



downloaded from KitabYurdu.org

ümumi "anqlosaks" adı ilə adlandırırlar. Onlar Britaniya ərazisində bir neçə anqlosaks krallığı yaratdılar. Cənub-Şərqi Qalliyada V əsrin əvvəllərində burqund german tayfasının krallığı meydana gəldi, amma 437-ci ildə Burqund krallığı hunlar tərəfindən darmadağın edildi. Bununla yanaşı, hunlar ostqotları məğlub edib Roma imperiyası ərazisinə soxulmağa başladılar. V əsrin əvvəllərində hunlar Pannoniyanı tutdular və burada tabe edilmiş bir sıra tayfaların (ostqotlar, kvadlar, markomanlar, gerullar, gepidlər və b.) da daxil olduğu geniş birlik yaradıldı. V əsrin 40-cı illərində Attila hunların başçısı oldu. 451-ci ildə Attilanın başçılığı ilə hunlar Qalliyanın Katalaun çölündə vestqotların, frankların, burqundların və alanların da kömək etdikləri romalılarla ağır savaş etdilər. 452-ci ildə Attila Şimali İtaliyanı talan etdi. Onun ölümündən sonra hun tayfalarının birliyi dağıldı. V əsrin ortalarına salik (sahil) frankları öz ərazilərini Qalliyanın şimalına doğru genişləndirdilər. Barbarlar Roma imperiyası əyalətlərini tutduqdan sonra yalnız İtaliya Romanın hakimiyyəti altında qaldı. Lakin burada da hakimiyyət faktik olaraq barbar drujinalarının əlində idi. 455-ci ildə Roma vandal tayfaları tərəfindən tutulub qarət edildi. 476-cı ildə Qərhi Roma imperiyasının sonuncu imperatoru Romul Avqustul muzdluların, o cümlədən italiklərin də qoşulduğu skir tayfasının başçısı Odoakr tərəfindən devrildi. Odoakr hakimiyyəti ələ keçirdikdən sonra Qərbi Roma imperiyasında imperator hakimiyyəti başa çatdı, onun ərazilərində yaradılmış barbar krallıqları isə təkcə mahiyyətcə deyil, həm də formal olaraq müstəqillik əldə etdilər.

German tayfalarının son yerdəyişmələri 488 - 493-cü illərdə - ostqotların İtaliyanı tutub öz dövlətlərini qurmaları ilə, eləcə də 568-ci ildə lanqobardların digər tayfalarla ittifaqda Şimali və Orta İtaliyanı ələ keçirib burada Lanqobard krallığını yaratmalarıyla başa çatdı. V - VI əsrlərin qovuşuğunda slavyanların Balkan yarımadasına yürüşü başlandı. VI əsrin ikinci yarısında slavyanlar Şərqi Roma imperiyası ərazisində öz mövqelərini möhkəmlətdilər. VII əsrin ortalarında slavyanlar Dunaydan Egey dənizinədək bütün Balkan yarımadasında məskunlaşdılar.

**Xan** - e.ə. III əsrdən eramızın III əsrinədək Çində hakimiyyətdə olmuş imperator sülaləsi. Xan sülaləsi hökmdarlarının dövründə Çin, demək olar ki, ardı-arası kəsilmədən işğalçı müharibələr aparmış, bu isə qulların sayının artmasına və kəndlilərin yoxsullaşmasına gətirib çıxarmışdı. Qulların və kəndlilərin vəziyyəti onları istismarçılara qarşı çoxsaylı üsyanlara təhrik edirdi. Eramızın I əsrində "qırmızıqaşlılar"ın, 184-cü ildə isə "sarısarıqlılar"ın möhtəşəm üsyanları oldu. Üsyanın yatırılmasına baxmayaraq, onun gedişində zəifləmiş Xan sülaləsi 220-ci ildə devrildi. Xan sülaləsinin hakimiyyəti illərində Böyük İpək yolu salınmışdır.





downloaded from KitabYurdu.org

**xan** – qədim türk və monqol tayfalarında tayfa və ya iri tayfa ittifaqı başçısı. Monqol imperiyasında ulus hökmdarı. Orta əsrlərdə və yeni dövrdə Yaxın və Orta Şərq ölkələrində tayfa ittifaqı başçısı və ya hökmdar.

**Xanabad manufakturası** - 1829-cu ildə Nuxada (Şəki) açılmış ipəksarıma manufakturası. Xanabad manufakturası Azərbaycanda ilk manufaktura idi.

**Xandəmir,** Xondəmir Qiyasəddin ibn Hümaməddin əl-Hüseyni (1475 - 1536) - daha çox "Xondəmir" təxəllüsü ilə tanınan orta əsrlər tarixçisi. Xondəmirin çoxcildli "Həbib əs-siyər fi əxbar əfrad əl-bəşər" ("Görkəmli adamlar haqqında xəbərləri təsvir edən dost") əsərində Səfəvilər dövlətinin yaranması və XV əsrin sonu - XVI əsrin əvvəllərində Azərbaycanda baş verən hadisələrdən bəhs edilir.

**xanlıq** - müstəqil xırda feodal dövləti. Azərbaycan ərazisində XVIII əsrin 40-cı illərində xanlıqlar meydana gəlmişdir. Cənubi Azərbaycanda Qaradağ, Marağa, Maku, Sərab, Təbriz, Urmiya və Xoy xanlıqları, Şimali Azərbaycanda isə Bakı, Qarabağ, Quba, Gəncə, Dərbənd, İrəvan, Naxçıvan, Salyan, Talış, Şamaxı və Şəki xanlıqları olmuşdur. Sultanlıqlar və məlikliklər xanlıqlardan asılı vəziyyətdə idi.



**xarakiri** - Yaponiyada orta əsrlərdən bəlli olan qarını yırtmaqla intihar. Xarakiri məhkəmənin hökmü ilə, yaxud samurayın namusuna toxunulan zaman könüllü şəkildə və ya onun öz ağasına sədaqət rəmzi kimi həyata keçirilirdi.

**xaraq** - Sasanilər dövlətində torpaq vergisi. Ərəblər bu vergini "xərac" şəklində mənimsəmişlər.

**xartiya** (yun. "papirus kağızı", "papirusda olan əlyazma") - İngiltərədə çartistlərin əsas tələblərini ifadə edən fərman, siyasi sənəd. Bəzən ayrı-ayrı beynəlxalq aktları və sazişləri də xartiya adlandırırlar.

**xassə** - orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrində ali hökmdarın (şahın, sultanın və b.) şəxsi torpaq mülkləri.

**Xeroneya** - Orta Yunanıstanda şəhər. E.ə. 338-ci ildə burada Makedoniyalı II Filippin qoşunları ilə bir sıra yunan polislərinin birləşmiş qoşunları arasında döyüş olmuşdur. Demosfen də sıravi döyüşçü kimi afinalıların arasında vuruşurdu. Bu amansız və uzunsürən savaşda daha yaxşı təşkil olunmuş Makedoniya ordusu qələbə çalmışdır. Xeroneya yaxınlığındakı savaşdan sonra Sparta istisna olmaqla, demək olar ki, bütün Yunanıstan Makedoniya monarxının hakimiyyəti altına düşdü.

**xəlifə** (ər. "xəlifə" - "canişin") - 1) müsəlman icmasında başçı, Allahın elçisini əvəz edən, onun yerində oturan şəxs. Məhəmməd peyğəmbərin yaxın tərəfdaşlarından olan və müsəlman icmasının iradəsi ilə seçilmiş ilk dörd xəlifəni (Əbu Bəkr, Ömər, Osman, Əli) sünnilər "mömin xəlifələr" ("raşidi xəlifələr"), onların həyat tərzini və davranışlarını sünnənin nümunəsi və tərkib hissəsi hesab



downloaded from KitabYurdu.org

edirlər. Şiələr ilk üç xəlifəni qəsbkar sayır, yeganə qanuni və mömin xəlifə olan Əlini hakimiyyətdən məhrum etməkdə günahlandırırlar. Şiələr ilk dəfə olaraq xəlifələrin hakimiyyətinin irsiliyini Əlinin oğlu və varisi Həsənin hakimiyyəti ilə bağlayırlar; 2) sufizmdə əxiliyin (qardaşlığın) bilavasitə banisi və ya rəhbərinin rütbəsi, "mükəmməl insan"ın rütbəsi; 3) Osmanlı imperiyasında müsəlmanların yalnız dini başçılarının titulu (1924-cü ilə kimi).

**xərac** - 1) müsəlman ölkələrində torpaq vergisi. İlk vaxtlar tabe edilmiş xalqlardan alınan hər cür vergi və cizyənin sinonimi kimi də istifadə edilirdi. Əvvəlcə xəracı yalnız qeyri-müsəlmanlar verirdilər, müsəlmanlar isə uşr ödəyirdilər. Amma islamı qəbul edənlərin sayının artması ilə xəzinəyə gələn gəlirin azalması təhlükəsi yarandıqdan sonra belə hesab edildi ki, xərac torpaqlarının statusu dəyişdirilə bilməz və torpaq sahibinin və ya icarədarın dini mənsubiyyətindən asılı deyil. Xərac həm natura, həm də pul ilə alınırdı; 2) natural və yapul şəklində qalib tayfa və ya dövlət tərəfindən məğlub üzərinə qoyulan ödənc növü.

**Xətai** - Səfəvi şahı I İsmayılın ədəbi təxəllüsü. Xətai şerlərini Azərbaycan dilində yazmışdır. Onun qəzəlləri, qoşmaları, "Dəhnamə" epik poeması, "Nəsihətnamə"si xüsusilə məşhurdur. Xətainin poeziyası ruhuna görə xəlqi idi, onun bir çox şerləri bayatılardan seçilmir. Xətainin yaradıcılığı bütün türkdilli poeziyanın inkişafına təsir göstərmişdir.



**Xəttatlıq** - aydın, yaraşıqlı və ifadəli yazmaq sənəti. Xəttatlar kitabların üzünün köçürülməsi ilə məşğul olurdular. Xəttatlıq Şərqdə daha geniş yayılmışdı.

**Xəzər xaqanlığı** - xəzərlər tərəfindən yaradılmış erkən feodal türk dövləti; VII əsrin ortalarından 965-ci ilə qədər mövcud olmuşdur. Xəzər xaqanlığının tərkibinə bulqarlar, sabirlər, barsillər və alanların bir hissəsi daxil idi. Xəzər xaqanlığına xaqan başçılıq edirdi. Xaqanlığın paytaxtı əvvəlcə Səməndər şəhəri, VIII əsrin əvvəllərindən isə İtil şəhəri olmuşdur. 651-ci ildən etibarən xəzərlər və sabirlər Qafqaz Albaniyasının sərhəd ərazilərinə daim yürüşlər etməyə başladılar. Xəzərlərin 681-ci ildə etdikləri yürüş xüsusilə dağıdıcı olmuş, bundan sonra Qafqaz Albaniyası 25 il ərzində Xəzər xaqanlığına xərac ödəmişdir. 682-ci ildə alban hökmdarı yepiskop İsrailin başçılığı ilə sabirlərin yanına elçi göndərmişdir. O da bunların arasında xristianlığı yaymağa başlamışdır ki, sonralar dinin köməkliyi ilə Qafqaz Albaniyası onu tez-tez narahat edən qonşusuna təsir edə bilsin. Bu hadisələr Moisey Kalankatlının “Alban tarix”ində təsvir edilib. Xəzər xaqanlığının əraziləri VIII əsrin əvvəllərində Cənubi Volqaboyunu, Şimali Qafqazı, Azovətrafını, Krımın çox hissəsini və Dneprədək olan çöl və meşə-çölləri əhatə edirdi. Qüdrətli dövlətə çevrilən Xəzər xaqanlığı Bizans imperiyası və Ərəb xilafəti üçün təhlükəli rəqib oldu. Bizans xəzərlərdən öz rəqibləri olan ərəblərə qarşı mübarizədə istifadə etməyə çalışırdı. 731-ci ildə Bizans imperatorunun oğlu



downloaded from KitabYurdu.org

xəzər xaqanının qızı ilə evləndi. Elə həmin il xəzərlər artıq ərəblər tərəfindən zəbt olunmuş Qafqaz Albaniyasına yürüş etdilər. Ərəb sərkərdələrindən Məsləmə və Mərvanın yürüşü 737-ci ildə xəzərlərin paytaxtı Səməndər şəhərinin tutulması ilə başa çatdı. Ərəblərlə bağlanmış müqavilənin şərtlərinə əsasən, "kafir" xəzərlər islamı qəbul etməli idilər. Xəzər xaqanlığının paytaxtı İtilə köçürüldü və o, qısa müddət ərzində iri beynəlxalq ticarət şəhərinə çevrildi. Xəzər xaqanlığı Şərqi Avropa və Cənubi Qafqazla, habelə digər ölkə və xalqlarla ticarət edirdi. Bu dövrdə xaqanlıqda əsasını Orxon-Yenisey runa yazısı təşkil edən kitabələr aşkar edilmişdir. VIII əsrin ikinci yarısında xaqanlıqdakı güclü iqtisadi yüksəliş yenidən onu Ərəb xilafəti üçün təhlükəli qüvvəyə çevirdi. Xəzərlərin Cənubi Qafqaza yürüşləri yenidən başlandı, çoxsaylı kəndlər, Dərbənd və Tiflis kimi ən iri qalalar talan edildi. Xəlifənin Cənubi Qafqazdakı canişinləri iki dəfə Xəzər xaqanının qızları ilə evləndilər və dəfələrlə xəzərlərə xərac verdilər. Bizans imperiyası xristianlığı yaymaq məqsədi ilə Krıma və Şimali Qafqaza öz yepiskoplarını göndərirdi. Görünür, bununla əlaqədar xəzər xaqanı və feodal hakim dairələri hələ VII əsrin əvvəllərində Bizansda təqib və məhv edilməkdən yaxa qurtarmaq üçün Xəzər xaqanlığının bir sıra ərazilərində - Qafqaz, Krım və Taman yarımadasında məskunlaşmış yəhudilərdən əxz etdikləri iudaizmə üstünlük verməyə başladılar. Buraya köçmüş yəhudilər Xəzər dövlətində ticarətin inkişafında, şübhəsiz, böyük rol oynamış və şəhərlərdə əhalinin xeyli hissəsini təşkil etməklə xaqanın siyasətinə təsir etmişlər. Lakin yeni din geniş yayılmamışdır, onu yalnız xaqan və feodal hakim dairələri qəbul etmişlər. Xalqın əksəriyyəti isə əvvəlki kimi bütpərəstlikdə qalmışdır. Xəzərlər ölkəsində xristianlıq da öz əhəmiyyətini itirməmişdi, şəhərlərdə isə hətta saraya daxil ola bilmiş müsəlmanlar daha çox üstünlük əldə etmişdilər, belə ki, xaqanın daimi ikiminlik qvardiyası məhz müsəlmanlardan ibarət idi. IX əsrin əvvəllərində Xəzər xaqanlığı feodal pərakəndəliyi dövrünə keçdi, burada ara müharibələri başlandı. Macarlar (madyarlar), ruslar və digər tayfalar xaqanlığa yürüşlər etməyə başladılar. IX əsrin sonlarından etibarən xaqanlığa şərqdən - Volqanın o biri tayından peçeneqlər hücum etməyə başladılar. X əsrin əvvəllərində peçeneqlər Xəzər xaqanlığının bütün şimal və qərb torpaqlarını darmadağın etdilər, iri ticarət şəhərlərini talan edib yandırdılar. Bu məğlubiyyətdən sonra xaqanlıq bir daha özünə gələ bilmədi. Zəifləmiş Xəzər xaqanlığı 964 - 965-ci illərdə Kiyev knyazı Svyatoslav tərəfindən darmadağın edildi.

**xəzərlər** - hunların köçməsindən sonra IV əsrdə Şərqi Avropada meydana gəlmiş, Xəzər dənizinin şimal-qərb sahilləri çöllərində köçərilik edən türk xalqı. VII əsrin ortalarında xəzərlər Xəzər xaqanlığını yaratmışdılar.

**xəzinə** - dövlətin ləl-cavahirat və pul ehtiyatları.

**xırda burjua demokratları** - adətən xırda mülkiyyət, respublika və ya ümumi seçki hüququ tərəfdarlarına aid olunan məfhum, söz, termin.



downloaded from KitabYurdu.org

**xırdamalik** - XIX əsrdə Cənubi Azərbaycanda kəndlilərin torpaq mülkiyyəti. Cənubi Azərbaycanda kəndlilərin cüzi bir qisminin xırdamaliki var idi. Xırdamalikə ən çox Urmiya gölü rayonunda rast gəlinirdi.

**xış** (kotan) əkinçiliyi - əsas əmək alətinin xış (kotan) olduğu əkinçilik növü. Öküzlərə qoşulmuş, torpaqda şırım açan (şumlayan) xışın (kotanın) ixtira olunması torpağın becərilməsini asanlaşdırdı və yaxşılaşdırdı, toxa əkinçiliyi ilə müqayisədə insanların əməyini daha məhsuldar etdi. Xış (kotan) və öküzlərlə işləmək qadınlara çətin olduğundan bu işi kişilər görürdülər.

**xilafət** - ərəblərin xəlifənin başçılıq etdiyi müsəlman feodal dövləti.

**Xirosima** - Yaponiyada şəhər. 1945-ci il avqustun 6-da ABŞ Xirosimaya ilk atom bombası atmışdır. Şəhərin xeyli hissəsi dağılmış, 140 mindən artıq insan həlak olmuşdur. Xirosimada atom bombası qurbanlarına Xatirə Muzeyi yaradılmışdır.

**Xlodviq** (466 - 511) - salik (sahilyanı) franklarının Merovinqlər sülaləsindən olan başçısı, sonra isə kralı, Frank dövlətinin yaradıcısı - 486-cı ildə Suasson yaxınlığında baş vermiş döyüşdə Xlodviq keçmiş Roma canişininin Qalliyadakı qoşunlarını məğlub etmiş və demək olar ki, bütün Qalliyanı ələ keçirmişdir. 500-cü ildə o, kral elan edilmişdir.

**Xoyski, Fətəli xan Xoyski** (1875 - 1920) - Azərbaycanın görkəmli siyasi xadimi. Rusiyanın II Dövlət Dumasına (1907) Azərbaycandan deputat seçilmişdir. Birinci Dünya müharibəsi illərində Xoyski Azərbaycanın müstəqillik əldə etməsi



zəruriyyətini vurğulayırdı. Xoyski 1917-ci ildə Bakı şəhər Dumasının sədri olmuşdur. 1917-ci il noyabrın 15-də Xoyski Azərbaycanın nümayəndəsi kimi Zaqafqaziya Komissarlığına daxil oldu. Zaqafqaziya Seymi hökumətində isə o, ədliyyə naziri vəzifəsini tutmuşdu. 1918-ci il mayın 28-də Fətəli xan Xoyski ADR-in ilk hökumətini təşkil etdi və onun başçısı oldu. Xoyski ADR-in 2-ci və 3-cü hökumətlərinə də başçılıq etmişdir. ADR-in ağır iqtisadi vəziyyəti, əmək və aqrar məsələlərin həlli üçün edilən uğursuz cəhdlər hökumət böhranı ilə nəticələndi. Xoyskinin 3-cü hökumətinə etimadsızlıq göstərildi və 1919-cu il fevralın 25-də hökumət istefaya getməli oldu. Xoyski ADR-in 5-ci hökumətinin xarici işlər naziri olmuşdur. Çiçerinin Denikinə qarşı mübarizə məqsədi ilə bolşevik Rusiyası ilə hərbi ittifaq bağlamaq haqqında göndərdiyi notasını rədd edən Xoyski bu məsələnin Rusiyanın daxili işi olduğunu vurğulamış və ADR hökumətindən tələb etmişdi ki, Azərbaycanda fövqəladə vəziyyət elan etsin. Xoyskinin 1920-ci il aprelin 15-də Rusiya hökumətinə sovet qoşunlarını ADR-in sərhədlərində cəmləşdirməsi ilə bağlı göndərdiyi nota məlum səbəblərdən cavabsız qalmışdır. Fətəli xan Xoyski 1920-ci ildə ADR-in XI Qırmızı Ordu tərəfindən işğal olunmasından sonra qətlə yetirilmişdir.

**xristianlıq** - dünyanın bütün ölkələrində davamçıları olan üç dünyəvi dindən (islam və buddizmlə yanaşı) biri. Xristianlıq eramızın I əsrində Roma



downloaded from KitabYurdu.org

imperiyasının şərqi əyalətlərindən birinin tərkibində olan Fələstində meydana gəlmişdir. İsa Məsihin (İisus Xristosun) dini təliminin tərəfdarları özlərini xristian adlandırırdılar. İlk vaxtlar xristianlığı qullar, kəndlilər və şəhər yoxsulları qəbul edirdilər. Roma imperatoru Konstantin tərəfindən xristianlığa azad etiqad edilməsinə icazə verilənədək xristianlar Roma imperiyasında təqib olunurdular.

**xronika** - tarixi hadisələrin xronoloji ardıcıllıqla yazılması, orta əsrlərin tarixi əsərlərinin əsas növlərindən biri. Xronika salnamə ilə eyniyyət təşkil edir.

**xronologiya** - vaxt ölçüsü haqqında elm. Tarixi xronologiya müxtəlif xalqlar tərəfindən vaxtın ölçülməsi üsullarını, təqvimlərin tarixini öyrənir, müxtəlif hadisələrin tarixini müasir vaxt hesablama sistemi ilə müqayisəli şəkildə müəyyənləşdirir və dəqiqləşdirir.

**Xruşşov** Nikita Sergeyeviç (1894 - 1971) - SSRİ dövlət xadimi, Sov.İKP MK-nin birinci katibi (1953 - 64), eyni zamanda, SSRİ Nazirlər Sovetinin sədri (1958 -64) olmuşdur. Xruşşov SSRİ-nin totalitar rejimdən çıxması sahəsində böyük xidmət göstərmiş, bununla belə, öz fəaliyyətində subyektivizm və volyuntarizmdən, velikorus şovinizmindən yaxa qurtara bilməmişdir. 1964-cü il oktyabrın 11-də Brejnev tərəfindən hakimiyyətdən uzaqlaşdırılmışdır.

**Xuan Çao** - kəndli, Çində kəndli müharibəsinin rəhbərlərindən biri (874 - 884). Kəndlilərin ordusu şimaldan-cənuba qədər keçərək Quançjou ticarət şəhərini hücumla aldı. Sonra üsyançılar Çinin paytaxtı Çanan şəhərini tutdular. Üsyançılar Xuan Çaonu imperator elan etdilər. Xuan Çao ağır vergiləri ləğv etdi və əmr elədi ki, yoxsullara imperator anbarından taxıl versinlər. Çin imperatoru və feodallar şimaldan köçəriləri köməyə çağırdılar. Köçərilərin süvariləri paytaxta soxuldu və üsyançılar şəhəri tərk etmək məcburiyyətində qaldılar. Üsyançılar 884-cü ildə məğlubiyyətə uğradılar, Xuan Çao özünü öldürdü. Lakin Çində kəndli müharibəsi 891-ci ilə kimi davam etdi. Üsyanın məğlub olmasına baxmayaraq, kəndlilər öz vəziyyətlərinin müvəqqəti də olsa yüngülləşməsinə nail oldular.

**Xudafərin körpüsü** - 1027-ci ildə əmir Fəzl ibn Məhəmməd Şəddadinin əmri ilə inşa edilmişdir. Araz üzərindəki Xudafərin körpüsü Azərbaycan İntibahı dövrünün memarlıq incisidir. 15 tağlı körpünün inşası zamanı çayın axarındakı qayalardan tağlar üçün dayaq kimi istifadə olunmuşdur. Xudafərin körpüsü yüz illər ərzində Şimali və Cənubi Azərbaycan arasında iqtisadi, ticarət və hərbi-siyasi münasibətlərdə mühüm rol oynamışdır.



**xunta** (isp. "yığıncaq", "birlik") - 1) İspaniyada və Latın Amerikası ölkələrində ictimai-siyasi təşkilatların, birliklərin, yığıncaqların və s.-nin adı; 2) bir çox ölkələrdə hakimiyyətə gəlmiş hərbçi qrupların geniş yayılmış adı.

**xüms** (ər. "beşdəbir") - 1) müxtəlif növ gəlirdən (ər. "qənimə") $^1/_5$ ölçüdə ödənilən vergi. Məhəmməd peyğəmbər tərəfindən hərbi qənimətdən onun üçün ayrılan pay kimi müəyyənləşdirilmişdir. Sonralar xümsü xəlifələr alırdılar; 2)



downloaded from KitabYurdu.org

sonrakı dövrlərdə dənizdən çıxarılan mallardan - mirvari, ənbər, qiymətli daşlardan alınan vergi; 3) daha sonralar - tapılmış dəfinədən ayrılan pay; 4) bundan sonra - müsəlman tərəfindən qeyri-müsəlmana torpaq satışından dövlətə ödənilən rüsum.

**xürrəmilər** - islamda sünniliyə qarşı yönəlmiş maniçi-məzdəki tipli təriqətlərin ümumi adı. Onların şüarı altında Azərbaycanda, İranda və Mərkəzi Asiyada VIII - X əsrlərdə xalq hərəkatı baş vermişdi. Xürrəmilərin ideologiyasının əsasını dualizm - Dünyanın yaranmasının baş substansiyası sayılan İşığın Dünyanın toranlaşmış hissəsi olan Qaranlıqla mübarizəsi təşkil edirdi. Xürrəmilər



qatı şiələrdən ruhların köçməsi və ilahi ruhun peyğəmbərlərdə və görkəmli şəxsiyyətlərdə təcəssüm etməsi ideyasını mənimsəmişlər. Xürrəmilərin pak həyata və təmizliyə doğru cəhdləri ictimai dualizmlə çulğaşırdı: yolu gözləmlən peyğəmbərin gəlişi ətraf aləmdə şərə son qoymalı idi. Xürrəmilərin sosial proqramına görə, insanların ümumi bərabərliyi, vergi və mükəlləfiyyətlərin ləğv edilməsi, maddi nemətlərin bərabər bölünməsi elan olunurdu. Nəzəri cəhətdən xürrəmilər şərə qarşı silahlı mübarizə üsulunu rədd edirdilər, yalnız hücumu dəf etmək istisna edilirdi, lakin faktik olaraq VIII - X əsrlərdə Xilafətin şərqində ərəblərə və feodalizmə qarşı yönəlmiş bütün çıxışları dəstəkləyirdilər. 755-ci ildə zərdüşti Sunbadın rəhbərliyi altında xürrəmilərin İranın şimal-şərqində iri üsyanı başlandı. Azərbaycanda və Mərkəzi İranda VIII - IX əsrlərin ikinci yarısında baş vermiş xalq hərəkatlarında xürrəmilər şiələrlə birlikdə çıxış edirdilər. Azərbaycanda xürrəmilərin əsas məqsədi ərəblərin əsarətindən azad olmaq və müstəqilliyi bərpa etmək, feodal zülmünü məhv etmək idi. Xürrəmilər qırmızı paltar geyinir və qırmızı bayraq altında vuruşurdular. 776 və 808-ci illərdə xürrəmilər Azərbaycanda Əbu İmran və Cavidanın başçılığı ilə üsyana qalxmışdılar. Bu üsyanların hər ikisi ərəblər tərəfindən amansızlıqla yatırılmışdır. Cavidanın öldürülməsindən sonra 816-cı ildə Azərbaycanda xürrəmilərə Babək başçılıq etdi. Babək böyük qoşun topladı və çox ciddi nizam-intizam yaratdı. Müaviyə və Abdulla (Babəkin qardaşları), Tərxan, Adin, Rüstəm, İsma əl-Kürdi və b. Babəkin yaxın silahdaşları idilər. Xürrəmilər hərəkatında kəndlilər, şəhər yoxsulları, sənətkarlar, xırda, orta və iri feodallar iştirak edirdilər. Üsyançıların əsas mərkəzləri Bəzz qalası idi. Üsyançılar yadelli qəsbkarları Azərbaycandan qovur və öldürürdülər. 819-cu ildə üsyançılar xəlifənin onlara qarşı göndərdiyi ordunu darmadağın etdilər. IX əsrin 20-ci illərinin əvvəllərində xürrəmilər Arranın bir sıra bölgələrini azad etdilər. 829-cu ildə Həştadsər dağı yaxınlığında xürrəmilər Babəkin başçılığı ilə 150 minlik ərəb ordusunu məğlub etdilər. 830-cu ildə xürrəmilər növbəti qələbədən sonra Həmədanı ələ keçirdilər. 833-cü il dekabrın 25-də Həmədan yaxınlığındakı savaşda Babəkin tərəfdarları ilk dəfə ərəblər tərəfindən ağır məğlubiyyətə uğradıldılar. 836-cı ildə onlar Həştadsər dağı yaxınlığında ərəblər üzərində qələbə çaldılar. 837-ci ildə Afşinin sərkərdəliyi



downloaded from KitabYurdu.org

ilə ərəb ordusu müdafiəsinə Adinin rəhbərlik etdiyi Bəzz qalasını mühasirəyə aldı. Bəzz qoşun toplayıb ərəblərlə müharibəni davam etdirməkdən ötrü və Bizansdan kömək almaq məqsədi ilə Arrana getdi. Müharibənin uzanması, ərəblərin qələbələri babəkilərin sıralarının seyrəlməsinə səbəb oldu. Babəkin keçmiş tərəfdarları - feodallar Səhl ibn Sunbat, İbn Baiz, Əbu Musa və b. ondan uzaqlaşdılar. Xəlifə Babəki sağ tutana 2 milyon dirhəm mükafat təyin etdi. Sabiq müttəfiqi Səhl ibn Sunbatla təsadüfən rastlaşan Babək xəyanətkarlıqla tutulub ərəblərə təhvil verildi. Babək 838-ci il martın 14-də Samirədə edam edildi. Xəlifə qoşunları tərəfindən xürrəmilərin qalaları dağıdıldıqdan sonra onların əksəriyyəti X əsrdə şiəliyi qəbul etdi. Sonrakı dövr mənbələrində xürrəmilərin adı ta XV əsrədək, özü də yalnız kənd yerlərində xatırlanır, bu dövrdən sonra isə onların adına rast gəlinmir.

**xütbə** - müsəlman ölkələrində məsciddə cümə ibadətində dua. Bu zaman dua oxunanda müsəlman müqəddəslərinin, eləcə də dövlət hökmdarının adları çəkilirdi.

## - İ -

**İberiya** - 1) Şərqi Gürcüstanda antik və Bizans tarixçiləri tərəfindən adı çəkilən qədim dövlət. E.ə. IV - III əsrlərin dönəmində İberiya güclü dövlət idi. İberiyanın ən əhəmiyyətli şəhəri Msxeta idi. E.ə. 65-ci ildə Roma legionları Pompeyin sərkərdəliyi ilə İberiyaya soxuldular, lakin burada möhkəmlənə bilmədilər. E.ə. II əsrdə İberiya çar Farasmanın dövründə xeyli gücləndi. 337-ci ildə xristianlıq İberiyanın rəsmi dini elan olundu. IV əsrin sonlarında Sasanilər dövləti tərəfindən işğal olunan İberiyanın üzərinə ağır xərac qoyuldu. V əsrdə İberiyada hökmdar Vaxtanq I Qorqasalın başçılığı ilə Sasanilərə qarşı üsyan başlandı. Üsyanın yatırılmasından sonra Sasanilər İberiyada çar hakimiyyətini ləğv etdilər və onu özlərinin əyalətlərinə çevirdilər; 2) antik tarixçilərin əsərlərində Pireney yarımadasının adı.

**iblis** - göylərdən qovulmuş və Allahın düşməninə çevrilmiş, dindarları düz yoldan azdıran mələyin adı. Xristianlardakı dyavolun (satananın) sinonimidir. İblisin başqa adı şeytandır. İblis yeganə mələkdir ki, Allahın yaratdığı ilk insana - Adəmə təzim etmək barədə Onun əmrindən çıxmışdır. Buna görə də o, göylərdən qovulmuş və cəhənnəm əzabına düçar edilmişdir. Lakin iblis Allahdan cəzalandırılması üçün Məhşər (Qiyamət) gününədək möhlət istəmiş və and içmişdir ki, Yer üzərində Allaha pislik edəcək və insanları yollarından azdıracaq. Allahın xəbərdarlığına baxmayaraq, iblis Adəmi və onun arvadını yollarından çıxararaq qadağan olunmuş ağacın meyvəsindən yedirdə bilmişdir. Peyğəmbərlərin hamısı düşmənləri ruhlandıran iblisin fitnəsi ilə üzləşmişdir.

**İbn Sina Əbu Əli Hüseyn ibn Abdulla** (980 - 1037) - görkəmli Mərkəzi Asiya alimi, filosofu, şairi və həkimi. Müxtəlif hökmdarların dövründə saray



downloaded from KitabYurdu.org

həkimi və vəzir olmuşdur. Fəlsəfədə Şərq aristotelizmini və qismən neoplatonizm ənənələrini davam etdirirdi. “Danişnamə”, “Kitab ül-işarət və-t-tənbihat”, “Kitab



əl-insaf” İbn Sinanın əsas fəlsəfi əsərləridir. Bu əsərlərdə İbn Sinanın təbii elmi görüşləri də təsvir olunur. İbn Sinanın traktatları Şərqdə və Avropada (burada onu "Avisenna" adlandırırdılar) son dərəcə məşhur idi. İbn Sinaya dünya şöhrəti gətirənsə onun həkimlik qabiliyyəti və xüsusilə də özünün yazdığı "Tibb elminin qanunu" (5 hissədə) nəzəri və klinik təbabət ensiklopediyası olmuşdur. Həmin kitab latın dilinə tərcümə edilmiş və 30 dəfəyə qədər nəşr olunmuşdur. "Tibb elminin qanunu" bir çox əsrlər ərzində Avropa universitetlərində öyrənilmiş və Avropa həkimlərinin stolüstü kitabı olmuşdu.

**İbrahim I Dərbəndi** - şirvanşah (1382 - 1417), Dərbəndilər sülaləsinin banisi. 1382-ci ildə Şirvanşahlar dövlətində baş verən üsyan nəticəsində Kəsranilər sülaləsinin sonuncu nümayəndəsi Huşəng devrildi. Şirvan feodalları yeni şirvanşahı - I İbrahimi taxta çıxardılar. İbrahimin əcdadları bir zamanlar Dərbəndin hakimi olmuşlar və elə buna görə də onların sülaləsi "Dərbəndilər" adlanmışdı. Şirvanşah 1 İbrahim uzaqgörən siyasətçi və diplomat idi. O, Şirvanı talan edilməkdən və yadelli işğalçıların istilasından qoruya bildi. 1385-ci ildə Qızıl Orda xanı Toxtamışın qoşunları Şirvanı və Cəlairilər dövlətindəki Təbriz, Marağa və Mərənd şəhərlərini talan etdilər. 1386-cı ilin yazında Toxtamışın rəqibi Teymur hücum edərək onu Cənubi Azərbaycandan qovub çıxardı, cəlairi əmirləri Əlincə qalasında gizləndilər. Bundan sonra Şirvanşahlar dövlətinin müstəqilliyi təhlükə altında qaldı. Bu vaxt İbrahim 1386-cı ilin payızında Teymurun Bərdədə yerləşən düşərgəsinə yollandı. Mənbələrin verdiyi məlumata görə, o özü ilə qiymətli şeylərin hər birindən 9 ədəd hədiyyə gətirdi, yalnız qulların sayı 8 idi. Qulların sayca niyə 8 olduğu sualı verildikdə isə dərin düşüncəli İbrahim bildirdi: "Doqquzuncu qul - mən özüməm!". Şirvanşahın bu cavabı Teymurun xoşuna gəldi və o, Dərbənd keçidlərinin Qızıl Orda xanlarından qorunmasını İbrahimə tapşırdı, eyni zamanda, bununla bərabər, Şirvan qoşunları Teymurun yürüşlərində iştirak etməli idilər. Tezliklə Şirvanşah I İbrahim öz hakimiyyətini Qarabağ, Şəki, Qəbələ və Dərbəndə də qəbul etdirdi. İbrahimin yardımı ilə gürcü çarı VII Georgi Teymurla sülh bağlaya bildi və bundan sonra Gürcüstan Şirvanşahlar dövlətinin müttəfiqinə çevrildi. Teymurun ölümündən sonra onun yaratdığı möhtəşəm imperiya dağılmağa başladı, Azərbaycanın müxtəlif bölgələrində Teymurilərə qarşı üsyanlar başlandı. Bundan istifadə edən İbrahim Gəncəni tutdu. 1406-cı ilin yazında Təbrizdə də Teymurilərə qarşı üsyan başlandı. Təbriz üsyançıları şirvanşah I İbrahimi Təbrizə dəvət etdilər. 1406-cı ilin mayında şirvanşahın qoşunları Təbrizə daxil oldu. I İbrahim Təbrizdə nizam-intizam yaratdı və şəhər sakinlərinə vəd etdi ki, vergi ədalətlə yığılacaq. Lakin İbrahim Təbrizdə möhkəmlənə bilmədi, belə ki, Cəlairi Sultan Əhmədin və Qara Yusifin sayca üstünlük təşkil edən qoşunları buraya yaxınlaşırdı. Şirvanşah I İbrahim Təbrizdən getmək



downloaded from KitabYurdu.org

məcburiyyətində qaldı. Şirvanşah I İbrahim 1410-cu ildə Cəlairi Sultan Əhmədin Qara Yusifə qarşı yürüşündə iştirak etmək üçün oğlu Kəyumərsi qoşunla onun yanına göndərdi. Sultan Əhmədin məğlubiyyətindən xəbərsiz olan Kəyumərs qoşunları ilə Təbrizə yaxınlaşdı, ancaq əsir götürülüb Qara Yusifin yanına aparıldı. Qara Yusif Kəyumərsi şirvanşahın Qaraqoyunlu dövlətinə tabe olması tələbi ilə I İbrahimin yanına göndərdi. Oğlu ilə Qara Yusifin onu devirmək və özünü şirvanşah elan etmək üçün sövdələşdiklərini zənn edən İbrahim Kəyumərsi edam etdirdi. 1412-ci ilin sonlarında Qara Yusif İbrahimi və müttəfiqlərini Kür çayı yaxınlığında məğlubiyyətə uğratdı. Şirvan Qara Yusif tərəfindən talan edildi. I İbrahim, onun 7 oğlu, məşvərətçiləri və əyanları əsir düşdülər. Qara Yusif tələb etdi ki, Şirvanşah I İbrahim özünü azad etdirmək üçün 1200 İraq tüməni miqdarında ödənc versin. Təbrizin tacirləri və sənətkarların başçıları mal, əmlak və mal-qara ilə onun əvəzinə tələb olunan ödənci verdilər. Şirvanşah I İbrahim özünün Qara Yusif padşahın vassalı olduğunu etiraf etdi, lakin Şirvanşahlar dövlətinin idarə olunması hüququnu özündə saxladı. 1413-cü ilin aprelində İbrahim Şirvana qayıtdı, qaraqoyunlu qoşunları isə onun ərazilərini tərk etdilər.

**İbrahimxəlil xan (qarabağlı)** - Qarabağ xanlığının xanı (1763 - 1806). Kərim xan Zənd Pənahəli xanı "Şiraz qonaqlığı"na dəvət etdikdən və faktik olaraq onu xanlığın idarəçiliyindən uzaqlaşdırdıqdan sonra Qarabağ xanlığında zindandan buraxılmış və Kərim xan Zənd tərəfindən Qarabağ xanı təyin olunmuş İbrahimxəlil ağa ilə Pənahəli xanın tapşırığıyla Qarabağı idarə edən Mehrəli bəy arasında hakimiyyət uğrunda mübarizə başlandı. Bu mübarizə 1763-cü ildə özünü xan elan edən İbrahimxəlil xanın qələbəsi ilə başa çatdı. Özünə müttəfiq axtaran İbrahimxəlil xan avar hakimi Umma xanın bacısı ilə evləndi. Müxtəlif vaxtlarda İbrahimxəlil xanın hakimiyyəti Naxçıvan, Gəncə və Təbriz xanlıqlarına da yayılırdı. Qarabağ məlikləri 1783-cü ildən başlayaraq Rusiyanın fitvasıyla Qarabağda xristian dövləti yaratmaq ümidi ilə xana tabe olmaqdan imtina etdilər, ancaq İbrahimxəlil xan bütün məlikləri Şuşaya toplayaraq onların xəyanətini sübuta yetirdi və hamısını zindana saldı. Zindandan qaçmağa müvəffəq olan məliklər gürcü çarı II İraklinin yanına getdilər və o, 1787-ci ildə polkovnik Burnaşovun rəhbərliyi altında rus qoşunları ilə birlikdə Qarabağ xanlığına yürüş təşkil etdi. 1787 - 91-ci illər Rusiya - Türkiyə müharibəsinin başlanması bu yürüşü yarımçıq dayandırdı. 1795-ci ilin yayında Ağa Məhəmməd xan Qacar 100 minlik qoşunla Qarabağ xanlığına hücum etdi. İran qoşunlarının irəliləməsini dayandırmaqdan ötrü İbrahimxəlil xan Xudafərin körpüsünün uçurulmasını əmr etdi. Lakin yeni körpülər tikdirən Ağa Məhəmməd xan Qacar Arazı keçərək Şuşanı mühasirəyə aldı. Mühasirə zamanı İbrahimxəlil xanın komandanlığı ilə böyük bir dəstə Şuşadan düşmən düşərgəsinə həmlə etdi və İran sərbazlarına böyük zərbə endirdi. Ağa Məhəmməd xan Qacar İbrahimxəlil xanla danışıqlara başlasa da, bir nəticəsi olmadı. Şuşanın 33 günlük uğursuz mühasirəsindən sonra İran qoşunları geriyə çəkilməyə məcbur oldular və Tiflisə hücum etdilər. 1796-cı ildə general



downloaded from KitabYurdu.org

Zubovun başçılığı ilə rus qoşunlarının Azərbaycana yürüşü başlandı. Oğlu Əbülfəti, vəziri Vaqifi və bəyləri hədiyyələrlə Zubovun yanına göndərən İbrahimxəlil xan Rusiyaya itaət etdiyini bildirdi. Eyni zamanda, Rusiyanm Azərbaycanda işğalçı planlarını yaxşı dərk edən xan digər xanlarla birlikdə razılığa gəlib Zubovun öldürülməsini təşkil etməyə cəhd göstərdi. Lakin Zubova qarşı təşkil olunmuş sui-qəsdin üstü açıldı. II Yekaterinanın ölümündən sonra I Pavel rus qoşunlarını Azərbaycandan geriyə çağırdı. Bundan sonra 1797-ci ildə Ağa Məhəmməd şah Qacar yenidən Şuşaya hücum etdi. Bu dəfə Şuşa İran qoşunları tərəfindən tutuldu. İbrahimxəlil xan ailəsi ilə birlikdə Car-Balakən camaatına - avar hakimi Umma xanın yanına qaçdı. İbrahimxəlil xanın "Batmanqılınc" ləqəbli qardaşı oğlu Məhəmməd bəy Cavanşir sui-qəsd təşkil etdi və Ağa Məhəmməd şah Qacar Şuşada öldürüldü. Onun qətlindən sonra İran qoşunları Arazın o tərəfinə çəkildilər. Məhəmməd bəy xanlıqda öz hakimiyyətini bərqərar etməyə cəhd göstərdi, amma Qarabağa qayıdan İbrahimxəlil xan qızı Ağabəyimağanı İranın yeni şahına ərə verdi və özünün buradakı hakimiyyətini bərpa elədi. Car-Balakən camaatı və Gəncə xanlığının rus qoşunları tərəfindən tutulmasından sonra İbrahimxəlil xan 1805-ci il mayın 14-də Qarabağ xanlığının Rusiya imperiyasının himayəsinə keçməsi haqqında Kürəkçay müqaviləsini imzalamağa məcbur oldu. 1806-cı il iyunun əvvəllərində - I Rusiya - İran müharibəsinin gedişində İran qoşunları Şuşaya yaxınlaşdı. Bu hadisələr zamanı İbrahimxəlil xan öz ailəsi və yaxınları ilə birlikdə Xankəndində istirahət edirdi. Gəncəli Cavadxanın qatili mayor Lisaneviç rus dəstəsi əsgərlərinə İbrahimxəlil xanı öldürmək haqqında əmr verdi. İbrahimxəlil xan, onun ailə üzvlərinin və yaxınlarının bir qismi qətlə yetirildi.

**ibtidai icma cəmiyyəti** - adamlarm insan sürüsü və ya nəsli icmada birləşdiyi həyat tərzi. İbtidai icma cəmiyyəti dövlətlərin yaranmasınadək mövcud olmuşdur.

**icarə** - torpaq və ya digər əmlakın sahibinə müəyyən haqq ödənilməklə ondan müvəqqəti istifadə olunması.

**icarədar** - hər hansı əmlakı icarəyə götürən adam.

**icma** - 1) insanların kollektiv mülkiyyət əsasında istehsal vasitələrinə, digər əmlaka, eləcə də tam və ya qismən özünüidarəyə malik birlikləri. İcma (nəsli, qonşu, ailə və s.) insan cəmiyyətinin inkişafının erkən mərhələsində hər yerdə yayılmışdır. Quldarlıq və feodalizm cəmiyyətlərində də müxtəlif növ icmalar mövcud olmuşdur. Kapitalizmin inkişafı icma daxilində əmlak bərabərsizliyinə və nəticədə onun dağılıb məhv olmasına gətirib çıxardı; 2) geniş mənada - ən müxtəlif toplumlar: şəhər kommunaları, kənd icmaları, həmyerlilər birlikləri, dini və milli birliklər, həmkarlar birlikləri və s.

**icma kəndliləri** - qonşu icması üzvlərini icma kəndliləri adlandırırdılar.

**İdalqo,** Migel İdalqo-i-Kostilya (1753 -1811) - Meksikanın milli qəhrəmanı; Meksikanın müstəqilliyi uğrunda müharibəyə çevrilmiş 1810 - 11-ci



downloaded from KitabYurdu.org



illər üsyanının rəhbəri. O zaman Meksika İspaniya əsarəti altında idi. İdalqo hindiləri və metisləri müstəqillik uğrunda vuruşmağa çağırırdı. 1810-cu ilin noyabrında o, inqilabi hökumət yaratdı. Üsyan ölkənin xeyli hissəsini əhatə etdi. İdalqo quldarlara əmr etdi ki, on gün ərzində bütün qullarını azad etsinlər və hindi icmalarının müstəmləkə rejiminə ödədikləri xəracı ləğv etsinlər. İdalqonun dəstəsi müstəmləkə qoşunları tərəfindən darmadağın edildi, onun özü isə əsir götürülərək 1811-ci ildə güllələndi.

**idalqo** - orta əsrlərdə İspaniyada cəngavər.

**idealizm** - birincinin, ilkin başlanğıcı ruh, ideya, şüur, ikincinin isə təbiət (materiya, varlıq) olduğunu qəbul edən fəlsəfi cərəyan. İdealizm materializmlə ziddiyyət təşkil edir.

**ideologiya** - siyasi, hüquqi, mənəvi, fəlsəfi, dini baxış və ideyalar sistemi.

**idxal** - xaricdən ölkəyə mal gətirilməsi.

**ixtilaf** - bax: konflikt.

**İisus Xristos** (yun. "xristos" - "məsiha", "müjdəçi") - islamda İsa Məsih. Xristian dininin eramızın I əsrində Fələstində yaşamış əfsanəvi banisi. Bir kənddən digərinə keçən İisus Xristos tövbə, dünyanın sonunun - Məhşər gününün yaxınlaşmasını, insanlara qarşı xeyirxahlıq və məhəbbəti təbliğ edən təlimini yayırdı. Roma canişini Ponti Pilatın əmri ilə xaç üzərində çarmıxa çəkilmişdir. İisus Xristosun tarixən mövcudluğuna, onun zühuruna və ikinci dəfə yerə gəlişinə inam xristianlığa inamın əsas rəmzlərindən biridir. I əsrin sonları - II əsrdə İisus Xristos haqqındakı rəvayətlər İncildə yazıya alınmışdır.

**ikihakimiyyətlilik** - Rusiyada Fevral burjua inqilabından sonra (1917-ci il martın 1 - 2-dən iyulun 5-dək) iki hakimiyyətin - Müvəqqəti hökumətin və fəhlə-kəndli hakimiyyətinin - Əsgər, Fəhlə və Kəndli Deputatları Sovetləri hakimiyyətinin özünəməxsus çulğalaşması. Sovetlərdəki partiyaların əksəriyyəti iyulda bütün hakimiyyət səlahiyyətlərini Müvəqqəti hökumətə verdilər və bu, ikihakimiyyətliliyə son qoydu.

**İkinci cəbhə** - 1944-cü il iyunun 6-da ABŞ və Böyük Britaniya tərəfindən faşist Almaniyasına qarşı açılmış cəbhə. 2,9 milyon ingilis və amerikan əsgəri Amerika generalı Eyzenhauerin ümumi komandanlığı ilə Normandiyaya çıxarıldı. İyunun 20-nə burada əsas qoşunların yerləşəcəyi plasdarın yaradıldı.

**İkinci Dünya müharibəsi** (1939 - 45) - faşist Almaniyası, faşist İtaliyası və militarist Yaponiyası tərəfindən dünyanı yenidən bölüşdürmək məqsədi ilə hazırlanmış və başlanmışdır. 1939-cu il sentyabrın 1-də Almaniya Polşaya müdaxilə etdi. Böyük Britaniya və Fransa sentyabrın 3-də Almaniyaya müharibə elan etdilər, lakin Polşaya hərbi yardım göstərmədilər və o, hitlerçilər tərəfindən işğal olundu. Müttəfiqlərin qərb cəbhəsində "qəribə" və ya "oturaq müharibə" adını almış 9 aylıq fəaliyyətsizliyi Hitlerə imkan verdi ki, Qərbi Avropa ölkəfərinə qarşı təcavüzə hazırlıq işlərini başa çatdırsın. 1940-cı ilin aprel - mayında alman



downloaded from KitabYurdu.org

qoşunları Danimarka və Norveçi, mayında - Belçika, Niderland, Lüksemburqu işğal etdilər, sonra isə onların ərazilərindən keçərək “Majino xətti”ndən yan ötməklə Fransaya soxuldular; 1940-cı il iyunun 22-də Fransa təslim oldu. 1940-cı il iyunun 10-da İtaliya Almaniyanın tərəfində müharibəyə qoşuldu. 1941-ci ilin aprelində Almaniya Yunanıstan və Yuqoslaviyanı zəbt etdi. 1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə hücuma keçdi. Onunla yanaşı, bu müharibədə Finlandiya, Macarıstan, Rumıniya və İtaliya qoşunları da iştirak edirdilər. Düşmənin güclü qüvvələrinin zərbəsi altında geriyə çəkilən Qırmızı Ordu ilk vaxtlar başıpozuq vəziyyətdə idi və döyüş qabiliyyətli deyildi. 1941 - 42-ci illərin qışında almanların Moskva altında məğlub edilməsi Hitlerin blitskriq planının boşa çıxmasına səbəb oldu. 1941-ci ilin yayında antihitler koalisiyası yaradıldı. 1941-ci il dekabrın 7-də Yaponiya Pörl-Harbora hücumu ilə ABŞ-a qarşı müharibəyə başladı. 1941-ci il dekabrın 8-də ABS, Böyük Britaniya və digər ölkələr Yaponiyaya müharibə elan etdilər. 1941-ci il dekabrın 11-də Almaniya və İtaliya ABŞ-a müharibə elan etdilər. 1942-ci ilin əvvəllərində Yaponiya Malayziya, İndoneziya, Filippin və Birmanı tutdu, Avstraliyaya müdaxilə etmək üçün təhlükəli vəziyyət yaratdı. 1942-ci ilin yay hücumu nəticəsində alman qoşunları Qafqaza və Volqa sahillərinə çıxdılar. 1942 - 43-cü illərdə Qırmızı Ordunun Stalinqrad döyüşündə qələbə çalması İkinci Dünya müharibəsində əsaslı dönüşün yaranmasında əhəmiyyətli rol oynadı, Kursk qövsündə 1943-cü ildə əldə edilmiş qələbə isə alman komandanlığının strateji təşəbbüskarlığı tam itirməsinə gətirib çıxardı. Bu dövrdə almanların işğal etdikləri ərazilərdə işğalçılara qarşı Müqavimət hərəkatı və partizan müharibəsi genişlənməkdəydi. 1943-cü ilin mayınadək Şimali Afrika ingilis - amerikan qoşunları tərəfindən faşistlərdən azad edildi. 1943-cü ilin iyulunda ingilis - amerikan qoşunları Siciliya adasına çıxdılar. 1943-cü il sentyabrın 3-də İtaliya təslim oldu. 1943-cü il Tehran konfransında Fransanın şimalına ingilis - amerikan qoşunları çıxarmaqla İkinci cəbhənin açılması haqqında qərar qəbul edildi. 1944-cü ildə Qırmızı Ordu, demək olar ki, SSRİ-nin bütün ərazisini azad etdi. 1944-cü il iyunun 6-da müttəfiqlər Fransaya qoşun çıxararaq Avropada İkinci cəbhəni açdılar və 1944-cü ilin sentyabrında Fransa Müqavimət hərəkatının köməyi ilə Fransanın bütün ərazisini faşistlərdən təmizlədilər. 1944-cü ilin ortalarından sovet qoşunları Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrini azad etməyə başladılar və həmin ölkələrin vətənpərvər qüvvələrinin iştirakı ilə bunu 1945-ci ilin yazında başa çatdırdılar. 1945-ci ilin aprelində ingilis - amerikan qoşunları Şimali İtaliyanı azad edərək Qərbi Almaniyaya daxil oldular. 1945-ci il Krım (Yalta) konfransında Almaniyanın tamamilə darmadağın edilməsi haqqında plan, eləcə də müharibədən sonrakı dinc quruculuq prinsipləri razılaşdırıldı. 1945-ci il mayın 2-də Qırmızı Ordu Berlini tutdu. 1945-ci il mayın 8-də gecəyarısı Berlinin Karlsxorst adlanan hissəsində Almaniya ali komandanlığının nümayəndələri qeyd-şərtsiz təslim olmaq haqqında aktı imzaladılar. 1945-ci il mayın 11-də Qırmızı Ordu Praqada müqavimət göstərməkdə davam edən alman ordusu qruplaşmalarının darmadağın



downloaded from KitabYurdu.org

edilməsini başa çatdırdı. Amerikan - ingilis silahlı qüvvələri 1944-cü ildə Sakit okeanda Marşall və Mariya adalarını ələ keçirdilər, 1945-ci ildə Filippin və Yaponiyanın Okinava adalarını tutdular. Amerika təyyarələri Yaponiyanın Xirosima (6 avqust 1945) və Naqasaki (9 avqust 1945) şəhərlərinə atom bombası atdılar. 1945-ci il avqustun 8-də SSRİ Yaponiyaya qarşı hərbi əməliyyatlara başladı. Avqustun sonlarında Qırmızı Ordu Yaponiyanın Mancuriyadakı qoşunlarını darmadağın etdi. 1945-ci il sentyabrın 2-də Yaponiya qeyd-şərtsiz təslim olmaq haqqında aktı imzaladı.

İkinci Dünya müharibəsinə 72 ölkə cəlb edilmişdi, müharibənin gedişində 55 milyon nəfərədək insan həlak olmuşdur.

**ikinci ictimai əmək bölgüsü** - sənətkarlığın əkinçilikdən ayrılması. Azərbaycanda orta tunc dövründə (e.ə. III minilliyin sonu - II minilliyin əvvəllərində) baş vermişdir.

**İkinci imperiya** - Fransada imperator III Napoleonun hakimiyyəti dövrü (1852-ci il dekabrın 2-dən 1870-ci il sentyabrın 4-dək). "Sedan faciəsi" və Parisdə 1870-ci il 4 sentyabr inqilabı İkinci imperiyaya son qoydu.

**İkinci respublika** - Fransada 1848-ci il Fevral burjua inqilabı nəticəsində yaranmışdır. Faktik olaraq Lui Bonapartın 2 dekabr 1851-ci il çevrilişinədək, formal olaraq isə Lui Bonapartın III Napoleon adı ilə imperator elan edilməsi və 1852-ci il dekabrın 2-də İkinci imperiyanın yaranmasına qədər mövcud olmuşdur.

**ikipartiyalı sistem** - bir sıra ölkələrdə geniş yayılmış siyasi sistem. Bu zaman iki aparıcı partiya hakimiyyət uğrunda mübarizə aparır; məs.: ABŞ-da Respublikaçılar və Demokratlar partiyaları, Böyük Britaniyada Mühafizəkarlar və Leyboristlər partiyaları.

**ikitarlalı** - bu, torpaqdan elə istifadə sistemidir ki, bu zaman əkin sahəsi 2 yerə - tarlaya bölünürdü: bir il bir sahəni becərirdilər, digərini isə "dinc"ə qoyurdular, növbəti ildə isə tarlaları dəyişirdilər. Torpaqdan istifadənin ikitarlalı sistemi torpağın qüvvədən düşməsini azaldırdı, onda qidalandırıcı maddələrin bərpa olunmasına və nəticədə məhsuldarlığın artmasına səbəb olurdu.

**iqta** - dövlət tərəfindən müəyyən ərazidən xərac alınması hüququnun verilməsi. İqta hələ Məhəmməd peyğəmbərin dövründə meydana gəlmişdir. Torpaq onu irsən vermək və ya satmaq hüququ olanların mülkiyyətinə verilirdi. Torpağın verilmə sənədinin özü "iqta" adlanırdı.

**iqtadar** - iqta sahibi.

**iqtisadi böhran** - qəfil tənəzzül, bir çox müəssisələrin var-yoxdan çıxması, əmək haqqının azalması, işsizliyin artması ilə istehsalın ixtisar edilməsi.

**iqtisadiyyat** - 1) məhsuldar qüvvələrin müvafiq inkişaf mərhələsinə uyğun gələn istehsal münasibətləri məcmusu; 2) ölkənin, ayətin, rayonun təsərrüfatı və ya təsərrüfat sahələri (məs.: nəqliyyatın iqtisadiyyatı).

**İlcə (xami)** - ulucların torpaq sahələri.



downloaded from KitabYurdu.org

**"İllada"** – e.ə. VIII əsrdə Homer tərəfindən tərtib olunmuş qədim yunan epik poeması. "İlliada"da axeylərin Troya şəhərinə qarşı sonuncu (on ikinci) müharibə ilinin faciəli hadisələri təsvir olunur. Bu müharibənin tarixi reallığı Boğazgöy arxivində, Troyada və Mikena mədəniyyətinin mərkəzlərində qazıntılar zamanı aşkar edilmiş hett mixi lövhələri ilə tam təsdiq olunur.



**ilotlar** - Qədim Spartanın dorilər tərəfindən tabe edilmiş yerli əhalisi. İlotlar dövlətin əmlakı sayılır və ayrı-ayrı spartalıların sahibi olduqları torpaq sahələrinə təhkim edilirdilər. İlotlar qullardan onunla fərqlənirdilər ki, onların torpağı becərmək üçün əmək alətləri, mal-qaraları, eləcə də öz təsərrüfatları var idi. Torpaq sahibləri ilotları öldürə və sata bilməzdilər. İlotlar əldə etdikləri məhsulun təxminən yarısını ağalarına verirdilər; yerdə qalan hissəsi isə özlərinə qalırdı. İlotlar Sparta icmasına daxil olmurdular və heç bir hüquqa malik deyildilər. İlotların hədsiz istismarı onların üsyanlarına səbəb olurdu. Ən böyük üsyan e.ə. VII əsrdə və e.ə. 464 - 459-cu illərdə olmuşdur. İlotların üsyanlarının qarşısını almaq məqsədi ilə spartalılar kriptilər - vaxtaşırı daha cəsarətli və qüvvətli ilotların döyülməsi və öldürülməsi sistemini tətbiq etməyə başladılar.

**iltizam** (otkup) - müəyyən məbləğdə pul ödənilməsi müqabilində feodal dövləti tərəfindən xüsusi şəxslərə (iltizamçılara) hər hansı vergini yığmağa və ya müxtəlif növ mal (duz, spirtli içkilər, tütün və s.) satışına verilən müstəsna hüquq. Belə hallarda vergiləri kral məmurları deyil, həmin hüquqa malik olan tacirlər və ya varlılar şirkətləri yığırdılar. Bu şirkətlər əvvəlcədən tələb edilən pul məbləğini xəzinəyə ödəyir, özləri isə bu və ya digər rayonun əhalisindən daha çox vergi toplayırdılar.

**imam** - dini rəhbər, müsəlman icmasının başçısı. Gündəlik həyatda - məsciddə ümumi ibadətin rəhbəri. İslamın yarandığı ilk illərdə imam funksiyasını Məhəmməd peyğəmbərin özü, onun ölümündən sonra isə xəlifələr icra edirdilər. Ona görə də imamlıq edən xəlifə həm dini, həm də dünyəvi hökmdar idi. Kimin imam sayıla bilməsi, eləcə də onun mahiyyətinin nədən ibarət olması məsələsi üstündə aparılan mübahisələr müsəlmanların sünnilərə və şiələrə bölünməsinə səbəb olmuşdur. Sünnilərə görə, bütün müsəlmanların imamı xəlifədir və onun əsas vəzifəsi dini qorumaq və dünyəvi işləri idarə etməkdir; imam icmanın vəkilidir, bütün icma üzvləri tərəfindən seçilən, eləcə də sələfi tərəfindən təyin ediləndir. Şiələrə görə, imam seçilə bilməz, belə ki, onun ali hakimiyyəti ilahi tərəfindən müəyyənləşdirilib və yalnız Əlinin nəsli ilə irsən keçməlidir. Şiələrə görə, imam ilahi iradə hesabına öz təbiəti etibarilə peyğəmbər tərəfindən dinin yalnız Əliyə söylənilən və nəsildən-nəslə - atadan-oğula ötürülən bütün məxfi tərəflərini bilir. Şiə imamları -Allahın canişinləri, peyğəmbər elminin davamçılarıdır. İmam məfhumu sünni və şiələr tərəfindən həm də böyük din xadimlərinin, böyük icma başçılarımn, məzhəb və tə-riqət başçılarının, ilahiyyat məktəbləri yaradıcılarının hörmətli ləqəbi kimi istifadə olunur: Əbu Hənifə, əl-Əşəri, Xomeyni və b.



downloaded from KitabYurdu.org

**imamət** (ər. "əl-imamə") - dini və dünyəvi hakimiyyəti birləşdirən müsəlman icmasının ali idarəçilik forması. İmamət haqqında təlim şiəlik ehkamının əsas təməl daşlarındandır.

**İmhotep** - Qədim Misir aqili, həkim və memarı, baş kahini və firon Coserin çatisi (vəziri). Firon üçün Memfis yaxınlığında ilk pilləvarı piramidanı tikdirmişdir. İmhotep həm də Qədim Misir təqviminin yaradıcılarından biri idi. İmhotep sonralar ilahiləşdirilmiş və şəfa allahı kimi ona sitayiş edilmişdir. Qədim yunanlar onu özlərinin şəfa allahları Asklepi ilə eyniləşdirirdilər.

**immiqrasiya** - mühacirət, başqa dövlətlərin vətəndaşlarının müvəqqəti və ya daimi yaşayış üçün ölkəyə gəlməsi.

**imperator** (lat, "imperator" - "hökmdar") - bəzi monarxların kralla, çarla müqayisədə daha yüksək rütbə bildirən titulu. İlk vaxtlar Roma Respublikasında döyüşçülərin böyük qələbədən sonra sərkərdəni mükafatlandırdıqları yüksək hərbi titul olmuşdur. İlk dəfə imperator titulu ilə e.ə. 189-cu ildə Lusi Emili Pavel mükafatlandırılmışdır. Pompey bir neçə dəfə həmin mükafata sahib olmuşdur. Sezar bundan daimi titul kimi istifadə etmişdir, sonra isə titul Oktaviana və onun varislərinə keçmişdir. İmperatorlar faktik olaraq mütləq hakimiyyətə malik idilər. Qərbi Roma imperiyası süqut etdikdən sonra "imperator" titulu Şərqdə - Bizans imperiyasında saxlanıldı. Qərbdə bu titul 800-cü ildə Böyük Karl özünü "Roma imperatoru" elan etdikdən sonra yenidən bərpa olundu. 962-ci ildən alman kralları özlərini "Müqəddəs Roma imperiyası"nın imperatorları adlandırırdılar. XV əsrdən Avstriya monarxları da özlərini imperator adlandırırdılar. 1721-ci ildə I Pyotr "imperator" titulu qəbul etdi və ondan sonra bütün rus çarları imperator adlandılar. I Napoleon, ondan sonra isə III Napoleon özlərini imperator adlandırmışlar. Almaniyanın birləşdirilməsindən sonra Prussiya kralı Almaniyanın imperatoru adlanmışdır. 1876-cı ildə İngiltərə kraliçasına "Hindistanın imperatriçəsi" titulu verilmişdir, 1936-cı ildən İtaliya kralına "Efiopiya imperatoru" adı verilmişdir. Braziliya, Meksika, Haiti, Çin, Yaponiya, Siam, Efiopiya hökmdarları da imperator adlanmışlar.

**imperializm** - inhisarçı kapitalizm, kapitalizmin ən yüksək mərhələsi. Sənayecə inkişaf etmiş ölkələrdə imperializmə keçid XIX - XX əsrlərin dönəmində inhisarların yaranmasıyla baş vermişdir. İmperializm kolonializmlə (müstəmləkəçiliklə) qırılmaz surətdə bağlıdır.

**imperiya** - 1) başçısı imperator olan monarxiya dövlətinin adı; 2) bəzən çoxlu müstəmləkəsi olan iri dövlətləri də imperiya adlandırırlar. Bu mənada Fransa müstəmləkə imperiyası, Britaniya müstəmləkə imperiyası, Rusiya imperiyası və s. deyilir.

**impiçment** - dövlətin yüksəkvəzifəli şəxslərinə etimad göstərilməməsi və ya onlara qarşı ittiham irəli sürülməsi proseduru və onların vəzifələrindən kənarlaşdırılması.

**import** - bax: idxal.



downloaded from KitabYurdu.org

**impressionizm** - XIX əsrin son rübü - XX əsrin əvvəllərində incəsənətdə cərəyan. Cərəyanın nümayəndələri çalışırdılar ki, gerçək aləmin dəyişkənliyini daha təbii və qərəzsiz təsvir etsinlər, özlərinin ötəri təəssüratlarını verə bilsinlər. İmpressionizm Fransa rəngkarlığında - məşhur inıpressionist rəssamlar - K.Mone, O.Rönuar, A.Sisley və b.-nın yaradıcılığında meydana gəlmişdir. Bu cərəyan heykəltəraşlıqda - O.Roden (Fransa), M.Rosso (İtaliya), musiqidə - K.Debüssi, M.Ravel (Fransa) və ədəbiyyatda da yayılmışdır.

**imtiyaz** - hər hansı bir şəxsə verilən müstəsna hüquq, üstünlük.

**İncil** (yun. "yevangeliye" - "müjdə", "xoş xəbər") - Bibliyanın eramızın I - II dsrlərində tərtib olunmuş bir hissəsi. İncil xristianlığın əsasını qoymuş İisus Xristosun Yerdəki həyatından bəhs edir.

**İndra** - qədim hind dinində ildırım allahı.

**indulgensiya** - katolik kilsəsində “günahlar”ın tam və ya qismən bağışlanması məqsədi ilə kilsə tərəfindən dindara verilən pullu sənəd (vəsiqə). XII əsrdən etibarən katolik kilsəsi varlanmaq məqsədi ilə əsasən səlibçilər (xaçlılar) üçün geniş indulgensiya satışına başladı. Bu isə reformatorların və humanistlərin güclü narazılığına səbəb oldu. Bu gün də indulgensiya satışı katolik kilsəsinin gəlir mənbələrindən biri olaraq qalır.

**inflyasiya** - dövriyyəyə təsərrüfatın real tələbatından daha çox kağız pıl buraxılması, bunun nəticəsində pulun qiymətdən düşməsi və malların qiymətinin kəskin şəkildə artması.

**inhisar** (ər. "yalnız bir şəxsə məxsus") - 1) hər hansı bir şeyə müstəsna hüququ olmaq; məs.: nəyinsə istehsalına, satışına, xariclə ticarətinə; 2) kapitalistlərin istehsalın və kapitalın yüksək istehsalın təmərküzləşməsi sayəsində iqtisadiyyatın bütün sahələrində meydana gəlmiş ittifaqları, saziş və birlikləri (kartel, konsorsium, konsern, sindikat, trest və s.). İri inhisarlar bir və ya bir neçə sahədə məhsul istehsalı və satışının, sənayenin və ticarətin maliyyələşməsinin xeyli hissəsini öz əllərində cəmləyirlər. XIX əsrin sonları - XX əsrin əvvəllərində beynəlxalq inhisarlar geniş yayılmışdı.

**inkvizisiya** - katolik kilsəsinin təşkil etdiyi kilsə məhkəməsi; XIII - XIX əsrlərdə mövcud olmuşdur. İnkvizisiya bidətçilərə qarşı mübarizə aparmaq, antifeodal xalq hərəkatlarını boğmaq məqsədi ilə yaradılmışdır. İnkvizisiyanın əsası 1204-cü ildə Roma papası III İnnokenti tərəfindən qoyulmuşdur. İnkvizisiya öz fəaliyyətində tamamilə papadan asılı idi və dünyəvi hakimiyyətin dəstəyinə arxalanırdı. Amansız işgəncələrdən geniş istifadə edilməsi, çuğulların və dünyəvi hökmdarların hökmlərini yerinə yetirənlərin bidətçilərin əmlakının bir hissəsi ilə mükafatlandırılması, eləcə də inkvizisiyanın özünün maddi maraqlı olması onu Avropanın katolik ölkələrinin bəlasına çevirdi. Bidətçilər ən yaxşı halda zindana düşür və məhkəmə prosesinin xərcləri adı ilə əmlaklarından məhrum olunurdular. "İnadkarlar" tonqalda yandırılmaq (autodafe) üçün dünyəvi hakimiyyətin əlinə verilirdilər. Yüz minlərlə adam inkvizisiyanın zindanlarında və tonqallarında həlak



downloaded from KitabYurdu.org

olmuşdur; təkcə ispan inkvizitoru Torkvemadanın 18 illik fəaliyyəti ərzində 10.220 nəfər tonqalda yandırılmışdır. İnkvizisiyanın vəhşiliyi ona qarşı kütləvi xalq çıxışlarının baş verməsinə səbəb olurdu. Kral hakimiyyətinin güclənməsi və papa hakimiyyətinin zəifləməsi ilə əlaqədar inkvizisiya dünyəvi hakimiyyətdən asılı vəziyyətə düşdü. Bir sıra Avropa ölkələrində Reformasiyanın qələbə çalması ilə inkvizisiyanın fəaliyyət dairəsi xeyli daralmışdı. Artıq Əksreformasiya dövründə - 1542-ci ildə Roma papası III Pavel Romada ali inkvizisiya tribunalı təsis etdi. XVI - XVII əsrlərdə inkvizisiya elmə və qabaqcıl ideyalara qarşı katolik kilsəsinin əlində qorxulu silah idi (Bruno, Vanini tonqalda yandırılmış; Kampanella, Qaliley və b. təqiblərə məruz qalmış, çoxlu kitab və ixtiralar məhv edilmişdi). İnkvizisiya İspaniyada xüsusilə tüğyan edirdi - burada o, təkcə bidətçilər əleyhinə deyil, həm də mavrlara (ərəblərin törəmələri) və yəhudilərə qarşı yönəlmişdi. Bu da öz növbəsində əhalinin qeyri-xristian hissəsinin kütləvi mühacirətinə və İspaniyanın tənəzzülünə gətirib çıxardı. İnkvizisiyanın günahı ucbatından "əcinnə"lərə qarşı kütləvi proseslər keçirilmiş və XV - XVII əsrlərdə on minlərlə insan, xüsusilə də qadınlar öldürülmüşdür. İnkvizisiya XVIII - XIX əsrlərdə məhv edilmişdir.

**inqilab** (ər. "çevriliş", "dəyişiklik"; lat. "revolutio" - "çevriliş", "dəyişiklik") - 1) bir keyfiyyət formasından digərinə sıçrayışlı keçid (bax: evolyusiya); 2) sosial inqilab - siyasi və ictimai quruluşda köklü dəyişiklik; çox zaman zorakı formada həyata keçirilir.

**inqilabi şərait** - inqilab üçün lazımi ictimai-iqtisadi şərtlərin yetişməsini göstərən şərait. İnqilabi şəraitin üç əsas əlaməti vardır: 1) "yuxarıların böhranı" - hakim siniflərin öz ağalıqlarını dəyişilməz şəkildə saxlaya bilməmələri, yəni "yuxarıların köhnə qayda ilə" yaşaya bilməmələri; 2) məzlum xalqın ehtiyac və məşəqqətinin həmişəkindən artıq kəskinləşməsi, yəni "aşağıların köhnə qayda ilə yaşamaq istəməməsi"; 3) kütlələrin siyasi fəallığının xeyli artması. Hər cür inqilabi şərait inqilabla nəticələnmir. Digər tərəfdən inqilabi şərait yetişmədən hakim siniflərin hakimiyyətini devirmək cəhdləri məğlubiyyət və uğursuzluqla nəticələnir.

**İnsan və vətəndaş hüquqları bəyannaməsi** - Böyük Fransa burjua inqilabı dövründə - 1789-cu il avqustun 26-da Müəssislər Məclisi tərəfindən qəbul olunmuşdur. ABŞ-ın İstiqlaliyyət bəyannaməsi onun üçün nümunə kimi götürülmüşdür. İnsan və vətəndaş hüquqları bəyannaməsi şəxsiyyət toxunulmazlığını, söz, mətbuat və vicdan azadlığını, əmlak hüququnu, vətəndaşların qanun qarşısında bərabərliyini, zülmə qarşı müqavimət göstərmək hüququnu elan edirdi.

**insan sürüsü** - ilk insan kollektivi. İnsan sürüsündə birgə qida əldə edən, ov ovlayan və vəhşi heyvanlardan qorunan iyirmi nəfərədək adam olurdu.

**insident** - adətən xoşagəlməz səciyyəli hadisə, anlaşılmazlıq, münaqişə, toqquşma.



downloaded from KitabYurdu.org

**inteqrasiya** - ayrı-ayrı hissə və ya elementlərin tamda birləşdirilməsi. İqtisadiyyatda - təsərrüfatın beynəlxalq əmək bölgüsünün dərinləşdirilməsi ilə müşayiət olunan beynəlmiləlləşdirilməsi və müəssisə, sahə və hətta müxtəlif ölkələrin iqtisadiyyatlarının vahid təsərrüfat orqanizmində qarşılıqlı şəkildə yaxınlaşması və birləşməsində ifadə edilən, eləcə də bu prosesi tənzimləyən iqtisadi siyasət.

**İnternasional** - 1) I İnternasional (Fəhlələrin Beynəlxalq Birliyi) - fəhlələrin K.Marks və F.Engels tərəfindən Londonda yaradılmış birinci beynəlxalq təşkilatı. 1864-cü ildən 1876-cı ilə kimi fəaliyyət göstərmişdir; 2) II İnternasional - F.Engelsin iştirakı ilə sosialist partiyalarının Parisdə yaradılmış beynəlxalq birliyi. 1889-cu ildən 1914-cü ilədək - Birinci Dünya müharibəsinin başlanmasına qədər mövcud olmuşdur; 3) Bern İnternasionalı - 1919-cu ildən 1923-cü ilədək fəaliyyət göstərmişdir; 4) $2^{1/}{}_{2}$ (və ya Vyana) İnternasionalı - 1921-ci ildən 1923-cü ilədək mövcud olmuşdur; 5) 1923-cü ildə Hamburqda Bern İnternasionalı ilə $2^{1/}{}_{2}$ İnternasionalı birləşib Sosialist Fəhlə İnternasionalını yaratdılar və o, İkinci Dünya müharibəsinin başlanmasına qədər mövcud oldu; 6) Moskvada yaradılmış III və ya Kommunist İnternasionalı (Komintern) 1919-cu ildən 1943-cü ilə kimi fəaliyyət göstərmişdir; 7) Parisdə əsası L.D.Trotski tərəfindən qoyulmuş IV İnternasional; 8) 1951-ci ildə Frankfurt-Maynda yaradılmış Sosialist İnternasionalı (Sosintern); hazırda yüzdən artıq partiyanı birləşdirir.

**intervensiya** - bax: müdaxilə.

**İntibah** (ər. "Oyanma", fr. "Renessans" - "Dirçəliş") - Mərkəzi və Qərbi Avropa ölkələrində ideya, mədəni və elmi inkişaf dövrü, orta əsrlər mədəniyyət və elmindən yeni dövr mədəniyyət və elminə keçid. İntibah mədəniyyətinin fərqləndirici xüsusiyyətləri bunlardır: dünyəvi xarakter daşıyır, dindarlıq əleyhinədir, humanist dünyagörüşlüdür, antik mədəni irsə müraciətlə onu sanki "dirçəldir" (dövrün adı elə buradan götürülmüşdür). İntibah XIII - XIV əsrlərin dönəmində İtaliyada meydana gəlmiş və burada daha parlaq təzahür etmişdir (şair Dante, rəssam Cotto və b.). İntibah dövrü xadimlərinin yaradıcılığı insanın intəhasız imkanlara, onun iradə və ağıla, tərki-dünyalığı inkar etməyə malik olması inamı ilə zəngindir. Bütün bunlar İntibah mədəniyyətinə ideya dəyəri və qəhrəmanlıq meydanı verir. Memarlıqda əzəmətli aydınlıq, harmoniya və insana münasib olan ictimai tikililər aparıcı rol oynamağa başladı. Rəssamlar İtaliyada - Donatello, Leonardo da Vinçi Rafael, Mikelancelo, Tisian, Veroneze, Niderlandda - Yan van Eyk, Almaniyada - Dürer, Fransada - Fuke və bir çox başqaları) insan fiquru təsvirinin (o cümlədən çılpaq) interyer arasında və ya real peyzajda həcm, məkan, işıq gerçəkliyini verməyə çalışırdılar. İntibah ədəbiyyatı sahəsində Rablenin "Qarqantüa və Pantaqruel", Şekspirin dramları, Servantesin "Don Kixot"u, Petrarkanın sonetləri, Bokkaççonun novellaları və s. kimi ölməz əsərlər yaradıldı. Musiqidə vokal polifoniya inkişaf edir, dünyəvi vokal və instrumental musiqidə yeni janrlar meydana gəlir. İntibah dövründə coğrafiya (Böyük coğrafi



downloaded from KitabYurdu.org

kəşflər), astronomiya (Kopernik tərəfindən dünyanın heliosentrik sisteminin işlənib hazırlanması), anatomiya sahəsində əhəmiyyətli elmi kəşflər (Vezali) edilmişdir. İntibah ideyaları orta əsrlər dini təsəvvürlərinin məhv edilməsinə imkan yaradır və əsasən yenicə yaranan burjuaziyanın maraqlarına cavab verirdi:

**investisiya** - gəlir götürmək məqsədi ilə iqtisadiyyatın müxtəlif sahələrinə uzun-müddətli kapital (sərmayə) qoyuluşu.

**inzibati məhkəmə islahatı** (1840) - çarizmin mövqelərini möhkəmlətmək məqsədi ilə Rusiya hökuməti 1840-cı il aprelin 10-da Cənubi Qafqazda inzibati məhkəmə islahatının keçirilməsi haqqında fərman verdi. Bu qanuna əsasən, komendant üsuli-idarəsi ləğv edilirdi. Cənubi Qafqaz Gürcüstan-İmeretiya (mərkəzi Tiflis olmaqla) quberniyasına və Kaspi vilayətinə (mərkəzi Şamaxı olmaqla) bölündü. Azərbaycan ərazilərinin xeyli hissəsi Kaspi vilayətinə daxil edildi. Kaspi vilayəti 7 qəzadan - Şamaxı, Şuşa, Nuxa, Lənkəran, Bakı, Quba və Dərbənd qəzalarından ibarət idi. Qazax, Şəmşəddil və Borçalı distansiyaları, Yelizavetpol (Gəncə), Balakən və Naxçıvan qəzaları Gürcüstan-İmeretiya quberniyasına daxil edildilər. Hər bir qəza sahələrə ayrılırdı. Cənubi Qafqaz əvvəlki kimi Qafqazdakı baş rəis (canişin) tərəfindən idarə olunurdu, Tiflis hərbi qubernatoru rütbəcə ondan sonra gələn ikinci vəzifə idi. Bölgənin müxtəlif həyati məsələləri Qafqaz baş rəisi yanındakı Ali İdarə Şurası tərəfindən həll edilirdi. Yerli əhalidən olan məmurlar ruslarla əvəz edilirdi. Ümumimperiya qanunları əsasında quberniya, vilayət və dairə məhkəmələri yaradılırdı. 1840-cı il inzibati məhkəmə islahatı həyata kcçirilərkən Ali İdarə Şurası 1841-ci il fevralın 13-də Qazax, Şəmşəddil və Borçalı distansiyaları ağalarının kəndlərin idarə olunmasından uzaqlaşdırılması haqqında qərar qəbul etdi və həmin il martın 24-də bu qərar Kaspi vilayəti bəylərinə də şamil edildi. Az sonra bəylərin və ağaların torpaqlarının müəyyən pul kompensasiyası ödənilməklə müsadirəsinə başlanıldı; bu da onların narazılığına səbəb oldu və çarizmə qarşı çıxışlara təhrik etdi.

**ioniyalılar** - qədim yunan tayfalarının əsas qruplarından biri. Attika vilayətində, Egey dənizinin bir sıra adalarında, Kiçik Asiyanın sahillərinin bir hissəsində (İoniya vilayətində) məskunlaşmışdılar.

**ippodrom** - Qədim Yunanıstanda, Qədim Romada və dövrümüzdə atçılıq idmanı yarışlarının keçirildiyi yer.

**ipək** - ilk dəfə Qədim Çində istehsal olunmuşdur. İpəkçilik - barama qurdunun yetişdirilməsi və ondan yaraşıqlı və möhkəm ipək parça alınmasıdır. Qədim Çində bu, təsərrüfatın əsas xüsusiyyəti idi. Uzun müddət çinlilər ipəyi istehsal etmək sirlərini gizli saxlaya bilmiş və onunla ticarətdən xeyli mənfəət götürmüşlər.

**İraq-i Əcəm** - orta əsrlərdə İran İraqının adı. Bizim dövrümüzdə İran İslam Respublikası ərazisində yerləşir.

**İraq-i Ərəb** - orta əsrlərdə Ərəb İraqının adı. Hazırda İraq Respublikasının əsas ərazisini təşkil edir.



downloaded from KitabYurdu.org

**İran burjua inqilabı** (1905 - 11) - İranda şah rejimindən narazılıq 1905 - 11-ci illər burjua inqilabının başlanmasına səbəb oldu. 1905-ci ilin dekabrında Tehran, Təbriz, Ərdəbil, Xoy, Zəncan və s. şəhərlərdə bazar və dükanların bağlanması aksiyası ilə müşayiət olunan və "məşrutə" adını alan vətəndaş itaətsizliyi (bəstə oturmaq) başlamış, etiraz aksiyaları keçirilmişdir. Əsas tələblər konstitusiyanın qəbul edilməsi, məclisin çağırılması, xarici məmurların vəzifələrindən uzaqlaşdırılması və s. idi. 1906-cı il avqustun 5-də şah konstitusiya qəbul edilməsi və məclisə seçkilər keçirilməsi barəsində fərman verməyə məcbur oldu. Vətəndaş itaətsizliyi aksiyaları dayandırıldı. Amma az sonra məlum oldu ki, şah hökuməti öz vədlərindən imtina etmək istəyir. 1906-cı il sentyabrın 20-də Təbrizdə "İslam şurası" tərəfindən İngiltərə konsulluğunda itaətsizlik aksiyası (bəst) keçirildi. 6 minədək adam Qurana and içdi ki, həyatlarını əsirgəmədən konstilusiya qəbul edilənədək mübarizə aparacaq. Təbrizdə konstitusiya tərəfdarlarına yardım kassası yaradıldı; şəhərdə mitinq, nümayiş və tətillərin arası kəsilmirdi. Şah hökuməti tezliklə məclisə seçkilər keçiriləcəyi haqqında xəbər verdi. Təbrizdəki bu hadisələrdə "İctimaiyyun-e amiyyun" partiyası böyük rol oynadı. Cənubi Azərbaycanda məclisə seçkilər keçirmək məqsədi ilə xalq əncümənləri (şuralar) seçildi. Az sonra hakimiyyət orqanı funksiyasını yerinə yetirən "Azərbaycan vilayət şurası yaradıldı. "Azərbaycan vilayət şurası" Təbriz sosial-demokrat təşkilatının “gizli mərkəz”i ilə sıx əlaqə saxlayırdı. Əksinqilabla mübarizə aparmaq üçün silahlı fədai dəstələri yaradıldı. 1906-cı il dekabrın 30-da ölüm ayağında olan Müzəffərəddin şah hazırlanmış konstitusiya layihəsini imzaladı. Lakin 1907-ci il yanvarın 19-da taxta çıxan Məhəmmədəli şah atasının imzaladığı konstitusiyanı tanımaqdan imtina elədi. Bu, 1907-ci il fevralın 5-də Təbrizdə itaətsizlik aksiyasının başlanmasına bəhanə oldu. 1907-ci il fevralın 8-də Təbrizdə "gizli mərkəz"in rəhbərliyi ilə inqilabın əvvəlindən indiyədək ilk silahlı üsyan baş verdi. Üsyançılar şəhəri tutdular, hakimiyyət "Azərbaycan vilayət şurası"nın əlinə keçdi. 1907-ci il fevralın 8-də Azərbaycan vəkilləri Tehrana gəldilər və paytaxt əhalisi tərəfindən təntənə ilə qarşılandılar. Məclisdə Azərbaycan vəkilləri şahdan tələb etdilər ki, konstitusiyanın xalqın demokratik hüquq və azadlıqlarına təminat verən, vilayət şuralarının fəaliyyətini bərpa edən və s. yekun hissəsini məclisə təqdim eləsin. Lakin məclisin tələbləri şah tərəfindən rədd edildi. Buna cavab olaraq Təbrizdə yenidən mitinqlər və nümayişlər başlandı. Tehranın məclis qarşısında toplanan əhalisi şahdan bu tələblərin qəbul olunmasını tələb edirdi. Məclisin deputatları da şahı itaətsizlik tədbirləri keçirməklə hədələdilər. İranın müxtəlif vilayətlərində çoxsaylı çıxışlar başlandı. Şah məclisin tələblərini qəbul etməyə məcbur oldu. 1907-ci il hadisələri nümayiş etdirdi ki, İran inqilabının mərkəzi Təbrizə keçmişdir. "Azərbaycan vilayət şurası" silahlı dəstələr təşkil etməyə başladı, şah məmurlarını vəzifələrindən uzaqlaşdırdı, məhkəmə işləri seçilmiş mütərəqqi ruhani nümayəndələrinin ixtiyarına verildi, dünyəvi məktəblər yaradıldı. Cənubi Azərbaycanda ana dilində qəzetlər nəşr olunmağa başlandı.



downloaded from KitabYurdu.org

Təbrizdə keçirilən mitinqlərdə Məhəmmədəli şahın taxtdan salınması haqqında tələblər irəli sürülürdü. 1907-ci il mayın 26-da Tehran əhalisi Məhəmmədəli şah üzərində məhkəmə keçirilməsi tələbi ilə tətil etdi. 1907-ci il oktyabrın 7-də şah konstitusiyanın yekun hissəsini təsdiq etməyə məcbur oldu. Bununla yanaşı, şah əksinqilabi qüvvələri toplamağa başladı. Əksinqilabi Çevriliş cəhdinə cavab olaraq İranın iri şəhərlərində fədai dəstələri təşkil olunmağa başlandı və tətil çağırışları səsləndi. "Gizli mərkəz"in və fədailərin təşəbbüsü ilə 1907-ci il dekabrın 6-da "Azərbaycan vilayət şurası" Məhəmmədəli şahın devrilməsini elan etdi. Elə həmin gün Tehranda ümumi tətil başlandı, ertəsi gün isə nümayiş keçirildi. Məcburiyyət qarşısında qalan Məhəmmədəli şah konstitusiyaya sədaqətli olacağı və xalqın hüquqlarını müdafiə edəcəyi haqqında and içsə də, əksinqilabi qüvvələri toplamaqda davam edirdi. 1908-ci ilin may - iyununda şah hökuməti inqilaba qarşı aktiv fəaliyyətə başladı. 1908-ci il iyunun 23-də şahın göstərişi ilə rus kazak briqadası məclisin və "Azərbaycan vilayət şurası"nın binasını atəşə tutub dağıtdı, inqilabçılara divan tutulmasına başlandı. Təbrizdə əksinqilabçılar "Azərbaycan vilayət şurası"nın binasına və fədai dəstələrinə hücum etdilər. Əksinqilabçılarla olan döyüşlərdə və Təbrizin mühasirədə qaldığı sonrakı 11 ayda Səttarxanın başçılıq etdiyi fədailər dəstəsi öz qəhrəmanlığını nümayiş etdirdi. Beləliklə, 1908-ci il iyunun 23-də İranda əksinqilabi çevriliş baş verdi. 1908-ci il oktyabrın 12-də əksinqilabi qüvvələrin Təbriz ətrafındakı mühasirəsi ləğv edildi, şah canişini şəhəri tərk etdi, "Azərbaycan vilayət şurası"nın fəaliyyəti bərpa edildi. 1908-ci il oktyabrın 19-da "Azərbaycan vilayət şurası" Səttarxanı inqilabi qoşunlara baş komandan təyin etdi. 1908-ci ilin noyabr - dekabr aylarında inqilabi qoşunlar Səttarxanın başçılığı ilə Cənubi Azərbaycanın bütün qərb vilayətlərini əksinqilabi qüvvələrdən təmizlədilər. 1909-cu ilin yanvarında İran üsyançıları İsfahan şəhərini ələ keçirdilər. 1909-cu il yanvarın sonlarında Təbriz yenidən əksinqilabi qüvvələr tərəfindən mühasirəyə alındı. Martın 5-də əksinqilabçılar Mərəndi, martın 15-də isə Culfanı tutdular. Mühasirəyə alınmış Təbrizdə aclıq başlandı. 1909-cu il aprelin 25-do inqilabı yatırmaqdan ötrü İrana rus və ingilis qoşunları gətirildi. Çar qoşunları Təbrizə daxil olduqdan sonra şah qoşunları şəhərdən çıxarıldı. Mayın əvvəllərində rus qoşunları Təbrizdə mücahidləri tərk-silah etməyə başladılar. Təbriz hadisələri İsfahanda və Gilanda inqilabçıları fəallaşdırdı. Bu vilayətlərin fədai dəstələri Tehran üzərinə hücuma başladılar; 1909-cu ilin iyununda Məhəmmədəli şahın devrilməsi və onun 14 yaşlı oğlu Sultan Əhmədin taxta çıxması elan edildi, konstitusiya bərpa olundu. Lakin kübar feodal dairələrinin nümayəndələrindən ibarət olan yeni hökumət əksinqilaba qarşı həlledici tədbirlərə əl atmadı. 1909-cu il noyabrın 15-də ölkədə demokratik dəyişikliklər keçirilməsi tərəfdarları "İran demokrat partiyası "nı yaratdılar. Bu partiyaya mənsub olan "İrane-nou" ("Yeni İran") qəzeti M.Rəsulzadənin redaktəsi ilə çıxmağa başladı. Yeni hökumət mücahidləri və fədai dəstələrini tərk-silah etməyə başladı. 1910-cu il aprelin 15-də Səttarxanla Bağırxan 100 fədainin müşayiəti ilə Tehrana gəldilər.



downloaded from KitabYurdu.org

1910-cu il avqustun 7-də fədailər və onlara qoşulanlar başda daşnak Yefrem olmaqla 6 minlik dəstə tərəfindən atəşə tutuldular. Bu döyüşdə 58 fədai öldürüldü və yaralandı, 300-dək fədai həbs olundu; Səttarxan da yaralanmışdı. Hökumət Səttarxana və Bağırxana Təbrizə qayıtmağa icazə verdi. 1911-ci ilin əvvəllərində hökumət demokratik əhval-ruhiyyəli qulluqçuları dövlət müəssisələrindən çıxarmağa başladı. Bu, Təbrizdə mitinqlərin başlanmasına səbəb oldu. Məclis mitinqçilərin tələblərini yerinə yetirməyə məcbur oldu. İngiltərənin fəal yardımı ilə 1911-ci ilin iyulunda Məhəmmədəli şah İrana qayıtdı. 1911-ci il avqustun 24-də əksinqilabi qüvvələrin Təbrizə hücumu başlandı, lakin oktyabrın əvvəllərində onlar fədai dəstələri tərəfindən dağıdıldılar. Cənubi Azərbaycanın müxtəlif şəhərlərində yenidən fədai dəstələrinin təşkilinə başlanıldı və onlar əksinqilabi qüvvələrin çıxışlarını yatırdılar. Bu dəfə Məhəmmədəli şah İranı həmişəlik tərk etdi. Lakin 1911-ci il noyabrın sonlarında çar qoşunları Rəştdən Qəzvinə doğru hərəkətə başladı. Tehranda məclisin qoşunlarını mühasirəyə alan hökumət qoşunları bütün vəkilləri oradan qovdu. 1911-ci il dekabrın 28-də Təbriz çar qoşunları tərəfindən tutuldu. Bundan sonra rus və ingilis qoşunları bütün İran ərazisində inqilabçılara divan tutmağa başladılar.

**İranda 1978 - 79-cu illər "islam inqilabı"** - şahın 1962-ci ildə başladığı "yuxarıdan" həyata keçirilən islahatlar XX əsrin 70-ci illərinin ortalarına qədər davam etmiş və "ağ inqilab" adını almışdır. "Ağ inqilab"ın məqsədi sənayenin inkişafını sürətləndirmək və İranı aqrar-sənaye dövlətinə çevirməkdən ibarət idi. 1962-ci il aqrar inqilabı kəndlilərə torpaq payı verdisə də, onların daha da var-yoxdan çıxması ilə nəticələndi; belə ki, onlar torpaq almaq üçün götürdükləri ssudaya görə banklarla hesablaşa bilmədilər. Şahın yeritdiyi "milli vəhdət" şovinist siyasəti Azərbaycan dilində çap edilən qəzet və jurnalların, kitabların nəşrinin dayandırılmasına, əvvəllər bu dildə nəşr olunanların isə məhv edilməsinə gətirib çıxardı. Bu siyasətə qarşı çıxış edən Azərbaycan ziyalılarının nümayəndələri repressiyaya uğradıldılar. 1977-ci ilin payızında Cənubi Azərbaycanda şah əleyhinə bir sıra çıxışlar oldu. 1977-ci il dekabrın 12-də - Azərbaycan Milli Hökumətinin yaradılmasının 32-ci ildönümündə Təbriz universiteti tələbələrinin möhtəşəm nümayişi oldu. Polis nümayişi qovdu. 1978-ci ilin yanvarında İranın iri dini mərkəzlərindən olan Qum şəhərində nümayişi dağıdan polis silah işlətdi. Fevralın 18-də Təbrizdə üsyan baş verdi və tarixə "29 bəhmən üsyanı" adı ilə daxil oldu. Bəzi tarixçilər "29 bəhmən üsyanı "nı "islam inqilabı"nın başlanğıcı hesab edirlər. Bu üsyandan sonra martın 29 - 30-da Tehran, İsfahan, Məşhəd, Marağa, Qum, Təbriz və Zəncanda iri çıxışlar baş verdi. Mayın 9 - 19-da çıxışlar İranın artıq 20-dən yuxarı şəhərini bürümüşdü. Sentyabrda şah rejiminə müxalif olan ruhanilər inqilabın rəhbərinə çevrildilər. Ayətulla Xomeyninin də nüfuzu elə həmin dövrdə artdı. Sentyabrın 7-də İranın 12 şəhərində (Tehran, İsfahan, Təbriz və s.) şah əleyhinə çıxışlar baş verdi. Həmin şəhərlərdə hərbi vəziyyət elan olundu. Sentyabrın 8-də etiraz nümayisləri gülləbaran edildi və bu gün "qanlı cümə"



downloaded from KitabYurdu.org

adlandırıldı. Noyabr ayında neftçilərin birhəftəlik tətili oldu. 1978-ci ilin dekabrında neftçilərin 1979-cu il fevralın əvvəllərinədək davam edən fasiləsiz tətilləri başlandı. Tətilçilər gizli SAVAK polisinin ləğv edilməsini və İranın demokratikləşdirilməsini tələb edirdilər. Cənubi Azərbaycanda - Təbriz, Ərdəbil, Marağa, Urmiya, Culfa, Zəncan və s. şəhərlərdə də 1978-ci ilin oktyabr - noyabr aylarında nümayiş və tətillər olur, çıxışlar ara vermirdi. Dekabrın 8-dən 11-dək İranın şəhərlərində möhtəşəm nümayişlər baş verdi. 1979-cu il yanvarın 16-da şah İrandan qaçdı, Pəhləvi sülaləsinin hakimiyyətinə son qoyuldu. Fevralın 1-də ayətulla Xomeyni Parisdən İrana gəldi. Ölkə İran İslam Respublikası elan edildi, ayətulla Xomeyni isə onun rəhbəri oldu. 1979-cu il fevralın 18-də şah qarnizonu Təbrizdə qiyam qaldırdı, şəhərin bütün əhalisi hərbi qarnizonun binasını mühasirəyə aldı və atışmadan sonra təbrizlilər qarnizonu tutub əsgər və zabitləri həbs etdilər. "İslam inqilabı" zamanı azərbaycanlılar 25 min nəfərə yaxın itki verdilər.

**İranzu** - e.ə. VIII əsrin ikinci yarısında yaşamış Manna hökmdarı. İranzunun hakimiyyəti illərində Manna özünün ən yüksək çiçəklənmə dövrünə çatdı və Qədim Şərqin qüdrətli dövlətlərindən birinə çevrildi. İranzunun hakimiyyəti illərində Assuriya hökmdarları Manna dövlətinin ərazilərinə hücum etmirdilər. İranzu Urartuya qarşı yürüş xarakterli müharibələr aparırdı. Arxeoloji qazıntıların da sübut etdiyi kimi, İranzunun hakimiyyəti illərində Manna dövlətinin sərhədləri Arazdan şimala çıxaraq müasir Naxçıvan MR-in ərazilərinin bir hissəsini ohatə edirdi. Beləliklə, İranzunun hakimiyyəti illərində Manna şahlığı kifayət qədər böyük əraziyə malik idi. Lakin İranzunun şahlığının sonlarına yaxın onun hakimiyyəti bir qədər zəiflədi. Manna şəhərlərindən Şuandaxul və Durdukka, eləcə də Zikirtu vilayəti ona qarşı üsyan etdilər. O zaman İranzu Assuriyanın ali hakimiyyətini tanımaq məcburiyyətində qaldı. Assuriya hökmdarı II Sarqonun qoşunlarının köməkliyi ilə həmin üsyan e.ə. 719-cu ildə yatırıldı. İranzunun ölümündən sonra Mannada onun oğulları arasında hakimiyyət uğrunda mübarizə başlandı və Manna şahlığı zəiflədi.

**İrəvan xanlığı** - XVIII əsrin ortalarında Şimali Azərbaycanda Mir Mehdi xan tərəfindən əsası qoyulmuş xanlıq. İrəvan xanlığı Ağrıdağ (sonralar - Ararat) vadisi, Dərələyəz və Göyçə gölü (sonralar - Sevan) aralığındakı torpaqlarda yerləşirdi. Xanlığın mərkəzi İrəvan şəhəri (əvvəllər Çuxursəəd vilayətinin mərkəzi) idi. Xanlıq 15 mahala bölürmüşdü və hər mahal naiblər tərəfindən idarə olunurdu. Xanlığın əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi. Buradakı toponimlərin (yer adlarının) əksəriyyəti Azərbaycan mənşəlidir. Daxili çəkişmələr xanlığı zəiflədirdi. Hüseynəli xanın (1764 - 83) hakimiyyəti illərində xanlığın zəifləməsindən istifadə eləyən gürcülər 1765 və 1769-cu illərdə İrəvan xanlığına hücum edib onu taladılar. 1779-cu ildə Kartli-Kaxeti (Şərqi Gürcüstan) çarı II İrakli bu xanlığa yürüş etmiş və bundan sonra -1780-ci ildən İrəvan xanlığı gürcü çarına xərac verməyə başlamışdı. Az sonra Hüseynəli xan xərac ödəməkdən imtina



downloaded from KitabYurdu.org

elədi. 1783-cü ildə Georgiyevsk traktatı imzalandıqdan sonra İrakli rus qoşunlarınınköməkliyi ilə İrəvan xanlığında Hüseynəli xanın qardaşı Məhəmməd Həsən xanı hakimiyyətə gətirməyə cəhd göstərdi. Lakin İrəvanda başlanmış üsyan nəticəsində qardaşların hər ikisi öldürülmüş və Hüseynəli xanın oğlu Qulaməli xan (1783 - 85) hakimiyyətə gəlmişdi. 1785-ci ildə Qulaməli xan İraklinin təşkil etdiyi saray çevrilişi nəticəsində öldürüldü, hakimiyyət isə onun qardaşı Əliməhəmməd xana keçdi.

İrəvan xanlığının erməni əhalisinin çoxu Qarabağ məlikləri ilə razılığa gəlib Qafqazda xristian dövləti yaratmağa çalışırdı. Bu məqsədlə ermənilər dəfələrlə Rusiya imperatriçəsi II Yekaterinaya müraciət etmişdilər. 1785 - 86-cı illərdə




zəifləmiş İrəvan xanlığı avar xanı Umma xanın yürüşlərinə məruz qaldı. 1787-ci ildə Qarabağ, avar və Xoy xanları İrəvan xanlığına yürüş hazırladılar. Ağa Məhəmməd xan Qacarın Ön Qafqaza yürüşü zamanı İrəvan şəhəri 35 günlük mühasirədən sonra 1795-ci ilin avqustunda İran qoşunları tərəfindən tutuldu, irəvanlı Məhəmməd xan həbs edildi. Ağa Məhəmməd xan İrəvan xanlığının idarəsini Əliqulu xana tapşırdı. Ağa Məhəmməd şahın 1797-ci ildə öldürülməsindən sonra yerli əhali Əliqulu xanı qovdu və az sonra yeni İran şahı tərəfindən azad edilmiş Məhəmməd xan yenidən İrəvan xanı oldu. 1806 - 12-ci illər Rusiya - Türkiyə müharibəsi zamanı rus qoşunları general Qudoviçin başçılığı ilə 1807-ci ildə Gümrü şəhəri yaxınlığında türkləri məğlub etdilər. 1808-ci ilin sentyabr - oktyabrında Eçmiədzini və Naxçıvanı tutan rus qoşunları İrəvanı mühasirəyə aldılar. Lakin İrəvanın 1809-cu il mayın ortalarınadək davam edən mühasirəsi rus qoşunları üçün uğursuz oldu. Abbas Mirzənin başçılıq etdiyi İran qoşunları Qarababa kəndi yaxınlığında rus qoşunlarını dağıdıcı məğlubiyyətə uğratdılar və bunun nəticəsində Qudoviç istefaya çıxdı. 1810-cu ilin iyununda general Kotlyarevskinin başçılığı ilə rus qoşunlarının bir dəstəsi gərgin döyüşlər nəticəsində strateji cəhətdən mühüm olan Mehri rayonunu ələ keçirdi. 1813-cü il Gülüstan müqaviləsinin şərtlərinə görə, İrəvan və Naxçıvan xanlıqları İranın nüfuz dairəsində qaldılar. İkinci Rusiya - İran müharibəsi zamanı 1827-ci ildə general Paskeviçin başçılığı ilə rus qoşunları İrəvanı uğursuz mühasirəyə aldı. Abbas Mirzənin Cavanbulaq yaxınlığında məğlub olmasından sonra rus qoşunları 1827-ci il sentyabrın 20-də Sərdarabad qalasını tutdular. Paskeviç Həsən xana İrəvanı təslim etməsi təklifi ilə məktub göndərdi, amma Həsən xan ona belə cavab verdi: "Son nəfəsimədək ruslarla vuruşacağam". Savaşın qızğın çağında İrəvan qalasının şimal qapılarını açan ermənilər rus qoşunlarını içəri buraxdılar. 1827-ci il oktyabrın 1-də rus qoşunları İrəvanı ələ keçirdilər. Bu bədbəxtliyin sayəsində Paskeviçin general tituluna "İrəvanlı" sözü əlavə edildi. 1828-ci il Türkmənçay müqaviləsinin şərtlərinə görə, İran İrəvan



downloaded from KitabYurdu.org

xanlığının Rusiya imperiyasına birləşdirilməsinə razı oldu. Türkmənçay müqaviləsi Rusiya tərəfindən tutulan Azərbaycan ərazilərini İrandan erməni ailələrinin köçürülməsi obyektinə çevirdi. Bir qədər sonra Naxçıvan və İrəvan xanlıqları ləğv edildi, onların ərazilərində isə ruslar tərəfindən "Erməni vilayəti" adlandırılan qurum yaradıldı.

**İrəvani** Mirzə Qədim (1825 - 79) - görkəmli Azərbaycan rəssamı, İrəvanda doğulmuşdur. İncəsənətin sirlərini atasından öyrənmişdir. İbtidai təhsil aldıqdan sonra təhsilini Tiflisdə davam etdirmişdir. 1840-cı illərdə İrəvana qayıtmış, dövlət qulluğu ilə yanaşı, rəssamlıqla məşğul olmuşdur. İrəvaninin yaradıcılığı divar naxışları və sərgilər üçün ipək və qızıl saplarla (güləbətin üslubu ilə) işlənmiş şəkil və trafaretlərlə xarakterizə olunur. İrəvani həmçinin Azərbaycan rəssamlığında ilk dəzgah əsərlərini yaratmış, İrəvan sərdarı Hüseynqulu xanın sarayının yay zalının divarlarında yağlı boya ilə bir neçə portret çəkmişdir. Onun əsas əsərləri "Gənc oğlan", "Oturmuş qadın", "Abbas Mirzə", "Şah Tələt" portretləridir.

**irqlər** - "ağıllı insan" növünün müasir bəşəriyyətdə təmsil olunmuş bölgüləri. İrqlər mənşə birliyi və müəyyən yayılma sahəsi ilə bağlı olub, ümumi irsi xüsusiyyətlərlə səciyyələnir. İnsan irqlərinin üç əsas qrupu fərqləndirilir: avropoid, neqroid, monqoloid.

**irriqasiya (suvarma) sistemləri** - kanallar, kəhrizlər və s. tikililərin vasitəsilə suyu toplama və paylaşdırma sistemi. İlk suvarma sistemləri Qədim Şərqdə meydana gəlmişdir. Azərbaycanda suvarma sistemləri tunc dövründə yaranmışdır.

**irtica** -1) ictimai tərəqqiyə fəal müqavimət göstərilməsi. İnqilabi-demokraük hərəkatla mübarizədə şantaj, özgə cür fikirləşənlərin təqib edilməsi, əhalinin əsas kütləsinə qarşı terror keçirilməsi şəklində təzahür edir. Aydın ifadə olunan təcavüz xarakteri daşıyır; 2) köhnəlmiş, vaxtı ötmüş ictimai qayda-qanunların saxlanılması üçün qurulmuş siyasi rejim.

**irticaçı** - irtica siyasət, köhnə qaydalara qayıtmaq tərəfdarı; mövcud quruluşu saxlamaq uğrunda mübarizə aparan, bütün yeniliklərə, mütərəqqilərə qarşı çıxan adam; əksinqilabçı.

**İsa** - bax: İisus Xristos.

**İsida** - Qədim Misir dinində ən mühüm ilahələrdən biri. İsida Osirisin bacısı və arvadı, Qorun anası hesab edilirdi. İsida bərəkət, su, külək ilahəsi, qadınlıq rəmzi və ailə sədaqəti ilahəsi, dənizçilik ilahəsi, allahların və insanların müdafiəçisi və ölümdən xilaskarı sayılırdı. İsida inək başlı, yaxud buynuzlu qadın surətində təsvir olunurdu. İsidaya sitayiş Suriya, Kiçik Asiya, Qədim Yunanıstan və Qədim Romada da yayılmışdı. İsidaya sitayiş xristianlığa böyük təsir göstərmişdi. İsidanın qolları arasındakı körpə Qor ilə təsviri xristianlıqda Məryəm ananın təsvirinin yaradılmasına təsir etmişdir.

**İsgəndəriyyə mayakı** - Misir İsgəndəriyyəsi yaxınlığında, Faros adasında yerləşən mayak. İsgəndəriyyə mayakı qədimdə "dünyanın yeddi möcüzəsi"ndən



downloaded from KitabYurdu.org

biri hesab olunurmuş. Mayak gəmilərinin Misir İsgəndəriyyəsi limanlarına təhlükəsiz yanaşmaları məqsədi ilə tikilmişdi. Faros adasını sahillə uzunluğu 750 m olan süni tökülmüş yol birləşdirmişdi. Mayakın inşası tanınmış memar Knidli Sostrata həvalə olunmuşdu. E.ə. 280-ci ildə mayakın tikintisi başa çatdırıldı. İsgəndəriyyə mayakı hündürlüyü 120 m-dək olan, qayalar üzərində salınmış üçmərtəbəli qüllədən ibarət idi. Qüllənin günbəzində dəniz allahı Poseydonun 7 m-lik heykəli qoyulmuşdu. Mayakın günbəzində işığı metal güzgülər sistemi ilə artırılan və güman edildiyinə görə, 50 - 60 km məsafədən dənizçilərin görə bildiyi od yanırdı. İsgəndəriyyə mayakı eyni zamanda içərisində boyük döyüşçü qarnizonu yerləşən qala idi.



**islahat** - mövcud quruluşun əsaslarının saxlanılması şərti ilə ictimai həyatın (təsisatın, qaydaların) hər hansı bir tərəfini dəyişdirmək, yeniləşdirmək.

**islam** - dünyanın bütün ölkələrində davamçıları olan üç dünyəvi dindən biri. Dinin ərəbcə adı - əl-islam "özünü Allaha tabe etmək", "itaət etmək" mənasını verir. Bu dinin davamçıları müsəlman adlanırlar. İslam Ərəbistan yarımadasında cəmiyyətin inkişafının sosial-ideoloji hadisə kimi tarixi nəticəsi idi. Onun meydana gəlməsi dini planda ondan əvvəl mövcud olan dinlərin - zərdüştilik, iudaizm və xristianlığın təsiri və inkişafı ilə, eləcə də ərəb qəbilələrinin dini şüurlarının özünəməxsus tərzdə təkamülü ilə bağlı idi. V - VI əsrlərdə Ərəbistan yarımadasının cənubunda və şimalında mövcud olan qədim dövlətlər dağıldı, bu dövlətlərin iqtisadi həyatının əsası olan tranzit ticarət zəiflədi, ticarət şəhərləri tənəzzülə uğradı. Eyni zamanda, vahələri, səhralar ətrafındakı əkinçiliyə yararlı əraziləri əllərinə keçirən və onları otlaqlara çevirən köçəri bədəvilərin qüdrəti artdı. Bir sıra ərəb torpaqları qonşu dövlətlər - Sasanilər İranı, Bizans imperiyası və Efiopiya tərəfindən zəbt edildi. Tabe etdirilmiş ərəb qəbilələrinin İran və Bizans arasındakı müharibələrdə iştirak etmələri onlara bu əzəmətli imperiyaların zəifliklərini görməyə imkan verdi. Nəsli icmanın dağılması qəbilələr, köçərilər və oturaqlar arasındakı ziddiyyətləri kəskinləşdirdi. Bu, köhnə allahlarının çoxundan ümidini üzən ərəblərin mənəvi axtarışlarına şərait yaratdı. Eyni zamanda, Ərəbistan yarımadasında həmişə aparıcı olan köçərilərin indi oturaqlarla dinc yanaşı yaşamalarını təmin edən bir sıra yeni tipli dövlətlər yaranırdı; köçəri qəbilələrin və şəhər əhalisinin yeni ittifaqları meydana gəlirdi; daxili ticarət əlaqələri güclənirdi, Məkkə və başqaları kimi, yeni ticarət mərkəzləri yüksəliş dövrü keçirirdilər. Ərəbistanda tez-tez baş verən qəbilələrarası müharibələrdə "haram" adlandırılan "qoruq ərazilər"in - sığınacaq hüququna malik olan müqəddəs ziyarətgah və ticarət mərkəzlərinin xüsusi əhəmiyyəti var idi. Qəbilə inancları arasında ümumərəb əhəmiyyətə malik olanları - Allah, al-Lat, al-Üzza və Mənat da var idi. Ərəbistanda iudaizm və xristianlıq da yayılmışdı. Çoxallahlılığı inkar edən və tək olan Allaha inanan, iudaizm və xristianlıqdan xəbərləri olan, lakin onları qəbul etməyən adamlar da var idi və özlərini "həniflər" adlandırırdılar. Ərəb dili və ərəb



downloaded from KitabYurdu.org

özünüdərk elementləri geniş yayılmışdı. Lakin nəsli icmaların dağılması əmlak və sosial bərabərsizliyin daha aydın şəkildə təzahürünə səbəb oldu. İctimai dəyişikliklərin ideoloji cəhətdən əsaslandırılmasına olan ehtiyac Ərəbistanda şəhərləri və qəbilələri xarici düşmənlərə müqavimət göstərə bilmək məqsədi ilə birləşdirməyə cəhd göstərən qüvvələrin formalaşmasına gətirib çıxardı. Onlara öz fəaliyyətlərini "ilahi" vergilərlə əsaslandıran adamlar başçılıq edirdilər. Bu ilahi tək və vahid idi və Rəhman və Allah adlanırdı. Məhəmməd peyğəmbəri yamsılayan yalançı peyğəmbərlər haqqındakı rəvayətlərdə belə peyğəmbərlərin fəaliyyəti haqqında məlumatlar vardır. Məhəmməd peyğəmbər peyğəmbərlik hərəkatının başçılarından idi. Amma Məhəmməd peyğəmbər müstəsna şəxsiyyət olduğundan onun hərəkatı islamın yaranmasını tarixin en mühüm hadisələrindən birinə çevirən orijinal keyfiyyətlərə, mənəvi və siyasi qüvvəyə malik idi. Məhəmməd peyğəmbər bütpərəstlərin, zərdüştilərin, yəhudi və xristianların bildiklərini yenidən bəyan etmiş, təfsir və şərh etmiş, özü də bunu Allahın təkliyi haqqında ideyanın ilk vaxtlarda olduğu kimi bərpası şəklində təqdim etmişdi. Yəhudi və xristianların onun dinini qəbul etməkdən imtina eləmələri islamda ərəb elementlərinin



artmasına səbəb oldu. Tədricən müsəlmanlarda xüsusi ehkam və adətlər, onların dinlərinin başqa dinlərdən fərqlənməsi duyğuları sistemi formalaşdı. İslam Ərəbistanın siyasi, iqtisadi və mədəni cəbətdən birləşməsinin başa çatdırılmasında mühüm amil oldu. Məhəmməd peyğəmbər 30-cu ildə Ərəbistanın böyük hissəsini öz hakimiyyəti altında birləşdirdi və həm dövlətin, həm də bütün müsəlmanların rəhbəri oldu. Məkkə müsəlman dininin mərkəzi, müsəlmanların "müqəddəs şəhər"i oldu. Məhəmməd peyğəmbərin ölümündən sonra ərərblər xəlifələrin başçılığı ilə işğalçı müharibələrə başladılar və möhtəşəm dövlət -Ərəb xilafəti yaratdılar. Xilafətin bütün ərazisində islam bəzi yerlərdə zorla, bəzilərində isə könüllü şəkildə tədricən yayıldı.

Məhəmməd peyğəmbərin vəfatından təxminən otuz il sonra hakimiyyət uğrunda mübarizə müsəlmanları iki əsas dini-siyasi qrupa - sünnilərə və şiələrə parçaladı, bir qədər sonra isə parçalanma daha kiçik qrupların - xaricilərin (xariciyyun – xəvaric), zahirilərin, mötəzililərin, müşəbbihlərin, əşərilərin, cəbrilərin, sifətilərin, nüsəyrilərin, xəttabilərin, həşşaşilərin və b.-nın əmələ gəlməsinə səbəb oldu. Bundan əlavə, dörd sünni - maliki, şafii, hənbəli, hənəfi və bir şiə - cəfəri - məzhəbi də yarandı. X - XI əsrlərin qovuşuğunda xəlifə əl-Qədirin bütün müsəlmanlar üçün ənənəvi islamı dövlət dini səviyyəsində məcburi olaraq qəbul etdirmək cəhdləri sünnilərlə şiələrin arasında ziddiyyətlərin daha da kəskinləşməsinə səbəb oldu. İslamın cərəyanları arasındakı ideya mübarizəsi sonrakı əsrlərdə də davam etmişdir. Qeyri-ərəb xalqları - farslar, türklər, bərbərlər və b. arasında islamın getdikcə daha da geniş yayılması isə onun yekcins



downloaded from KitabYurdu.org

olmadığını bir daha sübut edir. "Rəsmi" islam özündə bir çox xalqların adət və ənənələrini birləşdirən "xalq" islamından getdikcə daha da uzaqlaşdı. İslamın mücərrədliyi onun yeni ideyaları özünə cəlb etməsinə və onlara uyğunlaşmasına, eləcə də dəyişkən dünyada yaşama qabiliyyətli olmasına imkan yaratdı.

XIX əsrin əvvəllərindən XX əsrin ortalarına qədərki illər islamın inkişafında mühüm dönüş dövrü olmuşdur. Şərq ölkələrinin ictimai həyatındakı dəyişikliklər - milli burjuaziyanın yaranması, milli Özünüdərkin və milli-azadlıq hərəkatının güclənməsi cəmiyyətdə islamın roluna olan baxışların dəyişməsinə gətirib çıxardı. İslamın dini-hüquqi normalarının XIX əsrin ortalarından başlanmış və indi də davam edən yeni tarixi şəraitə uyğunlaşması prosesini tarixçilər "müsəlman reformasiyası" adlandırırlar. Müsəlman məhkəmə sistemi və müsəlman hüquq sistemi böyük dəyişikliklərə məruz qaldı - şəriət məhkəmələrinin əhatə dairəsinin tədricən məhdudlaşması prosesi baş verdi. Eyni zamanda, müsəlman hüquq normaları dəqiqləşdirilir, bəzi ölkələrdə şəriətlə nəzərdə tutulmayan cinayət kodeksləri qəbul edilir. Müsəlman ölkələrində sərmayə sahibliyinin (kapitalist işgüzarlığının) genişlənməsi nəinki şəriət qaydalarına yeni düzəlişlər edilməsinə (məs.: sələm faizinin alınması haqqında qadağaya, o cümlədən bank yatırımlarına münasibətdə), hətta bir sıra ənənəvi prinsiplərin (məs.: ticarət əməkdaşlığı prinsiplərindən olan müşarik və kiradın) inkişafına səbəb olmuşdur. İslahatçı-reformatorlar təklif edirdilər ki, Qərbin elmi-texniki nailiyyətlərinə yiyələnmək məqsədi ilə islamı müasirləşdirmək lazımdır, amma ənənəçilər dinin və erkən islamın dəyərlərinin bərpa edilməsi uğrunda mübarizə aparır və hər cür yeniliyin əleyhinə çıxırdılar. Bütün müsəlmanların bərabərliyi haqqında mövcud olan ənənəvi islam qanunu panislamizm ideyasında - bütün müsəlmanların azad edilməsi və vahid islam dövlətinin yaradılmasında formalaşır. Şiələr arasında meydana çıxan dini-siyasi hərəkatlar (məs.: babizm) sektantçı icmaların yaranmasına gətirib çıxarmışdır. Çox hallarda müstəmləkəçilik əleyhinə çıxışlar da onların rəhbərlərinin "məhdi" - "Allahın elçisi" elan olunmaları ilə müşayiət edilirdi. XIX əsrin sonları, xüsusilə də XX əsrin əvvəllərində islamın reformasiyası uğrunda hərəkat geniş vüsət alır. Lakin hərəkat tərəfdarları bir tərəfdən ənənəvi islamçıların, digər tərəfdənsə dünyəvi cəmiyyətin inkişafı tərəfdarlarının ciddi müqavimətlərinə rast gəlirlər. Eyni zamanda, beynəlxalq islam hərəkatı təşəkkül tapır - 1926-cı ildə ilk beynəlxalq müsəlman təşkilatı - Ümumdünya islam konqresi (Mutəmər əl-aləm əl-islami) yaradılır.

XX əsrin ikinci yarısı islamın tarixində keyfiyyətcə yeni bir mərhələdir. Müstəqil müsəlman dövlətlərinin yaranması islam qarşısında yeni problemlər yaratdı. Bu, ilk növbədə azad olmuş dövlətlərin inkişaf yolu seçimi ətrafında başlanmış mübarizədə özünü açıq büruzə verdi. Müsəlman ictimai xadimləri müsəlman dövlətləri üçün yeganə məqbul sayılacaq xüsusi inkişaf yolu tezisini irəli sürürlər. Bu tezis əsasında müasir şəraitdə dünyəvi və dini hakimiyyətin qovuşa biləcəyi, gəlirlərin ədalətlə bölünməsi prinsiplərinin, iqtisadiyyatın şəriət



downloaded from KitabYurdu.org

qaydalarına görə tənzimlənməsi və s.-nin nəzərdə tutulduğu cəmiyyətin təşkilinin ənənəvi islam modelində "islam dövləti" konsepsiyası yaradılır. "İslam dövlət" konsepsiyası hazırda İran, Pakistan və s. dövlətlərdə öz təzahürünü tapmışdır.
Müasir islam davamçılarının sayına görə ikinci (bəzi tədqiqatçıların fikrincə, birinci) dünyəvi dindir. Təxmini hesablamalara görə, 120-dən artıq ölkədə yaşayan dünya müsəlmanlarının ümumi sayı 1 milyard 200 milyon nəfərdən artıqdır (onların 85 - 90%-i sünnidir) və müsəlmanların $^{2/}{}_{3}$ hissəsindən çoxu Asiya ölkələrində, $^{1/}{}_{3}$-nə qədəri Afrikada (qitə əhalisinin təxminən yarısı) yaşayır. Asiya ilə Afrikanın 28 ölkəsində islam rəsmi dövlət dini kimi qəbul edilib. Mütləq sayına görə nisbətən ən böyük müsəlman icmaları İndoneziya, Hindistan, Pakistan və Banqladeşdə yaşayır. Avropada (Bosniya və Herseqovina, Albaniya, Böyük Britaniya, AFR, Fransa və s.), Amerikada (ABŞ, Kanada, Argentina, Braziliya, Qayana, Surinam və s.), eləcə də Avstraliyada xeyli müsəlman yaşayır. Keçmiş SSRİ-nin Orta Asiya respublikalarının hamısında - Qazaxıstanda, Özbəkistanda, Qırğızıstanda, Türkmənistanda və Tacikistanda müsəlmanlar mütləq çoxluq təşkil edirlər. Azərbaycanın əhalisinin çoxu müsəlmandır, özü də Azərbaycanda həm şiələr (burada çoxluq təşkil edirlər), həm də sünnilər təmsil olunurlar.

Bir çox müsəlman ölkələrində müsəlman partiyaları siyasi və ictimai həyatda mühüm rol oynayırlar. Bir sıra ölkələrdə Quranı tədris edən məktəb və mədrəsələr, müsəlman universitetləri fəaliyyət göstərir. İslam bankları və sığorta şirkətləri də mövcuddur. Bəzi müsəlman ölkələrində şəriət məhkəməsi qaydaları bərpa olunmuşdur. XX əsrin 70-ci illərinin sonları - 80-ci illərinin əvvəllərində beynəlxalq məsələlərdə beynəlxalq müsəlman təşkilatları (istər hökumət, istərsə də qeyri-hökumət təşkilatları) müəyyən həlledici rol oynamağa başladılar. Bunlardan daha əhəmiyyətlisi 1969-cu ildə yaradılmış İslam Konfransı Təşkilatıdır (Münəzzəmət əl-mütəmər əl-islami). Müsəlman ölkələri bu təşkilatda dövlət və hökumət başçıları ilə təmsil olunurlar. Azərbaycan Respublikası da İslam Konfransı Təşkilatının üzvüdür. İKT islam həmrəyliyinin həyata keçirilməsinə yönəlmiş fəaliyyətini qərargahı Ciddə şəhərində yerləşən Baş Katiblik və bir sıra ixtisaslaşdırılmış təşkilatlar - İslam İnkişaf Bankı, Təhsil, Elm və Mədəniyyət üzrə İslam Təşkilatı və s. vasitəsilə həyata keçirir.

**İsmayıl I** (1487 - 1524) - Şeyx Heydərin və Uzun Həsənin qızı Aləmşah (Marta) bəyimin oğlu, sərkərdə, Səfəvilər dövlətinin banisi və şahı (1501 - 24), şair. Yeniyetmə Çağlarında Ağqoyunlu padşahı Rüstəm tərəfindən təqib olunan İsmayıl Gilanda gizləndi və burada da qızılbaşlar qoşununu topladı. 1499-cu ilin avqustunda İsmayıl Ərdəbilə qayıtdı və ona sədaqətli olan tayfaları toplamağa başladı. İsmayılın 1500-cü ildə birinci yürüşü şirvanşah Fərrux Yassara qarşı yönəlmişdi. Heç bir müqavimətsiz Şamaxını tutan İsmayıl 1500-cü ilin sonlarında Gülüstan qalası yaxınlığında şirvanşahın qoşunlarını məğlub etdi, Fərrux Yassar döyüşdə həlak oldu. Qızılbaşların qoşunu Bakını mühasirəyə aldılar, lakin onu tuta bilmədilər. İsmayılın özü də Bakıya doğru hərəkət etdi, qala divarları altından



downloaded from KitabYurdu.org

lağım atmağı əmr etdi; divarların bir hissəsi uçdu və qızılbaşlar yaranmış yarıqdan şəhərə soxuldular. Bakı talan edildi, şirvanşahların xəzinəsi İsmayılın əlinə keçdi. Sonra qızılbaşlar Gülüstan qalasında möhkəmlənmiş Şirvan qoşunlarının qalıqlarını mühasirəyə aldılar, amma Ağqoyunlu padşahı Əlvənd Mirzənin ona qarşı hücuma keçdiyini eşidən İsmayıl mühasirədən əl çəkdi və qoşunlarını rəqibi istiqamətinə yeritdi. 1501-ci ilin ortalarında Şərurda baş verən döyüşdə İsmayıl rəqibin üstün qüvvələrini darmadağın edib böyük qənimət ələ keçirdi. 1501-ci ilin payızında İsmayıl Təbrizə daxil oldu və özünü Azərbaycan Səfəvilər dövlətinin şahı elan etdi. 1503-cü il iyunun 21-də Həmədan yaxınlığındakı savaşda I Şah İsmayıl düşmən döyüşçüləri ilə təkbətək döyüşə girib digər Ağqoyunlu padşahı Muradın qoşunlarını darmadağın etdi və Ağqoyunlu dövlətinin varlığına son qoydu. Bu qələbədən sonra I Şah İsmayıl İraq-i Əcəmi, Qum, Kaşan, İsfahan, Yəzd və Kirmanı özünə tabe etdi. 1506-cı ildə qızılbaşlar Urmiya gölü yaxınlığında üsyan etmiş yezidi kürdlərini darmadağın etdilər. I Şah İsmayıl 1508-ci ildə Xorasandan başqa, demək olar ki, bütün İranı, Ermənistanı və İraq-i Ərəbi, habelə Kiçik Asiyada Diyarbəkir, Xilat, Bitlis və Ərciş vilayətlərini özünə tabe etdi. I Şah İsmayılın Kiçik Asiyada vuruşduğu vaxtlarda özbək hakimi Şeybani xan Xorasanı utdu, lakin 1510-cu il sentyabrın 1-də I Şah İsmayıl özbək qoşunlarını darmadağın elədi, Şeybani xanın özü də savaşda həlak oldu. Beləliklə, Xorasan vilayəti də Səfəvilər dövlətinə birləşdirildi. I Şah İsmayılla müharibəyə hazırlaşan Osmanlı sultanı I Səlim Avropa dövlətləri ilə sülh bağladı və Kiçik Asiyada Səfəvilərin davamçıları olan 40 mindən artıq şiəni qətlə yetirdi. 1514-cü ilin yazında sultan I Səlim Azərbaycana yürüşə başladı və Çaldıran çölünədək gəldi. I Şah İsmayılın müşavirləri ona təklif etdilər ki, gecə ikən düşmənə hücum etsinlər ki, osmanlılar malik olduqları top-tüfəng üstünlüklərindən istifadə edə bilməsinlər. Amma I Şah İsmayıl belə cavab verdi: "Mən gecələr tacir karvanına basqın eləyən quldur deyiləm. Qoy Allahın iradəsi necədirsə, elə də olsun!". 1514-cü il avqustun 23-də qanlı Çaldıran savaşında fədakarlıqla vuruşan qızılbaş qoşunları top atəşi ilə doğranıb töküldü. Döyüş meydanında yaralanan I Şah İsmayıl sağ qalmış döyüşçüləri ilə mühasirədən çıxa bildi. Çaldıran döyüşündə məğlubiyyət nəticəsində İsmayıl Kürdüstanın çox hissəsini itirdi. 1516-cı ilin əvvəllərində osmanlılar Koçhisar yaxınlığında yenidən qızılbaşlar üzərində qələbə çaldılar, I Şah İsmayıl Kiçik Asiyadakı torpaqlarını itirdi, Osmanlı qoşunları Azərbaycana daxil oldu. Osmanlılar Xoy, Mərənd və Təbrizi tutdular, lakin az keçməmiş onları tərk etdilər və bir neçə min sənətkarı özləri ilə apardılar.

I Şah İsmayıl təkcə dövlət xadimi və sərkərdə deyil, həm də "Xətai" təxəllüsü ilə Azərbaycan dilində yazıb-yaradan şair idi. Onun qəzəlləri, "Dəhnamə" ("On məktub") adlı epik poeması, "Nəsihətnamə"si xüsusilə geniş yayılmışdır. Xətai ruhən xalq şairi idi; onun şerlərinin çoxu bayatılardan fərqlənmir. Xətainin yaradıcılığı bütün türkdilli poeziyanın inkişafına təsir göstərmişdir. I Şah İsmayılın ölümündən sonra onun oğlu I Təhmasib Səfəvilərin şahı oldu.



downloaded from KitabYurdu.org

**İstanbul** (keçmiş Konstantinopol) -1453-cü ildən 1918-ci ilə qədər Osmanlı



imperiyasının paytaxtı, 1918 - 23-cü illərdə Türkiyənin paytaxtı. Sonralar paytaxt Ankaraya köçürülmüşdür. İstanbul Türkiyənin ən böyük şəhəridir, ölkənin əsas ticarət, sənaye və mədəni mərkəzidir. Əhalisi 11 mln. nəfərə yaxındır. 1973-cü ildə Bosfor boğazı üzərindən İstanbulun Asiya və Avropa hissələrini birləşdirən 1560 m uzunluğunda asma körpü salınmışdır.

**İstanbul müqaviləsi** (1590) - Səfəvilər dövləti ilə Osmanlı imperiyası arasında 1590-cı il martın 21-də İstanbulda bağlanmışdır. Bu müqavilənin şərtlərinə görə, Ermənistan, Gürcüstan və Azərbaycanın çox hissəsi (Qaradağ, Ərdəbil və Talış əyalətləri istisna edilməklə) Türkiyə sultanının hakimiyyəti altına keçirdi. I Şah Abbas Səfəvi Azərbaycanı osmanlılardan yalnız 1607-ci ildə geriyə ala bildi.

**İstanbul müqaviləsi** (1612) - Səfəvilər dövləti ilə Osmanlı imperiyası arasında 1612-ci il oktyabrın 17-də İstanbulda imzalanmışdır. 1612-ci il İstanbul müqaviləsi, demək olar ki, 1555-ci il Amasya müqaviləsinin şərtlərini təsdiq etdi. Həmin müqavilənin şərtlərinə görə, bütün Azərbaycan, Gürcüstan və Ermənistanın böyük hissəsi, eləcə də Kürdüstan Səfəvilərin hakimiyyəti altında qalırdı.

**İstanbul müqaviləsi** (1724) - Osmanlı imperiyası ilə Rusiya imperiyası arasında 1724-cü il iyunun 12-də imzalanmışdır. Bu müqavilə Xəzərsahili vilayətlərin Rusiyaya birləşdirilməsi haqqında 1723-cü il Peterburq müqaviləsinin şərtlərini təsdiq edirdi. Rusiya da öz növbəsində Azərbaycan ərazilərinin qalan hissəsində Osmanlıların hakimiyyətini tanıyırdı. Şirvan daxili məsələlərdə müəyyən muxtariyyət alırdı, lakin Şirvanda nizam-intizamın pozulması hallarında Rusiyanın razılığı ilə Osmanlı qoşunları buraya daxil edilə bilərdi.

**istehsal münasibətləri** - istehsal prosesində formalaşan münasibətlər.

**istehsal təsərrüfatı** - insanın öz varlığını təmin etmək üçün ərzaq istehsal etməsi. Mənimsəmə (istehlak) təsərrüfatından istehsal təsərrüfatına keçid əkinçilik və maldarlığın meydana çıxması ilə, yəni 10 min il əvvəl - neolit dövründə baş vermişdir. Əvvəllər istehsal təsərrüfatı mənimsəmə (istehlak) təsərrüfatı ilə yanaşı mövcud idi.

**istehsal üsulu** - məhsuldar qüvvələrlə istehsal münasibətlərinin məcmusu.

**istehsal vasitələri** - əmək cisimləri və əmək vasitələrinin məcmusu. Torpaq və meşələr də istehsal vasitələrinə aiddir.

**istehsalın təmərküzləşməsi** - iri sənaye müəssisələrinin sayının artması və cəmiyyətdə mövcud olan istehsal vasitələrinin, işçi qüvvəsi və məhsulun əksəriyyətinin onlarda cəmləşməsi. İstehsalın təmərküzləşməsinin şərti kapitalın təmərküzləşməsidir.

**istismar** - istehsal vasitələri olan adamların başqa adamlar tərəfindən həmin vasitələrlə istehsal etdikləri məhsulun bir hissəsini mənimsəmələri.



downloaded from KitabYurdu.org

**istismar olunan** - başqaları tərəfindən işlədilən, istismar edilən adam.

**istismarçı** - başqa adamları istismar edən adam.

**işğal** - hərbi qüvvələr vasitəsilə bir dövlətin və ya dövlətlərin digər dövlətin ərazisini müvəqqəti tutması. İşğal zamanı işğal olunan dövlətin hakimiyyəti praktik olaraq dayandırılır, ərazinin inzibati idarəsi işğalçı qoşunların hərbi komandanlığı tərəfindən həyata keçirilir.

**İşğalçı Vilhelm** - 1035-ci ildən Fransanın şimal-qərbindəki Normandiya vilayətinin hersoqu. 14 oktyabr 1066-cı ildə İngiltərəyə soxulmuş və Hastinqs yaxınlığındakı savaşda İngiltərə kralı II Haroldu məğlubiyyətə uğratmışdır. İngiltərənin ilk Normand kralı (1066 - 87) olmuşdur.

**işsizlik** - obyektiv iqtisadi qanunların təsiri nəticəsində zəhmətkeşlərin bir qisminin işsizliyinə gətirən sosial hadisə. İqtisadi böhranlar zamanı işsizlik kəskin şəkildə artır, zəhmətkeşlərin bir hissəsi işsiz qalır.



**İştar** - şumerlərin, babillilərin və assurların məhəbbət, bərəkət, müharibə və ovçuluq ilahəsi. Finikiyalılardakı Astartaya uyğun gəlir. Venera planeti İştarın mücəssəməsi hesab edilirdi.

**İtil (İdil)** - 1) orta əsr ərəb və fars mənbələrində Volqa çayının adı. Hazırda tatar, başqırd, çuvaş və bir sıra türkdilli xalqlarda İdil adından istifadə olunur; 2) İtil şəhəri (müasir Həştərxanın yaxınlığında) - VIII - X əsrlərdə Xəzər xaqanlığının paytaxtı. İtildə xəzərlər, xarəzmlilər, türklər, slavyanlar, farslar yaşamışlar. Şəhərin əhalisi islama, iudaizmə, xristianlığa etiqad etmiş, aralarında bütpərəstlər də olmuşdur. İtildə 30 məscid, məktəblər, bazarlar olmuşdur. İtil iri karvan ticarəti mərkəzlərindən olmuşdur. İtil 965-ci ildə Kiyev knyazı Svyatoslav tərəfindən tutulub dağıdılmışdı.

**"İttifaq"** - 1905-ci ilin sonunda Bakıda yaranmış təşkilat. Ona Şərifzadə və Cuvarlinski başçılıq edirdilər. "İttifaq" təşkilatının məqsədi azərbaycanlıların ruslar və ermənilər tərəfindən qırğınına qarşı əhalini birləşdirmək idi.

**"İttifaqi-müslimin"** ("Müsəlmanlar ittifaqı") - 1905-ci il avqustun 15-də Nijni Novqorodda keçirilmiş I Ümumrusiya müsəlmanlarının qurultayında "İttifaqi-müslimin" partiyasın yaradılması haqqında qərar qəbul edildi. 1905-ci il 17 oktyabr çar manifestinin bəyan edilməsindən sonra partiyanın yaradılması reallığa çevrildi. Əlimərdanbəy Topçubaşov və Əhməd bəy Ağayev Əbdürrəşid İbrahimovla birlikdə "İttifaqi-müslimin" partiyasının nizamnamə və proqramını hazırladılar. Ümumrusiya müsəlmanlarının 1906-cı il yanvarın 15 - 21-də Peterburqda keçirilən II qurultayında "İttifaqi-müslimin" partiyasının nizamnamə və proqramı müzakirə edilib qəbul olundu. Proqramda bütün türkdilli xalqları müstəmləkəçi Rusiya imperiyasına qarşı mübarizədə "vahid ailə"də birləşdirmək məqsədi irəli sürülürdü. Ümumrusiya müsəlmanlarının 1906-cı il avqustun 16 - 23-də Nijni Novqorodda keçirilən III qurultayında "İttifaqi-müslimin" partiyasının iqamətgahı Bakıda olan Mərkəzi Komitəsi yaradıldı. Bu isə öz növbəsində Rusiya imperiyasının türkdilli xalqlarının ziyalıları arasında Azərbaycan nümayəndələrinin



downloaded from KitabYurdu.org

nüfuzunun yüksəlişinə dəlalət edirdi. Qurultayda imperiyanın türkdilli bölgələrində yeni tipli məktəb yaradılması, icbari ibtidai təhsilə keçilməsi, ana dilində dərs verilməsi, mədrəsələrin yenidən qurulması, Bakıda, Kazanda, Baxçasarayda və s. yerlərdə pedaqoji institutların açılması problemləri müzakirə edildi.

**iudaizm** - təxminən e.ə. XV əsrdə meydana çıxmış qədim monoteist (təkallahlı) dinlərdən biri.

**iudey** - iudaizmin davamçısı. İudaizm əsasən yəhudilər arasında yayılmışdır, lakin yəhudilər kimi, iudaizmin davamçıları da bütün dünyaya yayılmışlar.

**İvan IV Vasilyeviç Qroznı** (1530 - 84) - "bütün Rus"un böyük knyazı (1533-cü ildən), ilk rus çarı (1547-ci ildən). XVI əsrin 40-cı illərinin sonlarından "Seçmə rada"nın köməyi ilə hökmdarlıq etməyə başlamışdır. Onun dövründə Zemstvo yığıncağı çağırılmış, 1550-ci il Sudebniki tərtib edilmişdir. İdarəçilik və məhkəmə islahatları keçirmişdir. 1552-ci ildə Kazan və 1556-cı ildə Həştərxan xanlıqlarını zəbt etmişdir. Çar hakimiyyətini möhkəmləndirmək və dövlətin mərkəzləşdirilməsini gücləndirmək məqsədi ilə 1565-ci ildə opriçnina tətbiq etdi. Onun dövründə Livoniya müharibəsi (1558 - 83) baş vermiş və Rusiya məğlubiyyətə uğramışdır. IV İvan Qroznının zamanında İngiltərə ilə əlaqə yaradılmış (1553), Moskvada ilk mətbəə açılmış, Yermak tərəfindən Sibir xanlığının işğalına başlanılmışdır. IV İvanın daxili siyasəti kütləvi repressiyalarla və kəndlilərin təhkimçiliyinin güclənməsi ilə müşayiət edilirdi.

**iyerarxiya** - hakimiyyətdə aşağı pillələrin yuxarılara ciddi tabeçiliyi qaydası.

**"iyirmi doqquz bəhmən üsyanı"** -1978-ci ilin yanvarında İranın iri dini mərkəzlərindən birində - Qum şəhərində nümayişin dağıdılması zamanı polis silah işlətmişdir. Qum hadisələrinin 40-cı günü - 1978-ci il fevralın 18-də din xadimləri Təbriz əhalisini üsyana qaldırdılar və bu, "29 bəhmən üsyanı" adı ilə tarixə düşdü. Səhər tezdən şəhərin mərkəzinə tərəf hərəkət edən minlərlə təbrizli nümayişi dağıtmağa çalışan polisi qaçmağa məcbur etdi. Hökumət tələsik nizami ordu qüvvələrini nümayişçilərə qarşı göndərdi. Ordu hissələrinin Təbrizə yeridilməsi əhalinin qəzəbinə səbəb oldu. Nümayiş böyüyüb üsyana çevrildi; ziyalılar, tələbələr, ruhanilər, sənətkarlar, xırda tacirlər və sahibkarlar, fəhlələr və məktəb şagirdləri üsyanda iştirak etdilər. Ağac, daş, yandırıcı maddə doldurulmuş butulkalarla silahlanmış üsyançılar silahlı polisə və qoşunlara qarşı çıxış etdilər, sonra isə dövlət müəssisələrini, bankları, mehmanxanaları, kinoteatrları dağıtmağa başladılar. Fevralın 19-da şah İranın digər bölgələrindən Təbrizə əlavə qoşunlar göndərdi və üsyan amansızcasına yatırıldı: 2 minədək adam öldürüldü və yaralandı. Tarixçilərin bəzilərinin fikrincə, məhz "29 bəhmən üsyanı" "islam inqilabı "nın başlanğıcı hesab edilməlidir.

**iyrənc** (mənfur) - özünə qarşı mənfi münasibət oyadan; son dərəcə xoşagəlməz, arzuedilməz, qeyri-məqbul.



downloaded from KitabYurdu.org

**İzirtu** - "çar şəhəri", Mannanın paytaxtı. Alimlərin fikrincə, İzirtu şəhəri və qalası Cənubi Azərbaycandakı müasir Ziviyə şəhərinin yaxınlığında yerləşirmiş. Mannanın paytaxtı İzirtu da digər Manna şəhərləri kimi müdafiə xarakterli qala divarları ilə hasara alınıbmış. Şəhərdə iki və üçmərtəbəli binalar, güman edildiyinə görə, eləcə də məbədlər var imiş. E.ə. 716-cı ildə Assuriya hökmdarı II Sarqon İzirtunu tutub yandırmışdır, lakin tezliklə şəhər bərpa olunmuşdur. E.ə. 650-ci ildə Assuriya hökmdarı Aşşurbanapal yenidən İzirtunu tutub dağıtmışdır.

**İzzəddin Həsənoğlu** - XIII əsrin sonları - XIV əsrin əvvəllərində yaşamış Azərbaycan şairi. İzzəddin Azərbaycan dilində yazmış ilk şairlərdən biri hesab edilir. Əsas əsəri şerlər toplusu olan "Divan"dır.

## -J-

**Jakeriya** - Yüzillik müharibə dövründə -1358-ci ildə Fransanın şimal-şərqində feodal zülmünün güclənməsi, iqtisadi dağıntı nəticəsində baş vermiş antifeodal kəndli üsyanı. Adını feodalların kəndlilərə verdiyi "sadəlövh Jak" ləqəbindən götürmüşdür. Üsyan kortəbii xarakter daşıyırdı və ölkədə üsyan edən bir neçə kəndli dəstəsi var idi. Ən iri dəstələrdən birinin başçısı Gilyom Kal idi. Üsyançılar feodal mükəlləfiyyətləri və təhkimçilik asılılığına qarşı çıxış edirdilər. Üsyan fransız feodallarının gözünü elə qorxutmuşdu ki, hətta məğlubiyyətə uğrayan kəndlilərin şəxsi asılılıqdan tezliklə azad edilmələri üçün imkan yaradıldı.

**Janna d'Ark** (1412 - 31) - Fransa milli qəhrəmanı. Janna Fransanın şimal-şərqindəki Domremi kəndində dindar kəndli ailəsində anadan olmuşdur. 13 yaşı tamam olanda müqəddəslərin səslərini eşitməyə başlamışdı. 18 yaşına çatanda isə o, vətənini ingilislərdən azad etmək üçün bu səsləri yuxarıdan deyilən göstəriş kimi qəbul etməyə haşladı. Onda Janna kral qoşunlarının kapitanı ilə görüşə nail ola və zabiti inandıra bildi ki, onu Fransa kralının oğlunun qəsrinə aparsın. Kralın oğlu Karl taxtı özünə qaytarmaq üçün uğursuz cəhdlər göstərdiyi bir məqamda Janna onun qəsrinə gəlib çıxdı. Karl ingilislər tərəfindən mühasirəyə alınmış Orleana çatmaq üçün Jannaya kiçik bir dəstə ayırdı. Janna ingilislərə qarşı bir neçə uğurlu hücuma başçılıq etdi və nəticədə 1429-cu il mayın 8-də Orlean mühasirədən azad oldu. Bu qələbədən ruhlanan xalq ona "Orlean qızı" ləqəbini verdi. Sonra Janna öz ordusu ilə Reymsi ingilislərdən azad etdi. Karl bundan sonra tac qoyaraq VII Karl adı ilə Fransanın kralı oldu. Tacqoymadan sonra Janna kralı artıq 10 il ingilislərin əlində olan Paris üzərinə hücum etməyə inandıra bildi. Lakin onun uğursuz hücumundan sonra Karl Jannanı Luara vadisinə çağırdı. 6 aylıq bekarçılıqdan sonra Janna kiçik dəstə ilə yenidən Paris üzərinə hücum etdi. 1430-cu il mayın 23-də Janna Kompyen qalası yanında burqundlara hücum edərkən əsir götürüldü. Burqundiyalılar Jannanı ingilislərə satdılar, onlar isə Jannanı özlərinin nəzarət etdikləri Fransa inkvizisiyası və Paris universitetinin ilahiyyatçılarına verdilər. Məhkəmə gənc qızı "islahedilməz bidətçi" kimi məhkum etdi və o, 1431-ci il



downloaded from KitabYurdu.org

mayın 30-da Ruan şəhərində tonqalda yandırıldı. Fransa kralı VII Karl Jannanın xilas edilməsi üçün heç bir tədbirə əl atmadı. 1455-ci ildə kilsə məhkəməsi Jannaya qarşı irəli sürülmüş bütün ittihamları rodd etdi. 1920-ci ildə katolik kilsəsi tərəfindən Janna müqəddəs elan olundu.

**Jijka Yan** (1360 - 1424) - var-yoxdan çıxmış cəngavər, sərkərdə. Qrünvald döyüşünün iştirakçısı. 1420-ci ildən taborçuların getmanı (hərbi başçısı). 1420 - 22-ci illərdə onun başçılığı ilə taborçular 3 səlib yürüşünü dəf etmişdilər. Orduda üzərində səhra topları qoyulan səyyar arabalar (vaqenburqlar) sistemini tətbiq etmişdir. Döyüşlərin birinde Jijka başından yaralanmış və kor olmuşdur, bununla belə, yenə də orduya komandanlıq etmişdir. Döyüşlərdə o, düşməni gözlənilməz üsullar və qərarlarla lərzəyə salan yeni-yeni taktikalar tətbiq edirdi. Jijka döyüş zamanı ən gözlənilməz yerlərdə peyda olurdu. Düşmənləri onu "Dəhşətli kor" adlandırırdılar. Yan Jijka Çexiyanın xalq qəhrəmanıdır.

**jirondistlər** - Böyük Fransa burjua inqilabı dövründə respublikanın ticarət-sənaye və torpaq sahibliyi burjuaziyasını təmsil edən siyasi qrup. "Jirondistlər"ə bu ad sonralar tarixçilər tərəfindən, qrupdakı xadimlərin çoxunun Jironda departamentindən olması ilə əlaqədar verilmişdir. Liderləri J.P.Brisso, P.V.Vernyo, J.A.Kondorse və b. idi. Monarxiyanın devrilməsindən sonra 1792-ci il avqustun 10-da jirondistlər hakimiyyətə gəldilər. Onlar inqilabın sonrakı inkişafına maneçilik törətməyə başladılar. 1793-cü il 31 may - 2 iyun üsyanı jirondistləri hakimiyyətdən məhrum etdi. 1793-cü ilin oktyabrında onların bir qismi edam olundu. Termidor çevrilişindən və Direktoriya hakimiyyətinin yaradılmasından sonra jirondistlər əksinqilabçılara qoşuldular.

## -K-

**kağız** - çinlilər e.ə. I minilliyin sonlarında kağız düzəltməyi öyrənmişdilər. Köhnə kətan və yun əsgiləri, ağac qabığı və cavan bambuq zoğlarını doğrayıb narın toz halına salır və su tökülmüş qabda onu kağız kütləsinə çevrilənə qədər qaynadırdılar. Sonra yarıduru lifli məhlulu düzbucaqlı hovuza tökürdülər. Həmin kütlə içərisinə düzbucaqlı çərçivə salınır və ipək saplardan toxunmuş sıx tor onun üzərinə çəkilirdi. Kağız kütləsinin çərçivə üzərində bərabər səviyyədə yayılmasınadək onu silkələyirdilər. Su axıb gedir, kağız kütləsi isə tor üzərində qalırdı. Nəm vərəqi tordan çrxarıb yastılayır və qurudurdular.

**kahin** - insanların allahlar və ruhlar aləmi ilə ünsiyyətində vasitəçi kimi etiqad olunan din xadimi. Kahin müqəddəs adətlər və qurbanlar haqqında biliklərin daşıyıcısı, ayinlərin icraçısı idi.

**kahinlik** - bütün kahinləri birləşdirən xüsusi ictimai qrup. Qədim və orta əsr dövlətlərində kahinlik, bir qayda olaraq, əhalinin varlı və imtiyazlı qruplarından biri idi.



downloaded from KitabYurdu.org

**kalendar** (lat. "kalendarium", hərfən -"borc dəftəri". Qədim Romada borclular ayın birinci günündə "kalenda" adlanan faiz verdiklərindən bu cür adlanmışdır) - təqvim; təbiətin dövrilik təzahürünə əsaslanan və hərəkət edən səma



cisimlərində, o cümlədən Günəşdə və Ayda daha aydın nəzərə çarpan vaxtı hesablama sistemi. Vaxtın hesablanması sistemi hələ Qədim Şərq ölkələrində yaranmışdı. Əkinçiliyin inkişafı mövsüm üzrə vaxtın hesablanmasını zəruri edirdi. Bununla kahinlər məşğul olurdu. Kənd təsərrüfatı işlərinin başlanğıcını və çaylardakı daşqınları astronomik hadisələrlə uzlaşdırmaq mümkün oldu. Lakin ilin davamiyyətini müəyyənləşdirmək cəhdləri, əsasən də günəş ilinin 365 gün 5 saat 48 dəqiqə 46 saniyəyə, qəməri ayın isə 29 gün 12 saat 44 dəqiqə 3 saniyəyə bərabər olması ucbatından maneələrlə rastlaşdı. İlin, ayın və günün davamiyyətinin bir ölçüyə gəlməməsi qədimlərdə bir çox xalqlarda təqvim sistemlərinin yaranmasına və onlar üzərində islahatlar keçirilməsinə səbəb olmuşdur. Üç növ təqvim mövcuddur: Ay (qəməri), Ay-Günəş və Günəş.

Ay təqvimi - təqvim aylarının davamiyyətini müəyyənləşdirmək yalnız Ayın fazalarının dəyişməsi ilə əlaqələndirilir. Hər ay təzə ayın (hilalın) çıxdığı vaxtdan başlanır və təxminən 29 və ya 30 günə bərabər olub, ildə 354 sutka təşkil edən 12 aya bərabərdir. Ay təqvimi digər təqvim sistemlərindən əvvəl meydana çıxmışdır. Müsəlman təqvimi VII əsrdə birdəfəlik formalaşmışdır. Dövrümüzədək bir sıra müsəlman dövlətlərində saxlanmaqdadır. O, təbiət hadisələrini təxminən 11 sutka qabaqladığından əlverişsizdir. Bu halı islah etmək arzusu Ay-Günəş təqviminin yaradılması ilə nəticələndi.

Ay-Günəş təqvimi həm Ayın fazalarının dəyişməsini, həm də Günəşin il ərzində dövriyyəsini 13-cü ayı əlavə etmək yolu nəzərə alır: 12 il 12 qəməri aydan, 7 il isə 13 günəş ayından ibarətdir. Babilistanda, Qədim Çində, İudeydə, Qədim Yunanıstanda, Qədim Romada istifadə olunmuşdur. Hazırda İsraildə saxlanılmışdır.

Günəş təqvimi Günəşin illik görünən dövriyyəsinə əsaslanır. 12 aylıq Günəş ili 365 $^{1}/_{4}$ sutkaya (sutkanın $^{1}/_{4}$ -i toplanılmaqla 4 ildə bir dəfə tamamlanır - uzun ildə) bərabərdir. Qədim Misirdə, Qədim Romada, Hindistanın və Mərkəzi Amerikanın bir sıra rayonlarında istifadə olunmuşdur. E.ə. I əsrdə Roma imperatoru Yuli Sezarın dövründə xeyli təkmilləşdirilmişdir. Müasir Günəş təqvimində qəbul edilmiş bir sıra ayların adları yulian təqvimindən götürülmüşdür. İndi ayın birinci günündən sonuncu gününədək vaxt hesablanması Qədim Romada e.ə. I əsrdə təşəkkül tapmışdı. Hazırda dünyanın bir çox ölkələrində, o cümlədən Azərbaycanda istifadə olunur.

Bütün təqvim sistemlərində illər hər hansı tarixi və ya əfsanəvi hadisədən - eradan - hesablanır.



downloaded from KitabYurdu.org

**Kalka** - Qara dənizin şimal ətrafında, Donetsk şəhəri rayonunda çay. Cənubi Qafqazı talayan monqol qoşunları Dərbənd keçidindən keçərək qıpçaqların köç etdikləri çöllərə çıxdılar. Qıpçaq xanları yardım üçün rus knyazlarına müraciət etdilər. 1223-cü il mayın 31-də Kalka çayı yaxınlığında qıpçaq və rus qoşunlarının monqol-tatar qoşunları ilə ilk döyüşləri oldu. Monqollar süvari qoşunlarını əlverişli mövqeyə geri çəkməklə rus drujinalarını aldadaraq arxalarınca aparmış və müttəfiqlərin qoşunlarını tam darmadağın etmişlər.

**kalliqrafiya** - bax: xəttatlıq.



**Kalvin Jan** (1509 - 64) - Reformasiya xadimi, kalvinizmin banisi. Mənşəcə fransızdır. Kalvinin əsas əsəri "Xristian dininin öyüdləri"dir. 1541-ci ildə Cenevrənin faktik diktatoru olan Kalvin bu şəhəri Reformasiya mərkəzlərindən birinə çevirmişdir. Başqa dinlərə qarşı ifrat dözümsüzlüyü ilə seçilirdi. Buna görə də Kalvini "Cenevrə papası" adlandırırdılar.

**kalvinizm** - protestantlıqda cərəyan. Əsası Kalvin tərəfindən Reformasiya dövründə qoyulmuşdur. Kalvinizm bir din kimi o dövr burjuaziyasının marağına uyğun gəlirdi. Cenevrədən Fransaya (hugenotlar), Niderlanda, Şotlandiyaya və İngiltərəyə (puritanlar) yayılmışdır. Niderland və İngiltərə burjua inqilabları kalvinizm bayrağı altında baş vermişdir. Kalvinistlər də katoliklər kimi öz düşmənlərini yandırır və təqib edirdilər. O vaxtlar Cenevrəni "protestant Romasr adlandırırdılar.

**kamalçılar inqilabı** -Atatürkün rəhbərliyi ilə 1918 - 23-cü illərdə türk xalqının Antanta müdaxiləçilərinə və sultanlıq istibdadına qarşı antiimperialist mübarizəsi gedişində baş vermiş Türkiyə milli-burjua inqilabı. Kamalçılar inqilabı nəticəsində sultanlıq (1922) və xilafət (1924) ləğv edilmiş, Türkiyə respublika elan olunmuşdu. Kamalçılar inqilabından sonra təslimçilik rejimi, Türkiyədə xarici konsessiyaçıların maliyyə nəzarəti və imtiyazları ləğv edilmişdi.

**kampaniya** - 1) hər hansı təxirəsalınmaz ictimai-siyasi vəzifənin (məs.: seçki kampaniyası) yerinə yetirilməsi üzrə tədbirlər sistemi; 2) müharibə gedişində ara məqsədə (strateji əməliyyatlar və digər hərbi fəaliyyət formaları da daxil olmaqla) nail olunan mərhələ; 3) istehsal işləri dövriyyəsi və ya kompleksi (məs.: əkin kampaniyası).

**Kanna** - İtaliyanın cənub-şərqində kənd. E.ə. 216-cı il avqustun 2-də həmin kəndin yaxınlığında Roma konsulları Terensi Varron və Emili Pavelin sərkərdəlik etdikləri Roma ordusu (80 min piyada və 6 minədək süvari) ilə Hannibalın sərkərdəlik etdiyi Karfagen ordusu (40 min piyada və 10 minədək süvari) arasında 2-ci Pun müharibəsinin ən iri döyüşü baş vermişdir. Roma piyadaları karfagenlilərin mərkəz hissəsinə hücum edərək onları sıxışdırdılar. Lakin Karfagen süvariləri cinahlarda Roma süvarilərini darmadağın etdikdən sonra karfagenlilərin seçmə piyadaları cinahlardan Roma piyadalarını mühasirəyə alıb, demək olar ki, tamamilə məhv etdilər. Vuruşmanın 12 saatı ərzində romalılardan 48 min nəfər



downloaded from KitabYurdu.org

öldürüldü, 10 min əsir alındı, karfagenlilərin itkisi isə 5700 nəfər oldu. Kanna yaxınlığındakı döyüş hərb sənətinin çox parlaq nümunəsidir.

**kanon** - insanın hər hansı fəaliyyət sahəsi üzrə, o cümlədən mədəniyyət, memarlıq, ədəbiyyat, din üzrə məcburi olan mühüm qayda və ya normalar toplusu.

**kanopa** - Qədim Misirdə mumiya hazırlanan zaman ölünün içərisindən çıxarılmış içalatını saxlamaq üçün qab.

**Kanossa** - Şimali İtaliyada qəsr. 1077-ci ilin yanvarında kilsədən qovulmuş və taxtdan salınmış "Müqəddəs Roma imperiyası"nın imperatoru IV Henrix bu qəsrdə Roma papası VII Qriqoridən onu əfv etməsi üçün məzlumcasına xahiş etmişdir. Məcazi mənada - "alçaldıcı güzəştlərə getmək məcburiyyətində qalmaq".

**kansler** - Avstriya, Almaniya və Böyük Britaniyada yüksək vəzifəli şəxslərdən biri.

**kapital** - ilkin başlanğıcda gəlir gətirən istənilən əmlak. Əmtəə istehsalının müəyyən mərhələsində meydana gəlir.

**kapital ixracı** - inhisarlar və dövlət vasitəsilə ya işgüzarlıq formasında (fabrik, zavod və s. inşası), ya da gəlir götürmək məqsədi ilə, eləcə də siyasi məqsədlərlə kapital ssudası şəklində çıxarılır.

**kapitalizm** - bəşər cəmiyyətinin inkişafında istehsal vasitələri üzərində xüsusi mülkiyyətə və muzdlu əməyin istismarına əsaslanan mərhələ.

**Kapitoli** - 1) Tibr çayı yaxınlığında, Roma şəhərinin salındığı yeddi təpəlikdən biri. Qaçmış qullar üçün sığınacaq Kapitolidə yerləşirdi. Təpələrdən



birinin üzərində qala, digərinkində isə Kapitoli məbədi inşa olunmuşdur. Romada respublika dövründə qalada Yunona, Konkordiya məbədləri, sikkəxana və dövlət arxivinin binası tikilibmiş. Qələbə çalmış Roma qoşunlarının zəfər yürüşü Kapitolidə başa çatar, Roma oyunlarının bayram şənlikləri başlayarmış. Roma Kapitolisi Roma imperiyasının digər şəhərlərində də bu cür Kapitolilərin inşası üçün nümunə olmuşdur. Orta əsrlərin əvvəllərində Kapitoli tikililəri dağıdılmışdır. XVI -XVII əsrlərdə Kapitoli Mikelancelonun layihəsi üzrə yenidən qurulmuşdur. Burada saray, yanında isə məşhur heykəllər toplusu olan Kapitoli muzeyinin binası inşa olunmuşdur; 2) Vaşinqtonda ABŞ konqresinin iclaslarını keçirdiyi bina. Kapitolinin inşasına 1793-cü ildə prezident Corc Vaşinqtonun dövründə başlanılmışdır. 1814-cü ildə İngiltərə - Amerika müharibəsi zamanı ingilislər tikilməkdə olan binanı yandırdılar. Binanın tikintisi XIX əsrin ikinci yarısında davam etdirilib başa çatdırılmışdır. Amerika ştatlarının mərkəzlərində qanunverici orqanların iclaslarının keçirildiyi binalar da "Kapitoli" adlanır.

**kapitulyasiya** - bax: təslim, təslim olma. karavella (ital. "yüngül yelkənli gəmi") – üç-dörd dor ağacı olan yelkənli, birgöyərtəli, hündürbortlu, ön hissəsində və arxa tərəfində əlavə quraşdırmaları olan, XIII -XVII əsrlərdə Aralıq dənizi



downloaded from KitabYurdu.org

hövzəsində geniş yayılmış dəniz gəmisi. Kolumb və Vasko da Qamanın ekspedisiyaları karavellalarla həyata keçirilmişdir.

**kardinal** (lat. "əsas", "başçı") - katolik kilsəsində Roma papasından sonra gələn və yepiskopdan bir pillə yüksək olan ruhani. Papa tərəfindən təyin edilir və onun müşaviri və köməkçisi hesab olunur.

**Karfagen** - e.ə. 825-ci ildə Tir şəhərindən çıxmış finikiyalıların Afrikanın Aralıq dənizi sahilində saldıqları koloniya. Əlverişli coğrafi şəraitinə görə Karfagen Aralıq dənizində iri ticarət limanına çevrildi. E.ə. VIII - VII əsrlərdə Karfagen də artıq Aralıq dənizi sahillərində öz koloniyalarını salırdı. Karfagendə hakimiyyət aristokratiyanın əlində idi. E.ə. V əsrin ortalarında Karfagen dövləti Şimali Afrikanı, Qərbi Siciliyanı, Tartessi (Cənubi İspaniya) və Sardiniya adasını əhatə edirdi. Karfagenin güclü donanması və muzdlu ordusu var idi. Siciliya Aralıq



dənizində ağalıq üstündə Karfagenlə Roma arasında 1-ci Pun müharibəsinin əsas obyekti oldu. Məğlubiyyətə uğrayan Karfagen Siciliyadan imtina etməli və Romaya xeyli təzminat ödəməli olmuşdur. Sonra Karfagenlilər İspaniyanın böyük hissəsini istila etdilər və bu, 2-ci Pun müharibəsinin "aşlanmasına səbəb oldu. Bu müharibənin Hannibalın başçılıq etdiyi karfagenlilər üçün uğurla başlanmasına baxmayaraq, onlar məğlubiyyətə uğradılar. Bu dəfə Karfagen Roma ilə hərbi donanmasını və döyüş fillərini ona vermək, eləcə də çox böyük təzminat ödəmək və Afrikadan kənarda bütün torpaqlarından əl çəkmək şərti ilə, habelə Romanın razılığı olmadan müharibə aparmaq hüququnu itirməklə sülh müqaviləsi imzalamağa məcbur oldu. Lakin hökmdar Masinissanın başçılığı ilə numidiyalıların Karfagenə hücumu zamanı bu şərt pozulmuşdu. Ona görə də Karfagenin iqtisadi qüdrətinin yüksəlişindən təşvişə düşən romalılar bundan 3-cü Pun müharibəsinə başlamaq üçün bir bəhanə kimi istifadə etdilər. Həmin müharibənin nəticəsində Karfagen tamamilə dağıdıldı, əhalisi qul edilib satıldı, yaratdıqları mədəniyyət isə, demək olar ki, izsiz-soraqsız məhv oldu. Lakin Roma imperatorları Sezar və Oktavian Karfageni yenidən inşa etdilər. Sonralar Karfagen xristianlığın mərkəzlərindən birinə çevrildi. 439-cu ildə vandalların kralı Heyzerix Karfageni tutub Vandal krallığının paytaxtı etdi. VI əsrin ortalarında Karfageni Bizans imperiyası vandalların əlindən aldı. 697-ci ildə Karfagen ərəblər tərəfindən dağıdıldı. XIX əsrin ortalarından bu günədək Karfagen ərazisində arxeoloji qazıntılar aparılır. İndi Karfagen Tunisin ərazisində yerləşir.

**"Karib böhranı"** (1962) - ABŞ-ın Kubaya qarşı təhlükəsi və bununla əlaqədar SSRİ-nin Kubada nüvə başlıqlı raket yerləşdirməsi üzündən yaranmış beynəlxalq böhran. SSRİ və ABS rəhbərlərinin birbaşa ünsiyyətləri sayəsində "Karib böhranı" və Üçüncü Dünya müharibəsi təhlükəsi aradan qaldırıldı. SSRİ Kubadan öz raketlərini çıxardı, ABŞ isə adanın dəniz blokadasını açdı və Kuba üzərinə hücum etməmək haqqında öhdəlik götürdü.



downloaded from KitabYurdu.org

**kartel** - eyni istehsal sahəsindən olan bir neçə müəssisəni birləşdirən primitiv inhisar forması. Kartel üzvləri satış qiyməti, satış bazarının bölüşdürülməsi haqqında sazişlər bağlayırlar. Kartelə daxil olan kapitalistlər istehsal vasitələrinə olan mülkiyyətlərini saxlayır, kommersiya sərbəstliyindən istifadə edirlər.

**Kartli** - Şərqi Gürcüstanda tarixi vilayət. Antik və Bizans mənbələrində İberiya adlanırdı.

**karvansara** - Yaxın Şərq, Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrində yol



üstündə yerləşən gecələmə, dincəlmə və ticarət sarayı. Karvansaralar üçün yerli hakimiyyət məsuliyyət daşıyırdı və onlar yaxşı möhkəmləndirilirdilər. Ticarət karvanları burada durur, dincəlir, ehtiyatlarını tutur, gedəcəkləri yerlər və yollar haqqında məlumat toplayır və səyahətlərini davam etdirmək üçün hazırlıq görürdülər. Adətən karvansaralar şəhərdən kənarda, bəzən də şəhərlərdə yerləşirdi. Səhralarda karvansaralar vahələrdə olurdu.

**kaspilər** - hələ qədimdən kaspi tayfaları Azərbaycan ərazisində məskunlaşmışdılar. Kaspilər Xəzər dənizinin cənub-qərb sahillərindən Qafqaz dağlarınadək ərazilərdə yaşayırdılar. Kaspilərin məskunlaşdıqları ərazilər Kaspiana (sonralar - Paytakaran) adlanırdı. Strabonun bildirdiyinə görə, Xəzər dənizi və Qafqaz dağlarının adı kaspi tayfalarının adından götürülmüşdür. Azərbaycan tarixçilərinin fikrincə, Kazbek dağının və Qəzvin şəhərinin adları da kaspi tayfasının adından əmələ gəlmişdir. Antik müəlliflər xəbər verirlər ki, kaspilərin üzüm tənəkləri "bol məhsul verir". Onlar bildirirlər ki, "Kaspi torpağında çoxlu öküz və at sürüləri var və bunlar saysızdır... Kaspi keçiləri çox ağdır, buynuzları yoxdur, boyları bala-cadır və yastıburundurlar. Burada çoxlu dəvə var və onların ən iriləri ən böyük at boyda olur və qəşəng yunludurlar. Onların yunu çox zərifdir... Kahinlər, ən varlı və ən tanınmış kaspilər ondan tikilmiş don geyirlər". Xəzər dənizində "...itiburun (yəqin ki, nərə balığı) adlanan böyük balıqlar var. Kaspilər onları tutur, duzlayır və qurudurlar". Kaspilər balığın piyi və içalatından müxtəlif mazlar, eləcə də "fil sümüyü ustalarının gözəl əşyalar düzəldərkən istifadə elədikləri" yapışqan hazırlayırdılar. Kaspilər dəvələrə yük vurub Ekbatanaya "duzlu və qurudulmuş balıq" aparırdılar. Kaspilər Xəzər dənizi və qədimlərdə bol sulu olan Kür çayı ilə aparılan ticarətdə də iştirak edirdilər. Kaspianadan keçən quru - dəniz ticarət yolu Hindistan, Mərkəzi Asiya və Avropa ölkələri arasında ticarəti təmin edirdi. Əhəmənilər dövləti zamanı kaspilər onun iki dairəsində - XI və XV dairələrdə məskun idilər. Əhəməni hökmdarları kaspiləri hərbi qulluğa cəlb edirdilər. E.ə. 480-ci ildə kaspilər Əhəməni hökmdarı Kserksin Yunanıstana yürüşündə iştirak etmişlər. Herodot kaspilərin skiflərinkinə bənzər paltar və silahlarını təsvir edir: "Kaspilər yundan hazırlanmış xiton geyirdilər, qamışdan düzəldilmiş öz oxları və akinakları (qısa skif xəncərləri) var idi". Herodot xəbər



downloaded from KitabYurdu.org

verir ki, kaspilər at üstündə vuruşurdular. Kaspilər Əhəmənilərin muzdlu döyüşçüləri kimi uzaq Misirdə və Frakiyada (müasir Rumıniya ərazisi) qulluq edirdilər. Kaspilər həm də mahir dənizçi və gəmi inşaatçıları idilər. Kaspilər gəmi ustaları kimi Memfisdə (Misir) Əhəmənilərin cəbbəxanasında hərbi gəmilərin inşasında iştirak edirdilər. Kaspilərin dəfn adətləri də maraqlıdır və bu barədə Strabon bildirir ki, onlar "...yaşı 70-i keçmiş adamları ac saxlayaraq öldürür və onların meyitlərini səhralara atırlar; sonra kənardan baxıb müşahidə edirlər: əgər quşlar meyitləri xərəklərdən çəkib salırlarsa, ölənləri bəxtəvər hesab edirlər; əgər vəhşi heyvanlar və itlər dartıb salırlarsa, onda az bəxtəvər hesab edirlər; meyitlərə toxunulmadıqda isə onu bədbəxt hesab edirlər". Strabon məlumat verir ki, bu adət skif mənşəlidir, hərçənd Midiyanın maq tayfalarında və zərdüştilikdə də belə adətlər qeydə alınıb. Əhəmənilər dövləti Makedoniyalı İsgəndərin zərbələri altında dağılanda isə kaspilər əvvəlcə Atropatenanın tərkibinə daxil oldular, sonra onların məskunlaşdıqları Kaspiana vilayəti qısa müddət ərzində atropatenalılardan ermənilərə keçdi. E.ə. I əsrdə Kaspiana Qqfqaz Albaniyasının tərkibinə daxil oldu və ərəb işğalına qədər orada qaldı.

**kassitlər** - Cənubi Azərbaycanda və Luristanda məskunlaşmış qədim maldar tayfaları. Kassitlər özlərini "kaşşu" adlandırırmışlar. Mənbələrdə kassitlərin adı ilk dəfə e.ə. XXIII əsrdə çəkilir. Mənbələrdə kassitlərin məskunlaşdığı ərazi



"Kaşşen" adlanır. Bir sıra Azərbaycan tarixçiləri hesab edirlər ki, antik müəlliflərin kaspiləri kassitlərlə qohumdurlar. E.ə. II minilliyin ikinci rübündə kassitlər atdan nəqliyyat vasitəsi kimi istifadə etməyə başlayır və bundan sonra Babilistana yürüşlərə başlayırlar. Bu dövrdə kassitlər kifayət qədər böyük qüvvə idilər və qoşunlarının əsasını cəng arabaları təşkil edirdi. Cəng arabaları və atlar əvvəllər də məlum idi, lakin kassitlər cəng arabalarını və atların öyrədilməsini xeyli təkmilləşdirdilər və ilk dəfə olaraq cəng arabalı döyüş taktikasını tətbiq etdilər. Təxminən e.ə. 1750-ci ildə kassitlər başçıları Qandeşin rəhbərliyi ilə Babilistana soxuldular və onun bir hissəsini tutub burada Karduniaş adlı dövlət yaratdılar. E.ə. 1595-ci ildə onlar Babili tutdular və kassitlərin hökmdar sülaləsini yaratdılar. Kassitlər Babilistanda torpaq payları aldılar və imtiyazlı hərbi silk yaratdılar. Onlar hətta kassit sülaləsinin Babilistandakı 500 illik hakimiyyətinin devrilməsindən sonra da öz mövqelərini qoruyub saxlaya bildilər. E.ə. 1204-cü ildə Babilistandan sıxışdırılan kassitlər geriyə - Cənubi Azərbaycan dağlarına qayıtdılar. Kassitlərdə sənətkarlıq, xüsusilə də tuncdan əşyalar və əmək alətləri düzəltmək yüksək səviyyəyə çatmışdı. Bəzi alimlərin fikrincə, tuncun mühüm tərkib hissələrindən biri olan qalayın - "kassiteros"un adı kassit tayfasının adından götürülmüşdür. Kassitlərin mədəniyyəti "Luristan tuncu " adlandırılan arxeoloji mədəniyyətdə öz əksini tapmışdır.



downloaded from KitabYurdu.org

**kasta** - qədim və orta əsrlər Hindistanında hüquq və vəzifələri çox ciddi müəyyənləşdirilmiş qapalı insan qrupu. Kastaya mənsubiyyət irsi idi. Qədim Hindistanda dörd kasta var idi: brahmanlar, kşatrilər (döyüşçülər), vayşya (tacirlər, sənətkarlar, kəndlilər) və şudralar (nökərlər). Hindlilər hesab edirdilər ki, hər kasta Brahmanın əzasının bir hissəsindən yaradılıb. Brahmanlar və kşatrilər ali kasta sayılırdılar. Qədim Hindistanda çarlar kşatri kastasına mənsub idilər. Dörd kastadan əlavə, heç bir kastaya daxil olmayan azad adam qrupları da var idi. Bu qruplardan başlıcası toxunulmazlar və çandallar - brahman qadınla şudr kişinin övladları idi. Ümumiyyətlə, adam hesab edilməyən qullar da heç bir kastaya daxil deyildilər.

**katakomba qəbirləri** - quyuda ölü üçün ayrıca dəfn kamerası (katakomba) qazılmış kurqan qəbirləri. Katakomba qəbirləri Şimali Qara dəniz sahilləri və Cənubi Qafqazda (o cümlədən Azərbaycan ərazisində) tunc dövründə geniş yayılmışdı.

**Katalaun çölü** - Fransanın şimal-şərqində düzənlik, çöl. 451-ci il iyunun ikinci yarısında burada məşhur "xalqlar döyüşü" baş vermiş, nəticədə Aetiusun (Aetsinin) sərkərdəlik etdiyi Roma qoşunları və onların müvəqqəti müttəfiqləri - vestqotlar, burqundlar, franklar, alanlar və b. Attilanın başçılıq etdiyi hunların və onların tabeliyində olan tayfaların - ostqotların, gepidlərin və b.-nın qoşunları ilə vuruşmuşlar. Bu savaşda 130 mindən artıq adam həlak olmuşdu. Avropa tarixçiləri hesab edirlər ki, Attila və hunlar bu savaşda məğlubiyyətə uğrayıblar. Türk tarixçiləri isə savaşda Attilanın qələbə çaldığını bildirirlər. Güman etmək olar ki, həmin savaşda tərəflərdən heç biri digərinə həlledici zərbə endirə bilməyib. Lakin bu faktı da nəzərə almaq lazımdır ki, Katalaun çölündəki savaşdan az sonra hunlarla Roma arasında imzalanan müqavilədə Attila faktik olaraq onu qane edən şərtləri romalılara diktə etmişdir.

**katolik kilsəsi** (tərcüməsi - "ümumdünya kilsasi") - 1054-cü ildə parçalanmadan sonra mərkəzi Roma olan kilsə belə adlanmağa başladı. Parçalanmaya səbəb Bizans patriarxının Roma papasına tabe olmaqdan imtina etməsi olmuşdur. Xristian kilsəsi 1054-cü ildən iki qola - katolik və pravoslav qollarına parçalanmışdır.

**katolikos** - orta əsrlərdə erməni (363-cü ildən), gürcü (475-ci ildən) və alban (552-ci ildən) kilsələri başçılarının titulu. Alban kilsəsinin erməni kilsəsi tərkibinə daxil edilməsindən sonra Cənubi Qafqazda yalnız erməni və gürcü katolikosları qalmışlar. Malabar (Hindistan) monofizit kilsəsinin və xaricdəki erməni katolik kilsəsinin (iqamətgahı Beyrutdadır) başçıları da katolikos titulunu daşıyır.

**Kaşlık** - Sibir xanlığının İrtış çayı sahilində yerləşən paytaxtı. Kaşlıkın əhalisi ticarət, sənətkarlıq, balıqçılıq, əkinçilik və maldarlıqla məşğul olurdu. Kaşlıkın ətrafında xanın və qohumlarının bir neçə möhkəmləndirilmiş iqamətgahı



downloaded from KitabYurdu.org

var idi. 1582-ci ildə Kaşlık Yermakın dəstələri tərəfindən tutulub qarət edilmişdir. Bundan sonra şəhər boşalmışdır.

**Kaştariti** (mid. Xşasrita) - Midiyanın ilk hökmdarı. Herodot onu Fraort adlandırır. Kaştariti əvvəllər Assuriyanın tabeliyindəki Maday əyalətində yerləşən Kar-Kaşşi "məskəninin başçısı" idi. E.ə. 672-ci ilə yaxın o, assurlara qarşı üsyana başçılıq etdi. Kaştariti assurlara qarşı skiflər, mannalılar və kimmerlərlə ittifaq bağlaya bildi. Assurları Midiya əyalətlərindən qovduqdan sonra burada Midiya şahlığı yarandı. Midiyalılara başçılıq edən Kaştariti Assuriyanın sərhədlərinədək irəlilədi. Assuriya hökmdarı ona, eləcə də təklikdə digər müttəfiqlərə sülh danışıqlarına başlamağı təklif etdi. Lakin öz qələbəsinə inanan Kaştariti danışıqlara getməkdən imtina etdi. Amma Partatuanın başçılığı ilə skiflərin assurların tərəfinə keçməsi sonuncuları məğlubiyyətdən xilas etdi.

**kauri** - Hind okeanı və Sakit okeanın qərb hissəsində yaşayan xırda molyusk. Onun bərk, ala-bəzək və şəffaf çanağı hələ ta qədimlərdən Asiya, Afrika, Sakit okean adaları və Avropa xalqları tərəfindən bəzək əşyası kimi yüksək qiymətləndirilir və "balıqqulağı pulları" kimi də istifadə olunurdu.

**Kavaler** - 1) hərfən - "süvari"; 2) ordenlə təltif olunmuş şəxs.

**"kavalerlər"** - İngiltərədə vətəndaş müharibəsi illərində kralın tərəfində vuruşan süvari zadəganları "kavalerlər" adlandırırdılar. Buna görə də İngiltərə kralının ordusunu da "kavalerlər ordusu" adlandırırdılar.

**kayzer** - "Müqəddəs Roma imperiyası" (962 - 1805) və Almaniya imperiyası (1871 - 1918) imperatorlarının titulu.

**kazak** (türk. "gəzəki" sözündən olub, "dəliqanlı, qoçaq, sərbəst, azad adam" deməkdir) - 1) məhdud mənada - XIV - XVII əsrlərdə muzdlu işçi, geniş mənada - öz ictimai mühiti ilə əlaqələrini kəsmiş adam; 2) Rusiyada XV əsrin sonlarından Rusiya dövlətinin ucqarlarında yaşayan azad adamları "kazak" adlandırmağa başladılar.

**kazaklar** - XIV - XVII əsrlərdə gəzəki, azad, sərbəst adamlar. Onlar muzdla işləyir və sərhəd rayonlarında hərbi xidmət edirdilər. XV - XVI əsrlərdə Rusiya sərhədlərindən kənarda və Polşa-Litva dövlətində - Dnepr, Don, Volqa, Ural, Terek üzərində "azad" adlandırılan, başlıca olaraq qaçqın kəndlilərdən ibarət kazakların özünüidarədən icmaları meydana gəlir. Kazaklar tez-tez kəndli üsyanları və kəndli müharibələrində iştirak edirdilər. Rusiyanın çar hökuməti kazaklardan sərhədləri qorumaqda, müharibələrdə və s.-də istifadə etməyə çalışırdı və XVIII əsrdə kazakları imtiyazlı hərbi zümrəyə, mütləqiyyətin dayağına çevirdi. 1920-ci ildə bir zümrə kimi ləğv edildi.

**Kazan xanlığı** - Qızıl Ordanın süqutundan sonra Orta Volqaboyunda yaranmış müsəlman dövləti (1438 - 1552). Paytaxtı - Kazan. Əhalisi - Volqa bulqarları, mari, çuvaş, başqırd və udmurtların, eləcə də mordvalıların bir hissəsinin törəmələri olan Kazan tatarlarıdır. 1487 - 1521-ci illərdə Kazan xanlığı Moskva knyazlığından, 1524-cü ildən isə Osmanlı imperiyasından vassal



downloaded from KitabYurdu.org

asılılığında idi. Bundan sonra Kazan xanlarının rus torpaqlarına yürüşləri xüsusilə çoxaldı. 1545-ci ildə rus qoşunları əvvəlcə kazanlıların yürüşlərinin qarşısını almaq məqsədi ilə, sonra isə xanlığı tutmaq məqsədilə Kazan xanlığı üzərinə yürüşlər təşkil etməyə başladılar. Rus qoşunlarının 1547 - 48 və 1549 -50-ci illərdəki işğalçı yürüşləri nəticəsiz qalmışdı. Lakin 1552-ci ildə İvan Qroznının və knyaz Kurbskinin başçılığı ilə edilmiş yürüş həmin il oktyabrın 2-də Kazanın hücumla alınması ilə nəticələndi. Kazan tatarlarına kömək etmək üçün Krım xanı Dövlət Gərayın qoşunları rusların ərazilərinə soxulmağa çalışdılar, lakin onların qarşısı əvvəlcədən cənuba aparılmış qoşunlar tərəfindən alındı. Kazan xanlığı ləğv edildi və onun ərazisi Moskva knyazlığına birləşdirildi.

**Kazım** bəy Mirzə Məhəmmədəli Hacı Qasım oğlu (Aleksandr Qasımoviç Kazım bəy; 1802 - 70) - görkəmli Azərbaycan şərqşünası. Rəştdə ruhani ailəsində



anadan olmuşdur. Atası Həştərxana sürgün edilmiş, növbəti ildə isə gənc Mirzə Məhəmmədəli buraya gəlmişdir. Həştərxanda təbliğat aparan şotlandiyalı missionerlərin təsiri altına düşən Mirzə Məhəmmədəli 1823-cü ildə Kazan universitetində müəllimliyə başlayır və az sonra professor seçilir, kafedra müdiri və fakültə dekanı vəzifələrində çalışır. Kazım bəy ingilis, fransız və alman dillərini sərbəst bilirdi. Kazım bəy 1845-ci ildə Peterburq universitetinə keçmiş və 1853-cü ildə Şərq dilləri fakültəsinin açılmasına nail olmuş, özü isə həmin fakültənin dekanı olmuşdur. Kazım bəyin qələmindən 100-dən artıq elmi əsər çıxmışdır. O, Şərq ölkələrinin tarixi, fəlsəfəsi və hüququ üzrə yazdığı əsərləri ilə daha çox tanınmışdı. Kazım bəy Qafqaz, Krım, İran və Mərkəzi Asiya tarixi, eləcə də islam, türk və İran dilləri tarixi üzrə əsərlər yazmışdır. Əsas əsərləri: "Türk-tatar dilinin ümumi qrammatikası", "Müridizm və Şamil", "Dərbəndnamə", "Firdovsinin əsərində fars mifologiyası", "Bab və babilər", "1844 - 52-ci illərdə İranda dini-siyasi qiyam", "Müxtəsər qanunvericilik". Kazım bəyin əsərlərinin çoxu ingilis, fransız, alman və başqa dillərə tərcümə olunmuşdur. Elm sahəsindəki xidmətlərinə görə Kazım bəy Peterburq universitetinin fəxri doktoru, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, Böyük Britaniya və İrlandiya Kral Cəmiyyətinin üzvü, Kopenhagen Kral Cəmiyyətinin üzvü və s. seçilmişdir.

**keltlər** - qədimlərdə Şimali İtaliya, Qalliya, İspaniya, Britaniya və İrlandiyada məskunlaşan çoxsaylı tayfalar. Yunanlar onları "keltlər", romalılar - "qallar", sonralar Kiçik Asiyaya soxulmuş keltləri isə "qalatlar" adlandırmışlar. Kelt tayfaları nəsli icma ilə yaşayırdılar. Romanın Şimali İtaliyanı, Qalliyanı və İspaniyanı tutmasından sonra bu vilayətlərin kelt əhalisi romalı köçkünlərlə qaynayıb-qarışaraq müvafiq olaraq qall-Roma və qall-ispan xalqlarını əmələ gətirmişlər. Romalılar tərəfindən tutulmuş Britaniyada isə Romanın təsiri zəif olmuşdur.

**Kennedi** Con Fitscerald (1917 - 63) - Demokratlar partiyasından ABŞ-ın 35-ci prezidenti (1961 - 63). İkinci Dünya müharibəsi illərində donanma zabiti



downloaded from KitabYurdu.org

(1941 - 45), 1947 - 61-ci illərdə - konqresmen. Prezident kimi sosial-iqtisadi islahatlar proqramı irəli sürmüşdür. Hərbi blokların və ABŞ-ın silahlı qüvvələrinin möhkəmləndirilməsinə çağırırdı. Bununla yanaşı, SSRİ ilə daha realist münasibətlər kursu yürütməyə meylli idi ki, bu da ABŞ-ın son dərəcə mürtəce qüvvələrinin ona qarşı hücumlara keçməsinə səbəb oldu. 1963-cü il noyabrın 22-də Kennedi Dallas şəhərində qətlə yetirildi.

**kenotaf** - boş qəbirdən ibarət olan dəfnetmə abidəsi. Qədimlərdə bir çox xalqlar tərəfindən, xüsusən də bu və ya digər səbəbdən mərhumun meyidini (külünü) dəfn etmək mümkün olmadıqda kenotaf qazılırdı. Bu adət qəbri olmayan ölülərin ruhunun sakitlik tapa bilməməsi ehtimalından yaranmışdı.

**kentavrlar** - yunan mifologiyasında vəhşi varlıqlar, yarıadam-yarıatlar, Dionisin dağlarda və meşə cəngəlliklərində yaşayan dostları. Kentavrlar coşqun, çılğın və dözümsüz xasiyyətləri ilə fərqlənirlər. Kentavrlar da ölürlər.

**keramika** (yun. "keramos" - "gil") - bişmiş gildən düzəldilmiş məmulat. Əvvəllər dulusçu və rəssamların Qədim Afinada yaşadığı məhəllənin adı.

**Kerefto** - Atropatenadakı Kerefto dağlarında (müasir İranın Qərbi Azərbaycan və Kürdüstan ostanları arasındakı ərazi) yerləşən qaya məbəd tikilisi. Məbədin indiki girişi qayanın ətəyindən 9 m yüksəklikdədir. Məbədin qayada yonulmuş otaqları bir-biri ilə əlaqəlidir və iki mərtəbədə yerləşir. Məbədin girişi tavanları lağvan suvanmış bir neçə otaqdan ibarət olan birinci mərtəbəyə aparır. Alt mərtəbə üst mərtəbəylə dəhliz vasitəsilə birləşib. Üst mərtəbə də dəhlizdən və bir neçə otaqdan ibarətdir, birincisinin üzərində yunan dilində belə yazı var: "Herakl burada məskundur, pis şey olmaz". Bu otaq da növbəti otaq kimi içəridən ağır cəftə ilə bağlanıb. Otağın yazılı pəncərələri salamat qalmışdır. Məbədin otaqlarının birində su quyusu vardır. Azərbaycan tarixçisi İqrar Əliyev Kerefto məbədinin tarixini e.ə. IV əsrin sonları - III əsrin əvvəllərinə, yəni Atropatena dövlətinin yaranması dövrünə aid edir.

**Kerzon** Corc Nataniel (1859 - 1925) - markiz, Hindistanın vitse-kralı (1899 - 1905), Böyük Britaniyanın xarici işlər naziri (1919 - 24), mühafizəkar. Sovet Rusiyasına qarşı müdaxilənin təşkilatçılarından bıri. Kerzonun planına əsasən, Dağlıq Qarabağ və Zəngəzur ADR-in tərkib hissəsi hesab edilirdi, Naxçıvan isə Ermənistana verilməli idi. Kerzon planının mahiyyəti ondan ibarət idi ki, Azərbaycanla Türkiyə arasında xristian erməni dövləti yaradılsın. 1920-ci ü yanvarın 11 -də Böyük Britaniyanın xarici işlər naziri lord Kerzonun təqdimatı ilə Paris sülh konfransının Ali Soveti ADR-in müstəqilliyini de-fakto tanımaq haqqında qərar qəbul etdi. Konfrans 1920-ci il Polşa - Rusiya müharibəsi zamanı Qırmızı Ordunun "Kerzon xətti" adlandırılan zolaqda hücumu dayandırmasını tələb edirdi. 1923-cü ildə sovet diplomatik nümayəndələrini İran və Əfqanıstandan geri çağırmaq, ingilis kəşfiyyatçılarına qarşı tətbiq olunmuş repressiya tədbirlərinə görə sovet hökuməti tərəfindən kompensasiya ödənilməsi və s. barədə İngiltərə hökuməti adından tərtib etdiyi ultimatumu SSRİ hökumətinə göndərmişdir. İkinci



downloaded from KitabYurdu.org

Dünya müharibəsi qurtardıqdan sonra "Kerzon xətti" sərhədlər haqqında 1945-ci il SSRİ - Polşa müqaviləsinin əsasını təşkil etmişdir.

**"Kerzon xətti"** - Antantanın Ali Şurası tərəfindən Polşanın şərq sərhədləri kimi təklif olunan şərti xəttin adı. Adını 1920-ci ilin iyulunda olmuş Polşa - Sovet müharibəsi zamanı Qırmızı Ordunun bu xətt üzrə hücumunun dayandırılmasını tələb edən Kerzonun adından götürmüşdür. "Kerzon xətti" Polşanın xeyrinə bəzi dəyişikliklər edilməklə sərhədlər haqqında 1945-ci il 16 avqust tarixli SSRİ - Polşa müqaviləsinin əsasını təşkil etmişdir.

**keşikçi qalaları** (Abşeron) - XIII - XIV əsrlərdə Abşeron yarımadasında - Mərdəkanda (memar Əbdül Məcid ibn Məsud), Ramana və Nardaranda (memar Mahmud ibn Səd) inşa edilmiş keşikçi qala-qüllələri.

**Kəbə** (ər. "əl-Kəbə" - "kub") - islamın Məkkədə daşdan tikilmiş kubşəkilli baş ziyarətgahı. Məbədin hündürlüyü 15 m, uzunluğu - 12 m, eni isə 10 m-dir. Bina örtülü sütunlarla əhatələnmiş həyətin ortasında yerləşir. Binanın şərq küncünə



Allahın Yerə - insanlara göndərdiyi əzəmət rəmzi və Kəbənin əsas sitayiş obyekti olan gümüş kəmər taxılmış "qara daş" yerləşdirilib (meteorit mənşəli olması ehtimal edilir). “Qara daş”ın, demək olar ki, qarşı tərəfində Zəmzəm quyusu var. İslam qəbul olunana qədər Kəbə bütpərəstlərin ziyarətgahı idi. Rəvayətə görə, əvvəllər Kəbədə allah Hübəlin - Məkkənin himayədarının bütü var imiş, onun ətrafında isə müxtəlif ərəb tayfaları tərəfindən sitayiş edilən 360 büt qoyulubmuş. İslam dini tərəfindən Kəbənin müqəddəsliyi qəbul olundu, Məhəmməd peyğəmbər isə onu qiblə elan etdi. Əvvəllər müsəlmanlar üzlərini Qüdsə (Yerusəlimə) tutub ibadət edərmişlər (namaz qılarmışlar), Kəbənin qiblə elan olunmasından sonra isə bütün müsəlmanlar ibadət zamanı üzlərini ona tərəf tuturlar. 630-cu ildə Məkkənin müsəlmanlar tərəfindən fəth edilməsindən sonra bütlər məhv edildi və Kəbə yalnız müsəlmanlar üçün həcc ziyarətgahına çevrildi. Kəbə bütün dünya müsəlmanlarının mühüm mərkəzi və birlik rəmzi kimi qalmaqdadır.

**kəndxuda** - Şərq ölkələrində kənd başçısı, rəhbəri.

**Kəndli icmaları haqqında 1865-ci il fərmanı** - çar Rusiyası hökumətinin fərmanı. Fərmana əsasən Azərbaycan bəyləri kənddə inzibati-məhkəmə işlərindən uzaqlaşdırılırdı. Burada kəndxuda və mollaların başçılıq etdikləri kəndli idarələri yaradılırdı. Ayrı-ayrı kəndlər kəndxuda köməkçisi tərəfindən idarə olunurdu. Kəndlilərin toplantıları kənd məmurlarını seçmək, kəndli icmasından çıxarmaq, qəyyum təyin etmək, icma torpaqları haqqında sərəncam vermək, vergiləri bölüşdürmək ixtiyarına malik idi. Mühüm məsələlərin həlli üçün icma üzvlərinin ən azı $^{2}/_{3}$-nin iştirakı vacib idi. Kəndli toplantılarının qərarları çar məmurları tərəfindən ləğv edilə bilərdi. Cüzi sərbəstliyə meyl etmək üstündə kəndli toplantıları kəndxuda seçmək hüququndan məhrum olunurdu və belə hallarda onlar hakimiyyət tərəfindən təyin edilirdilər.



downloaded from KitabYurdu.org

**"Kəndli əsasnamələri"** (1847) - bəy və ağaların hüquqları haqqında 1846-cı il fərmanına əlavə olaraq 1847-ci il aprelin 20-si və dekabrın 28-də "Kəndli əsasnamələri" adlanan sənəd bəyan edildi; bunlardan birincisi bəy kəndlilərinə, ikincisi isə Qazax, Şəmşəddil və Borçalı ağalarının kəndlilərinə aid idi. "Kəndli əsasnamələri" nəinki təkcə çoxsaylı mükəlləfiyyətləri qanuniləşdirmiş, eyni zamanda, həm də kəndlinin feodaldan şəxsi asılılığını daha da dərinləşdirmişdir. "Əsasnamələr"ə görə, torpaq sahibləri kəndlilər üzərində polis və məhkəmə hüquqları qazanırdılar. Hərçənd kəndlilər bir təsərrüfatdan başqasına keçmək hüququ alırdılar, əslində isə bir sıra məhdudlaşdırmalar ucbatından onlar faktik olaraq bu hüquqdan istifadə edə bilmirdilər.

**Kəngərli Bəhruz** (1892 - 1922) - Azərbaycan rəssamı, 300-dən artıq rəsm və karikatura yaratmışdır. Əsas əsərləri "İlanlı dağ", "Yatmış uşaqlar", "Aylı gecə", "Yamxana kəndinə gedən yol", "Şəlalə", "Çinarlar" rəsmləridir.

**Kərbəla** - İraqda şəhər. Şiə müsəlmanların ziyarət etdikləri müqəddəs şəhər. Kərbəla Məhəmməd peyğəmbərin nəvəsi, xəlifə Əlinin oğlu Hüseynin 680-ci ildə xəlifə Yəzidin qoşunları ilə vuruşduğu yerdə yaranmışdır. Bu savaşda şəhid edilmiş Hüseynin sərdabəsi Kərbəlada yerləşir.

**Kəsranilər** - şirvanşahlar sülaləsi (1027 - 1382). Şirvanda Məzyədilər sülaləsini əvəz etmişdir. Kəsranilər sülaləsini Dərbəndilər sülaləsi əvəz etmişdir.

**Kəşmir** - tarixi Cammu və Kəşmir vilayəti Himalay və Tibetin yüksək dağlıqlarında yerləşmişdir. Kəşmirdə əhalisinin ümumi sayı 5 milyona yaxın olan 20-yə qədər xalq və tayfa məskunlaşmışdır. Kəşmir əhalisinin təxminən $^{3}/_{4}$-ü müsəlmandır. 1846-cı ildə ingilislər Kəşmiri Cammu knyazlığının racasına satmışlar. 1947-ci ildə Hindistan və Pakistanın yaradılmasından sonra bu ölkələrin hər ikisi Kəşmiri öz ərazilərinə birləşdirməyə çalışırdı. 1947-ci ildə Pakistan qoşunları Kəşmirin qərb və şimal-qərb hissələrini tutdular, Hindistan isə Kəşmirin qalan hissəsini özünə birləşdirdi. Dövrümüzədək Kəşmir məsələsi Hindistan və Pakistan münasibətlərində gərginlik mənbəyi olaraq qalır.

**Kəhriz** - Azərbaycanın dağ və dağətəyi rayonlarında, İran və Mərkəzi Asiyanın digər ölkələrində yer altındakı suların toplanması və onların suvarma məqsədi ilə yerin üstünə çıxarılması üçün inşa edilən yeraltı kanallar sistemi. Kəhrizin yeraltı kanalları bir-biri ilə şaquli quyular vasitəsilə birləşdirilirdi.

**Kiaksar** (mid. Xuvaxştra) - Midiya hökmdarı (e.ə. 625 - 585), Midiya hökmdarı Kaştaritinin (Fraortanın) oğlu. Kiaksar hərbi islahat keçirmiş, qəbilə qoşunu əvəzinə qoşun növlərinə görə bölünmüş (nizəçilər, oxçular, süvarilər) daimi ordu yaratmışdır. E.ə. 624-cü ildə Kiaksar Midiyanı skiflərin asılılığından xilas etmişdi. Herodot məlumat verir ki, Kiaksar skiflərin başçılarını ziyafətə dəvət etmiş və qonaqlıq zamanı hamısını qırmışdır. Kiaksar Babilistan hökmdarı Nabopalassar ilə Assuriyaya qarşı saziş bağlamışdır. E.ə. 614-cü ildə Midiya qoşunları Nineviyanı mühasirəyə alsalar da, onu tuta bilməmişdilər, amma Aşşur şəhərini tutub darmadağın etmişdilər. Aşşurun tutulmasından sonra Nabopalassarın



downloaded from KitabYurdu.org

başçılıq etdiyi Babilistan qoşunları gəlib çıxmışdı. Midiyalılar və babilistanlılar Aşşurun xarabalıqları üzərində ittifaqlarını sülalə kəbini ilə möhkəmlətmişdilər - Kiaksar qızı Amitidanı Nabopalassarın oğlu Navuxodonosora ərə vermişdi. E.ə. 612-ci ildə Midiya qoşunları Kiaksarın başçılığı və Nabopalassar başda olmaqla Babilistan qoşunları ilə birlikdə hücumla Nineviya şəhərini tutub yandırmışlar. Müttəfiqlər Assuriyanın keçmiş ərazilərini aralarında bölüşdürmüşlər. Sonra Kiaksar Xəzər dənizindən şərqdə və cənub-şərqdə yerləşən Hirkaniya və Parfiyanı, habelə Pars, Elam, Manna, Urartu və Kappadokiyanı (Kiçik Asiyanın bir hissəsini) ələ keçirmişdi. Midiyalılar Skif çarlığını (Azərbaycan ərazisində) tutduqdan sonra Kiçik Asiyada yerləşən Lidiya dövləti ilə müharibəyə başladılar. Midiya - Lidiya müharibəsi (e.ə. 590 - 585) tərəflərin vaxtaşırı üstünlüyü ilə davam edirdi. E.ə. 585-ci il mayın 28-də Qalis çayı sahilindəki həlledici döyüşə hazırlıq ərəfəsində günəş tutulması baş verdi və bu, hər iki tərəfdən pis əlamət kimi qəbul edildi. Ona görə də Qalis (indiki Qızıl İrmaq) çayını Midiya ilə Lidiya arasında sərhəd kimi nəzərdə tutan sülh müqaviləsi bağlandı. Kiaksarın ölümündən sonra onun oğlu Astiaq Midiya hökmdarı oldu.

**Kiçik Asiya** - Qara dəniz, Mərmərə, Egey və Aralıq dənizlərinin əhatə etdikləri yarımada. Avropadan Bosfor və Dardanel boğazları ilə ayrılır. Avropa və Asiyanın qovşağında yerləşən Kiçik Asiya bütün tarix boyu onların arasında ticarət və mədəni əlaqələrin inkişafında mühüm rol oynamışdır.

**Kilsə** - 1) bu və ya digər dinin davamçılarını birləşdirən dini təşkilat; 2) xristian dini ayinlərinin icra olunduğu bina.

**kimmerlər** - tayfa; e.ə. VIII əsrdə Qara dənizin şimal sahillərində məskunlaşmışdılar. Oradan skiflər tərəfindən qovulan kimmerlər Cənubi Qafqazın qərb hissələrinə, sonra isə Kiçik Asiyaya müdaxilə etmiş və burada yerli əhali ilə qarışmışlar.

**Kinq** Martin Lüter (1929 - 68) - baptist pastoru, ABŞ-ın zənci əhalisinin vətəndaşlıq hüquqları uğrunda mübarizənin rəhbərlərindən biri. Kinq bu mübarizədə qeyri-zorakı və dinc üsullardan istifadə olunmasını təklif edirdi. Kinq ABŞ-ın Vyetnama təcavüzünə qarşı çıxış edirdi. 1964-cü ildə Nobel sülh mükafatını almışdı. 1968-ci ildə irqçilər tərəfindən qətlə yetirilmişdir.

**kiril əlifbası** - IX əsrdə Bizans rahibi Kiril (əsl adı Konstantin) tərəfindən yunan əlifbası əsasında bir neçə hərfin artırılması ilə yaradılmış ilk slavyan əlifbası. Kiril qardaşı Mefodi ilə birlikdə bir neçə kilsə kitabını yunan dilindən slavyan dilinə tərcümə etmişdi. Kiril əlifbası cənub, şərq və çox güman ki, həm də qərb slavyanları arasında yayılmışdır. 1708-ci ildə kiril əlifbası üzərində islahat aparılmışdır. Rus əlifbası kiril əlifbası əsasında yaradılmışdır. 1940-cı ildə Azərbaycan SSR-də Azərbaycan əlifbası latın qrafikasından kiril əlifbasına keçirildi. 1991-ci il dekabrın 25-də Azərbaycan Respublikasının Milli Məclisi latın qrafikası əsasında Azərbaycan əlifbasının bərpa olunması haqqında qanun qəbul etdi.



downloaded from KitabYurdu.org

**Kirmanşah müqaviləsi** (1732) - Osmanlı imperiyası ilə Səfəvilər dövləti arasında 1732-ci il yanvarın 16-da Kirmanşah şəhərində bağlanmış müqavilə. Kirmanşah müqaviləsinin şərtlərinə görə, Azərbaycanın İrəvan, Gəncə, Şamaxı və Şirvan vilayətləri Osmanlıların tabeliyinə keçirdi, onlar isə öz növbəsində Həmədan, Kirmanşah, Ərdəbil və Təbrizi Səfəvilərə qaytarırdılar. Araz çayı Osmanlı imperiyası ilə Səfəvilər dövləti arasında sərhəd olurdu.



**Kitab çapı** - yığma üsulu ilə kitabın çap olunması. İlk kitab çapı təcrübəsi ü Çində 1041 - 48-ci illərdə Bi Şen tərəfindən həyata keçirilmişdir. Avropada kitab çapına 1445-ci ildə Qutenberq tərəfindən başlanılmışdır. 1814-cü ildə çap maşınının yaradılması müasir poliqrafiyanın əsasını qoymuşdur.

**"Kitabi-Dədə Qorqud"** - türk oğuz xalqlarının ilk epos abidələrindən biri. Ozanlar tərəfindən VII - X əsrlərdə yayılmışdır. Eposun yazılısı və ədəbi şəkildə işlənməsi X - XI əsrlərə aiddir. "Kitabi-Dədə Qorqud" eposu dil baxımından tarixən oğuzlarla bağlı olan azərbaycanlıların, türkmənlərin və türklərin keçmişi ilə bağlıdır, "Kitabi-Dədə Qorqud" onların tarixi keçmişinin bədii təsviridir. "Kitabi-Dədə Qorqud" müqəddimədən və bu və ya digər bahadırın qəhrəmanlığından bəhs edən, müstəqil və bitkin süjetli 12 oğuznamədən (boydan) ibarətdir. Bu boyların tərtibçisi Dədə Qorqud sayılır. Oğuz eposunun bahadırları başda birinci bahadır Qazan bəy olmaqla oğuz xanlarının xam Bayandırın ətrafında birləşirlər. "Kitabi-Dədə Qorqud" boylarında təsvir olunan hadisələr və coğrafi adlardan aydın olur ki, yuxanda qeyd edilənlər Cənubi Qafqazda və Kiçik Asiyadakı oğuz tayfaları arasında baş vermişdir. "Kitabi-Dədə Qorqud" türk oğuz tayfalarının tarixi, onların məişəti və ictimai münasibətləri, xalq inancları və adətləri haqqında məlumatlara malikdir və elə buna görə də oğuz tayfalarının tarixi üzrə çox dəyərli salnamə və mənbədir.



**Kiyev Rus dövləti** - Şərqi Avropada şərqi slavyan tayfaları əsasında təşəkkül tapmış erkən feodal dövləti (IX əsr - XII əsrin əvvəlləri). Paytaxtı - Kiyev. Təxminən 862-ci ildə başda konunq (knyaz) Rürik olmaqla varyaqlar Novqorod şəhərinə dəvət olunmuşdular. Kiyev knyazları, sonra isə rus çarları mənşəcə Rürikdən törədiklərini bəyan edərək özlərini "Rürikoviçlər" (Rürikoğulları, Rürikin nəslindən olanlar) adlandırırdılar. Təqribən 878-ci ildə Novqoroddan çıxan varyaq knyazı Oleq Kiyevi tutdu və onu tarixdə Kiyev Rus dövləti adlandırılan varyaq dövlətinin paytaxtı etdi. 907 və 911-ci illərdə Oleq Bizans imperiyasına yürüşlər etdi. Tabeliyində olan slavyan tayfalarının xəracını artırdığına görə knyaz İqor 945-ci ildə drevlyan tayfası tərəfindən öldürüldü. Bundan sonra İqorun arvadı knyaginya Olqa xərac norması müəyyənləşdirdi. Knyaz Svyatoslav geniş işğalçılıq siyasəti yeritdi - Volqa Bulqariyasını məğlubiyyətə uğratdı, Xəzər xaqanlığını darmadağın etdi və bundan sonra Bizans imperiyasına qarşı müharibəyə başladı.



downloaded from KitabYurdu.org

972-ci ildə Bizans səfərindən qayıdarkən Svyatoslavın qoşunları peçeneqlər tərəfindən qırıldı, Svyatoslav özü isə öldürüldü. Knyaz Vladimir (980 - 1015) varyaqların əksər hissəsini Bizansa göndərdi, Kiyev Rus dövlətinin cənub sərhədlərində qalalardan ibarət müdafiə sistemi yaratdı, 988-ci ildə xristianlığı qəbul etdi. Knyaz Vladimirin dövründə Kiyev Rus dövləti Avropanın ən iri dövlətlərindən birinə çevrildi. Knyaz Yaroslav Mudrının zamanında (1019 - 54) peçeneqlərə ağır zərbə endirildi (1036) və bundan sonra onların Kiyev Rus dövləti üzərinə yürüşlərinə son qoyuldu, kilsə və monastır inşasına başlanıldı, maariflənməyə daha çox fikir verildi. 1072-ci ildə "Russkaya pravda" adlı knyaz qanunu tərtib olundu. Qanuna görə, kəndlilərin qeyri-bərabər hüququ qanuniləşdirildi və kəndlilərin torpağa təhkim edilməsinə başlanıldı. İstismarın güclənməsi ilə bağlı Kiyevdə dəfələrlə şəhərlilərin üsyanı olmuşdur. Knyazların 1097-ci ildə keçirdikləri Lyübeç qurultayı feodal pərakəndəliyinin əsasını qoydu. Knyaz Vladimir Monomax (1113 - 25) şəhər əhalisinin vəziyyətini yüngülləşdirdi, rus knyazlarını qıpçaqlarla mübarizə aparmaq üçün birləşdirdi və onlara ağır zərbə endirə bildi. 1132-ci ildə Kiyev Rus dövləti qəti olaraq xeyli knyazlığa parçalandı.

**klan** - qəbilə, qan qohumlarının, güman edilən nəsil banisinin törəmələrinin iri qrupu.

**klassisizm** - XVII əsr - XIX əsrin əvvəlində Avropada ədəbiyyat və incəsənətdə İntibah ənənələrinin davamı kimi antik dövr irsinə müraciət edən üslub. Klassisizm XVII əsrdə Fransada təşəkkül tapmışdır. XVIII əsrdə klassisizm maarifçiliklə əlaqəli idi və vətəndaşlıq ideallarını və burjua inqilabçılığı meyllərini ifadə edirdi. Bu dövrdə onun ciddi normalar və müəyyən estetik qanunlara tabe olan əsas prinsipləri müəyyənləşir. Ədəbiyyatda klassisizm P.Kornel, J.Rasin, Volter, Molyer, N.Bualo, J.Lafonten, F.Laroşfuko və b.-nın (Fransa), İ.V.Göte və F.Şiller (Almaniya), M.V.Lomonosov və F.Q.Volkov və İ.A.Dmitriyevskinin (Rusiya) yaradıcılığında; arxitekturada - J.Arduen-Mansar, J.A.Qabriel, K.N.Ledu (Fransa), K.Ren (İngiltərə), K.İ.Rossi, M.F.Kazakov, A.N.Voronixin və b.-nın (Rusiya) yaradıcılığında; boyakarlıqda - N.Pussen, J.L.David, D.Enqrin (Fransa) yaradıcılığında; heykəltəraşlıqda - J.B.Piqal, E.M.Falkone (Fransa), İ.Q.Şadov (Almaniya), B.Torvaldsen (Danimarka), A.Kanov (İtaliya) və İ.P.Martosun (Rusiya) yaradıcılığında əks olunmuşdur. XIX əsrin ortalarında klassisizm ölgün akademizmə çevrildi.

**Kleopatra VII** (e.ə. 69 - 30) - Misirin Ptolemeylər sülaləsindən olan sonuncu hökmdar. Qardaşı və eyni zamanda onun əri Ptolemeylə birlikdə e.ə. 51-ci ildən Misirin müştərək hökmdarı. E.ə. 48-ci ildə hakimiyyətdən uzaqlaşdırılmış və Suriyaya göndərilmişdi. Roma imperatoru Yuli Sezarın köməkliyi ilə yenidən hakimiyyətə gətirilmişdi. E.ə. 47-ci ildə Sezarion adlı oğlu olmuş və növbəti ildə onunla birgə Sezarı Romaya müşayiət etmişdir. Sezarın öldürülməsindən sonra Misirə qayıtmışdır. E.ə. 41-ci ildə Antoni ilə tanış olmuş və ondan əkiz uşağı dünyaya gəlmişdir. E.ə. 37-ci ildə Antoni Misirin romalılar tərəfindən tutulmuş



downloaded from KitabYurdu.org

əyalətlərini gələcəkdə göstərəcəyi yardımı əvəzinə Kleopatraya qaytarmışdır. E.ə. 34-cü ildə Antoni və Kleopatra Makedoniyalı İsgəndərin imperiyasını oğlanları arasında böldüklərini elan etdilər. E.ə. 31-ci ildə Antoni və Kleopatranın birləşmiş donanması Aksi burnu yaxınlığında Oktavianın donanması tərəfindən məğlub edildi. E.ə. 30-cu ildə romalılar Misirə daxil olarkən Kleopatra özünü öldürdü.

**klerikalizm** - ictimai-siyasi və mədəni həyatda dinin və kilsənin birincilik rolunu bərqərar etməyə çalışan siyasi cərəyan.

**klerikallar** - 1) kilsə ağalığı və ya onun nüfuzunun artırılması tərəfdarları; 2) klerikal siyasi partiyanın üzvləri.

**Klio** - qədim yunan mifologiyasında doqquz muzadan biri - tarixin himayəçisi. Vəcdə gəlmiş, dərin düşüncəli cavan qadın simasında, lülə halında bükülmüş papirus və ya perqamentlə, əlində lövhə ilə təsvir olunurdu.

**Klondayk** - Kanadanın şimal-qərbində Klondayk çayı hövzəsində qızıl yatağı rayonu. 1897-ci ildə aşkar edilmişdir, XX əsrin əvvəllərində "qızıl hərisliyi"nə səbəb olmuşdur.

**knyaz** - ilk vaxtlar seçkili tayfa başçısı, tayfa ağsaqqalı, erkən orta əsrlərdə - slavyanlarda və bir sıra digər xalqlarda monarxiya dövlətinin başçısı, sonralar - titul.

**knyazlıq** - knyazın tabeliyində olan dövlət qurumu və ya ərazi adı. Müasir dövlətlərdən Lixtenşteyn, Monako və Andorrada knyazlıq üsulu mövcuddur.

**koalisiya** - dövlətlərin, siyasi partiyaların və ya ictimai təşkilatların ümumi siyasi, hərbi, iqtisadi məqsədlərə çatmaq üçün birliyi, ittifaqı, sazişi.

**Kokand xanlığı** - Mərkəzi Asiyada dövlət (1710 - 1876). Buxara xanlığından ayrılmışdır. XIX əsrin 60-cı illərindən Rusiyanın ekspansiya obyektinə çevrilmişdir. 1876-cı ildə Rusiya imperiyasının tərkibinə daxil edilmişdir.

**koqorta** - Qədim Romada 500 nəfərdən ibarət qoşun hissəsi. 10 koqorta bir legionu təşkil edirdi.

**Kolxida** - Qərbi Gürcüstandakı Eqrisi tarixi vilayətinin kolx tayfasının adından götürülmüş yunanca adı. Əfsanəvi yunan arqonavtları qızılyunlu qoç dərisini gətirmək üçün Kolxidaya getmişlər. Kolxida çarlığı e.ə. VI əsrdə meydana gəlmiş, bu dövrdən də gümüş pulun - "kolxidka"ların kəsilməsinə başlanılmışdır. Kolxida e.ə. VI əsrin sonlarından e.ə. IV əsrin axırlarınadək Əhəmənilər dövlətinin tərkibində olmuşdur. Bundan sonra Kolxida çarlığı bütün Gürcüstan torpaqlarını öz hakimiyyəti altında birləşdirməyə cəhd göstərdi, amma özü e.ə. II əsrin sonlarında Pont çarlığı, e.ə. I əsrdə isə Roma tərəfindən zəbt olundu.

**Kolizey** (lat. "kolosseus" - "əzəmətli", "çox böyük") - eramızın 75-ci ilində Romada inşa edilmiş əzəmətli Flavi amfiteatrının orta əsrlərdəki adı. Kolizey ellipsvarı formaya malik olmuşdur. Tamaşaçılar üçün 4 mərtəbəli oturacaq yerləri inşa edilmişdi və burada 50 min nəfərədək seyrçi eyni vaxtda otura bilərdi. Kolizeyin səhnəsində qladiator döyüşləri keçirilirdi. Dəniz döyüşlərini göstərmək üçün səhnəyə su doldurmaq da mümkün idi. Orta əsrlərdə və İntibah dövründə



downloaded from KitabYurdu.org

Kolizeydən daş karxanası kimi istifadə etmişlər. Kolizeyin bayır divarının və daxili konstruksiyasının bir hissəsi dövrümüzədək qalmışdır.

**kollaborasionistlər** - 1) 1939 - 45-ci illərdə Hitler Almaniyası tərəfindən işğal olunmuş ölkələrdə faşistlərlə əməkdaşlıq edən adamlar; 2) düşmənlə əməkdaşlıq etmiş satqınlar, vətən xainləri.

**kolleksiya** (lat. "toplu") - elmi, tarixi, bədii və ya digər maraq kəsb edən yekcins əşyaların sistemli şəkildə toplanılması. Tarix elmi üçün sənədli materialların kolleksiyası daha əhəmiyyətlidir.

**kollektivləşmə** - bolşeviklərin SSRİ kənd təsərrüfatında apardıqları ikinci (sənayeləşmədən sonra) iri iqtisadi islahat. Bu islahatın mahiyyəti təsərrüfatda çoxukladlılığın ləğv edilməsi və xırda kəndli təsərrüfatlarının zorakılıqla ümumiləşdirilmiş kollektiv təsərrüfatlarda (kolxozlarda) birləşdirilməsindən ibarət idi.

**kolonializm** - bax: müstəmləkəçilik.

**koloniya** - 1) qədimdə - adətən boş yerlərdə və ya əhalinin hər hansı bir şəhər və ya ölkədən kütləvi şəkildə başqa yerə köçməsi (köçürülməsi) nəticəsində salınmış məskən. Adətən koloniya metropoliyadan asılı olur, bəzənsə müstəqil şəhərə çevrilirdi; 2) orta əsrlərdə və yeni dövrdə Avropanın güclü, inkişaf etmiş dövlətləri tərəfindən tutulmuş və öz müstəqilliklərini itirmiş ölkələri və əraziləri belə adlandırırdılar.

**koloniyaçılar** - müxtəlif ölkələrdən çıxmış, məskunlaşmaq və təsərrüfatla məşğul olmaq məqsədi ilə digər ölkələrdə və ya dünyanın başqa yerlərində öz yaşayış yerlərini yaradan şəxslər; köçkünlər. Böyük coğrafi kəşflər dövründən koloniyaçıların fəaliyyəti yerli aborigen əhaliyə qarşı münasibətdə zorakılıqla müşayiət olunmuşdur.

**koloniyalaşdırma** - bax: məskunlaşdırma.

**kolonlar** - Roma imperiyasında torpaq icarədarları. Artıq eramızın II əsrində Romada əmək məhsuldarlığının səmərəsizliyi ucbatından qul əməyi öz əhəmiyyətini itirmişdi. Sahibkarlar torpaqlarını xırda sahələrə bölüb kəndlilərə icarəyə verməyə başladılar. Bu cür icarədarları "kolon" adlandırırdılar. Kolonlar icarəyə götürülmüş torpaq üçün sahibkarlara əvvəlcə pul ödəyirdilər, sonralar isə məhsulların bir hissəsini verir və onun xeyrinə natural mükəlləfiyyətlər yerinə yetirirdilər. Məhsulun qalan hissəsi kolonlara qalırdı, ona görə də onlar işləməkdə maraqlı idilər. Eramızın II - III əsrlərinə kolonlar, demək olar ki, qulları tam əvəz etdilər və Romada əsas məhsuldar qüvvəyə çevrildilər. Eramızın III əsrində kolonlar artıq torpağa təhkim edilmişdilər və onu tərk etməyə hüquqları yox idi. Öz vəziyyətlərinə görə kolonlar təhkimli kəndlilərə yaxın idilər. Orta əsrlərdə kolonlar Qərbi Avropa ölkələrində mövcud olmuşdular.

**Kolumb Xristofor** (1451 - 1506) - dəniz səyyahı. Genuyada anadan olmuşdur. 1492-93-cü illərdə Hindistana gedən ən qısa qərb dəniz yolunu tapmaq məqsədi ilə ispan ekspedisiyasına rəhbərlik etmişdir. Üç karavellada - "Santa-



downloaded from KitabYurdu.org

Mariya", "Pinta" və "Ninya" - Atlantik okeanını keçərək 1492-ci il oktyabrın 12-də Karib dənizindəki San-Salvador adasına çatmışdır. Bu tarix Amerikanın kəşf olunmasının rəsmi tarixi oldu. Sonra Kolumb Karib dənizinin digər adalarını tədqiq etdi. Kolumb Amerikaya daha üç ekspedisiya təşkil etdi. Hesab olunur ki, həmin dövrdə Karib dənizinin bir çox adalarını, eləcə də Cənubi və Mərkəzi Amerika sahillərini tədqiq etmişdi. Kolumb ömrünün sonunadək əmin idi ki, o, qərbə üzərək Hindistana çatıb. Amerika ölkələrindən biri - Kolumbiya Kolumbun şərəfinə adlandırılıb.

**kombedlər, yoxsul komitələri** - Xalq Komissarları Sovetinin (XKS) 1918-ci il 11 iyun dekreti ilə yaradılmış kənd yoxsulları təşkilatı. Faktik olaraq dövlət hakimiyyətinin kənddəki orqanları. Mülkədar torpaqlarını və kənd təsərrüfatı alətlərini bölüşdürür, qolçomaqların taxılını əllərindən alır, Qırmızı Orduya əsgər yığırdılar. Sonralar onları kənd sovetləri əvəz etmişdir.

**komediya** (yun. "şən sakinlərin nəğmələri") - əyləncəli nəğmələr, Qədim Yunanıstanda gülməli, məzhəkəli səhnələrdən əmələ gəlmişdir. Komediyaların tanınmış müəllifi Aristofan olmuşdur.

**kommunizm** - Marks və Engelsin təliminə görə, istehsal vasitələri üzərində ictimai mülkiyyətə əsaslanan və kapitalizmi əvəz etməli olan cəmiyyət.

**kompaniya** - 1) ilk vaxtlar birgə ticarət aparmaq məqsədi ilə yaradılmış tacirlər birliyi. Şəriklər birgə mal alır və satırdılar, gəliri isə qoyulmuş paya uyğun bölürdülər; 2) sonralar - kapitalist birliklərinin, inhisarların adlan.

**kompas** - quruda və dənizdə cəhətləri müəyyənləşdirmək üçün cihaz. Qədim Çində hələ Sin Şixuandinin zamanında ixtira olunmuşdur. O vaxtlar kompas maqnitlənmiş dəmirdən hazırlanan uzun saplı qaşığa bənzəyirdi. Qaşığı üzəri bölgülərlə qeyd olunmuş hamar taxta altlıq üzərinə qoyurmuşlar, o isə yerində fırlanaraq cənub və şimal istiqamətlərini göstərirmiş. Qədimdə çinlilərdən başqa heç kəs kompası tanımırdı. Avropada kompas XV əsrdə müstəqil ixtira olunmuşdur.

**kompradorlar** - 1) iqtisadi cəhətdən geri qalmış ölkələrin burjuaziyasının əsasən müstəmləkəçilərlə sıx bağlı olan, iqtisadi və siyasi cəhətdən onlardan asılı olan hissəsi; 2) daxili bazarla xarici kapital arasında vasitəçilik edən yerli tacirlər və ya istehsalçılar.

**kompromis** - qarşılıqlı güzəşt yolu ilə müxtəlif fikirli tərəflər arasında razılaşma.

**Kompyen** - Fransada Uaza çayı kənarında şəhər; 1) Kompyen meşəsində 11 noyabr 1918-ci ildə bir tərəfdən məğlub Almaniya ilə, digər tərəfdənsə ABŞ, Böyük Britaniya, Fransa və Antantanın digər üzvləri arasında hərbi əməliyyatların dayandırılmasını və Almaniya qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılmasını nəzərdə tutan, Birinci Dünya müharibəsini tamamlayan barışıq imzalanmışdır; 2) İkinci Dünya müharibəsi gedişində - 1940-cı il iyunun 22-də Hitler Almaniyası ilə Fransanın A.F.Petenin təslimçi hökuməti arasında imzalanmış Kompyen sazişi.



downloaded from KitabYurdu.org

1940-cı il Kompyen sazişi Fransa ərazisinin $^{2}/_{3}$-nin hitlerçilər tərəfindən işğalını, fransız ordusunun tərk-silah edilməsini nəzərdə tuturdu. Fransanın işğal olunmamış ərazisində - Vişi kurort şəhərciyində Petenin oyuncaq hökumət rejimi quruldu. 1942-ci ilin noyabrında Fransanın Mərakeş bölgəsinə ingilis - amerikan qoşunlarının çıxarılmasından sonra Almaniya Fransanın bütün ərazisini işğal etdi.

**kondominium** - iki və ya bir neçə dövlətin bir əraziyə müştərək sahib olması, ali hakimiyyəti müştərək həyata keçirməsi.

**konfederasiya** - 1) hər hansı təşkilatların ittifaqı, birliyi; 2) dövlətlərin mövcud müstəqilliklərini saxlayan və yalnız özlərinin bir sıra fəaliyyətlərini, adətən xarici siyasət və hərbi fəaliyyətlərini əlaqələndirmək məqsədi ilə yaradılmış ittifaqı. Konfederasiya bir qayda olaraq federasiyanın yaradılmasına gətirib çıxarır.

**konfiskasiya** - bax: müsadirə.

**konflikt** - 1) əks maraqların, fikirlərin, nöqteyi-nəzərlərin toqquşması;. 2) gərginliyə və müharibəyə səbəb ola biləcək ciddi fikir ayrılığı, kəskin mübahisə, ixtilaf, münaqişə, toqquşma.

**konfrontasiya** - dünya dövlətləri arasında beynəlxalq gərginliyin kəskinləşməsi.

**Konfutsi** (çin. Kunq Fu Tszu) - görkəmli Qədim Çin filosof və pedaqoqu (e.ə. 551 - 479). Əyan mənşəli yoxsullaşmış ailədə anadan olmuşdur. Gəncliyində xırda məmur olmuş, sonra Çində ilk dəfə varlı və yoxsul uşaqlarının qəbul edildiyi xüsusi məktəb açmışdır. Onun məktəbində davranış qaydaları, musiqi, poeziya və tarix öyrədilirdi. Konfutsiyə görə, oxumağın məqsədi məmurlara xeyirxahlıq nümunəsi və xalq yolunda çalışmaq üçün əxlaqi keyfiyyətlər aşılamaqdır. Konfutsi e.ə. 492-ci ildən 484-cü ilədək şagirdlərinin müşayiəti ilə Qədim Çin ölkələrini gəzmiş, amma əbəs yerə məsləhətlərini dinləyə biləcək hökmdar axtarmaqla məşğul olmuşdur. Dəyişdirilmiş konfutsilik Çin ictimaiyyətinin siyasi quruluşunun əsası bəyan ediləndə isə Konfutsi “10 min nəslin müəllimi” elan olundu və 1911-ci ilədək ona hörmət edilməsi rəsmiyyətlə yerinə yetirildi.

**konkistadorlar** - 1) XV - XVI əsrlərdə ispan işğalçıları; 2) bütün işğalçılara və zəbtçilərə verilən mənfi ad.

**konqres** - 1) əsasən beynəlxalq xarakterli geniştərkibli qurultay, müşavirə, yığıncaq; 2) ABŞ-da və bir sıra Latın Amerikası ölkəsində qanunverici orqan (parlament); 3) bir sıra ölkədə siyasi partiyaların və təşkilatların adı (məs.: Hindistan Milli Konqresi).

**konsern** - təsərrüfatın müxtəlif istehsal sahələri müəssisələrinin birliyi - bir və ya bir neçə maliyyə maqnatının nəzarəti altında olan ticarət firmaları, banklar, nəqliyyat şirkətləri. Konsernlər ilk dəfə olaraq Birinci Dünya müharibəsindən sonra Almaniyada meydana gəlmişdir.

**konservatizm** (lat. "saxlayıram") - qədim və köhnəlmiş ənənələrin tərəfdarlığı və qorunub saxlanmasına əsaslanan müxtəlif yönümlü ideya-siyasi və mədəni cərəyanların məcmusu.



downloaded from KitabYurdu.org

**konsessiya** - 1) dövlətin xarici firmaya, ayrı-ayrı adamlara danışılmış şərtlərə uyğun olaraq müəyyən təsərrüfat fəaliyyəti göstərmək - faydalı qazıntıları axtarıb tapmaq və çıxarmaq, müəssisələr tikmək və istismar etmək və s. üçün icazə verməsi; 2) bu sayaq müqavilə və ya saziş ilə fəaliyyət göstərən müəssisə.

**konsolidasiya** - möhkəmlətmə, qüvvətləndirmə; ayrı-ayrı təşkilat və ictimai qrupların ümumi məqsədlər uğrunda mübarizəni gücləndirmək məqsədi ilə birləşdirilməsi.

**konsorsium** - bir neçə bank və ya sənaye şirkəti tərəfindən irihəcmli vəsait tələb edən layihəyə birgə pay qoyulması və ya onun həyata keçirilməsi barəsində müvəqqəti razılaşma. Konsorsiumlar İkinci Dünya müharibəsindən sonra daha geniş yayılmışdı.

**Konstantin** Flavi Valeri Avreli - Roma imperatoru (313 - 337). 306-cı ildə legionerləri tərəfindən avqust (müqəddəs işıqlı) elan olunmuşdur. Qalliyanı idarə etmiş, german tayfalarına qarşı uğurla vuruşmuşdur. 311-ci ildə hakimiyyət uğrunda mübarizəyə başlamış və rəqiblərini məğlubiyyətə uğratmışdır. 313-cü ildə Lisini ilə birlikdə Roma imperiyasının müştərək hökmdarı olmuşdur. 324-cü ildə isə keçmiş müttəfiqi Lisininin qoşunlarını darmadağın edib hakimiyyəti tamamilə öz əlinə keçirdi. Taxtının oğlu tərəfindən ələ keçiriləcəyindən şübhələnən Konstantin onu öldürdü. Konstantinin dövründə imperiyanın hərbi-bürokratik dövlətə çevrilməsi başa çatdı, kolonların torpağa təhkim olunması qanuniləşdirildi. Konstantinin dövründə şəhərlərin də vəziyyəti yaxşılaşdırıldı, pul sistemi sabitləşdirildi, barbarların hücumlarının qarşısı alındı. Konstantin din azadlığına yol verən siyasət yürüdürdü, özü də böyük pontifik (kahin) titulu daşıyırdı. 313-cü ildən Konstantin xristian kilsəsinin işlərinə qarışmağa və ona himayədarlıq etməyə başladı. 330-cu ildə Konstantin Roma imperiyasının paytaxtını Konstantinopola köçürdü. O, ölümü ərəfəsində xristianlığı qəbul etmişdi. Xristianlar Konstantini müqəddəs elan etmişdilər.

**Konstantinopol** - Roma imperatoru Konstantin tərəfindən Bosfor boğazının Avropa sahilində qədim yunan koloniyası Bizansın (Vizanti) yerində salınmış şəhər. Konstantinin əmri ilə Bizansın bütün binaları sökülmüş, onların yerində qısa müddət ərzində dəbdəbəli saraylar və məbədlər, əyanlar üçün bir neçə min iri bina, iki teatr, ippodrom, 150-dən artıq hamam, 8 su kəməri, sadə şəhər adamları üçün bir çox adi bina inşa edilmişdir. 330-cu il mayın 11-də təntənəli surətdə şəhər Roma imperiyasının paytaxtı elan olunmuşdur. Konstantin yeni paytaxtı "Yeni Roma" adlandırmışdı, amma az sonra bu ad unuduldu. Bir müddətdən sonra şəhəri Konstantinopol, yəni "Konstantinin şəhəri" adlandırmağa başladılar. Konstantinopol Asiyadan Avropaya, Qara dənizdən Aralıq dənizinə gedən ticarət yollarının qovşağında yerləşirdi. Şəhər tezliklə böyüməyə başladı və artıq IV əsrin birinci yarısında 375 min sakini var idi. Əsas dəniz limanları Qızıl Buynuzda (türk. "Haliç") yerləşirdi. Konstantinopol iri iqtisadi və mədəni mərkəzə çevrildi. VI əsrin axırlarından Konstantinopol dəfələrlə avarların, vikinqlərin, farsların, slavyanların,



downloaded from KitabYurdu.org

ərəblərin yürüşlərinə məruz qaldı. Ticarətin Genuya tacirlərinin əlinə keçməsi ilə əlaqədar olaraq XII əsrdən Konstantinopolun tənəzzülü başlandı. Dördüncü səlib yürüşü nəticəsində 1204-cü il aprelin 13-də Konstantinopol səlibçilər tərəfindən müqavimətsiz tutuldu və qarət edildi. Konstantinopol Latın imperiyasının paytaxtı oldu və şəhərdə iqtisadi ağalıq venesiyalıların əlinə keçdi. 1261-ci il iyulun 25-də bizanslılar genuyalılarla birlikdə şəhəri səlibçilərdən ala bildilər və o, XIV əsrin əvvəllərinədək iri ticarət mərkəzi olaraq qaldı. Lakin sonra şəhər boşaldı (əhalisi 30 minədək azaldı), əsas mövqelər Venesiya və Genuya tacirlərinin əlinə keçdi.

XIV əsrin sonlarından Osmanlı türkləri dəfələrlə Konstantinopolu tutmağa cəhd göstərmişlər. Uzun mühasirədən sonra şəhər türk sultanı Mehmet II Fateh tərəfindən 1453-cü il mayın 29-da ağıllı siyasət nəticəsində tutuldu və İstanbul adı ilə Osmanlı imperiyasının paytaxtına çevrildi.

**konstitusiya** - ictimai və dövlət quruculuğunu, dövlət orqanları sistemini, onların yaranması və fəaliyyəti qaydasını, vətəndaşların hüquq və vəzifələrini müəyyənləşdirən əsas dövlət qanunu.

**konsul** (lat. "müşavir") - 1) respublika dövründə Qədim Romada ali dövlət vəzifəsi. Konsullar ilk vaxtlar yalnız patrisilərdən 1 illiyə 2 nəfər seçilirdi. E.ə. 367-ci ildən konsulun birinin həm də plebeylərdən seçilməsinə başlanıldı. Konsullar xalq yığıncağı və senatı çağırır, daxili işlərin idarə olunmasına başçılıq edirdilər. Onlar legionları toplayır və qoşuna komandanlıq edirdilər. Konsulun fərqləndirici nişanı enli qırmızı haşiyəli toqa (üstdən salınan parça geyim) idi; 2) orta əsrlərdə Şimali İtaliya şəhərlərində yüksəkvəzifəli şəxslər. Konsullar kollegiyası tamhüquqlu vətəndaşlar tərəfindən 1 illiyə, 4-12 nəfər tərkibdə seçilirdi. Konsullar kollegiyası ali icra, inzibati, maliyyə və məhkəmə hakimiyyətinə malik idi.

**"Konsulluq"** - 1799-cu il noyabrın 9-u (18 brümer) dövlət çevrilişindən Napoleon Bonapartın imperator elan olunmasınadək olan Fransa tarixi dövrü. Kağız üzərində hakimiyyət 10 il müddətinə (1802-ci ildən -ömürlük) seçilən üç konsula, əslində isə birinci konsul olan Napoleon Bonaparta mənsub idi.

**kontinental blokada-Fransa** imperatoru I Napoleon tərəfindən 1806-cı il noyabrın 21-də Böyük Britaniyaya qarşı elan olunmuş ticarət blokadası. Fransanın müttəfiqlərinə və onun tabeliyində olan dövlətlərin hamısına İngiltərə ilə ticarət etmək qadağan olunurdu. 1812-ci ildə Napoleonun Rusiyada darmadağın edilməsindən sonra ölkələrin bir çoxu kontinental blokadaya riayət etmirdi. Formal olaraq Napoleonun 1814-cü ilin aprelində hakimiyyətdən əl çəkməsi ilə ləğv olunmuşdu.

**kontribusiya** - l) məğlub dövlətdən qalib dövlətin xeyrinə alınan pul və ya hər hansı maddi dəyər. Müasir beynəlxalq hüquq kontribusiyanı qadağan edir; 2) işğalçı və ya işğal olunmuş ərazinin hakimiyyəti tərəfindən əhalidən məcburi surətdə yığılan pul vəsaiti. 1949-cu il Cenevrə konvensiyası mülki əhalini müdafiə etmək məqsədi ilə müharibə dövründə kontribusiyanı qadağan etmişdir.



downloaded from KitabYurdu.org

**konvensiya** - hər hansı xüsusi məsələ (məs.: poçt, dəmir yolu, balıqçılıq və s. konvensiyaları) üzrə saziş, beynəlxalq müqavilə.

**Konvent** (fr. "yığıncaq", "iclas"), Milli Konvent - Fransada Birinci respublika dövründə ali qanunverici və icraedici orqan. 1792-ci il sentyabrın 21-dən 1795-ci il oktyabrın 26-dək fəaliyyət göstərmişdir. Milli Konventin deputatları üç qrupdan ibarət idilər: jirondistlər, yakobinlər və "bataqlıq".

**konyunktura** - indiki dövrdə fəaliyyətin müəyyən sahəsində meydana çıxmış şərait, vəziyyət, durum, hal; məsələn: siyasi, beynəlxalq, iqtisadi və s. konyunktura.

**kooperasiya** (lat. "əməkdaşlıq") - 1) istehsalatda, inşaatda, ticarətdə insanların birgə çalışmaları üçün könüllü birləşməsi; 2) belə əmək üçün yaradılmış təşkilat.

**Kopernik Nikolay** (1473 - 1543) - polyak astronomu, dünyanın heliosentrik sistemi nəzəriyyəsinin banisi. Təbiətşünaslıqda inqilab edən Kopernik uzun əsrlər boyu Yerin dünyanın mərkəzi olması haqqında mövcud təlimdən imtina etmişdir. Səma cisimlərinin görünən hərəkətlərini Yerin öz oxu ətrafında, eləcə də planetlərin, o cümlədən Yerin Günəş ətrafında fırlanması ilə izah edirdi. Kopernik uzun illər kəşfini gizli saxlamışdır: yeni təlim onun kilsə tərəfindən təqib olunmasına, camaatın ikrahına və gülüş hədəfinə çevrilməsinə səbəb ola bilərdi. Kopernik öz nəzəriyyəsini yalnız ölümqabağı yazdığı "Göy sferalarının dolanması haqqında" (1543) əsərində təsvir etmişdir. Həmin əsər kilsə tərəfindən 1616-cı ildən 1818-ci ilə kimi qadağan edilmişdir.

**Kordova xilafəti** - Pireney yarımadasında, paytaxtı Kordova şəhəri olan müsəlman dövləti. Əsası 756-cı ildə Əməvilər sülaləsindən olan I Əbdürrəhman tərəfindən qoyulmuş Kordova əmirliyi 929-cu ildə xilafətlə əvəz edildi. Əsas çiçəklənmə dövrü X əsr olmuşdur. 1031-ci ildə xırda əmirliklərə parçalandı.

**kormleniye** – Qədim Rusda boyarların, vəzifəli şəxslərin (canişinlər və b.) idarə etdikləri yerin əhalisindən öz xeyirlərinə aldıqları vergi. 1555 - 56-cı illər zemstvo islahatı ilə ləğv edilmişdir.

**Koroğlu** (əsl adı Rövşən) - Naxçıvan, Səlmas və Xoy ərazilərində fəaliyyət göstərən cəlali dəstələrinin başçısı, Azərbaycan xalq qəhrəmanı. Rövşənin atası -



qoca kəndlinin gözləri türk feodalı tərəfindən çıxarılmışdır. Bundan sonra Rövşənə Koroğlu adı verilmişdir. Koroğlunun əsas sığınacağı Çənlibel qalası idi. Onun başçılıq etdiyi cəlali dəstələri Osmanlı işğalçılarına və yerli feodallara ağır zərbələr endirirdilər. XVII əsrdə yaradılmış "Koroğlu" dastanı xalq yaradıcılığının ən möhtəşəm abidələrindəndir. Süjetin əsasında xalq qəhrəmanının - xalqın azadlığı və səadəti, haqq-ədalət uğrunda mübarizin şücaəti, igidliyi durur. Koroğlunun adı Kiçik Asiyadan Türkmənistana qədər bir çox Şərq xalqlarında populyardır.



downloaded from KitabYurdu.org

**Korporasiya** – bir peşəyə, silkə və s.-yə mənsub adamların ittifaqı, hər hansı qrup marağı ətrafında üzvlərin hüquq və imtiyazlarını qorumaq məqsədi ilə birləşməsi. Sexlər, gildiyalar, qardaşlıqlar, monastırlar, dini-cəngavər ordenləri korporasiya idilər. Yeni dövrdə iri inhisar birliklərini korporasiya adlandırırlar.

**korrupsiya** - vəzifəli şəxslər, siyasi xadimlər, iri məmurlar arasında pulla öz tərəfinə çəkmə, satqınlıq, rüşvətxorluq.

**korsar** - dəniz qulduru, pirat. Kortes (1485 - 1547) - ispan konkistadoru. Ernan Kortes xırda ispan zadəganı ailəsində anadan olmuşdur. 19 yaşına çatanda Amerikaya var-dövlət və şöhrət dalınca getmiş, Karib dənizindəki (Amerika) Espanyola adasında torpaq sahibi olmuşdur. Kubanın işğalında de Velaskesin ekspedisiyasında iştirak etmiş, sonra isə de Velaskesin bacısı ilə evlənərək Santyaqonun meri olmuşdur.

1518-ci ildə de Velaskes Kortesə kiçik dəstə ilə Amerikaya (indiki Meksikanın ərazisinə) getməyə icazə verdi. İspanlar cəmi bir il əvvəl burada olmuşdular, 1519-cu ilin fevralında içərisində 600 nəfərlik dəstəsi, 20 süvarisi və 10 topu olan 11 gəmilik donanma ilə Kortes qərbə yola düşdü. Yukatan yarımadasına çıxan Kortes asanlıqla aborigenləri tabe etdi və onlar asteklərin qitənin içərilərindəki əfsanəvi dərəcədə zəngin imperiyaları barəsində xəbər verdilər. Əsgərlərinin materikin içərilərinə girməkdən qorxaraq geriyə qaçmasının qarşısını almaq məqsədi ilə Kortes gəmiləri yandırdı. Bundan sonra Kortes şimala doğru hərəkət edərək Verakrus limanının əsasını qoydu. Asteklərin paytaxtı olan Tenoçtitlana gedərkən Kortes yolüstü yerli tayfalar üzərində bir neçə qələbə çaldı və təxirə salınmadan onlarla tabeliklərində olduqları asteklərə qarşı ittifaq bağladı. Asteklərin baş kahini Montesuma ispanlara qarşı müqavimət göstərməyə cəhd etdi, amma uğur qazanmadı. Aslekləri bir tərəfdən ispanların odlu silahı və atları hədsiz qorxuyu salmışdı, digər tərəfdənsə asteklərin mövcud əfsanəsinə görə, əkinçiliyi və dövlət idarəçiliyini öyrətmiş ağdərili, uzunsaqqal allahları Ketsalkoatlenin gözlənilən təntənəli gəlişi rəvayəti onları qorxutmuşdu. Kortes zəif müqaviməti asanlıqla qıra bildi və 1519-cu il noyabrın 18-də Tenoçtitlana girərək Montesumanı əsir götürdü. Bu zaman ispan qoşunları de Velaskesin Kortesi həbs etmək haqqında əmri ilə Verakrusa yan aldılar. Tenoçtitlanda 200 nəfər saxlayan Kortes gecə ikən qəflətən əleyhdarlarını darmadağın etdi, sağ qalanları isə öz tərəfinə keçməyə razı sala bildi. Tenoçtitlana qayıdarkən asteklərin 1520-ci il iyulun 20-də başlanmış üsyanının şahidi oldu. Üsyan zamanı Montesuma öldürülsə də, ispanlar şəhəri tərk etməli oldular. Kortesin qoşunları ispanları təqib etməyə gələn asteklərin iri dəstəsini məğlub etdi. O, hindi tayfaları ilə yeni ittifaq bağladı, 3 aylıq mühasirədən sonra -1521 -ci il avqustun 13-də yenidən Tenoçtitlana daxil oldu. Kortes asteklərin şəhər tikililərinin bir qismini məhv etdi, bir qismini isə yenidən tikdirdi, şəhərin isə adını dəyişib Mexiko qoydu. Kortes ələ keçirdiyi sərvəti İspaniyaya göndərdi, ispan kralı onu Yeni İspaniyanın general-kapitanı və qubernatoru təyin etdi. 1536-cı ildə Kortes Sakit okean sahillərinin tədqiqi ilə



downloaded from KitabYurdu.org

məşğul olmuş və Kaliforniyanı kəşf etmişdir. Kortes daha bir neçə tədbirə qoşulsa da, ispan kralı sonralar onu himayə etmədi və əmr verdi ki, o, İspaniyaya qayıtsın. Kortes elə İspaniyada da ölmüşdür.

**kortes** - İspaniyada parlamentin adı.

**kosmonavt** - kosmik gəmidə sınaq və ya uçuş keçirən adam. Birinci kosmonavt - Y.A.Qaqarin (SSRİ; 12 aprel 1961-ci il) olmuşdur. Aya ayaq basmış ilk kosmonavt isə N.Armstronqdur (ABŞ; 1969).

**koşenil** - orta əsrlərdə Azərbaycan ərazisində qırmızı rəngli boya əldə etmək üçün belə adlanan həşərat. Bərdə şəhəri rayonu koşenillə daha zəngin idi. Koşenil Hindistana və s. ölkələrə apanlırdı.

**Kozis** (və ya Kosid) - alban hökmdarı Oroysun qardaşı. Qafqaz Albaniyasını tutmaq istəyən Pompeyin Roma legionlarına qarşı ikinci savaşda Kozis alban qoşunlarına başçılıq edirdi. Kozisin qoşunlarının romalılarla döyüşü e.ə. 65-ci ildə Kürün sol sahilindəki qollarından birinin sahilində baş vermişdir. Kozisin başçılıq etdiyi alban qoşunları 60 min piyada və 12 min süvaridən ibarət idi. Albanların süvari qüvvəsi güclü olduğu halda, romalıların əsas zərbə qüvvəsini yaxşı təlim görmüş intizamlı piyada qoşunu təşkil edirdi. Buna görə də döyüşün başlanmasınadək Pompey piyadalarını süvarilərin arxasında gizlətmişdi. Albanlar təkcə Roma süvariləri ilə savaşacaqlarını zənn etdiklərindən onlara hücuma keçdilər. Bu zaman Roma piyadaları döyüşə qoşuldular və amansız savaş başlandı. Antik müəlliflərin məlumatına görə, döyüşün qızğın çağında Kozis bir neçə alban döyüşçüsü ilə Roma legionerlərinin sırasını yarıb Pompeyin müşayiətçilərinədək çatdı. Roma sərkərdəsini nizə ilə vuran Kozis onun möhkəm zirehini deşə bilmədi. Cavab zərbəsi ilə Pompey Kozisi ölümcül yaraladı. Məğlub olan albanlar yaxınlıqdakı meşədə gizləndilər, lakin Pompeyin əmri ilə legionerlər meşəni mühasirəyə alıb od vurdular. Romalılara qarşı bu savaşda alban qoşunları sırasında "amazonlar" adlandırılan qadınlar da iştirak etmişdilər.

**köçəbə maldarlıq** - mal-qaranı təsərrüfat mərkəzindən bir qədər aralıda yerləşən otlaqlarda saxlamaqdan ibarət olan maldarlıq forması. Qoyun, at, dəvə və yaklar köçəbə həyata uyğunlaşdırılıb.

**köçəri həyat tərzi** - təsərrüfat fəaliyyətinin daim bir yerdən başqa yerə yerdəyişmə nə müşayiət olunan xüsusi forması və həyat tərzi. Adətən belə hesab edilir ki, yalnız maldarlar köçəri həyat tərzi sürürlər, lakin yığıcı, ovçu, balıqçı və bir sıra əkinçi tayfaları, o cümlədən meşə qırıb-yandırmaqla məşğul olan əkinçilər də belə həyat tərzi sürmüşlər. Meşə sahələrini əkin üçün təmizləyib-yandıran bu tayfalar həmin tarlalar tezliklə qüvvədən düşəndən sonra onları atır və başqa yerlərə köçməyə məcbur olurdular.

**köçəri maldarlıq** – təxminən on min il əvvəl maldarlığın əkinçilikdən ayrılmasından və onun ayrıca müstəqil təsərrüfat formasına çevrilməsindən sonra maldarlar həmişə mal-qaranı yeni otlaqlara aparmaq məcburiyyətində qalmışdılar, çünki böyük mal-qara sürüləri otlaqları tapdayır və otunu yeyib qurtarırdılar.



downloaded from KitabYurdu.org

Bununla əlaqədar olaraq onlar köçəri həyat tərzinə keçib köçəri oldular, çünki özləri və ailələri əmlakları ilə bərabər sürülərinin ardınca gedirdilər. Köçəri həyat üçün ən əlverişli heyvanlar qoyun, keçi, at və dəvə idi. Xeyli sonralar Arktika zonasında maralçılıq formalaşmışdır. Köçəri maldarlıq daha çox e.ə. I minillikdə geniş yayılmışdır. Köçəri maldarlıq maldarlığın xeyli təkmilləşməsinə və əvvəllər məskunlaşmaq üçün əlçatmaz olan yeni yerlərin - səhra, yarımsəhra və tundranın mənimsənilməsinə səbəb olmuşdur. Maldarlıq köçərilərin və yarımköçərilərin əsas məşğuliyyəti olsa da, yeganəsi deyildi. Adətən bu, ovçuluq və primitiv əkinçiliklə əlaqəli olurdu. Çox vaxt tayfanın bir hissəsi köçərilik edir, digər hissəsi isə oturaq olurdu. Köçərilərlə oturaq əhali arasında dinc ticarət və mübadilə münasibətləri bəzən də düşmənçilik və toqquşmalar nəticəsində pozulurdu. Tarixdə köçərilər tərəfindən tayfa ittifaqlarının yaradılması, bəzən də onların inkişaf edib qüdrətli "imperiyalar"a (məsələn: Hun imperiyası, Ərəb xilafəti, Çingiz xanın dövləti və s.) çevrilməsi halları az deyil.

**köçərilər** (nomadlar) - köçəri həyat tərzi sürən adamlar.

**kral** (lat. "karolus" - Böyük Karlın adından) - krallığın dövlət başçısı, imperatordan sonra ali monarxiya titulu.

**krallıq** - başçısı kral olan monarxiya dövlətinin adı.

**Krass** Mark Lisini (e.ə. 115 - 53) - Roma sərkərdəsi. E.ə. 83 - 82-ci illərdə Krass Sultanın tərəfində vuruşmuş və onunla dostluq etmişdir. E.ə. 72-ci ildə senat ona Spartak üsyanını yatırmaq üçün fövqəladə səlahiyyətlər vermiş və o, e.ə. 71-ci ildə üsyanı yatırmışdır. E.ə. 55-ci ildə Krass konsul seçilmiş və ordunu parfiyalılara qarşı göndərmişdir. Lakin Karra döyüşündə parfiyalılar Roma qoşunlarını darmadağın etmiş, Krass özü isə həlak olmuşdur.

**kredit** - müəyyən şərtlərlə pul vəsaiti verilməsi, əmtəə, hər hansı bir xidmətin (məs.: texniki yardım) göstərilməsi.

**kredo** (lat. "inanıram") - 1) katolik kilsəsində - inam rəmzi; 2) məcazi mənada - əqidə, dünyagörüşü.

**kreml** - slavyan şəhərlərinin möhkəmləndirilmiş mərkəz hissəsi. Kremllərin daha maraqlı və yaraşıqlı nümunəsi Moskva kremlidir.

**kreollar** - ispan və portuqal işğalçılarının Latın Amerikasındakı nəsilləri.

**Krez** - Kiçik Asiyadakı Lidiya dövlətinin sonuncu hökmdarı (e.ə. 560 - 546). Krezin var-dövləti haqqında çoxlu zərbi-məsəllər qoşulmuş, əfsanələr yaranmışdır. Qədimdə hesab edirdilər ki, ilk dəfə qızıl sikkə zərb etdirən elə Krez olmuşdur. E.ə. 546-cı ildə hökmdar Kirin başçılıq etdiyi fars qoşunları tərəfindən məğlub edilmiş və əsir düşmüşdü.

**Krım xanlığı** - 1443 - 1783-cü illərdə Krımda mövcud olan dövlət. Krım xanlığı Qızıl Ordanın parçalanmasından sonra yaranmışdır. Krım xanlığı 1475-ci ildə Osmanlı imperiyasının vassalı oldu. XVI əsrin əvvəllərində xanlığın paytaxtı Baxçasaray idi. Xanlığın cənub sahillərində bir sıra inkişaf etmiş şəhərlər - Qara dəniz vasitəsilə tranzit ticarət mərkəzləri var idi. Burada Genuya və Venesiyadan



downloaded from KitabYurdu.org

olan tacirlərin - Kafa (Feodosiya), Suroj (Sudak) və s. kimi məskənləri var idi. Krım xanları Ukrayna, Moldova, Rusiya, Polşa və Azərbaycan torpaqlarına qarətçi yürüşlər edirdilər. 1768 -84-ci illər Rusiya - Türkiyə müharibəsi nəticəsində Küçük Qaynarca sülhünün şərtlərinə görə, Krımda olan Kerç və Yenikale qalaları Rusiyaya verildi. Krım xanlığı Osmanlı imperiyasından müstəqil elan olundu. 1783-cü ildə Krım xanı taxtdan əl çəkməyə məcbur edildi və xanlıq ləğv olundu, ərazisi Rusiya imperiyasına birləşdirildi.

**Krım konfransı** - 1945-ci il fevralın 4-dən 15-dək Yaltada keçirilmişdir. Bu konfransda Böyük Britaniya, SSRİ və ABŞ-ın dövlət başçıları - U.Çörçill, İ.N.Stalin və F.D.Ruzvelt arasında aparılan danışıqlar nəticəsində İkinci Dünya müharibəsində üç müttəfiq dövlətin hərbi planları müəyyənləşdirilib razılaşdırılmış, müharibədən sonrakı siyasətdə onların əsas prinsipləri cızılmış - Almaniyanın qeyd-şərtsiz təsliminə nail olunması, Almaniyada hər üç dövlətin (razı olduğu təqdirdə həm də Fransanın) işğa zonalarının yaradılması və Ümumalmaniya nəzarət orqanının təşkili, Almaniyadan reparasiya alınması, SSRİ-nin yeni qərb sərhədlərinin tanınması, Polşada koalision hökumətin yaradılması, BMT-nin təşkil edilməsi və s. barədə qərarlar qəbul olunmuşdur. SSRİ Avropada müharibə başa çatandan 2 - 3 ay sonra Yaponiyaya qarşı müharibəyə (Cənubi Saxalinin, Mancuriyaya gedən Şərqi Çin dəmir yolunun və Port-Arturun qaytarılması, eləcə də Kuril adalarının ona verilməsi şərti ilə) qoşulmağa razılığını bildirdi. Dövlət başçıları azad edilmiş Avropa haqqında bəyannamə imzaladılar. Həmin sənəddə qitənin xalqlarına təminat verilirdi ki, "onlar öz seçimlərinə uyğun olaraq demokratik təsisatlar yaratsınlar".

**Krit** - e.ə. III minilliyin ortalarında Krit adasında Avropada ilk dövlət meydana gəlmişdi. Arxeoloqlar burada e.ə. III - II minilliklərə aid, freskalarla bəzədilmiş sarayları olan şəhərlərin xarabalıqlarını aşkar etmişlər. Kritlilər kənd təsərrüfatı ilə məşğul olur, tunc silah və qızıl bəzək əşyaları düzəldir, binalar və gəmilər inşa edirdilər. Onların öz yazıları olmuşdur (hələlik bu yazılar oxunmamışdır). Kritlilər Egey dənizinin bir çox adalarını və Cənubi Yunanıstanın vilayətlərini tutmuşdular. Krit Misir və Finikiya ilə ticarət edirmiş. E.ə. II minilliyin ortalarında güclü vulkan püskürməsi nəticəsində Krit sivilizasiyası məhv olmuşdur. Boşalmış Krit asanlıqla Peloponnesdən gəlmiş yunan tayfaları tərəfindən istila edilmişdir.

**kriteri (meyar)** - bir şeyə qiymət vermək üçün əsas götürülən əlamət, ölçü; hər hansı bir hadisənin dəyərləndirilməsi.

**krokanlar üsyanı** (fr. "krokanlar" - "gəmiricilər") - Fransada dövlət vergiləri və feodal mükəlləfiyyətlərinin artmasına qarşı 1592 - 98, 1624, 1636 - 37-ci illərdə baş vermiş kəndli üsyanları. "Gəmiricilərə hücum!" harayı üsyan başlanmasına çağırış oldu. Xalq zadəganları, iltizamçıları və məmurları "gəmiricilər" adlandırırdı. Bu üsyanlardan qorxuya düşən zadəganlar ara



downloaded from KitabYurdu.org

müharibələrini dayandırıb, kralın ətrafında sıx birləşdilər. Krokanların üsyanları kral qoşunları və zadəgan dəstələri tərəfindən yatırıldı.

**kromanyon adamı** - üst paleolit adamlarının ümumiləşdirilmiş adı. Bu söz 1968-ci ildə Fransanın bu dövrə aid ilk dəfə aşkar edilmiş kromanyon adamı qalıqlarının tapıldığı Kro-Manyon mağarasının adından götürülmüşdür. Kromanyon adamı boyunun ucalığı, kəllə tağının hündürlüyü, üzünün enli olması və gözlərinin aşağı batıqlığı ilə xarakterizə olunur. Kromanyon adamı müasir insan - ağıllı insan növünə aid edilir.

**Kromvel Oliver** (1599 - 1658) - İngiltərə burjua inqilabı xadimi, independentlərin rəhbəri. Kromvel yeni zadəganlar arasından çıxmışdır. Siyasi fəaliyyətə 1628 - 29-cu illərdə parlamentdə başlamışdır. 1640-cı ildə "Uzunmüddətli parlament"ə seçilmişdi. Sərkərdə istedadı nümayiş etdirən Kromvel İngiltərədə birinci və ikinci vətəndaş müharibəsi zamanı kral ordusu üzərində qələbə çalan parlamentin "yeni tipli" ordusunun əsas yaradıcılarından biri olmuşdur. Orduya arxalanan Kromvel presviterianları parlamentdən qovaraq ("Prayd təmizləməsi") kralın edam olunmasına və independent respublikasının elan olunmasına imkan yaratmışdır. 1650-ci ildə Kromvel lord-general - bütün silahlı qüvvələrin ali baş komandanı təyin edildi. O, levellerlərin və diggerlərin hərəkatını yatırdı. 1649-cu ildə irlandiyalıların üsyanını yatıraraq bütün İrlandiyanı, 1652-ci ildə isə Şotlandiyanı işğal etdi. Kromvel 1653-cü ildə "azad İngiltərə, Şotlandiya və İrlandiya dövlətlərinin lord-protektoru" elan olundu. Bununla da faktik olaraq İngiltərədə təkbaşına hərbi diktatura - protektorluq rejimi yarandı. Kromvelin protektorluğunun təsis edilməsi İngiltərədə respublikaya və inqilaba son qoydu.

**Kserks** - Əhəmənilər dövlətinin şahı (e.ə. 486 - 465), I Daranın oğlu. Kserksin dövründə Misirdə üsyan baş vermiş və onun tərəfindən yatırılmışdır. Bundan sonra Babilistanda üsyan başlamış və o, yalnız üç ildən sonra yatırıla bilmişdir. Kserksin əmri ilə Babil dağıdılmış və adi satraplığa çevrilmişdir. E.ə. 480-ci ildə Kserks böyük ordu ilə Yunanıstana qarşı yürüşə başlamışdır. Əhəmənilər dövlətinin bütün satraplıqları öz döyüşcü dəstələrini Kserksin ordusuna göndərmişlər. Azərbaycan ərazisində məskunlaşan tayfalardan - midiyalı, uti, myük və kaspilərdən toplanılmış dəstələr də Kserksin ordusunda olmuşlar. Kserks Fermopil döyüşündə yunanlar üzərində qələbə çaldı və Afinanı yandırdı, amma Salamin döyüşündə onun donanması yunan donanması tərəfindən məğlub edildi və bundan sonra Kserks nəhəng ordusunu Yunanıstandan aparmaq məcburiyyətində qaldı. Lakin Kserks sərkərdəsi Mardonini kiçik bir qoşunla burada saxladı. Amma Mardoninin qoşunları Plateya savaşında yunanlar tərəfindən darmadağın edildi. Yunanıstanda məğlub edilməsinə baxmayaraq, Kserks fəal xarici siyasətini davam etdirirdi. Lakin artıq Kserksin dövründə Əhəmənilər dövləti daxilində satrapların qiyamları başlanır. Kserksin dövründə Persepol, Suz, Ekbatana və başqa yerlərdə coşqun tikinti işləri apanlırdı. Kserks dini islahatlar keçirmişdir və bu da "Antidiv yazısı"ndan bəllidir. Kserks divlərin məbədini



downloaded from KitabYurdu.org

darmadağın etmiş və demişdir ki, "Divlərə sitayiş edilməməlidir. Əvvəllər divlərə sitayiş edilən yerlərdə mən mömin kimi Ahura Mazdaya və Artaya təzim etdim". Güman etmək olar ki, Kserksin islahatı Parsda və Midiyada dinin mərkəzləşdirilməsi məqsədi güdürdü, amma islahat baş tutmadı. E.ə. 467-ci ildə Parsda aclıq oldu, hökmdar anbarları boş idi və taxılın qiyməti yeddi dəfə artmışdı. Narazıları sakitləşdirmək məqsədi ilə Kserks bir il müddətində yüzədək yüksəkvəzifəli dövlət məmurunu vəzifəsindən uzaqlaşdırdı. E.ə. 465-ci ildə sui-qəsdçilər, ehtimal ki, kiçik oğlunun iştirakı ilə Kserksi yatağında öldürmüşdülər. Kserksin kiçik oğlu I Artakserks Əhəməni şahı oldu.

**Kuçum** - Sibir xanlığının xanı (1563 -98). 1582 - 85-ci illərdə xanlığı Yermakın başçılıq etdiyi rus kazaklarından müdafiə etmişdir. 1592-ci ilin payızında rus kazakları xanlığın paytaxtı Kaşlıkı hücumla alıb qarət etdilər. Lakin Kuçum xan kazakların üzərinə etdiyi qəfil gecə hücumu ilə Yermakı öldürdü. Bu zaman rus çarının əmri ilə hökumət qoşunları Sibir xanlığı üzərinə göndərildi. Kuçum xan 1598-ci ilə kimi rus qoşunlarına müqavimət göstərdi. Qəti məğlub olduqdan sonra Noqay Ordasına qaçdı.

**Kuk Ceyms** (1728 - 79) - məşhur ingilis dəniz səyyahı; üç dəfə dövr-aləm səyahətinə çıxmışdır.

**ku-kluks-klan** - 1865-ci ildə quldarlığın ləğvinin elan edilməsindən sonra Cənub ştatların plantasiya sahibləri tərəfindən zəncilərin vətəndaşlıq hüququ uğrunda mübarizələrinə qarşı ABŞ-da yaradılmış irqçi terrorçu təşkilat.

**Kulikovo döyüşü** - Moskva knyazı Dmitrinin başçılığı ilə rus polklarının Mamay xanın başçılıq elədiyi Qızıl Orda qoşunları ilə Kulikovo çölündə - Don çayı sahilində 1380-ci il sentyabrın 8-də apardıqları savaş. Rus qoşunlarının qələbəsi ilə başa çatmışdır. Qələbəyə görə knyaz Dmitriyə "Donskoy" ləqəbi verildi. Kulikovo döyüşü rus torpaqlarının monqol zülmündən azad edilməsinin başlanğıcı hesab olunur.

**kult** (lat. "kultus" - "sitayiş") - 1) fövqəladə qüvvələrə ibadət edilməsindən - qurban verilməsi, dua edilməsi, ibadət, ayin və s.-dən ibarət sitayiş. Bununla həmin qüvvələrin lazımi istiqamətlərə yönəldilməsinə ümid edilir. Kult dinin ayrılmaz və mühüm tərkib hissəsidir. Müasir dinlərdə (xristianlıq, islam, buddizm, iudaizm və s.) forması dəyişilmiş şəkildə - ikonalara, müqəddəs sayılan şeylərə və s. etiqad edilməsində qalmışdır; 2) çox hallarda həm də etiqad edilməsi (kult azadlığı - dini etiqad azadlığı) kimi başa düşülür.

**kuluar** (fr. "dəhliz") - 1) parlament və digər hökumət idarələrində, eləcə də teatr, kino və konsert salonlarında fasilə zamanı dincəlmək, qeyri-rəsmi görüşlər keçirmək, fikir mübadiləsi etmək, jurnalistlər üçün işləmək otaqları; 2) məcazi mənada - gizli sövdə, siyasi fırıldaq, deputatlara təzyiq göstərilməsi, lazımi qanun layihələrinin qəbul etdirilməsi, informasiya alınması və s.



downloaded from KitabYurdu.org

**kunstkamera** - kecmişdə müxtəlif tarixi, bədii, təbii-elmi və digər əntiq şeylərin kolleksiyası, eləcə də onların saxlanıldığı yerlər (kabinetlər, muzeylər və s.).

**kurqan** (türk. "torpaq təpə") - məzarın üstünə torpaq və ya daş tökülməsi nəticəsində əmələ gəlmiş böyük təpə. Kurqan tikintisi neolit, eneolit və tunc dövründə geniş yayılmışdır. Qəbrin üstimdə böyük təpənin düzəldilməsi keçmişin bir çox xalqlarının (məsələn: skiflərin) dəfn adətlərinin vacib ünsürlərindəndir.

**kurfürstlor** (alm. hərfən "seçici knyazlar") - "Müqəddəs Roma imperiyası "nda (ruhani və dünyəvi) knyazlar; XIII əsrdən onların imperatoru seçmək hüquqları təsbit edilmişdir. Kurfürstlərin hüquqi kollegiyası 1356-cı ildə "Qızıl bulla" ilə təsdiq olunmuşdur.

**kustak** - VI əsrin ortalarında Sasanilər dövlətinin bölündüyü hərbi-inzibati vahidlər; canişinlik. Qafqaz Albaniyası, Ermənistan, Atropatena və İberiya bir canişinliyə - şimal kustakına daxil idilər.

**Kutilər** - Cənubi Azərbaycan ərazisində məskunlaşmış qədim tayfalar. Mənbələrdə kutilərin adlarının ilk dəfə çəkilməsi e.ə. XXIII əsrə aiddir. Kutilərin məskunlaşdığı ərazilər mənbələrdə "Qutium" adlandırılır. Kutilər iri tayfa ittifaqı idilər və əsas məşğuliyyətləri maldarlıq idi, amma əkinçiliklə də məşğul olurdular. E.ə. 2200-cü ildə kutilər Akkad üzərinə hücum etdilər və hökmdar Naram-Sueni öldürdülər, Mərkəzi və Cənubi Mesopotamiyanı (Sumeri) ələ keçirdilər. Kuti "hökmdar"ları burada yüz ilədək hakimiyyətdə oldular. Kuti "hökmdar"ları tayfa başçıları idilər və müəyyən müddətə seçilirdilər. E.ə. 2109-cu ildə kutilərin Mesopotamiyadakı hakimiyyətləri devrildi və bundan sonra onlar öz vətənlərinə - Cənubi Azərbaycan ərazisinə qayıtdılar. Burada onlar lullubilərin qüvvətlənmiş tayfa ittifaqı ilə toqquşdular və özlərinə yeni vətən axtarmaq məcburiyyətində qalıb şimala - Cənubi Qafqaz rayonlarına getdilər, təxminən min ildən artıq dövrdən sonra urartu mənbələrində "etiuni" adı ilə xatırlandılar. Əvvəllər kutilərə mənsub olan torpaqların xeyli hissəsi lullubilər tərəfindən məskunlaşdırıldı.

**Kutuzov** Mixail İllarionoviç (1745 -1813) - smolenskli şöhrətli knyaz (1812), rus sərkərdəsi, general-feldmarşal (1812), Suvorovun şagirdi, XVIII əsr Rusiya - Türkiyə müharibəsinin iştirakçısı; Türkiyənin İzmail qalasının alınmasında fərqlənmişdir. 1805-ci il Avstriya - Fransa müharibəsində Avstriyadakı rus qoşunlarının komandiri olmuş və onları mühasirəyə düşmək təhlükəsindən bacarıqla xilas etmişdir. 1806 - 12-ci illər Rusiya - Türkiyə müharibəsində Moldaviya ordusunun komandanı kimi bir neçə qələbə çalmış və Buxarest sülh müqaviləsini imzalamışdır. Rusiyanın Fransaya qarşı Vətən müharibəsində 1812-ci ilin avqustunda rus ordusunun baş komandanı təyin olunmuşdur. Düşmənin sayca artıq qüvvəsi şəraitində belə, çevik strategiyası sayəsində Borodino, Maloyaroslavets yaxınlığındakı və s. savaşlarda Napoleonun fransız qoşunlarını taqətdən salan Kutuzov nəticədə onları Rusiyadan geri



downloaded from KitabYurdu.org

çəkilməyə məcbur etdi. Düşməni təqib edərkən Vyazma, Krasın və Berezina yaxınlığında Napoleon ordusu Kutuzov tərəfindən darmadağın edildi.

**Kültəpə** (türk. "kül təpəliyi") - Cənubi Qafqaz və Orta Asiyada qədim məskənlərin tullantılarının (tikinti materialları, zibil, kül) tökülməsi nəticəsində əmələ gəlmiş bir çox təpəni bu cür adlandırırlar. Bu təpələri yaratmış məskənlərin çoxu eneolit və tunc dövründə mövcud olmuşdur; 1) Naxçıvan şəhəri yaxınlığında təpə (diametri 100 - 150 m, hündürlüyü 14 m). Arxeoloji qazıntılar nəticəsində eneolit – erkən dəmir dövrünə (e.ə. IV minillik - e.ə. I minilliyin əvvəli) aid 4 mədəni təbəqə (22 m qalınlığında) aşkar edilmişdir. Alt təbəqədə gil-palçıq evlər, ölülərin bükülmüş şəkildə dəfn olunmuş qəbirləri, qırmızı və rənglənmiş keramika, daş toxalar, mis alətlər tapılmışdır. İkinci tobəqədən çiy kərpicdən tikilmiş evlər, deşiyi olan daş baltalar, oraq ağzı üçün çaxmaqdaşı qırıqları, mis-arsen məmulatları, qəlib formaları aşkar edilmişdir. Üçüncü və dördüncü təboqələrdən qırmızı, qara və boyalı keramika üzə çıxarılmışdır. Bütün təbəqələrdə kömürləşmiş buğda, arpa, darı dənləri, heyvan sümükləri, iskənə, kirkirə, həvəngdəstə, sümük alətləri tapılmışdır; 2) indiki Ermənistan Respublikasında Eçmiədzin yaxınlığında təpə (diametri 190 m, hündürlüyü 15 m). E.ə. III minilliyə aid əkinçilik məskəninin qalıqlarından ibarətdir. Çiy kərpicdən tikilmiş evlərin qalıqları, qara və qırmızı keramika, gil heykəlciklər, dəvəgözü (obsidian) və çaxmaqdaşıdan əmək alətləri vardır; 3) Türkiyədə Kayseri şəhərindən 35 km şimalda yerləşən Kültəpə kəndi yaxınlığında təpəlik (Qarahöyük). Qədim Kaneş şəhərinin yerləşdiyi həmin təpəlik tunc dövrünün erkən çağlarına (e.ə. III minillikdən e.ə. XII əsrədək) aiddir. Burada bir çox tikililər, o cümlədən saraylar, zəngin qəbirlər, müxtəlif növ keramika, heykəlciklər və s. aşkar edilmişdir. E.ə. II minilliyin əvvəllərində qədim Kaneş şəhəri yaxınlığında Karum assur koloniyası da təşəkkül tapmışdı. Karumun e.ə. XVIII əsrə aid mədəni təbəqəsində "Kappadokiya lövhələrı deyilən çoxlu gil lövhə aşkar edilmişdir. Onlar Akkad mixi yazısı ilə yazılmış və Assuriyanın və onun Kiçik Asiya koloniyalarının sosial-iqtisadi həyatını təsvir etmişdir.

**küp qəbirlər** - qədimdə ölülərin böyük gil küplərə qoyulduqları geniş yayılmış qəbirlər. E.ə. IV minilliyə aid edilən ən qədim küp qəbirlər arxeoloqlar tərəfindən Misirdə tapılmışdır. Sonralar belə qəbirlər Şərqi Aralıq dənizi sahillərində və Kiçik Asiyada yayılmışdır. E.ə. I minillikdə Qafqazda da küp qəbirlər geniş yayılmışdır. Ölünün böyrü üstdə bərk bükülmüş halda böyük (hündürlüyü 1,5 - 2 m) yapma və yanı üstdə uzadılmış qırmızı gil küplərdə dəfn edilməsi Qafqaz Albaniyası ərazisində küp qəbirlər mədəniyyəti üçün xarakterikdir. Dəfn avadanlığı tunc və dəmir əmək alətləri və silahlardan, tunc, gümüş və qızıl bəzək əşyalarından, ağac, daş, gil və şüşədən düzəldilmiş müxtəlif məmulatlardan ibarət olurdu. Qafqaz Albaniyası ərazisində küp qəbirlər mədəniyyəti daşıyıcılarının Yaloylutəpə, Srubnoy və digər mədəniyyətlərlə əlaqələri ardıcıl izlənilir.



downloaded from KitabYurdu.org

**Kür-Araz mədəniyyəti** - 1940-cı ildə arxeoloqlar tərəfindən Kür-Araz vadisində aşkar edilmiş qədim arxeoloji mədəniyyət. Kür-Araz mədəniyyəti e.ə. IV minilliyin ortalarından e.ə. III minilliyin son rübünədək mövcud olmuşdur, yəni erkən tunc dövrünə aid olmuşdur. Kür-Araz mədəniyyəti Şimali və Cənubi Azərbaycanda yayılmış, demək olar ki, bütün Cənubi Qafqazı, Şimal-Şərqi Qafqazı və Şərqi Anadolunu əhatə etmişdir. Onun ayrı-ayrı ünsürləri Şərqi Aralıq dənizi sahillərində (Suriya, Fələstin və s.) qeydə alınmışdır. Yuxarıda sadalanan vilayətlər göstərilən dövrdə, ola bilsin ki, vahid maddi mədəniyyətin daşıyıcıları olan qohum tayfalarla məskunlaşmışdır. Kür-Araz mədəniyyəti bünövrəsi dairəvi və düzbucaqlı evlər olan oturaq məskənlərlə xarakterizə olunur. Həmin evlərdə oturacaqlı, keramika ilə döşənmiş, tuncla və ya metal emalı ilə müşayiət olunan, torpaq qəbirlər və dəfn kurqanlarına malik və yeri dəyişdirilə bilən ocaqlar var idi. Kür-Araz mədəniyyəti tayfalarının əsasını kompleks əkinçi-maldar təsərrüfatı təşkil edirdi. Bu tayfaların əkinçiliyi xış əkinçiliyi idi. Süni suvarmadan istifadə olunurdu. Bağçılıq yaranmaqdaydı. Bu mədəniyyətin olduğu dövrdə yaylaq maldarlığı tədricən ön plana çıxır. Metallurgiya və metal emalı yaranır, dulusçuluq, toxuculuq və s. inkişaf edir. Xeyli miqdarda izafi məhsulun meydana çıxması əmlak bərabərsizliyi ilə nəticələnir. Zəngin əşyalara malik iri qəbirlər də bunu sübut edir. Kişilərin rolu artır və patriarxat bərqərar olur. Bu da kişi heykəlciklərinin tapılması ilə təsdiqlənir.

**kürdlər** - Türkiyə, İran, İraq, Suriya və bir sıra başqa ölkələrdə, əsasən Kürdüstan dağlarında yaşayan xalq. Ümumi sayı 13 milyondur. Cənubi Qafqaz ölkələrində 100 minədək kürd yaşayır, əksəriyyəti Azərbaycan Respublikası ərazisindədir. Dilləri - kürd dilidir, İran dilləri ailəsinə aiddir. Kürdlər əsas etibarilə müsəlman-sünnilərdir, bir qismi şiə yezidi və s.-dir.

**Kürəkçay müqaviləsi** (1805) - Car-Balakən camaatı və Gəncə xanlığının rus qoşunları tərəfindən tutulmasından sonra Qarabağ və Şəki xanlıqlarının xarici siyasəti və daxili vəziyyəti xeyli pisləşdi. Belə bir zamanda qarabağlı İbrahimxəlil xan müqavilə bağlamaq barədə məktubla general Sisianova müraciət elədi. 1805-ci il mayın 14-də Rusiya imperiyası ilə Qarabağ xanlığı arasında 11 benddən ibarət Kürəkçay müqaviləsi bağlandı. Müqavilənin şərtlərinə görə, xan, onun varisləri və xanlığın bütün əhalisi Rusiyanın himayəsinə keçirdi. Xanlıq müstəqil xarici siyasət yeritməkdən məhrum edilirdi, daxili idarəetmə isə İbrahimxəlil xanın ixtiyarında qalırdı və o, çar xəzinəsinə hər il 8 min çervon xərac verməyi öhdəsinə götürürdü. Şuşada rus qoşunları qarnizonu yerləşdirilməli idi. 1805-ci il mayın 21-də, demək olar ki, belə oxşar müqavilə Rusiya ilə Şəki xanlığı arasında imzalanmışdır. Bundan sonra şəkili Səlim xan Rusiya təbəəliyindən imtina etdi və Rusiya qarnizonunu Şəkidən qovdu.

**Kvantun ordusu** - Mancuriyada sayı 1 milyon nəfərə çatan güclü yapon ordusu. 1945-ci ilin avqustunda SSRİ-nin Yaponiyaya qarşı müharibəyə başlamasından sonra həmin ordu sovet qoşunları tərəfindən darmadağın edilmişdi.



downloaded from KitabYurdu.org

## -Q-

**Qacarlar** - İranda türk sülaləsi (1796 - 1925). Sülalənin banisi - mənşəcə türk qacar tayfasından olan Ağa Məhəmməd şah Qacardır. 1925-ci ildə İranda Qacarlar sülaləsini Pəhləvilər sülaləsi əvəz etmişdir.

**qaçaq** - Azərbaycanda yerli feodallara və çar məmurlarına qarşı mübarizə aparan silahlı kəndli dəstələrinin iştirakçısı. Öz kəndlərindən dağlara və meşələrə qaçan kəndlilər xırda silahlı dəstələrdə birləşərək yerli feodalların və çar məmurlarının üzərinə hücum edir, onların əmlakını alıb yoxsullara paylayırdılar. Yerli əhali qaçaqları müdafiə edir və gizlədirdi. XIX əsrin sonları - XX əsrin əvvəllərində qaçaq hərəkatı Şimali Azərbaycanda geniş yayılmışdı.

**Qaçaq hərəkatı** - XIX əsrin sonu - XX əsrin ilk rübündə Şimali Azərbaycan kəndlilərinin yerli feodallara və çar hökumətinin milli-müstəmləkə zülmünə qarşı silahlı mübarizə forması. Qaçaq hərəkatı, demək olar ki, Şimali Azərbaycanın bütün ərazisini əhatə etmişdir. Qaçaq hərəkatı XIX əsrin 90-cı illərində xüsusilə geniş yayılmışdı. Dəli Əli və Qənbər Gəncəbasarda, Süleyman və Murtuz Qarabağda, Qaçaq Yusif Zaqatala dairəsində, Qaçaq Nəbi Zəngəzurda, Qaçaq Kərəm Qazaxda və b. çox tanınmışdılar. Qaçaq Nəbi Azərbaycanda xüsusilə tanınan şəxs idi. Qaçaq hərəkatı 1905 - 1907-ci illər birinci rus inqilabı dövründə yenidən gücləndi. Zaqatala dairəsində Qaçaq Yusifin, Gəncə və Qazaxda - Qandal Nağı və Ləzgi Həsənin, Göyçay və Şamaxı qəzalarında Qaçaq Zahidin dəstələri xüsusilə uğurlu fəaliyyət göstərirdi. Birinci Dünya müharibəsi ərəfəsində Qandal Nağı və Məşədi Yolçunun qaçaq dəstələri var idi, Gəncədə Qatır Məmmədin dəstəsi məşhurlaşmışdı. 1914-cü ildə Qatır Məmməd həbs edilib Sibirə sürgün olundu. Birinci Dünya müharibəsinin başlanması Azərbaycanda qaçaq hərəkatını dayandırdı.

**Qaçaq Nəbi** - Yelizavetpol quberniyası Zəngəzur qəzasının Aşağı Mollu kəndində kəndli ailəsində anadan olmuşdur. Ailədə 7 uşaq olduğundan dolanışıqları çox çətin idi. Nəbinin 16 yaşı olanda bəy onun atasını döymüşdür. Gənc Nəbi bəyin üzərinə atılmış, sonra bəyin şikayəti əsasında polis 1890-cı ildə Nəbini həbs etmişdir. Həbsxanadan qaçan Nəbi silahlı kəndli dəstəsi toplayıb, bəylərə və çar məmurlarına qarşı mübarizə təşkil etmişdir. Bir çox illər ərzində Qaçaq Nəbinin dəstəsi Zəngəzur və Naxçıvan qəzalarında xalq zülmkarlarına zərbələr endirmişdir. Çar cəza dəstələri onun qaçaq dəstəsini dağıda bilmirdi. Yalnız Qaçaq Nəbi 1896-cı ildə Kərbəladan qayıdarkən İranda xaincəsinə öldürüləndən sonra onun dəstəsi dağıdıldı. Xalq Qaçaq Nəbi haqqında dastan yaratmış, mahnılar qoşmuşdur.

**Qafqaz Albaniyası** - Şimali Azərbaycan ərazisində qədim dövlət. E.ə. IV əsrin sonları - III əsrin əvvəllərində formalaşdığı ehtimal olunur. Qafqaz Albaniyası şimalda Qafqaz sıra dağları, şərqdə Xəzər dənizi, qərbdə İberiya, cənub-qərbdə Ermənistan, cənubda isə Atropatena ilə həmsərhəd idi. Qədim



downloaded from KitabYurdu.org

Qafqaz Albaniyası müasir Azərbaycan Respublikası, Rusiya Federasiyasının Cənubi Dağıstan və Gürcüstan Respublikasının Alazan vadisini əhatə edirdi. Yazılı tarixi mənbələrin məlumatına görə, Qafqaz Albaniyasında 26 alban tayfası




məskunlaşmışdı. Torpaqların müstəsna münbitliyi əkinçiliyi alban əhalisinin ən mühüm məşğuliyyəti etmişdi. Əlverişli şərait burada həm də maldarlığın inkişafına imkan yaratmışdı. Sənətkarlıq sahəsində metallurgiya, saxsı, şüşə istehsalı və toxuculuq yüksək səviyyədə idi. Su və quru beynəlxalq ticarət yolları Qafqaz Albaniyasından keçirdi. E.ə. III əsrdən Qafqaz Albaniyasında Makedoniyalı İsgəndərin sikkəsinə bənzər yerli gümüş sikkələrin zərb edilməsinə başlanılmışdı. Mənbələrdə Qafqaz Albaniyasında 29 iri şəhərin - Ayniana, Albana, Anariaka, Gelda, Kabalaka, Niqa, Şamaxiya və s. şəhərlərin olması haqqında məlumat verilir. Qədimlərdə Qafqaz Albaniyasının ən iri şəhəri və paytaxtı Kabalaka (müasir Qəbələ) şəhəri olmuşdur. Qafqaz Albaniyasını hökmdar (çar) idarə edirdi. Mənbələrdən bizə məlum olan ilk alban hökmdarı Oroys olmuşdur. Hökmdardan sonra ən hörmətli şəxs Ay ilahəsi - münbitlik ilahəsi məbədinin kahini idi. Strabon İberiya sərhədinə yaxın olan albanların Ay məbədinin və burada insan qurban verilməsi adətinin təsvirini verir. Albanlar icma allahlarının digər qədim inanclarına da sitayiş edirdilər. Hərbi əyanlarla yanaşı, kahinlər Qafqaz Albaniyasının həyatında mühüm rol oynayırdılar. Məbədlərin geniş torpaq sahələri - hiyera xora və asılı kəndliləri - hiyerodulları var idi. Qədim Qafqaz Albaniyasında istehsalçıların böyük əksəriyyəti azad adamlar idi. Yunanıstanda və Romadakı kimi geniş olmasa da, təsərrüfatın bir sıra sahələrində qul əməyindən istifadə olunurdu.

Ermənistanın romalılar tərəfindən tutulmasından sonra onlar zəngin Qafqaz Albaniyasını da işğal etmək və Hindistandan Xəzər vasitəsilə Qara dənizədək olan su ticarət yolunu nəzarət altına almaq istədilər. E.ə. 66 - 65-ci illərdə Roma sərkərdəsi Pompey albanlara iki dəfə zərbə endirsə də, Qafqaz Albaniyasını özünə tabe edə bilmədi. Pompeylə olan birinci savaşa alban hökmdarı Oroys, ikincisinə isə onun qardaşı Kozis başçılıq edirdi. E.ə. 38-ci ildə Roma hökmdarlarından olan Antoninin sərkərdəsi Kanidi də Qafqaz Albaniyasını Zoberin hakimiyyəti illərində özünə tabe edə bilmədi. Eramızın başlanğıcında digər Cənubi Qafqaz ölkələrində olduğu kimi, Parfiyanın Qafqaz Albaniyasında, eləcə də Atropatenada nüfuzu artmağa başlayır və burada Parfiya Arşakilər sülaləsinin kiçik qolıı hakimiyyətə gəlir. Alban tarixçisi Moisey Kalankatlının qeyd etdiyi ənənəyə görə, eramızın I əsrində Qafqaz Albaniyası hökmdar Aran tərəfindən idarə olunurdu. Alban tarixçisinin verdiyi məlumata görə, bu zaman Qafqaz Albaniyasının ərazisi Araz çayından Xunarakerto, yəni İberiyayadək çatırdı. Eramızın I əsrinin 90-cı illərində romalılar hətta Qobustanadək gələ bilmişdilər. Romalıların dəfələrlə Qafqaz



downloaded from KitabYurdu.org

Albaniyasını tutmaq cəhdlərinə baxmayaraq, ölkə öz müstəqilliyini qoruya bilmişdir. I - III əsrlərdə alan tayfaları Qafqaz Albaniyasına tez-tez yürüşlər etmişlər. Alanların yürüşləri nəticəsində Qafqaz Albaniyasının bir çox şəhərləri dağıdılmış, vilayətləri talan edilmişdir. II - III əsrlərdə Roma imperatorları alban hökmdarları ilə dostluq münasibətləri saxlamağa çalışırdılar, hərçənd sonuncular "onların yanına gəlməkdən imtina edirdilər". II əsrin birinci yarısında alban hökmdarı Farasman müharibəyə başlayıb Atropatenanı məğlubiyyətə uğratdı və Ermənistana soxuldu. 227-ci ildə Dərbənd keçidini aşan hunlardan və sabirlərdən ibarət türk tayfalarının ilk dəstələri Xəzər dənizi sahilləri ilə Qafqaz Albaniyasına və Atropatenaya yürüşlər etməyə başladılar.

Digər Cənubi Qafqaz ölkələri kimi, Qafqaz Albaniyası da 262-ci ildə Sasanilər dövlətinin tərkibinə daxil edildi. Lakin Qafqaz Albaniyası özünün nisbi müstəqilliyini və Arşakilər sülaləsinin kiçik qolundan olan hökmdarlarını saxlaya bilmişdi. III əsrin sonları - IV əsrdə Qafqaz Albaniyasının şimalında hun tayfaları məskunlaşmışdı. 313-cü ildə alban hökmdarı Urnayrın hakimiyyəti illərində alban əyanları xristianlığı qəbul etdilər, lakin xalq arasında hələ də bütpərəstlik və zərdüştilik geniş yayılmışdı və bunlar alban xristian hökmdarları tərəfindən sıxışdırılmağa başlandı. Alban kilsəsinin yepiskopları alban hökmdarları tərəfindən təyin olunurdu. V əsrdə Beniamin tərəfindən alban əlifbası tərtib edilmişdi. Bundan sonra Qafqaz Albaniyasında əyan uşaqları üçün xüsusi məktəblər açmağa başladılar. Dini və dünyəvi kitabların alban dilinə tərcüməsinə də elə bu vaxtlar başlamışdılar və bu dövrdə alban ədəbiyyatının özü də meydana gəlmişdir. V əsrin əvvəllərində Dərbənd keçidi vasitəsilə bulqar və sabir türk tayfalarının Qafqaz Albaniyasına axını artmışdı və Sasanilər yerli əhalini buraya qovaraq onlardan Dərbənd keçidində müdafiə tikililərinin inşasında istifadə etməyə başladılar. V əsrin ortalarında Sasani şahı II Yəzdigird zərdüştiliyi Qafqaz Albaniyasında dövlət dini kimi yaymaq məqsədi ilə buraya 700 maq göndərmişdi. Şimaldan köçərilərin tez-tez baş verən yürüşləri ilə bağlı olaraq 463-cü ildən sonra Qafqaz Albaniyasının paytaxtı Qəbələdən Partava köçürülmüşdü. Sasani şahənşahı II Xosrov Mehranilər sülaləsindən olan alban knyazlarına "Girdimanın ağası və Alban ölkəsinin knyazı" titulunu vermişdi. 627-ci ildə Qafqaz Albaniyasına soxulan Bizans imperatoru İrakli onu talan etmiş və xəzərlərlə saziş bağlamışdı. Az sonra Sasanilərin hakimiyyəti altında qalan albanlar xəzərlərə də xərac vermək məcburiyyətində qaldılar. 628-ci ildə Varaz Qriqor Qafqaz Albaniyasının Mehranilər sülaləsindən ilk knyazı oldu. Knyaz Varaz Qriqorun oğlu Cavanşir Qafqaz Albaniyasını Sasanilərdən azad etməyə cəhd göstərdi, lakin bu, Albaniyanın paytaxtı Partavın Sasanilər tərəfindən tutulması ilə nəticələndi. Gürcü knyazı ilə sazişə girən Cavanşir Sasani qoşunlarını Qafqaz Albaniyasından qovdu. Sasanilər dövlətini tutduqdan sonra ərəblər 643-cü ildə ilk dəfə Qafqaz Albaniyasına soxuldular, Dərbəndi və bir sıra digər torpaqları istila etdilər. Ərəblər getdikdən sonra bu torpaqlarda üsyanlar başlandı və ərəblər 644-645-ci illərdə



downloaded from KitabYurdu.org

buraya ikinci dəfə yürüş etdilər. Qafqaz Albaniyasını bütövlükdə tutan ərəblər burada artırılmış yeni xərac normaları müəyyənləşdirdilər. Lakin bir qədər keçdikdən sonra Şirvan əhalisi yenidən üsyana başladı. Üsyan ərəblər tərəfindən yatırıldıqdan sonra Qafqaz Albaniyası Ərəb xilafətinin vassalına çevrildi. 654-cü ildə Cavanşir Bizans imperatorundan Qafqaz Albaniyasını öz təbəəliyinə götürməyi xahiş etdi. Bələncər yaxınlığında ərəbləri məğlubiyyətə uğradan xəzərlər 662-ci ildə Qafqaz Albaniyasına soxuldular, lakin Cavanşir Dərbənd yaxınlığında xəzərlərin yürüşünü dəf edə bildi. İki ildən sonra yenidən yürüşə çıxan xəzərlər bu dəfə ölkəni Kür çayına qədər talan etdilər. Cavanşir xəzərlərlə sülh bağlayıb onların vassalına çevrilmək məcburiyyətində qaldı. 667 və 670-ci illərdə Şama gedən Cavanşir xəlifə I Müaviyə ilə danışıqlar apararaq Qafqaz Albaniyasının daxili idarə sistemində özünün sərbəstliyini saxlaya bilmişdi. 680-ci ildə Cavanşir Bizansla yaxınlaşma tərəfdarları olan alban knyazlarının sui-qəsdi nəticəsində öldürüldü. Cavanşirin qardaşı oğlu Varaz Tiridat Qafqaz Albaniyasının çarı oldu. 680 - 681-ci illərdə yenidən Qafqaz Albaniyasına soxulan xəzərlər bir çox vilayətləri və şəhərləri talan etdilər. VII əsrin axırlarında Qafqaz Albaniyası eyni zamanda üç xalqa - xəzərlərə, ərəblərə və bizanslılara xərac verirdi. Alban kilsəsinin erməni katolikosuna tabe edilməsi də elə bu vaxtlarda baş vermişdir. 705-ci ildə ərəblər alban knyazı və katolikosunun hakimiyyətini ləğv etdilər, Qafqaz Albaniyasının birbaşa idarə olunması isə Ərəb xilafəti canişinlərinin əlinə keçdi.

**Qafqaz müsəlmanlarının qurultayı** - 1917-ci il aprelin 15 - 20-də Qafqaz müsəlmanlarının Bakıda keçirilmiş qurultayı. Qurultay bütün Rusiya müsəlmanlarının birləşdirilməsi şüarı altında keçdi. Qurultayda əsasən Rusiyanın gələcək siyasi quruluşu və kiçik xalqların hüququ məsələləri müzakirə olunurdu. "Müsavat" və "Türk ədəmi-mərkəziyyət" partiyalarının birləşməsinin əsası da elə bu qurultayda qoyuldu. Qurultayın sonuncu günü Qafqazda müsəlman milli komitələrinin təşkili və biri Şimali Qafqaz üçün Vladiqafqazda, digəri isə Cənubi Qafqaz üçün Bakıda iki mərkəzi büronun yaradılması haqqında qətnamə qəbul olundu.

**Qafqaz və Cənubi Qafqaz diyarının idarəçiliyinin dəyişdirilməsi haqqında 1867-ci il fərmanı** - çar hökumətinin 1867-ci ilin dekabrında verdiyi fərman. Fərmana əsasən, başqa quberniyaların bəzi hissələri hesabına mərkəzi Yelizavetpol (Gəncə) olmaqla Yelizavetpol quberniyası yaradıldı. Yelizavetpol quberniyasının tərkibinə Şuşa, Nuxa (Şəki), Yelizavetpol və Zəngəzur qəzaları daxil idi. Hələ 1859-cu ildə Şamaxıda zəlzələ olması ilə əlaqədar quberniyanın mərkəzi Bakıya köçürülmüşdü. Bakı quberniyası Bakı, Quba, Şamaxı və Lənkəran qəzalarından ibarət idi. Sonralar yaradılmış Cavad və Göyçay qəzaları da Bakı quberniyasının tərkibinə daxil oldular. Azərbaycan ərazisində bir az əvvəl yaradılmış Zaqatala hərbi dairəsi də fəaliyyət göstərirdi. Qəza mərkəzlərində polis idarələri yaradılırdı.



downloaded from KitabYurdu.org

**qalxan** (sipər) - döyüşçünün bədənini örtən müdafiə ləvazimatı. Daş dövründən XV - XVII əsrlərədək istifadə olunurdu. Ağacdan, hörülmüş çubuq və qamışdan, dəridən olan qalxanlar tunc və ya dəmir ilə haşiyələnirdi.

**qalxan pulu** - XII - XIV əsrlərdə İngiltərədə rıtsarlar (cəngavərlər) - feod saxlayanlar tərəfindən məcburi hərbi xidmətdən azad edilmək məqsədi ilə verilən hərbi ödəniş. Qalxan pulu vəsaiti ilə kral daimi muzdlu ordu saxlayırdı.

**Qaliley Qalileo** (1564 - 1642) - italyan alimi, dəqiq təbiətşünaslığın banilərindən biri. Təcrübəni idrakın əsası hesab edirdi. Aristotelin dinamika haqqındakı yanlış təsəvvürlərini rədd edərək müasir mexanikanın əsaslarını qoymuşdur: hərəkətin nisbiliyi ideyasını irəli sürmüş, ətalət qüvvəsi, cismin sərbəst düşməsi və mail müstəvidə cismin hərəkəti, hərəkətlərin məcmusu haqqında qanunları açmış, nazim çarxın izoxron hərəkətini (saatlarda kəfkirin rəqsini) aşkar etmiş, ilk dəfə olaraq materialların möhkəmliyini tədqiq etmişdir. İlk teleskopu yaratmış, Ay səthindəki dağları, Yupiterin 4 peykini, Veneranın fazalarını, Günəşin fırlanmasını və üzərindəki ləkələri aşkar etmişdir. Dünyanın heliosentrik sistemini fəal müdafiə etdiyinə görə 1633-cü ildə inkvizisiya məhkəməsinə cəlb edilmişdir. Məhkəmədən sonra Qaliley Kopernikin təlimindən imtina etməyə məcbur olmuşdur. Ömrünün sonlarmı sürgündə keçirmişdir.

**qallar** - Qalliyada məskunlaşmış qədim tayfa. Qallar kelt tayfalarının bir qismi idilər.

**Qalliya** - Avropada Po çayı ilə Alp dağları (Sizalpin Qalliyası) və Alp ilə Aralıq dənizi, Pireney dağları ilə Atlantik okeanı (Transalpin Qalliyası) arasındakı tarixi əyalət. Qədimlərdən kelt tayfalarından olan qallarla məskunlaşmışdı. E.ə. II əsrin sonlarında romalılar Cənubi Qalliyanı tutdular, e.ə. 58 - 51-ci illərdə isə Sezar Qalliyanın qalan ərazilərini zəbt etdi. Romalıların zülmü qalların tez-tez Romaya qarşı üsyanlar etməsinə səbəb olurdu. Eramızın 258-ci ilində Roma imperiyasının kəskin böhran şəraitində Qalliya Romadan ayrıldı və Postumun başçılığı ilə özünün imperiyasını yaratdı. İmperiya 15 il mövcud oldu; əsgər qiyamları ilə baqaudların üsyanlarını yatıra bilməyən onun sonuncu hökmdarı Tetrik 273-cü ildə Roma imperatoru Avreliana təslim oldu və Qalliya imperiya ilə birləşdirildi. 406-cı ildə burqund german tayfası Qalliyada ilk barbar dövləti yaratdı. 418-ci ildə vestqotlar Qalliyada federat (Roma imperiyasının müttəfiqi) hüququnda məskunlaşdırıldı. Qalliyanın tutulması V əsrin sonlarında frank german tayfasının başçısı Xlodviq tərəfindən başa çatdırıldı.

**"qanlı qanunvericilik"** - XV əsrin sonları - XVI əsrdə İngiltərədə "çəpərləmələr" nəticəsində meydana gəlmiş dilənçilərə və səfillərə qarşı yönəldilmiş amansız qanunlar. Həmin qanunlara görə, səfillik üstündə məhkum olunmuş adam damğalana, sürgünə göndərilə və ya asıla bilərdi.

**"qanlı şura"** - ispan kralı tərəfindən Niderland burjua inqilabını yatırmaq məqsədi ilə göndərilən hersoq Alba orada "Qanunsuzluqlar haqqında işlər üzrə



downloaded from KitabYurdu.org

şura" yaratmışdır. Şura minlərlə adamı ölüm cəzasına və müxtəlif cəzalara məhkum etmişdir. Ona görə də xalq onu "qanlı şura" adlandırmışdır.

**qanunlar** — hakimlərin insanlar arasındakı mübahisələri onlara əsasən həll etməli olduqları qaydalar.

**Qanza** (alm. "ittifaq") - alman şəhərlərinin 1356-cı ildə yaradılmış ən iri ticarət ittifaqı. Qüvvətli mərkəzi hakimiyyətin olmaması və siyasi pərakəndəlik şəraitində alman şəhərləri özlərinin ticarət maraqlarını müdafiə etmək məqsədi ilə ittifaqlar yaratmaq məcburiyyətində idilər. Qanza ittifaqına 80-dən artıq alman şəhəri daxil idi və onun baş şəhəri Lübek idi. Qanzanın digər üzvləri arasında Bremen, Hamburq, Köln, Riqa və Tallinn fərqlənirdilər. Qanza Rusiya, Skandinaviya, Niderland və İngiltərə ilə vasitəçilik ticarətini öz inhisarı etmişdi. Qanza tacirlərinin öz dəniz və quru hərbi qüvvələri var idi. Onlar Novqorod, Stokholm, Brügge və Londonda faktoriyalar (ticarət məntəqələri) yaratmışdılar və çox hallarda qonşu ölkələrdə hərbi güc tətbiq etməklə ticarət üçün əlverişli şərait əldə edirdilər. Lakin XV əsrin sonlarında şəhərlər arasındakı rəqabət Qanzanın zəifləməsinə, 1669-cu ildə isə dağılmasına səbəb oldu.

**Qara Yusif** - qaraqoyunlu oğuz tayfasının başçısı, Qaraqoyunlu dövlətinin banisi və padşahı (1410 - 20). Qara Yusif hələ 1391-ci ildə Təbrizə girsə də, sonra rəqibin üstün qüvvələrinin təzyiqi ilə geriyə çəkilmək məcburiyyətində qalmışdı. 1392-ci ildə Qara Yusif yenidən Təbrizə daxil oldu, lakin Teymurləngin yürüşü xəbərini alıb, təkrar şəhəri tərk etdi. Teymurla mübarizə aparmaq məqsədi ilə Qara Yusif Əhməd Cəlairi ilə saziş bağladı, ancaq 1394-cü ildə müttəfiqlər Bağdad yaxınlığında Teymur tərəfindən darmadağın edildilər. Az sonra müttəfiqlər Misirin məmlük sultanının əsirinə çevrildilər, lakin Teymurun ölümündən sonra 1405-ci ildə əsirlikdən buraxıldılar və Azərbaycana qayıtdılar. 1406-cı ilin iyununda böyük qoşun toplayan Qara Yusif Sultan Əhmədlə birlikdə Bağdadı tutdu. Sonra müttəfiqlər şirvanşah I İbrahimin də olduğu Təbrizə doğru hərəkət etdilər. I İbrahim Arazdan yuxarıya çəkilmək məcburiyyətində qaldı, müttəfiqlər isə Təbrizə daxil oldular. Azərbaycanı öz hakimiyyətləri altına qaytarmaq əzmində olan Teymurilər öz qoşunlarını buraya göndərdilər. 1406-cı ilin payızında Əbubəkr Teymuri Təbrizdəki Şam-Qazan adlı yerdə müttəfiqlər tərəfindən məğlub edildi. 1408-ci il aprelin 21-də Azərbaycanın cənubunda baş verən savaşda Qara Yusif Teymurilərin qoşunları üzərində qələbə çaldı, Miranşah öldürüldü. Təbriz qalibə təslim edildi və Sultan Əhməd Cəlairi öz paytaxtına qayıtdı. Lakin sonra Sultan Əhməd Qara Yusifdən yaxa qurtarmaq qərarına gəldi və Qara Yusifin düşmənin öz ərazilərinə hücumlarını dəf etməklə məşğul olduğu bir dövrdə qoşun topladı və hücuma keçdi, amma Qara Yusif təcili olaraq Təbrizə yürüdü və 1410-cu il avqustun 30-da Şam-Qazan yaxınlığında Sultan Əhmədin və onun müttəfiqlərinin qoşunlarını darmadağın etdi. Bundan sonra yeni Qaraqoyunlu dövləti yaradıldı. Feodalları öz tərəfinə çəkmək məqsədi ilə Qara Yusif onlara soyurqallar paylamağa başladı, ona görə də o, güclü süvari qoşun yarada bildi. 1412-ci ilin



downloaded from KitabYurdu.org

sonlarında Qara Yusif Kür sahillərində şirvanşah İbrahimi məğlubiyyətə uğratdı, özünü isə əsir götürdü. Şirvanşah çox böyük ödənc verməyə və özünü Qara Yusifin vassalı hesab etməyə məcbur oldu. Teymurilər 1418-ci ildə Qara Yusifin üzərinə hücuma keçdilər, lakin onun tərəfindən məğlubiyyətə uğradıldılar. 1420-ci ildə Teymurilər yenidən Azərbaycana yürüşə çıxdılar, müharibənin ilk başlanğıcında isə Qara Yusif qəflətən öldü və mübarizəni onun oğlanları davam etdirdilər.

**Qarabağ xanlığı** - 1748-ci ildə Şimali Azərbaycanda Pənahəli xan (1748 - 63) tərəfindən yaradılmışdır. Qarabağ xanlığının mərkəzi Şuşa şəhəri idi. Pənahəli xanın adından pənahabadi adlandırılan pul kəsilirdi. Pənahəli xan Bayat (1748),



Şahbulaq (1751) və Şuşa (XVIII əsrin 50-ci illəri) qalalarını tikdirmişdir. 1748-ci ildə şəkili Hacı Çələbi xan bir ay tamam Bayat qalasını mühasirədə saxladı. Pənahəli xan Qarabağın beş məlikliyini də özünə tabe etdi. 1757-ci ildə Pənahəli xan Qarabağ üzərinə hücum edən Məhəmməd Həsən xan Qacarın üzərində qələbə çaldı. 1759-cu ildə urmiyalı ətəli. xan Əfşar Pənahəli xanı özündən asılı vəziyyətə saldı, amma az sonra özü Kərim xan Zənd tərəfindən məğlub edildi və Pənahəli xan da onun müttəfiqinə çevrildi. Bir qədər sonra Kərim xan Zənd Pənahəli xanı "Şiraz qonaqlığı "na dəvət etməklə, əslində, onu xanlığın idarəsindən kənarlaşdırmışdı. Qarabağ xanlığında hakimiyyət uğrunda İbrahimxəlil ağa ilə Mehrəli bəy arasında mübarizə başlandı və İbrahimxəlil ağanın qələbəsi ilə başa çatdı. O, özünü xan elan etdi (1763 - 1806). İbrahimxəlil xan avar hakimi Umma xanın bacısı ilə evləndi. İbrahimxəlil xanın hakimiyyəti ayrı-ayrı vaxtlarda Naxçıvan, Gəncə və Təbriz xanlıqlarına da yayılmışdı. Rusiya tərəfindən qızışdırılan Qarabağ məlikləri Qarabağda xristian dövləti yaratmaq istəyirdilər və elə buna görə də tabe olmaqdan imtina etdilər, amma İbrahimxəlil xan onların müqavimətini qıra bildi. Məliklər gürcü çarı II İraklinin yanına qaçdılar, o isə 1787-ci ildə Qarabağ xanlığına yürüş təşkil etdi, ancaq bu tədbir 1787 - 91-ci illər Rusiya - Türkiyə müharibəsinin başlanması ilə əlaqədar yarımçıq dayandırıldı. 1795-ci ilin yayında Ağa Məhəmməd xan Qacar Qarabağ xanlığına hücum edib Şuşanı mühasirəyə aldı. 33 günlük uğursuz mühasirədən sonra İran qoşunları Tiflisə doğru hərəkət etdilər. 1796-cı ildə general Zubovun başçılığı ilə rus qoşunlarının Azərbaycana hücumu başlandı. İbrahimxəlil xan öz qardaşı Əbülfət xanı, vəziri Vaqifi və bəyləri hədiyyələrlə Zubovun yanına göndərərək Rusiyaya itaət etdiyini bildirdi. Lakin 77 Yekaterinanın ölümündən sonra I Pavel rus qoşunlarını Azərbaycandan geriyə çağırdı. Bundan sonra 1797-ci ildə Ağa Məhəmməd şah Qacar yenidən Şuşa üzərinə hücum etdi. Bu dəfə Şuşa İran qoşunları tərəfindən tutuldu, İbrahimxəlil xan isə ailəsi ilə birlikdə yardım üçün Car-Balakən camaatına - avar hakimi Umma xanın yanına getdi. İbrahimxəlil xanın qardaşı oğlu, "Batmanqılınc" adı ilə tanınmış Cavanşir bəy sui-qəsd təşkil



downloaded from KitabYurdu.org

etdi və nəticədə Ağa Məhəmməd şah öldürüldü. Onun qətlindən sonra İran qoşunları Arazın o biri tayına keçdilər. Məhəmməd bəy xanlıqda öz hakimiyyətini qurmaq istədi, lakin Qarabağa qayıdan İbrahimxəlil xan qızını İranın yeni şahına ərə verdi və burada öz hakimiyyətini bərpa etdi. Rus qoşunları Car-Balakən camaatını və Gəncə xanlığını tutduqdan sonra İbrahimxəlil xan 1805-ci il mayın 14-də Qarabağ xanlığının Rusiya imperiyasının himayəsi altına keçməsi haqqında Kürəkçay müqaviləsini imzalamaq məcburiyyətində qaldı. 1806-cı il iyunun əvvəllərində I Rusiya - İran müharibəsinin gedişində İran qoşunları Şuşaya yaxınlaşdılar. Bu hadisələr zamanı İbrahimxəlil xan mayor Lisaneviçin başçılığı ilə rus qoşunları tərəfindən öldürüldü. 1822-ci ildə Qarabağ xanlığı bütünlüklə ləğv edildi, onun ərazisi isə Rusiya imperiyasının tərkibinə qatıldı.

**qaragüruhçular** - 1905 - 1907-ci illərdə Rusiyada ifrat monarxiya tərəfdarları olmuş "qara yüzlər" döyüşçü dəstələrinin üzvləri. "Qara yüzlər" hökumətin dəstəyi ilə yaradılmışdı və polislə əlbir şəkildə inqilabçı fəhlələrə, demokratik ziyalılara və onların təşkilatlarına qarşı talançı və bandit yürüşləri keçirirdilər. 1908 - 12-ci illər "Stolipin irticasi' dövründə daha geniş yayılmışdı. "Qaragüruhçu" sözündən ifrat mürtəcc cərəyan və təşkilatların mənfi mənada adlandırılması üçün istifadə edilir.

**qaraqalpaqlar** – Özbəkistan ərazisində yaşayan türkdilli xalq; sayı 200 min nəfərdən artıqdır.

**Qaraqoyunlu** - Azərbaycan ərazisində dövlət (1410 - 68). Baharlı tayfası başda olmaqla ilk vaxtlar Van və Urmiya gölləri arasındakı ərazidə məskunlaşmış köçəri oğuz türk tayfa birliyi tərəfindən yaradılıb. Teymurun Ön Asiyaya yürüşü zamanı qaraqoyunlu tayfaları ona və müttəfiqlərinə - ağqoyunlu tayfalarına qarşı mübarizə apararaq osmanlı türklərinə və Cəlairilərə yardım edirdilər. Teymurun ölümündən sonra qaraqoyunlu tayfasının başçısı Qara Yusif 1408-ci ildə Teymurun oğlu Miranşahı məğlub etməkdə Cəlairilərə kömək etdi, sonra isə 1410-cu ildə Təbriz yaxınlığında Cəlairilərin qoşunlarını darmadağın edib Kür çayından cənuba olan Azərbaycan ərazilərinə, habelə indiki Ermənistana və İraqa sahib oldu. Padşah Qara Yusifin və onun oğlu İsgəndər padşahın dövründə (1420 - 37) Qaraqoyunlu dövləti Teymurilər, Şirvanşahlar və Gürcüstan dövlətləri ilə müharibə aparırdı. 1435-ci ildə qaraqoyunlu qoşunları Teymuri sultanı Şahrux tərəfindən məğlub edildi. Taxta çıxan Cahanşah (1437-67) Teymurilərin vassalı olmaq məcburiyyətində qaldı, lakin Şahruxun ölümündən sonra o, müstəqil hökmdar oldu. 1453 - 57-ci illərdə Qaraqoyunlu dövləti Cənub-Qərbi İranı zəbt etdi. 1467-ci ildə Cahanşahın qoşunları ağqoyunlu tayfaları tərəfindən darmadağın edildi və Cahanşahın özü həlak oldu, 1468-ci ildə isə Qaraqoyunlu dövləti Ağqoyunlu dövləti tərkibinə daxil oldu.

**qaraköynəklilər** - ilk vaxtlar XX əsrin 20-ci illərinin əvvəllərində İtaliyada talançı faşist dəstələrinin iştirakçıları olmuşlar, sonralar isə, ümumiyyətlə, italyan



downloaded from KitabYurdu.org

faşistlərinə, Mussolininin tərəfdarlarına verilmiş ad. Adı faşistlərin İtaliyada geydikləri qara köynəklərdən götürülmüşdür.

**qarantiya** - təminat, zaminlik, zəmanət.

**Qaribaldi** Cüzeppe (1807 - 82) - İtaliyanın xalq qəhrəmanı, general, İtaliyanın birləşdirilməsi uğrunda milli-azadlıq hərəkatında milli-demokratik cinahın rəhbərlərindən biri. 1830-cu illərdə Qaribaldi Sardiniya krallığında baş vermiş üsyanda iştirak etmişdir. Qiyabi olaraq ölüm cəzasına məhkum edilmiş Qaribaldi Cənubi Amerikaya qaçmış və 10 ildən artıq bir dövrdə ispan zülmünə qarşı milli-azadlıq mübarizəsində iştirak etmişdir. 1848-ci ilin yazında vətənə qayıtmış,- 49-cu illər İtaliya inqilabında iştira etmiş və 1849-cu il fevralın 9-da onun təklifi ilə Roma respublika elan olunmuşdur. 1848, 1859, 1866-cı illərdə Avstriya imperiyasına qarşı azadlıq müharibəsində iştirak etmişdir. 1860-cı ildə "Minlər"in yürüşünə başçılıq edərək İtaliyanın cənubunun azad olunmasında iştirak etmiş, nəticədə İtaliya krallığı yaradılmışdır. 1862 və 1867-ci illərdə silahlı qüvvə ilə Romanı fransızların müdafiə etdiyi papanın hakimiyyətindən azad etməyə cəhd göstərmişdir. Fransa - Prussiya müharibəsi dövründə könüllü olaraq Fransanın tərəfində vuruşmuşdur. Qaribaldi İnternasionalın tərəfdarı idi, 1871-ci il Paris Kommunasını alqışlayırdı.

**Qaumata** - Əhəmənilərə qarşı üsyan qaldırmış Midiya maqı. Maq Qaumatanın üsyanı haqqında rəvayətlər Bisütun kitabəsində və "tarixin atası" Herodotun əsərində əks olunmuşdur. Əhəməni şahı Kambiz 3 illik Misir yürüşündə olduğu dövrdə - e.ə. 522-ci il martın 11 -də maq Qaumata şahın kiçik qardaşı Bardiyanın adı altında İranda hakimiyyəti zəbt etmiş, Özünü şah adlandırmış və görünür, Pasarqadada qədim ənənə ilə tac qoymuşdur. Kambiz İrana yola düşmüş, amma səfər zamam naməlum şəraitdə ölmüşdür. Taxtda yerini möhkəmlədən Midiya maqı Qaumata Əhəmənilərə tabe olan bütün xalqları vergi və hərbi mükəlləfiyyətlərdən 3 illiyə azad etmişdi. Görünür, elə buna görə də bütün mənbələrdə eyni tərzdə bildirilir ki, Qaumatanın meydana çıxması sakitliklə qarşılanmışdı. Tarixçilərin bir çoxu isə öz iqamətgahını Midiyada yerləşən Sikayauvatiş qalasına köçürməsi ilə əlaqədar olaraq Qaumatanın çevrilişinin Midiya xarakterli olduğunu mümkün hesab edir. Yəqin ki, maq Qaumata İranda qalmaqdan ehtiyatlanırmış. Yeddi fars əyan nəslinin başçıları Qaumataya qarşı sui-qəsd təşkil etdilər. E.ə. 522-ci il sentyabrın 29-da - Qaumatanın altı ay yarımlıq hakimiyyətindən sonra Mitra allahı şərəfinə bayram zamanı saraya soxulan qəsdçilər qəflətən Qaumatanın üzərinə atıldılar. Maq Qaumata qəsdçilərdən var qüvvəsi ilə müdafiə olunsa da, sonda qətlə yetirildi. Qəsdçilər Daranı özlərinə şah seçdilər və o, I Dara adı ilə Əhəməni hökmdarı oldu.

**Qavqamela** - Arbela şəhəri (Mesopotamiya) yaxınlığındakı Qavqamela kəndi yanında e.ə. 331-ci il oktyabrın 1-də (tarix dəqiq məlumdur, çünki döyüşdən 11 gün əvvəl Ay tutulmuşdur) Makedoniyalı İsgəndərlə Əhəməni şahı III Daranın qoşunları arasında həlledici döyüş olmuşdur. Farslara tabe olan bütün xalqlardan



downloaded from KitabYurdu.org

Əhəməni qoşunlarına dəstələr cəlb edilmişdi. Əhəməni qoşunları arasında Midiya satrapı Atropatın başçılığı ilə midiyalılar da var idi. "Kadusilər, albanlar və sakesinlər" də bunların tərkibində idi. Döyüşdən əvvəl İsgəndər döyüşçülərinə istirahət verdi, özünə və qoşunlarına güvənməyən Dara isə bütün gecəni əsgərlərini döyüşə tam hazır vəziyyətdə saxladı. Farsların say çoxluğunu və yeni güclü qoşun növlərinin – dəryazlı cəng arabasının və fillərin olduğunu görən İsgəndər ordunun cinahlarının mühasirəsinin qarşısını almağa çalışdı, belə ki, farsların cəbhə xətti makedoniyalıların cəbhə xəttindən xeyli uzun idi. Dara əvvəlcə atlıları hücuma çıxardı, amma istənilən uğuru əldə edə bilmədi. Belə olduqda isə fars ordusunun onun cinahlarını tutmaq cəhdi ilə uzadıldığından istifadə edən İsgəndər özü şəxsən döyüşçülərini hücuma apardı. Makedoniyalıların III Daranın qoruyucuları üzərinə hücum etməsindən sonra isə sonuncu qorxusundan döyüş meydanından qaçdı. Farsların makedoniyalıların falanqasını yarmalarına baxmayaraq, Daranın qoşunları sarsılmışdı. Farsların düşərgəsində qarışıqlıq düşdü və möhtəşəm Əhəməni ordusu darmadağın olundu. Makedoniyalılar farsları Arbelaya qədər təqib etdilər. Dara və onun bəzi satrapları kiçik qoşun dəstəsi ilə Ekbatanaya tərəf çəkilə bildilər. Farsların Qavqamela yaxınlığındakı məğlubiyyətlərindən sonra nəhəng Əhəmənilər dövləti süqut etdi.

**Qay Qrakx** - e.ə. 123-cü ildə Qədim Roma xalq tribunu, Tiberi Qrakxın qardaşı. Qay Qrakx torpağın yoxsullar arasında bölüşdürülməsini davam etdirmişdir. Qay çalışırdı ki, senatın hakimiyyətini məhdudlaşdırsın və yoxsulların dövlətin idarə olunmasına cəlb edilməsinə imkan yaratsın. Lakin senat vəd verməklə Qayı müdafiə edən yoxsulların bir qismini öz tərəfinə çəkə bildi. Qayın tribun vəzifəsinə seçilməsi müddəti başa çatdıqdan sonra isə senat və konsul Qaya və onun tərəfdarlarına qarşı qoşun göndərdilər. Senat vəd etdi ki, Qayın başına görə onun çəkisi qədər qızıl veriləcək. Qay Qrakx və onun 3 min tərəfdarı öldürüldü.

**Qazaka** və ya Qanzaka şəhəri - Atropatena dövlətinin paytaxtı. Qazaka Ekbatana şəhəri ilə Araz çayı arasında yarıyolda, müasir Miandob şəhərindən bir qədər şərqdə yerləşirdi. Tarixçilər güman edirlər ki, şəhərin adı Midiya dilindəki "qanza" - "xəzinət sözündən əmələ gəlib. Qazaka mühüm tranzit ticarət yolu üzərində yerləşirdi. Mühüm sənətkarlıq və ticarət mərkəzi idi. Zoroastrizmin (zərdüştiliyin) əsas mərkəzlərindən biri - iri od məbədi Adurquşnasp Qazakada yerləşirdi. Bu məbədin kahinləri 10 minə qədər adamın çalışdığı geniş torpaq sahələrinə malik idilər. Ərəb müəlliflərinin məlumatına görə, Sasani şahənşahları tacqoyma mərasimi zamanı Mədaindən buraya piyada gəlib atəşgahı ziyarət edirdilər. Sasanilərin Bizans ilə müharibəsi dövründə - 622-ci ildə Qazaka bizanslılar tərəfindən dağıdılmışdır.

**Qazaniyyə** - XIV əsrdə Təbrizdə Hülakülər elxanı Qazan xan üçün inşa edilmiş. memarlıq kompleksi.



downloaded from KitabYurdu.org

**qazı** (ər. "qazi") - hökmdar tərəfindən (əvvəlcə - xəlifə) təyin olunmuş və şəriət əsasında ədaləti bərqərar edən müsəlman məmur-hakimi. VIII əsrin ikinci yarısında baş qazı - qazı əl-qudat vəzifəsi təsis edilmiş və ona tapşırılmışdır ki, xilafətin bütün qazılarını xəlifənin adından təyin etsin və onların qərarları üzrə şikayətlərə baxsın.

**Qazıbəyi** - şirvanşah Sultan Məhəmməd Qazı bəyin dövründə kəsilmiş pul-dinara bərabər tutulurdu.

**qazi** - qəzavat iştirakçısı.

**Qazi Məhəmməd** - müridizm tərəfdarı, Dağıstan və Çeçenistanın ilk imamı (1828-ci ildən). Qazi Məhəmməd dağlıları qəzavat şüarı altında rus müstəmləkəçilərinə qarşı mübarizəyə çağırırdı. 1831-ci ildə çar qoşunu dəstələri üzərində bir sıra qələbələr əldə etdi. Üstünlük təşkil edən çar qoşunlarının təzyiqi altında dağlıq Dağıstana çəkilmişdi. Gimri aulu yaxınlığında savaşda həlak olmuşdur.

**qezit** - Sasanilər dövlətində alınan can vergisi. Bu vergi növünü ərəblər onlardan "cizyə" adı ilə mənimsəmişlər.

**qeyri-bərabər müqavilə** - güclü dövlətin birtərəfli qaydada müəyyən öhdəlikləri daha zəif dövlətə zorla qəbul etdirdiyi müqavilə.

**qeysər** (lat. "sezar", yun. "kaysar", alm. "kayzer", slav. "tsesar", "çar") - Qay Yuli Sezarın şəxsi adı; Roma və Bizans imperatorları tərəfindən özlərinə titul kimi qəbul edilmişdir.

**qəbalə** (ər. "qəbalə" - "qəbz", "öhdəlik") - 1) borcla bağlı olaraq şəxsi asılılıq forması. Borcu vaxtında qaytara bilməyən insan borc köləliyinə və ya şəxsi asılılığa düşürdü; 2) məcazi mənada - zülm, ağır asılılıq.

**Qəbələ** - qədim şəhər-qala, bəzi mənbələrə görə, Kabala və ya Kabalaka (müas. Qəbələ); VI əsrədək Qafqaz Albaniyasının paytaxtı olmuşdur. Qəbələ əkinçilik üçün əlverişli olan yerdə salınmışdı. Güman edilir ki, şəhər e.ə. III əsrdə



inşa olunmuşdur. Qəbələ yaxşı möhkəmləndirilmişdi. Arxeoloqlar uzunluğu 1,5 km, qalınlığı - 15 m, hündürlüyü isə 6 m-dək olan cənub mühafizə divarlarının qalıqlarını aşkar etmişlər. Qafqaz Albaniyası paytaxtının küçələrinə daş döşənmişdi. Şəhərdə üstü kirəmitlə örtülmüş çoxlu ev var idi. Arpa və buğda saxlamaq üçün ayrı-ayrı taxıl anbarları var idi. Kifayət qədər bir neçə iri ev çiy kərpicdən inşa olunmuşdu. Diqqəti xüsusilə cəlb edən sütunlu binalar kompleksi, yəqin ki, hökmdar sarayıdır. Qəbələnin yaxınlığında ellin dövrünə aid böyük pul dəfinəsi aşkar edilmişdir. Plini antik Qəbələni "Albaniyada birincilik edən şəhər" adlandırmışdır. Qəbələ Qafqaz Albaniyasının iri inzibati, ticarət-sənətkarlıq və mədəniyyət mərkəzi idi. Qəbələ XV əsrədək iri ticarət mərkəzi kimi qalmaqdaydı. XVI əsrdə Qəbələ şəhəri Səfəvilər tərəfindən dağıdıldı. Qəbələ



downloaded from KitabYurdu.org

şəhəri içqalasının xarabalıqları 2,5 ha-dək sahəni əhatə edir, məbəd və yaşayış evləri ilə birlikdə isə şəhərin ümumi sahəsi 50 ha-dəkdir.

**qəbilə, qəbilə (nəsil) icması** - bax: nəsil, nəsil (qəbilə) icması.

**Qədim qəbirlər** - qədim insan qəbirləri. Arxeoloqlar belə qəbirləri bir neçə növə bölürlər: kurqanlar, torpaq qəbirlər, dolmenlər, sərdabələr. Arxeologiya üçün qəbirlərin tədqiq olunması xüsusilə vacibdir, çünki belə araşdırma bizim əcdadlarımızın mənəvi həyatını rekonstruksiya etməyə imkan verir. Qəbirlər həm də dəfn olunanların iqtisadi və ictimai vəziyyəti haqqında qiymətli materiallara malikdir. Qəbirdən çıxarılan material sənətkarlığın inkişaf səviyyəsi və sakinlərin məşğuliyyəti haqqında da məlumat verir.

**Qərbi Roma imperiyası** - Roma imperiyasının qərb və şərq hissələrinə parçalanması tendensiyası hələ eramızın III əsrində meydana çıxmışdı. Qəti parçalanma isə 395-ci ildə baş verdi. Qərbi Roma imperiyasının paytaxtı əvvəlki kimi Roma oldu. Qərbi Roma imperiyası sonuncu imperator Romul Avqustulun 476-cı ildə german muzdlularının başçısı Odoakr tərəfindən devrilməsindən sonra barbarların zərbələri nəticəsində süqut etdi. Bundan sonra onun ərazilərində bir çox barbar dövlətləri yarandı.

**qəsbetmə** (ekspropriasiya) - zor gücünə hakimiyyəti ələ keçirmək, nəyə isə olan özgə səlahiyyətini və ya özgə hüququnu mənimsəmə.

**qəsidə** - Şərq ölkələrində mədhiyyə xarakterli klassik şer forması.

**Qəsri-Şirin** müqaviləsi (1639) - 1639-cu il mayın 17-də Səfəvilər dövləti ilə Osmanlı imperiyası arasında, Səfəvilərin səfiri San xan və Osmanlı səfiri Qara Mustafa paşanın Qəsri-Şirində imzaladıqları müqavilə. Qəsri-Şirin müqaviləsi Amasya (1555) və İstanbul (1612) müqavilələrinin şərtlərini təsdiq edirdi. Həmin müqavilənin şərtlərinə görə, bütün Azərbaycan, Gürcüstan və Ermənistanın çox hissəsi, habelə Kürdüstan Səfəvilər dövlətində qalırdı.

**qətnamə** - hər hansı kollegial orqan tərəfindən (şura, iclas, konfrans, qurultay) qəbul olunmuş qərar.

**qəzavat** (ər. "qəzva" - "yürüş") - cihadın adlarından biri. Məhəmməd peyğəmbərin başçılığı ilə müsəlmanların Mədinədən öz rəqiblərinə qarşı təşkil etdikləri ilk yürüşləri qəzavat - "din uğrunda müharibə" adını almışdı. Qəzavat haqqında təlim Ərəb xilafətinin yaranması dövründə inkişaf etdirildi və ərəblər tərəfindən aparılan işğalçı müharibələrin əsaslandırılmasına xidmət edirdi. Müsəlman üçün qəzavatda iştirak etmək müqəddəs borc hesab olunurdu. Qəzavat zamanı həlak olanlar şəhid elan edilir və onlar üçün, guya, cənnətdə yer ayrılırdı. Sonralar qəzavat ideyasından Türkiyə (Osmanlı) sultanları istifadə etmişlər. Sonrakı mərhələlərdə qəzavat ideyasından müsəlman ruhanihri tərəfindən müstəmləkəçilərə qarşı mübarizədə (Şimali Qafqaz dağlılarının rus müstəmləkəçiləri əleyhinə, Sudanda məhdiyyəçilərin ingilis müstəmləkəçilərinə qarşı üsyanları və s.) bir xalq şüarı kimi istifadə olunmuşdur. Rusiyada vətəndaş



downloaded from KitabYurdu.org

müharibəsi illərində qəzavat şüarı ilə Dağıstan və Çeçenistan əhalisi, Orta Asiya basmaçıları və b. bolşeviklərə qarşı çıxış etmişlər.

**Qəzəl** - bir çox Şərq xalqlarında lirik şer forması.

**Qəzvini Həmdullah** (1281 - 1350) - Azərbaycan tarixçisi və coğrafiyaşünas. Əsas əsərləri: "Zeyl-i tarix-i güzidə" ("Seçilmiş tarixin davamı") və "Nüzhət əl-qülub" ("Qəlblərin əyləncəsi").

**qılıncdarlar** - Baltikyanı ölkələri zəbt etmək üçün 1202-ci ildə əsası qoyulan alman katolik dini-rıtsar ordeninin üzvləri. 1237-ci ildə qılıncdarlar litovlar tərəfindən məğlub edildikdən sonra isə ordenin qalıqları Tevton ordeni ilə birləşərək Livoniya ordenini yaratmışlar.

**qıpçaqlar** - XI əsrin ortalarında Volqa ilə Dunay arasındakı Qara dənizin şimal sahilləri çöllərində meydana çıxmış türk xalqı. Qıpçaqların əsas məşğuliyyəti köçəri maldarlıq və müxtəlif sahələr üzrə sənətkarlıq idi. Qıpçaqlar arasında da feodallar meydana gəlmişdi. Onlara xanlar başçılıq edirdilər, bəylərə - sıravi



döyüşçülərə rəhbərlik edən sultanlar (knyazlar) da onlara tabe idilər. 1055-ci ildən XIII əsrin əvvəllərinə qədər qıpçaqlar Kiyev Rusu və Bizans imperiyasına yürüşlər edirdilər. Qıpçaqların XI əsrin sonlarında edilmiş yürüşləri daha güclü idi. 1094-cü ildə Kiyev knyazı Svyatopolk qıpçaqlarla (poloveslərlə) sülh bağlaya bildi və Tuqorkan xanın qızını almaqla bu sülhü daha da möhkəmlətdi. 1103 - 16-cı illərdə Kiyev knyazı Vladimir Monomaxın başçılıq etdiyi rus qoşunları tərəfindən məğlub ediləndən sonra qıpçaqların (poloveslərin) Kiyev Rusuna yürüşləri kəsildi. Bu məğlubiyyətdən sonra qırx minədək qıpçaq Qafqaza köçdü və sonra gürcü çarı Qurucu Davidə xidmət etməyə başladı. XII əsrin ortalarında qıpçaq (poloves) xanları ilə rus knyazları arasında sülalə nikahları çoxaldı, bir sıra qıpçaq qəbilələri xristianlığa keçməyə başladılar. XII əsrin ikinci yarısından qıpçaqlar (poloveslər) rus knyazlarının ara müharibələrində iştirak etməyə başladılar. 1183-cü ildə qıpçaqları (polovesləri) ağır məğlubiyyətə uğradan rus (varyaq) knyazları Svyatoslav və Rürik Kobyak xanı öldürdülər. 1185-ci ildə başqa rus knyazları ilə ittifaqda olan knyaz İqor Svyatoslaviç qıpçaqlar (poloveslər) üzərinə uğursuz yürüş keçirdi. Qıpçaqlar (poloveslər) rus knyazlarını məğlubiyyətə uğradıb əsir götürdülər. Knyaz İqorun darmadağın edilməsindən sonra qıpçaqlar (poloveslər) başda Konçak və Qzak xanlar olmaqla rus knyazlıqlarına yürüşə çıxıb onları talan elədilər. Bu hadisələr "İqor polku haqqında dastan"da təsvir olunub. Rus knyazları ilə ittifaqa girən qıpçaqlar (poloveslər) 1223-cü ildə Kalka çayı sahilindəki döyüşdə Cəbə və Subutayın başçılıq etdikləri monqol-tatar qoşunları tərəfindən darmadağın olundular. Sonralar qıpçaqların çox hissəsi Qızıl Ordanın tərkibinə daxil oldu, qalan hissəsi isə Macarıstana köçdü. Mənbələrin verdiyi məlumata görə, Qara



downloaded from KitabYurdu.org

dənizin şimal sahilləri çöllərində "tatarlarla qıpçaqlar qarışdılar və qohum oldular və onların hamısı qıpçaq oldu, sanki onlar bir qəbilədən idilər".

**Qırmızı Xaç** - dünyanın bir çox ölkələrində mövcud olan xəstə və yaralı döyüşçülərə könüllü yardım cəmiyyətlərini birləşdirən beynəlxalq təşkilat; dinc vaxtlarda təbii fəlakətlərdən zərər çəkənlərə yardım edir və müxtəlif xəstəliklərə qarşı əhali arasında (əsasən zəif inkişaf etmiş ölkələrdə) vaksinasiya işi aparır.

**"qırmızısarıqlılar" üsyanı** - 1351-68-cı illərdə Çində baş vermiş üsyan. Azadlıq müharibəsinə çevrilən həmin üsyan Yuan monqol sülaləsinin devrilməsi ilə nəticələndi. Üsyançıların fərqləndirici nişanları qırmızı sanq olduğundan üsyanın adı da onunla əlaqələndirilmişdir. Üsyanın əsas rəhbərlərindən biri Çju Yuan-çjan olmuşdur. "Qırmızısarıqlılar" üsyanı nəticəsində işğalçı monqollar Çindən qovulmuşdur.

**"qırmızıqaşlılar" üsyanı** - imperator Van Manın torpaq islahatı keçirməsi ucbatından xalqın vəziyyəti xeyli ağırlaşdığından yoxsul kəndlilərin və qulların Çində (eramızın 17 - 27-ci illəri) baş vermiş böyük üsyanı. Üsyançılar qaşlarını qırmızı rənglə boyamışdılar ki, hökmdarın döyüşçülərindən fərqlənsinlər. Üsyana kəndli Fan Çun başçılıq edirdi. Üsyançıların qoşunlarında ciddi nizam-intizam yaradılmışdı. Əvvəlcə "qırmızıqaşlılar" uğur qazandılar - onlar hökumət qoşunlarını bir neçə ağır məğlubiyyətə uğratdılar. Eramızın 25-ci ilinin yayında "qırmızıqaşlılar" Çinin paytaxtı Çanjanı tutdular, lakin kəskin ərzaq çatışmazlığı ucbatından 26-cı ilin sonlarında şəhəri tərk etdilər. 27-ci ilin əvvəllərində "qırmızıqaşlılar" ciddi məğlubiyyətə uğradılar - onlar ağır itkilər verdilər və orduları dağıldı. Az sonra üsyançıların qalıqları məhv edildi.

**"Qız qalası"** - XII əsrdə memar Məsud ibn Davud tərəfindən inşa edilmiş orta əsr Azərbaycan memarlıq abidəsi. Qalanın əsas silindrik hissəsinin hündürlüyü



28 m, diametri 16 - 16,5 m-dir, şərqə tərəf dayaq divarı kimi orijinal çıxıntılıdır, fasadı üfqi xətt boyunca batıq və çıxıntılı hörülmüşdür. Əsas qalanın daxili məkanı 8 mərtəbəlidir. Qalanın cənub-şərq divarının içərisində yuxarı meydançayadək gedən pilləkənlər vardır. Pilləkəndə müəyyən aralarda ox atmaq üçün yarıqlar vardır. Əsas qalaya daha iki - həcmcə kiçik qala yapışıqdır. "Qız qalası" adlı qalalar Azərbaycanın başqa yerlərində də mövcuddur.

**Qızıl Orda** - əsası XIII əsrin 40-cı illərinin əvvəllərində Batı (Batu) xan tərəfindən qoyulmuş monqol-tatar xanlığı. Qərbi Sibir, Şimali Xarəzm, Volqa Bulqariyası, Şimali Qafqaz, Krım, Volqadan Dunayadək olan çöllər Qızıl Ordanın tərkibinə daxil idi. Rus knyazlıqları Qızıl Ordadan vassal asılılığında idilər və üzərlərinə böyük xərac qoyulmuşdu. Qızıl Orda orta əsrlərin ən böyük dövləti idi. Qızıl Ordanın paytaxtları: Saray-Batu, XIV əsrin birinci yarısından - Saray-Bərkə (Aşağı Volqaboyunda). XIV əsrin birinci yarısında Özbək xanın dövründə Qızıl



downloaded from KitabYurdu.org

Ordada islam qəbul olunmuş və dövlət möhkəmlənmişdi. Özbək xanın Ölümündən sonra ara müharibələri qızışdı. Artıq XIV əsrin sonları - XV əsrin əvvəllərində Qızıl Orda Sibir, Kazan, Həştərxan, Krım və başqa xanlıqlara parçalanmışdı.

**qızıl standart** - inkişafın müəyyən mərhələsində bir çox ölkələrdə mövcud olmuş pul sistemi. Bu zaman yalnız qızıl ümumi ekvivalent və pul ifadəsinin birbaşa dəyəri kimi istifadə olunurdu. Böyük Britaniyada qızıl standart XVIII əsrin axırlarında, bir çox başqa ölkələrdə isə XIX əsrin sonlarında tətbiq edilmişdir. Qızıl standart üçün qızıl pulların sərbəst kəsilməsi və dövriyyəyə buraxılması, kağız pulların qızıla (külçə və ya sikkəyə) dəyişdirilməsi xarakterikdir. Qızıl standart praktik olaraq XX əsrin 30-cu illərində ləğv edilmişdir.



**qızılbaşlar** – Ərdəbil şeyxi Heydərin yaratdığı ordunun döyüşçüləri. Qızılbaşlar 12 şiə imamı şərəfinə 12 qırmızı zolaqlı çalma bağladıqları üçün belə adlanırdılar. XVII - XVIII əsrlərdə Səfəvilərin süvari qoşunlarının əsasını təşkil edirdilər.

**qızılboya** - orta əsrlərdə Azərbaycanda boyaqotu (marena) kökündən əldə edilən qırmızı rəng. XIX əsrin axırlarında süni boya - alizarin ixtira olunana qədər öz keyfiyyəti ilə seçilir, toxuculuq və xalçaçılıqda geniş istifadə edilirdi.

**"Qızılqaya xəyanəti"** - Hacı Çələbixanın dövründə Şəki xanlığının qüvvətlənməsi onun qonşularını, xüsusilə də gürcü çarı II İraklini çox narahat edirdi. 1791-ci ildə gürcü qoşunları Şəki xanlığına soxuldular, lakin məğlub oldular. Belə olduqda II İrakli Azərbaycan xanları ilə danışıqlara başladı və Hacı Çələbi xana qarşı onlarla ittifaq bağlamağı təklif etdi. Az sonra çar II İrakli ilə qarabağlı Pənahali xan, gəncəli Şahverdi xan, qaradağlı Kazım xan, naxçıvanlı Heydərqulu xan və irəvanlı Hüseynqulu xan arasında saziş təşəkkül tapdı. Xanlar İraklinin qoşunları ilə birləşmək üçün Gəncəyə yaxınlaşdılar; 1752-ci ilin martında onlar Qızılqaya adlanan yerdə İraklinin qoşunları tərəfindən xaincəsinə əsir götürüldülər. Beləliklə, İrakli həmin xanlıqları özündən asılı vəziyyətə salmağa səy göstərdi. Amma Nizaminin qəbri yaxınlığında Hacı Çələbi xanın onunla savaşda qələbə çalmasından sonra əsir götürülmüş xanlar azad edildilər. Bu hadisələr tarixə "Qızılqaya xəyanəti adı ilə düşdü.

**qiyam** - ölkədə mövcud olan hakimiyyətə qarşı dövlət çevrilişi etmək məqsədi ilə hərbi qruplaşmaların silahlı çıxışı. Adətən müvəffəqiyyət əldə ediləndə hərbi diktaturanın qurulması, demokratik təsisatların dağıdılması və kütləvi terrorla nəticələnir. qiymət - malın dəyərinin pulla ifadəsı.

**qiymət maksimumu** - Böyük Fransa burjua inqilabı dövründə qiymət və əmək haqqının siyasi qeydə alınması sistemi. Qiymət və əmək haqqının maksimumu tətbiq edilmiş, 1794-cü il termidor çevrilişindən sonra isə ləğv olunmuşdur.



downloaded from KitabYurdu.org

**QİYŞ** (Qarşılıqlı İqtisadi Yardım Şurası) - sosialist ölkələrinin 1949-cu ildə yaradılmış beynəlxalq iqtisadi təşkilatı. QİYŞ-in tərkibinə Bolqarıstan, Macarıstan, Vyetnam, ADR, Kuba, Monqolustan, Polşa, Rumıniya, SSRİ, Çexoslovakiya daxil idilər. Sosialist sistemi dağıldıqdan sonra QİYŞ də dağıldı.

**qladiatorlar** - Qədim Romada silah işlətməyi bacaran nisbətən çevik və qüvvətli qullar və ya məhkum olunmuş cinayətkarlar tamaşaçıların əyləndirilməsi üçün bir-biri ilə vuruşmağa məcbur edilirdi. İlk vaxtlar etruskların təsiri altında Romada meydana gəlmiş qladiator oyunları ayin xarakteri daşıyırdı, amma sonralar camaat üçün əyləncəyə çevrildi. Qladiatorları xüsusi qladiator məktəblərində ciddi rejimlə öyrədirdilər. Qladiator döyüşləri üçün amfiteatrlar inşa etməyə başladılar. Bayram günlərində həmin səhnələrdə qladiatorların təkbətək, hətta iri dəstələr arasında döyüşləri keçirilirdi. Cəsarətlə vuruşmayan qladiatorları şallaq zərbələri və nizə yaraları vurmaqla döyüşə qovurdular. Məğlub olmuş və sağ qalan qladiatorun taleyi tamaşaçıların istəyindən asılı idi. Tamaşaçılar əllərinin böyük barmağını dik tutardılarsa, məğlubu sağ saxlayardılar; böyük barmağı aşağı əyərdilərsə, qalib onu öldürürdü. Qladiatorların aslan, pələng və digər vəhşi heyvanlarla təkbətək döyüşləri də təşkil edilirdi. Qladiator döyüşləri eramızın V əsrinədək Romada ən populyar tamaşa olaraq qalırdı. Qladiatorlar tez-tez qulların üsyanlarının təşəbbüsçüsü olurdular. Belə üsyanlardan ən irisi Spartakın başçılığı ilə olan üsyan idi. Qladiator döyüşləri oma imperatoru I Konstantin tərəfindən qadağan edildi.

**qlobal** - ümumi, bütün Yer kürəsini əhatə edən.

**Qobustan** - Azərbaycan Respublikasında Bakı yaxınlığında məskən. Arxeoloqlar burada çaxmaqdaşından və heyvan sümüklərindən hazırlanmış böyük



miqdarda əmək alətləri aşkar etmişlər. Bu tapıntılar əsasında qənaətə gəlmişlər ki, insanlar Qobustanda 12 min ilə yaxın məskunlaşmışlar. Qobustanda 4 mindən artıq qayaüstü təsvir aşkar edilmişdir. Bunların ən erkənləri neolit dövrünə aiddir. Bu, günəş və ulduzlar, kişi və qadın, qayıq, heyvan və balıq təsvirlərindən ibarətdir. Bəzi təsvirlərdə kollektiv əmək, ov, məişət, ümumi rəqs (müasir Azərbaycan xalq rəqsi "Yallı"ya oxşar) və s. əks olunub. Qobustanı "Daş əsrinin şəkil qalereyası" adlandırırlar. Burada eramızın 1 əsrində Roma imperatoru Domisianın legionlarından birinin senturionu (yüzbaşı) tərəfindən daş üzərində qazılmış latınca yazı da aşkar edilib.

**qolçomaq** - Rusiya imperiyasında və SSRİ-nin yaradıldığı ilk illərdə mövcud olan varlı kəndlilər.

**Qomindan** - Çində 1912-ci ildə Sun Yatsen tərəfindən yaradılmış milli siyasi partiya. Əvvəllər mütərəqqi rol oynamışdır, sonralar - inqilab yatırıldıqdan və 1927-ci ildən hakimiyyətin Çan Kayşiyə keçməsindən sonra xarici kapitalla sıx



downloaded from KitabYurdu.org

əlaqədə olan mürtəce burjua-mülkədar hakim-partiyasına çevrildi. Çinin qitə hissəsində Qomindan hakimiyyəti 1949-cu ildə devrildi. Qomindan yalnız Tayvanda hakim partiya kimi qaldı.

**qonşu icması** - insanın oturaq həyat tərzinə keçməsi ilə formalaşmağa başlamışdır. Ox və kamanın ixtira edilməsi ovçuya öz ailəsini ərzaqla təklikdə təmin etmək imkanı verdi və qəbilə icmasından asılılığını azaltdı. Təxminən elə bu dövrlərdə insanlar əkinçiliyi öyrənməyə başladılar. İlk kənd təsərrüfatı əmək alətləri çox primitiv, əmək şəraiti isə çox ağır olduğundan qohumlardan başqa, icmaya tədricən qonşular da daxil oldular və beləliklə, birliyin yeni növü - qonşu icması yaranmağa başladı. Tarixçilər qonşu icmasının üzvlərini icma kəndliləri adlandırırlar.

**Qor** - Qədim Misirdə fironların himayəçisi kimi sitayiş edilən səma və Günəş allahı. Qor Osirislə İsidanın oğlu idi. Əfsanəyə görə, Set tərəfindən xaincəsinə öldürülmüş Osirisdən hamilə qalan İsida Nilin deltasındakı bataqlıqlarda gizlənərək oğlunu doğub tərbiyə etmişdir. Set ilə savaşda Qor əvvəlcə məğlub olur - Set onun gözünü çıxarır; lakin ağır və sürəkli mübarizədən sonra Qor Setə qalib gəlir. Qor öz gözünü Osirisə verir və o, gözü uddıqdan sonra di-rilir. Dirilmiş Osiris özünün Misirdəki taxt-tacını Qora verir, özü isə o biri dünyanın hökmdarı olur. Qor şahin başlı insan və ya qanadlı günəş kimi təsvir olunurdu.

**"Qordi düyünü"** - Qordi Kiçik Asiyada Frigiya dövlətinin əfsanəvi hökmdarı idi. Rəvayətə görə, o, paytaxtı Qordionda boyunduruğu mürəkkəb ilgəklərlə düyünlənmiş araba qoyubmuş. Belə hesab olunurmuş ki, kim "Qordi düyünü"nü aça bilsə, o, Asiyanın hökmdarı olacaq. Onu açmağa cəhd göstərən Makedoniyalı İsgəndər də ona qədər çalışanlar kimi istəyinə çata bilmir. Bu zaman o, "Qordi düyünü"nü qılıncı ilə doğrayır. Dövrümüzdə işlədilən "Qordi düyününü doğramaq" ifadəsi hər hansı qarışıq məsələni başa çatdırmaq mənasını bildirir.

**qotika** (hərfən - qotlara məxsus; qot tayfasının adından götürülmüşdür) - XII əsrin ortaları - XVI əsrin memarlıq üslubu. Roman üslubunu əvəz edən qotika incəsənəti də əsasən dinlə bağlı idi. Orta əsrlərdə kilsə hakimiyyəti o qədər güclənmişdi ki, hətta krallar da ona tabe idilər. Avropanın müxtəlif şəhərlərində nəhəng məbədlər tikilmişdi. Aparıcı arxitektura növü oxvarı pəncərə və vitrinləri və portalları, əyilmiş heykəllərə, mürəkkəb naxışlara malik əzəmətli və yaraşıqlı qüllələri olan şəhər cameələri idi. XV -XVI əsrlərdə qotikanı İntibah əvəz edir.

**qotlar** - qədim german tayfalarından biri. II əsrin sonları - III əsrin əvvəllərində Markoman müharibələri nəticəsində qotların şərqi german tayfaları Şimal-Qərbi Avropadan Qara dəniz istiqamətində hərəkət etdilər. Qotlar Qara dənizin şimal ətrafında tərkibinə əsasən skitlərin və sarmatların da daxil olduğu öz tayfa ittifaqlarını yaratdılar. Bu tayfa ittifaqı III əsrin ortalarında Bospor çarlığını tutdu. III əsrin ortalarında qotlar Roma imperiyasının şərq (Balkan) əyalətlərinə soxulmağa başladılar, III əsrin 50 - 70-ci illərində isə Afina, Korinf və s. yunan



downloaded from KitabYurdu.org

şəhərlərini qarət etdilər, habelə Dunay ətrafındakı Dakiya vilayətini tutdular. Elə o za-manlar da qotlar ostqotlara və vestqotlara bölündülər. 375-ci ildə hunlar Germanarixin Qara dənizin şimal ətrafında başçılıq etdiyi ostqot tayfa birliyinə zərbə endirdilər və nəticədə həmin ittifaq dağıldı. Ostqotların bir hissəsi hun tayfa ittifaqına qoşuldu, digər hissəsi isə qərbə doğru hərəkət etdi. Ostqotların qonşuları olan vestqotlar hunların hücumundan ehtiyat edərək öz yerlərindən ayrılıb Dunayı keçərək Roma imperiyasına getdilər və 376-cı ildə Roma hökuməti tərəfindən federat - imperiyanın müttəfiqləri simasında Möziyada (müasir Bolqarıstanın bir hissəsi) məskunlaşdırıldılar. Roma məmurları tərəfindən aldadılan vestqotlar 378-ci ildə üsyan qaldırdılar və üsyan yalnız 382-ci ildə yatırıldı. 395-ci ildə vestqotlar Alarixin başçılığı ilə yenə də üsyan qaldırdılar və onu özlərinə kral (konunq) seçdilər. Sonra vestqotlar Roma üzərinə təzyiqlərini artırdılar. Roma qoşunlarında xidmət edən germanların bir çoxu Alarixin tərəfinə keçdi. Alarix bir neçə dəfə Romaya yaxınlaşıb onu mühasirəyə aldı. 410-cu ildə Roma Alarixin başçılığı ilə vestqotlar tərəfindən tutulub qarət edildi. Vestqotlar talan edilmiş İtaliyadan Cənub-Qərbi Qalliyaya getdilər və 418-ci ildə Vestqot krallığını yaratdılar. Sonralar vestqotlar bütün Qalliyanı və İspaniyanın bir hissəsini ələ keçirdilər. 488 - 493-cü illərdə ostqotlar hunlarla birlikdə İtaliyanı tutaraq Teodorixin başçılığı ilə burada öz krallıqlarını yaratdılar. 711-ci ildə vestqotların İspaniyadakı zəifləmiş krallıqları ərəblər tərəfindən işğal edildi.

**qoşulmamaq siyasəti** - dövlətin hər hansı bir hərbi-siyasi blokda və qruplaşmalarda iştirakdan imtina etməsi.

**qovulma** - qədimdə və orta əsrlərdə yəhudilərdə və xristianlarda ən ağır kilsə cəzası. Qovulanlar kilsə ibadətlərinə buraxılmırdılar, qəbiristanlıqda dəfn oluna bilməzdilər, ümumiyyətlə, "qanundan kənar" sayılırdılar. Kilsə tərəfindən siyasi məqsədlər üçün də istifadə olunurdu.

**qraf** - erkən orta əsrlərdə Avropada qraflıqda kralın hakimiyyətini təmsil edən vəzifəli şəxs; sonralar - zadəgan titulu.

**qrand** - orta əsrlərdə İspaniyada zadəgan titulu.

**qrenadyorlar** - Avropa ölkələrində XVII - XX əsrlərdə piyada qoşun növü. XVII əsrin sonlarından seçmə quru qoşun hissələri və birlikləri. Süvari qrenadyorlar da olmuşdur.

**Qriboyedov Aleksandr Sergeyeviç** (1795 - 1829) - rus yazıçısı. "Ağıldan bəla" mənzum komediyasını yazmışdır. 1826-cı ildə dekabristlərin işi ilə bağlı istintaqa cəlb olunmuş, göstərdiyi xidmət müqabilində İrana səfir göndərilmiş və Türkmənçay müqaviləsinin imzalanmasında iştirak etmişdir. Qriboyedov Rusiyanın isğal etdiyi Cənubi Qafqaz vilayətlərinə, xüsusilə də İrəvan, Naxçıvan və Qarabağ xanlığı ərazilərinə ermənilərin köçürülməsinin hazırlanması və həyata keçirilməsində böyük rol oynamışdır. Bu plan 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsinin 15-ci maddəsində öz əksini tapmışdır. İrandan təzminat alınması və ermənilərin Cənubi Qafqaza köçürülməsi zamanı tətbiq edilən sərt və



downloaded from KitabYurdu.org

amansız tədbirlər yerli əhalinin narazılığına səbəb olmuşdur. 1829-cu ildə bir dəstə narazı adam Tehrandakı Rusiya səfirliyinə soxulub Qriboyedovu və səfirliyin bir çox məmurlarını öldürmüşdür. Çar hökuməti bununla əlaqədar üzrxahlıq və şahdan aldığı hədiyyələrlə kifayətlənmişdir (qanbahası kimi "Şah" almazı Rusiyaya verilmişdir).

**qrifon** - şir bədənli, qartal qanadlı, şir və ya qartal başlı əfsanəvi heyvan.

**qrossbauer** (alm. "böyük adam") - Almaniyada varlı kəndlilərin adı.

**qrossmeyster** (böyük magistr) - katolik dini-cəngavər ordeninin başçısı. Orden üzvləri tərəfindən ömürlük seçilir və Roma papası tərəfindən təsdiq olunurmuş.

**Qrotefend** Georq Fridrix (1775 - 1853) - Almaniya şəhərlərindən birində tarix və yunan dili müəllimi idi. İşdən sonra çətin həll olunan məsələləri və gizli yazı sirlərini - şifrlənmiş yazılan açmağı sevirdi. Bir dəfə Persepoldan - Əhəmənilər dövlətindən olan hələ oxunmamış mixi yazını oxumaq qərarına gəldi. Qrotefend bir neçə sözdən ibarət olan ifadəni ayırd edə bildi. Ona bu işdə hər sözdən sonra qoyulmuş ayırıcı işarə kömək etdi. Bu ifadə az qala hər sətirdə təkrar olunurdu. Qrotefend belə güman etdi ki, bu ifadə hökmdarın adı və titulunu ifadə edir. Amma Əhəmənilər nəslindən olan hökmdarın titulundakı sözlərin nədən ibarət olduğunu heç kim bilmirdi. Belə olduqda Qrotefend qərara gəldi ki, həmin titulları İranda III - VII əsrlərdə hakimiyyətdə olmuş Sasani şahlarının məlum titulları ilə müqayisə etsin. Sasani titulaturasındakı sözlərin sayı Qədim İran şahlarının güman edilən titullarının sayı ilə üst-üstə düşürdü. Qrotefend Sasani titulları mətnini mixi yazıdakı sözlərin yerinə düzdü. Lakin o, Əhəmənilərin adlarını bilmirdi. Orada rast gəlinən üç adın əvəzinə o, A, B və C hərflərini qoydu. İndi onun iki ifadəli birinci tərcüməsi belə idi: "A", böyük şah, şahlar şahı, "B" oğlu, Əhəməni. "C", böyük şah, şahlar şahı, "A" şahın oğlu, Əhəməni. Qrotefend bu qənaətə gəlmişdi ki, "A" şah oğlu deyilmiş. Tarix müəllimi yaxşı bilirdi ki, Qədim İran tarixində iki şah var imiş ki, onların ataları şahlıq etməmişlər - Kir və Dara. Əgər bunlar Kir və onun oğlu Kambiz olsaydılar, onda hər iki adda eyni işarələr olmalı idi, amma onlar müxtəlif işarələrlə başlayırlar. Deməli, bunları Dara və onun oğlu Kserks kimi oxumaq lazımdır. Tərcümənin son variantmda həmin ifadə belə olmalı idi: "Dara, böyük şah, şahlar şahı, Qistaspın oğlu, Əhəməni. Kserks, böyük şah, şahlar şahı, Dara şahın oğlu, Əhəməni Beləliklə, 1802-ci ildə Qrotefend mətni yalnız tərcümə etdi. O, doqquz mixi işarənin mənasını müəyyənləşdirdi, ancaq daha heç nə edə bilmədi, çünki o, dilçilik üzrə mütəxəssis deyildi və Şərq dillərini bilmirdi. Lakin Qrotefendin ixtirası Qədim İran mixi yazısının oxunmasının əsasını qoydu.

**Qrünvald** - Şərqi Prussiyada (müasir Polşa ərazisində) Qrünvald kəndi. 1410-cu il iyulun 15-də Qrünvald yaxınlığında böyük Litva knyazı Vitovtun (Vitautas) və Polşa kralı Yaqaylonun başçılığı ilə birləşmiş Polşa-Litva qoşunları və Tevton ordeni cəngavərlərinin qoşunları arasında döyüş olmuşdur. Döyüş



downloaded from KitabYurdu.org

Tevton ordeninin tam darmadağın edilməsi ilə başa çatmış və cəngavərlərin Şərqə yürüşlərinə son qoymuşdur.

**Quba xanlığı** - Şimali Azərbaycanda əsası Hüseynəli xan (1726 - 58) tərəfindən 1726-cı ildə qoyulmuş xanlıq. Xanlığın mərkəzi əvvəlcə Xudat, 1735-ci ildən sonra isə Quba olmuşdur. 1756-cı ildə Hüseynəli xan Salyan dairəsini də Quba xanlığına birləşdirmişdir. Quba xanlığı qubalı Fətəli xanın dövründə (1758 - 89) idarəetmə sistemində və vergi yığımında onun keçirdiyi islahatlar hesabına xeyli güclənmişdir. Əhalinin sayını artırmaq məqsədi ilə Fətəli xan Azərbaycanın cənub xanlıqlarından əhalinin Quba xanlığına köçməsinə şərait yaradırdı. Fətəli xan 1759-cu ildə Dərbənd xanlığını tutdu və onu Quba xanlığına birləşdirdi. 1767-ci ildə Fətəli xanın bacısı Xədicə Bikə ilə Məlik Məhəmməd xanın evlənməsi nəticəsində Bakı xanlığı Quba xanlığından vassal asılılığına düşdü. 1767-ci ildə şəkili Hüseynxan ilə birlikdə Şamaxı xanlığını tutan Fətəli xan onu öz aralarında bölüşdürdülər. Sonralar Şəki xanlığına birləşdirilmiş Şamaxı torpaqları da Quba xanlığına qatıldı. Fətəli xan 1768-ci ildə Cavad xanlığını da tabe etdi. 1773-cü ilin sonlarında Şəki və Qarabağ xanlarının, eləcə də avar usmisi (hakimi) ilə gürcü çarı II İraklinin birləşmiş qüvvələri birlikdə Fətəli xana qarşı vuruşdular. 1774-cü ilin yayında Xudat yaxınlığındakı Gavduşan çölündəki döyüşdə Fətəli xanın qoşunları məğlub olub Salyana çəkildilər, onun düşmənləri isə Şamaxı və Qubanı tutub Dərbəndi mühasirəyə aldılar. Dərbəndin müdafiəsinə Fətəlixanın arvadı Tuti Bikə rəhbərlik edirdi. Düşmənlər 9 aya yaxın Dərbəndi mühasirədə saxladılar. Fətəli xan yardım üçün Rusiyaya müraciət etdi. 1775-ci ilin martında rus qoşunlarının yardımı ilə Fətəli xan rəqibləri üzərində qələbə çaldı. Fətəli xan minnətdarlıq əlaməti olaraq Dərbəndi Rusiyaya verdi. 1780 - 81-ci illərdə Fətəli xan bir neçə dəfə Qarabağ xanlığına yürüş etməyə cəhd göstərdi, lakin bunların hamısı uğursuz nəticələndi. Fətəli xan 1784-cü ildə ənubi Azərbaycanda Ərdəbil və Meşkin şəhərlərini tutdu, amma Rusiyanın təzyiqi onun qoşunları bu ərazilərdən çıxarıldı. Fətəli xanın oğlanları Əhməd xanın (1789 - 91) və Şeyxəli xanın (1791-1810) dövründə Quba xanlığı zəiflədi. Bakı, Şamaxı və Şəki xanlıqları Quba xanlığının asılılığından çıxdılar. 1796-cı ilin iyununda general Zubovun başçılığı ilə rus qoşunları Dərbəndi, sonra isə Qubanı tutdular. Şeyxəli xan rus qoşunlarına müqavimət göstərməyə cəhd etdi. 1796-cı ilin noyabrında imperatriçə II Yekaterinanın ölümündən sonra imperator I Pavelin əmri ilə rus qoşunları Azərbaycandan çıxarıldı. Qazıqumux hakimləri ilə uzunsürən mübarizədən sonra Şeyxəli xan yenidən Dərbəndi Quba xanlığına birləşdirdi. 1806-cı ilin axırlarında rus qoşunları Quba xanlığını tutdu və onun




Quba xalçası



downloaded from KitabYurdu.org

əraziləri Rusiya imperiyasına birləşdirildi. Şeyxəli xan isə xanhğın dağ rayonlarında işğalçılara qarşı müqavimət göstərməkdə davam etdirdi.

**Qubada müstəmləkə əleyhinə üsyan** (1837) - Quba əyalətində kəndlilərin müsləmləkə istismarı çox ağır idi. Burada kəndlilər xəzinə nəfinə 7 növ vergi ödəyir və mükəlləfiyyət yerinə yetirirdilər. Xəzinənin ixtiyarına keçmiş otlaqlar kəndlilərə iltizama verilirdi. Maldarlar xəzinəyə öz keçmiş otlaqlarından istifadə müqabilində pul ödəməli idilər. Komendantlar yerli əhalidən öz nəflərinə də vergi və mükəlləfiyyətlər tələb edirdilər. 1837-ci ildə Varşavadakı müsəlman alayında xidmətçün süvarilərin toplanması üsyanın başlanması üçün bəhanə oldu. Dəstəni təchiz etmək üçün əhalidən zəruri olduğundan iki dəfə artıq məbləğ yığırdılar. Çıxışlar 1837-ci ilin aprelində Yuxarıbaş mahalında başlandı. Əvvəlcə kəndlilər Rusiyanın dairə hərbi rəisi general Reutla danışmağa səy göstərdilər. Reut kəndlilərin tələblərinin bir neçəsini yerinə yetirməyə məcbur oldu. 1837-ci il avqustun 21-də Xuluq kəndinin kəndxudası Hacı Məhəmmədin və onun köməkçisi Yarəlinin başçılığı ilə silahlı üsyan başlandı. Avqustun 28-də Xudatda rus postunu tutan üsyançılar Hacı Məhəmmədi özlərinə xan seçdilər. Artıq sentyabrda üsyançıların sayı 12.000 nəfərə çatırdı. Onlar Qubanı mühasirəyə aldılar. Sentyabrın 4-dən 5-nə keçən gecə üsyançılar Quba üzərinə hücuma başladılar. Yarəlinin başçılıq etdiyi dəstə şəhərə daxil ola və onun mərkəzini tuta bildi, lakin daha yaxşı silahlanmış rus qoşunları burada möhkəmlənən üsyançıların müqavimətini qırdı və onları qaladan çıxardı. Qubanın tutulması üçün sentyabrın 6-da edilən cəhd də uğursuz başa çatdı. 1837-ci il sentyabrın 10-da qaladakı rus qarnizonu və general Reutun onlara köməyə gələn dəstəsi üsyançılar üzərinə hücuma keçdilər. Üsyançıların dəstələri darmadağın edildi, amma Yarəli gizlənə bildi. Üsyanın 43 fəal iştirakçısı həbs olunub məhkəməyə verildi, Hacı Məhəmməd isə edam olundu. Bundan sonra bir sıra dağ rayonlarında kəndlilərin çıxışları davam etdi və ruslar 1838-ci ildə onlara qarşı 2 hərbi əməliyyat aparmağa məcbur oldular. Quba üsyanı XIX əsrin 30-cu illərində Şimali Azərbaycanda müstəmləkə əleyhinə ən böyük üsyan idi.

**qul** - sahibinin - quldarın və onu istismar edənin əmlakı olan insan.

**qulam** (ər. "oğlan", "qul", "kölə") - 1) orta əsrlərdə müsəlman ölkələrində qul, kölə; 2) Abbasilər xilafətində daimi süvari qvardiya; 3) orta əsrlərdə Osmanlı imperiyasında feodal qoşunlarının sıravi döyüşçüləri; 4) Dehli sultanlığında qvardiyaçılar -qullar.

**quldar** - qulları olan adam.

**Quran** (ər. "əl-Quran" - "ucadan əzbər oxumaq") - müsəlmanların müqəddəs kitabı. Quran Məhəmmədin əsasən Məkkə və Mədinədə 610 - 632-ci illərdə ilahi vəhylər şəklində söylədiyi moizələrin yazılı toplusudur. Məhəmmədin sağlığında Quranın mətni əzbərdən yadda saxlanılırdı. Quranın tam mətninin ilk yazılı nüsxəsi Məhəmmədin vəfatından sonra xəlifə Əbu Bəkrin göstərişi ilə toplanmış və peyğəmbərin arvadı Həfsənin evində saxlandığından tarixə "Həfsə



downloaded from KitabYurdu.org



nüsxəsi" adı ilə daxil olmuşdur. Quran ərəb dilində yazılmışdır. Əsrlər boyu Quranda yalnız nöqtə və sətiraltı-sətirüstü işarələr düzümü artırılmış, mətni isə olduğu kimi qalmışdır. Quranın mətnində müxtəlif ölçülü (3 ayədən 286 ayəyədək) 114 surə vardır. Surələr, ayələr, eləcə də Quranda çəkilən adlar və hadisələr arasında qeyri-adi mütənasiblik mövcuddur.

**qurban bayramı** (ər.-türk. - "qurban-vermə bayramı") - müsəlmanların hər il zilhiccə ayında (müsəlman təqvimi ilə 12-ci ay) qeyd olunan bayramları; həmin ayda həcc ziyarəti həyata keçirilir. Qurban bayramının kökləri Qərbi Ərəbistanda bütlərə qurban verilməsinə gedib çıxır. İslamda qurban bayramının mənşəyi belə rəvayətlə izah olunur: İbrahim (Bibliyada - Avraam) peyğəmbər oğlu İsmayılı Allaha qurban verərkən Allahın ona rəhmi gəlmiş və əvəzində cənnətdən qoç göndərmişdir.

**qurban verilməsi (kəsilməsi)** - ölmüş uluların ruhlarına, ilahiləşdirilmiş əşyalara, bütlərə və allahlara pay verilməsindən ibarət olan ən qədim ayinlərdən biri. Qurban zənbil dolu ərzaq, öldürülmüş heyvan, bəzənsə insan ola bilərdi. Qurban verilməsi ən qədim dövrlərdən bəllidir. Kahinlərin ayrıca zümrəyə çevrilməsi ilə qurban payları onlara çatmağa başladı. Ona görə də kahinlər qurban verilməsinin sehrli qüvvəyə malik olması inamını daha da dəstəkləməyə başladılar. Qurban verilməsi əlamətləri bütün dinlərdə bu və ya digər dərəcədə indi də qalmaqdadır.

**qurultay** - monqol feodallarının xan seçmək məqsədi ilə yığıncaqları.

**Qus** - bax: Hus.

**qusar** - yüngül süvari, ilk dəfə 1485-ci ildə Macarıstan kralı tərəfindən türklərə qarşı mübarizə məqsədi ilə yaradılmışdı. Az sonra belə qoşunlar başqa ölkələrdə də meydana gəldi.

**qusçular** - bax: husçular.

**Qutqaşınlı** İsmayıl bəy (1806 - 61) - Azərbaycan yazıçısı, Qutqaşəndə (indiki Qəbələdə) ali zadagan-bəy ailəsində doğulmuşdur. Uşaqlıq və gənclik illərində dini təhsil almış, ərəb və fars dillərini öyrənmişdir. Rus ordusunda xidmət etmiş, artilleriya general-mayoru rütbəsini almış, xidmət müddətində rus və fransız dillərini mükəmməl öyrənmişdir. 1840-cı illərin əvvəllərində istefaya çıxmış, Qutqaşen və Şamaxıda yaşamışdır. Əsas əsəri 1835-ci ildə yazılmış və Varşavada çap olunmuş "Rəşid bəy və Səadət xanım" povestidir. Povestdə romantik məhəbbət tərənnüm edilmiş, qadın hüquqsuzluğu və Şərqdəki ailə həyatının patriarxal əsasları tənqid olunmuşdur. Həmçinin o, rus yazıçılarının əsərlərini Azərbaycan dilinə tərcümə etməklə məşğul olmuşdur.

**Qutenberq** İohann (1400 -1468) - alman kitab çapı ixtiraçısı. Uzun və ağır zəhmətdən sonra o, metaldan hərftökən əl cihazı yaratmışdır. Sonra Qutenberq hərflərdən sətirlərin yığılmasını və səhifənin düzəldilməsini başa çatdırıb, kağız



downloaded from KitabYurdu.org

üzərinə basmaqla surətini çıxardı. Sökülüb quraşdırılan şriftin köməkliyi ilə istənilən mətnin sonsuz sayda səhifəsini yığmaq mümkün idi. Təxminən 1445-ci ildə Qutenberq Maynts şəhərində ixtira etdiyi çap dəzgahında Bibliyanı cap etdi. Onun ixtirasından 50 il sonra Avropa şəhərlərində artıq 1100 mətbəə fəaliyyət göstərirdi.

**üds** - yəhudilərin, xristianların və müsəlmanların müqəddəs şəhəri.

**qvardiya** - imtiyazlı seçmə qoşun hissəsi. Qədim Şərq ölkələrində meydana gəlmişdir. Daha çox Əhəmənilər dövlətində (10 minlik "ölməzlər" korpusu) və Qədim Romada (pretorianlar) inkişaf etmişdir. XII əsrdə İtaliyada meydana gələn "qvardiya" anlayışı dövlət bayrağını mühafizə edən seçmə dəstə mənasını verirdi. Qvardiya xüsusilə Fransa, İngiltərə, İsveç, Rusiya, Prussiya və s. monarxiya ölkələrində mövcud olmuşdu. Orta əsrlərdə Şərqdə qvardiya rolunu monarxların keşikçiləri, muzdlulardan və qullardan ibarət seçmə hissələr oynayırdılar. Onlar Bağdad xəlifələrinin və Böyük Moğolların qvardiyaları, habelə Misir hökmdarlarının məmlükləri və Osmanlı sultanlarının yeniçəriləri idilər.

## - L -

**labirint** - 1) antik tarixçilərin mürəkkəb və dolaşıq planlı yarımzirzəmi tikililərə verdikləri ad. Qədim tarixçilər dörd labirint - rəvayətə görə, Dedal tərəfindən Minotavr üçün inşa edilmiş (Krit); firon III Amenemhet tərəfindən tikilmiş (Misir); tiran Polikratın əmri ilə qurulmuş (Samos); güman edildiyinə görə, etrusk hökmdarının sərdabəsi olan (İtaliya) labirint haqqında məlumat verirlər. Bunlardan ən məşhuru Krit adasındakı labirintdir; 2) dövrümüzdə "labirint" sözü təkcə dolaşıq planlı tikili mənasını deyil, həm də çıxılması çətin olan dolaşıq vəziyyət, şərait, münasibətlər mənasını verir ("ziddiyyətlər labirinti").

**Lakedemon** - bax: Sparta.

**lakonik çıxış (nitq)** - Qədim Spartada oğlan və qızlara qısa və aydın danışmağı öyrədirdilər; məsələn: oğlunu müharibəyə yola salan spartalı qadın ona qalxan verərək deyirdi: "Ya bununla, ya da bunun üstündə"; Spartada qalxanı itirmək biabırçılıq sayılırdı, savaşda şərəflə həlak olan döyüşçünün cənazəsini qalxan üzərində gətirirdilər. "Ya qalxanla, ya da qalxan üstündə" sözləri geniş yayılmışdı. Bizim dövrümüzdə qısa və aydın nitqi lakonik, yəni Lakonikadakı kimi adlandırırlar.

**Lakonika** - Qədim Yunanıstanda, Peloponnes yarımadasının cənub-şərqində vilayət. E.ə. XII əsrdə dorilər tərəfindən işğal olunmuş və onun ərazisində Sparta adlı iri yunan dövləti yaradılmışdı. Dövlətin rəsmi adı Lakedemon idi. Lakonika, Lakedemon və Sparta çox hallarda sinonim kimi istifadə olunur.

**Lakşmi-bay** - Chansi knyazlığının qadın hakimi (rani), 1857 - 59-cu illər sipahilər üsyanının iştirakçısı, Hindistan qəhrəmanı. 1857-ci ildə sipahilər üsyanı başladıqdan sonra Lakşmi-bay knyazlığa rəhbərlik etmişdir. O, Chansinin ingilis



downloaded from KitabYurdu.org

ordusundan müdafiəsinə cəsurluqla rəhbərlik etmiş, sonra isə süvari dəstəyə başçılıq edərək Tanti Topi qoşunları tərkibində ingilislərə qarşı qəhrəmancasına vuruşmuş və Qvalior yaxınlığında döyüşdə öldürülmüşdür.

**lama** - Tibet (Nepal, Hindistan), Monqolustan və Buryatiyada budda rahibi. Termin VIII əsrdə Tibetdə meydana gəlmişdir. İlk vaxtlar yalnız ali kahinləri lama adlandırırdılar. Sonralar həm Tibetdə, həm də Mərkəzi Asiyanın digər rayonlarında rahibliyi qəbul edən hər kəsə lama deməyə başladılar.

**lamaizm** - buddizmin cərəyanlarmdan biri; Tibet, Nepal, Monqolustan, Buryatiya, Tuva, Kalmıkiya, eləcə də Hindistanın ayrı-ayrı rayonlarında yayılmışdır. Lamaizmdə tərki-dünyalıq və seyrçiliklə yanaşı, magiya və çoxsaylı yerli allahlara etiqad da mühüm yer tutur. Lamaizm üçün ayinçiliyin yüksək inkişafı və şagirdin müəllimə - lamaya tam tabe olması xarakterikdir.

**landsknextlər** - XV - XVII əsrlərdə muzdlu alman piyadaları.

**Lankasterlər** - 1399 - 1461-ci illərdə ingilis kral sülaləsi, Plantagenetlərin bir qolu. Al və Ağ qızılgül müharibələri zamanı Lankasterləri Yorklar sülaləsi əvəz etmişdir.

**Latın imperiyası** - 1204-cü ildə 4-cü səlib yürüşü iştirakçıları tərəfindən işğal olunmuş Bizansda yaradılmış dövlət. Latın imperiyasının paytaxtı - Konstantinopol idi. 1261-ci ildə - Bizans imperatorlarından biri səlibçiləri qovaraq Konstantinopolu tutandan sonra süqut etmişdir.

**latınlar** - Latsiumda məskunlaşmış qədim italyan tayfalarından biri. Latınlar Roma şəhərinin əsasını qoymuşlar. Romanın yüksəlişi ile Latsiumdakı bütün icma və tayfalar üzərindəki hakimiyyət latınların elinə keçir.

**latifundiya** - **1)** Qədim Romada quldarların geniş torpaq mülkləri; 2) yeni və ən yeni dövrdə İspaniya və Latın Amerikası ölkələrində iri xüsusi mülkiyyət torpaqları.

**Latsium** – qədimdə latınların məskunlaşdığı Orta İtaliyada vilayət. Sonralar Latsium vüayətində Roma şəhəri salınmışdır.

**legion** - Qədim Roma ordusunda əsas qoşun növü. Legion on koqortadan ibarət olurdu. Müxtəlif vaxtlarda legionda 4500-dən 7000 nəfərədək döyüşçü olurdu.

**lend-liz** - ABŞ-ın digər ölkələrə - İkinci Dünya müharibəsi illərində antihitlerçi koalisiya müttəfiqlərinə borc və ya icarə ilə silah, sursat, strateji xammal, ərzaq və s. verməsi sistemi.

**lendlordlar** - Böyük Britaniyada iri torpaq sahibləri.

**Lenin** (Ulyanov) Vladimir İliç (1870 -1924) - əsas təxəllüsü - "Lenin" adı ilə tanınmışdır, Rusiyanın böyük inqilabçı xadimi, 1897 - 1900-cü illərdə Sibirdə sürgündə olmuşdur. 1900 - 1905 və 1907- 17-ci illərdə mühacirətdə olmuşdur. Rusiyada 1917-ci il Oktyabr çevrilişinin rəhbəri, sovet dövlətinin başçısı. Leninin təklifi ilə 1918-ci il martın 3-də Almaniya ilə separat Brest sülhü imzalandı və Rusiya Birinci Dünya müharibəsindən çıxdı. 1918-ci il avqustun 30-da təşkil



downloaded from KitabYurdu.org



edilmiş sui-qəsd nəticəsində Lenin ağır yaralandı və hadisənin günahı onun keçmiş məşuqəsi olan, eser partiyasının üzvü Kaplanın üzərinə qoyuldu. Lenin Kommunist İnternasionalının yaradılmasının təşəbbüskarı idi. Məhz Lenin Rusiyada sənaye, aqrar və mədəni inqilabları, eləcə də ölkənin elektrikləşdirilməsi planlarını işləyib hazırlamışdır. 1921-ci ildə Lenin yeni iqtisadi siyasət (YİS) prinsiplərini irəli sürmüşdür. Leninin rəhbərliyi ilə SSRİ yaradılmışdır. 1922-ci ilin axırlarında Lenin ağır xəstələnmiş və ölümünədək ölkənin idarə edilməsində praktik olaraq fəaliyyət göstərməmişdir, əslində isə rəhbərliyi Stalin öz əlinə keçirmişdir.

**Leonardo da Vinçi** (1452 - 1519) - böyük italyan boyakarı, heykəltəraş, memar, alim və mühəndis. Ən çox tanınmış əsərləri "Məxfi axşam" və Mona Lizanın "Cokonda" adlandırılan portretidir. Leonardo da Vinçi bir çox kəşflər etmiş, layihələr cızmış, riyaziyyat, təbiyyat elmləri və mexanika üzrə eksperimentlər keçirmişdir. Gələcək metal-prokat, çap, yerqazan, ağac emaledən maşınların konstruksiyaları haqqında fərziyyələr söyləmişdir. Sualtı qayığın, dalğıc paltarının, tankın, uçan aparatların, paraşütün düzəldilməsi ideyaları da Leonardo da Vinçiyə məxsusdur. Ömrü boyu dərbədər gəzmiş, Fransada vəfat etmişdir.



**Leonid** (e.ə. 507 - 480) - Sparta çarı. E.ə. 480-ci ildə Əhəməni şahı Kserksin Yunanıstana yürüşü zamanı birləşmiş yunan qoşunlarına başçılıq etmişdir. Fermopil yaxınlığındakı döyüşdə o, birləşmiş yunan ordusunun əsas qüvvələrinin geriyə çəkilməsinə şərait yaratmaq üçün 300 nəfərlik spartalı dəstəsi ilə Əhəməni ordusunun qarşısını kəsmiş və həlak olmuşdur. Tarixə qəhrəmanlıq və şücaət rəmzi kimi daxil olmuşdur.

**Leta** – qədim yunan mifologiyasında yeraltı dünyada axan çay. Ölənlərin ruhu Letanın suyundan içdikdən sonra Yer üzərindəki həyatı unudurdular. Məcazi mənada "Letada batmaq" - "izi-sorağı qalmamaq", "heç bir əsər-əlamət qalmamaq", "yox olmaq" deməkdir.

**levellerlər** (ing. "bərabərçilik tərəfdarları") - İngiltərə burjua inqilabı dövründə İngiltərədə radikal siyasi partiya (1647-ci ilə kimi independentlərin sol cinahı). Lilbernin rəhbərlik etdiyi levellerlər partiyası əsas etibarilə ortabab şəhər sakinlərini, kəndin varlı əhalisini, "yeni tipli" ordunun əsgərlərini birləşdirirdi. Levellerlər respublika yaradılması, bütün vətəndaşların siyasi hüquqlarının bərabərləşdirilməsi, ümumi seçki hüququ verilməsi (kişilər üçün), eyni zamanda, xüsusi mülkiyyətin ləğv edilməməsi uğrunda çıxış edirdilər və diggerlərdən uzaqlaşdılar. 1649-cu ildə independentlərlə mübarizədə məğlubiyyətə uğradılar.

**Lənkərani Ramazan** - XV əsr Azərbaycan alimi və təbibi.

**ləzgilər** - Azərbaycan Respublikasının şimal-şərq rayonlarında və Dağıstanın (Rusiya Federasiyası) cənub-şərq həmsərhəd rayonlarında yaşayan xalq. Ləzgilərin dili Qafqaz dil ailəsinə aiddir. Ləzgilər islamın sünni təriqətinə



downloaded from KitabYurdu.org

etiqad cdirlor. Ləzgilərin əksəriyyəti Azərbaycan və rus dillərini bilir. Ləzgilər antik mənbələrdə leq tayfaları adı ilə xatırlanılır. IX - X əsrlər ərəb mənbələrində Cənubi Dağıstan ərazisində lakzların çarlığı haqqında məlumat verilir. XIX əsrədək ləzgilər Azərbaycan ərazisindəki Dərbənd və Quba xanlıqlarının tərkibinə, eləcə də "azad icmalar" adlandırılan camaatlara daxil idilər.

**liberal** - 1) ilkin mənada - azadfikirli; bəzən həddən ziyadə güzəştə gedən insan; 2) liberalizmin davamçısı və tərəfdarı.

**liberalizm** - 1) feodalizm quruluşu və mütləq monarxiya ilə kəskin mübarizə dövründə sənaye burjuaziyasının maraqlarını ifadə edən siyasi və ideoloji cərəyan. Liberalizm monarxın hüquqlarının parlament tərəfindən məhdudlaşdırılmasını, konstitusiya qəbul edilməsini, dövlətin idarə olunmasında burjuaziyanın iştirak etməsinə icazə verilməsini, bir sıra demokratik azadlıqlar ("liberal" adı buradan götürülmüşdür - ing. "liberty" - "azadlıq") verilməsini tələb edirdi. Fəhlələrin inqilabi hərəkatının yüksəlişi gedişində liberallar irtica ilə danışıqlar yolunu seçdilər və özlərinin mütərəqqi xüsusiyyətlərini itirdilər; 2) məcazi mənada: ictimai həyatın mənfi təzahürləri ilə fəal mübarizə apara bilməmək, prinsipsiz sazişçilik mövqeyi tutmaq, zərərli laqeydlik, səhlənkarlıq.

**Lidiya** - Kiçik Asiyanın qərbində qədim dövlət.

**Likey** (lisey) - Afinanın kənarında, Apollonun məbədi yaxınlığında yerləşən qədim yunan fəlsəfi məktəbinin adı. Likey (lisey) e.ə. 335-ci ildə Aristotel tərəfindən yaradılmış və səkkiz yüz ilədək fəaliyyət göstərmişdir.

**liqa** - ictimai-siyasi birlik, ittifaq, ayrı-ayrı adamların, təşkilatların, dövlətlərin cəmiyyəti.

**Lilbern** Con (1614 - 57) - İngiltərə burjua inqilabı dövründə levellerlərin ideoloqu və rəhbəri. Lilbern ümumi seçki hüququnun (kişilər üçün) tərəfdarı idi. Hələ inqilabdan əvvəl Lilbern camaat qarşısında qamçılanmış və rüsvay edilmişdi, lakin inqilab ərəfəsində parlamentin qərarı ilə həbsdən azad olunmuşdu. Lilbern parlament ordusunun zabiti olmuş, sonra isə presviterianlar və independentlər tərəfindən təqib edilmişdir. 1652-ci ildə İngiltərədən sürgün edilmiş, 1653-cü ildə vətənə qayıtdıqdan sonra isə həbs olunmuşdur.

**linçləmə** ("Linç məhkəməsi") - XVIII əsrdə ABŞ-da şübhəli bilinənin, əsasən zəncilərin və mütərəqqi xadimlərin istintaqsız və məhkəməsiz cəzalandırılması. Virciniya plantatoru Ç.Linçin adı ilə adlandırılıb. "Linç məhkəməsi"nə görə, bir dəstə adam hər hansı sahədə günahlandırılan insanı (əksər hallarda onun özünə bəraət qazandırmasını dinləmədən) ləngimədən öldürürdü. ABŞ-da "Linç məhkəməsi" uzun müddət - XX əsrədək mövcud olmuşdur.

**Linkoln** Avraam (1809 - 65) - ABŞ-ın 16-cı prezidenti (1861 - 65), Respublikaçılar partiyasının yaradıcılarından biri (1854); ABŞ-da köləliyin ləğv edilməsinə çağırırdı. Yoxsul fermer ailəsində dünyaya göz açmışdır. Gəncliyində çox peşələr dəyişmiş, sonra isə vəkil olmuşdur. Linkoln sadə adamlarla yaxınlığı, gözəl natiqlik istedadı, düzgünlüyü və namusluluğu ilə geniş kütlələrin



downloaded from KitabYurdu.org

rəğbətini qazanmışdı. O, ABŞ-ın mənşəcə quldar olmayan ilk prezidenti idi. Şimal ilə Cənub arasında vətəndaş müharibəsi zamanı - 1862-ci ilin sonunda Linkolnun hökuməti köləliyin ləğv edilməsi və homstedlər haqqında qanunlar qəbul etdi; müharibənin inqilabi üsullarla aparılması yollarını tutdu ki, bu da nəticədə cənubluların ordusunun darmadağın edilməsi ilə başa çatdı. 1865-ci il aprelin 14-də - cənubluların təslim edilməsindən 5 gün sonra quldarlar tərəfindən təşkil olunmuş sui-qəsd nəticəsində öldürüldü. Linkolnun adı amerikan xalqının inqilabi ənənələr rəmzidir.

**Livoniya müharibəsi** - 1558 - 83-cü illərdə Rusiya, İsveç, Polşa və Böyük Litva knyazlığının (1569-cu ildən - Reç Pospolita) Baltik dənizinə çıxış uğrunda zəifləmiş Livoniya ordeninə qarşı müharibəsi. Müharibənin 1561-ci ilədək davam edən birinci mərhələsi Livoniya ordeninin darmadağın olunması ilə başa çatdı. 1578-ci ilə kimi davam edən ikinci mərhələdə müharibə müxtəlif tərəflərin üstünlüyü ilə keçdi. Üçüncü mərhələdə isə rus qoşunları müdafiə xarakterli döyüşlər aparırdılar (Pskov və s.-nin qəhrəmancasına müdafiəsi). Savaş Rusiyanın məğlubiyyəti ilə başa çatdı.

**lobbi** - iri inhisarların və ya mütəşəkkil qrupların ABŞ-ın qanunverici orqanlarında satınalma, şantaj və s. yolu ilə qanunvericilərə və dövlət məmurlarına qərarların (qanun layihələrinin, hökumət sifarişlərinin, maliyyə yardımlarının) maraqlarını təmsil etdikləri təşkilatların xeyrinə qəbul etdirilməsi məqsədi ilə təzyiq göstərən idarə və agentliklər sistemi.

**lokal** - yerli, müəyyən hüdudlardan kənara çıxmayan.

**lokal müharibələr** - dünya müharibələrindən fərqli olaraq ayrı-ayrı ölkələri və ya məhdud ərazini əhatə edən müharibələr.

**lokaut** - sahibləri tərəfindən müəssisələrin bağlanması və fəhlələrin kütləvi surətdə işdən çıxarılması. Lokautdan tətilin qarşısını almaq və ya onu yatırmaq, fəhlələri irəli sürdükləri tələblərdən imtina etmək və müəssisə sahibinin şərtlərini onlara qəbul etdirmək məqsədi ilə istifadə olunur.

**Lomonosov** Mixail Vasilyeviç (1711 -55) - müasir rus ədəbi dilinin banisi, rəssam, tarixçi, ümumdünya səviyyəli ilk rus təbiətşünas alimi. Arxangelsk yaxınlığındakı Xolmoqorı kəndində balıqçı ailəsində anadan olmuşdur. 19 yaşında kənddən oxumağa getmişdir. 1745-ci ildə Lomonosov ilk rus akademiki olmuşdur. 1748-ci ildə Lomonosovun təkidi ilə Rusiya Elmlər Akademiyası yanında ilk elmi-tədqiqat kimya laboratoriyası yaradılmışdır. Lomonosov cisimlərin quruluşu haqqında atom-molekulyar təsəvvürləri inkişaf etdirərək bildirirdi ki, istilik korpuskulun fırlanma hərəkəti ilə bağlıdır. O, maddə kütləsinin və enerjinin saxlanması qanunlarını təcrübədə sübuta yetirmiş, atmosferdəki elektrik hadisələrini və ağırlıq qüvvəsini tədqiq etmiş, bir sıra optik cihazlar yaratmış, Venera planetində atmosfer olduğunu aşkarlamış, Yerin quruluşunun təsvirini vermiş, bir çox faydalı qazıntıların və mineralların mənşəyini izah etmişdir.



downloaded from KitabYurdu.org

**lord** - 1) Böyük Britaniyada irsi zadəgan titulu; 2) Böyük Britaniyada bir sıra yüksək vəzifəli şəxslərin adları (məs.: lord-kansler, lord-mer və s.).

**loyallıq** - 1) hakimiyyət orqanlarının qanun və tələblərinin yerinə yetirilməsi; 2) ehtirassız münasibət, səliqəlilik, neytrallıq, hər hansı qəbahətli, çirkin və xoşagəlməz işdən çəkinmək.

**Loyola** İqnati (1491 - 1556) - ispan zadəganı, yezuitlər ordeninin (1540) banisi. Loyola Roma papası və katolik dininin qatı tərəfdarı idi, o, ordenin təşkilatı və mənəvi prinsiplərini işləyib hazırlamışdı. Yezuitlər ordenini yaratdığına görə Loyola katoliklərin müqəddəsləri siyahısına daxil edilmişdir.

**ludçular** - fəhlələr - istehsalatda maşından istifadə olunmasına və kapitalist istismarının güclənməsinə qarşı ilk kortəbii çıxışların iştirakçıları. Ludçular hərəkatı Böyük Britaniyada sənaye çevrilişi dövründə işsizliyin artmasına və ixtisassız fəhlələrin əmək haqqının azaldılmasına qarşı reaksiya kimi meydana gəlmişdir. Onlar, guya, arzuolunmaz dəzgahı birinci sındırmış əfsanəvi usta köməkçisi Ned Luddun adı ilə ludçular adlandırılmışlar. Maşın tətbiq edilməsinin işsizliyə səbəb olduğunu görən bəzi fəhlələr öz bəlalarının mənbəyini məhz maşında görürdülər. Maşınları və fabrik binalarını dağıdan ludçular kapitalistləri güzəştə getməyə məcbur etmək ümidində idilər. Hərəkat ən çox 1811 - 12-ci illərdə geniş yayılmışdır. Parlament maşınları sındıranlara ölüm cəzası tətbiq edilməsi haqqında qərar qəbul etmişdi. Ludçular hərekatı qoşunun qüvvəsi ilə yatırılmışdı.

**Lukretsi,** Tit Lukretsi Kar - e.ə. I əsr Qədim Roma şairi. "Şeylərin təbiəti haqqında" fəlsəfi poemanın müəllifidir.

**lullubilər** - Cənubi Azərbaycan ərazisində məskunlaşmış qədim tayfalar. Mənbələrdə lullubi tayfaları haqqında ilk məlumatlar e.ə. XXIII əsrə aiddir. Lullubilərin məskunlaşdıqları əyalətlər mənbələrdə Lul-lubum adlandırılır. Lullubi tayfaları hökmdar Anubaninin dövründə xüsusilə güclənmiş və ərazilərini genişləndirmişdilər. Cənubi Azərbaycan ərazisində lullubilərin adı e.ə. I əsrədək xatırlanır.

**"Luristan tuncu"** - "Luristan tuncu" adlandırılan mədəniyyət; qədim Azərbaycanın kassit tayfalarının mədəniyyətini əks etdirir. "Luristan tuncu" abidələrinin əksəriyyəti e.ə. II minilliyin ikinci yarısına aid edilir. Luristan məmulatlarının ən xarakterik əlamətləri onların mifoloji və magiya məzmunlu mürəkkəb bəzək sistemli olmasıdır. Onlar stilləşdirilmiş insan və heyvan fiqurlarından ibarətdir. Kassit rəmzləri və təsvirləri Babil möhürlərində də aşkar edilmişdir. Bunlar xaç (Luristan məmulatlarında da olan günəş rəmzi), rombşəkilli qadınlıq rəmzi, qanadlı qrifonlar və s.-dən ibarətdir. Luvr - Fransa krallarının keçmiş sarayı, 1793-cü ildən bədii muzey; dünyanın ən böyük bədii muzeylərindən biri. Luvrun sərvətləri altı şöbədən ibarətdir: Qədim Şərq, Qədim Misir, Qədim Yunanıstan və Qədim Roma, heykəltəraşlıq (orta əsr, Renessans dövrü və sonrakı dövrlər), boyakarlıq və rəsm, dekorativ-tətbiqi sənət.



downloaded from KitabYurdu.org

**Lübek** - Almaniyada XII əsrda Baltik dənizi sahilində salınmış liman şəhəri. 1226-cı ildən azad şəhər olmuşdur. Şimali Almaniya, sonralar isə Şimali Avropa ticarətində aparıcı yer tutmuşdur. XIII - XV əsrlərdə Lübek Qanzaya başçılıq etmişdir. 1815 - 1937-ci illərdə azad şəhər idi.

**lümpen-proletariat** - 1) Qədim Romada yoxsul, lakin çoxlu uşaqları olan vətəndaşlar. Lümpen-proletarlara etibar etmədikləri üçün onları Roma ordusunda xidmətə çağırmırdılar; 2) yeni və ən yeni dövrdə cəmiyyətin pozğun ünsürləri.

**Lüter Martin** (1483 -1546) - rahib, alirn; onun 1517-ci ildə Vittenberqdə indulgensiyaya qarşı "95 tezis"lə çıxışı ilə Almaniyada Reformasiya hərəkatı başlanmışdır. Bürgerliyin ideoloqu, lüteranlığın banisidir. Ümumalman ədəbi dili normalarını yaratmaqla Bibliyanı alman dilinə tərcümə etmişdir.

**lüteranlar** - Lüterin dininin davamçıları. Katolik etiqadı ilə yanaşı, lüteranlıq Almaniyada 1955-ci ildə rəsmi din kimi qəbul edildi. Hazırda AFR, İsveç, Danimarka, Finlandiya, Norveç, İslandiya və Baltikyanı ölkələrdə, habelə ABŞ-da lüteranlar vardır.

## - M –

**maaflar** (ər. "azad edilmiş") - Azərbaycan xanlıqlarında əhalinin hərbi xidmətə görə vergidən azad edilmiş imtiyazlı təbəqəsi. Maaflar əsasən elatların arasından çıxırdı. Maaf rütbəsi xan tərəfindən verilirdi. Maaflıq irsi idi.

**Maarifçilik** - feodalizmdən kapitalizmə keçid dövründə yaranmaqda olan burjuaziyanın və xalq kütlələrinin feodalizmə qarşı mübarizəsi ilə bağlı mütərəqqi ideya cərəyanı. Maarifçiliyin ən tanınmış nümayəndələri - İngiltərədə C.Lokk, Fransada Volter, J.İ.Russo, Ş.Monteskyö, P.A.Holbax, K.A.Helvetsi, D.Didro, Almaniyada Q.E.Lessinq, İ.Q.Herder, F.Şiller, İ.V.Göte, ABŞ-da T.Cefferson, B.Franklin, T.Peyn və b. idilər. Maarifçilik xadimləri "təbii hüquq nəzəriyyəsinə əsaslanan "əqlin hökmranlığı"nın qurulması uğrunda, siyasi azadlıq və vətəndaşlıq bərabərliyi uğrunda mübarizə aparırdılar. Yeni ictimai qaydaların qurulmasında onlar biliklərin yayılmasına mühüm rol ayırırdılar. Maarifçilik bir sıra burjua inqilabları üçün ideoloji hazırlıq olmuşdur.

**Madi** - Azərbaycanda Skif şahlığının hökmdarı. Madi skif şahı Partatuanın və assur şahzadəsinin oğlu idi. H.ə. 640-cı ildə Madinin başçılığı ilə Kiçik Asiyada kimmerləri məğlubiyyətə uğradan skiflər sonra Misirin sərhədlərinədək yürüş etdilər. Madinin rəhbərliyi altında Assuriya ilə ittifaqa girən skiflər Midiyaya qarşı vuruşdular. E.ə. 624-cü ildə Midiya padşahı Kiaksar ölkəyə soxulmuş skifləri məğlubiyyətə uğratdı.

**mafiya** - Siciliya adasında meydana gəlmiş gizli terrorçu təşkilat. Mafiya şantaj, zorakılıq və öldürmə metodlarından istifadə edir. Əsasən şəhərlərdə fəaliyyət göstərir. Dövrümüzdə beynəlxalq mafiya təşkilatları mövcuddur.



downloaded from KitabYurdu.org

**Magellan** (port. - Maqalyayiş) Fernando (1480 - 1521) – dəniz səyyahı; ilk dövr-aləm səyahəti ekspedisiyasının təşkilatçısı. Portuqaliyada cəngavər ailəsində anadan olmuşdur. Hindistan, Şərqi Afrika və Malakkada xidmət etmişdir. Bir sıra dəniz ekspedisiyalarında iştirak etmişdir.

Portuqaliya kralına qərbə üzmək üçün həni rədd etmişdir. Bundan sonra Magellan İspaniyaya qaçmış və ispan kralı ilə gələcəkdə kəşf edəcəyi torpaqların canişini titulunu alması haqqında müqavilə imzalamışdır. Magellanın 5 gəmidən və 235 nəfərdən ibarət donanması 1518-ci il sentyabrın 20-də İspaniya limanından qərbə doğru səyahətə çıxdı. 1519-cu ilin noyabrında donanma Braziliyaya çatdı və 1520-ci ilin martında donanmada başlanmış qiyamı Magellan qətiyyətlə yatırdı. 1520-ci ilin oktyabrında donanma sonralar Magellanın adını almış boğazdan keçdi. 1520-ci ilin noyabrında Magellan salamat qalmış üç gəmi ilə Sakit adlandırdığı okeana çıxdı. 1521-ci ilin aprelində donanma Filippinə çatdı və yerli hakimlərin savaşma qarışan Magellan toqquşmada öldürüldü. Salamat qalmış iki gəmi Filippindən İspaniyaya üzdü. Gəmilərdən biri portuqallar tərəfindən tutuldu. 1522-ci ilin sentyabrında "Viktoriya" gəmisi başda S.Elkano olmaqla 18 nəfərlik ekipajı ilə İspaniyaya gəldi. Magellanın ekspedisiyası nəticəsində praktik olaraq Yerin kürə şəklində olduğu və vahid Dünya okeanının mövcudluğu sübuta yetirildi.

**magiya** (yunan dilində "maq" sözündən əmələ gəlmişdir) - magiya, cadugərlik, sehrbazlıq, ovsunçuluq; sehr, cadu, ovsun.

**maharaca** (sanskr. "böyük hakim") - 1956-cı ilə kimi Hindistanda hökmdar titulu. Orta əsrlərdə racalardan fərqli olaraq iri feodallara, müstəqil knyazlıqların hakimlərinə, yeni və ən yeni dövrlərdə isə bəzi knyazlara verilmişdir.

**"Mahabharata"** - iki raca ailəsi - Pandav və Kauravlar arasındakı mübarizədən bəhs edən qədim hind eposu.

**mahmudi** - XVII əsrin ikinci yarısında Azərbaycanda istifadə olunmuş sikkə. 100 dinara bərabər tutulurdu.

**"Majino xətti"** - 1929 - 34-cü illərdə (1940-cı ilə kimi təkmilləşdirilmişdir) Almaniya ilə sərhəddə inşa edilmiş Fransa istehkamları sistemi. Uzunluğu cəbhə boyu 380 km-dək, eni isə 6 - 8 km idi. Fransanın hərbi naziri general A.Majinonun adı ilə adlandırılmışdır. 1940-cı ildə alman-faşist qoşunları Belçika ərazisindən keçərək "Majino xətti"nin arxasına çıxdılar və Belçika qarnizonu təslim oldu.

**Makedoniya monarxiyası** - e.ə. V - II əsrlərdə Balkan yarımadasının şimal-şərq hissəsində mövcud olmuş dövlət. E.ə. V əsrin əvvəllərində Makedoniyanın birləşdirilməsinə başlanıldı və II Filippin (e.ə. 359 -336) hakimiyyəti illərində başa çatdı. II Filipp idarəçilik, maliyyə, hərbi iş və digər sahələrdə islahatlar keçirdi. İslahatların məqsədi qəbilə əyanlarını zəiflətmək və mərkəzi hakimiyyəti möhkəmlətmək idi. Bundan sonra II Filipp Yunanıstanın dərin sosial-iqtisadi böhran keçirən polislərini zəbt etməyə başladı. Yunan polislərinin birləşmiş qüvvələrinə e.ə. 338-ci ildə Xeroneya yaxınlığında qələbə çalan II Filipp Spartadan başqa, demək olar ki, bütün Yunanıstanı tabe etdi. Atası



downloaded from KitabYurdu.org

II Filippin işğalçılıq siyasətini davam etdirən Makedoniyalı İsgəndər Əhəmənilər dövlətini darmadağın edib möhtəşəm bir dövlət yaratdı, amma özü ölən kimi dövləti dağıldı. Diadoxların mübarizəsi nəticəsində Peloponnesdən başqa, bütün Yunanıstanı özündə birləşdirən Makedoniya çarlığı meydana gəldi. Lakin bir çox sənətkarların və kəndlilərin Şərqə köçürülməsi və diadoxların hakimiyyət uğrunda mübarizəsi nəticəsində Makedoniya çarlığı ağır böhran içərisində idi. Makedoniya çarlığının vəziyyəti II Antiqonun hakimiyyəti dövründə bir qədər yaxşılaşdı və o, e.ə. III əsrin birinci yarısında yenidən Makedoniyanın Ellada üzərində ağalığını bərpa edə bildi. E.ə. 221-ci ildə Selassiya yaxınlığında spartalılar üzərində qələbə çalan Makedoniya çarı III Antiqon Spartaya daxil oldu və onu Makedoniyanın hegemonluğu altında olan Ellin ittifaqına daxil etdi. Romanın İlliriyada (Balkan yarımadasının şimal-qərbi) möhkəmlənməsi onun Makedoniya ilə toqquşmasına səbəb oldu. E.ə. 216-cı ildə Makedoniya çarı V Filipp Karfagenlə Romaya qarşı birlikdə mübarizə aparmaq üçün ittifaq yaratdı. Makedoniyanın Roma ilə ilk müharibəsi (e.ə. 215 - 205) həlledici nəticələrə gətirmədi. Makedoniyanın məğlubiyyəti ilə başa çatan ikinci müharibədən (e.ə. 200 - 197) sonra V Filipp Makedoniyadan kənardakı vilayətlərindən əl çəkmək məcburiyyətində qaldı. Üçüncü müharibə (e.ə. 171 - 168) Makedoniya çarı Perseyin ordusunun Pidna yaxınlığındakı savaşda darmadağın olunması ilə başa çatdı. Makedoniya romalılar tərəfindən qarət edildi və 4 dairəyə bölündü. E.ə. 148-ci ildə makedoniyalı Andriskin romalılara qarşı üsyanı yatırıldıqdan sonra Makedoniya Romanın provinsiyasına çevrildi.

**Makedoniyalı İsgəndər** - Makedoniyanın hökmdarı və böyük sərkərdə. E.ə. 356 -323-cü illərdə yaşamışdır. Aristotelin şagirdi olmuşdur. E.ə. 336-cı ildə onun atası, Makedoniyanın hökmdarı II Filipp öldürüldü və iyirmi yaşlı İsgəndər Makedoniya monarxiyasının hökmdarı oldu. Makedoniyalı İsgəndər qətiyyətli və möhkəm xarakterli olmaqla yanaşı, şəxsi şücaətə də malik idi. Makedoniyanın Yunanıstan üzərində nəzarətə başlamasından sonra e.ə. 334-cü ildə Makedoniyalı İsgəndər İran (Əhəmənilər) dövlətinə qarşı "Şərq yürüşü"nə başladı. İsgəndərin ordusunun qərargahında sərkərdələrlə yanaşı, həm də yürüşün tarixini yazacaq, fəth olunan ölkələrin diqqətəlayiq yerlərini, maraqlı hadisələrini öyrənəcək tarixçilər, coğrafiyaçılar və təbiətşünaslar var idi. Üç həlledici böyük savaşda - Qranik, İss və Qavqamela yaxınlığında İsgəndər Əhəmənilər dövlətini darmadağın etdi. Makedoniyalı İsgəndər Əhəməni şahlarının Suzdakı sarayının yandırılmasının təşəbbüskarı olmuş və yanğın zamanı Avestanın əlyazmaları da orada yanmışdır. Makedoniyalı İsgəndər paytaxtı Babil şəhəri olan böyük imperiya yaratdı. O, keçmiş Əhəməni satrapı Atropatı Yuxarı Midiyada satrap vəzifəsində saxladı. E.ə. 330-cu ildə Makedoniyalı İsgəndər Ekbatanada olmuş və Midiyanın Niseya çölündə Atropatla görüşmüşdür. İsgəndər İran əyanının qızı Roksana ilə evlənmişdi. Fəth olunmuş ərazilərdə İsgəndər çoxlu şəhər saldırmış və onlarda əsasən Yunanıstandan gələnlər məskunlaşmışlar. Bu şəhərlərin çoxu (yetmişə



downloaded from KitabYurdu.org

qədəri) onun şərəfinə İsgəndəriyyə adlandırılmışdı. Bu şəhərlərdən ən böyüyü sonralar Misir İsgəndəriyyəsi olmuşdur. Orta Asiyada Makedoniyalı İsgəndər ciddi müqavimətlə üzləşdi və yalnız üçillik fasiləsiz döyüşlərdən sonra orada möhkəmlənə bildi. İsgəndər burada kütləvi edamlar və bütöv tayfaları məhv etmək yolunu tutdu. Bununla o, təkcə hərbi baxımdan deyil, həm də mənəvi baxımdan yerli tayfaların müqavimətini qırmaq ümidindəydi. Hindistan səfərindən sonra Makedoniyalı İsgəndər xəstələndi. Tarixçilərin bir qismi onun xəstəliyinin səbəbini qızdırmada, digərləri Hindistanda aldığı yarada, üçüncülər isə zəhərləndirilməsində görür. Makedoniyalı İsgəndər 32 yaşında Babildə vəfat etmiş, Misir İsgəndəriyyəsində dəfn olunmuşdur. Onun ölümündən sonra yaratdığı imperiya dağılmış və nəticədə Azərbaycan ərazisində Atropatena dövləti meydana gəlmişdir.

**makler** (broker) - vasitəçilik əməliyyatları üzrə ixtisaslaşan ayrı-ayrı şəxslər (dəllallar) və firmalar; görülən işin ümumi məbləğindən asılı olaraq onlar müəyyən faizlə gəlir götürürlər.

**maqlar** - Midiya tayfalarından biri. Zərdüştilik dininin nəsli kahinləri mənşəcə bu tayfadandırlar. Tezliklə “maq” sözü “zərdüşti kahin” anlayışının sinoniminə çevrildi. Hələ qədim zamanlardan maqların geniş torpaq sahələri var idi və onların çox hissəsi Midiyanın şərqindəki "Zərdüşt şəhəri" Raqanın ətrafında yerləşirdi. Avestadan görünür ki, maqlar cəmiyyətdə kifayət qədər yüksək mövqeyə malik imişlər. E.ə. VI əsrdən maqlar artıq zərdüşti dininin kahinləri, mərasim və adətlərin, midiyalıların, sonralar isə həm də farsların dini ənənələrinin qoruyucuları kimi tanınırdılar. Çox yüksək mövqe tutan maqlar hökmdarların müşaviri sayılır və onların xarici və daxili siyasətlərinə təsir göstərirdilər. Midiyada, xüsusilə də Midiya hökmdarı Astiaqın dövründə maqların mövqeyi güclü idi. Astiaqın dövründə maqlar yuxuyozan və rəmmal - qabaqcadan xəbər verən idilər, lakin onların yozumları və gələcək xəbərləri düz çıxmayanda Astiaq maqları edam etdirirdi. Maqların nüfuzunu o fakt da sübut edir ki, Əhəmənilərə qarşı üsyana midiyalı maq Qaumata başçılıq edirdi. Görünür, Əhəmənilərin dövründə də maqlar müəyyən rola malik idilər. Maqların rolu xüsusilə erkən orta əsrlərdə Sasanilər dövləti tərkibində zərdüştiliyin mərkəzlərindən birinə çevrilən Atropatenada daha da artır. Qazakadakı Adurquşnasp od məbədinin maqları 10 minədək kəndlinin işlədiyi geniş torpaq sahələrindən gəlir götürürdülər. Sonralar çoxlu miqdarda maq Muğan ərazisində yaşadığından buranın adı yerli əhali tərəfindən "maq" və ya "muq" sözləri ilə əlaqələndirilirdi. Avropada Zərdüşt Qədim Yunanıstan vasitəsilə məlum oldu və "maq" sözü "sehrbaz", "cadugər", "falçı", "münəccim", "rəmmal" mənasını verməyə başladı.

**maqnat** - 1) adlı-sanlı və varlı əyan, bir sıra Avropa ölkələrində mülkədar aristokratiyasının nümayəndəsi; 2) məcazi mənada - iri sənaye və maliyyə kapitalı nümayəndəsi.



downloaded from KitabYurdu.org

**Maqneziya** - Lidiyada (Kiçik Asiyada) qədim şəhər. E.ə. 190-cı ildə Maqneziya yaxınlığında romalılar Selevki hökmdarı III Antioxa həlledici zərbə endirdilər.

**maqupatan maqupat** ("maqlar maqı") - erkən orta əsrlərdə Sasanilər dövlətində baş maq. Sonralar bu titul "mobedan-mobed" şəklini almışdır.

**mal** - Ərəb xilafəti dövründə (sonralar da) Yaxın və Orta Şərq ölkələrində xüsusi daşınan əmlak (mülkdən fərqli olaraq).

**malcəhət** - Şərq ölkələrində məhsul və sənətkarlıq məmulatlarından alman vergi.

**maldarlıq** - insanların heyvan saxlamaqdan ibarət olan fəaliyyəti. Maldarlıq 10 min il bundan əvvəl meydana gəlmişdir. Ev heyvanlarının saxlanılması insanları nəinki qida məhsulları, həm də yun və dəri ilə təmin etdi.

**Maldarlıq** - istehsal təsərrüfatının formalarından biridir. Maldarlığın başlanması ilə bu sahə ilə məşğul olan insanlar meydana gəldi, köçəri həyat tərzinə keçdi və bununla da köçəri tayfalar və köçərilər meydana çıxdı. Maldarlığın iki əsas forması vardır: köçəri (yaylaq) və köçəbə.

**malik** - bax: məlik.

**maltusçuluq** - əhalinin məskunlaşması nəzəriyyəsi; müəllifinin - ingilis iqtisadçısı və ruhanisi Maltusun adı ilə belə adlandırılmışdır. Sənaye çevrilişi və "çəpərləmələr"lə əlaqədar olaraq işsizliyin artması dövründə meydana gəlmişdir. Maltus sübut etməyə çalışırdı ki, zəhmətkeşlərin yoxsulluğu iqtisadiyyatla deyil, təbii şəraitlə bağlıdır. Onun çıxardığı qanuna görə, guya, əhali həndəsi silsilə ilə, dolanışıq vasitələrinin miqdarı isə ədədi silsilə ilə artır və nəticədə "əhalinin mütləq artımı" meydana çıxır.

**Mamay** - Qızıl Orda xanı Berdibəyin dövründə tatar sərkərdəsi. Xanın qızı ilə evləndiyindən faktik olaraq Qızıl Ordanın hökmdarına çevrilmişdi. Çingiz xanın nəslindən olmadığından Mamay idarəçiliyi oyuncaq xanların vasitəsilə həyata keçirirdi. Mamay rus knyazlarının birləşməsinə mane olmağa çalışırdı. O, Ryazan (1373, 1378) və Nijeqorodsk knyazlıqlarını (1378) darmadağın etmişdi. Lakin Moskva knyazlığına soxulmağa cəhd göstərərkən onun dəstəsi Voje çayı yaxınlığında (1378) məğlubiyyətə uğradı, Kulikovo döyüşündə isə (1380) Mamayın bütün qoşunları darmadağın edildi. Bundan az sonra o, Toxtamış tərəfindən məğlub edildi, qaçdı, lakin sonralar öldürüldü.

**"Manas"** - qırğız xalqının, çox güman ki, XII əsrdə yaranmış və pəhləvan Manasın, onun oğlu Semeteyin, nəvəsi Seytekin qəhrəmanlıqlarından bəhs edən ən iri eposu. Eposun əsas motivi - dağınıq düşmüş tayfaların birləşdirilməsi və vətənin müdafiəsidir. XX əsrədək nəsildən-nəslə şifahi ötürülmüşdür.

**manat** - pul nişanı. Adını məbədi nəzdində sikkəxana (zərbxana, pul kəsilən yer) olan Roma ilahəsi Yunona Monetanın adından götürmüşdür.

**mandarin** - orta əsrlərdə Çində iri məmurun adı.



downloaded from KitabYurdu.org

**mandat** - hər hansı bir şəxsin, təşkilatın, dövlətin səlahiyyətlərini bildirən sənəd.

**mandat sistemi** - Birinci Dünya müharibəsinin qalibləri tərəfindən Almaniya və Osmanlı imperiyası vilayətlərinin bölüşdürülməsindən sonra formalaşmış sistem. Mandat sistemi müstəmləkə sisteminin saxlanılması üçün bir pərdə idi, hüquqi cəhətdən isə Millətlər Cəmiyyəti nizamnaməsinin 22-ci maddəsində təsbit olunmuşdu. Həmin maddəyə uyğun olaraq, guya, indiyədək "başqa dövlətlərin suverenliyi altmda olan ərazilərin xalqları" müharibənin qurtarmasından sonra həmin suverenlikdən məhrum olublar və indi də "müasir dövrün xüsusilə mürəkkəb şəraitində özlərini müstəqil idarə edə bilməyəcəklərindən" Millətlər Cəmiyyəti tövsiyə edir ki, "bu xalqlara himayədarlıq Millətlər Cəmiyyəti adından qabaqcıl nıillətlərə yerinə yetirəcəkləri mandatçılıq himayədarlığı kimi etimad edilsin". Millətlər Cəmiyyətinin mandatı ilə İraq, Transiordaniya ilə birlikdə Fələstin, Tanqanika, Toqo və Kamerunun bir hissəsi Böyük Brilaniyanın himayədarlığına, Toqo və Kamerunun qalan hissəsi, Suriya və Livan Fransaya, digər müstəmləkələr və adalar isə Belçika, Cənubi Afrika İttifaqı, Yaponiya, Avstraliya və Yeni Zelandiyanın idarəçiliyinə verildi.

**Mani** (216 - 276) - manilik dini təliminin banisi. III əsrin 30-cu illərinin sonlarında İran, Mərkəzi Asiya və Hindistana səyahətlər etmiş, buddizm, brahmanizm və yerli dini etiqadlarla tanış olmuşdur. 240-cı illərin əvvəllərində Ktesifonda öz təliminə çağırışla çıxış etmiş, təlim İranda geniş yayılmışdır; hətta ilk vaxtlar onu xristianlığa və digər yerli etiqadlara qarşı qoymağa çalışan şahənşah I Şapur tərəfindən dəstəklənmişdir. Lakin Mani təliminin müxalifətçi xarakteri, habelə zərdüşti kahinlərinin güclənməsi Maninin təqib edilməsinə səbəb oldu və o, İrandan qaçdı. Qonşu ölkələrdə səyahətini və dini çağırışlarını davam etdirən Mani bir çox ardıcıl toplaya bildi. Maninin davamçıları Mərkəzi Asiya, Çin, Misir və Roma imperiyasının şərq vilayətlərinə yayıldılar. 273-cü ildə Mani İrana qayıtdı, 275-ci ildə tutulub zindana salındı və az sonra edam olundu. Maninin əsas əsərləri "Şapurakana", "Canlı İncif kitabları, şagirdlərinə məktubları və ölümündən sonra məlum olan "Kefalayya" toplusudur.

**manifest** - 1) ali hakimiyyət tərəfindən hər hansı mühüm siyasi hadisə ilə bağlı əhaliyə edilən təntənəli yazılı müraciət; 2) siyasi partiyanın, ictimai təşkilatın əsas baxışlarını, proqram və qərarlarını əks etdirən çağırış.

**manilik** - III əsrdə Mesopotamiyada zərdüştilik, xristianlıq və Babil kultları əsasında meydana gəlmiş dini təlim. Maniliyin banisi Mani olmuşdur. Maniliyin əsasında zərdüştiliyin - iki allahın - Xeyir və Şər allahlarının əbədi mübarizəsi prinsipi durur. Manilik ətraf aləmə şərin təcəssümü kimi baxır, dünyanm inkişafının məqsədini isə insanın qəlbində olan xeyir və işıq zərrəciklərinin "xilas edilməsi"ndə görür. Yalnız son dərəcə tərki-dünyalıqla bu fikrə gəlib çıxmaq olardı (ot məhsullarından pəhriz saxlamaq, kəbindən imtina etmək və s.). III əsrin sonları - IV əsrin əvvəllərində manilik təriqətlərinin nizamlı təşkilatı meydana gəldi.



downloaded from KitabYurdu.org

Manilik Mərkəzi Asiyada, Hindistanda, Çində, Yaxın Şərqdə və Roma imperiyasının şərq əyalətlərində yayıldı. Artıq III əsrdə manilikdə şər ilə - sosial və əmlak bərabərsizliyi ilə fəal mübarizəyə qoşulmağa çağıran cərəyan meydana gəldi. Bu cərəyanm başçısı təbliğatını Romada başlayan, sonra isə İrana köçən Bundos (və ya Zərdüşt) idi. III - IV əsrlərdə Misir, Suriya və İranda manilərin başçılıq etdiyi üsyanlar baş verirdi. Manilik rəsmi zərdüştilik və xristianlıq tərəfindən təqib olunurdu. VIII - IX əsrlərdə manilik islam tərəfindən təqib edilmişdi. VIII əsrdə manilik Uyğur xaqanlığının rəsmi dini elan edildi. Mərkəzi Asiyanın və Sibirin bəzi vilayətlərində manilik icmaları XIII əsrədək mövcud olmuşdur. Manilik Avropa və Ön Asiyada orta əsrlərdə dini-fəlsəfi təlimlərə və hərəkatlara güclü təsir göstərmişdir.

**manipul** - Qədim Roma koqortasının bir hissəsi. Manipullar müstəqil fəaliyyət göstərdiyindən buradan "manipulyasiya etmək", yəni "şəraitə uyğun olaraq özü bildiyi kimi hərəkət etmək" ifadəsi yaranmışdır.

**Manna** - Azərbaycan ərazisində qədim dövlət. Mannanın adı ilk dəfə assur mənbələrində e.ə. 843-cü ildə çəkilir. Manna yerli ad idi, görünür, Urmiyaətrafı tayfalardan birinin adından yaranmışdır. İlk vaxtlar Urmiyaətrafı rayonun kiçik dövlət qurumlarından biri olan Manna bu rayonun bir çox əyalətlərinin birləşmə




mərkəzi oldu. Mannanın birləşdirdiyi əyalətlərin çoxu özlərinin əvvəlki adlarını, öz hökmdarlarını saxlayırdılar, amma indi artıq vahid Manna çarlığının vilayətləri olmuşdular. Manna çarlığının ərazisi Urmiya gölünün ətrafını əhatə edirdi. Dövlətin paytaxtı İzirtu şəhəri idi. Mənbələrin verdiyi məlumata görə, Mannanın birinci çarı Udaki idi. E.ə. IX - VIII əsrlərdə assurlar və urartulular Mannaya tez-tez yürüşlər edirdilər. Manna daha çox e.ə. VIII əsrdə çar İranzunun dövründə genişlənmiş və çiçəklənmişdir. İranzudan sonra Mannanın çarı onun oğlu Aza olmuşdur. O, Assuriya ilə ittifaqa üstünlük verirdi. Sui-qəsd nəticəsində Aza Urartu ilə ittifaqa üstünlük verən qardaşı Ullusunu tərəfindən taxtdan salındı. Belə olduqda Assuriya hökmdarı II Sarqon Mannaya yürüşə çıxdı və Ullusunu onun ali hakimiyyətini qəbul etdi. Bundan sonra II Sarqon Urartu üzərinə yürüşə çıxdı və urartuluların Mannadan qopardıqları vilayətləri tutub geriyə - Mannaya qaytardı. Bu hadisədən sonra Manna yenidən gücləndi. Mannanın çarı Ahşeri ölkədə məskunlaşmış kimmerlər və skiflərlə birlikdə və midiyalılarla ittifaqda artıq assur çarlarına qarşı vuruşurdu. Lakin e.ə. 660-cı ildə assurlar skifləri öz tərəflərinə çəkdikdən sonra mannalıları məğlubiyyətə uğratdılar. Assurlar Mannanın bir çox qalalarını və paytaxtı İzirtunu ələ keçirdilər. Hökmdar Ahşeri "ümid şəhəri" Arranaya qaçdı. Bu məğlubiyyətdən sonra mannalılar üsyan qaldırıb çar Ahşerini devirdilər və onun oğlu Uallini taxta çıxardılar. Manna çarı Ualli Assuriyanın ali hakimiyyətini qəbul etdi və onun babillilər tərəfindən dağıdılmasına qədər müttəfiqi oldu. Təxminən e.ə. 616-cı ildə



downloaded from KitabYurdu.org

Manna Midiya tərəfindən tutulmuşdur. Sonuncu dəfə Mannanın adı Bibliyada e.ə. 593-cü il hadisələri ilə əlaqədar çəkilir.

Mannalıların əsas məşğuliyyətləri əkinçilik və maldarlıq idi. Mannalılar arpa, bir neçə növ buğda və darı becərirdilər. Tarlanı ağac xış və dəmir toxa ilə şumlayırdılar. Məhsul yığımı dəmir oraqla apanlırdı. Təsərrüfatda təkərli arabalardan istifadə olunurdu, Həsənludan tapılmış qızıl kasa üzərində 6 oxlu təkərli araba təsviri vardır. Manna şəhərlərində böyük taxıl anbarları var idi. Mannada suvarma kanalları şəbəkəsi də yaradılmışdı. Arxların bəziləri yerin altı ilə çəkilən borulardan ibarət idi. Belə suvarma mannalılara bəhərli bağlar və üzümlüklər salmağa imkan verirdi. Şərabçılıq da Mannada inkişaf etmiş sahələrdən



sayılırdı. Arxeoloqlar Manna şəhərlərində torpağa basdırılmış küpləri olan çaxır anbarları aşkar etmişlər. Bu küplərin bəzilərinin tutumu 240 litrədək idi. Mannada iri və xırdabuynuzlu mal-qara və at saxlayırdılar. Yaylaq maldarlığından istifadə olunurdu. Həsənludan tapılmış qızıl cam üzərində allahları aparan cəng arabasına qoşulmuş qatır və öküz təsviri verilmişdir; qurbanlıq qoyunlar onların qarşısına gətirilir. Xırdabuynuzlu heyvanları ölənlərə qurban kəsirdilər. Əsas minik vasitəsi at idi. Mannalılar müharibə dövrü üçün hər nə varsa, hamısını ata öyrədirdilər. Atları cəng arabasına da qoşurdular. Mannada atların da dəfni qeydə alınıb. Sənətkarlıq da Mannada yüksək inkişaf səviyyəsinə çatmışdı. Bir sıra tarixçilər "polad" sözünü Manna dövlətinin Puluadi vilayətinin adı ilə bağlayırlar. Başı heyvan formasında olan ritonlar, üzərində qorelyef təsvirli qrifonlar və qanadlı öküzlər olan qablar, tiyəsinin yuxarı hissəsində relyef təsvirli aypara olan xəncərlər, tunc dəbilqələr və s. xüsusilə maraqlıdır. Manna ustaları bəzən əşyaları düzəldərkən metalları kombinə edirdilər - arxeoloqlar uzanmış şir formalı dəmir ilgəyi olan tunc sancaqlar, elektr - qızıl və gümüş xəlitəsindən olan təsvirlərlə bəzədilmiş gümüş vaza, gövdəsi gümüş, lüləyi isə qızıldan olan qab və s. aşkar etmişlər. Manna ustaları minalanmış keramika və minalanmış divar kaşıları düzəldirmişlər. Mannalıların qəbirlərində - kişi qəbirlərində silah, qadın qəbirlərində isə bəzək əşyaları var idi, bundan əlavə, həmin qəbirlərin hamısında içərisində yemək-içmək olan qablar olmuşdur. Ölənlərə qoyun qurbanı kəsilirdi. Manna şəhərlərində allahların və qurbanların heykəlləri olan məbədlər var ıdi. Manna əhalisi bir sıra vəhşi və ev heyvanlarına (at, ilan və s.) da fövqəltəbii qüvvələr şamil edirdilər. Marmalılarda o dünyadakı həyatın mövcudluğuna inamı əks etdirən həyat ağacına da sitayiş yayılmışdı.

**"Mannerheym xətti"** - Kareliya bərzəxində - Finlandiyanın keçmiş SSRİ ilə sərhədində istehkamlar sistemi. Finlandiya marşalı Karl Mannerheymin adı ilə adlandırılmışdır. 1927 - 39-cu illərdə inşa edilmişdir. 30 km içəriyə çəkilmiş operativ manee zonasından ibarət idi; əsası 8-10 km, ikinci dayağı - 5 km və tebii maneələrə (göllər, çaylar, bataqlıqlar, meşələr və s.) söykənən arxa mühafizə



downloaded from KitabYurdu.org

xəttindən ibarət idi. "Mannerheym xətti"nin içərilərə doğru ümumi dərinliyi 80 - 90 km, istehkamların ümumi uzunluğu isə 400 km-ə yaxın idi. "Mannerheym xətti"ndə səngərlər və çöl istehkamları vasitəsilə birləşdirilmiş 1000-ə yaxın yaxşı gizlədilmiş ağac-torpaq atəş nöqtəsi var idi. İstehkamların önündə 12 cərgəyədək qranit dirəklər basdırılmış, 15 - 45 cərgəlik məftilli çəpərlər çəkilmiş, tank əleyhinə xəndəklər qazılmış və minalanmış çöllər var idi. 1939 - 40-cı illər SSRİ - Finlandiya müharibəsində sovet qoşunlarının hücumunun qarşısı "Mannerheym xətti" ilə xeyli müddətə alınmışdı, onun yarılması zamanı sovet qoşunları canlı qüvvədə minlərlə itki verdilər. 1944-cü ildə sovet qoşunları yenidən böyük itkilərlə "Marmerheym xətti"ni yardılar və bundan sonra istehkamlar məhv edildi.

**Mantaşev** - XIX əsrin sonları - XX əsrin əvvəllərində Bakıda iri neft sənayeçisi, milliyyətcə - erməni. Tiflisin varlı tacirinin oğlu Aleksandr İvanoviç Mantaşev 1899-cu ildə Bakıda "A.İ.Mantaşev və K°" səhmdar cəmiyyətini yaratmışdı. 1890-cı illərin sonlarnda xarici ticarət üçün Rusiya bankının yardımı ilə bir sıra maliyyə fırıldaqları edərək Rusiyanın varlı adamlarından birinə çevrildi (1899-cu ildə cəmiyyətin səhm kapitalı 22 mln. rubl, 1914-cü ildə isə 30 mln. rubl idi). Bir sıra səhmdar cəmiyyətlərinin, o cümlədən "Nobel qardaşları" şirkətinin və bankların səhmdarı, iri torpaq və tikililər sahibi idi. Müxtəlif tipli erməni təşkilatlarına yardım etmək üçün külli miqdarda vəsait xərcləmişdi. Onun ölümündən sonra isə oğlu Levon 1911 -ci ildə cəmiyyətin sədri olmuşdu. Rusiyada Oktyabr çevrilişindən sonra Levon Mantaşev xaricə mühacirət etsə də, Mantaşevlərə məxsus və sovet hakimiyyəti tərəfindən milliləşdirilmiş neft mədənlərindən neft çıxarmaq hüququnu "Royal datç-Şell" ingilis - holland şirkətinə sata bilmişdir. Sonralar müqavilə ləğv edilmişdir.

**manufaktura** (lat. "əllə düzəldilmiş") - əl əməyindən istifadə edilən və işçilər arasında müxtəlif ixtisaslar üzrə əmək bölgüsünün olduğu müəssisə.

**manuskript** - antik və orta əsrlər əlyazmalarının adı.

**Mao Tszedun** (1893 - 1976) - Çin inqilabçısı və dövlət xadimi. Mao Tszedun Şaoşan (Xunan əyaləti) kəndində varlı kəndli ailəsində anadan olmuşdur. Bir müddət imperator qoşunlarının məğlubiyyətə uğradan məktəbdə oxumuş, oranı bitirdikdən sonra isə Pekinə köçmüş, kitbxana köməkçisi işləmişdir. 1919-cu ildə Xunan əyalətinə qayıtmış, "4 may" hərəkatında iştirak etmişdir. 1921-ci ildə Mao on bir marksistlə birlikdə Çin Kommunist Partiyasının (ÇKP) əsasını qoymuşdur. Qurultaydan sonra ÇKP Xunan komitəsinin katibi işləmişdir. 1923-cü ildə ÇKP-nin III qurultayında Mao ÇKP MK üzvü seçilmişdir. 1923-cü ildə ÇKP Çan Kayşinin başçılıq etdiyi Qomindan partiyası ilə birləşdi. Belə ki, Mao hər kimlə olursa-olsun, onun perspektiv və uzunmüddətli məqsədlərinə çatmağa yardım edə biləcək qısamüddətli ittifaq bağlamaq məqamını əldən vermirdi. ÇKP-nin Qomindanla ittifaqı 1927-ci ilə kimi davam etdi, bundan sonra isə Mao Tszedun və Çan Kayşi Çində hakimiyyət uğrunda bir-biri ilə mübarizəyə başladılar. Mao Tszedun kəndlilərə arxalanırdı, qomindanlar isə iri sənaye



downloaded from KitabYurdu.org

mərkəzlərində fəaliyyət göstərirdilər. Mao Tszedun Qırmızı Ordu yaratdı və əsası 1931-ci ildə qoyulmuş Çin Sovet Respublikasının sədri seçildi. Çan Kayşi daha böyük ordu toplayıb Qırmızı Orduya qarşı hücuma keçdikdə isə Mao Tszedun geriyə çəkilmək barədə əmr verdi və həlledici döyüşlərdən çəkindi. 1934-cü ildə Qırmızı Ordu mühasirəyə düşdü və yalnız mühasirə xəttinin cəsarətlə yarılması sayəsində məhv edilməkdən xilas oldu. Mao Tszedunun geri çəkilən ordusu uzaq Şensi əyalətində "qırmızı rayon" dayaq məntəqəsi yaratdı. Qırmızı Ordunun 1 illik geri çəkilməsi (Böyük keçid) zamanı ilkin 100 minlik döyüşçüdən cəmi 20 minə qədər əsgər qalmışdı ki, onlar da təcrübəli, döyüşkən və Mao Tszeduna sədaqətli adamlar idi. Onlar Çində bir neçə "qırmızı rayon" yaratdılar. 1937-ci ildə Mao Tszedun və Çan Kayşi yaponların müdaxiləsinə qarşı mübarizə apardılar. SSRİ-dən silah alan Mao Tszedunun qoşunları Qırmızı Ordunu möhkəmlətməklə ölkənin şimalında yaponlara qarşı əsasən partizan müharibəsi aparırdılar. Eyni zamanda, Çan Kayşi qoşunları yaponlarla şəhərlər uğrunda savaşlarda öz döyüşçülərini itirirdilər. 1943-cü ilin martında Mao Tszedun ÇKP MK-nın sədri seçildi. İkinci Dünya müharibəsi qurtaran kimi kommunistlər və qomindanlar Çində hakimiyyət uğrunda yenidən mübarizəyə başladılar. İndi daha güclü olan Qırmızı Ordu hücum əməliyyatlarına başladı və Çan Kayşi qoşunlarını Tayvan adasına sıxışdırdı. 1949-cu il oktyabrın 1-də Çin Xalq Respublikasının (ÇXR) yaranması elan olundu və 1954-cü ildə Mao Tszedun onun sədri seçildi. Mao Tszedun bütün rəqiblərini amansızcasına əzişdirərək Çində öz diktaturasını yaratdı. Mao Tszedun tərəfindən Çində keçirilən müxtəlif "inqilablar" və kampaniyalar nəticəsində 20 milyon nəfərdən artıq çinli həlak olmuş və ya edam edilmişdir. O, ÇKP-nin böyük dövlətçilik hegemonluğu və parçalayıcılığı ilə xarakterizə olunan xüsusi xarici siyasət kursunu elan etmişdi, müharibəni ziddiyyətlərin həll olunması üçün əsas vasitə sayırdı. Mao Tszedunun ideyalarını Xo Şi Min və Vo Nquen Ziap Vyetnamda, Kim İr Sen Koreyada, Pol Pot Kambocada, Fidel Kastro Kubada, solçu qruplar bütün dünyada öyrənib təbliğ və tətbiq edirdilər. "Sədr Maonun iqtibasları" öz ölkəsində və bütün dünya qiyamçıları arasında Bibliyaya çevrilmişdi.

**Marafon** - Attikanın şimal-şərqində məskən. E.ə. 490-cı il sentyabrın 13-də Marafon düzündə strateq Miltiadın komandanlığı ilə 10 minlik Afina döyüşçüsü Əhəməni şahı I Daranın sayca çox olan İran qoşunlarını darmadağın etmişdi. Fərəhli qələbə xəbərini öz həmvətənlərinə daha tez çatdırmaq istəyən bir afinalı Marafondan Afinayadək 42 km yolu dincəlmədən qaçmışdır. Şəhərə daxil olarkən: "Afinalılar, sevinin, biz qalib gəldik!" - deyə qışqırmış və yıxılıb ölmüşdür. Hazırda 42 km 195 m uzunluğunda məsafə "marafon", bu məsafənin qaçışçıları isə "marafonçular" adlanırlar.

**Marağayi Əbdülqadir** (1353 - 1433) - Azərbaycan musiqiçisi. Marağayi doğma musiqinin nəzəri əsaslarını işləyib hazırlamışdır. Marağayinin muğamları,



downloaded from KitabYurdu.org

mahnı və rəqs melodiyaları, o cümlədən metabil, əran, əncih, segah və s. Orta və Yaxın Şərq ölkələrində də yayılmışdır.

**Marağayi Əvhədi** (1275 - 1338) - Azərbaycan şairi. Əsas əsəri "Dəhnamə" poemasıdır.

**Marat Jan Pol** (1743 - 93) - Böyük Fransa burjua inqilabı xadimi, tibb doktoru, fizik, sosioloq və publisist. Böyük Fransa burjua inqilabından sonra 1789-cu ildən Marat öz vəsaiti hesabına "Xalqın dostu" qəzetini nəşr etməyə başladı və qəzetin adı ilə bağlı ona da "xalqın dostu" adını verdilər. Marat jirondistlə qarşı qətiyyətlə mübarizə aparırdı. Hakimiyyət tərəfindən təqib və təhqirlərə məruz qalan Marat bir neçə dəfə İngiltərəyə getmiş və gizli şəkildə qəzetini nəşr etmişdir. l792-ci il seçkilərində Marat Parisdən Konventə deputat seçilmişdi. Jirondistlərin fitvası ilə inqilabi tribunala verilən Marat tam bəraət qazanıb yenidən Konventə qaytarılmadı. Robespyer və digər yakobinlərlə birlikdə Marat 1793-cü il 31 may - 2 iyun üsyanının hazırlanmasında iştirak etmişdi. Jirondistlərin göndərdiyi aristokrat qadın Şarlotta Korde tərəfindən öldürülmüşdür.

**Marduk** - Babil şəhərinin baş allahı və himayəçisi. Hökmdar Hammurapi Marduku yaratdığı Babilistan şahlığında hamının və hər şeyin baş allahı etmişdi.

**marena** - Azərbaycanda yayılmış bitki (Şirvan və Arazın cənub sahilləri); bu bitkinin kökündən qırmızı boya - qızılboya alırdılar.

**Margiana** (yun. Marqiana, qəd. iran. Marquş) - Mərkəzi Asiyada Murqab çayı boyunca yerləşən ən qədim dövlətlərdən biri (müasir Türkmənistanın cənub-şərqi və Əfqanıstanın şimalında). Margiana haqqında ən qədim məlumatlar Avestada və Bisütun kitabəsindədir. Margiana Əhəməni hökmdarı Böyük Kir tərəfindən zəbt edilmişdir. E.ə. 522-ci ildə Margianada İran zülmünə qarşı üsyan baş verdi və o, I Dara tərəfindən yatırıldı. Sonralar Margiana Baktriyanın tərkibinə daxil oldu. Orta əsrlərdə Margiananın torpaqları Xorasana daxil edildi.

**marketinq** - bazarın xüsusiyyətlərini, onun həcm və strukturunun dəyişmə təmayüllərini, tendensiyalarını, əhalinin istehlak adətlərini öyrənməyə əsaslanan istehsalı və satışı idarəetmə sistemi. Əldə edilmiş nəticələrdən asılı olaraq firmanın istehsal və məhsul çeşidi proqramları hazırlanır. Bu zaman reklamlara, məhsulun qablaşdırılmasına və markalanmasına (nişanlanmasına) çox böyük diqqət yetirilir ki, ona yüksək maraq oyadılsın.

**markiz** - 1) Frank dövlətində - hərbi məqsədlər üçün yaradılmış iri sərhəd inzibati dairəsinin başçısı (“markqraf” da adlanırdı); 2) X əsrdən Fransa və İtaliyada iri feodal; öz səviyyəsinə görə feodal nərdivanında hersoqla qraf arasında dururdu; 3) Fransa və İtaliyada, XIV - XV əsrlərdən isə həm də İngiltərə, İspaniya və Portuqaliyada irsi zadəgan titulu.

**Marko Polo** (1254 - 1324) - Venesiya taciri və səyyahı. Marko Polonun 18 yaşı tamam olanda o, atası və əmisi ilə birlikdə Çinə yola düşmüşdü. Markonun qohumları hələ 1254 - 69-cu illərdə burada olmuşdular. 1271-ci ildə onlar gəmi ilə Venesiyadan Aralıq dənizi vasitəsilə Türkiyəyə üzdülər, yolun qalan hissəsini isə



downloaded from KitabYurdu.org

quru ilə, o cümlədən Böyük İpəkyolu ilə getdilər. Onların Çinə səfəri 4 il çəkdi. Çin hökmdarı Xubilay xan səyyahları mehribancasına qarşıladı. Markonun dil öyrənmək qabiliyyəti var idi. Buna görə də tezliklə Xubilay xanın yanında diplomat kimi xidmətə başladı. Bir çox illər xana qulluq edən Marko vətəninə qayıtmağı qərara aldı. O, Çindən monqol şahzadəsi Kökeçin xatunu müşayiət edərək İran körfəzi sahillərinə üzdü. Bu dəniz səyahəti bir il yarım çəkdi. 1295-ci ildə Marko Polo İtaliyaya qayıtdı və gördükləri haqqında danışmağa başladı, avropalıların bir çoxu isə ona inanmadı. Onun danışdıqları əsasmda "Marko Polonun kitabı" - avropalıların Asiya ölkələri haqqında ilk mənbələrdən biri qələmə alındı.

**Marks Karl** (1818 - 83)-kommunizmin banisi, iqtisadçı, filosof, bir çox əsərlərin, o cümlədən "Kommunist partiyasının manifesti" və iqtisadiyyat üzrə olan "Kapital" əsərinin müəllifi, ilk kütləvi fəhlə təşkilatının - I İnternasionalın yaradıcısı. Onun təlimi - marksizm - XIX əsrin birinci yarısı - XX əsrdə proletariatın ideologiyası idi.

**Mars** - Qədim Roma mifologiyasında əvvəlcə tarla və məhsul allahı, sonra isə müharibə allahı. Romul və Remin atası sayılırdı. Mars qədim yunanların Ares allahına uyğun gəlir.

**"Marselyeza"** - Ruje de Lill tərəfindən 1792-ci ildə, Böyük Fransa burjua inqilabı zamanı yazılmış nəğmə. İlk dəfə Marsel batalyonu əsgərləri tərəfindən ifa edilmişdi. 1887-ci ildən Fransanın dövlət himnidir.

**marşal** (fr. "mareşal" - "süvari", "atlı nökər") - 1) ilk vaxtlar Frank dövlətində atlara mehtərlik edən kral xidmətçisi. XII əsrdən Fransada cangüdənlər, süvari keşikçilər və kralın at tövlələrinə nəzarət edən saray əyanı. XIII əsrdən kral qoşunu hissələrinin komandiri, XVI əsrdən xüsusi fərqləndirici nişanı - marşal jezli olan ali hərbi rütbə. Böyük Fransa burjua inqilabı dövründə ləğv edilmiş, lakin I Napoleon tərəfindən bərpa olunmuşdur; 2) marşal rütbəsi İspaniya, Türkiyə (müşir), Yaponiya, Böyük Britaniya, ABŞ, SSRİ və keçmiş sosialist ölkələrində də var idi. Donanmada marşal rütbəsinə admiral rütbəsi uyğun gəlir; 3) Polşada - bir sıra mülki vəzifəli şəxslərin rütbəsi (məs.: seymin marşalı).

**Marşall planı** - İkinci Dünya müharibəsindən sonra Avropanın bərpası və inkişatı planı; 1947-ci ildə ABŞ-ın dövlət katibi Corc Marşall tərəfindən irəli sürülmüşdür. Marşall planının məqsədi müharibə zamanı dağıdılmış Avropada Amerika inhisarlarının mövqeyini mökəmlətməkdən ibarət ıdı. Marşall planının əsas müddəaları İngiltərə, SSRİvə Fransa xarici işlər nazirlərinin Pans müşavirəsində müzakirə edilmişdir. SSRİ və onun təzyiqi ilə digər sosialist ölkələrı Marşall planının həyata keçirilməsində iştirakdan imtina etdilər. 16 Avropa ölkəsi (Avstriya, İngiltərə, Belçika, Yunanıstan, Danimarka, İrlandiya, İslandiya, İtaliya Lüksemburq, Niderland, Norveç, Portuqaliya, Türkiyə, Fransa, İsveçrə, İsveç) Marşall planında iştirak eləməyə razılıq verdi və "Avropa iqtisadi əməkdaşlıq təşkilatı"nın yaradılması haqqında konvensiya imzalandı. Təşkilatın vəzifəsi



downloaded from KitabYurdu.org

"Avropanın birgə bərpası proqramı"nı işləyib hazırlamaqdan ibarət idi. Marşall planı Qərbi Almaniyaya da şamil edildi. 1948-ci ilin aprelindən həyata keçirilməyə başlanıldı. Marşall planına görə, planın iştirakçısı olan Avropa dövlətləri ikitərəfli sazişlər imzalamağı öhdələrinə götürürdülər ki, istehsalın artmasını və maliyyə sabitliyini təmin edəcəklər, ticarət maneələrinin aradan qaldırılması üçün digər ölkələrlə əməkdaşlıq edəcəklər, ABŞ-a aztapılan materiallar göndərəcəklər, Amerika yardımından istifadə haqqında mütəmadi olaraq hesabatlar təqdim edəcəklər, xüsusi (şəxsi) Amerika investisiyalarını saxlayacaq və dəstəkləyəcəklər. İştirakçı ölkələr öhdələrinə götürürdülər ki, milli valyuta ilə xüsusi fondlar yaratsınlar və onların istifadəsinə nəzarət səlahiyyəti ABŞ-ın ixtiyarında olsun. Yardım ABŞ-ın federal büdcəsindən təmənnasız kömək və istiqraz şəklində göstərilirdi. Plana görə, ilk növbədə Amerikada həddən çox olan mallar (başlıca olaraq kənd təsərrüfatı məhsulları) Avropa ölkələrinə göndərilməli idi. 1949-cu ildə NATO blokunun yaradılmasından sonra Marşall planından daha çox hərbi proqramların həyata keçirilməsi üçün istifadə olunmağa başlandı. Marşall planı üzrə 1948-ci ildən 1951-ci ilin sonuna qədər maliyyələşdirmənin ümumi məbləği 12,4 mlrd. dollara qədər idi. 1951-ci il dekabrın 30-da Marşall planının fəaliyyətinə son qoyuldu.

**masonçuluq, frankmasonçuluq** (fr. "franc maçon" - "azad bənna", "daşyonan") - XVIII əsrin əvvəllərində İngiltərədə meydana gəlmiş dini-mənəvi hərəkat. Tezliklə Avropada və Amerikada yayılmışdır. Özünü feodal dövlətçiliyinə və rəsmi kilsəyə qarşı qoyan hərəkat bəşəriyyəti dinc yolla dini qardaşlıq ittifaqında birləşdirmək məqsədi ilə ümumdünya gizli təşkilatı yaratmağa çalışırdı. Ordenin mürəkkəb çoxpilləli sistemi və ayinlər simvolikasını masonlar orta əsrlər daşyonan-bənnaların sexlərindən əxz etmişdilər. XVIII əsrin ikinci yarısında masonların hərəkatında bir çox maarifçilər iştirak edirdilər, lakin ordenin daxilində getdikcə mistikaya, ayinlərin icrasına meyl daha da artırdı. Ciddi nəzarət sistemi yaranır -ordenə mürtəce tipli döyüşkən təşkilat xarakteri verilməsinə cəhd göstərilir. Eyni zamanda, Almaniyada illüminatlar ordeni yaradan Veyspqaupt masonçuluğu maarifçi tipli məxfi təşkilata çevirməyə cəhd etdi. XIX əsrin əvvəllərində masonçuluqdan gizli inqilabi hərəkat üçün istifadə etməyə də cəhd göstərilmişdir. Hazırda Qərbi Avropanın və Amerikanın bir sıra ölkələrində masonçuluq var, lakin hiss olunacaq ictimai rola malik deyillər.

**massagetlər** – qədim yunan tarixçilərinin əsərlərində Mərkəzi Asiyada Xəzər və Aral dənizləri arasında yaşayan tayfaların ümumi adı. Herodotun məlumatına görə, massagetlər köçəri tayfalar idilər və həm piyada, həm də atla döyüşürdülər. Onların məişət əşyaları və silahları misdən və qızıldan hazırlanmışdı. Massagetləri tabe etmək istəyən Əhəməni hökmdarı Böyük Kir e.ə. 530-cu ildə massagetlərin hökmdarı Tomiris tərəfindən məğlub edildi. Strabonun yazdığına görə, massagetlər günəşə etiqad edir və ona at qurbanı kəsirdilər.



downloaded from KitabYurdu.org

Strabon köçərilərlə yanaşı, xarəzmliləri, yığıcılıq və balıq ovu ilə məşğul olan bir sıra başqa tayfaları da massagetlərə aid edir.

**Matenadaran** (erm. "kitab saxlanılan yer") - Eçmiədzin monastırının kolleksiyası əsasında İrəvanda yaradılmış əlyazmalar fondu və elmi-tədqiqat institutu. Matenadaranda 100 mindən artıq əlyazma və erməni, ərəb, fars və digər dillərdə kitablar vardır. Alban müəllifi Moisey Kalankatlının yazdığı "Alban tarixi"nin əlyazması da burada saxlanılır.

**materializm** - təbiətin (materiya, varlıq) birinci, ilkin başlanğıc, şüurun isə törəmə, ikinci olduğunu qəbul edən fəlsəfi cərəyan. Materializm idealizmə qarşı qoyulur.

**matriarxat** - qadının - ananın böyük hörmət və nüfuza malik olduğu və qohumluq münasibətlərinin ana xətti ilə aparıldığı nəsli icma qaydası. Matriarxatın mövcudluğunu ibtidai insan düşərgələrində tapılmış çoxlu qadın heykəlciklərinin olması sübut edir. Tədricən ana icması ata icması - patriarxat ilə əvəz olunur.

**mavrlar** (yun. "mavros" - "tünd", "qara") - qədim dövrdə və orta əsrlərdə bir sıra müxtəlif tayfalara verilən şərti ad. Qədim romalılar Mavritaniyada (Afrikanın şimal-qərbində ölkə) yaşayan əhalini mavrlar adlandırırdılar. Pireney yarımadası ərəblər və bərbərlər tərəfindən fəth edildikdən sonra Avropada onları mavr adlandırmağa başladılar. Kordova xilafəti dövründə Pireney yarımadasının bütün müsəlmanlarına mavr deyirdilər; Rekonkistadan sonra Şimali Afrikanın müsəlman ərəblərini, əsasən də şəhərliləri mavr adlandırırdılar. Bəzən Cənubi Ərəbistan və Seylon adasından gələnlərin qanşıq kəbinlərindən törəyənlərə də mavr deyirdilər.

**mavzoley** - əvvəlcə hökmdar Mavsolun Halikarnasda (bax: Artemision) sərdabəsi olmuşdur. Sonralar monumental qəbir tikililərini belə adlandırmağa başladılar.

**Maydanek** - Lüblin şəhəri (Polşa) yaxınlığında 1941 - 44-cü illərdə alman-faşist həbs düşərgəsi. Faşistlər burada 1,5 milyon nəfərədək adamı məhv etmişlər.

**mayorat** - orta əsrlərdə Avropada feodun yalnız böyük oğula, ya da nəslin ağsaqqalına keçməsi haqda varislik qaydası.

**mayya** – qədim mayya tayfaları Mərkəzi Amerikanın Yukatan yarımadasında məskunlaşmışdılar. Qədim mayya tayfaları kəsib-yandırma



əkinçiliyi ilə məşğul olur, qarğıdalı, lobya, balqabaq, pomidor, kartof pambıq becərirdilər; onlar hinduşka və it də saxlayır, ətindən ərzaq üçün istifadə edirdilər; habelə ovçuluq, balıqçılıq və arıçılıqla da məşğul olurdular. Eramızın ilk əsrlərində mayya tayfalarının daş binaları və pilləli piramida formalı məbədləri olan şəhərləri var idi. Tikililər rəsmlərlə, relyef təsvirləri və heykəllərlə bəzədilirdi. Mayya tayfalarının eramızm ilk illərində meydana gəlmiş heroqlif yazılarından ibarət çoxlu kitabələri dövrümüzədək qalmışdır. Mayya tayfalarının 100-dən artıq



downloaded from KitabYurdu.org

şəhərləri məlumdur. Bunların ən iriləri Tikal, Kopan, Çiçen-İtsa, Uşmal şəhərləri idi. IX əsrdə mayya şəhərləri digər hindi tayfalarının müdaxiləsi nəticəsində darmadağın edilmişdi. X əsrdə Yukatan yarımadasında mayyaların yeni dövlətləri meydana gəlmiş, sonralar isə müstəqil şəhər-dövlətlərə parçalanmışdı. Mayya dövlətlərində əyanlar və kahinlər yüksək mövqeyə malik idilər. Kahinlər yazıya və elmi biliklərə yiyələnirdilər. Mayyaların dinində yağış və külək allahları mühüm rol oynayırdılar. Əhali icma şəklində yaşayır və müxtəlif mükəlləfiyyətlər daşıyırdı. İbtidai münasibətlərin qalıqları qalmaqda idi və eyni zamanda, quldarlıq da inkişaf etmişdi. Mayya şəhərlərində sənətkarlıq da inkişaf etmişdi, çoxlu tacir var idi. Mayyaların şəhər-dövlətləri 1541 - 46-cı illərdə ispanlar tərəfindən istila edildi. Mayya tayfaları dəfələrlə ispan ağalığına qarşı üsyan etmişlər. Onların ən iri azadlıq hərəkatı Meksikanın müstəqillik əldə etməsindən sonra - 1847-1904-cü illərdə olmuşdur. Hazırda mayyaların sayı 400 min nəfərə yaxındır.

**"mazut konstitusiyası"** - Bakıda 1904-cü il dekabr tətili nəticəsində həmin il dekabrın 30-da fəhlələrlə neft sənayeçiləri arasında imzalanmış ilk kollektiv müqavilə. Fəhlələrin "mazut konstitusiyası" adlandırdıqları bu müqavilənin şərtlərinə görə, fəhlələrə 9 saatlıq iş günü, ayda 4 istirahət günü, habelə ildə bir dəfə haqqı ödənilən məzuniyyət müəyyənləşdirilir, minimum əmək haqqı, xəstəlik və əlilliyə görə və s. müavinətlər təsis edilirdi.

**Mehdi Hüseyn** (Mehdi Əli oğlu Hüseynovun təxəllüsü; 1909 - 65) - Azərbaycan SSR-in xalq yazıçısı və ictimai xadimi. Qazax rayonunun Şıxlı kəndində anadan olmuşdur. 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. İlk bədii əsərini - "Qoyun qırxımı" hekayəsini 1927-ci ildə "Şərq qapısı" jurnalında çap etdirmişdir. Mehdi Hüseynin əsərləri Azərbaycanın müasir həyati mövzularına, onun tarixinə həsr olunmuşdur. Mehdi Hüseyn dəqiq realistik əsər, bütöv və bitkin kompozisiyalar yaratmağı yaxşı bacarırdı. Ən məşhur əsərləri: "Daşqın" (1933 - 36), "Tərlan" (1940), "Abşeron" (1947 - 49), "Qara daşlar" (1954 - 58), "Səhər" (1949 - 52) romanları, "Komissar" (1940) povesti, Cavanşir", "Nizami", "İntizar" tarixi pyesləri və b. "Abşeron" romanına görə Mehdi Hüseyn SSRİ dövlət mükafatına layiq görülmüşdür. Mehdi Hüseynin bir çox roman və Povestləri rus və digər SSRİ xalqlarının dillərinə, habelə xarici dillərə tərcümə olunmuşdur. Mehdi Hüseyn SSRİ Ali Sovetinin deputatı seçilmişdir. O, 1957-ci ildən Azərbaycan Yazıçılar İttifaqının birinci katibi, 1959-cu ildən isə həmçinin SSRİ Yazıçılar İttifaqının katiblərindən biri olmuşdur.



**Mehmandarov** Səmədbəy Sadıqbəy oğlu (1857 - 1931) - çar ordusunda artilleriya general-leytenantı. Hələ XIX əsrin 70-ci illərindən Mehmandarov hərbi işi öyrənməyə başlayır. Mehmandarov 1904 - 1905-ci illər rus - yapon müharibəsində iştirak edir. Birinci Dünya müharibəsində 21-ci diviziyanın komandiri olan Mehmandarov dəfələrlə düşmənin planlarını pozmuş və ona ağır zərbələr endirmişdir. Lodz rayonundakı (Polşa) əməliyyatlar zamanı



downloaded from KitabYurdu.org

göstərdiyi sərkərdəlik istedadı və şəxsi şücaəti Mehmandarova böyük şöhrət gətirmiş, ona artilleriya generalı rütbəsi verilmişdir. S.Mehmandarov 1915-ci ildə 2-ci Qafqaz ordusu korpusunun komandiri təyin edilmişdi. 1918-ci il dekabrın 25-də Mehmandarov ADR-in hərbi naziri təyin edilmiş və Azərbaycan milli ordusunun yaradılmasında mühüm rol oynamışdır.

**Mehmet II** (II Məhəmməd Fateh; 1432 - 81) - Osmanlı sultanı (1444 - 46; 1451 -81) II Muradın oğlu. Kiçik Asiyada və Balkan yarımadasında işğalçılıq siyasəti yeritmişdir. 1453-cü ildə onun başçılıq etdiyi 100 minlik ordu möhkəm divarları olan Konstantinopolu qurudan və dənizdən mühasirəyə alaraq onu 53 gündən sonra mta bilmişdir. Onun göstərişi ilə mühasirənin sonlarında gəmilər gecə ikən quru yolla Boğaziçinə gətirilmiş və konstantinopolluların müqaviməti qırılmış, Bizans imperiyasının varlığına son qoyulmuşdur. Türklərin İstanbul adlandırdıqları Konstantinopol Osmanlı imperiyasının paytaxtı olmuşdur. II Məhəmməd Fateh Serbiya (1459). Moreya (1460), Trapezund (Trabzon) imperiyasını (1461), Bosniyanı (1463), Evbey adalarını (1471), Qaraman bəyliyini (1471) tutmuş, Krım xanlığını asılı vəziyyətə salmış (1475), Qafqaz Albaniyasının fəthini başa çatdırmış (1479), Ağqoyunlu hökmdarı Uzun Həsənlə müharibələr (Malatya və Otluqbeli - 1473) aparmışdır. II Məhəmməd Fatehin dövründə Osmanlı imperiyasının ilk qanunvericilik məcəlləsi tərtib edilmişdir.

**Mehranilər** - Qafqaz Albaniyasında hakim sülalə (628 - 705). Sülalənin banisi Sasanilərin qohumu Mehran idi və o, VI əsrin sonlarında 30 minlik ailə ilə birlikdə Qqfqaz Albaniyasının Girdiman vilayətinə köçmüşdür. Mehranilərin mülkləri tədricən genişlənmiş və 628-ci ildə I Mehran bütün Qafqaz Albaniyasının knyazı olmuşdur. Cavanşir də sülalənin görkəmli nümayəndələrindən biri idi. Sülalənin sonuncu nümayəndəsi Varaz Tiridat olmuşdur. 705-ci ildə alban knyazı ilə katolikos faktik olaraq bütün hüquqlarından məhrum edilirlər və Qafqaz Albaniyasının idarə olunması ərəb canişininin əlində cəmlənir.

**memorandum** - diplomatik yazışma formalarından biri (əhəmiyyətinə görə notadan sonradır). Barəsində danışıqların aparıldığı məsələnin faktik və ya hüquqi tərəfinin təsviri formasında tərtib olunur və əksər hallarda notanın müddəalarını əsaslandırmaq və inkişaf etdirmək məqsədi ilə ona əlavə edilir.

**memuar** (lat. "memoria" - "xatirə", "yaddaş") - müəllifin iştirakçısı və ya şahidi olduğu tarixi hadisələr haqqında xatirələri. Memuarlar tarixi mənbələrdən biri hesab olunur.

**Mendeleyev** Dmitri İvanoviç (1834 - 1907) - görkəmli rus kimyaçısı, hərtərəfli alim, pedaqoq, ictimai xadim, 1969-cu ildə təbiətşünaslığın əsas qanunlarından biri olan kimyəvi elementlerin dövri qanununu kəşf etmişdir. 500-dən artıq elmi əsər yazmışdır. Bunlardan qeyri-üzvi kimyanın ilk mükəmməl izahını verən "Kimyanın əsasları" (1869 - 71) klassik əsərini göstərmək olar. Kimya, kimya texnologiyası, fizika, meteorologiya, kənd təsərrüfatı, iqtisadiyyat, maarif və başqa sahələr üzrə fundamental tədqiqatların müəllifidir. Məhlulların



downloaded from KitabYurdu.org

təbiəti haqqında nəzəriyyənin əsasını qoymuş, neftin fraksiyalara ayrılmasının sənaye üsulunu təklif etmiş, tüstüsüz barıt növünü kəşf etmiş, mineral gübrələrin istifadə olunmasını, quraq torpaqların suvarılmasını təbliğ etmişdir. Rusiya Kimya Cəmiyyətinin (1868) yaradılmasının təşəbbüskarlarından biridir. Peterburq universitetinin professoru (1865 - 90) olmuş, tələbələrin sıxışdırılmasına etiraz əlaməti olaraq istefa vermişdir. 1876-cı ildən Peterburq Elmlər Akademiyasının müxbir üzvü olmuş, 1880-ci ildə akademikliyə namizədliyi irəli sürülmüş, ancaq seçilməmişdir ki, bu da kəskin ictimai etiraz doğurmuşdu. Ölçü və Çəkilər Baş Palatasının təşkilatçısı və ilk sədri (1893) olmuşdur. Mendeleyev dəfələrlə Bakıda olmuş, bir çox illər ərzində neft sənayesinin problemlərini, neft məhsullarının alınması metodlarının təkmilləşdirilməsini öyrənmişdir. O, kapitalistlərin Azərbaycanın yeraltı sərvətlərinə yırtıcı münasibətlərinə qarşı kəskin etiraz səsini ucaltmışdır.

**mer** - şəhər bələdiyyəsinin başçısı.

**meriya** - bələdiyyə idarəsi, eləcə də onun yerləşdiyi bina.

**merkantilizm** - iqtisadi təlim, eləcə də XV əsrdən bir sıra Avropa dövlətlərinin siyasəti. Xarici ticarətin tənzimlənməsi, əmtəə ixracının idxaldan yüksək səviyyəyə çatdırılması və bunun nəticəsində ölkədə pul kapitalının artırılması yolu ilə cəmiyyətin rifahının yüksəldilməsi üsulu. "Merkantil" ifadəsi "ticarət və kommersiyaya aid"; məcazi mənada isə "xırdaçı", "ölçüb-biçən", "xudpəsənd", "özünügüdən", "çərçi", "qəpikgüdən" kimi işlənilir.

**Merkuri** - Qədim Roma mifologiyasında ticarət allahı, səyyahların himayəçisi. Merkuri qədim yunanların Hermesinə uyğun gəlir.

**Mesopotamiya** - Dəclə və Fərat çaylarının orta və aşağı axarlarında yerləşən vilayət. Mesopotamiya yunanca "çayarası" mənasını verir.

**meşşanlıq** - 1) Rusiyada şəhər xırda burjuaziyası, şəhər sakini zümrəsi; 2) məcazi mənada - ictimai görüş dairəsi olmayan və öz şəxsi mənafeyi ilə yaşayan, zövqü pis olan adam.

**metal əsri** - insanların metal əmək alətləri hazırladıqları və istifadə etdikləri dövr. Buradakı "əsr' sözü şərtidir; metal əsri 7 min il bundan əvvələ yaxın başlanmışdır. İnsanların əmək alətləri hazırlamaq üçün istifadə etdikləri ilk metal mis idi. Mis emalının ən qədim izləri ön Asiyada aşkar edilmişdir. Metal əsri üç əsas dövrə bölünür; eneolit, tunc və dəmir əsri.

**metis** (fr. "metis" - "qarışıq") - 1) müxtəlif irqlərə məxsus şəxslərin nikahından törəyən insan. Amerikada - ağların və hindilərin nikahından törəyənlər. Latın Amerikası ölkələrinin bir çoxunda metislər əhalinin əksəriyyətini təşkil edirlər; 2) danışıq dilində - müxtəlif millətlərdən olan şəxslərin nikahından törəyən adamlar.

**metrologiya** - keçmişdə müxtəlif xalqlar tərəfindən istifadə olunmuş uzunluq, həcm, çəki ölçüləri və onların yaranması və inkişafını öyrənən yardımçı



downloaded from KitabYurdu.org

tarix fənni. Metrologiyanın vəzifəsi ölçülərin adlarının araşdırılması və onların müasir metrik ölçülərə uyğunluğunu müəyyənləşdirməkdir.

**metropoliya** (yun. "ana şəhər") - 1) koloniyaları olan Qədim Yunanıstan şəhəri; 2) orta əsrlərdə, yeni və on yeni dövrlərdə müstəmləkələri - koloniyaları olan dövlət.

**mezolit** (yun. "orta daş") - daş dövrünün orta mərhələsidir. Paleolitdən sonra başlanır. E.ə. X - VII minillikləri əhatə edir. Ox və kamanın ixtirası, heyvanların əhliləşdirilməyə başlanması mezolit dövrünə aid edilir. Mezolit neolit dövrü ilə əvəz olunub.

**Məbəd** - dini ayinlərin yerinə yetirilməsi üçün istifadə olunan ibadət binası. Qədim xalqların inamına görə, məbəd allahın və ya allahların yaşadığı yer idi. Məbədlərdə kahinlər qulluq edirdilər.

**məclis** (ər. "yığıncaq", "iclas") - Azərbaycan Respublikasında və Türkiyə Respublikasında parlamentin adı. İran İslam Respublikasında parlamentin aşağı palatası.

**mədəni inqilab** - ölkə əhalisinin mənəvi inkişafında və məişətində baş vermiş əsaslı dəyişiklik.

**"mədəni inqilab"** (Çində) - 1965-ci ildə Çin Xalq Respublikasında nümunəvi kommunizm cəmiyyəti yaratmaq məqsədi ilə Mao Tszedun məktəbliləri və tələbə gəncləri inqilabi zorakılığa çağırdı. Xunveybinlər ("qırmızı keşikçilər") və tszyaofanlar ("qiyamçılar") partiya komitələrini və nazirlikləri dağıdır, müəssisələri, ali məktəbləri, elmi və mədəni müəssisələri zəbt edirdilər. İri partiya işçiləri, yazıçılar, alimlər üzərində istehzalı "məhkəmələr" qururdular. Bütün bu hərəkətlər "mədəni inqilab" adını aldı. O, XX əsrin 60-cı illərində Qərbdə gənclər hərəkatlarının bir çox liderlərini ruhlandırmış və Mao Tszedunu sol radikal gənclərin pərəstişkarına, kumirinə çevirmişdi. Lakin Çinin özündə "mədəni inqilab" kütləvi zorakılıqlar və ümumi xaos yaratdı: həm iqtisadiyyatın, həm də elm və mədəniyyətin inkişafına ağır zərbə endirdi. 1967-ci ilin sonlarında Mao Tszedunun özünün göstərişi ilə ordu ölkədəki situasiyanı öz nəzarəti altına aldı.

**mədəni təbəqə** - arxeologiyada mədəni təbəqə dedikdə insanın fəaliyyətinin izi və qalıqları olan insan məskənlərindəki torpaq təbəqəsi nəzərdə tutulur. Buraya qədim tikililər, əşyalar, inşaat və təsərrüfat tullantıları, soba və tonqalların külü və s. aiddir. Mədəni təbəqənin qalınlığı və həcmi müxtəlif ola bilər. Bu, həmin yerdə insanların nə qədər yaşaması və yaşayış xarakterindən asılı olaraq bir neçə santimetrdən onlarca metrədək ola bilər.

**mədəniyyət** (ər. “mədəniyyət” – “təhsil”, “inkişaf”) - bəşəriyyət tərəfindən yaradılmış maddi və mənəvi dəyərlər. Geniş mənada - mədəniyyət tarixin həmin inkişaf mərhələsində qazanılmış texniki tərəqqinin və istehsal təcrübəsinin, təhsilin, elmin, ədəbiyyatın, incəsənətin və s.-nin inikasıdır. Daha məhdud mənada isə mədəniyyət dedikdə cəmiyyətin mənəvi həyat formalarının məcmusu başa düşülür. Bununla əlaqədar olaraq cəmiyyətin təhsil və tərbiyə, elm, fəlsəfə,



downloaded from KitabYurdu.org

ədəbiyyat, incəsənət, mənəviyyat və s. sahələrində inkişaf səviyyəsini mədəniyyətə aid edirlər. Mədəniyyət obyektiv qanunlarla inkişaf edən tarixi hadisədir. Mədəniyyətin inkişafı tirandan və insanların iradəsindən asılı deyil. Bununla belə, hər bir mədəniyyət keçmişin mədəniyyəti ilə əlaqəlidir, yəni həmin mədəniyyətə münasibətdə tarixi varislik mövcuddur. Millətin psixoloji təşəkkülü, vahid millətdə birləşmiş insanların mənəvi simasının xüsusiyyətləri öz ifadəsini həmin millətin mədəniyyətinin özünəməxsusluğunda tapır. Milli mədəniyyətin xüsusiyyətləri insanların məişətində də öz əksini tapır. "Mədəniyyət" anlayışı ayrı-ayrı tarixi mərhələlərin (məsələn: "antik mədəniyyət", "ellin mədəniyyəti" və s.), konkret cəmiyyətlərin, xalqların, millətlərin və ya ərazilərin (məsələn: "islam mədəniyyəti", "Qərbi Avropa mədəniyyəti" və s.) xarakterini müəyyənləşdirmək üçün də istifadə olunur. "Mədəniyyət" termini arxeoloqlar tərəfindən də istifadə olunur (məsələn: "arxeoloji mədəniyyət", "Kür-Araz mədəniyyəti" və s.).

**Mədinə** - Ərəbistan yarımadasında şəhər. İslama qədər şəhər Yəsrib adlanmışdır. Yəsribin əsas əhalisi Cənubi Ərəbistan və yəhudi tayfaları idi. Hicrətdən sonra Yəsribi Mədinət ən-nəbi ("Peyğəmbərin şəhəri") və ya sadəcə, Mədinə adlandırdılar. 630 - 632-ci illərdə Məhəmməd peyğəmbərin dövlətinin, 632 - 656-cı illərdə isə Ərəb xilafətinin paytaxtı. Əməvilərin və Abbasilərin dövründə Hicazın inzibati mərkəzi olmuşdur. X əsrdən Mədinə Misirdən asılı vəziyyətə düşmüş, sonuncunun 1517-ci ildə türk qoşunları tərəfindən zəbt edilməsindən sonra isə Osmanlı imperiyasına qatılmışdır. Türk qarnizonunun çıxarılmasından sonra - 1919-cu ildə Hicaz krallığının tərkibinə daxil olmuşdur. 1924-cü ildə Mədinə İbn Süudun qoşunları tərəfindən tutulub, 1932-ci ildən isə Səudiyyə Ərəbistanının tərkibindədir. Mədinə Məkkədən sonra ikinci müqəddəs şəhərdir, belə ki, Məhəmməd peyğəmbərin məzarının yerləşdiyi Mədinə müsəlmanların Kəbədən sonra getdikləri ikinci ziyarətgahdır.

**mədrəsə** (ər. "mədrəsə", "dərəsə"dən - "öyrənmək") - IX əsrdən ruhani, müəllim və məmur hazırlayan müsəlman orta və ali dini məktəbi. XVII - XVIII əsrlərdə mədrəsədə şəriət dərsləri ilə yanaşı, qismən dünyəvi fənləri - riyaziyyat, astronomiya, ədəbiyyat və s. öyrənməyə başladılar.

**"Məğlubedilməz armada"** - İspaniyanın İngiltərəni fəth etmək məqsədi ilə 1586 - 88-ci illərdə yaratdığı 130 yelkənli gəmidən (20 min döyüşçü) ibarət iri hərbi donanma. Qələbəyə əmin olan ispanlar onu "Məğlubedilməz armada" (isp. "armada" "böyük donanma") adlandırmışdılar. 1588-ci ildə Dreykin başçılıq etdiyi ingilis donanması ilə La-Manşda ikihəftəlik dəniz savaşında ağır məğlubiyyətə uğradı. Donanma Şimal dənizindən İspaniyaya tərəf geri çəkilərkən güclü fırtına da bir çox ispan gəmisini məhv etdi. Gəmilərin yarıdan azı İspaniyaya qayıtdı və nəticədə İspaniyanın dənizdəki qüdrəti sarsıldı. Dənizlərdə ağalıq tədricən İngiltərəyə keçdi.

**Məğrib** (ər. "qərb") - Mərakeş, Əlcəzair və Tunisi (bəzən Liviyanı da) əhatə edən Şimali Afrika ərazisinin adı.



downloaded from KitabYurdu.org

**Məhdi** (ər. "həqiqi yolla aparan") - dünyanın sonunun yaxınlaşdığını bildirəcək seçilmiş, Məhəmməd peyğəmbərin varisi, sahib əz-zaman. Şiə təriqətində Məhdi konkret şəxsdir və onun gəlişi ilə Yer üzərində haqq-ədalət bərqərar olacaq, amma sünnilərə görə, Məhdi qeyri-müəyyən, abstrakt şəxsdir və ideal gələcəyin bəzəyidir.

**Afrikada Fatimilər sülaləsinin** (909 - 1171) əsasını qoyan Übeydullah əl-Məhdi Məhdi ideyasına əsaslanmışdı. Şimali Afrikada və İspaniyada Əlmühədilər sülaləsinin (1130 - 1269) banisi Məhəmməd ibn Tumart da özünü Məhdi elan etmişdi. Məhdiyyə hərəkatının son ən iri nümunəsi kimi 1881-ci ildə Şərqi Sudanda özünü Məhdi elan edən və müstəqil Məhdiyyə dövləti yaradan Məhəmməd ibn Əhmədin rəhbərliyi ılə başlanmış üsyanı da göstərmək olar. Yalnız 1898-ci ildə Xartum yaxınlığındakı dö-yüşdə ingilislər məhdiyyəçilərin qoşunlarını darmadağın edə bildilər.

**Məhəmməd** (Mühəmməd, Muhamməd), Əhməd ibn Əbdullah (təqribən 570 -632) - islam dini və ilk müsəlman icmasının yaradıcısıdır. Müsəlmanların fikrincə, Allahın peyğəmbəri (nəbisi) və elçisidir (rəsuludur); onun vasitəsilə



Quranın mətni insanlara göndərilmişdir. Məkkədə kübar, lakin varlı olmayan ailədə doğulmuşdur. Məhəmməd peyğəmbər yetim idi və əmisinin evində tərbiyə almışdı. Gənc yaşlarında ticarət karvanlarını müşayiət etmişdir. Məhəmməd peyğəmbər Məkkənin varlı dul qadını Xədicənin ticarət işlərini aparırdı və 25 yaşlarında onunla evlənmişdi. Xədicə vəfat edənədək Məhəmməd peyğəmbər başqa qadınla evlənməmişdi. Onun Xədicədən hələ uşaq yaşlarında ikən vəfat etmiş iki oğlu və dörd qızı olmuşdur. İudaizm və xristianlığın əsaslarına, eləcə də təkallahlı ərəblərin - hániflərin təliminə bələd olan Məhəmməd peyğəmbər təkliyi və düşüncələrə dalmağı xoşlayırdı. Məhəmməd peyğəmbər 40 yaşına çatanda ona vəhylər gəlmiş və sonralar yazıya köçürülərək Quran şəklində tərtib olunmuşdur. İlk vəhylər tək olan bir Allahın böyüklüyünü və əzəmətini bildirir, çoxallahlığı inkar edir, ölənlərin gələcəkdə dirilməsi, Qiyamət günü və Allaha iman gətirməyənlərin cəhənnəmdə cəzalandırılacaqlarından xəbər verirdi. İlk vaxtlar Məhəmməd peyğəmbərin moizələri Məkkədə rişxəndlə qarşılanırdı, amma tədricən Məkkə əhalisinin kübar və kasıb təbəqələrindən olan bir qrup tərəfdar onun ətrafında birləşdi. Məkkənin hakim dairələri Məhəmməd peyğəmbərin davamçılarını - müsəlmanları təqib etməyə və sıxışdırmağa başladılar. Məhəmməd peyğəmbərin özü mənsub olduğu qəbilənin və onun başçısı, əmisi Əbu Talibin himayəsində idi, müsəlmanların xeyli hissəsi isə Məkkədən Həbəşistana - Efiopiyaya hicrət etmək məcburiyyətində qalmışdı. Bir vaxtlar Məkkənin hakim dairələri Məhəmməd peyğəmbərə qarşılıqlı güzəştlərə gedilməsini təklif etmişdi: Məhəmməd peyğəmbər Məkkədə sitayiş edilən Lat, Üzza və Mənat ilahələrinin Allahın



downloaded from KitabYurdu.org

yanında xüsusi imtiyazları olması fikrini qəbul etməli idi. Lakin Məhəmməd peyğəmbər bu fikrin kökündən yanlışlığını və Allahın vahid olduğunu bildirir. Az sonra Xədicə ilə Əbu Talib vəfat edirlər, bununla da Məhəmməd peyğəmbər mənəvi dayaqdan və müdafiədən məhrum olur. Mənsub olduğu nəslin yeni başçısı, əzmisi Əbdül Üzza nəinki onu müdafiə etmir, hətta özü onun qatı düşməninə çevrilir və təqib olunmasında fəallıq göstərir. Məhəmməd peyğəmbər Məkkədən



kənarda tərəfdarlar axtarmağa başlayır. Taifdə və digər yerlərdə sığınacaq tapa bilməsə də, 620-ci ildən etibarən geniş əkinçilik vahəsi olan Yəsribin bir qrup sakini ilə onların əsas qəbilələri - ous və xəzrəc arasındakı münaqişənin həllində vasitəçi olmaq və aralarında islamı yaymaq haqqında razılığa gəlir. Məhəmməd peyğəmbər bir neçə görüşdən sonra Yəsribə hakəmliyə dəvət olunur, şəhər əhalisi isə Məhəmmədin peyğəmbərliyini və islamı qəbul edir. Əvvəlcə Məkkə müsəlmanlarının əksəriyyəti, 622-ci ilin sentyabrında isə Məhəmməd peyğəmbərin özü Yəsribə köçür.

Xəlifə I Ömərin dövründə həmin ilin birinci ayı olan mühərrəmin 1-dən, yəni Məhəmməd peyğəmbərin Məkkədən Yəsribə yola düşdüyü gündən müsəlman hicri təqviminin hesablanılmasına başlanılmışdır. Yəsrib şəhərinin özü də bu dövrdən "Mədinət ən-nəbi", yəni "Peyğəmbərin şəhəri" və ya sadəcə olaraq Mədinə adlandırıldı. Məhəmməd peyğəmbər ilk vaxtlar həm də qeyri-müsəlmanların daxil olduğu icmanın siyasi liderinə çevrildi. Onun tədricən Mədinədə tək hakimiyyəti bərqərar oldu. Məhəmməd peyğəmbərin əsas dayağı həm Məkkədən gəlmiş müsəlman mühacirlər, həm də Mədinədə islamı qəbul edən ənsarlar idi. Yəsrib yəhudiləri ilə də münasib əlaqələr qurmaq istəyən Məhəmməd ilk vaxtlar onlarla da bir sıra şərtləri əhatə edən müqavilə imzalamışdı. Hətta əvvəllər müsəlmanların ibadət üçün qibləsi də Yerusəlim (Qüds) şəhəri idi. Lakin qeyri-yəhudinin peyğəmbərliyinə qısqanclıqla yanaşan yəhudilər tədricən müqavilələrin şərtlərini pozmağa, Məhəmmədə rişxənd etməyə və hətta Məhəmmədə qarşı mübarizə aparmaq üçün onun düşmənləri olan məkkəlilərlə gizli danışıqlar da aparmağa başladılar. İslamı təzəcə qəbul etmiş bir qrup müsəlman da Məhəmmədin nüfuzuna qarşı qısqanclıq hissindən onun düşməninə çevrilərək yəhudilərlə və məkkəlilərlə birləşdi. Mədinə daxilində formalaşan həmin müxalifət "münafiqun" ("ikiüzlü"lər) adı ilə Quranda dəfələrlə pislənilmişdi. Daxili cəbhələşmə bir ərəb dini kimi islam haqqında düşüncələrin daha da inkişaf etdirilməsinə və onda ərəb cizgilərinin güclənməsinə kömək etdi. Məhəmməd peyğəmbər daha aydın şəkildə islamın xüsusi rolu və özü haqqında sonuncu peyğəmbər kimi danışmağa, yəhudi və xristianları pis dindarlar kimi təhdid etməyə başladı; islam isə Allahın iradəsinin onlar tərəfindən təhrifinin düzəlişi kimi elan edildi. Şənbənin əksinə olaraq müsəlman icması üçün ayrıca ümumibadət günü - cümə - müəyyənləşdirildi, Kəbə müqəddəs, buraya ziyarət isə vacib elan olundu, o



downloaded from KitabYurdu.org

həm də qiblə seçildi. Mədinədə ilk məscid, Məhəmməd peyğəmbərin evi inşa olundu, müsəlman ayinlərinin əsasları - ibadət yuyunma, orucluq, ibadətə çağırış, dini ehtiyaclar üçün yığımlar və s. müəyyənləşdirildi. Məhəmməd peyğəmbərin moizələrində icma həyatının qaydaları - vərəsəlik, əmlakın bölüşdürülməsi, kəbin kəsilməsi prinsipləri dəqiqləşdirildi. Şərab, donuz əti və qumar oyunlarına qadağa qoyuldu.

Mədinə dövrünün lap başlanğıclarında icmanın cəmləşməsi formalarından biri kafir məkkəlilərə qarşı mübarizə idi. Müsəlmanlar məkkəlilərin karvanlarına və hərbi dəstələrinə basqınlar etməyə başlayırlar. Mədinədaxili müxalifətin məkkəlilərlə sıx əlaqələri, Mədinədəki xəyanətkar yəhudi tayfalarının Məhəmməd peyğəmbərin həyatına sui-qəsd cəhdləri və ona tam tabeçilikdən qəti imtina etmələri onların Mədinədən döyülüb qovulmasına səbəb oldu. Sonra Məkkə ilə həlledici mübarizə başlandı. Bir çox məkkəli açıq və ya gizli şəkildə islamı qəbul etmişdi. Bu dövrdə müsəlmanlar bir sıra zəngin vahələri ələ keçirdilər və yeni-yeni tayfalar, qəbilələr Məhəmməd peyğəmbərin tərəfinə keçməyə başladılar. Bunun nəticəsində 630-cu ildə Məkkəyə yaxınlaşan müsəlman qoşunları şəhərə maneəsiz daxil oldular. Məhəmməd peyğəmbər Kəbədə namaz qıldı, onu bütlərdən təmizlədi. Bununla belə, Məhəmməd peyğəmbər Mədinədən heç yerə köçmədi. Məkkə üzərində qələbə Məhəmməd peyğəmbərin Ərəbistanda siyasi və dini nüfuzunu daha da möhkəmləndirdi. O, Ərəbistan şeyxləri və əmirlərinə, Ərəbistanla həmsərhəd olan İran və Bizans canişinlərinə islamı qəbul etmək təklifi ilə elçilər göndərdi. Ərəb qəbilələrinin bir çoxu Məhəmməd peyğəmbərlə sazişə girmək üçün razılığa gəldilər. 630-cu ildə müsəlmanlar düşmən tayfaların Məkkə üzərinə böyük yürüşünün qarşısını aldılar. 631-632-ci illərdə Ərəbistanın xeyli hissəsi bu və ya digər dərəcədə Məhəmməd peyğəmbərin başçılıq etdiyi dövlətin tərkibinə daxil olundu. Ömrünün son illərində Məhəmməd peyğəmbər bu dövlətin məqsədini - islamın şimalda yayılmasını müəyyənləşdirdi. 632-ci ilin iyun/iyul ayında Məhəmməd peyğəmbər qısamüddətli xəstəlikdən sonra 63 yaşında vəfat etdi. O, Mədinədə dəfn olunub. Məhəmməd peyğəmbərin kişi nəsli övladı qalmamışdır. Xədicənin vəfatından sonra Məhəmməd peyğəmbər xeyli kəbin kəsdirmişdir. Bu kəbinlərin əksəriyyəti siyasi xarakter daşımışdır. Bunlardan yalnız bir oğlu olmuş, o da uşaq ikən vəfat etmişdir. Rəvayət olunur ki, Məhəmməd peyğəmbər vəfat edən zaman onun arvadlarından doqquzu sağ imiş. Rəvayətə görə, Məhəmməd peyğəmbərin sevimli arvadı Əbu Bəkrin qızı Ayişə olmuşdur. Məhəmməd peyğəmbərin qızı Fatimə onun əmisi oğlu və sədaqətli dostu Əli ibn Əbu Talibə ərə getmiş və bu kəbindən onun nəsli davam etdirilmişdir. Bugünkü "peyğəmbər övladı" törəmələri - çoxsaylı seyidlər və şəriflər onların oğlanları Həsən və Hüseyndən törəmişlər. Məhəmməd peyğəmbərin vəfatından sonra dövlətə xəlifələr başçılıq etmişlər. Birinci xəlifə Əbu Bəkr olmuşdur.



**Məhəmməd Rza Pəhləvi** - İranın sonuncu şahı (1941 - 79). 1979-cu ilin yanvarında islam inqilabının



downloaded from KitabYurdu.org

gedişində ölkədən qovulmuş və bundan sonra İran İslam Respublikası yaradılmışdır.

**Məhsəti Gəncəvi** (XII əsr) - Azərbaycan İntibahının məşhur şairələrindən biri. 200-dən artıq lirik rübaisi məlumdur.

**məhsuldar qüvvələr** - istehsal vasitələri və əmək vərdişlərinə malik və istehsal münasibətlərini hərəkətə gətirən insanlar.

**məişət** - insanın gündəlik həyatı.

**Məkkə** - Ərəbistan yarımadasında şəhər. İslama qədər Məkkə qüreyşi tayfaları ilə məskunlaşmışdı və Şərq ilə Aralıq dənizi ölkələri arasında aparılan ticarətdə mühüm rol oynayırdı; Ərəbistan yarımadasındakı bütpərəst tayfaların dini mərkəzi idi. İslamın meydana gəlməsindən sonra müsəlmanların dini mərkəzi olmuşdur. Müsəlmanların müqəddəs məbədi Kəbə Məkkədə yerləşir. Bağdad xilafətinin dağılmasından sonra Məkkə Misir sülalələrindən - Fatimilərdən, Əyyubilərdən, sonralar isə məmlüklərdən asılı vəziyyətə düşmüşdür. 1517-ci ildə Misir türklər tərəfindən tutulandan sonra Məkkə valiləri Osmanlı sultanlarından asılılıqlarını qəbul etdilər, lakin nisbi müstəqilliklərini də saxladılar. 1916-cı ildə Məkkə Hicaz krallığının paytaxtı olmuşdur. 1924-cü ildə İbn Süudun qoşunları tərəfindən tutulmuş, 1932-ci ildə isə Səudiyyə Ərəbistanının tərkibinə daxil edilmişdir. Hazırda Məkkə müsəlmanların müqəddəs şəhəri və həcc ziyarətgahıdır.



**Məkki** ibn Əhməd əl-Bərdəi - X əsrdə yaşamış Azərbaycan coğrafiyaşünası və astronomu.

**məktəb** - Yaxın və Orta Şərq ölkələrində ibtidai məktəb. Məktəbə altı yaşına çatmış uşaqlar götürülürdülər. Məktəblərdə uşaqlar 7-8 saat dərs alırdılar. Məktəblərdə dərslik olmurdu. Adətən məktəblər onları yaradanların və ya müəllimlərin adı ilə adlanırdı.

**məlik** (ər. "malik" - "sahib", "hakim", "hökmdar", "krat", "çar", "monarx") - 1) islam dini meydana gələnədək bir sıra ərəb dövlətlərinin hökmdarı, tayfa ittifaqının başçısı; 2) Quranda "məlik" istilahı hökmdar mənasında, eləcə də Allahın vəsflərindən biri kimi istifadə edilir; 3) islam meydana gəldikdən sonra "məlik" istilahı (monarx mənasında) ərəblər tərəfindən əsas etibarilə qeyri-müsəlman hökmdarlarına verilirdi; 4) Ərəb xilafətinin süqutundan sonra yaranmış yeni müstəqil dövlətlərin hökmdarlarını da məlik adlandırmağa başladılar; 5) monqollar tərəfindən istila edilmiş bir sıra ölkələrdə XIII - XIV əsrlərdə məlik adı yerli feodallara da verilirdi; 6) Azərbaycan ərazisində monqolların ağalığı zamanı, Səfəvilərin hakimiyyəti illərində və xanlıqlar dövründə qədim yerli müsəlman və xristian əsilzadələrindən olan feodallara da məlik deyilirdi; 7) əfqan tayfalarında məlik tayfa və ya nəsil başçılarına deyilir; kənd və ya məhəllə başçısı, ağsaqqalı da



downloaded from KitabYurdu.org

məlik adlanır; 8) hazırda İordaniya və Mərakeş kralları da məlik adlanır; 9) müsəlmanlarda "məlik kəlməsi ad və ya adın, habelə soyadın tərkib hissəsi kimi də işlənilir.

**məliklik** - xandan asılı vəziyyətdə olan, məlik tərəfindən başçılıq edilən kiçik feodal mülkiyyəti. Azərbaycanda XVIII əsrin 40-cı illərində Qarabağda 5 məliklik - Vərəndə, Dizaq, Gülüstan (Talış), Xaçın və Cəraberd məlikləri var idi. Bu məlikliklər Qarabağ xanlığının xanına tabe idilər.

**məmlüklər** (ər. "kölə") - əsir düşmüş qullardan olan əsgərlər. Misirdə IX əsrdən əsir düşmüş qullar dövlət hesabına məktəbə verilir və orada həm ümumi



təhsil alır, həm də hərbi işi öyrənir, sonra isə Misir ordusunda xidmət edirdilər. Sultan as-Saleh Əyyubinin şəxsi mühafizə dəstəsi türk və monqol məmlüklərindən təşkil olunmuşdu. Onun 1249-cu ildə ölümündən sonra hakimiyyət uğrunda mübarizə başlandı və məmlük sərkərdələri mübarizədən qalib çıxdılar. Onlar öz aralarından türk mənşəli əl-Malik əl-Müizzini sultan seçdilər. Az sonra sultanın hakimiyyəti irsi xarakter aldı. Bəhrilər sülaləsindən olan sultanlar şəxsi keşik dəstəsini əsasən çərkəzlərdən, eləcə də Cənubi Qafqazın digər xalqlarından seçməyə başladılar. 1390-cı ildə hakimiyyət çərkəz mənşəli məmlük sülaləsinə - Bürcilər sülaləsinə keçdi. 1517-ci ildə Misiri tutan Osmanlı türkləri məmlüklərin hakimiyyətini devirdilər. Lakin Osmanlı imperiyasının zəifləməsi ilə əlaqədar olaraq məmlüklər hakimiyyəti özlərinə qaytara bildilər. 1798-ci ildə "piramidalar yanında döyüşlər" zamanı I Napoleon tərəfindən məğlub edilən məmlüklərin Misir sülaləsi 1811-ci ildə devrildi.

**Məmmədquluzadə** Cəlil (ədəbi təxəllüsü "Molla Nəsrəddin"; 1866 - 1932) - görkəmli Azərbaycan nasiri və ictimai xadim. Məmmədquluzadə Naxçıvanda doğulmuş, fars və ərəb dillərini öyrənmiş, sonra isə rus məktəbini bitirmişdir. Daha sonralar Qori müəllimlər seminariyasında oxumuş və oranı bitirdikdən sonra kənd məktəbində müəllimlik etmişdir. Müəllim olarkən ədəbi fəaliyyətə başlamışdır. 1903-cü ildə Tiflisə köçmüş və "Şərqi-Rus" qəzetində əməkdaşlıq etmişdir. Məmmədquluzadə 1906-cı ildə "Molla Nəsrəddin " jurnalının əsasını qoymuşdur. Əsas əsərləri: dini fanatizmi ifşa edən "Ölülər" (1909) pyesi, "Danabaş kəndinin əhvalatları" (1894), "Usta Zeynal" (1906), "Qurbanəli bəy" (1907) "Molla Fəzləli" və s. povest və hekayələridir. "Kamança" (1920) pyesi erməni - müsəlman münasibətlərinə həsr olunmuşdur. "Dəli yığıncağı" (1927) komediyasında müəllif hakimiyyətin xalqın ehtiyacını ödəməyənlərə, onun arzularını yerinə yetirməyə qabil olmayanlara verilməsini tənqid edir.

**məmur** - dövlət idarəçiliyində qulluqda olan adam.

**mənbələr** (tarixi) - bütün cisimlər, sənədlər, ideoloji abidələr, adət-ənənələr, dillər, əvvəllər insan icması tərəfindən yaradılmış və bəşəriyyətin keçmişini



downloaded from KitabYurdu.org

öyrənməyə imkan verən hər şey mənbədir. Tarixçi alimlər mənbələrin əsasında tarixi öyrənirlər. Tarixi mənbələr hər cür tarixi tədqiqatın əsasını təşkil edirlər. Mənbələr iki əsas növə - tarixi maddi mənbələrə və yazılı tarixi mənbələrə (və ya tarixi sənədlərə) bölünürlər.

**mənbəşünaslıq** - tarixi mənbələrin öyrənilməsi və istifadə olunması nəzəriyyəsi və metodologiyasını işləyib hazırlayan yardımçı tarixi elm.

**mənimsəmə (istehlak) təsərrüfatı** - insanın təbiətin hazır məhsullarını mənimsəyib istifadə etməsi. Qədimdə insanların əsas məşğuliyyətlərinin yığıcılıq və ovçuluq, sonralar isə balıqçılıq olduğu dövrdə mövcud idi. Neolit dövründə istehlak təsərrüfatı istehsal təsərrüfatı ilə əvəz olunur.

**Mənuçöhr II** - Kəsranilər sülaləsindən şirvanşah (1120 - 49). Qızına evləndiyi gürcü çarı IV Davidin köməkliyi ilə səlcuq türklərini Şirvandan qovmuşdur. II Mənuçöhrün hakimiyyəti illəri Şirvanda mədəni həyat çiçəklənmişdir. Bu dövrdə məşhur şair və alimlər - Əbül-Üla, Fələki, Xaqani və b. burada çalışırdılar.

**mərasim** - müəyyən qayda və ənənələrə uyğun olaraq əvvəlcədən müəyyənləşdirilmiş plan üzrə keçirilən rəsmi təntənəli akt.

**mərkəzçilik** - yerli (aşağı) müəssisə və ya orqanların yuxarı təşkilatlara tabeçiliyinə əsaslanan, bürün sistemin bir mərkəzdən idarə edildiyi sistem.

**mərkəzləşdirilmiş dövlət** - güclü kral hakimiyyətinə malik olan vahid dövlət. Mərkəzləşdirilmiş dövlətin inkişafı iki mərhələdən keçir: birincisi - silki monarxiya, ikincisi - mütləq monarxiya. Mərkəzləşdirilmiş dövlət xarici düşməndən daha yaxşı müdafiə olunurdu, onlarda ara müharibələrinə son qoyulurdu, təsərrüfatın, ticarətin, mədəniyyətin sürətlə inkişafı, vahid dilin formalaşması üçün əlverişli şərait yaranırdı.

**mərzban** - Sasanilər İranında, əsasən ucqar əyalətlərdə hökmdar. Çox hallarda yerlərdə inzibati, hərbi və məhkəmə hakimiyyətinə malik mərzbanlar şah sülaləsindən olurdular.

**məscid** (ər. "mascid" - "ibadət yeri") - müsəlmanların ibadət yeri. İlk məscid hicrətdən az sonra - Məhəmməd peyğəmbərin Yəsribə (Mədinəyə) gəldiyi



zaman yaxınlıqdakı Quba kəndində inşa edilmişdir. 630-cu ildə Məhəmməd peyğəmbər Məkkəyə daxil olandan sonra Kəbə də məscidə çevrilmişdir. Müasir məscid - üzəri günbəzlə örtülmüş, içərisi isə zaldan ibarət olan (bəzən sütunlu və eyvanlı), bayırda onun ətrafında və ya damında minarələr (birdən dördədək və hətta daha artıq) olan binadır. İbadət zalının Məkkə istiqamətindəki divarında bir (və ya bir neçə) mehrab var. Mehrabdan sağ tərəfdə minbər (moizə oxunan yer) yerləşir. Məscidlərin çoxunun həyətində dəstəmaz almaq üçün quyu, fəvvarə və ya hovuz olur.



downloaded from KitabYurdu.org

**məskən** - insanların yaşadığı yer və ya tikili. İnsanların ən qədim yaşayış məskənləri mağaralar olmuşdur.

**məskunlaşdırma** - 1) qədimdə boş qalmış ucqar torpaqların məskunlaşdırılması və mənimsənilməsi və ya hər hansı bir ölkənin ucqarlarında məskənlər salınması; 2) yeni dövrdə - yad ölkə və ərazilərin zor tətbiq edilməsi ilə tutulması.



**Məşhəd** - İranın şimal-şərqində şəhər. Müsəlman-şiələrin müqəddəs saydıqları səkkizinci imamları İmam Rzanın sərdabəsinin yerləşdiyi ziyarətgah və iri ticarət mərkəzi.

**məzar** (ər. - "ziyarət yeri", "ziyarət olunan yer") - müsəlman ziyarətgahı: adətən sərdabə və ya üzərində tikili inşa edilmiş qəbir. Məzarları ziyarət etmək ululların kultuna inamla bağlıdır və onun kökləri islamdan əvvəlki dövrlərə gedib çıxır.

**Məzdək** - məzdəkizmin banisi, məzdəkilər hərəkatının rəhbəri. Ola bilsin ki, mənşəcə İran kahinlərindəndir. Məzdək manilikdə - Bundosun (Zoroastrın) təlimində radikal yönümün davamçısı idi, onu inkişaf etdirmiş, ictimai şüarları ön plana çıxarmışdı. VI əsrin 20-ci illərində Məzdək zərdüşti kahinləri və əyanlarına qarşı geniş xalq hərəkatına başçılıq etmişdi. Onların mövqeyini zəiflətmək istəyən şah I Qubad Məzdəki dəstəkləmiş və onu İranın baş maqı (maqupatı) təyin etmişdir. Kahinlərin və əyanların qüdrəti sarsıldıqdan sonra Qubad Məzdəklə ittifaqını pozmuş və az sonra onu yaxın məsləkdaşları ilə birlikdə edam etdirmişdi.

**məzdəkilər hərəkatı** - Sasanilər dövlətində kəndlilərin və şəhər yoxsullarının V əsrin 90-cı illərindən VI əsrin 20-ci illərinin sonlarınadək mövcud olan və azatların bir qismi tərəfindən dəstəklənən geniş xalq hərəkatı. Məzdəkilər hərəkatı İranı, Cənubi Qafqaz və Mesopotamiyanın bir sıra vilayətlərini əhatə etmişdir. Hərəkatın ideologiyası məzdəkizm idi. Əvvəlcə məzdəkilər hərəkatı əyanların və kahinlərin mövqeyini qırmaq istəyən Sasani hökmdarı I Qubad tərəfindən dəstəklənmişdir. Təxminən 496-cı ildə əyanlar və kahinlər məzdəkilər hərəkatını dayandırmaq məqsədi ilə Qubadı devirdilər, lakin məzdəkilər hərəkatı hələ İranın bir sıra rayonlarında davam etməkdəydi. 499-cu ildə Qubadın hakimiyyətə qayıtması ona və məzdəkizmə düşmən olan əyan və kahinlərin qırılması ilə müşayiət olundu. Məzdəkilər dövlətdə mühüm vəzifələr aldılar, Məzdək ölkədə şahdan sonra ikinci adam oldu. Əyanların əmlakını ələ keçirən məzdəkilər onu ehtiyacı olanlara paylamağa başladılar. Lakin az sonra azatların xeyli hissəsi məzdəkilər hərəkatından üz döndərdi. VI əsrin 20-ci illərində Qubad zəifləmiş əyanlarla və köhnə kahinlərlə barışdı. Qubadın varisi Xosrov məzdəkilər hərəkatını məhv etməyə başladı. VI əsrin 20-ci illərinin axırlarında məzdəkilər hərəkatı yatırıldı.

**məzdəkizm** - erkən orta əsrlərdə İranda və qonşu ölkələrdə geniş yayılmış dini-fəlsəfi təlim. Məzdəkin adı ilə adlandırılıb. Manilikdən fərqli olaraq



downloaded from KitabYurdu.org

məzdəkizm Xeyir başlanğıcda ağıllı və qanunauyğun fəaliyyəti təsdiqləyir, Şəri isə xaos və təsadüf sayırdı; bəyan edirdi ki, Xeyirin Şər üzərində qələbəsi bu dünyada baş verəcək. Məzdəkizm sosial bərabərsizliyi ləğv etmək üçün mübarizəyə, "allahın verdiyi" ümumi bərabərliyi zor gücünə bərpa etməyə çağırırdı. Məzdəkizmi əsasən kəndlilər və şəhər yoxsulları qəbul etmişdilər. V əsrin sonları - VI əsrin əvvəllərində məzdəki icmaları İran, Azərbaycan və Mərkəzi Asiyada meydana gəlmiş və monqol işğallarına qədər mövcud olmuşlar.

**Məzyədilər** - ərəb canişinlərinin Şirvan sülaləsi (799 - 1027). Sülalənin banisi Yəzid ibn Məzyəd əş-Şeybanidir. Onun varisləri Ərəb xilafətinin zəifləməsindən istifadə edərək Şirvanı özlərinin irsi mülklərinə çevirmiş və 861-ci ildə şirvanşah titulunu qəbul etmişlər. IX əsrin ortalarında Məzyədilər Arranı da ələ keçirmişlər. Onlar X əsrdə xüsusilə qüvvətlənmişlər. Şəki vilayəti və Dərbənd, ləzgilər ölkəsi və Tabasaran da daxil olmaqla Dağıstanın cənub-şərq hissəsi müxtəlif vaxtlarda Məzyədilərin vassal asılılığında olmuşlar. 1027-ci ildə Şirvanda Məzyədilər sülaləsi Kəsranilər sülaləsi ilə əvəz olunmuşdur.

**Midiya** - İran və Azərbaycan ərazisində qədim dövlət. Midiyalıların məskunlaşdığı vilayətin adı ilk dəfə e.ə. 835-ci ildə Assuriya mənbələrində çəkilir. E.ə. VIII əsrdə Midiyanın bir sıra əyalətləri assurlar tərəfindən istila edilib




Assuriyaya birləşdirilmişdir. E.ə. VII əsrin 70-ci illərində Kaştaritinin (Herodota görə - Fraort) başçılığı ilə baş vermiş güclü xalq üsyanı nəticəsində assurlar Midiya vilayətlərindən tamamilə qovulmuş və burada Midiya şahlığı meydana gəlmişdir. Kaştariti Midiyanın ilk hökmdarı olmuşdur. Onun yaratdığı hərbi ittifaqın mərkəzi müasir Həmədan şəhəri rayonunda yerləşirdi. Somalar burada Midiyanın paytaxtı - Ekbatana şəhəri salınmışdı. Midiyalıların Assuriya üzərində qələbəsi Midiyanın böyük dövlətə çevrilməsinə səbəb oldu. Lakin bir qədər sonra Yaxın Şərq ölkələrinin bir çoxunda, o cümlədən Midiyada skiflər öz ağalıqlarını bərqərar etdilər. Skiflər qarətçilik məqsədi ilə vaxtaşırı yürüşlər edir və onlardan asılı olan ölkələrdən xərac alırdılar. Midiya hökmdarı Kiaksar hərbi islahat keçirdikdən sonra e.ə. 624-cü ildə Midiyada skiflərin hakimiyyətini devirdi. Az sonra Kiaksar Babilistan hökmdarı Nabopalassar ilə Assuriyaya qarşı hərbi saziş bağladı. E.ə. 614-cü ildə midiyalılar Nineviyanı mühasirəyə aldılar, amma tuta bilmədilər, əvəzində Assuriyanın qədim paytaxtı Aşşur şəhərini tutub dağıtdılar və qarət etdilər. Babilistanlılar Aşşura gec gəldilər. Midiyalılar və babilistanlılar ittifaqlarını sülalə kəbini ilə möhkəmlətdilər. E.ə. 612-ci ildə müttəfiqlər (midiyalılar və babilistanlılar) qəti hücumla Assuriyanın paytaxtı Nineviya şəhərini tutub dağıtdılar. Bundan sonra midiyalılar Kiaksarın başçılığı ilə Hirkaniya, Parfiya, Persida, Elam, Manna, Urartu və Skif



downloaded from KitabYurdu.org

çarlığını (Azərbaycan ərazisində) tutdular. Mannanın isğalının Midiya dövlətinin təsərrüfatının inkişafı üçün böyük əhəmiyyəti vardı. Yüksək inkişaf etmiş kənd təsərrüfatı, sənətkarlığı və şəhər həyatı olan Manna Midiya dövlətinin mədəni-iqtisadi mərkəzinə çevrildi. Sonra midiyalılar Kiçik Asiyanın bir hissəsini tutdular və bu, Kiçik Asiyanın qüdrətli dövlətlərindən olan Lidiyanın çarı Aliattanın onlara qarşı çıxış etməsinə səbəb oldu. Midiya və Lidiya arasında savaşlar beş il davam etdi və e.ə. 585-ci ildə sülh müqavilәsinin imzalanması ilə başa çatdı. Sazişə görə, Midiya və Lidiya arasında sərhəd Qalis (müasir Qızıl İrmaq) çayı boyunca müəyyənləşdirildi. Kiaksarın ölümündən sonra onun oğlu Astiaq Midiyanın hökmdarı oldu. Astiaq Babilistan çarlığı ilə müharibə edirdi. Ondan qorunmaq üçün babilistanlılar "böyük Midiya divarı"nı inşa etdilər, lakin midiyalılar Babilistanın Xarran vilayətini tuta bildilər. Astiaq Midiyada mərkəzi hakimiyyəti möhkəmlətməyə cəhd göstərdi və qəbilə əyanları ilə mübarizə aparmağa başladı. Harpaqın başçılıq etdiyi, mərkəzi hakimiyyətin möhkəmləndirilməsindən narazı olan bir qrup qəbilə əyanları Astiaqın düşmənləri tərəfə keçməyə hazir idilər. E.ə. 553-cü ildə Persidada Kirin başçılığı ilə üsyan başlandı. Astiaq Midiya qoşunlarını Xarrandan qaytarmaq məcburiyyətində qaldı. Farslarla həlledici döyüşlərin birində Harpaq Midiya qoşunlarının bir hissəsi ilə birlikdə Kirin tərəfinə keçdi. Bunun nəticəsində e.ə. 550-ci ildə midiyalılar məğlubiyyətə uğradılar. Midiya şahlarının xəzinəsi Pasarqada aparıldı, Ekbatana Əhəməni şahlarının iqamətgahlarından biri oldu, Midiyanın üzərinə isə məğlub dövlət kimi xərac qoyuldu. Midiya əyanlarının bir qismi həm Kirin, həm də onun xələflərinin dövründə öz imtiyazlarını qoruyub saxlaya bildilər. Formal olaraq Kir Midiya çarlığını Əhəmənilər dövlətinin tərkibində saxladı və rəsmi olaraq Midiya hökmdarlarının titullarını ("böyük şah", "şahlar şahı", "ölkələr şahı") qəbul etdi, amma faktik olaraq Midiyanı fars canişini idarə etməyə başladı. Farslar əsasını Assuriya ənənəsindən götürən Midiya dövlət idarəetmə sistemini qəbul etdilər. Əhəmənilər dövlətində Midiya Persidadan sonra ikinci yerdə idi, ona görə də ətraf xalqlar (yunanlar, yəhudilər, misirlilər və b.) Midiyanın işğalına hakimiyyətin Astiaq tərəfindən Kirə irsən verilməsi kimi baxırdılar və farsları "midiyalılar" adlandırır, farsların tarixini Midiyanın tarixinin davamı hesab edirdilər. Maq Qaumatanın, midiyalı Fravartişin, saqartili Çissantaxmanın rəhbərliyi ilə baş vermiş üsyanları midiyalıların hakimiyyətinin bərpasına cəhd kimi qiymətləndirmək olar.

Midiyalıların Qədim Şərqin güclü dövlətləri ilə mübarizədə uğur qazanması və onları nisbətən asanlıqla tuta bilməsi onunla izah edilə bilər ki, Midiyada hələ güclü əmlak bərabərsizliyi və sinfi təbəqələşmə olmamışdı və buna görə də Midiya qoşunları bütün Midiya xalqından ibarət idi. Midiya dövləti kifayət qədər böyük olsa da, yarımasılı çarlıqları və tayfaları özündə birləşdirən zəif qurum idi və bu, Midiyanın ictimai münasibətlərində öz əksini tapmışdı. Sıravi midiyalılarla Midiya əyanları arasında əmlak fərqi artdıqca azad icma kəndlilərinin istismarı ilə yanaşı, hökmdar təsərrüfatlarında və məbəd torpaqlarında işləyən qulların da sayı



downloaded from KitabYurdu.org

çoxalırdı. Midiyalıların təsərrüfatının əsasını əkinçilik və maldarlıq təşkil edirdi. Əkinçilikdə süni suvarma böyük rol oynayırdı. Midiyanın Nisey vadisində yüksək qiymətləndirilən al cinsləri bəslənilirdi. Midiyada dəmir, qurğuşun, gümüş, əlvan daş-qaşlar və qiymətli daşlar, habelə neft hasil edilirdi. Sənətkarlar əmək alətləri, silah, parça, xalça, ev avadanlığı və s. düzəldirdilər. Midiyada inşaat sənəti də yüksək inkişaf səviyyəsinə çatmışdı. Midiyalı daşyonan ustaların əməyindən sonralar Əhəməni şahlarının Suzdakı sarayının tikintisində istifadə olunmuşdur. Yaxın Şərq ölkələrini Mərkəzi Asiya və Hindistanla birləşdirən ən mühüm ticarət yollarından biri Midiyadan keçirdi. Midiya dövlətinin başında çar dururdu və onun hakimiyyəti irsi idi. Çar ilə Midiya qəbilə əyanları arasında hakimiyyət uğrunda mübarizə gedirdi. Dövlətin idarə unmasmda zərdüşti maqları mühüm yer ^turdular. E.ə. VII əsrdə Midiyada zərdüştilik dünyada ilk rəsmi dövlət dini oldu.

**"Midiya yağı"** - neft (mid. "nafta") və qatran qarışığı. Görünür, Atropatenada istehsal olunurmuş. "Midiya yağı" antik dövrdə hərbi işdə tətbiq edilirmiş. Oxları onunla yağlayar və yandırıb düşmən düşərgəsinə və ya qalasına atarmışlar. Bu qarışığı çətinliklə söndürmək mümkün olurmuş.

**mif** - 1) qədim xalqların dünyanın, allahların, insanın yaranması, təbiət hadisələrinin səbəbləri, qəhrəmanların igidlikləri və s. haqqında təsəvvürlərini əks etdirən fantastik rəvayət. Miflər lap qədimlərdə, hələ yazının olmadığı dövrlərdə yaranmış və nəsildən-nəslə şifahi ötürülmüşdür. Yadda asanlıqla saxlanılması üçün əksər hallarda poetik şəkildə tərtib olunurdu. Miflər bəşəriyyətin mənəvi mədəniyyətinin ilkin forma-sıdır. Alimlərin çoxu hesab edirdi ki, bu rəvayətlər bütövlükdə uydurmadır; hərçənd doğrudan da bunlarda uydurma kifayət qədərdir, bununla belə, həmin rəvayətlərdə insanların təbiətlə mübarizəsindən, məşğuliyyətlərindən, əmək alətlərindən, adətlərindən, səyahətlərindən, müharibələrindən və s. barədə danışılır. Miflər üzərində müvafiq iş apardıqdan sonra onların içərisindən bəzi tarixi hadisələri ayırd etmək mümkün olur, bəzənsə miflər çox mühüm tarixi sənəd (mənbə) ola bilir; 2) məcazi mənada - uydurma, fantastika, həqiqətdən uzaq, əfsanə.



**mixi yazı** - əsasını piktoqrafiyadan götürmüş və Ön Asiyada yayılmış qədim yazı sistemi. E.ə. təxminən 2500-cü ildə şumerlər yaratmışlar. Yazarlar iti uclu çöplə çiy gildən olan lövhə üzərində basma üsulla mıxabənzər işarələr qoyurdular, belə ki, gil üzərində şəkil çəkmək çətin idi. Mixi yazıda hər bir işarə bir neçə mıxcıqdan ibarət olurdu. O ya bütöv sözü, ya da ayrıca hecanı, sonralar isə ayrıca səsi bildirmişdir. Mixi yazıdan akkadlılar, babillilər, assuriyalılar, elamlar, hettlər, finikiyalılar, urartulular və farslar istifadə etmiş və özlərinə lazım olan məlumatı ana dillərində yazmışlar.

**Mikena mədəniyyəti** - Krit faciəsi adada yaradılmış mədəniyyəti tamam məhv edə bilmədi. E.ə. II minillikdə onunla bağlı mədəniyyət Peloponnesdə inkişaf etmişdir. İlk dəfə arxeoloqlar ona aid abidələri Mikena şəhərini qazarkən aşkar



downloaded from KitabYurdu.org

etmişlər, ona görə də bu mədəniyyəti Mikena və ya Krit - Mikena mədəniyyəti adlandırmışlar. O vaxtlar Peloponnesdə axey tayfaları məskunlaşmışdı. Yerli tayfalar yunan dilinə uyğunlaşdırılmış Krit yazısından istifadə edirmişlər. Üzərində belə yazı olan gil lövhələri alimlər oxuya bilmişlər.

**miqrasiya** - əhali qrupunun böyük məsafədə yerdəyişməsi.

**militarizasiya** - dövlətin öz hərbi qüdrətini artırmasını bildirən məfhum, anlayış.

**militarizm** - işğalçı müharibələrə hazırlıq məqsədi ilə dövlətin hərbi qüdrətinin artırılması siyasəti. Militarist siyasət nəticəsində hərbi-sənaye kompleksi yaranır və onun dövlətin iqtisadiyyatı və siyasətinə təsiri artır.

**milli sərvət** - müəyyən tarixə olan vəziyyətinə görə cəmiyyətin maddi nemətlərinin məcmusu. Milli sərvətlərə istehsal və qeyri-istehsal maddi nemətləri, habelə təbii ehtiyatlar daxildir.

**milliləşdirmə** - torpağın, sənayenin, nəqliyyatın, rabitənin, bankların və s.-nin xüsusi mülkiyyətdən dövlət mülkiyyətinə keçməsi.

**millət** - insanların tarixi birliyi; mədəniyyət və məişət xüsusiyyətlərində təzahür edən ümumi dilə, milli xarakterə və ümumi əraziyə malik olan insanların böyük qrupu. Millət feodal pərakəndəliyinin ləğv edildiyi və mərkəzləşdirilmiş dövlətlərin yaradıldığı dövrdə meydana gəlir.

**Millətlər Liqası (Cəmiyyəti)** - 1919-46-cı illərdə fəaliyyət göstərmiş beynəlxalq təşkilat. Millətlər Liqasının nizamnaməsinə görə, xalqlar arasında əməkdaşlığın inkişaf etdirilməsi, onların əmin-amanlığı və təhlükəsizliyinin təminatı əsas məqsəd kimi irəli sürülürdü. Əslində isə Millətlər Liqası Böyük Britaniya və Fransanın siyasət aləti idi. SSRİ də 1934-cü ildən 1939-cu ilədək Millətlər Liqasında iştirak etmiş, Almaniya ilə bir-birinə qarşı hücum etməmək haqqında Molotov - Ribbentrop paktını imzaladıqdan sonra onun tərkibindən çıxmışdır.

**Millətçilik** - millətlər arasındakı münasibət məsələlərində ideologiya, siyasət və psixologiya. Bəzi ölkələrdə millətçilik üçün bir millətin ("ali", "seçilmiş") digərləri ("aşağı", "dəyərsiz millətlər") üzərində üstünlüyü ideyası xarakterikdir. Eyni zamanda, müstəmləkələrin və asılı ölkələrin xalqlarının milli-azadlıq mübarizəsində məzlum millətlərin millətçiliyində tarixən mütərəqqi ümumdemokratik ünsürlər vardır.

**Miltiad** (e.ə. 550 - 489) -Afina sərkərdəsi və strateqi. E.ə. 490-cı ildə Miltiadın sərkərdəlik istedadı sayəsində Afina qoşunları Marafon çölündə I Daranın İran qoşunları üzərində qələbə çalmışdır. Növbəti ildə adalardan birinə uğursuz ekspedisiyada Afina donanmasına başçılıq edən Miltiad həmin səfərdə yaralanmışdır. Afinada Miltiad bu məğlubiyyətə görə mühakimə olunmuş və böyük cərimə ödəməyə məhkum edilmişdi. Məhkəmədən az sonra ölmüşdür.

**Mingəçevir** - Azərbaycanda Mingəçevir SES-in inşası ilə bağlı 1948-ci ildə əsası qoyulmuş şəhər. Mingəçevir rayonunda, Bozdağın ətəklərində, Kürün hər iki



downloaded from KitabYurdu.org

sahili boyunca Cənubi Qafqazda e.ə. III minillikdən eramızın XVII əsrinədək olan dövrləri əhatə edən dörd yaşayış məskənindən və üç böyük qəbiristanlıqdan ibarət olan ən iri arxeoloji kompleks yerləşir. Öyrənilməsinə hələ XIX əsrdən başlanılmış, sistemli qazıntılar isə S.M.Qazıyevin rəhbərliyi ilə Azərbaycan arxeoloqları tərəfindən 1946 - 53-cü illərdə aparılmışdır. Ən erkən Mingəçevir abidələri Kür-Araz mədəniyyətinə aid edilir. Mingəçevir abidələrinin sonrakı qrupu Xocalı-Gədəbəy mədəniyyətinə aid edilir. Burada yaşayış evləri, təsərrüfat quyuları, dulusçuluq sobaları, qəbirlər, sümük musiqi alətləri (fleytasayağı düdüklər) aşkar edilmişdir. Bir çox qəbirlər erkən dəmir dövrünə aid edilir. Küp qəbirlər mədəniyyəti sikkələr əsasında e.ə. II əsr - eramızın I əsrinə aid edilir. Bundan əlavə, içərisində gil, şüşə və gümüş qablar, müxtəlif təsvirli üzüklər, Arşaki və yunan-Roma pulları və Sasani möhürləri olan və eramızın I - VIII əsrlərinə aid edilən 30-dan artıq dulusçuluq sobası və 200-dən artıq katakomba qəbirləri aşkar edilmişdir. Üzərində alban yazıları böyük daş sütun özülləri və gil şamdan qırıqları mühüm əhəmiyyət kəsb edir. V -VIII əsrlər alban xristian məbədləri, xristian və müsəlman qəbirləri və s. obyektlər Mingəçevirin orta əsrlər abidələrinə daxildir. Mingəçevir abidələri Azərbaycanın və qonşu ölkələrin 4 min ildən artıq mədəni tarixini və sosial-iqtisadi inkişafını öyrənmək üçün qiymətli tarixi maddi mənbələrdir.

**miniatür** - qədim əlyazmalarda və kitablarda rəngli illüstrasiyalar.

**mirzə** (ər. "əmir" - "hakim" + far. "zadə" - "oğul", "övlad"), "mirzadə" sözünün qısaldılmış forması. 1) İranda və oturaq türk xalqlarında: a) hökmdar ailəsi üzvlərinin titulu; addan sonra qoyulur (məs.: Abbas Mirzə); b) yazı yazan, məmur, katib, oxumuş adam; adın önündə qoyulur (məs.: Mirzə Məhəmməd); 2) XIII əsrdən etibarən köçəri türk xalqlarında iri feodallar, ayrı-ayrı nəsil və orda başçıları.

**Misir İsgəndəriyyəsi** - Şərqin sonrakı fəthi üçün əlverişli dəniz limanı kimi Makedoniyalı İsgəndər tərəfindən 332 - 331-ci illərdə Nilin deltasında salınmış şəhər. Misir İsgəndəriyyəsinin diqqəti cəlb edən cəhəti odur ki, bu şəhər tanınmış yunan memarı Dinoxar tərəfindən tərtib olunmuş vahid plan üzrə salınmışdır. Sonralar ellinist Misirin paytaxtı olan İsgəndəriyyə həndəsi baxımdan düz tərtib edilib, aralarında döşənmiş enli küçələri olan məhəllələrə bölünmüşdü. Eni 30 m olan iki ən böyük küçə şəhərin mərkəzində kəsişirdi. Həmin küçələr boyunca isti günlərdə sərinlik gətirən və kölgə salan mərmər sütunlar düzülmüşdü.

Misir İsgəndəriyyəsinin ən varlı məhəlləsi hökmdar sarayları və sərdabələrinin yerləşdiyi Bruxeyon məhəlləsi idi. Saraylar arasında bağlar və parklar salınmışdı. Babildə ölən Makedoniyalı İsgəndərin sərdabəsi də Misir İsgəndəriyyəsindədir; İsgəndəri onun keçmiş satraplarından olan hökmdar Ptolemey Laq burada dəfn etdirmişdir. Ptolemey Makedoniyalı İsgəndəri qızıl sarkofaqa qoydurmuş və özünün onun varisi olduğunu nəzərə çarpdırmaq məqsədi ilə möhtəşəm bir sərdabə tikdirmişdi. Dünyada məşhur olan Museyon da Misir



downloaded from KitabYurdu.org

İsgəndəriyyəsinə şöhrət gətirirdi. Şəhərdən bir qədər kənarda isə qədimdə "dünyanın möcüzəsi" hesab edilən İsgəndəriyyə mayakı yerləşirdi.

E.ə. 30-cu ildən Misir İsgəndəriyyəsi Roma imperiyasının tərkibində idi. Eranın dönəmində Misir İsgəndəriyyəsi öz əzəmətinə görə Romadan sonra antik dünyanın ikinci böyük şəhərinə çevrildi. Onun əhalisi 1 mln. nəfərə yaxın idi. Roma imperiyası bölünəndən sonra Misir İsgəndəriyyəsi ən möhtəşəm mədəni-iqtisadi mərkəz kimi Bizans imperiyasının tərkibində qaldı. İsgəndəriyyə erkən xristianlığın əsas mərkəzlərindən biri olmuşdur. 648-ci ildə Misirin ərəblər tərəfindən fəth edilməsi ilə, xüsusilə də Qahirənin salınmasından (969-cu il) sonra İsgəndəriyyə tənəzzülə uğradı. 1517-ci ildə türklərin fəthi zamanı İsgəndəriyyə güclü dağıntıya məruz qalmış və tam tənəzzül etmişdi.



İsgəndəriyyənin dirçəlişi XIX əsrin əvvəllərinə - burada tərsanələrin tikilməsinə və Mahmudiyyə kanalının çəkilməsi dövrünə təsadüf edir. XIX əsrin ortalarında İsgəndəriyyə dəmir yolu xərti ilə Qahirəylə birləşdirilmişdi. Hazırda əl-İsgəndəriyyə böyüklüyünə görə Qahirədən sonra Misir Ərəb Respublikasının ikinci şəhəri və Aralıq dənizində mühüm limanıdır.

**misqal** - Yaxın Şərq ölkələrində orta əsrlərdə 4,64 qrama bərabər olan çəki vahidi.

**missiya** - 1) dövlətin beynəlxalq görüşlərdəki, konfranslardakı nümayəndə heyəti; 2) səfir və ya müvəqqəti etimadlı şəxsin başçılıq etdiyi diplomatik nümayəndəlik; 3) xüsusi tapşırıqla başqa dövlətə göndərilən adamlar qrupu (məs.: iqtisadi missiya); 4) dini missioner təşkilatı; 5) əhalinin hər hansı qrupunun vəzifəsi, rolu (məs.: tarixi missiya, ziyalı missiyası və s.).

**misteriya** - antik dövrlərdə bir sıra allahlara gizli etiqad. Misteriya allahlarla bağlı olan miflərin təsviri ilə dramlaşdırılmış bir sıra ardıcıl hadisələrdən ibarət idi (şəbih kimi).

**mistifikasiya** - bilərəkdən aldatma, kimisə aldatmaq.

**mistika** - allahı dərk etməyi məntiq və idrakda (sxolastika) deyil, seyrə, düşüncələrə dalmaqda və hisslərdə görən dini-fəlsəfi cərəyan.

**Mitridat I** - Parfiya çarı (e.ə. 170 - 136). Selevkilər dövlətinin zəifləməsindən istifadə edən I Mitridat e.ə. 140-cı ildə onun şərq satraplıqlarını - Midiyanı və Mesopotamiyanın böyük hissəsini zəbt etdi. Onun dövründə parfiyalılar Klimaida, Persida və Baktriyanı tutmuşlar. Atropatena ilə Ermənistan Parfiya çarlığının siyasi təsiri altında olmuşlar. I Mitridatın işğalları nəticəsində Parfiya qüdrətli və güclü dövlətə çevrilmişdi.

**Mitsubisi** - ən iri yapon inhisarlarından biri. 1870-ci ildə İvasaki ailəsi tərəfindən yaradılmışdır. Yaponiyanın İkinci Dünya müharibəsində məğlubiyyətindən sonra onun qüdrəti ciddi şəkildə sarsılmış, lakin sonra bərpa



downloaded from KitabYurdu.org

olunmuşdur. 25 əsas şirkət, o cümlədən maşınqayırma konserni Mitsubisinin nüfuz dairəsinə daxildir. Yaponiyanın hərbi sənayesinin inkişafında fəal iştirak edir.

**Mitsui** - ən iri yapon inhisarlarından biri. Mitsuilər ailəsinin XVII əsrin əvvəllərində əsası qoyulmuş ticarət-bank qurumundan yaranmışdır. İkinci Dünya müharibəsinə qədər Yaponiyada ən güclü inhisar idi, sonra isə birinciliyi Mitsubisiyə verdi. Sintetik parçalar, sintetik boyalar istehsalı və kömür çıxarılması üzrə ən iri yapon şirkətlərindən 22-si Mitsuinin nüfuz dairəsinə daxildir. Ən iri elektrotexnika şikrəti "Toşiba" və "Toyota" avto/conserni də Mitsui ilə bağlıdır. Yaponiyanın hərbi sənayesinin inkişafında fəal iştirak edir.

**mizantropiya** - insanlara uyuşmazlıq, adamayovuşmaz, insanlığa zidd olan.

**mobedan-mobed** (maqupatan maqupai) - Sasanilər dövlətində zərdüştilik dini və zərdüşti kahinlərinin başçısı. Mobedan-mobed (əvvəllər maqupat - maqların başçısı) əyalətlərdə və şəhərlərdə mobedlərin (kahinlərin) başında dururdu. Mobedan-mobed ilk əyanlardan idi, dövlət işlərinə böyük təsir göstərir və əsas hökmü çıxarırdı.

**modernləşdirmə** - yeniləşdirmə, müasirləşdirmə; ən yeni, müasir tələb və normalara müvafiq dəyişikliklər (məs.: maşınların modernləşdirilməsi, istehsal texnologiyasının modernləşdirilməsi, təhsilin modernləşdirilməsi).




**Mohenco-daro** ("ölülər təpəsi") - Hindistanın ən qədim şəhərlərindən birinin, e.ə. minillikdə meydana gəlmiş Harappa mədəniyyət mərkəzlərindən birinin qalıqları. 1922-ci ildə hind arxeoloqu R.Banerci tərəfindən aşkar edilmişdir. Mohenco-daroda çoxillik tədqiqatlar əsasında qədim Hindistan şəhər mədəniyyətinin əsas mərhələləri və xarakterik cəhətləri müəyyən edilmişdir.

**Moisey Kalankatlı** - alban tarixçisi, “Alban tarix”nin müəllifi. VII əsrdə yaşadığı ehtimal olunur. Qafqaz Albaniyasının Uti vilayətinin Kalankat kəndində anadan olmuşdur. Kilsə təhsili almışdır. Əsərini yazmaq üçün Bibliya, yerli alban, eləcə də erməni mənbələrindən istifadə etmişdir.

**molla** - 1) din xadimi, müsəlman şəriət adət və ənənələrinin bilicisi; 2) mədrəsə müəllimi; 3) oxumuş savadlı adam.



**"Molla Nəsrəddin"** - əsası C.Məmmədquluzadə tərəfindən qoyulan şəkilli və demokratik yönümlü, Azərbaycan dilində həftəlik jurnal. 1906 -14 və 1917-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə nəşr olunmuşdur. Jurnalda Sabir, Haqverdiyev, Ordubadi və b. əməkdaşlıq etmişlər. Jurnal Azərbaycan xalqının oyanışında böyük rol oynamışdır. 1922 - 31-ci illərdə Bakıda həmin ad altında sovet jurnalı nəşr olunmuşdur.

**molokanlar** - Rusiyada dini təriqət. XVIII əsrin ikinci yarısında Tambovda təşəkkül tapıb. Molokanların kənd və şəhər ictimaiyyətinin müxtəlif təbəqələri



downloaded from KitabYurdu.org

arasında dayaqları var idi. Rəsmi kilsəni, onun təlimini və adətlərini tənqid edirdilər. Bibliyanı yeganə həqiqət mənbəyi sayırdılar. Molokanların dünyagörüşündə ictimai etiraz təzahür etdiyindən onlar hökumət tərəfindən təqib olunurdular. Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra burada çar hökuməti öz dayaqlarını yaratmaq məqsədi ilə 1830-cu il 20 oktyabr fərmanına əsasən, erməni və almanlarla yanaşı, rus sektantlarını və bidətçilərini də Azərbaycanda yerləşdirdi. Azərbaycana gələn ilk rus köçkünləri molokanlar oldu. General Paskeviçin göstərişinə uyğun olaraq rus köçkünləri əsasən Qarabağ vilayətində yerləşdirilməli idilər. Ənənəvi olaraq yaylaq və qışlaq kimi istifadə olunan torpaqlarda rusların (molokanlar, duxoborlar və b.) yerləşdirilməsi yerli əhalinin təsərrüfatının əsası olan köçəri maldarlığa ağır zərbə endirdi. Çarizmin köçürmə siyasəti və Rusiyada 1861-ci il kəndli islahatından sonra imperiyanın mərkəzi rayonlarında molokanla-rın hərəkatı zəifləyib bir neçə məzhəbə parçalandı. Rusiyada 1917-ci il Oktyabr çevrilişindən sonra təəriqətlər sürətlə dağılmağa başladı. Azərbaycan Respublikasında bu günədək molokan yaşayış məskənləri vardır.

**monarx** - bir qayda olaraq hakimiyyəti irsən alan dövlətin təkhakimiyyətli başçısı (kral, çar, şah, əmir).

**monarxiya** (yun. "birinin hakimiyyəti") - ali dövlət hakimiyyətinin dövlətin təkbaşına başçısının - irsi monarxın əlində (tam və ya qismən) cəmlənmiş idarəçilik forması. Qədim dövrdə və orta əsrlərdə monarxiya qeyri-məhdud despotiya şəklində mövcud olmuşdur. Bir sıra müasir dövlətlərdə monarxın hakimiyyəti konstitusiya ilə məhdudlaşdırılmışdır: qanunvericilik funksiyaları parlamentə, icracdicilik funksiyaları isə hökumətə verilmişdir, yəni monarx "hökmdar olsa da, idarə etmir". Hazırda konstitusiyalı monarxiyalar Böyük Britaniya, İsveç və s. ölkələrdə mövcuddur.

**monarxizm** - monarxiya qurulması və ya bərpası tərəfdarlarının baxışı, nöqteyi-nəzər sistemi və ya siyasi yönümü.

**moneta** - bax: manat.

**monopoliya** (yun. "tək satıram") - bax: inhisar.

**monoteizm** (yun. "təkallahlıq") - politeizmdən fərqli olaraq tək allah təsəvvürünə əsaslanan din. İudaizm, xristianlıq və islam monoteist dinlərə aiddir.

**Montesuma** (daha dəqiq - Montekusoma) - 1) astek qəbilələrinin 1469-cu ilə qədərki başçısı. Mərkəzi Meksikanın digər hindi tayfalarının asteklərə tabe etdirilməsini başa çatdırdı; 2) asteklərin hökmdarı (1503 - 20). Kortesin gəlişi ilə asteklərin silah gücünə tabe etdikləri digər hindi tayfaları ona qoşuldular. Asteklərin paytaxtı Tenoçtitlana soxulan Kortes Montesumanı əsir götürdü və onu aztekləri ispanlara təslim olmağa çağırmağa məcbur etdi, nəticədə o, üsyançı asteklər tərəfindən öldürüldü.

**Mor Tomas** (1478 -1535) - ingilis dövlət xadimi, humanist. Oksford universitetini bitirmişdir. 1504-cü ildə parlamentə üzv seçilmiş, London şerifinin



downloaded from KitabYurdu.org

köməkçisi olmuşdur. 1521-ci ildə rıtsar adını almışdır. 1523 - 29-cu illərdə icmalar palatasının sədri, 1529-cu ildə isə lord-kansler olmuşdur. 1532-ci ildə lord-kansler vəzifəsindən istefaya getmişdir. Krala kilsə başçısı kimi and içməkdən imtina etdiyinə görə Mor Tauer qalasına salınmış, dövlətə xəyanətdə günahlandırılmış və 7 iyul 1535-ci ildə edam olunmuşdur. 1935-ci ildə katolik kilsəsi Moru müqəddəs elan elədi. Özünün "Ən yaxşı dövlət quruluşu və ya Utopiya adlı yeni ada haqqında qızıl kitab" əsərində (qısa adı - "Utopiya") Mor öz dövrünün ictimai-siyasi qaydalarını kəskin tənqid etmişdir. Şərin, pisliklərin əsas mənbəyini xüsusı mülkiyyətdə görən Mor buna qarşı Utopiya adasının ideal quruluşunu təklif edirdi: burada xüsusi mülkiyyət yoxdur və əmək hər bir vətəndaş üçün məcburidir, ictimai bərabərlik mövcuddur, bölgü tələbata görə aparılır. şəhərlə kənd arasında fərq silinib və s.

**moratorium** - daxili və ya xarici öhdəliklərin yerinə yetirilməsi müddətinin təxirə salınması. Moratorium müəyyən müddətə və ya fövqəladə vəziyyət ərzində (müharibə, təbii fəlakət) elan edilir. Moratorium bütün öhdəliklərə şamil edilən, ümumi və ya müəyyən sahələrə aid olan məhdud moratorium (bank moratoriumu, nüvə silahlarının sınağı üzərinə qoyulmuş moratorium və s.) formalarında ola bilər.

**Morelos** (Morelosi-i-Pavon) Xose Mariya - Meksika xalqının 1811 - 15-ci illərdə ispan müstəmləkəçilərinə qarşı azadlıq mübarizəsinin rəhbəri, Meksikanın milli qəhrəmanı. Kənd keşişi olan Morelos 1810-cu ildə Meksikada xalq üsyanının başlanması ilə İdalqonun üsyançı dəstələrinə qoşulmuşdur. 1811-ci ildə İdalqo həlak olandan sonra müstəqillik uğrunda mübarizəyə başçılıq etmişdir. 1812 - 13-cü illərdə ispan qoşunları üzərində bir sıra qələbələr çalan Morelos bir neçə iri şəhəri ələ keçirmişdir. Morelos nəinki müstəmləkə asılılığından qurtulmağı, həm də latifundiyaların bölüşdürülməsini, varlıların və kilsənin əmlakının müsadirə olunmasını, feodal asılılığının və quldarlığın ləğvini və s. istəyirdi. Konqres Morelosu generalissimus təyin etdi. Lakin 1815-ci ilin sonlarında üsyançıların əsas qüvvələri darmadağın edildi, Morelos isə əsir götürülüb Mexiko ətrafında edam olundu.

**Mudros barışığı** - 1918-ci il oktyabrın 30-da Mudros limanında (Lemnos adası) İngiltərənin "Aqamemnon" kreyserində imzalanmışdır. Mudros barışığı Birinci Dünya nüharibəsində Antanta ölkələri ilə Osmanlı imperiyası arasındakı hərbi fəaliyyəti başa çatdırdı. Mudros barışığına görə, boğazların Antantanın hərbi donanmaları üçün açılmasını və müttəfiqlərə Bosfor və Dardanel istehkamlarını işğal etmək hüququnu; İraqda, Urmiyada, Hicazda və Yəməndə qalmış türk qarnizonlarının təhvil verilməsini, eləcə də Cənubi Azərbaycan ərazisində, ADR-də, Cənubi Qafqazın digər hissələrində və Kilikiyada qalmış türk qoşunlarının təxliyəsini, müttəfiqlərə Batum və Bakını işğal etmək hüququnun verilməsini; müttəfiqlərə erməni əhalinin də məskunlaşdığı altı vilayətin - "onlardan birində qarışıqlıqlar olduğu halda" işğal edilməsini; Türkiyə ordusunun ləngidilmədən tərxis olunmasını, Türkiyə hərbi gəmilərinin Antantaya verilməsini və s. nəzərdə



downloaded from KitabYurdu.org

tuturdu. Formal olaraq Mudros barışığı 1922-ci ildə Mudanya sülhü imzalanana qədər qüvvədə qalmışdır.

**Muğan mədəniyyəti** - son tunc - erkən dəmir (e.ə. II minilliyin ikinci yarısı - e.ə. 1 minilliyin əvvəlləri) dövrü arxeoloji mədəniyyəti; Azərbaycanda Muğan çölündə və Talış dağlarında aşkar edilmişdir. Muğan mədəniyyəti üçün sümükləri qıvrılmış və ya dartılmış halda daş qutularda və ya torpaq qəbirlərdə dəfnetmə səciyyəvidir. Həm tək, həm də qrup qəbirləri əmək ahtləri, silah və bəzəklərlə müşayiət olunur. Muğan mədəniyyətini yaradan tayfalar maldarlıq, əkinçilik və ola bilsin ki, həm də balıqçılıqla məşğul olurmuşlar. Əmək alətləri və silahlar tuncdan və dəmirdən hazırlanırdı, xüsusilə səciyyəvi olanlan isə dəstəyi haşiyəli tunc və dəmir qılınc ilə tunc xəncərlər idi. Gil qablar da müxtəlifliyinə görə seçilir. Zəngin və ya kasıb qəbir əşyaları nəsli icmanın dağılması prosesini və bu tayfalarda əmlak bərabərsizliyinin meydana gəlməsini göstərir. Muğan mədəniyyətinin Cənubi Qafqazın digər rayonlarının və Qədim Şərq ölkələrinin mədəniyyətləri ilə əlaqələri aşkar edilmişdir.

**Muğanna** - VIII əsrin 70 - 80-ci illərində Mərkəzi Asiyada feodalizm əleyhinə və ərəblərə qarşı həm də "ağpaltarlıların üsyanı" kimi tanınan üsyanın başçısı. Antifeodal və antiərəb Haşim ibn Hakimin təxəllüsü. Muğannanın yaydığı təlimin əsasında məzdəkizm ideyaları dururdu və o, qeyri-bərabərliyə və Ərəb xilafətinin ağalığına qarşı fəal mübarizəyə çağırırdı. Üsyanın əsas hərəkətverici qüvvəsi kəndlilər idi. Köçəri türk tayfaları üsyançılara kömək edirdilər. Buraya çox böyük ordular gətirən ərəblər çoxillik mübarizədən sonra 785-ci ildə üsyanı yatırdılar. Muğanna özünü öldürdü. "Ağ paltarlı adamlar"ın ideyası ərəb işğalçılarını hələ uzun müddət narahat etdi.

**muxtariyyət** (yun. "özünüidarə") - vahid dövlət çərçivəsində etnik və ya regional birliyin daxili müqəddəratını təyinetmə və özünüidarə formalarından biri. Muxtariyyətin iki əsas forması - ərazi və mədəni muxtariyyət formaları mövcuddur. Ərazi muxtariyyəti - hər hansı rayonda əhalinin çoxluq təşkil etdiyi etnik və dini qrupların regional idarə formasının yaradılmasıdır. Ərazi muxtariyyəti öz konstitusiyası, qanunları və rəsmi dili ilə federasiya daxilində dövlət qurumu statusuna malik ola bilər. Ərazi muxtariyyəti ilə federasiya arasındakı münasibətlər sazişlərlə, eləcə dəfederasiya konstitusiyası və qanunlarının muxtariyyətin konstitusiyası və qanunları üzərində üstünlüyü əsasında tənzimlənir. Mədəni muxtariyyət - dövlət tərəfindən hər hansı etnik azlığa ana dilindən sərbəst istifadə etmək, öz dilində təhsil almaq, milli mədəniyyətini və teatrını yaratmaq və s. hüquqların verilməsidir. Mədəni muxtariyyət milli dövlət strukturları, konstitusiya, qanunlar və s. yaratmamaq hüququ ilə verilir.

**Muxtarov Murtuza** - iri Azərbaycan sahibkarı. Bakıda neftayırma və mexaniki müəssisələrin sahibi olmuşdur. 1908 - 10-cu illərdə Muxtarovun sahibi olduğu zavodlarda 2 milyon rubl dəyərində neft hasil edilmişdir. O, 1912-ci ildə satışa çıxarılmış balıq vətəgələrinin bir hissəsini almışdır. Muxtarovun iştirakı ilə



downloaded from KitabYurdu.org

1914-cü ildə Bakı Ticarət Bankının əsası qoyulmuşdur. Muxtarov xeyriyyə işlərinə çoxlu vəsait ayırırdı. O, 1906-cı ildə Tağıyevlə birlikdə “Nəşri-maarif” və “Nicaf” mədəni-maarif xeyriyyə cəmiyyətlərinin əsasını qoymuşdur. M.Muxtarov “Nəşri-maarif” mədəni-maarif xeyriyyə cəmiyyətinin fəxri üzvü seçilmişdir. Muxtarovun vəsaiti ilə bir neçə qəzet və jurnal (o cümlədən "Tərəqqi" qəzeti) nəşr edilirdi. Muxtarov öz vəsaiti hesabına Sankt-Peterburqda və Vladiqafqazda yaşayan müsəlmanların ibadət etmələri üçün məscidlər inşa etdirmişdi.

**mulat** (isp. "mulato", ər. "müvəlləd" -"qanı qarışıq olan ərəb") - zəncilərlə avropoid irqi nümayəndələrinin qarışıq nikahından doğulmuşlar. Mulatlar Latın Amerikası ölkələrinin, eləcə də bir sıra Afrika ölkələrinin əhalisinin xeyli hissəsini təşkil edirlər.

**mumiya** - çürüməkdən qorunub saxlanılmış insan meyidi. Bu məqsədlə ölünün bədənini xüsusi tərkibli qatranlarla balzamlayırdılar. Qədim Misirdə fironların və əyanların dəfni zamanı onların meyidi balzamlanırdı. Meyidin balzamlanması üçün onu yuyur və xüsusi təmizləmə ayini yerinə yetirirdilər. Sonra balzamlama emalatxanasında onun daxili orqanlarını çıxarır və xüsusi qapaqlı qablara yığırdılar. Bədənin içərisinə qoyulan xüsusi duzlar onu qurudurdu. Bir neçə gündən sonra daxili boşluqlar buz, yonqar və qatranla doldurulurdu. Qədim Misir firon və əyanlarının bir qisminin mumiyaları dövrümüzədək qalmışdır.

**Museyon** (yun. "muzalar məbədi") - Misir İsgəndəriyyəsində yerləşən Museyon e.ə. III əsrdə tikilmiş, elmi və poetik məşğələlər üçün istifadə olunmuşdur, yəni özünəməxsus Elmlər Akademiyası olmuşdur. Məşhur alim və şairlər burada dövlət hesabına yaşayır və elmi-tədqiqatlarla, yaradıcılıqla məşğul olurdular. Hökmdar xəzinəsi Museyonda işləyən alimlərə alət və cihazlar düzəltdirmək, müxtəlif elmi material toplamaq məqsədi ilə ekspedisiyalar təşkil etmək üçün vəsait ayırırdı. Saxlanclarında elm, texnika, fəlsəfə, ədəbiyyat və s. sahələr üzrə 700 minədək əlyazma toplusu saxlanılan məşhur İsgəndəriyyə kitabxanası da Museyonda idi. Tanınmış coğrafiyaçı, riyaziyyatçı və astronom Eratosfen kitabxananın mühafizi olmuşdur. İsgəndəriyyə Museyonunda riyaziyyatçı, həndəsənin əsasını qoyan Evklid, ixtiraçı, buxar vasitəsilə işləyən çoxlu mexanizm yaradan İsgəndəriyyəli Heron, təbiətşünas, botanikanın əsasını qoyan Teofrast, həkim, düşünmə orqanının beyin olduğunu sübut edən Herofil və b. burada işləmiş və yaşamışlar. Məşhur riyaziyyatçı Arximed və İsgəndəriyyəli Dionisi hərbi maşınların yaradılması ilə məşğul idilər.

E.ə. 48-ci ildə Ptolemeyin dövründə Misirdə Yuli Sezarın da qoşulduğu hakimiyyət uğrunda mübarizə zamanı İsgəndəriyyə kitabxanasının bir hissəsi yanmışdır. 273-cü ildə imperator Avrelianın qoşunları Misir İsgəndəriyyəsini tutan zaman Museyonu və onun kitabxanasını yandırmışlar. Alimlər kitabxananın qalıqlarını Serapeum məbədinə aparmış və orada da işlərini davam etdirmişlər. 391-ci ildə Serapeum fanatik xristianlar tərəfindən dağıdılmış, kitablar isə



downloaded from KitabYurdu.org

yandırılmışdır. Kitabxananın son qalıqları xəlifə Ömərin dövründə - 642-ci ildə müsəlmanlar İsgəndəriyyəni tutduqları zaman məhv edilmişdir.

**Mussolini Benito** (1883 - 1945) - 1922-43-cü illərdə İtaliya faşist partiyası və faşist hökumətinin və 1943 - 45-ci illərdəki "Salo respublikası" deyilən oyuncaq respublikanın başçısı (duçe). İxtisasca müəllim olmuşdur. Siyasi karyerasına İtaliya Sosialist Partiyasında başlamış, lakin 1914-cü ildə İtaliyanın Birinci Dünya müharibəsinə qoşulması haqqında təşviqat apardığına görə İSP sıralarından xaric edilmişdir. Elə həmin vaxtlarda sonralar faşistlərin əsas mətbu orqanına çevrilən "İtaliya xalqı" qəzetini yaradır. 1919-cu ilin baharında Mussolini keçmiş müharibə iştirakçılarından faşist ("faşi di kombatimento" - "mübarizə ittifaqı") adlandırılan bir təşkilat yaradır. Mussolininin iri burjuaziyaya qarşı yönələn demaqoq bəyanatlarını özlərinə daha yaxın hesab edən şəhər xırda burjuaziyası nümayəndələri faşist dəstələrinə daxil olurdular. Faşistlər hökuməti "İtaliyanın möhtəşəmliyi" haqda düşünməməkdə günahlandırırdılar. Onlar müəyyən siyasi proqram irəli sürməsələr də, xalq arasında populyar olan respublika yaratmaq, ümumi seçki hüququ və kəndlilərə torpaq vermək, xüsusi müəssisələr üzərində fəhlə nəzarəti tətbiq etmək və s. bu kimi şüarlardan bacarıqla istifadə edirdilər. Bu onlara fəhlə və kəndliləri öz tərəflərinə çəkməyə imkan verdi. Əsas bazası isə xırda burjuaziya idi. İnhisarçı burjuaziyanın, monarxiyanın və Vatikanın müdaxiləsi sayəsində 1922-ci il oktyabrın sonlarında Mussolini hökumətin dəyişdirilməsini və faşist dəstələrinin "Roma üzərinə yürüş"ünü tələb etdi. 1922-ci il oktyabrın 30-da Mussolini saraya - kralın yanına gəlib hökumət təşkil etməyi təklif elədi, beləliklə, dövlət çevrilişi baş verdi və nəticədə İtaliyada Mussolininin faşist diktaturası quruldu. 1929-cu ildə o, Vatikanla faşistlərə katolik kilsəsinin yardımını vəd edən Lateran sazişini imzaladı. İtaliyanın iqtisadiyyatı burjuaziyanın mənafeyi naminə hərbiləşdirildi, siyasəti isə işğalçı məqsədlərə istiqamətləndirildi (1936-cı ildə Efiopiya, 1939-cu ildə Albaniya və s. zəbt edildi). Almaniyada faşizm hakimiyyətə gələndən sonra Mussolini onunla siyasi və hərbi ittifaq (bir sıra müqavilələrlə təsdiqlənmiş) bağladı. 1940-cı ilin iyununda İtaliya İkinci Dünya müharibəsinə qoşuldu. Alman və italyan qoşunlarının məğlubiyyəti və İtaliyada antifaşist hərəkatının güclənməsi 1943-cü il iyulun 25-də Mussolininin diktaturasının devrilməsi ilə nəticələndi. 1943 - 45-ci illərdə Mussolini İtaliyanın alman-faşist qoşunları tərəfindən işğal olunmuş ərazilərində “İtaliya sosial respublikası” və ya “Salo respublikası” adlandırılan oyuncaq hökumətin başçısı təyin edildi. Partizanlar tərəfindən tutulan Mussolini 1945-ci il aprelin 28-də edam olundu.

**Mustafa Kamal** - bax: Atatürk.

**muşketyor** - muşketlə silahlanmış piyada döyüşçü. XVI - XVII əsrlərdə Fransada muşketyorlar süvari qvardiyanın bir hissəsini təşkil edirdilər.

**muzalar** - qədim yunan mifologiyasında incəsənət və elm ilahələri. Qədim yunan mifologiyasında doqquz muza sadalanır: Klio - tarix muzası, Kalliopa - epik poeziya muzası, Melpomena - tragediya muzası, Poligimniya - dini himnlər



downloaded from KitabYurdu.org

muzası, Taliya - komediya muzası, Terpsixora - rəqs muzası, Uraniya - astronomiya muzası, Yevterpa - lirik poeziya muzası, Erato - nəğmə muzası.

**muzdlu, muzdlu döyüşçü** - haqq ilə tutulan, pul üçün hərbi qulluq edən peşəkar doyüşçü (əsasən – xaricilər).

**muzey** (yun. "muzalar məbədi") - təbiətin və bəşəriyyətin inkişafı haqqında tarixi mənbələr hesab edilən təbii kolleksiyaları, maddi və mənəvi mədəniyyət abidələrini komplektləşdirən, saxlayan, tədqiq edən, nümayiş etdirən və populyarlaşdıran, təbliğ edən elmi müəssisə.

**Müaviyə I** – Əməvilər sülaləsinin banisi və ilk xəlifəsi (661 - 680). Qüreyşi tayfasının əyan nəslindən idi. Xəlifə Əli ilə mübarizəyə başladı və 661-ci ildə onun xaricilər tərəfindən öldürülməsindən sonra xəlifə elan edildi. Xəlifələrin. hakimiyyətini irsiliyə çevirdi. I Müaviyənin dövründə Dəməşq Ərəb xilafətinin paytaxtı oldu. Müaviyənin siyasəti ərəb qobilə aristokratiyasının marağını ifadə edirdi. Güclü diplomat və yaxşı idarəçi olmuşdur.

**mübadilə** - insanların təsərrüfat həyatında fəaliyyəti. Adətən insanın həyat fəaliyyətinin məhsulları, mal-qara, sənətkarlıq məmulatı və müxtəlif əşyalar mübadilə edilirdi. Mübadilə ticarətdən əvvəl meydana gəlmişdir.

**mücahid** (ər. "din uğrunda vuruşan ; "qəzavat zamanı həlak olmuş şəhid") - 1905 - 11-ci illərdə Cənubi Azərbaycanda və İranda məşrutə (konstitusiya) inqilabı dövründə milli istiqlaliyyət və burjua-demokratik dəyişiklikləri uğrunda mübarizə aparan gizli solçu inqilabi təşkilatın üzvləri. Mücahidlərin ilk təşkilatları 1908-1909-cu illər Təbriz üsyanının və digər mühüm çıxışların aparıcı qüvvəsi olmuşlar. Onlar inqilabın əsas qüvvəsi hesab edilən fədai dəstələri yaradırdılar. Fərdi terrorçuluq mücahidlərin fəaliyyətində üstünlük təşkil edirdi. İnqilab yatırılarkən mücahidlərin dəstələri darmadağın edildi.

**"Müdafiə"** - 1907-ci ilin mayında "Difai" partiyasının dağılmasından sonra Gəncədə İsmayıl xan Ziyadxanov tərəfindən “Difai”nin işini davam etdirən "Müdafiə" təşkilatı yaradılmışdır. Bəylərin və ziyalıların nümayəndələri "Müdafiə" təşkilatı ətrafında birləşmişdilər. Təşkilatın fəaliyyəti Şimali Azərbaycanın qərb rayonlarını, habelə azərbaycanlıların yaşadığı Tiflis quberniyasını əhatə edirdi. "Müdafiə" təşkilatının əsas vəzifəsi Azərbaycan əhalisini maarifləndirmək, onun hüquq və maraqlarını müdafiə etmək idi.

**müdaxilə** - bir dövlətin başqa dövlətin daxili işlərinə və ya onun üçüncü dövlətlərlə qarşılıqlı münasibətlərinə silahlı və ya hər hansı başqa müdaxiləsi. BMT-nin nizamnaməsi müdaxiləni qadağan edir və onu beynəlxalq hüquq pozuntusu kimi dəyərləndirir.

**müdərris** (ər. "müəllim", "dərs deyən") - Yaxın və Orta Şərq ölkələrində ali mədrəsəni bitirmiş mədrəsə müəllimi.

**müəssislər məclisi** - konstitusiyanın hazırlanması və qəbul edilməsinə və ya yeni dövlət quruculuğu yaratmağa səlahiyyəti olan yığıncaq, məclis.



downloaded from KitabYurdu.org

**müflisləşmə, iflas (bankrotluq)** - 1) var-yoxdan çıxmaq, öz öhdəliklərinə görə borclarını ödəməkdən imtina etmək, vəsaitin olmaması ucbatından borcunu ödəyə bilməmək, borcu ödəmək iqtidarında olmamaq; 2) məcazi mənada - imkansızlıq, iflas olmaq, plan və ümidlərin məhv olması.

**müfti** - 1) dini-hüquqi məsələləri həll edən, fitva çıxaran yüksəkvəzifəli müsəlman ruhani; 2) sünnilərin dini işlərinə rəhbərlik edən baş ruhani.

**mühacirət** (emiqrasiya) - başlıca olaraq işsizlik, iqtisadi çətinlik, milli ayrı-seçkilik və siyasi təqiblərlə bağlı öz vətənindən başqa ölkəyə məcburi və ya könüllü şəkildə köçmək.

**müharibə** - dövlətlər və ya bir dövlətin ictimai qrupları arasında onların iqtisadi və siyasi maraqlarının həyata keçirilməsi məqsədi ilə aparılan silahlı mübarizə; siyasətin zorakı yolla davam etdirilməsi.

**müxalifət** - 1) geniş mənada - əks fəaliyyət, müqavimət, öz nöqteyi-nəzərlərini, öz siyasətini başqa nöqteyi-nəzərlərə və siyasətə qarşı qoyma; 2) çoxluğun rəyinə və ya hakim fikrə qarşı qəti çıxış edən adamlar və ya partiyalar qrupu; 3) parlament müxalifəti – hökumətin formalaşdırılmasında iştirak etməyən, bir sıra məsələlərdə hökumət siyasətinə qarşı çıxış edən adamlar və ya partiyalar qrupu.

**müklər** - müklər tayfası qədim zamanlardan Azərbaycan ərazisində məskunlaşmışdılar. Mənbələrdə ilk dəfə onların adına e.ə. VI əsrdə rast gəlinir. Onların adı mənbələrdə qonşu olduqları utilərlə yanaşı çəkilir. Müxtəlif məlumatlara görə, müklər Muğan ərazisində (müasir Muğan çölü) məskunlaşmışlar. Müklər Əhəmənilər dövlətinin XIV satraplığının tərkibində imişlər. Herodotun məlumatına görə, Kserksin e.ə. 480-ci ildə Yunanıstana yürüşü zamanı müklər Əhəməni qoşunları tərkibində olublar. Müklər yerli istehsaldan olan ox və xəncərlərlə silahlanmışdılar. Müklərin rəisi Kserksin qardaşı Arsamen idi, bu da Əhəməni qoşunlarında müklərin mövqeyinin güclü olduğunu sübut edir. Əhəmənilər dövlətinin süqutundan sonra müklər Atropatenanın, sonralar isə Qafqaz Albaniyasının tərkibinə daxil olmuşlar. Müklərin məskunlaşdıqları vilayətin adı - Mukan - pəhləvi kitabələrində ilk dəfə eramızın III əsrində çəkilir. VII - VIII əsrlər ərəb coğrafiyaçı səyyahları Muğan vilayətinin də adını çəkirlər. Monqolların yürüşü dövründən etibarən Muğan forması ümumən qəbul olunur və xalq etimologiyasında "muq" - "maq" sözü ilə əlaqələndirilir. Bu da, yəqin, onunla bağlıdır ki, orta əsrlərdə bu vilayətdə çoxlu zərdüşti kahini - maq olmuşdur.

**mükəlləfiyyət** (ər. "hər hansı bir işi məcburən yerinə yetirmək öhdəliyi") - əhalinin kanalların qazılmasında, bəndlərin tikilməsi və təmirində, sarayların və piramidaların inşasında, yolların salınmasında, sahibin tarlalarının əkilib-becərilməsində və s. məcburi əmək öhdəlikləri. Hərbi mükəlləfiyyət - qoşunda xidmət etmək vəzifəsi də mövcuddur.



downloaded from KitabYurdu.org

**müqatiyə** (ər. "kəsmək", "kəsib götürmək") - iltizam - əvvəlcədən dövlətə müəyyən məbləğdə pul ödəmiş xüsusi adamlara vergi toplamaq hüququnun verilməsi.

**"Müqəddəs ittifaq"** - Rusiya imperatoru I Aleksandrın təşəbbüsü ilə 1815-ci il sentyabrın 26-da Avstriya, Prussiya və Rusiyanm bağladıqları mürtəce ittifaq. "Müqəddəs ittifaq"ın məqsədi Vyana konqresi qərarlarının toxunulmazlığını təmin etmək, mütləqiyyəti möhkəmlətmək, inqilabi və milli-azadlıq hərəkatlarını yatırmaqdan ibarət idi. 1815-ci ildə Fransa və bir sıra digər Avropa dövlətləri də qoşuldular. "Müqəddəs ittifaq"ın razılığı və təhriki ilə Avstriya qoşunları qoşa Siciliya krallığı (1820 - 21) və Pyemont (1821) inqilablarını amansızcasına yatırdı, İspaniyaya soxulan (1820 - 23) Fransa qoşunları isə burada inqilabı boğaraq mütləqiyyəti bərpa etdi. Böyük Britaniya formal olaraq "Müqəddəs ittifaq"a daxil olmasa da, onu dəstəklədi və bir sıra tədbirlərində iştirak etdi. Avropa dövlətləri arasındakı ziddiyyət və inqilabi hərəkatın inkişafı "Müqəddəs ittifaq"ı sarsıtdı və o, XIX əsrin 20-ci illərinin sonlarında - 30-cu illərinin əvvəllərində faktik olaraq dağıldı.

**"Müqəddəs Roma imperiyası"** (962 - 1806; XV əsrdən "Alman millətinin "Müqəddəs Roma imperiyası") - əsası Şimali və Roma ilə birlikdə Orta İtaliyanı özünə tabe etmiş alman kralı I Otton tərəfindən qoyulmuşdur. Çexiyanı, Burqundiya və Niderlandı, İsveçrə torpaqlarını və s. əraziləri də əhatə edirdi. İmperatorları əsasən cənubda (İtaliya) və şərqdə (Labasahili slavyan torpaqları) işğalçı müharibələr aparırdılar; XI əsrin sonları - XIII əsrdə Roma papaları ilə daim vuruşan imperatorların hakimiyyəti tədricən zəiflədi, XIII əsrin ortalarında İtaliya itirildi, Almaniya isə ayrı-ayrı knyazlıqlara parçalanmağa başladı. 1648-ci il Vestfaliya sülhü imperiyanın müstəqil dövlətlər konqlomeratına çevrilməsini təsdiqlədi. İmperator kurfürstlər tərəfindən seçilməyə başlandı. Austerlis yaxınlığındakı qələbədən sonra I Napoleon tərəfindən tamamilə ləğv edildi.

**Müqəddəs Sofiya məbədi** - VI əsrdə Bizans imperatoru Yustinianın əmri ilə Konstantinopolda inşa edilmişdir. Müqəddəs Sofiya məbədi Bizans memarlığının ən gözəl əsəridir. Onu "möcüzələr möcüzəsi" adlandırır, şerlərdə tərənnüm edirdilər. Məbədi on min nəfər 5 il ərzində inşa etmişdir. Məbəd daxili tutumu və gözəlliyi ilə də adamı heyrətə gətirirdi. Osmanlı türkləri Konstantinopolu fəth etdikdən sonra Müqəddəs Sofiya məbədini qoruyub saxladılar, amma onu məscidə çevirdilər. Hazırda Aya-Sofiya məscidi İstanbulun ən gözəl və görməli yerlərindəndir.



**mülk** (ər. "mülkiyyət", "varidat", "dövlət") - Ərəb xilafəti dövründə (elə sonralar da) Yaxın və Orta Şərq ölkələrində xüsusi torpaq miilkiyyəti (maldan fərqli olaraq) forması. Artıq Əməvilər dövründə mülk məlum idi. Müsəlman ölkələrində feodalizmin inkişaf etməsi ilə əlaqədar olaraq "mülk"



downloaded from KitabYurdu.org

məfhumunun mənaları fərqlənməyə başladı: 1) səltənət, dövlət, hökumət, feodal mülkiyyəti; 2) iri və ya xırda irsi feodal mülkiyyəti; 3) su və irriqasiya tikililərinə olan xüsusi mülkiyyət; 4) Cənubi Qafqaz ölkələrində, habelə mülk torpağında yerləşən kəndlilərdən toplanılan vergi; 5) icmadan ayrılmış və feodaldan asılı olmayan torpaq üzərində xırda kəndli mülkiyyəti; 6) kənd icmasının torpaq və ya su üzərində mülkiyyəti.

**Mülkədar** - mülk sahibi. Bəzən "malik" adlanırdı.

mülki cəmiyyət - azad və bərabərhüquqlu adamlardan ibarət olan cəmiyyət.

**münaqişə** - bax: konflikt.

**Münhen sazişi** (1938) - 1938-ci il sentyabrın 29-da Münhen şəhərində (Almaniya) Çexoslovakiyanın parçalanması haqqında İngiltərə, Fransa, Almaniya və İtaliya hökumət başçıları (N.Çemberlen, E.Daladye, A.Hitler, B.Mussolini) tərəfindən imzalanmış saziş. Münhen sövdələşməsi İngiltərə, Fransa, Amcrika hakim dairələrinin İkinci Dünya müharibəsi ərəfəsində "sülhyaratma siyasəti"nin ən parlaq nümunəsi idi. 1938-ci ilin aprelində Sudet vilayətində yaşayan almanlar Çexoslovakiyadan tələb etdilər ki, bu ərazi üzərindəki suverenliyindən imtina eləsin. Bu tələb Almaniya tərəfindən dəstəkləndi. Çexoslovakiya ilə ittifaqda olan Fransa isə nəinki öz müttəfiqini müdafiə etmədi, hətta Çexoslovakiyada səfərbərlik elan olunmasına qarşı çıxdı. 1938-ci ilin avqustunda İngiltərə Sudet vilayətinin Çexoslovakiyadan ayrılıb Almaniyaya birləşdirilməsi təklifi ilə çıxış etdi. Sudet almanlarının qiyamı Çexoslovakiya qoşunları tərəfindən yatırıldı. Lakin Hitler hədələdi ki, onun bütün tələbləri yerinə yetirilməsə, Çexoslovakiyanı məhv edəcək. İngiltərə ilə Fransa bəyan etdilər ki, egər Hitlerin tələbləri qəbul olunmasa, Çexoslovakiya hücuma məruz qalacaq və heç nə onu məğlubiyyətdən və işğaldan xilas etməyəcək. Münhen konfransında əldə olunmuş razılığa əsasən, Çexoslovakiya nəinki təkcə Sudet vilayətini, həm də Avstriyanın Almaniyaya birloşdirilmiş rayonlarmın həmsərhəd bölgələrini Hitlerə verməli, eləcə də Polşa və Macarıstan tərəfindən irəli sürülən ərazi iddialarını təmin etməli idi. Çexoslovakiyanın hökumət başçısı Beneş bildirdi ki, o, Münhen konfransının tələblərinə tabe olur. ABŞ prezidenti də Münhen sazişinin imzalanmasını alqışladı.

**Münşi İsgəndər** (1560 - 1633) - görkəmli Azərbaycan tarixçisi. Səfəvi şahı Məhəmməd Xudabəndənin yanında divan mirzəsi, sonra isə I Şah Abbasın tarixçisi olmuşdur. Əsas əsəri - "Tarix-i-aləm-arayi Abbasi" ("Dünyanın bəzəyi Abbasın tarixi"). Münşinin əsərində Azərbaycanın, İranın və qonşu ölkələrin siyasi, ictimai-iqtisadi və mədəni tarixi təsvir edilir.

**Müntser Tomas** - Almaniyada xalq Reformasiyasının və 1525-ci il kəndli müharibəsi dövründəki silahlı dəstələrdən birinin başçısı. İlk vaxtlar Lüterin tərəfində çıxış edirdi. O, xalqı feodal zülmünə və katolik kilsəsinə qarşı mübarizəyə çağıran "12 maddə" proqramının müəlliflərindən biridir. Sonralar Lüteri qəti fəaliyyətdən yayındığına və feodalların tərəfinə keçdiyinə görə ittiham



downloaded from KitabYurdu.org

edirdi. Kəndli dəstələri dağıdılan zaman Müntser əsir düşmüş və ağır işgəncələrdən sonra boynu vurulmuşdu.

**mürid** - 1) davamçı, şagird, mürşid üsullarına uyğun olaraq dini təkmilləşmə, təmizlənmə üçün bilik və xüsusi yolların axtarıcısı; 2) müridizm və sufizm davamçısı.

**müridizm** - islamda - ardıcılları mürid, dərviş və sufilərin bir sıra birlik, qardaşlıq və icmalarına bölündüyü dini-mistik təlim. Müridizm öz davamçılarından qeyd-şərtsiz olaraq mürşidlərə (şeyx, pir, işan və ustazlara) tabeçiliyi, şəxsi iradə



təzahürlərindən imtinanı, dünyəvi həyata nifrəti və s. tələb edir. Müridizm islamın Asiya və Afrikada yayılmasında mühüm rol oynamışdır. Burada əsas ideyalardan biri qəzavat (cihad) ideyası olmuşdur. Qafqazda müridizm XIX əsrin 20-ci illərində daha geniş şəkildə yayılmışdır. 1824-cü ildən Cənubi Dağıstanda müridizm ideyasını molla Məhəmməd təbliğ edirdi. İmam Şamilin qayınatası, Mərkəzi Dağıstandan olan Cəmaləddin də müridizmin iri ideoloqu idi. Müxtəlifdilli dağlıları birləşdirən müridizm Qafqazda müstəmləkəçiliyə qarşı hərəkata dini rəng və müəyyən təşkilatçılıq xüsusiyyətləri vermişdi. 1918 - 21-ci illərdə müridizm qəzavat bayrağı altında imam N.Qosinskinin başçılığı ilə sovet hakimiyyətinə qarşı yönəlmiş milli-azadlıq hərəkatında istifadə olunmuşdur.

**mürşid** (ər. "yol göstərən", "rəhbər", "nəsihətçi", "bələdçi") - 1) müridlərə rəhbərlik edən təriqət başçısı; 2) müridizm və sufizmdə - müəllim, müridlər tərəfindən dini biliklərin təkmilləşdirilməsi üçün seçilən din xadimi.

**müsadirə** - bütün əmlakın və ya onun bir hissəsinin məcburi və əvəzi ödənilmədən dövlətin mülkiyyətinə götürülməsi.

**"Müsavat"** (ər. "Bərabərlik") - Azərbaycanda 1911-ci ildə "Müsavat" müsəlman demokratik partiyası" adı ilə yaradılmış milli-partiya. Baniləri və rəhbərləri M.Ə.Rəsulzadə, Q.Şərifzadə, A.Kazımzadə, T.Nağıyev və b. idi. İlk vaxtlar bir qrup milli ziyalını təmsil edirdi. Müsavatçılar pantürkizm və panislamizm ideologiyasını qəbul etmişdilər, onların devizi: “Türkləşmək, islamlaşmaq, müasirləşmək” idi. "Müsavat" partiyasının şöbələri Azərbaycandan başqa, müsəlmanların yaşadıqları Qafqaz və Rusiya şəhərlərində də açılmışdı. Partiyanın bölmələri həm də azərbaycanlı tələbələrin təhsil aldıqları ali məktəblərdə meydana gəlmişdi. Balkan müharibəsi dövründə Osmanh Türkiyəsinə kömək etmək məqsədi ilə "Müsavat"ın türkdilli xalqlara müraciət etdiyi bəyanatında deyilirdi: "Dindaşlar! Bilin və düşünün ki, bizim yeganə ümidimiz və xilasımız - Türkiyənin müstəqilliyi və tərəqqisindədir. Bu bəyanatdan sonra çarizm "Müsavat"ı təqib etməyə başladı, nəticədə 1913-cü ildə partiya müvəqqəti olaraq öz fəaliyyətini dayandırmaq məcburiyyətində qaldı. "Müsavat"ın liderləri öz davamçılarını "rus hökumətini aşkar tənqid eləməkdən" çəkindirirdilər. Birinci Dünya müharibəsi illərində isə "Müsavat" bütün müsəlmanları "müharibəni



downloaded from KitabYurdu.org

qələbəyədək sona çatdırmaq üçün" çar hökumətinə köməyə çağırırdı. 1915-ci ildə M.Ə.Rəsulzadə faktik olaraq partiyanın əsas orqanına çevrilən "Açıq söz" qəzetini nəşr etməyə başladı. Rusiyada 1917-ci il Fevral inqilabından sonra "Müsavat" partiyası özünün aktiv siyasi fəaliyyətini bərpa elədi və milli-ərazi muxtariyyəti tələbləri irəli sürmədən "Demokratik Rusiya respublikası" uğrunda çıxış etməyə başladı. 1917-ci ilin aprelində Bakıda çağırılmış Qafqaz müsəlmanlarının qurultayında "Müsavat" ilə "Türk ədəmi-mərkəziyyət (federalistlər) partiyası" arasında birləşmə haqqında razılıq əldə edildi və bu birləşmə 1917-ci il oktyabrın 25 - 29-da (7-11 noyabr) "Müsavat"ın I qurultayında başa çatdı. Birləşmədən sonra partiya "Türk ədəmi-mərkəziyyət "Müsavat" partiyası" adlandırıldı. "Müsavat"ın yeni proqramı qəbul edildi və həmin proqrama görə, Rusiyada dövlət quruluşu "milli-ərazi muxtariyyəti üzrə federativ demokratik respublika formasında" olmalı idi. "Müsavat"ın Mərkəzi Komitəsinə M.Ə.Rəsulzadə, M.H.Hacınski, N.B.Yusifbəyli, H.B.Ağayev və b. daxil olmuşdular. "Müsavat"ın tərkibində iri burjuaziya və mülkədarlarla yanaşı, xırda burjuaziya, ziyalılar, qulluqçular və fəhlələrin bir qismi də təmsil olunurdu. O dövrdə "Müsavat"ın mətbu orqanları "İstiqlal", "Bizim yol" idi. Oktyabr çevrilişi və Rusiyada vətəndaş müharibəsindən sonra "Müsavat" Azərbaycanın əsas siyasi qüvvələrindən biri idi. 1917-ci il oktyabrın 22-də Bakı Sovetinə seçkilər zamanı müsavatçılar səslərin əksəriyyətini (40%) qazandılar, lakin Bakı Sovetinin işində iştirakdan imtina elədilər. Müsavatçılar və onların tərəfdarları (o cümlədən Bakının dinc əhalisi olan azərbaycanlılar - 12 min nəfərdən çox) 30 mart - 1 aprel 1918-ci ildə daşnaklarla ittifaqda Şaumyanın başçılığı ilə Bakı Sovetinin qoşunları tərəfindən qətlə yetirildi. Azərbaycanın dinc əhalisinin Bakı Sovetinin qoşunları və daşnaklar tərəfindən qətliamı Şamaxı, Kürdəmir, Xaçmaz, Lənkəran, Hacıqabul və Salyanda da davam etdirildi. 1918-ci il mayın 28-də ADR-in yaradılmasından sonra "Müsavat" üzvləri hökumətdə əsas vəzifələri tutmaqla yanaşı, ADR parlamentində də çoxluq təşkil edirdilər. 2-11 dekabr 1919-cu ildə "Müsavat"ın II qurultayı keçirildi və partiya daxilində kifayət qədər güclü sol cinah formalaşdı; sonralar onun böyük hissəsi "Müsavat"dan uzaqlaşdı. 1920-ci ildə Azərbaycan Rusiya Qırmızı Ordusu tərəfindən tutulandan sonra "Müsavat" partiyası və onun mətbu orqanları qadağan edildi, müsavatçıların bir çoxu həbs olundu, bir hissəsi isə Türkiyə və digər ölkələrə mühacirətə gedərək orada aktiv antisovet fəaliyyətlərini davam etdirdi. "Müsavat" partiyası mühacirətdə də fəaliyyətini dayandırmamışdı: 1936-cı ilin avqustunda "Müsavat"ın konfransı keçirilmiş və partiyanın yeni proqramı qəbul olunmuşdur.



**"Müsəlman konstitusiyası"** - 1905-ci il 17 oktyabr çar manifestindən sonra Şimali Azərbaycanda ticarət-sənaye burjuaziyası tərəfindən yaradılmış



downloaded from KitabYurdu.org

partiya. "Müsəlman konstitusiyası" partiyasının proqramı Rusiya "Konstitusiyalı demokratlar" (kadetlər) partiyasının proqramına yaxın idi.

**"Müsəlman Milli Şurası"** - Azərbaycan ziyalılarının nümayəndələri tərəfindən 1917-ci il martın 27-də yaradılmış təşkilat. "Müsəlman Milli Şurası"nın Müvəqqəti İcraiyyə Komitəsinə Əlimərdanbəy Topçubaşov, Fətəli xan Xoyski, M.H.Hacınski, M.Ə.Rəsulzadə, A.T.Tağıyev, A.A.Əmicanov, X.A.Əliyev, M.Əsədullayev, M.Heydərov, N.Nərimanov, Ə.Əzizbəyov daxil idilər. İcraiyyə Komitəsinin sədri vəzifəsinə M.H.Hacınski, sədr müavinliyinə isə M.Ə.Rəsulzadə seçilmişdi. Şimali Azərbaycanın şəhər və qəzalarında "Müsəlman Milli Şurası"nın filialları yaradılırdı. "Müsəlman Milli Şurası" öz fəaliyyətini demokratik prinsiplər əsasında qurur və çalışırdı ki, müsəlman əhalisinin bütün təbəqələrini milli partiya və təşkilatlar ətrafında birləşdirsin.

**müsəlmanlar** - islam dininə etiqad edənlər.

**"Müsəlmanlar ittifaqı"** - bax: "İttifaqi-muslimin".

**müsəlmançılıq** - bax: islam.

**müstəmləkə** - orta əsrlərdə və yeni dövrdə Avropanın işğalçı dövlətləri tərəfindən tutulmuş və öz müstəqilliklərini itirmiş ölkə və ərazilər.

**müstəmləkəçilik** - siyasi və iqtisadi istismar, inkişaf etmiş ölkələrin sosial-iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələri mənəvi cəhətdən əsarət altına alması. "Müstəmləkə siyasəti" mənasında da işlədilir.

**Mütəllibov Ayaz** -Azərbaycan KP MK-nın birinci katibi (1990-cı ildən), Azərbaycan SSR prezidenti (1990 - 91), AR prezidenti (1991 - 92). Bakıda 1990-cı il 20 Yanvar hadisələrindən sonra Moskva respublikadan qaçmış Ə.Vəzirovun yerinə Ayaz Mütəllibovu Azərbaycan KP MK-nın birinci katibi təyin etmişdir. Fevral - may aylarında Naxçıvanın Kərki kəndini tutan erməni birləşmələri Qazax rayonunun Bağanıs-Ayrım kəndinə hücum etdilər. 1990-cı ilin aprelində ziyalıların nümayəndələri respublika və AXC rəhbərliyinə "75-lərin müraciəti" ilə erməni təcavüzünə qarşı mübarizədə qüvvələri birləşdirməyə çağırmışdır. Mayın 19-da Azərbaycan SSR Ali Sovetinin sessiyasında prezident vəzifəsi təsis olundu və Ali Sovet elə oradaca Mütəllibovu həmin vəzifəyə təsdiq etdi. Prezidentin fərmanı ilə 1990-cı il mayın 21-də may ayının 28-i Azərbaycan dövlətçiliyinin bərpası günü elan edildi, üçrəngli ADR bayrağı isə yenidən Azərbaycanın dövlət bayrağı oldu. İyunun 11-də Azərbaycan SSR Ali Soveti Ermənistanla bütün sərhədboyu fövqəladə vəziyyət elan etdi. Sərhəd mühəndis qurğuları ilə möhkəmləndirildi, onun mühafizəsi üçün xüsusi polis dəstələri yaradıldı. "Demblok"un etirazına baxmayaraq, 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Soveti SSRİ-nin saxlanılması haqqında Azərbaycanın referendumda iştirakı, eləcə də Azərbaycan SSR-in adının Azərbaycan Respublikasına (AR) dəyişdirilməsi barədə qərar qəbul ctdi. Mütəllibov ümid edirdi ki, Ermənistan tərəfindən referendumun boykot edildiyi bir dövrdə Azərbaycanın bu prosesdə iştirak etməsi Moskvanın Ermənistan - Azərbaycan münaqişəsinə münasibətini dəyişəcək. Apreldə SSRİ prezidenti



downloaded from KitabYurdu.org

Qorbaçov və 9 respublika rəhbəri, o cümlədən Mütəllibov Novo-Oqaryovoda (Moskva yaxınlığında) yeni ittifaq müqaviləsinin bağlanması haqqında protokolu imzaladılar. Moskva referendumda iştirakdan imtina edən Ermənistana "dərs vermək" məqsədi ilə ermənilərə göstərilən yardımı xeyli azaltdı. 1991-ci ilin mayında Sovet Ordusunun və Xüsusi Təyinatlı Milis Dəstəsinin (XTMD - OMON) qüvvəsi ilə Çaykənddə və Martunaşendə pasport rejiminin yoxlanışı keçirildi və hərbiləşdirilmiş erməni dəstələri tərk-silah olundu, iyunda isə ermənilərin Goranboy rayonundakı hərbi dayaq məntəqələri ləğv edildi. Bundan istifadə edən



Mütəllibov ümumxalq prezident seçkilərinə hazırlaşdı. 1991-ci il avqustun 19 - 21 - də Moskvada "avqust qiyamı" baş verdi, Mütəllibov Fövqəladə Vəziyyət üzrə Dövlət Komissiyasını (QKÇP) dəstəklədi. Qorbaçov faktik olaraq hakimiyyətini itirəndən sonra isə 1991-ci il avqustun 30-da AR Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" bəyanat qəbul etdi. Sentyabrın əvvəllərində üzdəniraq "Dağlıq Qarabağ Respublikasının (DQR) yaradılması elan olundu. Sentyabrın 8-də saxtalaşdırılmış seçkilər nəticəsində A.Mütəllibov Azərbaycan Respublikasının ilk prezidenti seçildi. 1991-ci il oktyabrın 18-də AR Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" konstitusiya aktı qəbul olundu. Noyabrın 14-də SSRİ prezidenti Qorbaçov və 7 respublika rəhbəri yenidən Novo-Oqaryovoda yeni dövlətlərarası birlik - "Suveren dövlətlər ittifaqı" yaratmaq üçün bir yerə toplandılar, lakin respublikalardakı geniş etiraz dalğası üzündən hazırlanmış müqaviləni təkcə Qorbaçovun özü imzaladı. Noyabrın 20-də Azərbaycan Respublikasının dövlət xadimləri və Sovet Ordusunun yüksəkrütbəli hərbçilərinin olduğu vertolyot Dağlıq Qarabağın səmasında vuruldu. Noyabrın 26-da Azərbaycan Respublikasının Ali Soveti DQMV-nin statusunu ləğv ctdi. Dekabrın 8-də Müstəqil Dövlətlər Birliyi (MDB) yaradıldı. Bir qədər sonra Azərbaycan da MDB-nin yaradılması prosesinə qoşuldu. Dekabrın 25-də Azərbaycan Respublikasının Ali Soveti latın qrafikası əsasında Azərbaycan əlifbasının bərpası haqqında qanun qəbul etdi. Azərbaycan Respublikası "İslam konfransı" təşkilatına daxil oldu. 1991 -ci il dekabrın 29-da Azərbaycan Respublikasının müstəqilliyi haqqında keçirilən referendumda iştirakçıların 95%-dən çoxu onun lehinə səs verdi. 1992-ci il yanvarın 19-da erməni silahlı birləşmələri Sovet Ordusu hissələrinin köməkliyi ilə Kərkicahan kəndini tutub yandırdılar. Bununla belə, AR rəhbərliyi baş verən hadisələrə tamam biganəlik göstərir və müxalifətin Milli Ordu yaradılması haqqında tələblərini hər dəfə müxtəlif bəhanələrlə rədd edirdi. Fevralın 25 - 26-da erməni birləşmələri Sovet Ordusu hissələrinin köməkliyi ilə AR rəhbərliyi tərəfindən taleyin hökmünə buraxılmış Xocalı şəhərini tutaraq 613 dinc azərbaycanlı sakini - qocaları, qadınları və uşaqları vəhşicəsinə qətlə yetirdilər. Martın 2-də AR BMT-yə qəbul edildi. Xocalı qətliamından sonra xalq kütlələrinin



downloaded from KitabYurdu.org

təzyiqi ilə AR prezidenti Mütəllibov martın 6-da istefaya çıxmağa məcbur oldu. Hökumət boşluğu yarandı. Hakimiyyət uğrunda mübarizə nəticəsində mayın 8-də Şuşa ermənilərə verildi, mayın ortalarında isə Azərbaycan qoşunlarının Laçın rayonundan çıxarılmasına başlanıldı. Mayın 14-də Mütəllibovun tərəfdarları AR Ali Sovetinin sessiyasında onu yenidən hakimiyyətə gətirdilər. Bu hadisələri qeyri-konstitusion adlandıran AXC öz tərəfdarlarının köməkliyi ilə mayın 15-də Ali Sovetin binasını tutdu. Mütəllibov Moskvaya qaçdı.

## -N-

**nadel** (rus. "pay", "bölüb vermə") - kəndlinin feodaldan aldığı torpaq sahəsi (Rusiyada təhkimçilik hüququ ləğv edildikdən sonra kəndli ailələrinin istifadəsinə verilən kiçik torpaq hissəsi).

**Nadir şah Əfşar** (1688 - 1747) - sərkərdə, İran şahı (1736 - 47). Nadir xan mənşəcə qızılbaş əfşar tayfasındandır. Fəaliyyətinə sərkərdə kimi başlamışdır. 1726-cı ildə İrana soxulmuş əfqanları qovmuşdu. Əfqanlar üzərində qələbə, eləcə də 1730 - 31-ci illərdə osmanlı türklərinə qarşı apardığı uğurlu hərbi döyüşlər Nadir xanın nüfuzunu yüksəltmişdir. O, 1732-ci ildə Səfəvi şahı Təhmasibi devirərək onun azyaşlı oğlu III Abbası şah elan etmiş, özü isə şahın qəyyumu kimi dövlət idarəsini əlində cəmləşdirmişdir. 1736-cı ildə - Osmanlı imperiyası ilə müharibə qurtardıqdan sonra özünü İranın şahı elan etmişdir. Nadir şahın əsas dayağı qızılbaş əfşar tayfası və kürdlər idi. Onun yeritdiyi siyasət mərkəzləşdirilmiş güclü hakimiyyət yaratmağa və İran feodallarının gəlir mənbəyi olan işğalçı müharibələr aparmağa yönəlmişdi. O, tərkibinə Azərbaycan, indiki Ermənistan, Gürcüstan, Dağıstan, Əfqanıstan, Bəlucistan, Xivə və Buxara xanlıqları da daxil edilən böyük imperiya yaratdı. Nadir şah 1739-cu ildə Böyük Moğollar imperiyasının paytaxtı Dehlini tutdu. Hərbi xərclərin artması nəticəsində



oturaq əhali, eləcə də əvvəllər vergilərdən azad olan köçəri tayfalar üzərində vergilər artırıldı. Əhalinin qarət edilməsi isə xüsusilə 40-cı illərdə kəskinləşən üsyanların baş verməsinə, eləcə də feodal ara müharibələrinə səbəb oldu. 1747-ci il iyunun 20-də Nadir şah hərbi feodal əyanlarının sui-qəsdi nəticəsində öldürüldü.

**Nağıyev Musa** (1849 - 1919) - görkəmli Azərbaycan sahibkarı, mesenat. Biləcəri kəndində yoxsul ailəsində anadan olmuşdur. 11 yaşından hambal işləməyə başlamışdır. Pul topladıqdan sonra o, borc götürür, bir parça torpaq sahəsi alır və burada əkinçiliklə məşğul olmaq istəyir. Su quyusu qazarkən gözlənilmədən neft fontanı vurur. İlkin kapitalı (sərmayəni) bir yerə



toplayıb, 1893-cü ildə "Musa Nağıyev" neftçıxarma firmasının əsasını qoyur, ilk növbədə savadlı neftçi mütəxəssisləri işə cəlb edir. Bir neçə ildən sonra Binəqədidəki bütün buruqlar faktik olaraq ona



downloaded from KitabYurdu.org

məxsus idi, 1900-cü ildə isə o, artıq illik hasilatı 10 milyon pud neft olan ən iri şirkətin sahibi idi. XX əsrin əvvəllərində onun mülkiyyəti on milyonlarla rubla bərabər idi. Nağıyevin neftayırma zavodları və neftdaşıyan gəmiləri, eləcə də iri mülkləri var idi. Nağıyev 1912-ci ildə satışa çıxarılmış bahq vətəgələrinin bir hissəsini almışdır. O, 1914-cü ildə Tağıyevlə birlikdə əsas kapitalı 3 mln. rubla bərabər olan Bakı Ticarət Bankını təsis etmiş və onun idarə heyətinin sədri seçilmişdi.

Nağıyev həm də iri mesenat idi, onun vəsaiti ilə Bakıda bir çox gözəl binalar - yaraşıqlı "İsmailiyyə" kompleksi (1907 - 13 - indi Azərbaycan MEA Rəyasət Heyətinin binası), indi Musa Nağıyevin adını daşıyan şəhər Təcili yardım xəstəxanasının binası, alman kirxasının (lüteran kilsəsinin) binası və başqa bir çox monumental binalar inşa edilmişdi. Nağıyev Bakı su kəmərinin istismarına da xeyli vəsait xərcləmişdi. O, Bakı realni məktəbində 25 müsəlman qızının təhsil və dolanacaq xərclərini verməklə maarifin ehtiyaclarının ödənilməsinə də çoxlu vəsait sərf etmişdi. Nağıyev öz fəhlə və mütəxəssislərinin də qeydinə qalır, onların toylarını təşkil edir, istedadlı işçiləri isə xaricə oxumağa göndərirdi. O, “Nəşri-maarif” mədəni-maarif xeyriyyə cəmiyyətinin fəxri üzvü seçilmişdir.

**Naxçıvan xanlığı** - 1747-ci ildə Şimali Azərbaycanda Araz çayı vadisində Heydərqulu xan (1747 - 63) tərəfindən yaradılmış xanlıq. Heydərqulu xan xanlığın



gücləndirilməsi, ticarətin və sənətkarlığın inkişaf etdirilməsi üçün bir sıra tədbirlər həyata keçirmişdir. Lakin hərbi cəhətdən zəif olan Heydərqulu xan qarabağlı İbrahimxəlil xandan asılı vəziyyətə düşmüşdü. Heydərqulu xanın oğlu Hacı xan Kəngərlinin hakimiyyəti illərində Naxçıvan xanlığı zəifləmişdi. Onun oğlu Rəhim xanın dövründə isə xanlıqda daxili çəkişmələr başlanmış və bu da xanlığın daha da zəifləməsinə səbəb olmuşdu. 1783-cü ildə Xoy hakimi Əhməd xan Naxçıvan xanlığının başçılığına öz adamı olan Cəfərqulu xanı gətirdi. 1787-ci ildə qarabağlı İbrahimxəlil xan Naxçıvan xanlığına yürüş təşkil etdi, amma Kəlbəli xan onun hücumunun qarşısını ala bildi. 1792-ci ildə Xoy və İrəvan xanlıqlarının yardımı ilə İbrahimxəlilxanın ikinci hücumu da dəf olundu. 1795-ci ilin yayında Ağa Məhəmməd xan Qacarın qoşunları Naxçıvan xanlığına soxuldular və bununla əlaqədar olaraq Kəlbəli xan Rusiya ilə saziş bağlamağa meyl etdi. Buna görə də 1797-ci ildə Ağa Məhəmməd şah Qacar Azərbaycana ikinci yürüşü zamanı Kəlbəli xanı həbs edib gözünün birini çıxartdı, xanlığın əhalisinin bir hissəsini isə İrana köçürdü. Bundan sonra Abbasqulu xan Kəngərli xan oldu. Birinci Rusiya - İran müharibəsi zamanı general Qudoviçin başçılıq etdiyi rus qoşunları 1808-ci ilin sentyabr - oktyabrında Naxçıvan xanlığını tutdular. Lakin 1809-cu ilin ortalarında Abbas Mirzənin sərkərdəlik etdiyi İran qoşunları rusları Naxçıvan xanlığından sıxışdırıb çıxardılar.



downloaded from KitabYurdu.org

Gülüstan müqaviləsinin şərtlərinə görə, Naxçıvan xanlığı İranın nüfuz dairəsində qalırdı. İkinci Rusiya - İran müharibəsi zamanı general Paskeviçin komandanlıq etdiyi rus qoşunları 1827-ci il aprelin 20-də Xudafərin körpüsünü tutdular. 1827-ci il iyunun 16-da rus qoşunları Naxçıvanı döyüşsüz tutdular. Türkmənçay müqaviləsinin şərtlərinə görə, İran Naxçıvan xanlığının Rusiya imperiyasına birləşdirilməsinə razılıq verdi. Türkmənçay müqaviləsinin şərtlərinə görə, Rusiya tərəfindən zəbt olunmuş Azərbaycan torpaqları İrandan köçürülən erməni ailələrinin məskəninə çevrildi. Bir qədər sonra Naxçıvan və İrəvan xanlıqları ləğv edildi, onların ərazilərində isə ruslar tərəfindən "Erməni vilayəti" adlandırılan qurum yaradıldı.

**Naxçıvani** Məhəmməd (1293 - 1365) - Azərbaycan tarixçisi və dilçisi. Əsas əsəri "Dəstur əl-katib fi təyin əl-məratib"dir ("Dərəcələrin təyin edilməsində katiblər üçün göstəriş"). Bu əsərdə Azərbaycanın XIII - XIV əsrlər ictimai-siyasi həyatını xarakterizə edən faktlar və 4000-dək Azərbaycan sözü olan farsca-azərbaycanca-ərəbcə lüğət var idi.

**Naxçıvanski** Hüseynxan Kəlbəlixan oğlu - çar ordusunun general-leytenantı. Birinci Dünya müharibəsi illərində Qərb cəbhəsində "Qafqaz yerli süvari diviziyası"na və ya "Vəhşi diviziya" deyilən hərbi bölməyə komandanlıq etmişdir.

**naib** (er. "canişin", "əvəz edən", "müavin", "vali") - 1) orta əsr müsəlman dövlətlərində (Ərəb xilafəti, Qızıl Orda və s.) dairə və ya əyalət hakimi; 2) Azərbaycan xanlıqlarında - mahal (sahə) hakimi vəzifəsini icra edən; 3) Şamilin imamətində - onun müvəkkil etdiyi hərbi, inzibati və dini hakimiyyəti yerinə yetirən şəxs; 4) Osmanlı imperiyasında şəriət hakimi, baş qazının müavini, mollanın, qazının və ya sex başçısının köməkçisi; 5) yerli polis idarəsinin rəisi.



**Naqasaki** - Küsü adasının (Yaponiya) qərbində liman şəhəri. Yaponiyanın xarici aləmdən təcrid olunduğu dövrdə (1636 -1854) Naqasaki çinlilərlə və hollandlarla məhdud ticarət aparan yeganə liman olmuşdur. İkinci Dünya müharibəsi zamanı - 1945-ci il avqustun 9-da Naqasakiyə Amerika tərəfindən atom bombası atılmışdı. Atom partlayışı nəticəsində şəhərin $^1/_3$-i dağıldı, 73 min nəfər həlak oldu. Şəhər sonralar bərpa olunmuşdur. Hazırda Naqasaki iri gəmi inşaatı və gəmi təmiri (Mitsubisi konsemi), eləcə də motorqayırma və metallurgiya mərkəzidir.

**namaz** (far. "ibadət", ər. "səlat") - islamın əsas ibadətlərindən biri və müsəlmanlığın beş şərtindən ikincisi. Gündəlik (bir qayda olaraq beş dəfə) ibadətdən və ibadət-ərəfəsi yuyunmaqdan - dəstəmaz almaqdan (abdəst) ibarətdir. Namaz qılan üzü qibləyə - Kəbəyə tərəf duraraq niyyət edir və Qurandan müəyyən surələr oxuyur. Gündəlik namazdan əlavə, cümə, bayram, ölü namazları və s.



downloaded from KitabYurdu.org

niyyət namazları da mövcuddur. Şiələrin və sünnilərin namaz qılmalarında müəyyən fərq vardır.

**Napoleon I, Napoleon Bonapart** (1769 - 1821) - böyük sərkərdə, Fransa Respublikasının birinci konsulu (1799 - 1804), fransızların imperatoru (1804 - 14, 1815). Ayaçço şəhərində (Korsika adası) müflisləşmis zadəgan ailəsində anadan olmuşdur. On yaşından hərbi məktəblərdə təhsil almışdır 1785-ci ildə Paris hərbi məktəbini bitirmişdir. Orduya kiçik zabit rütbəsində gəlmişdir Xidmət illərində xüsusi və ümumi elmi, fəlsəfi-siyasi və bədii ədəbiyyatı oxuyub öyrənmişdir. Napoleon Böyük Fransa burjua inqilabını rəğbətlə qarşılamış, inqilabi ordunun sıralarında vuruşmuşdur. 1793-cü ildə qiyamçı monarxistlər və ingilislər tərəfindən tutulmuş Tulonun uzunmüddətli və uğursuz mühasirəsi zamanı Napoleon şəhəri tutmaq üçün öz planını təklif etmiş, özü də şəhəri hücumla almışdır. Bundan sonra 24 yaşlı kapitan olan Napoleon briqada generalı rütbəsinə layiq görülmüşdür. Bununla da onun sürətli yüksəlişi başlanmışdır. Termidor irticası zamanı Robespyerlə münasibətlərinə görə həbs olunan Napoleon sonradan Direktoriyanın etimadını qazana bilmiş və 1795-ci ildə monarxistlərin qiyamının yatırılması zamanı göstərdiyi şiicaət, qətiyyət və qəddarlığı ilə yenidən diqqəti özünə cəlb etmişdi. Bunun ardınca Paris qarnizonunun komandiri, 1796-cı ildə isə italiyada keçiriləcək əməliyyat üçün ordunun baş komandanı təyin olunmuşdur.

1796 - 97-ci illər kampaniyası Napoleonu respublikanın ən yaxşı sərkərdələrindən biri kimi şöhrətləndirdi. Napoleonun bir neçə qələbəsinə ("piramidalar yaxınlığındakı döyüş") və özünün göstərdiyi şəxsi igidliyə baxmayaraq, 1798 - 1801-ci illər Misir səfəri uğursuz başa çatdı. Direktoriya ordusunun Suvorov tərəfindən məğlub edilməsi haqqında xəbərləri eşidən kimi Napoleon Misır yürüşünü özbaşına yarımçıq qoyaraq Parisə qayıtdı. Burjuaziyanın nüfuzlu dairələrinə arxalanan Napoleon 18-19 brümerdə (1799-cu il noyabrın 9 - 10-u) dövlət çevrilişi edərək Konsulluq rejimi təsis etdi və faktik olaraq hakimiyyəti bütövlükdə onun sərəncamına verdi. Napoleonun hakimiyyəti burjuaziyanın və sahibkar kəndlilərin marağının müdafiəsinə yönəlmişdi; o, demokratik azadlıqların qalıqlarını da ləğv etdi. 1800-cü ildə Napoleon Marenqo yaxınlığında avstriyalıları darmadağın etdi. Roma papası I Pavel ilə 1801-ci ildə imzalanmış konkordat Napoleona katolik kilsəsinin dayağını təmin etdi. Napoleonun şəxsi iştirakı ilə 1804-cü ildə mülki, kommersiya və cinayət kodeksləri işlənib hazırlandı. Onun iqtisadi siyasəli sənaye və ticarətin inkişafına yönəlmişdi; o bu inkişafda dövlətin qüdrətinin möhkəmləndirilməsi vasitəsini görürdü. Napoleon istər ictimai əmək təşkilatı (işsizliyə qarşı vasitə), istərsə də fəhlə birliklərinin yaradılmasını qadağan edən 1791-ci il Le Şapelye qanununun saxlanılması və 1803-cü il əmək kitabçalarının tətbiqi ilə fəhlə çıxışlarına yol verməməyə çalışırdı. Napoleon 1802-ci ildə özünün ömürlük konsul təyin edilməsinə nail oldu, 1804-cü ildə isə I Napoleon adı ilə fransızların imperatoru elan olundu. Ulm, Austerlis (1805) və Yen (1806) yaxınlığındakı parlaq qələbələr,



downloaded from KitabYurdu.org

imperiyanın ərazisinin hədsiz dərəcədə genişləndirilməsi və Napoleonun faktik olaraq bütün Qərbi (İngiltərə istisna olmaqla) və Mərkəzi Avropanın hökmdarına çevrilməsi onun şan-şöhrətini görünməmiş səviyyədə artırdı. Lakin kontinental blokada və 1807-ci ildə Portuqaliyada, 1808-ci ildə İspaniyada və 1812-ci ildə Rusiyada aparılan işğalçı müharibələr və bütün xalqın Napoleonun qoşunlarına qarşı partizan müharibəsinə qalxması onun imperiyası üçün son dərəcə fəlakətli nəticələrə gətirib çıxardı. 1812-ci ildə Rusiyada Vətən müharibəsi nəinki təkcə "böyük ordu"nu məhv elədi, həm də bütün Avropada Napoleon zülmünə qarşı milli-azadlıq hərəkatının yüksəlməsinə təkan verdi. 1813-cü il kampaniyasında Napoleon təkcə öz əleyhinə koalisiyanın qoşunlarına qarşı deyil, həm də Avropanın üsyana qalxmış xalqlarına qarşı da vuruşmalı olmuşdur. Napoleonun məğlubiyyəti və 1814-cü il martın 31-də müttəfiq qoşunların Parisə daxil olması onu 1814-cü il aprelin 6-da taxtdan əl çəkməyə məcbur etdi. Qalib müttəfiqlər I Napoleonun imperator titulunu saxlayıb Fransa və İtaliya sahilləri yaxınlığında - Aralıq dənizindəki Elba adasını onun mülkiyyətinə verdilər. 1815-ci il martın 1-də Napoleonun Fransaya çıxması və yenidən hakimiyyətə qayıtdığı sonrakı "100 gün"ü (1815-ci il martın 20-dən iyunun 22-dək) onun arxalandığı ictimai qüvvənin əhəmiyyəti və böyüklüyünü bir daha göstərdi. Xalq onu mənfur (iyrənc) Burbonları və aristokratları qova biləcək bir adam kimi tanıyırdı. Lakin Napoleon xalqa arxalanmağa cəsarət etmədi, nəticədə 1815-ci il iyunun 18-də Vaterloo yaxınlığında ingilis və pruss qoşunları tərəfindən məğlub edildi, ikinci dəfə taxtdan əl çəkməli oldu. İngilislərin əsiri kimi Müqəddəs Yelena adasına sürgün edilən Napoleon 6 ildən sonra öldü.

**Napoleon III,** Şarl Lui Napoleon Bonapart (1808 - 73) - İkinci respublikanın prezidenti (1848 - 52), Fransa imperatoru (1852 - 70), I Napoleonun qızlığının və qardaşı Lui Bonapartın oğlu. 1848-ci ilə qədər III Napoleon siyasi avantürist həyatı sürmüş, 1 Napoleonu vəsf edən bir neçə broşür nəşr etdirmiş, 1836 və 1840-cı illərdə Fransada hakimiyyəti ələ keçirməyə cəhd göstərmişdir. 1840-cı ildə İyul monarxiyası hökuməti tərəfindən ömürlük həbs edilmiş, həbsxanadan Belçikaya qaçmışdır. 1848-ci il Fevral inqilabından sonra Müəssislər Məclisinin deputatı seçilmiş, 1848-ci il dekabrın 10-da isə İkinci respublikanın prezidenti seçilmişdir. Hərbçilərin yardımı ilə 1851-ci il dekabrın 2-də dövlət çevrilişi edərək bütün hakimiyyəti əlində cəmləşdirmiş, 1852-ci il dekabrın 2-də isə III Napoleon adı ilə özünü İkinci imperiyanın imperatoru elan etmişdir. Maliyyə kapitalının mənafeyi naminə siyasət yeridərək öz diktaturasını qurmuşdur. III Napoleonun hakimiyyəti illərində Fransa Krım müharibəsində (1853 - 56), Avstriyaya qarşı müharibədə (1859), Böyük Britaniya ilə birlikdə 1856 - 60-ci illər "tiryək müharibələri"ndə, Hind-Çinə (1858 - 62), Suriyaya (1860-61), Meksikaya (1862 - 67) qarşı işğalçı müharibələrdə iştirak etmişdir. 1870-ci il sentyabrın 2-də Fransa - Prussiya müharibəsi zamanı III Napoleon Sedan yaxınlığında əsir düşdü. O, 1870-ci il sentyabrın 4-də Parisdə baş vermiş inqilab nəticəsində taxtdan salındı.



downloaded from KitabYurdu.org

1871-ci ildə Almaniya ilə Fransa arasında Frankfurt sülhü bağlandıqdan sonra əsirlikdən azad edildi və ömrünün sonlarına kimi Böyük Britaniyada yaşadı.

**Napoleonun "yüz gün"ü** - imperator I Napoleonun Elba adasından qaçdıqdan sonra Fransada ikinci dəfə hakimiyyətdə olduğu dövr (20 mart - 22 iyun 1815). Bir çox Avropa dövlətlərinin koalisiyası Napoleon imperiyasına qarşı çıxış etdi. Napoleonun ordusu Vaterloo yaxınlığında darmadağın olundu və bundan dörd gün sonra Napoleon ikinci dəfə taxtdan əl çəkdi və Müqəddəs Yelena adasına sürgün edildi. O elə həmin adada da öldü.

**nasizm** (nasional-sosializm) - 1919-cu ildə yaradılmış və Hitlerin başçılıq etdiyi Almaniya Nasional-Sosialist Fəhlə Partiyasının (ANSFP) ideologiyası və siyasəti.

**Natəvan Xurşidbanu** (1830 - 97) - görkəmli Azərbaycan şairəsi və rəssamı. Sonuncu Qarabağ xanı Mehdiqulu xanın qızı; bütün Qarabağda "Xan qızı" adı ilə məşhur idi. Onun bir sıra qəzəlləri bizə gəlib çatmışdır. Əsas rəsmləri "Şəhərin görünüşü", "Dəniz mənzərəsi"dir.

**NATO** (North Atlantic Treaty Organization - Şimali Atlantika Müqaviləsi Təşkilatı adının ilk hərflərinin abbreviaturası) - 1949-cu il müqaviləsinə əsasən, ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Kanada, Belçika, Niderland, Lüksemburq, Portuqaliya, Norveç, Danimarka, İslandiya arasında yaradılmış hərbi-siyasi blok. 1952-ci ildə Türkiyə və Yunanıstan, 1955-ci ildə AFR NATO-ya daxil olmuşlar. 1966-cı ildə Fransa, 1974-cü ildə isə Yunanıstan (enozisə uğursuz cəhddən sonra) NATO-nun hərbi təşkilatından çıxmışdır; eyni zamanda, təşkilatın digər proqramlarında iştiraklarını davam etdirirlər. 1982-ci ildə İspaniya NATO-ya daxil oldu. 1994-cü ilin mayında H.Əliyev Azərbaycan Respublikasının NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində iştirakı haqqında sazişi imzalamışdır. 1999-cu ildə Macarıstan, Polşa və Çexiya NATO-ya daxil oldular. Litva, Latviya və Estoniyanın da bu bloka qəbulu gündəlikdədir. NATO-nun iqamətgahı Brüsseldədir (Belçika).

**natural təsərrüfat** - istehsal məhsulunun satış məqsədi ilə deyil, şəxsi istifadə üçün nəzərdə tutulduğu təsərrüfat növü. Hər bir patriarxal ailədə, kənd icmasında, feodal malikanəsində bütün təsərrüfat işlərinin - müxtəlif növ xammalın əldə olunmasından hazır məhsulun istehlakına qədər bütün işlərin yerinə yetirildiyi qədim dövrdə və orta əsrlərdə natural təsərrüfat üstünlük təşkil edirdi. Mübadilənin inkişafı ilə əlaqədar olaraq natural təsərrüfat tədricən öz yerini əmtəə təsərrüfatına verir.



**naturalizasiya** - şəxsin başqa dövlətin təbəəliyinə keçməsi, əcnəbinin hər hansı bir ölkədə vətəndaşlıq hüququ alması.

**neandertal adamı (insanı)** - ən qədim insan növlərindən biri. Onun skelet qalıqlarının tapıldığı vadinin - Almaniyadakı Neandertal vadisinin adı ilə



downloaded from KitabYurdu.org

adlandırılmışdır. Neandertallar 200 - 35 min il əvvəl yaşamışlar və antropoloqların fikrincə, "ağıllı insan"ın əcdadı və ya müstəqil növü olmuşlar.

**Nefertiti** - e.ə. XIV əsr Qədim Misir hökmdarı, firon IV Amenhotepin (Exnatonun) arvadı. Təxminən 100 il əvvəl arxeoloqlar qədim Axetaton şəhərinin emalatxanasında çariça Nefertitinin büstünü tapdıqdan sonra bu qadının gözəlliyi haqqında geniş məlumat əldə edildi.



**neolit** (yun. "yeni daş") - daş dövrünün üçüncü mərhələsi. Neolit mezolitdən sonra başlayır və e.ə. VII - VI minillikləri əhatə edir. Neolit dövründə istehsal təsərrüfatı meydana gəlir. Neolit ilk mərhələsi eneolit dövrü adlanan metal dövrü ilə əvəz olunur.

**Neptun** - Qədim Roma mifologiyasında dəniz allahı. Qədim yunanlardakı Poseydona müvafiqdir.

**Nərimanov** Nəriman Kərbəlayı Nəcəf oğlu (2 aprel 1870 - 19 mart 1925) - Azərbaycan və sovet dövlət və partiya xadimi, yazıçı və publisist. Tiflisdə xırda tacir ailəsində anadan olmuşdur. 1890-cı ildə Qori müəllimlər seminariyasını bitirdikdən sonra Tiflis quberniyasının Qızılhacılı kəndində müəllim işləmişdir.



1908-ci ildə isə Nərimanov Novorossiya (Odessa) universitetinin tibb fakültəsini bitirmişdir. Müəllim, sonra isə həkim işləmişdir. Bakıda müsəlman kütlələri üçün ilk xalq qiraətxana-kitabxanasının yaradıcısı, Azərbaycan və rus dili dərsliklərinin müəllifi, Qoqolun "Müfəttiş" komediyasının tərcüməçisidir. Bir neçə bədii əsərin müəllifidir; bunlardan "Nadir şah" dramını, "Bahadır və Sona" romanını, "Pir" povestini göstərmək olar. 1905-ci ildə "Hümmət" təşkilatına daxil olmuş, 1905 - 1907-ci illər inqilabı dövründə sosial-demokrat mətbuatında məqalə və felyetonlarla çıxış etmiş, RSDFP-nin proqramını Azərbaycan dilinə çevirmişdir. 1909-cu ildə həbs edilmiş və 5 illiyə Həştərxana sürgün olunmuşdur. 1917-ci ildə "Hümmət" qəzetinə redaktorluq etmiş, "Hümmət" təşkilatının sədri və RSDF(b)P Bakı Komitəsinin üzvü seçilmişdir. 1918-ci ilin aprelindən Bakı XKS şəhər təsərrüfatı komissarı olmuşdur. 1919-cu ildən RSFSR Xarici İşlər Xalq Komissarlığı Yaxın Şərq bölməsinin müdiri, sonra isə milli məsələlər üzrə xalq komissarının müavini təyin edilmişdir. 1920-ci ilin aprelindən Müvəqqəti Hərbi-İnqilab Komitəsinin sədri, 1921-ci ildən Azərbaycan Xalq Komissarları Sovetinin (XKS) sədri olmuşdur. Beynəlxalq Genuya konfransında sovet nümayəndə heyətinin üzvü kimi iştirak etmişdir. 1922-ci ilin dekabrında Nərimanov SSRİ MİK-in dörd sədrindən biri seçilmişdir. O, ÜİK(b)P MK Qafqaz bürosunun üzvü, Zaqafqaziya Ölkə Partiya Komitəsinin, habelə Azərbaycan Kommunist Partiyası Rəyasət Heyətinin üzvü olmuşdur. RK(b)P-nin XII qurultayında RK(b)P MK üzvlüyünə namizəd seçilmişdir. Moskvada Qızıl meydanda dəfn edilmişdir.



downloaded from KitabYurdu.org

**nəsil, nəsil (qəbilə) icması** - başlanğıcını bir ümumi əcdaddan götürən, birlikdə yaşayıb-işləyən, ümumi əmlakı olan qohumlar kollektivi. "Ağıllı insan"ın meydana gəlməsi ilə yaranır. Qəbilə icması insan sürüsündən daha çox möhkəm və mütəşəkkil idi.

**Nəsil şəcərəsi** - qəbilə, nəsil, sülalə daxilində əcdadların özəkdə, nəsillərin isə budaqlarda göstərilməsi ilə qohumluq münasibətlərinin ağac şəklində təsviri.

**Nəsimi İmadəddin** (1369 - 1417) - böyük Azərbaycan lirik şairi. Şamaxıda anadan olmuş, gözəl təhsil almış və üç dildə -Azərbaycan, fars və ərəb dillərində



yazıb-yaratmışdır. Nəsimi insanın əhəmiyyətini, onun düşüncəsini yüksək dəyərləndirmiş, təbiəti vəsf etmişdir. Nəsiminin canlı Azərbaycan xalq dilində yazılmış şerləri Azərbaycan ədəbi dilini yeni bədii üsul və obrazlarla, şer vəznləri ilə zənginləşdirmişdir. Nəsimi yaradıcılığında özünün də mənsub olduğu hürufilik ideyaları təsvir olunmuşdur. Nəsiminin mühüm əsərlərindən biri şerlər toplusundan ibarət olan divanıdır. Bu divanında onun farsca beş minədək şeri vardır. Nəsiminin şerləri Kiçik Asiyada, Suriya, İraq və Mərkəzi Asiyada yaxşı məlum idi. Onun əzablı ölümü də hürufizmlə bağlı idi. Suriyanın Hələb şəhərində açıq meydanda müflinin nəzarəti ilə Nəsiminin diri-diri dərisi soyulmuşdur.

**Nəvvab Mir Möhsün** (1833 - 1918) - istedadlı Azərbaycan rəssamı, xəttat, musiqi nəzəriyyəçisi, şair, din xadimi. Müstəvi-dekorativ ornamentli divar naxışları, güllər, quşların təsviri olan və həcmi modelləşdirmə cəhdli parlaq şəkillər onun rəsmləri üçün xarakterikdir. Əsas əsərləri miniaturlər və özünün əlyazma şəklində olan "Bəhr ül-həzən" ("Qəm dəryası", 1864) kitabına çəkdiyi illüstrasiyalar, həmçinin "Teymurun portreti", "Quşlar", "Çiçəklər", "Qızılgül və bülbül" rəsmləridir. Nəvvab Avropa rəssamlıq metodlarını qədim miniatür sənəti ilə əlaqələndirməyə səy göstərirdi. XIX əsrin 70-ci illərində Nəvvabın təşəbbüsü ilə Qarabağda "Məclisi-fəramuşan" adlı ədəbi məclis (cəmiyyət) fəaliyyətə başlamışdı. Azərbaycan tarixi üzrə mühüm əsəri olan "1905 – 1906-cı illərdə erməni - müsəlman davası" kitabının nəşrinə (1993) yalnız SSRİ-nin dağılmasından sonra icazə verilmişdir. Nəvvab 1913-cü ildə Bakıda muğamlara həsr olunmuş "Vüzuhul-ərqam" ("Rəqəmlərə şərhlər") adlı kitab nəşr etdirmişdir.

**Niderland burjua inqilabı** - Niderlandda baş vermiş burjua inqilabı (1566 - 1609). Bu dövrdə Niderlandın Antverpen şəhəri dünya ticarətinin zəngin mərkəzinə çevrilir. XVI əsrdə Niderlanddan İspaniya xəzinəsinə daxil olan vergi onun Amerikadakı müstəmləkələrindən gələn gəlirdən dörd dəfə artıq idi. İnqilab feodalların ağalığına və İspaniyanın Niderlanddakı müstəmləkə zülmünə qarşı yönəlmişdi. Kalvinizm bayrağı altında keçən bu inqilabda varlanmış burjuaziya və xalq kütləri ispan ağalığının və feodal zorakılığının, varlı şəhərlilər isə zadəganlarla birlikdə (Oranlının başçılığı ilə) ispan rejiminin ifratçılığına qarşı mübarizə aparırdılar. İnqilabın əsas hadisələri: 1566 - 67-ci illər xalq üsyanı; 1567-ci ildə hersoq Albanın başçılığı ilə ispan cəza qoşunlarının Niderlanda daxil olması



downloaded from KitabYurdu.org

və xalq tərəfindən "qanlı şura" adlandırılan "Qanunsuzluqlar haqqında işlər üzrə şura"nın yaradılması; 1572-ci ildə şimal əyalətlərində ümumxalq üsyanı, Brill limanının gözlər tərəfindən tutulması; 1576-cı ildə cənub əyalətlərində üsyanın başlanması; 1579-cu ildə Utrext uniyasının bağlanması; 1538-85-ci illərdə İspaniyanın cənub əyalətlərini təkrar özünə tabe etdirməsi; 1585 - 1609-cu illərdə Niderlandın İngiltərə və Fransa ilə ittifaqda İspaniyaya qarşı müharibələr aparması. Niderland burjua inqilabı şimal əyalətlərinin ispan ağalığından azad olması və orada Birləşmiş Əyalətlər Respublikasının yaranması ilə başa çatdı. Niderlanddakı inqilab tarixdə qələbə çalmış ilk burjua inqilabı idi.

**nimfalar** - yunan mifologiyasında dağlarda, meşələrdə, dənizlərdə, bulaqlarda yaşayan təbiət ilahələri. Zevsin qızları hesab olunur, bir çox yerlərdə onlara sitayiş edilirdi.

**Nineviya (Neynəva, Ninəva)** – Assuriyanın paytaxtı. Ətraf xalqlar Nineviyanı "Aslanlar yuvası" adlandırırdılar. E.ə. 612-ci ildə Nineviya başda hökmdar Kiaksar olmaqla Midiyanın və Nabopalassar olmaqla Babilistanın müttəfiq qoşunları tərəfindən hücumla alınmış və sonra məhv edilmişdir.

**Nizami Gəncəvi** (təxəllüsü; əsl adı Əbu Məhəmməd İlyas ibn Yusif; 1141 - 1209) - böyük Azərbaycan şairi və mütəfəkkiri. Gəncədə sənətkar ailəsində



dünyaya göz açmış və bütün ömrü boyu öz yaradıcılığı ilə vətəninə bağlı olmuşdur. Nizami Gəncədə rəfli, gözəl təhsil almışdır. Bir şair kimi Nizamiyə də həyatı bilavasitə müşahidə etmək, təbiət və insan haqqında biliyə malik olmaq xas idi. Nizami üçün əsas ilham mənbəyi xalq rəvayətləri idi. Beş poemadan - "Sirlər Xəzinəsi" (1177), "Xosrov və Şirin" (1180), "Leyli və Məcnun" (1188), "Yeddi gözəl" (1196) və "İsgəndərnamə"dən (təqr. 1203) ibarət "Xəmsə" ("Beşlik") onun əsas əsəridir. Nizami "İsgəndərnamə"də hamının qanun qarşısında bərabər olduğu ideal cəmiyyəti təsvir edir: burada varlı-kasıb yoxdur, pul heç bir hüquqa malik deyil, hamı ümumi torpaqda çalışır. Şairin lirik divanının da bir hissəsi saxlanışlmışdır. O, zorakılığa və ədalətsizlikliyə qarşı çıxış edirdi. Nizaminin poeziyası məna dərinliyi, dil zənginliyi, böyük bədii ustalığı ilə fərqlənir. Onun poeziyası Yaxın və Orta Şərq Ədəbiyyatına çox böyük təsir göstərmişdir. 1947-ci ildə Nizaminin 800 illik şənliklərinin keçirildiyi günlərdə Gəncədə şairin qəbri üzərində onun mavzoleyi açılmışdır.

**Nizamnamə** - müəssisənin, təşkilatın və ya partiyanın fəaliyyətinin tənzimləyən qaydalar toplusu.

**Nobel mükafatı** – illik beynəlxalq mükafatlar; təsisçisi İsveç kimyaçı – mühəndisi, ixtiraçı və sənayeçi Alfred Bernhard Nobelin şərəfinə belə



adlandırılmışdır. 1901-ci ildən fizika, kimya, fiziologiya və yaxud tibb elm sahələrində ən mühüm ixtiralara, ədəbiyyat əsərlərinə , habelə sülhün möhkəmləndirmək



downloaded from KitabYurdu.org

uğrunda fəaliyyətə görə verilir. 1968-ci ildən isə İsveç Dövlət Bankı özünün 300 ililik münasibətilə iqtisadiyyat elmləri sahəsində işlərə görə də Nobel xatirinə təsis etmişdir.

**Nobellər** – uzunmüddət Rusiyada və Azərbaycanda yaşamış isveçli ixtiraçılar və sənaye sahibkarları: ata, oğullar və nəvə; 1) Emmanuel (1801-72) – sualtı mina ixtira etmişdir. Peterburqda mexaniki zavod tikmişdir; 2) Alfred Bernhard (1833-96) – 1867-ci ildə dinamiti, 1888-ci ildə isə ballistiti (tüstüsüüz barıt) ixtira etmişdir. Partlayıcı maddələr üzrə bir çox müəssisələrin təşkilatçısı və müştərək sahibi. Qardaşı Lüdviqlə birlikdə Bakıda neft sənayesi müəssisəsi yaratmışdır (1879-cu ildən "Nobel qardaşları şirkəti" adlanmışdır). Nobel mükafatlarının təsisçisi; 3) Lüdviq (1831 - 88) - dəzgah konstruktoru, atasının tikdiyi zavodu iri "Lüdviq Nobel" maşınqayırma zavoduna çevirmişdir; 4) Lüdviqin oğlu Emmanuel (1859 - 1932) - 1888-1917-ci illərdə Nobel qardaşlarının Rusiya və Azərbaycanda müəssisələrinə başçılıq etmişdir. 1918-ci ildə İsveçə qayıtmışdır.

**noyon** - orta əsrlərdə əvvəllər monqol ordusunda yüksəkmənsəbli hərbi rəis; sonralar - dünyəvi feodal.

**normanlar** - Qərbi Avropada vikinq tayfalarına verilən ad. Rusiyada varyaqlar adı ilə tanınmışdılar. Skandinav dillərində northman - "şimal adamı" deməkdir.

**nota** - bir dövlətin digərinə rəsmi, diplomatik müraciəti.

**numizmatika** (lat. "numisma" - "sikkə") - sikkələr haqqında elm; zərbxana və pul dövriyyəsini öyrənir. Numizmatika ticarətin və təsərrüfatın inkişafını öyrənməyə kömək edir.

**nümayiş** - ictimai-siyasi əhvalı, tələbləri, etirazı, həmrəyliyi bildirən kütləvi yürüş.

**Nürnberq prosesi** - 1945-ci il noyabrın 20-dən 1946-cı il oktyabrın 1-dək Nümberqdə Beynəlxalq Hərbi Tribunalda bir qrup əsas nasist caniləri üzərində keçirilmiş məhkəmə prosesi. Tribunalın hökmünə əsasən, 12 nəfər cani ölüm cəzasına, qalanların əksəriyyəti isə müxtəlif müddətli həbs cəzasına məhkum edildi. Nürnberq prosesi hərbi caniləri cəzalandıran və təcavüzü ən ağır beynəlxalq cinayət hesab edən ilk beynəlxalq məhkəmə prosesi idi.

**nüvə silahı** - nüvə sursatı, onların hədəfə daşınması və idarə edilməsi vasitələrinin məcmusu. Nüvə silahı kütləvi qırğın silahıdır. Nüvə bombasının partlaması zamanı zərbə dalğası, işıq şüalanması, sirayət edici radiasiya və radioaktiv çirklənmə qırğın təsiri göstərir. Hazırda ABŞ və Rusiyadan savayı, Böyük Britaniya, Fransa, Çin, Hindistan, Pakistan nüvə silahına malikdir.

**Nyuton İsaak** (1643 - 1727) - ingilis fiziki, riyaziyyatçısı, mexanika ve astronomiyanın nəzəri əsaslarının yaradıcısı. Əsas əsərləri "Təbii fəlsəfənin riyazi əsasları" və "Optika"dır. Diferensial və inteqral hesablamanın üsulunu müəyyənləşdirmiş, işıq nəzəriyyəsinin, klassik mexanikanın əsasını qoymuş,



downloaded from KitabYurdu.org

ümumdünya cazibə qanununu ixtira etmiş, səma cisimlərinin hərəkəti nəzəriyyəsini yaratmışdır.

## - O -

**obstruksiya** - 1) parlament tərəfindən müxalif qrup üçün qeyri-məqbul hesab edilən qanun layihəsinin müzakirəsi və qəbulunu pozmaq məqsədi ilə keçirilən etiraz, protest; 2) hər hansı təklifin, tədbirin dayandırılmasına nümayişkaranə şəkildə yönəldilmiş fəaliyyət.

**obyektiv** - hər hansı obyektin özünə mənsub və insan şüurundan asılı olmadan mövcudluğu.

**od** - ilk vaxtlar insanlar vəhşi heyvanlar kimi oddan qorxurdular, lakin 600 - 700 min il əvvəl onlar oddan istifadə etməyi və onu qoruyub saxlamağı öyrəndilər. Od soyuqda adamları qızdırırdı, insanlar qidalarını onun üzərində hazırlayır və onun köməyi ilə vəhşi heyvanlardan müdafiə olunurdular. Bir neçə yüz min il keçdikdən sonra insanların özləri qaşıma, sürtmə və deşmə yolu ilə od əldə etməyi öyrəndilər. Od əldə etməklə ən qədim insanlar heyvanat aləmindən daha da uzaqlaşdılar.

**Odin** - Skandinaviya mifologiyasında əzəmətli şaman və müdrik keyfiyyətləri olan baş allah; müharibə allahı.

**"Odisseya"** - e.ə. VIII əsrdə Homer tərəfindən yaradılmış poema; e.ə. VI əsrdə yazıya alınmışdır. "Odisseya" Odisseyin Troyadan vətəninə - Yunanıstanın qərb sahilində yerləşən İtaka adasına qayıdarkən başına gələn macəralardan bəhs edir.

**odlu silahlar** - lülə kanalındakı döyüş sursatlarını (gülləni, minanı, mərmini) hədəfə atmaq üçün partlayıcı maddələrin (barıt və s.) enerjisindən istifadə olunan silahlar. Orta əsrlərdə və hazırda ən geniş yayılmış partlayıcı maddə Çində ixtira edilmiş barıtdır. XIII əsrdə tüfəng ixtira olunmuş, bambuq gövdələri isə lülə kimi istifadə edilmişdir; elə o vaxtlar da daş və dəmir içliklə doldurulan metal toplar ixtira olunmuşdur.

**Odoakr** - german tayfalarından biri olan skir tayfasının başçısı. 476-cı ildə Qərbi Roma imperiyasının sonuncu imperatoru Romul Avqustul muzdluların, o cümlədən italiklərin qoşulduğu Odoakr tərəfindən devrilmişdi. Hakimiyyətin Odoakr tərəfindən ələ keçirilməsindən sonra Qərbi Roma imperiyasında imperator hakimiyyətinə son qoyuldu və onun ərazisindəki barbar krallıqları nəinki mahiyyətcə, həm də formal olaraq müstəqillik əldə etdilər.

**oğuzlar** - VII - XI əsrlərdə Mərkəzi Asiyada məskunlaşmış köçəri türk tayfaları. XI əsrin ortalarında oğuzların bir hissəsi Qara dənizin şimal sahilləri çöllərinə, digəri isə Səlcuğun nəsli başda olmaqla Ön Asiya ölkələrinə köçmüşdür.



downloaded from KitabYurdu.org

Oğuzlar türkmənlərin, qaraqalpaqların, azərbaycanlıların, türklərin və qaqauzların etnogenezində mühüm rol oynamışlar.

**"Oğuznamə"** - türk tayfalarının əfsanəvi mənşəyi və onların ulu babası Oğuz xan haqqında epik dastan. "Oğuznamə"nin XIII - XIV əsrlərə aid ən qədim versiyası XV əsr uyğur əlyazmasında əksini tapmışdır.

**Oktavian** Avqust (e.ə. 63 - eramızın 14-cü ili) - Qay Yuli Sezarın bacı nəvəsi, e.ə. 27-ci ildən Roma imperiyasının imperatoru. Sezar öz vəsiyyətində Oktavianı oğulluğa götürdüyünü bildirmiş və onu özünün bütün əmlakının varisi elan etmişdir. Sezarın ölümündən sonra senatda Siseronun Antoniyə qarşı rəhbərlik etdiyi müxalifəti gizli şəkildə dəstəkləmişdir. E.ə. 43-cü ildə Mutin şəhəri yaxınlığında konsulların və Oktavianın qoşunları Antoninin qoşunlarına ağır zərbə endirmişlər, sonra isə qoşunların təzyiqi altında bir-birinə nifrət edən Antoni ilə Oktavian ittifaqda birləşmişlər. E.ə. 42-ci ildə Filippa yaxınlığındakı döyüşdə Oktavian Antoni ilə birlikdə Brut və Kassinin qoşunlarını darmadağın etdi. Bundan sonra baş vermiş əyalət bölgüsü zamanı Oktavian Roma dövlətinin qərb vilayətlərinin, Antoni isə şərq vilayətlərinin idarəçiliyini aldı. E.ə. 31-ci ildə Oktavianın donanması Aksi burnu yaxınlığında Antoninin donanmasını məğlub etdi. E.ə. 30-cu ildə Antoni və Kleopatraya qarşı Misirin zəbti ilə nəticələnən müharibədə qələbə çaldıqdan sonra Oktavian Romanın və onun bütün torpaqlarının təkbaşına hökmdarı oldu. E.ə. 27-ci ildə Oktavian prinseps (birinci senator), bütün Roma legionlarına komandanlıq edən yeganə prokonsul elan olundu. O, əvvəllər yalnız allahların ünvanına deyilən Avqust ("Müqəddəs") rütbəsi aldı. Roma dövləti əvvəlki kimi respublika adlanırdı: hər il konsul, xalq tribunu və başqa vəzifəli şəxsləri seçən xalq yığıncaqları toplanırdı, senat öz iclaslarını keçirirdi. Lakin bütün bu respublika təsisatları ya Oktavianın özünü, ya da onun göstərdiyi adamları seçirdi. Oktavian Avqust bütün ömrü boyu sui-qəsdlərdən qorxmuşdur; elə buna görə də senatda həmişə onu sədaqətli adamları əhatə edərdi, paltarının altından isə zireh geyinərdi. Oktavian özünü qorumaqdan ötrü hakimiyyətinin başlıca dayağı olan pretorian qoşunlarını təşkil etdi. Hərçənd Oktavianın dövründə Romada respublika vəzifələri qalmaqdaydı, əslində isə onun burada imperiya adlandırılan təkhakimiyyətliliyi bərqərar olmuşdu.

**oliqarxiya** - bütün dövlət hakimiyyətinin bir ovuc varlıya mənsub olduğu idarəetmə formalarından biri (Qədim Yunanıstan polislərində iri quldarların oliqarxiyası; iri feodalların oliqarxiyası). XIX - XX əsrlərin aparıcı kapitalist dövlətlərində maliyyə oliqarxiyası dövlət aparatını özünə tabe edir, dövlətin daxili və xarici siyasətini müəyyənləşdirir, xalqın əksəriyyəti üzərində siyasi və iqtisadi ağalıq edir.

**Olimp** - Orta Yunanıstanda dağ. Qədim yunan mifologiyasında Olimp - başda Zevs olmaqla bütün allahların yaşadıqları dağdır. Buna görə də qədim yunan allahlarını Olimp allahları adlandırırdılar.



downloaded from KitabYurdu.org

**Olimpiya Oyunları** - Qədim Yunanıstanda - Peloponnesdə - Olimpiya şəhərində Olimpiyalı Zevsin şərəfinə keçirilən ümum-yunan bayramı və yarışları - oyunları. Oyunlar dörd ildən bir keçirilirdi. Yarışlara ikitəkərli arabalarda yürüş, qaçış, tullanma, güləş, disk, nizə atmaq, əlbəyaxa döyüş, musiqi yarışları daxil edilirdi. Qadınların Olimpiya oyunlarına gəlməsi edam edilmə qorxusu ilə qadağan olunmuşdu. Olimpiya Oyunlarının keçirildiyi dövrdə Yunanıstanda bütün müharibələr məcburən dayandırılırdı. Olimpiya Oyunlarının qaliblərinə ümumyunan qəhrəmanı kimi ehtiram edilir, onlar dəfnə çələngi ilə təltif olunur, vətənlərində isə şərəflərinə heykəlləri qoyulurdu. Yunanlar il hesabını, rəvayətə görə, e.ə. 776-cı ildə olmuş birinci Olimpiya Oyunlarından aparırdılar.

**Olimpiyalı Zevsin heykəli** - Olimpiya Oyunlarının keçirildiyi Yunanıstanın Olimpiya vilayətinin əsas müqəddəs yeri olan Zevs məbədində e.ə. V əsrdə Fidi tərəfindən yonulmuşdur. Olimpiya şəhərinin mərkəzi meydanında mərmər suvaq çəkilmiş və müxtəlif heykəllərlə bəzədilmiş əzəmətli məbəd ucalırdı. Məbədin daxilində döşəmə möhtəşəm mozaika ilə bəzədilmişdi. Məbədin içərisində böyük qırmızı pərdə arxasında qədimdə "dünyanın yeddi möcüzəsi"ndən biri hesab olunan Olimpiyalı Zevsin nəhəng heykəli dururdu. Olimpiyalı Zevsin heykəlini görməyəni Yunanıstanda bədbəxt adam hesab edirdilər. Antik müəlliflərin məlumatına görə, Zevs qızıl və fil sümüyü ilə bəzədilmiş taxtda əyləşmişdi. Onun gövdəsinin yuxarı hissəsi çılpaq, aşağı hissəsi isə zəngin paltara bürünmüşdü. Zevsin bədəni və başı ağacdan düzəldilmiş və üzəri fil sümüyü ilə örtülmüşdü. Zevsin bir əlində Nika - qələbə ilahəsinin heykəli, o biri əlində isə Zevsin müqəddəs quşu - qartalın təsviri ilə bəzədilmiş jezl - hökmdarlıq əsası var idi. Zevsin başını qızıldan düzəldilmiş zeytun yarpaqları çələngi bəzəyirdi. Taxtda əyləşmiş Zevsin başı az qala məbədin tavanına toxunurdu, onun hündürlüyü, görünür, 17 m-ə çatırmış. Sarımtıl-çəhrayı rəngli fil sümüyü Zevsin simasına bir həyatilik verirdi. Təsadüfi deyildir ki, Zevsin Fidi tərəfindən düzəldilmiş abidəsini görmək şərəfinə nail olan hər bir şəxs söyləyirmiş ki, onun qabağındakı allahın təsviri deyil, allahın özü imiş. Olimpiyalı Zevsin heykəlinin hazırlanmasından təxminən min il sonra - eramızın V əsrində Bizans imperatoru II Feodosinin göstərişi ilə Olimpiyadan Konstantinopola aparılmış, orada isə sarayda baş vermiş yanğından məhv olmuşdur. Heykəlin təsviri yalnız yazılı mənbələrdə və qədim pullar üzərində qalmışdır.

**OPEK** (Neft İxrac edən ölkələr Təşkilatı) - Asiya, Afrika və Latın Amerikasının neft ixrac edən əsas dövlətlərinin 1960-cı ildə yaradılmış təşkilatı; qərargahı Vyanada (Avstriya) yerləşir. OPEK-in başlıca məqsədləri: iştirakçı ölkələrdə çıxarılan neftin gəlirinin artırılması, konsessiya sazişlərində mövcud qeyri-bərabər şərtlərin dəyişdirilməsi, duru yanacaq ehtiyatlarının tez bir zamanda tam emalının qarşısını almaq, milli neft təsərrüfatının inkişafını hərtərəfli dəstəkləmək. OPEK - neft istehsal edən ölkələrin aparıcı istehlakçı dövlətlərlə qeyri-bərabər münasibətlərinin yenidən qurulması, həqiqi iqtisadi müstəqillik,



downloaded from KitabYurdu.org

beynəlxalq əlaqələrdə diktənin aradan qaldırılması uğrunda mübarizə alətidir. OPEK-in ali orqanı -direktorların konfransıdır.

**opportunizm** - ikiüzlülük, hər bir şəraitə uyğunlaşma, sazişçilik.

**Oranlı I Vilhelm (Dinməz Vilhelm; 1533 - 84)** - Nassau qrafı, şahzadə, Niderland burjua inqilabı xadimi, antiispan zadəgan müxalifətinin rəhbəri. İspan casusu tərəfindən öldürülmüşdür.

**Oranlı III Vilhelm** (1650 - 1702) - 1674-cü ildən Niderland ştathalteri (hakimi, canişini), 1689-cu ildən İngiltərə kralı. "Şanlı inqilab" (1688 - 89) adlandırılan dövlət çevrilişi zamanı İngiltərə parlamenti tərəfindən kral taxtına dəvət olunmuşdur. Arvadı II Mariya Stüartla birlikdə İngiltərəni idarə etmişdir.

**orden** - 1) fərqlənmə nişanı, xüsusi xidmətlərə görə dövlətin fəxri mükafatı; 2) Roma papası tərəfindən təsdiq olunmuş nizamnaməyə əsasən fəaliyyət göstərən monax ordenləri (VI əsrdən); məs.: yezuitlər ordeni. Dini-cəngavər ordenləri (məsələn: Tevton ordeni) də bunlara aiddir; 3) bəzi gizli cəmiyyətlərin, məsələn, masonlar ordeninin adı.

**Ordubadi** Məmməd Səid (1872 - 1950) - istedadlı yazıçı və jurnalist, ilk Azərbaycan romanlarının müəllifi. Ordubadda müəllim ailəsində anadan olmuşdur. 7 yaşında ikən atasını itirmiş və barama açma fabrikində işə girmişdir. Burada o, satirik şerlər yazmağa başlamışdır. Ordubadi "Molla Nəsrəddin" jurnalı, "Şərqi-Rus" qəzeti və digər nəşrlərlə əməkdaşlıq etmişdir. 1907 - 11-ci illərdə Ordubadi İran inqilabında fəal iştirak etmiş və bir çox illərdən sonra onun epizodları "Dumanlı Təbriz" romanında əks olunmuşdur. 1913-cü ildə Ordubadi çar hakimiyyəti tərəfindən həbs edilmiş, həbs cəzasından sonra Saritsın (indiki Volqoqrad) şəhərinə sürgün olunmuşdur. 1918-ci ildə Saritsında Qırmızı Ordu sıralarına daxil olmuş, siyasi şöbədə işləmiş, sonralar Həştərxanda və Şimali Qafqazda çalışmışdır. Ordubadinin ən məşhur əsərləri "Bədbəxt milyonçu, yaxud Rzaqulu xan Firəngiməab"; 1914), "Döyüşən şəhər" (1938), "Gizli Bakı" (1940), "Qılınc və qələm" (1946 - 48) romanlandır. Ordubadinin ən böyük əsəri 4 cildlik "Dumanlı Təbriz" (1933-48) romanıdır.

**oriyentasiya** - 1) hər hansı bir problemdən baş açmağı bacarmaq; 2) siyasətdə müəyyən yönüm (məs.: amerikayönümlü və ya rusiyayönümlü siyasət).

**Oroys** (və ya Oris) - Qafqaz Albaniyasının e.ə. I əsrdə hakimiyyətdə olmuş çarı. Adı antik mənbələrdə çəkilən ilk alban çarı. Alban çarı Oroysun dövründə - e.ə. 66-cı ildə Pompeyin başçılığı ilə romalılar Albaniyaya soxuldular. Pompey qışı Kür vadisində keçirmək və yazda fəal hərbi əməliyyatlara başlamaq fikrində idi. Pompeyin planlarını başa düşən Oroys qərara gəldi ki, yazın gəlişini gözləməsin; o, təşəbbüsü ələ almaq və düşməni parçalayıb məğlub etmək məqsədi ilə özü romalılara hücum etdi. Oroys romalılara qarşı 40 minlik qoşun çıxardı. E.ə. 66-cı ilin dekabrında Kür sahilində - İberiya ilə sərhədin yaxınlığında qanlı döyüşlər baş verdi. Albanlar üç möhkəmləndirilmiş düşərgədə yerləşən Roma qoşunlarına hücum etdilər. Düşərgələrdən birinin yaxınlığında albanlar düşməni sıxışdırıb



downloaded from KitabYurdu.org

xəndəyədək qovdular. Amma bu savaşda uğur Pompeyin sayca çox olan, yaxşı silahlanmış və intizamlı ordusuna qismət oldu. Romalılar albanları geri çəkilməyə məcbur etdilər. Vaxt qazanıb qüvvələri səfərbər etmək məqsədi ilə Oroys Pompeylə barışıq bağladı. Bundan sonra Pompey İberiya ilə müharibəyə başladı və bu zaman albanlar romalılara arxadan zərbə endirdilər. Pompey iberlərlə müharibəni bitirdi və e.ə. 65-ci ildə yenidən Qafqaz Albaniyasına soxuldu. Albanlar İberiya və Albaniya arasında böyük məsafədə sərhədə çəpər çəkdilər. Kürü keçən Pompey 10.000 tuluq su götürüb səhra ilə - dolayı yolla getdi. Romalılar öldürmək hədəsi ilə əsir albanları məcbur etmək istədilər ki, onların qoşunlarını daha qısa yolla aparsınlar. Amma hədədən qorxmayan əsirlər düşmən qoşunlarını ən uzun və çətin yolla apardılar və bununla da Roma legionlarının yürüşünü ləngitdilər. Kürün sol sahilində romalılar alban çarı Oroysun qardaşı Kozisin başçılıq etdiyi qoşunları məğlubiyyətə uğratdılar. Bu savaşda alban qoşunlarının darmadağın edilməsindən sonra romalılar Oroysla sülh bağladılar. Pompey ölkənin daxilinə - Xəzər dənizi sahillərinə doğru irəlilədi. Amrna alban xalqının davam edən müqavimәti nəticəsində Pompey Xəzərə çatmağa 2 günlük yol qalanda Qafqaz Albaniyasından geriyə qayıtmağa məcbur oldu.

**ortodoks** - müəyyən təlimə (doktrinaya, baxışlar sisteminə) dönmədən riayət edən; mövcud təlimə onun ilkin başlanğıcında olduğu kimi və ya ümumi qəbul olunmuş qaydada ciddi əməl edən.

**Osiris** – Qədim Misir mifologiyasında təbiətin məhsuldar qüvvələrinin, sonralar - o biri dünyanın çarı. Osiris ilk zamanlardan Yerdə hökmranlıq edən dörd allahdan biri idi. Misirdə çarlıq edən Osiris insanları vəhşi həyat sürməkdən və insan yeməkdən çəkindirmiş, onlara taxıl ekmək, üzüm bağları salmaq, çörək bişirmək, pivə və çaxır düzəltmək, habelə mis və dəmir filizləri çıxarıb emal etməyi öyrətmişdi. O, insanlara həkimlik etməyi, şəhərlər tikməyi öyrətmiş, allaha sitayişi yaratmışdır. Osiris haqqında əfsanədə rəvayət olunurdu ki, şor allahı Set - Osirisin qardaşı hiylə işlədərək bitkilərin və əkinçiliyin himayəçisi Osirisi öldürmüşdü, Osirisin oğlu Qor isə Setə qalib gəlmiş və öz gözünü atasına verməklə onu diriltmişdi. Osiris diriləndən sonra Yer üzərində qalmaq istəməmiş və o biri dünyada ölmüş insanların hökmdarı və ruhlarının hakimi olmuşdur. O, ölənlərin ürəklərini həqiqət ilahəsi Maatın mizan-tərəzisində çəkərmiş. Osiris allahların iradəsi xilafına olanlara qarşı çox amansız imiş və onların ürəklərini heybətli məxluqa yedizdirərmiş, bəraət qazananlar isə "cənnət çölləri" İarəyə düşərmiş.

Adətən Osirisi ağaclar arasında, ya da üzüm tənəkləri ilə əhatələnmiş şəkildə təsvir edərmişlər. Onun bədənini həmişə yaşıl rənglə boyayarmışlar. Hesab olunurdu ki, Osiris bitki aləmi kimi hər il ölür və sonra yenidən həyata qayıdır. Bəzən məzarlarda parça üzərinə pərinc və ya arpa səpilmiş Osirisin torpaq fiqurunu qoyurdular: əgər Osiris bitki ilə cücərərdisə, onda ölənlər də dirilərmiş. Firon da ölümündən sonra Osirisə bənzədilərmiş.



downloaded from KitabYurdu.org

Osirisə sitayiş Misir tərəfindən tutulmuş ərazilərdə, antik dövrdə isə Qərbi Asiya və Avropa ölkələrində geniş yayılmışdı.

**Osman** - Əməvilər nəslindən olan üçüncü raşidi xəlifə (644 - 656). Məhəmməd peyğəmbərin ilk tərəfdarlarından biri və kürəkəni. Osmanın dovründə Ərəb xilafətinin ərazisi xeyli genişlənmişdir. Osmanın tapşırığı ilə Quranın vahid rəsmi nüsxəsi tərtib olunmuşdur. Mədinədə onun hakimiyyətinə qarşı başlanmış iğtişaşlar zamanı öldürülmüşdür.

**Osman I** Qazi bəy -1299/1300-cü illərdə türk sultanları sülaləsinin və Osmanlı imperiyasının əsasını qoymuşdur. 1324 və ya 1326-cı ilədək hakimiyyətdə olduğu güman edilir.

**Osmanlı imperiyası** - sultan Türkiyəsinin adı. Osman Qazi tərəfindən XIII əsrin sonlarında Kiçik Asiyanın şimal-qərbində, səlcuq türklərinin dağılmış dövlətinin ərazilərində yaradılmışdır. Osmanın hakimiyyəti altında birləşən tayfalar



Osmanlı türkləri adlanmağa başladılar. Balkan ölkələrinin zəifliyinə əmin olan türklər Bizans mülklərinin xeyli hissəsini tutdular. Türklər 1351-ci ildə Dardaneli keçərək boğazın qərb sahilində möhkəmləndilər. 1362-ci ildə Osmanlı qoşunları Adrianopolu tutub Ədirnə adlandırdılar və öz paytaxtlarını buraya köçürdülər. Türk sultanı Bizans imperatorunu özünün vassalına çevirdi. 1389-cu ildə türklər Kosovo çölündəki savaşda serb qoşunlarını darmadağın etdilər və Serbiya onların hakimiyyəti altına keçdi. 1396-cı ildə türklər Bolqarıstanı tabe elədilər. Elə həmin ildə macar kralının başçılığı ilə Bolqarıstana soxulan xaçlı qoşunları da türklər tərəfindən darmadağın olundu. Sonra sultan Bəyazid Konstantinopolu mühasirəyə aldı, lakin tuta bilmədi. Yalnız 30 ildən sonra II Mehmet 100 minlik qoşun yığıb Konstantinopolu mühasirəyə aldı. Bu dövrdə türklər bütün Avropada ən güclü artilleriyaya malik idilər. 1453-cü il mayın 29-da Osmanlı türkləri misilsiz şücaətlə Konstantinopolu tutdular və bu dövrdən şəhər İstanbul adı ilə Osmanlı imperiyasının paytaxtı oldu. Osmanlı türkləri 1475-ci ildə Krımı tutdular; Krım xanı Qara dənizin tam ağasına çevrilən türk sultanının vassalı oldu. Daha çox genişləndiyi dövrdə (XVI əsrin ikinci yarısı - XVII əsrin 70-ci illəri) Türkiyənin özündən əlavə, bütün Balkan yarımadası, Şimali Afrikanın xeyli hissəsi (Mərakeşdən başqa), Mesopotamiya, Ərəbistan yarımadası və s. imperiyaya daxil idi. Osmanlıların fəthləri XVI əsrin sonlarından etibarən qurtarır və nəticədə bütövlükdə hərbi qənimətdən asılı olan xəzinənin gəlirləri azalır, vergilər və mükəlləfiyyətlər isə artmağa başlayır. Hərbçi feodallar xidmətləri müqabilində aldıqları mülkləri öz mülkiyyətlərinə çevirməyə başlayırlar. Onların bir çoxu hərbi xidmətdən yayınır və Osmanlı ordusunun tərkibi seyrəlir. Bu dövrdən etibarən



downloaded from KitabYurdu.org

qoşunu əsasən yeniçərilər təşkil edirlər. Beləliklə, Osmanlı imperiyasının tədrici tənəzzülü başlanır.

Siyasi quruluşuna görə Osmanlı imperiyası istibdad hakimiyyəti xarakteri daşıyırdı. Sultan qeyri-məhdud hakimiyyətə malik idi, dövlətdə ikinci şəxs isə baş vəzir hesab olunurdu. Türkiyədə təhkimçilik hüququ yox idi, çünki kəndlilər istifadə etdikləri torpaq üçün yalnız pul şəklində töycü ödəyirdilər. Pul sultana, eləcə də yerlərdə onun hakimiyyətini təmsil edən bəylərbəyiyə ödənilirdi. Osmanlı feodalları vergi ödəyicilərini rəiyyət - bir hökmdarın idarəsinə tabe olan əhali, təbəə adlandırırdılar.

XIX əsrin 70-ci illərində Osmanlı imperiyası Avropa dövlətlərinin yarımmüstəmləkəsinə çevrilməyə başladı. "Şərq məsələsi" bütün kəskinliyi ilə qarşıya çıxdı. 1877 - 78-ci illər Rusiya - Türkiyə müharibəsi nəticəsində Osmanlı imperiyası Balkan yarımadasındakı torpaqlarının xeyli hissəsindən məhrum oldu. 1908-ci ildə Osmanlı imperiyasında "gənc türklər" inqilabı baş verdi, nəticədə sultan II Əbdülhəmidin istibdad rejimi devrildi və konstitusiyalı monarxiya quruldu, amma feodal münasibətləri aradan götürülmədi. 1911 - 12-ci illərdə İtaliya Osmanlı imperiyasından Liviyanı zəbt etdi. Osmanlı imperiyası Balkanlardakı digər torpaqlarını Balkan müharibələri (1912 - 13) nəticəsində itirdi. 1914-cü ilin oktyabrında Osmanlı imperiyası Almaniyanın tərəfində Birinci Dünya müharibəsinə qoşuldu. Osmanlı imperiyası Birinci Dünya müharibəsində məğlub olduqdan sonra parçalandı və 1922-ci ildə kamalçı inqilab nəticəsində tamam məhv edildi.

**Ost-Hind** - Vest-Hinddən fərqli olaraq Hindistanın və Cənub-Şərqi Asiyanın bir sıra digər ölkələrinin ərazilərinin adı.

**Ost-Hind şirkəti** - 1) İngiltərə Ost-Hind ticarət şirkəti (1600 - 1848). Hind və Sakit okeanların sahilləri boyunca yerləşən ölkələrlə, o cümlədən Ost-Hind ilə ticarət etmək məqsədi ilə yaradılmışdır. Sipahilərdən və müstəmləkə idarəçiliyi üzrə məmurlardan ibarət orduya malik olan şirkət tədricən İngiltərənin Hindistandakı torpaqlarını idarə eləmək üzrə dövlət təşkilatına çevrilmişdir; 2) Niderland inhisarçı ticarət şirkəti (1602 - 1798). Rəqabət aparan bir neçə şirkətin birləşməsi nəticəsində meydana gəlmişdir. Cənub-Şərqi Asiyada tutduğu böyük ərazilərdə (Yava adasında və s.) inhisarçı ticarət, dənizçilik, faktoriyalar yerləşdirmək və s. hüququna malik idi; 3) Fransa ticarət şirkəti (1664 - 1719). Hindistanla ticarəti inhisara almaq məqsədi ilə yaradılmışdı. Hindistan sahillərində bir neçə faktoriyası olmuşdur. Kral hökumətinin rəhbərliyi altında idi. XVIII əsrin əvvəllərində Fransanın bütün xarici ticarətini inhisara alan yeni hind şirkətinə qatılmışdı.

**Osvensim** (alm. Auşvits) - Polşada şəhər; 1940 - 45-ci illərdə onun yaxınlığında alman-faşist həbs düşərgəsi yerləşmişdir. Osvensimdə 4 mln.-a qədər adam məhv edilmişdir. 1944-cü ilin payızında hərbi əsirlərin qaldırdıqları üsyan



downloaded from KitabYurdu.org

amansızcasına yatırıldı. 1945-ci il yanvarın 27-də Osvensim sovet qoşunları tərəfindən azad edildi. Keçmiş həbs düşərgəsinin yerində muzey yaradılmışdır.

**otkup** - bax: iltizam.

**oturaq** həyat tərzi - daim bir yerdə yaşamaqdan ibarətdir. 10 min il əvvəl əkinçiliyin meydana gəlməsi ilə yaranır. Əkinçilər həmişə öz tarlalarının yanında yaşamalı idilər. Oturaqlığa keçid sənətkarlığın inkişafına səbəb oldu.

**ovçuluq** - vəhşi heyvanların öldürülməsi və ətinin qidada istifadə olunması.



Ovçuluq yığıcılıqla yanaşı, ən qədim insanların ilk məşğuliyyətlərindən biri idi. Ovçuluq mənimsəmə (istehlak) təsərrüfatı formasına aiddir.

**oykumen** (yun. "məskən salıram") - insanların məskunlaşdığı yerlərin məcmusu. Yerin yunanlara məlum olan hissəsinə (Avropa, Kiçik və Ön Asiya, Hindistan, Şimali Afxika) şamil olunurdu.

**ozanlar** - türk oğuz xalqlarında və Şərq ölkələrində xalq nəğməkar rəvayətçiləri.

## - Ö –

**Ödənc** - əsirlikdən azadolma və ya əmlakın geriyə qaytarılması üçün verilən ödənc. Orta əsrlərdə vassallar öz senyorlarını əsirlikdən ödənclə azad etməyə borclu idilər.

**Ömər** - Ərəb xilafətində ikinci raşidi xəlifə (634 - 644). Məhəmməd peyğəmbərin yaxın silahdaşı və qayınatası. Ömərin dövründə böyük fəthlər nəticəsində Suriya, Misir, İraq, İran və s. xilafətə birləşdirilmişdir. 642-ci ildə Nəhavənd savaşında İranın Sasanilər dövlətinin varlığına son qoymuşdur. Bu səbəbdən sui-qəsd təşkil edən İran feodalları əsir düşmüş qul vasitəsilə onu öldürmüşlər. Hazırda İranda Öməri öldürən bütpərəst qulun şərəfinə tikilən türbə ziyarətgaha çevrilmişdir.



downloaded from KitabYurdu.org

## - P –

**padşah** - bax: şah.

**pakt** (lat. "pactum" - "saziş") - beynəlxalq müqavilə, böyük siyasi əhəmiyyətli saziş. Pakt təhlükəsizlik, hücum etməmək, qarşılıqlı yardım və s. bu kimi xarici siyasət məsələlərini tənzimləyir.

**paqoda** (port. "paqoda", sanskr. "bhaqavat" - "müqəddəs"; hərfi mənası - "dəfinələr qülləsi") - buddizm dini əşyalarını saxlamaq üçün tikilir və memorial funksiya daşıyır, "müqoddəs yer" mənasını ifadə edir.

**paleolit** (yun. "qədim daş") - daş dövrünün birinci mərhələsidir. Paleolit 2 milyon il əvvəl - "bacarıqlı insan "ın meydana gəlməsi ilə başlanmış və e.ə. X minilliyədək davam etmişdir. Paleolit dövründə əvvəllər sürü şəklində yaşamış ən qədim insanlar yığıcılıq və ovçuluqla məşğul olmuş, sonralar isə od əldə etmişlər. Tədricən insanların həyatında dəyişikliklər baş vermişdir. 200 min il bundan əvvələ yaxın neandertal adamı (insanı), 40 min il əvvələ yaxın isə "ağıllı insan" meydana gəlmişdir. İnsanlar nəsli icmalarda yaşamağa başlamışlar. Bu zaman icmada aparıcı rol qadınlara məxsus olduğundan bu dövr matriarxat dövrü adlandırılmışdır. Paleolit mezolitlə əvəz olunmuşdur.

**pambıq** - becərilməsinə ilk dəfə Hindistanda başlanılmışdır. Hindlilər pambıqdan möhkəm, eyni zamanda elə nazik parça toxuyurdular ki, ondan tikilmiş don balaca üzükdən keçirilə bilirdi.

**pan** - orta əsrlər Polşasında və Çexiyada iri feodala verilən ad. Xırda feodallar - rıtsarlar panların vassalı idilər.

**panislamizm** - bütün müsəlman aləminin birliyi və onun vahid dövlətdə birləşməsi haqqında ideya. Panislamizm XIX əsrin sonlarında formalaşmışdır.

**Pannoniya** - müasir Macarıstan, keçmiş Yuqoslaviya və Avstriyanın ərazilərinin qərb hissəsindəki qədim vilayət.



**panteizm** - allahı bütün dünya ilə ehtiva edən dini və fəlsəfi təlim.

**Panteon** - 1) eramızın II əsrinin əvvəllərində Qədim Romada inşa edilmiş “bütün allahların məbədi”. Panteonda istənilən allaha dua etmək olardı, Roma imperiyası əhalisinin isə allahlarının sayı həddən ziyadə çox idi. Dövrümüzədək qalmış Panteon Qədim Roma günbəz tikilisi nümunəsidir; 2) görkəmli şəxslərin sərdabəsi.

**pantürkizm** - türk xalqlarının vəhdəti və onların Türkiyənin hakimiyyəti altında vahid dövlətdə birləşdirilməsinin zəruriliyi haqqında ideya.

**papirus** - qamış tipli bataqlıq bitkisi; qədimlərdə Nilin sahilləri boyunca və deltasında bitərmiş. Ondan yazı üçün xüsusi material düzəldərmişlər və onu da papirus adlandırarmışlar. Bitkinin özəyini bərabər zolaqlara bölər, sonra isə onları lap yanaşı qoyarmışlar; üstündən də köndələninə bu qayda ilə düzərmişlər. Həmin



downloaded from KitabYurdu.org



düzümü sıxar və qurudarmışlar. Alınan vərəqin kənarlarını düz kəsərmişlər. Ehtiyac olduqda bir neçə vərəqi bir-birinə yapışdırar və alınan uzun vərəqi sarıyarmışlar. Nəticədə əldə olunan uzun vərəq üzərində qamışdan düzəldilmiş xüsusi fırça ilə mürəkkəblə yazarmışlar. Papirusu e.ə. III minillikdən eramızın ilk əsrlərinədək (Qədim Misirdə, sonralar isə həm də Aralıq dənizi hövzəsindəki dövlətlərdə) yazı materialı kimi istifadə edirdilər.

**paradoks** - 1) gözlənilməz, qeyri-adi düşüncə, ənənəvi mövcud olan fikirlə kəskin ziddiyyət təşkil edən; 2) mövcud təsəvvürlərə sığışmayan qeyri-adi hadisə.

**paraflama** - müqavilənin (sazişin) və ya onun ayrı-ayrı maddələrinin mətninin danışıqlar aparan tərəflərin səlahiyyətli nümadələri tərəfindən razılıq əlaməti kimi ilkin imzalanması. Müqavilə (saziş) dövlətin xadimləri tərəfindən imzalanandan və dövlətin qanunverici orqanı tərəfindən imzalanandan və dövlətin qanunverici orqanı tərəfindən ratifikasiya ediləndən sonra qüvvəyə minir.

**Parfiya** - e.ə. III əsrin ortalarında müasir iranın şimal-şərq və Türkmənistanın ərazilərində köçəri Parfiya tayfasının başçısı Arşak tərəfindən yaradılmış dövlət. Arşak Parfiya çarları sülaləsinin - Arşakilərin də banisi idi. Parfiya tezliklə ərazilərini genişləndirməyə başladı. Parfiya çarları I Mitridat və II Mitridat e.ə. II əsrdə Midiya və Mesopotamiyanı Parfiyaya birləşdirdilər. Parfiya



dünya dövlətinə çevrildi. Selevkilər Arşakilərin təzyiqlərinə müqavimət göstərməyə çalışsalar da, istədiklərinə nail ola bilmədilər. E.ə. I əsrdə Atropatenada da parfiyalıların mövqeyi gücləndi. Bizim eraya keçid ərəfəsində Parfiya iri, zəngin və faktik olaraq Şərqdə Romanın yeganə rəqibinə çevrildi. Fasilələrlə aparılan Roma - Parfiya müharibələri üç yüz ilədək davam etmişdir. müharibələr hərdən bir tərəfin qələbəsi ilə qurtarırdı. E.ə. 53-cü ildə Karra (Yuxarı Metopotamiya) döyüşündə parfiyalılar romalılara dağıdıcı zərbə endirdilər. Bundan sonra parfiyalılar Suriyanı tutdular. E.ə. 36-cı ildə romalıların Antoninin başçılığı ilə Atropatena və Parfiyaya böyük yürüşü tam uğursuzluqla nəticələndi. Parfiya çarı IV Fraat bu qələbədən Roma ilə uzunmüddətli dinc münasibətlər yaratmaq üçün istifadə etdi. Eramızın əvvəllərində daxili vəziyyət tədricən pisləşməyə başladı - satraplıqlardakı əyanlar, eləcə də Parfiyadan asılı olan dövlətlərin hökmdarları Parfiya "şahənşah"ından müstəqillik əldə etməyə çalışırdılar. Parfiya dövlətinin laxlayan inzibati strukturu ölkənin zəiflənməsinə gətirib çıxarırdı. Eramızın II əsrində hakimiyyətin mərkəzləşdirilməsi üzrə yabanmış islahatlar keçirildi. Eramızın 115-ci ilində imperator Trayanın dövründə romalılar Ermənistan və Mesopotamiyanı parfiyalılardan qoparıb Roma provinsiyalarına çevirə bildilər. Trayanın qoşunları Selevkiyaya və Parfiyanın paytaxtı Ktesifona daxil oldular və Arşakilərin "qızıl



downloaded from KitabYurdu.org

taxt"ını ələ keçirdilər. Yalnız Trayanın ölümü parfiyalıları xilas etdi. Eramızın 164-cü ilində romalılar Selevkiyanı yandırdılar və Parfiya şahlarının Ktesifondakı sarayını dağıtdılar. 198 - 199-cu illərdə romalılar yenidən parfiyalılara sarsıdıcı zərbə endirib 100 min əsir və Ktesifondakı şah xəzinəsini ələ keçirdilər. 218-ci ildə sonuncu Parfiya sahı V Artabanın romalılar üzərindəki qələbəsi Mesopotamiyanı Arşakilərə qaytardı. Lakin Roma ilə uzun müddət davam edən rəqabət sonda Parfiyanı fəlakət həddinə çatdırdı və Parfiya dövlətinin məhvinə səbəb oldu. Belə bir şəraitdə vassal şahlardan biri - Parfiyanın Pars əyalətinin şahı, Sasan nəslindən olan Papakın oğlu Ərdəşirin üsyanı Arşakilər sülaləsinin süqutuna və Parfiya dövlətinin iflasına səbəb oldu. Hakimiyyətə parfiyalıların əvəzinə farsların Sasanilər sülaləsi gəldi.

Parfiyada zərdüştilik yayılsa da, parfiyalılar digər dinlərə qarşı dözümlülük nümayiş etdirirdilər. Parfiya ellin mədəniyyətinə malik idi. Parfiya memarlığı yüksək inkişaf səviyyəsinə çatmışdı; burada ellin üslubu ilə Qədim Şərq ənənəsi - xüsusi konstruksiyalı tağvarı günbəz, həyətə açılan günbəzli və ya sütunlu tikililər - eyvanlar qovuşurdu. Nağılçı müğənnilərin - qoşanların sənətinin çiçəklənməsi, eləcə də Sasanilər dövründə qələmə alınmış və Firdovsinin poetik deyimində dövrümüzə çatmış Mərkəzi Asiya eposunun olduğu şəkildə yaranması da Parfiya dövrünə aiddir.

**Paris Kommunası** (1871) - inqilab və 1871-ci il martın 18-dən mayın 28-dək mövcud olmuş ilk sosialist hökuməti. Bonapartçı rejimin Fransa - Prussiya müharibəsində məğlubiyyətə uğraması və başda Tyer olmaqla "milli xəyanət" hökumətinin sazişçi siyasət yeritməsi inqilabın başlanması üçün bəhanə olmuşdur. Paris Kommunası hökumətinin üzvləri fəhlə və xırda burjua inqilabçıları idilər. Hökumət Milli Qvardiya yaratdı; kilsəni dövlətdən ayırdı; geniş əhali kütləsinin maddi vəziyyətinin yaxşılaşdırılması, eləcə də əməyin mühafizəsi üzrə bir sıra tədbirlər gördü. Fransa bankını milliləşdirməkdən çəkinmək, Parisdəki əksinqilabi qüvvələrin məhv edilməsində qətiyyətsizlik göstərmək və Tyer hökumətinə inqilabı boğmaq üçün Versalda maneəsiz qoşun toplamağa imkan vermək, passiv müdafiə taktikası, alman qoşunlarının bitərəfliyinə inam, kəndlilərlə əlaqələrin və ittifaqın mühümlüyünü dəyərləndirməmək Paris Kommunasının süqutunu sürətləndirdi. Mayın 21-də versallılar Parisə daxil oldular, mayın 28-dək kommunarlar barrikadalarda vuruşdular. Kommunanın boğulmasından sonra inqilabi çıxışların iştirakçılarına qarşı amansız terror başlandı.

**paritet** - 1) bərabərlik, bərabər nisbət, eyni vəziyyət; 2) müxtəlif ölkələrin valyutaları arasında qızıl hesabı ilə nisbət.

**parlament** (fr. "parler" - "danışmaq") – nümayəndəli seçkili (bəzən qismən) qanunverici orqan.

**parlamentli monarxiya** - dövlətin başında monarxın durduğu, eyni zamanda, parlament çoxluğunun lideri olan hökumət başçısını - baş naziri təyin



downloaded from KitabYurdu.org

etdiyi dövlət hakimiyyəti forması. Baş nazir parlament qarşısında məsul olan Nazirlər Kabinetini təşkil edir.

**parslar** - zərdüştilər; X əsrin birinci yarısında müsəlmanlar tərəfindən dini təqiblərə məruz qaldıqlarından Xorasandan (İran) Qucarat vilayətinə (Hindistan) köçmüşlər. Hindistanda həmin zərdüştiləri pars adlandırmışlar. Köçmələrindən bir qədər sonra parslar "Ataş-Bəhram" adlı müqəddəs odu alovlandırmışlar. Pars kahinləri zərdüştilik adət və ayinlərini saxlamışlar. Avestanın əlyazması yalnız pars kahinlərində qalmış və Düperron tərəfindən fransız dilinə tərcümə edilmişdir.

**Partav** (əvvəlcə - Perozapat) - V əsrdən Qafqaz Albaniyasının paytaxtı. Bu vaxta qədər paytaxt Qəbələ idi, şimaldan köçərilərin tez-tez yürüşləri nəticəsində paytaxt köçürülmüşdür. Ərəbcə Bərdə kimi deyilirdi.

**partiya** (lat. "partio" - "bölürəm", "parçalayıram") - 1) ideya, məqsəd və maraq ümumiliyi ilə birləşmiş insanlar qrupu: 2 eyni vaxtda bir ünvana göndərilmiş mallar, 3) müəyyən nəticəyədək davam etdirilən oyun (məsələn: bir partiya şahmat oyunu).

**pasifizm** - xarakter və məqsədlərindən asılı olmayaraq nümayəndələri hər cür müharibə əleyhinə çıxış edən hərəkat.

**pastor** - protestant kilsəsinin keşişi.

**paşa** - Osmanlı imperiyasında yüksək mülki və hərbi mənsəb sahiblərinin titulu.

**patriarx** (yun. "böyük ata") – qədimdə böyük ailənin başçısı. Orta əsrlərdə - pravoslav kilsəsinin Bizans imperatoruna tabe olan başçısı.

**patriarxat** - təsərrüfatda, ailədə və cəmiyyətdə əsas rolun kişiyə məxsus olduğu nəsli icma qaydası. Ata icması ana icmasını - matriarxatı tunc dövrünün əvvəllərində, yəni e.ə. IV minilliyin sonlarından əvəz etməyə başlamışdır.

**patriklər** - Qafqaz Albaniyasında feodallar silki.

**patriot** - bax: vətənpərvər.

**patrisilər** (lat. "pater" - "ata") – 1) Qədim Romada ilk vaxtlar Roma xalqını təşkil edən icmanın köklü əhalisinin adı. Patrisilər Romanın ən qədim sakinlərinin övladlarıdır. Hesab edilirdi ki, onların ataları şəhərin əsasını qoyanlardır; 2) aristokrat nəslinin nümayəndələri.

**peçeneqlər** - hərbi demokratiya mərhələsində olan köçəri türk tayfa ittifaqı. İlk vaxtlar Mərkəzi Asiyada köçərilik edən və 8 tayfadan ibarət olan peçeneq tayfa ittifaqında ağsaqqallar şurası, onlar tərəfindən seçilən hərbi başçılar və xalq yığıncaqları var idi. VIII əsrdə Volqaarxası çölləri sarmatlardan qoparan peçeneqlər özündə peçeneqlərlə yanaşı sarmatları və uqro-finləri
də birləşdirən yeni tayfa ittifaqı yaratdılar. IX əsrdə Qara dənizin şimal sahilləri çöllərində məskunlaşan peçeneqlər buradan Kiyev Rusu, Macarıstan, Bolqarıstan, Bizans imperiyası və Xəzər xaqanlığı üzərinə yürüşlər edirdilər. X əsrin əvvəllərində Xəzər xaqanlığının bütün şimal və qərb torpaqlarını darmadağın edən peçeneqlər onun iri ticarət şəhərlərini taladılar. 972-ci ildə başda Kurya xan



downloaded from KitabYurdu.org

olmaqla Dneprin astanalarında Rusunun qoşunlarını darmadağın edən peçeneqlər Kiyev knyazı Svyatoslavı öldürdülər. Kurya xanın əmri ilə knyazın kəlləsindən qızıl haşiyəli kasa düzəldildi. Peçeneqlər 1036-cı ildə Kiyev knyazı Yaroslav Mudrı tərəfindən Kiyevin yaxınlığında darmadağın edildilər. Bu məğlubiyyətdən sonra peçeneqlərin bir qismi Kiyev knyazına tabe oldu, bir hissəsi Macarıstana köçdü; qalan 13 peçeneq tayfası isə başda Tirax xaqan olmaqla Dnepr və Dunay arasında köç etməkdə idi. Lakin az sonra peçeneqlər yeni köçəri türk tayfa ittifaqı – torklar (quzlar) tərəfindən məğlub edildilər. Peçeneqlərin bir hissəsi Bizans imperiyasına qaçdı, digər hissəsi isə yeni türk ittifaqına qarışdı.

**Pedaqoq** (yun. "tərbiyəçi") - 1) Qədim Romada oğlan uşağını məktəbə aparan, onun davranışına və təhsilinin nəticələrinə nəzarət edən qul; 2) indiki dövrdə - uşaqların və gənclərin təhsil və tərbiyəsi üzrə praktiki iş aparan insan; 3) təhsil və təlimin nəzəri problemlərini işləyib hazırlayan alim.

**Peloponnes** - Balkanların cənubunda yarımada. E.ə. II minillikdə burada Mikena mədəniyyəti yayılmışdır. Peloponnesin cənub-şərqində - Lakonika vilayətində e.ə. II minilliyin sonlarında Sparta polisi salınmışdır.



**perqament** - ustalıqla aşılanmış buzov və ya quzu dərisi; e.ə. II əsrdən yazı materialı kimi istifadə olunurdu. Perqamentin istehsal mərkəzi Kiçik Asiyanın Perqam şəhəri olduğundan əldə edilən məhsul da belə adlandırılmışdır. Perqament möhkəm, lakin çox bahadır. Bir böyük kitab üçün bütöv bir sürü buzovun dərisi sərf olunurdu. Perqamentdən papirus kimi, yəni lülə kimi bükülmüş halda istifadə olunduğundan onun üstünlüyü kifayət qədər dəyərləndirilməmişdir. Yalnız perqamenti ayrı-ayrı vərəqlərə kəsməyə və əlverişli kitab formasında tikməyə başladıqdan sonra papirusun taleyi birdəfəlik həll edildi və o öz yerini perqamentə verdi.



**Perikl** (e.ə. 490 - 429) - görkəmli Afina siyasi xadimi. E.ə. 443-cü ildən 429-cu ilə kimi, yəni 15 il ərzində (ölümünə qədər) Afina strateqi seçilmişdir. Perikl istedadlı natiq idi və həmişə xalqın diqqətini öz xeyrinə yönəldə bilirdi. Onun xahişi ilə dostu Fidinin rəhbərliyi altında Afina Akropolu inşa edilmişdir. Periklin əmri ilə "Uzun divarlar" tikilmişdir. Peloponnes müharibəsinin ilk mərhələsində o, Afinaya rəhbərlik edirdi. Afinada yayılmış taun epidemiyası zamanı xəstələnib ölmüşdür.

**Perozapat** - alban çarı II Vaçe tərəfindən əsası qoyulmuş və Sasani şahənşahı Perozun şərəfinə adlandırılmış şəhər. Sonralar - Partav adlanmışdır, ərəblər isə ona Bərdə demişlər.

**Peterburq müqaviləsi** (1723) - Rusiya imperiyası ilə Səfəvilər dövləti arasında 1723-cü il sentyabrın 12-də Peterburqda II Təhmasib şahın ruslar tərəfindən aldadılmış elçisi İsmayıl bəyin imzaladığı müqavilə. Peterburq



downloaded from KitabYurdu.org

müqaviləsinin şərtlərinə görə, Səfəvilər dövlətinin Dərbənddən Gilana qədər olan Xəzərsahili vilayətləri Rusiyanın sərəncamına keçirdi. Rusiya isə öz növbəsində əfqanlara qarşı müharibədə şaha yardım etməyi öhdəsinə götürürdü. Şah isə rüsxətsiz imzalanmış bu müqaviləni təsdiq etməmişdir.

**petisiya** - hakimiyyət nümayəndələrinə ünvanlanmış kollektiv xahiş və ya çağırış.

**peyğəmbərlər** (far. "xəbər gətirən", ər. "nəbi") - iudaizm, xristianlıq və islamda Allah iradəsini insanlara anladan və gələcəkdən xəbər verən din təbliğatçısı, vaiz, mömin şəxs. Qurani-kərimdə və digər müqəddəs kitablarda aşağıdakı peyğəmbərlərin də adları çəkilir: Adəm (Adam), Nuh (Noy), İbrahim (Avraam), İshaq (İsaak), Yusif (İosif), Yaqub (İakov), İlyas (İliya), Əyyub (İov), Yunus (İon), Musa (Moisey), Harun (Aaron), İsa Məsih (İisus Xristos), Yəhya (İoann), Zəkəriyyə (Zaxariya), Davud (David), Süleyman (Solomon) və b. Allahın sonuncu peyğəmbəri olan Məhəmmədə "peyğəmbərlərin möhürü" - "xatəmül ənbiya" deyirlər.

**Pəhləvi** - İranda şah sülaləsi (1925 - 79). Banisi Rza şah Pəhləvidir. Onun varisi Məhəmməd Rza şah Pəhləvi 1979-cu ildə "islam inqilabı" nəticəsində devrilmişdir.

**Pənahabad** - 1757-ci ildə Şuşa şəhərinə onu bərpa edən və möhkəmləndirən Pənahəli xanın adıyla bağlı verilən yeni ad. Sonralar şəhər yenə də Şuşa adlandı.

**pənahabadi** - Pənahəli xanın adı ilə Qarabağ xanlığında kəsilmiş pul.

**Pənahəli xan (qarabağlı)** - Qarabağ xanlığının banisi və ilk xanı (1748 - 63). Nadir xan Muğanda şah elan olunan zaman Qarabağ tayfaları onun namizədliyinə qarşı çıxmışdılar. Nadir şah həmin tayfaları Xorasana - Əfqanıstanla sərhədə sürgün etmişdi. Pənahəli bəy də qardaşı ilə onların arasında idi. Nadir şah onun qardaşını edam etdirdikdən sonra Pənahəli bəy ona yaxın olan bir qrup adamla Qarabağa yola düşmüşdü. Pənahəli bəy 1748-ci ildə özünü Qarabağ xanlığının xanı elan etmişdi. Pənahəli xanın adına pul - pənahabadi - kəsilmişdir. Pənahəli xan Bayat (1748), Şahbulaq (1751) və Şuşa (1757) qalalanın tikdirmişdi. 1748-ci ildə şəkili Hacı Çələbi xan bir ay müddətində Bayat qalasını uğursuz mühasirədə saxlamışdı. Pənahəli xan Qarabağın beş məlikliyini özünə tabe etdirə bilmişdi. İranda şahın dəyişilməsindən istifadə edən Pənahəli xan Gəncə, İrəvan, Naxçıvan və Ərdəbili tutmuşdu. Qarabağın Çiləbörd və Talış məlikləri Pənahəli xana qarşı çıxış etmiş, amma Ağdərə savaşında məğlub olmuşlar. 1757-ci ildə "Xatın arxı" yaxınlığında baş vermiş savaşda Pənahəli xan Qarabağa hücum etmiş Məhəmməd Həsən xan Qacara qalib gəlmişdi. 1759-cu ildə urmiyalı Fətəli xan Əfşar Pənahəli xanı özündən asılı vəziyyətə saldı, amma özü Kərim xan Zəndə məğlub oldu və Kərim xan Pənahəli xanı öz müttəfiqinə çevirdi. Bir qədər sonra Kərim xan Zənd Pənahəli





downloaded from KitabYurdu.org

xanı da "Şiraz qonaqlığı"na çağırdı və faktik olaraq onu Qarabağ xanlığının idarəçiliyindən uzaqlaşdırdı.

**π ədədi** - çevrə uzunluğunun diametrə nisbəti. π ədədi sonsuz kəsirlə ifadə olunur və 3,141592...-yə bərabərdir. Erkən orta əsrlərdə Hindistan riyaziyyatçıları π ədədini yüksək dəqiqliklə hesablaya bilmişdilər.

**piktoqrafik** yazı (yun. "şəkli yazı") - məlumatın məzmununun ardıcıl rəsmlər vasitəsilə, adətən yadda qalması üçün təsvir edilməsi. Neolit dövründən məlum olan piktoqrafiya hər hansı bir dilin qeydi vasitəsi deyil, elə buna görə də əsl mənada yazı sayılmır.



**pioner** (fr. "yenini tədqiq edən", "ilk yol açan", "əsasını qoyan", "bani") - ABŞ-da məskunlaşmamış yerlərə ilk gələnləri belə adlandırarmışlar.

**piramida** (ehram) - Qədim Misirdə firon və əyanların piramidaşəkilli, həndəsi formalı monumental sərdabəsi. İlk Misir piramidası - firon Coserin sərdabəsi - memar İmhotep tərəfindən e.ə. XXVII əsrin lap əvvəllərində inşa edilmişdir. Coserin piramidası on pilləli Misir piramidasından birincisi idi. Coserin piramidası altıpilləli idi, hündürlüyü 61 m-ə çatırdı. Sonralar Misir piramidalarının formaları bizim üçün adiləşən maili tərəfli forma aldı. Ən böyük piramida e.ə. təxminən 2600-cü ildə inşa olunmuşdur. Bu, firon Xeopsun (qədim misir. - Xufu) Memfis yaxınlığındakı piramidasıdır. Qədimdə onun hündürlüyü 146,7 m, yuxarı hissəsini itirdikdən sonra isə 137,3 m olmuşdur. Herodotun məlumatına görə, bu piramidanın tikintisində eyni vaxtda 100 minədək kəndli və qul işləyirmiş, onun tikintisi 30 ilədək davam etmişdir. Piramidanın inşası üçün hər biri bir kubmetrdən artıq olan 2.250.000 sal daşdan istifadə olunmuşdur. Yüz ildən bir qədər əvvələdək Xeops piramidası dünyada ən hündür tikili idi, yalnız 1880-ci ildə Köln baş kilsəsi (onun üstündə iki yeni qüllənin tikilməsi nəticəsində) və 1889-cu ildə Parisdə inşa edilmiş Eyfel qülləsi ondan hündür olmuşlar. Dövrümüzə cəmi 39 piramida salamat çatmışdır. Misir piramidaları qədimdə "dünyanın yeddi möcüzəsi"ndən biri hesab edilirdi.



**Pirr** - Balkan yarımadasında kiçik Epir dövlətinin hökmdarı. E.ə. III əsrin əvvəllərində Roma Cənubi İtaliyadakı yunan koloniyaları ilə müharibəyə başlayanda çar Pirr yunanlara köməyə gəldi. Pirrin qoşunları 22 min nəfər piyada, 3 min süvari və 20 döyüş filindən ibarət idi. Onun qoşunları bir neçə qələbə çaldılar, lakin elə itkilər verdilər ki, bununla bağlı Pirr demişdir: "Daha bir belə qələbə olsa, mən qoşunsuz qalacam!". Həlledici döyüşdə romalılar Pirrin qoşunlarını darmadağın etmişdilər. Dövrümüzdə işlədilən "Pirr qələbəsi" ifadəsi "məğlubiyyətə bərabər qələbə" kimi anlaşılır.

**Pisarro** Fransisko (1475 - 1541) - ispan konkistadoru. Pisarro ispan hərbçisinin qeyri-qanuni oğlu idi və hələ yeniyetmə ikən hərbi xidmətə qəbul olunmuşdu. 1502-ci ildə Karib dənizindəki Espanyola adasına gələrək ispan



downloaded from KitabYurdu.org

qubernatorunun hərbi dəstəsində qulluq etmişdir. 1513-cü ildə Panamaya - Balboaya təşkil edilmiş ekspedisiyada iştirak etmiş və orada yaşamaq üçün qalmışdır. Hindilərin zəngin dövləti haqqında şayiələrə uyan Pisarro 1524 - 25, sonralar isə 1526 - 28-ci illərdə Cənubi Amerikanın Sakit okean sahilləri boyunca iki ekspedisiya təşkil etmişdir. Pisarro ikinci ekspedisiyanın axırlarında Panamanın ispan qubernatorunun yanına yardım üçün adam göndərsə də, o bu axtarışları daha dəstəkləməkdən boyun qaçırmış və Pisarroya geriyə qayıtmağı əmr etmişdi. Amma Pisarro özünün 12 nəfər tərəfdaşı ilə irəlilərə gedərək inklərin imperiyasını tapmışdı. Buna baxmayaraq Panamanın qubernatoru baha başa gələn ekspedisiyanı maliyyələşdirməkdən imtina eləmişdi. Belə olduqda isə Pisarro İspaniyaya qayıdaraq imperator V Karlı işğalçı yürüşə pul verməyə inandıra bilmişdi. Puldan əlavə, gerb, general-kapitan rütbəsi və Panamadan cənuba altı yüz mil boyunca bütün torpaqların qubernatoru vəzifəsini alan Pisarro 1531-ci ildə iki yüz nəfərlik döyüşçü və altmış beş atla gəmilərdə üzərək Peruya gəlmişdi. Onun əsgərləri əsasən xəncər və nizə ilə silahlanmışdılar, yalnız üç nəfərdə primitiv tüfəng - arkebuz və daha iyirmi nəfərdə isə arbalet var idi. Pisarro öz dəstəsi ilə And dağlarını keçərək Ali İnkam - Ataqualpanı danışıqlara dəvət etmişdi. Ali İnka yüngül silahlanmış üç min nəfərlik mühafizəçilərinin müşayiəti ilə danışıqlara gəlmişdi. Danışıqlar əvəzinə, inklərin qoşunlarına qarşı süvari yürüşə keçən Pisarronun dəstəsi onlara arkebuzlardan atəş açmağa başlamışdı. İnklərin qoşunlarını qıran ispanlar Ataqualpanı əsir götürmüşlər. Pisarro əsirlərdən ödənc və çoxlu miqdarda qızıl-gümüş almış, amma Ataqualpanı buraxmamışdı; onu öldürmüş və özündən asılı bir başçını inklərin dövlət başçısı təyin etmişdi. Pisarro 1513-cü ildə heç bir müqavimətlə üzləşmədən inklərin paytaxtı Kuskoya daxil olmuşdur. Çox varlanan Pisarro sahilə qayıdaraq liman şəhəri Limanın (Peru) əsasını qoymuşdur. Burada həlak olan Pisarronu hindilər deyil, qənimətin bölüşdürülməsindən narazı qalan öz adamları öldürmüşlər.

**pitekantrop** (yun. "meymun-insan") - paleolit dövründə 500 min il əvvələdək yaşamış ən qədim insan. Pitekantropun qalıqları Afrika, Asiya və Avropada aşkar edilmişdir. Pitekantroplar neandertal adamının (insanının) əcdadı olmuşlar.

**Plateya** - Orta Yunanıstanda - Beotiyada qədim yunan polisi. E.ə. 479-cu ildə birləşmiş yunan qoşunları Əhəməni hökmdarı Kserksin gedərkən rəhbər təyin etdiyi Mardoninin başçılıq etdiyi İran qoşunları ilə xeyli müddət gərgin müharibə etmişlər. İran ordusunu məğlub edən yunanlar onu öz ölkələrindən qovmuşlar. Bununla belə, Plateya savaşından sonra Yunan - İran müharibələri hələ 30 il də davam etmişdir. Peloponnes müharibəsi dövründə Plateya spartalılar tərəfindən dağıdılmışdır (e.ə. 429 - 427).

**plebeylər** - 1) Qədim Romada başqa yerlərdən Roma şəhərinə köçənlərin övladları. Plebeylər orduda xidmətə çağırılsalar da, Roma icmasına daxil olmadıqlarından tutulmuş torpaqlara hüquqları yox idi, eləcə də siyasi hüquqlara



downloaded from KitabYurdu.org

malik deyildilər. E.ə. V əsrin əvvəllərində plebeylər hər il xalq tribunları seçmək hüququ qazandılar. Uzunmüddətli (200 ildən artıq) mübarizədən sonra plebeylər patrisilərlə eyni dərəcədə bərabər siyasi hüquqlar əldə etdilər, Romanın tamhüquqlu vətəndaşlarına çevrildilər; 2) məcazi mənada - sadə xalq.

**plebissit** - ümumxalq səsverməsinin formalarından biri (həmçinin bax: referendum). Beynəlxalq münasibətlərdə plebissit - əhalinin ümumxalq səsverməsi yolu ilə mübahisəli ərazinin hamısının və ya bir hissəsinin dövlət mənsubiyyətinin müəyyənləşdirilməsi üçün öz iradəsini bildirməsi.

**Plini** - eramızın I əsrində yaşamış Qədim Roma müəllifi. 37 kitabdan ibarət "Təbiət tarixi" əsərini yazmış və həmin kitablarda Şərq, yunan və Roma astronomlarının, təbiblərin, aqronomların və d. alimlərin əsərləri təsvir edilmişdir. Vezuvi vulkanının püskürməsini öyrənmək istəyən Plini vulkana həddən çox yaxınlaşdığından həlak olmuşdur.

**Plutarx** (45 -127) - qədim yunan yazıçısı. Plutarxın "Paralel tərcümeyi-hallar" əsas əsərində qədim dövrün 45 ən görkəmli şəxsiyyətinin tərcümeyi-halından bəhs edilir.

**plutokratiya** (yun. "sərvət hakimiyyəti") - hakimiyyətin cəmiyyətin dövlətliləri, varlıları əlində olan dövlət quruculuğu.

**Polibi** (e.ə. 200 - 120) - qədim yunan tarixçisi. Yunanıstan, Makedoniya, Roma, Kiçik Asiya və s. ölkələrin e.ə. 220-ci ildən 146-ci ilə qədərki tarixini əhatə edən "Ümumi tarix" əsərinin müəllifi.

**polis** (yun. "şəhər") - Qədim Yunanıstanda şəhər və onun ətraf torpaqlarından ibarət olan dövlət. Başqa sözlə, polisi şəhər-dövlət adlandırırlar.

**politeizm** - çoxallahlılıq, bir çox allahlara inanmaq.

**politika** - dövlət daxilində siniflər, millətlər və digər ictimai qruplar arasındakı münasibətlərlə bağlı, eləcə də dövlətlərarası münasibətlərlə bağlı fəaliyyət.

**poloveslər** - qıpçaqların slavyan və Avropa mənbələrində adı.

**Pompei, Pompea** - Qədim Romada antik şəhər; eramızın 79-cu ilində Vezuvi vulkanının püskürməsi nəticəsində məhv olmuşdur. 1748-ci ildən burada arxeoloji qazıntılara başlanılmışdır. Pompei İtaliyanın qədim şəhərləri haqqında zəngin bilik mənbəyidir.

**Pompey** Qney, ləqəbi "Böyük" (e.ə. 106 - 48) - Roma sərkərdəsi. Pompey ispan tayfalarının romalılara qarşı baş vermiş üsyanını yatırdı. E.ə. 71-ci ildə isə o, Spartak üsyanının yatırılmasında iştirak etmişdir. Pompeyin legionerləri 6 min əsir qulu Kapuyadan Romayadək yol boyu çarmıxa çəkmişlər. Pompey quldurların donanmasını dağıtmış, onların qalalarını uçurmuş və xeyli müddətə Aralıq dənizində piratlığa son qoymuşdur. Pompey Suriyanı istila etmişdir. E.ə. 66-cı ildən Pompey Pont çarı VI Mitridata qarşı döyüşən Roma qoşunlarına sərkərdəlik etmişdir. Pompey Ermənistanı tutmuş, sonra isə Qafqaz Albaniyasına soxulmuşdur. Pompey e.ə. 66-cı ilin dekabrında Kür çayı sahilində çar Oroysun



downloaded from KitabYurdu.org

başçılıq etdiyi alban qoşunlarını məğlubiyyətə uğratmışdır. Sonra Pompey İberiyaya yürüşə başlamışdı. Lakin albanlar romalılara arxadan zərbə endirdiklərinə görə Pompey e.ə. 65-ci ildə yenidən Qafqaz Albaniyasına qarşı yürüş etmişdir. Albaniya çarının qardaşı Kozisin sərkərdəlik etdiyi ikinci savaşda Pompeyin legionerləri albanları yenidən məğlub etmişlər. Pompey Qafqaz Albaniyasının içərilərinə doğru getmiş, Xəzər dənizinə çatmaq ümidində olmuşdur, lakin albanların müqaviməti ona bu planını həyata keçirməyə imkan verməmişdir. Pompey hərbi qənimətlərdən Roma xəzinəsinə külli miqdarda pul aparmışdır. Pompey öz vəsaiti ilə senat üçün bina tikdirmiş, içərisində isə öz heykəlini qoymağı əmr etmişdi ki, senatorlar belə əlverişli və gözəl bina üçün kimə minnətdar olduqlarını unutmasınlar. Pompey üç dəfə triumfla fərqlənmişdir. Romada vətəndaş müharibələri zamanı Pompey senatın tapşırığı ilə Sezara qarşı vuruşmuşdur. E.ə. 48-ci ildə o, əvvəlcə Dinaxiya (Epir) yaxınlığında Sezara qalib gəlmiş, sonra isə Farsal (Fessaliya) yaxınlığında onun ordusu tərəfindən darmadağın edilmişdi. Pompey Misirə qaçmış, az sonra bir qatil tərəfindən öldürülmüşdür.

**Poseydon** - yunan mifologiyasında allah - dəniz hökmdarı, Zevsin qardaşı. Romalıların Neptun allahı Poseydona uyğundur.

**Potsdam konfransı** - İkinci Dünya müharibəsi dövründə üç müttəfiq dövlətin (Böyük Britaniya, SSRİ, ABŞ) başçılarının - U.Çörçill (27 iyuldan - K.Ettli), İ.Stalin və H.Trumenin 1945-ci il iyulun 17-dən avqustun 2-dək Potsdamda (Berlin yaxınlığında) olmuş konfransları. Potsdam konfransı müharibədən sonrakı dünya quruculuğu məsələlərini həll etməli və prinsiplərini işləyib hazırlamalı idi. Sazişə əsasən, Almaniya tam tərk-silah olunmalı, hərbi qüvvələri buraxılmalı, hərbi və nasist fəaliyyət və təbliğatı qadağan edilməli, ölkənin hərbi-sənaye potensialı ləğv olunmalı idi. Almaniyadan reparasiya alınması haqqında qərar qəbul edildi. Almaniyanın dördtərəfli işğalı sistemi razılaşdırıldı. Polşanın yeni qərb sərhədləri Oder-Nöyse çayları xətti boyunca müəyyənləşdirildi. Köniqsberq (1946-cı ildən - Kalininqrad) və onun ətraf rayonu SSRİ-yə verildi. Konfransın qərarı ilə əsas faşist hərbi canilərini mühakimə etmək üçün sonralar işini Nürnberqdə keçirmiş Beynəlxalq Hərbi Tribunal yaradıldı.

**pravoslav kilsəsi** - 1054-cü ildə katolik kilsəsi ilə ayrılandan sonra şərqi xristian kilsəsinin adı. O vaxtdan şərqi xristian kilsəsi pravoslav (yun. "həqiqi, doğru din") kilsəsi adlanmağa başladı. Bölünmədən sonra kilsələrin hər ikisi müstəqil oldu.

**"Prayd təmizləməsi"** - 1648-ci ilin dekabrında İngiltərə burjua inqilabı zamanı kralın tərəfdarı olan 140 nəfər presviterianın "Uzunmüddətli parlament"dən qovulması. Parlament ordusunun independent komandanlığının əmri ilə polkovnik T.Praydın dəstəsi tərəfindən həyata keçirilmişdir. "Prayd təmizləməsi" kral I Karlın məhkəməsinə, onun edamına və İngiltərədə respublika elan olunmasına gətirib çıxarmışdır.



downloaded from KitabYurdu.org

**preliminar** - ilkin.

**preliminar sülh müqaviləsi** – müharibə edən tərəflər arasında gələcək sülh müqaviləsinin əsas müddəalarını özündə əks etdirən ilkin razılaşma: müharibənin dayandırılması şərtləri, ərazi dəyişiklikləri, dövlət sərhədləri, hərbi əsirlərin dəyişdirilməsi, dəymiş zərərin ödənilməsi və s.

**presedent** - keçmişdə baş vermiş və indi analoji hal üçün nümunə və ya əsas ola biləcək hadisə, hərəkət, rəftar, vaqiə, qəziyyə.

**pretorianlar** - Roma imperatorunun şəxsi mühafizəçiləri olan və onun hakimiyyətinin dayaqları kimi Oktavian Avqust tərəfindən təşkil edilmiş seçmə qoşunlar.

**preventiv** - digər tərəfin təhlükəli fəaliyyətinin qabağını alan qoruyucu tədbir; məs.: preventiv nüvə zərbəsi.

**prezident** (lat. "praesidens" - "qabaqda, öndə oturan") - respublika idarəçiliyi formalı ölkələrdə dövlət başçısı.

**prikazlar** - 1) XVI əsr - XVIII əsrin əvvəllərində Rusiyada mərkəzi idarəetmə orqanları; 2) XVI - XVII əsrlərdə Rusiyada sarayı idarəetmə orqanları; 3) XVI - XVII əsrlərdə streles polklarının adı.

**prins** - Avropada kral ailəsinin və ya çarlıq etməyən digər nüfuzlu evin ailə üzvü.

**Prinsip Qavrilo** - 19 yaşlı serbiyalı tələbə, Bosniya və Herseqovinanın Avstriya-Macarıstan ağalığından azad olunması uğrunda mübarizə aparan "Mlada Bosna" terrorçu təşkilatının üzvü. 1914-cü il iyunun 28-də Avstriya taxt-tacının varisi ershersoq Frans Ferdinandı Sarayevo şəhərində atəşlə qətlə yetirmişdir. Bu qətl Birinci Dünya müharibəsinin başlanması üçün bəhanə olmuşdur.

**proklamasiya** - vərəqə şəklində yazılmış çağırış, müraciət, bəyannamə.

**proqram** - 1) fəaliyyətin, işin məzmunu və planı; 2) siyasi partiyanın, təşkilatın, ayrıca xadimin fəaliyyətinin əsas müddəa və məqsədlərinin təsviri, ifadə edilməsi.

**proqressiv gəlir vergisi** - vergiyə cəlb edilən mülkiyyət və ya gəlirə proporsional olmayan, lakin onların miqdarından daha tez artan vergi növü.

**prolonqasiya** - hər hansı müqavilənin, sazişin, vekselin fəaliyyət müddətinin artırılması.

**Prometey** - qədim yunan mifologiyasında odu allahlardan oğurlayıb insanlara vermiş titan. Buna görə Zevsin əmri ilə o, Qafqaz dağlarında qayaya zəncirlənmiş və əbədi əzablara məhkum olunmuşdu: hər gün uçub gələn qartal onun qara ciyərini dimdikləyib yeyirdi. Qartalı öldürən Herakl Prometeyi azad etmişdir.

**proteksionizm** - ölkəyə idxal edilən mallara yüksək gömrük haqqı qoyulması, gətirilən müəyyən malların məhdudlaşdırılması və ya tam qadağan olunması və s. yolu ilə daxili bazarı xarici rəqabətdən qorumaq məqsədi ilə dövlətin yeritdiyi iqtisadi siyasət.



downloaded from KitabYurdu.org

**protektor** - lat. hərfi mənada "hami", "himayədar", "müdafiəçi".

**protektorat** - formal olaraq güclü dövlətin zəif dövlətə himayəlik etməsi; praktik olaraq zorla sırınır və çox hallarda şamil edildiyi dövlətin işğalı ilə nəticələnir. Protektorat bəzən asılı ölkənin tam işğalına və ya tabe olmasına gətirib çıxaran keçid formasıdır.

**protestant kilsəsi** - XVI əsrdə Reformasiyanın gedişində xristianlıqda katolik kilsəsindən ayrılmış əsas cərəyanlardan biri. Bir çox müstəqil kilsə və sektaları (lüteran, kalvinist, anqlikan kilsəsi, baptist, adventist sektaları və s.) birləşdirir. Protestantlıq ruhanilərin dünyəvi adamlara qarşı qoyulmaması, mürəkkəb kilsə iyerarxiyasından imtina edilməsi, sadələşdirilmiş ibadət, rahibliyin olmaması və s. ilə xarakterizə olunur. Protestantlığın bir sıra cərəyanları üçün dini elm ilə birləşdirmək cəhdləri də xarakterikdir. Cəmi 250 milyon nəfərədək protestant var və onlar əsasən ABŞ-da, Böyük Britaniyada, Skandinaviya və Baltikyanı ölkələrdə, Niderlandda, İsveçrədə, Avstraliyada, Kanadada yaşayırlar.

**provinsiya** - 1) Qədim Romanın İtaliyadan kənarda zəbt etdiyi ərazilər, vilayətlər, ölkələr; 2) bir sıra müasir dövlətlərdə inzibati-ərazi vahidi; 3) məcazi mənada - işğal olunmuş, ucqar və ya geridə qalmış vilayət.

**provokasiya** - təhrik, fitnə, fitnəkarlıq; ayrı-ayrı adamların, qrupların, təşkilatların və s.-nin ağır nəticələr verə biləcək fəaliyyətə təhrik edilməsi.

**pul** - əmtəələrin ümumi ekvivalenti rolunu oynayan xüsusi əmtəə, mal. Qədimdə pul rolunu vəhşi heyvanların dərisi, mal-qara, taxıl və s. oynayırdı, tədricən bu rol nəcib metallara - pul əmtəəsi tələblərinə daha çox münasib olan gümüşə və qızıla keçdi. Pulun funksiyaları: dəyərin ölçüsü, dövriyyə vasitəsi, sərvət, ödəniş vasitəsi, ümumdünya pulu. Hazırda, demək olar ki, hər yerdə dövriyyədə həqiqi pulları (qızıl, gümüş) əvəz edən kağız pullar yayılmışdır. Kağız pullar ilk dəfə Şərqdə - Çində buraxılmışdır. Azərbaycanda isə Hülakülər dövlətində Keyxatu xan tərəfindən XIII əsrin axırlarında "çao" adlanan kağız pullar hazırlanmışdır. Qərbdə isə ilk dəfə XVII əsrdə Şimali Amerikada kağız pul buraxılmışdır. Kağız pulun emissiyası inflyasiyaya səbəb olur.

**Pun müharibələri** - Aralıq dənizinin qərb hissəsində ağalıq üstündə Roma və Karfagen arasında baş vermiş müharibələr. Romalılar karfagenliləri pun adlandırdıqlarından Pun müharibələri adını almışdır. I Pun müharibəsi (e.ə. 264 - 240) nəticəsində Karfagen Siciliya adasını itirmiş, amma İspaniyanın cənub hissəsini özünə tabe etmişdir. II Pun müharibəsi (e.ə. 218-201) zamanı Karfagen sorkərdəsi Hannibal Alp dağlarından keçərək Kanna yaxınlığında romalıları məğlub etdi, lakin sonra karfagenlilər Zama yaxınlığındakı döyüşdə məğlubiyyətə uğradılar. II Pun müharibəsindən sonra Karfagen özünün İspaniya və Afrikadakı bütün koloniyalarını itirdi. Karfagenin qüdrəti sarsıldı. E.ə. II əsrdə Karfagen iqtisadi çiçəklənmə dövrü keçirirdi, senator Katonun təklifi ilə Roma senatı Karfagenin dağıdılması haqqında qərar qəbul etdi. III Pun müharibəsinin (e.ə. 149 -



downloaded from KitabYurdu.org

146) sonunda Karfagen romalılar tərəfindən tutulub dağıdıldı, əhalisi isə qula çevrilib satıldı.

**Puritanlıq** - tərəfdarlarının təntənəli dini tədbir və adətlərə qarşı çıxış etdiyi dini cərəyan.

**pusqu ovu** - müxtəlif funksiyalar yerinə yetirən çoxlu miqdarda insanın köməkliyi ilə vəhşi heyvanları ovlamaq üsulu. Bu zaman adamların bir qismi səs-küy salır, əllərində od tutmaqla heyvanları ovçulara, uçuruma və ya tələ kimi düzəltdikləri çalaya tərəf qovur, digər qismi isə bilavasitə ovçuluqla məşğul olurdu.

**putç** - bax: qiyam.

**Pyotr I, Böyük Pyotr** (1672 - 1725) - çar Aleksey Mixayloviç Romanovun kiçik oğlu, 1682-ci ildən Rusiyanın çarı (1689-cu ildən müstəqil hökmdarlıq etmişdir), ilk Rusiya imperatoru (1721). I Pyotr Rusiyada bir sıra mühüm islahatlar keçirmişdir: manufaktura və zavodlar tikdirmiş, senatı və kollegiyaları yaratmış, rekrut mükəlləfiyyətini tətbiq etmiş, nizami ordu və donanma yaratmış, ölkəni quberniyalara bölmüş, Peterburq şəhərini saldırmış, qalalar və kanallar çəkdirmiş, tədris müəssisələri və Elmlər Akademiyası açdırmış və d. işlər görmüşdür. O, islahatların keçirilməsinə qarşı törədilən maneçiliklərin qarşısını qətiyyətlə almışdır. I Pyotrun islahatları əsasən xalq kütlələrinin istismarının güclənməsi ilə həyata keçirilirdi və bu da öz növbəsində hökumət qoşunları tərəfindən amansızcasına yatırılan üsyanlara (1705 1706-cı illərdə Həştərxanda və 1707-1709-cu illərdə Bulavinin başçılığı ilə) səbəb olurdu. I Pyotrun dövründə Rusiya Osmanlı imperiyası, İsveç (Şimal müharibəsi) və Səfəvilər dövlətinə qarşı işğalçı müharibələr aparmışdır. I Pyotr 1722 - 23-cü illərdə Xəzərsahili yürüş etmiş və nəticədə rus qoşunları general-mayor M.Matyuşkinin başçılığı ilə Azərbaycanın (o cümlədən Dərbənd, Bakı, Salyan şəhərlərini) və İranın Xəzərsahili ərazilərini tutmuşlar. Bu işğal 1723-cü il Peterburq və 1724-cü il İstanbul müqavilələri ilə təsbit olunmuşdur. I Pyotr 1724-cü ilin oktyabrında fərman vermişdir ki, ermənilər Rusiya tərəfindən işğal edilmiş istədikləri ərazilərdə yerləşdirilsin. Beləliklə, məhz I Pyotr Azərbaycanın Rusiya tərəfindən işğalının və buraya ermənilərin köçürülməsinin əsasını qoymuşdur.

## -R-

**Ra** - Qədim Misir mifologiyasında günəş tacı qoymuş şahinbaşlı Günəş allahı. Allahların çarı və atası kimi sitayiş edilir və Amon allahı ilə eyniləşdirilirmiş. Misirlilərin etiqadına görə, Ra hər gün qızıl qayıqda Yeri işıqlandıraraq səmavi Nil ilə üzür və qərbdə aşağı düşürmüş. Ra orada cəhənnəmə daxil olur, şər qüvvələrlə vuruşa-vuruşa yeraltı Nil ilə üzərək ertəsi gün yenidən səhər tezdən üfüqdə görünürmüş. Ra çar kimi dünyanın hakimi idi.

**raca** - ari qəbilələrinin tanınmış adamlarından seçilmiş başçı. Sonralar Hindistanda knyaz titulu.



downloaded from KitabYurdu.org

**rada** (slav. "şura") - Ukrayna, Belarus, Litva, Rusiya və Polşada xalq yığıncaqlarının və silki-nümayəndəli orqanların tarixi adı.

**radikalizm** - davamçıları əsaslı və qəti dəyişiklik tərəfdarları olan siyasi cərəyan.

**Rafael** (əsl adı Raffaello Santi; 1483 - 1520) - İntibah dövrünün böyük italyan boyakarı və memarı. Ən məşhur əsərləri "Konestabile madonnası", "Sikst madonnası", "Baldassare Kastilyone" rəsmləridir. Rafael müqəddəs Pyotr kilsəsinin layihəsini hazırlamış və Romada Santa-Mariya del Popolo kilsəsinin Kici kapellasını və s. inşa etmişdir.

**rahdari** - orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrində mükəlləfiyyət; ticarət yollarını mühafizə etmək məqsədi ilə gömrükdə tacirlərdən yığılan vergi.

**Rama** - hind mifologiyasında populyar şahzadə. Rama sınaqdan keçərək Şiva allahının bu vaxtadək heç kəsin hətta əyə bilmədiyi oxunu sındırıb gözəl şahzadə Sita ilə evlənmişdi. Düşmənləri Ramanın öz ölkəsindən 14 il qovulmasına nail olurlar. Ögey qardaşı və arvadı Sita da Rama ilə birlikdə gedirlər. Meşədə sərgərdan həyat sürən Rama və onun qardaşı çoxlu igidliklər göstərir və bir neçə müdhiş rakşası (eybəcər məxluq simasında olan şər allahlarını) öldürürlər. Rakşasların çarı Sitanı qaçırır və onu cəng arabasında hava ilə Lanka adasındakı paytaxtına aparır. Sitanı xeyli axtardıqdan sonra Rama meymunların çarı ilə saziş bağlayır, meymunların və ayıların qoşunlarına başçılıq edərək okeandan körpü salır və Lankanı mühasirəyə alır. Döyüşdə Rama ilə qardaşı bir neçə rakşas sərkərdəsini öldürürlər, təkbətək yekun savaşında isə Rama rakşasların çarına qalib gəlir. O, Sita ilə birlikdə öz ölkəsinə qayıdır və çar olur.

XI əsrdən başlayaraq Rama kultu hinduizmin iki mühüm kultundan (krişnaizmlə yanaşı) biri olur. Həmin Şimali Hindistan kultuna görə, Ramaya baş allah kimi etiqad olunur.

**"Ramayana"** - şahzadə Ramanın müsibətləri və şücaətindən bəhs edən məşhur Qədim Hindistan poeması.

**ramazan** (ər. "rəməzan", far. və türk. "ramazan") - müsəlman qəməri təqvimi ilə doqquzuncu ay. İslamda qəbul olunub ki, Quran məhz həmin ayda nazil edilib - Yerə göndərilib. Ramazanda müsəlmanlar oruc tutmalıdırlar.

**rantye** - müftəxor sosial təbəqə - banklara vəsait qoyanlar, qiymətli kağız sahibləri, faiz alan və həmin gəlirlə dolananlar. Rantye bilavasitə istehsal prosesində iştirak etməyərək renta alır.

**rasizm** - insan irqlərinin qeyri-bərabərliyi şəraitinə əsaslanan ideologiya və siyasət. İrqçilər iddia edirlər ki, "tam dəyərli" və "natamam dəyərli" irqlər var və bununla da öz ölkələri daxilində irqi diskriminasiyaya (ayrı-seçkiliyə) və başqa ölkələrə münasibətdə işğalçı müstəmləkə siyasətinə haqq qazandırmağa çalışırlar.

**ratifikasiya** - ali dövlət orqanlarının razılaşan tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən imzalanmış beynəlxalq müqavilə və ya sazişi təsdiq etməsi. Məhz ratifikasiya müqaviləyə (sazişə) hüquqi qüvvə verir.



downloaded from KitabYurdu.org

**raşidi** (ər. "dindar", "mömin", "pak") - şiələrdə dörd xəlifəyə (Əbu Bəkr, Ömər, Osman və Əli) aid edilən məfhum.

**Razin** Stepan - Don kazaklarının atamanı. 1667-ci ilin mayında Xəzər dənizinin qərb və cənub sahillərinə qarətçi yürüşlərinə başladı. 1668-ci ilin yayında Azərbaycanda Niyazabad və Şabran şəhərlərini, eləcə də Maştağa kəndini talan etdi. Sonra Gilan və Rəştə yürüş edən kazaklar xeyli qənimət ələ keçirdilər. 1669-cu ilin payızında Razin şahın ona qarşı göndərdiyi donanmanı darmadağın etdi və çoxlu qənimətlə Həştərxana qayıtdı. 1670-ci ilin yazında Razin kəndli müharibəsi xarakteri alan üsyan qaldırdı. 1670-ci ilin avqustunda çar qoşunları tərəfindən məğlub edildi. Kazak starşinası tərəfindən çar hökumətinə verilmiş və 1671-ci il iyunun 6-da Moskvada edam olunmuşdur.

Reabilitasiya – 1) hüquqların bərpa edilməsi; 2) orqanizmin, xəstə və əlillərin əmək qabiliyyətinin bərpasına (əvəzinin ödənilməsinə - kompensasiyasına) yönəlmiş proses.

**referendum** - mühüm dövlət məsələsi ilə əlaqədar ümumxalq rəy sorğusu (səsvermə).

**Reformasiya** (lat. "dəyişiklik", "düzəliş") - XVI əsrdə Avropada katolik kilsəsinin yenidən qurulması (islahatı) uğrunda baş vermiş geniş ictimai hərəkat. Lüterin çıxışı ilə Almaniyada başlamışdır. Reformasiyanın ideoloqları elə tezislər irəli sürmüşdülər ki, əslində, bunlarla katolik kilsəsinin, ümumiyyətlə, öz iyerarxiya və ruhaniləri ilə birlikdə labüdlüyü faktik olaraq inkar edilirdi. Müqəddəs kitab dini həqiqətin yeganə mənbəyi hesab edilir və katoliklərin müqəddəs rəvayətləri rədd edilirdi. "Kilsə xərclərinin ucuzlaşdırılması"nı tələb edən hərəkat iştirakçıları kilsənin torpaq hüququnu və s.-ni inkar edirdilər. Reformasiyanın əsas istiqamətləri bunlardır: bürger-burjua (Lüter, Kalvin, Tsvinqli); katolik kilsəsinin ləğvini feodal istismarının ləğvi ilə bağlamağı tələb edənlər (Müntser, anabaptistlər); öz hakimiyyətlərini möhkəmlətməyə və kilsə torpaqlarını tutmağa çalışan monarxların və dünyəvi feodalların maraqlarını ifadə edən kral-knyaz cərəyanı. 1524 - 26-cı illərdə Almaniyadakı kəndli müharibəsi, Niderland və İngiltərə burjua inqilabları Reformasiya bayrağı altında keçmişdir.

**reformizm** - fəhlə hərəkatında siniflərin əməkdaşlığı və islahatlar yolu ilə fəhlələrin vəziyyətinin yaxşılaşdırılması uğrunda çıxış edən siyasi cərəyan.

**regent, regentlik** - monarxiya idarə üsullu dövlətlərdə monarxın azyaşlılığı, xəstəliyi və ya uzun müddət ölkədə olmaması ilə əlaqədar dövlət başçısı səlahiyyətinin müvəqqəti icra edilməsi. Regentlik həm kollegial (Regent Şurası), həm də fərdi (regent təyin edilməsi) ola bilər.

**regional** – məhəlli, yerli, hər hansı bir rayona, vilayətə, dövlətə və ya bir neçə dövlətə aid olan.

**regional pakt** - müəyyən coğrafi rayonda yerləşən dövlətlər arasmında beynəlxalq saziş.

**reket** - şantaj, zorakılıq yolu ilə alma, qoparma (pul və s.).



downloaded from KitabYurdu.org

**Rekonkista** (isp. "geri almaq") - VIII - XV əsrlərdə Pireney yarımadası əhalisinin ərəblər (daha doğrusu - mavrlar) tərəfindən tutulmuş ərazilərinin geri qaytarılması. 1492-ci ildə Qranada əmirliyinin süqutu ilə başa çatmışdır.

**rekonstruksiya** - 1) əsaslı dəyişiklik etmək, nəyi isə yaxşılaşdırmaq, təkmilləşdirmək məqsədi ilə yeni texniki vasitələr və texniki proseslər tətbiq etmək; 2) memarlıq və ya heykəltəraşlıq abidəsinin, tətbiqi sənət nümunələrinin, yaşayış məntəqələrinin və s. tikililərin və əşyaların saxlanılmış qalıqları, qədim rəsmlər, yazılı məlumatlar və s. üzrə ilkin simasını bərpa etmək.

**rekvizisiya** - xüsusi əmlakın məcburi şəkildə (ödəncli və ya ödəncsiz) dövlətin mülkiyyətine və ya müvəqqəti istifadəsinə götürülməsi.

**reqres** - inkişafın daha yüksək formasından ibtidai formasına keçid, geriyə hərəkət, pisə doğru dəyişiklik, tənəzzül. Reqresin əksi - proqresdir.

**relyasiya** - 1) hərbi əməliyyatlar və ya diplomatik danışıqlar barəsində xəbər, məlumat çatdırmaq; 2) döyüşçü və ya orduların mükafata təqdim olunması zamanı döyüş rəşadətlərinin təsviri.

**relyef** - düz səth üzərində qabarıq və ya batıq formalı fərqlilik.

**Rembrandt** - Harmens van Reyn (1606 -69) - böyük holland boyakan və qrafiki. Dünya incəsənətinin ən görkəmli nümayəndələrindən biri. Ən məşhur əsərləri: "Gecə gözətçiləri", "Müqəddəs ailə", "Danaya", "Fərsiz oğulun qayıtması", "Yuli Sivilisin sui-qəsdi", "Sindiki" və s.

**renta** - torpaq sahibinin icarəyə verdiyi torpaq sahəsindən torpaq rentası formasında aldığı gəlir; habelə rantyenin borc verilmiş kapitaldan faiz formasında götürdüyü gəlir.

**reparasiya** - təcavüzə başlamış dövlətin maddi-hüquqi məsuliyyəti. Təcavüzkar dövlətin zərərçəkmiş digər dövlətə dəymiş zərəri pul və ya maddi formada ödəməsindən ibarətdir. Reparasiyanın ödənməsi adətən sülh müqaviləsi ilə nəzərdə tutulur. İlk dəfə reparasiyalar Versal sistemi müqavilələrində (1919) qeyd olunmuşdur.

**repatriasiya** - müharibə və ya mühacirət nəticəsində öz ölkələrindən uzaq düşmüş hərbi əsirlərin və mülki vətəndaşların öz vətənlərinə qaytarılması.

**repressiya** - cəza tədbiri, dövlət tərəfindən həyata keçirilən cəzalandırma.

**respublika** (lat. "res" - "iş" və "publicus" - "ümumxalq") - dövlət hakimiyyətinin ali orqanlarının seçildiyi və ya ümummilli nümayəndəli təsisatla (parlamentlə) təşkil olunduğu dövlət idarəetmə forması. Respublika hələ e.ə. 509-cu ildə Qədim Romada meydana gəlmişdir.

**restavrasiya** (bərpa) - 1) nəyinsə (əşyaların, sənət əsərlərinin, binaların və s.) ilkin formasında bərpa edilməsi; 2) inqilab yolu ilə devrilmiş dövlət quruluşunun və ya əvvəllər hakimiyyətdə olan sülalənin bərpa edilməsi; 3) mövcud olmuş vəziyyətin yenidən bərpası.

**resurs** - zərurət yarandıqda müraciət edilməsi mümkün olan vəsait, vasitə, ehtiyat, gəlir mənbələri.



downloaded from KitabYurdu.org

**revalvasiya** - milli pul vahidinin dəyər kütləsinin rəsmən artırılması. Revalvasiya öz məqsədi və iqtisadiyyata təsir mexanizminə görə devalvasiyanın əksidir.

**revanşizm** - müharibədə məğlub olmuş ölkənin nəyin bahasına olursa-olsun müharibəyə qədərki mövqelərinin qaytarılmasına çalışan, hətta yeni müharibəyə başlamağa hazır olan ictimai qüvvələrinin siyasəti. Şovinizmlə sıx əlaqədə olan revanşizm siyasəti "qisas" (revanş) adı altında təcavüzə hazırlığa, itirilmiş ərazilərin qaytarılmasına, "tarixi" və ya müharibədən əvvəlki sərhədlərin bərpasına və s.-yə xidmət edir.

**revizionizm** - bax: təftişçilik.

**rezervasiya** - ölkənin yerli əhalisinin (ABŞ-da hindilər, CAR-da afrikalılar, Avstraliyada aborigenlər) və ya əhalinin hər hansı bir qrupunun zorla onlar üçün ayrılmış pis ərazilərə köçürülməsi. Rezervasiya - qəddar irqçi və ya milli diskriminasiya formalarından biridir.

**rezidensiya** - dövlət, hökumət başçısının, eləcə də yüksək dövlət və ya inzibati vəzifə tutan şəxsin iqamətgahı.

**rəiyyət** (ər. "təbəə"; "vergiverən") - öz torpaq sahəsi, xüsusi təsərrüfatı olan, dövlətə vergi verən və feodalın xeyrinə mükəlləfiyyət daşıyan kəndli.

**rəqabət** - ayrı-ayrı kapitalistlər, müəssisələr, firmalar, inhisarlar və ya ölkələr arasında xammal mənbələri, satış bazarları və kapital qoyuluşu sahələri uğrunda; böyük gəlir payı uğrunda mübarizə.

**rəqəmlər** - onluq say qədim hindlilər tərəfindən yaradılmışdır. On rəqəmin (o cümlədən sıfırın) köməkliyi ilə istənilən ədədi yazmaq mümkün oldu ki, bu da hesablamanı asanlaşdırdı. İndi, demək olar ki, bütün dünyada hind rəqəmlərindən istifadə olunur, amma Avropada həmin rəqəmləri ərəblərin vasitəsilə tanıdıqlarından onları "ərəb rəqəmləri" adlandırırlar. Ancaq ərəblərin özləri bu rəqəmləri "hind rəqəmləri" adlandırırmışlar.

**rəncbər** - XVI - XIX əsrlərdə İranda, Azərbaycanda və Ermənistanda özünün torpaq sahəsi və təsərrüfatı olmayan kəndli kateqoriyası. Feodalın torpağında onun iş heyvanı və əmək alətləri ilə işləyən rəncbər bunun müqabilində məhsulun müəyyən hissəsini ($^2/_3$-dən – $^4/_5$-dək) ona verirdi. Xanlıqlar dövründə ancaq mülkədar torpağında çalışanlar "rəncbər" adlanırdı. Talış xanlığında bu cür kəndlilərə "əkər" deyirdilər.

**rəsmi** - 1) hökumətə və ya vəzifəyə aid (məs.: rəsmi bəyanat, rəsmi mətbuat orqanı); 2) bilərəkdən təmkinli, nəfsini saxlaya bilən, təvazökar, işgüzar (məs.: danışıqlarda və ya münasibətlərdə rəsmi ton).

**Rəsulzadə** Məmmədəmin (1884 - 1955) - Azərbaycanın görkəmli siyasi xadimi 1902-ci ildə Bakı texnikumunda oxuyarkən o, hələ 17 yaşında "Gənc müsəlmanlar" təşkilatını yaratmışdı. 1904-cü ilin payızında Rəsulzadə "Hümmət" təşkilatının yaradılmasının təşəbbüsçülərindən biri olmuş, sonralar isə onun nəşr etdiyi "Təvariş" və "Yoldaş" qəzetlərinin redaktə olunmasında iştirak etmişdir.



downloaded from KitabYurdu.org

Bolşeviklərin təsiri ilə "Hümmət"in öz milli ideyalarından uzaqlaşdığını başa düşən Rəsulzadə həmin təşkilatdan çıxmışdı. 1905 - 1907-ci illər birinci Rusiya burjua inqilabından sonrakı irtica dövründə Rəsulzadə 1908-ci ildə İrana getmək məcburiyyətində qalmış, orada Səttarxan və Bağırxanla tanış olmuş və Təbrizdə



inqilabda iştirak etmişdi. Rəsulzadə 1909-cu ildə İran Demokrat Partiyasının mətbu orqanı "İrane-nou" qəzetinin redaktoru olmuşdur. Rusiyanın çar hökumətinin tələbi ilə Rəsulzadə 1910-cu ildə İranı tərk etmək məcburiyyətində qalmış və İstanbula getmişdir. Rəsulzadə İstanbulda Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Yusif bəy Akçuroğlu, habelə sonralar məşhur fikri ("Türkləşmək, islamlaşmaq, müasirləşmək") "Müsavat" partiyasının əsas şüarına çevrilən görkəmli türk maarifçisi Ziya Göy Alp ilə birlikdə işləmişdir. Rəsulzadə 1911-ci ildə "Gənc müsəlmanlar" təşkilatını "Müsavat" müsəlman demokrat partiyası"na çevirmiş və özü də onun rəhbərlərindən biri olmuşdur. Rəsulzadə 1913-cü ildə - Rusiyada Romanovlar sülaləsinin 300 illiyi münasibətilə əfv elan olunmasından sonra Bakıya qayıtmışdır. Rəsulzadə 1915-ci ildə "Açıq söz" qəzetini nəşr etməyə başlamışdı və bu qəzet faktik olaraq "Müsavat" partiyasının əsas mətbu orqanına çevrilmişdir. 1917-ci il martın 27-də Rəsulzadə Müsəlman Milli Şurası Müvəqqəti İcraiyyə Komitəsinin tərkibinə daxil olmuşdu. 1917-ci ilin mayında Rəsulzadə Ümumrusiya müsəlmanları qurultayında Rusiya tərkibində türk xalqları üçün milli-ərazi muxtariyyəti tələbləri olan məruzə ilə çıxış etmiş və bu tələb qurultay iştirakçılarının əksəriyyəti tərəfindən dəstəklənmişdi. "Müsavat" partiyasının 1917-ci il oktyabrın 25 - 29-da (noyabrın 7 - 11-də) keçirilən I qurultayında Rəsulzadə partiyanın Mərkəzi Komitəsinin tərkibinə daxil olmuşdur. 1917-ci il oktyabrın 22-də Bakı Sovetinə keçirilən seçkilərdə müsavatçılar səslərin çoxunu qazanmışdılar, lakin 1917-ci il dekabrın 31-də Rəsulzadə Rusiya bolşeviklərinin əlaltısına çevrilən Bakı Sovetinin işində "Müsavat" partiyasının iştirak etməyəcəyini bəyan etdi. 1918-ci il mayın 27-də Rəsulzadə Azərbaycan Müvəqqəti Milli Şurasının sədri seçilmişdir. 1918-ci il 4 iyun tarixli Azərbaycan - Türkiyə müqaviləsinə əsaslanan Rəsulzadə azərbaycanlılara qarşı milli qırğın siyasəti həyata keçirən Bakı Soveti ilə mübarizə aparmaq üçün Türkiyədən hərbi yardım istəmişdir. 1920-ci il aprelin 27-də ADR parlamentinin son iclasının sədri olmuşdur. Onun qəti etirazlarına baxmayaraq, bu iclasda hakimiyyətin müsəlman bolşeviklərə verilməsi haqqında qərar qəbul olunmuşdu. Azərbaycanın Qırmızı Ordu tərəfindən işğalından sonra "Müsavat" partiyası və onun mətbu orqanları qadağan edildi, müsavatçıların çoxu həbs olundu, bir hissəsi isə Türkiyə və digər ölkələrə mühacirət etdi. 1920-ci il avqustun 17-də Rəsulzadə həbs olunmuşdu; həbsxanada Məmmədəminə baş çəkən Stalin onu özü ilə Moskvaya aparmışdı. Rəsulzadə bir müddət RSFSR Milli Məsələlər üzrə Xalq Komissarlığında işləmişdi. Sonra o, Petroqrada (Sankt-Peterburq) getmiş, 1922-ci ildə isə oradan Finlandiyaya qaçmışdır. Rəsulzadə Finlandiyadan İstanbula gəlmişdir. Onun



downloaded from KitabYurdu.org

redaktəsi ilə Almaniyada "İstiqlal" qəzeti (1932 - 34) və "Qurtuluş" jurnalı (1934 - 38) nəşr olunurdu. Türkiyə hökumətinə diplomatik nota göndərən SSRİ hökumətinin tələbi ilə 1932-ci ildə Türkiyədən çıxarılmışdı. O, 1932-39-cu illərdə Varşavada yaşamışdır. 1933-cü ildə Berlində Rəsulzadənin "Azərbaycan Respublikası haqqında bəzi qeydlər", 1936-cı ildə "Çağdaş Azərbaycan ədəbiyyatı", 1938-ci ildə isə polyak dilində "Azərbaycan hürriyyət savaşı" kitabı çap olunmuşdur. Rəsulzadə 1936-cı ilin avqustunda Varşavada "Müsavat" partiyasının konfransının təşkili və keçirilməsində fəal iştirak etmişdir. İkinci Dünya müharibəsinin başlanmasından sonra Rəsulzadə Parisə, sonra Londona, oradan isə Buxarestə gedir. 1941-ci ilin payızında Rəsulzadə Şərq nazirliyinin dəvəti ilə Almaniyaya gəlir. Azərbaycanlı hərbi əsirlərin Almaniyada yaradılmış Azərbaycan Milli Ordusuna cəlb edilməsində fəal iştirak edir. Rəsulzadə 1941-ci ildə "Üçrəngli bayraq" kitabını yazır. Lakin o, tezliklə başa düşür ki, almanlar Azərbaycana müstəqillik vermək fikrində deyillər. Açıq antifaşist çıxışlarına görə 1943-cü il avqustun 5-də Almaniyadan çıxarılan Rəsulzadə Buxarestə qayıdır. Sovet qoşunları 1944-cü ildə Buxarestə yaxınlaşarkən Rəsulzadə İsveçrəyə, sonra isə Amerikanın işğal zonasında olan Mərkəzi Almaniyaya gedir. O, 1947-ci ildə Ankaraya köçür. Rəsulzadə Ankarada Türk ensiklopediyasının tərtib olunmasında fəal iştirak edir, Azərbaycanın müstəqilliyi yolunda fəaliyyətini davam etdirir. Rəsulzadə 1949-cu ildə Ankarada "Azərbaycan kültür dərnəyi"ni yaradır. 1950-ci ildə burada onun "Çağdaş Azərbaycan ədəbiyyatı" kitabı nəşr olunur. Rəsulzadə 1951-ci ildə "Azərbaycan şairi Nizami" monumental əsərini və "Çağdaş Azərbaycan tarixi" kitabını nəşr etdirir. Böyük öndər 1955-ci il martın 6-da vəfat etmiş və Ankarada dəfn olunmuşdur.

**Rəşidəddin** Fəzlullah (1247 - 1318) - alim, təbiət üzrə ensiklopediyanın, tarix, təbabət, botanika, aqro və tikinti texnikası üzrə əsərlərin müəllifi. 1298 - 1317-ci illərdə monqol elxanları Qazan xanın, Ulcaytu xanın və Sultan Əbu Səidin vəziri olmuşdur. Rəşidəddinin Təbrizdə inşa etdirdiyi Rub-i Rəşidi və Şam-Qazan hospitalları Azərbaycanda təbabət üzrə mühüm tədqiqat mərkəzi olmuşdur. Farsca yazılmış "Cami ət-təvarix" ("Ümumi tarix") Rəşidəddinin qələminə mənsubdur. "Cami ət-təvarix"in yazılması üçün çinlilər, monqollar, Kəşmirdən olan budda rahibi və avropalı rahib material toplamışlar. Azərbaycan və digər Şərq ölkələrinin tarixinin öyrənilməsi üçün mühüm mənbədir, belə ki, əsərdə monqol ağalığı dövrünə dair iqtisadiyyat və siyasi hadisələr barəsində əhəmiyyətli məlumatlar vardır.

**Rəşt müqaviləsi** (1732) - 1732-ci il yanvarın 21-də Rəştdə (İran) Rusiya imperiyası ilə Səfəvilər dövləti arasında imzalanmışdır. Rəşt müqaviləsinin şərtlərinə görə, Rusiya onun tərəfindən Kürdən cənubda işğal olunmuş Xəzərsahili Azərbaycan və İran vilayətlərini Səfəvilərə qaytarırdı. Səfəvilər isə osmanlı türklərini bu torpaqlara buraxmamağı öhdələrinə götürürdülər. Müqavilədə Səfəvilər dövləti ərazisində rus tacirləri üçün imtiyazlar nəzərdə tutulurdu.



downloaded from KitabYurdu.org

**Rəvvadilər** - Rəvvadilər dövlətində hakim sülalə (983 - 1060, 1107 - 16). Sülalənin banisi mənşəcə ərəb olan Rəvvad ibn Müsənna olmuşdur. 1054-cü ildə Rəvvadilər səlcuq türkləri Təbrizi tutandan sonra yaradılan dövlətin vassalına çevrildilər.

**Rəvvadilər dövləti** - Cənubi Azərbaycan ərazisində ərəb mənşəli Rəvvadi sülaləsindən olan Əbü-l-Hica tərəfindən əsası qoyulmuş dövlət (983 -1060,1107-16). Əbü-l-Hica Salarilər dövründə iri feodal idi, Salarilər dövləti zəiflədikdən sonra o, 983-cü ildə sonuncu Salari hakimini taxtdan salıb Rəvvadilər dövlətinin əsasını qoydu. 1028-ci ildə Rəvvadi hökmdarı Vəhsudanın icazəsi ilə 2000-dək oğuz ailəsi Azərbaycana köçdü. Bir qədər keçdikdən sonra oğuz tayfalarının Azərbaycana yeni axını oldu. Rəvvadilər dövlətin paytaxtını Ərdəbildən Təbrizə köçürdülər. 1054-cü ildə səlcuqlar sultan Toğrulun başçılığı ilə heç bir müqavimətçiz Təbrizə daxil oldular. Rəvvadilər Səlcuqilərin vassalına çevrildilər.

**rıtsarlar** (far. "cəngavərlər"),

**rıtsarlıq** - orta əsrlərdə Avropa ölkələrində imtiyazlı ictimai təbəqə; geniş mənada - bütün dünyəvi hərbçi feodallar, məhdud mənada isə - yalnız xırda dünyəvi feodallar. Rıtsarlar öz senyorlarının qoşunlarında süvari döyüşçü kimi xidmət etmək şərti ilə onlardan torpaq sahələri alırdılar. Rıtsar döyüş atı, ağır əsləhə (qılınc, qalxan, zirehli paltar) almalı, turnirlərdə iştirak etməli idi. Rıtsarlığın çiçəklənmə dövrü XII - XIV əsrlərə təsadüf edir. XV - XVI əsrlərdə odlu silahın yayılması və daimi muzdlu ordunun yaranması ilə əlaqədar rıtsarlıq tədricən yox olmuşdur. Zadəganların əksəriyyəti rıtsar idi.

**Rişelyö** Arman Jan dü Plessi - kardinal, 1624-cü ildən 1642-ci ilə qədər kral şurasının başçısı, Fransanın faktik hakimi olmuşdur. Mütləqiyyətin möhkəmlənməsinə yardım etmişdir. Hugenotların siyasi hüquqlarını ləğv etmiş; inzibati, maliyyə və hərbi islahatlar keçirmiş; feodalların qiyamlarını, xalq üsyanlarını yatırmış; zadəganlar arasında dueli qadağan etmişdir. Fransanı Otuzillik müharibəyə (1618 - 48) sürükləmişdir.

**ritual** (ayin, mərasim) - dini ayinlərin icrası zamanı tarixən formalaşmış mürəkkəb simvolik, rəmzi davranış; nitqdə, hərəkətdə, davranışda və s.-də ifadə olunan nizamlı fəaliyyət sistemi. Qədimdə ritual dinlərin əsas ünsürlərindən olub.

**Robespyer Maksimilyen** (1758 - 94) - Böyük Fransa burjua inqilabı xadimi, yakobinlərin rəhbərlərindən biri. 1793-cü il 31 may - 2 iyun xalq üsyanının rəhbərlərindən biri olmuşdur. Faktik olaraq 1793-cü ildə yakobinlər hökumətinə başçılıq etmiş, diktatura yaratmış, daxili və xarici əhsinqilabın darmadağın edilməsində böyük rol oynamışdır. Sonra öz şəxsi hakimiyyətini möhkəmlətmək məqsədi ilə rəqiblərinə qarşı, o cümlədən sol qüvvələrə qarşı terror tətbiq etməyə başladı və bununla da yakobinlər diktaturasının sosial bazasını zəiflətdi. 1794-cü il iyulun 28-də termidorçular tərəfindən gilyotində edam edildi.

**Robin Qud** - normanlara qarşı mübarizə aparmış ingilis xalq balladası qəhrəmanı, incidilmişlərin və yoxsulların müdafiəçisi.



downloaded from KitabYurdu.org

**Rodos Kolossu** - e.ə. III əsrdə Yunanıstanın Rodos adasında Günəş allahı Heliosun qədimdə "dünyanın yeddi möcüzəsi"ndən biri hesab edilən nəhəng heykəli. Heykəltəraş Xares tərəfindən qoyulmuşdur.

**Rodoslular** Makedoniyalı İsgəndərin adanı tutmağa cəhd göstərən keçmiş sərkərdəsi Demetri üzərində qələbənin şərəfinə Rodos adasının himayədarı olan Günəş allahı Heliosun nəhəng tunc heykəlini ucaltmağı qərara aldılar. Möhtəşəm abidə üzərində iş 12 il davam etdi. Onun inşasında yüzlərlə məharətli sənətkar dəmirçi, metal tökməçi, tunc emalı ustaları, daşyonan və xarrat iştirak etmişdir. İnşaat işlərində bir neçə yüz qul əməyindən istifadə olunmuşdur. Güman edilir ki, Xares Heliosu başında şüa tacı olan ucaboy və yaraşıqlı cavan kimi təsvir etmişdir. Mərmər postament üzərində, azacıq arxaya əyilən və sağ əlini alnına qoyan, guya, uzaqlara baxan şəkildə ucaldılan tunc Helios ayaq üstə durmuşdu. Sol əlində yerədək sallanan plaşını tutmuşdur. Qədim yunan tarixçilərinin yazdıqlarına görə, Xaresin düzəltdiyi heykəl təsvirolunmaz dərəcədə gözəl imiş. Helios abidəsinin hündürlüyü 35 m-ə qədər imiş. Qədim yunanlar insan boyundan çox uca olan heykəlləri "koloss" adlandırarmışlar. Ona görə də Heliosun Rodos adasındakı heykəlini Rodos Kolossu adlandırmışlar.

Amma tunc Koloss cəmi 56 il yerində durmuşdur. E.ə. 220-ci ildə Rodos adasında baş vermiş dağıdıcı zəlzələ nəticəsində nəhəng heykəlin qıçları sınmış və o, yerə yıxılmışdır. Bir çox dövlətlərin hökmdarları Rodosa heykəli bərpa etmək üçün maddi və pul yardımı göndərmişlər, lakin abidəni qaldırmaq mümkün olmamışdır. Rodosda olmuş Roma tarixçisi Plini yazırdı ki, hətta indi, Koloss uzalı olduqda belə, təəccüb və iftixar doğurur. Kolossun qırıqları min ildən artıq müddət yerdə qalmışdır. 997-ci ildə Rodosu tutan ərəblər heykəlin qırıqlarını bir tacirə satmışlar, o isə bunları 900 dəvəyə yükləyib aparmışdır. Kolossun izi bu sayaq məhv edilmişdir. Amma onun nəhəng heykəli haqqında xatirə yaddaşlarda qalmışdır.

**Rokfellerlər** - ABŞ-da maliyyə qrupu. XIX əsrin sonlarında formalaşmışdır. Əsası C.D.Rokfeller (böyük) tərəfindən qoyulmuşdur. Sənaye özəyi - "Standard oyl kompani" (1972-ci ildən - "Ekson"), maliyyə mərkəzi - "Çeyz Manhetten bank"dır. Nüfuz dairəsi - elektrotexnika, maşınqayırma, neft hasilatı, maliyyə, sığorta sahələridir. Nəzarət etdiyi kapital - 120 milyard dollardır (XX əsrin 70-ci illərinin qiyməti ilə).

**Roland** - frank qrafi, Böyük Karlın qardaşı oğlu, 778-ci ildə İspaniyaya - ərəblərə qarşı təşkil edilmiş yürüşün iştirakçısı. Savaşda franklar ərəblərə məğlub oldular. Geri çəkilən frank qoşunlarının mühafizəsini təmin edən Roland da Ronseval dərəsində basklarla döyüşdə həlak olmuşdur. XII əsrin əvvəllərində Fransada qələmə alınmış "Roland haqqında nəğmə" eposunun əsas qəhrəmanıdır.

**Roma** - rəvayətə görə, əsası e.ə. 753-cü ildə Latsium vilayətində Romul tərəfindən qoyulmuş şəhər. Qədim Roma tarixi üç əsas mərhələyə bölünür: çarlıq, respublika və imperatorluq. Əfsanəyə görə, çarlıq dövründə yeddi çar hökmranlıq



downloaded from KitabYurdu.org

edirmiş. E.ə. 509-cu ildə sonuncu Roma çarı Məğrur Tarkvini qovulduqdan sonra respublika yaradılmışdır. E.ə. III əsrin sonlarınadək bütün İtaliya ərazisini özünə tabe edən Roma güclü dövlətə çevrildi. Aparılmış üç Pun müharibəsi nəticəsində Qədim Roma Aralıq dənizi bölgəsinin ən güclü dövləti oldu. Romalılar tədricən bütün Cənubi Avropanı özlərinə tabe edərək Şimali Afrika və Kiçik Asiya üzərində nəzarət etməyə başladılar. Vətəndaş müharibələri nəticəsində Qay Yuli Sezar hakimiyyətə gəldi və Roma Respublikasının qeyri-məhdud hakimiyyətli hökmdarı oldu. E.ə. 44-cü ildə öldürülən Sezarın əvəzinə hakimiyyətə gələn Oktavian sürəkli vətəndaş müharibəsindən sonra e.ə. 27-ci ildə özünün təkbaşına hakimiyyətini qurdu və imperator rütbəsini ömürlük etdi. Eramızın 115 - 117-ci illərində imperator Trayanın hakimiyyəti dövründə Roma imperiyasının son iri işğalçı müharibələri aparıldı. Bundan sonra Roma imperiyası işğalçı müharibələrdən əl çəkib özünün geniş ərazilərinin sərhədlərini qorumağa başladı.

III əsrdə Roma imperiyasının böhranı təsərrüfat həyatının, sənətkarlığın, ticarətin, mədəniyyətin tənəzzülünə səbəb oldu. İstismarın kəskinləşməsi qulların və tabe edilmiş xalqların üsyanına gətirib çıxardı. Barbarların imperiyanın sərhədlərinə və içərilərinə müdaxilələri başlandı. İmperator Diokletian Roma imperiyasını möhkəmlətməyə cəhd göstərdi və bunun üçün respublika təsisatlarının qalıqlarını tamamilə ləğv edib imperiyanı dörd müstəqil idarə olunan hissəyə böldü. İmperator Konstantin xristianlığı qəbul etdi və paytaxtı Konstantinopola köçürdü. Eramızın 395-ci ilində Roma imperiyası iki imperator qardaş arasında Qərbi və Şərqi Roma imperiyasına bölündü və bu, imperiyanı daha da zəiflətdi. Roma 410-cu ildə Alarixin başçılığı ilə qotlar tərəfindən tutuldu. 476-cı ildə Odoakr Qərbi Roma imperiyasının sonuncu imperatoru Romul Avqustulu devirdi və imperiya süqut etdi.



**Roma papası** - katolik kilsəsi və Vatikan dövlətinin başçısı. Kardinallar kollegiyasında (1389-cu ildən etibarən yalnız kardinallardan) ömürlük seçilir.

**Roma** poeziyasının "qızıl əsr"i - e.ə. II əsrin sonu - I əsrin əvvəllərini Roma poeziyasının "qızıl əsr"i adlandırırlar. Görkəmli Roma şairləri Vergili, Horatsi, Ovidi və b. bu dövrdə yaşayıb-yaratmışlar. Poetik dilin normaları da bu dövrdə formalaşır.

**roman** üslubu - X - XII əsrlərdə Qərbi Avropada mövcud olmuş hakim bədii üslub; orta əsr Avropa incəsənətinin ən mühüm inkişaf mərhələlərindən biri. Roman üslubu memarlığında əsas rol sərt. Qərbi Roma arxitekturasının bir çox qala xarakterli nailiyyətlərinin günbəz, yarımdairəvi tağ, qalın divarlar, sütunlar və s. kimi mənimsəmələrinə verilmişdi. Kilsələr rəsmlər və relyeflərlə bəzədilirdi. Metal və ağac, mina, miniatür işləməsi yüksək inkişaf səviyyəsinə çatmışdı.

**Romul** - rəvayətə görə, Roma şəhərinin banisi və ilk çarı. Əfsanəyə görə, latın şəhərciklərindən birinin padşahı öz qardaşı qızının iki oğlunu - Romul və



downloaded from KitabYurdu.org

Remi çaya atmağı əmr edir. O qorxurdu ki, uşaqlar böyüyəndən sonra onu taxtdan sala bilərlər. Uşaqlar əvvəlcə dişi canavarı əmmiş, sonra isə çoban tərəfindən



tərbiyə olunmuşlar. Romul və Rem böyüdükdən sonra çara qarşı üsyan qaldıraraq onu öldürürlər. Onlar qərara alırlar ki, şəhər salsınlar, lakin onun harada salınacağı və bu şəhəri kimin idarə edəcəyi üstündə mübahisələri düşür. Mübahisə zamanı Romul Remi öldürür və öz adı ilə adlandırılan Roma şəhərini salır. Romalılar şəhərlərinin salındığı əfsanəvi tarixdən - e.ə. 753-cü ildən il hesabı aparmağa başlamışlar. Romadakı Kapitoli təpəliyində dişi canavara heykəl ucaldılmışdır.

**Romul Avqustul** - Qərbi Roma imperiyasının sonuncu imperatoru (475 - 476). Odoakr tərəfindən devrilmişdir.

**royalistlər** - kral hakimiyyəti tərəfdarları, monarxistlərin sinonimi. Termindən Böyük Fransa burjua inqilabı dövründə -XVIII əsrdə istifadə olunmağa başlanmışdı.

**Rubikon** - Şimali İtaliyada Rubikon çayı. Qədimdə İtaliya ilə Qalliya arasında sərhəd olmuşdur. E.ə. 49-cu ildə Sezarın Rubikon çayını keçməsi respublikaya qarşı qiyam idi. Sezar öz planı üzərində xeyli fikirləşmiş və nəhayət, demişdir: "Artıq qərar qəbul olunmuşdur" - bundan sonra isə çayı keçmək üçün yola düşmüşdür. Məcazi mənada "Rubikonu keçmək" - "qəti, həlledici qərar qəbul etmək" deməkdir.

**ruh** - guya, insanın bədənində olan fövqəltəbii varlıq. Onun bədəni tərk etməsi ilə ölüm baş verir.

**ruhani** - müxtəlif dinlərdə dini adət və xidmətlərin yerinə yetirilməsi ilə məşğul olan peşəkar sitayiş xidmətçiləri. Ruhanilər adətən bir silkdə birləşdirilir. Feodal dövlətlərdə ruhanilər zadəganlarla birlikdə imtiyazlı silkə mənsub idilər.

**Rumlu** Həsən bəy - XVI əsr Azərbaycan tarixçisi. Rumlu Səfəvi şahı I Təhmasibin sarayında xidmət göstərmiş və onun hərbi yürüşlərində iştirak etmişdir. Əsas əsəri 12 cildlik "Əhsən ət-təvarix" ("Tarixlərin ən yaxşısı") əsəridir. Onun yalnız Azərbaycanın və qonşu ölkələrin XV - XVI əsrlər tarixinin təsvir edildiyi 11-ci və 12-ci cildləri dövrümüzə çatmışdır.

**Rusiyada Fevral burjua-demokratik inqilabı** (1917) - Rusiya imperiyasında baş vermiş ikinci inqilabın əsas səbəbləri mütləqiyyətin və feodal torpaq mülkiyyətinin ləğv edilməsinin labüdlüyü, çarizmin hərbi məğlubiyyəti, Birinci Dünya müharibəsi ilə əlaqədar Rusiyada təsərrüfat pozğunluğu və aclıq idi. 1917-ci il fevralın 18-də Petroqradda Putilov zavodunda başlanmış tətil inkişaf eləyib üsyana çevrildi. Fevralın 23-də Petroqradda bir çox müəssisələrdə fəhlələr tətil edirdi. Fevralın 24 - 25-də bu tətillər ümumi siyasi tətilə çevrildi, polislə və şəhərə çağırılmış qoşunlarla küçə toqquşmaları baş verdi. Əsgərlər fəhlələrə qoşulmağa başladılar. Fevralın 27-də qoşunlar kütləvi şəkildə inqilab tərəfinə keçdi, şəhərin mühüm məntəqələri və hökumət binaları tutuldu. Xalqın tələbi ilə



downloaded from KitabYurdu.org

imperator II Nikolay taxtdan əl çəkdi və mütləqiyyət devrildi. Rusiya burjuaziyası çarizmlə kompromisə getməyə çalışdı, amma xalqın təzyiqi ilə martın 2-də burjuaziya knyaz Lvovun başçılığı ilə Dövlət Dumasının Müvəqqəti Komitəsini (sonralar - Müvəqqəti Hökumət) yaratdı. İkihakimiyyətlilik meydana gəldi. Sonra inqilab Moskvada, mart ərzində isə imperiyanın digər yerlərində qalib gəldi.

**Rusiyada 1861-ci il kəndli islahatı** - Rusiyada təhkimçilik hüququnun inqilabi-şəraitdə ləğv olunması XIX əsrin 60 - 70-ci illər burjua islahatlarından ən mühümüdür. II Aleksandrın hökuməti tərəfindən mülkədarların mənafeyini müdafiə etmək məqsədi ilə "1861-ci il 19 fevral əsasnaməsi" üzrə həyata keçirilmişdir. Mülkədarın torpağa olan sahiblik hüququ saxlanılırdı. Mülkədarlardan alınmış pay torpaqlarını kəndlilər pulla satın almaq məcburiyyətində idilər, satınalmaya qədər isə onlar "müvəqqəti mükəlləfiyyətli" adlandırılırdılar və mülkədarın xeyrinə töycü verməli və biyara getməli idilər. İslahatı yerlərdə hər mülk üçün nizamnamə sənədi tərtib edən barışdırıcı münsiflər yerinə yetirəcəkdilər. Torpaq bölüşdürülərkən mülkədarlar kəndli torpaqlarının xeyli hissəsini (kəsikləri) özlərinə götürmüş və pis torpaqları kəndlilər üçün ayırmışdılar. Kəndli islahatına cavab olaraq kəndlilər kütləvi üsyanlar qaldırdılar, lakin üsyanların hamısı amansızcasına yatırıldı. Feodalizmin bir sıra qalıqlarını saxlayan 1861-ci il kəndli islahatı Rusiyada kapitalizmin inkişafı üçün şərait yaratdı. Həll olunmamış ictimai-iqtisadi problemlər sosial mübarizənin kəskinləşməsinə səbəb oldu.

**ruslar** - VI əsrdən Kiyevə yaxın ərazilərdə, Dneprin orta axarı boyunda yaşamış şərqi slavyan tayfalarından biri. Rus tayfası "polyanlar" adlanan Dneprətrafı slavyan ittifaqına başçılıq edirdi. IX əsrdə ruslar bir sıra slavyan tayfalarını özlərinə tabe etdilər. IX əsrin birinci yarısında Kiyev Rus dövləti təşəkkül tapır və ruslar onun yaranmasında aparıcı rol oynayırlar. Kiyev knyazları (rus xaqanları) Oleqdən Vladimirə qədərki dövrdə, yəni X əsrin sonlarına qədər Kiyev knyazlarının hərbi drujinalarında ruslar və digər slavyanlarla yanaşı, varyaqlar (vikinqlər) mühüm rol oynamış, peçeneqlər və başqa türk tayfaları ilə vuruşmuş, Bizansa, Volqa Bulqariyasına, Xəzər xaqanlığına və Azərbaycan ərazisinə uzaq səfər yürüşləri etmişlər. Tarixi mənbələrdə bu yürüşləri keçirənlər "ruslar" adlandırılır. Kiyev knyazı Askoldun rus drujinalarının Azərbaycan ərazisinə birinci qarətçi yürüşü 880-ci ildə baş vermişdir. 909-cu ildə Kiyev knyazı Oleqin rus drujinaları 16 gəmi ilə Xəzər dənizindəki Abaskun adasını tutmuş və sahil yaşayış məntəqələrini qarət etməyə başlamışlar. Lakin yerli əhali rusları məğlub edə bilmişdi. 910-cu ildə rusların daha çoxsaylı dəstələri Sara adasını tutmuş, oradan Azərbaycan və İran ərazilərində sahil kənd və şəhərləri qarət etməyə başlamışlar, lakin şirvanşah tərəfindən məğlub edilmişlər. 913 - 914-cü illərdə Kiyev knyazı İqorun daha çoxsaylı ruslardan və vikinqlərdən ibarət drujinaları (hərəsində 100 döyüşçü olan 500 gəmi ilə) əldə edəcəkləri qənimətin yarısını xəzər xaqanına verəcəkləri vədi ilə xaqanlığın ərazilərindən keçib, Xəzər



downloaded from KitabYurdu.org

sahillərinə yeni yürüş etdilər. Rusların 50 minlik dəstəsi Abşeronun sahilyanı adalarında düşərgələr saldı. Ruslar bir neçə ay sahil şəhər və kəndləri talan etdilər, dinc əhalini qırdılar, qadınları və uşaqları əsir apardılar. Ancaq zəngin qənimətlə qayıdan zaman Volqanın mənsəbində xəzərlər tərəfindən darmadağın edildilər. Kiyev knyazı İqorun rus və vikinqlərdən ibarət drujinaları 943-cü ildə yenidən Azərbaycan ərazilərinə soxuldular. Onlar qayıqlarla Kür çayı yuxarı üzərək Bərdə yaxınlığında sahilə çıxdılar. Burada onlar Salarilərin qoşunlarını dağıdıb, Qafqazın iri ticarət-sənətkarlıq mərkəzi olan və o dövrdə "Arranın baş şəhəri" adlanan Bərdəni tutdular. Şəhər talan edildi, onun 20 min əhalisi isə qırıldı. Salari hökmdarı Mərzban ibn Məhəmməd 30 minlik qoşunla Bərdəni mühasirəyə aldı, lakin düşmənlərin cənubdan Salarilər dövlətinə hücumu xəbərini eşidən kimi Bərdə ətrafında 4000-lik dəstə qoydu və qoşunun böyük hissəsi ilə cənuba getdi. Bərdəlilərin müqaviməti və ruslar arasında epidemiyanın yayılması sonuncuları Bərdəni tərk etməyə məcbur etdi və gedərkən onlar şəhəri yandırdılar. Kür çayı ilə aşağı üzən ruslar Xəzər dənizi vasitəsilə çıxıb getdilər. Yarım il ərzində ruslar tərəfindən qarət edilən və əhalisi qırılan Bərdə bir daha özünə gələ bilmədi. Ruslar sonralar da Azərbaycan ərazisinə yürüşlər edirdilər. 987-ci ildə Dərbənd əmirinin xahişi ilə ruslar 17 gəmi ilə Dərbəndə gəlmiş və hakimiyyətini möhkəmləndirməkdə əmirə kömək etmişlər. Ruslar 1030-cu ildə 30 gəmi ilə Bakıya yan almış, şirvanşahın qoşunlarını məğlub edərək Kür çayına tərəf getmişlər. Rusları isə onunla düşmənçilik edən qardaşının gizləndiyi Beyləqanı mühasirəyə almış Şəddadi hökmdarı Musa gətirtmişdi. 1032-ci ildə ruslarla birlikdə Gürcüstan ərazisindən Şirvana yürüş edən alanlar paytaxt Yezidiyyəni (Şamaxı) tutub talamış, 10 minədək adamı qırmışlar, amma geriyə qayıdan zaman Dərbənd əmiri tərəfindən darmadağın edilmişlər. Dərbənd əmirindən qisas almaq məqsədi ilə alanlar və ruslar 1033-cü ildə Dərbəndə hücum etmiş, lakin yenidən məğlub olmuşlar. Bundan sonra rusların Azərbaycan əerazisinə yürüşləri başa çatmışdır.

**Russo** Jan Jak (1712 - 78) - böyük fransız yazıçısı və filosofu. "İctimai müqavilə haqqında" əsərində xalqın mütləqiyyəti devirmək hüququnu əsaslandırmışdır. "Bərabərsizliyin başlanğıcı və əsasları barədə düşüncələr" əsərində göstərmişdir ki, ictimai bərabərsizliyin səbəbi - xüsusi mülkiyyətdir. Rəsmi kilsəni və dini dözümsüzlüyü ittiham edirdi. Russonun pedaqoji görüşləri "Emil, yaxud tərbiyə haqqında" roman-traktatında təsvir olunmuşdur. Russonun ən məşhur əsərləri "Yuliya, yaxud Yeni Eloiza" və "Tövbə" bədii romanlarıdır.

**Ruzvelt** Franklin Delano (1882 - 1945) - ABŞ-ın Demokratlar partiyasından olan 32-ci prezidenti; ABŞ-ın yeganə prezidentidir ki, həmin vəzifəyə dörd dəfə seçilib. Bir sıra islahatlar keçirmiş (bax: Ruzveltin "yeni xətt"i), antihitlerçi koalisiyanın yaradılmasında əhəmiyyətli xidməti olmuşdur. BMT-nin yaradılmasına xüsusi əhəmiyyət vermişdir.



downloaded from KitabYurdu.org

**Ruzveltin "yeni xətt"i** – ABŞ prezidenti F.D.Ruzveltin 1933 - 38-ci illərdə 1929 - 33-cü illər iqtisadi böhranının nəticələrini aradan qaldırmaq məqsədi ilə həyata keçirdiyi tədbirlər sistemi. Ruzveltin "yeni xətt"i ictimai sahədə keçirilən islahatlarla iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsini qüvvətləndirmək üzrə tədbirlərlə üst-üstə düşürdü. Birinci mərhələdə milli sənayenin bərpası haqqında qanun qəbul edildi; "düzgün rəqabət kodeksi" işlənilib hazırlandı; Milli Bərpa Administrasiyası (NRA) və Kənd təsərrüfatını Bərpa Administrasiyası (AAA) yaradıldı; işsizliyi azaltmaq məqsədi ilə hökumət ictimai işlər proqramını həyata keçirdi. İkinci mərhələdə fəhlələrə həmkarlar təşkilatları yaratmaq və sahibkarlarla kollektiv müqavilələr imzalamaq hüququ verilməsi haqqında Vaqner qanunu (1935) qəbul edildi; ABŞ-da ilk dəfə olaraq işsizliyə görə müavinət və qocalığa görə pensiya nəzərdə tutan sosial sığorta haqqında qanun qəbul edildi; minimum əmək haqqı və iş həftəsinin maksimum davamiyyəti xüsusi qanunla müəyyənləşdirildi.

**rübai** - Şərq poeziyasında 4 misralı lirik şer forması.

**rüsum (gömrük, vergi)** - 1) dövlətin vətəndaşlardan, müəssisə və təşkilatlardan müəyyən xidmət növünə görə topladığı pul yığımı; 2) gömrük rüsumu - ayrı-ayrı şəxslər və ya dövlət tərəfindən onların ərazisindən aparılan mallar üçün aldıqları pul yığımı.

## - S -

**Sabir** (Mirzə Ələkbər Zeynalabdin oğlu Tahirzadənin təxəllüsü; 1862 - 1911) - böyük Azərbaycan şairi. Sabir Şamaxıda doğulmuş, ibtidai təhsilini



molladan almış, sonra isə 2 il Seyid Əzim Şirvaninin açdığı məktəbdə oxumuşdur. 1885-ci ildə özünü bir şair kimi tanıtdıran Sabir Mərkəzi Asiya və İrana uzunmüddətli səyahətə yola düşmüş, lakin atasının vəfatı və maddi məhrumiyyətlər onu geri qayıtmağa məcbur etmişdir. Yaradıcılığının ilk mərhələsində Sabir əsasən məhəbbət mövzusunda qəzəllər yazmışdır. Birinci rus burjua inqilabı illərində Sabir "Molla Nəsrəddin" jurnalında fəal surətdə çalışmışdır. Sabir Azərbaycan ədəbiyyatında siyasi satira janrını inkişaf etdirmişdir. Sabirin həmçinin uşaqlar üçün yazdığı şerlər və təmsillər də məşhurdur. O, tək Azərbaycanda yox, Yaxın Şərqin və Mərkəzi Asiyanın bir cox ölkələrində oxunan şair olmuşdur. Həyatının son illərində Sabir Balaxanıda (Bakı yaxınlığında qəsəbə) müəllimlik etmişdir. Ölümü ərəfəsində şair doğma Şamaxıya qayıtmışdır.

**sabotaj** - işdən (sərəncamdan) yayınma və ya onun formal şəkildə yerinə yetirilməsi yolu ilə qəsdən pozulması.

**Sadova** - müasir Çexiyada şəhər; 1866-cı ildə Avstriya - Prussiya müharibəsində onun yaxınlığında general Moltkenin komandanlığı ilə Prussiya



downloaded from KitabYurdu.org

ordusu general Benedekin sərkərdəlik etdiyi Avstriya-Sakson ordusunu darmadağın etmişdi. Bu döyüş Prussiyanın Almaniyada başçılıq uğrundakı mübarizəsinin taleyini həll etdi. Avstriya 1866-cı ildə Praqa müqaviləsini bağlamaq məcburiyyətində qaldı. Həmin müqavilənin şərtlərinə görə, Almaniya ittifaqı buraxılırdı.

**Sacilər** - Cənubi Azərbaycanda Sacilər dövlətində hakim sülalə (879 - 941). Sülalənin banisi məşhur türk sərkərdəsi Əbu-s-Sac Divdad ibn Yusif ibn Divdad olmuşdur. Sacilər sülaləsinin hakimiyyətinə Salarilər son qoymuşlar.

**Sacilər dövləti** - Ərəb xilafətinin dağılması dövründə Cənubi Azərbaycan ərazisində tanınmış türk sərkərdəsi Əbu-s-Sac Divdad ibn Yusif ibn Divdad tərəfindən əsası qoyulmuş dövlət (879 - 941). Artıq IX əsrin sonlarından Sacilər sülaləsinin hökmdarları özlərinin pullarını kəsdirirmişlər. Sacilər 912-ci ildən Ərəb



xilafəti xəzinəsinə xərac vermirdilər. Ermənistanı və Kaxetiyanı tutan Yusif ibn Əbu-s-Sac Şirvanşahlar dövlətini də özünə tabe etmişdi. Yusif ibn Əbu-s-Sacın dövründə Dərbənd divarları təmir olunmuş, onların sualtı hissəsi yenidən bərpa edilmişdir. X əsrin əvvəllərində Zəncandan Dərbəndə qədər, demək olar ki, bütün Azərbaycan torpaqları Sacilər dövlətinin tərkibinə daxil idi. Sacilər dövlətinin paytaxtı əvvəlcə Marağa, sonra isə Ərdəbil olmuşdur. 909-cu ildə Kiyev knyazı (rus xaqani) Oleqin ruslardan və vikinqterdən ibarət drujinaları Abaskun adasını tutmuş və ətraf yaşayış məntəqələrini talan etməyə başlamışlar, lakin yerli əhali onları məğlubiyyətə uğratmışdır. 910-cu ildə yenidən buraya yürüş edən ruslar və vikinqlər Sara adasını tutmuş və sahil yaşayış məskənlərini qarət etmişlər. Onlar buradan Gilana hücuma keçmiş, amma Gilanşahın qoşunları tərəfindən məğlub olunmuşlar. Geriyə çəkilən ruslar və vikinqlər şirvanşahın qoşunları tərəfindən darmadağın edilmişlər. 914-cü ildə xəzər xaqanı tərəfindən öz torpaqlarından keçmələrinə icazə verilən Kiyev knyazı (rus xaqani) İqorun drujinaları Abşeron yarımadası ətrafındakı adalarda möhkəmlənmişlər. Ruslar və vikinqlər bir neçə ay müddətində bu adalardan hücum edərək Azərbaycanın sahil məskənlərini qarət etmişlər. Lakin qənimətlə geriyə qayıdan ruslar və vikinqlər xəzərlər tərəfindən darmadağın olunmuşlar. Sacilər dövləti 941-ci ildə Salarilər tərəfindən tutulmuşdur.

**saxta, saxtalaşdırma** - həqiqinin yalançı ilə əvəz edilməsi, gerçəyin düz olmayanla dəyişdirilməsi (məs.: əşyaların, sənədlərin və ya tarixi məlumatların saxtalaşdırılması).

**Salamin** - Egey dənizində Attika yaxınlığında ada. E.ə. 480-ci ildə Salamin boğazında Əhəməni donanması ilə Femistoklun başçılığı altında birləşmiş yunan donanmasının döyüşü baş verdi. Daha azsaylı, amma çevik olan yunan gəmiləri - triyerlər Əhəməni donanmasını darmadağın etdi. Salamində donanması məğlub olan Kserks qoşunlarının böyük hissəsi ilə Yunanıstanı tərk etmək məcburiyyətində qaldı.



downloaded from KitabYurdu.org

**Salarilər** - Salarilər dövlətində (941 - 983) hakim sülalə. Sülalənin banisi Salar Mərzban ibn Məhəmməd olmuşdur. 983-cü ildə Salarilərin sonuncu sığınacağı - Dvin – Rəvvadilər tərəfindən tutulmuşdur.

**Salarilər dövləti** - Azərbaycan ərazisində dövlət (941 - 983). 941-ci ildə sonuncu Sacilər hökmdarını məğlub edən Salar Mərzban ibn Məhəmməd onun paytaxtı Ərdəbili tutdu. O, paytaxtı Ərdəbil olan Salarilər dövləti və sülaləsinin banisi oldu. Bir qədər sonra Salar Mərzban ibn Məhəmməd əvvəllər Sacilər dövləti tərkibinə daxil olan bütün əraziləri tabe etdi. 944-cü ildə Kiyev knyazı (rus xaqani) İqorun drujinaları yenidən Xəzər sahillərində peyda oldular. Kür çayı ilə Bərdəyədək irəliləyən ruslar və vikinqlər onu tutdular. Şəhər talan edildi, əhalinin çoxu qırıldı, xilas olanları isə qul kimi satıldı. Salarilərin qoşunları isə şəhəri mühasirəyə aldılar. Rusların arasında baş vermiş epidemiya onları şəhəri tərk etmək məcburiyyətində qoydu. Ruslar geri çəkilərkən Bərdəni yandırdılar. Bu hadisələrdən sonra Bərdə bir daha özünə gələ bilmədi. Az sonra Salarilər dövlətində ara müharibələri başlandı və dövləti zəiflətdi. 951-ci ildə Şəddadilər tədricən Azərbaycanın şimal-qərb və şimal torpaqlarını zəbt etməyə başladılar. 983-cü ildə Salarilərin son torpaqları - Dvin - Rəvvadilər tərəfindən tutuldu.

**salnamə** - tarixi hadisələrin xronoloji ardıcıllıqla yazılması, orta əsrlərin tarixi əsərlərinin əsas növlərindən biri. Salnamə xronika ilə eyniyyət təşkil edir.

**samuraylar** - orta əsrlər Yaponiyasında geniş mənada - dünyəvi feodal, daha çox işlənən məhdud mənada isə - xırda zadəganların hərbi-feodal silki. Yaponiyada 1868-ci il burjua inqilabından sonra knyazların və samurayların torpağa olan feodal mülkiyyətçiliyi ləğv edildi. Avropasayağı təşkil olunmuş orduya arxalanan hökumət samurayların silahlı çıxışlarını yatırdı.

**san** - mənsəb, yüksək rütbə.

**sanasiya** - 1) lat. "müalicə", "sağlamlaşdırma"; 2) güclü icra hakimiyyəti yaratmaq, parlamentin və siyasi partiyaların rolunu məhdudlaşdırmaq yolu ilə siyasi sistemin dəyişdirilməsi. Pilsudskinin Polşadakı diktator rejimi 1926-cı ilin mayından "sanasion" adlanırdı; 3) müəssisənin, bankın maliyyə vəziyyətinin yaxşılaşdırılması yolu ilə iflasa uğramasının qarşısını almaq və rəqabətə davamlılığını artırmaq məqsədi ilə dövlətin həyata keçirdiyi tədbirlər (ssuda, yardım və s. vasitəsilə) sistemi. Sanasiya maliyyə oliqarxiyası hakimiyyətinin möhkəmləndirilməsinə, zəhmətkeşlərdən alınan dövtet vergilərinin artırılmasına və həyat səviyyəsinin aşağı düşməsinə səbəb olur.

**sanksiya** - 1) rəsmi bəyənmə və ya təsdiqetmə; 2) cinayətə görə, qanunların pozulmasına görə cəzalandırma; 3) beynəlxalq hüquqda - BMT nizamnaməsinə uyğun olaraq beynəlxalq qaydaları və qanunçuluğu pozan dövlətə qarşı (hətta zor işlədilməklə) tətbiq edilən təzyiq; 4) qanun və ya müqavilə ilə müəyyənləşdirilmiş öhdəlikləri pozanlara qarşı təsir vasitəsi.



downloaded from KitabYurdu.org

**sankülotlar** (fr. hərfən - "qısa şalvar geyməyən") - zadəganlardan və varlı burjuaziyadan fərqli olaraq uzun şalvarlar geyən sadə şəhər yoxsulları. Bu söz 1792-ci ildə Böyük Fransa burjua inqilabı dövründə meydana gəlmişdir.

**Saray-Batu** (monq. "Batının sarayı") - Qızıl Ordanın birinci paytaxtı (1254 - 1480). Şəhərin xarabalıqlan Həştərxan yaxınlığındadır.

**Saray-Berke** - Qızıl Ordanın ikinci paytaxtı. Xarabalıqları Volqoqrad yaxınlığındadır.

**Sarayevo** - Bosniya və Herseqovinanın paytaxtı, 1914-cü il iyunun 28-də Prinsip Avstriya taxt-tacının varisi ershersoq Frans Ferdinandı burada güllə ilə qətlə yetirmişdir. Bu hadisə Birinci Dünya müharibəsinin başlanması üçün bəhanə olmuşdur.

**"sarısarıqlılar" üsyanı** - Qədim Çində qulların və kəndlilərin ağır vəziyyəti bir çox üsyanların baş verməsinə səbəb olmuşdur. Eramızın 184-cü ilində Çinin mərkəzi vilayətlərində üç Çjan qardaşlarının başçılığı ilə kəndlilərin və qulların üsyanı başlandı. İstismarçılara qarşı mübarizə əlaməti olaraq üsyançılar başlarını sarı rəngli sarğı ilə sarımışdılar, üsyanın adı da buradan götürülmüşdür. Quldarlar böyük qüvvə toplayıb üsyançılara qarşı amansız müharibəyə başladılar. "Sarısarıqlılar" öz qüvvələrini birləşdirmədilər, onların sərəncamında hökmdarın ixtiyarında olduğu kimi silah və təcrübəli sərkərdə yox idi. Çjan qardaşları mübarizədə həlak oldular. Amansız döyüşlər 20 ilədək davam etdi. Quldarlar üsyançılara qəddarcasına divan tutdular. "Sarısarıqlılar" üsyanı (184 - 204) məğlub olsa da, çar hakimiyyətinin qüvvələrini və quldarların ağalığını zəiflətdi. Üsyandan bir neçə il sonra Xan sülaləsinin hakimiyyəti devrildi, quldarlıq ləğv edildi.

**sarkofaq** - ağacdan, daşdan və ya digər materiallardan düzəldilmiş, üstündə dualar yazılmış kiçik sərdabə. Çox hallarda sarkofaq allahları təsvir edən rəsm və heykəllərlə bəzədilirdi.



**sarmatlar** - e.ə. VI - IV əsrlərdə Volqa çayı yaxınlığında yaşamış köçəri maldar tayfaların ümumi adı. E.ə. III əsrdə Qara dənizin şimal ətrafından skifləri sıxışdırmışlar. Cənubi Qafqaz və Roma dövlətləri ilə müharibələr aparırdılar. Eramızın IV əsrində sarmatlar hunlar tərəfindən darmadağın edilmişlər.

**Sasanilər** - İran şahları sülaləsi (224 - 651). Sülalənin banisi I Ərdəşir olmuşdur. Sasanilər dövləti ərəblər tərəfindən fəth olunmuşdur.

**satellit** - 1) lat. "peyk", "tərəfdar", "əlaltı"; 2) Qədim Romada - ağasını müşayiət edən silahlı muzdlu; 3) məcazi mənada - başqasının iradəsi ilə hərəkət edən adam; 4) formal olaraq müstəqil, əslində isə iri dövlətdən tam asılı olan ölkə.

**satrap** - 1) Əhəmənilər və Sasani dövlətlərində satraplıq canişini; 2) məcazi mənada - müstəbid rəhbər, bildiyini eləyən müdir, inzibatçı.

**satraplıq** - padşah I Daranın Əhəmənilər dövlətini böldüyü əyalətlərin adı.



downloaded from KitabYurdu.org

**Saturn** - qədim italiklərin mifologiyasında səpin allahı, əkinçiliyin himayəçisi Yunanlardakı Kronos allahına uyğundur.

**saziş** (barış) - vuruşan tərəflərin razılığı ilə hərbi əməliyyatların müvəqqəti dayandırılması. Adətən sazişdən sonra sülh müqaviləsi imzalanır.

**seçki əmlak senzi** - seçki hüququ almaq üçün labüd olan gəlir və əmlakın ölçüsü.

**seçki hüququ** - vətəndaşların nümayəndəli hakimiyyət orqanlarına seçmək və seçilmək hüquqları.

**sex** - orta əsrlərdə feodalların zorakılığından qorunmaq, eləcə də istehsal üçün sex üzvlərinin inhisarını və hazırlanmış məmulatın satışını təmin etmək məqsədi ilə şəhər sənətkarlarının bir və ya bir neçə yaxın peşə üzrə birləşməsi. Ustalar sexlərin tamhüquqlu üzvləri idilər. Sexlərin öz nizamnamələri, gerbləri, şəhər qoşunları tərkibində öz hərbi dəstələri və hətta ayrıca qəbiristanlıqları var idi. Erkən orta əsrlər dövründə sexlər sənətkarlığın inkişafına kömək etdi. Manufaktura və fabriklərin meydana gəlməsi ilə sexlər sənayenin inkişafını ləngitməyə başladı. XVIII əsrin sonları - XIX əsrdə qanunlarla ləğv olunmuşdu.

**"Sedan faciəsi"** - Fransa - Prussiya müharibəsi zamanı imperator III Napoleon başda olmaqla 80 minlik fransız ordusunun 1870-ci il sentyabrın 2-də Sedan şəhəri yaxınlığında əsir götürülməsi. Sedan faciəsi Parisdə 1870-ci il sentyabrın 4-də inqilabın başlanmasına, III Napoleonun devrilməsinə və Fransanın respublika (Üçüncü respublika) elan edilməsinə səbəb olmuşdur.

**seqreqasiya** - irqi və ya dini mənsubiyyətə görə hüquqların məhdudlaşdırılması, zəncilərin və ya digər "rəngli əhali"nin "ağlar"dan məcburən təcrid edilməsi. İctimai həyatın bütün sahələrində "qara və rəngli insanlar" üçün xüsusi bölmələr və ya Paralel müəssisələr yaratmaq yolu ilə, habelə ayrı-ayrı irqi və ya milli qrupları onlar üçün ayrılmış xüsusi sahələrə köçürmək yolu ilə həyata keçirilir. Seqreqasiya irqi diskriminasiyanın (ayrıseçkiliyin) ifrat formalarından biridir.

**sekta** (təriqət) - müxtəlif səbəblər ucbatından hakim kilsədən ayrılmış, uzaqlaşmış dini qrup, icma.

**Selevk I** - e.ə. 321-ci ildə diadoxların yığıncağında Babilistan Makedoniyalı İsgəndərin ən qabiliyyətli sərkərdələrindən birinə - I Selevkə çatmışdır. Digər diadoxlarla uzunsürən mübarizə nəticəsində e.ə. 312-ci ildə Selevk qəti olaraq Babilistanda möhkəmləndi, öz çarlığını və Selevkilər sülaləsini yaratdı.

**Selevkilər** – Selevkilər dövlətində hakimiyyətdə olmuş çar sülaləsi (e.ə. 312 - 63). Əsası I Selevk tərəfindən qoyulmuşdur.

**Selevkilər dövləti** - Makedoniyalı İsgəndərin ölümündən sonra meydana gəlmiş ən böyük dövlət. E.e. 321-ci ildə diadoxların yığıncağında Babilistan İsgəndərin ən qabiliyyətli sərkərdələrindən biri olan Selevkə verildi. Digər diadoxlarla aparılan uzunsürən mübarizələr nəticəsində e.ə. 312-ci ildə Selevk Babilistanda daha da möhkəmləndi və öz çarlığını yaratdı. Bu dövrdən etibarən



downloaded from KitabYurdu.org

Şərqdə min ildən artıq müddətdə istifadə olunan Selevkilər erası (burada o səhvən "İsgəndər erası" adlandırılırdı) başlandı. Midiya, Fars, Mesopotamiya, Şimali Suriya, Kiçik Asiyanın bir hissəsi, habelə Hindistan Selevkilər dövlətinə daxil idi. Amma Hindistan ərazilərini Selevk hələ IV əsrin sonlarında itirmişdi. I Selevk Makedoniyaya etdiyi hərbi yürüş zamanı həlak olmuşdur. Onun varisləri – Selevkilər bu və ya digər dövlətlərlə fasiləsiz müharibələr aparmışlar. Selevkilərin əraziləri ən bacarıqlı ellin hökmdarlarından olan III Antioxun (e.ə. 223 - 187) hakimiyyəti illərində genişlənmişdir. Onun siyasətinin xüsusiyyəti təkcə yunanlara deyil, həm də qədimdən mövcud olan şəhər özünüidarə qaydalarına arxalanmasında idi ki, bu da öz növbəsində geniş xalq kütlələri arasında onun dəstəklənməsi ilə nəticələndi. III Antioxun ordusunda yunan və makedoniyalılardan başqa, onun dövlətinə daxil olan çoxsaylı tayfa və xalqların nümayəndələri də vuruşurdu. O, Kiçik Asiyada yeni ərazilər ələ keçirdi, rəqibi - Baktriya çarı Evtidem üzərində qələbələr çaldı. Makedoniya ilə ittifaqa girən III Antiox Suriyanın cənub hissəsini, Finikiyanı və Fələstini ələ keçirdi. Lakin az sonra Roma Aralıq dənizinin şərq bölgəsinin işlərinə müdaxilə etdi. E.ə. 190-cı ildə Maqneziya (Kiçik Asiya) yaxınlığındakı məğlubiyyəti nəticəsində romalılar KiçikAsiya ərazilərinin bir hissəsini III Antioxun əlindən alırlar. Ermənistan Selevkilərdən müstəqillik əldə edir, Dəclə çayının arxa tərəfi parfiyalılar tərəfindən tutulur. III Antioxun oğlu iki dəfə Misirə soxulur və e.ə. 168-ci ildə Misir İsgəndəriyyəsini mühasirəyə alır. Amma Roma elçisi IV Antioxdan tələb edir ki, ləngimədən Misirdən çıxıb getsin və Antiox qoşunlarını buradan çıxarır. IV Antiox Şərq yürüşlərindən birində həlak olandan sonra romalıların tələbi ilə Selevkilərin hərbi donanması ləğv edilir və bütün döyüş filləri öldürülür. Nəticədə isə Selevkilər dövlətinin hərbi qüdrəti sarsılır. E.ə. 129-cu ildə parfiyalılar tərəfindən məğlub edilən Selevkilər dövlətinin ərazisi Suriya ilə məhdudlaşır. E.ə. 63-cü ildə Selevkilərin əlində qalmış sonuncu bölgə olan Suriya da romalılar tərəfindən ələ keçirilir və Romanın əyalətinə çevrilir.

**Selena** - yunan mifologiyasında Ay ilahəsi.

**selibat** - katolik dinində mütləq nikahsızlıq, daimi subaylıq. Selibat Roma papası VII Qriqori tərəfindən XI əsrdə qanuniləşdirilmişdir. 1967-ci ildə Roma papası VI Pavel selibatın dəyişilməzliyini təsdiq etmişdir.

**Semiramida** - Midiya şahzadəsi Amitida (yun. Semiramida, babil. Şammuramat), Midiya hökmdarı Kiaksarın qızı. Babil hökmdarı Navuxodonosora ərə verilmişdir. Öz vətəninin meşə və yaşıllıqlarla örtülmüş dağlarına öyrəşmiş Midiya şahzadəsi qızmar Babildə dağ meşələrinin sərinliyi və kölgəsi üçün qüssələnirdi. Babilistan hökmdarı sevgili arvadının vətən həsrətini azaltmaq arzusu ilə onun üçün məşhur "asma bağlar"ı inşa etmək qərarına gəldi.

**Semiramida bağları** - e.ə. VI əsrdə Semiramidanın Babildə tikilmiş "asma bağlar"ı qədimdə "dünyanın yeddi möcüzəsi"ndən biri sayılırdı. Babilistan çarı Navuxodonosor Midiya hökmdarı Kiaksarın qızı - şahzadə Amitida (yun.



downloaded from KitabYurdu.org

Semiramida) ilə evlənmişdi. Öz vətəninin meşələrə və yaşıllığa bürünmüş dağlarına öyrəşmiş Midiya şahzadəsi qızmar Babildə dağ meşələrinin sərinliyi və kölgəliyi üçün qüssələnirdi. Sevgilisinin vətən həsrətini azaltmaq arzusuyla



Babilistan hökmdarı Navuxodonosor Midiya dağlarına bənzəyən bütöv bir oazis - vahə tikdirib ona hədiyyə etmək qərarına gəlmişdi. Məşhur "asma bağlar" enli, dördyaruslu qüllə üzərində yerləşirdi. Hər yarusun ətrafında hündür və enli sütunlar üzərində kərpic divar hörülmüşdü. Terrasların platforması iri daşlarla döşənmiş, üstü isə qatranlanmış qamış təbəqəsi ilə örtülmüşdü. Sonra üzərinə qurğuşun təbəqəsi çəkilmiş ikicərgəli kərpic divar hörülmüşdü ki, torpaqdakı su bağın alt mərtəbələrinə axmasın. Bütün bu tikilinin üzərinə qalın münbit torpaq təbəqəsi tökülmüşdü ki, burada iri ağaclar bitə bilsin. Bağların suvarılması üçün yüzlərlə qul bütün günü dəri qablar birləşdirilmiş nəhəng suvuran təkəri fırlatmaqla Fəratdan su vurmalı idilər. Bağın yarusları enli, çəhrayı və ağ rəngli üzlük plitə çəkilmiş nərdivanlarla birləşən pillələrlə ucalırdı. "Asma bağlar"da Midiyadan çarı" əmri ilə gətirilmiş şahzadənin sevdiyi bitkilər və çiçəklər əkilmişdi. Semiramidanın "asma bağlar"ının kölgəsi və sərinliyi qızmar və meşəsiz Babildə möcüzə kimi idi. Sonralar böyük fateh Makedoniyalı İsgəndər ölüm ayağında olarkən "asma bağlar"ın kölgəsində uzanmışdı.

**senat** - Qədim Romada patrisilərin ağsaqqallar şurası. Şahlıq dövründə Romanı şah və senat idarə edirdi. Respublika dövründə senatın böyük səlahiyyətləri var idi. Dinc vaxtlarda konsullar senatla bütün məsələlər üzrə məsləhətləşməli idilər. Senat xəzinə xərclərini, hərb və sülh məsələlərini həll edir, artıq hazırlanmış sənədləri xalq yığıncağında səsə qoymağı təklif edirdi.

**"Sentrokaspi Diktaturası"** (Xəzər Hərbi Donanmasının Mərkəzi Komitəsi) - Bakıda 1918-ci il avqustun 1-də Bakı Sovetinin istefasından sonra yaradılmış hökumətin adı. Formal şəkildə hakimiyyət rus zabitləri və Xəzər donanması matroslarının əlində idi, real hakimiyyət isə "Erməni milli şurası"na, "Daşnaksütyun " partiyasına və digər erməni təşkilatlarına mənsub idi. "Sentrokaspi Diktaturası"nın ilk addımlarından biri Həştərxana yola düşən keçmiş Bakı Soveti komissarlarının olduqları gəminin Bakıya qaytarılması oldu. Komissarlar həbs olundu, zavod komitələri konfransı onları xəyanətdə günahlandırıb "xalq düşməni" elan etdi. "Sentrokaspi Diktaturası"nın dəvəti ilə ingilis qoşunlarının ilk dəstəsi avqustun 4-də Ənzəlidən (İran) Bakıya gəldi. Avqustun 17-də ingilis generalı Denstervill də Bakıya gəldi, ancaq buradakı ingilis qoşunlarının ümumi sayı cəmisi 1000 nəfərə yaxın idi. Aydın oldu ki, bu dəstə Bakını Türkiyə - Azərbaycan "islam ordusu"ndan müdafiə etmək iqtidarında deyil. İngilislər Bakı neftini çox fəal şəkildə aparmağa başladılar. Onu dəvət edən hökumətin oyuncaq xarakterini görən Denstervill şəhərin sonrakı müdafiəsini



downloaded from KitabYurdu.org

lüzumsuz saydı. 1918-ci il sentyabrın 15-də ingilis qoşunları Bakını tərk etdilər, cəbhədən gələn erməni dəstələrinin bir hissəsi və "Sentrokaspi Diktaturası" hökumətinin üzvləri də gəmi ilə Ənzəliyə yola düşdülər. 1918-ci il sentyabrın 15-də Türkiyə - Azərbaycan "islam ordusu" Bakıya daxil oldu.

**senyor** - orta əsrlərdə Qərbi Avropada tabeliyində təkcə asılı kəndli deyil, həm də vassalı olan feodal.

**senz** (seçki senzi) - bir sıra ölkələrdə vətəndaşın seçmək və ya seçilmək hüququ alması üçün konstitusiya və ya seçki qanunu ilə müəyyən edilmiş şərtlər. Ən çox yayılmış formaları: əmlak senzi - müəyyən dəyərdə əmlaka malik olmaq və ya xüsusi vergi vermək; fəal seçki hüququ üçün 21 yaşdan 25 yaşadək (passiv seçki hüququ üçün yaş həddi daha yüksək) olan yaş senzi; oturaqlıq senzi - həmin yerdə qanunda nəzərdə tutulmuş müddətdən az yaşamamaq və bir sıra başqa senzlər - təhsil, irqi və milli senzlər mövcuddur.

**Senzor** - 1) Qədim Romada senzi, dövlət maliyyəsinə nəzarəti, adatlərə, ictimai tikililərə və s.-yə nəzarəti həyata keçirən vəzifəli şəxs; 2) senzuranı həyata keçirən şəxs.

**senzura** - mətbuat və kütləvi informasiya vasitələri üzərində dövlət nəzarət sistemi.

**separat** müqavilə - vuruşan dövlətlərin birinin müharibəni davam etdirən müttəfiqlərindən fərqli olaraq rəqib tərəfdən vuruşan dövlətlərin biri və ya hamısı ilə bağladığı müqavilə.

**separatizm** - ayrılmağa, müstəqil fəaliyyətə (məs.: çoxmillətli dövlətlərdə milli azlıqların ayrılmaq və öz muxtar vilayətini və ya dövlətini yaratmaq cəhdləri) cəhd göstərmək.

**Servantes** Saavedra Migel de (1547 - 1616) - böyük ispan yazıçısı. Romanlarından əsası olan "Lamançalı Don Kixot" Renessans dövründə dünya mədəniyyətinə böyük təsir göstərmiş ən yaxşı əsərlərdən biridir.

**sessiya** - nümayəndəli orqanın, beynəlxalq təşkilatların, elmi konfransların və s.-nin işlədiyi dövr.

**Set** - Qədim Misir mifologiyasında səhra və yadellilərin qəzəbli allahı. Bitki və əkinçiliyin himayəçisi allah Osirisin qatili. Çox hallarda Set eşşəkbaşlı kimi təsvir olunurdu.

seyid (ər. "cənab", "ağa", "tayfa başçısı") - islamaqədərki Ərəbistanda tayfa başçısı, tayfa aristokratiyası nümayəndəsi. Quranda seyid həm islamaqədərki ənənəvi mənada, həm də yeni - "təmkinli cənab və möminlərin peyğəmbəri" mənasında işlədilir. Şiələr seyid məfhumunu peyğəmbərin nəslindən olanların, xüsusilə də Məhəmməd peyğəmbərin nəvəsi imam Hüseynin nəslindən olanların adlarına əlavə etməyə başladılar. "Seyid" məfhumu peyğəmbərlə qohumluq iddiasında olan müsəlman hökmdarlarının titullarının bildirilməsində geniş tətbiq edilirdi. Bir sıra müsəlman ölkələrində seyid institutu dövrümüzədək saxlanılmışdır. "Seyid" sözündən neytral "ağa", "cənab" mənasında da geniş istifadə olunur.



downloaded from KitabYurdu.org

**seym** - 1) Polşa və Finlandiyada parlament; 2) 1918-ci ildə Cənubi Qafqazda ümumərazi parlamenti (bax: Zaqafqaziya Seymi).

**Sezar Qay Yuli** (e.ə. 102 - 44) - Roma imperatoru (e.ə. 49 - 44), istedadlı sərkərdə və yazıçı. Sezar kübar patrisi ailəsində anadan olmuşdur, o, çox ağıllı və istedadlı şəxs idi. O, Roma yoxsullarına ikrahla yanaşsa da, hakimiyyətə gəlmək xatirinə onlardan istifadə edirdi. Bu məqsədlə o, yoxsullara pulsuz çörək paylanması və torpaq sahəsi verilməsi tələblərini irəli sürmüşdü. Habelə Sezar onlar üçün qladiator döyüşləri də təşkil edirdi. Sezar xalq yığıncağının onu konsul seçməsinə nail oldu, sonra isə öz razılığı ilə senat tərəfindən Qalliyaya canişin təyin edildi. Səkkizillik müharibə ərzində Sezar bütün Qalliyanı təslim etdi. Sezar bu müharibə haqqında özünün "Qalliya müharibəsi haqqında qeydlər" əsərində yazmışdır. Sezar qallardan əldə etdiyi qənimət hesabına döyüşçülərinin haqqını ikiqat artırdı, onlara qul bağışladı və vəd verdi ki, onlara torpaq da paylayacaq. Romada onun adından yoxsullar üçün tamaşalar təşkil edilir və çörək paylanılırdı. E.ə. 49-cu ildə Sezar Roma üzərinə hücuma keçdi. Senat tərəfindən komandan təyin edilən Pompey hələ ordusunu bir yerə toplamamış Balkan yarımadasına qaçdı. Sezar Romaya daxil oldu və bütün İtaliyanı tabe etdi. Quldarların bir hissəsi və Roma yoxsulları Sezarı müdafiə etdilər. E.ə. 48-ci ildə Farsal yaxınlığındakı döyüş zamanı Sezar Pompeyin ordusunu məğlub etdi, Pompeyin özü isə Misirə qaçdı və az sonra bir qatil tərəfindən öldürüldü. Pompeyin ordusunun qalıqları ilə savaşı başa çatdırmaq məqsədi ilə Sezar Misirə yola düşdü. O, Kleopatra ilə yaxınlaşdı və onun xahişi ilə rəqibi olan Pont çarı Fornakı cəmisi beş günə məğlub etdi. Sezar bu qələbə barəsində Romaya üç kəlməlik məlumat verdi: "Gəldim, gördüm, uddum!". Sürəkli vətəndaş müharibələri nəticəsində o, Roma Respublikasında bütün hakimiyyəti öz əlində cəmləşdirə bildi. Sezar özünü imperator elan etdi. O, ilk dəfə olaraq Roma sikkələri üzərində öz təsvirini yerləşdirdi. Lakin onun təkbaşına hakimiyyəti senatorların əksəriyyətinin narazılığına səbəb oldu. Başda dostu Mark Yuni Brut olmaqla ona qarşı respublikaçılar adlananlar sui-qəsd təşkil etdilər və e.ə. 44-cü ildə senatın yığıncağı zamanı Sezar öldürüldü.

**Səfiəddin** Əbdülmömin Urməvi (1216 -93) - Azərbaycan bəstəkarı. Bir sıra gözəl muğamlar yaratmışdır. Musiqi haqqında "Kitab əl-ədvar" ("Musiqi dövrləri haqqında kitab") adlı əsərin müəllifidir. Musiqinin not yazısı sisteminin banisidir.

**Səfəvilər** - 1502 - 1736-cı illərdə Azərbaycanda və İranda azərbaycanlı şah sülaləsi. Sülalənin banisi I İsmayıl sülalənin öz adını götürdüyü şeyx Səfiəddinin nəslindəndir. Ən görkəmli nümayəndələri I Təhmasib, I Abbasdır. Səfəvilər sülaləsini Qacarlar sülaləsi əvəz etmişdir.

**səfərbərlik** - 1) ordu və hərbi-dəniz donanmasında ehtiyatda olan hərbi mükəlləfiyyətli vətəndaşların həqiqi hərbi xidmətə çağırılması; 2) dövlətin hərbi qüvvələrinin ehtiyacını daha yaxşı təmin etmək məqsədi ilə iqiisadiyyatın hərbi vəziyyətə keçirilməsi; 3) geniş mənada - hər hansı mühüm bir vəzifənin, kütləvi



downloaded from KitabYurdu.org

kampaniya və s.-nin yerinə yetirilməsi üçün qüvvə, vəsait və ehtiyatların cəlb edilməsi.

**Səhhət Abbas** (1874 - 1918) -Azərbaycan şairi, həkim. Mütərəqqi romantizmin nümayəndəsi. Əsas əsərləri "Xatırla" (1908), "Tərcümeyi-hal" (1918), "Oxuculara" (1912) şerləri, "Şair, şer pərisi və şəhərli" (1916) poemasıdır.

**səhmlərin nəzarət paketi** - müəssisənin işlərində sahibə faktik nəzarət imkanı verən səhmlərin sayı.

**Səlahəddin** Yusif ibn Əyyub (1138 - 93) - böyük müsəlman sərkərdəsi, Misir sultanı, Əyyubilər sülaləsinin banisi. Avropada onun adı Saladin kimi tələffüz edilirdi. Səlahəddin Tiqritdə (müasir İraq ərazisində) anadan olmuşdur. Mənşəcə kürd olan atası "Müqəddəs torpağ"ı (Fələstini) müsəlmanların əlindən almağa çalışan səlibçilərə (xaçlılara) qarşı vuruşan sərkərdə Nurəddinin türk qoşunlarında baş zabit idi. Səlahəddin əvvəllər Dəməşqdə ilahiyyatı öyrənmiş, sonra isə atasının yolu ilə gedərək hərbçi olmuşdur. O, artıq 30 yaşlarında Nurəddinin ordusunda əsas komandirlərdən biri idi. 1164-cü ildə Səlahəddinin rəhbərliyi ilə qoşunlar Misiri səlibçilərdən təmizlədilər. Nurəddinin ölümündən sonra Səlahəddinin özü baş komandan oldu və Misirin idarə edilməsini ələ aldı. 1174-cü ildə o, çevriliş nəticəsində Əyyubilər sülaləsinin əsasını qoydu. Mühüm vəzifələrə öz qohum və dostlarını təyin edən Səlahəddin ordunu gücləndirdi, donanma yaratdı və bütün Yaxın Şərqi öz hakimiyyətinə tabe etməyə başladı. Səlahəddin 12 il ərzində Suriya və İraqı tutdu, onun hakimiyyəti Fələstindəki xaçlı dövlətlərindən başqa, bütün bölgə ərazisinə yayıldı. Səlahəddin and içdi ki, səlibçiləri qovacaq və onlara qarşı müqəddəs müharibə -cihad elan etdi. 1187-ci il iyulun 4-də Hittin yaxınlığındakı döyüşdə Səlahəddin səlibçilərə zərbə endirdi. 1187-ci il oktyabrın 2-də o, 1099-cu ildən xaçlıların əlində qalan Yerusəlimi (Qüdsü) azad etdi. Lakin az sonra ingilis kralı Şirürəkli Riçardın başçılığı ilə səlibçilərin Fələstinə 3-cü xaç yürüşü başlandı. Donanmanın da dəstəklədiyi xaçlıların çoxsaylı ordusu mühüm Aqra qalasını tutdu. Lakin Səlahəddin öz qoşunlarını toplayıb xaçlıların Yerusəlimə hücumunun qarşısını aldı və düşmənin istifadə edə biləcəyi bütün ərzaq ehtiyatlarını məhv etdirdi. 1192-ci il sentyabrın 2-də Riçard ilə Səlahəddin Suriyanın tutulmuş hissəsinin xaçlıların əllərində qalması və Yerusəlimin isə Səlahəddinin ixtiyarına keçməsi barəsində, eyni zamanda, xristianların şəhərin müqəddəs yerlərinə sərbəst gedib-gəlmələrinə icazə verilməsi haqqında 3 illiyə barışıq bağladılar. Dəməşqə qayıdandan sonra sarı qızdırmaya yoluxan Səlahəddin 1193-cü il martın 4-də öldü. Onun sərdabəsi şəhərin baş məscidinin yanında inşa edilmişdir.

**səlcuqlar** - islamı qəbul etmiş başçıları sərkərdə Səlcuqun adı ilə adlandırılmış (X əsrin sonları - XI əsrin əvvəlləri) türk oğuz tayfaları. XI əsrin 40 - 80-ci illərində səlcuqlar başçıları Toğrul bəyin rəhbərliyi ilə Mərkəzi Asiyanın bir hissəsini, İranın çox hissəsini, Kürdüstanı, İraqı, Kiçik Asiyanı, Azərbaycanı, Ermənistanı, Gürcüstanı və bir sıra digər əraziləri fəth etdilər. Sultan elan edilmiş



downloaded from KitabYurdu.org

Toğrul bəy (1038 - 63) Səlcuqilər dövləti və Səlcuqilər sülaləsinin banisi oldu. Səlcuqlar 1055-ci ildə Bağdadı tutdular və Abbasilər sülaləsindən olan xəlifələr sultan Toğrul bəydən asılı vəziyyətə düşdülər. Malazgird döyüşündə (1071) bizanslıları ağır məğlubiyyətə uğradan sultan Alp Arslan (1063 - 72) Səlcuqilər dövlətini daha da möhkəmləndirdi. Səlcuqilər dövləti siyasi qüdrətinin yüksəlişinə Məlikşahın (1072 -92) dövründə çatmışdır. XI əsrin 40-cı illərindən Səlcuqilər dövlətində feodal pərakəndəliyi dövrü başlandı və o, atabəylər tərəfindən idarə olunan ayrı-ayrı sultanlıqlara parçalanmağa başladı. Səlcuqilər dövlətinin parçalanması zamanı yaranmış dövlətlərdən biri Azərbaycan atabəyləri tərəfindən idarə olunan Eldənizlər dövləti idi. 1096 - 99-cu illərdə salibçilər Fələstini və Kiçik Asiyanı Səlcuqilərdən ala bildilər. XII əsrdə xazəzmşahlar Səlcuqilərin hakimiyyəti altında olan İranı işğal etdilər. XIV əsrin başlanğıcında yalnız Konya sultanlığı Səlcuqilərin ixtiyarında qalmışdı.

**sələmçilik** - pul ssudasının faizlə verilməsi.

**səlib yürüşləri** (xaç yürüşləri) - 1096 - 1270-ci illərdə Avropa ölkələri və katolik kilsəsi tərəfindən Yaxın Şərqə (Suriya, Fələstin və Şimali Afrikaya) təşkil olunmuş yürüşlər. Səlib yürüşləri ideyasını 1095-ci ildə Roma papası II Urban Fransanın Klermon şəhərində elan etmişdir. Səlib yürüşlərinin əsas məqsədi Avropa feodallarının və katolik kilsəsinin Yaxın Şərq ölkələrini işğal etməklə yeni torpaqlar ələ keçirmək və öz gəlirlərini artırmaq idi. Səlib yürüşlərinin işğalçılıq məqsədləri "müqəddəsin qəbri"nin və "Müqəddəs torpağ"ın (Fələstinin) "kafirlər"dən (müsəlmanlardan) azad edilməsi kimi dini şüarlarla bəzədilmişdi. Səlib yürüşlərinin əsas qüvvəsini var-yoxdan çıxmış cəngavərlər təşkil edirdi. Birinci səlib yürüşü (1096 - 99) üçün bəhanə 1071-ci ildə səlcuq türklərinin Yerusəlimi tutmaları oldu. tlk səlib yürüşü xaçlılar tərəfindən Yerusəlimin səlcuq türklərindən alınması və Yerusəlim krallığının yaradılması ilə başa çatdı. İkinci səlib yürüşü (1147 - 49) üçün bəhanə 1144-cü ildə Şərqdə yaradılmış və Yerusəlim krallığından vassal asılılığında olan Edessa qraflığının səlcuq türkləri tərəfindən tutulması oldu. Üçüncü səlib yürüşü üçün bəhanə 1187-ci ildə Səlahəddin Əyyubinin Yerusəlimi xaçlılardan geri alması oldu. İkinci və üçüncü səlib yürüşləri nəticəsiz başa çatdı. Roma papası III İnnokentinin təşəbbüsü və Venesiya tacirlərinin qüvvəsi ilə təşkil olunan dördüncü səlib yürüşü (1202 - 1204) Bizansa qarşı yönəlmişdi və Konstantinopol xaçlılar tərəfindən tutulandan sonra 1204-cü ildə imperiyanın bir hissəsində səlibçilərin dövləti - Latın imperiyası yaradıldı. Beşinci (1217 - 21), altıncı (1228 - 29), yeddinci (1248 - 54) və səkkizinci (1270) səlib yürüşləri o qədər də əhəmiyyətli rol oynamamışdı. 1291-ci ildə Aqranın müsəlmanlara keçməsi ilə xaçlılar Yaxın Şərqdə əldə etdikləri torpaqlarını tamamilə itirdilər.

İşğal olunmuş Şərq ölkələrində yaşayan və onlarla ticarət edən avropalılar şərqlilərdən çox şeyi öyrəndilər: düyü, qarabaşaq, limon, ərik, qarpız və s.-ni Avropada əkib-becərməyə başladılar; qamışdan bişirilmiş şəkərdən ərzaq kimi



downloaded from KitabYurdu.org

istifadə etdilər; Şərqdən yel dəyirmanını işlətməyi öyrəndilər. Şərq mədəniyyətinin təsiri ilə avropalıların məişətində də böyük dəyişikliklər baş verdi - onlar yeməkdən əvvəl əllərini yumağa, yemək zamanı bıçaq və çəngəldən istifadə etməyə, isti hamamlarda çimməyə, alt və üst paltarlarını yuyub-dəyişməyə başladılar.

**səlibçilər** (xaçlılar) - səlib (xac) yürüşlərinin iştirakçıları. Paltarlarına qırmızı parçadan xaç işarəsi tikdiklərinə və səlib yürüşündə iştirak edəcəklərinə vəd verdiklərinə görə onları xaçlılar (səlibçilər) adlandırırdılar.

**sənaye** - əmək alətləri, eləcə də xammal və material, yanacaq və enerji istehsalı, ağac emalı və sənayedə alınmış və ya kənd təsərrüfatında hasil edilmiş məhsulun sonrakı emalı ilə məşğul olan müəssisələr məcmusu.

**sənaye çevrilişi** - məhsuldar qüvvələrin inkişafında manufakluradan maşınlı istehsala keçidlə baş verən sıçrayış; Ceyms Uattın buxar maşınının istifadəsi sayəsində mümkün olmuşdur. XVIII əsrin 60-cı - XIX əsrin 10 - 20-ci illərində İngiltərədə, sonra isə XIX əsr boyunca ABŞ, Fransa, Almaniya, İtaliya və Yaponiyada baş vermişdir.

**sənətkarlıq** - insanın müxtəlif məmulatların düzəldilməsindən ibarət istehsal fəaliyyəti formalarından biri. Qədim dövrlərdə - sənətkarın ustalığına əsaslanan sadə əmək alətlərinin istifadə olunması ilə əl istehsalı. Sənətkarlıq istehsalı üçün fərdi əmək fəaliyyəti forması xarakterikdir - sənətkar tək və ya cüzi sayda köməkçi ilə işləyir.

**sərraf** - qədimdə və orta əsrlərdə pul dəyişən, ona qiymət qoyan və ya onunla alver edən şəxs.

**sfinks** - Misir fironlarından birinin insan başlı uzanmış şir heykəli. Abidənin hündürlüyü 20 m-dən artıqdır. Sadə misirlilərdə sfinks qorxu hissi yaratdığından onlar həmin abidəni "dəhşət atası" adlandırmışlar.

**Sıma Syan** - e.ə. II əsrin sonu - I əsrin əvvəllərində yaşamış Çin tarixçisi. Çoxsaylı yazılı mənbələr əsasında ən qədim zamanlardan öz dövrünədək "Tarixə dair qeydlər" adı ilə Çin tarixini yazmışdır. Sıma Syanı "Çin tarixinin atası" adlandırırlar.

**Sikkə** - qızıl, gümüş, mis və ya bürüncdən zərb edilmiş (kəsilmiş) pul nişanı.

**silk** - malik olduqları hüquq və vəzifələri adət və ya qanuna görə təsbit olunmuş əhali qrupu.

**silki monarxiya** - monarxın hakimiyyətinin silki nümayəndəli yığıncağa arxalandığı mərkəzləşdirilmiş feodal dövləti. Silki monarxiya XIII - XIV əsrlərdə Avropanın əksər ölkələrində silklərin və silki nümayəndəli orqanların (İngiltərədə parlament, Fransada Baş Ştatlar, İspaniyada korteslər və s.) yaranması prosesində bərqərar olmuşdur. Silki monarxiya mərkəzləşdirilmiş dövlətin inkişafında ilk mərhələdir; bu dövrdə kral hakimiyyəti ölkəni silklərin yardımı olmadan idarə



downloaded from KitabYurdu.org

etmək üçün hələ kifayət qədər güclü deyildir. Silki monarxiyanı mütləq monarxiya əvəz etdi.

**Sin** - 1644 - 1911-ci illərdə Çin imperatorlarının mancur sülaləsinin adı.

**Sin Şi-xuandi** - Sin çarlığının hökmdarı (e.ə. 221-209). Sin Şi-xuandi zor və çeviklik sayəsində, ayrı-ayrı dövlətlər arasındakı düşmənçilikdən yararlanmaqla bütün Çini öz hakimiyyəti altına alır. E.ə. 221-ci ildə o özünü "birinci Sin hökmdarı" mənasını verən Sin Şi-xuandi elan edir. Sin Şi-xuandinin hakimiyyəti illərində Böyük Çin səddinin tikintisinə başlanılır. Sin Şi-xuandinin dövründə qanunverici və inzibati sistemlər təkmilləşdirilmiş, pul sistemində islahat keçirilmiş, yeni pullar - sikkələr dövriyyəyə daxil edilmişdir. Onun dəfn edildiyi sərdabədə arxeoloqlar minlərlə döyüşçü heykəli aşkar etmişlər.

**sindikat** - eyni tipli məhsul istehsal edən müəssisələr birliyi. Sindikat üzvləri istehsal vasitələrinə mülkiyyət hüquqlarını və istehsal müstəqilliyini saxlayırlar. Sindikata daxil olan müəssisələr kommersiya müstəqilliyini itirir, həmin müəssisələrdə istehsal olunan məhsul sindikatın mülkiyyəti kimi bu məqsəd üçün yaradılmış vahid satış kontoru vasitəsilə satılır.
daxil olan müəssisələr kommersiya müstəqilliyini itirir, həmin müəssisələrdə istehsal olunan məhsul sindikatın mülkiyyəti kimi bu məqsəd üçün yaradılmış vahid satış kontoru vasitəsilə satılır.

**"Sinuxet haqqında hekayə"** - misirli əyanın səyahət və macəraları haqqında Qədim Misir hekayəti.

**sionizm** (Yerusəlimin yerləşdiyi təpələrdən birinin - Sionun adından) - XIX əsrin axırlarında Avropada yəhudi burjuaziyası arasında meydana gəlmiş və əsasında yəhudilərin müstəsnalığı və bütün yəhudilərin Fələstinə köçürülüb milli yəhudi dövlətinin yaradılması ideyası olan millətçi cərəyan. 1948-ci ildə İsrail dövlətinin yaradılmasından sonra sionizm İsrailin dövlət siyasətinin rəsmi ideologiyası və özülünü təşkil etdi.

**sipahi** (bir sıra hind dillərində "sipahi" - "döyüşçü") - Ost-Hind şirkətinin hindlilərdən cəlb elədiyi muzdlu əsgər.

**sirk** (lat. "çevrə") - Qədim Romada at yarışları üçün on minlərlə tamaşaçı tribunası olan ippodrom. Sirkdə yüngül döyüş arabalarına qoşulan dörd atla yarışlar keçirilirdi.

**Siseron Mark Tulli** (e.ə. 106 - 43) - Romada siyasi xadim, natiq və yazıçı. Respublika quruluşunun tərəfdarı.

**Sisianov** Pavel Dmitriyeviç (1754 -1806) - mənşəcə qədim gürcü zadəgan nəslindən olan knyaz, rus generalı. Sisianov İmereti və Meğrelinin (Gürcüstan) işğalına rəhbərlik etmişdir. 1802-ci ildən Qafqazdakı rus qoşunlarının baş komandanı; Car-Balakən camaatının, Gəncə və Şamaxı xanlıqlarının işğalına rəhbərlik etmişdir. 1805-ci il Kürəkçay müqaviləsinin şərtlərinə görə, Qarabağ və Şəki xanlıqlarının Rusiya imperiyasının himayədarlığını qəbul etmələrinə nail olmuşdur. Qafqaz xalqlarına nifrətlə yanaşan Sisianov onlara qarşı qəddarlığı ilə də



downloaded from KitabYurdu.org

fərqlənirdi. Azərbaycanın Rusiya tərəfindən işğalı zamanı onun Azərbaycan xanlarına göndərdiyi təhqiredici məktubları da bunu sübut edir. Bakılı Hüseynqulu xanla danışıqlar zamanı xanın qardaşı İbrahim bəy tərəfindən 1806-cı il fevralın 8-də öldürülmüşdür.

**situasiya** - hərfi mənada "vəziyyət" "şərait" bildirir.

**sivilizasiya** - 1) mədəniyyətin sinonimi; 2) maddi və mənəvi mədəniyyətin səviyyəsi, inkişaf mərhələsi (antik sivilizasiya, müasir sivilizasiya); 3) barbarlıqdan sonra gələn ictimai inkişaf səviyyəsi.

**siyasi avantürizm** - ictimai qanunauyğunluğu, real şəraiti və qüvvələr nisbətini nəzərə almayan siyasi fəaliyyət. Belə siyasət bir qayda olaraq iflas və məğlubiyyətlə nəticələnir.

**siyasət** (or.) - 1) məmləkəti idarə eləmək və beynəlxalq münasibət sahəsində hər hansı bir dövlətin fəaliyyəti; 2) bir dövlət, partiya, idarə və ya şəxsin öz işində tutduğu müəyyən istiqamət; 3) məcazi mənada - hiylə, kələk.

**skalp** - bir sıra xalqların hərbi adətinə görə, öldürülmüş (tək-tək hallarda sağ) düşmənin başından qənimət kimi tükü ilə birlikdə soyulub çıxarılmış dərisi. Qallarda və skiflərdə də mövcud olmuşdur. XVII - XIX əsrlərdə Şimali Amerika hindilərinin yalnız az qisminə məlum olan skalp çıxarmaq adəti digər hindi qəbilələri arasında da yayıldı; belə ki, ingilis və fransız müstəmləkəçiləri hindi "müttəfiqlər"inə düşmən qəbilənin döyüşçülərinin skalpı üçün pul verməyə başlamışdılar.

**skiflər** - Qara dənizin şimal sahillərində məskunlaşmış qədim tayfalar (e.ə. VII - eramızın III əsrləri). Skif tayfaları "çar", "köçəri" və "əkinçi"lərə bölünürdülər. Skiflərin təsərrüfatları: köçəri maldarlıq, əkinçilik, metal emalı, Qara dənizin şimal sahillərindəki antik şəhərlərlə ticarət. E.ə. 512-ci ildə Əhəməni hökmdarı I Daranın başçılığı ilə böyük qoşun skiflərə qarşı yürüş etdi. Skif qoşunları Daranın ordusunu aldadaraq şərqə doğru içərilərə Azov dənizinin boş səhra sahillərinə qədər irəliləməyə şirnikləndirdilər və burada mühasirəyə alınmaq təhlükəsini hiss edən farslar öz yaralılarını da ataraq tezliklə geriyə qaçmağa başladılar. E.y. IV əsrdə skiflər Qara dənizin şimal sahillərində özlərinin Skif dövlətini (paytaxtı - Skif Neapolu şəhəri) yaratdılar. Qotlar Skif dövlətini dağıtdıqdan sonra skiflər digər tayfalarla qaynayıb-qarışmışlar. Skiflərin bir çox şəhərgahları və kurqanları qalmışdır. Bunlardan ən məşhurları Soloxa, Külöba, Tolstaya mogila və Çertomlıkdır.

**skvatter** - özgə torpaqlarını -özbaşına tutmaqla məşğul olan silahlı köçkün. XVII -XIX əsrlərdə ABŞ-ın şimal-qərbində, habelə Avstraliyada kənd təsərrüfatında kapitalizmin inkişafının fermer və ya Amerika yolunun formalaşmasında böyük rol oynamışdır.

**slavyanlar** - eramızın əvvəllərində germanlarla yanaşı, slavyan tayfaları Visla çayı hövzəsində və ondan şərqdə yaşayırdılar. I-II əsrlərin antik müəllifləri onları "venedlər" adı ilə göstərmişlər. Slavyanlar qəbilə icmasında yaşayırdılar.



downloaded from KitabYurdu.org

Slavyanların əsas məşğuliyyəti əkinçilik idi; onlar meşələri qınr, hazırlanan əkin sahəsində ağacların kötüklərini yandırır, sonra isə külündən gübrə kimi istifadə edirdilər. Onlar həm də ovçuluq, balıqçılıq və meşə arıçılığı ilə məşğul olurdular. IV - VI əsrlərdə slavyan tayfalarının Elba çayından xeyli qərbə, elecə də cənuba - Balkan yarımadasına doğru yerdəyişməsi baş verdi. VI əsr Bizans tarixçiləri cənubi slavyan tayfalarını sklavinlər (slavenlər), Şərqi slavyanları isə antlar adlandırırdılar.

**Sotokl** - Afinanın e.ə. V əsrdə ən böyük faciə yazarlarından biri. 123 pyes yazmış, onlardan yalnız yeddisi dövrümüzə çatmışdır. Ən məşhur əsərləri "Antiqona", "Tiran Edip", "Elektra". Afinada faciə yazan şairlərin yarışında dəfələrlə qələbə çalmışdır.

**Solon** - mənşəcə aristokrat, lakin kasıb ailədən olan Afina islahatçısı. 594-cü ildə Afinanın doqquz çarından biri olan Solon bir çox yeni qanunlar qəbul etdi. Kəndlilərin borcları ləğv olundu. Borca görə köləliyə düşmüş afinalılar dövlət hesabına kölələlikdən azad edildilər və bundan sonra gələcəkdə afinalıları borca görə qula çevirmək qadağan olundu. Solon əmlaklarının miqdarından asılı olaraq Afina vətəndaşlarını dörd dərəcəyə böldü. Solon yeni məhkəmə təşkil etdi, xalq yığıncağında qərarların qəbul olunması üsulunu dəyişdirdi. O, Afinada da ticarətdə digər yerlərdəki kimi pul tətbiq etdi və bu, ticarətin və sənətkarlığın inkişafına təkan verdi. Solon öz islahatları ilə Afina demokratiyasının əsaslarını qoydu.

**sosiologiya** - ümumən cəmiyyət, ayrı-ayrı ictimai institutlar (dövlət, hüquq, əxlaq və s.), ictimai qruplardakı proseslər haqqında elm. Sosioloqlar münaqişələrin nizamlanması vasitələrini və daha rasional idarəetmə və təşkilatçılıq üsullarını işləyib hazırlamağa cəhd göstərirlər.

**"soyuq müharibə"** - İkinci Dünya müharibəsindən sonra meydana çıxmış məfhum. Kapitalist və sosialist ölkələri arasında qarşıdurma siyasətini ifadə etmək üçün istifadə olunmuşdur; hazırda böyük dövlətlərin maraqları toqquşduqda işlədilir. "Soyuq müharibə" siyasətinin ünsürləri hələ İkinci Dünya müharibəsi başa çatmamış təzahür etmişdi. 1946-cı il martın 5-də ABŞ-ın Fulton şəhərində Böyük Britaniyanın keçmiş baş naziri U.Çörçillin çıxışı ilə Qərb açıq şəkildə "soyuq müharibə"yə başladı. "Soyuq müharibə"nin/ proqramı, əslində, elə bu çıxışda izhar olunurdu. 1947-ci ildə Çörçill Qərbi Avropa ölkələrinin SSRİ-yə qarşı yönəlmiş hərbi blokunun yaradılması layihəsi ilə çıxış etdi. "Soyuq müharibə" üçün güc işlətmək təhlükəsi, öz baxışlarını diktə etməyə çalışmaq, iqtisadi blokada cəhdləri, əks tərəfə qarşı pozuculuq fəaliyyəti və psixoloji müharibə aparmaq istəkləri, hərtərəfli silahlanmaya girişmək və hərbi hazırlıqlar görmək, təcavüzkar bloklar və ittifaqlar yaratmaq səciyyəvidir.

**soyurqal** - Qaraqoyunlu və Ağqoyunlu padşahları tərəfindən hərbi xidmətdə olanlara - feodal və əmirlərdən tutmuş sıravi döyüşçülərə qədər hər kəsə verilən şərti torpaq mülkiyyəti. Soyurqalı irsən də vermək mümkün idi, amma



downloaded from KitabYurdu.org

bunun üçün onun sahibi mütləq orduda xidmət etməli idi. Soyurqal vergilərdən, məhkəmədən və mərkəzi hakimiyyət idarəçiliyindən azad idi.

**Sparta** - e.ə. II minilliyin sonlarında Qədim Yunanıstanın Peloponnes yarımadasının cənub-şərqində yerləşən Lakonika vilayətinə soxulmuş dori tayfaları tərəfindən yaradılmış polis. Sparta vətəndaşlarını spartalılar və ya spartiatlar adlandırırdılar, Spartada çağırılan xalq yığıncaqlarında yalnız spartalılar iştirak edə bilərdilər. Onlar Spartanı idarə edən ağsaqqallar şurası və iki çar seçirdilər. E.ə. VII əsrdə spartalılar Messeniya vilayəlini tutdular. Tutulmuş əyalətlərin yerli sakinləri ilə müqayisədə spartalılar azsaylı idilər, yalnız onların tam hüquqları var idi, qalanları isə ya hüquqsuz ilotlara, ya da tam hüququ olmayan sənətkarlara və tacirlərə çevrilmişdilər. Spartalıların əsas peşəsi hərbi xidmət idi. Spartalılar döyüşdə falanqa düzümündən istifadə edirdilər. E.ə. V əsrin sonlarında Peloponnes müharibəsində Afina üzərində qələbə çalan Sparta Yunanıstanın ən güclü şəhər-dövləti oldu. Lakin e.ə. 221-ci ildə Makedoniya ordusunun Sellasiya döyüşündəki qələbəsindən sonra Spartanın qüdrəti sarsıldı və o, Makedoniya monarxiyasının təsiri altına düşdü. E.ə. 146-cı ildə Sparta Romanın Axey əyalətinin müttəfiqinə çevrildi. Eramızın 395-ci ilində Alarixin başçılıq etdiyi qotlar onu dağıtdılar.

**Sparta təlimi** - e.ə. VIII - VI əsrlərdə Spartada vətəndaşların uşaqlarının tərbiyəsi üzrə dövlət sistemi. 7-20 yaşlarında olan oğlan uşaqları bir növ məktəb-kazarmalarda, öz valideynlərindən ayrı yaşayır, burada hərbi hazırlıq keçir, güləş və yumruq savaşı öyrənirdilər. Onlarda dözümlülük, məhrumiyyətlərə vərdişlik yaradılırdı. Onlara bir qədər də oxumaq, yazmaq, hesab, fleytada çalmaq və xorda oxumaq öyrədilirdi. Oğlan uşaqları öz komandirlərinin əmrlərini sözsüz yerinə yetirməli idilər. Kiçik səhvə və ya itaətsizliyə görə onları qamçılayırdılar. Onlar yalnız böyüklərin icazəsi ilə danışa bilərdilər. Oğlanlar təlimin sonunda xüsusi şəkildə imtahan verməli idilər - onlardan hər biri bir ilot öldürməli idi. Qızlar evlərdə tərbiyə olunurdu. Onların təliminə qaçmaq, güləş, disk və nizə atmaq da daxil idi. Həm oğlanlara, həm də qızlara lakonik danışmağı öyrədirdilər.

**Spartak** - mənşəcə Balkan yarımadasının cənub-şərqində yaşayan Frakiya tayfalarından idi. O, romalılar tərəfindən əsir götürülmüş, qaçmağa cəhd etdiyindən qladiatorluğa göndərilmişdir. Spartakın olduğu qladiator məktəbi böyüklüyünə görə İtaliyanın ikinci şəhəri olan Kapuyada yerləşirdi və türməyə oxşayırdı. Qladiatorlar gücü, ağlı və şücaəti ilə fərqlənən Spartakın rəhbərliyi altında qaçmağı qərara aldılar. Keşikçilər bundan xəbər tutsalar da, qladiatorların bir qismi qaçaraq Vezuvi dağında gizlənə bildi. Zəngin malikanələrə və yoldan ötən arabalara basqın edən qaçmış qladiatorlar düşməndən ələ keçirdikləri silahlarla silahlanmışdılar. Ətraf malikanələrdən olan qullar da Spartaka qoşulmağa başladılar. Beləliklə, e.ə. 74-cü ildə qədim dövrün ən iri üsyanı baş verdi. Üsyançılara qarşı xırda dəstə göndərildi və o, tezliklə darmadağın edildi. Belə olduqda senat 3 minlik qoşunu onlara qarşı göndərdi. Romalılar Vezuvinin zirvəsinə gedən yeganə cığırı tutdular. Üzüm tənəklərindən nərdivan hörən üsyançılar sıldırım yarğandan aşağı düşərək



downloaded from KitabYurdu.org

Roma qoşunlarını darmadağın etdilər. Bundan sonra Spartak qısa müddət ərzində Roma qoşunları nümunəsində üsyançılardan ibarət 60 minlik döyüş qabiliyyətli ordu yaratdı. Üsyançıların əsas qüvvələri sürətlə Alp dağlarına doğru irəlilədi ki, İtaliya ərazisindən çıxa bilsinlər. Kriksin başçılığı ilə 10 minlik üsyançı dəstəsi isə İtaliyadan getmək istəmədi, üsyançıların əsas qüvvəsindən ayrıldı və sonra romalılar tərəfindən məhv edildi. Po çayının vadisində üsyançıların üzərinə göndərilən hər iki konsulun qoşunlarını Spartak ayrı-ayrılıqda darmadağın etdi. Azadlığa yol açılmışdı, lakin üsyançılar geriyə dönərək əvvəlki yolla İtaliyanın cənubuna doğru irəlilədilər. Yəqin ki, onların çoxu İtaliyanı tərk etmək istəmirdi. Roma qoşun dəstələri Spartakın dostələri yaxınlaşan zaman qorxu içərisində qaçmağa başlayırdı. Romalılar təşviş və qorxu içərisində idilər: Hannibalın dövründən Roma dövləti belə təhlükəli vəziyyətə düşməmişdi. Yeni qoşun təşkil olundu və sərkərdə Krass başçı təyin edildi; daha iki sərkərdəyə - İspaniyada olan Pompeyə və Makedoniya əyalətinin canişini Lukulla senatın əmri göndərilmişdi ki, qoşunları ilə Krassın köməyinə gəlsinlər. Krass Roma qoşunlarında nizam-intizamı bərpa etdi. Spartak isə bu vaxta qədər öz qoşunlarını İtaliyanın cənub-qərb burnuna gətirdi və Siciliya adasına keçməyə cəhd göstərdi. Pul müqabilində üsyançıları boğazdan keçirməyə vəd verən dəniz quldurları isə sonda onları aldatdılar. Üsyançılar sallar düzəltdilər, amma tufan onları dənizə apardı. Krass burundan yeganə yolun gəldiyi ensiz bərzəxi tutdu, onun döyüşçüləri burada dərin xəndək qazdılar və hündür torpaq aşırımı düzəltdilər. Üsyançılar tələyə düşdülər, aclıq başlandı. Üsyançılara müraciət edən Spartak dedi: "Dəmirdən ölmək aclıqdan ölməkdən yaxşıdır". İstehkamlara hücum edən üsyançılar onları keçə bilsələr də, onların $^2/_3$-si həlak oldu. Bundan sonra üsyançıların bir hissəsi yenidən Spartakdan ayrıldı. Qəflətən onlara hücum edən Krass hamısını qırdı. Bu zaman Lukullun qoşunları İtaliyaya çıxdı, Pompeyin legionları isə artıq çatmaqdaydı. Roma ordularının birləşməsinə imkan verməmək üçün Spartak Krassın qoşunları ilə döyüşmək qərarına gəldi. E.ə. 71-ci ildə Brundizi şəhəri yaxınlığında Spartakın son döyüşü oldu; mərdliklə vuruşan üsyançıların qüvvələri artıq tükənmişdi, üstünlük romalıların tərəfində idi. Üsyançıların qoşunları darmadağın edildi, qalıqları isə qaçmağa başladı. Özünü yetirən Pompeyin legionları üsyançıların qalıqlarını qırdılar. Əsir düşmüş altı min üsyançını Kapuyadan Romaya gedən Appi yolu boyunca dar ağaclarında çarmıxa çəkdilər. Roma dövləti yalnız bütün qüvvələrini səfərbər etməklə Spartak üsyanını (e.ə. 74-71) yatıra bildi.

**spekulyasiya** - malların, qiymətli kağızların və digər oşyaların süni qıtlıq yaradılması məqsədi ilə sonradan daha baha qiymətə satılması üçün alınması və satışı.

**Ssipion Afrikalı (böyük)** - böyük Roma sərkərdəsi (e.ə. 237 - 183). II Pun müharibəsində əvvəlcə e.ə. 209 - 206-cı illərdə Karfagen qoşunlarını İspaniyada əzişdirdi, sonra isə e.ə. 204-cü ildə qoşunları ilə Afrikaya çıxdı və e.ə. 202-ci ildə Zama yaxınlığındakı döyüşdə Hannibalın qoşununu məğlub etdi. Karfagenə qaçan



downloaded from KitabYurdu.org

Hannibal sülh bağlanmasını istədi. Beləliklə, e.ə. 201-ci ildə II Pun müharibəsi başa çatdı. Afrikanı tutduğuna görə senat Ssipiona "Afrikalı" fəxri titulunu verdi.

**Ssipion Afrikalı (kiçik)** - Roma sərkərdəsi. E.ə. 146-cı ildə Karfageni tutub dağıtmış, III Pun müharibəsini başa çatdırmışdır.

**SSRİ** (Sovet Sosialist Respublikaları İttifaqı; 1922 - 91) - totalitar dövlət, 1922-ci il dekabrın 30-da bolşeviklər tərəfindən yaradılmışdır. Formal olaraq onun təsisçiləri Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR), Ukrayna Sovet Sosialist Respublikası (Ukrayna SSR), Belorusiya SSR və Zaqafqaziya Sovet




Federativ Sosialist Respublikası (ZSFSR) sayılır (sonuncuya Azərbaycan SSR, Gürcüstan SSR, Ermənistan SSR daxil idilər). O dövrdə bu "müstəqil" respublikaların hamısının ərazisində Rusiya Qırmızı Ordusunun hissələri yerləşirdi. 1925-ci ildə Özbəkistan SSR-lə Türkmənistan SSR SSRİ tərkibinə daxil oldular, 1929-cu ildə Tacikistan SSR, 1936-cı ildə isə Qazaxıstan SSR və Qırğızıstan SSR yaradıldı. 1936-cı ildə ZSFSR ləğv edildi və Azərbaycan, Ermənistan və Gürcüstan SSR birbaşa SSRİ-nin tərkibinə daxil oldular. 1940-cı ildə Rumıniyadan qoparılmış Bessarabiya Moldaviya MSSR-lə birləşdirildi və Moldaviya SSR yaradıldı. 1940-cı ildə Latviya, Litva və Estoniya SSR SSRİ-yə birləşdirildi. SSRİ-nin ərazisi 22,4 mln. $km^2$ idi. SSRİ-nin tərkibində 15 müttəfiq respublika - Azərbaycan, Belorusiya, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Ermənistan, Latviya, Litva, Moldaviya, Rusiya (RSFSR), Tacikistan, Türkmənistan, Özbəkistan, Ukrayna və Estoniya; habelə 20 muxtar respublika, 8 muxtar vilayət, 10 muxtar dairə, 127 diyar və vilayət olmuşdur. SSRİ-də 100-dən artıq millət və xalq yaşayırdı. Milli sərhədlər elə müəyyənləşdirilmişdi ki, bir sıra xalqlar ayrı-ayrı milli dövlət qurumlarına düşərək bir neçə yerə parçalanmışdılar, bəziləri isə özlərinin istəyindən asılı olmadan digər qurumlarda birləşdirilmişdilər. SSRİ-nin bir sıra çoxsaylı xalqlarının, ümumiyyətlə, milli dövlət qurumları yox idi. Bütün bunlar milli münaqişələr üçün zəmin yaratdı. 1990-cı ildə SSRİ-nin əhalisi 280 mln. nəfər idi. XX əsrin 20-ci illərində SSRİ-də yeni iqtisadi siyasət həyata keçirilirdi. 1920-ci illərin sonu - 30-cu illərin əvvəllərində Stalin yeni iqtisadi siyasəti ləğv etdi və zorakı kollektivləşdirmə və sənayeləşdirmə yolunu tutdu. Ölkədə mədəni inqilab başlandı. 1930-cu illərin əvvəllərində Stalin kütləvi repressiyalara başladı. SSRİ-də inzibati amirlik idarə sistemi formalaşdı. Geniş reklam edilən, lakin qeyri-real olan 5 illik planlar yerinə yetirilmədi. 1939-cu il avqustun 23-də SSRİ ilə faşist Almaniyası bir-birinə hücum etməmək haqqında pakt imzaladı. Bununla da Şərqi Avropanı nüfuz dairəsinə böldülər. İkinci Dünya müharibəsinin başlanması Stalinə ərazi işğallarını həyata keçirməyə imkan verdi - SSRİ və Almaniya faktik olaraq Polşanı öz aralarında bölüşdürdülər; Qırmızı Ordu Estoniya, Latviya və Litvanı işğal etdi; SSRİ - Finlandiya müharibəsi başlandı və Leninqrad ətrafındakı torpaqlar zəbt



downloaded from KitabYurdu.org

olundu; Almaniyanın razılığı ilə Bessarabiya Rumıniyadan qoparıldı. 1941-ci il iyunun 22-də Almaniya SSRİ üzərinə hücum etdi, Böyük Vətən müharibəsi başlandı. SSRİ-nin müasir müharibəyə hazır olmaması lap əvvəldən özünü büruzə verdi. Alman qoşunları 5 - 6 ay ərzində Belorusiya, Ukrayna, Pribaltika ərazilərini işğal edib Leninqradı mühasirəyə aldılar və Moskvaya yaxınlaşdılar. SSRİ, ABS və Böyük Britaniya antifaşist koalisiyası yaratdılar. Bütün sovet xalqlarının qüvvələrinin səfərbər olunması nəticəsində Qırmızı Ordu Moskva yaxınlığında alman qoşunlarını məğlub etdi, Stalinqrad və Kursk yaxınlığında döyüşlərin gedişini öz xeyrinə dəyişdi. Müharibə 1945-ci ildə faşist Almaniyası və Yaponiyanın darmadağın edilməsi ilə başa çatdı. İkinci Dünya müharibəsindən sonra Yalta (Krım) və Potsdam konfranslarının qərarlarına uyğun olaraq Almaniya Köniqsberqi ətraf rayonları ilə birlikdə (Şərqi Prussiya) SSRİ-yə verdi və o, Kaliningrad vilayətinə çevrildi, Polşa Ukraynanın Karpatyanı ərazilərini, Finlandiya Petsamonu, Yaponiya Cənubi Saxalini və Kuril adalarını SSRİ-yə verdi. Müharibə illərində SSRİ 20 milyon nəfər insan və milli sərvətinin 30%-ni itirdi. Müharibədən sonrakı dövrdə azad olunmuş və yeni zəbt edilmiş torpaqlarda



bərpa işlərinə başlanıldı. Aşağı əmək haqqı alan əhali həm də istiqrazların məcburi yayılması yolu ilə dövlət tərəfindən daim qarət olunurdu. Stalinin ölümündən sonra hakimiyyətə gəlmiş Xruşşov sələfini şəxsiyyətə pərəstişdə günahlandırdı və siyasi məhbusların bir qismini azad etdi; ölkədə qısamüddətli "mülayimləşmə" dövrü başlandı. Xruşşovun göstərişi ilə 1956-cı ildə sovet qoşunları xalq inqilabını yatırmaq üçün Macarıstana daxil oldu. Xruşşovun hakimiyyəti subyektivizm və volyuntarizm ilə xarakterizə olunur. 1961-ci ildə SSRİ-də pulların denominasiyası keçirildi və bu, yenidən bahalanmaya səbəb oldu. Sovet nüvə raketlərinin Kubada yerləşdirilməsi 1962-ci ildə Karib böhranına səbəb oldu. Xruşşovun dövründə SSRİ ilk dəfə olaraq xaricdən taxıl almağa başladı. 1964-cü ildə o, Brejnev tərəfindən vəzifəsindən uzaqlaşdırıldı. Brejnev SSRİ iqtisadiyyatında başlanmış islahatları yarımçıq dayandırdı. 1968-ci ildə Çexoslovakiyada xalq inqilabını boğmaq məqsədi ilə sovet qoşunları "Beynəlmiləl yardım" adı ilə ora yeridildi. Külli miqdarda neft dollarlarının ölkəyə daxil olması hesabına xalqın rifahı müəyyən müddətə bir qədər yüksəldi. Lakin neft dollarları Brejnev başda olmaqla partiya rəhbərliyi tərəfindən israfçılıqla xərcləndi. 1979-cu ildə sovet qoşunları yenidən "Beynəlmiləl yardım" adı ilə Əfqanıstana yeridildi. Bundan sonra iqtisadiyyatda durğunluq dövrü başlandı. 1980-ci illərin əvvəllərində SSRİ-də ət, yağ, sonra isə şəkər, kibrit və s. satışına talon sistemi tətbiq edildi. Andropovun və Çernenkonun qısamüddətli hakimiyyətlərindən sonra 1985-ci ildə Qorbaçov hakimiyyətə gəldi. O, SSRİ-də iqtisadiyyatın və sosial-mədəni inkişafın "sürətləndirmə konsepsiyası" ilə çıxış etdi və bunu "yenidənqurma" adlandırdı. Lakin onun həyata keçirilməsi mexanizmi düşünülmədiyindən yeni qanun və qərarlar gözlənilən nəticəni vermədi.



downloaded from KitabYurdu.org

Uğursuzluqların əsas səbəbi Sov.İKP rəhbərliyi və aparatı tərəfindən islahatların gizli boykot edilməsi idi. 1987-ci ilin yanvarında Qorbaçov "aşkarlıq" xəttini elan etdi. Qorbaçovun təşəbbüsü ilə başlanan spirtli içkilər əleyhinə kampaniya nəticəsində dövlət xəzinəsinə 36 milyard rubl zərər dəymişdir. 1987 - 88-ci illərdə SSRİ-nin müxtəlif bölgələrində milli münaqişələrdən ibarət "qaynar nöqtələr" meydana çıxdı. İlk münaqişələrdən biri də Daqlığ Qarabağ üstündə baş verdi. Qorbaçov 1989-cu ilin martında SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri oldu və Sov.İKP-nin cəmiyyətdəki inhisarını ləğv etməyə başladı. SSRİ-də orta və uzaqmənzilli nüvə başlıqlı raketlərin ləğvi prosesi başlandı. 1989-cu ildə Qorbaçov sovet qoşunlarını Əfqanıstandan çıxartdı. Əfqanıstana silah satışının dayandırılması haqqında SSRİ ilə ABŞ arasında razılaşma əldə edildi. Bu illərdə SSRİ-də iqtisadiyyatın dağılması başlandı - inflyasiya artdı, pulların əmtəə ilə



təminatı pisləşdi, "qara bazar"ın qiymətləri həlledici rol oynamağa başladı, cəmiyyətdə sosial gərginlik artdı, daimi böhranlar, ayrı-ayrı malların tapılmaması bunu daha da gərginləşdirdi. 1989-cu ildən SSRİ-də şaxtaçıların tətilləri başlandı. 1989 - 90-cı illərdə Qorbaçov hökuməti müttəfiq respublikaları güc ilə SSRİ tərkibində saxlamağa çalışırdı. Onun göstərişi ilə Vilnüs (Litva), Tbilisi (Gürcüstan) və Bakıya sovet qoşunları yeridildi, dinc əhaliyə qarşı silah işlədildi. 1990-cı ildə hökumət bazar iqtisadiyyatına keçidə hazırlaşmağa başladı. Qorbaçovun zor gücünə SSRİ-ni qoruyub saxlamaq cəhdləri baş tutmadı. 1990-cı ildə Litva SSRİ-dən çıxması haqqında bəyanat verdi. Sonra müttəfiq respublikalar bir-birinin ardınca özlərinin suverenliyi və müstəqilliklərinin bərpa olunması haqqında bəyanatlar verməyə başladılar və öz prezidentlərini seçdilər. 1990-cı ilin ortalarında Qorbaçov yeni ittifaq müqaviləsinin zəruriliyi haqqında danışmağa başladı. 1991-ci ilin martında SSRİ-nin bərabərhüquqlu suveren respublikalardan ibarət yeniləşmiş federasiya şəklində saxlanılması ilə bağlı ümumittifaq referendumu keçirildi. Səsvermədə iştirak edənlərin $^{3}/_{4}$-ü SSRİ-nin saxlanılmasına səs verdi. Apreldə SSRİ prezidenti ilə 9 respublikanın rəhbərləri Moskva yaxınlığındakı Novo-Oqaryovoda yeni ittifaq müqaviləsinin protokolunu imzaladılar. Avqustun 19 - 21-də Moskvada "avqust qiyamı baş verdi və bundan sonra Qorbaçov faktik olaraq hakimiyyətdən kənarda qaldı, respublika rəhbərləri isə səlahiyyətləri öz əllərinə aldılar. "Avqust qiyamı"ndan sonra Moskvada DTK-nın fəaliyyəti dayandırıldı, Sov.İKP-nin isə varlığına son qoyuldu. Əvvəllər ittifaq müqaviləsinə qoşulmaq istəyən respublikalar da özlərinin müstəqilliyini elan etdilər. Noyabrın 14-də Qorbaçov ilə 7 respublikanın rəhbərləri yenidən dövlətlərarası birlik - "Suveren Dövlətlər İttifaqı" yaratmaq üçün toplaşdılar, lakin hazırlanmış müqavilə respublikalarda geniş etirazla qarşılandığından onu yalnız Qorbaçov imzaladı. Dekabrın 8-də Rusiya Federasiyası, Ukrayna və Belorusiya prezidentləri Müstəqil Dövlətlər



downloaded from KitabYurdu.org

Birliyi (MDB) yaratmaq haqqında müqavilə imzaladılar. Dekabrın 21-də Alma-Atada 9 respublikanın rəhbərləri SSRİ-nin varlığına son qoyulması haqqında bəyanat qəbul etdilər. Dekabrın 25-də Qorbaçov SSRİ prezidenti vəzifəsindən istefaya getdi. 1991-ci il dekabrın 26-da çağırılması mümkün olan SSRİ Ali Sovetinin iki palatasından biri - Respublikalar Şurası SSRİ-nin varlığına son qoyulması haqqında formal bəyanat qəbul etdi. Beləliklə, sovet imperiyası dağıldı.

**staqnasiya** - istehsalda, ticarətdə və s.-də durğunluğu bildirən iqtisadi məfhum.



**Stalin** (ləqəbi; əsl adı İosif Vissarionoviç Cuqaşvili; 1879-1953) SSRİ rəhbərlərindən biri, generalissimus. Cənubi Qafqazda 1905-1907-ci illər inqilabının iştirakçısı. Rusiyada Oktyabr çevrilişinin təşkilatçılarından olmuşdur. 1922-ci ildən ÜİK(b)P MK-nın baş katibi. 1941-ci ildən Dövlət Müdafiə Komitəsinin (DMK) sədri. Qanunçuluğun kobud pozuntularına yol vermiş, SSRİ-də şəxsiyyətə pərəstiş yaratmış və repressiyalar (terror) keçirmişdir.

**status** - vətəndaşın, hüquqi şəxsin hüquqi vəziyyəti.

**status-kvo** - müəyyən dövrə mövcud olan və ya mövcud olmuş faktik və ya hüquqi vəziyyət. "Status-kvonun bərpa edilməsi" dəyişiklikdən əvvəl mövcud olan vəziyyətə qayıtmağı bildirir.

**statut** - 1) dövlətdaxili və beynəlxalq təsisat və təşkilatların təşkili və fəaliyyən qaydalarını müəyyənləşdirən müddəa, nizamnamə; 2) Böyük Britaniya və ABŞ-da qanunverici aktlar; 3) hər hansı bir təltifin verilməsi, təsviri və s. haqqında nizamnamə, qayda.

**stela** - daş üzərində oyulmuş relyef təsvirli yazı, kitabə.

**stil** (incəsənətdə) - müəyyən dövr və cərəyanda incəsənətin uzlaşan xarakterik xüsusiyyətləri.

**Strabon** - qədim yunan coğrafiyaşünası və tarixçisi (e.ə. I əsr - eramızın T əsri). 17 kitabdan ibarət "Coğrafiya" əsərini yazmışdır. Burada o, imkan daxilində təsvir etdiyi ölkələrin coğrafi mövqeyini, təsərrüfatını, adətlərini, dini görüşlərini və başqa xüsusiyyətlərini əks etdirməyə çalışmışdır. Strabonun "Coğrafiya"sının on birinci kitabının xeyli hissəsi Azərbaycanın ərazisinə həsr olunmuşdur. Bu kitabda ölkəmizin ərazisində yaşamış tayfalar haqqında qiymətli məlumatlar vardır.

**strateq** - Qədim Afinada sərkərdə. E.ə. VI əsrin sonlarından hər il on strateq seçilirdi. Bu vəzifələri tutmaq hüququna yalnız ilk üç dərəcədən olan varlı və zəngin vətəndaşlar malik idilər. Strateqlər polisin (şəhərin) siyasətinə böyük təsir göstərir və onu idarə edirdilər (məs.: Perikl).

**streleslər** - XVI əsr - XVIII əsrin əvvəlində Rus dövlətində daimi qoşunları təşkil edən xidməti adamlar; odlu silahla silahlanmış piyada döyüşçü. Pul, çörək, bəzənsə torpaqla məvacib alırdılar. XVII əsrin axırlarında streles üsyanları baş



downloaded from KitabYurdu.org

vermişdir. Streles qoşunları I Pyotr tərəfindən nizami ordu yaradılması ilə ləğv olunmuşdur.

**Stüartlar** - Şotlandiya (1371 - 1714) və İngiltərədə (1603 - 49, 1660 - 1714) kral sülaləsi.

**Suasson** - 486-cı ildə Suasson yaxınlığındakı döyüşdə Xlodviqin başçılığı ilə salik (sahil) franklarının qoşunları Qalliyada keçmiş Roma canişininin qoşunlarını darmadağın etdi və bundan sonra franklar Qalliyanın Çox hissəsini özlərinə tabe etdilər.

**subsidiya** - pul müavinəti, pul yardımının göstərilməsi. Ssudadan fərqli olaraq subsidiya geriyə qaytarılmır.

**sultan** - müstəqil dini hökmdarın titulu. Quranda "sultan" titulu "hakimiyyət", "qüdrət", "əzəmət" mənasında istifadə olunur. X əsrdən etibarən hökmdarları məcazi olaraq onların "böyüklüyü" mənasında sultan adlandırırlar, lakin Səlcuqilər dövründə "sultan" məlik və ya əmirlə müqayisədə daha yüksək, İran sahənşahına uyğun gələn titula çevrilir. Osmanlı imperiyasında dövlətin ali hökmdarı. XIV - XIX əsrlərdə Azərbaycanda və İranda rütbəcə xandan aşağıda duran xırda ərazi başçısı.

**sultanlıq** - Azərbaycanda xandan asılı olan və sultanın idarə etdiyi xırda mülk. XVIII əsrin 40-cı illərindən Azərbaycan ərazisində 5 sultanlıq - Ərəş, Qəbələ, Qazax, İlisu və Şəmşəddil sultanlıqları var idi.

**surə** (ər. "sıra", "dərəcə") - Quranın bölündüyü yüz on dörd fəslin hər biri.

**suverenitet** - daxili və xarici siyasətdə dövlətin xarici müdaxiləyə imkan verməyən siyasi müstəqilliyi və bağımsızlığı.

**sülalə** - bir nəsildən və ya ailədən olan monarxlar. Sülalə adətən nəslin əsasını qoyanın, banisinin və ya görkəmli nümayəndəsinin adı ilə adlandırılır.

**Süleyman I Qanuni** (Avropada Möhtəşəm Süleyman) - Osmanlı sultanı (1520-66). Süleyman onuncu Osmanlı sultanıdır, 1494-cü il noyabrın 6-da Trabzonda anadan olmuşdur. Gəncliyində əvvəlcə babasının, sonra isə atasının ordusunda döyüşmüşdür. Atası sultan I Səlimin ölümündən sonra 1520-ci ildə Süleyman taxta sahib oldu və həmin vaxtdan işğalçı müharibələrə hazırlaşmağa başladı. Mülki işlərə baxan bacarıqlı vəzir İbrahim paşa imkan yaratmışdır ki, uzunsürən müharibələr zamanı Süleymanın diqqəti ancaq qoşunu idarə etməyə yönəlsin. Süleyman atasından qalmış, dünyada ən böyük və yaxşı təlim görmüş gözəl piyada, süvari, artilleriya və mühəndislərə malik ordunun sahibi oldu. Süleymanın qoşunları 1521-ci ildə Belqradı tutdular. Növbəti ildə Süleyman rıtsarlara - Aralıq osmanlıların hökmranlığının bərqərarlaşmasına əsas maneə olan Rodos adasındakı iohançılara qarşı müharibəyə başladı. 6 aylıq uğursuz mühasirədən sonra Süleyman rıtsarlara adadan maneəsiz çıxmaq şərti ilə təslim olmalarını təklif etdi və onlar bununla razılaşdılar. Macarıstan üzərinə hücuma hazırlaşan Süleyman qonşu Polşa ilə bitərəflik haqqında müqavilə bağladı və bundan sonra 80 minlik ordusunu Macarıstana yeritdi. 1526-cı il avqustun 29-da



downloaded from KitabYurdu.org

Moxaç yaxınlığındakı həlledici döyüşdə Osmanlı türkləri güclü top atəşinin köməyi ilə bir neçə hücum nəticəsində 15 mindən çox macarı və onların kralı Lüdoviki öldürdülər. Moxaç savaşından sonra Süleyman Macarıstanın paytaxtı Budanı tutdu və öz adamını orada taxta oturtdu. Bundan sonra Süleyman Avstriya ilə müharibəyə başladı və Vyana yaxınlığında məğlubiyyətə uğrasa da, sülh müqaviləsində Macarıstana olan hüquqlarının Avstriya Habsburqları tərəfindən qəbul edilməsinə nail oldu. Avropada işlərini başa çatdıran Süleyman Şərqdə işğallara başladı: 1534-38-ci illərdə Səfəvilər dövlətinin ərazilərinə soxuldu, Təbriz və Bağdad şəhərlərini tutdu. Süleyman eyni zamanda Fransa ilə "Müqəddəs Roma imperiyası"na qarşı ittifaqa girdi. Süleymanın keçmiş dəniz quldduru Barbarossanın sərkərdəliyi ilə göndərdiyi donanma 1538-ci il sentyabrın 27-də Prevez yaxınlığındakı döyüşdə Venesiya və Avstriyanın birləşmiş qüvvələri üzərində qələbə çaldı və bundan sonra Osmanlı imperiyasının Aralıq dənizi üzərində 30 illik nəzarəti təmin olundu. 1555-ci ildə Səfəvilər dövləti ilə sülh bağlandı. Müqaviləyə görə, Ərzurum, İrəvan, Van, Təbriz və Gürcüstan Osmanlı imperiyasının tabeliyinə keçdi. Avstriyaya yürüşü zamanı 72 yaşlı Süleyman 1566-cı il sentyabrın 5-də hərbi düşərgəsində öldü. Hərbi və diplomatik sahələrdəki uğurlarına görə Süleymana "Möhtəşəm" ləqəbi verilmişdir. Öz vətənində isə sultana "Qanuni" ləqəbi verilmişdir. Süleyman öz imperiyasında incəsənətin və maariflənmənin qayğısına qalırdı.

**Süleyman Rüstəm** (təxəllüsü; əsl adı Süleyman Əliabbas oğlu Rüstəmzadə; 1906 - 89) - Azərbaycanın xalq şairi. Dəmirçi ailəsində doğulmuşdur. Süleyman Rüstəm Azərbaycan SSR-in əməkdar incəsənət xadimi, ictimai xadimdir. İbtidai təhsilini Süleyman Sani Axundovun direktor olduğu rus-müsəlman məktəbində almışdır. Təhsilini N.Nərimanov adına Sənaye Məktəbinin elektromexanika bölməsində, pedaqoji texnikumda, Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsində və I Moskva Dövlət Universitetində davam etdirmişdir. Süleyman Rüstəm 16 yaşından yazmağa başlamışdır.

**Süleyman** Rüstəmin ən məşhur əsərləri "Çimnaz xanım yuxudadır" (1922) birpərdəli komediyası, "Ələmdən-nəşəyə" (1927), "Addımlar" (1930), "Ulduzlar" (1934), "Gecənin romantikası" (1938), "İki sahil" (1950) şerlər toplusu, "Partizan Əli", "Yaxşı yoldaş", "Ana və poçtalyon" poemaları, "Qaçaq Nəbi" tarixi pyesi və başqalarıdır.

**sünnilər** - sünniliyin davamçıları.

**sünnilik** - islamda (şiəliklə yanaşı) iki əsas dini cərəyandan biri. Müsəlmanlar arasında sünnilər çoxluq təşkil edirlər. Sünnilər Quranla bərabər, sünnəni də qəbul edirlər. Şiəlikdən fərqli olaraq sünnilik müsəlman ali hakimiyyəti (imam - xəlifə) barəsində məsələ həll edilərkən "bütün icmanın razılığı"na, əslində isə onun dini-siyasi rəhbərliyinə əsaslanır.

**sünnə** (ər. "əs-sünnə" - "adəf, "qayda", "qanuri", "qayda-qanun") - bütün müsəlman icması və hər bir müsəlman üçün Məhəmməd peyğəmbərin həyatı



downloaded from KitabYurdu.org

nümunə və təqdir kimi, insanın və cəmiyyətin həyatının bütün problemlərini həll etmək üçün maddi mənbə kimi nümunə sayılır. Sünnə Məhəmməd peyğəmbərin davranışından, deyimlərindən və deyimsiz bəyəndiklərindən ibarətdir. Sünnə nəsildən-nəslə şifahi ötürülürdü və sünnilərdə hədis, şiələrdə isə xəbər kimi qeydə alınmışdır. Allaha hansı davranışın xoş gəlməsi barədə Qurandan sonrakı mənbə kimi sünnəyə hörmətlə yanaşılır. Sünnənin öyrənilməsi müsəlman təhsilinin mühüm hissəsidir. Müsəlmanlarda adi danışıqda sünnə, sadəcə, doğru, düzgün, müvafiq hərəkət mənasını verə bilər. Bununla əlaqədar olaraq bir sıra müsəlman ölkələrində "sünnə" sözü "sünnət adət" mənasında işlədilir.

**Süveyş böhranı** (1956) - Misir tərəfindən Süveyş kanalının milliləşdirilməsi İngiltərə, Fransa və İsrail tərəfindən Misirə qarşı təcavüz edilməsinə bəhanə oldu. Misir xalqının qətiyyətli müqaviməti və sülhsevər qüvvələrin dəstəyi təcavüzkarları hərbi əməliyyatları dayandırmağa məcbur etdi. 1956-cı ilin dekabrında İngiltərə və Fransa, 1957-ci ilin martında isə İsrail öz qoşunlarını Misirin ərazisindən çıxardılar.

**syoqun** - 1192 - 1867-ci illərdə Yaponiyada hərbi-feodal hakimlərin titulları; onların dövründə imperator sülaləsinin real hakimiyyəti yox idi.

## - Ş -

**Şabran** - Şirvanda orta əsr şəhəri və eyniadlı vilayətin mərkəzi. Əsası VI əsrdə qoyulmuşdur. Şirvanşahlar dövlətinin tərkibinə daxil idi. XVIII əsrin əvvəllərində osmanlılar tərəfindən dağıdılmışdır. Şabranın xarabalıqları Quba şəhərindən 25 km cənub-şərqdə yerləşir.



**şaduf** - yüksəklikdə yerləşən tarlaları suvarmaq üçün suyu qaldırmaq vasitəsi. E.ə. II minilliyin ortalarında Qədim Misirdə ixtira edilmişdir. Şaduf yerə basdırılmış dirək və hərəkət etdirilən şüvüldən ibarət imiş. Onun bir başına daş, digər tərəfinə isə tuluq - dəri vedrə bərkidərmişlər.

**şah** ("hökmdar", "ağa") - bir sıra Yaxın Şərq və Ön Asiya ölkələrində monarxın titulu. İlk dəfə Sasanilər dövlətində istifadə olunmuşdur.

**şahmat** - Qədim Hindistanda yaranmış oyun. Əvvəllər "dörd qoşun növü" adlandırılan oyunda hind ordusunun tərkibi və döyüş düzümü əks etdirilirdi. Hazırda bir qədər dəyişdirilmiş formada çox populyardır. Oyunun adı isə farsca "şah öldü" deməkdir.

**şahı** - XVI əsrdə Azərbaycanda dövriyyədə olmuş sikkə. 50 dinara bərabər tutulurmuş.

**şahənşah** (far. "şahlar şahı") - Sasanilər dövründə İran şahlarının titulu.

**Şamaxı (Şirvan) xanlığı** - XVIII əsrin ortalarında Şimali Azərbaycan ərazisində Hacı Məhəmmədəli bəy, habelə Məhəmməd Səid və Ağası qardaşları



downloaded from KitabYurdu.org

tərəfindən yaradılmış xanlıq. İlk vaxtlar xanlıq Məhəmmədəli xan (iqamətgahı Yeni Şamaxı), Məhəmməd Səid və Ağası qardaşları (iqamətgahları Şamaxı)



tərəfindən idarə edilirdi. Bu cür ikihakimiyyətlilik xanlığı zəiflədirdi. 1763-cü ildə Məhəmməd Səid Yeni Şamaxını tutdu və Məhəmmədəli xanı əsir götürdü. Şamaxı xanlığın mərkəzi oldu. Az sonra Məhəmməd Səid xanla şəkili Hüseyn xan arasında kəskin ixtilaf yarandı. Bundan istifadə edən Fətəli xan Şamaxı xanlığını tutub torpaqlarını bölüşdürmək haqqında Hüseyn xanla saziş bağladı. 1767-ci ildə Məhəmməd Səid xan və Ağası xan müttəfiq qoşunları tərəfindən məğlub edildi. Şamaxı xanlığının qərb hissəsi Şəki xanlığının tərkibinə, digər hissəsi isə Quba xanlığının tərkibinə daxil oldu. Şəkili Hüseyn xan Ağası xanın gözlərini çıxartdırdı, Fətəli xan isə Məhəmməd Səid xanı Dərbəndə sürgün etdi. Az sonra müttəfiqlər arasında başlanmış narazılıq onunla nəticələndi ki, şəkili Hüseyn xan şamaxılı Ağası xanla barışdı. 1768-ci ildə Hüseyn xan Fətəli xanla müharibəyə başladı, ancaq məğlub oldu və onun tabeliyində olan Şamaxı torpaqları da Fətəli xanın sərəncamına keçdi. Şamaxılı Ağası xan 1114-cü ildə müttəfiq qoşunları ilə birlikdə Gavduşan savaşında iştirak etdi və Fətəli xan bu döyüşdə məğlub oldu. Lakin Fətəli xan sonralar rus qoşunlarının köməkliyi ilə müttəfiqləri məğlub edə



bildi. Şamaxı xanlarının hakimiyyətinin bərpası yalnız 1790-cı ildə Şəki xanının köməkliyi ilə mümkün oldu. Ağa Məhəmməd xan Qacarın 1795-ci ildə Azərbaycana müdaxiləsi zamanı İran qoşunları Şamaxı xanlığına da soxuldular. Şamaxı xanı Mustafa xan Şamaxı əhalisini Fitdağdakı alınmaz qalaya köçürdü və 1796-cı ilin fevralına qədər orada qaldı. Şəki xanı ilə sazişə girən İran qoşunları Şamaxını tutdu. Ağa Məhəmməd xan Qacar tərəfindən Şamaxı hakimi təyin edilən Mustafa xan Dəvəli bir qədər sonra yerli əhali tərəfindən öldürüldü. General Zubovun başçılığı ilə 1796-cı ildə rus qoşunlarının yürüşü zamanı Zubov Şamaxı xanı Mustafa xana məktub və hədiyyələr göndərdi və cavab aldı ki, xanın özü generalı qarşılamağa çıxacaq. Lakin 1797-ci ildə rus qoşunları Azərbaycandan çıxarıldı. Rus qoşunları tərəfindən Car-Balakən camaatı, Gəncə xanlığı tutulduqdan və 1805-ci ildə Qarabağ və Şəki xanları ilə Kürəkçay müqavilələri imzalandıqdan sonra 1804 - 12-ci illər 1-ci Rusiya - İran müharibəsi şəraitində növbə Şamaxı xanlığına çatdı. Şamaxılı Mustafa xana məktub göndərən general Sisianov ona vəd verdi ki, əgər o, könüllü şəkildə Rusiya hakimiyyəti altına keçsə, xanın yerli özünüidarədəki bütün hüquqları qorunub saxlanacaq. Vaxtı uzatmağa çalışan Mustafa xan Sisianovun qarşısında bir sıra şərtlər qoymaqla yanaşı, rus qoşunlarının Kürəkçaydakı düşərgəsinə gəlməkdən imtina etdi. Belə olduqda isə Sisianov Qarabağ və Şəki



downloaded from KitabYurdu.org

xanlarına vəd etdi ki, Şamaxı xanlığı tutulandan sonra onun ərazisinin bir hissəsi Şəki xanlığına, Cavad torpaqları isə Qarabağ xanlığına veriləcək. Qarabağ xanı İbrahimxəlil xan və Şəki xanı Səlim xan öz süvari dəstələrini rus qoşunlarına köməyə göndərdilər. 1805-ci il noyabrın 30-da rus qoşunları Şirvan torpaqlarına soxuldular, dekabrın 11-də isə Ağsuya çatdılar. Fitdağ yaxınlığındakı müdafiə mövqelərini möhkəmlətməyə başlayan Mustafa xan sayca üstün olan düşmən qoşunları qarşısında tab gətirə bilməyəcəyini başa düşüb 1805-ci il dekabrın 27-də Şamaxı (Şirvan) xanlığının Rusiyanın hakimiyyəti altına keçməsi haqqında müqaviləni imzalamaq məcburiyyətində qaldı. 1813-cü il Gülüstan müqaviləsi Şamaxı xanlığının Rusiyanın hakimiyyəti altına keçməsini rəsmiləşdirdi. Şamaxı xanlığı 1820-ci ildə tamamilə ləğv edildi və Rusiya imperiyasının əyalətinə çevrildi.

**Şamaş** - Akkad mifologiyasında qabaqcadan xəbər verən Günəş və ədalət allahı.

**Şampolyon** Jan Fransua (1790-1832) - fransız alimi, misirşünaslığın banisi. 1799-cu ildə Fransa qoşunları Napoleon Bonapartın komandanlığı ilə Misirə çıxarıldı. Rozett qəsəbəsi yaxınlığında istehkamların inşası zamanı əsgərlər üzərində üç dildə mətn olan qara bazalt plitəyə rast gəldilər. Rozett adı alan həmin daş Qahirəyə göndərildi və ümumxalq tamaşasına qoyuldu. Sonralar Rozett daşı Britaniya muzeyinə verilmişdir. Yunan mətnini çətinlik çəkmədən oxumuşlar. Orada deyilirdi ki, bu, çar Ptolemeyin şərəfinə düzəldilib. Mətnin sonunda deyilirdi ki, o, Misir heroqlifləri ilə, Misir əl yazısı - demotika (yəni ümumyazı) ilə və yunanca yazılıb. Hələ uşaq vaxtlarından Qədim Misir tarixi ilə maraqlanan və onu öyrənən Şampolyon əvvəlcə qədim yunan və latın, sonra isə qədim yəhudi, ərəb və qıptı dillərini öyrəndi. 17 yaşında Şampolyon "Qədim Misirin coğrafiyası" əsərini yazdı və Qrenobl Akademiyasının həqiqi üzvü seçildi. 1821-ci ilə kimi Şampolyon ikicildlik "Misirin fironlar dövrü tarixi"ni yazdı. 1822-ci ildə üçdilli Rozett daşını tədqiq edən Şampolyon Qədim Misir heroqliflərinin oxunmasının əsas prinsiplərini işləyib hazırladı. Çar Ptolemeyin adı kartuşa - çərçivəyə salınmışdı. Şampolyon güman edirdi ki, çarın adındakı hər bir heroqlif bir hərfi bildirir. Üzərində çərçivədə Kleopatra adı yazılmış başqa bir daşın tapılması bu işdə ona kömək etdi. Qıptı və yunan dillərindəki yazıları tutuşduran Şampolyon bir çox heroqlifin mənasını düzgün müəyyənləşdirə bildi. Bir müddətdən sonra Şampolyon artıq qıptı dilində ona tanış olan sözləri sərbəst oxuya və başa düşə bilirdi. 2 ildən sonra Şampolyon "Heroqlif sisteminin oçerki" əsərini, bir qədər sonra isə Qədim Misir dilinin qrammatikasını yazdı və Qədim Misir sözlərinin lüğətini tərtib etdi.





downloaded from KitabYurdu.org

**"şanlı inqilab"** - İngiltərədə 1688 - 89-cu illərdə baş vermiş dövlət cevrilişinin tarixdə qəbul olunmuş adı; çevriliş nəticəsində 1865-ci ildə parlamenti buraxmış II Yakov Stüart devrilmiş, dəvət olunmuş Hollandiya ştathalteri (hökmdarı) - kralın kürəkəni III Vilhelm Oranlı kral elan edilmişdir. 1689-cu ildə qəbul olunmuş "Hüquqlar haqqında bill"də göstərilirdi ki, kral parlamentin razılığı olmadan qanunları dayandırmaq və ya ləğv etmək, vergilər qoymaq və yığmaq, habelə daimi qoşun saxlamaq hüququna malik deyil. İngiltərədə parlamentli monarxiya quruluşu bərqərar oldu. Çevriliş burjuaziya və yeni zadəganların İngiltərə burjua inqilabındakı qələbəsini möhkəmlətdi.

**şantaj** - bir şey əldə etmək məqsədi ilə hər hansı bir şəxsi ləkələndirə biləcək (həqiqətə uyğun və ya uydurulmuş) gizli sirlərini ifşa etməklə hədələmə, qorxutma. Şantaj maddi və ya digər məqsədlə həyata keçirilir. ABŞ-da və digər ingilisdilli ölkələrdə şantaj reket adlanır.

**şedevr** – 1) orta əsrlərdə Avropada şagirdin öz peşəkar ustalığını sübut etməsi və müstəqil usta kimi tanınması üçün öz vəsaiti hesabına düzəltdiyi ən yaxşı məmulat nümunəsi; 2) bizim dövrümüzdə ən gözəl və nəfis incəsənət əsərini və ya ustalıqla düzəldilmiş bir şeyi şedevr adlandırırlar.

**Şekspir** Uilyam (1564 - 1616) - böyük ingilis dramaturqu və şairi. Əvvəlcə aktyor, sonra isə Londonun "Qlobus" teatrının həmsahiblərindən biri olmuşdur. Müxtəlif janrlarda 37 pyes yazmışdır. Onlardan ən məşhurları "Şıltaq qızın yumşalması", "Romeo və Cülyetta", "Hamlet", "Otello", "Kral Lir" və s.-dir.



**şeyx** (ər. "şeyx" - "ağsaqqal", "başçı") – 1) tayfanın, nəslin və ya ailənin əsasını qoyan; Ərəbistanda qəbilə başçısının titulu; 2) dini nüfuz sahiblərinin, ticarət-sənətkarlıq birlikləri başçılarının, ustadların, müəllimlərin, öz xeyirxahlığı ilə tanınan adamların fəxri ləqəbi.

**şeyxülislam** (ər. "şeyx əl-islam" - "islamın ağsaqqalı") - fəxri titul kimi X əsrdən istifadə olunmuşdur, Tədricən şeyxülislam təkcə yüksək dini nüfuz sahibi deyil, həm də dövlətdə rütbəcə ikinci vəzifəli şəxsə çevrilmişdir. Səfəvilər dövlətində şeyxülislam həm də baş qazı idi. Dövrümüzdə Qafqazda şeyxülislam Qafqazın bütün müsəlmanlarının dini başçısı sayılır, İranda isə hər bir iri kənddə fəaliyyət göstərən şəriət məhkəməsinin sədridir.

**şeytanlar** - Allaha və insanlara düşmən olan şər ruhlar kateqoriyası. Onlar öz ağaları İblis əş-Şeytanla birlikdə Qiyamət günündən sonra cəhənnəm əzablarına düçar olacaqlar. Şeytanlar insanlara ibadət etməyə mane olur, Allahı unutdurmağa çalışır, onları cadugərliyə və sehrbazlığa öyrədir, tez-tez onların günah istəklərinə və işlərinə zahiri xeyirxahlıq görkəmi verirlər. Şeytanın felinə uyanlar cəhənnəmə vasil olurlar.

**şəbəkə** - ağacdan və müxtəlif rəngli şüşədən düzəldilmiş rəngarəng naxış.

**Şəbüstəri** Sədəddin şeyx Mahmud (1252 - 1320) - məşhur Azərbaycan filosofu. "Gülşəni-raz" ("Sirlər gülşəni") və "Səadətnamə" əsərlərinin müəllifidir.



downloaded from KitabYurdu.org

**şəcərə** - bir qəbilənin, tayfanın nəsillərinin mənşəyini və qohumluq dərəcələrini müəyyənləşdirən siyahısı. Şəcərə bəzən nəsil şəcərəsi formasında təsvir edilir.

**Şəddadilər** - Şəddadilər dövlətində hakim sülalə (971 - 1075). Sülalənin banisi Məhəmməd ibn Şəddaddır. 1075-ci ildə Şəddadilər sülaləsi və dövlətinin hakimiyyəti səlcuq türkləri tərəfindən ləğv edilmişdir.



**Şəddadilər dövləti** - Azərbaycanın şimal-şərqində dövlət (971 - 1075). Mənşəcə kürd olan Məhəmməd ibn Şəddad 951-ci ildən, sonra isə onun oğlanları tədricən Salarilərin Azərbaycanın şimal və şimal-qərbindəki torpaqlarını tutmağa başlamışlar. 971-ci ildə Gəncəni tutan Şəddadilər bu şəhəri özlərinə paytaxt edib Şəddadilər dövlətinin əsasını qoydular. Bir qədər keçdikdən sonra əvvəllər Salarilərin olmuş Arranın xeyli hissəsi və Ermənistanın şərqi Şəddadilərin əlinə keçdi. Şəddadi hökmdarı I Fəzl ibn Məhəmməd 1027-ci ildə Araz üzərindən Xudafərin körpüsünü saldırmışdır. Onun dövründə Şirvanşahlar və Rəvvadilərlə də dostluq əlaqələri yaradılmışdır. Əbdüsüvar Şavurun hakimiyyəti illərində Şəddadilər Gürcüstanla və onunla müttəfiq olan Şirvanşahlar dövləti ilə müharibələr etmişdilər. Gürcü çarı 1062-ci ildə alanlara Şəddadilər dövlətinə hücum etmək üçün Gürcüstan ərazisindən keçməyə icazə verdi. Gəncənin müdafiə qabiliyyətini möhkəmlətmək məqsədi ilə Şavur onun ətrafında qala divarlarının inşasına və xəndək qazılmasına göstəriş vermişdi. 1063-cü ildə möhkəm şəhər qala qapıları qurulmuşdu. 1075-ci ildə Şəddadilər dövləti səlcuqlar tərəfindən tutulmuş və ləğv olunmuşdu.



**şəhid** — 1) islamda — "din uğrunda özünü qurban vermiş, əzablı ölümlə həlak olmuş adam"; 2) Azərbaycan Respublikasında Qarabağ müharibəsində qəhrəmancasına həlak olanları da şəhid adlandırırlar; 3) şahid.

**Şəhrdarlar** - Sasanilar dövlətində hakim sülalə nümayəndələrindən təyin olunmuş vilayət canişinləri.

**şəhər-dövlət** (yun. "polis") - ilk şəhər-dövlətlər Qədim Misirdə və Mesopotamiyada meydana gəlmişdir. Şəhər-dövlətin ərazisi şəhəri və ətraf kəndləri əhatə edirdi və çox da böyük deyildi; onun bir başından o biri başına hətta bir neçə saata getmək mümkün olurdu. Hər şəhər-dövlətin öz hökuməti və ya hökmdarı, qoşunu, xəzinəsi, qanunları var idi; onların hərəsi öz pulunu zərb edirdi. Şəhər-dövlətlər Qədim Yunanıstanda da var idi. Bunlardan ən iriləri Afina və Sparta idi.



downloaded from KitabYurdu.org

**şəhər islahatı** (Şimali Azərbaycanda) - çar hökuməti tərəfindən 1870-ci il iyunun 16-da qəbul olunmuş "Şəhər qaydaları" əsasında keçirilmiş şəhər islahatı; guya, yerli əhali buna "hazır olmadığından" Bakıya yalnız 1878-ci ildə şamil edildi. Burada yaradılmış şəhər dumasına seçmək hüququ müəyyən əmlak və yaş senzi (25 yaş) ilə məhdudlaşdırılmışdı. Praktik olaraq Bakı şəhər Dumasına keçirilən seçkilərdə şəhər əhalisinin yalnız 2 - 3%-i iştirak etmişdi. Şəhər dumasına seçilən "qeyri-xristianlar" üçün limit qoyulmuşdu, belə ki, seçilən müsəlmanların sayı deputatların ümumi sayının yarısından artıq olmamalı idi. Şəhər dumasının fəaliyyəti sırf təsərrüfat məsələləri ilə məhdudlaşdırılırdı, amma bu məsələlərin də həllinə qubernator tərəfindən nəzarət edilirdi. Şəhər islahatı bir qədər ixtisar olunmuş halda 1897-ci ildə Yelizavetpol (Gəncə), Şuşa, Şamaxı, Lənkəran, Quba və Şimali Azərbaycanın bir sıra başqa şəhərlərində də keçirildi.

**şəhər soveti** (şurası) - senyorlarla mübarizə dövründə müstəqillik əldə etmiş şəhərlərdə ali seçkili özünüidarə orqanı.

**Şəhərcik** - möhkəmləndirilmiş qədim məskən və ya şəhər qalıqları. Mədəni təbəqə olması ilə qeydə alınır. Şəhərciklər bütün ölkələrdə məlumdur və müxtəlif dövrlərə aiddir. Şəhərciklərin arxeoloji tədqiqi tarixin bərpa edilməsi üçün son dərəcə mühümdür.

**şəxsi asılılıq** – şəxsi azadlığını itirən və feodaldan asılı vəziyyətə düşən kəndli. Erkən orta əsrlərdə müdafiə olunmaq üçün feodala müraciət edən kəndli onun tabeliyinə keçməli və ya torpaq payını himayədarın mülkiyyətinə verməli idi. Belə kəndlilər ağadan tamamilə asılı idilər və əmlakları ilə istədikləri kimi rəftar edə bilməzdilər. Bu kəndlilərin uşaqları və nəvələri də torpaq sahibindən şəxsi asılılıqda qalırdılar.

**şəxsiyyət** - özünün sosial-müqəddəm və fərdi ifadəli keyfiyyətləri olan adam.

**Şəxsiyyətə pərəstiş** - bir adamın (şəxsiyyətin) rolunun süni şəkildə böyüdülməsi və ucaldılması, ona fövqəltəbii keyfiyyətlər şamil edilməsi, tarixin gedişinə onun təsiredici qüvvəyə malik olmasının iddia edilməsi. SSRİ-də Stalin və Brejnevin, Çində Mao Tszedunun şəxsiyyətinə pərəstiş mövcud olmuşdur. Başqa ölkələrdə də ayrı-ayrı şəxslərə pərəstiş edilirdi.

**şəkər** - ilk dəfə Qədim Hindistanda şəkər qamışından istehsal edilməyə başlanılmışdı. Hindistanda o, "şakkara" adlanırdı. "Şəkər" adı ilə Şərqə, "saxar", "tsukor", "şuqa" adı ilə Avropaya daxil olmuşdur.

**Şəki (Nuxa) xanlığı** - Şimali Azərbaycan ərazisində 1743 - 44-cü illərdə Nadir şaha qarşı baş vermiş Şəki üsyanı zamanı Hacı Çələbi Qurban oğlu tərəfindən əsası qoyulmuş xanlıq. Hacı Çələbi 1741-ci ildə Şəkinin vəkili seçilmişdi, lakin şahın məliyi Nəcəf Nadir şaha xəbər göndərmişdir ki, Hacı Çələbi şah fərmanlarının icra olunmasına maneçilik törədir. Nadir şah Hacı Çələbini yanına çağırtdırmış və əmr vermişdir ki, onu edam eləsinlər, lakin Hacı Çələbi onu inandıra bilmişdir ki, məlik Nəcəf pis işlərlə məşğul olur. Şəkiyə qayıdan Hacı



downloaded from KitabYurdu.org

Çələbi məlik Nəcəfin fəaliyyətinə nəzarəti daha da gücləndirmişdi. Məlik Nəcəfin Nadir şaha təkrar şikayətindən sonra şah Hacı Çələbini yenidən yanına çağırtdırmış, amma o, şahın hüzuruna getməkdən imtina etmişdi. Hacı Çələbi 1743-cü ildə məlik Nəcəfi öldürmüş, iranlıları Şəkidən qovaraq burada müstəqil Şəki xanlığı yaratmışdı. Hacı Çələbi Şəki yaxınlığında yerləşən "Gələsən-görəsən" qalasında möhkəm sığınacaq tapmışdı. 1744-cü il noyabrın 29-da Şəki üzərinə hücum edən Nadir şahın qoşunları "Gələsən-görəsən" qalasında şəkililərin ciddi



müqaviməti ilə qarşılaşıb geriyə qayıtmağa məcbur olmuşdu. 1745-ci ilin yazında İran qoşunları yenidən "Gələsən-görəsən" qalasına hücum etdilər. Şəkililər ciddi müqavimət göstərdilər, Nadir şahın Şəkinin yandırılması barədə əmri də "Gələsən-görəsən" qalasının müdafiəçilərinin mövqeyini qıra bilmədi. 1746-cı ildə "Gələsən-görəsən" qalasının 5 aylıq mühasirəsi nəticəsində müdafiəçilərin ərzaq ehtiyatı tükəndiyindən Hacı Çələbi Nadir şahın ali hakimiyyətini tanımaq məcburiyyətində qaldı. Nadir şah 1747-ci ildə öldürüləndən sonra Hacı Çələbi özünü Şəki xanı (1141 - 55) elan etdi. Hacı Çələbi xan Şəki xanlığının ərazisini genişləndirməyə cəhd göstərdi: Təbriz və Qarabağ xanlıqları üzərinə bir sıra uğursuz yürüşlər etdi. Hacı Çələbi xan öz hakimiyyətini möhkəmləndirmək məqsədi ilə oğlu Ağakişi bəyi qazıqumuxlu Məhəmməd Həsən xanın qızı ilə evləndirdi. Bundan sonra Hacı Çələbi xan Qəbələ və Ərəş sultanlıqlarını özündən asılı vəziyyətə saldı. Hacı Çələbi xan 1751-ci ildə Şəki xanlığı ərazisinə soxulmuş gürcü çarı II İraklinin qoşunları üzərində qələbə çaldı. 1752-ci ildə Hacı Çələbi xan Nizaminin qəbri yaxınlığındakı savaşda İrakli, gəncəli Şahverdi xan, qaradağlı Kazım xan, naxçıvanlı Heydərqulu xan və irəvanlı Hüseynqulu xanın birləşmiş qoşunları üzərində qələbə çaldı. Bu qələbədən sonra Qazax və Borçalı gürcü qoşunlarından təmizləndi. Elə həmin ildə carlıların köməyinə gələn Hacı Çələbi xan Carda gürcü qoşunlarını daha ağır məğlubiyyətə uğratdı. Hacı Çələbi xanın 1755-ci ildə Ağsunu uğursuz mühasirəyə almaqla Şirvanı tutmaq cəhdləri boşa çıxdı. Hacı Çələbi xanın ölümündən sonra oğlu Ağakişi bəy Şəkinin xanı oldu, lakin o, qayınatası qazıqumuxlu Məhəmməd Həsən xan tərəfindən öldürüldü. Qubalı Fətəli xanın köməkliyi ilə Məhəmməd Həsən xan Şəkidən qovuldu, Hacı Çələbi xanın Quba xanının ali hakimiyyətini tanıyan nəvəsi Hüseyn xan (1755 - 79) taxta çıxdı. 1767-ci ildə Şamaxı xanlığını tutan Hüseyn xanla Fətəli xanın müttəfiq qoşunları onun ərazisini Quba xanlığı ilə Şəki xanlığı arasında bölüşdürdülər. Lakin bölünmüş ərazi üstündə müttəfiqlər arasında baş qaldıran narazılıqlar onunla nəticələndi ki, Hüseyn xan avar xanı və Şamaxının keçmiş xanı Ağası xanla birlikdə Fətəli xanın qoşunları üzərinə hücuma keçdi, amma 1768-ci ilin sentyabrında məğlub oldu. Şəki xanlığının hakimiyyəti altında olan Şamaxı



downloaded from KitabYurdu.org

torpaqları da Quba xanlığına qatıldı. 1773-cü ildə müttəfiqlər Quba xanlığı üzərinə yeni hücuma keçdilər, lakin yenə də məğlubiyyətə uğradılar. Hüseyn xanın 1779-cu ildə ölümündən sonra Əbdülqədir xan Şəkinin xanı oldu (1779-81). 1781-ci ildə Məhəmməd Həsən xan yenidən Şəkidə hakimiyyəti ələ keçirdi və Şəkinin xanı oldu (1781 -95). Məhəmməd Həsən xan 1785-ci ildə qubalı Fətəli xan tərəfindən məğlub edildi. Münasibətləri yaxşılaşdırmaq məqsədi ilə Məhəmməd Həsən xan Fətəli xanın bacısı ilə evləndi, Fətəli xan da Məhəmməd Həsən xanın bacısı ilə evləndi. Lakin gürcü çarı İrakli ilə ittifaqa girən Məhəmməd Həsən xan 1788-ci ildə yenidən Fətəli xanın üzərinə hücum etdi, ancaq Şamaxı yaxınlığında məğlub oldu və Şəki xanlığı yenidən Quba xanlığından asılı vəziyyətə düşdü. Fətəli xanın ölümündən sonra Məhəmməd Həsən xan bu asılılıqdan qurtardı və 1790-cı ildə Şamaxı xanlarının hakimiyyətini bərpa etdi və onları öz təsiri altına aldı. 1795-ci ildə Məhəmməd Həsən xanın ölümündən sonra Səlim xan Şəkinin xanı oldu (1795 - 1806). Rus qoşunları Gəncəni tutduqdan sonra Səlim xan qayınatası qarabağlı İbrahimxəlil xanın məsləhəti ilə Şəki xanlığının Rusiya imperiyasının himayəsi altına keçməsi haqqında 1805-ci il Kürəkçay müqaviləsini imzaladı. Sonra Sisianovdan Şamaxı xanlığına qarşı yürüşdə iştirak etmək və ərazilərin bir hissəsini almaq təklifi alan Səlim xan Şəki dəstələrini rus qoşunlarına köməyə göndərdi. Lakin qarabağlı İbrahimxəlil xanın öldürülməsi Səlim xanı qəzəbləndirdi. O, Rusiyanın himayəsindən imtina etdi və rus qarnizonunu Şəkidən qovdu. 1806-cı il oktyabrın 22-də rus qoşunları Şəkini mühasirəyə aldılar və yerli əhalinin ciddi müqavimətinə baxmayaraq, şəhəri tutdular. Səlim xan İrana qaçmaq məcburiyyətində qaldı. Rusiyameylli xoylu Cəfərqulu xan Səlim xanın yerinə təyin edildi və o, İrandan bir çox erməni ailəsini özü ilə Şəkiyə köçürdü. 1819-cu ildə Rusiyanın Qafqazdakı hakimi general Yermolovun yaxın dostu, milliyyətcə erməni olan rus generalı Mədotovun göstərişi ilə şəkili İsmayıl xanı zəhərlədilər və Şəki xanlığı birdəfəlik ləğv edildi.



**Şəki xan sarayı** - 1762-ci ildə Nuxada inşa olunmuşdur. Saray ağacdan inşa edilib, amma onun tikilməsi prosesində bir dənə də olsa mismardan istifadə olunmamışdır. Sarayın fasadı boyaboy şəbəkə şəklində şüşələnmiş aynabənddən ibarətdir. Sarayın fasadı və daxili çoxlu oyma işlərlə bəzədilmişdir. Sarayın divarlarında rəssam Firuz tərəfindən Nizaminin "Yeddi gözəl", "Xosrov və Şirin" və "Leyli və Məcnun" poemalarının motivləri əsasında çəkdiyi rəsmlər vardır. Güman edilir ki, bu möhtəşəm abidənin yaradıcısı ustad Abbasquludur.

**Şəkidə müstəmləkə əleyhinə 1838-ci il üsyanı** - Şəki əyalətində rəncbərlərin və əvvəllər vergilərdən azad olan maafların vəziyyəti daha ağır idi. Yerli əyanlar və ruhanilər də Şəki əyalətinin rus komendantından narazı idilər. Şəkinin keçmiş xanı Səlim xanın oğlu Hacı xan tərəfindən buraya göndərilmiş Məşədi Məmməd adlı şəxs hələ 1837-ci ildə Şəkidə xırda dəstəyə başçılıq edirdi,



downloaded from KitabYurdu.org

lakin bir qədər sonra həbs edilib Şəki həbsxanasına salındı. 1838-ci ilin iyulunda həbsxanadan Dağıstana qaçan Məşədi Məmməd burada rutullu Ağaboy ilə əlaqə yaratdı. 1838-ci il avqustun axırlarında təqiblərdən Dağıstana qaçmış Qafqaz dağlıları və şəkililərin 5 minlik dəstəsi Şəki əyalətinə daxil oldu. Nuxaya (Şəki) çatan üsyançıların birləşmiş qüvvələri şəhər qalasından başqa, demək olar ki, bütün şəhəri tutdular. Az sonra başqa əyalətlərdən Nuxaya - rus qoşunlarına yardım gəldi. 1838-ci il sentyabrın 9-da üsyançılar şəhəri tərk etmək məcburiyyətində qaldılar. Məşədi Məmməd İrana qayıtdı.

**şəriət** - əsas mənbəyi Quran olan müsəlman hüququ. Quranı insanlara çatdıran Məhəmməd qanunverici peyğəmbər kimi qəbul edilirdi. Bu, ərəbcə "şəriə" adlandığından ona "şəriət" adı verilmişdir.

**Şərq məsələsi** - Osmanlı imperiyasının dağılması və Avropa dövlətlərinin onun vilayətlərini bölüşdürmək uğrunda mübarizəsi ilə bağlı diplomatiyada və tarixdə XVIII əsr - XX əsrin əvvəllərində beynəlxalq ziddiyyətləri bildirmək üçün qəbul olunmuş məfhum. Osmanlı imperiyasının XIX əsr - XX əsrin əvvəllərində Asiya və Avropada vilayətlərini itirməsi, eləcə də Atatürkün başçılığı ilə müstəqil Türkiyə Respublikasının yaradılması Şərq məsələsini dünya siyasi səhnəsindən çıxardı.

**Şərqi Roma imperiyası** - Roma imperiyasının 395-ci ildə iki yerə parçalanmasından sonra onun şərq hissəsinin elmdə qəbul edilmiş adı. Konstantinopol şəhəri onun paytaxtı olmuşdur. Qərbi Roma imperiyası süqut etdikdən sonra Şərqi Roma imperiyasını Bizans adlandırdılar.

**Şərur** - Naxçıvan yaxınlığında düzənlik. 1501-ci ilin ortalarında Şərur düzənliyində İsmayılın başçılıq etdiyi qızılbaş qoşunları ilə Ağqoyunlu dövlətlərindən birinin padşahı olan Əlvənd Mirzənin ordusu arasında döyüş baş vermişdir. Ağqoyunlu qoşunları 30 min nəfərə çatırdı, qızılbaşlar isə cəmisi 7 min nəfər idi. Lakin öz döyüşçülərinə inanmayan padşah qoşunlarının geriyə qaçmaması üçün əmr etmişdi ki, zəncirlə bir-birinə bağlanmış dəvələri qoşunun arxasına düzsünlər. Şərur döyüşü Əlvənd Mirzənin ordusunun tam darmadağın edilməsi ilə başa çatdı, yalnız az bir qisim adam qaçmaqla canını qurtara bildi. Ağqoyunlu köçəri əyanlarının çox hissəsi əsir düşdü və edam olundu. Qızılbaşlar böyük qənimətlər ələ keçirdilər: çox gözəl at ilxıları, çoxlu dəvə, qızıl və gümüş qablar, qiymətli alaçıqlar və xalılar və s. Şərur savaşından sonra İsmayıl təntənəli şəkildə Təbrizə daxil olub özünü şah elan etdi.

**Şıxlinski Əliağa** (1865 - 1943) - artilleriya general-leytenantı. Şıxlinski Peterburqda artilleriya məktəbini bitirmişdir. 1904 - 1905-ci illər rus - yapon müharibəsində Port-Arturun müdafiəsində şəxsən göstərdiyi rəşadətə görə qızıl xəncərlə mükafatlandırılmışdır. Şıxlinskinin artilleriya peşəsinə gətirdiyi yeniliklər hərbi məktəblərdə öyrənilirdi. Birinci Dünya müharibəsinin ilk günlərində Rusiya imperiyasının paytaxtı Peterburq şəhərinin artilleriya müdafiəsi ona həvalə olunmuşdu. Sonralar Şıxlinski Qərb cəbhəsində artilleriya rəisi, daha sonra isə 10-



downloaded from KitabYurdu.org

cu ordunun baş komandanı təyin edilmişdir. Çar ordusunda "vəhşi diviziya" adlanan tatar polku əsasında 1918-ci ilin mart - aprelində Zaqafqaziya Seymi dövründə general Şıxlinskinin komandanlığı ilə "Əlahiddə Azərbaycan korpusu" təşkil olunmuşdur. 1918-ci il dekabrın 25-də Şıxlinski Azərbaycan Demokratik Respublikası hərbi nazirinin müavini təyin edilmiş və Azərbaycan milli ordusunun yaradılmasında çox böyük rol oynamışdır.

**Şiələr** (ər. "əş-şiə" - "davamçı", "partiya") - şiəliyin davamçıları. Əli və onun nəslindən olanları Məhəmməd peyğəmbərin yeganə qanuni varisləri qəbul edən müxtəlif qrup və icmaların ümumi adı. Məhəmməd peyğəmbərin vəfatından az sonra onun davamçılarının bir hissəsi Əlinin varisliyi, ali hakimiyyətin peyğəmbər ailəsində saxlanılması uğrunda çıxış etdi. Bu qruplaşma müsəlmanların dini birliyini pozan hərəkatın özəyini təşkil edirdi və sonralar müsəlmanların iki əsas hissəyə - sünnilərə və şiələrə parçalanmasına səbəb oldu. İmam Əlinin öldürülməsindən sonra şiələr ali hakimiyyətin (imamətin) müstəsna olaraq Əlinin nəslindən olanları nəzərdə tutaraq peyğəmbər ailəsinə qaytarılması uğrunda mübarizə apardılar. Şiələrin hərbi-siyasi məğlubiyyətləri (Hüseynin şəhid olması, Muxtarın çıxışının darmadağın edilməsi) onların qüvvələrinin daha çox dini ideyalar sahəsinə istiqamətlənməsinə səbəb oldu. Əlinin nəslindən olan bu qruplaşmanın bazası əsasında şiə hərəkatı meydana gəldi. Xəlifələrin seçkililiyini bəyan edən sünnilərin əksinə olaraq şiələr Əlinin nəslindən olanların hakimiyyətinin irsilik prinsipini müdafiə edirdilər. Şiələr baş verən bədbəxtliklərin hamısının hakimiyyəti qəsb etmiş Əməvilərin qeyri-qanuni idarəçiliyindən irəli gəlməsi haqqında təbliğat aparır və bildirirdilər ki, ali hakimiyyətin Əlinin nəslinə qaytarılması Allahın iradəsinin yerinə yetirilməsinə və ədalətin bərqərarlaşmasına səbəb olacaq. Şiə təbliğatı Əməvilər sülaləsinin devrilməsinə səbəb oldu, amma bundan peyğəmbərin qohumlarının digər qolu Abbasilər bəhrələndilər. Ələvilər hakimiyyət uğrunda mübarizəni dayandırmamışdılar, lakin onların Abbasilərdən ayrılması şiə hərəkatının sosial bazasını xeyli məhdudlaşdırmışdı. Bundan əlavə, şiələrin özlərinin arasında, xüsusilə də imamət hüququnun Əlinin bu və ya digər nəsillərinə verilməsi məsələsində birlik yox idi. VIII əsrdə şiə hərəkatı iki əsas cərəyana - "mötədil"lərə və "ifrat"lara parçalandı. İfrat şiələrin təlimi islamdan o qədər uzaqlaşdı ki, əslində, ayrıca bir dinə çevrildi. İslamın bütün tarixi ərzində şiələr vaxtaşırı uğurla hakimiyyətin Əlinin nəslindən olanlara qaytarılması uğrunda mübarizə aparırdılar, hətta müsəlman dünyasının müxtəlif ucqarlarında (Təbəristan, Yəmən, Misir) onlar ələvi imamətləri yarada bilmişdilər. Hazırda İran əhalisinin mütləq əksəriyyəti, Azərbaycan, Bəhreyn, İraq, Yəmən, Livan və Mərkəzi Asiya müsəlmanlarının xeyli hissəsi şiədir. Şiə icmaları faktik olaraq bütün müsəlman ölkələrində var.

**şiəlik** - islamda (sünniliklə yanaşı) iki əsas dini cərəyandan biri.

**Şikəstə Şirin** - XVIII əsr Azərbaycan şairi. Şirin tarixi mövzuda şerlər yazmışdır. Ağa Məhəmməd şah Qacarın İran qoşunları tərəfindən Tiflisin



downloaded from KitabYurdu.org

dağıdılması və yandırılmasına həsr olunmuş kiçik poemanı xüsusilə qeyd etmək lazımdır. Şikəstə Şirin Cənubi Qafqaz xalqlarını dostluğa və qardaşlığa çağırırdı.

**Şimali Almaniya ittifaqı** - 1866 - 71-ci illərdə Mayn çayından şimalda Prussiyanın hegemonluğu ilə onun Avstriya - Prussiya müharibəsində qələbəsindən (bax: Sadova) və Almaniya ittifaqını ləğv etməsindən sonra 22 alman dövlətindən təşkil olunmuş federativ dövlət. Şimali Almaniya ittifaqına daxil olan bütün dövlətlər monarxiya üsuli-idarəsini, özlərinin sülalə və hökumətlərini, ayrı-ayrı ordularını, qanunları və məhkəmə qaydalarını qoruyub saxlamışdılar. Şimali Almaniya ittifaqı alman dövlətlərinin Prussiyanın başçılığı altında vahid Almaniya imperiyasında birləşməsinin birinci mərhələsi idi.

**Şimali Amerikada istiqlaliyyət uğrunda müharibə** - 1775 - 83-cü illərdə 13 ingilis koloniyasının azadlıq müharibəsi baş verdi və nəticədə müstəqil ABŞ dövləti meydana gəldi. Tamamlanmamış burjua inqilabı xarakterli idi. 1775-ci ilin aprelində Konkord və Leksinqton yaxınlığındakı döyüşlərlə başlamışdır. 1776-cı ildə ABS-ın İstiqlaliyyət bəyannaməsi qəbul edilmişdi. Amerika ordusu baş komandan Corc Vaşinqtonun başçılığı ilə Saratoqa (1777) və Yorktaun (1781) yaxınlığında ingilis qoşunları üzərində həlledici qələbələr əldə etdi. 1783-cü il Versal sülh müqaviləsinə görə, Böyük Britaniya ABŞ-ın müstəqilliyini tanıdı. Müharibə nəticəsində kapitalizmin inkişaf etməsi üçün mühüm ilkin müqəddəm şərait yarandı, ABŞ-ın cənubunda quldarlıq saxlanıldı.

**"Şiraz qonaqlığı"** - Fətəli xan Əfşara qarşı mübarizədə bir sıra Azərbaycan xanları İran hökmdarlığına iddia edən Kərim xan Zəndə kömək edirdilər. Fətəli xan Əfşarı əsir götürdükdən sonra Kərim xan Zənd 1763-cü ildə, guya, qələbənin şərəfinə bayram keçirilməsi adı ilə ona kömək göstərən xanları Şiraza ziyafətə dəvət etmişdir. Onun qonaqları arasında qarabağlı Pənahəli xan, xoylu Şahbaz xan və digər xanlar da olmuşdur. Kərim xan Zənd qardaşı edam olunan yerdə Fətəli xan Əfşarı edam etdirdi. Ziyafətə dəvət edilənlər isə faktik olaraq öz xanlıqlarından təcrid edilmiş və Kərim xan Zəndin əsiri olmuşlar. "Şiraz qonaqlığı" belə başa çatmışdır.

**Şirvan** - Azərbaycanda tarixi vilayət və dövlət. Şirvan vilayətinin adı mənbələrdə III əsrdən çəkilir. VII - VIII əsrlərdən Şirvan ərəblərin hakimiyyəti altında olmuşdur. 761-ci ildə Şirvan dövləti şirvanşahlar tərəfindən idarə olunurdu. 1538-ci ildən Şirvan Səfəvilər dövlətində bəylərbəyilik idi. 1748-ci ildə yaranmış müstəqil Şirvan xanlığı 1805-ci ildə Rusiya tərəfindən işğal olunmuşdur.

**Şirvani** Əfzələddin Xaqani - bax: Xaqani.

**Şirvani** Hacı Zeynalabdin (1780 - 1838) - Azərbaycan coğrafiyaşünas-səyyahı, etnoqraf, tarixçi və şair. Şirvani 37 ilə yaxın Qafqaz, İran, Türkiyə, Əlcəzair, Misir, Sudan və Hindistanda səyahətdə olmuşdur. Bu səyahətlərini o, "Büstanüs-səyahə" ("Səyahət bağı") və "Riyazus-səyahə" ("Cənnət bağı səyahətləri"; farsca) əsərlərində təsvir etmişdir. Həmin kitablarda Şirvani olduğu



downloaded from KitabYurdu.org

ölkələrdə gördüyü xalqlar təsərrüfatı və mədəniyyəti, məişət və adətləri barədə maraqlı təsvirlər verir. Şirvaninin şerləri "Divan"ında toplanmışdır.

**Şirvani Seyid Əzim** (1835 - 88) - ən böyük Azərbaycan şair və maarifçilərindən biri. Şamaxıda ruhani ailəsində anadan olmuş və özü də ruhani rütbəsi almışdır. Təhsilinin davamı məqsədi ilə Misir, Suriya və Hicaza (Ərəbistan) gedən S.Ə.Şirvani qayıtdıqdan sonra ruhani rütbəsindən imtina etmişdir. S.Ə.Şirvani XIX əsrin 70-ci illərində Şamaxıda Azərbaycanda ilk dünyəvi məktəb açmışdır. S.Ə.Şirvani ilk Azərbaycan qəzeti olan "Əkinçi" ilə sıx əməkdaşlıq etmişdir. S.Ə.Şirvani Şamaxıda yaradılmış ədəbi məclisin başçısı olmuşdur. Azadfikirli baxışlarına görə rus məmurları dəfələrlə S.Ə.Şirvanini məktəbdə dərs keçməkdən uzaqlaşdırmışlar. S.Ə.Şirvaninin ədəbi irsinə minədək qəzəl, üç yüzə yaxın təmsil və hekayə daxildir. Sonunculardan ən geniş yayılmışları "Qafqaz müsəlmanlarına xitab" poetik müraciəti, "Zahidin nağılı", "Xan və dehqan", "Xəsis", "İnkir və Münkir" hekayəsi və s.-dir. S.Ə.Şirvani məsciddən çıxarkən öldürülmüşdür.

**Şirvani Zülfüqar** (1190 - 1245) - Azərbaycan şairi.

**şirvanşah** - Şirvan hökmdarlarının titulu. Şirvanşah sülalələri bunlardır: Məzyədilər (799 - 1027), Kəsranilər (1027 - 1382), Dərbəndilər (1382 - 1538).

**Şirvanşahlar dövləti** — Azərbaycanın şimal-şərqində, Şirvan vilayətində Şirvanşahlar dövləti (861 - 1538). 861-ci ildə Ərəb xilafətinin dağılması nəticəsində Məzyədilər sülaləsindən olan Heysəm ibn Xalid tərəfindən yaradılmışdır. Şirvanşah Məzyədilər, Kəsranilər və Dərbəndilər sülalələri tərəfindən idarə olunurdu. 1538-ci ildə I Təhmasib tərəfindən tutulmuş və Səfəvilər dövlətinin tərkibinə daxil edilmişdi.

**Şirvanşahlar sarayı** - şirvanşahların Bakıdakı sarayı, orta əsrlər



Azərbaycan memarlıq abidəsi (XV əsr). Üç saray ətrafında ansambl belədir: saray, divanxana, türbə, Seyid Yəhya Bakuvinin mavzoleyi, minarəli məscid, Şərq qapıları və s. Bu orta əsrlər memarlıq şedevrində isə hökm çıxarılan və saray əyanlarının yığıncağı keçirilən divanxana xüsusilə fərqlənir. Divanxananın və türbənin portal və divarları daş üzərində incə oyma ilə - yazı və naxışlarla bəzədilmişdir.

**Şiva** - hinduizmdə üç baş allahdan (Brahma və Vişnu ilə yanaşı) biri. Mənşəcə arilərə qədərki allah olub, bərəkət kultu ilə bağlıymış. Qəzəbli görkəmdə, çox vaxt müqəddəs rəqsi ifa edərkən və ya tərki-dünya zahid kimi təsvir olunur.

**Şliman Henri** (1822 - 90) - alman arxeoloqu. Homerin "İliada" poemasındakı məlumatları əsas götürən Şliman axtarışlara başlamış və son nəticədə Troyanın xarabalıqlarını aşkar etmişdir. Bu xarabalıqlar Kiçik Asiyanın Aralıq dənizi sahillərindəki Hissarlıq təpəliyi yaxınlığında (indiki Türkiyə ərazisində) yerləşir. Qazıntılar zamanı Şliman qədim şəhərin nəinki bir, hətta altı



downloaded from KitabYurdu.org

mədəni təbəqəsini aşkar etmişdir. Həmin təbəqələrin birində möhtəşəm bir sarayın uçuqlarını və yanıq izləri olan möhkəm qala divarlarını aşkar edən Şliman belə qərara gəlir ki, bura elə həmin əfsanəvi Troyadır. Qazıntıların sonrakı dövrlərində o, qızıl və gümüş bəzəklərlə dolu böyük dəfinə tapmışdır. Bunları çariça Yelenanın dəfinəsi hesab edən Şliman bununla da qazıntıları dayandırmışdır. Şlimanın ölümündən onilliklər keçdikdən sonra arxeoloqlar sübut etmişlər ki, onun tapdığı dəfinələr Homerin haqqında yazdığı Troyadan xeyli qədimdir. Amma əfsanəvi Troyanın həqiqətən də Şlimanın qazıntı apardığı həmin təpəlikdə olduğu fikri ilə razılaşan alimlər aşkar etmişlər ki, Şliman Troyanın mənsub olduğu mədəni təbəqəni qazıb keçmişdir.

**şovinizm** - millətçiliyin ifrat forması. Şovinizm siyasəti digər millət və xalqlara qarşı nifrət və düşmənçilik hisslərini qızışdırmağa yönəldilib. Şovinizm bir "müstəsna" ("seçilmiş") millətin digər "tam dəyərli olmayan" (keyfiyyətsiz) millətlər, irqlər üzərində ağalığını təmin etmək məqsədi ilə üstünlüyə malik olduğunu təbliğ edir. Şovinizm və millətçiliyin digər forması böyük dövlət millətçiliyidir.

**"şok terapiyası"** - planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına qəfil, kəskin keçid.

**ştat** - bir sıra federativ respublikaların (ABS, Hindistan, bir sıra Latın Amerikası dövlətləri və s.) tərkibinə daxil olan və bu və ya digər dərəcədə özünüidarədən istiladə edən dövlət inzibati vahidi.

**Ştreykbrexerlər** - fəhlə və ya əhalinin digər təbəqələrinin tətil və çıxışlarda iştirakdan boyun qaçıran nümayəndələri və ya sahibkarlar tərəfindən müəssisələrdəki tətilçilərin yerinə məxsusən cəlb olunan adamlar.

**şudr** - Qədim Hindistanda nökər kastası.

**Şumer** - e.ə. IV minilliyin sonlarından e.ə. XXIV əsrədək Mesopotamiyanın cənubunda mövcud olmuş qədim dövlət. Şumerlərin mənşəyi indiyədək tarixçilər üçün sirr olaraq qalır. Cənubi Mesopotamiyanı tutan şumerlər artıq e.ə. IV minillikdə burada Ur, Uruk, Kiş, Laqaş, Nippur kimi Şumerdə ağalıq üstündə bir-biri ilə mübarizə aparan şəhərlər yaratmışlar. E.ə. XXVIII əsrdə Kiş şəhərinin hakimi Etana Şumerin hökmdarı oldu. E.ə. XXV əsrdə Ur şəhərinin sakinləri arasındakı ziddiyyətlərdən istifadə edən Umma onu tutdu və şəhər təxminən 250 il Şumerin mərkəzinə çevrildi. E.ə. XIV əsrdə Qədim Sarqonun istilaları Şumeri Akkadın hakimiyyəti altında birləşdirdi.

**şüar** - qısa formada əsas ideyanı, vəzifəni, tələbi, prinsipi bildirən çağırış.

## - T -

**taborçular** (Çexiyadakı Tabor dağının adından götürülmüşdür) - feodallara qarşı çıxan husçuların daha inqilabçı hissəsi. Kəndlilər, şəhər yoxsulları, xırda sənətkarlar və din xadimləri, rıtsarların bir hissəsi taborçuların sırasına daxil idi.



downloaded from KitabYurdu.org

Onların baxışlarının əsasını ümumi bərabərlik və ədalətli dövlət haqqında təlim təşkil edirdi. Taborçular döyüşkən qoşun yaratdılar, hərbi taktika işləyib hazırladılar. 1434-cü ildə Lipani yaxınlığında mötədillər tərəfindən məğlubiyyətə uğrayan taborçuların ayrı-ayrı dəstələri 1437-ci ilə kimi feodal-katolik qüvvələrinə qarşı mübarizə apardılar.

**tabu** - mövhumatçı təsəvvürlərə görə, fövqəltəbii qüvvələrin baş verə biləcək hadisə üstündə cəzalandıra biləcəyi bu və ya digər hərəkətlərin icrası üçün qoyulmuş qadağa sistemi.

**Tac-Mahal** - sultan Cahanşahın öz arvadı Mümtaz Mahal xatunun xatirəsinə 1630 -52-ci illərdə inşa etdirdiyi dünyada məşhur olan mavzoley. Tac-



Mahalın memarı Ustad İsa və b. olmuşdur. Aqranın 2 km-liyində ağ mərmərdən inşa edilən Tac-Mahal 74 m hündürlüyə ucaldılmış, oyma ilə işlənilmiş bəzi yerləri isə əlvan və qiymətli daşlarla bəzədilmiş 5 günbəzli tikilidir. Tac-Mahalın ətrafında 4 minarə və bağ vardır. Tac-Mahal Hindistanın müsəlman memarlığının ən önəmli abidəsidir. Qeyri-adi gözəlliyinə görə onu "Hindistanın incisi" adlandırırlar.

**tağ** (arka; lat. "arkus" - "ox") - yonulmuş və bir-birinə bərkidilmiş daşlardan hörülmüş qövsvari atma. Tağ dayaqlar arasındakı məsafəni artırmağa imkan verir; bununla belə, bu, çox möhkəm tikilidir. Hələ e.ə. III minillikdə Mesopotamiya sakinləri tağ tikməyə başlamışdılar. Amma daha geniş şəkildə ondan Qədim Roma memarları istifadə etməyə başlamışdılar. Hətta indi üzərindən keçilən körpülərin, su kəmərlərinin və dövrümüzədək çatmış binaların tikintisində də tağlardan istifadə edirdilər.

**Tağıyev Hacı Zeynalabdin** (1823 - 1924) - iri Azərbaycan sahibkarı və mesenatı. Zeynalabdin Tağıyev Bakıda, çəkməçi ailəsində anadan olmuşdur. Ailəsi ehtiyac içərisində olduğundan o, uşaq yaşlarından inşaatda əvvəlcə qara fəhlə, 15 yaşından ısə bənna işləməyə başlamışdı. 1860-cı illərdə, artıq bir qədər pul topladıqdan sonra o, xırda manufaktura malları alıb-satmaqla məşğul olmuşdur. 1870-ci ildə isə Tağıyevin kiçik bir neft zavodu var idi. 1873-cü ildə Tağıyev sərmayəsini neft hasilatı və sənayesinə qoymuş və bundan xeyli gəlir əldə etmişdi. Tağıyev 1877-ci ildə ikinci gildiya, 1882-ci ildə isə birinci gildiya tacir rütbəsi almışdı. XIX əsrin 80 - 90-cı illərində "H.Z.Tağıyevin neft sənayesi firması" çoxsahəli təsərrüfata və neft sənayesində ən iri müəssisələrə malik idi. Neft emalı zavodlarının gücünə görə firma 4-cü yeri tuturdu. Tağıyev 1890-cı ildə 10 gəmiyə malik olan "Kaspi" gəmiçilik cəmiyyətini satın aldı. 1897-ci ildə Tağıyev mədənlərini və neftayırma zavodlarını Britaniyanın "Vişau" şirkətinə 5 mln. rubla satdı, həm də "Oleum" cəmiyyətinin direktorlarının biri kimi qaldı. Bu cəmiyyət həmin müəssisələrin əsasında yaranmışdı və əsas payçılardan biri (100 min funt-sterlinq məbləğində, yəni 1 milyon qızıl rubl dəyərində səhmə malik) idi. Tağıyev



downloaded from KitabYurdu.org

əldə etdiyi kapitalı tikintiyə, toxuculuğa, gəmi inşaatına, yeyinti və balıq sənayesinə, eləcə də kənd təsərrüfatına yönəltdi. 1899-cü ildə Tağıyevin və Putilovun fəal iştirakı ilə "Elektrosila" səhmdar cəmiyyəti yaradılmışdır. 1900-cü ildə Bakıda Tağıyevə məxsus "Qafqaz lifli məmulatlar səhmdar cəmiyyəti" fabriki işə düşdü. Bu, Qafqazda on böyük, Rusiya imperiyasında isə pambıq emalı üzrə ən iri toxuculuq fabriklərindən biri idi. Elə həmin il Tağıyevə "İrsi fəxri vətəndaş" rütbəsi verildi. 1903-cü ildə Tağıyev "gəmidoldurma ittifaqı" sindikatına daxil oldu. XX əsrin əvvəllərində onun mülkiyyəti bir neçə milyon rubla bərabər idi. 1907-ci ildə Tağıyev dördüncü dərəcə həqiqi dövlət müşaviri rütbəsinə layiq görüldü. 1910-cu ildə ona irsi aristokrat titulu verildi. Tağıyev 1912-ci ildə satışa çıxarılmış balıq vətəgələrini aldı. 1914-cu ildə Nağıyevlə birlikdə əsas kapitalı 3 milyon rubl olan Bakı Səhmdar Ticarət Bankını təsis etdi. Rusiyanın və İranın bir çox orden və medalları ilə təltif olunmuşdur.



H.Z.Tağıyevin evi

Azərbaycan xalqının maariflənməsində Tağıyevin xüsusi yeri vardır. 1883-cü ildə o öz vəsaiti ilə birinci teatr binasını (indiki Musiqili Komediya Teatrı) binasını tikdirdi. Tağıyev 1895-ci ildə Mərdəkan bağının yaxınlığında internat məktəbi açdı. O, Bakı, Yelizavetpol və İrəvan quberniyalarında bir çox ibtidai məktəbi maliyyələşdirirdi. O həm də Rusiya ali məktəblərində təhsil alan istedadlı Azərbaycan gənclərinin xərclərini ödəyirdi, o cümlədən Nəriman Nərimanov da onun vəsaiti ilə oxumuşdur. Tağıyevin mühüm xidmətlərindən biri də 1901-ci ildə Bakıda müsəlman qızları üçün məktəb (indi AMEA-nm Əlyazmalar İnstitutu) açmasıdır. Bakını təmiz su ilə təchiz edən su kəmərinin inşasında da Tağıyev böyük rol oynamışdır. Tağıyev 1906-cı ildə Muxtarovla birlikdə "Nəşri-maarif" və "Nicat" mədəni-maarif xeyriyyə cəmiyyətlərinin əsasını qoymuşdur. Tağıyev 1909-cu ildə dəyirman inşasına başlasa da, Nargin adasındakı həbsxanada qohumları olan şəhər sakinlərinin xahişi ilə onu 1910-cu ildə həbsxanaya çevirdi. Bina "Tağıyev qazamatı" adını aldı. 1913-cü ilin əvvəllərində müsəlman qız məktəbi yanında müəllimələr hazırlamaq üçün pedaqoji kurs təşkil olundu. Məktəbə 100 min rubl toxunulmaz sərmayə ayrıldı. 1916-cı ildə bu məktəb ali ibtidai məktəbə çevrildi. Tağıyevin vəsaiti ilə bir neçə qəzet və jurnal nəşr olunurdu. O, bir sıra ədəbi və tarixi əsərlərin də nəşrini maliyyələşdirirdi. Tağıyev 1885-ci ildə Bakı şəhər Dumasının deputatı olmuşdur. Şəhər dumasının bir çox qlasnıları çox vaxt Tağıyevin evində toplaşır və onun rəhbərliyi altında Bakının həyatı ilə bağlı mühüm məsələləri birlikdə müzakirə edirdilər.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Tağıyevin bütün müəssisələri bolşeviklər tərəfindən milliləşdirildi. Tağıyev vətəni tərk etmək istəmədiyindən ona Mərdəkandakı bağında yaşamağa icazə verildi. O, Mərdəkanda vəfat etmiş, orada da dəfn olunmuşdur.



downloaded from KitabYurdu.org

**Talış (Lənkəran) xanlığı** - XVIII əsrin birinci yarısında Azərbaycan ərazisində, Talış dağlarında yaradılmış xanlıq. Xanlığın mərkəzi əvvəlcə Astara, sonra isə Lənkəran olmuşdur. İlk xan Səfəvilər nəslindən olan ərdəbilli Seyid Abbas bəy (1736 - 47) olmuşdur. Onun oğlu Cəmaləddin Mirzə bəy (Qara xan - 1747 - 86) Talış xanlığının iqtisadi və siyasi qüdrətini möhkəmləndirmək məqsədi



ilə bir sıra tədbirlər həyata keçirdi. Qara xan xarici siyasətdə Rusiyameylli mövqedə dururdu. 1768-ci ildə Talış xanlığına soxulan gilanlı Hidayət xan Qara xanı əsir götürərək Şindan qalasına apardı və onu böyük ödənc verməyə məcbur elədi. Talış xanlığı 1785-ci ildə qubalı Fətəli xandan asılı vəziyyətə düşdü. Qara xandan sonra onun oğlu Mir Mustafa xan (1786-1814) Talış xanlığını idarə etmişdi. 1795-ci ildə Ağa Məhəmməd xan Qacar Talış xanlığına hücum etdi. Lənkəran əhalisini Sara adasına köçürən Mir Mustafa xan İran qoşunlarına müqaviməti təşkil etdi. Mir Mustafa xan da Qara xan kimi Rusiyaya meylli mövqedə idi. 1802-ci il Georgiyevsk müqaviləsinə görə, Talış xanlığı Rusiyanın himayəsi altına keçdi. 1-ci Rusiya - İran müharibəsi zamanı Mir Mustafa xan 1809-cu ildə Talış xanlığının Rusiyaya birləşdirilməsini elan etdi. İrandakı İngiltərə səfiri Mir Mustafa xandan tələb etdi ki, Rusiya ilə münasibətləri kəssin. Talış xanlığına isə sırasında ingilis də olan İran kəşfiyyatçı qrupu göndərildi. Onlar Lənkəran qalasının möhkəmləndirilməsi planını tərtib etdilər. 1812-ci ilin avqustunda Lənkəranı ələ keçirən İran qoşunları Talış xanlığını tutdular və bu zaman Rusiya Talışa həm quru qoşunları, həm də dəniz hərbi hissələri göndərdi. 1812-ci il dekabrın 21-də rus qoşunları İran qarnizonu tərəfindən mühafizə edilən Lənkəran qalasını mühasirəyə aldılar. Amansız savaşlardan sonra 1813-cü il yanvarın 1-də Lənkəranı ələ keçirən rus qoşunları Talış xanlığını işğal etdilər. 1813-cü il Gülüstan müqaviləsinin şərtlərinə görə, Talış xanlığı Rusiya imperiyasının tabeliyinə keçdi. 1826-cı ilə qədər Talış xanlığında əvvəlki idarə sistemi saxlanılırdı, amma xanın hakimiyyəti xeyli məhdudlaşdırılmışdı. 1826-cı ildə Talış xanlığı ləğv edildi, ərazisi isə Rusiya imperiyasının əyalətinə çevrildi.

**Talışda müstəmləkə əleyhinə 1831-ci il üsyanı** - çar hökumətinin Azərbaycanda həyata keçirdiyi müstəmləkəçi inzibati sistemin mahiyyəti Talışda daha kəskinliklə özünü büruzə verdi. Burada çar komendantlarının özbaşınalığının həddi-hüdudu yox idi. Talış əyanlarının nümayəndələri rus komendantlarının təzyiqindən İrana qaçmış keçmiş Talış xam Mir Həsən xam dəvət etdilər ki, qayıdıb xanlığın müstəqilliyinin bərpası uğrunda mübarizəyə başçılıq etsin. 1831-ci il martın 5-də yaxın tərəfdaşları ilə Astara çayını keçən Mir Həsən xan Lənkərana yollandı. Burada yerli sakinlər də ona qoşuldu. Martın 10-da rus komendantı tərəfindən yerli əhali arasından yığılan süvari dəstəsi də Mir Həsən



downloaded from KitabYurdu.org

xanın tərəfinə keçdi. Üsyançıların sayı 1000 nəfərdən artıq idi. Martın 12-də üsyançılar Lənkəranı mühasirəyə aldılar, amma martın 14-də onlar rus qoşunları tərəfindən məğlub edildilər. Sonra daha bir neçə toqquşma oldu, 1831-ci il mayın 5-də isə üsyan tam yatırıldı. Mir Həsən xan yenidən İrana qaçdı.

**talışlar** - Xəzər dənizinin cənub-qərb sahillərində, Talış dağlarında məskunlaşmış xalq. Azərbaycan Respublikasında, demək olar ki, azərbaycanlılarla qaynayıb-qarışmışlar. İranda talışlar 60 min nəfərə yaxındırlar. Dilləri - talış dilidir, İran dilləri qrupuna aiddir.

**Tamerlan** - bax: Teymur.

**tarix** - hadisə, əhvalat, qəziyyə. Tarix - mənbələr üzrə insanın meydana gəlməsi və inkişafını, müxtəlif xalqların ən qədim zamanlardan bizim dövrümüzədək necə yaşamaları, onların həyatlarında hansı hadisələrin baş verməsi, insan cəmiyyətlərinin həyatı necə və niyə dəyişib indi mövcud olduğu hala düşməsini öyrənən elmdir. Müasir dövr hadisələrinin hamısının keçmişdə səbəbləri və başlanğıcı olmuşdur. Buna görə də əvvəllər baş vermiş hadisələri bilmək həmişə lazımdır. Bu cür bilik bu və ya digər şəraitdə səhvə yol verməmək, düzgün addım atmaq üçün yardımçı ola bilər. Tarixi bilmək cəmiyyətdə bu və ya digər hadisənin necə inkişaf edəcəyinin proqnozlaşdırılmasını, əvvəlcədən duyulmasını və ya gələcəkdə hər hansı proseslərin baş verəcəyini müəyyənləşdirməyə kömək edir. Tarix - insanın cəmiyyətdə rolunu anlamaq və özünüdərketmə ehtiyaclarını əks etdirən ictimai elmlərdən biridir. Tarix - insanın özünü dərk etməsinin əsas formalarından biridir.

**tarixi maddi** mənbələr-qədim insanların əşyaları, onların sümükləri, habelə üzərində onların fəaliyyəti nəticəsində izləri qalmış əmək alətləri və onların köməkliyi ilə yaradılmış tikililər, silahlar, qablar, paltarlar, bəzək əşyaları, incəsənət əsərləri, bütövlükdə insan əməyinin fəaliyyəti nəticəsində meydana gəlmiş hər şey tarixi mənbədir.



**tarixi sənəd** - qaya, daş, gil, sümük, ipək, papirus və s. materiallar üzərində qədimdə həkk olunmuş və alimlərin tarixi məlumat aldıqları yazılar.

**tarixşünaslıq** - tarix elminin tarixini öyrənən elm.

**Tasit** Korneli (58 - 117) - Qədim Roma tarixçisi; "Tarix" və "Annallar" əsərlərini yazmışdır. Bu əsərlərdə bir tərəfdən Parfiya və Qafqaz ölkələri, digər tərəfdənsə Roma ilə münasibətlərin tarixi haqqında qiymətli məlumatlar vardır.

**Tasman** Abel Yanszon (1603 - 59) - holland dəniz səyyahı, Okeaniya və Avstraliyanın tədqiqatçısı. Onun adı ilə adlandırılmış adanı, Yeni Zelandiyanın qərb sahilini, Fici və Tonqa adalarını kəşf etmişdir. 1644-cü ildə sübut etmişdir ki, Avstraliya vahid quru massividir.



downloaded from KitabYurdu.org

**tatlar** - Azərbaycan Respublikası (8 min nəfərə yaxın) və Dağıstan (Rusiya Federasiyası; 7 min nəfərə yaxın) ərazilərində yaşayan xalq. Dili - tat dilidir, İran dilləri qrupuna aiddir. V - VI əsrlərdə tatlar İrandan Sasanilər tərəfindən, əsasən Xəzərin sahil rayonlarına - Abşeron yarımadasından Dərbəndə kimi köçürülmüşdür.

**tayfa** - bir yerdə yaşayan, eyni dildə danışan və eyni adətləri olan bir neçə qəbilənin ittifaqı tayfanı əmələ gətirirdi. Tayfanın ümumi məsələlərini həll etmək üçün qəbilə icmalarının ağsaqqallar şurası yığılırdı. Qəbilələrin ağsaqqalları tayfanın ağsaqqallar şurasına daxil olurdu. Çox mühüm məsələlərin həlli üçün ağsaqqallar xalq yığıncaqlarını çağırırdılar. Qohum tayfaların ittifaqı tayfa birliyini (ittifaqını) təşkil edirdi.

**Taypinlər üsyanı** - 1850 - 64-cü illərdə Çində mancurların Sin sülaləsinə, yerli feodalların və xarici müstəmləkəçilərin zülmünə qarşı baş vermiş kəndli müharibəsi. Taypinlərə ümumxalq bərabərliyi təbliğ edən kənd müəllimi Xun Sütsüan başçılıq edirdi. Taypinlər çox böyük əraziləri tutmuşdular və Nankini dövlətlərinin paytaxtı ctmişdilər. Xun Sütsüan isə imperator elan olunmuşdu. Üsyan Çin - mancur feodallarının və ingilis - fransız - amerikan müdaxiləçilərinin birləşmiş qüvvələri ilə yatırıldı. Xun Sütsüan özünü öldürdü.

**teatr** (yun. "tamaşa üçün yer", "tamaşa") - e.ə. V əsrin sonları - IV əsrdə, demək olar ki, yunan şəhərlərinin hamısında açıq səma altında teatrlar inşa edilmişdir. Afinada teatr Akropolun yamacında inşa olunmuşdu və 17 min tamaşaçı tuturdu. Teatr tamaşaları ildə 2 - 3 dəfə təşkil olunur və üç gün ərzində səhərdən-axşamadək davam edirdi. Yunanıstanda teatrı "böyüklər üçün məktəb" adlandırırdılar.

**Tehran konfransı** - İkinci Dünya müharibəsi illərində üç müttəfiq dövlətin (Böyük Britaniya, SSRİ, ABŞ) rəhbərlərinin - U.Çörçill, İ.Stalin, F.Ruzveltin görüşü. Tehran konfransı İranın paytaxtı Tehran şəhərində 1943-cü il noyabrın 28-dən dekabrın 1-dək olmuşdur. Konfransda Hitler Almaniyasına qarşı müharibədə birgə mübarizə aparmaq üçün bəyanat imzalanmışdır. Eyni zamanda, Almaniya hərbi qüvvələrinin məhv edilməsi və bir sıra hərbi əməliyyatların keçirilməsi planları razılaşdırılmışdır. Sovet tərəfinin təkidi ilə 1944-cü ilin mayında Fransa ərazisində İkinci cəbhənin açılması qərara alınmışdı. SSRİ Avropada hərbi əməliyyatlar başa çatdıqdan sonra Hitler Almaniyasının müttəfiqi olan Yaponiyaya qarşı müharibədə iştirak etməyə hazır olduğunu bəyan etdi.

**tendensiyalı** - 1) müəyyən təmayülə tabe olan; 2) qərəzli, qeyri-obyektiv, birtərəfli (məs.: hadisələrin birtərəfli işıqlandırılması).

**teokratiya** - siyasi və dini hakimiyyətin ruhanilərə məxsus olduğu dövlət forması.

**termidor çevrilişi** - 1794-cü il iyulun 27 - 28-də (respublika təqvimi ilə 2-ci ilin 9 termidoru) yakobin diktaturasının süqutuna səbəb olmuş və Böyük Fransa burjua inqilabına son qoymuş əksinqilabi çevriliş. Çevrilişə J.Fuşe, J.L.Talyen və



downloaded from KitabYurdu.org

P.Barras başçılıq etmişlər. Direktoriyanın Termidor hökuməti yakobinlərin demokratik ictimai islahatlarını ləğv etdi, qiymət maksimumu ləğv olundu, əksinqilabi terror başlandı.

**terror** - qorxu, zorakılıq, eləcə də rəqib tərəfi məhv etmək siyasəti, o cümlədən fiziki cəhətdən.

**terrorizm** (dövlət) - digər dövlətlərdəki ictimai-siyasi quruluşu pozmaq üçün terror üsul və metodlarından istifadə edilməsi ilə bağlı dövlət siyasəti. Dövlət terrorizminə hərbi, siyasi və mənəvi-psixoloji təzyiq, şantaj və qorxutma, dövlətlərin ərazi bütövlüyü və suverenliyinin pozulması aiddir. Siyasi qətl, adam oğurlamaq, diversiya, sabotaj və təcavüz kimi hərəkətlərdən istifadə edilir. Dövlətlərarası münasibətlərdə terrorizm siyasəti və praktikası BMT tərəfindən (1984) pislənmişdir.

**Tevton ordeni** (dəqiq adı - müqəddəs Tevtonlu Mariya evinin ordeni) - XII əsrin sonlarında səlib yürüşləri zamanı Fələstində əsası qoyulmuş alman katolik ruhani-cəngavər ordeni. 1198 - 1525-ci illərdə Baltiksahili bölgədə prusslardan, litvalılardan və polyaklardan tutulmuş ərazilərdə Tevton ordeni dövləti yaradılmış və mövcud olmuşdur. Qrünvald döyüşündə cəngavər qoşunlarının darmadağın edilməsindən sonra zəifləmiş və 1466-cı ildən Polşanın vassalı olmuşdur. 1525-ci ildə onun Baltik sahilindəki torpaqları Prussiya dünyəvi hersoqluğuna çevrilmişdir.

**Teymur** (1336 - 1405) – qüdrətli sərkərdə. Müasir Özbəkistanın ərazisindəki Qaşqadərya vilayətinin Xoca İlqar kəndində türkləşmiş barlas tayfasında hərbçi ailəsində anadan olmuşdur. Sağ dizindən və çiynindən aldığı yaradan ayağı qatlanmadığına görə ona "Teymurləng" (Topal Teymur -avropalılar onun adını Tamerlan kimi söyləmişlər) adını vermişlər. Özünün kübar nəslindən olmaması və fiziki çalışmazlığına baxmayaraq, qabiliyyəti sayəsində monqol xanlığında yüksək mənsəblərə çatmışdı. Teymur 1370-ci ildə hökumət başçısı olduqdan sonra xanı devirərək Cağatay ulusunda (Qaşqadərya vilayətində) hakimiyyəti ələ keçirmişdir. Bundan sonra o özünü Çingiz xanın birbaşa varisi elan etmişdir. Növbəti 35 ildə işğalçı müharibələr aparan Teymur yeni-yeni torpaqlar tutmuş və dövlətin öz daxilində hər cür müqaviməti boğmuşdur. Fəth edilmiş torpaqlardan qarət olunmuş bütün varidatı Teymur Səmərqəndə aparmışdır. 1380 - 89-cu illərdə o, İran, Mesopotamiya, Ermənistan və Gürcüstanı tabe etmişdir. 1392-ci ildə İranda başlanmış üsyanı yatıran Teymur öz rəqiblərini ailələri ilə birlikdə öldürmüş və şəhərlərini yandırmışdır. Teymur 1395-ci ildə Rusda Yelets şəhərini tutmuş, amma naməlum səbəblərdən geri qayıtmışdır. Teymurun hərbi təşkilatçılığı Çingiz xanda olduğu kimi idi. Onun qoşunlarının əsas zərbə qüvvələrini ox-kaman və qılıncla silahlanmış süvarilər təşkil edirdi, yük atlarında isə uzunmüddətli yürüşlər üçün ləvazimat daşıyırdılar. 1389-cu ildə Hindistana soxulan Teymur Dehlini tutdu, dinc əhalini qırdı və Səmərqəndə apara bilmədiklərini dağıtdı. 1398-ci ildə Panipat yaxınlığındakı döyüşdən sonra Teymurun əmri ilə 100 min hindli əsgər məhv edildi. 1401-ci ildo Suriyanı tutan



downloaded from KitabYurdu.org

Teymur Dəməşqin 20 min sakinini öldürtdü. O, 1402-ci ildə Osmanlı sultanı I İldırım Bəyazidi məğlubiyyətə uğratdı. Bundan sonra bir çox başqa ölkələr Teymura xərac verdilər ki, onun qoşunlarının yürüşünə məruz qalmasınlar. Teymur hətta Misir sultanı və Bizans imperatoru İohandan da xərac almışdır. Öz miqyasına görə Teymurun dövləti Çingiz xanın imperiyasına bərabər idi. Səmərqənddəki sarayı isə sərvətlə doluydu. Buna baxmayaraq 69 yaşlı fateh Çinə müdaxilə etməyi qərara aldı, lakin düşündüklərini həyata keçirə bilmədi - 1405-ci il yanvarın 19-da öldü. Vəsiyyətinə uyğun olaraq Teymurun dövləti onun oğlanları və nəvələri arasında bölündü. Teymurun mavzoleyi - Qur Əmir - bu gün də Səmərqəndin ən məşhur memarlıq abidələrindən biridir. tezis - əsas müddəa.

**Təbii hüquq** - insanın təbiətindən gələn və ictimai şəraitdən asılı olmayan prinsip və hüquqlar məcmusunu bildirən məfhum. Təbii hüquq ideyası antik dövrdə inkişaf etdirilmişdi (Aristotel, Siseron). Təbii hüquq XVII - XVIII əsrlərdə burjuaziyanın feodalizmə və mütləqiyyətə qarşı mübarizəsində bir alət kimi xüsusi ictimai əhəmiyyət kəsb etmişdir. Con Lokk, Tomas Hobbs, Jan Jak Russo, Şarl Monteskyö, Dcni Didro və b.-nın əsərlərində inkişaf etdirilmişdi.

**təbliğat** - siyasi, fəlsəfi, elmi, bədii və digər ideyaların ictimai şüura yeridilməsi və kütləvi praktik fəaliyyətin aktivləşdirilməsi məqsədi ilə yayılması.

**Təbriz üsyanı** (1920) - 1920-ci il aprelin 7-nə keçən gecə Təbrizdə ingilis işğalçılarına, şah rejiminə və 1919-cu ildə imzalanmış qeyri-bərabər İngiltərə - İran müqaviləsinə qarşı yönəlmiş silahlı üsyan başlandı. 1917-ci il avqustun 24-də yaradılmış Azərbaycan Demokrat Partiyası (ADP) şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə üsyana rəhbərlik edirdi. Üsyanda əhalinin demokratik dəyişikliklər tələb edən müxtəlif təbəqələri iştirak edirdi. Üsyançılar iki gün ərzində bütün hökumət müəssisələrini tutdular. Xiyabani Cənubi Azərbaycanı "Azadistan" adlandırdı. 1920-ci il mayın 10-da Xiyabaninin tələbi ilə ingilis sipahiləri Təbrizdən çıxarıldı. Üsyan tədricən Cənubi Azərbaycanın və İranın digər şəhərlərinə də yayıldı. 1920-ci il iyunun 24-də Təbrizdə Xiyabani başda olmaqla Milli Hökumət yaradıldı. Milli Hökumət bütün İran məmurlarını Təbrizdən çıxardı. Hökumət şəxsiyyət və xüsusi mülkiyyət toxunulmazlığı prinsiplərini elan etdi, şah rejimini devirmək və respublika təsis etmək, geniş demokratik dəyişikliklər həyata keçirmək və gələcək demokratik İran çərçivəsində Cənubi Azərbaycanın muxtariyyətinə nail olmağı qarşısına məqsəd qoydu. Şah qoşunları bilavasitə ingilislərin rəhbərliyi altında Təbrizdə üsyanı yatırmaq üçün hazırlıq işlərinə başladılar. Eyni zamanda, üsyançıları arxayın salmaq məqsədi ilə şah hökuməti Xiyabaninin milli hökuməti ilə danışıqlar aparırdı. 1920-ci il sentyabrın 12-də hökumət qoşunları və rus kazak hissələri hücuma keçərək sentyabrın 14-də Təbrizi tutdular, Xiyabani öldürüldü. Təbriz tutulduqdan sonra inqilabi hərəkat Cənubi Azərbaycanın digər ərazilərində də yatırıldı.

**Təbrizi** Fələki Əla XIII - XIV əsrlər Azərbaycan riyaziyyatçısı. Əsas əsərləri: "Səadətnamə" və "Qanun əs-səadət".



downloaded from KitabYurdu.org

**Təbrizi** Xətib (1030 - 1108) - Azərbaycan filosofu, ədəbiyyatçı və dilçisi. Xətib Təbrizi fəlsəfə, məntiq, sintaksis və ədəbiyyat üzrə orijinal əsərlər yaratmışdır.

**Təbrizi Qətran** (1012 - 86) - Azərbaycan şairi. Azərbaycan ədəbi İntibahının ilk nümayəndəsi. Əsas əsərləri lirik şerlər toplusundan ibarət "Divan"ı, eləcə də "Ət-təfsir" (farsca) izahlı lüğətidir. Öz qəsidələrində Azərbaycan hökmdarlarını birliyə və dostluğa çağıran Qətran Təbrizi onların birlikdə əldə etdikləri zəfərləri tərənnüm etmişdir.

**Təbrizi Qövsi** - XVII əsr Azərbaycan şairi. Şerlərində vətənə məhəbbəti və azadlığı tərənnüm etmişdir. Təbrizinin şerlərinin dili canlı xalq dilinə yaxındır. Onun divanının (şerlər toplusunun) əlyazması dünyanın bir çox ölkələrinin muzeylərində saxlanılır.

**Təbrizi** Mirzə Məhəmmədəli (1601 -77) - "Saib Təbrizi" təxəllüsü ilə tanınmış Azərbaycan şairi; 120 min beytdən ibarət yeddi divanın müəllifi. Şerlərində vətənin gözəlliyini tərənnüm etmişdir.

**Təbrizi Übeyd** (? - 1308) - Azərbaycan riyaziyyatçısı. "Risalət ül-hesab" ("Hesab haqqında yazılar") əsərinin müəllifidir.

**təcavüz** - bir dövlətin başqa dövlətin müstəqilliyi və ərazi bütövlüyünə qarşı hər hansı şəkildə hərbi qüvvə tətbiq etməsi. Siyasətdə "iqtisadi təcavüz" və "siyasi təcavüz" məfhumları da işlədilir.

**təftişçilik** - əsas məqsədlərindən biri hər hansı təlimin, nəzəriyyənin əsas müddəalarını yenidən nəzərdən keçirmək, dəyişmiş şəraitə uyğun olaraq onun tənzimlənməsi tərəfdarı olan, ona prinsipial dəyişikliklər etmək istəyən ideya-siyasi cərəyan.

**təhkimli** - torpaq və şəxsi azadlığından məhrum olan, yəni feodaldan həm torpaq, həm də şəxsi asıldığa düşən kəndli. Təhkimli kəndlilər ağalarından tamamilə asılı idilər və öz əmlakları ilə sərbəst rəftar edə bilməzdilər, onlar torpağa təhkim olunmuşdular. Təhkimlilərin övladları və nəvələri də feodaldan şəxsən asılı idilər.

**təxliyə (evakuasiya)** - 1) qoşunların yerləşdikləri (tutduqları) ərazidən çıxarılması; 2) yaralıların və xəstələrin, eləcə də hərbi əmlakın, hər cür sərvət və s.-nin hərbi əməliyyat rayonundan çıxarılması; 3) müharibə və ya təbii fəlakət zamanı təhlükəli rayonlardan və ya həmin ərazilərdə hər hansı tikinti işləri nəzərdə tutulan vaxt əhalinin, müəssisələrin, idarələrin, maddi və mədəni sərvətlərin oradan köçürülməsi.

**təkamül** (ər. "kamala çatma", "təkmilləşmə"; lat. "evolutio" - "inkişaf etmə", "genişlənmə") - yeni keyfiyyətə keçidlə nəticələnən ləng, tədrici dəyişiklik. Təkamül və inqilab - evolyusiya və revolyusiya - cəmiyyətin və təbiətin inkişafının bir-biri ilə bağlı iki formasıdır.

**təkrar istehsal** - istehsal prosesinin daim təkrarlanması, fasiləsiz olaraq yeniləşməsi.



downloaded from KitabYurdu.org

**təkər** - ox üzərində fırlanan disk və ya milləri olan çənbər, sağanaq. Təkər insanın Qədim Şərqdə təxminən 4 min il bundan əvvəl köçəri maldar tayfalar tərəfindən edilmiş ən mühüm kəşflərindən biridir.

**Təqvim** - bax: kalendar.

**"təmkinlilik" doktrinası** - 1946-cı ildə Amerika politoloqu C.Kennan tərəfindən irəli sürülmüşdür. Həmin doktrinaya görə, SSRİ-nin öz nüfuz dairəsini genişləndirməyə yönəltdiyi hər bir cəhdə ABŞ özünün kəskin reaksiyasını bildirəcək, lakin bu zaman ABŞ-ın SSRİ-nin daxili işlərinə qarışması istisna olunurdu. C.Kennan güman edirdi ki, bu sayaq "təmkinlilik" yeni dünya müharibəsinin qarşısını ala bilər.

**tənzimat** - tarixdə XIX əsrin 1839 - 70-ci illərinin əvvəllərində Osmanlı imperiyasında keçirilən, Türkiyədə feodalizmin dağılmasını və kapitalist münasibətlərinin yaranmasını sürətləndirən islahatların adı.

**tənzimləmə** - nizama salma, əvvəl mövcud olmuş qaydanın, vəziyyətin bərpa edilməsi və ya yenisinin yaradılması. Dinc tənzimləmə - beynəlxalq münaqişənin danışıqlar yolu ilə, tərəflərin razılaşması yolu ilə həll edilməsi.

**Tərəqqi** - ibtidaidən aliyə doğru, sadədən daha mürəkkəbə doğru inkişaf istiqaməti; daha yetkinə doğru hərəkət, yeniliyə, yaxşılığa doğru dəyişiklik.

**tərk-silah** - müxtəlif növ döyüş vasitələrinin tam, yaxud qismən ixtisarına səbəb ola biləcək və müharibənin başlanması təhlükəsinin aradan qaldırılması üçün şərait yaradan tədbirlər sistemi.

**təslim. təslim olma** (kapitulyasiya) - müdafiə olunan obyektin və ya qoşunun düşmənə təhvil verilməsi. Təslim olan dövlətin üzərinə bir sıra siyasi, iqtisadi, hərbi və s. öhdəliklərin qoyulması ilə müşayiət edilir.

**tətil** - fəhlələrin iqtisadi və siyasi tələblərinin ödənilməsi uğrunda bir və ya bir neçə müəssisədə işin kollektiv dayandırılmasını nəzərdə tutan mübarizə formalarından biri.

**təşviqat** - kütlələrin siyasi fəaliyyətə cəlb edilməsi məqsədi ilə onların şüur və əhval-ruhiyyəsinə təsir göstərən kütləvi informasiya vasitələri (mətbuat, radio, televiziya), şifahi çıxışlar və əyani vasitələrlə həyata keçirilən siyasi fəaliyyət.

**Tiberi Qrakx** (e.ə. 162 - 133) - mənşəcə varlı plebey nəslindən idi. III Pun müharibəsi zamanı o, e.ə. 146-cı ildə hamıdan əvvəl Karfagenin divarları üstünə çıxmış və buna görə qızıl çələnglə təltif edilmişdir. Bu zaman Romada ucuz qul əməyindən geniş istifadə edilməsi nəticəsində kəndlilər kütləvi surətdə var-yoxdan çıxmağa başladılar. Kəndlilərin torpaqlarını itirməsi ilə hərbi xidmətə çağırılan adamların sayı azaldı ki, bu da Roma qoşunlarının sayının aşağı düşməsinə səbəb oldu. E.ə. 133-cü ildə Tiberi Qrakx xalq tribunu seçildi. Kəndlilərin var-yoxdan çıxmasının qarşısını almaq, Roma dövlətini və ordusunu möhkəmlətmək məqsədi ilə o, islahatlar keçirilməsini – varlıların artıq torpaqlarını alıb torpaqsız kəndlilərə paylamağı təklif etdi. İri torpaq sahiblərindən ibarət olan senat bu islahatların əleyhinə çıxdı. Bunu görən Tiberi senatdan yan keçərək xalq yığıncağı çağırdı və



downloaded from KitabYurdu.org

orada torpaq haqqında qanun qəbul edildi. Kəndlilərə torpaq paylanılmasına başlanıldı. Senatorlar şayiə yaydılar ki, Tiberi hökmdar olmaq istəyir və xalq yığıncaqlarının birində "respublikanı xilas etməyə" çağırmaqla əllərində dəyənək və çubuqla Tiberinin üzərinə atılıb onu döyüb öldürdülər. Onun 300 nəfər tərəfdaşı da öldürüldü. Torpaqların paylanmasını Tiberinin qardaşı Qay Qrakx davam etdirmişdir.

**Tilzit sülhü** - 1807-ci il iyunun 25-də Tilzitdə Fransa imperatoru I Napoleon ilə Rusiya imperatoru I Aleksandrın arasında aparılan şəxsi danışıqlar nəticəsində bağlanmışdır. Tilzit sülhünün şərtlərinə görə, Rusiya Varşava hersoqluğunun yaradılmasına razılıq verdi və kontinental blokadaya qoşuldu. Bununla əlaqədar olaraq Napoleon Qərbi Avropada, I Aleksandr isə Avropanın şimalında və cənub-qərbində fəaliyyət sərbəstliyi əldə etdi. Beləliklə, imperatorlar vəd verdilər ki, həmin rayonlarda bir-birlərinə mane olmasınlar və İngiltərəyə qarşı saziş bağladılar.

**Tir** - finikiyalıların e.ə. III - II minilliklərdə Aralıq dənizinin şərq sahillərindəki adada yerləşmiş ən böyük və bu səbəbdən düşmən üçün alınmaz qala olan ticarət şəhəri. Tir şəhərinin bir sıra koloniyaları da vardı. Bunlardan ən böyüyü Karfagen idi.

**tiran** - 1) Qədim Yunanıstanda və orta əsrlər İtaliya şəhər-dövlətlərində hakimiyyəti zor gücünə ələ keçirmiş adam; 2) hakimiyyəti özbaşınalığa və zorakılığa əsaslanan hökmdar; 3) məcazi mənada - qəddar hökmlü şexs; əzab verən; despot.

**tiraniya** - siyasi zorakılığa əsaslanan hakimiyyət forması. Qədim Yunanıstanın bir sıra şəhərlərində demosun başçıları əksər hallarda özlərinin təkbaşına hakimiyyətlərini qururdular və yunanlar onları tiran adlandırırdılar. Tiranlar adətən əyanların zorakılığına qarşı mübarizədə aztorpaqlı və torpaqsız yoxsullara arxalanırdılar. Hakimiyyəti ələ keçirən tiran özünün siyasi rəqiblərinə divan tutur, onları məhkəməsiz və istintaqsız edam etdirir və əmlaklarını öz mülkiyyətlərinə çevirirdi. Özlərinin "xalqa olan məhəbbət"lərində tiranlar adətən kütlələrə cüzi əl payı və demaqoq vədlər verməklə kifayətlənirdilər. Tiranların əsas məqsədləri polis üzərində hakimiyyətlərini bərqərar etmək və irsi hakimiyyət yaratmaq idi. Son dövr tarixi ənənəsində "tiraniya" sözü amansız, qəddar qanlı mübarizə sinoniminə çevrildi.



**"tiryək müharibələri"** - Avropa dövlətlərinin Çində işğalçı müharibələrə başlamaları üçün bəhanə Çin hakim dairələrinin tiryək yükünü müsadirə etmək haqqında verdikləri qərar olmuşdur, buna görə də həmin müharibələr "tiryək müharibələrr adını almışdır. Birinci "tiryək müharibəsi (1840 - 42) ingilis qoşunlarının Çinə soxulması və bir sıra şəhərlərin tutulması ılə başlandı. Bununla da Çinin yarımmüstəmləkə çevrilməsinə zəmin yarandı. Nankin müqaviləsi ilə başa çatan bu müharibə



downloaded from KitabYurdu.org

nəticəsində Honkonq adası İngiltərəyə verildi, bir sıra Çin limanları xarici tacirlər üçün açıldı, Çin ölkəyə tiryək gətirilməsini qəbul etməsə də, faktik olaraq ona mane olmadı. İkinci "tiryək müharibəsi" zamanı (1856 - 60) - 1857-ci ildə ingilis və fransız qoşunları Quançjounu (Kanton) və Daqu istehkamını, 1860-cı ildə isə Tyantszin və Pekini tutdular. Qeyri-bərabər Tyantszin və Pekin müqavilələri Çinə zorla qəbul etdirildi. Bu müqavilələrə əsasən, xaricilərə daha bir neçə limanda ticarət etməyə icazə və əlavə imtiyazlar verildi: xaricilər Çin qanunları ilə mühakimə edilə bilməzdilər və s.

**titul** (lat. "fəxri rütbə") - fəxri sahiblik, irsi və ya verilmiş rütbə (məs.: knyaz, qraf).

**tiyul** - mülki və hərbi məmurların şaha göstərdikləri xidmət müqabilində aldıqları şərti torpaq mülkiyyəti. Tiyulu Səfəvilər dövründə paylamağa başlamışlar. Tiyul yalnız şahın icazəsi ilə irsən keçə bilərdi. Tiyul sahibi tiyuldar adlanırdı.

**tiyuldar** - tiyul sahibi. Tiyuldar dövlətə və şaha xidmət etməyə məcbur idi. Tiyuldarın tiyuldan əldə edilən gəlirin yalnız bir hissəsinə hüququ çatırdı, qalan hissə isə dövlət xəzinəsinə verilirdi.

**toxa əkinçiliyi** - əkinçiliyin toxanın əsas əmək aləti olduğu ən qədim forması. Toxa əkinçiliyi ağır zəhmət, böyük əmək tələb edir, həmişə məhsul verirdi. O, nəslin yığıcılıqla müqayisədə bitki ilə daha yaxşı qidalanmasına şərait yaradırdı.

**Toxtamış** - Cuci xanın nəslindən olan Qızıl Orda xanı (1380 - 1406). 1382-ci ildə rus knyazlıqlarına hücum etmiş, bu zaman Moskvanı tutub yandırmışdır. Teymur ilə 1389 – 95-ci illərdə apardığı müharibədə məğlubiyyətə uğramışdır. 1398 - 99-cu illərdə Volqaarxası Ordanın xanı Temir Qutlu tərəfindən məğlub edilmişdir.

**"toxunulmazlar"** - Hindistan əhalisinin azad, amma tam hüquqsuz təbəqəsi. Güman ki, onlar Hindistanın buraya soxulmuş arilərə qarşı ciddi müqavimət göstərən yerli əhalisinin törəmələridir. "Toxunulmazlar" heç bir kastaya daxil deyildilər. "Toxunulmazlar" hindlilərin dini nöqteyi-nəzərindən ən "natəmiz" və xoşagəlməz işləri yerinə yetirirdilər - natəmizlikləri yığışdırır, heyvanların dərilərini soyur və aşılayır və s. işlər görürdülər.

**toqa** - qədim romalıların qolsuz, uzun plaş kimi geyimdən ibarət olan üst paltarları.

**Topçubaşov Əlimərdanbəy** - görkəmli Azərbaycan siyasi xadimi, ixtisasca hüquqşünas. Topçubaşov Rusiyanın I Dövlət Dumasına (1906) Azərbaycandan deputat seçilmişdi. Topçubaşov Dumanın müsəlman fraksiyasının sədri, onun proqramının müəllifi olmuşdu. Topçubaşov Qafqazda islahatların zəruriliyi haqqında 1905-ci ilin martında çar hökuməti üçün tərtib olunmuş "Qafqazda islahatların zəruriliyi haqqında" petisiyanın müəlliflərindən biri idi. O, I Ümumrusiya müsəlmanları qurultayının (1905) nümayəndəsi idi və burada "Rusiya imperiyasında türklərin vəziyyəti və problemləri haqqında" məruzə ilə çıxış



downloaded from KitabYurdu.org

etmişdi. "İttifaqi-müslimin" (1905) partiyasının nizamnamə və proqramının müəlliflərindən biri idi. 1905-ci ilin sentyabrında Peterburqda neft sənayeçilərinin iclasında müsəlman fəhlələrin maraqlarını müdafiə etmişdi. II (yanvar, 1906) və III (avqust, 1906) Ümumrusiya müsəlmanları qurultayının nümayəndəsi idi. Topçubaşov 1918-ci ildə ADR hökumətinin Osmanlı imperiyasında fövqəladə və səlahiyyətli səfiri idi. O, 1918-ci ilin dekabrında Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin sədri təyin edilmişdi. Topçubaşov 1919-cu il dekabrın 7-də ADR parlamentinin sədri seçilmişdi.

1920-ci ilin yanvarında Fransada ADR-in de-fakto tanınması haqqında Paris sülh konfransı Ali Şurasının müstəqil qərarı Topçubaşova təqdim olunmuşdur. ADR-in devrilməsindən sonra Topçubaşov Parisdə anti-sovet fəaliyyətini davam etdirmişdir.

**Topçubaşov** Mirzə Cəfər (1784 - 1869) - Azərbaycan şərqşünası. Topçubaşov Gəncədə anadan olmuş, sonralar ailəsi ilə birlikdə Tiflisə köçmüşdür. Topçubaşov 1811-ci ildə gürcü şahzadəsi Teymuraz Baqrationinin məiyyəti ilə birlikdə Peterburqa getmiş, orada Rusiya Xarici İşlər Nazirliyinin



Asiya departamentinə tərcüməçi qəbul olunmuşdur. 1819-cu ildən Baş Pedaqoji Universitetdə (sonralar Peterburq universiteti adlandırılmışdır) fars dilindən dərs demişdir. Topçubaşov 1835-ci ildə fars dili kafedrasının müdiri olmuş və professor adı almışdır. M.İ.Qlinka ilə A.S.Qriboyedov onun tələbələri olmuşlar. Hər il müsabiqə əsasında universitetin məzunları və tələbələrinə Topçubaşov adına mükafat verilirdi. 1837-ci ildə o, Xarici İşlər Nazirliyinin Asiya departamenti yanında Şərq dilləri professoru olmuşdur. 1852 - 67-ci illərdə Topçubaşov Rusiya Arxeologiya Cəmiyyətinin Şərq numizmatikası şöbəsinə başçılıq etmişdir. Əsas əsərləri bunlardır: "İran müntəxəbatı" (1834) və "Ən qədim dövrlərdən Teymurləngə qədər monqolların tarixi" (1834). Topçubaşov A.Mitskeviçin "Krım sonetləri" poemasını fars dilinə tərcümə etmişdir. Topçubaşov şərqşünaslığın inkişaf etdirilməsindəki xidmətlərinə görə Britaniya Kral Asiya Cəmiyyətinin həqiqi üzvü seçilmişdir.

**torpaq asılılığı** - torpaq üzərində mülkiyyətini itirən, lakin öz şəxsi azadlığını saxlayan kəndlilər feodaldan torpaq asılılığına düşürdülər. Kəndlilər torpaq sahəsindən (kəsik, nadel) istifadə etmək üçün əldə etdikləri məhsulun bir hissəsini feodala verməli və ağanın torpağında işləməli idilər. Onların torpaq sahəsini qaytarmaqla kənddən çıxıb getmək hüquqları var idi.

**Tot** – qədim misirlilərdə müdriklik allahı. Onu say, təqvim və yazını yaradan allah hesab edirdilər. Totu əlində yazı ləvazimatı (lövhəcik və çubuq) olan qaraleylək başlı insan kimi təsvir edirdilər.

**total** - tam, ümumi, hamılıqla, bütünlüklə.

**totalitarizm** - totalitar dövlət formalarından biri. Onun xarakterik xüsusiyyətləri: cəmiyyətin bütün sahələrinin tam (total) nəzarət altında



downloaded from KitabYurdu.org

saxlanılması, demokratik təşkilatların qadağan olunması, konstitusion hüquq və azadlıqların ləğv edilməsi, mütərəqqi qüvvələrə qarşı repressiyalar aparılması, ictimai həyatın hərbiləşdirilməsidir. Faşist rejimləri, eləcə də SSRİ-nin, Çinin və digər sosialist ölkələrinin dövlət quruluşlarını totalitar rejimə aid edirlər.

**totemizm** - insanların nəslinin müəyyən totemdən (əcdad) - heyvan, bitki, təbiət hadisələri və cansız əşyalardan meydana gəlməsi təsəvvürləri ilə bağlı olan inanc və adətlər sistemi. Hər bir nəsil öz toteminin adını daşıyırdı. Onu öldürmək, qida kimi istifadə etmək və ya ona hər hansı xətər yetirmək olmazdı. Totemizm dünyanın bütün xalqları arasında yayılmışdır, bütün dinlərdə onun qalıqları saxlanılmışdır.

**Tövrat** - Bibliyanın beş kitabdan ibarət olan birinci hissəsi (yəhudilərdə - Tora). E.ə. IX - VII əsrlərdə tərtib olunmuşdur. Sonuncu dəfə e.ə. VI əsrin sonları - V əsrdə redaktə olunub.

**töycü** - feodalın asılı kəndlilərdən hər il yığdığı vergi. Natural (ərzaq və məhsulla) və pul şəklində töycü mövcud olmuşdur.



**Trafalqar** - İspaniyanın Kadis şəhəri yaxınlığında burun. 1805-ci il oktyabrın 21-də burada P.Vilnövün komandanlığı altında Fransa - İspaniya donanmaları ilə admiral H.Nelsonun komandanlıq etdiyi İngiltərə donanması arasında dəniz döyüşü olmuşdur.

**İngilis donanması fransız** - ispan donanmasını darmadağın etmiş, onların, demək olar ki, bütün gəmiləri yandırılmış və ya batırılmışdı. Admiral Nelson Fransa gəmisindəki dor ağacından atılan gülllədən ağır yaralanmış və düşmən üzərində tam qələbə xəbərini alan kimi ölmüşdür. Trafalqar burnu yaxınlığındakı qələbə ingilis donanmasına dənizdə ağalıq etməyə imkan yaratdı və İngiltərə uzun müddət Napoleon üçün əlçatmaz oldu.

**tragediya** (yun. "keçi nəğməsi") - Qədim Yunanıstanda adətən milli-qəhrəmanlarına həsr olunmuş pyes. Tragediyada qəhrəmanlar arasında baş verən kəskin mübarizə, onların şücaəti, iztirabları və çox vaxt da həlak olmaları təsvir edilirdi. Görkəmli tragediya müəllifləri Esxil və Sofokl idi. Afina teatrında onların abidələri – heykəlləri qoyulmuşdu. Yunanıstanda tragediya müəlliflərini "müdriklik başçısı" adlandırırdılar.

**Trayan** - Roma imperatoru (98 - 117). Trayanın işğalçı yürüşləri nəticəsində Roma imperiyası sərhədlərini maksimum dərəcədə genişləndirərək Dakiya, Ermənistan, Ərəbistan, Mesopotamiyanı öz tərkibinə qatmışdı. Amma az sonra həm yeni tutulan ölkələrdə, həm də köhnə əyalətlərdə üsyanlar başlandı. Ağır itkilər verən Roma ordusu geriyə çəkilmək məcburiyyətində qaldı və bu zaman Trayan öldü. Onun demək olar ki, Asiyada əldə etdiyi bütün nailiyyətləri itirildi. Trayanın yürüşləri Romanın son iri işğalçı müharibələri olmuşdur.

**traybalizm** - qəbilələrarası qırğın, qəbilələrin ayrılmağa, təklənməyə (separatizmə) cəhd göstərməsi.



downloaded from KitabYurdu.org

**tred-yunionlar** - Böyük Britaniyada və bundan sonra digər ingilisdilli ölkələrdə həmkarlar ittifaqlarının adı. Tred-yunionlar ixtisaslı fəhlələri peşələri üzrə müəyyən sənaye rayonu və ya bütün ölkə miqyasında birləşdirir.

**trest** - kartel və sindikatla müqayisədə daha yüksək inhisar forması. Trestə daxil olan müəssisələr istehsal və kommersiya müstəqilliklərini tam itirirlər. Trestin təşkili zamanı müəssisənin sahibkarları istehsal vasitələrinə olan mülkiyyətlərini birliyə verir, əvəzində isə həmin payın məbləğinə müvafiq miqdarda aksiya - səhm alırlar.

**tribunal** - 1) Böyük Fransa burjua inqilabı zamanı inqilabi tribunallar - əksinqilabi cinayət işləri üzrə müstəsna məhkəmələr; 2) Sovet Rusiyası və SSRİ-nin mövcud olduğu ilk illərdə əksinqilabi və digər dövlət cinayətlərinə baxan xüsusi məhkəmələr; 3) SSRİ-də hərbi xidmətçilərin cinayət işlərinə baxan məhkəmələr.

**Triumf** - 1) qalib sərkərdənin qoşunları ilə birlikdə təntənəli şəkildə Romaya daxil olması. Senatın qərarı ilə təşkil edilirdi və sərkərdə üçün ali mükafat sayılırdı. Triumfator dörd ağ ata qoşulmuş cəng arabasında təntənəli şəkildə Romaya daxil olurdu. Triumfatorun önündə onun əldə etdiyi qəniməti və zəncirlənmiş əsirləri aparırdılar; 2) məcazi mənada - parlaq nailiyyət, görkəmli qələbə.

**Troya** - Kiçik Asiyanın şimal-qərbində qədim zəngin şəhər. E.ə. 1240 - 1230-cu illərdə yunan-axeylər Mikena hökmdarı Aqamemnonun başçılığı ilə troyalılarla müharibə etmiş və yalnız hiylə vasitəsilə Troyanı tuta bilmişlər. Yunan rəvayətinə görə, Troyanı mühasirəyə almış axeylər nəhəng taxta at düzəltmiş, onun içərisində isə öz döyüşçülərini gizlətmişlər. Troya sakinləri taxta atı dartıb şəhərə aparmışlar. Gecə ikən atın içərisindən çıxan axey döyüşçüləri şəhər darvazalarını açaraq mühasirəyə alanları içəri buraxmışlar. Bununla da Troya süqut etmişdir. İndiki dövrdə "Troya atı" ifadəsi "alan üçün təhlükəli hədiyyə" mənasını verir. Uzun müddət elə hesab edilirdi ki, bu hadisə Homer tərəfindən uydurulub və Troyanın özü də heç zaman olmamışdır. Amma alman arxeoloqu Sliman 1870-ci ildə Hissarlıq təpəsini qazarkən Troyanın xarabalıqlarını aşkar etmişdir.



**Trumen doktrinası** - 1947-ci ildə prezident Harri Trumen tərəfindən irəli sürülmüş ABŞ hökumətinin xarici siyasət proqramı. Yunanıstana və Türkiyəyə təxirəsalınmaz hərbi və iqtisadi yardım göstərmək adı ilə onların daxili işlərinə qarışmağı və həmin ölkələri SSRİ-yə qarşı hərbi-strateji meydana çevirməyi nəzərdə tuturdu. Bu proqram "soyuq müharibə" siyasətinin bir hissəsi idi.

**tunc dövrü** - tuncdan əmək alətləri və silah istehsalının yayılması ilə xarakterizə olunur. Tunc insan tərəfindən hazırlanmış ilk süni xəlitədir - o, misin qalay, nikel, arsen və ya sürmə ilə qarışığıdır. Tunc misdən özünün asan əriməsi və



downloaded from KitabYurdu.org

daha möhkəmliyi ilə fərqlənirdi, lakin əmək alətləri və silah istehsalının yayılması ləng gedir və məhdud ərazidə baş verirdi, belə ki, qalay yataqları azlıq təşkil edirdi və o, çox baha idi. Tunc dövrü eneoliti əvəz etmişdir. Azərbaycanda tunc dövrü e.ə. IV minilliyin sonlarından başlayaraq II minilliyin sonlarınadək davam etmişdir. Tuncdan məmulat hazırlama üçün əritmə sobaları və zindan lazım idi. Yeni sənətkarlıq sahələri - dəmirçilik, naxışlama inkişaf etməyə başladı, əkinçilik təkmilləşdi.



Tunc dövründə Azərbaycanda matriarxat patriarxatla əvəz olundu, tayfa ittifaqları və mədəni birliklər meydana gəldi, əhalinin sıxlığı artdı, dağətəyi və dağlıq zonalar məskunlaşmağa başlandı, yaşayış məskənləri ətrafında möhkəm müdafiə divarları çəkildi, toxa əkinçiliyi xış (kotan) əkinçiliyi ilə əvəz edildi, köçəri maldarlıq meydana gəldi, sənətkarlıq əkinçilikdən ayrıldı, əmlak bərabərsizliyinə və sinfi cəmiyyətə keçid başlandı, erkən dövlət qurumları meydana gəldi. Tunc dövrü dəmir dövrü ilə əvəz olundu.

**Tupak Amaru** - Peruda ispan işğalçılarına qarşı azadlıq mübarizəsinin rəhbərləri: 1) Tupak Amaru 1571-ci ildə inklərin dövlətini bərpa etmək uğrunda hindilərin mübarizəsinə rəhbərlik etmişdir; 2) X.Q.Kondorkanki Tupak Amaru adı ilə Peruda 1780 83-cü illərdə hindilərin çox böyük üsyanına başçılıq etmişdir. Bu üsyan Latın Amerikasında azadlıq mübarizəsinin inkişafına böyük təsir göstərmişdir.

**turnir** - orta əsrlərdə Avropada rıtsarların döyüş yarışları. Ölkələrin əksəriyyətində rıtsar turnirlərinə XVI əsrdən son qoyulmuşdur.

**Tusi Nəsirəddin** (1201 - 74) – məşhur Azərbaycan astronomu. Astronomiya, riyaziyyat və fəlsəfə üzrə əsərlərin müəllifi. Astronomiya üzrə əsas əsəri "Zic elxan ("Elxanın cədvəlləri"). 1259-cu ildə Marağa (Cənubi Azərbaycan) yaxınlığındakı dağın zirvəsində rəsədxana yaratmış və özü də ona rəhbərlik etmişdir. Marağa rəsədxanasında Yaxın və Orta Şərq ölkələrindən yüzdən artıq alim işləmişdir; burada 400 mindən artıq əlyazması olan kitabxana da vardı.

**Tussen-Luvertür** Fransua Dominik (1743 - 1803) - qul oğlu, Haiti adası xalqının ingilis müdaxiləçilərinə (1793 - 1803) və fransız müstəmləkəçilərinə (1802 - 1803) qarşı azadlıq mübarizəsinin rəhbərlərindən biri. 1797-ci ildən Haiti adasının qərb hissəsinin silahlı qüvvələrinin baş komandanı, 1801-ci ildən adanın ömürlük rəhbəri. Quldarlığı ləğv etmişdir. Fransız müstəmləkəçiləri tərəfindən tutularaq Fransaya aparılmış və orada ölmüşdür.

**Tutanxamon** - Qədim Misir fironu (e.ə. 1400 - 1392), Exnatonun oğlu. Çox gənc ikən ölmüşdür, lakin 1922-ci ildə qarət edilməmiş sərdabədən arxeoloq Karter tərəfindən tapılması sayəsində yaxşı məlumdur. Tutanxamonun sərdabəsindəki xəzinə Qədim Misir nədəniyyətinin qiymətli abidələrindəndir.



downloaded from KitabYurdu.org

**Tutmos III** - Qədim Misirin fateh fironu III Tutmos (e.ə. 1525 - 1473) və ondan sonra hökmdarlıq etmiş fironlar Fələstin, Suriya, Finikiya və Nubiyanı fəth etmişlər.

**Tüdorlar** - İngiltərədə 1485 - 1603-cü illərdə kral sülaləsi.

**tümən** - Səfəvilər dövlətində pul (say) vahidi. Tümən 10 min gümüş dinara bərabər tutulurdu.

**türk dilləri** - Altay (türk) dilləri ailəsinə mənsubdur. Türk dilləri qərbi xun və şərqi xun qruplarına bölünür. Türk dillərinin qərbi xun budağına aşağıdakılar daxildir: tərkibinə qədim bulqar, xəzər, çuvaş dillərinin daxil olduğu bulqar qrupu; oğuz, türkmən, Azərbaycan, türk, qaqauz və s. dillərin daxil olduğu oğuz qrupu; kəraim, kumık, qaraçay-balkar, tatar, başqırd, noqay, qaraqalpaq və s. dillərin daxil olduğu qıpçaq qrupu; yeni uyğur, özbək və s. dillərin daxil olduğu karluk qrupu. Türk dillərinin şərqi xun qrupu aşağıdakılardan ibarətdir: qədim uyğur, tuva, yakut, xakas, şor və digər dillərdən ibarət uyğur qrupu; qırğız və Altay dillərindən ibarət qırğız-qıpçaq qrupu.

**"Türk ədəmi-mərkəziyyət partiyası"** - 1917-ci ilin martında N.B.Yusifbəylinin, Ş.B.Rüstəmbəyovun və H.B.Ağayevin təşəbbüsü ilə yaradılmış partiya. Bu partiya Rusiyanın federativ demokratik respublika elan olunmasının və onun tərkibində Şimali Azərbaycana muxtariyyət verilməsinin tərəfdarı idi. 1917-ci ilin aprelində Qafqaz müsəlmanlarının Bakıda keçirilən qurultayında "Müsavat" partiyası ilə "Türk ədəmi mərkəziyyət partiyası" arasında onların birləşməsi haqqında razılaşma əldə olundu və bu birləşmə "Müsavat" partiyasının 1917-ci il oktyabrın 25 - 29-da (noyabrın 7-11-də) keçən I qurultayında tam başa çatdı. Bundan sonra partiya - "Türk ədəmi-mərkəziyyət "Müsavat" partiyası" adını aldı.

**Türk xaqanlığı** - türk tayfa ittifaqının Mərkəzi Asiyada 552 - 745-ci illərdə Tuqyu adı ilə mövcud olmuş dövləti. Türk xaqanlığının baniləri Tumın və İstəmi qardaşları olmuşdur. Şimali Krım və Qafqaz da daxil olmaqla Çin ərazilərindən Bizans imperiyasınadək torpaqlar Türk xaqanlığına daxil idi. Xaqanlığın mərkəzi Orxon çayı (Monqolustan) hövzəsində yerləşirdi. VII əsrin əvvəllərində Türk xaqanlığı bir-biri ilə savaşmağa başlayan Qərbi Türk xaqanlığına və Şərqi Türk xaqanlığına parçalandı. Qərbi Türk xaqanlığı qüdrətli dövlətə çevrildi. Sasanilər və Bizans imperiyaları onunla hesablaşmağa və ittifaqa girməyə çalışırdılar. Qərbi Türk xaqanlığı İstəminin oğlu Datou xaqanın hakimiyyəti illərində özünün ən yüksək çiçəklənmə dövrünə çatdı. O, Qara dənizin şimal sahili çöllərində uğurlu müharibələr aparır, Sasanilərə qarşı müharibədə Bizans imperiyasına kömək edirdi. Şərqi Türküstana yürüşə çıxan Datou onu tutub öz ərazilərinə birləşdirdi. 634-cü ildə Qərbi Türk xaqanlığında inzibati islahat keçirildi və o, on "ox"a (hissəyə) bölündü. Hərbi yürüşlərdən əldə edilən çoxlu qənimət, tabe olunmuş tayfalardan alınan xərac, xaqanlığın ərazisindəki karvan yollarından götürülən gömrük gəliri onu kifayət qədər zəngin dövlətə çevirdi. Arxeoloqlar türk əyanlarının qəbirlərindən qızıl və gümüş silah və bəzək əşyaları, çox sayda çeşidli at yüyənləri



downloaded from KitabYurdu.org

aşkar etmişlər. Döyüşçülərin şərəfinə kvadrat formalı, daşla əhatəli xırda anma "məbəd"ləri inşa edilirdi. Dairənin içərisində ölmüş döyüşçünü təsvir edən heykəl, runa yazılı stelalar və onun öldürdüyü düşmənləri bildirən otuz-qırx dənə qaya parçası qoyarmışlar. 639-cu ildə Qərbi Türk xaqanlığı Dulu və Nuşibi adı ilə iki yerə parçalandı. Zəifləmiş Qərbi Türk xaqanlığının Asiyadakı torpaqları tezliklə ərəblər tərəfindən zəbt olundu. Qərbi Türk xaqanlığının yerini Xəzər xaqanlığı tutdu. Şərqi Türk xaqanlığı 745-ci ildə uyğurlar tərəfindən darmadağın edildi.

**türk tayfaları** - tunc dövründən Mərkəzi Asiyada Altay dağlarının ətəkləri və vadilərindəki münbit otlaqlarda məskunlaşmış qədim tayfalar. Hələ e.ə. III əsrdə - xunnu (hun tayfaları) dövlətinin çiçəkləndiyi dövrdən türk tayfaları həm iqtisadi, həm də ictimai münasibətlərdə yüksək inkişaf səviyyəsinə çatmışdılar. Onların mədəniyyəti bir sıra zəngin kurqan-çaatasların qazıntısından bəllidir. V - VI əsrlərdə - xalqların böyük köçü zamanı türklər dünya tarixi səhnəsinə çıxaraq şərqdə Baykal gölündən başlayaraq qərbdə Qara dənizə qədər Avrasiya çöllərinin geniş ərazilərində yayıldılar. VI əsrin 80-ci illərində türklər Qara dəniz - Xəzər çöllərindəki bulqar tayfalarının hamısını özlərinə tabe etdilər. VI - VIII əsrlərdə türk tayfaları Mərkəzi Asiyada qüdrətli dövlət - Türk xaqanlığı yaratdılar. Türk tayfaları türk dillərində danışırdılar.

**Türkmənçay müqaviləsi** (1828) - Rusiya imperiyası ilə İran şah rejimi arasında 1828-ci il fevralın 10-da Türkmənçay kəndində (Təbriz yaxınlığında) general İ.F.Paskeviçlə Abbas Mirzənin imzaladıqları müqavilə; 1826 - 28-ci illər Rusiya - İran müharibəsinə son qoymuşdur. Fevralın 6-da başlanmış danışıqlarda Qriboyedov və tərcüməçi kimi Bakıxanov da iştirak etmişdilər. 1813-cü il Gülüstan müqaviləsinin şərtlərinə əlavə olaraq 1828-ci il Türkmənçay müqaviləsinin şərtlərinə görə, İran Naxçıvan və İrəvan xanlıqlarının Rusiyanın hakimiyyəti altına keçməsini etiraf edirdi. Müqavilə rus tacirlərinin İranda ticarət imtiyazlarını və Rusiyanın Xəzər dənizində hərbi donanma saxlamaq hüququnu təsdiqləyirdi. Müqaviləyə görə, İran Rusiyaya gümüş pul ilə 20 milyon rubl dəyərində təzminat ödəməliydi və onun böyük hissəsi ödənilən qədər Cənubi Azərbaycan rus qoşunlarının işğalı altında qalmalı idi. Təzminat nəzərdə tutulan vaxtda ödənilmədiyi halda isə Cənubi Azərbaycan İrandan qoparılıb Rusiyanın hakimiyyəti altına verilməli idi. Müqavilənin 15-ci maddəsinə əsasən, İranda yaşayan ermənilərə Rusiyanın işğal etdiyi Qafqaz ərazilərinə köçməyə icazə verilirdi; Şimali Azərbaycan isə bununla ermənilərin köçürülmə obyektinə çevrildi. Bu maddəyə uyğun olaraq bir çox erməni İrəvan, Qarabağ və Şimali Azərbaycanın digər vilayətlərinə köçdü. 1828-ci il Türkmənçay müqaviləsi Azərbaycan ərazisinin Rusiya imperiyası ilə İranın şah rejimi arasında iki yerə bölünməsini başa çatdırdı.

## - U -



downloaded from KitabYurdu.org

**udinlər** - Azərbaycan Respublikasının şimal-şərqində (5 min nəfərə yaxın) və Gürcüstan Respublikasında (6 min nəfərə yaxın) yaşayan xalq. Tarixçilərin çoxu belə hesab edir ki, udinlər qədim uti tayfasının nəslindəndir. Azərbaycan ərazisindəki udinlər hələ XVIII əsrin əvvəllərində də "aqvan (yəni alban) və milliyyətcə uti" olmaları haqqında ənənəni saxlamışlar. Azərbaycan Respublikası ərazisindəki müasir udinlər qədim Qafqaz Albaniyasının müvafiq şimal rayonlarında (Qəbələ, Oğuz) məskunlaşmışlar. Müasir udin dili Qafqaz dilləri qrupuna aiddir.

**Ulanlar** - 1) mizraqlı monqol-tatar süvari döyüşçüsü; 2) XVI - XX əsrlərdə Avropada yüngül süvari növü.

**ultimatum** - bir tərəfin (dövlətin, qoşunların və s.) digər tərəfə öz şərtlərini yerinə yetirmək haqqında qəti tələbi (qalanı təslim etmək, əsirləri azad etmək və s.).

**uluclar** - Azərbaycanda ərəb ağalığı dövründən asılı kəndli kateqoriyası.

**ulus** - Mərkəzi Asiya və Sibir xalqlarında başçının və ya xanın tabeliyində olan müəyyən əraziyə malik nəsil-tayfa birliyi.

**Unitar dövlət** - dövlət quruluşu forması; burada dövlətin ərazisi federasiyadan fərqli olaraq federativ vahidlərə (ştat, respublika, torpaq, muxtariyyət və s.) deyil, inzibati-ərazi vahidlərinə (rayon, vilayət və s.) bölünür.

**universitet** - əsas elmi fənlərin öyrənildiyi ali elmi-təhsil müəssisəsi. Avropada universitetlər ilk dəfə Bizans imperiyasında meydana gəlib. XII - XIII əsrlərdə belə universitetlər İspaniyada, İtaliyada, Fransada və İngiltərədə yaranmışdır.

**uniya** - monarxiya dövlətlərinin birliyi və ya ittifaqı forması.

**Uot Tayler** - İngiltərədə 1381-ci il anti-feodal kəndli üsyanının rəhbərlərindən biri (digəri - Con Boll). Üsyan İngiltərə qraflıqlarının əksəriyyətini bürümüşdü. İyulda üsyançılar şəhər yoxsullarının yardımı ilə Londona daxil oldular. Kralın yaxın adamlarından bir çoxu edam edildi. Kralla ilk görüş zamanı üsyançılar tələb etdilər ki, bir nəfər də təhkimli olmamalı, torpaq üçünsə yalnız cüzi haqq ödənilməlidir, kral ölkə daxilində ticarətə qoyulan bütün rüsumları ləğv etməli və üsyançılara amnistiya verməlidir. Kral bu tələbləri yerinə yetirəcəyinə vəd verdi. Kəndlilər Londonu tərk etməyə başladılar, amma Uot Taylerin dəstəsi şəhərdə qaldı. Kralla aparılan ikinci danışıqlar zamanı üsyançılar tələb etdilər ki, təhkimçilik hüququ və feodalların bütün hüquqları ləğv olunsun, vahid kilsə hakimiyyəti yaradılsın, icma torpaqları qaytarılsın və silklər bərabərləşdirilsin. Danışıqlar zamanı Uot Tayler ölümcül yaralandı. Üsyan yatırılsa da (hərçənd ayrı-ayrı qraflıqlarda çıxışlar bir neçə il davam etdi), İngiltərədə təhkimçilik hüququnun və biyarın ləğvinə yardım etdi.

**"Uotergeyt məsələsi"** - ABŞ-da 1972-ci il seçki kampaniyası zamanı Vaşinqtonun "Uotergeyt" hotelində Demokratlar partiyasının mənzil-qərargahında dinləyici qurğunun quraşdırılmasına cəhdlə bağlı hadisələrin təhqiqi. Ağ Evin



downloaded from KitabYurdu.org

vəzifəli şəxsləri tərəfindən pulla ələ alma, hədələmə, yalan şahidlik və digər qanun pozuntuları da aşkar edilmişdir. "Uotergeyt məsələsi"ndə təqsirləndirilən ABŞ prezidenti R.Nikson impiçment təhlükəsi altında 1974-cü ilin avqustunda istefa vermişdir.

**Ur** - e.ə. IV minillikdə Mesopotamiyanın İran körfəzi yaxınlığında salınmış ən qədim şəhəri.

**Uran** - qədim yunan mifologiyasında səma allahı, Geyanın əri, titanların, sikllopların (təpəgözlərin) və yüzəlli nəhənglərin atası; oğlu - allah Kronos tərəfindən devrilmişdir.

**Urartu** - e.ə. IX - VI əsrlərdə Anadolu yaylasında, Van və Urmiya gölləri arasında (müasir Türkiyə ərazisi) mövcud olmuş qədim dövlət. Urartu dövlətinin faktik yaradıcısı bir sıra dövlət islahatları keçirmiş çar Menua (e.ə. 810 - 786) olmuşdur. Menuanın oğlu və varisi I Argişti (e.ə. 786 - 764) atasının siyasətini davam etdirmişdir. Bundan başqa, onun işğalçılıq siyasəti nəticəsində Assuriya, Manna və Cənubi Qafqaza çoxsaylı yürüşlər təşkil olunmuşdur. E.ə. VIII əsrin ortalarına yaxın Urartunun əraziləri xeyli böyüdü və o, Qədim Şərqin qüdrətli dövlətlərindən birinə çevrildi. Urartu çarı II Sardur (e.ə. 760 - 730) Manna dövlətinin bir hissəsini Urartuya tabe etdi. Manna hökmdarı İranzu Urartu tərəfindən tutulmuş Manna torpaqlarını müharibə edərək geri qaytardı. Lakin Urartu çarı I Rusa (e.ə. 730 - 714) Mannanın Zikirtu vilayətinin canişini Metattini İranzuya qarşı üsyan qaldırmağa sövq edə bildi. E.ə. 716-cı ildə də Manna hökmdarı Azaya qarşı baş vermiş üsyanda yenə Urartu çarı I Rusanın adı çəkilir. E.ə. 714-cü ildə əvvəlcə Metattiyə, sonra isə Urartu çarı I Rusaya zərbə endirən Assuriya hökmdarı II Sarqon Urartunun cənub-şərq vilayətlərini darmadağın etdi. I Rusa özünü öldürdü. Bundan sonra Urartu əvvəlki qüdrətini bərpa edə bilmədi və e.ə. VI əsrdə Midiya tərəfindən işğal edildi.

**Useynov (Hüseynov)** Mikayıl Ələsgər oğlu - Azərbaycan memarı və memarlıq tarixçisi, Azərbaycan Elmlər Akademiyasının akademiki (1945), SSRİ xalq memarı. Onun layihəsinə əsasən M.F.Axundov adına kitabxana, Azərbaycan Milli Elmlər Akademiyasının kompleksi inşa edilmişdir. M.Ə.Hüseynov memarlıq və şəhər quruculuğu məsələləri üzrə bir sıra əsərlərin müəllifidir.


M.F.Axundov adına kitabxana

**usta** (sexdə) - orta əsrlərdə xırda, iqtisadi cəhətdən müstəqil istehsalçı-sənətkar. Öz şəxsi emalatxanasında işləyən, tabeliyində köməkçiləri və şagirdləri olan tamhüquqlu sex üzvü. Kəndlilərdən fərqli olaraq usta düzəltdiklərini sifarişlə və ya satış üçün hazırlayırdı. Şah əsər (şedevr) yaratmaqla imtahan verən usta köməkçiləri usta ola bilərdilər.

**uşr, uşur** (ər. "ondabir") - müsəlman ölkələrində natural vergi və ya rüsum; 1) fəth hüququ, xəlifə hədiyyəsi və ya becərilməsinə görə xərac alınmayan



downloaded from KitabYurdu.org

torpaqlardan müsəlmanların kənd təsərrüfatı məhsulundan ödədikləri vergi; 2) malın qiymətinin $^{1}/_{10}$-i dəyərində ticarət rüsumu; 3) müsəlmanlardan qanuni zəkatdan əlavə alınan bər cür ticarət yığımları.

**utilər** - Azərbaycan ərazisində məskunlaşmış qədim tayfalar. Bir sıra tarixçilər utiləri e.ə. III - II minilliklərdə Cənubi Azərbaycan ərazisində yaşamış kuti tayfaları ilə əlaqələndirirlər. Lullubi tayfaları tərəfindən öz yurdlarından sıxışdırılıb çıxanları kutilər tədricən şimala doğru hərəkət edərək Göycə (Sevan) gölünün ətraf ərazilərində məskunlaşmışlar. Urartu mənbələrinin verdiyi məlumatlara görə, onlar burada etiunilər adı ilə tanınmışlar. E.ə. VIII əsrdə urartulular Etiuni vilayətini tuturlar və etiunilər Kür-Araz vadisinə köçürlər. Burada utilər antik mənbələrdə Otena və ya Vitiya adlandırılan vilayətlərini yaradırlar. Herodot bu barədə bildirir ki, utilərin tayfası Əhəmənilər dövlətinin XIV dairəsinə daxil idi. Herodot onu da bildirir ki, utilər Əhəməni hökmdarı Kserksin qoşunları tərkibində e.ə. 480-ci ildə Yunanıstana qarşı yürüşdə iştirak etmişlər. Utilər də kaspilər kimi qamışdan düzəldilmiş oxlarla silahlanmışdılar, həm də onlardan fərqli olaraq xəncərləri var idi. Utilər keçi dərisindən paltar geyirdilər. Uti vilayəti Qafqaz Albaniyasının tərkibinə daxil ediləndən sonra utilərin bir hissəsi də Kürün sol sahilinə köçür. Alban tarixçisi Moisey Kalankatlı özünün "Alban tarixi"ndə yazır ki, uti tayfaları albanların Aran adlı ulu babaları və hökmdarlarından törəmişlər. Bəzi tarixçilərin fikrincə, erkən orta əsrlərdə ola bilər ki, utilər hansısa gəlmə tayfa ilə qarışmışlar və bunu tayfanın "uti-dorslar" ("uti aorslan" - "aorslar" sarmat tayfasıdır) və "utiqurlar" (hun tayfalarının adı ilə müqayisə et - onoğurlar, saraqurlar və s.) adı da sübut edir. Qədim utilərin övladları sayılan udinlər hələ XVIII əsrin əvvəllərində özlərinin "aqvan (yəni alban) və millətcə uti" olmaları ənənəsini saxlayırdılar. Müasir udinlər qədim Qafqaz Albaniyasının müvafiq ərazilərinə uyğun rayonlarda (Qəbələ, Oğuz) məskunlaşıblar.

**utopiya** (yun. "mövcud olmayan yer") - 1) T.Morun "Ən yaxşı dövlət quruluşu və ya Utopiya adlı yeni ada haqqında qızıl kitab"ında xüsusi mülkiyyətsiz adanın adı; 2) qeyri-real planlı ictimai dəyişiklikləri özündə əks etdirən bürün əsərlər, nəzəriyyələr, proqramlar və düşüncələr.

**Utrext uniyası** - 1579-cu ildə Niderland hurjua inqilabı zamanı Utrext şəhərində Niderlandın yeddi şimal əyaləti İspaniyaya və daxili feodal-katolik irticasına qarşı mübarizə aparmaq məqsədi ilə ittifaq bağladı. Utrext uniyası Niderland Birləşmiş Əyalətlər (Hollandiya) Respublikasının əsasını qoymuşdur.

**"Uzun divarlar"** - e.ə. 461-ci ildən sonra afinalılar tərəfindən tikilmiş müdafiə divarları. Həmin divarlar Afinanı əhatə etməklə yanaşı, həm də onu Afinanın 6 km-liyində olan liman şəhəri Pireylə birləşdirirdi. Bununla elə bir möhkəmləndirilmiş rayon yaradılmışdı ki, burada bütün Afina vətəndaşları sığınacaq tapa bilərdilər, eyni zamanda, mühasirə vaxtı divarlar Afinanın dənizlə əlaqəsini təmin edirdi. Peloponnes müharibəsində spartalılar tərəfindən e.ə. 404-cü



downloaded from KitabYurdu.org

ildə afinalıların məğlub edilməsi nəticəsində "Uzun divarlar" uçuruldu, lakin e.ə. 393-cü ildə yenidən bərpa olundu.

**Uzun Həsən** - böyük oğuz sərkərdəsi, Ağqoyunlu dövlətinin banisi və ilk padşahı (1467 - 78). 1467-ci il noyabrın 11-də Uzun Həsənin başçılığı ilə ağqoyunlu tayfalarının qoşunları Muş düzənliyindəki savaşda Cahanşahın qaraqoyunlu qoşunlarını darmadağın edərək öz dövlətinin əsasını qoydu. 1468-ci ildə Teymuri Əbu Səid Ağqoyunlu ərazisinə yürüş etdi, lakin şirvanşah Fərrux Yassarla və Ərdəbil şeyxi Heydərlə saziş bağlayan Uzun Həsən Əbu Səidin qoşunlarını tam məğlubiyyətə uğratdı. Uzun Həsənin dövründə əhalinin yerinə yetirdiyi mükəlləfiyyətləri və ödədiyi vergiləri tənzimləyən "Qanunnamə" tərtib edilmişdi. Mərkəzləşdirilmiş hakimiyyəti möhkəmləndirməyə cəhd göstərən Uzun Həsən köçəri əmirlərin özbaşınalıqlarına qarşı mübarizə aparırdı. Ağqoyunlu dövlətinin Kiçik Asiyadakı müttəfiqi olan Trapezund imperiyasını tutan Osmanlı imperiyasına qarşı mübarizə aparmaq üçün Uzun Həsən Avropada Polşa, Macarıstan, Avstriya, Venesiya, Kipr və Rodos krallıqları və Vatikanla; Asiyada Qaraman bəyliyi ilə diplomatik danışıqlara başladı. 1472-ci ilin payızında ağqoyunluların azsaylı süvari dəstəsi Kiçik Asiyada Bəyşehir yaxınlığında osmanlılar tərəfindən məğlub edildi. 1473-cü il avqustun 1-də sultan II Mehmetin başçılığı ilə Osmanlı qoşunları Fərat sahilindəki Malatya şəhəri yaxınlığındakı savaşda ağqoyunlu süvarilərinə məğlub oldu. Malatya savaşından sonra sultan II Mehmet Uzun Həsənə danışıqlara başlamağı təklif etdi, amma padşah rədd cavabı verdi. Lakin 1473-cü il avqustun 11-də ağqoyunlu süvariləri Otluqbeli savaşında məğlub oldular. Otluqbeli məğlubiyyəti Ağqoyunlu dövləti daxilində köçəri əyanların mərkəzi hakimiyyətə qarşı mübarizəsinin güclənməsinə səbəb oldu. Uzun Həsən sultan II Mehmetin dəstəklədiyi qiyamları yatıra bildi. 1474 - 77-ci illərdə padşah Uzun Həsən Gürcüstana bir neçə yürüş etdi və Tiflis şəhəri ilə birlikdə Şərqi Gürcüstanı tutdu. 1478-ci ilin yanvarında Uzun Həsən vəfat etdi. Onun ölümündən sonra oğulları arasında hakimiyyət uğrunda mübarizə başlandı və oğlu Yaqub Mirzənin xeyrinə başa çatdı.

**"Uzunmüddətli parlament"** - İngiltərə kralı I Karl tərəfindən 1640-cı ildə çağırılmışdır. Faktik olaraq "Uzunmüddətli parlament" İngiltərə burjua inqilabının qanunverici orqanı olmuşdur. Xalqa arxalanan "Uzunmüddətli parlament" kral hakimiyyətini məhdudlaşdıran bir sıra qanunlar qəbul etdi. Parlament "Böyük remonstrasiya"nın – mütləqiyyəti ittiham edən bəyannamənin və sonrakı fəaliyyət proqramının müzakirəsinə başladı. Müzakirələr zamanı parlamentdə presviterianlara (mötədillərə) və independentlərə (radikallara) parçalanma baş verdi. Kral hakimiyyəti ilə kompromisə gəlmək istəyən presviterianlar parlamentdə çoxluq təşkil edirdilər. İndependentlər isə daha radikal islahatların tərəfdarı idilər.

Parlamentdəki ziddiyyətdən bəhrələnməyə çalışan kral independentlərin həbsinə uğursuz cəhd göstərdi və bu, İngiltərədə vətəndaş müharibəsinin



downloaded from KitabYurdu.org

başlanmasına səbəb oldu. Müharibə parlament üçün uğursuz başlansa da, Kromvelin başçılığı ilə parlamentin "yeni tipli" ordusu yaradıldıqdan sonra o, kral qoşunları üzərində qələbə çaldı. Presviterianlar inqilabı bitmiş hesab edirdilər, independentlər, levellerlər və xalq isə onun davamını və dərinləşdirilməsini istəyirdilər. Presviterianlar ordunu buraxmağa səy göstərdilər və independentləri parlamentdən uzaqlaşdırdılar. Buna cavab olaraq 1647-ci ilin avqustunda ordu Londona daxil oldu və presviterianların liderlərini parlamentdən qovdu. Qərarların natamamlığından və yarımçıqlığından narazı qalan levellerlər independentlərlə sazişi pozdular, amma onların çıxışları amansızlıqla yatırıldı. İkinci vətəndaş müharibəsi (1648 - 49) başlayanda isə independentlər yenidən levellerlərlə ittifaq bağladılar, Presviterianlar kralla danışıqlara daha bir cəhd göstərdilər, lakin ordu rəhbərliyi tərəfindən 1648-ci il dekabrın 6-da "Prayd təmizləməsi" deyilən tədbir nəticəsində presviterianlar parlamentdən qovuldular. Tezliklə kral məhkəməyə verildi və edam olundu. İngiltərə respublika elan edildi. "Uzunmüddətli parlament"in sonrakı siyasəti burjuaziyanın və yeni zadəganların varlanmasına yönəldilmişdi, bu isə var-yoxdan çıxan xalqın narazılığına səbəb oldu və o hər an açıq çıxış etməyə hazır idi. Onun qarşısını almaq üçün Kromvel 1653-cü il aprelin 20-də hərbi zor işlətməklə "Uzunmüddətli parlamenti" qovdu və hakimiyyəti öz əlinə alaraq protektorluğunu qurdu.



## - Ü -

**Üçlər ittifaqı** - Bismarkın təşəbbüsü ilə Almaniya, Avstriya-Macarıstan və İtaliyanın 1882-ci ildə yaratdıqları hərbi-siyasi blok. Onun əksinə olaraq İngiltərə, Fransa və Rusiya Antantanı yaratdılar.

**Üçlər paktı** - faşist Almaniyası, İtaliya və Yaponiya arasında 1940-cı il sentyabrın 27-də bağlanmış hərbi saziş. Dünyanı iştirakçı ölkələr arasında bölüşdürməyi nəzərdə tuturdu. Almaniya və İtaliyaya Avropada, Yaponiyaya isə Asiyada yeni "qayda-qanun" yaratmaq rolu nəzərdə tutulmuşdu.

**üçtarlalı əkin** - üçtarlalı əkin sistemi tətbiq edildikdə tarla 3 yerə bölünür, növbə ilə dincə qoyulur, payızlıq və yazlıq əkinlər aparılır. XVIII əsr - XIX əsrin birinci yarısında Avropa ölkələrinin kəndli təsərrüfatlarında tətbiq edilirdi. Çoxtarlalı əkin sistemi ilə əvəz olunmuşdur.

**Üçüncü respublika** - Fransada 1870 - 1940-ci illərdə mövcud olmuş respublika. Parisdə 1870-ci il sentyabrın 4-də baş vermiş inqilab nəticəsində imperator III Napoleon devrilmiş və respublika qurulmuşdur. İkinci imperiyanı əvəz etmişdir. Üçüncü respublikanın konstitusiyası Milli Məclis tərəfindən 1875-ci ildə cəmi bir səs çoxluğu ilə qəbul edilmişdir. İkinci Dünya müharibəsi illərində Fransanın Almaniya qarşısında 1940-cı il iyunun 22-də təslim olmasınadək mövcud olmuşdur.



downloaded from KitabYurdu.org



**"Üçüncü reyx"** ("Üçüncü imperiya") - 1933-cü ildə Hitlerin hakimiyyətə gəlməsindən sonra nasistlərin faşist Almaniyasına verdikləri ad. Onlar "Birinci reyx" dedikdə "Alman milləti"nin "Müqəddəs Roma imperiyası"nı (962 - 1805), "İkinci reyx" dedikdə isə Almaniya imperiyasını (1871 - 1918) nəzərdə tuturdular.

**üləma** (ər. "alim"in cəmi) - alimlər, müsəlman ilahiyyatçı və qərardadları.

**ümumi seçki hüququ** - qanunla müəyyən olunmuş yaşa çatmış bütün vətəndaşların dövlət hakimiyyəti orqanlarına keçirilən seçkilərdə iştirak etmək hüququ.

**Ümumrusiya müsəlmanları qurultayı** - 1917-ci il mayın 1 - 11-də Moskvada keçirilmiş qurultay. Qurultay Ş.Əsədullayevin vəsaiti ilə tikilən və müsəlmanların ixtiyarına verilən binada keçirildi. Qurultaya Rusiyanın bölgələrindən 900 nümayəndə gəlmişdi. Qurultayın gündəliyində aşağıdakı məsələlər var idi: milli-ərazi muxtariyyəti, maarif və mədəniyyət haqqında, Müəssislər Məclisi haqqında, torpaq haqqında, siyasi təşkilatlar haqqında və s. Əsas mübahisələr milli-ərazi muxtariyyəti məsələsi üzrə aparıldı. Rusiyanın bir çox bölgələrinə yayılmış tatarlar yalnız mədəni muxtariyyət istəyirdilər. Bunun əleyhinə çıxış edən M.Ə.Rəsulzadə Rusiya Demokratik Federativ Respublikası tərkibində milli-ərazi muxtariyyəti yaradılması ideyasını təklif etdi. Səsvermə zamanı M.Ə.Rəsulzadənin təklifi səs çoxluğu qazandı. Qurultayın qətnaməsinə habelə icbari və pulsuz ibtidai təhsil, orta və ali məktəblərdə ana dilində dərs keçilməsi, rus dilinin xarici dil kimi tədris edilməsi və s. də salındı.

**üsyan** - hər hansı ictimai qrup və ya sinfin siyasi hakimiyyətə və ya dövlətə qarşı açıq silahlı çıxışı.

## - V -

**Vakx** (lat. "Baxus") – Qədim Roma dinində bərəkət və şərabçılıq allahı, qədim yunanlardakı Dionisə uyğun gəlir. Vakxın şərəfinə dini bayramlar - vakxanaliyalar keçirilirdi.

**vakxanaliya** - Qədim Romada Vakxın şərəfinə keçirilən dini bayramlar. Vakxanaliya iştirakçıları şərab içməklə özlərini ekstaz vəziyyətinə çatdırırdılar.

**Vaqif Molla Pənah** (1717 - 97) - "Vaqif" təxəllüsü ilə yazmış görkəmli Azərbaycan şairi və Qarabağ xanlığının vəziri. Vaqif Qıraq Salahlı kəndində (müasir Azərbaycan Respublikasının Qazax rayonunda) kəndli ailəsində anadan olmuşdur. Mükəmməl təhsil alan Vaqif fars və ərəb dillərini də öyrənmişdir. Əvvəlcə Gəncədə yaşamış, sonra Qarabağa köçüb Tərtərbasar kəndində məktəbdə dərs demiş, bundan sonra isə Şuşada müəllimlik etmişdir.



downloaded from KitabYurdu.org

Vaqifin hərtərəfli biliyə malik olması və onun şerləri haqqında xəbər tezliklə poeziya həvəskarı Qarabağ xanı İbrahimxəlil xana da çatdı və o, Vaqifi öz yanına çağırıb onu eşikağası təyin etdi. Bir qədər keçdikdən sonra Vaqif Qarabağ xanlığının baş vəziri oldu. Azərbaycan xanlıqlarının ara müharibələri ilə zəiflədiyi dövrdə onlar İran işğalçılarının qənimətinə çevrildilər, Vaqif isə Azərbaycan xanlıqları ilə Gürcüstan arasında qarşılıqlı əlaqələrin möhkəmlənməsinə, eyni



zamanda, Rusiya ilə dostluq əlaqələrinin inkişaf etdirilməsinə yönəlmiş siyasət yeridirdi. 1796-cı ildə general Zubovun başçılığı ilə rus qoşunları Azərbaycana yürüş edərkən Qarabağ xanlığının Rusiya ilə yaxınlaşmasında Vaqifin xidmətlərinin etirafı kimi Rusiya imperatriçəsi /7 Yekaterinanın adından Zubov ona qiymətli əsa hədiyyə etmişdir. Tarixçilərin fərziyyəsinə görə, 1797-ci ildə Ağa Məhəmməd şahın İran qoşunları Şuşanı mühasirəyə alan zaman istilaçılara qarşı sui-qəsd təşkil etmək məqsədi ilə Vaqif qalada qalmışdı. Şahın qoşunları Şuşaya soxulanda isə Vaqif tutulub zindana atılmışdı. Vaqifin ertəsi günü edamının gözlənildiyi gecə Ağa Məhəmməd şah öldürülmüş və İran qoşunları Şuşanı tərk etmişlər. Bu, Vaqifə zindandan çıxmağa imkan versə də, onun ömrünü uzatmadı. İbrahimxəlil xanın burada olmamasından istifadə edən qardaşı oğlu Məhəmməd bəy Cavanşirin əmri ilə Vaqifi və onun "Alim" təxəllüsü ilə şer yazan oğlu Əliağanı öldürdülər, şairin evi isə talan edildi və çox güman ki, clə bu zaman da onun əsərlərinin əksəriyyəti məhv oldu. Vaqifin poetik yaradıcılığı özünəməxsusluğu ilə fərqlənir. Vaqifin şerləri həyatsevərliyi, nikbinliyi, fəlsəfi düşüncələri, vətəndaşlıq motivləri ilə zəngindir. Vaqif Azərbaycan poeziyasında aşıq şer forması olan qoşmanı inkişaf etdirmişdir. Vaqifin yaradıcılığı Azərbaycan poeziyasının sonrakı inkişafı üçün çox böyük əhəmiyyətə malik olmuş və onun məktəbinin davamçılarını həyata səsləmişdir. Vaqifin mükəmməl biliyi xalq deyimlərinə də daxil olmuşdur: "Hər oxuyan Molla Pənah olmaz!".

**valkiriyalar** - Skandinaviya əfsanələrində ilahələr; allah Odinin göstərişi ilə döyüş meydanı üzərində hərlənərək onun istiqamətini müəyyənləşdirən döyüşən pərilər.

**Valua** - 1328 - 1589-ci illərdə Fransada kral sülaləsi.

**valyuta** - 1) hər hansı bir ölkənin pul sistemi (qızıl, gümüş, kağız pul və s.), yaxud əsas pul vahidi (dollar, funt-sterlinq, manat və s.); 2) beynəlxalq bazarda işlədilən xarici pullar (kredit biletləri, sikkələr və s.), eləcə də beynəlxalq hesablaşmalarda istifadə olunan qiymətli metallar və digər qiymətli şeylər.

**van** - e.ə. XVI əsrdən Qədim Çin hökmdarlarının adı. Xan sülaləsi dövründən "van" anlayışı yüksəkmənsəbli əyanların titulunu bildirir və hökmdar ailəsi üzvlərinə, xüsusi xidməti olan məmurlara verilirdi. Koreyanın qədim və orta əsrlər dövlətlərində də hökmdarlar "van" tituluna malik idilər.

**vandalizm** - 455-ci ildə Roma vandallar tərəfindən işğal olunarkən şəhər iki həftə davam edən və qəddarlığı ilə fərqlənən dəhşətli dağıntıya və talana məruz



downloaded from KitabYurdu.org

qalmışdır. Vandallar heykəlləri sındırır, kitabları məhv edir, evləri yandırırdılar. Yanğında bir çox memarlıq və incəsənət abidəsi məhv edilmişdir. Vandalların yürüşündən sonra Romada cəmi 7 min nəfərədək əhali sağ qalmışdır. Mədəni dəyərlərin ağılsızcasına məhv edilməsini bildirən "vandalizm" anlayışı da buradan meydana gəlmişdir.

**vandallar** - german tayfalarından biri. 270-ci ildə vandallar sarmatlarla ittifaqda Pannoniya ərazisinə soxuldular. Hunlar tərəfindən Pannoniyadan sıxışdırılan vandallar Roma imperiyası ərazisinə soxuldular. Məğlubiyyətə uğradıqdan sonra Roma imperiyası ilə sülh müqaviləsi imzaladdar. Müqaviləyə görə, Roma qoşunları üçün süvarilər verməyi öhdələrinə götürdülər. 335-ci ildə romalılar tərəfindən Pannoniyaya köçürüldülər. IV əsrdə alanlarla birləşdilər. Hücum edən qotların təzyiqi altında alanlar və vandallar Qalliyadan keçərək 409-cu ildə İspaniyaya yayıldılar. 429-cu ildə vandallar kral Heyzerixin başçılığı ilə Cəbəlüt-tariqi keçərək Afrikanın Romaya aid hissəsini ələ keçirib burada öz krallıqlarını yaratdılar. 455-ci ildə vandallar asanlıqla Romanı tutub qarət etdilər. 534-cü ildə Vandal krallığı Bizans qoşunları tərəfindən dağıdıldı.

**Varfolomey gecəsi** - 1572-ci il avqustun 24-nə keçən gecə (müqəddəs Varfolomey bayramı ərəfəsində) Parisdə hugenotların katoliklər tərəfindən kütləvi şəkildə öldürülməsi. Kraliça Yekaterina Mediçi və Giz hersoqlarının başçılığı ilə təşkil olunmuşdu. Hugenotların hərbi rəhbəri Navarralı Henrix yalnız ona görə xilas ola bilmişdir ki, o, həmin ərəfədə təcili olaraq katolikliyi qəbul etmişdir. Fransada dini müharibələr daha da amansız oldu. Dövrümüzdə "Varfolomey gecəsi" ifadəsi "rəqibə qarşı qəddar, amansız rəftar etmək" mənasında işlədilir.

**Varşava müqaviləsi** - 1955-ci il mayın 14-də Varşavada SSRİ, Albaniya, Bolqarıstan, Macarıstan, ADR, Polşa, Çexoslovakiya və Rumıniya arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında imzalanmış hərbi müqavilə. Varşava müqaviləsinin bağlaıması NATO-nun fəaliyyəti ilə bağlı idi və başda SSRİ olmaqla sosialist ölkələrinin təhlükəsizliklərinin təmin olunması məqsədini güdürdü. VM-in qərargahı Moskvada yerləşirdi. VM üzvü ölkələri silahlı qüvvələrinin sovet generallarının rəhbərliyi ilə Birləşmiş Komandanlığı yaradılmışdı. 1968-ci ildə VM qoşunlarının Çexoslovakiyaya yeridilməsi ilə əlaqədar olaraq Albaniya VM-dən çıxdı. XX əsrin 90-cı illərinin əvvəllərində - SSRİ-nin dağılması prosesində VM praktik olaraq öz fəaliyyətini dayandırdı.

**varyaqlar** - skandinav tayfaları vikinqlərin və ya normanların slavyanca adı.

**Vasko da Qama** (1469 - 1524) - ilk dəfə Hindistanadək üzə bilmiş Portuqaliya dəniz səyyahı. 1498-ci ilin mayında Afrikanın cənubunu dolanan Vasko da Qama gəmilərini Hindistanın Kalikut şəhərinə gətirə bilmişdir. Ədviyyat alan Vasko da Qama səyahətə çıxmasından iki il sonra Portuqaliyaya qayıtmışdır. Hindistana ikinci səyahəti zamanı o, portuqaliyalıların bir neçə dayaq bazasını



downloaded from KitabYurdu.org

yaratmışdır. 1524-cü ildə Vasko da Qama Hindistanın vitse-kralı təyin olunmuşdur.

**vassal** (hərfən - "hərbi qulluqçu", "nökər", "xidmətçi") - senyordan torpaq payı alan feodal. Vassal senyorun əmri ilə yürüşə getməyə, məsləhəti ilə senyora kömək etməyə borclu idi. İri torpaq payı olan vassalın bəzən öz vassalları da olurdu. Bundan əlavə, o, senyoru əsirlikdən pulla satın almalı idi.

**Vaşinqton Corc** (1732 - 99) - Virciniya plantatoru, koloniya qoşunlarının polkovniki, görkəmli dövlət xadimi, ABŞ-ın ilk prezidenti (1789 - 97). Vaşinqton Şimali Amerikada ingilis koloniyalarının müstəqilliyinin qətiyyətli tərəfdarı idi, hindilərə və fransızlara qarşı hərbi əməliyyatlarda xüsusilə fərqlənirdi. Sonralar Vaşinqton özünü böyük sərkərdə və görkəmli siyasi xadim kimi göstərə bilmişdir. Müstəqillik uğrunda müharibədə ABŞ konqresi ordusunun baş komandanı təyin edilmişdi. Vaşinqton hərbi işi bilməyən fermer və sənətkarların nizam-intizamını möhkəmlətmək məqsədi ilə orduda ciddi tədbirlər görürdü. Vaşinqtonun və Lafayetin qoşunları 1871-ci ildə Yorktaun yaxınlığında ingilislərin əsas qüvvələrini mühasirəyə alıb darmadağın etdilər. ABŞ-da konstitusiya qəbul edildikdən sonra 1789-cu ildə Vaşinqton ABŞ-ın ilk prezidenti seçildi. 1793-cü ildə ikinci və sonuncu dəfə prezident vəzifəsinə seçilmək üçün öz namizədliyini irəli sürməyə razılıq verdi. ABŞ paytaxtı Vaşinqtonun şərəfinə adlandırılmışdır.



**Vaterloo** - Belçikada yaşayış məskəni. 1815-ci il iyunun 18-də burada "yüz gün "lük hakimiyyətə qayıtmış I Napoleonun qoşunları ilə hersoq Vellinqtonun komandanlıq etdiyi birləşmiş antinapoleon müttəfiq qoşunları arasında döyüş baş vermişdir. Fransız qoşunları 72 min nəfər və 243 top, müttəfiq qüvvələri isə 67,5 min nəfər və 156 topdan ibarət idi. Çox əlverişli mövqe seçən Vellinqton qoşunlarını yamaclar arxasında fransız artilleriyasının atəşindən gizlətməyə müvəffəq oldu. İngilis əsgərlərinin cəsurluğu sayəsində fransızların ilk hücumu uğursuz oldu, lakin ikinci hücum zamanı onlar bir sıra yüksəklikləri ələ keçirə bildilər. Döyüşün həlledici anında Prussiya qoşunları dəstəsi marşal Blüxerin komandanlığı ilə yürüşlə fransızların cinahına zərbə endirdi. Bu, Vellinqtona imkan verdi ki, əks-hücuma keçib fransız qoşunlarını döyüş meydanından sıxışdırıb çıxarsın. Döyüşdə fransızların itkisi ölən, yaralanan və əsir götürülən 25 min nəfər, ingilislərin - 15 min nəfər, prussiyalılarınkı isə 7 min nəfər olmuşdur. Vaterloo yaxınlığındakı məğlubiyyət I Napoleonun ikinci dəfə hakimiyyətdən imtina etməsinə və Müqəddəs Yelena adasına sürgün edilməsinə səbəb olmuşdur.



**Vatikan** - Romada Monte-Vatikano təpəliyində bir neçə məhəllədən ibarət olan cırtdan dövlət; katolik kilsə başçısının -Roma papasının iqamətgahı.



downloaded from KitabYurdu.org

**"Vays" planı** ("Voys" - alm. "ağ") - faşist Almaniyasının Polşaya qarşı müharibə planının şərti adı. Hitler tərəfindən 1939-cu il aprelin 3-də təsdiq edilib. 1939-cu il sentyabrın 1-də Polşa üzərinə hücumu nəzərdə tuturdu.

**Vazeh** - əsərlərini "Vazeh" təxəllüsü ilə yazan tanınmış Azərbaycan lirik şairi, maarifçisi Mirzə Şəfi Sadıq oğlu (1794 -1852). Vazeh Gəncədə memar ailəsində anadan olmuşdur. Atası onu ruhani görmək istəyirdi, amma atasının



ölümündən sonra o, mədrəsəni tərk edərək bir neçə il Cavad xanın qızının mirzəsi olmuşdur. Sonra bir müddət mədrəsə şagirdlərinə nəstəliq xəttini öyrətmişdir. 1840-cı ildən 1846-cı ilə kimi Vazeh Tiflis qəza məktəbində türk (Azərbaycan) və fars dillərini tədris etmişdir. Vazeh 1844-cü ildə Tiflisdə "Divani-hikmət" ədəbi dərnəyi təşkil etmiş və alman şərqşünası Fridrix Bodenştedt də bu dərnəyin üzvü olmuşdur. Vazeh 1846-cı ildən 1850-ci ilədək Gəncədə rus dilindən dərs demişdir. O, 1850-ci ildə İ.Qriqoryevlə birlikdə türkcə (azərbaycanca) "Kitabi-türk" vəsaitini hazırlayır. Vazeh təkrar Tiflisə qayıdır və Tiflis gimnaziyasında dərs deyir. O, Tiflisdə vəfat etmiş və orada da dəfn olunmuşdur. Vazeh öz satirik şerlərində cəmiyyətin çatışmazlıqlarını tənqid edir, şəxsiyyətin azadlığı uğrunda mübarizəyə, varlığın dərk olunması zərurətini qəbul etməyə, daimi hərəkətdə olan təbiəti anlamağa çağırırdı. Vazehin bir çox lirik şerləri xalq mahnısına çevrilmişdir. O, qəzəl, rübai, məsnəvi və s. formalarda yazıb-yaratmışdır.

Mirzə Şəfi ilə Azərbaycan və fars dilləri üzrə məşğul olan Bodenştedt onun şerlərini alman dilinə tərcümə edir və onları "Mirzə Şəfinin şərqiləri" adı ilə nəşr etdirir. "Şərqilər" böyük uğur qazanır və demək olar ki, bütün Avropa dillərinə və eləcə də bir çox Asiya dillərinə tərcümə olunur və dəfələrlə nəşr edilir. Şöhrət düşkünü olan Bodenştedt az sonra özünü "Şərqilər"in müəllifi kimi qələmə verməyə başlayır, lakin tapılmış arxiv sənədləri və digər sənədlər onun ədəbi oğurluğunu ifşa edir və Mirzə Şəfi Vazehin müəllifliyini təsdiqləyir.

**Velaskes** Rodriges de Silva (1599 - 1660) - ispan saray boyakarı. Dini, əfsanəvi, tarixi süjetlərlə, xalq həyatı ilə bağlı əsərlər, eləcə də portretlər çəkirdi. Ən məşhur əsərləri: "Vakx" "Bredanın təslimi", "Səhər yeməyi", "İpəyirən qadınlar". Velaskesin boyakarlığı cəsarətli realist müşahidəçiliyi, modelin xarakterinə müdaxilə etmə qabiliyyəti, incə harmoniya həssaslığı, zərif və zəngin koloritliyi ilə fərqlənir.

**Venera (Zöhrə)** - Roma əsatirlərində ilk vaxtlar bahar, bağ və bostan ilahəsi. Sonralar yunanların Afrodita ilahəsi ilə eyniləşdirilmiş, məhəbbət və gözəllik ilahəsi kimi ona sitayiş edilmişdir.

**Venesiya** - İtaliyanın şimal-şərqində şəhər; əksər hissəsi Adriatik dənizinin Venesiya körfəzindəki adalarda yerləşir. Venesiya şəhəri IX əsrdə meydana gəlmişdir. IX – XVI əsrlərdə Venesiya Qərbi Avropa ilə Şərq ölkələri arasında ticarət vasitəçiliyinin iri mərkəzi olmuşdur. Orta əsrlərdə tabeliyində müəyyən



downloaded from KitabYurdu.org

ərazi hissəsi olan dojun başçılıq etdiyi ticarət respublikası idi. 1797-ci ildən 1866-cı ilə kimi Avstriya imperiyasının əyaləti (1805 - 15-ci illərdə I Napoleonun tabeliyində olması istisna edilməklə) idi. 1866-cı ildə İtaliya krallığının tərkibinə daxil olmuşdur.

**"Verden qırğını"** - Birinci Dünya müharibəsi dövründə - 1916-cı il fevralın 21-dən dekabrın 21-dək keçirilmiş hərbi əməliyyat. Verden şəhəri rayonunda 5-ci Almaniya ordıısu fransız qoşunları cəbhəsinin dar sahəsini yarıb keçməyə cəhd göstərdi, lakin ciddi müqavimətlə üzləşdi. Alman qoşunlarının Verden üzərinə təzyiqləri 1916-cı ilin mart - iyun aylarında general Brusilovun komandanlığı altında rus qoşunları tərəfindən Şərq cəbhəsinin yarılması ilə zəiflədildi. İngilis və fransız qoşunları iyul ayında Somma çayı üzərində əks-hücuma başladılar və ingilislər burada tarixdə ilk dəfə tanklardan istifadə etdilər. 1916-cı ilin dekabrında fransız qoşunları vəziyyəti əsasən bərpa etdilər, alman qoşunları müdafiəyə keçmək məcburiyyətində qaldı. Hər iki tərəf uzunsürən amansız döyüşlər zamanı "Verden qırğını"nda böyük itkilərə məruz qaldı - bir milyon nəfərədək (600 min - almanlar, 358 min - fransızlar) döyüşçü həlak oldu.

**Verden müqaviləsi** - Böyük Karl imperiyasının bölüşdürülməsi haqqında 843-cü ildə Verdendə imzalanmışdır. Müqaviləyə əsasən, Frank imperiyası Böyük Karlın nəvələri Lotar (İtaliya, Reyn və Rona çayları boyunu, sonralar - Lotaringiyanı), Daz Karl (Reyndən qərbdə olan torpaqları) və Alman Lüdovik (Reyndən şərqdəki ərazini) arasında bölüşdürüldü. Əslində, bu bölünmə ilə üç böyük dövlətin - İtaliya, Fransa və Almaniyanın əsası qoyuldu.

**vergi** - dövlətin xeyrinə tutulan məcburi ödəmələr.

**Vergili Maron Publi** (e.ə. 70 - 19) - məşhur Roma şairi; on il ərzində özünün ən iri əsərini - "Eneida" qəhrəmanlıq poemasını yaratmışdır. Poema troyalı Eneyin səyahətlərindən bəhs edir. Vergili poemada cəsurluğu, vəzifəyə sədaqətli olmağı, böyüklərə hörmət etməyi tərif edir. "Eneida" təntənəli və melodik şerlə yazılmışdır. "Eneida" Qədim Roma klassik şerinin zirvəsidir. "Eneida"dan başqa, Vergili "Bukoliki" və "Georgiki" poemalarını da yazmışdır. Vergili Roma poeziyasının "qızıl əsr"ində yazıb-yaratmışdır.

**Versal** - müasir Fransada Paris yaxınlığında şəhər. 1682 - 1789-cu illərdə Fransa krallarının iqamətgahı. Kral XIV Lüdovik sarayını narahat Parisdən paytaxtın 18 km-liyində zövqlə tikilmiş Versal sarayına köçürmək qərarına gəldi. Versal XVII - XVIII əsrlər Fransa klassisizmi üslubunda tikilmiş ən böyük saray-park ansamblıdır. Versala əsas saray (1682-ci ildə inşa edilib), Böyük Trianon sarayı (1687), hovuzları, fəvvarələri, heykəlləri olan daimi park daxildir; peyzaj parkında Kiçik Trianon sarayı (1764) yerləşir.

**Versal sülh müqaviləsi** (1919) - Birinci Dünya müharibəsinə yekun vuran müqavilə. 1919-cu il iyunun 28-də Versalda bir tərəfdən qalib dövlətlər - ABŞ, İngiltərə, Fransa, İtaliya, Yaponiya, Belçika ilə, digər tərəfdən məğlub dövlət - Almaniya arasında imzalanmışdır. Versal müqaviləsinin şərtlərinə görə, Almaniya



downloaded from KitabYurdu.org

Elzas və Lotaringiyanı Fransaya, Malmedi və Eypen dairələrini Belçikaya, Sileziyanın bir hissəsini Çexoslovakiyaya, Poznanı Polşaya, Pomorye və s. əraziləri Prussiyaya verirdi; Dansiq (Qdansk) "sərbəst şəhər" elan edilirdi, Memel (Klaypeda) şəhəri isə 1923-cü ildə Litvaya birləşdirildi. Mübahisəli ərazilərin bir hissəsində dövlət mənsubiyyətçiliyi barəsində rəy sorğusu keçirildi. Saar vilayəti 15 il müddətinə Millətlər Cəmiyyətinin idarəçiliyinə verildi, sonra isə onun taleyi rəy sorğusu yolu ilə həll olunmalı idi. Hərbsizləşdirilmiş. Reyn bölgəsi yaradıldı. Almaniyanın müstəmləkələri əsas qalib dövlətlər arasında bölüşdürüldü (bax: mandat sistemi). Almaniyanın quru qoşunları 100 min nəfərlik döyüşçü ilə məhdudlaşdırıldı, onun hərbi donanması batırıldı, silahlar sahəsində də məhdudiyyətlər qoyuldu. Almaniya reparasiyalar ödəməyi öhdəsinə götürdü. Millətlər Cəmiyyətinin statusu da Versal müqaviləsinin ayrılmaz hissələrindən oldu. ABŞ həmin müqaviləni ratifikasiya etmədi və Almaniya ilə 1921-ci ilin avqustunda təxminən buna müvafiq, amma Millətlər Cəmiyyəti haqqında maddə olmayan xüsusi müqavilə imzaladı.

**Versal** - Vaşinqton sistemi - qalib dövlətlər - başlıca olaraq Böyük Britaniya, Fransa, ABŞ və Yaponiya tərəfindən Birinci Dünya müharibəsindən sonra yaradılmış sülh sistemi. Versal - Vaşinqton sisteminin əsasını Versal sülh müqaviləsi (1919) və Almaniyanın keçmiş müttəfiqləri ilə bağlı və 1921 - 22-ci illərdə Vaşinqton konfransında imzalanmış sazişlər təşkil edirdi. Sazişə əsasən, Yaponiya qoşunlarını Çinin Şandun əyalətindən çıxarırdı, ABŞ və İngiltərə isə vəd verirdilər ki, hərbi-dəniz bazalarını Yapon adalarına 5 min km-dən yaxın məsafədə yerləşdirməyəcəklər; ABŞ, İngiltərə və Yaponiya Çinə "bərabər imkanlar" prinsipini tətbiq etmək haqqında razılığa gəldilər.



**Vespuççi Ameriqo** (1454 - 1512) - Florensiya taciri və dəniz səyyahı. "Yeni Dünya" adlandırılan Cənubi Amerika sahillərinə təşkil olunmuş bir sıra İspaniya və Portuqaliya ekspedisiyalarında (1499 - 1504) iştirak etmişdir. İlk dəfə olaraq bu yerlərin dünyanın yeni hissəsi olması haqqında fərziyyə söyləmişdir və alman xəritəçisi Valdzemüller Ameriqo Vespuççinin şərəfinə bu yeri Amerika (1507) adlandırmışdır.

**Vest-Hind** (ing. "Qərbi Hindistan") - Atlantik okeanında Şimali və Cənubi Amerika materikləri arasında yerləşən adaların ümumi adı. Bu adaların çox hissəsi isə səhvən Hindistana çatdığını zənn edən Kolumbun səyahəti zamanı (1492 - 1502) aşkar edilmişdir. Hindistandan fərqli olaraq (Ost-Hind - ing. "Şərqi Hindistan") bu adaları sonralar "Vest-Hindistan" və ya "Vest-Hind" adaları adlandırdılar.

**veto** (lat. "qadağan edirəm") - 1) Qədim Roma xalq tribunu konsulların və senatın plebeylərə aid olan sərəncamlarını ləğv edə bilərdi. Bunun üçün onun "veto" deməsi kifayət idi. "Veto hüququ" ifadəsi, yəni hər hansı bir qərarın qadağan olunması, ləğv edilməsi hüququ buradan əmələ gəlmişdir; 2) dövrümüzdə



downloaded from KitabYurdu.org

"veto hüququ" dövlət başçısına verilir, o, nümayəndəli hakimiyyət orqanları tərəfindən qəbul olunmuş qanunvericilik aktlarına veto qoya bilər; 3) BMT Təhlükəsizlik Şurasının üzvləri olan dövlətlər "veto hüququ"na malikdirlər.

**Veymar respublikası** - Almaniyada 1918-ci il Noyabr inqilabı nəticəsində yaranmış respublika. Veymar şəhərində qəbul olunmuş konstitusiyaya görə belə adlandırılmışdır. 1933-cü ildə Hitler hakimiyyətə gələndən sonra ömrünü başa vurmuşdur.

**vəhhabilər** (ər. "əl-Vəhhabiyyə") - XVIII əsrin ortalarında Ərəbistanda Məhəmməd ibn Əbd əl-Vəhhabın təlimi əsasında sünnilər arasında meydana gəlmiş dini-siyasi hərəkatın tərəfdarları. əl-Vəhhab 1703/1704-cü illərdə qazı ailəsində anadan olmuş, dini təhsil almış, gənc yaşlarında Ərəbistan və qonşu ölkələrə çoxlu səyahətlər etmiş, sonra isə öz təlimini yaymağa başlamışdır. Onun təliminin əsasını Allahın təkliyi haqqındakı düşüncələr təşkil edirdi: "Allah törənişin yeganə mənbəyidir və yalnız O, səcdə olunmağa layiqdir, amma müsəlmanlar müqəddəslərə etiqadla və müxtəlif yeniliklər tətbiq etməklə bu prinsipdən uzaqlaşmışlar". Vəhhabilərə görə, islamın təmizlənməsi və onun ilkin vaxtlardakı normalarına qayıtmaq zəruridir. Vəhhabilər ictimai-siyasi sahədə sosial harmoniya, bütün müsəlmanların qardaşlığı və birliyini təbliğ edir, islamın əxlaqi-etik prinsiplərinin ciddi qorunması, cah-calalın, tamahkarlığın ittiham olunması çağırışı ilə çıxış edirdilər. Çoxallahlılara və erkən islam prinsiplərindən "uzaqlaşan" müsəlmanlara qarşı cihada mühüm yer verilirdi, belə ki, hesab olunurdu ki, əslində, həmin müsəlmanlar "çoxallahlıdırlar". Öz rəqiblərinə qarşı inam və ekstremizm məsələlərində mübarizədə erkən vəhhabiliyə qatı fanatizm xarakterikdir. XVIII əsrin 40-cı illərinin ortalarından əl-Vəhhab Ərəbistan yarımadasında siyasi mübarizəyə qoşulmuşdu, onun təlimi Ərəbistanı öz hakimiyyətləri altında birləşdirmək istəyən əl-Səud nəsli nümayəndələrinin mübarizə bayrağına çcvrilmişdi. Sonralar isə Səudilər dövlətinin - Səudiyyə Ərəbistanının rəsmi ideologiyası oldu. XIX əsrin əvvəllərində vəhhabilik Ərəbistan yarımadasının əksər hissəsində mövqeyini möhkəmlətdi, sonra isə Hindistan, İndoneziya, Şərqi və Şimali Afrikada yayıldı. SSRİ-nin dağılmasından sonra vəhhabizm Orta Asiya respublikalarında, eləcə də faktik olaraq Çeçenistanda (İçkeriya Respublikasında) yayılmağa başladı. Hazırda vəhhabilər Azərbaycan Respublikasında da yuva salmağa cəhd göstərirlər.



**vəqf** - müəyyən məqsədlər üçün nəzərdə tutulan və özəlləşdirilməyən əmlak: 1) ən geniş mənada - müsəlmanlar tərəfindən fəth olunmuş və onlardan xərac ödənilən torpaqlar; 2) daha məhdud və ürnumişlək mənada - gəlir və ya məhsulun tam və ya bir hissəsinə mülkiyyət hüququnun məhdudlaşdırıldığı əmlak; 3) dini-xeyriyyə məqsədləri üçün nəzərdə tutulmuş özəlləşdirilə bilməyən əmlak.



downloaded from KitabYurdu.org

Bu mənada müsəlman dini müəssisələrinə mənsub olan torpaq sahələri də vəqf hesab olunur.

**vətəndaş** - qanunla müəyyənləşdirilmiş hüquqlardan istifadə edən və dövlət qarşısında öhdəliyi olan adam.

**Vətəndaş müharibəsi** - bir ölkə daxilində onun vətəndaşları arasında baş verən müharibə.

**vətənpərvər** (patriot) - vətənə dərin məhəbbət hissi bəsləyən insan.

**vəzir** - Şərq ölkələrində dövlət inzibati aparatının başçısı. Quranda həmin söz ilkin mənasında ("köməkçi") işlənilir. Vəzirin əsas fəaliyyət dairəsi inzibati-maliyyə işləridir; adətən ordu və məhkəmə məsələləri onun tabeliyində olmurdu. X əsrdən, xüsusilə də Ərəb xilafətinin şərqində iri hökmdarların hamısının vəziri olmuşdur. Osmanlı imperiyasında bir neçə vəzir olmuşdur və onlardan yalnız biri - baş vəzir (ulu vəzir) sultana məlumat vermək ixtiyarına malik idi. Dövrümüzdə "vəzir" sözü "nazir" məfhumu ilə ehtiva olunur.

**Vəzirov** Nəcəf bəy (1854 - 1926) - görkəmli Azərbaycan dramaturqu. Əsas dram əsərləri: "Daldan atılan daş topuğa dəyər", "Sonrakı peşmançılıq fayda verməz", "Adı var, özü yox" və Azərbaycan ədəbiyyatında ilk faciə "Müsibəti-Fəxrəddin".

**Vidadi** Molla Vəli (1709 - 1809) - Azərbaycanın lirik şairi. Vidadi Şəmkirdə anadan olmuşdur. O burada ibtidai təhsil almış, sonra isə kənd məktəblərində dərs demişdir. Vidadi bir müddət Qarabağ xanlığında və gürcü çarı II İraklinin sarayında yaşamışdır. O, Füzulinin davamçısıdır. Onun bir çox şerləri xalq aşıq poeziyası formasında yazılmışdır. Vidadi qoşma və gəraylı ustası kimi tanınır. O öz şerlərində feodal qayda-qanunlarından narazılığını ifadə etmişdir. Qazaxda "Gəmiqaya" deyilən yerdə dəfn olunmuşdur.

**vikinqlər** - VIII - XI əsrlərdə Avropa ölkələrinə talançı və işğalçı yürüşlər etmiş skandinav tayfaları. Qərbi Avropada vikinqləri "normanlar", Kiyev Rusunda isə "varyaqlar" adlandırmışlar. VIII əsrdə yelkənli qayıqlarla Qərbə yollanan vikinqlər İslandiyaya, Britaniyaya, Avropa qitəsi və Aralıq dənizi sahillərinə soxulmuşlar. Vikinqlər Baltik dənizindən Kiyev Rus dövlətinin çayları vasitəsilə Qara dənizədək gəlib çıxır və Bizans imperiyası şəhərlərini talayırdılar. Bu ölkələrin hökmdarları vikinqlərə müqavimət göstərmədən xərac ödəməklə talanlardan qurtarmağa üstünlük verirdilər. Vikinqlərin mədəniyyət nümunələri saqalardır.

**Viktoriya** - Qədim Roma ınifologiyasında qələbə ilahəsi; qədim yunanların Nike ilahəsinə uyğundur.

**vilayət** - Türkiyədə inzibati-ərazi vahidi. Vilayətlərə bölgü 1866-cı ildə tətbiq olunmuşdur, bu vaxta qədərsə əsas inzibati vahid əyalət idi. Vilayətin başında hökumət tərəfindən təyin olunan vali durur. Vilayətlərdə yerli özünüidarə orqanı seçkili məclisdir.



downloaded from KitabYurdu.org

**villa** - Qədim Romada şəhərkənarı yaşayış və təsərrüfat tikililəri kompleksi - quldarlıq malikanəsi mərkəzi. Orta əsrlərdə Avropada müxtəlif növ məskənləri - icma, kənd, sonralar - feodal malikanəsini bildirən məfhum.

**Vişnu** - hinduizmdə Brahma və Şiva ilə bərabər baş allah, qoruyucu allah, əbədi canlı təbiətin mücəssəməsi. Kainatın sonsuzluğunu təcəssüm etdirən Vişnu adətən dərisi göy rəngli, şanagüllə çiçəyi və ya əfsanəvi Harud quşu üzərində oturmuş, yaxud da yayvarı qıvrılmış Şeşe ilanı üzərində uzanmış gözəl oğlan simasında təsvir olunur.

**viza** - 1) hər hansı bir sənədin həqiqiliyini təsdiq edən dərkənar, yazı; 2) rəsmi olaraq hər hansı bir dövlətə getmək, gəlmək və ya onun ərazisindən keçmək haqqında pasportda edilmiş qeyd.

**volyuntarizm** - 1) cəmiyyətin inkişafında şəxsiyyətin iradəsinin əsas olduğunu qəbul edən fəlsəfi cərəyan. Volyuntarizm ictimai hadisələr və proseslərdə səbəb şərtləndiriciliyini inkar edir; 2) siyasi volyuntarizm subyektivizm və subyektiv özbaşınalıqla nəticələnir. SSRİ-də "volyuntarizm" anlayışı N.S Xruşşovun idarəçiliyinə aid edilirdi.

**volontyor** - hərbi xidmətə könüllü başlayan şəxs.

**Volter** (əsl adı Mari Fransua Arue; 1694 - 1778) - fransız yazıçısı və maarifçi filosofu. Volterin fəaliyyəti dini dözümsüzlüyə və cəhalətə qarşı idi, feodal-mütləqiyyət sistemini tənqid edirdi. Böyük Fransa burjua inqilabının ideya hazırlığında böyük rol oynamışdır.

**Voronsov** Mixail Semyonoviç - knyaz, general-feldmarşal, Rusiya imperatorunun Qafqazdakı birinci canişini.

**votçina** - 1) X - XI əsrlərdə Kiyev Rus dövlətində meydana gəlmiş ən qədim feodal torpaq sahibliyi forması - irsən keçən nəsli mülk; sonralar bütün Rusiyada yayılmışdır; 2) hər hansı feodalın feodal torpaq sahibliyinin və onunla bağlı olan feodal-asılı kəndlilərin hüquqlarının kompleks bildirilməsi üçün işlədilən termin.

**Vulkan** - Qədim Roma mifologiyasında dağıdıcı və təmizləyici od allahı, dəmirçilərin himayəçisi. Qədim yunanlardakı Hefest allahına uyğun idi.



**Vurğun** (əsl adı Səməd Yusif oğlu Vəkilov; 1906 - 56) - "Səməd Vurğun" təxəllüsü ilə yazmışdır. Azərbaycanın xalq şairidir. Vurğun Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olmuşdur. Əvvəlcə kənd məktəbində oxumuş, sonra isə rayon pedaqoji texnikumunu bitirərək müəllim işləmişdir.

1929-cu ildən təhsilini II Moskva Dövlət Universitetində, sonralar isə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun və Azərbaycan Pedaqoji İnstitutunun aspiranturasında dil və ədəbiyyat bölməsi üzrə davam etdirmişdir. Vurğun 1924-cü ildən şer yazmağa başlamışdır. Səməd Vurğunun şerləri dil saflığı və forma poetikliyi, parlaq obrazlılığı, emosionallığı ilə fərqlənir. Vurğunun ən məşhur əsərləri " Şairin andı" (1930), "Fanar" (1932) şerlər



downloaded from KitabYurdu.org

toplusu, "Komsomol poeması" (1932), mənzum "Vaqif (1938) tarixi dramı, "Xanlar" (1939) pyesi, "Fərhad və Şirin" (1941) dramatik poemasıdır. "Vaqif və "Fərhad və Şirin" pyeslərinə görə şair iki dəfə SSRİ dövlət mükafatına layiq görülmüşdür. Səməd Vurğun dəfələrlə Azərbaycan SSR Ali Sovetinin deputatı və SSRİ Yazıçılar İttifaqı Rəyasət Heyətinin üzvü seçilmişdir.

**"Vuruşan çarlıqlar" dövrü** - Çin tarixində e.ə. IV - III əsrlərdə bütün Çində hakimiyyəti ələ keçirmək uğrunda bir neçə müstəqil çarlıq arasında baş vermiş sürəkli və qanlı müharibələr dövrünün adı.

**Vyana konqresi** (1814 - 15) - Avropa dövlətlərinin I Napoleon üzərində qələbədən sonra (1814-cü ilin sentyabrı - 1815-ci ilin iyunu) Vyanada (Avstriya) keçirdikləri konqres. Burada feodal qaydalarının və Avropanın əvvəlki sülalələrinin hakimiyyətinin bərpasına, qalib dövlətlərin ərazi iddialarının təmin olunmasına, Almaniya və İtaliyanın siyasi pərakəndəliyinin rəsmiləşdirilməsinə, Varşava hersoqluğunun Rusiya, Prussiya və Avstriya arasında bölüşdürülməsinə yönəldilmiş müqavilələr imzalanmışdır. Fransa tutduğu ərazilərdən məhrum edilmişdi. 1815-ci ilin sentyabrında Vyana konqresinin qərarlarına "Müqəddəs ittifaq"ın yaradılması haqqında akt əlavə edildi.

## - Y -

**Yaxın Şərq** - Asiyanın cənub-qərb və Afrikanın şimal-şərq rayonunu bildirən qəbul olunmuş tarixi və coğrafi ad. Həmin ərazidə müasir Sudan, MƏR, İsrail, İordaniya, Suriya, Livan, Türkiyə, İraq, Səudiyyə Ərəbistanı, Yəmən, Qatar, Oman, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, eləcə də Kipr və Bəhreyn adaları yerləşir.

**yakobinlər** - Böyük Fransa burjua inqilabı dövründə müqəddəs Yakov klubunun üzvləri. Yakobinlər inqilabi-demokratik burjuaziyanın maraqlarını ifadə



edirdilər və şəhər və kənd yoxsulları ilə ittifaqda çıxış edirdilər. 1792-ci ilin oktyabrında jirondistlər klubdan çıxdılar. Yakobinlərin başçıları Robespyer, Marat, Danton və b. idilər. 1793-cü il 31 may - 2 iyun üsyanından sonra yakobinlər hakimiyyətə gəldilər və diktaturalarını quraraq əksinqilabi terrora başladılar. Yakobinlər yaxşı silahlanmış kütləvi ordu təşkil edə və müdaxiləni dəf edə bildilər, tutduqları feodal torpaqlarının bir hissəsini kəndlilərə verdilər, feodalların kəndli torpaqlarına olan mülkiyyət hüquqlarını ləğv etdilər, bütün feodal ödəniş və mükəlləfiyyətlərini tam və ödəncsiz ləğv etdilər, qiymətlərin maksimum həddini müəyyənləşdirdilər və inqilabi təqvim tətbiq etdilər. Bir qədər keçdikdən sonra isə terror Robespyerin şəxsi hakimiyyətini mökəmləndirmək üçün alətə çevrildi. Yakobin diktaturası 1794-cü ilin 27 - 28



downloaded from KitabYurdu.org

iyulunda (respublika təqvimi ilə II ilin 9 termidorunda) termidor çevrilişi nəticəsində devrildi.

**Yaqaylo** - 1377 - 92-ci illərdə böyük Litva knyazı, 1386-cı ildən Polşa kralı. Qrünvald savaşında Polşa-Litva qoşunlarına komandanlıq etmişdir.

**Yalta konfransı** - bax: Krım konfransı.

**yanki** - ABŞ-da doğulan amerikanlara verilən ləqəb.

**Yanus** - 1) Qədim Roma mifologiyasında qapılar, giriş və çıxış, bütün başlanğıcların allahı. İki simada təsvir olunurdu: bir üzü keçmişə, digəri isə gələcəyə yönəlirdi. Yanvar ayı onun adı ilə adlandırılıb; 2) məcazi mənada: "ikiüzlü Yanus" - ikiüzlü adam.

**yardarlıq** - torpaq sahibinə icarə haqqı məhsulun bir hissəsi ilə ödənilən torpaq icarəsi forması.

**yarlıq** (türk. "əmr", "fərman") - Qızıl Ordada monqol-tatar xanlarının onlardan asılı olan dünyəvi və ruhani feodallara verdikləri imtiyaz sənədləri.

**yarımmüstəmləkə** - formal olaraq müstəqil, əslində isə xarici kapitalın nəzarət elədiyi zəif inkişaf etmiş iqtisadiyyata malik, xarici və daxili siyasətində bir və ya bir neçə böyük dövlətin təsiri altında olan ölkə.

**yasaq** (türk. "xarac") - XV - XX əsrlərdə Rusiyanın işğal etdiyi Sibir və Şimal xalqlarından əsasən xəz ilə alınan natural vergi.

**yasavul** (türk. "rəis") - 1) Orta əsrlərdə Yaxın Şərqin bəzi ölkələrində, o cümlədən Azərbaycanda hərbi vəzifə. Yasavul əsgərlər arasında nizam-intizama və onların döyüşə hazırlığına cavabdeh idi; 2) Rusiyada - yesaul - XIV əsrdən vəzifə, XVIII əsrdən isə kazak qoşunlarında rütbə. Sonralar süvari qoşunlarda rütbə.

**Yason** - qədim yunan mifologiyasında qızıl yun (runo) dalınca Kolxidaya gedən arqonavtların başçısı.

**yaylaq maldarlığı** - bax: köçəri maldarlıq.

**yazı** - məlumatın hər hansı material üzərində hər hansı şərti işarələrlə və ya əlavə izahat tələb etməyən işarələrlə verilməsi. Digər məlumat vasitələrinin



əksəriyyəti, o cümlədən nitq ani xarakter daşıyır, zaman və məkan məhdudluğuna malikdir. Yazılı söz isə zaman və məkam keçə bilər. Lap qədimlərdə yazılmış bir şeyi indi oxumaq və anlamaq olar. Yazının köməyi ilə təcrübəni asanlıqla sonrakı nəsillərə və başqa xalqlara ötürmək olar. Ona görə də yazı bəşəriyyətin ən böyük mədəni dəyərlərindən biri hesab edilir. Qədim Şərq dünyaya iki mühüm ilkin yazı formasını - e.ə. IV minillikdə meydana gəlmiş Qədim Misir heroqliflərini və Mesopotamiya mixi yazılarını vermişdir. Finikiyalılar tərəfindən əlifbanın yaradılmasının isə daha böyük əhəmiyyəti var idi.

**yazılı tarixi mənbələr** - bax: tarixi sənədlər.



downloaded from KitabYurdu.org

**Yekaterina** II - yoxsullaşmış alman knyazı nəslindən olan Sofya Frederika Avqusta Anhalt-Serbstli (1729 - 96), Rusiya imperatriçəsi (1762 - 96). 1745-ci ildə Rusiya taxt-tacının varisi, gələcək Rusiya imperatoru III Pyotra ərə verilmişdir. 1762-ci ildə qvardiyanın köməkliyi ilə III Pyotru devirmişdir. Zadəganların silki imtiyazlarını təsdiq etmiş və mütləqiyyəti möhkəmləndirmişdir. Onun hakimiyyəti illərində Puqaçovun rəhbərliyi ilə kəndli müharibəsi (1773 - 75) başlanmış və amansızcasına yatırılmışdır. Şimali Amerikada istiqlaliyyət uğrunda müharibə dövründə İngiltərəyə qarşı yönəlmiş silahlı bitərəflik haqqında bəyanat (1780) vermişdir. II Yekaterinanın dövründə Rusiya Qara dənizin şimal sahillərini, Krımı, Şimali Qafqazı, Qərbi Ukrayna, Qərbi Belorusiya, Litva və Polşa torpaqlarını (Reç Pospolitanın üç dəfə bölüşdürülməsi nəticəsində) işğal etmişdir. II Yekaterina 1796-cı ildə general Zubovun başçılığı ilə rus qoşunlarını Şimali Azərbaycan xanlıqlarını işğal etmək üçün göndərmişdir. Yekaterina hökuməti burada Rusiya imperiyasının himayəsi altında xristian Alban dövlətinin yaradılması üçün layihə hazırlamışdır. II Yekaterina 1790-cı illərdə azad fikirliliyi təqib edir və inqilabi Fransanın əleyhinə mübarizədə fəal iştirak edirdi.

**Yelena** - qədim yunan mifologiyasında Sparta şahzadəsi, qadınların ən gözəli. Onun sevgilisi Parislə Troyaya qaçması (və ya qaçırılması) Troya müharibələrinə səbəb olmuşdur.

**Yelizaveta I Tüdor** - ingilis kralı VIII Henrixin qızı, İngiltərə kraliçası (1558 -1603). Yelizavetanın dövründə İngiltərədə mütləqiyyət möhkəmlənmiş, anqlikan kilsəsi bərpa edilmişdir. O, ticarətə və gəlirinin bir hissəsini aldığı piratlığa (dəniz quldurluğuna) himayədarlıq edirdi. Yelizavetanın dövründə ispanların "Məğlubedilməz armada"sı darmadağın edildi (1588), İrlandiyanın müstəmləkələşdirilməsi geniş şəkildə həyata keçirilməyə başlandı.

**"yeni zadəganlar"** - XVI - XVII əsrlərdə İngiltərə zadəganlarının kapitalizmin inkişafına uyğunlaşmış hissəsinin adı. "Yeni zadəganlar"ın əsas kütləsini orta və xırda zadəganlar, habelə varlı kəndlilər təşkil edirdi. "Yeni zadəganlar" muzdlu əməkdən istifadə etdikləri kənd təsərrüfatı ilə yanaşı, ticarət və sahibkarlıqla da məşğul olurdular. "Yeni zadəganlar" İngiltərə burjua inqilabında burjuaziyanın əsas müttəfiqləri idilər.

**yeniçərilər** (türk. "yeni çerik", hərfi mənası - "yeni qoşun") - XIV əsrdə Osmanlı imperiyasında yaradılmış, dövlət xəzinəsi hesabına saxlanılan nizami piyada qoşununun adı. İlk əvvəl yeniçərilər əsir gənclərdən, sonra isə Osmanlı imperiyası tərəfindən fəth olunmuş əhalinin oğlanlarından zor yolu ilə təşkil edilirdi. Buna "devşirmə" üsulu deyilirdi. Yeniyetmələr dövlət vəsaiti hesabına hərbi xidmətdə qulluq etmək üçün tərbiyə edilirdilər. Yeniçəri sıralarına daxil edilənlər sultandan bol-bol hədiyyələr alır və ona sədaqətli olurdular. Müharibələrdə yeniçərilər igidlikləri və amansızlıqları ilə seçilirdilər. Sonralar yeniçərilər xoşlarına gəlməyən sultanlara qarşı tez-tez çıxış edirdilər. Yeniçəri qoşunu 1826-cı ildə sultan II Mahmud tərəfindən ləğv edilmişdi.



downloaded from KitabYurdu.org

**yepiskop** - xristian kilsəsində dini-inzibati başçı, ərazi başçısı.

**yeres** (yun. "xüsusi dini təlim") - "bidət", hər hansı rəsmi dindən uzaqlaşan və sosial etirazın spesifik forması olan dini cərəyan. Bidətin meydana çıxması bütün dinlərin - buddizm, islam, iudaizm və xüsusilə də daha çox xristianlığın tarixinə xasdır. Bidətçilik xristianlığın mənəviyyatda hakim mövqeyə çatdığı orta əsrlərdə xüsusilə geniş yayılmışdı.

**yeretik** (yun. "dönük") - bidətçi, kafir, rəsmi dini təlimə qarşı çıxan adam. Bidətçilər iddia edirdilər ki, kilsə "korlanıb", Roma papasını "iblisin canişini" adlandırırdılar. Onlar kilsə adətlərinə qarşı çıxaraq tələb edirdilər ki, ruhanilər ondabir vergisindən, öz torpaq sahələrindən və sərvətlərindən imtina etsinlər. Bidətçilərin çıxışları ruhanilərin nüfuzuna xələl gətirirdi. Ruhanilər bidətçiləri kilsədən qovmaqla, hərbi yürüşlər təşkil etməklə və inkvizisiyanın köməkliyi ilə onlara qarşı mübarizə aparırdılar.

**Yermak** Timofeyeviç - kazak atamanı. Ural tacirləri və sənayeçiləri Stroqanovların vəsaiti hesabına onun başçılığı ilə kazakların Sibir xanlığına işğalçı yürüşləri təşkil edilmişdir. 1581-ci ildə Yermak Sibir xanlığının işğalına başladı. 1582-ci ilin payızında kazaklar hücumla Sibir xanlığının əsas istehkamı - paytaxtı Kaşlıkı tutdular və qarət etdilər. Sibir xanı Kuçum xan müqaviməti davam etdirdi. 1585-ci ildə başda Kuçum olmaqla tatarların kazaklara gözlənilməz gecə hücumu zamanı Yermak öldürüldü.

**Yerusəlim** - bax: Qüds.

**Yerusəlim krallığı** - səlibçilərin birinci yürüşləri zamanı işğal etdikləri Yerusəlimdə 1099-cu ildə yaratdıqları dövlət. Yerusəlim krallığı özündən və üç vassal dövlətdən - Tripoli və Edessa qraflıqları və Antioxiya knyazlığından ibarət idi. Yerusəlim krallığının hərbi qüvvəsi müsəlmanların hücumuna tab gətirmədi. 1187-ci ildə Misir sultanı Səlahəddin Əyyubi Yerusəlimi tutdu. 1291-ci ildə səlibçilərin son dayağı olan Aqra şəhəri süqut etdi.

**yezuitlər** - ispan zadəganı İqnati Loyola tərəfindən 1540-cı ildə Parisdə yaradılmış "İisus cəmiyyəti" katolik rahib ordeninin üzvləri. Orden Reformasiya ilə mübarizədə əsas alətə çevrildi. Yezuitlər təkcə Avropa ölkələrində möhkəmlənməklə kifayətlənməyib, həm də Hindistan, Çin, Yaponiya və Filippinə soxuldular. Ordenin təşkilinin əsas prinsipləri: ciddi mər-kəzləşdirilmə, mövqecə kiçiklərin böyüklərə tabe olması, ordenin başçısının mütləq nüfuzu, orden daxilində qarşılıqlı casusluq. Yezuitlər hesab edirdilər ki, "allahın daha böyük şöhrəti naminə" istənilən cinayəti törətmək olar, belə ki, onların fikrincə, "məqsədə çatmaq üçün hər cür vasitə yaxşıdır".

**yəhudilər** - tarixən qədim yəhudilərin törəmələri olan xalqın ümumi adı. Yəhudilər müxtəlif ölkələrdə (ən çox yəhudi ABŞ-dadır - 7 milyon nəfərə yaxın, İsraildə isə - 4 milyon nəfərə yaxın) yaşayırlar, onların ümumi sayı təxminən 16 milyon nəfərdir. Yəhudilər əksər hallarda yaşadıqları ölkənin dilində danışırlar.



downloaded from KitabYurdu.org

Yəhudilərin bir hissəsi idiş və ivrit dillərində danışır. Yəhudilər əsasən iudaizmə etiqad edirlər.

**yığıcılıq** - insanların təbiətin onlara verdiklərini yığmaları. Ovçuluqla yanaşı, yığıcılıq on qədim insanların ilk və əsas məşğuliyyətlərindən biri idi. Yığıcılıq mənimsəmə (istehlak) təsərrüfatının formalarından biri idi.

**YİS (yeni iqtisadi siyasət)** - Lenin tərəfindən işlənilmiş, Sovet Rusiyası və SSRİ-də həyata keçirilmiş iqtisadi siyasət. "Hərbi kommunizm " siyasətindən fərqli olaraq "yeni" adlandırılmışdır. YİS 1921-ci ildə RSDF(b)P-nin X qurultayında qəbul olunmuşdu. YİS müharibədən sonrakı dağıntıları dəf etmək, sosialist iqtisadiyyatının bünövrəsini qurmaq, iri sənayeni inkişaf etdirmək, şəhərlə kənd arasında iqtisadi əlaqə yaratmaq, iqtisadiyyatda xüsusi mülkiyyətçiləri sıxışdırıb məhv etmək üçün nəzərdə tutulmuşdu. Bu vəzifələrin icrası yolları: kooperasiyanın hərtərəfli inkişafı, ticarətin genişləndirilməsi, maddi həvəsləndirmə və təsərrüfat hesabından istifadə edilməsi idi. Təsərrüfatın hərpası məqsədilə, lakin idarəçiliyin dövlətdə qalması şərti ilə xüsusi kapitalın cəlb edilməsinə yol verilirdi.

**Yunan - İran müharibələri** - e.ə. 499 – 449-cu illərdə Balkan yarımadasında İran şahlığı (Əhəmənilər dövləti) ilə yunan şəhər-dövlətləri arasında baş vermişdi. E.ə. 500 - 499-cu illərdə Kiçik Asiyadakı yunan şəhərləri iranlılara qarşı üsyan qaldırdılar və afinalılar da onlara kömək etdilər. İranlılar üsyanı yatıra bildilər. Bu hadisə Yunan - İran müharibələrinin başlanmasına səbəb oldu. E.ə. 492-ci ildə başda Mardoni olmaqla İran qoşunları Yunanıstana uğursuzluqla nəticələnən yürüş etdilər. Bununla da Yunan - İran müharibələri başlandı. E.ə. 490-cı ildə I Daranın qoşunları Yunanıstan üzərinə yürüş etdi. Şimali Yunanıstanın səhər-dövlətlərinin bir hissəsi iranlılara tabe olduqlarını bildirdi. Digər şəhərlərdə, ilk növbədə isə Afina və Spartada farslara silahlı cavab vermək tərəfdarları çoxluq təşkil etdi. Lakin e.ə. 490-cı ildə İran qoşunları Marafon çölündə strateq Miltiadın başçılıq etdiyi Afina qoşunları tərəfindən məğlubiyyətə uğradıldı. I Daranın varisi Kserks e.ə. 480-ci ildə 1000 gəmilik donanmanın müşayiət etdiyi böyük ordu ilə Yunanıstana soxuldu. Afinanın təşəbbüsü ilə başda Sparta olmaqla 31 şəhərin ittifaqı yaradıldı. Fermopil yaxınlığında iranlılar Sparta hökmdarı Leonidin başçılıq etdiyi dəstəni qırdılar, Attikaya soxulub Afinanı tutdular. Femistoklun təklifi ilə Salamin yaxınlığında iranlılarla dəniz döyüşü keçirildi və savaş Afina hərbi donanmasının qələbəsi ilə başa çatdı. Kserks ordusunun əsas hissəsini Yunanıstandan çıxarmaq məcburiyyətində qaldı, lakin qoşunlarının bir hissəsini Yunanıstanı tabe etmək məqsədilə Mardoninin başçılığı ilə burada saxladı. E.ə. 479-cu ildə Plateya şəhəri yaxınlığındakı döyüşdə İran ordusu sərkərdə Pavsaniyanın başçılığı altında Yunanıstan şəhərlərinin birləşmiş qüvvələri tərəfindən darmadağın edildi. Eyni zamanda, Mikal burnu yaxınlığında İran donanması da məğlubiyyətə uğradı. İranlılarla mübarizəni davam etdirmək məqsədi ilə 487-ci ildə Delos dəniz ittifaqı (sonralar - Afina dəniz ittifaqı) yaradıldı. Müharibənin xarakteri dəyişdi və Egey dənizində ağalıq və qənimət əldə



downloaded from KitabYurdu.org

etmək uğrunda yunanlar mübarizəyə başladılar. E.ə. V əsrin 70-ci illərində yunanlar Egey dənizində bir sıra adaları tutdular və Bizans (Vizanti) koloniyasını ələ keçirdilər. Bu isə öz növbəsində Kiçik Asiyadakı yunan şəhərlərinin iranlılara qarşı üsyanına səbəb oldu. Buna cavab olaraq iranlılar Yunanıstana qarşı yeni yürüş hazırladılar, amma Afina sərkərdəsi Kimon e.ə. 469-cu ildə İran donanmasını Evrimedont çayının mənsəbində darmadağın etdi. Bundan sonra hərbi əməliyyatlar müvəqqəti dayandırıldı. E.ə. 454-cü ildə iranlılara qarşı üsyana başlamış misirlilərə yardım üçün cəhd göstərən Afina donanması Nilin mənsəbində darmadağın edildi. E.ə. 449-cu ildə iranlıların Kiprin Salamin şəhəri yaxınlığında darmadağın edilməsindən sonra yunanlarla iranlılar arasında Kalli sülhü adlanan saziş imzalandı. Sazişin şərtlərinə görə, İran vəd edirdi ki, daha Egey dənizinə donanma çıxarmayacaq, qoşunlarını Kiçik Asiya sahillərindən 3 günlük məsafədən yaxın saxlamayacaq, Afina isə Kipri tərk etməyi, öz qarnizonlarını Əhəməni dövlətinin təbəəliyində hesab edilən Kiçik Asiyadakı yunan şəhərlərindən çıxarmağı vəd edirdi.

**"yunan odu"** - qatran, neft, kükürd, şora və s. aşqarlardan ibarət su ilə söndürülməyən yandırıcı qarışıq. Bizansda kəşf olunmuşdur. VII - XV əsrlərdə "yunan odu" dəniz döyüşlərində və qalaların mühasirəsi zamanı istifadə olunmuşdur.

**YUNESKO** - maarif, elm və mədəniyyət məsələləri üzrə (ingiliscə adının baş hərfləri ilə) BMT-nin 1946-cı ildə yaradılmış hökumətlərarası ixtisaslaşdırılmış təşkilatı.

**yunker** (alm. "yunq herr" - "gənc ağa") - Prussiyada və Almaniyanın digər yerlərində mülkədarların adı.

**Yunona** - Qədim Roma mifologiyasında baş ilahələrdən biri, Yupiterin arvadı. Yunan ilahəsi Hera ilə eyniləşdirilirdi.

**Yupiter** - Qədim Roma mifologiyasında baş allah. Yupiter qədim yunan allahı Zevslə eyniləşdirilirdi.

**yurisdiksiya** - 1) müvafiq məhkəmə orqanlarının mülki, cinayət və digər işlərə baxıb onları həll etmək səlahiyyəti; 2) dövlət müəssisəsi və ya dövlətin səlahiyyətinə aid olan məsələlər.

**Yustinian I** - Bizans imperatoru (527 -565). Yustinian Roma imperiyasını ilkin sərhədlərində bərpa etməyə cəhd göstərir. 20 ildən artıq davam edən aramsız müharibələr nəticəsində o, Şimali Afrikada vandalların krallığını, Siciliyanı, İtaliyada ostqotların krallığını istila edir və İspaniyanın cənub hissəsini vestqotlardan ala bilir. Ağır vergilərdən əziyyət çəkən Bizans əhalisi üsyanlara başlayır və bu üsyanlar Yustinian tərəfindən amansızcasına yatırılır. Uzunsürən müharibələrdən sonra Yustinian şərqdə ərazilərinin bir hissəsini Sasanilərə güzəştə getmək məcburiyyətində qalır. Yıstinianın dövründə Roma qanunları sistemləşdirildi və "Yustinianın qanunnaməsi" tərtib edildi. Onun dövründə Konstantinopolda Müqəddəs Sofiya məbədi və Dunay sərhədi boyunca qalalar



downloaded from KitabYurdu.org

sistemi inşa edilmişdi. Yustinianın ölümündən az sonra Bizans imperiyası qərbdə ələ keçirdiyi, demək olar ki, bütün torpaqları itirdi.

**Yuy-di** (tam adı: Yuy-xuan Şan-di - "Ali hökmdar - Nefrit padşah") - Qədim Çində populyar olan əfsanənin qəhrəmanı. Səmanın şər allahı sel yaradanda və bütün Yer, demək olar ki, sahilsiz dənizə çevriləndə böyük Yuy-di insanlara damba (torpaq bənd) və kanallar tikməyi, böyük çayların suyunun okeana axması üçün onların mənsəbini dərinləşdirməyi öyrətdi. Sonrakı dövr xalq mifologiyasında Yuy-di bütün kainatın - göylərin, Yerin və yeraltı dünyanın, bütün allahların və ruhların ona tabe edildiyi baş hökmdardır.

**Yüzillik müharibə** - 1337 - 1453-cü illərdə Giyen, Normandiya, Anju və Flandriya üstündə İngiltərə ilə Fransa arasında baş vermişdir. İngiltərə kralı III Eduardın (Fransa kralı IV Gözəl Filippin nəvəsi) Fransa taxt-tacına iddia etməsi Yüzillik müharibə üçün bəhanə oldu. "Sipər pulu" sayəsində əla təşkil edilmiş və peşəkar şəkil almış ingilis qoşunları fransız rıtsarlarından daha üstün idilər. İngilislərin çoxsaylı piyadaları azad kəndlilərdən təşkil olunmuşdu. İngilis piyada oxçuları 600 addımlığa ox atır, 200 addımlıqdan isə rıtsar zirehli geyimini vurub tam deşə bilirdilər. İngilis qoşunları Sleys (1340), Kresi (1346), Puatye (1356) yaxınlığında qələbə çaldılar, sonuncu döyüşdə isə Fransa kralını əsir götürdülər. 1360-cı ildə Bretinyidə bağlanmış müqaviləyə əsasən, Fransa ərazisinin xeyli hissəsi İngiltərənin əlinə keçdi. XIV əsrin 70-ci illərində ingilislər Fransadan, demək olar ki, tamamilə qovuldular. Lakin Azenkur (1415) yaxınlığındakı qələbədən sonra ingilislər burqundlarla birlikdə Fransanın şimalını tutdular. 1429-cu ildə Fransa qoşunları Janna d'Arkın başçılığı ilə Orleanı mühasirədən azad etdilər. Janna d'Ark Fransa kralı vəliəhdinin Reymsdə tac qoymasına nail odlu. Az sonra Janna d'Ark əsir düşdü, amma artıq təşəbbüs fransızların əlinə keçmişdi. Yüzillik müharibə Bordoda ingilislərin təslim olması ilə (1453) başa çatdı. Fransa ərazisində İngiltərə yalnız Kale limanını (1558-ci ilə kimi) öz əlində saxlaya bilmişdi.

## - Z -

**zadəganlar, zadəganlıq** - feodal dövlətlərdə ali, imtiyazlı silklərdən (ruhanilərlə bərabər) biri. Onların siyasi qüdrətinin əsasını təhkimli kəndlilərin işlədildiyi torpaq mülkiyyəti təşkil edirdi.

**zahid** - tərki-dünya, dünyəvi həyatdan könüllü imtina edib, adamsız yerlərdə, təklikdə, səhra yerlərdə məskunlaşan insan. Təklikdə dərvişlik həyatı sürən (hər şeydən imtina edən) zahid Allahla mənəvi birliyə qovuşmağa çalışırdı.

**Zakir Qasım bəy** (1784 - 1857) - Azərbaycan şairi, Şuşada yoxsullaşmış zadəgan ailəsində doğulmuşdur. Zakirin ədəbi irsi müxtəlif janrlarda və mövzularda yazılmış şer və təmsillərdən ibarətdir. Şairin bir çox əsərləri onun sağlığında işıq üzü görməmişdir. Onun siyasi satirasının hədəfi xalqı qarət edən çar



downloaded from KitabYurdu.org

məmurları, tamahkar tacirlər və din xadimləridir. Onun mövzu genişliyi və dilinin xəlqiliyi ilə seçilən şerləri indi də xalq arasında böyük populyarlığa malikdir.

**Zaqafqaziya komissarlığı** - 1917-ci il noyabrın 15-də Tiflisdə yaradılmış Zaqafqaziya hökuməti. Rusiyada Oktyabr çevrilişindən və Müəssislər Məclisinin çağırılmasından sonra bölgəni anarxiyadan xilas etmək məqsədilə Gürcüstan Sosial-Demokrat (menşeviklər) Partiyasının, "Müsavat"ın, "Daşnaksütyun "un və eserlərin nümayəndələri Rusiyanın bolşevik hökumətinin hakimiyyətini tanımaqdan imtina etdilər və Zaqafqaziyanın müstəqil hökumətini - Zaqafqaziya komissarlığını yaratdılar. Zaqafqaziya komissarlığının tərkibinə Gürcüstandan Y.P.Gegeçkori (sədr), A.Çxenkeli, Azərbaycandan - Fətəli xan Xoyski, M.Y.Cəfərov, X.Məlikaslanov, Ermənistandan -T.Ter-Qazaryan, X.Karçiqyan, A.Ağacanyan, sağ eserlərdən isə D.Donskoy və b. daxil oldular. Zaqafqaziyada yalmz Baksovetin hakimiyyəti altında olan Bakı Zaqafqaziya komissarlığına tabe deyildi. 1917-ci il dekabrın 5-də Zaqafqaziya komissarlığı Ərzincanda Osmanlı imperiyası ilə separat barışıq imzaladı. 1917-ci il dekabrın 17-də Türkiyə komandanlığı Zaqafqaziya komissarlığına separat sülh müqaviləsini imzalamaq haqqında danışıqlara başlamağı təklif etdi. Ərzincan barışığına əsasən, 1917-ci ilin sonları - 1918-ci ilin əvvəllərində tərxis olunan çar ordusunun silah, sursat və paltarının xeyli hissəsi gürcü, erməni və bolşevik hərbi birliklərinin əlinə keçdi. Zaqafqaziya komissarlığının Azərbaycan fraksiyası silahın bərabər bölüşdürülməsini tələb etdi. Zaqafqaziya komissarlığının tərxis olunan alaylardan birinin silahının azərbaycanlıların sərəncamına verilməsi haqqında fərmanına uyğun olaraq 1918-ci ilin yanvarında Şamxorda həmin tədbir həyata keçirildi. Tərk-silah prosesində toqquşma baş verdi, hər iki tərəfdən ölən və yaralananlar oldu. Şaumyanın başçılığı ilə Bakı Soveti "əksinqilabçı" azərbaycanlılarla mübarizəni gücləndirmək və azərbaycanlılara qarşı "mart qırğını"nı təşkil etmək üçün bundan bəhanə kimi istifadə elədi. 1918-ci ilin fevralında Zaqafqaziya komissarlığı Zaqafqaziya Seymi ilə əvəz olundu.

**Zaqafqaziya Seymi** - 1918-ci il fevralın 28-də Zaqafqaziya komissarlığı Zaqafqaziya Seymi ilə əvəz olundu. Zaqafqaziya Seymi iqamətgahı Tiflisdə olan bölgə parlamenli idi. Zaqafqaziya Seymi Y.P.Gegeçkorinin başçılığı ilə hökumət təşkil etdi. Zaqafqaziya Seymi hökumətinin Osmanlı imperiyası ilə separat danışıqlara hazırlaşdığı dövrdə Rusiya imperiyası ilə Almaniya arasında Brest separat sülh müqaviləsi imzalandı. Müqavilənin şərtlərinə görə, Ərdəhan, Qars və Batum Osmanlı imperiyasına verilirdi. Zaqafqaziya Seymi Brest sülhünü tanımadı, lakin Brest sülhünün şərtlərinə əsaslanan Türkiyə Ərdəhan, Qars və Batumu təxirə salınmadan boşaltmaq haqqında Zaqafqaziya Seyminə ultimatum verdi. Trabzonda 1918-ci il martın 14-də başlanmış danışıqlar zamanı türk qoşunları Ərdəhan, Qars və Batumu tutdular. Bununla yanaşı, Bakıda mart qırğınından sonra Bakı Sovetinin qoşunları aprelin 14-də Lənkəranı, aprelin 19-da Şamaxını, aprelin 21-də Salyanı, aprelin 23-də Qubanı ələ keçirdi və buradakı azərbaycanlı əhalisinə qanlı divan



downloaded from KitabYurdu.org

tutdu. Müsəlman fraksiyasının təzyiqi ilə Zaqafqaziya Seyminin 1918-ci il aprelin 22-də keçirilən geniş yığıncağında müstəqil Zaqafqaziya Demokratik Federativ Respublikasının elan edilməsi haqqında qətnamə qəbul olundu. Elə həmin iclasda Gegeckori istefaya çıxdı və A.İ.Çxenkelinin başçılığı ilə yeni hökumət təşkil olundu. 1918-ci ilin aprelində general Şıxlinskinin komandanlığı ilə "Əlahiddə Azərbaycan korpusu"nun təşkilinə başlanıldı. Korpusun əsasını çar ordusunda "vəhşi diviziya" kimi tanınan tatar alayı təşkil edirdi. 1918-ci il mayın 11-də Batumda Zaqafqaziya Seymi ilə Türkiyə arasında danışıqlar bərpa edildi. Zaqafqaziya Seymi Türkiyənin Qars, Ərdəhan və Batum vilayətlərinə olan tam hakimiyyətini tanımaq məcburiyyətində qaldı. Danışıqlar zamanı alman generalı fon Kressin təzyiqi ilə Zaqafqaziya Seyminin gürcü fraksiyası Zaqafqaziya Respublikası tərkibindən çıxmaq və Gürcüstanı müstəqil elan etmək qərarına gəldi. 1918-ci il mayın 26-da Zaqafqaziya Seyminin son iclası oldu və Zaqafqaziya Respublikasının dağılması faktını bəyan etdi. Bundan az sonra Azərbaycan Demokratik Respublikasının (ADR) yaradılması elan olundu.

**Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası** (ZSFSR) - Azərbaycan SSR, Ermənistan SSR və Gürcüstan SSR-dən ibarət dövlət qurumu (1922 - 36). ZSFSR-i yaradarkən bolşeviklər əsasən Cənubi Qafqaz respublikalarında milli xüsusiyyətləri maksimum dərəcədə azaltmaq və bununla da onları Moskvadan asılı vəziyyətdə saxlamaq məqsədi güdürdülər. 1922-ci il martın 12-də Azərbaycan, Ermənistan və Gürcüstanın kommunist partiyaları nümayəndələrinin konfransı RK(b)P Qafqaz bürosunun hazırladığı ittifaq müqaviləsinin mətnini təsdiq etdi. İttifaq Soveti və Ali İqtisadi Şura yaradıldı. Zaqafqaziya sovetlərinin Bakıda 1922-ci il dekabrın 10-da keçirilən I qurultayında Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının (ZSFSR) yaradılması elan edildi, ZSFSR-in konstitusiyası qəbul olundu və Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi (ZaqMİK) seçildi. Formal olaraq ZSFSR RSFSR, Ukrayna SSR və Belorusiya SSR ilə birlikdə SSRİ-nin təsisçilərindən biri sayılırdı. 1931-ci ildə Q.Musabəyov Zaqafqaziya Federasiyası Xalq Komissarları Sovetinin sədri oldu. 1936-cı il dekabrın 5-də qəbul olunmuş SSRİ Konstitusiyasına görə, ZSFSR ləğv edildi və Zaqafqaziya müttəfiq respublikaları, o cümlədən Azərbaycan SSR birbaşa SSRİ-nin tərkibinə daxil oldu.

**Zaqatala üsyanı** (1863) - üsyanın səbəbləri Zaqatala (keçmiş Car-Balakən) dairəsində sosial münasibətlərin mürəkkəbliyi, çarizmin sərt müstəmləkəçilik siyasəti, əhalinin zorla xristianlaşdırılması və camaatın yuxarı təbəqələrinin marağına toxunan feodal asılı münasibətlərinin gələcəkdə ləğv edilməsi idi. 1863-cü ilin iyununda başlayan üsyana yerli əhali arasında böyük nüfüza malik olan çar ordusunun keçmiş zabiti Hacı Murtuz rəhbərlik edirdi. 1863-cü il iyunun 5-də üsyançıların düşərgəsində Hacı Murtuz imam elan edildi. İyunun 5-dən 6-na keçən gecə üsyançılar Zaqatala qalasına uğursuz hücuma başladılar. Tezliklə üsyan amansızcasına yatırıldı. Çar məhkəməsinin hökmü ilə 18 üsyançı asıldı, mindən



downloaded from KitabYurdu.org

artıq adam katorqaya sürgün edildi, onların evləri uçuruldu, torpaqları müsadirə edildi.

**Zama** - Şimali Afrikada Karfagen şəhərindən 120 km cənub-şərqdə şəhər. E.ə. 202-ci il oktyabrın 19-da Zama şəhəri yaxınlığında Afrikalı Ssipionun başçılıq etdiyi Roma legionları ilə Hannibalın başçılıq etdiyi Karfagen qoşunları arasında döyüş olmuşdur. Numidiya hökmdarı Masinissanın romalılar tərəfinə keçməsi və Roma süvarilərinin sayca üstünlüyü (2 min nəfərə qarşı 6 min) Zama yaxınlığındakı döyüşdə həlledici rol oynamışdır. Süvarilərin karfagenlilərə arxadan zərbə endirmələri nəticəsində onların qoşunları darmadağın edildi. Zama yaxınlığındakı döyüş 2-ci Pun müharibəsinin taleyini birdəfəlik romalıların xeyrinə həll etdi.

**Zaratuştra** (yun. Zoroastr) - Spitamanın nəslindən olan peyğəmbər; yeni dinin zoroastrizmin (zərdüştiliyin) banisi idi. Güman edilir ki, Avestanın ən qədim hissələrindən olan Qathaların tərtibçisi Zaratuştranın özü olmuşdur. Zaratuştranın yaşadığı dövr və yer indiyədək tarixçilər arasında mübahisə mövzusu olaraq qalır. Tarixçilərin çoxu bu fikirlə razılaşır ki, Zaratuştra e.ə. 1000 - 600-cü illər arasında yaşamışdır. Tarixçilərə görə, Zaratuştranın vətəni Mərkəzi Asiyada, İranın şərqində, ya da Cənubi Azərbaycanda olmuşdur. Zaratuştranın vətəninin Azərbaycanda lokallaşdırılmasının səbəbi onunla izah olunur ki, erkən orta əsrlərdə əsas zərdüşü ziyarətgahlarından olan Adurquşnasp od məbədi Cənubi Azərbaycan ərazisində yerləşən keçmiş Atropatenada idi. Burada çoxlu zərdüşti kahinləri - maqları olan bir çox başqa od məbədləri də var idi. Orta əsrlərdə Yaxın Şərqdə Zaratuştranı Zərdüşt adlandırırdılar.

**Zemstvo yığıncağı** - XVI əsrin ortaları -XVII əsrin sonlarında Rusiyada silklərin nümayəndələrindən ibarət təsisat. Müqəddəs kilsənin, Boyar Dumasının, "hökmdar sarayı"nın üzvlərindən, eləcə də seçkili və əyalət zadəganlarından və şəhərin yuxarı təbəqələrindən ibarət idi. Zemstvo yığıncağında xarici siyasət, maliyyə, vergi qoyulması və s. kimi mühüm dövlət əhəmiyyətli məsələlərə baxılırdı. Çar hakimiyyətinin möhkəmləndirilməsi ilə bağlı olaraq Zemstvo yığıncaqları getdikcə daha az, özü də yalnız hökumətin təşəbbüsü ilə çağırılmağa başlandı. Zevs - qədim yunan mifologiyası və dinində baş allah. Öz atasını - titan Kronosu devirən Zevsə allahların və insanların atası və çarı kimi etiqad edildi. İldırımsaçan Zevs ilk növbədə ildırımın və şimşəyin hesabına bütün səma hadisələrinə nəzarət edirdi. Sonralar həm də ictimai asayişin qoruyucusu hesab edildi. Olimp dağı Zevsin daimi yaşadığı yer sayılır. Qədim Romada Zevsə sitayiş yerli Yupiter allahına sitayişlə eyniləşdirilirdi.

**zəkat** - ehtiyacı olan müsəlmanların nəfinə alınan vergi. Zəkatı yalnız iş qabiliyyəti olan yaşlı kişilər əkinlərdən, üzümlüklərdən və xurma ağaclarından, mal-qaradan, qızıl və gümüşdən, əmtəədən verirdilər. Əkinçilik məhsullarının yığımı başa çatan zaman məhsulun $^{1}/_{10}$-i qədər, qalan mallardan isə təqvim ili ərzində onların $^{1}/_{40}$-i qədər zəkat alınırdı. Yoxsullar, kasıblar, zəkat yığanlar, təltifə



downloaded from KitabYurdu.org

layiq adamlar, imkansız borclular, evlərinə qayıtmağa vəsaiti olmayan gəlmələr zəkat almaq hüququna malik idilər. Kənd təsərrüfatı məhsullarından alınan zəkat çox vaxt "uşr" adlanırdı. Qızıl, gümüş, qiymətli daşlar, dəniz məhsulları və dəfinədən onların $^{1}/_{5}$-i qədər alınan zəkat adətən "xüms" adlanırdı və dövlət xəzinəsinə daxil olurdu. Buna görə də əksər hallarda zəkat deyəndə mal-qaradan, puldan və əmtəədən alınan vergi başa düşülürdü.

**Zərdabi Həsənbəy Məlikov** (1842 - 1907) - "Zərdabi" təxəllüsü ilə tanınan görkəmli Azərbaycan maarifçisi, pedaqoq, alim-bioloq; Zərdab kəndində doğulmuşdur. Orta təhsilini Şamaxı və Tiflisdə almışdır. Moskva Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Bakı məktəblərində təbiət tarixini tədris edən Zərdabi şagirdlərə cəsarətlə Darvin nəzəriyyəsini izah etmişdir. Zərdabi öz xalqının maariflənməsinin qızğın mübarizi idi. Maariflənmənin əsas vasitəsini Azərbaycan dilində qəzetin çıxarılmasında görürdü. 1875-ci ildə "Əkinçi" qəzetinin əsasını qoydu. Bu qəzet demokratik və maarifçi ideyaları təbliğ edir, kəndlilərə məsləhətlər verir, kəndli cəmiyyətləri yaratmağa çağırırdı. 1896 - 1907-ci illərdə "Kaspi" qəzetində əməkdaşlıq etmişdir. XX əsrin əvvəllərində Zərdabi "Türk mahnıları toplusu"nu nəşr etdirmişdir. Zərdabi astronomiya, biologiya, təbiətşünaslıq və kənd təsərrüfatına dair bir çox əsərlərin müəllifidir. Bakı Dumasının deputatı, onun təhsil komissiyasının üzvü olmuşdur.

**Zərdüşt** - Avesta peyğəmbəri Zaratuştranın (Zoroastrın) adının orta farsca ifadəsi.

**Zərdüştilər** - zərdüştiliyin davamçıları. Xalq arasında bəzən onları "atəşpərəstlər" adlandırırdılar, belə ki, onlar Ahura Mazdanın mücəssəməsi



saydıqları atəşə sitayiş edirdilər. Zərdüştilər Ahura Mazdanın şərəfinə od məbədləri tikirdilər. Qədimlərdə Mərkəzi Asiyada, Azərbaycanda və İranda çoxlu zərdüşti icmaları var idi. Azərbaycanda zərdüştiliyə etiqad kaspi və müklər tayfaları arasında yayılmışdı. Erkən orta əsrlərdə zərdüştiliyin əsas mərkəzlərindən biri Atropatena idi. Od məbədbri Qafqaz Albaniyasında da var idi və onların bəziləri dövrümüzədək qalmışdır. Yanan təbii qaz sızan Abşeron yarımadasında da zərdüştilər od məbədləri inşa edirdilər. Orta əsrlərdə zərdüştilik çoxlu od məbədləri və maqların olduğu Muğan ərazisində də yayılmışdı. Bu ərazilərin ərəblər tərəfindən fəth olunmasından və burada islamın yayılmasından sonra onlar hələ öz varlıqlarını itirməmişdilər. Lakin sonralar ərəblər zərdüştiləri sıxışdırmağa başladılar. Cənubi Azərbaycanda zərdüşti icması ən çoxu X əsrədək mövcud olmuşdur. Qazan xanın islahatlarından sonra Cənubi Azərbaycanda zərdüştilər haqqında mənbələrdə artıq daha heç bir məlumat verilmir. Müsəlmanlar tərəfindən təqib olunduqlarından zərdüştilərin bir qismi İrandan Hindistana köçmüş və orada "parslar" adı ilə



downloaded from KitabYurdu.org

tanınmışlar. Zərdüştilərin az bir qismi İran ərazisində qalmışdır, burada onlar "gebrlər" adı ilə tanınırlar.

**zərdüştilik** (zoroastrizm) - dualistik (ikili, yəni iki əsas allahın olduğunu qəbul edən) din; Zərdüşt (Zoroastr) tərəfindən Midiyanın şərqində və ya Mərkəzi Asiyada yaradılmışdır. Zərdüştiliyə görə, Ahura Mazda işıq, həyat və doğruluq mücəssəməsi olan xeyir allahı idi. O hələ dünya yaranmazdan əvvəl var idi və daim şər, qaranlıq və ölüm təcəssüm etdirən Anqra Manyu ilə mübarizə aparırdı. Xeyir allahları Ameşa Spenta, yazatlar və b. Ahura Mazdanın rəhbərliyi altında, şər allahları - Dayvlar (divlər) isə Anqra Manyunun rəhbərliyi altında idilər. Zərdüştilik təliminə görə, insan Ahura Mazda tərəfindən yaradılıb, amma öz düşüncə və hərəkətlərində müstəqildir, ona görə də şər qüvvə təsiri altına düşə bilər. "Xeyir düşüncəli", "xeyir sözlü" və "xeyir əməlli" mömin zərdüştinin vəzifəsi Anqra Manyu və onun köməkçiləri olan şər ruhlara qarşı mübarizə aparmaqdır. Axırda Xeyir Şər üzərində qələbə çalacaq və bununla da xeyirxahlıq bərqərar olacaq.



Yaranmasından az sonra zərdüştilik Midiyada, Farsda və digər İran və qeyri-iran ölkələrində yayıldı. E.ə. VII əsrdə dünyada ilk dəfə olaraq zərdüştilik Midiyada rəsm dövlət dini oldu. Ahura Mazdaya səcdə etmək üçün zərdüştilər onun mücəssəməsi sayılan od məbədləri inşa edirdilər. Maqlar zərdüştilik kahinləri idilər. Zərdüştilərin müqəddəs kitabı Avesta idi. Zərdüştilik yəhudilik, xristianlıq, buddizm və qədim yunan fəlsəfəsinin inkişafına böyük təsir göstərmişdir. Erkən orta əsrlərdə zərdüştiliyin əsas mərkəzlərindən biri Atropatena idi. Baş od məbədi Adurquşnasp buradaydı və orada çoxlu maq var idi. Dövlət dini kimi zərdüştiliyin formalaşması Sasanilərin dövründə başa çatdı. V əsrdə Sasani şahı II Yəzdigird Qafqaz Albaniyasında zərdüştiliyi zorla yaymaq məqsədi ilə ölkəyə 300 maq göndərib onlara əmr etmişdi ki, burada od məbədləri inşa etsinlər. Sasanilər dövləti ərəblər tərəfindən fəth edildikdən sonra zərdüştilik hələ xeyli müddət burada əhəmiyyətli rol oynamışdır.

**zikkurat** - Qədim Mesopotamiyada çiy kərpicdən hörülən, üçdən yeddiyə qədər pillləkən və maili keçidlər ilə birləşən yarusları olan ayin qülləsi. Hər yarusun öz rəngi var idi və allaha doğru gedən yolun simvolu hesab olunurdu. Zikkuratın üst meydançasında bayram mərasimlərinin keçirildiyi və kahinlərin ulduzları izlədiyi məbəd var idi.

**zimmilər** (ər. "əhl əl-zimmi" - "himayə olunmuş") - müsəlmanların hakimiyyətini qəbul edən, cizyə ödəyən və buna görə müsəlmanların himayədarlığını (xarici düşmənlərdən müdafiə, şəxsiyyətlərinin və əmlaklarının qorunması) qazanan başqa din nümayəndələri.

**ziyalılar** - cəmiyyətin əqli peşəkarlıqla, əsas etibarilə mürəkkəb, yaradıcı əməklə məşğul olan təbəqəsi.



downloaded from KitabYurdu.org

**ziyarət, zəvvarlıq** - ibadət məqsədi ilə müqəddəs yerlərə getmək. Zəvvarlıq lap qədim zamanlardan mövcuddur və indiyədək olan bir çox dinlərdə qəbul edilmişdir.

**Zoroastr** - Avesta peyğəmbəri Zaratuştranın (Zərdüştün) adının yunanca ifadəsi.

**Zubov** Valerian Aleksandroviç - Rusiya generalı. Zubov II Yekaterinanın məşuqlarından biri olmuşdur. Polşada üsyanı yatıran zaman qıçını itirmiş və əvəzində ona qızıl protez qoyulmuşdur. Ağa Məhəmməd xan Tiflisi tutandan sonra II Yekaterina başda Zubov olmaqla rus qoşunlarının 30 minlik korpusunun Azərbaycana yürüşünü təşkil edir. Xəzər dənizindəki Rusiya hərbi donanması da onun sərəncamına verilmişdi. Azərbaycan xanlıqlarına yürüş 1796-cı il aprelin 18-də başlandı. Rus qoşunlarının yürüşü xəbərini alan Ağa Məhəmməd xan Azərbaycanı tərk etdi. Qubalı Şeyxəli xanın müqavimət göstərməsinə baxmayaraq, mayın əvvəllərində rus qoşunları Dərbəndə daxil oldular. Şeyxəli xan yaxınları ilə birlikdə əsir götürülüb Zubovun yanına gətirildi və o, imperatriçənin adından əsirlərə əfv olunacaqlarını vəd etdi. Dərbəndin idarəsini Rusiyameylli mövqedə duran Fətəli xanın qızı və Şeyxəli xanın bacısı Pəricahan xanıma tapşıran Zubov rus qoşunlarını Qubaya tərəf yeritdi və iyunun 6-da onu tutdu. Müqavimət göstərməyin mənasızlığını görən bakılı Hüseynqulu xan iyunun 13-də Bakı qalasının açarlarını Zubova təqdim etdi. Şamaxıya tərəf hərəkət edən Zubov Şamaxı xanı Mustafaya məktub və hədiyyələr göndərdi və cavab aldı ki, xanın özü Zubovu qarşılamağa çıxacaq. Rus qoşunları Qurdbulaq yaylası yaxınlığında, sonra isə Pirsaatda düşərgə saldılar. Qarabağlı İbrahimxəlil xan öz nümayəndələrini hədiyyələrlə Zubovun düşərgəsinə göndərib Rusiyaya itaət etdiyini bildirdi. Lakin elə həmin zamanda İbrahimxəlil xan Zubova qarşı sui-qəsd təşkil etdi, amma qəsdin üstü açıldı. Əsirlikdən qaçan qubalı Şeyxəli xan da mübarizəni davam etdirdi. O, Rusiyaya qarşı koalisiya yaratdı və Quba xanlığındakı Alpan kəndi yaxınlığında 500 nəfərlik rus qoşun dəstəsini darmadağın etdi. Oktyabrın 21-də rus qoşunlarının bir dəstəsi Gəncə xanlığını zəbt etdi. Lakin II Yekaterinanın 1796-cı ilin noyabrında qəfil ölümü şəraiti tamamilə dəyişdirdi. Onun yerinə keçən oğlu imperator I Pavel rus qoşunlarının Azərbaycanın şimal xanlıqlarından çıxarılması haqqında əmr verdi. Rus qoşunlarının çıxarılması 1797-ci ilin yazında başa çatdı. Rus qoşunları Azərbaycandan çıxarılan kimi Ağa Məhəmməd şah yenidən buraya soxuldu.



downloaded from KitabYurdu.org

SATIŞ ÜÇÜN NƏZƏRDƏ TUTULMAYIB

**Rauf Məlikov**

**Nizami İbrahimov**

# MƏKTƏBLİNİN TARİX LÜĞƏTİ

**Elmi redaktor: tarix elmləri namizədi Elmar Məhərrəmov**

*Naşir - "Ayna Mətbu Evi", 095 370138, Bakı, Şərifzadə 1. Tel: 975031, 975174*

**Dizayn: Vüsal Əsgərov**

*Lisenziya AB N 022048, qeydiyyat N A-048 30.09.99. Çapa imzalanıb 27.01.2004.*

**Korrektor: Aqşin Məsimov**

*Format 70x100 1/16. Ç.v. 24; 368 səh. Tiraj 2000. Pulsuz*

İSBN 9952-23-013-3

© "Ayna Mətbu Evi", 2004

Kitabın bədii tərtibatında Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Tarix Muzeyi və Azərbaycan Respublikası Kinofotosənədlər Arxivinin materiallarından istifadə olunmuşdur.



downloaded from KitabYurdu.org